# KOMPAS

## Gənclərin iştirakı ilə insan hüquqlarının təhsili üzrə təlimat vəsaiti

**2-ci nəşr (düzəlişlərlə yenidən çap edilmişdir), 2015**

**Müəlliflər**
Patrisiya Brender
Laure De Vitte
Nazila Qanea
Ruyi Qomez
Elli Kin
Anastasiya Nikitina
Castina Pinkevikuite

**Redaktə**
Patrisiya Brender
Elli Kin
Vera Cuhas
Annet Şnayder

**Yekun redaktə və əlaqələndirmə**
Ruyi Qomez

**Rəsmlər**
Panço

**Məzmunla bağlı xüsusi əməkdaşlıq**
Yanina Arsenejeva, Eva Borbeli-Nagi, Karina Çupina, Hanna Kleyton, Annet Şhnayder, Gyorgyi Tot

**Kompasın ilk nəşrinin (2002) müəllifləri:**
Patrisiya Brender; Elli Kin; Ruyi Qomez; Mari-Laura Lemineur ; Barbara Oliveyra
Yana Ondrackova; Alessio Surian; Alyona Suslova

*Kompasla yanaşı Demokratik Vətəndaşlıq üzrə Direktorluğun Təhsil və Gənclik sektorları və Avropa Şurasının iştirakı ilə hazırlanmış demokratik vətəndaşlıq və insan hüquqları üzrə təhsil ilə bağlı bir neçə nəşr mövcuddur. Daha ətraflı məlumat üçün www.coe.int/compass saytına baxın.*

Bu vəsaitdə qeyd olunmuş fikirlərə görə müəlliflər məsuliyyət daşıyır və bu fikirlər Avropa Şurasının mövqeyini nümayiş etdirmir. Bu nəşrin müəlliflik hüququ Avropa Şurasına məxsusdur. Bu nəşrin heç bir hissəsi Avropa Şurasının Kommunikasiya Direktorluğunun Nəşr Şöbəsinin (publishing@coe.int) yazılı razılığı olmadan (bir nüsxəsi Budapeşt Avropa Gənclər Mərkəzinə göndərilməklə 1-3 Zivatar küçəsi, H-1024 Budapeşt, Macarıstan; e-mail: eycb.secretariat@coe.int) hər hansı elektron (CDRom, İnternet və s.) və ya mexaniki formada, o cümlədən surətini çıxarma, qeydə alma, məlumat saxlama və ya axtarış sistemi vasitəsi ilə kommersiya məqsədləri üçün köçürülə və ya istifadə edilə bilməz. Bu nəşrdəki materialların köçürülməsinə yalnız qeyri-kommersiya məqsədləri üçün və mənbəyi düzgün qeyd edildikdə icazə verilir. Panço rəsmləri rəssamın xüsusi mülkiyyət hüququndadır. Rəsmlərin köçürülməsi üçün birbaşa olaraq rəssamdan icazə alınmalıdır, bu rəsmlər yalnız təlimat vəsaitindəki məşğələlərdə istifadə olunduqda buna əməl edilməyə bilər.

Dizayn: Studio1

Rəsmlər: © “Pancho”

Şəkillər:
səh. 67: Avropa Şurası
səh. 170 © MTI (Nelson Mandela)
səh. 170 © David King Kolleksiyası (Evgeniya Ginzburg)
səh, 171 © MTI (Martin Lüter King)
səh. 171 © MTI (Mahatma Qandi)
səh. 172 © Gamma Press (Daw Aung San Suu Kyi)
səh. 172 © Tibet İnformasiya Şəbəkəsi (Ngawang Sandrol)

səh. 162,163 və 180-dəki rəsmlərin müəllifi - Cimmi Kazoya

© Avropa Şurası, Oktyabr 2012

İlk nəşr 2002
İkinci nəşr (tam dəyişdirilmiş və yenilənmiş) 2012
Yenidən çap olunub (dəyişikliklərlə birlikdə) 2015

ISBN 978-9952-476-88-0

Azərbaycanda çap olunub

“Kompas” Gənclərin iştirakı ilə insan hüquqlarının təhsili üzrə Təlimat Vəsaiti
Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə tərcümə və çap edilmişdir.
Tiraj: 500 ədəd

# *Avropa Şurasının Baş Katibi*

21-ci əsrin ən böyük çağırışlarından biri hamı üçün hüquqlarının hamı üçün olduğunu təmin etməkdir.

İnsan hüquqları ilə bağlı yeni çağırışlara cavab verilməsi Avropa Şurası qarşısında duran daimi məsələlərdəndir. Lakin insan hüquqları yalnız hüquqi proseslər yolu ilə təmin edilə bilməz.

Hamımız insan hüquqlarını başa düşdükdə, onlara əməl edib öz hərəkətlərimizdə tətbiq etdikdə insan hüquqlarına ən yaxşı şəkildə hörmət edilir, onlar qorunur və dəyərləndirilir.

Məhz buna görə, insan hüquqları üzrə təhsil – insan hüquqları üçün, haqqında və vasitəsilə tədris – insan hüquqları pozuntularının qarşısının alınması və demokratiyanın davamlı həyat formasına çevrilməsi üçün vacibdir. Bu, xüsusilə uşaqlar və gənclərə aiddir. İnsan hüquqları üzrə təhsil öz-özlüyündə Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 26-cı maddəsində qorunan bir hüquqdur. 2010-cu ildə Nazirlər Komitəsi tərəfindən qəbul edilmiş Demokratik Vətəndaşlıq və İnsan Hüquqları Təhsili Xartiyası üzv dövlətləri öz ərazisində hər bir şəxs üçün, qeyri-rəsmi təhsil də daxil olmaqla, təhsilin hər bir forması vasitəsilə demokratik vətəndaşlıq və insan hüquqları üzrə təhsil imkanını təmin etməyə çağırır. Burada, həmçinin, bu prosesdə qeyri-hökumət təşkilatları və gənclər təşkilatlarının əvəzolunmaz rolu da qeyd olunur.

Kompas gənclərin insan hüquqları təhsili üzrə fasilitatorların fəaliyyətinə dəstək olaraq ilk dəfə 2002-ci ildə nəşr olunmuşdur. 30-dan çox dildə mövcud olan Kompas Avropa və dünyanın digər regionlarındakı çoxsaylı gənclərin həyatına insan hüquqları üzrə təhsili gətirmişdir. Onun uşaqlar üçün olan versiyası Kompasito da eyni uğuru qazanmışdır.

Bu gün Avropada böyümək çətin və əziyyətli ola bilər. Bir çox gənc gələcəyə inamla deyil, qorxu və ehtiyatla baxır. Avropa Şurasının İnsan Hüquqları çərçivəsi gənclər siyasətini və gənclərin fəaliyyətini gənclərin hüquq və məsuliyyətlərini özündə birləşdirən etik və normativ əsaslarla təmin edir. Kompas tərəfindən irəli sürülən gənclərlə insan hüquqları təhsili praktikası gənclərin məsuliyyətli vətəndaş, insan hüquqları üzrə müdafiəçilər və maarifləndiricilər kimi səlahiyyətləndirilməsi nümunəsidir.

Mən inanıram ki, bu kitabın yeni nəşri insan hüquqları təhsili sahəsində çalışan şəxsləri onların bu vacib işlərində ruhlandıracaq və motivasiya edəcəkdir.



Torbjorn Yaqland

## Minnətdarlıq

*Təşəkkür, etiraf və təqdir sözləri şamil olunur:*

- Kompasın yenilənməsi üçün Rəy Qrupunun üzvlərinə, verdikləri töhfə, ideyalar və dəstəyə görə
- İnsan Hüquqları üzrə Təhsilin Məşvərət Qrupunun üzvləri (2009-2010)- Aleksandr Bogdanoviç, Anna Dobrovolskaya, Tierri Dufour, Karolin Gerbara, Georg Pirker, Annet Şnayder, Kostas Triantafillos və Sara Ufhielmə - verdikləri töhfə və qayğıya görə
- İnsan Hüquqları Təhsili üzrə Təkmilləşdirilmiş Kompas təlimlərinin (ACT-HRE) və Gənclərin İnsan Hüquqları Təhsili üzrə Təlimçilər üçün Təlim Kursunun 2009 və 2010-cu illərdə keçirilmiş təlimlərinin təlimçiləri və iştirakçılarına (bu kurslar onlar üçün öyrədici tapşırıq olmuşdur)
- “İnsan Hüquqları uğrunda Yaşamaq, Öyrənmək və Davranmaq” insan hüquqları üzrə təhsil forumunun iştirakçıları, xüsusilə Kompasın yenilənməsi ilə bağlı qrupda olan şəxslərə
- Marios Antoniou, Kazunari Fujii, Krista Meyer, Anna Rozanova, Zsuzsanna Rutai, Agata Stajer, Sara Ufhielm və Viltrud Veydingerə verdikləri töhfə, ideyaları və sərf etdikləri vaxta görə
- Culien Attuil, Regis Brillat, Devid Kupina, Sandrin Jousse, Bricit Napivocka, Yulia Pererva, Migel Silva, Dennis Van Der Veur, Agnes Von Maraviçə Avropa Şurasının fəaliyyəti ilə bağlı mətnlərin təqdim edilməsi və yenidən işlənməsinə görə
- Budapeşt və Strazburqdakı Avropa Gənclər Mərkəzlərinin Kompas tədris məsləhətçiləri Iris Bavidaman, Goran Buldioski, Florian Cescon, Menno Ettema, Jizel Evrard, Laszlo Földi, Mara Georgescu, Dariusz Grzemni, Sabine Klocker, Zara Lavchan, Nadin Lyamouri-Bajja, Marta Medlinska, Yael Ohana, Anca Ruxandra Pandea, Annet Şhnayder və Inge Stuerə, tənqidi fikirlər, səbir, dəstək və yaradıcılıqlarına görə
- Antje Rotmunda, Kompasın keyfiyyətinə və onu insan hüquqları barədə öyrənənlərin ana dilində əlçatan etmək üçün göstərdiyi dəstək və töhfəyə görə
- Avropa Şurasının Gənclər Şöbəsinin Təlimçilər Birliyinin üzvlərinə Kompasdan insan hüquqları üzrə tədris vəsaiti kimi istifadə etdikdən sonra bildirdikləri tənqidlərdəki səmimiyyətə görə
- Kompasın tərcüməsində iştirak edən tərcüməçilər və redaktorlara, təcrübələrini bölüşdüklərinə görə
- Əsasən, qeyri-ixtiyari şəkildə olmaqla, mündəricatın hazırlanmasında töhfəsi olan hər kəsə
- Raşel Applebaya, ingilis dilində mətnləri korrektə etdiyinə görə – inkişaf üçün həmişə imkan var!
- Zsuzsanna Molnara, daimi olaraq katibliklə bağlı köməyinə görə, həmçinin, həmkarlar Erzsebet Banki, Nina Kapur, Ceki Lubelli, Vincenza Quattron və Gabriella Tiszaya, kömək edən əlləri və ürəklərinə görə
- Kompasın Azərbaycan dilinə tərcüməsinə verdiyi töhfəyə görə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasına, “Poliqlot” elmi-texniki şirkətinə və keyfiyyət nəzarətinə görə ekspert Pərvanə Məmmədovaya

Biz mətn və işlərdə müəlliflərə istinad etmək və onları dəyərləndirmək üçün əlimizdən gələni etmişik. Hər hansı səhvlərə görə üzr istəyirik və növbəti nəşrdə onları düzəltməyə çalışacağıq.

# Mündəricat


**2012-ci il nəşri barədə ümumi məlumat** ....................................................10
(2015-ci il çapındakı dəyişikliklərlə birlikdə)

**1-ci Fəsil – İnsan Hüquqları üzrə təhsil və Kompas: ümumi məlumat**
1.1. İnsan Hüquqları üzrə təhsillin təqdimatı ....................................................16
1.2. Kompasda İnsan Hüquqları üzrə təhsilə yanaşmalar ....................................................29
1.3. Kompasdan İnsan Hüquqları üzrə təhsil üçün istifadə ....................................................45

**2-ci Fəsil – İnsan Hüquqları Təhsili üzrə praktiki məşğələlər və metodlar**
Məşğələlərin qısa məzmunu ....................................................72
Mövzular, xülasə və əlaqəli hüquqlar üzrə ümumi cədvəl ....................................................73
**İnsan hüquqları üzrə təhsil üçün 58 praktiki fəaliyyət və metod** ....................................................78
İnsan Hüquqları Təqvimi ....................................................338
Yeni başlayanlar ....................................................345
Nəzərdən keçirmə üçün tapşırıqlar ....................................................350

**3-cü Fəsil – İnsan Hüquqları uğrunda hərəkətə keçmək**
Bu Fəsil haqqında ....................................................357
3.1. İnsan Hüquqları üzrə təhsil və aktivizm ....................................................358
3.2. İnsan hüquqları uğrunda sadə fəaliyyət ....................................................362
3.3. Fəaliyyət planı hazırlamaq ....................................................370

**4-cü Fəsil – İnsan Hüquqlarını başa düşmək**
Ümumi məlumat ....................................................381
4.1. İnsan hüquqları nələrdir? ....................................................382
4.2. İnsan hüquqlarının inkişafı ....................................................395
4.3. İnsan hüquqlarının hüquqi müdafiəsi ....................................................401
4.4. İnsan Hüquqları Aktivizmi və QHT-lərin rolu ....................................................418
4.5. İnsan hüquqları ilə bağlı suallar və cavablar ....................................................424
4.6. Çətin suallar ....................................................427

**5-ci Fəsil – Qlobal İnsan Hüquqları Mövzuları üzrə Ümumi Məlumat**

1. Uşaqlar ....435
2. Vətəndaşlıq və İştirak ....436
3. Mədəniyyət və İdman....437
4. Demokratiya....438
5. Əlillik və Əlillərə qarşı Ayrı-seçkilik ....439
6. Ayrı-seçkilik və Dözümsüzlük ....440
7. Təhsil ....441
8. Ətraf mühit ....442
9. Gender ....443
10. Qloballaşma ....444
11. Sağlamlıq ....445
12. KİV ....446
13. Miqrasiya ....447
14. Sülh və Zorakılıq....448
15.Yoxsulluq ....449
16. Din və İnam ....450
17. Tarixi Yaddaş ....451
18. Müharibə və Terrorizm ....452
19. Əmək ....453

**Əlavələr**

**Beynəlxalq İnsan Hüquqları üzrə seçilmiş Vasitələr**

Əsas beynəlxalq insan hüquqları vasitələrinin ratifikasiya statusu ....457
Birləşmiş Millətlər Təşkilatı....458
Avropa Şurası....467
**İzahlı lüğət ....478**

# Kompasın yenilənmiş nəşrinə xoş gəlmişsiniz!




Kompas ilk dəfə 2002-ci ildə Avropa Şurasının Gənclər və İdman Direktorluğunun Gənclər üçün İnsan Hüquqları üzrə Təhsil Proqramı çərçivəsində nəşr edilmişdir. İnsan hüquqları üzrə təhsil – insan ləyaqəti üçün bərabərliyə köklənmiş təhsil proqramları və fəaliyyət – gənclər üçün demokratik vətəndaşlığın meyarının müəyyənləşdirilməsi və dünyada insan hüquqları mədəniyyətinin inkişafı üçün əvəzsiz dəyərə malik olduğundan bu proqram yaradılmışdır. Kompas gənclər məsələləri və qeyri-formal təhsillə məşğul olan bir çox insan üçün istinad vəsaitinə çevrilmişdir. Hal-hazırda o, ərəb və yapon dilindən tutmuş island və bask dilinə qədər 30-dan çox dildə mövcuddur. Bəzi ölkələrdə Kompas məktəblərdə insan hüquqları təhsilinin mənbələrindən birinə çevrilmişdir, bəzilərində isə onu məktəblərdə istifadə etmək mümkün deyil. Kompasın Avropa ölkələrindəki "səyahəti" əsasən insan hüquqları təhsilinin ziddiyyətli reallığını əks etdirir: o, burada həm təbliğ edilir, həm də onunla mübarizə aparılır, bəziləri tərəfindən təqdir olunur, bəziləri tərəfindən isə nifrət edilir.

Kompasın uğuru onun balaca davamçısı Kompasito – uşaqlar üçün insan hüquqları üzrə təlimat vəsaiti – tərəfindən davam etdirilir. Hər iki nəşr Avropa Şurasının Demokratik Vətəndaşlıq və İnsan Hüquqları Təhsili Xartiyasının icrasını dəstəkləyir.

Son 10 ildə İnsan Hüquqları üzrə Təhsil təcrübəsi gənclər məsələlərində insan hüquqlarına əsaslanan yanaşmanın tətbiq olunmasına və gənclər işi və gənclər siyasətində insan hüquqları təhsilinin əsas istiqamətə çevrilməsinə xidmət etmişdir.

İnsan Hüquqları uğrunda Yaşamaq, Öyrənmək və Davranmaq forumunun mesajı

Kompas və onun müxtəlif dillərdə nəşri insan hüquqları təhsilinin gənclərlə işə və bir çox məktəbdə kurrikuluma əlavə olunmasına şərait yaratmış bir vasitədir. Bir çox ölkələrdə insan hüquqları təhsili üzrə milli şəbəkələr yaradılmışdır və bu şəbəkələr Avropada daha çox uşaq və gənclər üçün insan hüquqları təhsilini reallığa çevirmək məqsədilə insan hüquqları təşkilatları və təhsil üzrə mütəxəssislərin gördüyü işi daha da qüvvətləndirmişdir. 2009-cu ildə Budapeştdə keçirilmiş "İnsan Hüquqları uğrunda Yaşamaq, Öyrənmək və Davranmaq" başlıqlı insan hüquqları üzrə təhsil forumu insan hüquqları təhsilinin bu gün üçün əhəmiyyətini vurğulamışdır.[1]

İnsan hüquqları yalnız hüquqi vasitələrlə qoruna və təbliğ edilə bilməz. İnsan hüquqları təhsili – insan hüquqları üçün, haqqında və vasitəsilə öyrənmək – insan hüquqlarının hər kəs tərəfindən başa düşülməsi, dəstəklənməsi və təbliğ edilməsi üçün vacibdir.

Kompas (gənclərlə insan hüquqları təhsili üzrə təlimat vəsaiti) vasitəsilə gənclər tərəfindən və gənclər üçün görülmüş işlər aydın şəkildə göstərir ki, Avropa Şurası insan hüquqları təhsilinin digər gənclər üçün reallığa çevrilməsi ilə bağlı gənclərin cəsarətlilik, qətiyyət və bacarığına güvənə bilər. [...] Gənclərlə iş və qeyri-formal təhsil təcrübəsi, o cümlədən formal və qeyri-formal təhsilin qarşılıqlı olaraq bir-birini tamamlaması hamı üçün həyata keçirilən insan hüquqları təhsili layihələrinin istifadəsinə təqdim olunmuşdur.

İnsan hüquqları üzrə təhsil üçün yalnız QHT və gənclər təşkilatları məsul ola bilməz. Həmçinin, bu, yalnız könüllülər vasitəsilə də həyata keçirilə bilməz. Dövlətlər insan hüquqları təhsilini həyata keçirməklə bağlı böyük məsuliyyət daşıyırlar. Bu, onlar tərəfindən formal və qeyri-formal təhsil sektorlarının rolunun öncədən məlum olduğu bir formada dəstəklənməli və müdafiə edilməlidir.

İnsan hüquqları üzrə təhsili tətbiq edənlər üçün Kompas insan hüquqları üzrə təhsilin sinoniminə çevrilmişdir. Lakin insan hüquqları üzrə təhsil Kompasın əhatə etdiyindən daha genişdir. Kompas insan hüquqları təhsilini təcrübədən keçirmək üçün yollar təklif edir, lakin istiqamət və metod seçimini fasilitatora və bu sahəni öyrənənlərin öhdəsinə buraxır.

*Kompas* insan hüququ deyil, insan hüququ təhsili isə insan hüququdur.

## *Kompasın* 21-ci əsrin ikinci onilliyi üçün də uyğun olmasını təmin etmək

Mövcudluğunun ilk on ilində Kompas insan hüquqları və insan hüquqları təhsilinin bir sıra inkişaf məsələləri və problemləri ilə qarşılaşmışdır. Bunlar arasında qloballaşma proseslərinin sürətlənməsi, terrorizmin artması və terrorizmlə qlobal müharibəyə cavab, qlobal maliyyə böhranı, insan tərəfindən törədilmiş iqlim dəyişikliyinin təsirləri, Gürcüstan, Ukrayna və bir sıra Ərəb ölkələrində inqilablar, İnternetin geniş yayılması, İraq və Əfqanıstanda müharibələr, Fukusimada sunami və nüvə fəlakəti və başqaları qeyd oluna bilər. Kompas bu dövrdə bir böhrandan digərinə istinad edirdi, lakin bəzi sahələrdə geridə qalırdı. Bununla əlaqədar, yenilənmiş və yenidən hazırlanmış versiya – 2012-ci il nəşri – çap edilmişdir.

Kompass öyrənənlər, tədrisçilər və fasilitatorlar üçün yol göstərir. Lakin onların hər biri insan hüquqlarını öyrənmək və onlara riayət etmək üçün öz yollarını seçməlidirlər.

Bizim əsas məqsədimiz Kompasın 2012-ci il nəşrini 21-ci əsrin ikinci onilliyinə uyğun etmək idi. Biz onlayn və oflayn istifadəçilərin qiymətləndirmələrini, həmçinin, “tarixin sürətlənməsini” nəzərə aldıq; 2002-ci ildə əhəmiyyətli olan hər şey 10 il sonra əhəmiyyətli deyildi və bir çox başqa məsələlər meydana çıxmışdı. Kompasın 2012-ci il nəşri daha əvvəl görülmüş işlərin inkişaf etdirilmiş forması, köhnə və yeninin qarışığı idi. Oxucular və insan hüquqlarını tətbiq edənlər aktual məsələləri özündə birləşdirən fəaliyyət və məlumatı hələ də burada tapırdı, mübahisəli mövzuların müzakirəsi burada aparılırdı, əsas fikir hələ də oxuculara cəmlənir və uyğun tədbirlərin görülməsi gözlənilirdi.

## Bu yeni çapda nə fərqlidir?

Bu 2015-ci il çapında 1-4-cü fəsillər 2012-ci il nəşrində olduğu kimidir. Yeganə fərq ondan ibarətdir ki, 5-ci Fəsildəki geniş məlumat bu çap versiyasında yoxdur. Bu o demək deyil ki, bu məlumat lazımsızdır; əksinə o çox vacibdir! 19 mövzu haqqında təfərrüatlı məlumat onlayn www.coe.int/compass ünvanında yerləşdirilmişdir və burada onu daim yeniləmək daha asandır. Bu 2015-ci il çapında 5-ci Fəslin daha qısa şəkildə məzmunu, məlumatın daimi əsasda yenilənməsi və mövzuya uyğun olması üçün oxucuların fikir bildirməsi ilə bağlı müraciət yerləşdirilmişdir.

Bizim əsas məqsədimiz Kompası 21-ci əsrin ikinci onilliyinə uyğun etmək idi.

Bizim niyyətimiz bu 2015-ci il çapının istifadəçilərin insan hüquqları təhsili üzrə kifayət qədər məlumatı əhatə edən və praktiki olacaq təlimat vəsaitinə olan ehtiyacını ödəməsidir. Avropa Şurasının vebsaytında məlumatın yerləşdirilməsi onun daimi olaraq yenilənməsinə şərait yaradacaq. Bununla yanaşı, biz 160 səhifəlik məlumatı çap etmədik və bununla, çəki olaraq daha yüngül, daha ucuz və kağıza qənaət etməklə ətraf mühitin qorunmasına kömək edən kitab hazırladıq.

Kompasın əsasında duran əsas dəyərlər və yanaşmalar eyni olaraq qalır. Kompas aşağıdakı kimi olmalıdır:

**Kifayət qədər:** İstifadəçilər gənclər üçün insan hüquqları təhsilinin araşdırılması və təqdim edilməsi üçün lazım olacaq hər şeyi burada tapacaqlar.

**İstifadə üçün hazır:** Təqdim olunan məşğələlər üçün əlavə mənbə axtarmaq və ya çox hazırlaşmaq lazım olmayacaq.

**Gənclərlə ayaqlaşan:** Məşğələlər və insan hüquqları məsələləri böyüklər və gənclərin problemləri və düşüncələrinə uyğundur.

**Praktiki və təcrübə yönümlü:** Bütün məşğələlər öyrəndiklərinizi yerinə yetirməyə kömək edəcək təklifləri özündə birləşdirir və bununla, iştirakçılar sadəcə dərketmə prosesi ilə kifayətlənmir.

Həm formal, həm də qeyri-formal təhsil üçün uyğundur: Məşğələlərin qeyri-formal təhsil imkanlarına uyğun şəkildə formalaşdırılmasına baxmayaraq, hər şey həmçinin məktəb otaqlarına da uyğunlaşdırıla bilər (məsələn, davamlılıqla bağlı).

**Uyğunlaşa bilən:** Bütün məşğələlər tətbiq olunduğu mühit, qrupa uyğunlaşdırıla bilər. Variantlar fasilitatora öz uyğunlaşdırmalarını aparmaq üçün kömək edir.

**Başlanğıc nöqtəsi:** Maraqlı olan fasilitator və müəllimlər insan hüquqları ilə bağlı daha çox öyrənmək və daha spesifik mövzuları dərindən araşdırmaq üçün bir çox təklif və mənbələrə rast gələcəklər.

**Ümumi və vahid:** Kompas insan hüquqları ilə bağlı hər bir mövzuda və hər cür bilik səviyyəsinə malik öyrənənlər üçün istifadə oluna bilər. Bu, dəyərləri, yanaşmaları, bacarıq və bilikləri vahid halda birləşdirən hərtərəfli və vahid tədris yanaşmasına əsaslanır.

## Başlayaq!

Kompas İnsan Hüquqları təhsili almaq istəyən, insan hüquqları ilə maraqlanan hər kəs üçün yazılmışdır. Kompasdan ilk dəfə istifadə edənlər bilməlidirlər ki, biz insan hüquqları və insan hüquqları təhsili ilə bağlı, həmçinin, işləmək üçün seçdiyimiz mövzularla bağlı ilkin biliklərlə əlaqədar heç bir mühakimə irəli sürməmişik. Həmçinin, insanların öyrətmək və öyrənmək üzrə əvvəlki təcrübələri ilə bağlı da fərziyyələrimiz yoxdur. Məşğələlərin necə aparılması və onların öyrənənlərin ehtiyacları və praktiki vəziyyətlərə necə uyğunlaşdırılması və inkişaf etdirilməsi ilə bağlı çox böyük dəstək təmin olunmuşdur. Müəllimlər üçün məsləhətlərdən ibarət xüsusi bölmə vardır. Bəziləri üçün "icra etmək" ilk baxışdan problemli görünə bilər, buna görə də, biz 3-cü Fəsildə bu anlayışdan geniş bəhs edir və onun tədris prosesindəki rolunu izah edirik.

Kompas insan hüquqları təhsili üçün məlumat, vasitələr və məsləhətlər mənbəyidir. Bu səbəbdən, o, müxtəlif yollarla istifadə oluna bilər və bunun üçün xüsusi bir başlanğıc nöqtəsi yoxdur. Lakin biz sizə məsləhət görürük ki, əvvəlki səhifələrdəki mündəricata göz gəzdirməklə başlayasınız, vəsaiti nəzərdən keçirərək onun ümumi strukturu və məzmunu ilə tanış olasınız. Bir çox insan ilkin olaraq məşğələlərlə maraqlanır. Bu, yaxşıdır, lakin biz məsləhət görərdik ki, hər hansı məşğələni yerinə yetirməzdən əvvəl, 1.3-cü fəsildəki "Kompasdan İnsan Hüquqları Təhsili üçün istifadə etmək" hissəsini oxuyasınız.

Ümid edirik ki, Kompasın bu 2015-ci il nəşrindən istifadə etməkdən zövq alacaqsınız. Sizə lazım olan məlumat və vasitələri bəxş etməyə müvəffəq olmuşuqsa, bizə məlumat verin və www.coe.int/compass ünvanında fikirlərinizi yerləşdirməklə inkişaf etməyimizə kömək olun.

## Sonluq şərhi

İnsan Hüquqları uğrunda Yaşamaq, Öyrənmək, Davranmaq forumunun iştirakçılarından mesaj, Gavan Titleyin hesabatı, Avropa Şurası 2010.

# 1-ci Fəsil

# İnsan Hüquqları üzrə Təhsil və Kompas: ümumi məlumat

# Bu fəsilin Mündəricatı


**1.İnsan hüquqları üzrə təhsilin təqdimatı ........................................ 16**

1.1 İnsan hüquqları nədir? ........................................ 16

1.2 İnsan hüquqları üzrə təhsilin xarakterizə edilməsi........................................ 17

1.3 İnsan hüquqları üzrə təhsil başlıca insan hüququdur........................................ 19

1.4 Birləşmiş Millətlər Təşkilatında insan hüquqları üzrə təhsil........................................ 20

1.5 Avropada insan hüquqları üzrə təhsil........................................ 21

1.6 Gənclər siyasəti və insan hüquqları üzrə təhsil........................................ 24

1.7 Gənclər üçün insan hüquqları üzrə təhsil........................................ 26

1.8 İnsan hüquqları mədəniyyətinə doğru........................................ 27

**2. *Kompas*da insan hüquqları üzrə təhsilə yanaşmalar........................................ 29**

2.1 İnsan hüquqları üzrə təhsil müxtəlif təhsil sistemlərində........................................ 30

2.2 Kompasda insan hüquqları üzrə təhsilin pedaqoji əsası ........................................ 32

2.3 İnsan hüquqları üzrə təhsil, proses və nəticə........................................ 35

2.4 İnsan hüquqları üzrə təhsil və digər təhsil sahələri........................................ 38

2.5 İnsan hüquqları təhsilinin gənclərlə işə daxil edilməsi ilə bağlı ən çox ünvanlanan suallar ... 43

**3. *Kompas*ın İnsan Hüquqları üzrə Təhsildə istifadəsi........................................ 45**

3.1 Kompasda olanlar........................................ 45

3.2 Fasilitatorluq ........................................ 46

3.3 İstifadəçilər üçün ümumi məsləhətlər........................................ 48

3.4 Məşğələlərin yerinə yetirilməsi üzrə ümumi məsləhətlər........................................ 51

3.5 Kompasın məşğələlərinin sizin ehtiyaclarınıza uyğunlaşdırılması........................................ 56

3.6 Müəllimlər üçün xüsusi qeydlər........................................ 59

3.7 Kompasın məşğələlərini əsaslandıran sadə metodlar........................................ 61

# 1. İnsan Hüquqları üzrə Təhsilin təqdimatı

"Cəmiyyətin hər bir fərdi və qurumu … bu hüquq və azadlıqlara hörməti təbliğ etmək məqsədilə öyrətmək və təhsil yolu ilə mübarizə aparmalıdır".

*Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin preambulası, 1948*

"Bu hüquq və azadlıqlara hörməti təbliğ etmək məqsədilə öyrətmək və təhsil" insan hüquqları üzrə təhsilin əsasıdır. Lakin insan hüquqları üzrə təhsilin nə olduğu və necə praktikadan keçirildiyi haqqında danışmazdan əvvəl insan hüquqları üzrə təhsilin məşğul olduğu bu "hüquq və azadlıqlar"ı aydınlaşdırmağa ehtiyac var. Bu səbəbdən, biz insan hüquqlarına qısa girişlə başlayırıq.

## 1.1 İnsan hüquqları nədir?

İnsanlar insan hüquqları haqqında heç vaxt öyrənməyiblərsə, onları necə müdafiə edə bilərlər?

Tarix boyunca hər bir cəmiyyət öz vətəndaşlarının hüquq və məsuliyyətlərini kodifikasiya etməklə sosial bərabərliyi təmin etmək üçün sistemlər inkişaf etdirmişdir. Nəhayət ki, 1948-ci ildə beynəlxalq ictimaiyyət bütün dövlətlər üçün məcburi olacaq hüquqlar toplusu ilə bağlı razılığa gəlmək üçün bir araya toplaşdı; bu toplu Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (ÜİHB) oldu. 1948-ci ildən bəri, 1950-ci ildə qəbul olunmuş Avropa İnsan Hüquqları Konvensiyası və 1990-cı ildə qəbul olunmuş Uşaq Hüquqları Konvensiyası da daxil olmaqla, insan hüquqları üzrə digər sənədlər imzalanmışdır.

İnsan hüquqları insanın sadə ehtiyaclarını əks etdirir; bu hüquqlar insanların onlar olmadan ləyaqətlə yaşaya bilməyəcəkləri əsas standartları müəyyən edir. İnsan hüquqları bərabərlik, ləyaqət, hörmət, azadlıq və ədalət haqqındadır. Ayrı-seçkiliyə məruz qalmamaq, yaşamaq hüququ, söz azadlığı, evlənmək hüququ və təhsil hüququ bu hüquqların nümunələrinə daxildir. (Əlavələr bölməsində ÜİHB-nin qısa məzmunu və tam mətni yerləşdirilmişdir).

İnsan hüquqları bütün şəxslər üçün bərabər, universal və daimidir. İnsan hüquqları universaldır, yəni onlar hər bir ölkədəki insanlar üçün eynidir. Onlar ayrılmaz, bölünməz və bir-birinə bağlıdır, bu, o deməkdir ki, onlar heç vaxt insanlardan alına bilməzlər; bütün hüquqlar eyni dərəcədə vacibdir və tamamlayıcıdır, məsələn, hökumətdə və azad seçkilərdə iştirak etmək hüququ söz azadlığından asılıdır.

İnsanlar insan hüquqlarından necə istifadə edə və onlara necə riayət edə bilərlər və ya onlar haqqında heç nə bilmirlərsə onlara necə riayət edə bilərlər? Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin (ÜİHB) preambulası və 26-cı maddəsində deyilir ki, hər kəsə "insan hüquqlarına və əsas azadlıqlarına hörməti gücləndirən" təhsil hüququ verilir. İnsan hüquqları təhsilinin məqsədi insan hüquqları mədəniyyətinə sahib bir dünya yaratmaqdır. Bu, hər kəsin hüquqlarına hörmət edildiyi və hüquqların özünə hörmət edildiyi bir mədəniyyətdir; insanların öz hüquqları və məsuliyyətlərini başa düşdükləri, insan hüquqları pozuntularını müəyyən etdiyi və digərlərinin hüquqlarının qorunması üçün tədbir gördüyü bir mədəniyyət. Bu, dil, adətlər, incəsənət və müəyyən yerlə əlaqədar bağlılıqları kimi insan hüquqlarının da fərdlərin həyatının bir parçası olduğu mədəniyyətdir.

# 1.2 İnsan hüquqları üzrə təhsilin xarakterizə edilməsi

1948-ci ildən etibarən insan hüquqları təhsili naminə kifayət qədər çox miqdarda və müxtəlif işlər görülmüşdür və hələ də görülür. İnsan hüquqları təhsilini həyata keçirməyin bir çox yolu var, çünki fərdlər dünyanı müxtəlif şəkidə görür, müəllimlər müxtəlif vəziyyətlərdə işləyir və müxtəlif təşkilatlar və dövlət orqanlarının müxtəlif qayğıları var; beləliklə, prinsiplər eyni olsa da, praktika dəyişə bilər. Tədris üsulları və məşğələlərin hansı müxtəlif formalarda həyata keçirildiyini anlamaq üçün müxtəlif "cəmiyyətlərin müxtəlif fərdləri və qurumlarının" rol və maraqlarını nəzərdən keçirməklə onların insan hüquqları üzrə təhsilə olan maraqlarının əsas aspektlərinin və həcminin qeyd olunan məsələlərdə necə əks olunduğunu görə bilərsiniz. 1993-cü ildə İnsan Hüquqları üzrə Dünya Konfransı insan hüquqları təhsilini "cəmiyyətlər arasında sabit və ahəngdar əlaqələrin təşviqi və əldə olunması və qarşılıqlı anlaşma, dözümlülük və sülhün təbliği üçün vacib" elan etdi. 1994-cü ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası BMT-nin İnsan Hüquqları Təhsili Onilliyini (1995-2004) elan etdi və bütün üzv dövlətləri "universal insan hüquqları mədəniyyətinin qurulmasına yönəlmiş məlumatların və təlimlərin yayılmasının" təşviqinə çağırdı. Nəticədə, hökumətlər, əsasən, dövlət təhsil proqramları vasitəsilə İnsan Hüquqları üzrə Təhsili təbliğ etmək üçün daha çox səy göstərdilər. Hökumətlər beynəlxalq əlaqələr, hüquq və qaydaların qorunması və cəmiyyətin ümumi fəaliyyəti barədə narahat olduqlarından İnsan Hüquqları üzrə Təhsilini sülh, demokratiya və sosial rifahın təmin olunması üçün bir vasitə kimi görməyə başlamışdılar. Avropa Şurasının məqsədi Avropa qitəsinin bütün ərazisində ortaq demokratik və hüquqi bir quruluş yaratmaq, insan hüquqları, demokratiya və qanunun aliliyi kimi əsas dəyərlərinin qorunmasını təmin etməkdir. Bu dəyərlərə diqqət edilməsi İnsan Hüquqları üzrə Təhsilin bütün təriflərində əks olunmuşdur. Məsələn, gənclərin yerli və regional səviyyədə qərarların qəbul olunması və həyata keçirilən fəaliyyətdə aktiv iştirakının təmin olunması ilə bağlı öhdəliyinə istinad edərək, Avropa Şurasının İnsan Hüquqları Təhsili üzrə Gənclər Proqramında İnsan Hüquqları üzrə Təhsilin tərifi belə verilir:

"... mədəniyyətlərarası təhsil, azlıqların iştirakı və səlahiyyətləri təşviq edən digər proqramlarla yanaşı təhsil sahəsində insan ləyaqəti[1] üzrə bərabərliyi təşviq edən təhsil proqramları və fəaliyyətləri".

İnsan ləyaqəti üzrə bərabərliyin təşviqinə yönəlmiş təhsil proqramları və fəaliyyətləri

Avropa Şurası Demokratik Vətəndaşlıq və İnsan Hüquqları Təhsili Xartiyası (2010)[2]

İnsan Hüquqları üzrə Təhsili tələbələri bilik, bacarıq və anlaşma ilə təmin etmək və onların münasibət və davranışlarını inkişaf etdirmək, insan hüquqlarının və əsas azadlıqlarının təşviqi və qorunması baxımdan tələbələrə cəmiyyətdə insan hüquqlarının universal mədəniyyətinin qurulması və qorunması üzrə səlahiyyət vermək məqsədi daşıyan təhsil, təlim, maarifləndirmə, məlumat, təcrübə və fəaliyyətlər kimi müəyyən edir.

İnsan Hüquqları üzrə Təhsilin digər tərifləri də mövcuddur. Məsələn, Beynəlxalq Amnistiya Təşkilatı ona belə tərif verir: İnsan Hüquqları üzrə Təhsil müştərək və interaktiv tədris çərçivəsində insanların öz hüquqları və digər insanların hüquqları barədə öyrəndikləri prosesdir.

İnsan Hüquqları Təhsili üzrə Asiya-Sakit Okean Regional Resurs Mərkəzi insan hüquqları və İnsan Hüquqları Təhsilinə cəlb olunmuş insanlar arasında münasibətə xüsusi olaraq belə istinad edir:

İnsan Hüquqları üzrə Təhsil ümumi cəmiyyətin öz təcrübələrini anlaması və öz həyatına nəzarəti ələ keçirməsinə şərait yaratmağa yönəlmiş, insan hüquqları bilikləri, dəyərləri və bacarıqlarından məzmun kimi istifadə etməklə məqsədli şəkildə hazırlanmış tədris məşğələlərini özündə birləşdirən iştirakçı bir prosesdir.

Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Təhsili üzrə Dünya Proqramı İnsan Hüquqları üzrə Təhsili aşağıdakı kimi təyin edir:

**“Universal insan hüquqları mədəniyyətinin qurulmasına** yönəlmiş təhsil, təlim və informasiya.”

İnsan hüquqlarının öyrənildiyi, yaşandığı və uğrunda “fəaliyyət göstərildiyi” mədəniyyət.

İnsan hüquqları sahəsində hərtərəfli təhsil yalnız insan hüquqları və onları qoruyan mexanizmlər haqqında bilik təmin etmir, həm də gündəlik həyatda insan hüquqlarını təşviq etmək, müdafiə etmək və tətbiq etmək üçün lazım olan bacarıqları verir. İnsan hüquqları təhsili cəmiyyətin bütün üzvləri üçün insan hüquqlarını təmin etməkdən ötrü lazım olan yanaşma və davranışları Ztəbliğ edir.

İnsan Hüquqlarının Öyrənilməsi üzrə Xalq Hərəkatı insan hüquqlarının öyrənilməsini insan hüquqları təhsilindən daha üstün tutur və ***insan hüquqlarına həyat tərzi olaraq*** xüsusi diqqət ayırır. Təhsilin əvəzinə öyrənməyin vurğulanması insan hüquqlarının araşdırılmasının fərdi proses olmasını və onları gündəlik həyata tətbiq etməyi nəzərdə tutur.

Cəmiyyətin digər qurumlarına QHT-lər və adətən zərərçəkmiş qrupları dəstəkləmək, ətraf mühiti qorumaq, hökumətlərə, biznes və müəssisələrə nəzarət etmək və sosial dəyişikliyi təşviq etmək üçün fəaliyyət göstərən yerli təşkilatlar aiddir. Hər bir QHT İnsan Hüquqları üzrə Təhsilə öz perspektivini gətirir. Belə ki, məsələn, Beynəlxalq Amnistiya Təşkilatı inanır ki, “insan hüquqları üzrə təhsil insan hüquqlarının pozulmasının əsasında duran səbəblərin həlli, insan hüquqlarının pozulmasının qarşısının alınması, ayrı-seçkiliklə mübarizə, bərabərliyin təşviq edilməsi və demokratik qərar qəbulu prosesində insanların iştirakının genişləndirilməsi üçün olduqca vacibdir”.3

İnsan hüquqları üzrə təhsil gender fərqliliyini əsas istiqamət kimi götürməli və mədəniyyətlərarası təhsil ölçüsünü özündə birləşdirməlidir.

2009-cu ilin oktyabr ayında Budapeştdə keçirilmiş İnsan Hüquqları üçün Yaşamaq, Öyrənmək və Davranmaq Gənclər ilə və Gənclər tərəfindən İnsan Hüquqları üzrə Təhsil Forumunda bu gün Avropadakı gənclərin vəziyyəti belə təqdim olundu: “təhlükəli ve qeyri-stabil, bir çox gənclərə cəmiyyətdə lazımi bir yer tutmaq üçün imkanların bərabərliyi faktorunu təhlükə altına alan [...] insan hüquqları, xüsusilə sosial hüquqlar və ayrı-seçkilikdən azad olmaq hüququ boş sözlər, daha pis halda isə yalan vədlər kimi səslənir. Ayrı-seçkilik və sosial təcridin davam etməsi qəbul edilə bilməz və dözülə bilməz”. Beləliklə, forum iştirakçıları razılığa gəldilər ki, “Gender fərqliliyi və gender bərabərliyi perspektivləri İnsan hüquqları üzrə təhsilin sistematik şəkildə əsas istiqaməti olmalıdır. Bundan əlavə, buraya mədəniyyətlərarası təhsil ölçüsü daxil olmalıdır; [...] Biz Avropa Şurasından insan hüquqları üzrə təhsil proqramları daxilində gender, etnik mənsubiyyət, din və ya inam, qabiliyyət məsələləri kimi azlıqların məsələlərinin həll edilməsini də əsas istiqamət kimi seçməyi gözləyirik”.

Hökumətlər və QHT-lər İnsan Hüquqları üzrə Təhsili arzuolunan hüquqlar və azadlıqlar formasında əldə ediləcək nəticə olaraq görürlər, lakin onlardan fərqli olaraq akademiklər dəyərlərə, prinsip və mənəvi seçimlərə diqqət yetirirlər. Betti Reardon İnsan Ləyaqəti üçün Tədris etmə (1995) kitabında bildirir ki, “İnsan hüquqları üzrə təhsil çərçivə, prinsiplər və standartlara əsaslanan sosial təhsildir [...] mənəvi seçimlər etmək üçün bacarıqları inkişaf etdirir, məsələlər üzrə prinsipial mövqelər tutur, bir sözlə, mənəvi və intellektual bütövlüyü inkişaf etdirir”.

Təlimçilər, fasilitatorlar, müəllimlər və gənclərlə birbaşa işləyən digər İnsan hüquqları üzrə təhsil işçiləri səlahiyyətlər və metodika baxımından düşünürlər.

Ümid edirik sizə aydındır ki, müxtəlif təşkilatlar, tədris müəssisələri və insan hüquqları üzrə təhsildə iştirak edənlər öz fəlsəfələri, məqsədləri, hədəf qrupları və ya üzvlüyə uyğun olaraq, müxtəlif təriflərdən istifadə edirlər. Lakin insan hüquqları üzrə təhsilə üç meyarın daxil olması ilə bağlı açıq-aşkar bir razılıq var:

Human rights education is about learning human rights

- İnsan hüquqlarını öyrənmək, insan hüquqları haqqında biliklər, onlar nədir və necə qorunur;
- İnsan hüquqları **vasitəsilə** öyrənmək, insan hüquqları təhsilinin təşkilinin məzmunu və üsulunun insan hüquqları dəyərləri ilə (məsələn, iştirak, düşüncə və ifadə azadlığı və s.) uyğunluq təşkil etməli olduğunu və insan hüquqları təhsilində öyrənmə prosesinin öyrənmə məzmunu qədər əhəmiyyətli olduğunu aşkar etmək;
- İnsan hüquqlarını öz gündəlik həyatlarında tətbiq etmək üçün tələbələrdə bacarıqlar, münasibətlər və dəyərləri inkişaf etdirmək, fərdi şəkildə və ya digərləri ilə birgə insan hüquqlarını təbliğ etmək və qorumaq məqsədilə tədbir görmək yolu ilə insan hüquqları **üçün** öyrənmək.

Buna görə də, İnsan Hüquqları üzrə Təhsili necə tədris etmək və insanların insan hüquqları mədəniyyəti daxilində öz rollarını ala bilməkdən ötrü lazımi bilik, bacarıq və davranışları əldə etmələri üçün onlara necə kömək etmək barədə düşündükdə görürük ki, biz insan hüquqları təhsilini “tədris edə” bilmərik, o, təcrübə vasitəsilə öyrənilməlidir. Beləliklə, insan hüquqları üzrə təhsil praktikada insan hüquqlarına məruz qalmaq ***vasitəsilə*** həyata keçirilir. Bu o, deməkdir ki, insan hüquqları üzrə təhsilin ***necə*** və ***harada*** həyata keçirilməsi insan hüquqları dəyərlərini (insan hüquqları ***daxilində*** öyrənmək) əks etdirməlidir; məzmun və məşğələlər elə olmalıdır ki, ləyaqət və bərabərlik praktikanın daxili hissəsi olsun.

*Kompas*da biz metod və məşğələlərin nə qədər maraqlı ola biləcəyindən asılı olmayaraq, insan hüquqlarına istinadın insan hüquqları barədə həqiqətin öyrənilməsinə töhfə verməsi göstərmək üçün xüsusi səy göstərmişik. Tədbirlər görmək üçün də müxtəlif təkliflər verilmişdir.

## 1.3 İnsan hüquqları üzrə təhsil başlıca insan hüququdur

İnsan hüquqları ona görə vacibdir ki, heç bir fərd təklikdə yaşaya bilməz və ədalətsizliklər  şəxsi, yerli və qlobal səviyyədə həyat keyfiyyətini aşağı salır.  Bizim Avropada etdiyimiz bir şey dünyanın başqa bir ucunda baş verən nəyəsə təsir edir. Məsələn, bizim geyindiyimiz paltarlar Asiyada uşaq əməyi nəticəsində ərsəyə gəlmiş ola bilər, həmçinin, Avropanın müstəmləkəçilik tarixi irsi İraq, Somali və Əfqanıstanda siyasi və dini iğtişaşlara təsir edir və onlar da bizim qapımızı döyən, sığınacaq axtaran insanları göndərir. Eynilə, Afrikada və Asiyada milyonlarla insan sənayeləşmiş dövlətlərin gördüyü işlər nəticəsində meydana çıxan iqlim dəyişikliyinin nəticələrinə məruz qaldıqları üçün evlərini tərk edirlər.

Lakin bu, yalnız dünyanın başqa bir yerində baş verən insan hüquqları pozuntusunun bizə təsir göstərməsi ilə əlaqədar deyil; digərlərinin qayğısına qalmaq vəzifəsi bütün mədəniyyətlərdə və dinlərdə əsas mənəvi dəyərdir. İnsan hüquqları pozuntusu hər yerdə baş verir, yalnız digər dövlətlərdə deyil, həmçinin öz ölkəmizdə, məhz buna görə də, insan hüquqları üzrə təhsil vacibdir.

Yalnız insan hüquqları haqqında tam məlumatımız olduqda, onları tam başa düşdükdə və onlara hörmət etdikdə biz insan hüquqlarının pozulmasından daha çox onlara hörmət edildiyi mədəniyyəti yaratmağa nail ola bilərik. Buna görə də, insan hüquqları üzrə təhsil getdikcə daha çox insan hüququ olaraq qəbul edilir.

İnsan hüquqları üzrə təhsil yalnızca mənəvi hüquq deyil, həmçinin beynəlxalq hüquqa əsasən qanuni hüquqdur. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 26-cı maddəsində deyilir ki, hər kəsin təhsil hüququ var və "Təhsil şəxsiyyətin tam inkişafı və insan hüquqları və azadlıqlarına hörmətin gücləndirilməsinə yönləndirilməlidir. Təhsil anlamanı, dözümlülüyü və xalqlar, irqi və ya dini qruplar arasında dostluğu təşviq etməli və Birləşmiş Millətlər Təşkilatının sülhün qorunub saxlanması istiqamətindəki fəaliyyətinə kömək etməlidir". Bununla yanaşı, Uşaq Hüquqları Konvensiyasının 28-ci maddəsində deyilir ki, "məktəb intizamı uşağın ləyaqətinə uyğun şəkildə gözlənilməlidir. Təhsil uşağın şəxsiyyəti, istedadı və bacarıqlarının inkişafı, insan hüquqları və əsas azadlıqlarına hörmət, azad cəmiyyətdə məsuliyyətli həyat, anlama, dözümlülük və bərabərlik, təbii mühitə hörmətin təşviq edilməsinə yönləndirilməlidir".

**İnsan hüquqları ruhlandırmadan daha böyük bir şeydir.**

İnsan hüquqları üzrə təhsil həmçinin siyasi tələbdir. İnsan hüquqları uğrunda Yaşamaq, Öyrənmək, Davranmaq Forumunun mesajında deyilir ki, "Avopa Şurasının fəaliyyətini yönləndirən dəyərlər bizim hamımız üçün universal dəyərlərdir və hər bir insanın haqqı olan ləyaqət üzərində cəmlənmişdir". Bundan irəli gələrək mesajda deyilir ki, insan hüquqları sadəcə ruhlandırma deyil: onlar həmçinin insanlar və dövlətlər arasındakı münasibətlərə, həm də insanlar və dövlətlərin öz aralarındakı münasibətlərə tətbiq olunan mənəvi və siyasi hökmdür.

# 1.4 Birləşmiş Millətlər Təşkilatında İnsan Hüquqları üzrə Təhsil

**2004-cü ildə insan hüquqları mədəniyyətinin təşviqi məqsədilə İnsan Hüquqları Təhsili üzrə Dünya Proqramı təsis olunmuşdur.**

Birləşmiş Millətlər Təşkilatı dünyada insan hüquqları üzrə təhsillə bağlı əvəzedilməz rola malikdir. 1993-cü ildə Vyanada keçirilən İnsan Hüquqları üzrə Dünya Konfransında insan hüquqlarının təşviqində insan hüquqları üzrə təhsilin, təlimlərin və ictimai informasiyanın önəmli rolu təsdiq olunmuşdur. 1994-cü ildə Baş Assembleya tərəfindən 1 yanvar 1995-ci il tarixindən 31 dekabr 2004-cü il tarixinə qədər olan dövrü əhatə edən Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Təhsili üzrə Onilliyi elan olunmuşdur.

Onilliyin qiymətləndirilməsi nəticəsində, 2004-cü ildə İnsan Hüquqları Təhsili üzrə Dünya Proqramı təsis olunmuşdur. Proqramın birinci mərhələsi ibtidai və orta məktəb sistemlərində insan hüquqları üzrə təhsilin təsis olunmasına yönləndirilmişdir. Bütün dövlətlər Dünya Proqramı və onun Fəaliyyət Planı çərçivəsində təşəbbüs göstərməyə çağrılırdı. İnsan Hüquqları Şurası qərara aldı ki, ikinci mərhələ (2010-2014) insan hüquqları üzrə təhsilin ali təhsildə tətbiqi və

insan hüquqları üzrə təlimlərin müəllimlər, dövlət qulluqçuları, hüquq mühafizə orqanları əməkdaşları və bütün hərbi personala tətbiqinə yönəlsin. Müvafiq olaraq, 2010-cu ilin sentyabrında Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığı tərəfindən hazırlanmış ikinci mərhələ üçün Fəaiyyət Planı qəbul olundu. Bu, həmçinin üzv ölkələri ibtidai və orta məktəblərdə insan hüquqları təhsilinin tətbiqinin davam etdirilməsinə sövq etdi.

Açıq Dünya Proqramı Hökumətlər və digər tərəflər arasında əməkdaşlıq üçün platforma, həmçinin, fəaliyyət üçün ümumi kollektiv çərçivə olaraq qalır.

2011-ci ilin dekabrında Baş Assambleya tərəfindən BMT İnsan Hüquqları üzrə Təhsil və Təlim Bəyannaməsi qəbul edildi. Bəyannamə insan hüquqları üzrə təhsilə həsr olunmuş ilk vasitə olduğundan inqilabi hesab olunur, buna görə də, insan hüquqları üzrə təhsilin vacibliyi barədə maarifləndirmə və təbliğat vasitəsi kimi çox dəyərlidir. Bəyannamədə bildirilir ki, "Hər kəsin insan hüquqları və əsas azadlıqları haqqında məlumata malik olmaq, axtarmaq və qəbul etmək hüququ var və hər kəs insan hüquqları üzrə təhsil və təlimə çıxış əldə etməlidir" və "İnsan hüquqları üzrə təhsil və təlim insan hüquqlarının universallığı, bölünməzliyi və bir-birindən asılılığı prinsiplərinə uyğun olaraq, hər kəs üçün insan hüquqları və əsas azadlıqlarına hörmət və onlara riayət edilməsinin təbliği üçün əhəmiyyətlidir".

**"cəmiyyətin hər bir fərdi və qurumu öyrətmək və təhsil vasitəsilə insan hüquqları və əsas azadlıqlarına hörmətin təbliğ edilməsi üçün çalışmalıdır"**

*BMT-nin İnsan Hüquqları üzrə Təhsil və Təlim Bəyannaməsinin preambulası*

Bəyannamə, həmçinin, insan hüquqları üçün, haqqında və vasitəsilə təhsili əhatə edən insan hüquqları üzrə təhsil və təlimin geniş izahını özündə birləşdirir.

Bəyannamə ölkələr üzərinə "insan hüquqları üzrə təhsil və təlimi təbliğ və təmin etmək" öhdəliyini qoyur (Maddə 7).

BMT sistemi çərçivəsində insan hüquqları üzrə təhsil İnsan Hüquqları Şurasının rəhbərliyi altında, Cenevrədə yerləşən BMT Ali Komissarlığının İnsan Hüquqları üzrə Ofisi tərəfindən əlaqələndirilir.

# 1.5 Avropada insan hüquqları üzrə təhsil

## *Avropa Şurası*

Avropa Şurasının üzv ölkələri üçün insan hüquqları iddialardan daha artıq olmalıdır:

insan hüquqları onların hüquqi çərçivəsinin bir hissəsi olduğundan gənclərin təhsilinin ayrılmaz hissəsi olmalıdır. Avropa xalqları 20-ci əsrin insan hüquqları üzrə ən vacib müraciətnaməsinə - 1948-ci il, 10 dekabr tarixində BMT Baş Assambleyası tərəfindən qəbul olunmuş İnsan Hüquqları üzrə Ümumdünya Bəyannaməsinə - çox böyük töhfə veriblər. Avropa Şurasına üzv olan bütün ölkələr üzərində hüquqi gücü olan Avropa İnsan Hüquqları Konvensiyasının prinsipləri BMT sənədindən götürülmüşdür və 2 il sonra qəbul olunmuşdur. Bizim bu gün tanıdığımız insan hüquqlarının mövcudluğu İkinci Dünya Müharibəsi dövründə Avropa və ondan kənarda baş verən böyük insan hüquqları pozuntuları sayəsində meydana çıxmışdır.

**İnsan hüquqları qarşısında öhdəlik, həmçinin, insan hüquqları təhsili qarşısında öhdəlikdir. İnsan hüquqları üzrə təhsilə qoyulan sərmayə hər kəsin gələcəyini təhlükəsiz edir; təhsildən nəyisə əsirgəmək uzunmüddətli itkilərə səbəb olur.**

*İnsan Hüquqları üçün Yaşamaq, Öyrənmək, Fəaliyyət göstərmək forumunun mesajı 2009*

1985-ci ildə Nazirlər Komitəsi Avropa Şurası ölkələrinə məktəblərdə insan hüquqlarının tədris olunması barədə R (85) 7 Tövsiyəsini çap etdi. Tövsiyə bütün gənclərin plüralist demokratiya şəraitində insan hüquqlarını öz həyatlarının bir hissəsi kimi öyrənməli olduğunu vurğulayır.

Tövsiyə Avropa Şurasının İkinci Sammiti (1997) çərçivəsində üzv dövlətlərin Dövlət və Hökumət Başçıları "vətəndaşları demokratik cəmiyyətdə öz hüquqları və öhdəlikləri barədə məlumatlandırmaq məqsədilə demokratik vətəndaşlıq

üçün təhsil təşəbbüsü irəli sürməyi" qərara aldıqda yenidən qüvvəyə mindi. Demokratik Vətəndaşlıq üçün Təhsil layihəsi məktəb sistemlərində demokratik vətəndaşlıq və insan hüquqları üzrə təhsilin təşviqi və onlara dəstək göstərilməsində əsas rola malikdir.

İnsan Hüquqları Təhsili üzrə Gənclər Proqramının təsis olunması, Kompas və daha sonra Kompasitonun nəşri və tərcüməsi, xüsusilə qeyri-formal təhsil və gənclərlə iş vasitəsilə olmaqla, insan hüquqları üzrə təhsilin tanınmasına səbəb oldu.

**Üzv dövlətlər "öz ərazisi daxilindəki hər bir insanı demokratik vətəndaşlıq və insan hüquqları təhsili imkanı ilə təmin etməyi" qarşıya məqsəd qoymalıdır.**

*Avropa Şurasının Demokratik Vətəndaşlıq və insan Hüquqları Təhsili Xartiyası*

2010-cu ildə Nazirlər Komitəsi tərəfindən CM/Rec (2010) 7 Tövsiyəsi çərçivəsində Demokratik Vətəndaşlıq və İnsan Hüquqları Təhsili üzrə Avropa Şurası Xartiyası qəbul olundu. Xartiya üzv dövlətləri demokratik vətəndaşlıq və insan hüquqları üzrə təhsili məktəbəqədər təhsil, ibtidai və orta məktəb səviyyələrinə, ümumilikdə, peşə təhsili və təliminin kurrikulumuna əlavə edilməsinə çağırır. Xartiya, həmçinin üzv dövlətləri "demokratik vətəndaşlıq və insan hüquqları üzrə təhsildə, xüsusilə onun qeyri-formal formasında, qeyri-hökumət təşkilatlarının rolunun artırılmasına çağırır. Onlar QHT-ləri və onların fəaliyyətini təhsil sisteminin dəyərli bir hissəsi kimi qiymətləndirməli, ehtiyac olduğu sahələrdə onlara dəstəyi təmin etməli və təhsilin hər növünə verə biləcəkləri ekspert dəstəyindən tam istifadə etməlidirlər".

"Öz ərazisi daxilindəki hər bir insanı demokratik vətəndaşlıq və insan hüquqları təhsili imkanı ilə təmin etmək" dövlət siyasəti və xartiyaya uyğun olaraq, İnsan hüquqları üzrə təhsilin daxil olduğu qanunverciliyin məqsədi olmalıdır. Xartiyada insan hüquqları təhsili üçün məqsəd və prinsiplər müəyyənləşdirilmiş və monitorinq, qiymətləndirmə və tədqiqat üzrə fəaliyyət tövsiyə olunmuşdur. Xartiyaya məzmun və onun praktiki istifadəsi ilə bağlı nümunələri özündə birləşdirən izahedici memorandum əlavə olunmuşdur.

Avropa Şurasında insan hüquqları üzrə təhsilin insan hüquqlarının qorunması və təbliğində rolu 1999-cu ildə İnsan Hüquqları üzrə Komissar vəzifəsinin yaradılması ilə daha da qüvvətləndirildi. Komissara "insan hüquqları üzrə təhsil və maarifləndirmənin təşviqi", həmçinin, insan hüquqları standartlarının tətbiqi üzrə üzv dövlətlərə yardım, hüquq və praktikada mümkün çatışmazlıqların müəyyən olunması və bütün Avropa daxilində insan hüquqlarının qorunması üzrə məsləhət vermək səlahiyyətləri verilmişdir.

Mandatını icra etməklə Komissar insan hüquqları üzrə təhsilə xüsusi diqqət ayırır və hesab edir ki, insan hüquqları yalnız insanlar öz hüquqları haqqında məlumatlandırıldıqda və onlardan necə istifadə etməli olduqlarını öyrəndikdə qoruna bilər. Buna görə də, insan hüquqları üzrə təhsil Avropa standartlarının effektiv şəkildə yerinə yetirilməsində önəmli rol oynayır. Bir çox bəyanatlarda Komissar yerli hökumətləri insan hüquqları təhsilini qüvvətləndirməyə çağırır. Məktəb şagirdləri və gənclər, həmçinin, müəllimlər və dövlət rəsmiləri digərlərinə qarşı dözüm və hörmət dəyərlərini təşviq etmək üçün təhsil almalıdırlar. "İnsan hüquqları üzrə təhsil prioritetdir – daha konkret fəaliyyət lazımdır" başlıqlı məruzədə Komissar bildirir ki, "şagirdlərdə insan hüquqları dəyərlərini həyata keçirmək üçün vacib olan həyat bacarıqlarını inkişaf etdirməkdən daha çox onları əmək bazarına hazırlamağa diqqət ayrılmışdır". "Təhsil vasitəsilə insan hüquqları" və "təhsildə insan hüquqları" birlikdə mövcud olmalıdır.

Bu səbəbdən, Avropa Şurasında insan hüquqları üzrə təhsil hüququ çoxtərəfli və çoxsahəlidir. Avropa Şurası İnsan hüquqları təhsili üzrə fəaliyyəti YUNESKO, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı, ATƏT (Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı) və Avropa İttifaqının Əsas Hüquqlar üzrə Agentliyi ilə birgə həyata keçirilir və əlaqələndirilir.

Avropa Şurası həmçinin BMT-nin İnsan Hüquqları Təhsili üzrə Dünya Proqramının regional əlaqələndiricisi kimi fəaliyyət göstərmişdir.

### Avropa Vercland Mərkəzi

Avropa Vercland Mərkəzi Norveçin Oslo şəhərində yerləşən, Mədəniyyətlərarası Anlaşma, İnsan Hüquqları və Demokratik Vətəndaşlıq üzrə Təhsil sahəsində fəaliyyət göstərən Tədqiqat Mərkəzidir. Mərkəz 2008-ci ildə Norveç və Avropa Şurası arasında əməkdaşlıq layihəsi kimi təsis olunmuşdur. Əsas hədəf qrupları təhsil mütəxəssisləri, tədqiqatçılar, qərar qəbul edənlər və digər multiplikatorlardır.

**www.theewc.org**

Vercland Mərkəzinin fəaliyyətinə aşağıdakılar daxildir:

- müəllim təlimçilər, müəllimlər və digər tədris edən şəxslər üçün təlim
- tədqiqat və inkişaf fəaliyyətləri
- konfranslar və şəbəkə xidmətləri, həmçinin, onlayn mütəxəssis bazası
- informasiya, tədris materialları və təcrübələrin paylaşılması üçün elektron platforma.

## *Avropa İttifaqı*

2007-ci ildə Avropa İttifaqı ərazisində yaşayan insanların əsas hüquqlarının qorunmasını təmin etmək məqsədilə Avropa İttifaqının Əsas Hüquqlar üzrə Agentliyi (FHA) yaradılmışdır.

**www.fra.europa.eu**

Avstriyanın Vyana şəhərində yerləşən və Avropa İttifaqının müstəqil qurumu olan FHA Avropa İttifaqı və onun üzv dövlətlərinə əsas hüquqlar məsələləri üzrə İctimai hüququ həyata keçirdikdə yardım və ekspert dəstəyini təmin etmək məqsədilə yaradılmışdır. FHA-nın həmçinin İnsan Hüquqları üzrə Avropa Konvensiyasında və Avropa İttifaqının Əsas Hüquqlar üzrə Nizamnaməsində göstərilmiş insan hüquqlarını özündə birləşdirən əsas hüquqlar üzrə ictimaiyyətin məlumatlandırılmasını həyata keçirmək öhdəliyi var. Avropa İttifaqının gənclər proqramları illər ərzində bərabərlik, aktiv vətəndaşlıq və insan hüquqları təhsilinə xüsusi diqqət ayırmışdır. Gənclər və Erasmus proqramları çərçivəsində həyata keçirilən gənclər layihələrinin bir çoxu qeyri-formal təhsilə əsaslanır və gənclər üçün insan hüquqları və insan hüquqları üzrə təhsili ilə bağlı vacib imkanlar yaradır.

# 1.6 Gənclər siyasəti və insan hüquqları üzrə təhsil

Avropa Şurası uzun müddətdir ki, Avropa inkişaf prosesinə gəncləri cəlb edir və gənclər siyasətini öz fəaliyyətinin ayrılmaz bir hissəsi kimi görür. Gənc liderlər üçün ilk fəaliyyət 1967-ci ildə Avropa Gənclər Mərkəzi və 1972-ci ildə Avropa Gənclər Fondunun yaradılması ilə başlamışdır. Bundan sonra, Avropa Şurası və gənclər arasındakı münasibət müvafiq olaraq inkişaf etdi, gənclər və gənclər təşkilatları Şura və Avropa üçün əsas həlledici məqamlarda vacib iştirakçı və tərəfdaşa çevrildi. İstər keçmiş kommunist ölkələrinin demokratikləşmə prosesində, münaqişəli ərazilərdə sülhün bərqərar olması və münaqişə transformasiyasında, istərsə də irqçilik, anti-semitizm, ksenofobiya və dözümsüzlüklə mübarizədə gənclər və onların təşkilatları Avropa Şurasına arxalanmış və Şura da, öz növbəsində, onlara etibar etmişdir. Avropa qitəsində yumşaq və dərin təhlükəsizlik insan hüquqları üzrə təhsil və demokratik iştirakın töhfəsi olmadan əldə oluna bilməzdi.

Avropa Şurasının gənclər siyasətinin məqsədi “gənclərin, yəni qızlar və oğlanların, gənc qadın və kişilərin cəmiyyətin aspektlərində tam iştirakının təmin olunması məqsədilə lazım olan bilik, bacarıq və səriştəni inkişaf etdirmək üçün bərabər imkanlar və təcrübəni təmin etmək”dir6.

Gənclərin cəmiyyət həyatında tam iştirakına şərait yaratmaq məqsədilə bərabər imkanlar və təcrübənin təmin olunması.

Gənclərin, gənclər təşkilatlarının və gənclər siyasətinin insan hüquqları təhsili hüququnun təşviq olunmasında rolu həmçinin Avropa Şurasının gənclər siyasətinin prioritetlərində (onlardan biri İnsan Hüquqları və Demokratiyadır) qeyd olunmuşdur və aşağıdakılara xüsusi diqqət ayrılmışdır:

- insan hüquqları və insan ləyaqətinin gənclər üçün tam əlçatan olmasını təmin etmək və bununla bağlı, onları öhdəliyə sövq etmək
- gənclərin demokratik proseslər və strukturlarda aktiv iştirakını təmin etmək
- bütün gənclərin öz gündəlik həyatlarının bütün aspektlərində iştirakı üçün bərabər imkanlar təmin etmək
- gender bərabərliyinin effektiv şəkildə təmin olunması və gender əsaslı zorakılığın bütün formalarının qarşısının alınması
- ətraf mühit və davamlı inkişafla bağlı fəaliyyət və təhsil üzrə məlumatlandırılmanın təşviq edilməsi
- bütün gənclər üçün məlumat və məsləhət xidmətlərinin təmin edilməsinin asanlaşdırılması.

Digər iki tematik prioritetlər – Müxtəlif Cəmiyyətlərdə Birgə Yaşamaq və Gənclərin Sosial İnteqrasiyası – həmçinin insan hüquqları üzrə təhsil ilə əlaqəlidir.

Avropa Şurasının gənclər siyasəti uşaqlar və gənclər siyasətləri arasında sıx əməkdaşlığı nəzərdə tutur, belə ki, iki qrup, uşaqlar və gənclər, çox böyük dərəcədə bir-biri ilə uyğunlaşır.

2000-ci ildə, İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 50 illiyində, Gənclər və İdman Direktorluğu İnsan Hüquqları üzrə Gənclər Proqramını təsis etdi.

Proqram Avropa Şurasının gənclərlə iş və gənclər siyasətində İnsan Hüquqları üzrə təhsildən əsas istiqamət kimi istifadə edilməsini təmin etdi. Gənclər və gənclər təşkilatlarıproqram çərçivəsində insan hüquqları üzrə tədrisçilər və müdafiəçilər kimi başlıca rolda çıxış edir və Avropa Şurasının işinə önəmli töhfə verir.

www.coe.int/act4hre

Proqramın daha bir aspekti 2002-ci ildə Kompasın nəşri və onun 30-dan çox dilə tərcümə olunması oldu. Təlimçilər və multiplikatorlar üçün Avropa və milli təlim

kursları proqramı İnsan hüquqları üzrə təhsilin tədrisçiləri və müdafiəçiləri üçün gözlə görünən nəticələr yaradan formal və qeyri-formal şəbəkələrin mövcudluğuna gətirib çıxardı, lakin bu bir ölkədən digərinə tamamilə fərqlənir. İnsan Hüquqları Təhsili üzrə Gənclər Proqramının uğuru aşağıdakı faktorlar üzərində qurulmuşdur:

- Üzv ölkələrdə müəllimlər və gənclər üzrə işçilərin təlimçilərinin əsas regional və yerli səviyyədə təlim fəalliyətinə yerli təşkilatlar və qurumlarla əməkdaşlıq çərçivəsində verilmiş dəstək
- Avropa və yerli səviyyədə qeyri-formal təhsil yanaşmaları vasitəsilə insan hüquqları təhsilinin tədrisçiləri və təşkilatlarının formal və qeyri-formal şəbəkələrinin inkişafı
- Avropa Şurasının gənclər sektorunun ümumi fəaliyyət proqramındakı insan hüquqları təhsili üzrə yanaşmalar və metodların geniş yayılması
- İnsan hüquqları təhsili və qeyri-formal təhsil üçün İnsan Hüquqları Təhsili üzrə Kompas Təlimi vasitəsilə elektron təhsilin təqdim olunması kimi innovativ təlim və tədris yanaşmalarının və keyfiyyət standartlarının tətbiqi
- Müxtəliflik, İnsan Hüquqları və İştirak üzrə Hər kəs Fərqli - Hər kəs Bərabər Avropa gənclərinə yönəlmiş Proqram üçün təhsil yanaşmaları və resurslarının təmin olunması
- Mədəniyyətlərarası təhsil, stereotiplər və qərəzli fikirlərlə mübarizə üçün metodologiya kimi Canlı Kitabxananın tətbiqi
- Mədəniyyətlərarası dialoq faəliyyəti üçün siyasi və təhsil çərçivəsinin tətbiqi

Proqram, həmçinin Avropa Gənclər Fondu tərəfindən insan hüquqları təhsili üzrə pilot layihələrə dəstək yolu ilə bütün Avropadan minlərlə gənci bir araya topladı.

2009-cu ildə, Avropa Şurasının 60 illiyi münasibətilə, insan hüquqları təhsili üzrə gənclər forumu – İnsan Hüquqları üçün Öyrənmək, Yaşamaq, Fəaliyyət göstərmək – Budapeşt və Strazburqda 250-dən çox iştirakçını bir araya topladı. Forumun iştirakçıları Avropa Şurasının Nazirlər Komitəsinə mesaj ünvanladılar. Mesajda aşağıdakılar vasitəsilə insan hüquqları üzrə təhsili təmin etmək üçün Avropada əsas prinsip və ehtiyaclar vurğulanırdı:

- layihələr, dövlət və yerli səviyyədə tərəfdaşlar vasitəsilə Avropa, dövlət və yerli fəaliyyət səviyyələri arasında optimal əlaqənin qurulması yolu ilə artırılma və yenidən ötürmənin adekvat səviyyələrinin təmin olunması;
- milli insan hüquqları təhsili proqramlarının təsis olunması məqsədilə formal və qeyri - formal təhsil iştirakçıları ilə insan hüquqları qurumları arasında müttəfiqliyin yaradılması;
- hökumətdə gənc tərəfdaşların cəlb olunmasının daha da genişləndirilməsi istiqamətində çalışarkən qeyri-hökumət tərəfdaşlarının sayının artırılması;
- insan hüquqları təhsili üçün transmilli əməkdaşlıq və şəbəkələrin dəstəklənməsi;
- gənclərə təsir edəcək xüsusi insan hüquqları məsələləri üzrə (məs. şiddət və təcrid) məlumatlandırmanın genişləndirilməsi;
- gender məlumatlılığı perspektivi və mədəniyyətlərarası meyarı insan ləyaqətində bərabərlik anlayışına daxil etmək;
- insan hüquqları təhsili fəaliyyətini gənclər, gənclərlə iş, gənclər siyasəti və qeyri-formal təhsil ilə sıx əlaqələndirmək;
- insan hüquqları üzrə təhsilin uşaqlar və gənclərlə uyğunlaşan və tamamlayıcı xüsusiyyətini nəzərə almaq;
- insan hüquqları üzrə təhsili insan hüququ və onunla bağlı məlumatlandırma



kimi tanımaq və inkişaf etdirmək;

- insan hüquqları fəalları və tədrisçilərinin azadlığı və təhlükəsizliyinin qorunması məsələsini nəzərə almaq;
- gender, etnik mənsubiyyət, din və ya inam, bacarıq məsələləri də daxil olmaqla, azlıqların problemlərini əsas istiqamət etmək;
- gənclər və uşaqların təhsil proseslərində aktiv iştirakı və sahibliyinə dəstək olmaq;
- formal və qeyri-formal təhsil sahələrində insan hüquqları üzrə təhsilə dəstək və təşviqdə ölkələr və dövlət orqanlarının məsuliyyəti barədə məlumatlandırma aparmaq.

## 1.7 Gənclərlə insan hüquqları üzrə təhsil

Aydındır ki, gənclər insan hüquqları üzrə təhsillə maraqlanmalıdırlar, lakin reallıq odur ki, Avropada bir çox gənc insanın insan hüquqları üzrə təhsilə çıxışı yoxdur. Kompas bu reallığı dəyişmək üçün ərsəyə gətirilmişdir.

Gənclərlə insan hüquqları üzrə təhsil yalnız cəmiyyətə deyil, həmçinin gənclərin özlərinə fayda verir. Müasir cəmiyyətlərdə gənclər sosial təcrid, dini, etnik və milli fərqlər və qloballaşmanın müsbət və mənfi tərəfləri kimi proseslərlə üzləşirlər. İnsan hüquqları üzrə təhsil bu məsələlərə yönəlmişdir və insanlara yaşadıqları müasir çoxmədəniyyətli cəmiyyətlərin müxtəlif inamları, yanaşmaları, dəyərləri və aydın ziddiyyətlərini anlamağa yardım edir.

Avrobarometrin xüsusi “Avropa vətəndaşlarının ətraf mühitə qarşı yanaşmaları” adlı 2008- ci il mart hesabatında deyilir ki, avropalılar ətraf mühitin qorunmasına çox böyük diqqət ayırır və onlardan 96%-i bildirir ki, bu, onlar üçün çox və ya olduqca əhəmiyyətlidir. Gənclər onlara aid olan məsələlərə öz enerji və həvəslərini sərf etməyə xüsusilə çox meyllidirlər. Buna bir nümunə olaraq, 2009-cu ilin dekabr ayında Kopenhagendə 100,000 gəncin iqlim dəyişikliyi ilə mübarizə üçün nümayiş keçirməsini göstərmək olar. Onların ideyalar qaldırıb həmin ideyalar üzrə hərəkət edəcəkləri hal-hazırda gənclər üçün mövcud olan çoxsaylı proqramlarda (fərdi gənc klubları və məktəblərdə xüsusi əsasda həyata keçirilən kiçik miqyaslı tədbirlərdən Avropa Şurası və Avropa İttifaqı tərəfindən həyata keçirilən əsas beynəlxalq proqramlara qədər) özünü göstərir.

Avropada insan hüquqları üzrə təhsil almış gənclərin töhfələrinə bir misal kimi Azlıqların Hüquqları Qrupu üçün hazırlanmış ölkə hesabatlarını göstərmək olar. Hökumətlər, QHT-lər, jurnalist və alimlər tərəfindən istifadə olunan bu hesabatlar azlıqların problemlərinin təhlilini təklif edir, bu icmaların səslərini özündə birləşdirir və daha böyük addımlar atmaq üçün praktiki məsləhət və tövsiyələr verir. Bununla əlaqədar, insan hüquqları üzrə təhsil Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən heç bir hüquq pozuntusunun qəbul olunmaması ilə bağlı verilən aydın mesajlara tamamlayıcı iş olaraq görülə bilər. Lakin insan hüquqları üzrə təhsil daha

çox şey təklif edir: bu, ilk növbədə, həmin hüquq pozuntularının qarşısının alınması üçün müsbət yoldur, buna görə də, daha yaxşı fəaliyyət və daha effektiv qarşısı alınma və sanksiya mexanizmlərini təmin edir. Hörmət və bərabərlik dəyərləri, şəfqət və məsuliyyət yanaşmalarına sahib olmuş, əməkdaşlıq çərçivəsində işləmək və tənqidi düşünmək bacarıqlarını inkişaf etdirmiş insanlar, ilk növbədə, digər insanların hüquqlarını pozmağa ən az hazır olacaq insanlar olacaqlar. Gənclər, həmçinin, insan hüquqları təhsili proseslərinin tədrisçiləri və vasitəçiləri qismində çıxış edəcəklər. Buna görə də, gənclər insan hüquqları təhsili üzrə dövlət və yerli səviyyədə planların hazırlanmasına mühüm dəstək və mənbə hesab olunurlar.

# 1.8 İnsan hüquqları mədəniyyətinə doğru

"Bütün yollar Romaya aparır" öz məqsədinə çatmaq üçün bütün yolların labüd olduğu mənasını verən ifadədir. Bütün yollar Romaya apardığı kimi, insan hüquqları üzrə təhsili insanlara çatdırmaq üçün də bir çox müxtəlif yol var. Buna görə də, insan hüquqları üzrə təhsil ən yaxşı şəkildə qarşısına qoyduğu məqsədlər baxımından izah oluna bilər: insan hüquqlarının anlaşıldığı, müdafiə olunduğu və hörmət edildiyi mədəniyyətin yaradılması və ya 2009-cu il Gənclərlə İnsan Hüquqları üzrə Təhsil Forumunun iştirakçılarının sözlərinə istinad etməklə "insan hüquqlarının öyrənildiyi, yaşandığı və uğrunda fəaliyyət göstərildiyi bir mədəniyyət qurmaq".

**Sən bütün gülləri kəsə bilərsən, lakin yazın gəlişinin qarşısını ala bilməzsən.**

*Pablo Neruda*

İnsan hüquqları mədəniyyəti yalnızca hər kəsin öz hüquqlarının bildiyi bir mədəniyyət deyil, çünki bilik mütləq şəkildə hörmətə bərabər deyil və hörmət olmadan həmişə hüquq pozuntuları baş verir. Bəs insan hüquqları mədəniyyətini biz necə izah edirik və onun tərəfdarları hansı keyfiyyətlərə sahib olmalıdır? Bu vəsaitin müəllifləri bu suallar üzərində işləmişlər və bəzi (lakin qeyri-adi olmayan) cavablar formalaşdırmışlar. İnsan hüquqları mədəniyyəti elə bir mədəniyyətdir ki, insanlar:

- İnsan hüquqları və əsas azadlıqları barədə məlumata sahibdirlər və onlara hörmət edirlər
- Özünə hörmət  və digər insanlara qarşı hörmətə sahibdirlər; insan ləyaqətinə dəyər verirlər
- Digərlərinin hüquqlarına hörmət nümayiş etdirən yanaşma və davranışlara sahibdirlər
- Bütün sahələrdə həqiqi gender bərabərliyi nümayiş etdirirlər
- Mədəni fərqliliyə, xüsusilə müxtəlif milli, etnik, dini, dil və digər azlıqlar və icmalara qarşı hörmət, anlama və dəyər göstərirlər
- Səlahiyyətli və aktiv vətəndaşdırlar
- İnsanlar və xalqlar arasında demokratiya, sosial ədalət, icma ahəngi, həmrəylik və dostluğu təşviq edirlər
- İnsan hüquqları, beynəlxalq anlaşma, dözümlülük və qeyri-zorakılığın dünyəvi dəyərləri üzərində qurulmuş sülh mədəniyətinin yaradılmasını nəzərdə tutan beynəlxalq qurumların fəaliyyətinin davam etdirilməsində aktivdirlər
- Müxtəlif sosial, iqtisadi, tarixi və siyasi təcrübələr və reallıqlar səbəbindən

bu ideallar müxtəlif cəmiyyətlərdə müxtəlif ola bilər. Bu o deməkdir ki, insan hüquqları üzrə təhsilə də müxtəlif yanaşmalar ola bilər. İnsan hüquqları mədəniyyətini inkişaf etdirmək üçün ən yaxşı və ən uyğun yolun hansı olduğu barədə müxtəlif fikirlər ola bilər və bu belə də olmalıdır. Fərdlər, fərdlərdən ibarət qruplar, cəmiyyətlər və mədəniyyətlər müxtəlif başlanğıc nöqtələrə və problemlərə sahibdir. İnsan hüquqları mədəniyyəti bu fərqləri nəzərə almalı və onlara hörmətlə yanaşmalıdır.

# 2. Kompasda insan hüquqları üzrə təhsilə yanaşmalar

## İnsan Hüquqları üzrə Təhsili mədəniyyətlər və dillər arası ötürmək üçün Kompasdan istifadə

Kompasın birinci nəşrinin təcrübəsi göstərdi ki, bütün Avropa üçün bir təlimat vəsaitinin tərtib olunması mümkündür. Mədəniyyət və dil maneələr deyil, əksinə onlar bizim işimizi zənginləşdirir.

Hər kəs insan hüquqlarına istinad edə bilər, çünki bizim hər birimiz ləyaqət hissinə sahibik və öz hüquqlarımızın inkar edilməsi halında özümüzü alçaldılmış hiss edə bilərik. Bununla yanaşı, insan hüquqları universal olduğu və Ümumdünya İnsan Hüquqları Bəyannaməsi kimi beynəlxalq səviyyədə təsdiq olunmuş sənədlərə əsaslandığına görə, insan hüquqları üzrə təhsil təcrübəsini kontekstləşdirməyə həmişə ehtiyac olsa da, insan hüquqları üzrə təhsilin məqsəd və prinsipləri hər bir cəmiyyətə tətbiq edilə bilər.

Avropa öz-özlüyündə müxtəliflik dünyasıdır. Qitədə, ümumilikdə 200-dən çox dildə danışılır.

Avropanın sərhədləri boyunca bütün əsas dinlər yayılmışdır. Qitə demokratiyanın yaradılması, eyni zamanda, bütün dünyada tarix boyunca görülmüş ən pis faşizm və totalitarizm nümunələri ilə əlaqələndirilir. Avropanın keçmişində Holokost, müstəmləkəçilik və quldarlıq iz qoymuşdur və bu gün də Avropada dünyadakı bütün həyatı yer üzündən silə biləcək qədər nüvə silahları mövcuddur. Buna baxmayaraq, Avropa hər il Nobel Sülh mükafatı mərasiminə ev sahibliyi edir və bütün dünyadan müraciət olunan insan hüquqları üzrə daimi məhkəmə məhz burada təsis olunmuşdur.

Bu gün Avropanı 1949-cu ildə Avropa Şurası yaradılanda buraya daxil olmayan və yüz illər boyunca sərhədləri çox az dəyişən ölkələr formalaşdırır. Bəzi sərhədlər hələ bu gün də dəyişməyə davam edir, çünki münaqişələr qeyri-stabil sərhədlər təhlükəsini yaradır. Buna görə də, Avropada bəzi insanlar gündəlik həyatında zorakılıq və münaqişə, digərləri isə sülh, təhlükəsizlik və firavanlıq şəraitində yaşayır. Hər bir Avropa ölkəsində həm milyonerlər, həm də yoxsulluq səviyyəsindən aşağı səviyyədə yaşayan insanlar var. Hər bir ölkə daxilində və ölkələr arasında müxtəliflik mövcuddur. Avropanın bir hissəsində müəllim olduqda siz bir günə dünyanın başqa hissələrində həmkarlarınızın bir aya qazandığı məbləği qazana bilərsiniz.

**Valideynlər onlara [uşaqlara] yalnız yaxşı məsləhət verə və ya düzgün yol göstərə bilərlər, lakin insanın şəxsiyyətinin formalaşması onun öz əllərindədir.**

*Anna Frank*

Halbuki, Avropanın digər hissəsində müəllim olduqda ümumiyyətlə bir ay boyunca heç bir maaş almaya bilərsiniz. Bəs onların şagirdləri necə? İcbari təhsil Kipr və İsveçrədə 9 ildən, Belçika və Niderlandda 13 ilə qədər dəyişir. Şagirdlər məktəbləri bitirdikdə işə düzəlmə şansları da ölkədən ölkəyə görə dəyişir. Gənclərin sosial hüquqları əldə etmələri və müstəqil olmaları imkanları da çox müxtəlifdir. Gənclərin işsizlik səviyyəsi, Avrostat statistikasına uyğun olaraq, Niderlandda 7.6 %-dən, İspaniyada 44.5 %-ə və ya Latviyada 43.8 %-ə qədər dəyişir.

İnsan Hüquqları Təhsili üzrə sosial, mədəni və siyasi quruluşlar da cəmiyyətlər və dövlətlərə görə dəyişir; lakin yanaşma, məzmun və metod üzrə təfərrüatlar dəyişsə də, prinsip və məqsədlər dəyişməz olaraq qalır.

# 2.1 İnsan Hüquqları üzrə Təhsil müxtəlif Təhsil Sistemlərində

Kompasın ilk nəşri ilə bağlı təcrübə göstərdi ki, Kompas yalnız gənclər klubları, gənclər təşkilatları və QHT-lərdə deyil, həmçinin, məktəblər, bizneslər, hətta dövlət təhsil idarələri tərəfindən də istifadə olunur. Başqa sözlə desək, Kompas bütün yaşlarda olan insanlar tərəfindən və bir çox müxtəlif təhsil qurumunda istifadə olunur.

Bizim ilkin təşəbbüsümüz ondan ibarət idi ki, Kompas başlıca olaraq, məktəbdən sonra fəaliyyət göstərən klublar, idman qrupları, kilsə gəncləri qrupları, universitet qrupları, insan hüquqları qrupları və gənclərin mübadiləsi təşkilatları kimi qeyri-formal təhsil müəssisələrində gənclər işi ilə məşğul olan şəxslər tərəfindən istifadə olunsun. Bu qurumlarda əsas diqqət gənclərin şəxsi və sosial inkişafına yönəldilir və buna görə də, fəaliyyət vahid yanaşmada olur, yəni onlar sosial kontekstdə bilik, bacarıq və yanaşmaların inkişafı üçün işləyirlər.

Lakin Kompas, həmçinin, diqqətin bacarıq və yanaşmaların inkişafından daha çox biliklərin qavranılmasına yönəldiyi məktəb, kollec və universitet kimi formal müəssisələrdə də tətbiq olunur. Bir çox müəllim tarix, coğrafiya, dil və vətəndaşlıq tədrisi proqramında Kompasın məşğələlərindən istifadə etmək üçün imkanlar tapır və qabiliyyətlərə əsaslanan tədris proqramına keçid etdikdən sonra imkanlar daha da artacaqdır. Müəllimlər, menecerlər, dövlət rəsmiləri və məhkəmə heyəti üçün təlim kadr hazırlığı üzrə formal və qeyri-formal təhsilin bir növüdür, lakin burada da təlimçilər Kompasdan həm ümumilikdə insan hüquqları üzrə təlim üçün, həm də qurum daxilində bərabər imkanlar və irqçilik problemlərinə toxunmaq üçün istifadə edirlər.

*Kompasitonun* **tapşırıqları adətən daha asan və əyləncəli olur və daha qısa olduqları üçün siniflərdə istifadəsi daha rahatdır.**

Kompasa bəzi ölkələrin məktəb sistemində rəsmi tədris mənbəyi kimi etibar olunur.

Avropa Şurasının gənclər sektoru insan hüquqları üzrə təhsilin uşaqlara təqdim edilməsinin vacibliyindən xəbərdar olduğu üçün uşaqlar üçün insan hüquqları təhsili üzrə vəsaiti – Kompasitonu ərsəyə gətirmişdir. Kompasito 7-13 yaş arası uşaqlar üçün nəzərdə tutulub və adından da göründüyü kimi Kompasın yanaşmaları və metodologiyasına əsaslanır.

İnsanlar insan hüquqları üzrə təhsili bir çox müxtəlif yollarla öyrənir və təcrübədən keçirir. Kompasın məşğələlərində təklif olunan metod və dinamika öz-özlüyündə nə qədər maraqlı olsa da, yadda saxlamaq lazımdır ki, bu məşğələlərin əsas məqsədi iştirakçıların nə öyrənə biləcəyi və bu öyrəndikləri ilə nə edə biləcəkləridir. Öyrənilənləri necə möhkəmləndirmək barədə təkliflərdən bəzilərinə ailə və ya dostlarla məşğələnin yerinə yetirilməsi və ya KİV-ə yazmaq aiddir. Bu, Kompasdan qeyri-formal təhsildə istifadə etmək yollarından sadəcə ikisidir.

Formal təhsilə yanaşmalar, xüsusilə istifadə olunan metodlar və müəllimlərin oynadığı rol ölkədən ölkəyə dəyişir. Eyni formada, gənclər klubları və təşkilatları formasında qeyri-formal təhsilin mümkünlüyü, onların fəlsəfələri və idarə olunma formaları ölkələr arasında fərqlənir. Buna baxmayaraq, formal və qeyri-formal sektorlar arasında ümumiləşdirilə biləcək müəyyən struktur fərqləri mövcuddur.

## İnformal təhsil

İnformal təhsil hər bir kəsin təhsilin təsiri nəticəsində və öz ətrafındakı mənbələrdən və gündəlik təcrübəsindən yanaşmalar, dəyərlər, bacarıqlar və biliklər əldə etdiyi ömürboyu davam edən təhsil prosesidir.

İnsanlar ailələri və qohumlarından, bazarda, kitabxanada, mədəniyyət sərgilərində, işdə oynamaq, oxumaq və idmanla məşğul olmaq nəticəsində nə isə öyrənir. Kütləvi informasiya vasitələri, məsələn, oyunlar və filmlər, musiqi və mahnılar, televiziya debatları və sənədli filmlər informal təhsil üçün çox önəmli vasitədir. Bu yolla öyrənmək planlaşdırılmamış və strukturlaşdırılmamış öyrənmə vasitəsidir.

## Formal təhsil

Formal təhsil ibtidai məktəbdən (bəzi ölkələrdə hətta bağçada) universitetə qədər strukturlu təhsil sistemidir və peşə təlimləri, texniki və professional təlim üzrə ixtisaslaşmış proqramları özündə birləşdirir. Formal təhsil adətən tələbələr tərəfindən öyrənilən bilik və bacarıqların qiymətləndirilməsini özündə birləşdirir və fərdlərin ehtiyac və üstünlüklərinə bu və ya digər dərəcədə uyğun olan proqram və kurrikuluma əsaslanır. Formal təhsil adətən qiymətləndirmə və sertifikatlaşdırma ilə nəticələnir.

## Qeyri-formal təhsil

Qeyri-formal təhsil formal təhsil kurrikulumundan kənar gənclər üçün bir çox bacarıq və qabiliyyətin inkişafına yönəldilmiş və müəyyən strukturu olan şəxsi və sosial təhsil proqramı və prosesi deməkdir. Qeyri-formal təhsil gənclərin birlikdə layihələr həyata keçirdiyi, oyunlar oynadığı, müzakirələr apardığı, kempinq etdiyi və ya musiqi və tamaşalar ərsəyə gətirdiyi gənclər təşkilatları, idman klubları, teatr və cəmiyyət qruplarında baş verənlərdir. Qeyri-formal təhsildə uğurların sertikatlaşdırılması, hətta onların sosial olaraq tanınması inkişaf etsə də, çətindir. Qeyri-formal təhsil, həmçinin, aşağıdakı kimi olmalıdır:

- könüllü
- hər kəs üçün əlçatan (ideal olaraq)
- təhsil məqsədləri olan təşkilati proses
- iştirakçı
- tələbə-yönümlü
- həyat bacarıqlarının öyrənilməsi və aktiv vətəndaşlıqla bağlı
- kollektiv yanaşma ilə həm fərdi, həm də qrup yanaşmasının tətbiq edilməsinə əsaslanan
- vahid və prosesə yönəlmiş
- təcrübə və fəaliyyətə əsaslanan
- iştirakçıların ehtiyaclarına uyğun olaraq təşkil edilmiş.

Formal və qeyri-formal təhsil ömürboyu davam edən öyrənmə prosesinin tamamlayıcı və qarşılıqlı qüvvətləndirici elementləridir. Bir daha vurğulamaq istərdik ki, Kompasın fərdi məşğələləri çox müxtəlif kontekstlərdə, formal və ya qeyri-formal təhsil formalarında, müntəzəm və ya qeyri-müntəzəm olaraq tətbiq oluna bilər. Lakin qeyd etmək lazımdır ki, nəyin harada və necə baş verdiyi çox önəmlidir, Kompasın müəllifləri qeyri-formal təhsili insan hüquqları üzrə təhsil üçün potensial olaraq daha uyğun görürlər (həmçinin, ona görə ki, Kompas, ilkin olaraq, gənclərlə iş məqsədilə hazırlanmışdır). Məktəb və kolleclərə gəldikdə isə insan hüquqları üzrə təhsil yalnız sinif otağında tətbiq oluna biləcək bir şey kimi görülə bilməz;

**Bilik, yanaşma və bacarıqların qarşılıqlı əlaqəsi yaxşı insan hüquqları təhsilini, eyni zamanda, qeyri-formal təhsili xarakterizə edir.**

İnsan Hüquqları üçün Yaşamaq, Öyrənmək və Fəaliyyət forumunun yekunları, 2009

onun tətbiqi bütün məktəb və cəmiyyətə genişləndirilməlidir. Təhsil qurumlarının demokratik idarə edilməsi insan hüquqları təhsili (və onun etibarlılığı) prosesində əsas rol oynayan faktor sayılır.

Bu vəsaitdə siz insan hüquqları və müxtəlif insan hüquqları məsələləri üzrə məlumat, həmçinin, gənclər üçün insan hüquqları təhsili üzrə 60-dan çox məşğələ tapacaqsınız. Lakin burada yalnız məşğələlər deyil; həmçinin, insan hüquqları üzrə təhsilin metodologiyası və məşğələlərdən müxtəlif vəziyyətlərdə necə istifadə etmək, onları necə qəbul etmək və inkişaf etdirməklə bağlı geniş bölmə yer alır. Eyni zamanda, burada gənclərə onlarla əlaqəli mövzulara necə cəlb olunmalı və "hərəkətə keçməli" olduqları barədə məlumat və təlimat verilir (3-cü Fəsil).

## 2.2 Kompasda insan hüquqları üzrə təhsilin pedaqoji əsası

**İnsan hüquqları üzrə təhsildə metod və məzmun bir-biri ilə əlaqəli və qarşılıqlı asılıdır.**

İnsan hüquqları barədə bilmək kifayət deyil; insanlar, həmçinin, insan hüquqlarını müdafiə etmək üçün birlikdə fəaliyyət göstərə biləcəkləri bacarıq və mövqeləri inkişaf etdirməlidirlər və onlar insan hüquqları üzrə dünya mədəniyyətinin yaradılması üçün lazım olan şəxsi və sosial dəyişikliklərə səbəb olmaqdan ötrü beyinləri, ürəkləri və əllərindən istifadə etməlidirlər.

### *Vahid təhsil*

İnsan hüquqları məsələləri bütünlüklə insana (bədən, beyin və ruh) və beşikdən məzara qədər bütün həyat səviyyələrinə aiddir. Bütün insanlar hər şeyin qarşılıqlı əlaqədə olduğu bütöv bir dünyada yaşayır; insan hüquqları üzrə təhsil qəti olaraq vahid təhsil yanaşmasını tələb edir. Vahid təhsil insanların bütünlüklə inkişafını – onların intellektual, emosional, sosial, fiziki, bədii, yaradıcı və mənəvi potensialının inkişafını təşviq edir. Vahid təhsil həmçinin təhsilin gündəlik təcrübələri əhatə edən sosial kontekstdə baş verməsini nəzərdə tutur; buna görə də, o, fənlərarasıdır və məktəb tədris planındakı ənənəvi fənlərlə kəsişir.

Vahid yanaşma həmçinin onu bildirir ki, biz tədrisin dərketmə, praktiki və qiymətləndirmə aspektlərinə müraciət etməyə və onları araşdırmağa çalışırıq, yəni insanların yalnız nəyi öyrəndiyini deyil, həmçinin, bu öyrəndiklərini öz yanaşmaları və ya davranışlarında, fərdi qaydada və digərləri ilə birgə insan hüquqları ilə bağlı fəaliyyətdə necə tətbiq etdiyini də araşdırırıq.

Vahid tədris fərqləndirilmiş tədrisdir. Kompasda yer alan məşğələlər bir neçə fərqli tədris üsullarını tətbiq etməyə imkan verir və müxtəlif intellekt səviyyələrinə uyğun olacaq şəkildə, həm idraki, həm də emosional sahələrin inkişaf etdirilməsi üçün hazırlanmışdır.

### *Açıq təhsil*

Açıq təhsil elə bir quruluşa sahibdir ki, problemlərə çoxsaylı/kompleks cavablar yalnız mümkün deyil, həmçinin, gözləniləndir. İştirakçılar yalnız məntiqli olan bir "düzgün" cavab vermək məcburiyyətində deyillər, çünki həyat ağ və qaradan ibarət deyil və ikimənalılıq bizim yaşadığımız dünyanın reallığıdır. Açıq təhsil fikirlərini və tənqidi yanaşmanı ifadə etmək üçün özünə inamı təşviq edir. Bu, insan

hüquqları təhsili üçün çox vacibdir, çünki insan hüquqları məsələləri müxtəlif fikirlər və anlayışlara təkan verir; buna görə də, təhsil alan insanlar üçün birgə öyrənmək, eyni zamanda, mübahisə etmək, əks nəticələrə və ya fikirlərə sahib olmaq çox vacibdir.

## *Dəyərlərin müəyyənləşdirilməsi*

İştirakçılara öz fikirləri və dəyərlərini müəyyənləşdirmək, aydınlaşdırmaq və ifadə etmək, hər bir insanın ləyaqəti, fikir və söz azadlığı və digərlərinin fikirlərinə hörmət çərçivəsində digərləri ilə üzləşmək imkanı verilir.

## *İştirak*

İnsan Hüquqları üzrə təhsildə iştirak o deməkdir ki, gənclər insan hüquqları haqqında nəyi və necə öyrənməli olduqları barədə qərar qəbul edilməsində iştirak edirlər. İştirak etməklə gənclər qərar qəbuletmə, dinləmə, özünü digər insanın yerinə qoyma və digərlərinə hörmət, öz qərarları və hərəkətlərinə cavabdeh olmaq kimi müxtəlif bacarıqları inkişaf etdirirlər.

İştirak üçün təhsil alanların cəlb olunduqları məşğələlərə görə məsuliyyət daşımalarını təşviq edəcək mühit tələb olunur.

Belə ki, insan hüquqları üzrə təhsil gənclərə nə zaman, necə və hansı mövzularda işləmək istədikləri barədə qərar qəbul etməyə şərait yaratmalıdır. Bu, o deməkdir ki, lider və ya müəllimin rolu sadəcə bilik ötürmək və ya nəyin və necə öyrənilməli olduğunu göstərmək deyil, fasilitator, bələdçi, dost və ya məsləhət verən rolunu oynamaqdır.

Bu vəsaitdəki məşğələlər fəal iştirak tələb edir; fəal və məşğul olmalısınız; geri çəkilib passiv müşahidəçi olmamalısınız. Bu xüsusda, metodologiya üçün Augusto Boal və sosial təhsil, maarifləndirmə və tənqidi düşüncə sahəsinin digər yaradıcılarına minnətdar olmaq lazımdır. Təhsil alanlar/iştirakçılar məşğələnin icra edilməsində fəal olmadıqları təqdirdə, onu təxirə salmaq və ya dayandırmaq və onlardan iştirak etməmələrinin səbəbini soruşmaq daha yaxşı olar. Bu, həmçinin, insan hüquqları üzrə təhsilin bir hissəsidir.

İştirak üçün təhsil alanlar/iştirakçıların cəlb olunduqları məşğələlər və proseslərə görə məsuliyyət daşımalarını təşviq edəcək dəstəkləyici mühit tələb olunur. Eyni zamanda, iştirakçılarla şəffaf və dürüst olmaq vacibdir (o cümlədən iştirak hədləri ilə bağlı). İştirakla bağlı hədlərin qeyd olunması vəziyyətin manipulyasiya olunması və ya yalandan iştirak etməkdən daha üstün tutulur.

## *Müştərək təhsil*

Digərlərinə hörmət və birlikdə çalışmanın öyrənilməsi insan hüquqları üzrə təhsilin məqsədlərindən biridir. Müştərək təhsil zamanı insanlar həm özləri, həm də qrupun bütün üzvləri üçün faydalı olan nəticələrin əldə edilməsi məqsədilə birlikdə işləyərək öyrənirlər.

Müştərək təhsil daha yüksək nailiyyətlər və daha böyük məhsuldarlıq, daha diqqətli, dəstəkləyici və əqidəli münasibətlər və daha geniş sosial rəqabət və özünə hörməti təşviq edir. Bu, təhsil rəqabətyönümlü təşkil olunduqda baş verənlərin tam əksidir. Rəqabətyönümlü təhsil adətən mənfəətpərəstlik, digərlərinə qarşı hörmətsizlik və qaliblərdə təkəbbür, məğlublarda isə motivasiyanın düşməsi və özünə hörmətin itirilməsini təşviq edir.

## *Təcrübə əsaslı təhsil (təcrübə sayəsində öyrənmək)*

Təcrübə sayəsində öyrənmək və ya kəşf etməklə öyrənmək insan hüquqları üzrə təhsilin təməlidir, çünki ünsiyyət, tənqidi düşüncə, müdafiə, dözümlülük və hörmət kimi əsas insan hüquqları bacarıqları və dəyərləri öyrədilə bilməz; onlar təcrübə və praktika vasitəsilə öyrənilməlidir.

Öyrənmək üçün sadəcə təcrübə kifayət deyil

İnsan hüquqları barədə bilmək önəmlidir, lakin kifayət deyil. Gənclərin insan hüquqlarının insanların ehtiyacları arasında hansı yeri tutduqları və nə üçün müdafiə olunmalı olduqları barədə dərin anlayışları olmalıdır. Məsələn, birbaşa olaraq irqi ayrı-seçkilik yaşamamış gənclər düşünə bilər ki, bu məsələnin onlara heç bir aidiyyatı yoxdur. İnsan hüquqları perspektivindən bu hal qəbul olunan deyil; hər yerdə insanlar digərlərinin insan hüquqlarını müdafiə etmək məsuliyyəti daşıyırlar.

Kompasda biz rol oyunları və tematik araşdırmalar kimi məşğələlər vasitəsilə iştirakçılara sual verilməsi və problemlərin təqdim olunması kimi təcrübələri həyata keçiririk. Təcrübədən nəticə əldə olunması üçün nəyin baş verdiyini izah etmək, nəticələr əldə etmək və öyrənilənləri təcrübədən keçirmək vacibdir: öyrənilənləri möhkəmləndirilmədikdə onlar yox olacaq.

### David Kolbun təcrübə əsaslı təhsil dövrəsi

1984-cü ildə David Kolb Təcrübə əsaslı təhsil: təcrübə təhsil və inkişafın mənbəyi kimi kitabını çap etdi. Onun nəzəriyyəsi təklif edir ki, təhsil prosesinin 4 mərhələsi mövcuddur.

Kompasdakı bütün məşğələlər bu modelə uyğun olaraq hazırlanmışdır. Burada bir az təcrübə (rol oyunları kimi planlaşdırılmış hadisə/stimul/məşğələ), onun ardınca təhlil (2-ci mərhələ) və qiymətləndirmə (3-cü mərhələ) yer alır. Hər bir məşğələnin izahında təhlil üçün sual təklifləri və nəyin baş verdiyi barədə düşünmək, təcrübə barədə nə düşündükləri və onsuz da bildikləri və daha geniş dünyaya aid olan məlumatlarla bu təcrübənin necə müqayisə olunduğu barədə insanlara yardım edəcək müzakirələrlə bağlı təkliflər mövcuddur. Nəhayət, bunun ardınca insanların öyrəndiklərini təcrübədən keçirdikləri tətbiq etmə mərhələsi gəlir.

Kompasda gənclərin öz cəmiyyətlərinə necə müsbət təsir etməsi də daxil olmaqla, sonrakı fəaliyyət barədə təkliflər də hazırlanmışdır. Bu 4 mərhələnin ümumi təhsil prosesinin vacib hissələri olduğunu bilmək çox vacibdir; insanlar düşünmədən onları anlaya bilməyəcək və əgər təcrübədən keçirilmirsə, öyrənmənin mənası nədir? Digər mərhələlər olmadan sadəcə Kompas məşğələlərin icra olunması (1-ci mərhələ) insan hüquqları üzrə təhsilin pozulmasıdır!

Bəzi insanlar üçün bu sosial dəyişiklik cəhdləri təhlükə barədə siqnal ola bilər və onlar aktivizmin təşviqinin çox irəliyə getdiyini düşünə bilər. Onlar belə düşünməməlidir. İnsan hüquqları üzrə tədrisçi olmaqla biz gəncləri insan hüquqları barədə maraqlanmağa sövq etmək və lazım bildikləri məqam və yerdə hərəkətə keçmələri üçün vasitələr vermək məqsədi daşıyırıq.

Bu məqamda, yəqin ki, Kompasda "məşğələ" terminini necə istifadə etdiyimizi açıqlamağa ehtiyac var. Biz onu həm təhsil dövrəsinin 1-ci mərhələsində yer alan stimul, metod və ya hadisə mənasında, həm də təhsil dövrəsinin bütün 4 mərhələsini əhatə edən "bütöv məşğələ" mənasında istifadə edirik. Praktikada isə terminin işləndiyi kontekst açıq-aydın şəkildə göstərməlidir ki, biz yalnız metod barədə və ya təhlil, qiymətləndirmə, fəaliyyətə keçmək və nəzarət mərhələsini əhatə edən metod barəsində danışırıq.

**Təcrübə əsaslı təhsil dövrəsi**




### *Diqqətin iştirakçı üzərində cəmlənməsi*

İnsan hüquqları üzrə təhsil çox aydın məqsəd daşıyır: insan hüquqları barədə, üçün və vasitəsilə öyrənməyə şərait yaratmaq. İnsan hüquqları üzrə bilik və bacarıqların insan hüquqları üzrə təhsilin tam hissəsi olmasına baxmayaraq, tələbə və ya iştirakçı onun əsas mərkəz nöqtəsidir.

Əhəmiyyətli olan nə fasilitator və ya müəllimin nəyi çatdırdığı və ya ötürdüyü, nə də məzmun deyil (“Bu gün biz ölüm hökmü barədə öyrənəcəyik”). Tələbə/iştirakçının nə öyrəndiyi və tədris ediləndən və ya təcrübədən keçiriləndən nə nəticə çıxardığı önəmli olduğundan onlar diqqət mərkəzindədirlər, çünki bu üsul iştirakçı üçün daha uyğundur (və ya ümumiyyətlə uyğun deyil, bunu da nəzərə almaq lazımdır) və ona praktiki məna verilməsi ehtimalı böyükdür. Diqqəti tələbəyə cəmləməyin bir çox digər səbəbləri və nəticələri var. Fasilitator tərəfindən işin məzmunu və səviyyəsi iştirakçının həqiqətlərinə uyğunlaşdırılmalıdır, Kompasın hazırlıq prosesində biz bunu “insanların olduğu yerdən başlamaq” adlandırırıq.

## 2.3 İnsan hüquqları üzrə təhsil, proses və nəticə

Müştərək təhsil, iştirak və təcrübə vasitəsilə öyrənmək kimi Kompasda istifadə olunan əsas təhsil yanaşmaları aşağıdakı prosesi yaratmaq üçün məşğələlər, ardınca baş verən müzakirələr və daha sonrakı məşğələlərlə bir araya gətirilir:

- insanların artıq bildiklərindən, fikirləri və təcrübələrindən başlayır və bununla, onlara yeni ideya və təcrübələri birlikdə axtarmaq və kəşf etmək imkanı yaradır (insan hüquqları ***haqqında*** öyrənmək)

- gəncləri müzakirələrdə iştirak etmək və töhfə vermək və bir-birilərindən mümkün qədər çox öyrənməyə təşviq edir (insan hüquqları vasitəsilə öyrənmək)
- insanların öyrəndiklərini sadə, lakin ədalətsizliyə, bərabərsizliyə və insan hüquqlarının pozulmasına qarşı olduqlarını göstərən effektiv fəaliyyətə doğru yönəltməyə kömək edir (insan hüquqları üçün öyrənmək)

Effektiv maarifçi olmaq üçün insan hüquqları təhsilini tədris edənlər gözlərini əsas məqsədə dikməlidirlər: gənclər passiv qalmağa qərar verdikdə belə, insan hüquqları onları maarifləndirməlidir. Praktikada insan hüquqları təhsilinin proses və ya nəticə olması ilə bağlı heç bir fərq yoxdur; məşğələlər vasitəsilə onlar, Mahatma Qandi tərəfindən deyilmiş "sülhə gedən yol yoxdur, sülh özü yoldur" düşüncəsinə uyğun olaraq, proses və məzmunun, metod və nəticələrin müstəqil olduğu bir bütün halına gəlirlər.

İnsan hüquqları mədəniyyətinin xüsusiyyətlərini sadalamağa çalışdığımızda olduğu kimi, biz – kitabın müəllifləri – həmçinin, insan hüquqları üzrə savadlı insanın malik olmalı olduğu bilik, bacarıq və yanaşmalarını sadalamağa çalışdıq. Bu bacarıqlar daha sonra biz məşğələlər üçün məqsədləri tərtib etdikdə əsas rol oynadı.

Ümumilikdə, biz insan hüquqları üzrə təhsilin bilik və anlaşma, bacarıq və yanaşma mənasında nəticəsini aşağıdakı kimi izah edirik:

- İnsanların insan hüquqlarının pozulması hallarından xəbərdar olması məqsədilə insan hüquqları məsələləri barədə məlumatlı olmaq və onları dərk etmək: insan hüquqlarının nə olduğu, ölkədə onların necə qoruna biləcəyi, onları müdafiə etməklə bağlı hansı qurumların məsuliyyət daşıdığı; hansı beynəlxalq vasitələri tətbiq etmək, iştirakçılar/gənclərin hansı hüquqları tələb edə biləcəkləri (insan hüquqları barədə öyrənmək) barədə məlumatlanmaq;
- Özünüzün və digərlərinin insan hüquqları uğrunda mübarizə aparmaq və onları müdafiə etmək üçün maarifləndirmə, müdafiə və mübarizə aparmaq kimi bacarıqların inkişaf etdirilməsi, müvafiq qurumlar və ya KİV-lə əlaqə yaratmağa qadir olmaq və s.;
- İnsan hüquqlarına qarşı insanların öz iradəsi ilə digərlərinin hüquqlarını pozmayacağı və iştirakçıların insan hüquqları dəyərlərinə uyğun şəkildə yaşayacaqları hörmət yanaşması göstərmək; yalnızca insanlar ilə dövlət qurumları arasında münasibətlərə ("vertikal ölçü") deyil, həmçinin insanlar arasında münasibətdə tətbiq olunan ("horizontal ölçü"). Bu yanaşmalar ailə mühitində, dostlar arasında, məktəbdə və ya özlərinin gənclər təşkilatı və gənclər klubunda özünü göstərə bilər. (insan hüquqları vasitəsilə və insan hüquqları daxilində öyrənmək).

Təcrübədə İnsan Hüquqları üzrə Təhslin proses və ya nəticə olması ilə bağlı heç bir fərq olmalı deyil.

## *Bacarıqlara əsaslanan obyektivlər*

Ümumi məqsədlə bağlı fikirlər əhəmiyyətlidir, lakin insan hüquqları üzrə effektiv maarifçi olmaq üçün biz öz məqsədlərimiz barədə daha dəqiq olmalı və birgə işlədiyimiz gənclərdə hansı bacarıqları inkişaf etdirmək istədiyimizi açıq-aşkar bildirməliyik. Biz özümüzə sual verməliyik: Gənclərin insan hüquqları məsələlərini daha dərindən anlamaları üçün hansı növ bilik lazımdır? İnsan hüquqlarının qorunmasına yardım etmək üçün onlardan hansı bacarıq və münasibət tələb olunacaq? Bu suallara verilən cavablar bizə məqsədlərimizi daha aydın şəkildə ifadə etməyə kömək edəcək. Aşağıdakı yanaşmalar Kompasın hazırlanması prosesində və Avropada gənclərlə insan hüquqları təhsili təcrübəsi zamanı müəyyənləşdirilmişdir. Onlar bu vəsaitdəki məşğələlərin əsasını təşkil edir.

### Bilik və anlayış

- Azadlıq, ədalət, bərabərlik, insan ləyaqəti, ayrı-seçkiliyin olmaması, demokratiya, universallıq, hüquqlar, öhdəliklər, qarşılıqlı asılılıq və həmrəylik kimi əsas anlayışlar;

- İnsan hüquqlarının ailədə, məktəbdə, cəmiyyətdə və daha geniş dünyada davranış tərzi üzrə razılığa gəlmək üçün bir çərçivə formalaşdırması fikri;
- Bir şəxsin həyatı, cəmiyyətlərin həyatı və dünyadakı digər insanların həyatında insan hüquqları, onun keçmiş və gələcək formalarının rolu;
- Mülki / siyasi və sosial / iqtisadi hüquqlar arasında fərqlər və ortaq cəhətlər;
- Yerli, dövlət, beynəlxalq qurumlar, qeyri-hökumət təşkilatları, fərdlərin insan hüquqlarına dəstək və onların qorunması üçün fəaliyyəti;
- Müxtəlif cəmiyyətlərdə, eyni cəmiyyət daxilində müxtəlif qruplarda və müxtəlif əsaslı mənbələrdə – dini, mənəvi və hüquqi mənbələr də daxil olmaqla – insan hüquqlarının başa düşülməsi və təcrübədən keçirilməsi;
- İnsan hüquqlarının tanınmasına səbəb olan əsas sosial dəyişikliklər, tarixi hadisələr və səbəblər;
- İnsan hüquqalarının qorunmasını həyata keçirmək üçün mövcud olan BMT-nin İnsan Hüquqları üzrə Bəyannaməsi, BMT-nin Uşaq Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları və Əsas Azadlıqlarının qorunması Konvensiyası kimi əsas beynəlxalq sənədlərdə yer alan hüquqlar;
- İnsan hüquqları milli və ya dövlət konstitusiyasında və bütün dövlət səviyyələrində onların nəzarətinə cavabdeh qanunlar və qurumlar tərəfindən qorunur.

## Bacarıqlar

- Aktiv dinləmə və ünsiyyət: müxtəlif fikirlərə qulaq asmaq, bir şəxsin özünün və digərlərinin hüquqlarını müdafiə etməsi;
- Tənqidi düşüncə: müvafiq məlumatın tapılması, sübutun tənqidi dəyərləndirilməsi, qərəzli fikirlərin fərqində olmaq, manipulyasiyanın növlərinin müəyyən olunması və əsaslandırılmış mühakiməyə əsasən qərar qəbul edilməsi;
- Birgə işləmək və mübahisəli məsələləri pozitiv şəkildə həll etmək;
- Sosial qruplar daxilində və sosial qrupların formalaşdırılmasında işirak etmək bacarığı;
- İnsan hüquqlarının pozulması hallarının müəyyən olunması bacarığı;
- Həm yerli, həm də qlobal səviyyədə insan hüquqlarının təşviqi və qorunması.

## Münasibət və dəyərlər

- Bir kəsin öz hərəkətlərinə görə məsuliyyət hissi, şəxsi inkişaf və sosial dəyişiklik öhdəliyi;
- Maraq, açıqfikirlilik və müxtəlifliyə dəyər verilməsi;
- Digərləri ilə empatiya və həmrəylik, eləcə də insan hüquqları təhlükə altında olanlara dəstək verilməsi ilə bağlı öhdəlik;
- Sosial, mədəni, linqvistik və ya dini fərqlərdən asılı olmayaraq, insan ləyaqəti, özünün və digərlərinin dəyəri hissini bilmək;
- Ədalət hissi, universal insan hüquqları, bərabərlik və fərqliliyə hörmət idealları uğrunda çalışmaq arzusu.

# 2.4 İnsan hüquqları üzrə təhsil və digər təhsil sahələri

**Bu gün dünyada mövcud olan, demək olar ki, hər bir problem insan hüquqları pozuntusunu özündə daşıyır.**

İnsan hüquqları yerli və qlobal səviyyədə həyatımızın hər bir aspektinə təsir edir. Əgər biz Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə baxsaq görərik ki, bu gün dünyada mövcud olan hər bir problem – yoxsulluq, çirklənmə, iqlim dəyişikliyi, iqtisadi bərabərsizlik, QİÇS, təhsilin əlçatan olmaması, irqçilik və müharibələr – insan hüquqlarının pozulması ilə əlaqəlidir.

Bu ədalətsizliklərin hansının digərindən daha az və ya daha çox önəmli olduğunu demək çətindir. Sizin harada olduğunuz və insan olaraq hansı statusa malik olmağınıza əsasən perspektiv dəyişir. Əslində, onlar bir-biri ilə qarşılıqlı əlaqədədir və onlardan birini həll etmək digərlərini də həll etməyi vacib edir. İnsan hüquqları bölünməz, bir-birindən asılı və bir-birinə bağlıdır və hansısa bir insan hüququnu seçərək yalnız onu qəbul edib və ona hörmət etmək mümkün deyil.

Bu problemlər yalnız insan hüquqları tədrisçilərinin marağında deyil; onlar hörmət və bərabərliyin qanun olduğu ədalətli və dinc dünyanı təşviq etməklə məşğul olan hər kəsin marağındadır. İnsanların öz işlərini necə adlandırdıqlarına baxmayaraq (məsələn, inkişaf üzrə təhsil, sülh üzrə təhsil, davamlılıq üçün təhsil və ya vətəndaşlıq üzrə təhsil), biz hamımız bir-birindən asılı və bir-biri ilə bağlı məsələlərlə məşğuluq və Kompas bizim köməyimizə gəlir. İnsan hüquqları əslində bizim həmişə düşündüyümüzdən daha müxtəlif və daha fərqlidir. Tez-tez, xüsusilə də gənclərlə fəaliyyət üzrə məsələlərdə, biz bunu insan hüquqları üzrə təhsil adlandırmadan gənclərin məsuliyyət hissini oyatmağa çalışırıq.

## *Vətəndaşlıq üzrə təhsil / Demokratik vətəndaşlıq üçün təhsil*

**Demokratik vətəndaşlıq üzrə təhsil və insan hüquqları təhsili məqsəd və təcrübələrdən daha çox əsas diqqət mərkəzi və əhatə dairəsinə görə fərqlənir.**

Demokratik Vətəndaşlıq və İnsan Hüquqları Təhsili üzrə Avropa Şurası Xartiyasına əsasən "Demokratik vətəndaşlıq üzrə təhsil və insan hüquqları təhsili bir-biri ilə sıx əlaqəlidir və qarşılıqlı olaraq dəstəklənir. Onlar məqsəd və təcrübədən daha çox əsas diqqət mərkəzi və əhatə dairəsinə görə fərqlənir. Demokratik vətəndaşlıq üzrə təhsil daha çox cəmiyyətin mülki, siyasi, sosial, iqtisadi, hüquqi və mədəni sahələri üzrə demokratik hüquqlar və məsuliyyətlər və fəal iştirak üzərində mərkəzləşib, insan hüquqları üzrə təhsil isə insanların həyatının bütün aspektlərində insan hüquqları və əsas azadlıqlarının daha geniş spektri ilə məşğuldur".

Vətəndaşlıq üzrə təhsilin tədris planı siyasət və hökumət, hüquqi sistem, KİV, multikulturalizm və bərabər imkanlar mövzularını əhatə edir. Kompasda "Demokratiya" və "Vətəndaşlıq və İştirak", "KİV", "Ümumi İnsan Hüquqları", "Ayrı-seçkilik və Dözümsüzlük" və "Gender" mövzularına uyğun çoxlu sayda məşğələlər vardır.

Kompasda yer alan bu mövzular, həmçinin, ölkənin hüquqi və sosial cəhətdən qəbul edilmiş vətəndaşı olmağa hazırlaşan miqrant və qaçqınlara vətəndaşlıq təhsili verən hökumət və qeyri-hökumət təşkilatları üçün faydalıdır.

## *Fərdi və sosial təhsil*

Bir çox ölkələr fərdin cəmiyyətdəki rolunu nəzərə alan və gəncləri gələcəkdə üzləşəcəkləri şəxsi problemlərə qarşı hazırlayan təhsil formasına malikdir. Bu, vətəndaşlıq məsələləri ilə üst-üstə düşə bilər, həmçinin, idman, klub və assosiasiyalar, musiqi, incəsənət və ya mədəniyyətin digər formaları da daxil olmaqla fərdin asudə həyatı ilə əlaqəli aspektləri də özündə birləşdirə bilər. Belə təhsil, həmçinin,

şəxsi münasibətləri də əhatə edə bilər. İnsan hüquqları bu məsələlərə iki əsas yolla daxil olur: ilk növbədə, ona görə ki, şəxsi inkişaf və şəxsi münasibətlər insan hüquqları dəyərləri ilə idarə olunan mənəvi və sosial aspektlərə malikdir; digər tərəfdən isə, mədəni və sosial həyatda iştirak hüququ Ümumdünya İnsan

Hüquqları Bəyannaməsi və digər beynəlxalq müqavilələrdə təsdiq olunmuşdur. Bununla belə, sizin birlikdə işlədiyiniz gənclər bu hüququ tələb etmək iqtidarında olsa belə, dünyanın başqa yerində bunu edə bilməyən gənclər mövcuddur.

Kompas özündə şəxsi və sosial təhsil müəllimlərinə uyğun "İştirak" və "Mədəniyyət və İdman" mövzularında bir sıra məşğələləri birləşdirir.

## *Dəyərlər üzrə təhsil / Mənəvi təhsil*

**İnsan hüquqları dəyərlərini tədris etməyə görə heç kim tənqid olunmamalıdır.**

Bir sıra ölkələrdə dəyərlər üzrə təhsil tədris planının bir hissəsidir, lakin bu, insanların düşüncəsində 2 əsas məsələ ilə bağlı narahatlığa səbəb olur: bu təhsil hansı dəyərləri aşılamağı nəzərdə tutmalıdır və necə əmin olmaq mümkündür ki, bu dəyərlər insanlara zorla qəbul etdirilmir və ya çoxluğun dəyərləri olaraq qəbul olunur? İnsan hüquqları perspektivindən yanaşmaq bu problemlərin həlli üçün etibarlı, əsaslandırılmış və effektiv bir vasitədir, çünki insan hüquqları hər bir əsas din və mədəniyyətə xas olan dəyərlər üzərində qurulmuşdur və demək olar ki, hər bir ölkədə - mütləq təcrübədən keçirilməsə də - ən azından qəbul olunmuşdur. Məhz buna görə də, insan hüquqlarının əsasında duran dəyərlərin ifadə olunma forması bir cəmiyyətdən digərinə hədsiz dərəcədə fərqlənsə də, onlar təbiət etibarı ilə dünyəvi hesab olunur. İnsan hüquqları həmçinin bütün dünyadakı hökumətlər arasındakı danışıqlar və razılığın nəticəsidir. Buna görə də, heç kəs insan hüquqları dəyərlərini tədris etdiyi üçün tənqid edilə bilməz!

## *Qlobal təhsil*

Qlobal təhsili tədris edənlər bu fənnə vahid yanaşmanın tətbiqinin əhəmiyyətini anlayır, çünki onlar bizim dünyamızın sosial, iqtisadi, ətraf mühit və siyasi aspektlərinin bir-birindən asılılığını dəyərləndirir və dünya vətəndaşları olaraq, bizim qlobal cəmiyyət qarşısında öhdəliklərimizi təsdiq edir.

Maastrixt Qlobal Təhsil Bəyannaməsində (2002)[9] deyilir ki, qlobal təhsil insanların gözləri və beyinlərini qloballaşmış dünyanın reallıqlarına açan və hər kəs üçün daha böyük ədalət, bərabərlik və insan hüquqlarına malik dünyanı əldə etməyi təşviq edən təhsil sistemidir. Qlobal təhsil inkişaf üzrə təhsili, insan hüquqları üzrə təhsili, davamlılıq üçün təhsili, sülh və münaqişələrin qarşısının alınması üzrə təhsili və mədəniyyətlərarası təhsili əhatə edir.

İnsan hüquqlarını bizim dünyamızın sosial, iqtisadi, ətraf mühit və siyasi aspektləri üzərində fəaliyyətin başlanğıc nöqtəsi kimi seçmək qlobal təhsil tədrisçilərinə öz tədrislərini zənginləşdirməyə imkan yaradır.

İnnovativ pedaqoqika vasitəsilə tələbə və müəllimləri qlobal məsələlər üzərində birlikdə işləməyə sövq etməklə qlobal təhsil üzrə məşğələlər bugünkü dünyanın mürəkkəb reallıqları və proseslərini anlamağa şərait yaradır: onlar "dünya insanlarının qlobal məsuliyyəti" hissini aşılamaqla, dünyanın getdikcə öz içində daha da əlaqəli olan çətinlikləri ilə üzləşmək, onları başa düşmək və həll etmək üçün insanlara lazım olan bilik, bacarıq, münasibət və dəyərləri inkişaf etdirməyi nəzərdə tutur.

Kompasda "Qloballaşma" mövzusu altında bir çox məşğələ vardır, çünki bu günlərdə bir çox insan hüquqları məsələləri çox önəmli qlobal ölçüyə malikdir. Məsələn, 115-ci səhifədəki "İçəri girə bilərəm?" adlı məşğələdə iştirakçılar sığınacaq axtaran olmağı simulyasiya edəcəklər.

## *Mədəniyyətlərarası təhsil*

Mədəniyyətlərarası təhsil mədəniyyətlər və insanlar arasında oxşarlıqlar və fərqlilikləri araşdırmaq yolu ilə mədəniyyətlər arasındakı anlamanı inkişaf etdirməyi nəzərdə tutur. Mədəniyyətlərarası anlamanın olmaması adətən yerli və qlobal səviyyədə irqi ayrı-seçkilik, dözümsüzlük, ləkələmək və zorakılığa səbəb olur. İnsanların digər mədəniyyətdən olan insanlarla yaşaya və onlara hörmət edə bilməməsindən qaynaqlanan problemlərin acınacaqlı görüntüsü olaraq, bütün cəmiyyətlərdə yaşanan irqçilik, ayrı-seçkilik və şiddət üzə çıxır.

Münaqişələri yaradan səbəblər heç vaxt sadə olmur, lakin resurslardan qeyri-bərabər istifadə, qeyri-bərabər siyasi və sosial hüquqlar dözümsüzlük və ayrı-seçkiliyin yaranmasının əsas səbəbləri arasındadır. Buna görə də, hüquq perspektivini seçmək mədəniyyətlərarası təhsilin tədrisçiləri üçün məntiqi yanaşmadır və Kompas və Avropa Şurasının digər nəşrlərində onların işlərini dəstəkləyəcək çoxlu sayda hüquq perspektivi mövcuddur.

hər kəs fərqli
hər kəs bərabər

Avropa Şurasının gənclər sektoru, xüsusilə Avropa Gənclər Mərkəzləri və Avropa Gənclər Fondu, mədəniyyətlərarası təhsil sahəsinə çox böyük səy sərf etmişlər. İrqçilik, ksenofobiya, antisemitizm və dözümsüzlüyə qarşı Hər kəs Fərqli - Hər kəs Bərabər hərəkatı azlıqlardan ibarət qruplara qarşı irqçi düşmənçilik və dözümsüzlüyün inkişafının qarşısının alınması məqsədilə 1995-ci ildə təsis olunmuşdur10. Hərəkat üçün hazırlanmış və Kompasın sələfi sayılan Hər kəs Fərqli - Hər kəs Bərabər Təhsil paketində “Ayrı-seçkilik və Dözümsüzlük” mövzusunda Kompasda mövcud olan məşğələləri tamamlayacaq çoxlu sayda effektiv məşğələlər mövcuddur.

## *İrqçiliyə qarşı təhsil*

İrqçiliyə qarşı təhsil əsrlərdir mövcud olan irqi yanaşmalar və ideologiya irsini aradan qaldırmağı nəzərdə tutur və başlanğıc nöqtəsi bütün vətəndaşların bərabərlik və ədalət hüququna malik olduğu çoxmədəniyyətli və demokratik cəmiyyətdə yaşaması fikrini götürür. Bir sözlə, bu, hüquqlara əsaslanan yanaşmanı üstün tutur və mədəniyyətlərarası təhsillə bir çox ortaq cəhətləri mövcuddur.

İrqçiliyə qarşı təhsili tətbiq edənlər üçün yaxşı başlanğıc nöqtəsi kimi Kompasda “Ayrı-seçkilik və Dözümsüzlük” mövzusunda mövcud olan fəsil və məşğələləri misal göstərmək olar.

Əgər siz eynisəviyyəli təhsil yanaşması ilə maraqlanırsınızsa, Avropa Şurasının digər nəşri olan “Domino”da daha geniş ideyalara rast gələcəksiniz.

Avropa Şurasında insan hüquqları və təhsil və irqçiliyə qarşı hərəkat İrqçilik və Dözümsüzlüyə qarşı Avropa Komissiyasının çətiri altında bir araya gətirilmişdir. İrqçilik və Dözümsüzlüyə qarşı Avropa Komissiyasının missiyası insan hüquqlarının qorunması perspektivindən irqçilik, irqi ayrı-seçkilik, ksenofobiya, antisemitizm və dözümsüzlüyə qarşı daha geniş Avropada mübarizə aparmaqdır. Onun fəaliyyətinə Avropa İnsan Hüquqları Konvensiyası, onun əlavə protokolları və müvafiq məhkəmə praktikalarında rast gələ bilərsiniz.

## İnkişaf üzrə təhsil

İnsan hüquqları inkişaf üzrə təhsildə vacib ölçüdür.

Ümumdünya İnsan Hüquqları üzrə Bəyannaməsi və İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Beynəlxalq Pakt insanların inkişaf hüququnu dərketməsi ilə bağlı bir çox maddəni özündə birləşdirir. Məsələn, sosial inkişaf və daha yaxşı həyat standartlarının təşviqi, ayrı-seçkiliyin məruz qalmamaq hüququ, ictimai işlərdə iştirak hüququ, layiqli həyat standartı hüququ və öz müqəddəratını təyin etmə hüququ. O, həmçinin, insanların Bəyannamədə göstərilən hüquq və azadlıqların tam şəkildə həyata keçirilə biləcəyi sosial və beynəlxalq nizamda yaşamaq hüququnu özündə birləşdirir.

İnkişaf hüququ BMT tərəfindən 1986-cı ildə "İnkişaf Hüququ üzrə Bəyannamə"də elan edilmişdir və BMT Baş Assembleyasının 41/128 saylı qətnaməsi ilə qəbul olunmuşdur.

1993-cü il Vyana Bəyannaməsi ilə təsdiq edilmiş inkişaf hüququ ümumilikdə insanların malik olduğu qrup hüququdur və fərdlərin malik olduğu hüquqlardan fərqlənir.

İnkişaf üzrə təhsil tədrisçiləri artıq insan hüquqlarını öz işlərinin vacib elementi hesab edirlər. Lakin onlar mütləq şəkildə hüquq perspektivi ilə işləmir. İnkişaf üzrə təhsilə ənənəvi yanaşma Şimaldakı "inkişaf etmiş" ölkələrdə yaşayan insanlarla Cənubdakı "inkişaf edən" ölkələrdəki insanlar arasında əlaqəni araşdırmaq və insanların həyatlarını formalaşdıran iqtisadi, sosial, siyasi və ətraf mühit qüvvələrini anlamaqdır. Biz isə təklif edirik ki, insan hüquqları perspektivindən başlamaq iş üçün əlavə stimul yaradacaqdır. Daha bir müsbət cəhət ondan ibarətdir ki, Kompasda təklif etdiyimiz məşğələlər insanlarda inkişaf üzrə təhsilin mühüm məqsədi olan dəyişikliyi gətirmək üçün fəaliyyətə keçmək məqsədilə birlikdə işləməyə şərait yaradan bacarıqlar, yanaşmalar və dəyərləri inkişaf etdirir.

Kompasın "Əmək", "Yoxsulluq", "Sağlamlıq", "Qloballaşma" və "Ətraf mühit" mövzuları inkişaf üzrə təhsillə birbaşa əlaqəlidir.

## Davamlı inkişaf üçün təhsil/Ətraf mühit üzrə təhsil

Əgər biz insan hüquqları perspektivini ətraf mühit məsələlərinə yönləndirsək, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 25-ci maddəsi, yəni lazımi qida, geyim və ev daxil olmaqla, layiqli həyat standartı hüququ, başlanğıc nöqtəsi olmalıdır. İnsan həyatı sağlam və davamlı mühitdən asılı olduğu üçün bütün dünyadakı insanların və gələcək nəsillərin insan hüquqlarının nəzərə alınması ətraf mühit məsələlərini önə çıxarır.

Bu gün bəzi insanlar hətta ətraf mühitlə bağlı ayrıca insan hüququnun rəsmi tanınmasına ehtiyac olduğunu bildirir.

Ətraf mühit bizi həyatımız və həyat tərzimiz üçün lazım olan məhsul və xidmətlərlə təmin edir. Lakin uzun müddətdir, aydındır ki, biz məhdud dünyada yaşayırıq və bəşəriyyətin gördüyü işlər ətraf mühitin vəziyyəti və insanlığın rifahı üçün ağır fəsadlar törədir. Bu perspektivdən yanaşsaq, gələcək iqtisadi inkişafla bağlı məsələlər onların bəşəriyyətə və ümumilikdə təbii həyata törətdiyi fəsadlara qarşı balanslaşdırılmalıdır. Ətraf mühit üzrə təhsil bu məsələləri ictimaiyyətin diqqətinə çatdırmağı nəzərdə tutur və dünyanın təbii resurslarına daha böyük qayğı və hörmətlə yanaşmağı təşviq edir.

Adətən ətraf mühit üzrə təhsillə bağlı olaraq, davamlı inkişaf üçün təhsil də,

həmçinin, ətraf mühit və inkişaf məsələlərinə vahid yanaşmanı tələb edir. "Davamlı inkişaf" termini 1992-ci il Rio Dünya Sammitindən sonra ümumi istifadə olunmağa başlandı; davamlı inkişaf gələcək nəsilləri təhlükəyə atmadan bu günün ehtiyaclarını qarşılamağa köklənmişdir. Başqa sözlə, davamlılıq dünyanın qeydinə qalmaq və onu gələcək nəsillərin yaşaması üçün uyğun halda saxlamaq ilə bağlıdır. Buna görə də, ədalət və bərabərliyin insan hüquqları dəyərləri davamlılıq ideyasının əsasında durur.

YUNESKO-ya əsasən, davamlı inkişaf üçün təhsil hal-hazırda və gələcəkdə özlərinin və digərlərinin mənfəəti üçün düşünülmüş qərar qəbul etmək məqsədilə yanaşmalar, bilik və bacarıqları inkişaf etdirməyi və bu qərarlara uyğun fəaliyyət göstərməyi nəzərdə tutur.

YUNESKO-nun başlıca agentliyi olduğu BMT Davamlı İnkişaf Təhsili üzrə Onillik (2005-2014) 21-ci əsrdə üzləşdiyimiz sosial, iqtisadi, mədəni və ətraf mühit problemlərini həll etmək məqsədilə davamlı inkişafın prinsip, dəyər və təcrübələrini təhsilin və tədrisin bütün aspektlərinə yönəltməyi nəzərdə tutur.

Davamlı inkişaf üçün təhsil, inkişaf üzrə təhsil, qlobal təhsil və insan hüquqları üzrə təhsil arasında, xüsusilə özümüz və planetimizin mənfəəti üçün düşünülmüş qərarlar almaq və bu qərarlara uyğun hərəkət etmək üçün bilik, bacarıq və yanaşmaların inkişaf etdirilməsi ilə bağlı çox sıx əlaqə mövcuddur. Yuxarıda qeyd olunan qlobal və inkişaf üzrə təhsil ilə əlaqəli mövzulardan əlavə, Kompasda davamlılıq məsələlərinin insan hüquqları perspektivindən araşdırıldığı ətraf mühitlə əlaqəli ayrıca mövzu var.

## *Sülh üzrə təhsil*

Bir çox məktəb və universitetlərdə təcrübədən keçirildiyi kimi, sülh üzrə təhsilin əsas konsepti zorakılıq və ona nəzarət, sayının azaldılması və qarşısının alınmasıdır. Sülh üzrə təhsil münaqişənin həlli üzrə araşdırmalar, çoxmədəniyyətli təhsil, inkişaf üzrə təhsil, dünya nizamı üzrə araşdırmalar və ətraf mühit üzrə təhsilin tədris planında yer alır. Bir çox halda, yanaşma sosial ədalətsizlik, münaqişə və müharibənin səbəbi olaraq düşünülən problemlərin həll olunmasıdır.

Digər tərəfdən isə, insan hüquqları perspektivindən başlayan və əsas konsepti insan ləyaqəti və universallığı olan sülh üzrə təhsil yalnız zorakılığın dayandırılmasına deyil, həmçinin, münasibətlərin bərpası və uzunmüddətli sülh şəraiti yaradacaq sosial, iqtisadi və siyasi sistemlərin yaradılmasına gətirib çıxara bilər.

İnsan hüquqları perspektivindən başlayan sülh üzrə təhsil daha dərin sülh anlayışına gətirib çıxara bilər.

Sülh üzrə təhsil zorakılığın bir neçə müxtəlif formasını əhatə edir. Məsələn, müharibə də daxil olmaqla, fiziki və ya davranışla əlaqəli zorakılıq; struktur zorakılıq, yəni ədalətsiz sosial və ya iqtisadi strukturların səbəb olduğu yoxsulluq və ya məhrumluq; təfriqəçiləri, eyni zamanda kasıb, gücsüz və təcrid olunmuş insanları əsarət altına alan, hədə-qorxu gələn və onları istismar edən zülmkar sistemlərin siyasi zorakılığı; mədəni zorakılıq, müəyyən insan şəxsiyyətlərinin və həyat tərzlərinin dəyərsizləşdirilməsi və məhv edilməsi; irqçilik, seksizm, etnosentrizm, müstəmləkəçi ideologiya və təcavüzkarlıq, hökmranlıq, ədalətsizlik və təzyiqləri mürəkkəbləşdirən digər mənəvi təcrid formaları zorakılığı.

Zorakılığın bütün bu formalarının müəyyən insan hüquqları standartlarının pozulması kimi təhlil edilməsi konstruktiv yol təmin edir. Tənqidi düşüncə və təcrübəyönümlü tədrisin insan hüquqları təhsili metodologiyası yalnız konkret təcrübə elementi deyil, həmçinin, normativ və təsviri ölçü yaradır. Kompasda "Sülh və Zorakılıq" və "Müharibə və Terrorizm" mövzuları təcrübəçilər üçün çoxlu sayda material təmin edir.

## 2.5 İnsan Hüquqları üzrə Təhsili gənclərlə işə tətbiq etmək barədə ən çox verilən suallar

Gənclər məsələləri üzrə məşğul olmağınız və ya məktəb müəllimi və ya gənclərlə işləyən QHT-nin üzvü olmağınızdan və yuxarıda qeyd olunan təhsil formalarının hər hansı biri ilə əlaqəli olub-olmamağınızdan asılı olmayaraq, insan hüquqları sizin işinizə də aiddir. Lakin bir çox səbəbdən siz İnsan Hüquqları üzrə Təhsillə məşğul olmaq barədə tərəddüd edə bilərsiniz. Burada biz insan hüquqları ilə bağlı ən çox ünvanlanan sualları təqdim edirik və insanların insan hüquqları üzrə təhsil və onu öz işlərində tətbiq etmək barədə narahatlıqlarına cavab verməyə çalışırıq.

**?** *Gənclərin hüquqlardan daha çox məsuliyyət barədə öyrənməyə ehtiyacları var?*

**Cavab:** Həm hüquq, həm də məsuliyyət insan hüquqlarının əsasını təşkil edir və bu vəsait diqqəti həm hüquqlara, həm də məsuliyyətlərə cəlb edir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 1-ci maddəsində deyilir ki, "bütün insanlar azadlıq, ləyaqət və hüquq baxımından bərabər doğulmuşdur. Onlar….. bir-birilərinə qarşı qardaşlıq ruhu ilə yanaşmalıdır".30-cu maddədə isə deyilir "…[heç bir] Ölkə, qrup və ya şəxs burada qeyd olunan hüquq və azadlıqların pozulması məqsədi daşıyan heç bir hərəkət  və ya davranış göstərmək hüququna [malik deyil]". Kompas məşğələləri heç bir hüquqdan digər insanın hüququnu istismar etmək üçün istifadə oluna bilməyəcəyini və hər bir kəsin digərlərinin hüquqlarına hörmətlə yanaşmaqla bağlı məsuliyyət daşıdığını göstərmək üçün hazırlanmışdır.

**?** *Valideynlər, məktəb direktorları və ictimai liderlər insan hüquqları tədrisini üsyankar davranışa səbəb olacaq, siyasi cəhətdən ideoloji təsir olaraq qiymətləndirib ona qarşı çıxmazlar?*

**Cavab:** İnsan hüquqları üzrə təhsil uşaqları, gəncləri və böyükləri cəmiyyət və onun inkişafında bütünlüklə iştiraka sövq edir. İştirak bacarıqlarının inkişaf etdirilməsi və partiya siyasəti arasındakı fərqi anlamaq önəmlidir. İnsan hüquqları üzrə təhsil müzakirələr və iştirak vasitəsilə gəncləri tənqid və tədqiq edən beyinlərin inkişaf etdirilməsi, düşünülmüş qərarların qəbulu və ona uyğun davranmağa təşviq edir. Bu xüsusda, insan hüquqları üzrə təhsil də mülki və siyasi təhsillə əlaqəlidir və o, gənclərə insan hüquqları, sosial məsələlər, təhsil və siyasət arasında əlaqə yaratmağa kömək edir. Bunun nəticəsində, gənclər onların siyasi iştirak, fikir, ünsiyyət və ifadə azadlığının nəticəsi olaraq, yerli və ya milli siyasi partiyalara qoşula və ya onlardan uzaqlaşa bilər.

Həmçinin, nəzərə almaq vacibdir ki, insan hüquqlarının öyrənilməsi ilə birbaşa əlaqəsi olan bacarıqlarla yanaşı, Kompasda qeyd olunduğu kimi, insan hüquqları üzrə təhsil əməkdaşlıq, qrup işi, aktiv dinləmə və danışma kimi sosial və ünsiyyət bacarıqlarının inkişafını da dəstəkləyir.

**?** *İnsanların insan hüquqları barədə maarifləndirilmə imkanının təmin edilməsi hökumətin öhdəliyi deyil?*

**Cavab:** Birləşmiş Millətlər Təşkilatına üzv dövlətlər bütün təhsil formalarında insan hüquqları üzrə təhsili irəli çəkmək öhdəliyi daşıyırlar. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 26-cı maddəsində deyilir ki, "(1) Hər kəsin təhsil hüququ var […] və (2) Təhsil insan şəxsiyyətinin tam inkişafı və insan hüquqları və əsas azadlıqlarının möhkəmləndirilməsinə yönəldilməlidir". Təhsil hüququ və insan hüquqları üzrə təhsil hüququ, həmçinin, Uşaq Hüquqları Konvensiyasının 28-ci maddəsində qeyd olunmuşdur. Buna baxmayaraq, bir çox hökumətlər insan hüquqları üzrə təhsilin təşviqi və tədris planına insan hüquqlarının əlavə edilməsi üçün çox az iş görmüşlər. Fərdi müəllimlər və qeyri-hökumət təşkilatları məktəblərdə və digər təhsil proqramlarında öz müştərək səyləri vasitəsilə, həmçinin, öz hökumətlərinə bu məsələ ilə əlaqədar öhdəliklərini yerinə yetirmələri ilə bağlı təzyiq göstərmək və lobbiçilik etməklə insan hüquqları üzrə təhsilin inkişafının təşviqi üçün əhəmiyyətli dərəcədə böyük iş görə bilərlər.

**?** *Əgər mənim ölkəmdə heç bir insan hüquqlarının pozulması yoxdursa?*

**Cavab:** Tam olaraq, dünyada bütün insan hüquqlarının həmişə qorunduğu bir ölkə yoxdur, lakin bu, doğrudur ki, bəzi ölkələrdə insan hüquqları daha tez-tez və daha açıq şəkildə pozulması halları digərlərindən daha çox baş verir. Lakin insan hüquqları üzrə təhsil yalnız hüquqların pozulması ilə əlaqəli deyil. Bu, ilk növbədə, insan hüquqlarının hər bir insana məxsus olan məfhum olduğunu və onların qorunmasının vacibliyini anlamaqla əlaqədardır. Bununla yanaşı, heç bir ölkə iddia edə bilməz ki, orada hüquq pozuntusu halları baş vermir. Məsələn, Avropa Şurasına üzv hər bir ölkə Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən cinayət işinə cəlb olunmuşdur. Reallığı həll etməyin asan yolu sosial mühit və ya cəmiyyətə nəzər salmaqdır. Kim təcrid olunur? Kim yoxsulluq şəraitində yaşayır? Hansı uşaqlar öz hüquqlarından istifadə edə bilmir? Başqa bir yol isə, ölkənizdə fəaliyyət göstərən şirkətlər və hökumətlərin digər ölkələrdə insan hüquqlarını necə pozduğunu müşahidə etməkdir. Məsələn, silah satışı vasitəsilə qeyri-demokratik rejimlərə gətirib çıxarmaq, həqiqi istehsalçıları istismar edən ticarət müqavilələri, qoruyucu tənzimləmələr və mülkiyyət hüquqlarına dair iddialar, daha ucuz, ümumi narkotik maddələrin istehsalını dayandırmaq üçün dərman vasitələri üzrə patentlər.

# 3. İnsan Hüquqlarının Təhsili üzrə *Kompas*dan istifadə

İnsan hüquqlarını tədris etməyin və öyrənməyin müxtəlif yolları var. Mövzuya necə yanaşmağınız sizin rəsmi və ya qeyri-rəsmi sektorda işləməyiniz, ölkənizin siyasi, sosial və iqtisadi vəziyyəti, gənclərin yaş səviyyəsi və insan hüquqları barəsində maariflənməyə olan maraq və motivasiyanızdan asılıdır. Bu, həmçinin, sizin insan hüquqları məsələləri və insan hüquqları təhsili ilə bağlı təcrübənizdən asılıdır.

Siz gənclərlə iş üzrə işləyən şəxs, təlimçi, məktəb müəllimi və ya böyüklərin fərdi müəllimi, kilsə müzakirə qrupunun üzvü və ya gənc fəal ola bilərsiniz. Kim olmağınızdan və harada işləməyinizdən asılı olmayaraq, biz əminik ki, bu kitabda siz özünüz üçün faydalı şeylər tapacaqsınız. Biz sizin tədris və ya təlim bacarıqları və ya insan hüquqları barədə əvvəlki biliklə bağlı heç bir fərziyyə irəli sürmürük.

**Bizim birlikdə bildiklərimizi tək başına aramızdan heç kəs bilmir.**

*Lao Tse*

Kompas asanlıqla uyğunlaşan mənbə kimi görülməlidir. İnsan hüquqlarının təşviqi davam edən və yaradıcı prosesdir, siz – vəsaitin istifadəçisi – onun ayrılmaz hissəsiniz. Ümid edirik ki, siz təqdim etdiyimiz ideyaları götürüb istifadə edəcək və öz ehtiyaclarınızın və birlikdə işlədiyiniz gənclərin ehtiyaclarının qarşılanması üçün onları inkişaf etdirəcəksiniz.

Biz, həmçinin, ümid edirik ki, siz öyrəndiklərinizi bir daha nəzərdən keçirəcək və öz təcrübələrinizlə bağlı bizimlə əlaqə yaradacaqsınız. www.coe.int/compass ünvanında əks əlaqə formasını tapa bilərsiniz.

## 3.1 *Kompas*da olanlar

Biz təkidlə təklif edirik ki, məzmunla bağlı ümumi təəssürat əldə etmək üçün bütün vəsaitə ümumi nəzər salasınız. Heç bir xüsusi başlanğıc nöqtəsi yoxdur; düşünürük ki, sizə uyğun olan hissələri tapıb seçməlisiniz.

**1-ci Fəsil:** İnsan hüquqları və insan hüquqları üzrə təhsilə girişi və bu kitabdan istifadə qaydalarını əks etdirir.
**2-ci Fəsil:** Bu Fəsil məşğələlərdən ibarətdir. Bu fəsildə siz seçilmiş mövzu və müxtəlif hüquqlara aid olan, insan hüquqlarını araşdırmaq üçün müxtəlif səviyyəli 58 məşğələyə rast gələcəksiniz. Bu məşğələlər sizin gənclərlə işiniz üçün vasitələrdir.
**3-cü Fəsil:** "Hərəkətə keçmək" bölməsi "hərəkətə keçmək" deməklə bizim nəyi nəzərdə tutduğumuzu izah edir və insan hüquqlarını cəmiyyətdə və daha geniş dünyada təbliğ etməklə bağlı ideya və yolları özündə birləşdirir.
**4-cü Fəsil:** Bu Fəsil insan hüquqları və onun tarixi inkişafı barədə beynəlxalq standartlar və sənədlər ilə birlikdə geniş informasiya təmin edir.
**5-ci Fəsil:** Burada siz www.coe.int/compass ünvanında onlayn yerləşdirilmiş qlobal Kompas mövzuları barədə məlumatın qısa məzmununu tapa biləcəksiniz.
***Əlavələr:*** Əsas bəyannamələrin, konvensiyaların və insan hüquqları üzrə mətnlərin qısa məzmunu və tez-tez istifadə olunan terminlərin izahlı lüğəti.
Gənclərlə insan hüquqları üzrə təhsilə başlamaq üçün sizin əlinizdə kifayət qədər material olmalıdır. Kompas təlim və tədris bacarıqlarının olub-olmamasından asılı olmayaraq, insan hüquqları üzrə təhsil ilə məşğul olmaq istəyən hər kəs üçün yazılıb. Başlamaq üçün sizin insan hüquqları üzrə "ekspert" olmağa ehtiyacınız yoxdur; insan hüquqları mövzusuna və bu sahədə təhsilə marağın olması kifayət edən göstəricilərdir.

### *İnsan hüquqları mövzuları*

Biz bu kitabda bütün insan hüquqları mövzularına toxunmağa ümid edə bilmərik. Bizim etdiyimiz gənclərin həyatına ən çox uyğun hesab etdiyimiz məsələləri seçib 20 mövzu altında toplamaqdır. www.coe.int/compass ünvanında hər bir mövzu üzrə qeydlər təqdim olunmuşdur və 72-ci səhifədə məşğələlərin qısa məzmununda məşğələlər və mövzular arasında çarpaz istinadlar var.

20 qlobal mövzu aşağıdakılardır:

1. Uşaqlar
2. Vətəndaşlıq və İştirak
3. Mədəniyyət və İdman
4. Demokratiya
5. Əlillik və Əlillərə qarşı Ayrı-seçkilik
6. Ayrı-seçkilik və Dözümsüzlük
7. Təhsil
8. Ətraf mühit
9. Gender
10. Ümumi İnsan Hüquqları
11. Qloballaşma
12. Sağlamlıq
13. KİV
14. Miqrasiya
15. Sülh və Zorakılıq
16. Yoxsulluq
17. Din və İnam
18. Tarixi Yaddaş
19. Müharibə və Terrorizm
20. Əmək

# 3.2 Fasilitatorluq

Kompasda biz "fasilitatorlar" terminini məşğələləri hazırlayan, təqdim edən və koordinasiya edən insanlar üçün istifadə edirik. Fasilitator "bir şeyin baş verməsinə səbəb olan", "kömək edən" və digərlərini öz potensialını öyrənmək və inkişaf etdirməyə həvəsləndirən insandır. Fasilitatorluq etməklə siz insanların təcrübə, araşdırma, vermək və almaq vasitəsilə öyrəndiyi təhlükəsiz mühit yaradırsınız. Hər kəs iştirakçılar və fasilitatorlar kimi təcrübə mübadiləsi yolu ilə inkişaf etməlidir.

Gənclər üçün fasilitator olmaq və bərabərlik və əməkdaşlıq şəraitində işləmək imkanları Avropada ölkədən ölkəyə fərqlənir. Formal təhsil sistemində biz fərqləri təhsilin məqsədləri və fəlsəfəsində, sinfin idarə edilməsi üsullarında və tədris planında görürük. Şagirdlər və tələbələr üçün nə öyrənmək istədiklərinə qərar vermək, müəllimlər üçün isə fasilitator rolunu oynamaq rahat deyil. Qeyri-formal sektorda yalnız müxtəlif təşkilatların məqsədləri və fəlsəfələrində deyil, həmçinin, onların təklif etdiyi fəaliyyət və imkanlarda böyük fərqlər var və liderlik tərzləri avtoritardan demokratikə qədər dəyişir. Bu fərqlər həm ölkələr arasında, həm də ölkələrin öz daxilində açıq-aşkar görünür.

Biz hamımız öz cəmiyyətlərimizin təhsil və sosial normaları çərçivəsində yaşayır və çalışırıq və bu da bizim öz etnosentrizmimizin qaçınılmazlığını unutmağımızı və itirməyimizi asanlaşdırır. Nəticədə, biz hər gördüyümüz işə normal baxırıq. Siz öz fasilitatorluq bacarıqlarınızı inkişaf etdirmək məqsədilə tərziniz, təcrübəniz və birlikdə işlədiyiniz gənclərlə münasibətiniz barəsində düşünə bilərsiniz.

Liderlik mövqeyində olmaq və nəzarətin bir hissəsini “əldən buraxmaq” çətindir, lakin insan hüquqları təhsili üzrə fasilitator olaraq siz öz təhsilləri ilə bağlı məsuliyyəti tələbələrə buraxmalı, onların vəziyyət və problemi təhlil etməsinə, təkbaşına düşünməsinə və öz düşündükləri barəsində nəticələrə gəlməsinə şərait yaratmalısınız. Bu, o demək deyil ki, bütün məsuliyyət gənclərin üzərinə yüklənir. Fasilitatorların gənclərin öz yetkinlik səviyyələrinə və iştirak bacarıqlarına uyğun olan şəraitdə öyrənə biləcəkləri təhlükəsiz mühit yaratmaqla bağlı mürəkkəb tapşırıqları var.

**Tələbələrə öz təhsil məsuliyyətlərini həvalə etməyə hazır olun.**

Məktəblərdə və ya sinif otağı şəraitində fasilitatorluğun “texniki” tərəfi qeyri-formal təhsil kontekstindən çox da fərqlənmir və Kompas məşğələləri üçün təlimatlar hər ikisi üçün də uyğundur.

**Məşğələlərin məzmunu isə daha çox adaptasiya tələb edə və fasilitator, tədrisçi və müəllimi daha dərin dilemmalar qarşısında qoya bilər. Məsələn, insan hüquqları üzrə təhsil dərsləri və ya kursları məcburi olması nəticələrə və tələbələrin insan hüquqları üzrə yanaşmalarına da təsir edə bilər. Digər bir aspekt bir çox formal təhsil sistemlərini xarakterizə edən qiymətləndirmə sistemi ilə bağlıdır, xüsusilə qiymətləndirilən şeyə məktəbdə çox ciddi yanaşılırsa.**

## *Problem həlli İnsan Hüquqları üzrə Təhsilin əsası kimi*

İnsan hüquqları üzrə məsələlər adətən mübahisəlidir, çünki müxtəlif insanların müxtəlif dəyərlər sistemi var və buna görə də, onlar hüquq və məsuliyyətləri fərqli şəkildə qavrayırlar. Fikir müxtəlifliyi kimi özünü büruzə verən bu müxtəlifliklər bizim təhsil işimizin əsasını təşkil edir.

İnsan hüquqları üzrə təhsilin iki əsas məqsədindən biri gəncləri bir məsələ ilə bağlı fərqli fikirləri dəyərləndirmə bacarığı ilə təmin etmək (mütləq şəkildə onlarla razılaşmaq vacib deyil), ikincisi isə problemlərə qarşılıqlı razılaşdırılmış həll tapmaq üçün bacarıqları inkişaf etdirməkdir.

Bu vəsait və onun məşğələləri fikir müxtəlifliklərinin tədris prosesində konstruktiv şəkildə istifadə olunması fikrinə əsaslanır. Bir çox qeyri-formal təhsil məşğələlərində olduğu kimi, məqsəd hər kəsin ümumi bir razılaşmaya gəlməsi deyil, daha çox tənqidi düşünmək, bir-birilərini dinləmək, fikirlərini ifadə etmək və fikirlərin müxtəlifliyinə hörmət etmək bacarıqlarının inkişaf etdirilməsidir.

Məşğələlər üçün fasilitatorluq etmək və münaqişələrlə konstruktiv şəkildə məşğul olmaq sizi çəkindirə bilər, lakin bu, belə olmamalıdır. Hər bir məşğələdə sizin işinizə dəstək məqsədilə “Fasilitatorlar üçün Məsləhətlər” və “Əlavə məlumat” bölmələri var.

# 3.3 İstifadəçilər üçün ümumi məsləhətlər

Siz Kompasdan elə istifadə etməlisiniz ki, o, sizin və birlikdə işlədiyiniz gənclərin ehtiyaclarını qarşılasın. İlk növbədə, hansı səhifələrə müraciət edəcəyiniz vacib deyil. Siz Kompasdan insan hüquqları üzrə məlumat mənbəyi kimi (əsas konvensiyalar, ilk dəfə 1948-ci ildə onlar necə formalaşdırıldı və ondan sonra necə inkişaf etdi) istifadə edə bilərsiniz. Siz, həmçinin, Kompasdan yoxsulluq, gender məsələləri və digər mövzularla bağlı insan hüquqları üzrə məlumatın icmalı olaraq istifadə edə bilərsiniz. Lakin insanları ən çox maraqlandıran məşğələlərdir, çünki onlar insan hüquqları üzrə təhsilin ötürülməsi vasitələridir.

## Məşğələni necə seçməli

Hər hansı məşğələni etməzdən əvvəl siz öz beyninizdə nəyə nail olmaq istədiyiniz barədə dəqiq fikirə gəlməlisiniz; siz məqsədlərinizi müəyyənləşdirməlisiniz. Daha sonra, siz müraciət etmək istədiyiniz mövzuya uyğun olan, sizin və gənclərin rahat hiss edəcəyi metoddan istifadə edən məşğələni seçə bilərsiniz. Bu məşğələ sizə və qrupunuza uyğun səviyyədə olmalı və sizin üçün ayrılmış vaxta uyğun gəlməlidir.

Məşğələni ən azı iki dəfə diqqətlə oxuyun və qrupun necə reaksiya verəcəyini və deyəcəyi bəzi məsələləri təxmin edin. Çox böyük ehtimalla, siz məşğələni müəyyən qədər dəyişdirmək istəyəcəksiniz, ən azından "Təhlil və qiymətləndirmə" bölməsi altındakı sualların bəzilərini sizin istədiyiniz formada öyrənməni təmin etmək üçün uyğunlaşdırmaq istəyəcəksiniz.

Ehtiyacınız olan qədər məlumata malik olduğunuzdan əmin olun. Əgər iştirakçılar kiçik qruplara bölünürlərsə, kifayət qədər yer olmasını təmin edin.

Hər bir məşğələ standart formatda təqdim olunmuşdur. Təsvir və başlıqlar tam formanın ümumi təsvirini asanlaşdırmaq üçün istifadə olunmuşdur.

## Məşğələləri təqdim etmək üçün istifadə olunan simvol və başlıqların izahı

Ümumi
İnsan Hüquqları



### Mövzular

Mövzular bizim Kompasda təqdim etmək üçün seçdiyimiz mövzulardır, məsələn, ümumi insan hüquqları, yoxsulluq və sağlamlıq.

İnsan Hüquqları bir-biri ilə əlaqəli, bölünməzdir və müxtəlif məsələlər üst-üstə düşür, bu da o deməkdir ki, hər bir məşğələ müəyyən mövzu ilə əlaqəli olur. Biz məşğələnin əlaqəli olduğu üç mövzunu göstəririk.

1-ci səviyyə



### Mürəkkəblik

Mürəkkəblik vasitəsilə biz həm metodun necə dolaşıq olduğunu, həm də məşğələni yerinə yetirmək üçün iştirakçılara lazım olan tənqidi düşüncə, təhlil və ünsiyyət bacarıqlarını göstərməyə çalışırıq.

Adi bacarıqlar tələb edən məşğələlərin bir çoxunun, həmçinin, sadə metodu mövcuddur, onlar qısa hazırlıq tələb edir və adətən çox vaxt aparmır. Digər tərəfdən isə, yaxşı ünsiyyət və düşünmə bacarıqları tələb edən məşğələlər adətən bir neçə hissədən ibarət olur, daha çox hazırlıq tələb edir və həlli daha çox vaxt aparır.

1-ci səviyyədəki məşğələlər qısa və sadədir. Buna baxmayaraq, bu məşğələlər

insanların bir-birilə qarşılıqlı əlaqəyə girməsi və ünsiyyət qurması baxımından dəyərlidir. İştirakçıları canlandıran, onlar arasında ünsiyyəti təşviq edən və müzakirə üçün olan məşğələlər bu kateqoriyadandır.

2-ci səviyyədəki məşğələlər insan hüquqları ilə bağlı ilkin biliklər və ya yaxşı inkişaf etdirilmiş şəxsi və ya qrup işi bacarıqları tələb etmir. Bu səviyyədəki məşğələlərin çoxu insanlara ünsiyyət və qrup işi bacarıqlarının inkişaf etdirilməsinə kömək etmək, eyni zamanda, insan hüquqlarına maraq oyatmaq üçün hazırlanmışdır.

3-cü səviyyədəki məşğələlər daha mürəkkəbdir və məsələni daha dərindən anlamanı inkişaf etdirmək üçün hazırlanmışdır. Onlar yüksək səviyyədə müzakirə və ya qrup işi bacarıqlarını tələb edir.

4-cü səviyyədəki məşğələlər daha uzundur, yaxşı qrup işi və müzakirə bacarıqları, konsentrasiya və iştirakçıların əməkdaşlığını tələb edir və hazırlıq üçün daha çox vaxt alır. Onlar məsələlər barədə daha geniş və dərin düşüncələr təmin etdikləri üçün daha müfəssəldirlər.

**Qrup ölçüsü**



Məşğələnin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün lazım olan insan sayını göstəririk. Məşğələnin müəyyən hissəsi kiçik qruplarda yerinə yetirilməli olduğu təqdirdə, kiçik qrupların sayı mötərizədə göstərilir.

**Vaxt**



Biz araşdırma və müzakirələr də daxil olmaqla, bütün məşğələlərin yerinə yetirilməsi üçün vaxtı iştirakçı sayı ilə birlikdə qeyd edirik. Göstərilən vaxt daha sonrakı mərhələyə aid olan müzakirələri özündə birləşdirmir.

Sizə nə qədər vaxt lazım olacağını özünüz güman etməlisiniz. Əgər siz bir neçə kiçik qrupla işləyirsinizsə, plenar sessiyada hər bir qrupun rəyini öyrənmək üçün daha çox vaxta ehtiyacınız olacaq. Əgər qrup böyükdürsə, siz təhlil və qiymətləndirmə hissəsində hər kəs üçün iştirak etməyə şərait yaratmaqdan ötrü vaxt verməlisiniz.

**Xülasə**

Biz mövzu və məşğələdə istifadə olunan sadə metodu göstəririk. Məsələn, məşğələnin sığınacaq axtaran insanlar və KİV-dəki qeyri-obyektivlik barədə olması və ya məşğələnin kiçik qruplarda müzakirələr və ya rol oyununu özündə birləşdirməsi.

**Əlaqəli hüquqlar**

Təcrübə və hadisələrin xüsusi insan hüquqları ilə əlaqələndirilməsi insan hüquqları üzrə təhsilin əsas məqsədidir. Lakin insan hüquqları bir-biri ilə əlaqəli və bölünməz olduğundan məsələlər üst-üstə düşür və hər bir məşğələ qaçılmaz olaraq müəyyən hüquqlara aid olur. Belə ki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qısa məzmununa əsasən (600-cü səhifə) məşğələdə izah olunan və təhlil və qiymətləndirmə mərhələsində müzakirə olunmalı olan üç hüququ göstəririk.

**Məqsədlər**

Məqsədlər insan hüquqları üzrə təhsilin 37-ci səhifədə göstərilən bilik, bacarıqlar, yanaşmalar və dəyərlərlə əlaqədar, bacarıqlara əsaslanan tədris məqsədlərini özündə birləşdirir.

**Materiallar**

Bu məşğələni yerinə yetirmək üçün lazım olan ləvazimat siyahısıdır.

**Hazırlıq**

Bu fasilitator üçün məşğələni yerinə yetirməyə başlamazdan əvvəl nə etməli olduğu barədə yoxlama siyahısıdır.

Biz tələb edirik ki, fasilitatorlar məsələlər ilə bağlı özlərini məlumatlandırsınlar və ehtiyac olduğu təqdirdə, www.coe.int/compass saytında 5-ci Fəsildəki ümumi məlumatı oxusunlar. Belə ki, bu məlumat hər məşğələnin altında təkrar-təkrar qeyd olunmayacaqdır.

**Təlimatlar**

Aşağıda məşğələnin yerinə yetirilməsi üçün təlimat siyahısı yer alır.

**Təhlil və Qiymətləndirmə**

Burada biz təlimçiyə təhlil və qiymətləndirmə mərhələsini həyata keçirmək üçün suallar təklif edirik. Bu suallar nümunə xarakteri daşıyır və biz ümid edirik ki, siz öz məqsədlərinizə uyğun olaraq qarşıya qoyduğunuz öyrənmə məqamlarını təmin etmək üçün ən azından bir neçə sual tərtib edəcəksiniz.

**Fasilitatorlar üçün məsləhətlər**

Bu metod və məlumatlı olmalı olduğunuz məsələlər barədə təlimatlar və izahatlardır. Məsələn, əgər siz azlıqlara qarşı olan stereotiplərlə bağlı işləyirsinizsə, sizin qrupda azlıqlardan olan bir nümayəndə var?

**Variantlar**

Bu hissədə biz sizə bir məşğələni müxtəlif vəziyyətlərə necə uyğunlaşdıra biləcəyiniz və necə inkişaf etdirə biləcəyinizlə bağlı ideyalar verəcəyik. Lakin bunlar yalnız təklifdir və siz, fasilitator olaraq, bu məşğələni qrupunuzun ehtiyaclarını ən yaxşı şəkildə ödəməsi üçün istədiyiniz yolla dəyişdirmək hüququna sahibsiniz.

**Sonrakı fəaliyyət üçün təkliflər**

Məşğələni yerinə yetirmək kifayət deyil; öyrəndiyinizi daha da möhkəmləndirmək və unutmamaq üçün daha sonrakı fəaliyyət mərhələsinə ehtiyac var. Bununla yanaşı, biz yadda saxlamalıyıq ki, insan hüquqları üzrə təhsilin önəmli məqsədi gənclərə onları narahat edən məsələlərlə bağlı fəaliyyətə keçmək imkanı yaratmaqdır.

Buna görə də, biz növbəti addımla bağlı bəzi ideyalar təqdim edirik, məsələn, sonradan bütün qrup üçün hesabat hazırlanması məqsədilə yerli kitabxanada və ya İnternetdə araşdıra biləcəyiniz mövzularla bağlı təkliflər. Biz, həmçinin, daha sonra sınaqdan keçirmək istəyəcəyiniz digər məşğələlərlə bağlı ideyalar irəli sürürük.

**Fəaliyyət üçün fikirlər**

Fəaliyyətə keçmək insan hüquqları üzrə təhsilin önəmli məqsədidir; biz gənclərdə onları narahat edən məsələlərlə bağlı fəaliyyətə keçmək bacarıqlarını inkişaf etdirməyi arzu edirik. Biz bunu xüsusi vurğulayırıq, buna görə də, fəaliyyətə keçməklə bağlı ayrıca Fəsil (3-cü Fəsil) hazırlamışıq və hər məşğələ üzrə fəaliyyət üçün fikirlər təklif etmişik.

**Əsas tarixlər**

BMT və digər təşkilatlar ictimaiyyətin diqqətini insan hüquqları məsələsinin müxtəlif aspektlərinə çəkmək üçün bayram günü və ya xatırlama günü ideyasını irəli sürür. Biz 90-dan çox bu cür "əsas tarixləri" toplamışıq və təklif edirik ki, siz onlardan öz fəaliyyətinizi nümayiş etdirmək üçün istifadə edəsiniz. Məsələn Danimarkada sığınacaq axtaran gənclərdən ibarət qrup kafesi olan yerli Danimarka Qırmızı Xaç Gənclər qrupu ilə birləşərək 20 iyun, Qaçqınlar günündə ictimai tədbir həyata keçirmişlər.

**Əlavə məlumat**

Burada biz birbaşa məşğələyə aid olan əlavə məlumat yerləşdirmişik. Hər bir halda sizə məsləhət görürük ki, www.coe.int/compass saytında məşğələdə qeyd olunmuş xüsusi mövzulara uyğun olaraq məlumat ala biləcəyiniz 5-ci Fəsilə istinad edəsiniz.

**Paylanmalı materiallar**

Bunlar nüsxəsini çap edəcəyiniz rol kartları, faktlardan ibarət vərəqlər və müzakirə kartlarından ibarətdir. Onları öz qrupunuzun ehtiyaclarına uyğun dəyişdirmək hüququna sahibsiniz.

# 3.4 Məşğələlərin həyata keçirilməsi ilə bağlı ümumi məsləhətlər

Məşğələlər çox nadir hallarda sizin gözlədiyiniz formada həyata keçirilir. Bu, Kompas məşğələləri ilə işləməyin həm müsbət, həm də mənfi tərəfidir. Siz baş verənlərə cavab verməli və özünüz düşünməlisiniz. Yadda saxlamalı olduğunuz əsas məsələ: qarşıya aydın məqsədlər qoyun və hazırıqlı olun.

## Birgə fasilitatorluq etmək

Əgər mümkündürsə, hər zaman başqa bir insanla birlikdə fasilitatorluq edin. Müəllimlər bunu "komanda tədrisi" kimi qiymətləndirəcək. Bunun praktiki faydası kiçik qrupla işləmək və ya fərdi ehtiyacların qarşılanması ilə məşğul olmaq məsuliyyətini bölüşən iki insanın olmasıdır. İki insan fasilitatorluğu həyata keçirdikdə marağın qorunub saxlanması üçün sürət və ritmi dəyişmək daha asan olur. İşlər planlaşdırıldığı kimi getmədikdə, 2 fasilitator bir-birinə dəstək ola bilər, həmçinin, təkbaşına bunu etmək əvəzinə digər bir insanla birlikdə işləmək daha faydalıdır.

Birlikdə fasilitatorluq etmək hər iki fasilitatordan məşğələni birlikdə hazırlamağı və ayrı-ayrılıqda hər birinin öz rolunu bilməsini tələb edir. Daha yaxşı olar ki, məşğələləri qrup halında, gəncləri də cəlb etməklə hazırlayasınız.

## Diqqətlə hazırlamaq

Məşğələ barəsində bütün məlumatları oxuduğunuzdan əmin olun. İki dəfə oxumağınız daha yaxşı olardı! Beyninizdən məşğələni yenidən keçirin; onun necə olacağını canlandırmağa çalışın. Qrupun necə reaksiya verəcəyini və nə deyəcəyini xəyal edin. İştirakçıların sizə bilmədiyiniz sualları ünvanlaması qaçılmaz haldır. Lakin bu belə də olmalıdır; siz də gənclərlə birlikdə öyrənmək üçün oradasınız. Buna baxmayaraq, əsas məlumatları oxumaqla kifayət qədər məlumatlı olmağınızdan əmin olmalısınız.

Paylamalı olduğunuz bütün materialların hazır olduğundan, eləcə də bəzi şəxslər düşündüyünüzdən daha çox istədikdə, bəziləri qələmi sındırdıqda və ya marker axdıqda və bu kimi digər hallarda onlara təqdim edəcəyiniz bir neçə əlavə ləvazimatın təmin olunduğundan əmin olun.

## Vaxtın idarə olunması

Diqqətlə planlaşdırın və əlinizdə olan vaxta çox məsələni sığdırmağa çalışmayın. Əgər məşğələ sizin planlaşdırdığınızdan daha çox vaxt aparırsa, siz müzakirə üçün də kifayət qədər vaxt ayırmaq məqsədilə onu qısaltmalısınız (34-cü səhifədə tədris dövrü bölməsindəki qeydlərə baxın). İştirakçıları da bu məsələyə cəlb edib, onlarla məşğələnin həllini dərhal dayandırmaq və ya daha beş dəqiqə davam etmək yaxud başqa məsələ ilə bağlı məsləhətləşmək yaxşı fikirdir.

Digər tərəfdən, əgər sizin kifayət qədər vaxtınız varsa, dərhal müzakirəyə keçməyə tələsməyin, fasilə elan edin və ya əyləncə üçün enerjini artıran məşğələni həyata keçirin.

## Təhlükəsiz mühit yaratmaq

Sizin birlikdə işlədiyiniz gənclər araşdırmaq, kəşf etmək və bir-birləri ilə ünsiyyətdə olmaq və bölüşmək üçün özlərini rahat hiss etməlidirlər. Səmimi, dostyana, həvəsləndirici olun və yumor hissi ilə yanaşın. Jarqonlardan istifadə etməyin və iştirakçıların anlamadığı dildə danışmayın. İnsanlar nə baş verdiyini bildikdə özlərini daha təhlükəsiz hiss edirlər, buna görə də, məşğələni necə təqdim edəcəyiniz çox önəmlidir. Siz heç nədən, birbaşa başlaya bilməzsiniz; siz məşğələni tərtibatda təqdim etməlisiniz. Bunun bir yolu ünsiyyətə təkan verən məşğələdən istifadə etməkdir.

## Əsas qaydaların müəyyənləşdirilməsi

Qrupdakı hər kəsin iştirak edəcəyi, təcrübəyönümlü məşğələnin əsas qaydalarını başa düşməsi vacibdir. Məsələn, hər kəs sessiya üzrə öz məsuliyyətini həyata keçirməlidir; hər kəsin eşidilmək, danışmaq və iştirak etmək imkanı olmalıdır. Heç kəs narahat hiss etdiyi bir mövzu barəsində danışmaqla bağlı özünü təzyiq altında hiss etməməlidir. Siz bu əsas qaydalar qrup və ya siniflə ilk çalışmağa başladıqda müzakirə edilməli və razılaşdırılmalıdır, eləcə də siz vaxtaşırı, xüsusilə qrupa yeni üzvlər qoşulduqda onları yenidən nəzərdən keçirmək istəyə bilərsiniz.

## Dəqiq təlimatların verilməsi

Həmişə hər kəsin təlimatları başa düşdüyündən və nə etməli olduğunu bildiyindən əmin olun. Məşğələnin nədən ibarət olduğunu və özündə nəyi birləşdirdiyini ümumi qaydalarla izah etməyə başlamaq (məsələn, məşğələ rol oyunundan ibarətdir) həmişə yardımçı olur. Verilmiş tapşırığın hansı müddətə həll olunmalı olduğunu insanlara izah edin və vaxtın bitməyinə beş dəqiqə qalmış onu tamamlamaları üçün xəbərdarlıq edin.

## Müzakirələrə fasilitatorluq etmək

Müzakirələr insan hüquqları təhsili prosesinin mərkəzidir. Qrupdakı hər kəsin iştirak etmək istədikləri təqdirdə, bunu edə bilmələrinə diqqət edin. Qrupa xas olan sözlər, ifadələr və dildən istifadə edin və tanış olmadıqları sözləri onlara izah edin; 620-ci səhifədə lüğət var. İştirakçıları öz fikirlərini təklif etməyə dəvət edin. İnsanların məsələnin birbaşa öz həyatlarına uyğun olduğunu görməsi üçün qlobal və yerli aspektlərin balanslaşdırıldığından əmin olun.

Bəzən müzakirələr "dirənir". Siz bunun səbəbini aydınlaşdırmalısınız. Bu, məsələn, mövzunun çox işlənməsi və ya çox emosional mövzu olması ilə əlaqədar baş verə

bilər. Siz sual ilə müdaxilə etmək, istiqaməti dəyişmək və ya davam etmək barəsində qərar qəbul etməlisiniz. Siz heç vaxt iştirakçıların suallarına və ya problemlərinə cavab verməli olduğunuzu düşünməməlisiniz; qrup özü bir-birinə qulaq asmaq və bir-biri ilə paylaşmaq vasitəsilə öz cavablarını tapmalıdır. Onlar, əlbəttə ki, sizin fikriniz və ya məsləhətinizi soruşa bilər, lakin özləri qərar verməlidir.

## Təhlil və qiymətləndirmə

Heç bir Kompas məşğələsi təhlil və qiymətləndirmə mərhələsi olmadan tamamlanmamışdır; məşğələnin bu hissəsi tədris üçün əsasları təmin edir və iştirakçılara öyrəndiklərini daha geniş kontekstə tətbiq etməyə yardım edir. İştirakçılara məşğələni tamamlamaq üçün və zərurət yarandıqda nə baş verdiyini və nə öyrəndiklərini müzakirə etmədən əvvəl roldan çıxmaları üçün kifayət qədər vaxt verin. Hər bir məşğələnin sonunda insanların öyrəndikləri və onların həyatları, cəmiyyətləri və daha geniş dünya ilə öyrəndiklərinin necə əlaqəli olduğuna dair danışın. Düşünmədən, insanlar təcrübə ilə çox şey öyrənmirlər.

Təklif edirik ki, siz təhlil və qiymətləndirmə prosesini bir-birinin ardınca aşağıdakı məsələlər üzrə sualları ünvanlamaqla aparmağa çalışasınız:

- məşğələ zamanı nə baş verdi və onlar özlərini necə hiss etdilər
- onlar özləri haqqında nə öyrəndilər
- onlar məşğələlərdə toxunulan məsələlər və əlaqədar insan hüquqları məsələləri barəsində nə öyrəndilər
- onlar necə davam edə bilər və öyrəndiklərini necə istifadə edə bilərlər

## Nəzərdən keçirmə

Öyrəndiklərinizin və etdiklərinizin müntəzəm olaraq qiymətləndirilməsi və sınaqdan keçirilməsi vacibdir, çünki bu sizin üçün işlərin necə baş verdiyinin ümumi mənzərəsini yaradır və təcrübənizi inkişaf etdirməyə yardım edir. Sizin nə zaman nəzərdən keçirməyiniz vəziyyətdən asılıdır: bu, seminarda günün sonunda və ya iki və ya üç dərs və ya görüş sonrası ola bilər.

İnsanlar düşünmədən, yalnız təcrübə ilə çox çey öyrənmirlər

Nə zaman nəzərdən keçirməyinizdən asılı olmayaraq, siz dincəlmək və düşünmək üçün vaxt ayırmalısınız:

- Sizin fikrinizcə, məşğələ (məşğələlər) necə yerinə yetirildi: hazırlıq, vaxt və s.
- İştirakçılar nə öyrəndi və tədris məqsədlərini qarşıladılar
- Nəticələr nədir: sizin həyata keçirdiyiniz bu məşğələlərin nəticəsində indi qrup nə edəcək
- Siz özünüz məsələlər və fasilitatorluqla bağlı nə öyrəndiniz

Qrupla bərabər vaxtaşırı nəzərdən keçirmə də önəmlidir və əyləncəli olmalıdır, buna görə də, xüsusilə əgər təhlil və qiymətləndirmə mərhələsinə kifayət qədər çox vaxt sərf etmisinizsə, bu nəzərdən keçirməni başqa bir müzakirəyə çevirməkdən qaçının. Siz 2-ci Fəsildə, 350-ci səhifədə “Nəzərdən keçirmək üçün məşğələlər” başlığı altında bədən dili, şəkil və qəliblərdən istifadə edilən bir sıra metodlara rast gələcəksiniz.

## Sürət

Məşğələlərin bir çoxu 90 dəqiqə ərzində tamamlana bilər, buna görə də, sürətin idarə olunması o qədər də çətin olmalı deyil. Buna baxmayaraq, məsələn, məşğələnin özü və təhlil və qiymətləndirmə mərhələsi arasında və ya təhlil və qiymətləndirmə və müzakirə mərhələsi arasında qısa fasilələr etmək insanların aktiv iştirakını təmin etmək üçün faydalı ola bilər. Əgər iştirakçıların enerjisi düşürsə, enerjini qaldıran məşğələlərdən istifadə edə bilərsiniz. Həmçinin, yadda saxlayın ki, məşğələni yerinə yetirdikdən sonra insanlara sakitləşmək və istirahət etmək imkanı yaratmaq çox vacibdir.

## Əks əlaqə yaratmaq

Əks əlaqə yaratmaq bir kəsin etdiyi bir məsələ barəsində şərh verməkdir. Əks əlaqənin verilməsi və ya alınması bacarıqdır və siz qrup üzvlərinə bunu necə etməyi öyrətməli olacaqsınız.

Əksər hallarda, verilən əks əlaqə natiqin niyyəti tam fərqli olsa da, tənqid kimi qəbul olunur. Əks əlaqə ilə bağlı əsas sözlər "hörmət", "konkret" və "arqumentlər"-dir.

Bu zaman qarşıdakı insana hörmət etmək, onun dedikləri və ya elədikləri üzərində fikrini cəmləmək və öz düşüncənizə görə səbəblər irəli sürmək vacibdir. Siz deyə bilərsiniz ki, "Mən sizin bir az öncə dediyinizlə tamamilə razı deyiləm, çünki…" Neqativ əks əlaqə vermək bir çox insana xasdır, bu da ağır ola bilər. Fasilitator olaraq sizin rolunuz insanların dəstəkləyici formada əks əlaqə yarada bilməsi üçün müxtəlif üsullar tapmaqdan ibarətdir. Məsələn, aşağıdakı yollarla:

- insanların müsbət fikirlə əks əlaqə verməyə başlamasını təmin etmək,
- digər insana hörmət etmək və heç bir təhqiredici ifadə səsləndirməmək,
- insan deyil, onun davranışı üzərində fikrini cəmləmək,
- onların dediyinə səbəb tapmaq, və
- "mən mesajları"-ndan istifadə etməklə onların dedikləri ilə bağlı məsuliyyəti öz üzərinə götürmək.

Əks əlaqəni, xüsusilə fikir ayrılığı olduqda qəbul etmək çətindir. Sizin rolunuz gənclərə öz təcrübələrindən nəticə çıxarmağa yardım etmək və onlara dəstək verildiyini, ruhdan salınmadıqlarını hiss etdirməkdən ibarətdir. Gəncləri əks əlaqəyə diqqətlə qulaq asmağa və dərhal özlərini və öz mövqelərini müdafiə etməyə başlamamağa istiqamətləndirin. Xüsusilə insanların əks əlaqə yaradan insanın nə demək istədiyini anlaması və deyilənləri qəbul və ya rədd etməzdən əvvəl dəyərləndirmək üçün vaxt ayırması vacibdir.

## İştirakçıların müqaviməti

İştirakyönümlü məşğələyə cəlb olunmaq çox şey tələb edir və siz, məsələn, müzakirə, şəkil çəkmək, rol oyunu və ya musiqi kimi bir çox müxtəlif üsuldan istifadə edərkən bütün məşğələlərin bütün iştirakçılara hər zaman uyğun gəlməməsi faktı qaçınılmazdır. İştirakçı əmin olduğu və hər hansı bir məşğələni yerinə yetirməyi nəyə görə sevmədiyini izah edə bildiyi təqdirdə, siz dialoq və danışıqlar vasitəsilə onun ehtiyaclarını qarşılamağa qadir olacaqsınız.

"Müqavimət" dedikdə biz məqsədli şəkildə pozucu davranışı nəzərdə tuturuq. Bütün fasilitatorlar iştirakçılar tərəfindən bu və ya digər bir vaxtda müqavimət təcrübəsi yaşayırlar. Müqavimət müxtəlif formalarda ola bilər. Təhlükəli bir gənc öz stulunu oynatmaq, yanındakılarla pıçıldaşmaq və ya söhbət etməklə sizə mane ola bilər. Sessiyanı pozmağın daha incə yolu uyğun olmayan sualların verilməsi və ya hər şeyi zarafata çevirmək ola bilər. Müqavimətçinin başqa bir "oyun"u "fasilitatoru sarsıtmaq"dır. Onlar belə deyə bilər "Siz başa düşmürsünüz, sizin gənc olmağınızdan uzun zaman ötmüşdür" və ya "müzakirələr çoxdur, niyə biz daha çox məşğələ yerinə yetirmirik?". "Oyun"un üçüncü növü öyrənməkdən qaçınmaqdır, məsələn, insanlar "bəli, amma" oyunu oynadıqda.

Aydındır ki, ən yaxşısı bacardığınız halda müqavimətdən qaçmaqdır. Məsələn, qrupdakı hər bir şəxsdən xəbərdar olun və hər hansı məşğələ zamanı və ya rol oyununun və ya simulyasiyanın hər hansı bir hissəsində yarana biləcək həssas

emosiyaları öncədən nəzərə alın. Hər kəsin özünü təhlükəsiz hiss etdiyindən və barəsində danışmağı rahat hiss etmədiyi bir şey barəsində danışmaqla bağlı özünü heç vaxt təzyiq altında hiss etmədiyindən əmin olun.

İştirakçılara məşğələdən əvvəl isinmək və ondan sonra sakitləşmək üçün vaxt verin.

Sonda, hər kəsin öz fikri və iştirakına kifayət qədər dəyər verildiyini hiss etməsi üçün təhlil və müzakirə hissəsinə kifayət qədər zaman ayırmağı yadda saxlayın.

Siz özünüz üçün çətin vəziyyətdən çıxmağın ən yaxşı yolu barədə qərar verməlisiniz, lakin adətən problemi həll etməyin ən yaxşı yolunun onu açıq-aşkar izah etmək və bütün qrupa həll yolu ilə bağlı müraciət etmək olduğunu yadda saxlayın. Yalnız bir qrup üzvü ilə uzun müzakirələr aparılması və ya arqumentlərin irəli sürülməsinə yol verməyin. Bu, digər iştirakçılar arasında narazılıq və məyusluğa səbəb ola və onlar maraqlarını itirə bilərlər.

## Mübahisənin idarə olunması

Mübahisə düzgün şəkildə idarə olunduqda faydalı və yaradıcı ola bilər; əslində, bu, insan hüquqları üzrə təhsilin qaçılmaz və lazımi faktorudur! İnsan hüquqları məsələlərinə toxunduqda, fikir ayrılığı və emosiyaların mövcudluğu qaçılmazdır, çünki insanlar dünyanı müxtəlif cür görür və onların inamları, fikirləri və ədalətsiz fikirləri sual altına alınacaqdır.

Mübahisə insan hüquqları üzrə təhsilin qaçılmaz və lazımi faktorudur.

İnsan hüquqları üzrə təhsilin bir hissəsi kimi mübahisə insanlara tənqidi düşüncə və əməkdaşlıq, özünü başqasının yerinə qoya bilmə və ədalət hissi kimi bacarıq və yanaşmaların inkişaf etdirilməsi üçün imkan yaradır.

Mübahisələrin qarşısını almaq çətindir və xüsusilə, əgər mübahisə iştirakçıların emosiyalar və dəyərlərlə bağlı suallarla məşğul olmaq istəməmələri, qrup işi üçün onların kifayət qədər bacarıqlarının olmaması və ya onların bu məsələ və ya dəyərlərlə bağlı tamamilə fərqli düşüncələrə malik olması ilə bağlı baş verirsə, mübahisələri həll etmək çox çətin olur. Sakit və soyuqqanlı olmağa və qrupdakı fərdlər arasındakı mübahisəyə qoşulmamağa çalışın.

Kompas məşğələləri təhlükəsiz mühitdə tədris təcrübələri təmin edir. Onları diqqətlə seçin və lazım olduğu formada uyğunlaşdırın. Onlardan iştirakçıların məsələlərlə bağlı fərqli fikirlərinin üzə çıxarılması üçün istifadə edin; fikir ayrılıqlarının tamamilə normal olduğunu və insan hüquqlarının universallığının hər kəsin onları eyni formada görməsi demək olmadığını bildirin.

Bəzi məsləhətlər:

- Təhlil və müzakirə üçün kifayət qədər vaxt ayırın. Əgər lazımdırsa, daha çox vaxt istifadə edin.
- İnsanların mövqeyini, fikirlərini və maraqlarını aydınlaşdırmağa kömək edin.
- Qrupdakı gərginliyi azaldın. Məsələn, hər kəsə kiçik qruplarda oturub söhbət etməklə bağlı göstəriş verin və ya vəziyyəti perspektivə uyğunlaşdırmaq üçün nəsə deyin.
- Hər kəsi bir-birinə aktiv şəkildə qulaq asmağa təşviq edin.
- İnsanları ayıran faktorlardan daha çox, onları birləşdirən faktorlara diqqəti çəkin.
- Yekdillik axtarın. İnsanları güzəştə getmək və səsləndirdikləri mövqelərdən çəkindirmək əvəzinə, ortaq maraqlara diqqəti cəmləməyə sövq edin.
- Mübahisəni “yenidən alovlamadan” problemi həll edən yollar axtarın.
- Mübahisəyə cəlb olunmuş insanlarla başqa vaxt təklikdə söhbət etməyi təklif edin.

Daha dərin və ciddi mübahisələr baş verdiyi təqdirdə, həll yolu axtarmağı təxirə salmaq və və problemin həll olunması üçün daha uyğun şəraitin yaranmasını

gözləmək daha yaxşı olar. Bu arada, mübahisəni başqa çərçivədən necə həll etməyin yolunu axtara bilərsiniz. Bununla yanaşı, mübahisənin həllini təxirə salmaqla siz mübahisəyə cəlb olan şəxslərə vəziyyəti götür-qoy etmək və daha yeni yanaşmalar və həll yolları ilə geri qayıtmaq üçün vaxt verirsiniz.

Qrupda baş verən mübahisələr və onların həll yolları daha geniş dünyada mübahisələrin səbəbləri və çətinlikləri barədə dərketmə və anlamanın inkişaf etdirilməsi üçün istifadə oluna bilər. Bunun əksi də doğrudur; beynəlxalq münaqişələrin müzakirəsi yanımızda baş verən mübahisələrin dərk edilməsinə yol aça bilər.

# 3.5 Kompas məşğələlərini öz ehtiyaclarınıza uyğunlaşdırmaq

*Kompas*dakı məşğələlər bir çox formal və qeyri-formal təhsil müəssisələrində sınaqdan keçirilmiş və yoxlanmışdır. İstifadəçilərin fikrincə, Abraham Linkolnun dediyi iddia olunduğu kimi, “siz bəzi insanları həmişə və bütün insanları bəzən razı sala bilərsiniz, lakin siz bütün insanları hər zaman razı sala bilməzsiniz”. Bu, tamamilə doğrudur! Kompas sizə öz işinizdə yardım etmək məqsədilə bələdçi rolunu oynayır; bu resept kitabı və ya daş lövhələr üzərində yazılmış qayda deyil.

Kompasın müəllifləri 2 əsas çətinliklə üzləşiblər. Birincisi, əlavə olunmuş məsələlərin geniş auditoriyaya uyğun olması üçün məşğələləri kifayət qədər ümumi, eyni zamanda, bəzi xüsusi qrupların məsələ ilə bağlı narahatlıqlarının dərinliyinə varmaq üçün kifayət qədər detallı etməkdir. İkinci çətinlik isə onun tam əksidir: bəzi qruplar üçün çox vacib olan məsələlərin dərinliyinə varan, lakin digər qruplarda da qaldırılması uyğun olan və çox həssas olmayan məşğələləri təqdim etmək.

Bu səbəblərə görə, məşğələlər birlikdə işlədiyiniz gənclərin ehtiyaclarını tamamilə ödəyəcək şəkildə uyğunlaşdırılmalı və inkişaf etdirilməlidir. 61-ci səhifədə bizim Kompasda istifadə etdiyimiz “adi üsullar” barədə bölmə var. Müxtəlif üsulların necə işləndiyini bilmək sizə məşğələləri uyğunlaşdırmağa kömək edəcək.

## *Məşğələlərin uyğunlaşdırılması*

Məşğələlər bizim işlədiyimiz vasitələrdir: siz seçdiyiniz məşğələnin həm sizin müraciət etmək istədiyiniz məsələlər ilə əlaqəli olmasından, həm də bu üsulun sizin qrupunuza uyğun gələcəyindən əmin olmalısınız.

Məşğələni birlikdə işlədiyi qrupun ehtiyaclarını ödəyəcək şəkildə qurmaq, dəyişikliklər etmək və uyğunlaşdırmaq fasilitatorun məsuliyyətidir.

### Praktiki suallar

Metodun uyğunluğunu nəzərə alarkən praktiki suallar barədə də düşünün:

**Çətinlik:** Əgər tapşırığın çətinlik səviyyəsi çox yüksəkdirsə, onu daha asanlaşdırmaq üçün yollar axtarın. Məsələn, məsələləri daha məhdudlaşdırın, bəyanat kartlarını yenidən yazın və ya təhlil və müzakirə hissəsi üçün digər sualları tərtib edin. Əgər çətinlik dərəcəsi az olan məşğələlərin insanları tez bezdirəcəyini və ya onların öz bilik səviyyələrini alçaldılmış hiss edəcəklərini düşünürsünüzsə, o zaman həmin məşğələlərdən mövzuya qısa və əyləncəli giriş olaraq istifadə edin.

**Qrup ölçüsü:** Əgər sizin böyük qrupunuz varsa, əlavə fasilitatorlara ehtiyacınız ola bilər və əlavə vaxt verə bilərsiniz. Əlavə vaxt verdiyiniz təqdirdə, diqqətli olun,

çünki məşğələ özü və ya təhlil və qiymətləndirmə hissəsi uzana bilər. Təhlil və qiymətləndirmə hissəsində qrupu iki hissəyə bölün və daha sonra, iclasda məruzə etmələrinə icazə verin. Əgər rol oyunu edirsinizsə, iki nəfərə birlikdə oynamağa və ya hər rolu bölüşdürməyə imkan yaradın.

Əgər iştirakçı sayı azdırsa və məşğələ kiçik qrup işini özündə birləşdirirsə, hər kiçik qrupda insan sayını azaltmaq yerinə, kiçik qrupların ümumi sayını azaldın. Bununla, siz hər bir qrup daxilində fikirlərin müxtəlifliyini qoruyursunuz.

**Vaxt:** Məşğələni iki sessiya çərçivəsində həyata keçirmək barədə düşünə bilərsiniz. Alternativ olaraq, daha çox vaxtdan istifadə etdikdə məşğələni planla həyata keçirməyə çalışın, məsələn, məktəbdə dərs cədvəlində 2 sessiya planlaşdırın. Əgər gənclər klubunda işləyirsinizsə, məşğələni həftəsonları həyata keçirin.

**Xülasə:** Burada siz metoddan istifadə ilə bağlı ümumi məsləhətlər də daxil olmaqla, məşğələnin əsası olan ümumi üsulların qısa izahı ilə tanış ola biləcəksiniz.

Materiallar: İmprovizasiya edin! Əgər flipçart kağızınız yoxdursa, o zaman bir rulon divar kağızı alın və onu uzununa hissələrə ayırın. Əgər otağınız kiçik və ya mebellə doludursa və içərisində hərəkət etmək və kiçik qruplar tərtib etmək üçün az yer varsa, o zaman daha böyük otaq tapmağa çalışın və ya hava yaxşıdırsa, niyə çölə çıxmayasınız?

**Hazırlıq:** Yaradıcı düşünün! Əgər siz nəyinsə surətini çıxarmaq istəyirsinizsə və kserks maşınınız yoxdursa, lakin kompyuter və printeriniz varsa, o halda rəqəmsal şəkil çəkin və kompyuter vasitəsilə nüsxələrini çıxarın.

**Təlimatlar:** Bəzi məşğələlər 2 hissəlidir. Yalnız ilk hissə sizin məqsədlərinizi ödəməyə imkan verə bilər.

**Variantlar:** Variantlar məşğələnin əslindən daha çox və ya az vaxt aparacaq. Buna şərait yaradın.

**Təhlil və qiymətləndirmə:** Əgər təklif olunan suallar sizin ehtiyaclarınızı ödəmirsə,digərlərini tərtib edin. Ruh yüksəkliyi üçün qeydlərdən istifadə edin. Lakin həmişə insan hüquqları məsələlərinin aydın olmasından əmin olun.

**Sonrakı fəaliyyət üçün təkliflər:** İrəli sürülən təkliflər uyğun olmadığı və ya praktiki problemləri təqdim etdiyi təqdirdə, digərlərini tapın. Sonrakı fəaliyyət üçün məşğələaxtarmaq üçün məşğələlərin 72-ci səhifədəki qısa xülasəsindən istifadə edin.

**Fəaliyyət üçün fikirlər:** İrəli sürülən təkliflər uyğun olmadığı və ya praktiki problemləri təqdim etdiyi təqdirdə, digərlərini tapın. “Hərəkətə keçmək” bölməsindəki 3-cü fəsilə istinad edin.

## *Məşğələlərin tərtib olunması*

Məşğələlərin hazırlanması onların uyğunlaşdırılmasından daha radikaldır. Siz məzmunu, məsələn, məşğələnin içində təqdim olunmuş bəyanat kartları və ya rol kartlarını bəyənə bilərsiniz, lakin başqa metodun daha uyğun olduğunu düşünə bilərsiniz. Məsələn, 199-cu səhifədəki “Bircə dəqiqə” məşğələsindəki bəzi bəyanat kartlarından və 329-cu səhifədəki “Siz harada dayanırsınız” məşğələsində əlavə olunmuş metoddan istifadə edə bilərsiniz.

Alternativ olaraq, siz sığınacaq və qaçqınlar məsələləri üzərində işləmək istəyə bilərsiniz və “İçəri girə bilərəm?” məşğələsindəki ideyaları bəyənə bilərsiniz, lakin bu və ya digər səbəbdən rol oyununun uyğun olmadığını düşünə bilərsiniz. Bu halda, siz yenə də qrupu daha kiçik qruplara bölə və rol kartlarını paylaya bilərsiniz, lakin bundan sonra 64-cü səhifədə təqdim olunan “Balıq qabı” texnikasından istifadə edə və iki qaçqın və iki miqrasiya məmuruna öz məsələləri üzrə mübahisə etməyə vaxt verə bilərsiniz. Digər seçim isə, xüsusilə böyük siniflərlə işləyən müəllimlər üçün,

panel debatı keçirmək (64-cü səhifəyə baxın) və ya rol kartlarını oxumaqla hər kəsin məsələlərlə bağlı məlumatlı olduğunu təmin etmək və daha sonra, məsələn, “Bu sinifdəki hər kəs inanır ki, qaçqınlar bizim ölkəmizdə yaxşı qarşılanmalıdır” mövzusunda debat keçirməkdir.

## Ümumi məsləhət

Gəncləri onları əhatə edən dünyada, yerli və qlobal səviyyədə baş verən hadisələr barəsində məlumatlı olmağa həvəsləndirin və onları maraqlandıran məsələləri sizin işiniz – sizin birgə işiniz üçün başlanğıc nöqtəsi seçin. Necə və nə öyrənmək istədikləri barədə qərar qəbul edərkən gəncləri də cəlb etməyə çalışın. Onların praktikaya necə cəlb olunduğu formal və ya qeyri-formal təhsil müəssisəsində işləməyiniz, gənclərin yaşı, malik olduğunuz vaxt və resurslardan asılı olacaqdır. Lakin mümkün olan hər bir halda iştirakçıları hansı növ məşğələləri yerinə yetirmək istədikləri barədə qərar verməyə cəlb edin.

İştirakçılar utanmamalı və özləri və inamları barəsində arzuladıqlarından artıq məlumat verməyə məcbur edilməməlidirlər.

Mübahisəli və provokativ məsələləri ehtiyatlı şəkildə və qayğı ilə həll edin. Əgər məsələ sizin cəmiyyətinizdə qadağan edilmişdirsə və rəhbər şəxslərin müqavimətinə səbəb olma ehtimalı varsa, məsələyə birbaşa həll tapmağa çalışmaq yerinə, digər istiqamətdən yanaşın və ya fərqli çərçivəyə salın. Məsələn, tarixi nümunədən istifadə etməklə, insanların ifadə azadlığı ilə bağlı hüquqlar üzərində düşünməyə şərait yaradın. Din, evlilik və ailə ilə bağlı hüquqlar ilə əlaqədar suallara “İnananlar” (105-ci səhifə) və ya “Tezliklə köhnələcək” (272-ci səhifə) məşğələlərində toxunulmuşdur.

Bizim bəzi məsələlərin mübahisəli və ya ziddiyyətli olduğu dünyada yaşadığımız reallığı ilə üzləşmək insan hüquqları üzrə təhsilin önəmli hissəsidir. Lakin mübahisəli və provokativ hüquqlarla bağlı məsələlərə toxunduqda iştirakçıların özlərini təhlükəsiz hiss etməsini, narahat hiss etməmələrini və ya özləri və öz inamları barədə danışmaq istədiklərindən daha çox danışmağa məcbur edilməmələrini təmin etməlisiniz. Bəyanat məşğələləri və ya tematik araşdırmalar kimi metodlar insan və mövzu arasında müəyyən məsafə yaradan yaxşı metodlardır. Digər bir yanaşma isə iştirakçıları müxtəlif mövqelərdən araşdırma aparmağa sövq etməkdir. Məsələn, onlar bir kəsi azlıq perspektivindən qrup qarşısında çıxış etməyə dəvət edə bilərlər.

Əgər qrupunuzdakı insanlar məsələ ilə bağlı qruplara bölünübsə, məsələn, əgər azlıq müəyyən bir məsələnin onların həyatı üçün vacib və ya uyğun olmadığını düşünürsə, o zaman onlardan birbaşa olaraq, öz fikirlərini izah etməyi və əsaslandırmağı xahiş edin. Siz onların təxəyyüllərini elə cəlb etməlisiniz ki, onlar məsələnin araşdırılması ideyasına açıq olsunlar. Film göstərmək, səfər təşkil etmək (qaçqın mərkəzinə, evsiz insanlar üçün mərkəzə və ya etnik mağaza və ya kafeyə) və ya məruzəçinin çağırılması – hər biri marağın cəlb edilməsi üçün yaxşı üsuldur.

Gənclər fəaliyyətə keçmək barədə düşünməyə başladıqda siz onlara etməyi təklif etdiklərinin nəticələri barədə məsləhət verməyə hazır olmalısınız. Onlar təklif etdikləri fəaliyyətin mümkün və ehtimal olunan şəxsi, sosial və siyasi nəticələri barədə tam məlumatlı olmalıdırlar. Gəncləri özləri üçün düşünmək və məsuliyyət götürməyə təşviq etmək insan hüquqları üzrə təhsilin mühüm məqsədidir; buna görə də, siz öncədən hiss etdiyiniz hər bir çətinlik barədə danışmalı, öz fikirlərinizə görə səbəblər irəli sürməli və məsləhət verməlisiniz. Əgər siz onları bəzi fəaliyyət formalarının uyğun olmadığına inandırmaq istəyirsinizsə, o zaman alternativlər təklif etməlisiniz. (fəaliyyətə keçməyin müxtəlif formaları ilə bağlı ideyalar üçün 3-cü Fəsildəki “Hərəkətə keçmək” bölməsinə istinad edin)

# 3.6 Müəllimlər üçün xüsusi qeydlər

Müəllimlərin təəssüratlarına əsasən, Kompasdan bütün Avropada dil dərsləri, coğrafiya, tarix və vətəndaşlıq dərslərində və siyasi dərslərdə istifadə olunur. Məsələn, dil dərslərində "Hər kəs Fərqli - Hər kəs Bərabər" məşğələsindəki (97-ci səhifə) sitatlardan lüğət və dərk etməni inkişaf etdirmək üçün mətn kimi, "Bircə dəqiqə" məşğələsi (199-cu səhifə) isə danışıq bacarıqlarını inkişaf etdirmək üçün istifadə oluna bilər. Məsələn, uşaq əməyi, gender fərqi və təhsil imkanı barədə statistika (www.coe.int/compass saytında 5-ci Fəsildə göstərilən ümumi məlumatın müxtəlif hissələrində də yerləşdirilmişdir) riyaziyyat dərslərində dərslik nümunələrini əvəz etmək üçün istifadə edilə bilər və bu yolla, insan hüquqları məsələlərinə marağın artırılması və maarifləndirmənin aparılmasına yardım edə bilər.

"Həyat şəbəkəsi" biologiya dərslərində qida şəbəkələri və ya biomüxtəliflik dərslərinə giriş olaraq istifadə oluna bilər; "İki şəhərin nağılı" sosial elmlərdə; "İnananlar" dini təhsildə; "Aşığın hekayəsi" və "Ehtiyatlı olun, biz görürük" məşğələləri coğrafiya dərslərində ticarətə başqa bir perspektiv qatır və "Hüquq mübarizləri" məşğələsi isə beynəlxalq məsələlərlə bağlı dərslərə maraq gətirir. İmkanlar sonsuzdur.

Sinif şəraitində insan hüquqları üzrə təhsilin məqsədlərinin qarşılanması ilə bağlı bəzi əsas çətinliklər var.

Nəzərə alınmalıdır ki, sinif otağı şəraitində insan hüquqları üzrə təhsilin məqsədlərinin qarşılanması ilə bağlı bəzi əsas çətinliklər var. Məsələn, standart dərs müddəti bütün məşğələlərin yerinə yetirilməsi üçün kifayət etməyə bilər, yalnız qısa məşğələlər yerinə yetirilə bilər və ya şagirdlər öyrəndikləri barədə qərar qəbul etmək iqtidarında olmaya bilər. Bununla yanaşı, öyrəndiklərini tətbiq etmək üçün onların seçimləri məhdud ola bilər, lakin bunlar aradan qaldırıla bilməyən çətinliklər deyil. Məsələn, müəllimlər məşğələnin müddətini iki dəfə çox artırmaqla və ya normal dərs cədvəli ləğv olunduqda, "mövzu həftələri" zamanı imkanlardan istifadə etməklə dərs cədvəlinin təzyiqi kimi problemlərdən qurtulmaq üçün yollar tapırlar.

Bəzi ölkələrdə insan hüquqları üzrə təhsil "əzbərçilik"dən (müəllim şagirdlərə əzbərləmək məqsədilə məlumat verir) qurtulmaq, tənqidi düşüncə və daha azad tədrisin təşviqinə doğru istiqamətlənmək məqsədilə sinif praktikasında dəyişiklik tələb edir. Müəllimlərin adətən təlimçi, məsləhətçi və ya fasilitator rolunda çıxış etmədikləri ölkələrdə bu dəyişikliklər müəllim və şagirdlərin özlərini sorğu və ifadə azadlığının inkişaf etdiyi demokratik atmosferdə işləməyə hazır hiss etməsi məqsədilə tədricən baş verməlidir. Kompasda istifadə olunan metod və üsulların dərk edilməsi müəllimlərə dəyişiklik etməyə yardım edəcəkdir; bu aşağıda 61ci səhifədə izah olunmuşdur və böyük siniflərdə müzakirələrin təşkil edilməsi ilə bağlı məsləhətləri də özündə birləşdirir. Fasilitatorluq bacarıqlarının inkişaf etdirilməsinin digər yolu bu iş üsulunda təcrübəsi olan bir şəxslə işləməkdir. Məsələn, yerli insan hüquqları təşkilatından bir təlimçini sizinlə birgə iclas keçirməyə və ya komandaya dərs keçməyə dəvət edin.

İdeal olaraq, bütün fənlər üzrə müəllimlər ilkin və davamlı təlim çərçivəsində sistematik olaraq müvafiq bacarıqlara yiyələnməlidirlər. Vətəndaşlıq və insan hüquqları üzrə təhsilə bütün müəllimlər necə dəstək ola bilər: bacarıqların inkişafı üçün çərçivə nəşrində bunun necə həyata keçirilməsi ilə bağlı əlavə məlumat əldə edə bilərsiniz. Danimarka məktəblərinin dil dərslərində Kompas və Hər kəs Fərqli - Hər kəs Bərabər Təhsil Paketindəki təcrübəyönümlü məşğələlərdən

istifadə etməklə bağlı bu yaxınlarda aparılmış tədqiqatda bir çox praktiki çətinliklər aşkarlanmışdır.

İnsan hüquqları üzrə təhsil zorla qəbul etdirilə və ya diktə edilə bilməz.

Müşahidələr hər kəsin məşğələlərdən böyük zövq aldığını və müəllim və tələbələrin bu prosesdə çox aktiv iştirak etdiklərini göstərdi. Lakin təhlil və qiymətləndirmə mərhələlərində bəzi çətinliklər üzə çıxmışdır. Tələbələr öz normal dərs abu-havalarından çıxmaqda çətinlik çəkmişlər və öz şərhlərini bir-birilərindən daha çox müəllimə ünvanlamışlar. Bu isə o deməkdir ki, onlar arasında dialoq və azad fikir mübadiləsi baş tutmamış və ya eyni səviyyəli tədris amilləri mövcud olmamışdır. Tələbələr müəllimlərdən şərh və ya düzəliş və müəllimlərin onları danışmağa dəvət etməsini gözləyirdilər. Nəticədə, tələbələr vaxtlarını danışılanlara qulaq asmaq və bir-birilərinə cavab verməkdən daha çox nə demək istədikləri barədə düşünmək üçün sərf etmişdirlər. Bununla yanaşı, həmişəki dərs dinamikasını dəyişmək də mümkün olmamışdır, belə ki, fəal tələbə yenə də fəal iştirak etmiş, digərləri isə vaxtını yalnız əylənməklə keçirmişdir.

Nəticə olaraq, sinifdə həyata keçirilən məşğələlər tələbələri mövzuya cəlb etmək baxımından dəyərli ola bilər. Lakin insan hüquqları üzrə təhsilin bütün məqsədlərinin, xüsusilə əməkdaşlığa nail olunması, məsuliyyətin dərk edilməsi və müvafiq addımların atılması bacarıqlarının inkişafına nail olunması üçün məhdudiyyətlər yenə də ola bilər. Buna baxmayaraq, məktəblər 36-cı səhifədə insan hüquqları üzrə təhsilin nəticələri kimi qeyd olunmuş müəyyən bacarıqların inkişaf etdirilməsi üçün önəmli dərəcədə kömək edə bilər, məsələn, aktiv dinləmə və ünsiyyət bacarıqları, tənqidi düşüncə və biliyə həvəs. Eyni qaydada, məktəb şəraitində fəaliyyətə keçmək də ilk baxışda problemli görünə bilər. Lakin fəaliyyətə keçmək bir çox məsələni özündə birləşdirə bilər və sinif şəraitində bu, ümumi davranışda inkişaf, dostlarına qarşı daha çox diqqət, şagirdlərin özləri üçün insan hüquqları qəhrəmanları barədə araşdırma aparmağa qərar verməsi və ya tarixə daha sorğulayıcı yanaşmada özünü göstərə bilər. 3-cü Fəsildə necə fəaliyyətə keçməklə bağlı daha çox ideya mövcuddur.

Müəllimlər üçün məşğələlərin bir çoxunu həyata keçirmək çətindirsə, onlar bilməlidirlər ki, insan hüquqları üzrə təhsil, həmçinin, bilik və dərketmənin inkişafıdır, məsələn, insan hüquqlarının nə olması, hüquqların tarixi inkişafı, hüquqi vasitələr və insan hüquqlarının vətəndaş cəmiyyətinin inkişafı və dünyada sülhün bərqərar olması üçün uyğunluğu buraya daxildir və onlar hamısı formal təhsil sistemində öz yerini tapır. İnsan hüquqları və qlobal mövzularla bağlı məlumat (4-cü, 5-ci Fəsil və Əlavələr) öz növbəsində önəmi tədris və təhsil materialı hesab olunur.

7-13 yaş arası uşaqlarla işləyən müəllimlər də uşaqlar üçün insan hüquqları üzrə vəsait olan və məşğələləri məktəb dərslərinin strukturuna daha çox uyğun gələn Kompasitoya müraciət etmək istəyə bilər.

Nəticədə, "hədər getmiş insan hüquqları üzrə təhsil" barədə şərh verdikdə, hüquqlar üzrə təhsili nəzərdə tutan, lakin tədris üsuluna görə insan hüquqları üzrə təhsil hesab olunmayan təhsili nəzərdə tuturuq. İnsan hüquqları üzrə təhsili tədris etməyin bir çox yolları var, lakin bu fəsilin başlığında da dediyimiz kimi, proses vacibdir. Buna görə də, insan hüquqlarını tədris edən hər hansı tədris üsulunun insan hüquqları üzrə təhsil olaraq tanınması üçün o, insan hüquqlarına tələbələr tərəfindən hörmət edilməsini və dəyər verilməsini təmin edəcək şəkildə tədris olunmalıdır. İnsan hüquqları üzrə təhsil məcburi şəkildə qəbul etdirilə və ya diktə oluna bilməz. Bununla yanaşı, insan hüquqları üzrə təhsilə təkcə sinif otağında tədris olunan təhsil kimi yanaşılmamalıdır; o, bütün məktəb və daha geniş cəmiyyətə doğru genişlənməlidir.

# 3.7 *Kompas* məşğələlərini daha da möhkəmləndirən sadə metodlar

Kompas məşğələlərini daha da möhkəmləndirən sadə metod və üsulların dərk edilməsi məşğələlərin müvəffəqiyyətlə həyata keçirilməsi üçün vacibdir.

Biz istifadə etdiyimiz metodları “məşğələ” adlandırırıq, çünki iştirakçılar həm zehni cəhətdən, həm də adətən fiziki cəhətdən aktiv olurlar. Lakin onlar sadəcə məşğələ olmaqdan daha artıqdırlar: onlar aydın təhsil məqsədləri daşıyır və biz onları məqsədli şəkildə istifadə edirik. Bəzən məşğələlər “oyunlar” adlandırılır. Bu, onu göstərir ki, məşğələlər həmçinin əyləncəlidir, onlar, həqiqətən də, elədir! Təəssüf ki, bəzi insanlar “oyun” sözünü uşaqların oynadığı oyunla əlaqələndirir və onlar oyunların daşıdığı ciddi təhsil dəyərini unudurlar.

Sadə metodologiyanın dərk edilməsi həm fərdi məşğələləri birlikdə işlədiyiniz gənclərin ehtiyaclarının qarşılanması üçün uyğunlaşdırdıqda, həm də öz məşğələlərinizi hazırladıqda sizə yardım edəcəkdir. Bununla yanaşı, məşğələləri necə yerinə yetirməklə bağlı təlimatların yazılması zamanı biz düşündük ki, insanlar “qrup işi”, “beyin fırtınası” və “rol oyunu” kimi terminləri bilir və anlayır. Bununla belə, aşağıda onlar izah olunmuşdur.

## *Qrup işi*



Qrup işi bir çox məşğələlərin əsasıdır; bu, insanlar məşğələnin tamamlanması üçün birgə işlədikdə, müxtəlif bacarıqlarını və istedadlarını birləşdirdikdə və bir-birilərinin güclü cəhətlərinə arxalandıqda baş verir.

Qrup işi:

- Məsuliyyətə təşviq edir. İnsanlar etdikləri işə sahib çıxdıqlarını düşündükdə nəticəyə köklənir və yaxşı nəticə əldə etmək üçün çalışırlar.
- Ünsiyyət bacarıqlarını inkişaf etdirir. İnsanlar digərlərinin dediklərinə qulaq asmaq və anlamaq, onların ideyalarına cavab vermək və öz fikirlərini irəli sürmək bacarığına sahib olmalıdır.
- Əməkdaşlığı inkişaf etdirir. İnsanlar tezliklə anlayır ki, ümumi məqsəd uğrunda çalışdıqları zaman bir-biriləri ilə rəqabət etmək yerinə, əməkdaşlıq etməklə daha yaxşı nəticə əldə edirlər.
- Qərar vermək bacarıqlarını da özündə birləşdirir. İnsanlar tez bir zamanda anlayır ki, qərar qəbul etməyin ən yaxşı yolu əlinizdə olan bütün məlumatlardan istifadə etmək və hər kəsi qane edən həll yolu tapmaqdır. Qərar qəbulu prosesindən kənarda qaldığını düşünən bir şəxs qrupun işini müvəffəqiyyətsizliyə uğrada və qrupun digər üzvləri tərəfindən qəbul olunan qərarlara hörmət etməyə bilər.

Qeyd etmək lazımdır ki, müvəffəqiyyətli qrup işi məşğələyönümlü olmalıdır; cavablanması lazım olan aydın sual və ya həlli gözlənilən, açıq şəkildə izah olunmuş bir problem mövcud olmalıdır. İnsanlara sadəcə “məsələni müzakirə edin” demək səmərəli olmayacaqdır. Mövzunun nə olmasından asılı olmayaraq, işin aydın şəkildə izah olunması və iştirakçıların diqqəti bütün qrupa izah etməli olduqları məqsəd üzərində işləməyə yönəltməsi vacibdir. Bu, yalnız məhsulun önəmli olması demək deyil! Əsas məsələ iştirakçıların aydın şəkildə müəyyən olunmuş çərçivə daxilində birgə çalışmaq prosesi vasitəsilə daha yaxşı öyrənməsidir.

Kompasdakı məşğələlərin çoxunda “təcrübə” mərhələsində kiçik qrup işi və tədris dövrünün (təhlil və qiymətləndirmə) “düşünmək” və “ümumiləşdirmək” mərhələlərində isə bütün qrupun birlikdə çalışması tələb olunur. Kiçik qrup işi hər kəsi iştirak etməyə həvəsləndirir və müştərək qrup işini inkişaf etdirməyə yardım edir. Kiçik qrupun sayı qrupda ümumilikdə neçə insanın olduğu və hansı böyüklükdə yerə sahib olmağınız kimi praktiki faktorlardan asılıdır. Kiçik qruplar 2 və ya 3 insandan ibarət ola bilər, lakin kiçik qruplar ən yaxşı 6-8 insanla alınır. Kiçik qrup işi verilən tapşırıqdan asılı olaraq, 15 dəqiqə, bir saat və ya bir gün davam edə bilər.




## *Beyin fırtınası*

Beyin fırtınası yeni mövzunun təqdim olunması, yaradıcılığın təşviq edilməsi və tez bir zamanda bir çox ideyanın ortaya atılması prosesidir. Beyin fırtınasından xüsusi bir problemin həlli və ya hər hansı suala cavab vermək üçün istifadə oluna bilər. Beyin fırtınası necə həyata keçirilir:

1. Beyin fırtınası etmək istədiyiniz məsələni seçin və onu sadə sual və ya bəyanat formasına çevirin.
2. Hər kəsin görə biləcəyi yerdə yerləşdirilmiş kağız parçası və ya lövhədə sualı yazın.
3. İnsanlardan öz fikirlərini irəli sürməyi xahiş edin. Fikirləri sual və ya bəyanatların altında yazın. Bir sözdən və ya qısa ifadələrdən istifadə edin.
4. İdeyalar yaranmağa başladıqda beyin fırtınasını dayandırın və daha sonra,
5. Şərhlər istəyin və təklifləri nəzərdən keçirin.
6. Daha sonra yekunlaşdırın və yeni əldə etdiyiniz biliklə məşğələyə və ya müzakirəyə keçid alın.

Beyin fırtınasının qaydaları:

1. HƏR BİR yeni təklifi yazın. Adətən ən yaradıcı və ən çılğın təkliflər ən faydalı və maraqlı təkliflər olur!
2. Beyin fırtınasının sonuna qədər heç kəs yazılanları mühakimə edə və ya şərh bildirə bilməz.
3. Təkrara yol verməyin. Əgər kimsə artıq lövhədə yazılmış ideyanı irəli sürsə, ona təşəkkür edin və həmin yazdığınız fikri göstərin.
4. Hər kəsi iştirak etməyə həvəsləndirin.
5. Qrupu mütləq şəkildə həvəsləndirmək lazımdırsa, yalnız öz fikirlərinizi irəli sürün.
6. Təklif aydın deyilsə, açıqlamaları üçün xahiş edin.




### Divar yazısı

Bu beyin fırtınasının bir formasıdır. Fasilitator beyin fırtınası həyata keçirilən fikir və ya sualı geniş və təmiz divarda yazır. Lakin fasilitator daha sonra təklifləri bunun altında yazmır, onun əvəzinə, iştirakçılar öz fikirlərini kiçik kağız parçalarına yazaraq divara özləri yapışdırır. Bu metodun üstünlükləri ondan ibarətdir ki, insanlar digər insanların fikirlərindən təsirlənmədən özləri oturub sakit şəkildə düşünə bilir və müzakirə zamanı qruplaşmaya aid ideyalara uyğun olaraq bu kağız parçalarının yerini dəyişdirmək mümkündür.



### Assosiasiya oyunu

Bu beyin fırtınasının ünsiyyəti başlatmaq və ya müzakirə yaxud məşğələyə giriş olaraq istifadə oluna biləcək başqa bir növüdür. İştirakçılar dairəvi şəkildə oturur və fasilitator əsas sözü deməklə başlayır (seçdikləri söz təqdim etmək istədikləri mövzunun əsasıdır).

Dairə boyunca, hər bir şəxs öz növbəsi çatdıqda ilk öncə əsas sözü təkrarlayır, daha sonra isə, əsas sözlə bağlı beyinlərinə gələn ilk sözü deyir. Hər bir şəxs özündən əvvəlki insanın dediyi sözə cavab olaraq bir söz səsləndirməlidir.



## *Müzakirə məşğələləri*

Müzakirələr insan hüquqları üzrə təhsilin ayrılmaz hissəsidir, çünki müzakirə vasitəsilə insanlar məlumatı təhlil etmək, tənqidi düşünmək, ünsiyyət bacarıqlarının inkişafı, fikirlərin bölüşülməsi və təcrübə vasitəsilə öyrənməyi inkişaf etdirirlər, buna görə də, “təhlil və qiymətləndirmə” bölməsi hər bir məşğələnin əsas hissəsini təşkil edir.

Müzakirə aparmağın bir çox müxtəlif yolu var, xüsusilə, bir qədər əməkdaşlıq və iştirak tələb edən bəzi üsullar öz-özlüyündə məşğələ olaraq hesab edilə bilər. Məsələn, insanların kiçik qruplarda həll etməli olduğu problemlər “məşğələlər” hesab oluna bilər, məsələn, 199-cu səhifədəki “Bircə dəqiqə” və 211-ci səhifədəki “Gəlin cinsi əlaqədən danışaq” məşğələləri.

“Müzakirə məşğələsi”ndən sonra insanların öyrəndiklərini ümumiləşdirmək və qiymətləndirmək mərhələsinə keçməli olduğunu deməyə ehtiyac yoxdur.

### Böyük qruplarda müzakirələr

#### Səs-küylü qruplar



Ümumi qrup müzakirələrində heç bir fikir ortaya çıxmırsa, bu, faydalı metod-dur. İnsanlara bir neçə dəqiqə ərzində kiçik qruplar və ya ikili qruplarda mövzunu müzakirə etməyi, daha sonra, qrupun qalan hissəsi ilə ideyalarını bölüşməyi xahiş edin. Qısa zamanda siz söhbətlərlə səs-küy yaradılan mühit və ideyaları bir birinə ötürməklə səs-küyə səbəb olan insanlar görəcəksiniz!

#### Bəyanat məşğələsi



Bu üsul iştirakçılara fikirlərini onları əsaslandırmaq zərurəti olmadan irəli sürmək imkanı verir. Bu, insanları öz fikirlərini bölüşməkdə özlərinə güvənmələri üçün həvəsləndirməyin gözəl üsuludur.

Qrupla araşdırmaq istədiyiniz bir mövzu ilə bağlı bir neçə bəyanat (4-6 bəyanat kifayətdir) hazırlayın. İki variantda işarələr hazırlayın, “mən razılaşıram” və “mən razılaşmıram” və onları 6-8 metr uzaqlıqda döşəməyə qoyun. Əgər istəsəniz, 2 ziddiyətli fikir arasında məsafəni simvolik şəkildə göstərmək məqsədilə döşəmənin üzərinə 2 işarənin arasına kəndir və yalent qoya bilərsiniz.

Hazırladığınız bəyanatları səsli oxuyun və iştirakçılardan özlərini 2 ziddiyyətli fikir arasında yerləşdirməklərini xahiş edin; qərarsız olanlar mərkəz nöqtədə dayansınlar. Əgər istəyirlərsə, iştirakçılar niyə məhz orada dayandıqlarını izah etsinlər. Eşitdikləri arqumentlər qarşısında öz fikirlərini dəyişdirdikləri təqdirdə, onları mövqelərini dəyişməyə sövq edin.

Bu üsulun dəyişik forması “Nəzər nöqtələri” adlanır. Otağın dörd divarına yapışdırmaq üçün dörd işarə hazırlayın: “razıyam”, “razı deyiləm”, “bilmirəm” və

“bir şey demək istəyirəm”.

Əvvəlkində olduğu kimi, burada da insanlar cavablarına uyğun yerdə dayanır və öz yerlərini istədikləri vaxt dəyişə bilirlər.



**Balıq qabı**

Bu metod iştirakçıların şərhlərini fasilitator və ya müəllimə deyil, bir-birlərinə ünvanlamaları üçün faydalı üsuldur. Bir neçə (ideal olaraq, 4-6 iştirakçı) iştirakçını otağın ortasında kiçik dairədə oturub mövzunu müzakirə etməyə dəvət edin, digərləri isə bu vaxt dairədən kənarda oturub “qabdakı balıqlar”a qulaq asırlar. Müşahidəçilərdən kimsə müzakirəyə qoşulmaq istədikdə, önə doğru gəlir və “balıq”lardan birinin qarşısında dayanır. Bu “balıq” o zaman dəyişir və dinləyicilərə qoşulur.

Bu metoddan istifadə etmənin bir çox üstünlükləri var. Ən önəmli üstünlüyü ondan ibarətdir ki, iştirakçılar müzakirəyə nəzarəti ələ ala bilir, bir insan çıxış etmək barədə qərar verdikdə gəlib danışa bilir, həmçinin, qrupun digər üzvləri uzun çıxışlar edən və təkrar fikirlər səsləndirən bir kəsin çıxışını yerini dəyişməyə məcbur etməklə dayandıra bilirlər.



**Debatlar**

Ənənəvi qrup debatları, xüsusilə digər müzakirə üsullarının da tətbiq oluna bildiyi siniflərdə çox faydalı olur. Əgər bütün sinif müzakirə etməyə hazırdırsa, məsələn, “Bu qrup inanır ki, insan hüquqları universal deyil, Qərb dünyasının ixtirasıdır” mövzusunda, o zaman müəllimi deyil, şagirdlərdən birini debatın sədri təyin edin.

Debatın başqa bir forması isə auditoriyanın ekspertlər panelini suallara cavab verməyə dəvət etdiyi panel debatıdır. Bu, məlumatın təmin olunması, müraciətin təşviqi, insanların müxtəlif nəzər nöqtələrini aşkar etmək və insan hüquqlarının kompleks olduğunu göstərmək üçün yaxşı üsuldur. Məsələn, “Makah balina ovu” tapşırığından (215-ci səhifə) 8 könüllüyə rol kartlarını təqdim edin (müzakirədə iştirak edən 4 təşkilatın hər birini təmsil etmək üçün 2 şəxs).

__Bu 8 insan öz mövqelərini hazırlamaq üçün bu kartlardan istifadə edir, daha sonra, sinifdəki digər şəxslərin suallarına cavab vermək və öz fikirlərini bildirmək üçün panel arxasında oturur. Sonda, sinif balinanın ovlanıb-ovlanmaması barədə səs verə bilər.



## Kiçik qruplarda müzakirələr

Müzakirələr adətən kiçik qruplarda daha yaxşı aparılır, çünki hər kəsin müzakirələrdə iştirak üçün daha çox imkanı olur. İnsanlar kiçik qruplarda yalnızca özlərini ifadə etmək üçün daha əmin hiss etmir, həmçinin, hər bir insan danışmaq üçün daha çox vaxta sahib olur.

Müzakirə məşğələləri, adətən, kartlar üzərində təqdim olunan stimul materiallarına əsaslanır. Stimul materialları nümunələrinə televiziya xəbərləri, posterlər, bəyanat kartları, tematik araşdırmalar və şəkillər daxildir. Stimul materialları hazırlayarkən öz hədəf qrupunuz barədə düşünmək, təhqiredici və ya çox şəxsi olan məlumatların istifadəsindən çəkinmək vacibdir.

Siz, həmçinin, cavan qrupların oxuma bacarıqları səviyyəsini və çoxmədəniyyətli qruplar ilə işlədikdə, dil bacarıqlarını nəzərə almalısınız; bu hallarda, sadə dildən istifadə edin. Kartlar üzərindəki məlumatlar mümkün qədər qısa olmalıdır, 2-8 sıra, maksimum isə bir A4 vərəqinin yarısı qədər olmasına üstünlük verilir.

### AAA BBB CCC



Bu, insanlar sizin "tədris etməyinizi" istəmədiyi halda, öz bilik və dərketməsini inkişaf etdirmək istədikdə çox faydalı üsuldur. İnsanlar kiçik qruplarda mövzunun aspekti barədə təcrübələrini inkişaf etdirmək üçün çalışır. Həmin qruplar daha sonra yeni fərqli qruplar təşkil edir və biliklərini bölüşür.

Üzərində çalışmaq istədiyiniz məsələ ilə bağlı hər bir qrup üçün sual və ya bəyanat kartı hazırlayın. Hər bir qrup ümumi məsələyə müxtəlif yanaşma tərzi ortaya qoyur.

İştirakçılardan üç kiçik qrup hazırlayın; birinci qrup A qrupu, ikinci qrup B qrupu, üçüncü qrup isə C qrupudur. Hər bir qrupa sualı və ya problemi müzakirə etmək üçün ümumi razılaşdırılmış vaxt müddəti verin. Daha sonra, elə formada yenidən qruplara ayırın ki, yeni qrupun hər birinə əvvəlki qrupdan bir nəfər daxil olsun; başqa sözlə, yeni formalaşmış qruplar ABC, ABC, ABC formasında olsun. ABC qruplarına problemin həlli və ya hər bir üzvün iştirakının tələb olunduğu ümumi razılaşmaya gəlmək barədə tapşırıq verin.

### Papaqdakı bəyanatlar



Bu üsul mövzunun təqdim olunması, insanların danışmağa və ya ideyalar irəli sürməyə sövq edilməsi üzrə həssas bir üsuldur. Bir neçə sual və ya bəyanat kartları hazırlayın və onları papağa yerləşdirin. Həmin papağı bir-bir ötürün və ya dairənin ortasına qoyun.

Növbədəki insandan bir kart çıxarmağı və onunla bağlı şərh verməyi xahiş edin. Fasilitator kart hazırlamaq əvəzinə, o, iştirakçılardan öz bəyanat və sual kartlarını hazırlamağı xahiş edə də bilər. Bu yolla, suallar anonim şəkildə qrupa təqdim oluna bilər, bu isə həssas mövzuların müzakirəsi üçün çox faydalıdır.

### Sıralama

**Pilləkən sıralaması**




Əgər siz kiçik qruplara yönəlmiş müzakirələr aparmaq istəyirsinizsə, bu müzakirə məşğələsi çox faydalıdır. Sizin hər bir kiçik qrup üçün bir qrup bəyanat kartına ehtiyacınız olacaq; 9-12 bəyanat kifayətdir. İnsanların müzakirə etməsini istədiyiniz mövzu üzrə bir neçə sadə bəyanat seçirsiniz və hər bir kartda bir bəyanat yazırsınız.

Qruplar bəyanatları müzakirə edir və bu bəyanatların vaciblik dərəcəsinə görə razılığa gəlməyə çalışır. Bu ya pilləkən, ya da brilyant üsulu ilə edilə bilər. Pilləkən sıralaması zamanı ən vacib bəyanat ən üstdə yerləşdirilir, ondan sonrakı dərəcədə əhəmiyyətli bəyanat onun altında və bu formada davam edir və ən az vacib olan bəyanat isə ən aşağıdakı pillədə yerləşdirilir.

Brilyant sıralaması üçün sizin 9 bəyanat kartına ehtiyacınız var. İnsanlar diaqramda göstərildiyi kimi, ən önəmli bəyanatın hansı olduğu, daha sonra, iki ən önəmli bəyanatın hansı olduğu, bundan sonra isə 3 orta əhəmiyyətli bəyanatın hansı olduğu və s. haqqında razılığa gəlmək üçün danışıqlar aparır. Məsələlər çox nadir hallarda tam aydın olduğu üçün brilyant sıralaması üsulu əksər hallarda sadə sıralama üsulundan daha çox uyğun olur.

O, daha qüsursuzdur, buna görə də, iştirakçılar tərəfindən daha çox qəbul olunur. Bu üsul, həmçinin, konsensusun qurulması üçün daha yaxşı imkanlar yaradır. Sıralama metodunun fərqli formaları 8 bəyanatın yazılması və iştirakçıların özləri tərəfindən bir bəyanatın yazılması üçün bir kart blankının ayrılmasından ibarətdir.

**Brilliant sıralaması**



**Tematik araşdırmalar**




Tematik araşdırmalar problemi insanlara izah edən, hadisələr barədə kiçik "hekayələr"dir.

Bəyanat kartları kimi, onlar da məlumatı qeyri-didaktik üsulla təqdim etmək üçün faydalı vasitələrdir. Onlar, həmçinin, iştirakçılar və problem arasında məsafə yaratdığından və bu yolla, mövzunun müzakirəsi insanlara daha az ürkücü gəldiyindən dəyərlidir.

Məsələn, qrupda dələduzlar var və siz bu problemi həll etmək istəyirsiniz, bu halda, siz real vəziyyətə paralel halları özündə birləşdirən, dələduzluq etmək barədə hekayə təqdim edə bilərsiniz. İştirakçılar tematik hekayəni oxuyur, problemi təhlil edir və problemin həlli üçün təklif irəli sürməyə çalışır.

## *Tamaşa*



Tamaşa hazırlamaq üsulu ilə ideya və məsələlərin araşdırılması insanlara başqa halda ifadə edə bilməyəcəkləri emosiyalar, düşüncələr, arzular və yaradıcılıq imkanları təmin edir. Tamaşa insanı tam şəkildə, onların beyinləri, ürəkləri və əlləri vasitəsilə əhatə edir, buna görə də, onların yalnız intellekti deyil, həmçinin, hiss və emosiyaları da əhatə olunur, bu isə onu çox güclü vasitəyə çevirir. Bununla yanaşı, bu, çox effektiv üsuldur, çünki o, bütün tədris üsullarına cavab verən insanları cəlb edir (eşitmə, vizual, kinoestetik və ya toxunma).

Sorğu mərhələsi, xüsusilə, rol oyunu və simulyasiyalar kimi tamaşanın hansısa bir növünə əsaslanan məşğələlərdən sonra vacibdir. İştirakçılar öz hislərini müzakirə etmək və nəyə görə bunları etməyə üz tutduqlarını açıqlamazdan əvvəl, roldan çıxmaq üçün vaxta ehtiyac duya bilərlər.

### Rol oyunu

Rol oyunu iştirakçılar tərəfindən oynanılan kiçik tamaşadır. İştirakçıların konkret vəziyyətdə öz həyat təcrübələrinə əsaslanaraq rol oynamasına baxmayaraq, rol oyunları əksər hallarda improvizə olunur. Rol oyunları vəziyyətin dərk edilməsini asanlaşdıra və insanların təsvir edilən insanlarla empatiya qurmasına təşviq edə bilər. Rol oyunları insanlara çətin vəziyyətləri təhlükəsiz mühitdə təcrübədən keçirmək imkanı yaradır. Rol oyunları həssas şəkildə tətbiq olunmalıdır. İlk növbədə, insanların sonda roldan çıxa bilməsi üçün vaxta ehtiyacları var. Digər tərəfdən, hər kəs fərdlərin hislərinə və qrupun sosial strukturuna hörmətlə yanaşmalıdır. Məsələn, fiziki məhdudiyyətli insanlar haqqında rol oyunu insanların özlərinin bu fiziki məhdudiyyətlərdən (bəlkə də, gözlə görünmür) əziyyət çəkə biləcəyi və ya fiziki məhdudiyyətli dost və ya qohumlarının ola biləcəyi faktını nəzərə almalıdır. Onların hisləri incinməməlidir, məcburi şəkildə heç bir təsirə məruz qalmamalı və ya təcrid olunmamalıdırlar. Əgər belə hal baş verərsə, buna ciddi yanaşın və vəziyyəti izah edərək üzr istəyin.Həmçinin, stereotiplərin yaradılması barədə də çox ehtiyatlı olun. Rol oyunları insanların oynamaq və ya təqlid etmək "bacarığı" vasitəsilə iştirakçıların digər insanlar barədə nə düşündüklərini təsvir edir. Bu da belə məşğələləri böyük əyləncəyə çevirən faktordur! Sorğu mərhələsində bu sualı vermək faydalıdır – "Siz, doğurdan da, rolunu oynadığınız insanların belə olduğunu düşünürsünüz?" İnsanları məlumatı daimi olaraq tənqidi nəzərdən keçirmək ehtiyacı barədə məlumatlandırmaq çox maairfləndiricidir; iştirakçılardan bu rolun inkişafını əsaslandırdıqları məlumatı haradan almaları barədə sual verin.

### Simulyasiyalar

Silmulyasiyalar insanları tanış olmadıqları vəziyyət və rollara daxil edən, daha genişləndirilmiş, struktur halına salınmış rol oyunları (onlarda eyni dərəcədə improvizasiya yoxdur) kimi düşünülə bilər. Məsələn, "Dərmanların əldə olunması" (87-ci səhifə) məşğələsindəki məhkəmə otağı müəyyənləşdirilmiş, hazırlanmış

və iştirakçılara oynayacaqları rollar barədə təfərrüatlı məlumat verilmişdir. Simulyasiyalar, xüsusilə şəxsi olaraq razılaşmadıqları bir fikri müdafiə etməli olan iştirakçılardan olduqca yüksək dərəcədə emosional iştirak və intellektual bacarıq tələb edir.

### Forum teatrı

Forum teatrı izləyicilərin qarşılıqlı əlaqəsini təşviq edən, problem və ya məsələ ilə məşğul olmağın müxtəlif yollarını araşdıran teatrın interaktiv bir formasıdır. Forum teatrı (Boalın teatrı, "Zülm çəkmişlərin Teatrı" və ya "inkişaf Teatrı" kimi də tanınır) 1970-ci illərin əvvəllərində izləyicilərinə səlahiyyət vermək istəyən Avqusto Boal tərəfindən yaradılmışdır.

Forum teatrı rol oyununun bir formasıdır. İzləyici baş qəhrəmanın öhdəsindən gələ bilmədiyi bir çətinlik və ya maneə ilə üzləşdiyi qısa bir oyuna baxır; mövzu tamaşaçının həyatına birbaşa bağlı bir formada təqdim olunur. Tamaşa oynanılan vaxt səhnə təkrarlanır və izləyicilər səhnəyə daxil olub, baş qəhrəmanın hansısa bir səhnəni necə oynaya biləcəyi barədə alternativlər təklif edir. Aktyorlar bir növ təcrübə və ideyaların məşq olunduğu və paylaşıldığı teatr debatı yaratmaqla bu seçimlərin nəticələrini tamaşaçılar ilə bölüşür və bununla, həm həmrəylik və eyni zamanda insanların da bu işə cəlb olunduğu hissini yaradır.

Forum teatrı insan hüquqları üzrə təhsilin tədrisi üçün (məsələn, problemləri həll etməyin və ya mübahisələrin həlli yollarını axtararkən) çox faydalı üsuldur. Bu, insanlara səhnəyə girmək və müxtəlif imkanları kəşf etmək üçün şərait yaradır. Bu yolla, hadisə daha təhlükəli hadisə üçün məşq kimi və ya hər bir vəziyyətdə, keçmiş, indiki və ya gələcəkdə, alternativ variantların açılması və təhlil edilməsi üçün istifadə oluna bilər.

## *Audiovizual metodlar*

### Şəkillərdən istifadə: fotolar, karikaturalar, rəsm, kollaj




"Bir şəkil min sözə bərabərdir". Vizual materiallar həm məlumatın təmin olunması, həm də marağın yaradılması üçün güclü vasitədir. Həmçinin, yadda saxlayın ki, rəsm yalnız vizual düşünmə tərzini üstün tutan insanlar üçün deyil, eyni zamanda, özlərini sözlə ifadə etmək barəsində çox da bacarıqlı olmayan insanlar üçün özünü ifadə və ünsiyyətin önəmli vasitəsidir. Şəkil və rəsmlərdən istifadə edilən məşğələlər üçün ideyalar 2-ci Fəsildə "Şəkillərlə oynamaq" (247-ci səhifə) başlığı altında təqdim olunmuşdur.

#### Şəkil kolleksiyası yaratmaq üçün məsləhətlər

Şəkillər elə çoxtərəfli bir vasitədir ki, fasilitatorlar üçün öz şəkil kolleksiyalarının yaradılması çox yaxşı ideyadır. Şəkillər qəzetlər, jurnallar, posterlər, səyahət broşurları, açıqcalar və ya təbrik kartlarından toplana bilər.

Şəkilləri kəsin, kartın üzərinə uyğunlaşdırın və şəffaf, arxa hissəsi yapışqan olan plastik örtüklərlə (kitabların üzlənməsi üçün satılan) üzləyin ki, daha davamlı olsun və onları tutmaq rahat və xoş olsun. Şəkillər hər biri eyni ölçüdə olsa, kolleksiya daha çox dəst kimi görünəcək. A4 ideal ölçüdür, lakin A5 də yaxşı, praktiki alternativdir.

Hər şəklin arxasında istinad nömrəsinin yazılması və mənbə, ilkin ad və ya digər faydalı məlumatın başqa bir yerdə qeyd olunması yaxşı fikirdir. Belə ki, insanların cavab verməli olduğu yalnız bir şəkil olacaq və onlar digər tərəflərə yönəlməyəcəklər.

Şəkilləri seçərkən şimal, cənub, şərq və qərbdən olan, eyni zamanda müxtəlif təbii və sosial mühitlərdən olan şəkilləri seçməyə çalışın.

İnsan şəkilləri seçərkən müxtəlifliyə fikir verin və gender, irq, bacarıq və bacarıqsızlıq, yaş, milliyyət və mədəniyyət məsələləri ilə bağlı ehtiyatlı olun. Eyni zamanda, öz ölçüləri və rənginə görə fərdi şəkillərin təsirini nəzərə alın. Bu təsir insanların şəkil barədə təsəvvürünü korlaya bilər, buna görə də, öz kolleksiyanızı ahəngdar etməyə çalışın ki, eyni formalı dəstiniz olsun.

İsitfadə etmək istədiyiniz şəkil və rəsmlər üzərində müəllif hüquqlarının qeyd olunub-olunmadığını yoxlamağı nəzərinizdə saxlayın.

## Filmlər, videolar və radio oyunlarından istifadə

Filmər, videolar və radio oyunları insan hüquqları üzrə təhsildə güclü vasitələrdir və gənclər arasında məhşurdur. Bir filmə baxdıqdan sonra müzakirə aparılması işin daha sonrakı mərhələsi üçün yaxşı başlanğıc nöqtəsi olacaqdır. Haqqında danışılanlar insanların filmə ilkin reaksiyası, filmin "real həyat"a nə qədər uyğun olması, qəhrəmanların real oynanılması və ya siyasi yaxud mənəvi bir fikirin təbliğ edilməsi və hansı insan hüquqları məsələlərinin işıqlandırılması olacaqdır.

İstifadə etmək istədiyiniz videoların üzərində müəllif hüququnun olması və ya onların işıqlandırılması ilə bağlı hər hansı məhdudiyyətlərin olub-olmaması barədə araşdırın. Bir sinif və ya gənclər qrupu üçün ekranlaşdırma vasitəsilə ictimai nümayiş təşkil edilə bilər.

## Şəkil, film və video çəkmək



Videokameralar, rəqəmsal kameralar və mobil telefonların texnologiyası hər kəs üçün video və şəkillərin çəkilməsini mümkün edir. Gənclərin müəllifi olduğu şəkil və filmlər onların düşüncələrini və yanaşmalarını göstərən ən yaxşı vasitələrdən biridir.

### Video məktublar

Video məktubların bütün maneələr və qərəzli fikirlərin qarşısını aldığı sübut olunmuşdur. O, başqa halda üzbəüz görüşməyəcək insanlar üçün söhbət etmək və digərlərinin necə yaşadıqları və onlar üçün nəyin önəmli olması barədə məlumat almaq imkanı yaradır. Bunun bir nümunəsi kimi Britaniya televiziya layihəsini göstərmək olar. Burada bir roma qadın və roma düşərgəsinin yaxınlıqdakı bir sakin bir-biriləri ilə danışmaqdan imtina edir. Lakin vasitəçi onları bir-birlərinə video məktub göndərmək barədə razı salmağa müvəffəq olur. Onlar öz evləri və ailələrini nümayiş etdirməklə buna başlayırlar. Daha sonra, ardıcıl məktublarda onlar öz həyatları barədə daha çox məlumat verməklə, bir-biriləri haqqında qərəzli fikirlərini anlayış və şəfqətlə əvəzləyirlər. Onların ortaq nöqtələrinin nə vaxtsa düşünə biləcəklərindən dəfələrlə çox olduğunu anlayır, nəticədə, şəxsən görüşməyə razı olurlar.

## *KİV: qəzetlər, jurnallar, radio, televiziya, internet*

KİV müzakiə materialı üçün qüsursuz mənbədir. Xəbərlər və informasiyanın təqdim olunma yollarını müzakirə etmək, qərəzlər və stereotipləri təhlil etmək həmişə maraqlıdır. Daha sonrakı müzakirə mövzuları kütləvi informasiya vasitələrinə sahiblik, siyasi təhrif, senzura və ifadə azadlığıdır. 181-ci səhifədəki "Ön səhifə" məşğələsi, xüsusi olaraq, bu məsələlər ilə əlaqəlidir və www.coe.int/compass saytında ümumi məlumat hissəsində siz bununla bağlı daha çox fikir əldə edəcəksiniz. Bir daha qeyd edirik ki, istifadə etmək istədiyiniz materialların müəllif hüququnu yoxladığınızdan əmin olun.

## Qeydlər

1 Redaktorlar tərəfindən vurğulanmış sözlər

2 Nazirlər Komitəsinin Avropa Şurasının Demokratik Vətəndaşlıq və İnsan Hüquları üzrə Təhsillə bağlı Xartiyasına CM/Rec(2010)7 saylı Tövsiyəsi

3 http://www.amnesty.org/en/human-rights-education

4 Betty A. Reardon: İnsan Ləyaqəti üçün Təhsil – Hüquq və məsuliyyətlər barədə öyrənmək, Pensilvaniya Universiteti Nəşriyyatı,1995

5 www.fra.europa.eu (13 oktyabr 2010-cu ildə əldə olunmuşdur)

6 Nazirlər Komitəsinin Avropa Şurasının gənclər siyasəti ilə bağlı CM/Res(2008)23 saylı qətnaməsi,

BMT, İnsan Hüquqları Təhsili üzrə Dünya Proqramının Fəaliyyət Planı – Birinci mərhələ, Cenevrə, 2006

7 Avrostatın 2009-cu ilin dekabrı üçün olan göstəriciləri– Avrostat xəbərləri 16/2010, 29 yanvar, 2010

8 Məsələn, Backman, E. & Trafford, B. (2006) Təhsil müəssisəslərinin demokratik idarəolunması. Strazburq:

9 Qlobal Təhsil Qaydaları – Qlobal Təhsil üzrə Müəllimlər və Siyasətçilər üçün Konsept və Metodologiyalar, Avropa Şurasının Şimal-Cənub Mərkəzi, 2008.

10 Müxtəliflik, İnsan Hüquqları və İştirak üzrə ikinci Hər kəs Fərqli - Hər kəs Bərabər Gənclər Hərəkatı 2007 - 2008-ci illərdə keçirilmişdir.

11 “Təlimin Əsasları” və “Təşkilati İdarəetmə” təlim dərslikləri təlimçi və fasilitatorlar üçün tədris üsulları və yanaşmaları barədə başlanğıc üçün faydalı məlumatı özündə əks etdirir. “Təlimin Əsasları”, Avropa Şurası Nəşriyyatı, 2002. “Təşkilati İdarəetmə”, Avropa Şurası Nəşriyyatı, 2000. www.youth-partnership-eu.coe.int saytından yükləyə bilərsiniz.

12 Gollob, R., Krapf, P. Olafsdottir, O., və Weidinger, W. (2010) Demokratiya üçün tədris etmək: Demokratik vətəndaşlıq və insan hüquqları təhsili üzrə materiallar. Strazburq: Avropa Şurası

13 Brett P. Mompoint-Gaillard, P və Salema M.H. (2009) Bütün müəllimlər vətəndaşlıq və insan hüquqları üzrə təhsilə necə dəstək verə bilər: bacarıqların inkişafı üzrə çərçivə. Strazburq: Avropa Şurası

## 2-ci Fəsil

# İnsan Hüquqları Təhsili üçün Praktiki Məşğələlər və Metodlar

# Məşğələlərin qısa məzmunu

| | Səviyyə | Uşaqlar | Vətəndaşlıq və İştirak | Mədəniyyət və İdman | Demokratiya | Əlillik və Əlillərə qarşı Ayrı-seçkilik | Ayrı-seçkilik və Dözümsüzlük | Təhsil | Ətraf mühit | Gender | Ümumi İnsan Hüquqları | Qloballaşma | Sağlamlıq | KİV | Miqrasiya | Sülh və Zorakılıq | Yoxsulluq | Din və İnam | Tarixi Yaddaş | Müharibə və Terrorizm | Əmək | Səhifə |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 3 əşya | 2 | | | | | | | | ✓ | | | | | | ✓ | | | | | ✓ | | 78 |
| Slipivildə məscid | 2 | | ✓ | | | | ✓ | | | | | | | | | | | ✓ | | | | 81 |
| Dərmanların əldə olunması | 4 | | | | | | ✓ | | | | | ✓ | ✓ | | | | | | | | | 87 |
| Bunu həyata keçirin | 2 | ✓ | ✓ | | | | | | | | ✓ | | | | | | | | | | | 94 |
| Hər kəs Fərqli - Hər kəs Bərabər | 2 | | | | | | ✓ | | | | | ✓ | | ✓ | | | | | | | | 97 |
| Aşığın hekayəsi | 2 | ✓ | | | | | | | | | | ✓ | | | | | | | | | ✓ | 100 |
| İnananlar | 3 | | | ✓ | | | ✓ | | | | | | | | | | | ✓ | | | | 105 |
| Ehtiyatlı olun, biz görürük | 3 | | ✓ | | | | | | ✓ | | | ✓ | | | | | | | | | | 110 |
| İçəri girə bilərəm? | 3 | | | | | | ✓ | | | | | | | | ✓ | ✓ | | | | | | 115 |
| Çahal Böyük Britaniyaya qarşı | 4 | | | | ✓ | | | | | | | | | | | ✓ | | | | ✓ | | 120 |
| Eynəklərinizi dəyişin | 2 | | | | | ✓ | | | | | | | | | ✓ | | ✓ | | | | | 126 |
| Uşaqların hüquqları | 2 | ✓ | | | | | | ✓ | | | ✓ | | | | | | | | | | | 130 |
| Müxtəlif maaşlar | 2 | | | | | | ✓ | | | ✓ | | | | | | | | | | | ✓ | 135 |
| Alternativlərimiz var? | 3 | ✓ | | | | | | | | | | | ✓ | | | ✓ | | | | | | 140 |
| Ailədaxili işlər | 3 | | | | | | | | | ✓ | | | ✓ | | | ✓ | | | | | | 144 |
| Dosta | 4 | | | | | | ✓ | | | | | | | | | | | | ✓ | ✓ | | 151 |
| Sözün şəklini çəkin oyunu | 1 | | | | | | | | | | ✓ | | | | | | | | | | | 156 |
| Hər kəs üçün təhsil? | 2 | ✓ | ✓ | | | | | ✓ | | | | | | | | | | | | | | 158 |
| Seçkiqabağı kampaniya | 2 | | ✓ | | ✓ | | | | | | ✓ | | | | | | | | | | | 164 |
| Hüquq mübarizləri | 2 | | ✓ | | | | | | | | ✓ | | | ✓ | | | | | | | | 167 |
| Barmaqlar və baş barmaqlar | 4 | | | | | | | | ✓ | | | | | | ✓ | ✓ | | | | | | 173 |
| Gül gücü | 2 | ✓ | | | | | | | | | ✓ | | | | | | | ✓ | | | | 177 |
| Ön səhifə | 3 | | | | | | | | ✓ | | | ✓ | | ✓ | | | | | | | | 181 |
| Qadın və kişi qəhrəmanlar | 2 | | ✓ | | | | ✓ | | | ✓ | | | | | | | | | | | | 186 |
| Bizə nə qədər lazımdır? | 3 | | | | | | | ✓ | | | | | ✓ | | | | | | | ✓ | | 189 |
| Mən işləmək istəyirəm | 3 | | | | | ✓ | ✓ | | | | | | | | | | | | | | ✓ | 193 |
| Bircə dəqiqə | 2 | | | ✓ | | | | | | | ✓ | ✓ | | | | | | | | | | 199 |
| Dil baryeri | 2 | | | | | | ✓ | | | | | | | | ✓ | | | | | ✓ | | 203 |
| Qoy hər bir səsin eşidilsin | 3 | ✓ | ✓ | | | | | ✓ | | | | | | | | | | | | | | 207 |
| Gəlin cins barəsində danışaq | 4 | | | | | | ✓ | | | ✓ | | | ✓ | | | | | | | | | 211 |
| Makah balina ovu | 4 | | | ✓ | | | | | ✓ | | | ✓ | | | | | | | | | | 215 |
| Əlaqələrin qurulması | 4 | | ✓ | | ✓ | | | | | | ✓ | | | | | | | | | | | 223 |
| Yaddaş etiketləri | 2 | | | ✓ | | | | | | | | | | | | | | | ✓ | ✓ | | 227 |
| Mənim həyatım tamaşa deyil | 3 | | | | | | | ✓ | | | | | | ✓ | | ✓ | | | | | | 232 |
| Nərdivanda | 3 | | ✓ | ✓ | ✓ | | | | | | | | | | | | | | | | | 236 |
| Bizim gələcəyimiz | 2 | ✓ | | | | | | | ✓ | | | | ✓ | | | | | | | | | 240 |
| Bərabərlik ölkəsinə yol | 2 | | | | | | ✓ | ✓ | | ✓ | | | | | | | | | | | | 244 |
| Şəkillərlə oynamaq | 1 | | | | | | | | | | ✓ | | | | | | | | | | | 247 |
| Elektrik stansiyası | 3 | | ✓ | | | | | | | | ✓ | | | | | ✓ | | | | | | 251 |
| İrqçiliklə mübarizə | 3 | | | ✓ | | | ✓ | | | | | | | | | ✓ | | | | | | 254 |
| Hüquqlar Binqosu | 1 | | | | | | | | | | ✓ | | | | | | | | | | | 260 |
| Güc və var-dövlət üçün mübarizə | 3 | | | | | | | | | | | ✓ | ✓ | | | | ✓ | | | | | 263 |
| Bacarığı görün | 2 | ✓ | | | | ✓ | ✓ | | | | | | | | | | | | | | | 267 |
| Tezliklə köhnələcək | 2 | | | | | | | ✓ | | | | ✓ | | | | | | ✓ | | | | 272 |
| Hamı üçün idman | 2 | | | ✓ | | ✓ | | | | | | | ✓ | | | | | | | | | 276 |
| Bir addım irəli atın | 2 | | | | | | ✓ | | | | ✓ | | | | | | ✓ | | | | | 281 |
| İki şəhərin nağılı | 4 | | ✓ | | | | | | ✓ | | | | | | | | | | | | ✓ | 286 |
| Terrorizm | 2 | | | | | | | | | | | ✓ | | | | ✓ | | | | ✓ | | 295 |
| Daş atmaq | 2 | ✓ | | | | | | | | | | | | | | ✓ | | | | ✓ | | 299 |
| Vaxt şkalaları | 3 | | | | | | | | | | ✓ | | | | | | | ✓ | ✓ | | | 302 |
| Səs vermək və ya verməmək | 4 | | ✓ | | ✓ | | | | | | ✓ | | | | | | | | | | | 306 |
| Həmkarlar İttifaqı görüşü | 3 | | ✓ | | ✓ | | | | | | | | | | | | | | | | ✓ | 312 |
| Həyatımdakı zorakılıq | 3 | | | | | | | | | | | | ✓ | | | ✓ | | | | ✓ | | 317 |
| Həyat şəbəkəsi | 2 | | | | | | | | ✓ | | | ✓ | ✓ | | | | | | | | | 320 |
| Sabah gələndə | 2 | | | | | | | | | | | ✓ | | ✓ | | ✓ | | | | | | 324 |
| Harada dayanırsınız? | 2 | | ✓ | | | | | | | | ✓ | | | | | | ✓ | | | | | 329 |
| Mən kiməm? | 2 | | | | | | ✓ | | | | | | | | | | | ✓ | | | | 332 |
| İş və uşaqlar | 2 | | | | | | ✓ | | | | | | | | | | | | | | ✓ | 335 |
| İnsan Hüquqları təqvimi | | | | | | | | | | | | | | | | | | | | | | 338 |
| Başlanğıclar | 2 | | | | | | | | | | | | | | | | | | | | | 345 |
| Nəzərdən keçirmə üçün tapşırıqlar | 1 | | | | | | | | | | | | | | | | | | | | | 350 |

# Məşğələlərin ümumi cədvəli

| Başlıq | Mövzular | Ümumi məlumat | Əlaqədar hüquqlar |
|---|---|---|---|
| 3 əşya | • Miqrasiya<br>• Müharibə və Terrorizm<br>• Ətraf mühit | Bu məşğələdə brilliant sıralamasından istifadə olunaraq, insanların qəflətən öz evlərindən qaçmağın nə demək olduğunu anlaması müzakirə olunur | Təqibdən qurtulmaq üçün digər ölkələrdə sığınacaq axtarmaq. Din və ya inam azadlığı. Fikir və məlumat azadlığı. |
| Slipivildə məscid | • Din və inam<br>• Ayrı-seçkilik və Dözümsüzlük<br>• Vətəndaşlıq və İştirak | Bu məşğələdə şəhər şurasının görüşünün silmulyasiyası vasitəsilə ənənəvi olaraq Xristianların yaşadığı ərazidə yeni məscidin tikilməsi ilə bağlı mübahisə araşdırılır. | Ayrı-seçkiliyə məruz qalmamaq. Din və ya inam azadlığı. Fikir və məlumat azadlığı. |
| Dərmanların əldə olunması | • Sağlamlıq<br>• Qloballaşma<br>• Ayrı-seçkilik və Dözümsüzlük | Bu məşğələ 2001-ci ildə Cənubi Afrikada “QİÇS dərmanı” adlı məhkəmə işinin simulyasiyasıdır. HİV/QİÇS məsələləri, dərmanların əldə olunması və hüquqlarla bağlı mübahisəli iddialar kimi məsələlərə toxunulmuşdur. | Yaşamaq və ləyaqət hüququ. Elmi istehsal nəticəsində ortaya çıxan mənəvi və maddi maraqların qorunması hüququ. Sağlamlıq hüququ. |
| Bunu həyata keçirin | • Ümumi İnsan Hüquqları<br>• Uşaqlar<br>• Vətəndaşlıq və İştirak | Bu deatr məşğələsi vasitəsilə iştirakçılar ümumi insan hüquqları anlayışı barədə öz təsəvvürlərini təqdim edirlər. | Bütün insan hüquqları. |
| Hər kəs Fərqli - Hər kəs Bərabər | • Vətəndaşlıq və İştirak<br>• Ayrı-seçkilik və Dözümsüzlük<br>• Qloballaşma<br>• KİV | Bu  kiçik sorğu özü-özlüyündə kifayət qədər provokativ, buna görə də, olduqca maraqlıdır. O, eyni zamanda, anlayışlar və stereotiplər barədə effektiv qrup müzakirəsi üçün əsasdır. | Ləyaqətlə bağlı bərabərlik. Heç bir fərq olmadan hüquqlar və azadlıqlarla bağlı hüquqlar. Milliyyət hüququ. |
| Aşığın hekayəsi | • Uşaqlar<br>• Aşığın hekayəsi • Əmək<br>• Qloballaşma | Bu müzakirə əsaslı məşğələdir. Başlanğıc nöqtəsi uşaq əməyi ilə bağlı tematik araşdırmadır. İştirakçılar uşaq əməyinin aspektlərini, səbəbləri və onu necə dayandırmaq yollarını araşdırırlar. | İqtisadi istismardan qorunma. Təhsil hüququ. İstirahət və asudə vaxt hüququ. |
| İnananlar | • Din və İnam<br>• Mədəniyyət və İdman<br>• Ayrı-seçkilik və Dözümsüzlük | İştirakçılar öz müxtəlif inamlarının müqayisə edir və qarşı-qarşıya qoyur. | İnam və din azadlığı. Fikir və məlumat azadlığı. Ayrı-seçkiliyə məruz qalmamaq hüququ. |
| Ehtiyatlı olun, biz görürük | • Qloballaşma<br>• Ətraf mühit<br>• Vətəndaşlıq və İştirak | Bu məşğələdə iştirakçılar pambıq köynəyin sosial, iqtisadi və ətraf mühit xərcləri barədə məlumatlanırlar. Daha sonra onlar insan hüquqları pozuntuları hallarını aradan qaldırmaq üçün fəaliyyət planı hazırlayır və fəaliyyətə keçirlər. | Arzuolunan iş və həmkarlar ittifaqına qoşulma hüququ. Yaxşı həyat standartı hüququ. Təhlükəsiz və sağlam mühit hüququ. |
| İçəri girə bilərəm? | • Miqrasiya<br>• Ayrı-seçkilik və Dözümsüzlük<br>• Sülh və Zorakılıq | Bu, başqa ölkəyə qaçmağa çalışan bir qrup qaçqın haqqında rol oyunu məşğələsidir. Bu məşğələ qaçqınların acınacaqlı vəziyyətini və sığınacaq verilməsi və inkar edilməsi ilə bağlı sosial və iqtisadi arqumentləri əhatə edir. | Digər ölkələrdə sığınacaq axtarma hüququ.  Bir şəxsin başqa dövlətə təhvil verilməsinin qadağan edilməsi hüququ.  Ayrı-seçkiliyə məruz qalmamaq hüququ. |
| Çahal Birləşmiş Krallığa qarşı | • Müharibə və Terrorizm<br>• Sülh və Zorakılıq<br>• Demokratiya | Avropa İnsan Hüquqları Məhkəməsi qarşısına çıxarılan real məhkəmə işinin simulyasiyası (kiçik məşq) | İşgəncəyə məruz qalmamaq hüququ. Sığınacaq axtarmaq hüququ. Ədalətli ictimai dinləmə hüququ. |
| Eynəklərinizi dəyişin | • Yoxsulluq<br>• Əlillik və Əlillərə qarşı Ayrı-seçkilik<br>• Miqrasiya | Bu qeyri-formal təhsil tapşırığı kimi istifadə oluna biləcək çox sadə, açıq havada keçirilən məşğələdir. İştirakçılar açıq havaya çıxır və digər içtirakçının gözü ilə yerli vəziyyəti araşdırır | Bütün hüquqlar. |
| Uşaqların hüquqları | • Uşaqlar<br>• Ümumi İnsan Hüquqları<br>• Təhsil | Bu məşğələ Uşaq Hüquqları Konvensiyasını müzakirə etmək və maarifləndirmə işinin aparılması üçün brilliant sıralamasından istifadə edir. | Uşaqların hüquqları (bütün hüquqları). Ona təsir edə biləcək bütün məsələlərlə bağlı azad şəkildə fikrini ifadə etmək hüququ. İqtisadi istismardan qorunma hüququ. İstirahət və asudə vaxt hüququ və bir kəsin öz mədəniyyətindən həzz alma hüququ. |
| Müxtəlif maaşlar | • Əmək<br>• Gender<br>• Ayrı-seçkilik və Dözümsüzlük | Bu, insanları əmək bazarındakı reallıqlarla üz-üzə qoyan məşğələdir. Bu məşğələ eyni işə görə verilən müxtəif maaşlar, iş yerində ayrı-seçkilik və  gənc işçilər üçün az maaş siyasəti məsələlərini əhatə edir. | Arzuolunan iş və həmkarlar ittifaqına qoşulma hüququ. Ədalətli maaş və eyni iş üçün eyni maaş hüququ. Yaş və cinslə bağlı heç bir ayrı-seçkiliyə məruz qalmama hüququ. |

| Başlıq | Mövzular | Ümumi məlumat | Əlaqədar hüquqlar |
|---|---|---|---|
| Alternativlərimiz var? | • Sülh və Zorakılıq<br>• Uşaqlar<br>• Sağlamlıq | Bu, insanlar arasında zorakılıq və aqressiv davranış məsələlərini əhatə edən rol oyunudur. | Ləyaqət hüququ. Fiziki və əqli zorakılığın bütün formalarından qorunmaq hüququ. |
| Daxili işlər | • Gender<br>• Sülh və Zorakılıq<br>• Sağlamlıq | İştirakçılar ailədaxili zorakılığın müxtəlif formalarının qarşısının alınması və səbəblərinin təhlil edilməsi üçün tematik araşdırmaları müzakirə edir. | Yaşamaq, azadlıq və şəxsi təhlükəsizlik hüququ. İşgəncəyə və alçaldıcı rəftara məruz qalmamaq hüququ. Qanun qarşısında bərabərlik hüququ. |
| Dosta! | • Tarixi Yaddaş<br>• Müharibə və Terrorizm<br>• Ayrı-seçkilik və Dözümsüzlük | Bu məşğələdə iştirakçılar Holokostun roma qurbanları barədə maarifləndirmə aparılması ilə bağlı fəaliyyət planı hazırlayır və həyata keçirir. | Ayrı-seçkiliyə məruz qalmamaq hüququ. Yaşamaq hüququ. Mədəni hüquqlar. |
| “Sözün şəklini çəkin” oyunu | • Ümumi insan hüquqları | Bu insanların insan hüquqlarına aid olan sözü başa salmaq üçün şəkil çəkdiyi qrup oyunudur. | Düşüncə və ifadə azadlığı. Fikir azadlığı. Ləyaqət və hüquqlarda bərabərlik. |
| Hamı üçün təhsil? | • Təhsil<br>• Uşaqlar<br>• Vətəndaşlıq və İştirak | Bu məşğələdə iştirakçılar dünyada təhsilin qeyri-bərabər şəkildə ötürülməsi və “Hamı üçün təhsil”i necə əldə etməklə bağlı cüt kartları yerləşdirməli və uyğunlaşdırmalıdır. | Təhsil hüququ. Tam fiziki, əqli, ruhi, mənəvi və sosial inkişaf hüququ. Bərabərlik hüququ. |
| Seçkiqabağı kampaniya | • Demokratiya<br>• Vətəndaşlıq və İştirak<br>• Ümumi İnsan Hüquqları | Bu, demokratiya və demokratik müzakirə ilə əlaqədar hüquq və öhdəlikləri əhatə edən müzakirəyönümlü məşğələdir. | Hökumət və azad seçkilərdə iştirak hüququ. Düşüncə və ifadə azadlığı. Fikir azadlığı. |
| Hüquq mübarizləri | • Ümumi İnsan Hüquqları<br>• KİV<br>• Vətəndaşlıq və İştirak | Bu məşğələdə insan hüquqları qəhrəmanlarına marağın artırılması üçün məlumat kartlarından istifadə edilir. | Düşüncə və ifadə azadlığı. Qanun qarşısında bərabərlik hüququ və ədalətli məkhəmə hüququ. İşgəncəyə və alçaldıcı rəftara məruz qalmamaq hüququ. |
| Barmaqlar və baş barmaqlar | • Ətraf mühit<br>• Sülh və Zorakılıq<br>• Miqrasiya | Bu ən yaşıl gənc qrupunu tapmaq üçün müsabiqə simulyasiyasıdır. Onlar dürüst olacaq, yoxsa hiylədən istifadə edəcək? | Qanun qarşısında bərabərlik hüququ. Yaşamaq və sağ qalma hüququ. Hüquq və azadlıqların tam şəkildə reallaşdığı beynəlxalq sistem hüququ. |
| Gül gücü | • Ümumi İnsan Hüquqları<br>• Din və İnam<br>• Uşaqlar | Bu, ümumilikdə insan hüquqları barəsində müzakirəyə aparan yaradıcı məşğələdir: insan hüquqları nədir, onlar nəyə görə mövcuddur və biz onları necə qorumalıyıq. | Bütün hüquqlar.. |
| Ön səhifə | • KİV<br>• Qloballaşma<br>• Ətraf mühit | Bu, öz qəzetlərinin ilk səhifəsini nəşr üçün hazır edən bir qrup jurnalistin simulyasıyasıdır. | Fikir, düşüncə və ifadə azadlığı. Şəxsi, ailə həyatına, şəxsi mülkə və yazışmalara müdaxilə olunmaması hüququ. Cəmiyyətin mədəni həyatında iştirak etmək hüququ. |
| Qadın və kişi qəhrəmanlar | • Gender<br>• Ayrı-seçkilik və Dözümsüzlük<br>• Vətəndaşlıq və İştirak | Bu məşğələ qadın və kişi qəhrəmanlardan sosiallaşma və mədəniyyət simvolları olması və gender stereotiplərinin bizim tarixi mədəniyyətimiz və gündəlik həyatımızda necə kök salması barədə fərdi, kiçik və böyük qrup işi, beyin fırtınası və müzakirələri özündə birləşdirir. | Bərabərlik hüququ. Ayrı-seçkiliyə məruz qalmamaq hüququ. Düşüncə və ifadə azadlığı. |
| Bizə nə qədər lazımdır? | • Müharibə və Terrorizm<br>• Sağlamlıq<br>• Təhsil | Bu məşğələ müzakirə və qərar qəbul etmə prosesini özündə birləşdirir. Kiçik qruplarda çalışmaqla, iştirakçılar Minilliyin 8 İnkişaf Məqsədini maliyyələşdirmək üçün qlobal hərbi büdcəni yenidən necə bölüşdürəcəkləri barədə razılığa gələcəklər. | Yaşamaq, azadlıq və şəxsi təhlükəsizlik hüququ. İnkişaf hüququ. Yaxşı həyat standartı hüququ. Sağlamlıq və təhsil hüququ. |
| Mən işləmək istəyirəm! | • Əlillik və Əlillərə qarşı Ayrı-seçkilik<br>• Əmək<br>• Ayrı-seçkilik və Dözümsüzlük | Bu məşğələdə fiziki qüsurlu insanların işləmək hüququnu araşdırmaq üçün rol oyunundan istifadə olunur. | İşləmək hüququ. Ayrı-seçkiliyə məruz qalmamaq hüququ. Yaxşı həyat standartı hüququ. |

| Başlıq | Mövzular | Ümumi məlumat | Əlaqədar hüquqlar |
|---|---|---|---|
| Bircə dəqiqə | • Mədəniyyət və İdman<br>• Qloballaşma<br>• Ümumi İnsan Hüquqları | Bu məşğələ zamanı insanlar idman və insan hüquqları arasındakı münasibət haqqında tez və yaradıcı danışmalıdır. | Bütün insan hüquqları. |
| Dil baryeri | • Miqrasiya<br>• Müharibə və Terrorizm<br>• Ayrı-seçkilik və Dözümsüzlü | Bu, qaçqınların sığınacaq üçün müraciət etdiyi zaman üzləşdikləri çətinliklərlə bağlı simulyasiyadır. Qaldırılan məsələlər qaçqınların üzləşməli olduğu məyusluq və emosional faktorlar, dil baryerinin və qəbul proseduru zamanı ayrı-seçkiliyin öhdəsindən gəlməyi əhatə edir. | Sığınacaq axtarmaq və ondan istifadə etmək hüququ. Etnik mənsubiyyət və ya aid olduğu ölkə ilə bağlı ayrı-seçkiliyə məruz qalmamaq hüququ. Günahkar olduğu sübut olunmayanadək günahsız hesab olunma hüququ. |
| Qoy hər bir səs eşidilsin | • Təhsil<br>• Vətəndaşlıq və İştirak<br>• Uşaqlar | Bu, kiçik qruplarla müzakirə məşğələsi və təhsilin nə olduğu və insanların ehtiyaclarını necə ödədiyi və ya ödəmədiyi və qərar qəbulu prosedurunda iştirakla bağlı plenar iclasdır. | Təhsil hüququ, insan hüquqları təhsili də buraya daxildir. Düşüncə və ifadə azadlığı. Öz ölkənin hökumətində iştirak hüququ. |
| Gəlin cins barəsində danışaq! | • Gender<br>• Ayrı-seçkilik və Dözümsüzlük<br>• Sağlamlıq | Bu məşğələ seksuallığa yanaşmaları araşdırarkən “balıq qabı” üsulundan istifadə edir. | Bərabərlik hüququ. Ayrı-seçkiliyə məruz qalmamaq hüququ. Düşüncə və ifadə azadlığı. |
| Makah balina ovu | • Mədəniyyət və İdman<br>• Ətraf mühit<br>• Qloballaşma | Bu məşğələ dəniz resurslarından davamlı istifadə və yerli əhalinin öz iqtisadi, sosial və mədəni inkişafı məsələləri ilə bağlı kiçik qrup işi, rol oyunu, müzakirə və konsensus əldə etməkdən ibarətdir. | Cəmiyyətin mədəni həyatında iştirak hüququ. Ərzaq və təbii ehtiyatların əldə olunması hüququ. Yaşamaq, azadlıq və şəxsi təhlükəsizlik hüququ. |
| Əlaqələrin qurulması | • Vətəndaşlıq və İştirak<br>• Demokratiya<br>• Ümumi İnsan Hüquqları | Bu məşğələ demokratiyada vətəndaşlar,hökumət,QHT-lər və KİV-in hüquqları və öhdəlikləri barədə danışıqları əhatə edir. | Hökumət və azad seçkilərdə iştirak hüququ. Məlumat və ifadə azadlığı. Hər kəsin cəmiyyət qarşısında vəzifəsi var. |
| Yaddaş etiketləri | • Tarixi Yaddaş<br>• Müharibə və Terrorizm<br>• Mədəniyyət və İdman | İştirakçılar ictimai müharibə abidələrini yada salaraq, kollektiv şəkildə öz fikir və hislərini ifadə etmək üçün “etiketlərdən ibarət bulud” yaradırlar. | Yaşamaq, azadlıq və insan təhlükəsizliyi hüququ. Mədəni həyatda iştirak hüququ. Fikir və vicdan azadlığı. |
| Mənim həyatım tamaşa deyil! | • KİV<br>• Sülh və Zorakılıq<br>• Təhsil | Bu məşğələ rol oyunu və müzakirəni özündə birləşdirir. İştirakçılar gənclərin iştirakının mənası barədə düşünür və yerli cəmiyyətdə öz iştiraklarının necə artırılması yollarını müzakirə edir. | Fikir, düşüncə və ifadə azadlığı. Şəxsi, ailə həyatı, şəxsi mülk və yazışmalara müdaxilə olunmaması hüququ. Qeyri-insani və alçaldıcı rəftara məruz qalmamaq hüququ. |
| Nərdivanda | • Vətəndaşlıq və İştirak<br>• Demokratiya<br>• Mədəniyyət və İdman | This activity involves role play and discussion. Participants reflect on the meaning of youth participation and discuss ways of increasing their own participation in the local community. | Hökumət və azad seçkilərdə iştirak hüququ. Mədəni həyatda iştirak hüququ. Düşüncə və məlumat azadlığı. |
| Bizim gələcəyimiz | • Uşaqlar<br>• Ətraf mühit<br>• Sağlamlıq | Bu məşğələdə iştirakçılar öz nəsillərinin gələcəyi barədə ümidləri və narahatlıqlarını izah edir, düşünür və müzakirə edir. Məşğələ gələcək nəsillərə təsir edəcək ətraf mühit məsələləri, yerli inkişaf və insanların ehtiyacları məsələlərini əhatə edir. | Düşüncə və məlumat azadlığı. Uşağın maraqlarını əhatə edən məsələlərin nəzərə alınması hüququ. Layiqli həyat standardı hüququ. |
| Bərabərlik ölkəsinə yol | • Gender<br>• Ayrı-seçkilik və Dözümsüzlük<br>• Təhsil | Bu məşğələ gender bərabərliyi və qadınlara qarşı ayrı-seçkilik məsələlərinin araşdırılması üçün kiçik qrup işi, təxəyyül və şəkil çəkməyi özündə birləşdirir. | Cins və genderlə bağlı ayrı-seçkiliyə məruz qalmamaq hüququ. Evlilik və ailə qurmaq hüququ. Qanun qarşısında bərabərlik hüququ. |

| Başlıq | Mövzular | Ümumi məlumat | Əlaqədar hüquqlar |
|---|---|---|---|
| Şəkillərlə oynamaq | • Ümumi İnsan Hüquqları | Bu məşğələdə insanlar Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin Maddələrini təsvir edən şəkilləri müəyyənləşdirməyə çalışır. | Bütün insan hüquqları.. |
| Elektrik stansiyası | • Sülh və Zorakılıq<br>• Vətəndaşlıq və İştirak<br>• Ümumi insan hüquqları | Iştirakçılar öz gündəlik həyatlarında üzləşdikləri zorakılıq haqqında beyin fırtınası edir və onlarla mübarizə aparmaq və problemlərə həll tapmaq üçün yaradıcı yollar axtarır. | Yaşamaq, azadlıq və şəxsi təhlükəsizik hüququ. Ayrı-seçkiliyə məruz qalmamaq hüququ. Şəxsi, ailə həyatına, şəxsi mülk və yazışmalara müdaxilə olunmaması hüququ. |
| İrqçiliklə mübarizə | • Ayrı-seçkilik və Dözümsüzlük<br>• Mədəniyyət və İdman<br>• Sülh və Zorakılıq | Bu məşğələdə iştirakçılar irqçilik və qərəzli fikirlə bağlı (xüsusilə romalara qarşı) məsələləri araşdırmaq və məktəb və ya digər təhsil müəssisəsində irqçiliklə necə mübarizə aparmaqla bağlı önəmli hadisənin rol oyununu göstərirlər. | Ləyaqət və hüquqlarla bağlı bərabərlik. Ayrı-seçkiliyə məruz qalmamaq hüququ. Düşüncə, vicdan və din azadlığı. |
| Hüquqlar Binqosu | • Ümumi İnsan Hüquqları | Bu, insanların insan hüquqları ilə bağlı bilik və təcrübəsini bölüşdüyü “Binqo!” oyununun sadə sınağı və variantıdır. | Hər hansı bir insan hüququ. |
| Güc və var-dövlət üçün mübarizə | • Yoxsulluq<br>• Qloballaşma<br>• Sağlamlıq | Bu məşğələ güc və var-dövlət bərabərsizliyini və yoxsulluğun ədalətsizliyini simulyasiya edir. | Ləyaqət və hüquqlarla bağlı bərabərlik. Yaxşı həyat standartı hüququ. Sağlamlıq, ərzaq və sığınacaq hüququ. |
| Bacarığı görün! | • Əlillik və Əlillərə qarşı Ayrı-seçklik<br>• Ayrı-seçkilik və Dözümsüzlük<br>• Uşaqlar | Fiziki qüsurlu insanlarla empatiyanın təşviqi üçün praktiki məşğələ. Əhatə olunan məsələlər fiziki qüsurlu insanların cəmiyyətə inteqrasiyası zamanı üzləşdikləri çətinliklər və fiziki qüsurlu insanların hüquqlarının adi insan hüquqları kimi başa düşülməsidir. | Ayrı-seçkiliyə məruz qalmamaq hüququ. Ləyaqət və hüquqlarla bağlı bərabərlik. Sosial təhlükəsizlik hüququ. |
| Tezliklə köhnələcək | • Din və İnam<br>• Qloballaşma<br>• Təhsil | Bu məşğələdə inamların necə inkişaf etdiyi, onların necə qüvvətləndirildiyi və zamanla necə və nəyə görə dəyişdiyi insanlar tərəfindən müzakirə olunur. | Düşüncə, vicdan və din azadlığı. Fikir və ifadə azadlığı. Cəmiyyətin mədəni həyatında azad iştirak hüququ. |
| Hamı üçün idman | • Əlillik və Əlillərə qarşı Ayrı-seçkilik<br>• Mədəniyyət və İdman<br>• Sağlamlıq | Bu, yüksək enerjili məşğələdir. İştirakçılar yeni oyunlar tərtib etmək üçün öz təxəyyül və yaradıcılıqlarından istifadə edir. | Fiziki və əqli sağlamlıq hüququ. Ləyaqət və hüquqlarla bağlı bərabərlik. İstirahət və asudə vaxt hüququ. |
| Bir addım irəli atın | • Ayrı-seçkilik və Dözümsüzlük<br>• Yoxsulluq<br>• Ümumi İnsan Hüquqları | Biz hamımız bərabərik, lakin bəziləri digərlərindən daha bərabərdir. İştirakçılar həyatdakı şansları və imkanlarına əsasən rollarını icra edir və irəliyə gedir. | Ləyaqət və hüquqlarla bağlı bərabərlik hüququ. Təhsil hüququ. Sağlam və rifah dolu həyat üçün lazım olan həyat standartı hüququ. |
| İki şəhərin nağılı | • Vətəndaşlıq və İştirak<br>• Ətraf mühit<br>• Əmək | Bu, oyunçuların yaşamaq istədikləri şəhər və görmək istədikləri gözəlliklərlə bağlı səs verdiyi oyun-dur. Məşğələdə sosial həmrəylik, vergilərin ödənilməsi və yerli demokratiyanın dəyəri məsələləri əhatə olunmuşdur. | Sosial təhlükəsizlik hüququ. Mülkiyyət hüququ. Yaxşı həyat standartı hüququ. |
| Terrorizm | • Müharibə və Terrorizm<br>• Sülh və Zorakılıq<br>• Qloballaşma | Tematik araşdırmalardan istifadə etməklə iştirakçılar bir şeyi nəyin terrorizm hadisəsi etməsini müzakirə edir və terrorizmin tərifini formalaşdırır. | Yaşamaq, azadlıq və şəxsi təhlükəsizlik hüququ. İşgəncəyə və alçaldıcı rəftara məruz qalmamaq hüququ. Sülh hüququ. |
| Daş atmaq | • Müharibə və Terrorizm<br>• Sülh və Zorakılıq<br>• Uşaqlar | Bu məşğələdə insanların zorakılıqda iştirak etmə səbəblərini araşdırmaq üçün rol oyunu aparılır. | Yaşamaq, azadlıq və şəxsi təhlükəsizlik hüququ. Qanun qarşısında şəxsiyyət kimi tanınmaq hüququ. Qanunla bərabər səviyyədə qorunmaq hüququ. |
| Vaxt şkalaları | • Ümumi İnsan Hüquqları<br>• Tarixi Yaddaş<br>• Din və İnam | İştirakçılar e.ə. 2000-ci ildən bu günə qədər hüquq konseptinin inkişafını özündə birləşdirən hadisələrin xronologiyasını hazırlayır və gələcəklə bağlı düşünür. | Təhsil hüququ (insan hüquqları təhsili də daxildir). Yaşamaq, azadlıq və şəxsi təhlükəsizlik hüququ. Din və inam azadlığı. |

| Başlıq | Mövzular | Ümumi məlumat | Əlaqədar hüquqlar |
|---|---|---|---|
| Səs vermək və ya verməmək? | • Demokratiya<br>• Vətəndaşlıq və İştirak<br>• Ümumi İnsan Hüquqları | Bu məşğələ seçkilərdə səs vermək və vətəndaş iştirakı ilə bağlı məsələlərin araşdırılması üzrə cəmiyyətdəki insanlar arasında sorğunu əhatə edir. | Hökumət və azad seçkilərdə iştirak hüququ. Düşüncə və ifadə azadlığı. Dinc toplaşmaq və birləşmək hüququ. |
| Həmkarlar İttifaqı görüşü | • Əmək<br>• Demokratiya<br>• Vətəndaşlıq və İştirak | Bu, işçi və işəgötürən arasında maaşlar və insanlar arasında zorakılıqla bağlı danışıqlar aparılması üçün həmkarlar ittifaqı üzvlərinin iştirakı ilə keçirilən görüşün simulyasiyasıdır. | İşləmək hüququ. Ədalətli iş şərtlərinə sahib olmaq hüququ. Həmkarlar ifttifaqı formalaşdırmaq və onlara qoşulmaq hüququ. Tətil etmək hüququ. |
| Həyatımdakı zorakılıq | • Sülh və Zorakılıq<br>• Müharibə və Terrorizm<br>• Sağlamlıq | Bu məşğələdə insanlar özlərinin insanlararası zorakılıq təcrübələrini araşdırır. | Yaşamaq, azadlıq və şəxsi təhlükəsizlik hüququ. Düşüncə, vicdan və din azadlığı. İşgəncə və alçaldıcı rəftara məruz qalmamaq hüququ. |
| Həyat şəbəkəsi | • Ətraf mühit<br>• Qloballaşma<br>• Sağlamlıq | Bu məşğələdə iştirakçılar qlobal ərzaq şəbəkəsində əlaqələr barədə beyin fırtınası edir. Onlar canlı və cansız varlıqların qarşılıqlı asılılığını və insan fəaliyyətinin ətraf mühitə təsirini araşdırır. | Yaşamaq, azadlıq və şəxsi təhlükəsizlik hüququ. Bir kəsin təbii sərvət və resurslara sərbəst şəkildə malik olmaq hüququ. İnam və din azadlığı. |
| Sabah gələndə | • Sülh və Zorakılıq<br>• Qloballaşma<br>• KİV | Bu məşğələdə cəmiyyətin cinayətkarlardan mühafizəsi, cinayətkarların insan hüququ və ölüm hökmü kimi məsələlərin araşdırılması üçün məlumat vərəqləri və müzakirədən istifadə edilir. | Yaşamaq hüququ. İşgəncə və alçaldıcı rəftara məruz qalmamaq hüququ. Ləyaqətdə bərabərlik hüququ. |
| Harada dayanırsınız? | • Ümumi İnsan Hüquqları<br>• Vətəndaşlıq və İştirak<br>• Yoxsulluq | Bu müzakirə məşğələsində insanlar mülki, siyasi, sosial və iqtisadi hüquqlar barədə öz fikirlərini müdafiə edir. | Bütün hüquqlar.. |
| Mən kiməm? | • Gender<br>• Ayrı-seçkilik və Dözümsüzlük<br>• Din və İnam | Bu məşğələ kimlik məsələlərini araşdırmaq üçün müzakirə qrupları, beyin fırtınası, şəkil çəkmək və qrup müzakirəsini özündə birləşdirir. | Ləyaqət və hüquqlarla bağlı bərabərlik hüququ. Ayrı-seçkiliyə məruz qalmamaq hüququ. Yaşamaq, azadlıq və şəxsi təhlükəsizlik hüququ. |
| İş və uşaqlar | • Əmək<br>• Gender<br>• Ayrı-seçkilik və Dözümsüzlük | Bu, iş yerində qadınlara qarşı ayrı-seçkilik və reproduktiv hüquqlar məsələlərini əhatə edən rol oyunu məşğələsidir. | Arzuolunan iş və həmkarlar ittifaqına qoşulmaq hüququ. Evlilik və ailə qurmaq hüququ. |
| İnsan Hüquqları Təqvimi | • Bütün | İnsanların insan hüquqlarını qeyd etdiyi günlərin siyahısı; hüquq mübarizlərinə ehtiram edilir, insan hüquqlarının sui istifadə halları yad edilir və ümid və şadlıq qeyd edilir. Əsas tarixlər BMT- nin Beynəlxalq Günləri, QHT-lər tərəfindən tanınmış Dünya Günləri və tarixi hadisələrin ildönümlərindən toplanmışdır. | Bütün hüquqlar.. |
| Başlanğıclar | • Digər Kompas məşğələsi ilə məşğul olan hər kəs üçün dəstək. | Başlanğıclar burada yalnız pozitiv abu-hava yaratmaq üçün deyil, həmçinin, insan hüquqları ideyalarını əyləncəli formada təqdim etmək üçün təsvir olunmuşdur | Bütün hüquqlar. |
| Nəzərdən keçirmə üçün tapşırıqlar | • Digər Kompas məşğələsi ilə məşğul olan hər kəs üçün dəstək. | Nəzərdən keçirmə insan hüquqları təhsili üzrə bu təlimat vəsaitinin əsas yanaşması sayılan təcrübi təhsil formasının önəmli hissəsidir. Aşağıdakı məşğələlər insanlara öz təcrübələrindən öyrənməklə bağlı yardım etmək üçün asan və əyləncəli üsuldur. Yalnız bir Kompas məşğələsini etdikdən onlardan istifadə etmək olar, lakin onlar daha təfərrüatlı təhlil və qiymətləndirmə hissəsini əvəz etməməlidir | İnsan hüquqları təhsili hüququ. Təhsil hüququ. İştirak hüququ. |

Miqrasiya

Müharibə və Terrorizm

Ətraf mühit

2-ci Səviyyə

İstənilən

30 dəqiqə

# 3 əşya

*Yaşamaq seçməkdir.*
*Lakin yaxşı seçim etmək üçün siz kim olduğunuzu və nəyi müdafiə etdiyinizi, hara getmək istədiyinizi və nəyə görə oraya getmək istədiyinizi bilməlisiniz.*

Kofe Annan

| | |
|---|---|
| **Mövzular** | • Miqrasiya<br>• Müharibə və Terrorizm<br>• Ətraf mühit |
| **Mürəkkəblik** | 2-ci Səviyyə |
| **Qrup ölçüsü** | İstənilən (5-6 nəfərlik kiçik qruplar) |
| **Vaxt** | 30 dəqiqə |
| **Xülasə** | Bu məşğələdə brilliant sıralamasından istifadə olunaraq, insanların qəflətən öz evlərindən qaçmağın nə demək olduğunu anlaması müzakirə olunur |
| **Əlaqədar hüquqlar** | • Təqibdən qurtulmaq üçün digər ölkələrdə sığınacaq axtarmaq<br>• Din və ya inam azadlığı<br>• Fikir və məlumat azadlığı |
| **Məqsədlər** | • Öz evini tərk etməyin nə demək olduğunu dərk etmənin inkişaf etdirilməsi<br>• Qərar qəbul etmə və razılıq əldə etmək bacarıqlarının təcrübədən keçirilməsi<br>• Qaçqınlara qarşı şəfqətin və həmrəyliyin qüvvətləndirilməsi |
| **Materiallar** | Hər iştirakçı üçün 3 ədəd olmaqla qeyd üçün yapışqanlı kağızlar və ya kiçik dördbucaq kağızlar (təqribən 8sm x 8sm ölçülü)<br>• Hər iştirakçı üçün 1 ədəd olmaqla qələm və ya karandaşlar |

## Təlimatlar

1. İnsanların nəyə görə başqa yerdə yaşamaq üçün köçdükləri barədə beyin fırtınası etməklə miqrasiya mövzusunu təqdim edin.
2. Məşğələ zamanı öz evlərindən qaçmağa məruz qaldıqlarını təsəvvür etməli olduqlarını izah edin. Beyin fırtınasına istinad edin və insanları qaçmağa məcbur edən müharibə, təbii fəlakətlər, təqib və ya terrorizm kimi "itələyici faktorları" göstərin. Daha sonra, qrupu dünyada nə qədər məcburi köçkün olduğunu təxmin etməyə dəvət edin.
3. İndi onlara kiçik qruplara bölünməyi tapşırın və kiçik kağız parçaları və qələmləri paylayın.
4. Hər kəsdən müəyyən səbəbə görə evlərini tərk etdiklərini və özləri ilə yalnız 3 əşya götürə biləcəklərini təsəvvür etməyi xahiş edin. Götürəcəkləri 3 əşya nə olacaq? Onlar hər kağız parçasında bir əşyanın adını qeyd etməlidirlər.
5. Daha sonra, hər kəsdən növbə üzrə öz seçimlərini təqdim etməyi və qərarları ilə bağlı səbəbi izah etməyi xahiş edin.
6. İndi iştirakçılara müxtəlif seçimlər və səbəblərini birlikdə müzakirə etməyi, ümumi razılığa gəlməyi və brilliant sıralamasından istifadə etməklə seçdikləri əşyaları prioritetləşdirməyi tapşırın (65-ci səhifəyə baxın).
7. Sonda, onlara hər qrupun işinin nəticəsinə baxmağa icazə verin.

## Təhlil və qiymətləndirmə

- Hər qrupun əşyaları necə sıralamasını nəzərdən keçirməklə başlayın və daha sonra, iştirakçıların nə öyrəndiyi və insan hüquqlarının necə tətbiq olunduğu barədə müzakirə aparın.
- İnsanların özləri ilə aparmaq istədikləri əşyalar içərisində təəccüblü olanları var idi?
- Əşyaları sıralamaq asan idi? Qrupların içərisində hansı növ fikir ayrılıqları var idi?
- Müxtəlif qrupların sıralamaları nə dərəcədə müxtəlif və nə dərəcədə eyni idi?
- İnsanlar nə dərəcədə praktiki idi? Onlar əsasən fiziki cəhətdən həyatda qalmaq və ya öz emosional və ruhi ehtiyacları barədə düşünürdülər?
- Siz həqiqətən öz evinizi tərk etmək məcburiyyətində qalsanız, bu, nə dərəcədə çətin olacaq?
- İnsanlar evlərini tərk etmək məcburiyyətində qaldıqda ən çox nə üçün darıxacaqlar?
- Onlar öz evlərini tərk etməyə məcbur qalmış bir insan tanıyırlar?
- Məşğələ realistikdir? İnsanlar həmişə özləri ilə nə götürəcəklərini seçə bilirlər?
- Bəs uşaqlar və gənclər? Valideynlər əşyalarını toplayarkən uşaqların da xüsusi ehtiyaclarını nəzərə almalıdırlar?
- Biz cəmiyyətimizdəki (bütün dünyadakı) qaçqınların ehtiyaclarına diqqəti yönəltmək üçün nə edə bilərik?
- Qaçqınları xüsusi olaraq qoruyan insan hüquqları hansılardır?

## Fasilitator üçün məsləhətlər

Məşğələni təqdim edərkən iştirakçıları ümumilikdə miqrasiya barədə düşünməyə sövq etməyə çalışın. İnsanların köçməyə qərar vermə səbəblərinə təhsil və ya iş, onların həyat tərzi, daşqın, zəlzələ və ya quraqlıq, müharibə və ya təqib daxildir. Beyin fırtınasının sonunda insanların köçü səbəblərindən 2 siyahı hazırlayın, bu 2 siyahı onların köçünün "itələyici" (öz ölkələrində müharibə və ya təqib) və ya "çəkici" (digər ölkədə işləmək və ya oxumaq üçün daha yaxşı imkanların olması) faktorlar olmasına əsasən hazırlanmalıdır.

4-cü addımda siz ssenarini elə qurmalısınız ki, iştirakçılar eyni çərçivə daxilində işləsin. Qrup üçün ən uyğun və maraqlı olacaq vəziyyəti seçin. "Müharibə", heç kim onu birbaşa olaraq yaşamadığı halda, çətin seçim olacaq, lakin terrorist hücumunu özündə birləşdirən ssenari daha realist olacaqdır. Mümkün olacağı təsəvvür edilə bilən bir ssenari yaratmağa çalışın. Əgər siz "daşqın"ı səbəb kimi seçsəniz, əgər sizin şəhəriniz vadidə yerləşirsə, çayın səviyyəsinin qalxdığını və qəfil daşqının körpüləri uçurduğunu, suyun ətrafdakı bütün əraziyə daşdığını deyə bilərsiniz. Digər tərəfdən isə, əgər siz dağlıq və ya təpəlik ərazidə yaşayırsınızsa, o zaman bütün şəhəri bürüyən palçıq nəticəsində torpaq sürüşməsinə səbəb olan güclü yağışlar təhlükəsi ola bilər. Siz aydın şəkildə insanların öz evlərini tərk etmək məcburiyyətində qaldıqlarını, bəlkə də geri dönmə imkanı ola bilməyəcəyini və uzun müddətə, bəlkə də həmişəlik, uzaq bir yerə köçəcəklərini təsəvvür etməli olduqlarını izah etməlisiniz.

İnsanların seçdikləri əşyalar, onların nə dərəcədə praktiki olduqları iştirakçıların yetkinlik səviyyəsindən asılı olacaqdır. İnsanların nəyi götürəcəyi, həmçinin, bir sıra faktorlardan, məsələn, hava, ilin vaxtı və öz evlərini tərketmə səbəbindən, asılı olacaqdır. Məsələn, əgər daşqın baş vermişdirsə və onlar üzə bilmirlərsə, onlar bərə kimi istifadə edə biləcəkləri bir əşyanı götürə bilərlər. Eyni zamanda, daha ağıllı və praktiki seçimlərin mövcud olmasına baxmayaraq, şəxsi seçimdən danışdıqda, düzgün və ya səhv cavab anlayışının olmadığını vurğulamaq lazımdır.

Müharibə və təqibdən qaçmış və Danimarkada sığınacaq axtaran insanlardan soruşduqda onlar ilk prioritet olaraq pulu götürdüklərini bildirmişdilər. Passport və ya şəxsiyyət vəsiqəsi də vacibdir, "lakin siz ehtiyacınız olduqda saxta sənədlər ala bilərsiniz" deyə cavab vermişlər. Eynisi paltar və ərzağa da aiddir: pulunuz varsa, siz istədiyinizi ala bilərsiniz. Bəzi insanlar üçün İncil öz ruhi ehtiyaclarını ödəmək üçün ilk seçim olmuşdur.

Arxası yapışqanlı qeyd kağızları və brilliant sıralamasından istifadənin təklif olunmasının səbəbi, ilkin olaraq, qəti seçimlər etməyin çətin və qeyri-təbii olması, daha sonra isə, metodun konkretliyi və müzakirə davam etdikcə kağızların yerini dəyişdirməyin mümkünlüyünü təmin etməkdir.

**ƏSAS TARİX**

**18 Dekabr**
Beynəlxalq
Miqrantlar günü

**BMT QAK-a istinadən, 2010-cu ilin sonuna qədər dünyada:**
**– 10,55 milyon qaçqın**
**– 14.7 milyon məcburi köçkün və 3,5 milyon ölkəsi olmayan insan olmuşdur.**

**Qeyd:**
www.coe.int/compass ünvanında 5-ci Fəsildə Miqrasiya haqqındakı ümumi məlumat hissəsində "qaçqınlar", "məcburi köçkünlər", "sığınacaq axtaranlar" və "miqrant işçilər" arasındakı fərqin izahı və tərifləri yer almışdır.

## Variantlar

- Bu metod insanların bütün mövzularla bağlı fikirlərini araşdırmaq üçün istifadə oluna bilər. Məsələn, Uşaqlar: Xoşbəxt uşaqlığın ən əsas 3 göstəricisi nədir?
- Vətəndaşlıq və İştirak: Multikultural cəmiyyətdə yaşamaq üçün insanın sahib olmalı olduğu 3 ən vacib xüsusiyyət nədir?
- Mədəniyyət və İdman: Mədəniyyətinizin sizin üçün ən vacib 3 aspekti nədir?
- Demokratiya: Yaxşı bərqərar olmuş demokratiyaya sahib olmaq üçün bir ölkənin ehtiyacı olan 3 əsas xüsusiyyət nədir?
- Əlillik və Əlillərə qarşı Ayrı-seçkilik: Hərəkət etmək fiziki qüsurlu bir çox insan üçün problemdir. Bizim şəhərimizdə, məsələn, görmə qüsurlu insan üçün, həyata keçirilə biləcək 3 ən effektiv irəliləyiş nə ola bilər?
- Ayrı-seçkilik və Dözümsüzlük: Siz uzun qatar səyahətinə çıxırsınız və öz vaqonunuzu müxtəlif ölkələrdən olan sərnişinlərlə bölüşməli olacaqsınız. Vaqonunuzu ən çox bölüşmək istədiyiniz 3 milliyyətdən olan insanı seçin (Ən az hansı milliyətdən olan insanlarla bölüşmək istədiyinizi də əlavə etməklə məşğələni bir az daha genişləndirə bilərsiniz).
- Təhsil: İnsanlar arasında ünsiyyət və anlamanı təşviq etmək üçün dünyadakı uşaqlara hansı 3 dil tədris olunmalıdır?
- Ətraf mühit: Dünya Vəhşi Təbiət Fondu növbəti kampaniyasında nəsli kəsilməkdə olan hansı 3 heyvanı hədəf seçməlidir?
- Gender: Gender əsaslı ayrı-seçkiliyin hələ də mövcud olmasının 3 əsas səbəbini deyin.
- Qloballaşma: Minilliyin İnkişaf Məqsədlərindən sizin üçün ən vacib 3 məqsəd hansıdır?
- Sağlamlıq: Tütün, kokain, spirt, ot, efedrin, viaqra? Hansı 3 dərman haqqında ölkənizdəki gənclərin daha çox məlumat almasına ehtiyac var?
- KİV: İnsan Hüquqlarının təbliği üçün son 10 ildə KİV-də hansı 3 yenilik effektiv olmuşdur?
- Miqrasiya: Ölkənizi tərk etmək məcburiyyətində qalsanız, ən çox hansı 3 ölkədə yaşamaq istərdiniz?
- Sülh və Zorakılıq: Dünyada sülh qarşısında ən böyük 3 təhlükə nədir?
- Yoxsulluq: Yoxsulluğun aradan qaldırılması üçün ən effektiv 3 addım/fəaliyyət hansılardır?
- Din və İnam: Fundamentalizmin yayılması ilə mübarizə istiqamətində görülə biləcək ən effektiv 3 vasitə hansılardır?
- Tarixi Yaddaş: Şəhərinizdə milli, tarixi hadisəni yad edən abidə haqqında düşünün. Həmin hadisənin təhrif və ya sui-istifadə olmadan sənədləşməsi və öyrənilməsi üçün ictimai şəkildə qəbul olunmasının 3 yolunu təklif edin.
- Müharibə və Terrorizm: Minaları qadağan edən beynəlxalq müqavilə artıq mövcuddur; növbəti olaraq, hansı 3 silah qadağan olunmalıdır?
- Əmək: Sizi ən çox narahat edən 3 layiqli iş hüququ pozuntusu hansılardır?

## Sonrakı fəaliyyət üçün təkliflər

Əgər qrup evi tərk etmək və sığınacaq axtarmağın nə olduğunu araşdırmaq istəsə, onlar 115-ci səhifədəki “İçəri girə bilərəm?” və 203-cü səhifədəki “Dil baryeri” məşğələlərini edə bilərlər.

Ötən hadisələr barədə düşünmək hər cür xatirələri oyadır; əgər qrup ictimai müharibə anım abidələrinin xatirələri necə oyatdığı barədə düşünmək istəsə, onlar 227-ci səhifədəki “Yaddaş etiketləri” məşğələsindən istifadə edə bilərlər.

## Fəaliyyət üçün fikirlər

Ailəniz, dostlarınız və həmkarlarınıza özləri ilə götürəcəkləri 3 əşya barədə sual verin və insan hüquqları və qaçqınlarla bağlı müzakirə açın.

Sığınacaq axtaranlar və qaçqınlarla işləyən yerli təşkilat tapın və onların işinə necə kömək edə biləcəyinizi araşdırın.

# Slipivildə məscid

*Əgər siz heç nə uğrunda mübarizə aparmırsınızsa, sizi istənilən şəkildə aldatmaq mümkündür.*

Malkolm X

**Mövzular**
- Din və İnam
- Ayrı-seçkilik və Dözümsüzlük
- Vətəndaşlıq və İştirak

**Mürəkkəblik** 2-ci səviyyə
**Qrup ölçüsü** 15 - 30
**Vaxt** 2 – 2 ½ saat
**Xülasə** Bu məşğələdə şəhər şurasının görüşünün silmulyasiyası vasitəsilə ənənəvi olaraq xristianların yaşadığı ərazidə yeni məscidin tikilməsi ilə bağlı mübahisə araşdırılır.

**Əlaqədar hüquqlar**
- Ayrı-seçkiliyə məruz qalmamaq hüququ
- Din və inam azadlığı
- Düşüncə və məlumat azadlığı

**Məqsədlər**
- Müxtəlif cəmiyyətlərin ehtiyaclarının qarşılanması zamanı ortaya çıxa biləcək real münaqişələri təcrübədən keçirmək
- Din və inam azadlığı hüququnun araşdırılması
- Debat və təhlil bacarıqlarının inkişaf etdirilməsi

**Materiallar**
- Adların yazılması üçün vərəqlər
- Flipçart kağızı
- Qol və ya divar saatı
- Bələdiyyə başçısı üçün kiçik zəng

**Hazırlıq**
- 85-ci səhifədəki rol kartlarının, problemin izahı və debat qaydalarının (istəyə uyğun olaraq) nüsxələrini çıxardın.
- Görüşdə təmsil olunacaq müxtəlif partiya/qruplarının adları yazılan etiketləri hazırlayın.
- Flipçartda müxtəlif rolların siyahısını hamının görə biləcəyi şəkildə yazın.
- “Şura Görüşü” üçün uyğun yerin və müxtəlif qrupların öz mövqelərini öncədən müzakirə etməsi və digərləri ilə görüşməsi üçün ayrıca yerin olduğundan əmin olun.

## Təlimatlar

1. 85-ci səhifədəki problemin izahını oxuyun. Bütün iştirakçıların Slipivilin sakinləri olduğunu və hər kəsin sahibsiz şura torpaqlarında yeni məscidin tikilib-tikilməməsi məsələsi ilə bağlı narahatlığını izah edin.
2. İştirakçılara müxtəlif rolların siyahısını təqdim edin və hər kəsdən özü üçün bir rol seçməsini xahiş edin. Rol kartlarını və problemin izahını hər kəsə paylayın və insanlar və qrupların daha öncə harada görüşməli olduqlarını və daha sonra “Şura Görüşünün” harada keçiriləcəyini göstərin.
3. Görüş zamanı keçiriləcək debatın qaydalarını izah edin. Siz bununla bağlı məlumatı 85-ci səhifədə tapa bilərsiniz.
4. Əsas görüşdən qabaq 30 dəqiqə vaxt olacağını, beləliklə, insanların digər vətəndaşlarla görüşə, öz nitqlərinə hazırlaşa və necə səs vermək istədikləri barəsində qərar verə biləcəyini izah edin! Onlara Şəhər Şurası görüşünün 40 dəqiqə davam edəcəyini və iştirak edən insan sayına görə nitqlər üçün az vaxt qala biləcəyini deyin. Bu səbəbdən, onlar bildirmək istədikləri bir və ya iki məsələni qeyd etməlidir.

**Din və İnam**

**Ayrı-seçkilik və Dözümsüzlük**

**Vətəndaşlıq və İştirak**

**2-ci Səviyyə**
**15 - 30**
**2 – 2 ½ saat**

5. "Şura Görüşü" üçün yer hazırlamaq məqsədilə hazırlıq mərhələsindən istifadə edin. İdeal olaraq, insanlar yarımdairəvi formada və ya nal formasında oturmalı, mer isə öndə, bir qədər yüksəldilmiş mövqedə oturmalıdır. Partiya və ya qruplar birlikdə oturmalı, siz isə onların qarşısında stolların üzərində adları yazılan lövhələri yerləşdirməlisiniz.
6. 30 dəqiqədən sonra vətəndaşları görüşə çağırın (və ya merdən çağırmasını xahiş edin). O, insanlara debatın əsas qaydalarını xatırlatmalı və görüşə başlamaq üçün kiçik nitq söyləməlidir.
7. 40 dəqiqədən sonra, görüşün sonunda mer hər kəsi səs verməyə dəvət etməlidir. Səslər hesablandıqdan və nəticə elan olunduqdan sonra, siz məşğələnin bitdiyini elan etməli və insanlardan öz stullarını təhlil mərhələsi üçün dairəvi düzməklərini xahiş etməlisiniz.

## Təhlil və qiymətləndirmə

- İnsanların əsl adları ilə salamlamaqla və ya insanların simulyasiya zamanı oynadıqları rollardan qurtulması üçün digər üsuldan istifadə edərək əks əlaqə sessiyasını başlayın. Təhlil mərhələsinə başlamazdan əvvəl bunu etmək çox vacibdir. İştirakçılardan az öncə iştirak etdikləri proses barədə nə hiss etdiklərini soruşun:
- Siz səs vermənin nəticəsinə təəccübləndiniz və bu nəticə sizin rolunu oynadığınız insanın mövqeyini əks etdirir?
- Sizin fikrinizcə, siz (öz rolunuzda) bu nəticəyə nə qədər təsir edə bildiniz?
- Digər insanlar və ya qruplarla qarşılıqlı əlaqə problemlə bağlı fikriniz və ya münasibətinizi dəyişdirdi?
- Sizin rolunuzla bunu müəyyənləşdirmək nə dərəcədə asan oldu? Niyə və niyə yox?
- Sizin fikrinizcə, bu vəziyyət real həyatda meydana çıxa bilər? Buna oxşar başqa bir məsələ bilirsiniz?
- Bu problem sizin şəhəriniz və ya yaşadığınız yerdə baş versə, necə reaksiya verərdiniz? Məşğələ sizin düşüncənizi tamamilə dəyişdi?
- Düşüncə, vicdan və din azadlığı dedikdə nə başa düşürsünüz? Tarixdə (və ya yaxın zamanda) bu hüququn rədd olunduğu bir hadisə ilə qarşılaşmısınız?
- Sizcə, din azadlığı fundamental insan hüququdur?
- Sizcə, sizin cəmiyyətinizdə bu hüquq nə dərəcədə təmin olunur?

## Fasilitator üçün məsləhətlər

Əgər mümkündürsə, suallara cavab verə bilmək və məşğələnin hər mərhələsini eyni zamanda koordinasiya edə bilmək üçün bu məşğələni başqa fasilitator ilə birlikdə həyata keçirəsiniz. Əlavə vaxt qalması xüsusilə əsl görüş vaxtı insanların digərlərinin şərhlərinə qarşılıq verməsinə imkanlarının olması baxımından məşğələ üçün faydalıdır. Siz, həmçinin, sessiya vaxtı vaxta qənaət etmək məqsədilə rolları daha öncədən və ya təsadüfi qaydada paylaya bilərsiniz.

Hazırlıq mərhələsi zamanı, insanların digər insanlarla görüşmək üçün vaxt sərf etdiyini və ya görüş vaxtı nə deyəcəklərini planlaşdırdığını yoxlamaq yaxşı olardı.

Rolları təyin edərkən mer rolunda iştirak etmək üçün çox böyük tələbat olacağını, eləcə də bu rolu oynayacaq insanın görüşü keçirməklə bağlı özündən əmin olmalı olduğunu və hər kəsə danışmağa imkan yaratmaq üçün ehtiyac olduqda insanların nitqini kəsməyə qadir olmalı olduğunu nəzərə alın. Siz mer rolunu canlandıracaq insanla həqiqi simulyasiyadan öncə məşğələni nəzərdən keçirməlisiniz.

Bundan sonra, mer rolunu oynayacaq şəxsin sizin ona güvəndiyinizi hiss etməsi və digər iştirakçıların sizə üz tutmaq əvəzinə onun qərarlarına güvənə bilməsi məqsədilə görüşün keçirilməsini birbaşa mer rolunu oynayan şəxsə həvalə etməyiniz daha arzuolunandır. Əlbəttə ki, simulyasiya vaxtı çətinliklər yarandıqda buna mütləq müdaxilə etmək ehtiyacı hiss edə bilərsiniz. Lakin siz bunu mer rolunu oynayan şəxsin nüfuzunu pozmadan etməyə çalışmalısınız.

Əgər simulyasiyaya nəzarət əldən çıxsa – məsələn, insanlar mövzudan kənara çıxsa və ya yeni informasiya ortaya çıxsa – və ya Şura çıxılmaz vəziyyətdə qalsa və müəyyən razılıq əldə edə bilməsə, iştirakçılara real həyatda da belə nəticə ola biləcəyini və bunun məşğələnin öhdəsindən gələ bilmədikləri demək olmadığını bildirin.
Siz bundan sonda təhlil mərhələsində bu tip məsələlərdə razılıq əldə etmənin çətinliyini müzakirə edərkən istifadə edə bilərsiniz.

Təhlil zamanı simulyasiyanın təkrarlanması halından qaçınmaq çox vacibdir. İnsanlar nə təcrübə yaşadıqları barədə lazımi qaydada düşünmək məqsədilə özlərini məşğələ zamanı oynadıqları roldan uzaqlaşdırmalıdırlar. Siz onların simulyasiya haqqında danışarkən oynadıqları rol əvəzinə, "öz papaq"larında olmalarına şərait yaratmalısınız.

Təhlil və qiymətləndirmə mərhələsinə hazırlaşmaq məqsədilə siz 562-ci səhifədəki Din və İnam mövzusu ilə bağlı əlavə məlumatı oxuya bilərsiniz.

**ƏSAS TARİX**

**21 Sentyabr**
Beynəlxalq Sülh Günü

## Variantlar

İşlədiyiniz mühitdən asılı olaraq, məşğələni "Slipivildə Kilsə" və ya "Slipivildə məbəd" kimi uyğunlaşdırmaq və onu, məsələn, əsasən müsəlmanların yaşadığı ərazidə yerləşdirmək mümkündür. Və ya siz başqa bir kombinasiyadan istifadə edə bilərsiniz.

Siz məşğələyə həmçinin daha uzaq proses barəsində fikir əldə etmək üçün xəbər müxbirlərini də əlavə edə bilərsiniz; lakin hesabatları qrupla müzakirə etməyi planlaşdırırsınızsa, bu, daha çox vaxt ala bilər (aşağıdakı təkliflərə nəzər yetirin).

## Sonrakı fəaliyyət üçün təkliflər

Din və inam azadlığının bütün aspektlərini və ölkənizdə bununla bağlı baş verən gərginlikləri müzakirə edin. Xəbərlərdəki vacib hadisələr (tematik araşdırmalar), xüsusilə kiçik qruplarda yaxşı başlanğıc kimi istifadə oluna bilər. Siz, həmçinin 105-ci səhifədəki "İnananlar" məşğələsi vasitəsilə iştirakçıların dinlə bağlı daha dərin fikirlərinin araşdırılmasını və onun gənclərin həyatına təsiri barədə müzakirələr aparmaqla sonrakı fəaliyyət mərhələsini həyata keçirə bilərsiniz.

Əgər xəbər müxbirləri də iştirak edirsə, siz ayrıca sessiyada onların proseslə bağlı təhlilindən istifadə edə bilərsiniz. Bu, xüsusilə KİV-in rolu və təsiri barədə məsələ qaldırmaq məqsədilə hesabatlar arasındakı fərqlərə baxmaq üçün çox effektiv olacaqdır. 181-ci səhifədəki "Ön səhifə" məşğələsində fikirlərin, xüsusilə KİV tərəfindən, necə formalaşdırılması və dəyişməsi araşdırılır.

Siz təhlil mərhələsi zamanı ortaya çıxan mübahisəli və qütbləşdirici bəyanatları götürməklə, 164-cü səhifədəki "Seçkiqabağı kampaniya" məşğələsini bu bəyanatlardan əsas kimi istifadə edərək yerinə yetirməklə debat, təhlil və inandırma bacarıqlarını inkişaf etdirə bilərsiniz.

## Fəaliyyət üçün fikirlər

İştirakçıları öz ətraflarına nəzər yetirməyə və müxtəlif dini icmaların hüquqlarına nə dərəcədə hörmət edildiyini araşdırmağa sövq edin. Bu icmaların bəzilərinin nümayəndələri ilə görüşlərin təşkil edilməsinə və onları öz hüquqlarına hörmət edildiyini hiss edib-etməmələri ilə bağlı danışdırmağa çalışın.

Sizin və iştirakçıların harada yaşadıqları və ya işlədikləri və Şurada hal-hazırda debat aparılan mövzulardan asılı olaraq, cəmiyyətdəki hər kəsin insan hüquqlarına təsir edən yerli siyasi müzakirələrə cəlb olunmaq məqsədilə Şura görüşündə iştirak etmək maraqlı ola bilər.

## Əlavə məlumat

Beynəlxalq İnsan Hüquqları Hüququnda Din Hüququ: Siz aşağıdakı məlumatın Slipivildəki Müsəlman Assosiasiyası və İnsan Hüquqları uğrunda Gənc Slipililər qrupundakı insanlar üçün nüsxəsini çıxartmaq istəyə bilərsiniz.

*Avropa İnsan Hüquqları Konvensiyası, Maddə 9:*

1. Hər kəsin fikir, vicdan və din azadlığı hüququ vardır; bu hüquqa öz dinini və ya əqidəsini dəyişmək azadlığı, öz dininə və ya əqidəsinə həm təkbaşına, həm də başqaları ilə birlikdə etiqad etmək və açıq yaxud şəxsi qaydada ibadəti, təlimləri, dini və mərasim ayinlərini yerinə yetirmək azadlığı daxildir.
2. Öz dininə və baxışlarına etiqad etmək azadlığı yalnız ictimai asayiş maraqları naminə, ictimai qaydanı, sağlamlığı, yaxud mənəviyyatı qorumaq üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan məhdudiyyətlərə məruz qala bilər.

*Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Maddə 18:*

Hər bir insan düsüncə, vicdan və din azadlığı hüququna malikdir: bu hüquqa öz dinini və ya əqidəsini dəyişmək azadlığı, öz dininə və ya əqidəsinə həm təkbaşına, həm də başqaları ilə birlikdə, dini təlimdə, ibadətdə və dini mərasim qaydalarının yerinə yetirilməsində açıq və özəl qaydada etiqad etmək azadlığı daxildir…

*Uşaq Hüquqları Konvensiyası, Maddə 30:*

Etnik, dini və ya dil azlıqlarının və ya yerli əhali sırasından olan şəxslərin yaşadıqları dövlətlərdə belə azlıqlara və ya yerli əhaliyə mənsub olan uşaq öz qrupunun digər üzvləri ilə birlikdə öz mədəniyyətindən bəhrələnmək, öz dininə etiqad etmək və onun ayinlərini yerinə yetirmək, habelə ana dilindən istifadə etmək hüququndan məhrum edilə bilməz.

Bu məşğələ Avropa Şurası tərəfindən dərc edilmiş Müxtəliflik, İnsan Hüquqları və İştirakla bağlı dəyişiklik üçün təhsil və tədris haqqında təlimat vəsaiti olan Kompanyondakı “Slipvildə Məscid” məşğələsi əsasında hazırlanmışdır. Məşğələ Süzan Ulrixdən ilhamlanmışdır. 2000. Achtung (+) Toleranz – Wege demokratischer Konflikt-lösung. Verlag Bertelsmann Stiftung

Bu simulyasiya məşğələsinin xəyali hadisə olmasına baxmayaraq, Avropada və ondan kənarda dini azlıqlar üçün ibadət yerlərinin tikilməsi ilə bağlı oxşar mübahisələr baş verir. 2009-cu ilin noyabrında İsveçrədə milli referendum minarələrin gələcək tikintisinin qadağan olunması üçün konstitusiyaya dəyişikliyi təsdiq etdi. Bu referendumun nəticələri müsəlmanların düşüncə, vicdan və din azadlığı hüququnun ayrılmaz hissəsi olan öz dinini ictimaiyyət içində sitayiş edərək, tədris edərək, təcrübədən keçirərək və ya müşahidə edərək bəyan etmə hüquqlarını poza bilərdi. Bundan əlavə, ictimaiyyət içində İslam örtüklərinin (burqa, niqab və ya hicab) geyinilməsini qadağan edən qanunlar qəbul etmiş və ya qanunvericilik təkliflərini nəzərdən keçirən bir çox Avropa və digər ölkələrdə son dövrlərdə bu trend halını almaqdadır və bu da dini baxımdan ayrı-seçkilik üçün əsas yaradır. Maddə 19 – Azad İfadə üçün Qlobal Kampaniya bütün üzü örtən örtüklərin qadağan olunması və insan hüquqları ilə bağlı hüquqi şərh nəşr edən insan hüquqları təşkilatıdır. Siz, həmçinin, hal-hazırda Avropada digər dini azlıqların üzləşdiyi problemlərlə bağlı araşdırma aparmaq istəyə bilərsiniz.

### Görüşdəki iştirakçıların siyahısı

- Hər siyasi partiya üçün eyni sayda və hər vətəndaş qrupu üçün eyni sayda nümayəndə olmasını təmin etməklə sayı balanslı saxlayın. İstədiyiniz sayda “adi vətəndaş”a malik ola bilərsiniz.
- Slipivilin Meri
- Şəhər Şura Üzvləri: 3 partiya təmsil olunmalıdır. Hər partiyada 2 və ya 3 insan ola bilər.
- “İnsan Hüquqları üçün Cavan Slipililər!”: 1 və ya 2 nümayəndə
- “Keçmiş və İndiki Assosiasiya”: 1 və ya 2 nümayəndə
- “Slipivilin Müsəlman Assosiasiyası”: 1 və ya 2 nümayəndə
- Adi vətəndaşlar: ehtiyacınız olduğu qədər
- Qeyri-məcburi: iclasla bağlı məruzə edən 1 və ya 2 jurnalist

**Debatın qaydaları**

- Siz bu qaydaları öz qrupunuzun sayına və əlinizdə olan vaxta uyğun olaraq dəyişmək istəyə bilərsiniz.
- Görüşə mer sədrlik edəcək və bütün məsələlər üzrə yekun qərarı o verəcəkdir.
- Əgər danışmaq istəsəniz, əlinizi qaldırmalı və merin icazəsini almalısınız.
- Şərhlər qısa olmalı və 2 dəqiqədən çox olmamalıdır.
- Görüş 40 dəqiqədən sonra Məscidin tikiləcəyi və ya tikilməyəci ilə bağlı səs vermə ilə bitəcəkdir.
- Görüşdə iştirak edən hər kəs debatda danışmağa və sonda, səsvermədə iştirak etməyə cəlb olunacaqdır.

## Rol kartları

## Paylanmalı materiallar

Siz mənzərəli Slipivil şəhərində, 80,000 insanın yaşadığı şəhərdə yaşayırsınız. Son 60 ildə əsasən böyük şəhərlərdə iş imkanları daha yaxşı olduğundan, digər tərəfdən isə regiona əsasən müsəlman ölkələrindən olmaqla, çoxlu sayda miqrant ailələri gəldiyi üçün gənclər böyük şəhərlərə köçdüyündən şəhərin əhalisi köklü şəkildə dəyişmişdir. Bu ailələrin bəziləri artıq 3 nəsildir  burada olsalar da, hələ də şəhərdəki bir çox insanlar onlara "yeni gələnlər" kimi münasibət göstərirlər. Onlar hal-hazırda ümumi əhalinin təqribən 15 fazini təşkil edirlər.

İndi şəhəri iki yerə ayıran məsələ isə müsəlmanların Şuraya məxsus sahibsiz torpağın bir hissəsində məscid tikmək istəmələridir. Bu torpaq sahəsi inkişaf etdirilməmişdir və Şuraya illər boyu daxil olan şikayətlərin mənbəyi olmuşdur: bu ərazi əsas alış-veriş küçəsinin yaxınlığındadır və vandalizm və narkotik vasitələrdən istifadə bu ərazidə daim problem olmuşdur.

Beləliklə, varlı iş adamı bu problemin həllini Şuranın əlindən almağı təklif etdikdə, mer onun uğurlu gününün gəlib çatdığını fikirləşdi! Şura torpaq sahəsindən əl çəkməyə və sahədə yeni məscidin tikinti xərclərinin 20 faizini maliyyələşdirməyə razılaşdı. Tikinti xərclərinin biznesmen tərəfindən ödənilə bilməyən yerdə qalan 10 faizi müsəlman icmasından toplanıldı. Tikinti bu həftə başlamalı idi… lakin Şura layihənin əleyhinə olan qəzəbli sakinlər tərəfindən şikayət atəşinə tutuldu. Onlar xüsusi görüş təşkil etdilər və hər kəs bu məsələni həll etmək üçün oraya dəvət edildi.
Görüş 30 dəqiqədən sonra keçiriləcəkdir.

**Rol kartı: Slipivilin Meri**

Siz Assembleyanın sədrisiniz və görüş başladıqda iştirakçıları salamlamaq və onlara debatın qaydalarını xatırlatmaq sizin rolunuza daxildir. Görüş zamanı, hər kəsə danışmaq imkanı verməyə çalışmalısınız – və heç kəsə çox uzun nitq söyləməyə icazə verməməlisiniz! Siz bu məsələnin ictimaiyyətdə pis qarşılanacağından narahatsınız və görüşdən əvvəl bəzi qruplarla danışıb, öz mövqelərini yumşaltmaq barədə inandırmağa cəhd etməyi planlaşdırırsınız.

**Rol kartı: Şəhər Şurasının üzvü: Mühafizəkar Partiya (1 və ya 2 şəxs)**

Siz Şəhər Şurasında Mühafizəkar Partiyanı təmsil edirsiniz və qəti surətdə Məscidin tikilməsinə qarşısınız. Sizin fikrinizcə, bu ölkənin və bu şəhərin ənənələrinə hörmət qoymayan ibadət yeri üçün Şuranın torpaqlarının və resurslarının istifadəsi düzgün deyil. Siz burada yaşamağın miqrant ailələr üçün imtiyaz olduğuna və onların qonaq  olduqları ölkədə fərqli həyat tərzini zorla qəbul etdirməməli olduqlarına inanırsınız. Siz, həmçinin, Məscidin terroristlərin cəlb olunması üçün görüş yerinə çevriləcəyindən narahatsınız.

**Rol kartı: Şəhər Şurası Üzvü: Populist Partiyası (1 və ya 2 şəxs)**

Siz Şəhər Şurasında Populist Partiyasını təmsil edirsiniz. Siz bu ərazidə Məscid tikilməsi ilə bağlı ilkin qərarı dəstəkləyirsiniz, çünki siz müsəlman icmasının şəhərin iqtisadiyyatı üçün xeyir gətirdiyini anlayır və onları yadlaşdırmaq istəmirsiniz. Lakin siz sakinlərin şikayətlərinə görə xeyli narahatlıq keçirirsiniz və cəmiyyətdə lazımsız münaqişə yaratmaq istəmirsiniz. Siz, həmçinin, növbəti şura seçkilərində öz yerinizdən narahatsınız, beləliklə, yəqin ki, ən az mübahisəli görünəcək seçimi dəstəkləyəcəksiniz.
.

**Rol kartı: Şəhər Şurası Üzvü: Müxtəliflik Partiyası (1 və ya 2 şəxs)**

Siz Şəhər Şurasında Müxtəliflik Partiyasını təmsil edirsiniz. Siz dünyanın müxtəlif yerlərindən olan insanların nisbətən böyük hissəsinin Slipivil mədəniyyətinə və maraqlarına töhfə verdiyinə inanırsınız və bu insanların bir çoxunun uzun müddət öz dinini tətbiq etmək imkanından məhrum olmasını ədalətsizlik hesab edirsiniz. Eyni zamanda, bu sahibsiz torpağın şəhərdə sosial problemlərə yol açdığını və Şuranın hal-hazırda bu ərazini inkişaf etdirmək üçün kifayət qədər vəsaiti olmadığını başa düşürsünüz..

**Rol kartı: Slipivilin "Keçmiş və İndiki" Assosiasiyasının üzvləri (2-4 şəxs)**

Siz bu məscidə qarşı çıxan əsas qruplardan birisiniz. Sizin üzvləriniz Slipivildəki ənənəvi (qeyri-müsəlman) icmaların nümayəndələridir və siz bir çoxunuzun həyatının bütün hissəsini yaşadığı bu şəhərin qədim obrazının qorunub saxlanılmasının çox vacib olduğunu düşünürsünüz. Məscidin tikintisi üçün təklif olunan ərazi çox mərkəzi ərazi sayılır və o, şəhərin mərkəzindəki bir çox yerdən görünəcək. Siz şəhərinizin obrazının buraya yalnızca qısa vaxt öncə gəlmiş bir icma tərəfindən tamamilə dəyişdiriləcəyini düşünürsünüz. Siz başqa bir yerdən sizin ölkənizə gəlmiş insanların niyə sizin burada yaşadığınız qaydalarla yaşamalı olmadığını başa düşə bilmirsiniz..

**Rol kartı: "İnsan Hüquqları uğrunda Gənc Slipililər" Gənclər Qrupunun üzvləri (2-4 şəxs)**

Sizin qrupunuz bu gün Slipivildə gənclərin üzləşdiyi ən ağır problemlərlə mübarizə aparmaq üçün təsis olunmuşdur. Siz Məscidin tikilməsini həm müsəlman icmasının ibadət yeri probleminin, həm də uzun müddətdir ki, bu sahibsiz torpağa görə yaşanılan bir çox sosial problemin həlli kimi görürsünüz. Məscidin tikilişini dəstəkləyirsiniz, lakin Şura məscidin tikilişinə maddi dəstək verəcəyi təqdirdə, digər sosial problemlərə onlar tərəfindən göz yumulacağından narahatsınız. Xüsusilə, son 5 ildə gənclər büdcəsi şəhərdəki ehtiyacların ödənilə bilməyəcəyi dərəcədə azaldılıb.

**Rol kartı: "Slipivilin Müsəlman Assosiasiyasının" üzvləri (2-4 şəxs)**

Siz, illərdir ki, Şuradan Müsəlman icmasının ibadət edə biləcəyi yerin təmin olunmasını xahiş edirsiniz, lakin bu həmişə maddi səbəblər ucbatından rədd edilmişdir. Bir çox insan üçün iqtisadi vəziyyət çətin olduğundan, xristian icmasının 11 müxtəlif ibadət yeri olduğundan və bu ibadət yerlərinin müsəlmanlarla müqayisədə çox az insan tərəfindən ziyarət olunduğundan məscidin tikilmə xərclərinin 10 faizinin müsəlman icması tərəfindən qarşılanması üçün müraciət olunmasını ədalətsiz hesab edirsiniz. Sizin icmanızın şəhərə verdiyi töhfənin qiymətləndirilmədiyini, icmanızdakı insanların həyatlarının müxtəlif aspektlərində ədalətsiz şəkildə ayrı-seçkiliyə məruz qaldıqlarını və Məscidin tikilməsinə etiraz etməklə Şuranın icmanızın üzvlərinin dini ibadət yeri hüququnu rədd etdiyini düşünürsünüz.

**Rol kartı: Slipivilin sakinləri**

Siz Slipivildə baş verən münaqişə ilə bağlı narahatlıq keçirirsiniz və Şəhər Şurasının görüşünə səs vermək üçün getmək istəyirsiniz. Hal-hazırda siz nəyin lehinə səs verəcəyinizi bilmirsiniz: siz bacardığınız qədər çox sayda müxtəlif qruplar ilə danışmağı və daha sonra qərar verməyi planlaşdırırsınız.

# Dərmanların əldə olunması

*Narahatlıq keçirən vətəndaşların göstərdiyi birgə qlobal səy fərq yarada bilər.*

Zaki Axmat, Müalicə Hərəkatı Kampaniyası

.

| | |
|---|---|
| **Mövzular** | • Sağlamlıq<br>• Qloballaşma<br>• Ayrı-seçkilik və Dözümsüzlük |
| **Mürəkkəblik** | 4-cü Səviyyə |
| **Qrup ölçüsü** | 16 - 40 |
| **Vaxt** | 190 dəqiqə |
| **Xülasə** | Bu məşğələ 2001-ci ildə Cənubi Afrikada "QİÇS dərmanı" adlı məhkəmə işinin simulyasiyasıdır. Aşağıdakı məsələləri əhatə edir:<br>• QİÇS və dərmanların əldə olunması<br>• Hüquqlarla bağlı mübahisəli iddiaları necə həll etməli. |
| **Əlaqədar hüquqlar** | • Yaşamaq və ləyaqət hüququ<br>• Elmi istehsal nəticəsində meydana çıxan maddi və mənəvi maraqların qorunması hüququ<br>• Sağlamlıq hüququ |
| **Məqsədlər** | • Xüsusilə dərman və müalicənin əldə olunması və QİÇS-in qarşısının alınması olmaqla, sağlamlıq hüququ barədə maarifləndirmənin aparılması<br>• Ünsiyyət, əməkdaşlıq və ümumi razılıq əldə edilməsi bacarıqlarının inkişafı<br>• Həmrəylik və ədalət ideallarının təşviq edilməsi |
| **Materiallar** | • Flipçart kağızı və qələmlər<br>• Məhkəmə rol kartları<br>• Hər iştirakçı üçün bir təlimat olmaqla kiçik qrup işi üçün təlimatlar<br>• Kiçik kartlar (10 sm x 6 sm). Hər iştirakçı üçün bir qırmızı və bir yaşıl kart<br>• Plenar iclas və kiçik qrup işi üçün yer |
| **Hazırlıq** | 1-ci hissə üçün:<br>• Məhkəmə rol kartlarının nüsxələrini hazırlayın; hər şəxs üçün 1 rol kartına ehtiyacınız olacaqdır<br>2-ci hissə üçün:<br>• Hər iştirakçı üçün bir nüsxədə olmaqla kiçik qrup işi üçün təlimatların nüsxələrini hazırlayın.<br>• Hər iştirakçı üçün bir qırmızı və bir yaşıl kart hazırlayın. |

Sağlamlıq

Qloballaşma

Ayrı-seçkilik və Dözümsüzlük

4-cü Səviyyə

16 - 40

190 dəqiqə

## Təlimatlar

Bu tapşırıq 2 hissədən ibarətdir. 1-ci hissə sınağın simulyasiyası, 2-ci hissə isə konsensusun əldə olunması mərhələsidir.

**1-ci hissə. Sınaq** (ümumi vaxt 65 dəqiqə)

1. Səhnəni qurun. HİV/QİŞS bütün dünyada yayılmış çox ciddi epidemiyadır. Bu, ehtiyacları olan bahalı dərmanları əldə edə bilmədikləri üçün əziyyət çəkən və həyatını itirən milyon-

larla kasıb insanın olduğu Cənubi Afrikada çox böyük problemdir. Onların yeganə alternativ yolu bu dərmanların ucuz kopyalarını almaqdır.

2. Aparıcı əczaçılıq şirkətləri buna qarşı çıxır. Onlar öz mülkiyyət hüquqlarını qorumaq istəyir, belə ki, onlar hər hansı bir ölkənin onların məhsullarını kopyalaması və daha ucuz qiymətə satmasına qarşı qüvvələrini birləşdiriblər. Onlar anti-HİV/QİÇS dərmanlarının ucuz kopyalarının paylanılması və satışını həyata keçirən Cənubi Afrika Hökumətinə qarşı hüquqi hərəkata başlayıblar.
3. İştirakçıların birinci hissənin - və ya ilkin dinləmənin - 2001-ci ildə Cənubi Afrikada keçirilən məhkəmənin simulyasiyasında iştirak edəcəklərini izah edin. Suallar bunlardır: Bir qrup insanın həyat və ləyaqət hüququnu təhlükə altına almaq üçün mülkiyyət hüququ yetərli arqument sayıla bilər? Yaşamaq və sağlamlıq hüququ mülkiyyət hüquqununun pozulması üçün kifayət edən arqumentdir?
4. İştirakçıları Pharma İnc. Şirkəti, Cənubi Afrika Hökuməti, Müalicə Hərəkatı Kampaniyasının üzvləri və Hakimləri təmsil etmək üçün 4 bərabər qrupa ayırın.
5. Məhkəmə rol kartlarını müvafiq qruplara paylayın. Qruplara rol kartlarını oxumaq və məhkəmə üçün öz işləri və/və ya suallarını hazırlamaq üçün 25 dəqiqə vaxt verin. Hər bir qrup, həmçinin, qruplarını təmsil etmək üçün bir təmsilçi və təmsilçiyə dəstək olmaq və məhkəmə zamanı sualları cavablandırmağa yardım etmək üçün 1 və ya 2 resurs şəxs seçməlidir.
6. Qruplardan hər biri hazır olduqda, insanları plenar iclasa geri dönməyə dəvət edin. Onlar əvvəlki kimi öz qruplarında qalmalı və 4 qrup olmalıdırlar.
7. İndi Pharma İnc. Şirkəti, Cənubi Afrika Hökuməti, Müalicə Hərəkatı Kampaniyasının hər birinə öz mövqeyini bildirməsi və hər hansı sual qaldırması üçün 5 dəqiqə vaxt verilir. Hakimlər hər qrupu təqdim etməli və növbə ilə onlara söz haqqı verməlidirlər.
8. Hakimlər özləri qrupların qaldırdıqları məsələləri və onlara ünvanlanan hər hansı prosedur suallarını cavablandırmaq və müxtəlif arqument və mövqeləri yekun şəkildə təqdim etmək üçün 10 dəqiqə vaxta malikdirlər.

**2-ci hissə. Konsensus əldə olunması mərhələsi** (ümumi vaxt – 100 dəqiqə)

1. İştirakçılara hər biri 4 nəfərdən ibarət kiçik qruplara bölünməyi tapşırın. Hər bir qrupda Pharma İnc. şirkətinin keçmiş bir üzvü, Cənubi Afrika Hökumətinin keçmiş bir üzvü, Müalicə Hərəkatı Kampaniyasının bir keçmiş üzvü və bir keçmiş hakim olmalıdır.
2. Kiçik qruplar üçün təlimatların nüsxələrini və hər bir iştirakçı üçün bir qırmızı və bir yaşıl kartı paylayın. Hər kəsin nə etməli olduğunu anladığını və rəngli kartların məqsədini və onlardan necə istifadə etməli olduqlarını anladıqlarını dəqiq yoxlayın.
3. Qruplara mübahisə olunan iddialarla bağlı konsensus əldə etmək üçün 30 dəqiqə vaxt verin.
4. Hər kəsi plenar iclasa geri çağırın və müzakirələrinin nəticələri ilə bağlı məruzə verməyi xahiş edin. Hər bir qrupa öz məruzəsini təqdim etmək üçün 5 dəqiqə vaxt verin. Flipçartda əsas həll yolları və məsələləri qeyd edin.
5. Bütün qruplar öz mövqelərini/həll yollarını təqdim etdikdən sonra, qərar qəbul olunması prosesi üzrə müzakirəyə keçid alın. Siz aşağıdakı sualları ünvanlaya bilərsiniz:
   - Konsensus əldə etmək nə dərəcədə asan oldu?
   - Bu yanaşmanın güclü və zəif cəhətləri hansılardır?
   - Qərar qəbul olunması prosesinə bütün qrup üzvlərini cəlb etmək və həll yolu ilə bağlı razılıq əldə olunmasında gərginlik yaşandı?
   - Ən mübahisəli məsələlər hansılar oldu?
6. Məşğələnin bu mərhələsini məhkəmənin 2001-ci il 19 aprel tarixli qərarından aşağıdakı hissəni oxumaqla bitirə bilərsiniz:
   "Ucuz dərmanların təşviqi (…) məqsədi (…) təqdirəlayiqdir və HİV/QİÇS epidemiyası kontekstindən yanaşdıqda, insan ləyaqəti və həyatı hüququ da (bütün digər hüquqların mənbəyi hesab olunur) daxil olmaqla, bir sıra fundamental hüquqlara hörmət edilməsi, qorunması və yerinə yetirilməsi üzrə Dövlətin öhdəliyi ilə bağlı ən yüksək quruluşun

konstitusional öhdəliyini təşkil edir (…) Müraciət edənlər (məs. əczaçılıq şirkətləri) tərəfindən hazırlanan qərara problem yaratmaqla heç nəyə nail olmaq mümkün deyil (…)

## Təhlil və qiymətləndirmə

- Qiymətləndirmə mərhələsi 2-ci hissədəki müzakirələr zamanı artıq başlamışdır. İndi isə iştirakçıları ümumi proses üzərində düşünməyə sövq etmək və daha sonra məhkəmənin arxasında dayanan əsas insan hüquqları məsələlərini müəyyənləşdirməklə davam edin. Əsas suallara aşağıdakılar daxildir:
- İştirakçılar bu məsələ barəsində daha öncədən eşitmişdilər?
- Məşğələ başlayarkən bu məsələ ilə bağlı onların ilkin fikirləri nədən ibarət idi?
- Məşğələ davam edərkən iştirakçıların məsələni dərk etməsi necə dəyişdi?
- İnsanlar qərar qəbuletmə prosesinin 2 formasını, qarşıdurma və konsensus, necə müqayisə edir? Bu formalardan hansı daha qənaətbəxş nəticələr ortaya çıxarır? Uğurlu nəticə sizin üçün nədir?
- Məhkəmənin arxasında dayanan əsas insan hüquqları məsələləri hansılar idi?
- Hər zaman müxtəlif insan hüquqlarına olan iddiaların bir-biri ilə müqayisə edilməsi halları baş verir. Müxtəlif iddiaları siz necə prioritetləşdirirsiniz? Siz hansı kriteriyadan istifadə edirsiniz?
- HİV-ə yoluxmuş insanların məhkəməsinin nəticələrinin icraatı sizin yaşadığınız ölkədə necə olur? Məsələn, patentləşdirilməmiş dərmanlar əldə etmək olur?
- Yaşadığınız yerdə ictimaiyyəti HİV/QİÇS-lə bağlı məlumatlandırmaq üçün nə işlər görülür? Bununla yanaşı, daha nə edilə bilər və edilməlidir?

**ƏSAS TARİX**

**1 Dekabr**
Dünya QİÇS Günü

## Fasilitator üçün məsləhətlər

Sizin bu məşğələ üçün çox vaxta ehtiyacınız var, çünki məsələlər çox qarışıqdır və iştirakçılar onlarla bağlı dərindən düşünməlidir. Nəzərə almalısınız ki, hər iki hissə eyni gündə aparılmamalıdır; onlar iki müxtəlif sessiyada həyata keçirilə bilər.

Siz qırmızı və yaşıl kartlardan istifadənin məqsədinin insanların qərar qəbul etmə prosesinə nəyin yardım etdiyini, nəyin isə maneə törətdiyini müəyyən etmək olduğunu izah etməlisiniz. 2-ci hissədəki müzakirələr və danışıqların sonunda bütün iştirakçıların yaşıl kartlarını göstərməsi və ümumi həll yolu ilə razılaşması ideal nəticədir.

2-ci hissədə bəzi qruplar konsensus əldə etmiş ola bilər, bəziləri isə yox. Müzakirədə siz qərar qəbul etmə prosesinə konsensus yanaşmasının güclü və zəif cəhətlərini müəyyənləşdirmək imkanından istifadə etməlisiniz. Konsensus əldə etmiş qruplardan yalnız öz yekun mövqeləri deyil, həmçinin, onun arxasında dayanan əsas arqumentlər barədə məruzə etməyi xahiş edin. Konsensus əldə etməmiş digər qruplardan isə onları ortaq mövqeyə gətirən və bir-birlərindən ayıran faktorları təsvir etməyi xahiş edin. Qeyd: www.coe.int/compass ünvanında 5-ci Fəsilin Sülh və Zorakılıq mövzusundakı ümumi məlumat hissəsində konsensusun əldə edilməsi ilə bağlı daha geniş məlumat əldə edə bilərsiniz.

Yerli cəmiyyətdə HİV/QİÇS-lə yaşayan insanların hazırki vəziyyətinin yoxlanması və məşğələni onlara aid məsələlərə uyğunlaşdırmaq/əlaqələndirmək vacibdir. Qeyd: Əczaçılıq şirkətlərinin koalisiyasının adları, Pharma İnc. bu məşğələnin məqsədləri üçün hazırlanmışdır.

## Variantlar

Siz məhkəmə prosesi üçün jurnalistlərdən ibarət qrup yaratmaq istəyə bilərsiniz. Sizin əlavə materiallara ehtiyacınız olacaqdır: kameralar, kompyuter və printer. Siz onlara məhkəmənin sonunda öz məruzələrini təqdim etmək üçün müəyyənləşdirilmiş və limitli vaxt verməlisiniz. Vaxtın uzunluğu onlar seçdiyi formatdan, məsələn, qəzet, radio və ya TV yayımı və ya bloq, asılı olacaqdır. Əgər siz bu variantı seçsəniz, jurnalistlər üçün də rol kartları hazırlamalı olacaqsınız. Siz, həmçinin, məşğələ üçün əlavə 15 dəqiqə və jurlanistlərin işinin qiymətləndirilməsi üçün əlavə 10 dəqiqə verməli olacaqsınız.

## Sonrakı fəaliyyət üçün təkliflər

Ölkənizdə yaşamaq və insan ləyaqəti hüququnun səhiyyə məsələləri ilə əlaqəsinin aspektlərini müzakirə edin. Xəbərlərdəki kritik hadisələr (tematik araşdırmalar) xüsusilə kiçik qruplardakı müzakirələr üçün yaxşı başlanğıc ola bilər.

Özünüzü qlobal səviyyədə səhiyyə və insan hüquqları məsələləri barədə məlumatlandırın. Əsas QHT-lərin (MSF (Sərhədsiz Həkimlər), TAC (Müalicə Hərəkatı Kampaniyası), Xristian Yardımı (Christian Aid), Oxfam, Uşaqları Qoruyaq (Save the Children) və beynəlxalq təşkilatların (Dünya Səhiyyə Təşkilatı) vebsaytlarını ziyarət edin və ya nəşrlərini əldə edin. Səhiyyə məsələlərini təbliğ edən hərəkatlar barədə məlumat əldə edin və onların siyahısını flipçartda qeyd edin.

TAC (Müalicə Hərəkatı Kampaniyası) çox uğurlu kampaniya aparır və hələ də Cənubi Afrika və ondan kənarda çox aktivdir. Təəssüf ki, bütün kampaniyalar öz məqsədlərinə nail olmaqda TAC qədər müvəffəqiyyətli deyil. Bunun bir çox səbəbi ola bilər, lakin müvafiq təşkilat kasıb ola və ya qeyri-effektiv təbliğat apara bilər. Qrup 100-cu səhifədəki “Ehtiyatlı olun, biz görürük” məşğələsi və 151-ci səhifədəki “Dosta” məşğələsi vasitəsilə bu problemləri araşdıra və effektiv kampaniya aparmaq üçün bacarıqlarını inkişaf etdirə bilərlər.

## Fəaliyyət üçün fikirlər

Sizin yerli qurumda səhiyyə məsələləri ilə bağlı fəaliyyəti kimin təşviq etdiyini və sizin necə töhfə verə biləcəyinizi öyrənməyə çalışın.

## Əlavə məlumat

Bu məşğələ 2001-ci ildə Cənubi Afrika məhkəməsi qarşısında qaldırılmış məhkəmə işinin əsasında hazırlanmışdır. Cənubi Afrikanın Əczaçılıq İstehsalçıları Assosiasiyası Cənubi Afrika Respublikasının prezidenti Nelson Mandela və TAC da daxil olmaqla, digərlərini onların HİV dərmanları üzərindəki patentlərinə əhəmiyyət verməmək və QİÇS-dən əziyyət çəkən milyonlarla vətəndaşın müalicəsi üçün ucuz patentləşdirilməmiş dərmanların idxalı ilə bağlı günahlandıraraq məhkəməyə cəlb etmişdir.

Hakimlər müxtəlif maraqları və hər iki tərəfin hüquqlarını balanslaşdırmağa məcbur idilər. Bir tərəfdən, Əczaçılıq İstehsalçıları Assosiasiyası mülkiyyət, bərabərlik və ticarətin azad seçimi, işləmək və peşə hüququna iddia edir, digər tərəfdən isə, hökumət və TAC insan ləyaqəti və vətəndaşların həyatı ilə bağlı fundamental hüquqlara hörmət edilməsi, qorunması, təşviqi və yerinə yetirilməsinin dövlətin səlahiyyəti olduğunu iddia edirdi.

Məhkəmənin tarixi qərarında belə nəticəyə gəlindi ki, mülkiyyət hüququ insan ləyaqəti və həyatından daha az əhəmiyyətlidir və ona görə də, məhdudlaşdırılmalıdır. Nəticədə, dərman istehsalçıları məhkəmədə uduzdu. Bu məsələ “Yalnız bizim üçün burada, Cənubi Afrikada deyil, həmçinin sağlamlıq uğrunda mübarizə aparan digər inkişaf etməkdə olan ölkələrdəki insanlar üçün Davidin Goliat üzərindəki real qələbəsi” (QHT-lərin 2001-ci il 19 aprel tarixli birgə bəyanatı) kimi geniş şəkildə yayılmışdır. “Bu, kasıbların güclü çoxmillətli şirkətlər üzərində çox nadir və çox əhəmiyyətli qələbəsidir! Lakin indi bizim qarşımızda duran məsələ dərman istehsalçıları və hökumətlə birgə çalışaraq, dərmanlara ehtiyacı olan insanlara onları çatdırmaqdır (Oxfamdan Kevin Vatkinz). Time.com ünvanında məsələlərin qısa xülasəsi yer alır. Onu tapmaq üçün axtarış bölməsində “QİÇS Dərmanları Məhkəmə İşi Bizim Dərmanlarla Bağlı İdeyalarımızı Məhkəmə Qarşısına Qoyur” (“AIDS Drugs Case Puts Our Ideas About Medicine on Trial”) yazın.

### Yardımlar və qloballaşma trendləri

Varlı ölkələrdə HİV/QİÇS-ə yoluxmuş insanlar dövlət tərəfindən pulsuz təmin edilən antiretrovirus preparatlarından istifadə etdiklərinə görə daha yaxşı yaşayır. Cənub ölkələrində HİV-ə yoluxmuş insanlar HİV dərmanlarını əldə edə bilmədikləri üçün daha çox əziyyət çəkir və ya daha tez vəfat edir. Orta hesabla, onların illik adam başına düşən sağlamlıq xərcləri 10 Amerika dollarından Şimal ölkələrində insanlara göstərilən üç dəfə daha artıq müalicə - illik 10000-15000 Amerika dollarına qədər dəyişir.

Yoxsulluq, təhsilsizlik və sosial bərabərsizlik epidemiyanın yayılmasını daha da sürətləndirir, lakin problem hökumətlər, beynəlxalq qurumlar və əczaçılıq şirkətləri də daxil olmaqla, siyasi səviyyədən daha yüksəkdir. Effektiv olmaq üçün QİÇS-ə qarşı mübarizəyə beynəlxalq mexanizmlər və qurumlar cəlb olunmalıdır. Beynəlxalq Valyuta Fondu (İMF), Dünya Səhiyyə Təşkilatı (WTO), İntellektual Mülkiyyət hüquqlarının Ticarətlə Əlaqədar aspektləri (TRİPS), Ticarət və Xidmətlərlə bağlı Ümumi Müqavilə (GATS) və Dünya Səhiyyə Təşkilatının tribunal kimi fəaliyyət göstərən Münaqişələrin Həlli Qurumu bunlardan ən

HİV/QİÇS-lə mübarizə BMT-nin Minilliyin 8 İnkişaf Məqsədlərindən biridir

## Paylanmalı materiallar

### Məhkəmə rol kartları

**Məhkəmə rol kartı: Pharma Inc.**

Siz Pharma İnc. şirkətinin rəhbərliyindən ibarət qrupsunuz. Sizin şirkətiniz dünyanın aparıcı dərman istehsalçılarından biridir. Siz HİV və QİÇS dərmanlarının kommersiyalaşdırılması üzrə əsas hüquqları almısınız. Siz öz gəlirinizin həcmini saxlamalı və öz səhmdarlarınızı razı salmalısınız. Buna görə də, siz araşdırma xərcləri, istehsal xərcləri və işçi qüvvənizin maaşlarını nəzərə almaqla, şirkətinizin məhsullarının satış qiymətini müəyyənləşdirmək hüququnu qorumaq istəyirsiniz. Digər bir şirkətə sizin məhsullarınızı kopyalayıb daha aşağı qiymətə satmağa icazə vermək sizin gəlirinizi və şirkətinizin davamlılığını təhlükə altına alacaqdır. Bu səbəbdən, hər hansı bir Dövlətin sizin məhsullarınızın kopyalanıb ucuz qiymətə satılmasına icazə verməsinin qarşısını almaq və lazım olduğu təqdirdə, onları məhkəməyə vermək üçün aparıcı əczaçılıq şirkətləri ilə birlikdə qüvvələrinizi birləşdirmisiniz. Cənubi Afrika Hökumətinə qarşı hüquqi prosesi başlatmısınız.

Öz mövqeyinizi müdafiə etmək üçün arqumentlərinizi hazırlamalısınız. Məhkəmə zamanı onları təqdim etmək üçün sizə 5 dəqiqə vaxt veriləcəkdir.

**Məhkəmə rol kartı: Cənubi Afrika Hökuməti**

Siz Cənubi Afrika Hökumətinin yüksək səviyyəli rəsmilərisiniz. Hökumətiniz sizə qarşı hüquqi proses başladan əczaçılıq şirkətlərinin tələbnaməsinə cavab verməyə çalışır. Pharma İnc. şirkəti hər hansı bir ölkənin bu şirkətin məhsullarını kopyalayıb, daha ucuz qiymətə, yəni onların topdan satış qiymətlərindən daha ucuza satmasına icazə verməməyə çalışır. Prinsipcə, siz Pharma İnc. şirkətinin mövqeyi ilə razısınız.

Lakin TAC tərəfindən aparılan məşhur kampaniyalar xüsusilə HİV/QİÇS epidemiyası kontekstində dərmanların daha ucuz qiymətə olmasını təmin etməyin Dövlətin konstitusional öhdəliyi olduğunu iddia edir. Siz artan siyasi təzyiqə cavab vermisiniz və İndoneziya kimi ölkələrdən ucuz dərmanların (kopyaların) idxalına icazə verməyə başlamısınız.

Siz öz mövqeyinizi müdafiə etmək üçün arqumentlər hazırlamalısınız. Məhkəmə vatı onları təqdim etmək üçün sizə 5 dəqiqə vaxt veriləcək.

**Məhkəmə rol kartı: Müalicə Hərəkatı Kampaniyası**

Siz Cənubi Afrikadakı Müalicə Hərəkatı Kampaniyasını (TAC) təmsil edən aktivist qrupusunuz. Kampaniya Dövlətin, xüsusilə HİV/QİÇS epidemiyası məsələsində, ucuz dərmanların təmin edilməsi üzrə öhdəlik daşıdığını iddia edir. Hökumət buna cavab vermiş və daha ucuz dərmanların idxalına başlamışdır.

Siz, həmçinin HİV/QİÇS xəstəlikləri ilə mübarizə aparan insanlar və təşkilatların maddi təminatına görə də Dövlətin öhdəlik daşıdığını iddia edirsiniz.

Lakin Cənubi Afrika Hökuməti əczaçılıq şirkətləri tərəfindən onların məhsullarının kopyalanıb ucuz qiymətə satılmasının qarşısını almaq üçün məhkəmə qarşısına çıxarılmışdır. Bu səbəbdən, siz Dövlətin ucuz dərmanların təmin edilməsi rolunu müdafiə etmək üçün hökumət ilə qüvvələrinizi birləşdirmək qərarına gəlmisiniz.

Siz öz mövqeyinizi müdafiə etmək üçün arqumentlər hazırlamalısınız. Məhkəmə zamanı onları təqdim etmək üçün sizə 5 dəqiqə vaxt veriləcək.

**Məhkəmə rol kartı: Hakimlər**

Siz Cənubi Afrika Hökumətinə qarşı məhkəmə iddiası qaldırmış və hökumətin onların məhsullarını kopyalayıb daha ucuz qiymətə satmağının qarşısını almaq istəyən aparıcı əczaçılıq şirkətlərinin məhkəmə işinə sədrlik edən hakimlər qrupusunuz. Müalicə Hərəkatı Kampaniyasını (TAC) təmsil edən aktivistlər hökumətin mövqeyini müdafiə edir. Sizin rolunuz 3 tərəfi, öz növbəsində, mövqelərini nümayiş etdirməyə dəvət etməkdir. Bu təqdimatların sonunda siz hər hansı bir qərar çıxarmalı və ya müəyyən nəticəyə gəlməli deyilsiniz. Sizin işiniz məsələlərin aydınlaşdırlmasına yardım etmək və mübahisəli iddiaların dəstəyi məqsədilə arqumentlərin yekunlaşdırılmasıdır.

Məsələnin əsas məğzi mübahisəli iddiaları insan hüquqları baxımından həll etməkdir. Müdafiə tərəfi (hökumət və TAC) yaşamaq və ləyaqət hüquqularını və məhkəməyə verən tərəf (Pharma İnc.) isə mülkiyyət hüququnu iddia edir. Rəsmi məhkəmə bunu belə dəyərləndirir:

“***Yaşamaq və ləyaqət hüququ*** insan hüquqlarının ən vacibi və bütün digər fərdi hüquqların mənbəyidir. İnsan hüquqlarının tanınması üzərinə qurulmuş bir cəmiyyətə xidmət etməklə biz bu iki hüququ digər bütün hüquqlardan daha çox qiymətləndirməliyik. Bu Dövlət tərəfindən onun atdığı bütün addımlarda, həmçinin, cinayətkarların cəzalandırılması üsulunda belə özünü göstərməlidir”.

*Müqayisədə*

“***Mülkiyyət hüququ*** Cənubi Afrika Konstitusiyasının 25-ci Paraqrafı tərəfindən qorunur və belə deyilir: “Mülkiyyət 25 (1) Ümumi tətbiq edilən qanunun şərtlərindən başqa heç bir halda heç kəs mülkiyyətdən məhrum edilə bilməz və heç bir qanun qeyri-qanuni mülkiyyətdən məhrumetməni qəbul edə bilməz”.

Siz hər üç tərəf üçün suallar hazırlamalısınız. Suallarınızı ünvanlamaq və cavabları dinləmək üçün 10 dəqiqə vaxtınız olacaqdır.

**Məhkəmə rol kartları: Jurnalistlər** (Məcburi deyil – yuxarıda “variantlar” bölməsinə baxın)

Siz jurnalist qrupusunuz və məhkəməni işıqlandırmaq üzrə səlahiyyətlisiniz. Sizin tapşırığınız məhkəməyə məruzə etmək və bütün tərəflərin fikirlərini təqdim etməkdən ibarətdir. Siz müxtəlif qruplar – hakimlər, TAC, Cənubi Afrika Hökuməti və Pharma İnc. – tərəfindən təşkil olunan ayrı-ayrı görüşlərə girmək hüququna maliksiniz. Görüşlərdə iştirak edərkən siz yalnız müşahidəçi qismində ola bilərsiniz; narahatlıq yarada, müdaxilə edə və ya qrupların işinə töhfə verə bilməzsiniz. Lakin siz görüşlərin prosesinə mane olmadığı təqdirdə, fərdi müsahibələr təşkil edə bilərsiniz. Siz, həmçinin, şəkillər çəkə bilərsiniz və öz işinizi görmək üçün kompyuter, printer və İnternetlə təchiz olunacaqsınız.

Siz məhkəmənin sonunda öz işinizi təqdim edəcəksiniz. Formatı, məsələn, bloq, tvit, qəzet məqaləsi, radio və ya TV yayımı olmasını siz seçirsiniz. Məruzənizi təqdim etmək üçün sizə 10 dəqiqə vaxt veriləcək.

**Kiçik qruplar üçün 2-ci hissə üzrə təlimatlar**

Siz 4 nəfərdən ibarət qrupsunuz və hər biriniz 4 tərəfdən birini təmsil edirsiniz:
• Pharma Inc.
• Cənubi Afrika Hökuməti
• Müalicə Hərəkatı Kampaniyasını (TAC) təmsil edən aktivistlər
• Məhkəmə işi üzrə hakimlər.

**Təlimatlar**

1. Hər bir şəxs növbə ilə özünü və təmsil etdiyi təşkilatı, yəni oynadıqları rolu təqdim etməlidir.
2. Daha sonra, hər bir şəxs məhkəmənin sonunda vəziyyətlə bağlı öz hislərini ifadə etməlidir. Əgər onlar həll yolunun asanlıqla müəyyənləşdiriləcəyini düşünürsə, yaşıl kartı göstərməlidir, bunun çətin olacağını düşündükdə isə, qırmızı kartı göstərməlidir (Kartlardan istifadə etməkdə məqsəd hər kəsin konsensusun əldə olunması prosesinin necə getdiyi ilə bağlı daha məlumatlı olmasını təmin etməkdir).
3. İndi isə sizin tapşırığınız 4 üzv arasında konsensusa əsaslanan qənaətbəxş qərar qəbul etməkdir. Siz mərhələlər üzrə müzakirə aparmalısınız. Hakim müzakirəyə sədrlik edir və öz mövqeyini ən sonda bildirir.
   • Birinci mərhələ: mövqeyinizi bildirin.
   • İkinci mərhələ: həll üçün öz fikirlərinizi bildirin.
   • Üçüncü mərhələ: təklif olunmuş həll yolu üzrə danışıqlar aparın.
4. Bir-birinizə diqqətlə qulaq asın. Hər bir fikrin sonunda siz qənaətbəxş həll yolunu əldə etmək üçün imkanlar barədə indi nə düşündüyünüzü bildirməkdən ötrü rəngli kartınızı qaldırmalısınız.
5. Konsensus prosesinin sonunda plenar iclasda nəticələri təqdim etmək üçün bir nəfər seçin.

Ümumi İnsan Hüquqları

Uşaqlar

Vətəndaşlıq və İştirak

2-ci Səviyyə

9+ (4-5 nəfərlik kiçik qruplar)

90 dəqiqə

# Bunu həyata keçirin

*"İnsan hüquqları" ilə nəyi nəzərdə tutduğunuzu mənə göstərin!*

| | |
|---|---|
| **Mövzular** | • Ümumi İnsan Hüquqları<br>• Uşaqlar<br>• Vətəndaşlıq və İştirak |
| **Mürəkkəblik** | 2-ci Səviyyə |
| **Qrup ölçüsü** | 9+ (4-5 nəfərlik kiçik qruplar) |
| **Vaxt** | 90 dəqiqə |
| **Xülasə** | Bu teatr məşğələsi vasitəsilə iştirakçılar ümumi insan hüquqları anlayışı barədə öz təsəvvürlərini təqdim edir. |
| **Əlaqədar hüquqlar** | • Bütün insan hüquqları |
| **Məqsədlər** | • Ümumi insan hüquqları anlayışı və ya ideyasını araşdırmaq<br>• Mədəniyyətlərarası və ünsiyyət bacarıqlarının inkişafı<br>• Əməkdaşlıq və yaradıcılığın inkişafı |
| **Materiallar** | • Aksessuarlar: paltarlar, oyuncaqlar, ev əşyaları və s.<br>• Kağız və rəngli markerlər, karandaşlar<br>• Yapışqan, kəndir və kart |

## Təlimatlar

1. Məşğələnin məqsədinin müxtəlif mədəniyyətlərdən olan və müxtəlif dillərdə danışan insanların başa düşə biləcəyi şəkildə ümumi insan hüquqları anlayışı və ya ideyasının tamaşa vasitəsilə təqdimatının ortaya çıxarılması olduğunu izah edin.
2. İştirakçılara ümumiyyətlə sözlərdən istifadə etməyə icazə verilmədiyini izah edin: bu səssiz (mimik) təqdimat olmalıdır. Lakin, qruplar istədikləri təqdirdə, materiallar və ya aksessuarlardan bəzilərini istifadə edə bilər.
7. Qrupdan 4-6 nəfərlik qruplara bölünməyi xahiş edin və hər bir qrupa böyük vərəq və ya karandaş/ marker komplekti verin.
8. Qruplara ilk öncə insan hüquqları barədə bütün fikirləri ilə beyin fırtınası etmək, daha sonra, səssiz təqdimat zamanı ən çox istifadə etmək istədikləri iki və ya üç əsas fikri müəyyənləşdirmək üçün 10 dəqiqə vaxt verin.
9. İndi qruplara öz səssiz təqdimatlarını hazırlamaq və məşq etmək üçün 30 dəqiqə vaxt verin. Bunun qrup işi olmalı olduğunu və hər kəsin bu təqdimatın ortaya çıxmasında rolu olmasının vacibliyini izah edin.
10. 30 dəqiqə bitdikdən sonra, hər bir qupun bir-birinin təqdimatına baxa bilməsi üçün qrupları bir araya toplayın.
11. Hər bir təqdimatdan sonra iştirakçıların fikirlərini paylaşması və müzakirə üçün bir neçə dəqiqə vaxt ayırın.
12. İzləyicilərdən bir az öncə izlədikləri təqdimatlar barədə şərh verməyi və təqdimatda çatdırmağa çalışılan əsas ideyaları müəyyənləşdirməyi xahiş edin.
13. Daha sonra, qrupun özünə iştirakçıların şərhvermə zamanı qeyd etmədikləri məsələləri qısa izah etmələri üçün imkan yaradın. Bunu hər təqdimatdan sonra təkrarlayın.

## Təhlil və qiymətləndirmə

- Məşğələnin özünü nəzərdən keçirməklə başlayın, daha sonra iştirakçıların insan hüquqları barədə nə öyrəndiklərini nəzərdən keçirin.
- İnsanlar bu məşğələ barəsində nə düşünür? Onların ilk baxışda təsəvvür etdiklərindən daha çox və ya daha az çətin oldu? Təqdim etməsi ən çətin aspektlər və ya ən çətin

məsələlər hansılar oldu?

- İnsanlar insan hüquqları barədə yeni nəsə öyrəndilər? Əvvəl hesab etdiklərindən daha çox bildiklərinə təəccübləndilər?
- Müxtəlif təqdimatlarda oxşarlıqlar və fərqliliklər var idi?
- Qrup içərisində insan hüquqları ideyası üzərində əsaslı fikir ayrılıqları var idi? Bunlar necə aradan qaldırıldı?
- Təqdimatlara əsaslanaraq, iştirakçılar insan hüquqlarının ən önəmli və ümumi
- xarakteristikalarının hansılar olduğunu düşünür?

**ƏSAS TARİX**

**10 Dekabr**
İnsan Hüquqları Günü

## Fasilitator üçün məsləhətlər

- İnsanlar insan hüquqları anlayışı barədə tamamilə biliksiz deyilsə, bu məşğələni fasilitator tərəfindən ən minimum təlimatla həyata keçirmək daha maraqlı olardı. Əsas məqsəd gənclərin insan hüquqları haqqında artıq öz həyat təcrübələrindən qazandığı təəssürat və biliyin təsvir edilməsidir. Onlar insan hüquqlarının dəqiqliklə nə olduğunu “bilmədikləri”nə görə özlərini məhdud hiss etməsinlər deyə bu faktoru qrup işləməyə başlamazdan əvvəl vurğulamaq yaxşı olardı.
- İştirakçılara onların tapşırığının hər hansı bir və ya bir neçə spesifik insan hüququnu təsvir etmək deyil, “insan hüquqlarını ümumi anlayışda” izah etmək olduğunu bildirin. Onlar ümumi məsələləri qeyd etmək üçün bir spesifik hüquq seçə bilərlər, lakin müxtəlif insan hüquqlarına xas ümumi cəhəti göstərməyə çalışdıqlarını unutmamalıdırlar. Sessiyanın sonunda izləyicilər “insan hüquqları nədir?” sualına cavab verməyi bacarmalıdır (və ya buna başlamalıdır!).
- Özlərini iştirak etməkdə zəif hiss edən şəxslərə aktiv iştirak etməkdən qaçınmağa icazə verməyin. Hər kəs üçün kifayət qədər rol olduğunu və bütün qrupun təqdimatı edərkən özlərini xoşbəxt hiss etməli olduğunu izah edin. Bəzi qeyri-adi əşyalar təqdimatları daha canlı edə bilər və yaradıcı ideyalar ortaya çıxara bilər – qazanlar, oyuncaq maşın, papaqlar, yastıqlar, daşlar, zibil qabı.
- Əgər siz qruplara başlamaq üçün və ya müzakirənin sonunda mütləq hər hansısa məsləhət verməlisinizsə, o halda, onları aşağıdakılar barədə düşünməyə sövq edə bilərsiniz:
- İnsan hüquqları bir insanın sadəcə insan olduğu üçün malik olduğu hüquqlardır; hər kəs bərabər hüquqlara sahibdir.
- İnsan hüquqları bütün insanlara bərabər, universal və həmişəlik aiddir.
- İnsan hüquqları vahid və bir-birindən asılıdır: siz bir hüquq “daha az vacib” və ya “qeyri-zəruri” olduğu üçün ondan məhrum edilə bilməzsiniz.
- İnsan hüquqları əsas standartlardır və insanlar onlar olmadan ləyaqətlə yaşaya bilməzlər.

## Variantlar

Əgər iştirakçılar üçün səssiz təqdimat etmək çətindirsə, siz onlardan kollektiv şəkildə heykəl kimi dayanmağı xahiş edə bilərsiniz. Fasilitator bu vaxt şəkillər çəkdikdə siz daha sonra bu “kollektiv şəkilləri” başqa bir tədbir zamanı müzakirənin başlanğıcı və ya hər hansı bir sərgidə istifadə edə bilərsiniz.

Alternativ olaraq, siz bu məşğələni şəkil çəkmək tapşırığı kimi də yerinə yetirə bilərsiniz: qruplardan yenə də sözlərdən istifadə etməməklə, insan hüquqları barəsində əsas ideyaları ifadə etmək üçün poster hazırlamağı xahiş edin. Daha sonra, müxtəlif posterlərin sərgisini hazırlayın.

Əgər siz qrupların müəyyən anlayışlar barədə fikirlərini cəmləməyini istəyirsinizsə, təlimatların 3 və 4-cü mərhələlərini ixtisar edə və kiçik qruplara bərabərlik, sülh, yoxsulluq və həmrəylik kimi açar sözlər verə bilərsiniz. Hər kiçik qrupa müxtəlif sözlər verməklə siz daha

çox anlayışı əhatə etmiş olursunuz; hər kiçik qrupa eyni söz verməklə isə siz maraqlı ifadə müxtəlifliyi təcrübəsi qazanırsınız.

Məşğələ, həmçinin, giriş xarakterli məşğələdən daha çox, insanlar artıq təlimat vəsaitində yer almış digər məşğələləri etdikdən sonra və ya öz araşdırmalarını həyata keçirdikdən sonra fikirlərini cəmləşdirmək və aydınlaşdırmaq üçün də yerinə yetirilə bilər.

## Sonrakı fəaliyyət üçün təkliflər

İnsan hüquqları mövzusunda pyeslər və ya digər bədii ədəbiyyat nümunələrinə baxın və yerli cəmiyyətinizin üvləri üçün dramatik bir çıxış təşkil edin.

Ümumilikdə, insan hüquqları mövzusu üzərində işləməyə davam etmək üçün 177-ci səhifədəki “Gül gücü” məşğələsini yerinə yetirə bilərsiniz. Alternativ olaraq, qrup mövzunu davam etdirmək və spesifik insan hüquqlarına nəzər yetirmək istəsə, 130-cu səhifədəki “Uşaqların hüquqları” məşğələsi vasitəsilə Uşaq Hüquqları Konvensiyası haqqında da məlumat əldə etmiş olarsınız.

Məşğələdən sonrakı fəaliyyət mərhələsini həyata keçirmək üçün başqa bir yol iştirakçılar tərəfindən insan hüquqları anlayışının onlar üçün nə demək olduğu barədə qısa məktublar yazılması ola bilər. Hər kəs Fərqli - Hər kəs Bərabər Təhsil Paketindəki “Əziz dost” məşğələsinə nəzər yetirin. Məktub yazmağın məqsədi iştirakçılara öz ideyalarını aydınlaşdırmaq, cavab verilməsini təşviq etmək və dialoqu inkişaf etdirmək ola bilər. Bu səbəbdən məktublar qrup daxilindəki insanlara göndərilə və ya məktəblərarası və ya gənclərarası tapşırıqlarda istifadə oluna bilər.

4-cü paraqrafdakı Domino bölməsində insan hüquqlarının gündəlik həyata uyğunluğu barədə müzakirənin əsası kimi istifadə oluna biləcək “Gənclər tərəfindən danışılan hekayələr” mövcuddur.

## Fəaliyyət üçün fikirlər

Siz öz səssiz təqdimatlarınızı hazırlaya və ya ümumi qrupla təqdimat hazırlayıb qrupdan kənar digər şəxslərə onu təqdim edə bilərsiniz. Poster hazırlanması və ya “kollektiv şəkillər” variantlarından istifadə etmisinizsə, poster və şəkillərinizi sərgi kimi nümayiş etdirin. Hər iki ideya İnsan Hüquqları Gününü qeyd etmək üçün istifadə oluna bilər.

Siz, həmçinin, səssiz təqdimatlarınızı videoya çəkə və internet saytlarında paylaşa bilərsiniz.

# Hər kəs Fərqli - Hər kəs Bərabər

*Bütün insanlar ümumi olaraq bərabər və xüsusi olaraq isə fərqlidirlər. Ümumi bərabərliklər və xüsusi müxtəlifliklər hörmətlə qarşılanmalıdır.*

**Mürəkkəblik** 2-ci Səviyyə

**Vaxt** 40 dəqiqə

**Qrup ölçüsü** 6 – 60 (3-4 nəfərlik kiçik qruplar)

**Mövzular**
- Ayrı-seçkilik və Dözümsüzlük
- Qloballaşma
- KİV

**Xülasə** Bu kiçik sorğu özü-özlüyündə kifayət qədər provokativ, buna görə də olduqca maraqlıdır, o, eyni zamanda, effektiv qrup müzakirəsi üçün əsas təşkil edir.

**Əlaqədar hüquqlar**
- Ləyaqətlə bağlı bərabərlik
- Heç bir fərq olmadan, hüquqlar və azadlıqlarla bağlı hüquqlar
- Milliyyət hüququ

**Məqsədlər**
- İnsan hüquqlarının universallığı barədə dərketmənin genişləndirilməsi
- Məlumatı tənqidi və azad oxuma bacarığının inkişaf etdirilməsi
- Özləri və digərlərində etnosentrizm və qərəzlilik barədə maarifləndirilmənin təşviqi və mədəniyyətlərarası tədris bacarıqlarının inkişafı

**Materiallar**
- Paylanmalı material
- Hər şəxs üçün bir ədəd olmaqla qələm və ya karandaşlar,
- Böyük kağız vərəqi (A3) və ya flipçart və marker

**Hazırlıq** Hər bir iştirakçı üçün bir ədəd paylanmalı material nüsxəsi çıxarın. Alternativ olaraq, lövhə üzərində yazın və ya proyektordan istifadə edin.

## Təlimatlar

1. İştirakçılara bu məşğələnin sorğu-sual xarakteri daşıdığını, lakin məqsədin kimin doğru, kimin yanlış cavab verdiyini görmək olmadığını bildirin; bu, yalnız başlanğıc nöqtəsidir.
2. 2 sitat yazılmış vərəqləri paylayın və ya göstərin. İştirakçılara onları oxumaq üçün 5 dəqiqə vaxt verin.
3. Daha sonra onlardan fərdi olaraq aşağıdakıları müəyyənləşdirməyi xahiş edin:
   a) Birinci mətnin mənbəyi; bu hansı kitab və ya sənəddən çıxarılmışdır?
   b) İkinci mətnin müəllifi dünyanın hansı ölkəsi/regionundandır?
4. Hər kəs hazır olduqda, iştirakçılardan hər biri 3 nəfərdən ibarət kiçik qruplara bölünməyi xahiş edin. Onlara öz fərdi seçimlərini müzakirə etmək və təhlil etmək üçün 20 dəqiqə vaxt verin. Onlar aşağıdakı suallar barədə düşünməli və mümkün olduğu təqdirdə, kollektiv cavablar verməlidirlər:
   - Nə üçün onlar bir cavabı digərlərindən üstün tutub seçir?
   - Mətnlər öz müəllifləri barədə nə deyir?
   - Müəlliflər nə üçün bu mətnləri yazır?
   - Mətnlər barəsində onlar nə şərh verir?

Ayrı-seçkilik və Dözümsüzlük

Qloballaşma

KİV

2-ci Səviyyə

6-60 (3-4 nəfərlik kiçik qruplar)

40 dəqiqə

İnsanların Hüquqları və Vəzifələri üzrə Bəyannamə (1989)

5. Qruplar bitirdikdə, otağı dövr edərək a) sualına cavabı hər bir qrupdan toplayın. Qrupları onları bu seçimləri etməyə sövq edən səbəbləri qeyd etməyə dəvət edin. Daha sonra b) sualı üçün cavabları eyni formada toplayın. Cavabları flipçartda qeyd edin.
6. Müəllifi – Said Al Andalusi (İspaniyalı) qeyd edin və təhlil və qiymətləndirmə mərhələsinə keçid alın.

## Təhlil və qiymətləndirmə

- Məşğələni qısa nəzərdən keçirməklə başlayın və əgər qrupun hazır olduğunu görürsünüzsə, qərəzlilik və etnosentrizm anlayışlarını izah etməklə davam edin. Aşağıdakı sualları ünvanlayın (ya plenar iclasda, ya da ehtiyac varsa, kiçik qruplarda):
- İştirakçılar həll yoluna təəccübləndilər?
- İnsanlar öz orjinal fərdi seçimlərini necə etdilər? Bu seçimlər təxminlər əsasında edilmişdir? Ya intuisiya? Və ya real bilik?
- İnsanlar kiçik qruplarda müzakirələr zamanı öz seçimləri barədə fikirlərini dəyişdilər? Onları fikirlərini dəyişməyə sövq edən nə oldu? Yoldaşlarının təzyiqi? Və ya güclü arqumentlər?
- İnsanlar kiçik qrup müzakirələrində öz seçimlərini necə müdafiə etdilər? Onlar öz seçimlərinə müvəqqəti olaraq və ya qüvvətli şəkildə sadiq qaldılar?
- Nə üçün müəllif Şimaldan olan insanları belə formada təsvir edir?
- İkinci mətn bizə müəllif, onun fikirləri və mədəniyyəti barədə hansı məlumatları verir?
- Müəllifin fikri hansı dərəcədə onun öz etnosentrik yanaşmasının və qərəzli fikrinin nəticəsidir? Və ya həmin dövrlərdə Şimali Avropadakı mədəniyyətlərin onun öz mədəniyyətindən daha az “sivil” olduğunu deyə bilərik?
- İştirakçılar digər insanlara eyni yanaşma nümunələri barədə nə vaxtsa eşidib və ya oxuyublar? Aşağı səviyyəli insan sayılmaq necə hisdir?
- İnsanlara özlərinə görə dəyər verilmədikdə, hansı nəticələr ortaya çıxır? Tarixdəki nümunələr haqqında düşünə bilərlər? Və hal-hazırdakı nümunələr?
- Qərəzli fikirin təsirlərinə qarşı çıxmaq üçün biz nə etməliyik? İştirakçıların ölkələrində və ya yaşadıqları ərazidə qərəzli fikirə məruz qalan insanlar və ya qruplar var? Onlar kimlərdir?
- Təhsil qərəzli fikirlərlə mübarizə aparmağın bir yoludur. Başqa nə etmək olar?

## Fasilitator üçün məsləhətlər

Parçalar Kordova, Əndəlüsdən (indi İspaniyadır) olan və 1029-cu ildə anadan olmuş məşhur elm xadiminin kitabından götürülmüşdür. Səid Əl-Əndəlüsi öz müdrikliyi və biliyinə görə məşhur elm xadimi idi. Ona görə, sivillzasiya və elm Müqəddəs Quranı bilməklə əlaqəli idi. O, yalnız din barədə məlumatlı deyildi, həmçinin, ərəb ədəbiyyatı, tibb, riyaziyyat, astronomiya və digər elmlərdə öndə gedirdi.

Yadda saxlamaq lazımdır ki, o zamanlar Aralıq dənizi hövzəsi və xüsusilə, onun ətrafındakı Ərəb Krallıqları müəllif üçün “sivilizasiyanın” mərkəzini təşkil edirdi. Səidin “Şimal” adlandırdığı Şimali Avropa Ərəb dünyası, İran, Çin və Hindistandan bilik cəhətdən geridə qalırdı.

Qrupdan asılıq olaraq, sizin iştirakçılara mətnləri tənqidi oxumaq barədə məsləhətlər verməli ola biləcəyinizi nəzərə alın. Siz ikinci mətnin özündə müəllif haqqında, onun görünüşü və mədəniyyəti haqqında, məsələn, onun buruq saçları və tünd rəngli dərisinin olması barədə daha çox məlumat ehtiva etdiyini vurğulamalı olacaqsınız. Tənqidi oxuma yalnız mətnin məzmununu anlamanı deyil, həmçinin, məzmun, müəllifin kim olduğu və nə etdiyi barədə, müəllifin nəyə görə yazması barədə məlumatları da özündə birləşdirir. Bunu anlamaq bütün mesajları (tarix, xəbərlər, şeirlər, mahnıların mətnləri və s.) necə oxumaq və onların ötürdüyü dəyərlər haqqında məlumatlı olmaq üçün çox önəmlidir.

Etnosentrizm məsələsini təqdim etməyin bir digər yolu Səidin öz tünd rəngli dərisi və buruq saçları ilə “əks” – Avropadakı bir çox insanın “normal” hesab etməyəcəyi bir insanın çox

yaxşı nümunəsi olduğunu iştirakçıların nəzərinə çatdırmaqdır. Həmçinin, müzakirə vasitəsilə sizin iştirakçılara mədəni fərqlərin insanları digərlərindən daha "yaxşı" və ya "pis" etmədiyini anlamağa kömək etməyiniz vacibdir.

Siz bizim öz mədəni perspektivimizi "norma" olaraq qəbul etdiyimizdən digərlərini qərəzli fikir olmadan mühakimə etməyin insanlar üçün çətin olduğunu bildirməlisiniz. Bunu - bizim öz etnosentrikliyimizi – qiymətləndirmək onu digərlərində ayırd etmək və digər mədəniyyətlərdən olan insanlarla müvəffəqiyyətlə ünsiyyət qurmaq üçün çox önəmli addımdır.

Məşğələnin sonunda qaldırılmış mövzular və ideyaların müzakirəsi üçün əlavə vaxt saxlayın. Məsələn, siz tarixi tədris etmək və ya bizim Avropada digər mədəniyyətlər barədə nə qədər çox (az) öyrəndiyimiz haqqında müzakirə aparmaq və ya təhlil etmək istəyə bilərsiniz.

**ƏSAS TARİX**

**5 May**
Avropa Günü

## Sonrakı fəaliyyət üçün təkliflər

Əgər siz insan hüquqlarının universallığı barədə daha çox fikir əldə etmək istəsəniz, 94-cü səhifədəki yaradıcılıq və teatrı özündə birləşdirən "Bunu həyata keçirin" məşğələsindən istifadə edə bilərsiniz.

## Fəaliyyət üçün fikirlər

Ölkənizdə/cəmiyyətinizdə hal-hazırda baş verən və ya tarixdə baş vermiş hadisələrin müxtəlif formalarını qəzetlərdə və ya internetdə axtarın və müxtəlif tərəflər/maraq qruplarının hesabatlarını müqayisə edin. Presse Europe vebsaytı müxtəlif ölkələrin müxtəlif qəzetlərində təqdim edilən xəbərləri müxtəlif dillərdə oxumaq üçün yaxşı vasitədir: www.presseurop.eu/en

Başqa bir mənbə müstəqil KİV təşkilatları və qeyri-mütəşəkkil və qeyri-korporativ əhatə dairəsi təklif edən yüzlərlə jurnalistdən ibarət İndymediadır. O, müxtəlif dillərdə mövcuddur. http://www.indymedia.org/en/

**Qeyd**
Sitatlar Sai al-Andalusinin müəllifi olduğu "Millətlərin Kateqoriyaları Kitabı – Orta Əsr Dünyasında Elm" kitabından götürülmüşdür. Sema'an I. Salem və Alok Kumar tərəfindən tərcümə olunmuşdur, Texas Universiteti Nəşri, Austin, 1991.

## Paylanmalı materiallar

### Hər kəs Fərqli - Hər kəs Bərabər sorğusu

**a) Aşağıdakı mətnin mənbəyi hansıdır? Bu hansı kitab və ya sənədin bir hissəsidir?**

"Şərqdən Qərbə, Şimaldan Cənuba dünyadakı bütün insanlar bir qrupu təşkil edir; (onlar) üç fərqli xüsusiyyətə görə fərqlənir: davranış, fiziki görünüş və dil."

Aşağıdakı cavablardan birini seçin:

a) İrqçilik üzrə YUNESKO bəyannaməsi, 1958
b) Herodot "Səyahət qeydləri", e.ə. 198
c) Vedalar, Hindistan, e.ə. 3.000
d) "Hər kəs Fərqli - Hər kəs Bərabər" gənclər kampaniyasının hesabatları, Avropa Şurası, 1996
e) Səid Əl-Əndəlüsi, 1029-cu il/ 420-ci il hicri təqviminə görə
f) Marko Polo Səyahətlərdə, e.ə. 1300

**b) Aşağıdakı mətn dünyanın hansı ölkəsi/regionundan olan müəllifə aiddir?**

"Tam Şimalda (Avropanın) yaşayan insanlar günəşdən çox uzaq olmaqdan əziyyət çəkmişlər. Onlarda hava soyuq və səma isə buludludur. Nəticədə, onların temperamenti soyuq və davranışı isə kobuddur. Nəticədə, onların bədənləri nəhəng olmuş, dəriləri ağ rəngə çevrilmiş və saçları aşağı düşmüşdür. Onlar dərketmənin kəskinliyi və qavrayışın itiliyini itirmişlər. Cahillik və tənbəllik onlara qalib gəlmiş və yorğunluq və ağılsızlıq ilə dolmuşlar.

Aşağıdakı cavablardan birini seçin:

a) Çin b) Avropa c) Hindistan d) Afrika e) İran f) Bunlardan heç biri

Uşaqlar

Əmək

Qloballaşma

2-ci Səviyyə

5+

90 dəqiqə

# Aşığın hekayəsi

*Uşaq əməyi ailələr və cəmiyyət üçün lazım olan gəliri təmin edir. Bunun qarşısını aldıqda ən çox əziyyət çəkən elə uşaqlar olacaqdır. Razı deyilsiniz?*

**Mövzular**
- Uşaqlar
- Əmək
- Qloballaşma

**Mürəkkəblik** 2-ci Səviyyə

**Qrup ölçüsü** 5+

**Vaxt** 90 dəqiqə

**Xülasə** Bu, müzakirə əsaslı məşğələdir. Başlanğıc nöqtəsi uşaq əməyi ilə bağlı tematik araşdırmadır. İştirakçılar uşaq əməyinin aspektlərini, səbəbləri və onu necə dayandırmaq yollarını araşdırırlar.

**Əlaqədar hüquqlar**
- İqtisadi istismardan qorunma
- Təhsil hüququ
- İstirahət və asudə vaxt hüququ

**Məqsədlər**
- Xüsusilə Minilliyin İnkişaf Məqsədləri ilə əlaqəli olaraq, uşaq əməyi barədə biliyin artırılması
- Çətin problemləri təhlil etmək üçün tənqidi düşüncə və bacarıqların inkişaf etdirilməsi
- İnsan hüquqları pozuntularının qarşısının alınması üçün ədalət və məsuliyyət dəyərlərinin inkişaf etdirilməsi

**Materiallar**
- Aşığın həyatı ilə bağlı faktların nüsxələri; hər iştirakçı üçün bir ədəd
- Hər kiçik qrup üçün bir ədəd olmaqla qələmlər və ya markerlər
- Flipçart kağızı və ya böyük kağız vərəqələr (A3)

**Hazırlıq**
- "Həll yolu ilə bağlı ideyalar" dizaynını böyük, A3 ölçülü kağızlara köçürün: hər kiçik qrup üçün bir və plenar üçün bir ədəd olmaqla
- Uşaq əməyi, uşaq əməyinin mənası və bunun nə dərəcədə geniş yayıldığı ilə bağlı məlumat toplayın.
- Minilliyin İnkişaf Məqsədləri ilə bağlı məlumat əldə edin.

## Təlimatlar

1. İştirakçılara uşaq əməyi haqqında nə bildikləri barədə sual verin.
2. Məşğələnin Pakistanda uşaq işçi olan Aşıq haqqında praktik məşğələyə əsaslandığını izah edin. Tapşırıq Aşığın vəziyyətinin dəyişdirilməsi üçün mümkün yolları tapmağa çalışmaqdan ibarətdir.
3. Hazırlıq hissəsi kimi, "uydurulmuş hekayə danışmaq" tapşırığını həyata keçirin. Aşığın həyatının bir gününün necə keçməsi ilə bağlı uydurma bir hekayə hazırlayın. Növbədə olan hər bir iştirakçıya daha bir cümlə əlavə etməsini xahiş etməklə dövrə vurun.
4. İştirakçıları hər qrupda maksimum 5 nəfər olmaqla kiçik qruplara ayırın. Hər kəsə Aşığın praktik məşğələsinin bir nüsxəsini təqdim edin. Oxumaq və şərhləri bölüşmək üçün iştirakçılara 10 dəqiqə vaxt verin.

5. Hər kəsə “həll yolu üçün fikirlər” vərəqinin bir nüsxəsini təqdim edin. Onların tapşırığının Aşığın və onun kimi digər uşaq işçilərin üzləşdiyi problemlərə həll yolu ilə bağlı beyin fırtınası etməkdən ibarət olduğunu izah edin. Onlar müvafiq sütunlarda “sabaha qədər”, “gələn aya qədər” və “2025-ci ilə qədər” problemi həll etmək üçün mümkün addımları yazmalıdırlar. Bu tapşırığı sona yetirmək və məruzəçinin təqdimatı həyata keçirməsi üçün ümumi 30 dəqiqə vaxtı olacaqdır.
6. Plenar iclas zamanı hər bir sütun üzrə şərhləri növbə ilə alın. İdeyaları flipçarta yazaraq ümumiləşdirin. Sözügedən ideyalarla bağlı müzakirəyə icazə verin, lakin vaxt məhdudiyyətini nəzərə alın!
7. Cədvəl tamamilə hazır olduqda, müzakirə və təhlil mərhələsinə keçid alın.

**ƏSAS TARİX**

**12 İyun**
Uşaq Əməyinə qarşı Mübarizə Günü

## Təhlil və qiymətləndirmə

- Müzakirənin dərinliyi iştirakçıların mövzu üzrə ümumi biliyindən asılı olacaqdır, lakin həm onların uşaq əməyi ilə bağlı fikirlərini, həm də mümkün həll yolları ilə bağlı sualları əhatə etməyə çalışın.
- Bu məşğələdən əvvəl insanlar uşaq əməyinin mövcudluğu ilə bağlı nə qədər məlumatlı idi? Onlar bunu haradan bilirdi? Bu məlumatı haradan alıblar?
- Onların öz ölkəsi/şəhərində uşaq əməyi mövcuddur? Uşaqlar hansı işlərdə işləyir və nəyə görə işləyir?
- Uşaqlar özləri istədiklərdi təqdirdə, onlara çalışmağa icazə vermək lazımdır?
- “Uşaq əməyi ailələr və cəmiyyət üçün lazım olan gəliri təmin edir. Bunun qarşısını aldıqda ən çox əziyyət çəkən elə uşaqlar olacaqdır” Buna necə cavab verərsiniz?
- Biz, istehlakçılar olaraq, uşaq əməyindən hansı yollarla bəhrələnirik?
- Uşaq əməyi probleminin mümkün həll yolu barədə düşünmək nə dərəcədə çətin idi? Üç sütundan – “sabaha qədər”, “gələn aya qədər” və “2025-ci ilə qədər” – hansını doldurmaq ən çətin idi? Nəyə görə?
- Uşaq əməyi məsələsi ilə bağlı bir çox dövlət səviyyəli və beynəlxalq bəyannamələr mövcuddur və konfranslar keçirilmişdir. Nəyə görə bu, dünyada hələ də genişmiqyaslı problem olaraq qalır?
- Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və Uşaq Hüquqları Konvensiyası uşaqların istismarının qarşısını necə alır?
- Problemi həll etmək üçün kim məsuliyyət daşımalıdır? (Fərqli rəngli qələmi götürün və təklifi cədvəldə yazın)
- Bizim kimi adi insanlar Minilliyin İnkişaf Məqsədlərinə, xüsusilə kəskin yoxsulluğun və aclığın qarşısının alınması və universal ibtidai təhsilin əldə olunması ilə bağlı məqsədlərə çatmaq üçün nə edə bilər? Necə və nə zaman?

## Fasilitator üçün məsləhətlər

Əgər iştirakçılar uşaq əməyi barədə çox az məlumatlıdırlarsa, siz məşğələyə onlara uşaq əməyi və onun nəticələri barədə bəzi faktlar verməklə başlaya bilərsiniz. Bunun əyləncəli yolu aşağıdakı “Əlavə məlumat” bölməsindəki cədvəl və ya fakt qutusundakı statistikanı götürüb kiçik sorğuya çevirmək ola bilər.

Siz qeyd etməlisiniz ki, 2015-ci il Minilliyin İnkişaf Məqsədlərinə çatmaq üçün hədəfdir, lakin ekspertlər bu tarixə qədər onlara dünya üzrə nail olmağın mümkün olmaması və 2015-ci ildən sonra da fəaliyyətin davam etdirilməli olması ilə razılaşırlar:

**Məqsəd 1:** Kəskin yoxsulluq və aclığın aradan qaldırılması

- Gündə 1 dollardan az məbləğə yaşayan insanların sayının iki dəfə azaldılması
- Qadınlar, kişilər və gənclər üçün məşğulluğa nail olmaq
- Aclıqdan əziyyət çəkən insanların sayının iki dəfə azaldılması

**Məqsəd 2:** Universal ibtidai təhsilə nail olmaq

2015-ci ilə qədər bütün uşaqlar ibtidai təhsilin tam kursunu bitirə bilməlidir.

Minilliyin İnkişaf Məqsədləri haqqında daha çox məlumat üçün 192-ci səhifədəki “Nə qədərinə ehtiyacımız var?” məşğələsinə baxın.

Qruplar üçün ilk iki sütun haqqında ideya tapmaq çətin ola bilər (sabah və gələcək ay), bu da gücsüzlük və çaşqınlıq hissi yarada bilər. Siz aşağıdakı bəyanatı oxumaqla onları həvəsləndirə bilərsiniz:

"Tapşırıq böyükdür, lakin sarsılmaz və ya məşəqqətli olacaq qədər də böyük deyil. Uşaq əməyi ilə mübarizə aparan ölkələrin inkişaf etdirilməsinə dəyər. Bu, onu göstərir ki, uşaq əməyi probleminin yaranmasına səbəb resurs çatışmazlığı deyil, real canfəşanlığın olmamasıdır. Bunun davam etməsinə icazə verməyin. M. C. Mehta Tamil Nadu Ölkəsi və Digərlərinə qarşı məhkəmə işi zamanı Ali Məhkəmə, Hindistan, 1986.

Adətən iştirakçılar problemə effektiv və uzunmüddətli həll yolu tapmaq üçün səbəblərin müəyyyənləşdirilməsinin lazım olduğunu anlayırlar. Səbəbləri təhlik etdikdən sonra adətən həll yolları daha aydın görünür. Lakin siz, xüsusən əgər bəzi qruplar həll yolu tapmaqda əziyyət çəkirlərsə, bunu onlara başa salmalı ola bilərsiniz. Aşağıdakılardan birini və ya bir neçəsini təklif etməklə həll yolları üçün ideyalar yaratmış olarsınız:

- Yoxsulluğu azaldın və beləliklə, uşaqların işləməyinə ehtiyac azalacaqdır.
- Yetkinlərin maaşlarını artırın və beləliklə uşaqların işləməyinə ehtiyac azalacaqdır.
- Təhsili uşaqların ehtiyacları üçün daha cəlbedici və uyğun şəkildə inkişaf etdirin.
- Beynəlxalq standartları uşaqların məşğulluğu üçün inkişaf etdirin.
- Uşaq əməyi ilə hazırlanmış məhsulları qadağan edin.
- Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlük tələbi kimi qlobal minimum işçi standartlarını inkişaf etdirin.

Məşğələni mövzuya uyğun və aktiv etmək üçün uşaq əməyi ilə bağlı cari xəbərlərdən (həm yerli, həm bə qlobal səviyyədə) istifadə edin.

## Variantlar

Siz məşğələdən öncə iştirakçıların uşaq əməyi barədə biliklərini artırmaq istəyirsinizsə, məsələn, www.unicef.org və ya www.thinkquest.org veb səhifələrindən sorğu seçə bilərsiniz.

"Uydurulmuş hekayə danışmaq" (təlimatlar bölməsində 2-ci mərhələ) ilə hazırlıq mərhələsi keçirməyin əvəzinə, iştirakçıları hər biri maksimum 5 nəfərdən ibarət qruplara ayırın. Hər bir qrupa beş ədəd A3 vərəqi verin və Aşığın həyatında adi bir gündə baş verən 5 hadisəni şəkil ilə izah etməyi və karikaturalarda olduğu kimi təqdim etməyi xahiş edin. Qruplar bunu etdikdən sonra öz hekayələrini təqdim etməyi xahiş edin.

Karikatura çəkməyi yaxşı bacaran təlimçilər Aşığın hekayəsini həyatının hər səhnəsini ayrı-ayrı dördbucaqda karikatura kimi çəkmək istəyə bilər. Bunları sadə, yalnız əsas məlumatı göstərəcək şəkildə hazırlayın. Hekayənin nüsxəsini (hər bir qrup üçün bir nüxsə) çıxarın və dördbucaqları kəsin. Hər bir qrupa bir şəkil dəsti verin və bu şəkillərə Aşıq barədə kiçik mətnlər əlavə etməklə hekayə hazırlamağı xahiş edin. Qruplar bunu etdikdən sonra hekayələrini təqdim etməyi xahiş edin.

## Sonrakı fəaliyyət üçün təkliflər

12 yaşlı Kanadalı oğlanın uşaq əməyinə qarşı çıxdığına görə qətlə yetirilən 12 yaşlı Pakistanlı zavod işçisinin qatili haqqında qəzet məqaləsi oxuduqdan sonra dostları ilə birgə "Uşaqlar uşaqları azad edə bilər" adlı təşkilat yaratması barədə danışmaqla qrup üzvlərini aktiv hüquq kampanyaçıları olmağa təşviqedin. http://en.wikipedia.org/wiki/Free_the_Children Peruda uşaq işçilərin Perulu Gənc İşçilərin Milli Hərəkatı Təşkilatına (ispan dilində) qoşulmaları barədə məlumat toplayın: http://mnnatsop-natsperu.blogspot.com/

"Bir addım irəli atın" məşğələsi vasitəsilə öz cəmiyyətinizdə gənclər üçün imkanlar barədə bərabərsizlik məsələlərinə nəzər sala bilərsiniz.

Yoxsulluğun aradan qaldırılması və bütün digər Minilliyin İnkişaf Məqsədlərinə nail olmaq və bütün dünyada hərbi məqsədlər üçün nə qədər vəsaitin tələb olunduğunu müqayisə etmək istəsəniz, 189-cu səhifədəki "Bizim nə qədərə ehtiyacımız var?" məşğələsinə nəzər salın.

Bu məşğələni qrupa daha yaxın edin. Qrupa Aşıq kimi uşaqları istismar edən işəgötürənlərlə cib xərci qazanmaq üçün və ya məktəb və ya kollec xərclərini ödəmək üçün axşamlar və ya şənbə günləri işləyən gənclərə gülünc səviyyədə aşağı maaşlar ödəyən işəgötürənlər arasındakı fərqi düşünməyi tapşırın.

Bəs uşaqlarını evdə və ya ailə biznesində məsuliyyətə cəlb edən valideynlər necə? Iştirakçıların öz təcrübələri necədir? Əgər iştirakçılar bu ideyalar üzərində mövzuya davam etmək istəsə, Hər kəs Fərqli - Hər kəs Bərabər Təhsil Paketinin "Mənim uşaqlığım" məşğələsinə nəzər salın.

## Fəaliyyət üçün fikirlər

Siz bəzi kampaniyalarda iştirak edə bilərsiniz, məsələn: http://www.cleanclothes.org və istehsal olunduğu ölkə əsasında geyim və ya aldığınız digər əşyaları seçə bilərsiniz. Beynəlxalq Əmək Təşkilatının hesablamalarına əsasən 2006-2010-cu illərdə uşaq işçilərinin sayı qlobal olaraq, 11% azalmış və təhlükəli işlərdə işləyən uşaqların sayı 26 % aşağı düşmüşdür. Bu yaxşı göstərici olsa da, dünyada hələ də 218 milyon uşaq işçi var və onların 126 milyonu təhlükəli işlərə cəlb olunmuşdur.

## Əlavə məlumat

Uşaq əməyi dedikdə uşaqların müntəzəm və davamlı əməyə cəlb olunmasına istinad edilir. Bu təcrübə bir çox beynəlxalq təşkilatlar tərəfindən istismar kimi qəbul olunur və bir çox ölkələrdə qeyri-leqaldır. Uşaq əməyi bir çox uşaqların və ya gənclərin cib xərci qazanmaq və ya təhsil xərclərini qarşılamaq üçün işlədiyi müvəqqəti və ya yarımştat işlərdən fərqlənir. Lakin bu, o demək deyil ki, cib xərci qazanmaq üçün işləyən insanlar istismar olunmur.

www.coe.int/compass ünvanında 5-ci Fəsildə Uşaqlar və Əməklə bağlı məlumat hissəsində uşaq əməyi, uşaq əməyi vasitəsilə istehsal edilən məhsullar, uşaq əməyi ilə bağlı beynəlxalq hüquq və uşaq əməyinin uşağın özü üçün nəticələri barədə daha çox məlumat əldə edə bilərsiniz.

İnkişaf etməkdə olan ölkələrdə hər altı uşaqdan biri uşaq əməyinə cəlb olunmuşdur. Aşağıdakı cədvəldə regionlar üzrə (1999-2008) uşaq əməyinə cəlb olunmuş 5-14 yaş arası uşaqların sayı göstərilmişdir.

Ətraf Mühit Ədalət Fondunun "Bizim pambığımızın arxasındakı uşaqlar" hesabatı bir milyondan çox olduğu güman edilən uşaqların – bəziləri cəmi 5 yaşında olan , olduqca isti və soyuq havada gündə 12 saat işləyən, fiziki, sözlə və bəzən cinsi istismara məruz qalan – üzləşdiyi şok edici vəziyyətləri açıqlayır: http://www.ejfoundation.org/page481.html

**Regionlar üzrə (1999-2008) uşaq əməyinə cəlb olunmuş 5-14 yaş arası uşaqlar (%)**




* Nigeriya daxil deyil, **Çin daxil deyil, *** Nigeriya və Çin daxil deyil

Mənbə: http://www.childinfo.org/labour.html

Uşaq əməyi probleminin miqyası o qədər böyükdür ki, bu məsələ ilə əlaqədar olduqca çox məlumat mövcuddur. Yararlı internet saytları Beynəlxalq Əmək Təşkilatı (http://www.ilo.org), YUNİSEF (http://www.unicef.org) və Uşaqları Qoruyundur (http://www.oneworld.org).

## Paylanmalı materiallar

### 1-ci material: Aşığın həyatı barədə faktlar



**Şəxsi məlumat**
Ad: Aşıq Haşmir
Yaş: 11 yaş
Milliyyət: Pakistanlı
Ailə: Valideynlər, 2 nənə və baba,
1 bacı və 3 qardaş
Ailənin gəliri: təxminən 70 €/aylıq

**"Professional" məlumat**

"Peşə": kərpic fabrikində işçi
İş saatları: gün ərzində 12 - 16 saat arası (1/2 saat fasilə) – həftədə 6 gün
İş istehsalı: gün ərzində təxminən 600 kərpic
Maaş: 1000 kərpic üçün 1.3 avro (lakin bunun 50%-i ailəsinin borcunun ödənilməsinə gedir)
5 yaşından etibarən işləyir

**Digər məlumat**

Onun ailəsi təqribən 6000 pakistan rupisi (110 avro) kredit götürdüyündən 2 il müddətinə borclu idi. Hal-hazırda kredit faizi ilə birgə borcun miqdarı 280 avroya çatmışdır. Aşıq atası tərəfindən 3 ay müddətinə məktəbə göndərildi, lakin fabrikin sahibi onu məktəbdən çıxarıb yenidən işə qaytardı. Onun atası etdiyi işə görə cəzalandırıldı. Ailənin gəliri çox azdır və nəticə olaraq, uşaqları məktəbə göndərmək və yaxşı ərzaq və səhiyyə təmin etmək üçün kifayət deyil.

Mənbə: http://www.freethechildren.org

### Vərəqə 2: Aşığın həyatı barədə faktlar

Aşığın – və digər uşaq işçilərin vəziyyəti ilə bağlı nə edilə bilər?

| Sabaha qədər? | Gələn aya qədər? | 2025-ci ilə qədər |
|---|---|---|
| | | |

# İnananlar

*İnsan hüquqları universal standartdır. Bu hər bir dinin və hər bir sivilizasiyanın elementidir*

Şirin Ebadi

**Mürəkkəblik** 3-cü səviyyə

**Mövzular**
- Din və İnam
- Mədəniyyət və İdman
- Ayrı-seçkilik və Dözümsüzlük

**Qrup ölçüsü** İstənilən (4-5 nəfərlik kiçik qruplar)

**Vaxt** 180 dəqiqə

**Xülasə** İştirakçılar öz müxtəlif inamlarını müqayisə edir və qarşı-qarşıya qoyurlar

**Əlaqədar hüquqlar**
- İnam və din azadlığı
- Fikir və məlumat azadlığı
- Ayrı-seçkiliyə məruz qalmamaq hüququ

**Toxunulan məsələlər**
- Dini müxtəliflik
- Dinlə bağlı anlayışlar və onun gənclərin həyatına təsiri
- Müxtəlif dinlər və onların mənəvi və dünyəvi məsələlərlə əlaqəsi ilə bağlı bilik

**Məqsədlər**
- Müxtəlif inam sistemləri və dinlərlə bağlı məlumatlanmaq
- Tənqidi düşüncəni inkişaf etdirmək
- İnam və dinlərin müxtəlifliyinin qəbul olunması bacarığının inkişaf etdirilməsi

**Materiallar**
- Bəyanat kartlarının nüsxələri (hər kiçik qrup üçün bir dəst)
- Kiçik qrupların oturması və müzakirə aparması üçün rahat yerlər
- Hər kiçik qrup üçün təlimçi

**Hazırlıq**
- Kartları kəsin
- 5-ci Fəsildə Din və İnamla bağlı əlavə məlumatı oxuyun

## Təlimatlar

1. Bu məşğələdə onların öz inamlarını müzakirə edəcəklərini izah edin; bəzi insanlar kəskin dindar ola bilər, bəziləri müəyyən səviyyədə və digərləri isə tamamilə dindən uzaq ola bilər. Məqsəd bizim həyata verdiyimiz mənaların müxtəlif formaları barədə tənqidi düşünmək və şəxsi fikirlərimizi bölüşməklə Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 18-ci Maddəsini dərindən anlamaqdır.
2. İştirakçılara açıq şəkildə nə dediklərinin və özlərini necə ifadə etdiklərinin tam fərqində olmalı olduqlarını izah edin. Dini inamların, həmçinin, dini simvolların təhqir və böhtan-dan qorunması dini azadlıq çərçivəsinə daxildir. Lakin qorunma fikir və ifadə azadlığına qarşı balanslaşdırılmalıdır və bu, heç də inamların tənqidinə qarşı tam toxunulmazlıq demək deyil. Buna görə də, qərəz və ayrı-seçkilikdən yaranmış nitq yox, açıq sorğu qəbul olunur.
3. İştirakçıları 4-6 nəfərlik kiçik qruplara ayırın və öz fərdi fikirləri ilə bağlı 3-4 dəqiqə ərzində düşünməyi xahiş edin. Məsələn, əgər dindardırlarsa, etiqad və ritualları nə qədər yaxından izləyirlər?
4. Daha sonra, abu-havanı yumşaltmaq üçün bir məşğələ növü olaraq, iştirakçılara ilk dəfə dini mərasimdə iştirakları ilə bağlı danışmağı xahiş edin.
5. İndi kartları qrupun ortasında üzü aşağı vəziyyətdə qoyun. İştirakçılara onların 1 saat


Din və İnam


Mədəniyyət və İdman


Ayrı-seçkilik və Dözümsüzlük


3-cü Səviyyə


İstənilən (4-5 nəfərlik kiçik qruplar)


180 dəqiqə



vaxtı olduğunu bildirin, onlar mümkün qədər çox kartı nəzərdən keçirmək məqsədilə müzakirələrini qısa vaxtda həyata keçirməlidirlər.

6. Bu yolla onlar məsələlərlə bağlı daha geniş perspektiv əldə edəcəklər; xüsusi maraqlarına səbəb olan məsələləri isə daha sonra nəzərdən keçirə bilərlər.
7. Növbəsi çatdıqda hər bir iştirakçının kart götürməli, onu yüksək səslə oxumalı və bəyanatla bağlı şərh verməli olduğunu izah edin. Daha sonra, digərləri öz dini və ya təcrübəsindən nümunə gətirməklə töhfə vermək imkanı əldə edir.
8. Daha sonra, digər mərhələyə, başqa oyununçunun kart seçməsi mərhələsinə keçid alın.
9. Bütün kartlar müzakirə olunduqdan sonra və ya vaxt bitdikdə, təhlil mərhələsinə keçid alın (eyni qruplarla).

## Təhlil və qiymətləndirmə

- İştirakçılar bəzi bəyanatlarla işləməyin çətin olduğunu düşünür? Nəyə görə?
- Sizin öz həyat mövqeyinizlə bağlı sizi təəccübləndirən hər hansı faktlara, inamlara və ya yanaşamalara rast gəldiniz?
- İnsanlar öz həyat mövqelərinə baxmayaraq, hansı ortaq cəhətlərə malikdir?
- İnsanların həyat mövqeləri arasında hansı kəskin fərqlər mövcuddur? Onlar tamamilə uzlaşmazdırlar?
- Digər insanların həyat mövqeləri haqqında bilmək vacibdir? Siz bu barədə nə dərəcədə biliksizsiniz? Onlar haqqında daha çox məlumat almalısınız?
- Din və inam azadlığının insan hüququ olduğunu nəzərə alaraq, insanların həyat mövqeləri ilə tamamilə razılaşmadığınız halda onlara hörmət etmək nə dərəcədə asandır?
- Müxtəlif həyat mövqeləri ilə bağlı cahillik və qərəzli fikir insanların bir-biriləri ilə əlaqəli fikirlərinə nə dərəcədə təsir edir?
- Sizin ölkənizdə hər kəsin din və inam azadlığı var? Niyə var və ya niyə yoxdur?
- Sizin ölkənizdə din və inam azadlığı hüququnun pozuntusu halları hansı formadadır?
- Düşüncə, vicdan və din azadlığı inamlı insanların cəmiyyətində daha geniş cəmiyyətlərdə rast gəlinməyəcək hansı fərqli təcrübələrə icazə verir? Bunun nümunəsi olaraq, qadınların dini liderlik vəzifələrində mövqeləri, uşaqların cəlb olunduğu ənənəvi mərasimlər, xaç suyuna salınma, boşanma və ya dəfnetmə, yaradanın təsviri ilə bağlı qadağaları əhatə edən qanunları və s. göstərmək olar.
- Bütün qrup üçün piknik, idman tədbiri və ya həftəsonu bir kəsin evində toplaşmaq kimi dinindən və ya inamından asılı olmayaraq hər kəsin qoşula biləcəyi tədbirlər təşkil etdikdə nəyi nəzərə almalısınız?
- Bəzən tədbir təşkil etdikdə hər kəsin dini və inamına uyğun olaraq ehtiyacını qarşılamaq çətin ola bilər. Bu halda, necə həll yolu tapmağa çalışırsınız? Əgər güzəştə getməlisinizsə, müxtəlif insanların ehtiyaclarını necə prioritetləşdirirsiniz?
- Bu məşğələdən öyrəndiyiniz ən maraqlı məsələ nə oldu?

## Fasilitator üçün məsləhətlər

Bu məşğələ çox həssas məsələ ilə əlaqəlidir, buna görə də, hər kəsin rahat hiss etməsi vacibdir. Məşğələni asan üsulla həyata keçirin; ətrafınızda rahatlaşdırıcı faktorların olması önəmlidir. Hər kəsin demək istədiklərindən və ya deyə biləcəklərini düşündüklərindən daha artığını deməklə bağlı təzyiq altında olmadıqlarını bilməsindən əmin olun.

İştirakçıların töhfələrinə və limitlərinə hörmət edin; hər hansı bir şeyin nəyə görə onların dinində təcrübədən keçirildiyini izah etməyə hər kəs qadir deyil (xüsusilə, əgər onlar hər hansı dinin qaydaları ilə böyümüş və təhsil almışlarsa). Bu xüsusda, din mədəniyyətə çox bənzəyir: siz öz dəyərləriniz və mədəni xüsusiyyətlərinizi "təbii" qəbul edirsiniz.

Yaşıdların təzyiqindən ehtiyatlı olun. İştirakçıların öz dinləri və ya inamları ilə bağlı

ƏSAS TARİX

**16 Noyabr**
Beynəlxalq
Tolerantlıq Günü

müdafiə mövqeyinə keçməyinə icazə verməyin. Məsələn, kiminsə sizə "siz necə o dinə etiqad edə və …. qəbul edə bilərsiniz?" kimi sual ünvanlanmasına icazə verməyin.

Çox təfərrüatlara girməkdən çəkinin. Kartlara göz gəzdirin və onların çoxunu nəzərdən keçirmək üçün kifayət qədər vaxtınız olduğundan əmin olun. Müzakirənin təbii getməsinə icazə verin və yalnız sualın üstündə həddən artıq uzun müddət dayanıldığını və ya çox dərinə gedildiyini yaxud "hökmranlıq" yanaşması hiss etdikdə müzakirəyə müdaxilə edin.

Xüsusilə qrupda təqdim olunmayan dinlər barədə olmaqla, əlavə məlumat təqdim etməyə və ya "şeytanın vəkili"ni oynamağa hazır olun.

Kiçik qruplarda müzakirə və təhlili aparmaq üçün, imkanınız olduğu təqdirdə, başqa bir fasilitator ilə birgə məşğələni həyata keçirin; əgər sizə kömək edən bir təlimçi yoxdursa, iştirakçılar arasında sizə bu işdə yardım edəcək könüllülər hazırlamağa cəhd edin. Bu, qrupdan asılı olaraq, təhlilin konstruktiv olmasını təmin etmək və hər kəsin töhfəsi və təcrübəsini dəyərləndirmək məqsədilə vacib ola bilər. Əgər siz köməkçi fasilitatorlara güvənə bilmirsinizsə, plenar iclasda qiymətləndirməni iştirakçılarla birgə həyata keçirdiyinizdən əmin olun.

Din rasional arqumentlərlə izah oluna bilməz və siz dini inamları rasional arqumentlərlə izah etmək cəhdindən çəkinməlisiniz. Siz hər kəsin düşüncə, vicdan və din azadlığı hüququna hörmət etməyin  vacibliyini vurğulaya bilərsiniz; bu, sizin digərlərinin inandığına hörmət etməli olduğunuz demək deyil, onların istədiklərinə inanmaq hüququna hörmət etməli olmağınız deməkdir. Tənqidi düşüncəni inkişaf etdirməyin insan hüquqları üzrə təhsilin əsas məqsədi olduğunu yadınızda saxlayın, müxtəlif həyat mövqelərini müqayisə etmək insanlara özlərinin seçiminin digərlərinin seçimlərini qüvvədən salmadığını anlamağa imkan yaradacaq. Bu, müzakirə məşğələsi vasitəsilə iştirakçıların öz seçimlərinin mütləq deyil, nisbi olduğunu anlayacağına ümid edirik. Bu, həmçinin onların hər bir məktəb və ya ənənənin zəif və güclü tərəflərini anlamağına imkan verəcək. Dini fanatizm və mənfi fikir adətən ciddi düşüncə seçiciliyi və plüralizmin rəddindən irəli gəlir. Heç bir din monolitik deyil, buna görə də, dində heç bir hekayə amiranə deyil və bütün digər dini ənənələrin hekayələri və ya izahlarını təmsil etmir və ya onlardan üstün deyil.

## Variantlar

Əgər siz məşğələni bir neçə kiçik qrupla həyata keçirirsinizsə, onu hər kəslə birlikdə etmək yaxşı fikirdir. Buna görə də, iştirakçılar bölünməmiş və plenara gəlməmişdən əvvəl qruplardan aşağıdakı sualları nəzərdən keçirib məruzə etməyə hazır olmalarını xahiş edin:

- Ölkənizdə dini və qeyri-dini ənənələrə qarşı qərəz və məlumatsızlıq nümunələri barədə danışın.
- Məlumatsızlıq və qərəzli fikrin qarşısını almaq üçün biz nə edə bilərik?

## Sonrakı fəaliyyət üçün təkliflər

Əgər siz bu məşğələni təkdinli qrup daxilində həyata keçirsəniz, daha sonrakı müzakirə üçün kifayət qədər mövzu olacaq. http://www.religioustolerance.org ünvanına daxil olun və oradakı dinlər, qeyri-teist dinlər və etika sistemləri siyahısını kopyalayın. Qrupdan bu dinlərdən neçəsi barədə eşitdikləri və onlar haqqında nə bildiklərini soruşun.

Siz müxtəlif inamların inkişaf tarixini xronologiya yaratmaqla araşdıra bilərsiniz. 303-cü səhifədə "Vaxt şkalaları" məşğələsinin "variantlar" bölməsinə baxın.

Paulo Frayre demişdir - "Tədris etmək dəyişikliyə inanmaqdır". Əgər qrup təhsilin nə olduğunu və onun insanların ehtiyaclarını necə ödədiyini yaxud ödəmədiyini müzakirə etmək istəsə, o zaman 207-ci səhifədəki "Qoy hər bir səs eşidilsin" məşğələsi onların maraqlarını cəlb edə bilər.

## Fəaliyyət üçün fikirlər

Siz və iştirakçıların harada yaşadığı və ya işlədiyinizdən asılı olaraq, fərqli dinin dini və ya icma mərkəzinə getmək və mümkün ümumi fəaliyyəti müzakirə etmək üçün onların gənclər

qrupları ilə əlaqə yaratmaq maraqlı ola bilər. Bunlara aşağıdakılar daxildir:

- İnsan Hüquqları Günündə tədbir (10 Dekabr)
- Vacib dini festival/tədbirlər münasibətilə qarşılıqlı dəvətlər
- Yoxsul və ehtiyacı olan insanlar üçün birgə fəaliyyət

## Əlavə məlumat

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 18-ci Maddəsində deyilir – "Hər bir insan düşüncə, vicdan və din azadlığı hüququna malikdir: bu hüquqa öz dinini və ya əqidəsini dəyişmək azadlığı, öz dininə və ya əqidəsinə həm təkbaşına, həm də başqaları ilə birlikdə, dini təlimdə, ibadətdə və dini mərasim qaydalarının yerinə yetirilməsində açıq və özəl qaydada etiqad etmək azadlığı daxildir..."

Bu məşğələnin məqsədi üçün, yəni çox sayda inam sistemlərini əlavə etmək məqsədilə, biz www.religioustolerance.org-dakı dinin tərifindən istifadə edirik: "Din hər zaman ritualları, etik davranış

kodeksini və həyat fəlsəfəsini özündə birləşdirən yaradanla bağlı spesifik inam sistemidir". "Din" termini həm icma məzhəbinə aid olan şəxsi praktikalara və qrup rituallarına, həm də ümumi etiqaddan irəli gələn ünsiyyətə aiddir. Dinin alternativlərinə ateizm, skeptisizm, azad düşüncə və humanizm daxildir.

Bu məşğələdə biz "düşüncə, vicdan və din azadlığı"na, yəni şəxsi seçimə əsaslanaraq dini izləmək və ya izləməmək hüququna toxunuruq. Buna görə də, biz "həyat mövqeyi" terminindən həm dinlər, həm də dinin alternativlərini əhatə edən, lakin heç birinə qarşı ayrı-seçkilik sezilməyən ümumi termin kimi istifadə etmişik. "Həyat mövqeyi" ilə biz dünyanı başa düşməyə və həyatın mənası və dəyərini anlamağa kömək edən ideyalar çərçivəsini nəzərdə tuturuq. Bəzi həyat mövqeləri açıq şəkildə dini özündə birləşdirir, məsələn, Xristianlıq, Hinduizm və İslam. Karl Marksın və onun davamçılarının dialektik materializmi, Ayn Randın obyektivizmi və humanizm kimi bəzi həyat mövqeləri qeyri-dinidir. Buddizm və Konfutsianizm kimi digər həyat mövqeləri ənənəvi olaraq din kimi sinifləndirilmişdir, lakin bir çox davamçılar bu kateqoriyalaşamaya inanmır və onunla razılaşmır, çünki onların inamlarına yaradan daxil deyil, Buddizm və Konfutsianizm fəlsəfədir. "Həyat mövqeyi" anlayışı onların hamısını əhatə edir.

Dünyada təcrübədən keçirilən əsas inamlar barədə sadə, istifadəsi asan olan məlumatları Birləşmiş Dinlər Təşəbbüsü (www.uri.org) və Dini Tolerantlıq üzrə Ontario Məsləhətçilərinin (www.religioustolerance.org) internet saytlarında tapa bilərsiniz.

Bu məşğələ Avropa Komissiyası və Avropa Şurasının gənclər sahəsində əməkdaşlığı çərçivəsində nəşr olunmuş Avropa-Aralıq dənizi gənclər işi üzrə təlimat vəsaiti olan Mozaikdəki "İnananlar" məşğələsindən hazırlanmışdır.

## Kartlar

| | |
|---|---|
| Biz uşaqları öz həyat mövqeyimizə cəlb etmək üçün xüsusi mərasimə sahibik. | Biz dəfnetmə mərasimləri və yaslar üçün xüsusi mərasimlərə sahibik. |
| Qadınlar və kişilər bizim həyat mövqeyimizdə, məsələn, əsas mərasimlərdə fərqli funksiyalar və rollara malikdir. | Bizim oruc üçün təqvimdə xüsusi günlərimiz var. |
| Mənim həyat mövqeyim adına kriminal hadisələr və ayrı-seçkilik törədilmiş və ya törədilməkdədir. | Bizə kasıb və ehtiyacı olan insanlara yardım etmək öyrədilmişdir. |
| Bizim homoseksuallıqla bağlı xüsusi baxışımız var. | Biz simvollar və ya xüsusi paltarlar geyinirik. |
| Bizim həyat mövqeyimizin evlilik və seksuallıqla bağlı xüsusi mənəvi normaları və tələbləri var. | Bizim abortla bağlı xüsusi yanaşmamız var. |
| Bizim həyat mövqeyimiz müqəddəs kitablar və ya yazılara əsaslanır. | Biz həyatın dəyərinin qorumaq üçün ən vacib şey olduğuna inanırıq. |
| Həyat mövqeyimiz digər dinlərə və etiqadlara tolerant yanaşmanı aşılayır. | Bizim həyat mövqeyimiz ilahi mesajların daşıyıcısı hesab olunan peyğəmbərlər tərəfindən formalaşdırılmışdır. |
| Biz ölümdən sonrakı həyat və son mühakiməyə inanırıq. | Ölkələrimizdə bayram kimi qeyd olunan vacib festivallara sahibik. |
| Biz ən azı ildə bir dəfə ölüləri yada salır və qəbiristanlıqları ziyarət edirik. | Bizim vətəndaş təqvimindən fərqli bir təqvimimiz var. Bizim Yeni İlimiz yanvarın 1-də qeyd olunmur. |
| Biz uşaqlara həyat mövqeyimizin tədris olunduğu məktəblər və dərslər təşkil edirik. | Biz inanırıq ki, həyat yalnız materiyadan ibarət deyil, onun vacib bir mənəvi ölçüsü var. |
| Bizim dünyanın yaranması barədə öz hekayəmiz var. | Bizim kiminlə evlənib-evlənməyəcəyimiz barədə müəyyən fikirlərimiz var. |
| Bizim həyat mövqeyimiz yalnız mənəvi məsələləri deyil, həmçinin, cəmiyyətin necə fəaliyyət göstərməsi barədə də maarifləndirir. | Bizi adətən anlamırlar və bəzən biz ayrı-seçkiliyə məruz qalırıq. |
| Biz gün ərzində bir neçə dəfə dua edirik. | Bizim həftədə işləmədiyimiz, öz inamlarımızı qeyd etmək üçün xüsusi tədbirlərə qatıldığımız bir günümüz var. |
| Biz yaradanla xüsusi bağlılığımız olduğuna inanırıq | Biz öz həyatımıza nəzarət edirik. |
| Biz inanırıq ki, həyatın mənası və məqsədi davam edən yaradıcı yanaşmadır. | Sevgi bizim həyatımızda vacib dərsdir. |
| Bizim həyat mövqeyimiz etik çərçivə təmin edir və mənəvi dəyərlər açıq şəkildə müəyyənləşdirilmişdir. | Mənəviyyat, özümüzdən daha vacib bir şeyin bir hissəsi olduğumuz hissi, bizim həyat mövqeyimizin ritualları sayəsində ortaya çıxır. |

Qloballaşma

Ətraf mühit

Vətəndaşlıq və İştirak

3-cü səviyyə

İstənilən (5-8 nəfərlik kiçik qruplar)

1-ci hissə: 45 dəqiqə. 2-ci hissə:dəyişir 3-cü hissə:dəyişir

# Ehtiyatlı olun, biz görürük

*Çox kiçik bir şey edə bildiyinə görə, heç nə etməyən insan hər kəsdən daha böyük səhv edir.*

Edmund Burke

**Mürəkkəblik** 3-cü səviyyə

**Mövzular**
- Qloballaşma
- Ətraf mühit
- Vətəndaşlıq və İştirak

**Xülasə** Bu məşğələdə iştirakçılar pambıq köynək istehsalının sosial, iqtisadi və ətraf mühit xərcləri barədə məlumatlanırlar. Daha sonra, onlar insan hüquqları pozuntuları hallarını aradan qaldırmaq üçün fəaliyyət planı hazırlayır və həyata keçirirlər.

**Əlaqədar hüquqlar**
- Arzuolunan iş və həmkarlar ittifaqına qoşulmaq hüququ
- Yaxşı həyat standartı hüququ
- Təhlükəsiz və sağlam mühit hüququ

**Qrup ölçüsü** Hər hansı (5-8 nəfərlik kiçik qruplar)

**Vaxt** 1-ci hissə: 45 dəqiqə. 2-ci hissə: dəyişir. 3-cü hissə: dəyişir

**Məqsədlər**
- Geyim sənayesinin qloballaşmış xüsusiyyəti barədə öyrənmək və aldığımız paltarların əsl dəyərini anlamaq
- Məlumatı təhlil etmək, fəaliyyəti planlaşdırmaq və həyata keçirmək bacarıqlarını inkişaf etdirmək
- Kreativlik, təxəyyül və aktivizmə sadiqliyi təşviq etmək

**Materiallar**
- Flipçart və marker qələmləri
- Paylanmalı material

**Hazırlıq**
- Hər iştirakçı üçün bir ədəd olmaqla məlumat materialının nüsxələrini çıxarın
- İnsanların iştirakına dəstəklə bağlı öz rolunuzun fərqində olun

## Təlimatlar

**1-ci hissə: Məsələlərin nəzərdən keçirilməsi**

1. Qrupa aldıqları paltarları və öz seçimlərinin sosial, iqtisadi və ətraf mühitə təsirlərini daha diqqətlə nəzərdən keçirməli olduqlarını izah edin.
2. İnsanlardan geyindikləri köynək və ya sviterlərin harda istehsal olunduqları və nədən hazırlandıqlarını bilmək üçün onların etiketlərinə baxmağı xahiş edin. Onların qiyməti neçədir? Flipçartda bütün ölkələr və qiymətləri yazaraq cədvəl çəkin.
3. Pulun yeganə meyar olub-olmadığını soruşun; daha sonra “Pambığın əsl dəyərinin izlənilməsi” və “Bir pambıq köynəyin əsl dəyəri” adlı məlumat materiallarını paylayın və iştirakçılara onları oxumaq üçün 5 dəqiqə vaxt verin.
4. Daha sonra, məlumatda əks olunan məsələlər üzərində beyin fırtınası edin. Buna misal olaraq, uşaq əməyi də daxil olmaqla əmək hüquqları, resursların istifadəsi (su və yanacaq), pestisidlər və digər toksinlər vasitəsilə ətraf mühitə vurulan ziyan və qloballaşmanın nəticələri kimi mövzuları göstərmək olar.
5. Əldə etdikləri məlumat əsasında qrupdan köynək alınması ilə bağlı nə düşündüklərini soruşun. Onlar qanun pozuntularının qarşısını almaq üçün nə edə bilərlər? Onların ideyalarından fəaliyyətə keçmək üçün istifadə edin. Məsələn, paltarların sıradan çıxmasının qarşısını almaq üçün onlara daha diqqətlə yanaşılması, gələcəkdə yalnız ədalətli ticarət edilən köynəklərin alınması və ya öz yoldaşları arasında bu məsələlərlə bağlı maarifləndirilmənin aparılması məqsədilə yerli səviyyədə kampaniya başladılması. Hansı ideyaları daha da inkişaf etdirmək istədiklərini müzakirə edin. Daha çox məlumat üçün araşdırma aparılması və öz ideyalarının uyğunluğu barədə düşünmək üçün onlara imkan yaradın.

ƏSAS TARİX

**Mayın ikinci Şənbə günü**
Dünya Ədalətli Ticarət Günü

**2-ci hissə: Fəaliyyətə keçməklə bağlı qərarlar**

6. İştirakçılara araşdırmanı nəzərdən keçirmələri, öz ideyalarını yeniləmələri və hansı addımları atacaqları barədə razılığa gəlmələri üçün icazə verin.
7. Onlardan keçmək istədikləri fəaliyyət növünə uyğun kiçik qruplara ayrılmağı və aşağıdakıları özündə birləşdirəcək qısa, ilkin təklif layihəsi hazırlamağı xahiş edin:
   - Aydın məqsəd və vəzifələr
   - Təklif olunan fəaliyyətin təsviri (boykot, konsertlər, televiziya və ya radio proqramları, küçə teatrı, bukletlərin paylanılması və s.) və seçimlərinin səbəbi
   - Fəaliyyəti hazırlamaq və həyata keçirmək üçün vaxt cədvəli
   - Fəaliyyətin həyata keçiriləcəyi yerlər (məktəblər, ictimai binalar və s.)
   - Təxmin edilən xərclər və lazım olan resurslar.
8. Hər bir qrupdan öz təklifini irəli sürməyi xahiş edin. Hər kəs şərh versin və daha da inkişaf etdirilməsi üçün təklifini qeyd etsin.

**3-cü hissə: Həyata keçirmə**

- Ya bütün qrupun iştirak edəcəyi bir fəaliyyət seçin və ya iştirakçıların iştirak etmək istədiyi fəaliyyətə uyğun olaraq, kiçik qruplarda işləməyə imkan yaradın.
- Fəaliyyətin və ya kampaniyanın sonunda onun necə keçirildiyi və qrupun nəyə nail olduğunu nəzərdən keçirin.

## Təhlil və qiymətləndirmə

- **1-ci hissədən sonra:**
- Pul ən önəmli xərcdir? Deyilsə, bunun səbəbi nədir?
- Sosial, iqtisadi və ətraf mühit xərcləri nə dərəcədə önəmlidir? Onlardan biri digərindən daha önəmlidir? Hansı insan hüquqlarına riayət olunmur?
- Siz bir köynək üçün nə qədər ödəməyə hazırsınız?
- Yaxşı kampaniya necə olur?
- Qeyri-hökumət təşkilatları, beynəlxalq təşkilatlar, BMT Agentlikləri və anti-qloballaşma kampaniyaları həyata keçirən təşkilatlar kimi işçilərin hüquqlarının qorunması sahəsində çalışan qurumlar bir dəyişiklik edə bilir? Niyə edir? Niyə yox?
- **2-ci hissədən sonra:**
- Fəaliyyət planına qərar vermək nə dərəcədə asan oldu? Kiçik qruplarda qərarların qəbul edilməsi prosesindən hər kəs razıdır? Niyə razıdır? Niyə yox?
- Niyə insanlar məhz bu fəaliyyəti seçdi?
- Hər kəs özünü cəlb olunmuş hiss edir? Nəyə görə? Nəyə görə yox?
- Müxtəlif qruplar hansı insan hüquqları pozuntularını hədəf seçmişdir?
- **3-cü hissədən sonra:**
- Fəaliyyət və ya kampaniya necə baş tutdu? O plana uyğun getdi? Əgər belədirsə, nəyə görə? Əgər belə deyilsə, nəyə görə?
- Gələn dəfə üçün nəyi nəzərə almalısınız?
- Hər kəs cəlb olunmuş və öz bacarıqlarından istifadə edilmiş hiss edir? Əgər hiss etmirsə, gələn dəfə nəyi və niyə daha yaxşı etmək mümkündür?
- Məşğələni həyata keçirdikdən sonra və fəaliyyətə keçmək prosesindən nə öyrəndiniz?

## Fasilitator üçün məsləhətlər

Yaxşı hazırlıqlı olun. Fəaliyyətə keçmək yollarını ətraflı nəzərdən keçirmək və onu necə təşkil etməklə əlaqədar məlumat əldə etmək üçün fəaliyyətə keçməklə bağlı 3-cü Fəsildəki bölməni oxuyun. Həmçinin, www.coe.int/compass ünvanında Vətəndaşlıq və İştirak bölməsinin ümumi məlumat hissəsində Hartın iştirak pilləkəni barədə oxuyun.

Siz www.coe.int/compass ünvanında Qloballaşma bölməsinin əlavə məlumat hissəsində transmilli şirkətlər barədə məlumat tapa bilərsiniz. Bu məşğələyə başlamazdan əvvəl “Təmiz Paltarlar Kampaniyası” və ya ona bənzər digər təşkilatların ölkənizdə nümayəndəliyinin olduğunu yoxlayın.

Təmiz Paltarlar Kampaniyasının həyata keçirdiyi fəaliyyət barədə məlumatlanın və onların hazır vasitələrindən istifadə etməyi nəzərdən keçirin. Fəaliyyətə keçmək, məsələn, özünüz maarifləndirmə aparmaq üçün material hazırlamağın əvəzinə Təmiz Paltarlar Kampaniyasının idman geyimləri ilə bağlı hazırladığı videonu qrupun vebsaytı və ya bloqunda yerləşdirmək daha asandır. Lakin bu məşğələnin əsas məqsədlərindən biri iştirak və aktivliyi təşviq etməkdir. Buna görə də, siz iştirakçıların kampaniya üçün yeni strategiyalar yaratmaq baxımından tamamilə azad olduğunu vurğulamalısınız.

Əgər siz xərcləri karbon ayaq izi baxımından müəyyənləşdirmək istəyirsinizsə, Ecometrica nümunə olaraq 3 dəst alt paltarını götürməklə paltarların karbon ayaq izi qiymətləndirməsini etmişdir. Alt paltarları və köynəklər eyni emissiyalara malikdir, lakin alt paltarları daha tez-tez yuyulmalı, bununla belə, daha az ütülənməlidir. Nəticədə, insan doğulandan ölənə qədər 57 kiloqram karbon qazı ortaya çıxır. www.ecometrica.co.uk ünvanına daxil olun və “paltarlarla bağlı faktlar vərəqini” (apparel fact sheet) axtarışa verin.

## Variantlar

Siz məşğələnin 2-ci hissəsini insanları əsl xərclər barədə daha dərindən düşünməyə təşviq etmək üçün istifadə edə bilərsiniz; belə ki:

1. İştirakçılardan köynəklərinin qiymətlərini soruşmaq və orta qiymətlə bağlı razılığa gəlməklə başlayın.
2. Daha sonra, köynəklərin harada istehsal olunduğunu görmək üçün onlardan köynəklərin etiketlərinə baxmağı xahiş edin.
3. Daha sonra, kiçik qruplardakı insanlardan pambığı yetişdirməkdən başlayaraq mağazada geyimin satılmasına qədər istehsal prosesindəki bütün addımların siyahısı barədə beyin fırtınası etməyi xahiş edin.
4. Plenarda siyahıları müqayisə edin və nəqliyyat, əmək xərcləri, enerjidən istifadə və s. ümumi başlıqlar altında müxtəlif elementləri ümumiləşdirən bir ümumi siyahı hazırlayın.
5. Daha sonra, yenidən kiçik qruplarda olmaqla, iştirakçılara hər bir əşyaya qiymət qoymağı xahiş edin (məsələn pambığın yetişdirilməsi, ümumi əmək xərcləri, nəqliyyat və s.).
6. Plenarda yenidən qrupların hesablamalarını müzakirə edin.
7. Yekun olaraq, məlumat vərəqələrini paylayın və iştirakçılardan şərh bildirmələrini xahiş edin.

## Sonrakı fəaliyyət üçün təkliflər

Təmiz Paltarlar Kampaniyasının yerli nümayəndəliyi ilə əlaqə saxlayın və qrupun başladığı işi inkişaf etdirin.

Siz idman ayaqqabıları ilə bağlı ədalətli ticarət məsələlərini araşdıra bilərsiniz; aşağıdakı linkdə idman ayaqqabılarının əsl xərcləri barədə statistika yer almışdır: http://www.vetementspropres.be

Qrup korporativ sosial məsuliyyətlə bağlı məsələlər və dilemmaları araşdırmaq istəyə bilər. Məsələn, bir çox tədbirlər üçün insan hüquqları pozulmalarına görə məsuliyyət daşıyan şirkətlər tərəfindən maliyyə vəsaiti ayrılır. Bu şirkətlər, həmçinin, məhsul istehsalı prosesi zamanı ətraf mühiti çirkləndirə də bilər. Qrup “Bir gün Sülh” təşkilatının yaradıcısı və film istehsalçısı olan Jeremy Gilleyin aşağıdakı bəyanatında qaldırılan bəzi məsələləri müzakirə etmək istəyə bilər: “Bir gün Sülh” təşkilatının yanaşmasına görə, biz korporativ sponsorluq olmadan mövcud ola və ya fəaliyyət göstərə bilmərik. Mənim mövqeyim çox aydındır. Mən ciddi şəkildə inanıram ki, təklif zəncirinə təsir etmək üçün biz “otaqda” olmalıyıq. Bütün təklif zəncirinin tamamilə, başdan ayağa beynəlxalq insan hüquqları/ticarət qanunu ilə 100% uyğun olduğu bir şirkət tapmaq çox çətin, bəlkə də mümkünsüzdür, lakin bu, əlbəttə ki, arzuolunan haldır”.

Əgər qrup arzuolunan iş hüququ və həmkarlar ittifaqına qoşulmaq hüququnu araşdırmaq istəyirsə, uşaq əməyi məsələsi ilə əlaqədar olan 100-cü səhifədəki “Aşığın hekayəsi” və ya 312-ci səhifədəki “Həmkarlar İttifaqı görüşü” məşğələsini edə bilər. Əgər idman paltarları mövzusuna toxunulmuşdursa və insanlar idmanla əlaqəli insan hüquqlarının digər aspektlərini nəzərdən keçirmək istəyirsə, siz 199-cu səhifədəki “Bircə dəqiqə” məşğələsinə keçid ala bilərsiniz.

## Fəaliyyət üçün fikirlər

Digər yerli maraq qrupları ilə birlikdə fəaliyyətə keçməyə başladığınız işə davam edin və Dünya Ədalətli Ticarət Gününü qeyd edin. http://www.wftday.org/ ünvanında bunu həyata keçirmək üçün çoxlu sayda məlumat əldə edə bilərsiniz.

Siz, həmçinin, qrupu narahat edən digər məsələ ilə bağlı keçirdiyiniz kampaniya zamanı əldə etdiyiniz bilik və təcrübədən istifadə edə bilərsiniz. İl ərzində digər insan hüquqları məsələləri ilə bağlı maarifləndirmənin həyata keçirilməsi üçün digər insanlarla birləşmək məqsədilə çoxlu sayda imkan mövcuddur, məsələn, Martın 8-i Beynəlxalq Qadınlar Günündə qadın; iyunun 20-də qaçqınlar və dekabrın 10-da insan hüquqları günlərində. Digərləri ilə əməkdaşlıq etdikdə siz insan hüquqları uğrunda mübarizə aparan bütün insanlarla həmrəylik nümayiş etdirir, yeni dostlar qazanır, həmçinin, əylənir və öyrənirsiniz.

## Əlavə məlumat

- Ədalətli istehsal və ədalətli ticarət uğrunda çalışan bir çox təşkilat var. Sizin ölkənizdə fəaliyyət göstərən təşkilatları tapmaq üçün axtarış proqramınızdan istifadə edin. Aşağıdakı təşkilatların bir çox Avropa ölkələrində tərəfdaşları var:
- www.cleanclothes.org kifayət qədər məlumata sahibdir və sizin iştirak edə biləcəyiniz kampaniyalar həyata keçirir.
- Dəyişiklik üçün Paltarlar Kampaniyasının belə bir məqaləsi var: “Sizin köynəyiniz uşaq əməyi ilə hazırlanır?” http://www.organicconsumers.org
- İnsanlar Ağacı beynəlxalq səviyyədə ədalətli ticarət sahəsində ilk təşkilatdır: http://www.people-treefoundation.org/
- Ətraf Mühit Ədalət Fondunun “Bizim pambığımızın arxasındakı uşaqlar” hesabatı bir milyondan çox olduğu güman edilən uşaqların – bəziləri cəmi 5 yaşında olan, olduqca isti və soyuq havada gündə 12 saat işləyən, fiziki, sözlə və bəzən cinsi istismara məruz qalan – üzləşdiyi şokedici vəziyyətləri açıqlayır: http://www.ejfoundation.org
- Ədalətli Geyim Fondunun missiyası paltar sənayesində əmək vəziyyətinin inkişaf etdirilməsidir: http://fairwear.org
- Ədalətli Ticarət Resurs Şəbəkəsi ədalətli ticarəti inkişaf etdirmək və “bizim yediyimiz qidaları və istifadə etdiyimiz məhsulları hazırlayan insanları dəyərləndirən bazar yaratmaq” üçün yaradılan məlumat şəbəkəsidir: www.ftrn.org
- Ədalətli Oyna Kampaniyası öz təklif zəncirlərində işçilərin ağır iş şəraitinin aradan qaldırılması və işçi hüquqlarının qorunması üçün Olimpiya Oyunlarına məhsullar istehsal edən idman brendlərinə təzyiq göstərməyi nəzərdə tutan, işçi hüquqlarını müdafiə edən qruplardan ibarət koalisiyadır: www.clearingthehurdles.org.

## Paylanmalı materiallar

**Pambığın əsl dəyərinin hesablanması**

Pambıq köynəklər, demək olar ki, dünyanın hər bir ölkəsində istehsal olunan bir çox müxtəlif qlobal sənayelərin məhsuludur. Aşağıdakı nümunədə bunu görə bilərsiniz:

Burkina Fasoda tipik pambıq təsərrüfatı 6 və ya 8 hektar torpaq sahəsini bir ailənin becərdiyi azad torpaq sahəsidir. Burkina Fasoda istehsal olunan xam pambığın bir kiloqramının qiyməti 0.23 avrodur. Bir çox pambıq istehsalçısı üçün pambığın satışından əldə olunan nağd pul il ərzində qazandıqları yeganə puldur.

Təsərrüfatdan pambıq çiyiddən ayrılıb sarğı materialına çevrilmək üçün zavoda göndərilir və bu proses bir kilo üçün 0.56 avroya başa gəlir. İşçilər hər 2 həftə üçün 73.40 avro məvacib alır.

Daha sonra, pambıq Toqonun Lome limanına ixrac üçün göndərilir və burada hər kilosu 0.88 avroya ticarətçilərə satılır. Onun yarısından çoxu Çinə satılır: onlar Şanxay kimi limanlar üçün karqo gəmilərinə yüklənir və orada yerli iplik fabriklərinə kilosu 0.97 avroya satılır. İşçilərin çoxu adətən Çinin sərhəddən çox uzaq rayonlarından, kasıb yerlərdən gəlir. Onlar yataqxanalarda yaşayır və kiçik əmək haqqı ilə çox uzun saatlar işləyir.

İpliyin əyrildiyi eyni böyük zavodda Qərbin ən böyük brendləri üçün hazırlanan paltarlar isə limana aparılır və ixrac üçün yüklənir. ABŞ-a idxal olunan köynəyin orta qiyməti 1.10 avrodur, lakin Manhettenin mərkəzində mağazada isə o, 14.70 avroya satışa qoyulacaqdır.

Afrikada kilosu 0.56 avroya başa gələn pambıq indi kilosu 18.40 avro dəyərindədir.

This information is from the Internet: BBC news channel programme, "Tracking the true cost of cotton", 2 May 2007.

**Bir pambıq köynəyin əsl dəyəri**

- Su istifadəsi: 2,157 litr (45%-i suvarma üçün istifadə olunur)
- Enerji istifadəsi: ipəyirən və tikiş maşını üçün 8 kilovat saat (28,800,000 Joules) elektrik enerjisi
- Torpaq və su nəqliyyatı üçün 41.6 – 110 litr yanacaq
- Nəqliyyat məsafəsi: 8,851 – 15,128+ km
- Qaz emissiyaları: NOx, CO, CO2, (istixana qazı) SO2, N2O, uçucu tərkiblər
- Toksinlər: 1-3g pestisidlər, dizel buraxması, ağır metallar (boyalar)
- İdxal xərci: €0.44 – 0.77
- Uşaq əməyi: 17 ölkədə, orta məvacib günlük 0.37 avrodur
- Müxtəlif: 53-91 q gübrə

Mənbə: Dünya Kəşfiyyat Şəbəkəsi ,
http://true-cost.re-configure.org/
http://forum.re-configure.org

# İçəri girə bilərəm?

*“Qaçqın, çıx evinə get!” – Bunu edə bilsə idi, gedərdi.*

**Mürəkkəblik** 3-cü Səviyyə
**Qrup ölçüsü** 6 - 20
**Vaxt** 60 dəqiqə
**Mövzular**
- Miqrasiya
- Ayrı-seçkilik və Dözümsüzlük
- Sülh və Zorakılıq

**Xülasə** Bu, başqa ölkəyə qaçmağa çalışan bir qrup qaçqın haqqında rol oyunu məşğələsidir. Bu məşğələ aşağıdakıları əhatə edir:
- Qaçqınların acınacaqlı vəziyyəti
- Sığınacaq verilməsi və imtina edilməsi ilə bağlı sosial və iqtisadi arqumentlər

**Əlaqədar hüquqlar**
- Digər ölkələrdə sığınacaq axtarmaq hüququ
- Bir şəxsin başqa dövlətə təhvil verilməsinin qadağan edilməsi hüququ (məhkəmə təqibi və ya ölümə məruz qalacaqları üçün öz ölkələrinə qaytarılmaması hüququ)
- Ayrı-seçkiliyə məruz qalmamaq hüququ

**Məqsədlər**
- Qaçqınlar və onların hüquqları barədə biliklərin və dərketmənin inkişafı
- Arqumentlərin təqdim olunması və mühakimə edilməsi üçün bacarıqların inkişafı
- Təcili surətdə evlərini tərk etməyə məcbur edilmiş insanlarla həmrəyliyin təşviq edilməsi.

**Materiallar**
- Rol kartları
- Flipçart (istəyə görə)
- Sərhədkeçmə məntəqəsinin yaradılması üçün təbaşir və ya mebel
- Müşahidəçilər üçün qeydlər götürülməsi məqsədilə qələm və vərəq

**Hazırlıq**
- Rol kartlarının surətini çıxardın. Hər bir miqrasiya işçisi, qaçqın və müşahidəçinin öz rol kartı olmalıdır.
- Rol oyunu üçün səhnəni qurun. Məsələn, sərhədi göstərmək üçün döşəmədə xətt çəkin və ya yoxlama məntəqəsi ilə birlikdə fiziki sərhəd yaratmaq üçün mebeli yerləşdirin. Sərhəd nəzarət məntəqəsində piştaxta olaraq stoldan istifadə edin və əgər istəsəniz, gömrük və giriş qaydalarına dair bildirişlər hazırlayın.

Miqrasiya

Ayrı-seçkilik və Dözümsüzlük

Sülh və Zorakılıq

3-cü Səviyyə

6 - 20

60 dəqiqə

## Təlimatlar

1. Bu məşğələnin öz ölkəsindən qaçıb təhlükəsizlik əldə etmək üçün digər ölkəyə daxil olmaq istəyən bir qrup qaçqın haqqında rol oyunu olduğunu izah edin.
2. İnsanların qaçqınlar barədə nə bildiyini anlamaq üçün beyin fırtınası etməklə başlayın. Daha sonra, müzakirə mərhələsində istinad etmək üçün əsas fikirləri böyük kağız vərəqlərdə və ya flipçart vərəqində yazın.
3. İnsanlara otaqdakı qurğunu göstərin və aşağıdakını səsli şəkildə oxuyun: “X və Y arasındakı sərhəddə qaranlıq, soyuq və nəmli bir gecə idi. X ölkəsindəki müharibədən qaçaraq böyük sayda qaçqın buraya gəlmişdir. Onlar Y ölkəsinə girmək istəyir. Onlar ac, yorğundurlar və soyuqdan donurlar. Y ölkəsindəki sərhəd işçiləri bu barədə fərqli fikirə sahibdir - bəziləri qaçqınları sərhəddən buraxmaq istəyir, digərləri isə yox. Qaçqınlar çarəsizdirlər və sərhəd işçilərini inandırmaq üçün müəyyən arqumentlərdən istifadə edirlər.

4. İştirakçıları bərabər qruplara ayırın: birinci qrup X ölkəsindən olan qaçqınları, ikinci qrup Y ölkəsindən olan sərhəd işçilərini təmsil edir, üçüncü qrup isə müşahidəçilərdir.
5. “Qaçqınlar” və “sərhəd işçilərinə” hər bir şəxs üçün rol üzrə hazırlaşmağı və arqumentləri müəyyənləşdirməyi deyin. Rol kartlarını paylayın və hazırlaşmaq üçün onlara 15 dəqiqə vaxt verin.
6. Rol oyununu başlayın. Nə vaxt dayandırmaqla bağlı özünüz qərar verin, lakin 10 dəqiqə kifayət qədərdir.
7. Müşahidəçilərə öz şərhlərini hazırlamaqları üçün 5 dəqiqə vaxt verin; daha sonra, təhlil və qiymətləndirmə mərhələsinə başlayın.

## Təhlil və Qiymətləndirmə

- Müşahidəçilərdən rol oyunu barədə ümumi şərh vermələrini xahiş etməklə bu mərhələyə başlayın.
- Daha sonra, oyunda iştirak edən şəxslərdən qaçqın və ya sərhəd xidməti rəsmisi olmağın necə bir hiss olduğu barədə şərhləri alın və məsələlər və iştirakçıların nə öyrəndiyi ilə bağlı ümumi müzakirəyə keçid alın.
- Qaçqınlara nə dərəcədə ədalətli şəkildə münasibət göstərilirdi?
- Qaçqınlar Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 14-cü Maddəsi və Qaçqınların Statusu ilə Bağlı 1951-ci Konvensiya ilə qorunma hüququna malikdir. Qaçqınlara qorunma hüququ verildi? Niyə verildi? Niyə verilmədi?
- Bir ölkə qaçqınları geri göndərmək hüququna malikdir? Nə vaxt? Hansı səbəblərə görə?
- Siz sərhəd xidməti rəsmisi olsanız, kimisə geri göndərərdiniz? Bəs əgər siz onların öz ölkələrində ölümlə üzləşəcəyini bilsəniz?
- Sizin ölkəniz daxilində qaçqınlar hansı problemlərlə üzləşir? Onların hansı insan hüquqları pozulur?
- Sizin ölkənizdə qaçqınların üzləşdiyi problemləri həll etmək üçün hansı addım atılmalıdır?
- Sizin ölkənizdə məcburi köçkün var? Və ya qonşu ölkədə?
- İnsanların qaçqınlara çevrilməməsi üçün ilk növbədə hansı işlər görülə bilər və görülməlidir?

## Fasilitator üçün məsləhətlər

İnsanların nəyə görə qaçqın olduğu, insanları öz evlərini tərk etməyə nəyin səbəb olduğu, onların haradan gəldikləri və hansı ölkələrə getdikləri barədə digərlərinin artıq nə dərəcədə məlumatlı olduğunu müəyyənləşdirmək üçün beyin fırtınasından istifadə edin. Bu, sizə təhlil və qiymətləndirmə mərhələsini necə həyata keçirmək və həmin mərhələdə hansı əlavə məlumatı təmin etməklə bağlı qərar verməyə kömək edəcəkdir.

Qrupda kiminsə qaçqın olduğu halda nə edəcəyiniz barədə düşünün. Onların necə gəlməsindən asılı olaraq, siz onların təcrübəsindən və resurs insan olaraq istifadə edə bilərsiniz. Digər tərəfdən isə, bu travmatik ola bilər.

Bu üç qrup eyni olmaq məcburiyyətində deyil. Siz, məsələn, yalnız üç və ya dörd müşahidəçi seçə və qrupun qalan hissəsini aktiv rol oyunçusu edə bilərsiniz.

Səhnə qaranlıq, soyuq və yağışlı gecədə baş verir. Buna görə də, rol oyununu apararkən niyə də işıqları söndürməyəsiniz və pəncərələri açmayasınız? Əgər sizin vəziyyətinizə uyğundursa, qrupun kiçik, deşik-deşik qayıqda səhnəyə gəlməsini təşkil edə bilərsiniz. Qaçqınların çaşqınlığını artırmaq üçün sərhəddəki işarə və xəbərdarlıqları xarici dildə (və ya özünüzdən uydurduğunuz) edə bilərsiniz. Sərhəd xidməti rəsmilərini işarələrdə nə yazıldığı barədə məlumatlandırmağı unutmayın!

## Variantlar

Rol oyununu ikinci dəfə həyata keçirin, lakin sərhəd xidməti rəsmiləri və qaçqınların rollarını dəyişdirməsinə icazə verin. Müşahidəçilərə, bu halda, birinci və ikinci rol oyunlarında, xüsusilə qaçqınların hüquqlarının kəskin müdafiəsi ilə nəticələnən rollarda, fərqlərin qeyd edilməsi ilə bağlı əlavə tapşırıq verilir.

X ölkəsindən gələn qaçqınlara yardım etmək məqsədilə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı tərəfindən göndərilmiş rəsmi komandanı da əlavə etməklə rol oyununu davam etdirin.

## Sonrakı fəaliyyət üçün təkliflər

Sizin ölkənizdəki qaçqınlar, xüsusilə də onların gündəlik həyatlarının reallıqları ilə bağlı araşdırın. İştirakçılar yerli qaçqın assosiasiyası ilə əlaqə saxlaya və işçilər, könüllülər və qaçqınlardan müsahibə ala bilərlər.

Danimarkada məskunlaşmış sığınacaq axtaranlar və qaçqınlar tərəfindən yazılmış (ingilis dilində) hekayələri www.newtimes.dk ünvanına daxil olaraq oxuya bilərsiniz. Bir məqaləni seçin və öz cavabınızı müzakirə edin.

Britaniya Qırmızı Xaç Təşkilatının səhifəsində onların Pozitiv Şəkillər layihəsində iştirak edən qaçqınlarla bağlı məlumat və məşğələlər yer alır: www.redcross.org.uk.

Məktəb sinifi BMT QAK-ın rolu barədə məlumat haqqında araşdırma aparmaqla və daha sonra, aşağıdakı məsələlər üzrə "rəsmi hesabat" yazmaqla mövzuya davam edə bilər:

- Sərhəd xidməti rəsmilərini qaçqınları ölkəyə buraxmağa inandıran arqumentlər
- Sərhəd xidməti rəsmiləri tərəfindən hər hansı uyğunsuz davranış
- Y ölkəsinin qaçqınların hüquqlarını qorumaq üçün nə etməli olduğu ilə bağlı tövsiyələr.

Cenevrə Konvensiyasının indiki zamanın ehtiyaclarını ödəyib-ödəmədiyini və yenilənməyə ehtiyac olub-olmadığını müzakirə edin. Məsələn, bir çox ölkələrdə sığınacaq axtaran insanlar qaçqın statusu almaq üçün fərdi olaraq təqib olunduqlarını sübut etməlidir; təqib olunan bir qrupun üzvü olmaq və ya müharibə zonasından gəlmək kifayət deyil. Eynilə, iqlim səbəbindən qaçqın düşmüş şəxslər də Konvensiyada nəzərə alınmır.

Əgər siz qaçqınlar sərhədi keçdikdən və sığınacaq üçün müraciət etdikdən sonrakı hadisələri əhatə edən bir məşğələni yerinə yetirmək istəyirsinizsə, 203-cü səhifədəki "Dil baryeri" məşğələsini edə bilərsiniz. Siz həmçinin qaçqınların üzləşdiyi çətinlikləri təsvir etmək üçün kollaj və ya posterlər hazırlaya bilərsiniz; 247-ci səhifədəki "Şəkillərlə oynamaq" məşğələsinə nəzər yetirin.

**ƏSAS TARİX**

**20 İyun**
Ümumdünya Qaçqınlar Günü

## Fəaliyyət üçün fikirlər

Ölkənizdə yaşayan qaçqınlar üçün işləyən yerli və ya dövlət təşkilatı ilə əlaqə saxlayın və onlara dəstək olmaq üçün nə edə biləcəyinizi araşdırın. Məsələn, onların çoxu yalnızdır və inteqrasiya olunmaqda çətinlik çəkir; onlar yeni dostluqlar əldə etmək və ya dilinizi öyrənməklə bağlı yardım göstərməyinizi dəyərləndirəcəkdir.

Heç bir digər ailə üzvü olmadan sığınacaq axtarmaq üçün gəlmiş uşaqlar xüsusilə həssasdır. Qrup heç kəsi olmadan buraya gəlmiş bu uşaqlara nə baş verdiyini və onlara necə dəstək ola biləcəklərini araşdıra bilər. Bu dəstəyə onlarla dostlaşmaq, dili öyrətmək və təhsillə bağlı yardım etmək, futbol oynamaq və birlikdə asudə vaxt keçirmək daxildir.

Qaçqınların ölkənizə necə gəldiyini, sığınacaq alma prosesi və onların indiki həyatı ilə bağlı daha ətraflı məlumat almaq üçün qaçqınlarla işləyən qeyri-hökumət təşkilatını və ya hətta bir qaçqını məktəbinizə və ya klubunuza dəvət edin.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının vebsaytında sizin ölkəniz və ya təşkilatınızdakı qaçqınlara təlim təşkil etmək üçün kifayət qədər məlumat, flayerlər və videolar mövcuddur: http://www.unhcr.org.

Qaçqınlar və miqrantlar barədə statistika və izahları www.coe.int/compass ünvanında 5-ci fəslin Miqrasiya bölməsində tapa bilərsiniz.

## Əlavə məlumat

Qaçqınlar öz həyatlarını xilas etmək və ya azadlıqlarını qorumaq üçün öz ölkəsindən köçməyə məcbur olmuş insanlardır. Onların öz ölkələri heç bir mühafizə təmin etmir - əslində, adətən onları təqib etməklə hədə-qorxu gələn elə öz hökumətləri olur. Digər ölkələr onlara öz ərazisinə daxil olmağa icazə vermədiyi və daxil olduqdan sonra onlara yardım etmədiyi halda, onları ölümə və ya yaşayış vasitələri və hüquqları olmadan təhlükə altında dözülməz həyat yaşamağa məhkum etmiş ola bilər.

## Paylanmalı materiallar

**Qaçqınların rol kartları**

*Qaçqınların arqumentləri və seçimləri*

Siz öz arqument və taktikalarınızı hazırlamalısınız; öz arqumentinizi qrup şəklində irəli sürmək və ya hər bir qrup üzvünün arqumentləri fərdi şəkildə irəli sürməklə bağlı məsuliyyət götürməsi sizin öz seçiminizdir.

Siz bu və ya düşünə bidiyiniz digər hər hansı arqumentdən istifadə edə bilərsiniz:

- Sığınacaq axtarmaq bizim qanuni hüququmuzdur.
- Bizim uşaqlarımız acdır; sizin bizə kömək etməklə bağlı mənəvi məsuliyyətiniz var.
- Mən geri qayıtdığım halda, məni öldürəcəklər.
- Mənim heç pulum yoxdur.
- Mənim getməyə başqa yerim yoxdur.
- Mən öz ölkəmdə həkim/tibb bacısı/mühəndis idim.
- Mən yalnız geri qayıtmaq təhlükəsiz olana qədər sığınacaq istəyirəm.
- Digər qaçqınlara sizin ölkəyə giriş icazəsi verilmişdir.
- Biz haradayıq? Qaçaqmalçılar bizi Z ölkəsinə çatdırmağa razılaşdılar.
- Mən rəsmilərə mənə ölkəyə giriş icazəsi verməleri üçün rüşvət verəcəyəm.

Rol oyunundan öncə, aşağıdakı seçimlər barədə düşünün:

- Siz qrup şəklində və ya fərdi şəkildə iştirak üçün müraciət edəcəksiniz?
- Sərhəd xidməti rəsmiləri xahiş etdiyi halda, siz bir-birinizdən ayrılarsınız?
- Onlar sizi geri göndərməyə çalışdığı təqdirdə, nə edəcəksiniz? Evə qayıtmağa razı olacaqsınız? Siz Z ölkəsinə gedib çatmaq üçün onların ölkəsindən keçməklə bağlı icazə istəyəcəksiniz?
- Sizdən kiminsə səyahət sənədləri var? Onlar həqiqi və ya saxtadır?

Siz qaçqınlardan ibarət qarışıq qrup rolunu canlandıracaqsınız, buna görə də, sizin hazırlıqlarınız zamanı hər bir şəxs öz şəxsiyyətini müəyyənləşdirməlidir: onların yaşı, cinsi, ailə münasibətləri, sənəti, maddi durumu, dini və üzərlərində olan, malik olduqları hər hansı əşyaları.

**Müşahidəçilərin rol kartı**

Sizin işiniz rol oyununu müşahidə etməkdən ibarətdir. Rol oyununun sonunda sizdən ümumi şərhlər vermək xahiş olunacaq.

Sizin nümayəndəniz olacaq üzvü seçin.

Müşahidə zamanı siz digər məsələlərlə yanaşı, aşağıdakılar barədə məlumatlı olmalısınız:

- Qaçqınlar və sərhəd xidməti rəsmiləri tərəfindən oynanılan müxtəlif rollar.
- Onların istifadə etdikləri arqumentlər və onları necə təqdim etmələri.
- İnsan hüquqlarına riayət edilməməsi hallarını araşdırın.

Siz hər şey barəsində necə qeyd götürəcəyinizlə bağlı qərar verməlisiniz. Məsələn, siz iki yarım qrupa ayrılmağı nəzərdə tuta bilərsiniz, belə ki, bir qrup sərhəd xidməti rəsmilərini, digəri isə qaçqınları müşahidə edəcək.

- **Sərhəd xidməti rəsmilərinin rol kartı**
- *Sərhəd xidməti rəsmilərinin arqumentləri və seçimləri*
- Siz öz arqumentlərinizi və taktikalarınızı hazırlamalısınız; öz arqumentinizi qrup şəklində irəli sürmək və ya hər bir qrup üzvünün arqumentləri fərdi şəkildə irəli sürməklə bağlı məsuliyyət götürməsi sizin öz seçiminizdir. Siz bu və ya düşünə bidiyiniz digər hər hansı arqumentdən istifadə edə bilərsiniz:
- Onlar çarəsizdirlər: biz onları geri qaytara bilmərik.
- Biz əgər onları geri göndərsək, onlar həbs olunduğu, işgəncəyə məruz qaldığı və ya öldürüldüyü halda mənəvi məsuliyyəti biz daşıyacağıq.
- Bizim qaçqınları qəbul etməklə bağlı hüquqi öhdəliyimiz var.
- Onların heç pulu yoxdur və dövlətin dəstəyinə ehtiyacları olacaqdır. Bizim ölkəmiz bunun öhdəsindən gələ bilməyəcək.
- Onların hər hansı səyahət sənədi və ya şəxsiyyətlərini təsdiq edən hər hansı bir sənəd var? Onlar həqiqidir ya saxta?
- Onlar həqiqətən qaçqına bənzəyirlər? Bəlkə onlardan bəziləri sadəcə daha yaxşı həyat standartı üçün buraya gəliblər?
- Bizim ölkəmiz X ölkəsinin hərbi və biznes tərəfdaşıdır. Biz onları müdafiə edirmiş kimi görsənə bilmərik.
- Bəlkə onlar bizim ehtiyacımız olan bacarıqlara malikdir?
- Bizim ölkəmizdə kifayət qədər qaçqın var. Biz öz insanlarımızın taleyi ilə məşğul olmalıyıq. Onlar daha varlı ölkələrə getməlidir.
- Biz onlardan ölkəyə daxil olmaq üçün icazə vermək məqsədilə rüşvət tələb edə bilərik.
- Əgər biz onlara ölkəyə girməyə icazə versək, digərləri də bunu bizdən tələb edəcək.
- Onlar bizim dilimizdə danışmır, müxtəlif dinə etiqad edir və fərqli yeməklər yeyir; onlar inteqrasiya olmayacaqlar.
- Onlar arasında gizlənən terroristlər və ya müharibə cinayətkarları ola bilər.
- Rol oyunundan əvvəl aşağıdakı seçimlər barəsində düşünün:
- Siz bütün qaçqınları sərhəddən buraxacaqsınız?
- Onlardan bəzilərini sərhəddən buraxacaqsınız?
- Onları yaş, ixtisas, maddi duruma görə ayıracaqsınız?
- Bunun əvəzinə başqa bir şey edəcəksiniz?

**Qeydlər**

Bu məşğələ Beynəlxalq Amnistiya Təşkilatının İlkin Addımlar – İnsan Hüquqları təhsilinə başlayanlar üçün təlimat vəsaitindən (London, 1997) götürülmüşdür.

"Qaçqın evinə get! Bunu edə bilsə idi, gedərdi" BMT QAK-ın kampaniyasında istifadə olunan şüardır.

Müharibə və Terrorizm

Sülh və Zorakılıq

Demokratiya

4 – cü Səviyyə

İstənilən

120 dəqiqə

# Çahal Birləşmiş Krallığa qarşı

*"Əgər o qayıtsa, ona işgəncə veriləcək!"*

| | |
|---|---|
| **Mövzular** | • Müharibə və Terrorizm<br>• Sülh və Zorakılıq<br>• Demokratiya |
| **Mürəkkəblik** | 4-cü Səviyyə |
| **Qrup ölçüsü** | İstənilən |
| **Vaxt** | 120 dəqiqə |
| **Xülasə** | Avropa İnsan Hüquqları Məhkəməsi qarşısına çıxarılan real məhkəmə işinin simulyasiyası (kiçik məşq) |
| **Əlaqədar hüquqlar** | • İşgəncəyə məruz qalmamaq hüququ<br>• Sığınacaq axtarmaq hüququ<br>• Ədalətli ictimai dinləmə hüququ |
| **Məqsədlər** | • Avropa İnsan Hüquqları Məhkəməsi və insan hüquqları qanununun maddələrindən istisnalar barədə biliyin artırılması<br>• Tənqidi təfəkkür və məntiqi arqumentlərin düşünülməsi bacarıqlarının inkişaf etdirilməsi<br>• Ədalət hissi və insan ləyaqəti hissinin aşılanması |
| **Materiallar** | • Rol kartlarının nüsxələri<br>• Qeyd götürülməsi üçün qələm və kağız<br>• Fasilitator üçün məlumat kartı |
| **Hazırlıq** | • 123-cü səhifədəki kartların nüsxəsini çıxarın və kəsin. Hər kəsin öz kartı olmalıdır və siz eyni sayda (və ya mümkün olan ən yaxın sayda) hakimə, Birləşmiş Krallıq hökumətinin nümayəndələrinə və cənab Çahalın nümayəndələrinə malik olmalısınız.<br>• Hər bir qrup üçün kartları 1, 2, 3, 4 və s. kimi nömrələyin.<br>• "Məhkəmələrin" (3 nəfər) hər birinin bir-birindən ayrı otura bilməsi üçün sizin kifayət qədər sahəniz olmalıdır. |

## Təlimatlar

1. Qrupa sessiyanın Avropa İnsan Hüquqları Məhkəməsi qarşısına çıxarılan bir məhkəmə işinə həsr olunacağını bildirin. İştirakçılardan Avropa İnsan Hüquqları Məhkəməsi və Avropa İnsan Hüquqları Konvensiyası barədə nə bildiklərini soruşun.
2. Məhkəmə işi ilə bağlı məlumatı oxuyun və hər kəsin əsas sualın "Cənab Çahalın sürgün edilməsi 3-cü Maddənin pozulması olacaq?" olduğunu anladığından əmin olun.
3. İştirakçıları 3 bərabər qrupa ayırın.
   - Qrup A cənab Çahalı təmsil edir
   - Qrup B Birləşmiş Krallıq Hökumətini təmsil edir
   - Qrup C Avropa İnsan Hüquqları Məhkəməsindəki hakimləri təmsil edir
4. Hər bir qrupa müvafiq rol kartını təqdim edin və iştirakçıların öz mövqeyini müzakirə etmək və aydınlaşdırmaq üçün 30 dəqiqə vaxtları olduğunu izah edin. Qrup A və Qrup B bu vaxtı öz arqumentlərini hazır etmək, hakimlərdən ibarət Qrup C isə hər iki tərəf üçün sualların hazırlanmasına sərf etməlidir.
5. 30 dəqiqədən sonra iştirakçılara yenidən qruplaşmağı tapşırın: iştirakçılar rəqəmləri sıra ilə saymaqla özlərinə nömrə seçməlidirlər, bundan sonra, nömrə 1 bir qrupda, nömrə 2 digər qrupda və digər nömrələr eyni şəkildə qruplaşmaqla hər bir qrup cənab Çahalın bir nümayəndəsi, Birləşmiş Krallıq hökumətinin bir nümayəndəsi və bir hakimi özündə birləşdirməlidir.

6. Bu yeni kiçik qruplardan hər birinin mini məhkəməni təmsil etdiyini izah edin. Məhkəmələrin hər iki tərəfin arqumentlərinə qulaq asmaq və hakimlərin suallar ünvanlaması üçün 20 dəqiqə vaxtı mövcuddur.
7. Bundan sonra, hər bir hakim cənab Çahal sürgün edildiyi təqdirdə, 3-cü Maddənin pozulub pozulmayacağı barədə fərdi mühakimə irəli sürməlidir. Yenidən bütün qrupu bir araya toplayın və hakimlərdən səbəblərini də izah etməklə öz qərarlarını təqdim etməyi xahiş edin.
8. Digər iki qrupun nümayəndələrinə verilmiş məhkəmə qərarlarına cavab vermək imkanı yaradın və əslində Avropa Məhkəməsinin bu məhkəmə işini necə yekunlaşdırdığı barədə məlumat verin (Aşağıdakı “Paylanmalı materiallar” bölməsinin altında məlumat kartına baxın).
9. İştirakçılardan qərara mövqe bildirməyi xahiş edin və daha sonra təhlil və qiymətləndirmə mərhələsinə keçid alın.

ƏSAS TARİX

**26 İyun**
İşgəncə Qurbanlarına Dəstək üçün Beynəlxalq BMT Günü

## Təhlil və qiymətləndirmə

- Bu məhkəmə işinin ən çətin aspektləri nə idi?
- Öz rolunuzu oynamaqda çətinlik çəkdiniz?
- Kiçik qrupunuzdakı “hakim”in düzgün qərar verdiyini düşünürsünüz? Yekun qərarda ən önəmli faktorlar nə idi?
- Sizin fikrinizcə, nəyə görə Avropa İnsan Hüquqları Konvensiyası hətta təcili hallarda belə işgəncə hüququna heç bir məhdudiyyətə icazə vermir?
- İşgəncəyə bəzən icazə verildiyi təqdirdə, bunun nə ilə nəticələnəcəyini düşünürsünüz?
- Bunların hamısı hazırki “terrorizmlə müharibə” ilə necə əlaqəlidir? Eyni fəaliyyətlər və ya işlərlə bağlı bir məlumatınız var?
- Avropa İnsan Hüquqları Məhkəməsinə nəyə görə ehtiyac duyuruq?
- Öz ölkənizdən məhkəmə qarşısına çıxarılan hər hansı bir məsələ ilə bağlı məlumatınız var?
- Avropa İnsan Hüquqları Məhkəməsinə kim müraciət edə bilər?

## Fasilitator üçün məsləhətlər

İnsanların digərləri ilə görüşüb öz rollarını bölüşdüyü 4-cü hissədə siz onlara əsl məhkəmə işi vaxtı ayrılmalı olacaqları barədə xəbərdarlıq etməlisiniz. İnsanları vaxtın bir hissəsini işin təfərrüatlarını müzakirə etmək, digər hissəsini isə öz açılış bəyanatlarını hazırlamaq üçün sərf etməyə sövq edin. Hakimlər məhkəmə işinin detallarını aydınlaşdırmalı və qərar vermək üçün hər iki tərəfin təmin edəcəyi əlavə məlumat növü ilə bağlı düşünməlidirlər.

Məşq zamanı hər iki tərəfə hətta təmsil etdikləri mövqe ilə şəxsən razılaşmasalar belə, hakimlərə ən yaxşı müdafiəni təqdim etməli olduqlarını izah edin.

Müxtəlif “məhkəmələri” müxtəlif otaqlarda görüşməyə (6-cı bənd) və ya ən azından bir-birilərini eşitməkdə çətinlik çəkmələri üçün bir-birilərindən uzaq məsafədə olmağa imkan yaratsanız çox yaxşı olar.

Hakimlərdən “məşqlər” zamanı vaxtı idarə etməyi xahiş edin. Onlar suallar üçün nə qədər vaxt verməli olduqlarını və vaxtı tərəflər arasında necə bölüşdürməyi planlamaq istəyə bilərlər. Hər bir tərəfə təqribən eyni vaxt verməli olduqlarını, lakin tərəflərin mübahisə etdiyi məsələlərin aydınlaşdırılması üçün əlavə vaxtın olduğundan əmin olmalarını xüsusi vurğulayın.

Əgər iştirakçılar artıq bununla bağlı məlumatlıdırlarsa, sonda Dik Martinin Quantanamo körfəzində gizli saxlanmalar və vəziyyət barədə “Avropa Şurasına üzv ölkələrin də cəlb olunduğu, tutulan məhbusların gizli saxlanılması və qeyri-qanuni köçürülməsi: ikinci hesabat” adlı hesabatı ilə bağlı məlumat bölüşə bilərsiniz (www.coe.int/compass ünvanında Müharibə və Terrorizmlə bağlı əlavə məlumatla tanış olun).

## Sonrakı fəaliyyət üçün təkliflər

295-ci səhifədəki “Terrorizm” məşğələsi mümkün terrorist hücumları nümunələrindən istifadə etməklə terrorizmin müxtəlif yollarla izahını verir. Siz, həmçinin, məhdudlaşdırıla bilməyəcək digər insan hüququ – yaşamaq hüququ – barədə 324-cü səhifədəki “Sabah gələndə” məşğələsi vasitəsilə məlumat əldə edə bilərsiniz. Burada ölüm hökmünə məhkum edilmiş gənc tərəfindən yazılmış mətndən istifadə olunur.

## Əlavə məlumat

Avropa İnsan Hüquqları Məhkəməsi Avropa Şurasına üzv ölkələrin insan hüquqlarına hörmətlə yanaşmasına nəzarət etmək məqsədilə Avropa İnsan Hüquqları Konvensiyası (1950) altında yaradılmış beynəlxalq məhkəmə orqanıdır. www.echr.coe.int

Avropa İnsan Hüquqları Məhkəməsi və onun fəaliyyəti haqqında www.abouthuman-rights.co.uk ünvanında qısa xülasə yer almaqdadır.

Məhkəmə Britaniya Hökuməti planlaşdırıldığı kimi cənab Çahalı sürgün etdiyi təqdirdə, 3-cü Maddəni pozmuş olacağını aşkar etmişdir. Onların əsaslandırması aşağıdakı kimi olmuşdur:

> “3-cü Maddə demokratik cəmiyyətin fundamental dəyərlərindən ən vaciblərindən birini qoruyur …Məhkəmə dövlətlərin öz cəmiyyətlərini terrorist zorakılığından qorumaq istiqamətində üzləşdikləri böyük çətinliklərdən xəbərdardır. Lakin, hətta bu halda belə, Konvensiya qurbanın davranışından asılı olmayaraq, hər hansı işgəncə və ya qeyri-insani və ya alçaldıcı davranış və ya cəzanı tamamilə qadağan edir. Konvensiyanın əsas maddələrinin əksəriyyəti, eləcə də 1 və 4 nömrəli Protokollardan fərqli olaraq, 3-cü Maddə hətta xalqın həyatını təhlükə altına qoyan ictimai fövqəladə vəziyyət halında belə istisnalar üçün heç bir maddə nəzərdə tutmur və 15-ci Maddə altında ondan heç bir istisnaya yol verilmir. 3-cü Maddə ilə xəstəlik müalicəsinə qarşı irəli sürülən qadağa sürgün halı zamanı eynilə mütləqdir...
>
> Buna görə də, fərd digər ölkəyə sürgün edildiyi halda 3-cü Maddəyə əks olaraq üzləşəcəyi münasibət riski barədə əhəmiyyətli səbəblər göstərildikdə, həmin şəxsin sürgün zamanı bu cür münasibətdən qorunması üçün müqavilə imzalayan dövlət məsuliyyət daşımış olur. Bu halda, sözügedən şəxsin fəaliyyəti, hətta xoşagəlməz və ya təhlükəli olduğu halda belə, müzakirə oluna bilməz.

**İstisna.** Bu, hüquqi öhdəlikdən imtina edilməsi və yaxud Avropa İnsan Hüquqları Konvensiyasında üzv dövlətin xüsusi məqalələrlə bağlı hüquqi öhdəliklərinin ləğv edilməsinə verilmiş addır. Avropa İnsan Hüquqları Konvensiyasının 15-ci Maddəsi üzv dövlətə “müharibə və ya digər ictimai fövqəladə hal zamanı” bunu etməyə icazə verir, lakin Dövlət Avropa Şurasının Baş Katibini bununla bağlı öncədən məlumatlandırmalı və istisna “vəziyyətin kəskin zərurətindən irəli gəlməlidir”. 15-ci Maddə, həmçinin, dəqiqləşdirir ki, 3, 4.1 və 7-ci maddələr üzrə heç bir istisna olmamalıdır və 2-ci maddəyə istisna yalnız “qanuni müharibə əməliyyatları nəticəsində baş verən ölüm hadisələri”nə tətbiq olunur.

Uzun illər boyu Birləşmiş Krallıq 5-ci Maddənin bəzi hissələrinə istisna tətbiq etmişdir və ABŞ-da 2001-ci il 11 sentyabr terror aktlarından sonra 2001-ci ilin noyabr ayından etibarən Birləşmiş Krallığın terror təhlükəsi ilə üzləşməsi səbəb göstərilməklə bunu bərpa etmişdir. Birləşmiş Krallıq Avropa Şurasına üzv dövlətlər içərisində yeganə dövlət idi ki, ABŞ-da 2001-ci il terror hücumları nəticəsində istisna hüququndan istifadə etmişdir. 2005-ci ildə Lordlar Palatasının istisnanın ayrı-seçkiliyə yol açdığı və buna görə də, Konvensiyaya uyğun olmadığı barədə qərarının ardından ondan imtina edildi.

610-cu səhifədə Avropa İnsan Hüquqları Bəyannaməsinin qısa məzmunu yer almışdır.

## Fəaliyyət üçün fikirlər

Sizin ölkənizlə bağlı Avropa İnsan Hüquqları Məhkəməsində hansı məsələlərin qaldırıldığı və hüquq pozuntusu ilə bağlı qərarın olub-olmadığını araşdırın. www.echr.coe.int ünvanına daxil olub “HUDOC database” axtarışa verməklə siz məlumat bazasını əldə edə bilərsiniz.

## Paylanmalı materiallar

**Təlimatların 2-ci addımında istifadə üçün məhkəmə işi kartı**
**Məhkəmə işi**

Karamjit Sinq Çahal Hindistan vətəndaşıdır, lakin hal-hazırda Böyük Britaniyada yaşayır. O, Sikxdir və Hindistanın Pəncab əyalətində müstəqil Sikx dövlətinin yaranması kampaniyasını dəstəkləyir.

Britaniya Hökuməti cənab Çahalı Hindistana sürgün etmək istəyir, çünki hökumət onun Sikxin müstəqilliyinə dəstəyi və keçmiş fəaliyyəti, xüsusilə hal-hazırkı terrorist fəaliyyəti ilə bağlı narahatlıqlarla əlaqədar Birləşmiş Krallığın dövlət təhlükəsizliyinə təhdid xarakteri daşıdığını iddia edir.

Cənab Çahal Avropa İnsan Hüquqları Məhkəməsində sürgünlə mübarizə aparır, çünki o, Hindistana qayıdacağı təqdirdə, işgəncəyə məruz qalacağını iddia edir. O, bunun 3-cü Maddənin yerinə yetirilməməsi demək olduğunu, buna görə də, Hökumətə onu sürgün etmək səlahiyyəti verilməməli olduğunu bildirir.

### Karamjit Sinq Çahal üçün rol kartı

Siz Hindistan vətəndaşısınız, lakin hal-hazırda Birləşmiş Krallıqda yaşayırsınız. Siz Sikxsiniz və Hindistanın Pəncab əyalətində müstəqil Sikx dövlətinin yaranması kampaniyasını dəstəkləyirsiniz.

Britaniya Hökuməti sizi Hindistana sürgün etmək istəyir, çünki hökumət iddia edir ki, sizin Sikxin müstəqilliyinə dəstəyiniz və keçmiş fəaliyyətiniz, xüsusilə hal-hazırkı terrorist fəaliyyətiniz ilə bağlı narahatlıqlarla əlaqədar Birləşmiş Krallığın dövlət təhlükəsizliyinə təhdid xarakteri daşıdığınızı iddia edir.

Siz Hindistana qayıtdığınız təqdirdə, sizin ailə üzvləriniz və bir çox dostlarınız kimi yenidən işgəncəyə məruz qalacağınızı düşünürsünüz – siz özünüz də sonuncu dəfə Hindistanda olduğunuz vaxt işgəncəyə məruz qalmısız. Bu cəmi 6 il öncə baş vermişdir və siz Pəncab polisi tərəfindən saxlanılmış və 21 gün müddətində həbsdə qalmışdınız. Bu vaxt ərzində siz dəhşətli şərtlər altında əlləriniz bağlı halda qalmış, huşunuzu itirənə qədər döyülmüş, bədəninizin müxtəlif hissələrinə elektrik cərəyanı ötürülmüş və rişxəndə məruz qalmışsınız. Daha sonra, siz heç bir cərimə olmadan azadlığa buraxılmışsınız.

**Siz iddia edirsiniz ki:**

1. Siz Birləşmiş Krallığın dövlət təhlükəsizliyinə hədə deyilsiniz, çünki Hindistandakı münaqişənin sülh yolu ilə həllini dəstəkləyirsiniz.
2. Siz Hindistana qayıtsanız mütləq şəkildə işgəncəyə məruz qalacaqsınız, çünki o vaxtdan bəri vəziyyət əsaslı şəkildə dəyişməmişdir və indi siz daha çox separatist kimi tanınırsınız.
3. Əgər Böyük Britaniya Hökuməti bunun baş verməsinə icazə versə, o, sizin işgəncəyə məruz qalmamaq hüququnuzu rədd etmiş olacaqdır. Bu hal Avropa İnsan Hüquqları Konvensiyasının 3-cü Maddəsinə ziddir.

**Avropa İnsan Hüquqları Konvensiyasının Maddələri:**
**3-cü Maddə: İşgəncənin qadağan olunması**
Heç kim işgəncəyə, qeyri-insani və ya alçaldıcı davranışa və ya cəzaya məruz qalmamalıdır.

**15-ci Maddə: Fövqəladə hal zamanı istisna**

1. Müharibə və ya digər ictimai fövqəladə hal zamanı hökumət yalnız mütləq şəkildə vacib olduğu halda, bu konvensiyadakı bəzi hüquqlara məhdudiyyət tətbiq edə bilər.
2. 3, 4(i) və 7-ci Maddələrdəki hüquqlara heç vaxt məhdudiyyət qoyula bilməz. Qanuni hərbi əməliyyat zamanı baş verən hallar istisna olmaqla, yaşamaq hüququna heç vaxt məhdudiyyət qoyula bilməz.

## Birləşmiş Krallıq Hökuməti üçün rol kartı

**Məhkəmə işi**

Karamjit Sinq Çahal Hindistan vətəndaşıdır, lakin hal-hazırda Böyük Britaniyada yaşayır. O, Sikxdir və Hindistanın Pəncab əyalətində müstəqil Sikx dövlətinin yaranması kampaniyasını dəstəkləyir.

Siz cənab Çahalı Hindistana geri sürgün etmək istəyən Birləşmiş Krallıq Hökumətini təmsil edirsiniz, çünki hökumət onun Sikxin müstəqilliyinə dəstəyi və keçmiş fəaliyyətinin, xüsusilə hal-hazırkı terrorist fəaliyyəti ilə bağlı narahatlıqlarla əlaqədar Birləşmiş Krallığın dövlət təhlükəsizliyinə təhdid xarakteri daşıdığını iddia edir.

Cənab Çahal Avropa İnsan Hüquqları Məhkəməsində sürgünlə mübarizə aparır, çünki o, Hindistana qayıdacağı təqdirdə, işgəncəyə məruz qalacağını iddia edir. O, bunun 3-cü Maddənin yerinə yetirilməməsi demək olduğunu, buna görə də, Hökumətə onu sürgün etmək səlahiyyəti verilməməli olduğunu bildirir.

**Siz iddia edirsiniz ki**:

Cənab Çahal işgəncəyə məruz qalmaqla bağlı ciddi risk altında deyil, çünki o Hindistanda olduğu sonuncu dəfədən sonra orada vəziyyət dəyişmişdir və cənab Çahalın orada təhlükəsizlikdə olacağı ilə bağlı sizin hökumətdən zəmanətiniz var.

O, Sikx hərəkatı daxilində fəaliyyətinə görə Birləşmiş Krallıqda dövlət təhlükəsizliyinə təhlükə daşıyır. Buna görə də, onun işgəncədən azad olmaq hüququ məhdudlaşmalı və dövlət təhlükəsizliyinə mümkün hədələr üzərindən üstünlüyə sahib olmamalıdır.

### Avropa İnsan Hüquqları Konvensiyasının Maddələri:

**3-cü Maddə: İşgəncənin qadağan olunması**

Heç kim işgəncəyə, qeyri-insani və ya alçaldıcı davranışa və ya cəzaya məruz qalmamalıdır.

**15-ci Maddə: Fövqəladə hal zamanı istisna**

Müharibə və ya digər ictimai fövqəladə hal zamanı hökumət yalnız mütləq şəkildə vacib olduğu halda, bu konvensiyadakı bəzi hüquqlara məhdudiyyət tətbiq edə bilər.
3, 4(i) və 7-ci Maddələrdəki hüquqlara heç vaxt məhdudiyyət qoyula bilməz. Qanuni hərbi əməliyyat zamanı baş verən hallar istisna olmaqla, yaşamaq hüququna heç vaxt məhdudiyyət qoyula bilməz.

### Hakimlər üçün rol kartı

**Məhkəmə işi**

Karamjit Sinq Çahal Hindistan vətəndaşıdır, lakin hal-hazırda Böyük Britaniyada yaşayır. O, Sikxdir və Hindistanın Pəncab əyalətində müstəqil Sikx dövlətinin yaranması kampaniyasını dəstəkləyir.

Birləşmiş Krallıq Hökuməti cənab Çahalı Hindistana sürgün etmək istəyir, çünki hökumət onun Sikxin müstəqilliyinə dəstəyi və keçmiş fəaliyyətinin, xüsusilə hal-hazırkı terrorist fəaliyyəti ilə bağlı narahatlıqlarla əlaqədar Birləşmiş Krallığın dövlət təhlükəsizliyinə təhdid xarakteri daşıdığını iddia edir.

Cənab Çahal Avropa İnsan Hüquqları Məhkəməsində sürgünlə mübarizə aparır, çünki o Hindistana qayıdacağı təqdirdə, işgəncəyə məruz qalacağını iddia edir. O, bunun 3-cü Maddənin yerinə yetirilməməsi demək olduğunu, buna görə də, Hökumətə onu sürgün etmək səlahiyyəti verilməməli olduğunu bildirir.

**İşgəncə ehtimalı: Müxtəlif mənbələrdən məlumat**

1995-ci il hesabatında BMT-nin işgəncələrə dair Xüsusi Məruzəçisi polis həbsi zamanı işgəncə tətbiqinə münasibət bildirib: "… yerli xarakter daşımadığı halda, həqiqətən, geniş yayılmış hesab olunan çox az sayda hadisə məhkəməyə cəlb edilir və ondan daha da azı isə cinayətkarların mühakimə olunması ilə nəticələnir".

Beynəlxalq Amnistiya Təşkilatının sonuncu hesabatında öz ölkələrindən kənardakı gizli əməliyyatlarda iştirak edən Pəncab polisi tərəfindən törədilən insan hüquqları pozuntuları nümunələrindən bəhs olunur. Beynəlxalq Amnistiya Təşkilatı məşhur Sikx separatistlərinin hələ də adətən Pəncab polislərinin əli ilə olmaqla "yoxa çıxmaq", məhkəmə olmadan həbs olunmaq, işgəncə və ya məhkəmədən kənar ölüm cəzası riski ilə üzləşdiyini iddia edir.

### Avropa İnsan Hüquqları Konvensiyasının Maddələri:

**3-cü Maddə: İşgəncənin qadağan olunması**

Heç kim işgəncəyə, qeyri-insani və ya alçaldıcı davranışa və ya cəzaya mərzu qalmamalıdır.

---

**Fasilitator tərəfindən təlimatların 8-ci bəndində istifadə olunacaq məlumat kartı**

Çahal Birləşmiş Krallığa qarşı məhkəmə işinin qısa məzmunu (22414/93) [1996] Avropa İnsan Hüquqları Konvensiyası (15 Noyabr 1996)

**Faktlar:** Müraciət edən şəxs Birləşmiş Krallığa qeyri-qanuni daxil olmuş, lakin Birləşmiş Krallıqdakı yaşaması daha sonra, qeyri-qanuni miqrantlar üçün ümumi amnistiya altında rəsmiləşdirilmişdir. O, Birləşmiş Krallıqdakı Sikx icmasında siyasi fəal idi və Beynəlxalq Sikx Gəncləri Federasiyasının təsis olunması və idarə edilməsində önəmli rolu vardır. O, o zamankı Hindistanın Baş Nazirini öldürmək üçün sui-qəsdlə bağlı həbs olunmuş, lakin günahkar hesab olunmamışdır və daha sonra, hücum və davaya görə günahkar hesab olunmuş, lakin hökm ləğv olunmuşdur. Ona qarşı sürgün hökmü onun siyasi fəaliyyəti və ona qarşı qaldırılan cinayət araşdırmaları səbəbindən verilmişdir və o, Avropa İnsan Hüquqları Konvensiyasının hökmünə qədər həbsdə qalmışdır.

**Şikayət:** Müraciət edən şəxs onun Hindistana sürgününün Avropa Konvensiyasının 3-cü Maddəsini pozaraq ona qarşı işgəncə, qeyri-insani və alçaldıcı münasibətlə nəticələnəcəyini iddia edirdi. O, həmçinin, 5-ci maddə ilə təmin edilən azadlıq hüququnun pozulduğunu da iddia etmişdir.

**Hökm:** Avropa İnsan Hüquqları Konvensiyası 3 və 5 (4) və 13-cü maddələrin pozulduğunu aşkar etdi, lakin 5 (1) –ci maddənin pozulmadığı qənaətinə gəldi.

**Əsaslandırma:** 3-cü Maddə sürgün məsələlərində mütləq xarakter daşıdığı ilə bağlı zəmanəti özündə birləşdirir, buna görə də, Birləşmiş Krallıq müraciət edən şəxsin deportasiyasını əsaslandırmaq üçün öz dövlət təhlükəsizliyi marağından istifadə edə bilməz. Müraciət edən şəxs Hindistana sürgün edildikdə, doğrudan da, pis davranış riski ilə üzləşəcəkdir. 5 (1) Maddəsinin pozulması aşkar olunmamışdır, çünki qərar çox önəmlidir və çox tələsik şəkildə verilə bilməzdi. Dövlət təhlükəsizliyi marağının müdafiəsi dövlət hakimiyyət orqanlarını dövlət məhkəmələri tərəfindən effektiv nəzarətdən azad etməməlidir, buna görə də, İngiltərə məhkəmələrindəki məhkəmə araşdırmaları 5(4)-cü Maddənin tələblərini qarşılamırdı. http:
//www.hrcr.org/safrica/citizenship/Chahal.html

Yoxsulluq

Əlillik və Əlillərə qarşı Ayrı-seçkilik

Miqrasiya

2-ci Səviyyə

İstənilən

90 dəqiqə

# Eynəklərinizi dəyişin

*Bilirəm ki, mən hər şeyi olduğu kimi görmürəm, mən hər şeyi özüm olduğum kimi görürəm.*

Lorel Li1

**Mövzular**
- Yoxsulluq
- Əlillik və Əlillərə qarşı Ayrı-seçkilik
- Miqrasiya

**Mürəkkəblik** 2-ci Səviyyə

**Qrup ölçüsü** İstənilən

**Vaxt** 90 dəqiqə

**Xülasə** Bu, iştirakçıların açıq havaya çıxaraq digərlərinin gözü ilə yerli vəziyyəti araşdırdığı çox sadə məşğələdir.

**Əlaqədar hüquqlar** Bütün hüquqlar

**Məqsədlər**
- Cəmiyyətdəki qeyri-bərabərliklər haqqında maariflǝndirmə aparılması
- Müşahidə və təxəyyül bacarıqlarının inkişaf etdirilməsi
- Ədalət naminə çalışmaq üçün həmrəylik və motivasiyanın gücləndirilməsi

**Materiallar**
- Eynəklər. İkinci əl mağazaları və ya ikinci əl bazarlarından əldə olunmuş eynəklər və ya sadəcə eynək çərçivələri.
- Böyük vərəqlər və qələmlər
- Köhnə jurnallar, açıqcalar, kollaj üçün material, hissələr, yapışdırıcı
- Şəkilləri asmaq üçün lent
- Rəqəmsal kamera və ya şəkil çəkə bilən mobil telefon; ideal olaraq, hər şəxsə bir ədəd və ya bütün qrup üçün bir və ya bir neçə ədəd
- Kompyuter və printer

## Təlimatlar

1. Qrupla birlikdə, məsələn, fiziki qüsurlu insanlar və ya evsiz insanlar kimi əlverişsiz vəziyyətdə olan və ya cəmiyyətdən kənarda qalan insanlar barədə beyin fırtınası edin.
2. Hər bir iştirakçıdan onlarda maraq doğuran belə bir insanı seçməyi xahiş edin və onlara bu insanla vaxt keçirəcəklərini və ətrafı həmin insanın gözü ilə kəşf edəcəklərini izah edin.
3. Xüsusilə əsas məsələnin rol oynamaq deyil, çölə çıxmaq və həmin insan olmağın nə demək olduğunu təsəvvür etmək olduğunu vurğulayın. O insanın yerində olmaq necədir? Məsələn, onlar bütün rahatlıqlardan istifadə edə biləcəklər? Onlar çörəyi hardan alacaqlar (əgər ala bilirlərsə)? Onlar harada yaşayacaqlar?
4. Əgər eynəkləriniz varsa, onları paylaşdırın. İştirakçılara onlar gəzməyə çıxdıqda əsaslandırma kimi ya rəqəmsal kameralar, ya da öz mobil telefonları ilə yuxarıda qeyd olunan qruplardan birinə aid insanların şəklini çəkməli olduqlarını deyin. Hər kəs üçün qayıtma vaxtı təyin edin.
5. Onlar qayıtdıqda, hər bir iştirakçıdan çəkdikləri şəkilləri kompyuterə köçürməyi, daha sonra, onlardan 2, 3 və ya 4-nü çap etməyi, böyük bir vərəqə yapışdırmağı və divardan asmağı xahiş edin. Şəkillərə ad qoyulmamalıdır.
6. Bütün şəkillər asıldıqda hər kəsdən hansı qrupların təmsil olunduğunu təxmin etməyi xahiş edin; daha sonra, növbə ilə hər bir iştirakçıdan öz şəkillərini təqdim etməyi və “görmək” üçün seçdikləri xüsusi qrupla nəyə görə xüsusi maraqlı olduqlarını izah etməyi xahiş edin.

1 “Mən bilirəm ki, mən hər şeyi olduğu kimi görmürəm, mən hər şeyi özüm olduğum kimi görürəm” deyən Lorel Liyə 29 yaşında xərçəng xəstəliyi diaqnozu qoyulmuşdur. Həkimin proqnozlarının əksinə o, daha 20 il yaşadı və 3 uşağını böyütdü, səyahət etdi və yazdı. Onun halında, gördüyü şeyləri inkar etmək ona ruh yüksəkliyi verirdi. Digər hallarda isə bu, ağılsızlıqdır.

ƏSAS TARİX

**Oktyabrda ikinci Cümə axşamı günü**
Dünya Görmə Günü

## Təhlil və qiymətləndirmə

Şəkillərdən ibarət sərgiyə baxmaqla başlayın, daha sonra, növbə ilə iştirakçılardan nə təcrübə əldə etdiklərini və nə gördüklərini soruşun.

- Nə baş verdi? Məşğələdən həzz aldınız? Niyə həzz aldınız? Niyə yox?
- Kəşf etdikləriniz arasında sizi ən çox təəccübləndirən nə oldu?
- Seçdiyiniz nümunəni nəyə görə seçmişdiniz?
- Seçdiyiniz insanla bağlı hansı qərəzli ideyalarınız və ya stereotipləriniz var idi? Bunlar sizin məşğələni necə həyata keçirməyinizə və nəyi "görməyi seçməyiniz"ə necə təsir etdi?
- Məşğələ sizin cəmiyyətdən kənarda qalmış bu insanlarla hər hansı bir üsulla empatiya qurmağınıza imkan yaratdı? Niyə yaratdı? Niyə yox?
- Özünüz haqqında nə öyrəndiniz?
- İndi isə daha geniş məsələləri müzakirə etməklə davam edin:
- "Bilirəm ki, mən hər şeyi olduğu kimi görmürəm, mən hər şeyi özüm olduğum kimi görürəm. Bizim stereotip və inamlarımız ətrafımızdakı dünyanı necə gördüyümüzə necə təsir edir?
- Əlverişsiz vəziyyətdə olan və cəmiyyətdən təcrid edilmiş insanlar haqqında məlumatı biz haradan əldə edirik?
- Bütün qrup üzrə ümumiləşdirmə aparmaqla bir kəs haqqında fiki irəli sürmək nə dərəcədə risklidir?
- Bir və ya iki nümunə əsasında bir qrup insan haqqında ümumiləşdirmə etmək nə dərəcədə risklidir?
- İştirakçıların araşdırdığı əlverişsiz şəraitdə olan və ya təcrid olunmuş insanları xüsusilə müdafiə edən insan hüquqları hansılardır?
- Bu insanların hüquqları daha çox hansı şəkildə pozulur?
- Öz hüquqlarını tələb etmək onlar üçün nə dərəcədə asandır?
- Onların hüquqlarının pozulmadığından və ya onların bu hüquqlardan istifadə edə bildiyindən əmin olmaq üçün kim məsuliyyət daşıyır?

## Fasilitator üçün məsləhətlər

Siz bu məşğələni giriş olaraq və ya əsas məşğələ olaraq həyata keçirə bilərsiniz. Təlim görüşündə bu insanlara fasilə üçün həyata keçirilə və ya iştirakçıların boş vaxtlarında əlavə tapşırıq olaraq verilə bilər.

Təlimatlarda insanların fərdi şəkildə işləməsi təklif olunur, lakin məşğələ kiçik qruplarda da həyata keçirilə bilər. Qrupun sayı və kameraların mövcudluğu kimi praktiki məsələlər ehtimal ki, məşğələni necə təşkil etməyinizi müəyyənləşdirəcəkdir. İnsanların şəkillərini təqdim etməsinin vaxt aldığını yadınızda saxlayın, buna görə də, qrupdakı insanların sayından asılı olaraq, hər bir şəxsin göstərməyi seçdiyi şəkillərin sayına məhdudiyyət qoyun.

Cəmiyyət daxilində əlverişsiz vəziyyətdə olan insanlara nümunə olaraq, kiçik uşaqlı subay ana, təqaüdçü, miqrant, əlil arabasındakı insan və ya HİV/QİÇS xəstəliyinə yoluxmuş insanı göstərmək olar. Cəmiyyətdən təcrid olunmuş insanlara isə evsiz insan, qeyri-qanuni miqrant, savadsız insan, əqli cəhətdən xəstə insan və ya qaraçı cəmiyyətinin üzvünü misal göstərmək olar. Bu, çoxluğun sahib olduğu imkanlara malik olmayan insanlar qrupunu özündə birləşdirən nümunələrdir.

Əlverişsiz şəraitdə olan və təcrid olunmuş insanların hamısı yoxsuldur və qərəzli fikir və stereotipdən əziyyət çəkir və bu və ya başqa bir yolla ayrı-seçkiliyə məruz qalır, məsələn, içində olduqları vəziyyət səbəbindən layiq olduqları mənzil və işə sahib ola bilmir.

İştirakçıların öz gözləri ilə baxması və cəmiyyətdən təcrid olunmuş şəkildə yaşayan insan olmağın nə demək olduğunu təsəvvür etmələri faktından qaça bilməyəcəklərini anlaması vacibdir. Onlar məşğələ çərçivəsində özlərinin mövcud stereotiplərini və empatiya duyğularını

üzə çıxarmaqla təhrifedici və yanlış ola biləcək düşüncələrini daha da gücləndirmək riski ilə üzləşəcəklərini bilməlidirlər.

Onlar həmçinin stereotiplərin bir qrup insanın (səmərəli) ümumiləşdirilməsi olduğunu, lakin qrup daxilində çox geniş fərqlər olacağından və ümumiləşdirməni hər bir fərdə tətbiq edə bilməyəcəklərindən onlardan ehtiyatla istifadə etməli olduqlarını bilməlidirlər.Stereotiplər barədə daha ətraflı məlumat üçün www.coe.int/compass ünvanında Ayrı-seçkilik və Dözümsüzlük bölməsindəki əlavə məlumat hissəsinə baxın.

## Variantlar

Təlimatlarda insanların fərdi şəkildə işləməsi təklif olunur, lakin məşğələ şəkil çəkmək üçün əldə olan kameraların sayına uyğun olaraq, kiçik qruplarda və ya bütün qrupla birlikdə də həyata keçirilə bilər.

İndividual posterlərin yaradılması əvəzinə, bütün şəkillər "Təcrid olunmuş şəkildə yaşamaq" başlığı altında sərgi və ya slayd şou yaratmaq üçün bir araya gətirilə bilər. Şəkil hazırlamaq əvəzinə, iştirakçılardan, öz növbələrində, həmin şəxs haqqında xəyali hekayə uydurmağı və ya pantomima göstərməyi xahiş edin. Əgər siz iştirakçılardan özlərini başqa bir şəxsin yerində hiss etməklərini (ayaqqabılarını geyinməklərini) istəyirsinizsə, o halda, iştirakçılara yeni ayaqqabılar, həmçinin, yeni eynəklər verin! Müxtəlif dillər insanlara özlərini digərləri kimi təsəvvür etmək və empatiya qurmağa çalışmağı təklif edən müxtəlif ifadə tərzinə sahibdir.

Qeyd olunduğu kimi, məşğələdə iştirakçılara əlverişsiz vəziyyətdə olan və təcrid olunmuş şəkildə yaşayan insanların necə yaşadığını təsəvvür etmək və daha sonra çölə çıxıb onların gözü ilə dünyanı görmək təklif olunur. Daha bir alternativ çölə çıxıb, müşahidə etmək və daha sonra onların şəkillərini yaratmaqdır. Normal olaraq, bizim öz gündəlik həyatımızda çox məşğul insanlar olduğumuzu və digər insanlar haqqında ümumilikdə çox müşahidə aparmadığımızı izah edin. İndi isə onlar çox diqqətlə ətrafa nəzər salmalıdırlar! İştirakçılara şəhərə çıxmağı və 5 dəqiqə ərzində izləyəcəkləri adamı seçməyi tapşırın. Onların ehtiyyatla davranmalı və öz hədəflərini narahat etməməli olduqlarını vurğulayın. Bu, onların "maraqlı" göründüyünü düşündükləri hər kəs ola bilər, lakin həyatları öz həyatlarından çox fərqli olan bir kəsin olmasına üstünlük verilir. İştirakçılara həmin insan haqqında ilk təəssüratları barədə məntiqi qeyd hazırlamalı olduqlarını və nəyə görə məhz həmin şəxsi seçdiklərinin səbəbini qeyd etməli olduqlarını bildirin. İndi isə onlar öz hədəflərini izləməli və onları ehtiyatla müşahidə etməli, onların kim olduğunu təsəvvür etməyə çalışmalı və onların həyatının təsvirini yaratmalıdırlar, məsələn:

- Onların adı nə ola bilər?
- Onların neçə yaşı var?
- Onlar nə işlə məşğuldur?
- Onlar haraya gedir?
- Onlar harada yaşayır?
- Onların sevgilisi və ya ailəsi var və ya onlar subaydır?
- Onlar işləyir? Onların işi nədir? Və ya onlar işsizdir?
- Onları nə xoşbəxt edə bilər?
- Onların hobbisi var? Bu nə ola bilər?
- Onlar nə yeməyi və içməyi sevir?

Məsələn, 30 dəqiqə sonra hər kəsin öz təcrübəsini paylaşmaq üçün qayıtmalı olduğu ilə bağlı razılaşın. Onlar öz hədəflərinin həyatları barədə sözlər və ya şəkillərlə danışa və ya təsvir edə bilər. Siz 281-ci səhifədəki "Bir addım irəli atın" məşğələsində qeyd olunmuş rollardan istifadə etmək istəyə bilərsiniz. Bu, həm məşğələ üçün yaxşı giriş kimi, həm də sonrakı fəaliyyət kimi istifadə oluna bilər.

## Sonrakı fəaliyyət üçün təkliflər

281-ci səhifədəki "Bir addım irəli atın" məşğələsində qeyri-bərabər imkanlara sahib olmanın insanların həyatına necə təsir etdiyini görə bilərsiniz.

286-ci səhifədəki "İki şəhərin nağılı" məşğələsində bizim sosial rifahın maaliyyələşdirilməsi ilə bağlı etdiyimiz seçimlərin ictimai həyata necə təsir etdiyini kəşf edə bilərsiniz.

Cəmiyyətdə təcrid olunmuş vəziyyətindən çıxmaq üçün bu insanlar layiqli əmək haqqına sahib işlə təmin olunmağa ehtiyac duyur. Bu, siz, məsələn, fiziki qüsurlu və ya miqrant olduğunuzda çətin olur. Siz, bununla bağlı, bəzi məsələləri 193-cü səhifədəki "Mən işləmək istəyirəm" məşğələsində araşdıra bilərsiniz.

## Fəaliyyət üçün fikirlər

Məşğələni ailəniz, dostlarınız və ya həmkarlarınızla birlikdə həyata keçirin və insan hüquqları ilə bağlı müzakirəyə başlayın. Siz, həmçinin, təcrid olunmuş insanlarla bağlı fikirlərinizi onların bəziləri ilə görüş keçirməklə, məsələn, Canlı Kitabxana layihəsi vasitəsilə və ya evsiz insanlar və qaçqınlarla bağlı maraqlanırsınızsa, sığınacaq mərkəzlərinə getməklə yoxlaya bilərsiniz. Alternativ olaraq, siz təcrid olunmuş insanlarla işləyən gənclər üzrə işçi və ya sosial işçi ilə əlaqə yarada və işlədikləri insanların reallıqları barədə sizə məlumat verməyi xahiş edə bilərsiniz.

## Əlavə məlumat

Bu məşğələnin kontekstində biz "əlverişsiz vəziyyətdə olan" terminindən özlərinə dəstək ola bilməyən, özlərinə kifayət olmayan və digərlərinin maddi dəstəyinə ehtiyac duyan fərdlər və ya bir qrup insanı təsvir etmək üçün istifadə edirik. Buna görə də, onlar yoxsuldur. Buna nümunə olaraq, tənha ana, miqrant və ya fiizki qüsurlu insanları göstərmək olar. İnsanlar adətən ona görə "əlverişsiz vəziyyət"dədir ki, ümumi cəmiyyət onlara onları "əlverişsiz vəziyyət"ə qoyacaq şəkildə münasibət bəsləyir. Bu insanlar ümumi cəmiyyətin imkanları ilə müqayisədə özlərinin səhiyyə, təhsil, məlumat və məşğulluq imkanlarına daha az malik olması ilə əlaqədar "əlverişsiz vəziyyət"də görür. Əlverişsiz vəziyyətdə olan insanlar, həmçinin, özünüidarə, stimul, məsuliyyət və özünəhörmət çatışmazlığı da hiss edə bilər. Özünə kifayət etməklə bağlı üzləşdikləri maneələrə resursların olmaması, məsələn, işsizlik, kapital və ya fiziki qüsurlu insanlar üçün ictimai nəqliyyat sisteminin əlçatan olmaması kimi məsələlər daxildir. Əlçatmazlıq digər maneədir: xərclər, pis dizayn, məsafə, ictimailiyin çatışmazlığı və cəmiyyətin bir qrupa olan marağı. Resurs da əlçatmaz ola bilər, çünki bu müəyyən bir qrup tərəfindən bəyənilməyə və ya onlar üçün xoşagəlməz ola bilər və ya öz dəyərlərinə zidd sayıla bilər. "Əlverişsiz vəziyyət"də olan insanlar cəmiyyətdən həm təcrid oluna, həm də olunmaya bilər.

Biz "cəmiyyətdən təcrid olunmuş şəxslər" terminindən istifadə etdikdə fiziki yerdən daha çox konseptual yeri nəzərdə tuturuq. Cəmiyyətin kənarında olan insanlar cəmiyyətdə iştirakdan təcrid olunublar. Cəmiyyətdən kənarda yaşayan insanlara həbs olunmuş insanları, evsizləri, müalicə oluna bilməyəcək əqli xəstəliyə sahib insanları və ya müəyyən qruplar, məsələn, qaraçıları misal göstərmək olar. Məsələn, evsiz bir insan poçt ünvanı təqdim edə bilmədiyindən səs vermək üçün qeydiyyatdan keçmək imkanına sahib olmaya bilər. Bu, o deməkdir ki, onlara təsir edə biləcək bəzi əsas məsələlərdə onlar səs vermək hüququndan istifadə etməyəcək; onlar necə idarə olunduqları və ya onlar üçün təmin olunmuş xidmətlər barədə söz demək haqqına sahib olmadıqları üçün cəmiyyətdən kənarda qalır. Başqa bir nümunə isə dəstək tələb formaları və ya iş ərizələrini doldura bilmədikləri üçün cəmiyyətdən təcrid olunan savadsız insanlar ola bilər.

Canlı Kitabxana layihəsi 2000-ci ildə Danimarkada başladılmış bir ideyadır və indi Avropa Şurası tərəfindən "Kitabı üzlüyünə görə mühakimə etməyin!" kitabı vasitəsilə təşviq olunur. Canlı Kitabxana normal kitabxana kimi fəaliyyət göstərir – oxucular gəlir və limitli müddət üçün "kitab" götürür. Onu oxuduqdan sonra onlar Kitabı kitabxanaya geri qaytarır və - əgər istəyirlərsə - başqa bir Kitabı götürürlər. Yalnız bir fərq var: Canlı Kitabxanadakı Kitablar insanlardır və Kitablar və oxucular şəxsi dialoqa girir. Canlı Kitabxanadakı Kitablar qərəzli fikir və stereotiplərlə tez-tez üzləşən qrupları təmsil edən və adətən ayrı-seçkilik və ya sosial təcridin qurbanları olan insanlardır.

Əlverişsiz vəziyyətdə olmağı təsvir etməklə bağlı çərçivə barəsində oxumaq və sosial fəaliyyətlə bağlı məsələlər haqqında məsləhətləşmək üçün: Fəlsəfə elmləri doktoru Steven E. Mayerin "Əlverişsiz vəziyyətdə olan Qrup" nədir? məqaləsini oxuya bilərsiniz. www.effectivecommunities.com/articles

**Qeyd**
Bu məşğələ İnsan Hüquqları üzrə Təhsil və Qeyri-formallıq təliminin iştirakçıları tərəfindən yaradılmış və sınaqdan keçirilmiş: İnsan Hüquqları Təhsili perspektivi üzrə siz qeyri-formal vaxtlar və anlarda necə davranırsınız? Association Intercultura, Dinan, Fransa, May 2009 məşğələsi əsasında inkişaf etdirilmişdir. Variantlar bölməsi Partlayış Nəzəriyyəsi / Rayder Spok təcrübəsindən yola çıxaraq hazırlanmışdır. http://www.blast-theory.co.uk

# Uşaqların hüquqları

*Bir ölçüyə gəlməyən bu dünyada uşaqlar bizi ümumi etikaya dəstəklə bağlı bir araya gətirməyə qadir olan birləşdirici qüvvədir.*

Qraça Makel-Mandela

**Mürəkkəblik** 2-ci Səviyyə

**Qrup ölçüsü** İstənilən (3-4 nəfərlik kiçik qruplar)

**Vaxt** 60 dəqiqə

**Mövzular**
- Uşaqlar
- Ümumi İnsan Hüquqları
- Təhsil

**Xülasə** Bu məşğələ brilliant sıralamasından istifadə etməklə Uşaq Hüquqları Konvensiyasını, həmçinin, aşağıdakı mövzuları müzakirə edir:
- Fundamental insan hüquqları və Uşaq Hüquqları Konvensiyası altında xüsusi uşaq hüquqları
- Konvensiya altında vəzifə və məsuliyyətlər
- Hüquqları necə tələb etmək

**Əlaqədar hüquqlar**
- Uşaqların hüquqları (bütün)
- Ona təsir edəcək bütün məsələlər üzrə azad şəkildə fikirlərini ifadə etmək
- İqtisadi istismardan qorunmaq hüququ
- İstirahət etmək və asudə vaxt keçirmək və öz mədəniyyətindən zövq almaq hüququ

**Məqsədlər**
- Uşaq Hüquqları Konvensiyası barədə biliklə təmin etmək
- Məlumatı tənqidi dəyərləndirmə və onu gündəlik təcrübə ilə əlaqələndirmə bacarığının inkişaf etdirilməsi
- Məsuliyyət, həmrəylik, ədalət və bərabərlik hislərinin oyadılması

**Materiallar**
- Bəyanat kartları – hər kiçik qrup üçün bir dəst
- Divarda cədvəl hazırlanması üçün böyük kağız vərəq və marker qələmləri
- Kiçik qrupların müstəqil işləyə bilməsi üçün kifayət edəcək yer

**Hazırlıq**
- 605-ci səhifədə Uşaq Hüquqları Konvensiyasının qısaldılmış versiyasına istinad edin. Divar cədvəli hazırlamaq üçün böyük kağız vərəqdə maddələri qeyd edin.
- Aşağıda göstərilmiş bəyanat kartlarını nəzərdən keçirin və Uşaq Hüquqları Konvensiyasına istinad edin. Sizin qrupunuzla ən maraqlı müzakirəni hansı maddələrin təşviq edəcəyinə qərar verin. Hansı məsələlərin qrup üzvlərinə ən çox uyğun olduğu və hansıların mübahisəli olacağı barədə düşünün. Uyğun olduğu təqdirdə, digərz hüquqları seçin və öz kartlarınızı hazırlayın.
- Hər kiçik qrup üçün bir kart dəsti hazırlayın. Hər bir dəsti qarışmaması üçün zərfə yerləşdirin!

## Təlimatlar

1. Uşaq Hüquqları Konvensiyasını nəzərdən keçirməklə başlayın. İnsanlardan bununla bağlı nə bildiklərini soruşun. Divar cədvəlini çəkin və əsas maddələri nəzərdən keçirin.
2. İştirakçılardan 3-4 nəfərdən ibarət kiçik qruplara ayrılmağı xahiş edin. Bəyanat kartları içərisində olan zərfləri paylayın.

3. Brilliant sıralaması prosedurunu izah edin. Hər bir kiçik qrup 9 bəyanatı müzakirə etməli və hər birinin öz həyatlarına nə dərəcədə uyğun olduğu barədə düşünməlidir. Daha sonra, onlar həmin bəyanatları özləri üçün əhəmiyyətli olma dərəcələrinə uyğun olaraq, brilliant sıralamasında yerləşdirməlidirlər. Onlar ən önəmli bəyanatı stolun üzərinə qoymalıdırlar. Onun aşağısında daha sonra ən önəmli olan 2 bəyanat yanbayan yerləşdirilməlidir. Onların aşağısında isə orta dərəcəli əhəmiyyətə malik 3 bəyanatı yerləşdirməlidirlər. 4-cü sırada 2 kart, 5-ci sırada isə bir kart, onların düşüncəsinə görə ən az əhəmiyyətə malik olan kart yerləşdirilməlidir. Bu üsulla kartlar brilliant formasında yerləşdirilmiş olacaqdır.
4. Qruplara sıralamanı müzakirə etmək və quruluşa qərar vermək üçün 25 dəqiqə vaxt verin.
5. Bütün kiçik qruplar bu mərhələni tamamladıqda, insanlara otaq boyunca gəzib digər qrupların necə sıraladıqlarını görməyə icazə verin. Daha sonra, hər kəsi təhlil üçün plenar iclasa dəvət edin.

ƏSAS TARİX

**20 Noyabr**
Beynəlxalq Uşaqlar Günü

## Təhlil və qiymətləndirmə

Hər bir qrupu növbə ilə öz müzakirələrinin nəticələrini təqdim etməyə dəvət etməklə başlayın. Daha sonra, iştirakçıların məşğələni necə keçirdikləri və nə öyrəndikləri barədə məlumat almaqla davam edin.

- Bu müxtəlif qrupların brilliantları necə müqayisə olunur? Eyniliklər və fərqlər nələrdir?
- Nə üçün müxtəlif insanların müxtəlif prioritetləri var?
- İnsanlar cəmiyyətdə bir hüququn digərindən daha önəmli olduğunu deyə bilər, lakin bir hüququn özü-özlüyündə digərinə nisbətən daha əhəmiyyətli olduğunu demək düzgün deyil. Nəyə görə?
- Digərlərinə qulaq asdıqdan sonra hər hansı bir qrup kartların sıralanması ilə bağlı verdikləri qərarları yenidən nəzərdən keçirmək istəyir? Hansı arqumentlər ən inandırıcı idi?
- Ümumilikdə, hansı hüquqlara sizin cəmiyyətdə hörmət olunmur və nəyə görə?
- Konvensiyada olmayan və sizin oraya əlavə edilməli olduğunu düşündüyünüz hüquqlar var?
- Nəyə görə uşaqların özünün Konvensiyası olmalıdır?
- Əgər uşaqların öz Konvensiyası olmalıdırsa, o halda, 18-30 yaşlı gənclərin də Konvensiyası olmalı deyil? Əgər olmalıdırsa, gənclər üçün bu Konvensiya hansı xüsusi hüquqları özündə birləşdirməlidir?
- Uşaq Hüquqları Konvensiyasında uşaqların hüquqlarının olması önəmlidir, lakin reallıqda uşaqlar bu hüquqları nə dərəcədə tələb edə bilir?
- Uşaqlar öz hüquqlarını necə tələb edə bilər?
- Əgər demokratik prosesdə iştirak insanlar üçün öz hüquqlarını tələb etməyin bir yoludursa, iştirakçılar indi öz evlərində, məktəblərində və ya klublarında “öz hüquqlarını tələb etməyə” başlamaq üçün nə edə bilər? Qrupdakı gənc insanlara xüsusilə uyğun olan hüquqlar hansılardır?
- Gəncləri ictimai yerlərdən uzaq tutmaq üçün hazırlanmış “ağcaqanad” cihazından sizin şəhərinizdə də istifadə edilir? Bu, gənclərin hansı hüquqlarını pozur?
- Sizin cəmiyyətinizdə uşaqlar öz hüquqlarının ciddi şəkildə pozulduğunu gördükdə kimə müraciət edə bilər?

## Fasilitator üçün məsləhətlər

1-ci Fəsildə 45-ci səhifədə “Vəsaitdən necə istifadə etmək” bölməsində brilliant sıralaması barədə daha çox məlumat əldə edə bilərsiniz. Qruplara kartları yerləşdirməyin yanlış və ya doğru yolu olmadığını bildirin. Onlar müxtəlif insanların müxtəlif təcrübəyə malik olduğunu başa düşməlidir, buna görə də, insanların müxtəlif prioritetləri var və buna hörmətlə yanaşılmalıdır. Buna baxmayaraq, onlar öz kiçik qrupları daxilində sıralama qaydası

ilə bağlı konsensus əldə etməyə çalışmalıdır. Hər şeydən öncə, real həyatda məsələlər prioritetləşdirilməli və qərarlar hər kəsin marağı çərçivəsində verilməlidir!

İştirakçılar üçün təlimatlarda və qiymətləndirmə hissəsində iştirakçıların prioritetləşdirmənin hüquqların insanların həyatlarına uyğunluğuna əsasən aparıldığını anladığından əmin olun. Hüquqların vacibliyinin prioritetləşdirilməsi barədə danışmaq bu halda mənasızdır. İnsan hüquqları vahiddir və buna görə də, təhsil hüququnun nitq azadlığından daha vacib olduğunu bildirmək düzgün deyil. Lakin bizim cəmiyyətimizdə azad KİV olmasına baxmayaraq, heç bir məktəb olmadığı üçün təhsil hüququnun daha vacib olduğunu demək düzgündür.

## Variantlar

Sıralama üçün 9 bəyanat vermək əvəzinə, siz 8 bəyanat paylaya və hər qrup üçün bir kart vərəqəsi verib doqquzuncu bəyanatı özlərinin müəyyənləşdirməsini xahiş edə bilərsiniz.

Bəyanat kartlarını papağın içinə qoyun və insanlara növbə ilə birini çıxarmağı və onun haqqında bir dəqiqə ərzində danışmağı xahiş edin. Bu metodla bağlı məlumat əldə etmək üçün 199-cu səhifədəki “Bircə dəqiqə” məşğələsinə baxın.

Kiçik qruplardan seçilmiş məqalələrlə bağlı kiçik hekayə yazmağı və ya kiçik rol oyunu təqdim etməyi xahiş edin. Alternativ olaraq, hekayələr/rol oyunları KİV-də yer alan hadisələrlə bağlı ola bilər: fil və ya teatrda gördükləri və ya kitab və ya jurnalda oxuduqları bir məsələ. Rol oyunları iştirakçıların hadisə ilə başlayıb, daha sonra, həll yollarını və ya xüsusilə hadisənin və ya ümumilikdə hüquq pozuntusunun yenidən baş verməsinin qarşısının alınması yollarını improvizə etməsi ilə inkişaf etdirilə bilər.

## Sonrakı fəaliyyət üçün təkliflər

Qrup qarşısında çıxış etmək üçün hakim, vəsatətçi, dövlət vəkili, uşaqlara yardım qaynar xəttinin rəhbəri, uşaq psixoloqu və ya ombudsmanın ofisindən nümayəndə kimi Uşaq Hüquqları Konvensiyası ilə tanış olan bir nəfəri dəvət edin. Çıxışdan öncə, məsələn, uşaqların sui-istifadəsi, cinsi istismar, laqeydlik və zorakılıq kimi uşaqların insan hüquqlarından sui-istifadə halları barədə beyin fırtınası həyata keçirin. Natiqdən valideynlər, polis, yardım qaynar xətləri, sosial işçilər kimi yerli cəmiyyətdə qayğı və məsuliyyət vəzifəsi daşıyan insanlar barədə soruşun. Eyni zamanda, hüquq pozuntusunun şahid olduqda, xüsusilə əgər bu qonşunun öz övladı ilə pis davranışı kimi vacib bir məsələdirsə, nə etməli olduğunuz barədə məsləhət alın. Bu cür məsələlər qayğı, narahatlıq və ehtiyyatla həll olunmalıdır.

Qrupa aid olan bir məsələni seçin və bu mövzunu müzakirə etməyi və öz hüquqlarının necə pozulduğu barədə daha aydın araşdırma aparmağı xahiş edin. Onlar daha da irəli gedə və debatapediyada debatda iştirak edə bilərlər. Təklif olunan mövzular bunlardır: uşaq əməyinin qarşısını almaq üçün sanksiyaların tətbiq olunması, uşaq öz bioloji valideynlərini tanımaq hüququna malikdir?, məktəblərdə kondomlar, məktəblərdə şagirdlərin mobil telefon istifadəsi, səsvermə yaşı aşağı salınmalıdır?, spirtli içki içmək yaşının aşağı salınması. http://debatepedia.idebate.org/en/index.php/Category:Youth ünvanında bu və digər mövzuların debatı ilə tanış ola bilərsiniz.

Avropa Şurasının gənclərlə bağlı fəaliyyəti haqqında daha çox məlumat əldə edin; axtarış motorunuzda “Uşaqlar üçün və uşaqlarla birlikdə Avropa qurmaq” axtarışa verin.

236-cı səhifədəki “Nərdivanda” məşğələsi vasitəsilə gənclərin iştirakı ilə bağlı müxtəlif məsələlərə nəzər salın.

Uşaqlar və gənclər adətən ayrı-seçkiliyə məruz qaldıqlarını düşünür. Qrup ayrı-seçkiliklə bağlı məsələləri nəzərdən keçirmək istədiyi təqdirdə, 97-ci səhifədəki “Hər kəs Fərqli - Hər kəs Bərabər” məşğələsini həyata keçirə bilər.

## Fəaliyyətlə bağlı fikirlər

Əgər siz məktəbdə işləyirsinizsə, şagirdlərlə birgə məktəbin idarəetmə siyasəti və kurrikulumunun Uşaq Hüquqları Konvensiyası ilə bağlı vəzifə və məsuliyyətləri nə dərəcədə qarşıladığını anlaya bilmək üçün onu nəzərdən keçirin. Məsələn, o, uşağı şəxsiyyəti, istedadları və bacarıqlarının inkişafına yönəlmiş təhsillə təmin edir və ya imtahanlar üçün

əzbərləmə üsuluna yönəlir? Şagirdlər onlara təsir edəcək bütün mövzularla bağlı öz fikirlərini azad şəkildə ifadə etmək hüququna malikdir? Şagirdlərin fikirlərinə önəm verilir? Başqa sözlə, məktəb şurası var və o, nə dərəcədə effektivdir? Məktəb nizam-intizamına uşağın ləyaqətinə uyğun şəkildə nəzarət olunur? Məktəb irqçi hadisələrlə və ayrı-seçkiliklə necə mübarizə aparır? İnkişaf üçün hansı imkanların olduğunu və məsələləri həll etmək üçün hansı addımların atıla biləcəyini və atılmalı olduğunu müzakirə edin.

"Hərəkətə keçmək" bölməsinə baxın və layihə planlaşdırın. Məsələlərlə bağlı tələsməyin, xüsusilə əgər müəllimlər onların gücünü əllərindən aldığınızı düşünüb sizdən inciyə bilərlərsə, işi müəllimləri məyus edəcək şəkildə qurmayın.

Əgər gənclər klubu və ya təşkilatında işləyirsinizsə, üzvləri idarəetmə siyasəti və iştirak imkanları ilə bağlı məsələlərə nəzər salmağa dəvət edin.

http://debatepedia.idebate.org ünvanında (kateqoriya: gənclər) debatlara qoşulun.

## Əlavə məlumat

Konvensiyanın tam mətni, illik əsasda dərc olunan və dünya uşaqlarının vəziyyəti barədə məlumatı əhatə edən müvafiq YUNİSEF sənədləri və uşaq hüquqları ilə bağlı digər kitab və nəşrlər üçün www.coe.int/compass ünvanında 5-ci Fəsilin Uşaqlar bölməsində istinadlar hissəsinə nəzər salın.

Avropa Şurasının Parlament Assambleyası akustik "gənclərin yayılması" (ağcaqanad) cihazlarının qadağası üçün müraciət etmişdir. 2010-cu ilin iyun ayında keçirilmiş görüşdə Assambleya 20 yaşdan aşağı hər kəs tərəfindən eşidilən, lakin 25 yaşdan yuxarı çox az insan tərəfindən eşidilən güclü səs siqnalı verən, gənclərin boş-boş gəzməyinin qarşısını almaq üçün istifadə olunan Ağcaqanad "gənclərin yayılması" cihazı kimi bütün akustik cihazlara qadağa qoymuşdur. Avropa Şurasının bütün üzv dövlətlərini bir araya gətirən Assambleyanın yekdilliklə qəbul etdiyi tövsiyədə deyilirdi ki, bu "çox incidici" cihaz gənclərə qarşı ayrı-seçkilik edir və onlara "istənilməyən quşlar və ya heyvanlar" kimi yanaşılır. Bu cihaz, həmçinin, şəxsi həyat hüququ və toplaşma azadlığı kimi insan hüquqlarını poza bilər və "akustik ağrı" yaratdığına görə alçaldıcı münasibət göstərə bilər.

**"Əgər 16 yaşlılar sizin nizamladığınız sənayelərin çirkləndirdiyi suları içmək üçün kifayət qədər böyükdürsə, əgər 16 yaşlılar hökumətin tikdiyi zibil yandırmaq üçün yerlər tərəfindən çirkləndirilmiş hava ilə nəfəs almaq üçün kifayət qədər böyükdürsə, əgər 16 yaşlılar dəhşətli narkotik və cinayət siyasətləri nəticəsində təhlükəli olan küçələrdə gəzmək üçün kifayət qədər böyükdürsə, əgər 16 yaşlılar dünyanın ən varlı ölkəsində yoxsulluq şəraitində yaşamaq üçün kifayət qədər böyükdürsə, əgər 16 yaşlılar dünyanın ən pis səhiyyə sisteminə malik ölkədə xəstələnmək üçün kifayət qədər böyükdürsə və əgər 16 yaşlılar sizin maliyyələşdirmədiyiniz rayonlarda məktəbə getmək üçün kifayət qədər böyükdürsə, o halda, siz onlara bu vəziyyətləri yaxşılaşdırmaqda rol oynamağa icazə verməlisiniz.**

*Rebeka Tilsen, 14, 1991-ci ildə Minnesota Palatasının alt komitəsinə səsvermə yaşının aşağıya salınması ilə bağlı əsaslandırma.*

## Paylanmalı materiallar

### Bəyanat kartları

Aşağıdakı maddələrin nüxsələrini çıxarın və bəyanat kartları hazırlamaq üçün kəsin.

Uşaq özü ilə bağlı hər hansı məsələlərin həlli zamanı öz baxışlarını azad ifadə etmək hüququna malikdir və uşağın bu baxışlarına diqqət yetirilməlidir. Uşaq ifadə azadlığı hüququna malikdir.

Uşağın fikir, vicdan və din azadlığına hörmət edilməlidir. Uşaq assosiasiya və dinc toplaşmaq azadlığı hüququna malikdir.

Heç bir uşaq onun şəxsi həyat, ailə həyatı, mənzilin toxunulmazlığı və ya yazışma sirri hüququnun həyata keçirilməsinə özbaşınalıqla və ya qanunsuz surətdə müdaxilə obyekti ola bilməz. Uşaq onun şərəf və nüfuzuna qanunsuz qəsd edilməkdən qorunmalıdır.

Uşağın tərbiyəsi və inkişafı üçün əsas məsuliyyəti valideynlər daşıyır.

Dövlət ibtidai təhsili pulsuz və icbari etməli və hamıya ibtidai təhsil almaq imkanı təmin etməlidir.
Məktəb intizamına uşağın ləyaqətinə hörmət bəslənməsi şərti ilə təmin olunmalıdır. Təhsil şəxsiyyətin, əqli və fiziki qabiliyyətin maksimum inkişaf etdirilməsinə, insan hüquqlarına və əsas azadlıqlara hörmətin tərbiyə olunmasına, uşağın azad cəmiyyətdə anlaşma, sülh, dözümlülük, dostluq ruhunda şüurlu həyata hazırlanmasına və ətraf mühitə hörmətin tərbiyə edilməsinə yönəldilməlidir.

Uşaq istirahət etmək və asudə vaxta malik olmaq, mədəni və yaradıcılıq həyatında hərtərəfli iştirak etmək hüququna malikdir.

Uşaq iqtisadi istismardan və onun sağlamlığı və inkişafı üçün təhlükə törədən hər hansı işin yerinə yetirilməsindən müdafiə edilmək hüququna malikdir. Uşaq cinsi istismarın və cinsi cəhətdən pis yola salınmağın bütün formalarından, uşaqlardan fahişəlikdə və ya digər qanunsuz cinsi praktikada, pornoqrafiyada və pornoqrafik materiallarda istifadə edilməsindən qorunmaq hüququna malikdir.

Dövlət silahlı münaqişələrin qurbanı olmuş uşağı qorumaq və kömək etmək üçün bütün lazımi tədbirləri görməlidir.

Cinayət qanunvericiliyini pozmuş hesab edilən hər bir uşaq onun təqsiri qanuna əsasən sübuta yetirilməyincəyə qədər təqsirsizlik prezumpsiyasına malik olmalı, müdafiəsini həyata keçirərkən hüquqi yardım göstərilməli, şahid ifadələri verməyə və ya təqsiri boynuna almağa məcbur edilməməli, uşağın şəxsi həyatına tam hörmət edilməli və uşaqla onun yaşına, vəziyyətinə və onun rifahına uyğun rəftar təmin edilməlidir. 18 yaşdan aşağı uşaqlar tərəfindən törədilmiş cinayətlərə görə nə ölüm cəzası, nə də azadlığa buraxılma ehtimalı olmadan ömürlük həbs cəzası tətbiq edilməməlidir.

# Müxtəlif maaşlar

*Eyni iş üçün eyni maaş!*

**Mövzular**
- Əmək
- Gender
- Ayrı-seçkilik və Dözümsüzlük

**Mürəkkəblik** 2-ci Səviyyə

**Qrup ölçüsü** 6+

**Vaxt** 60 dəqiqə

**Xülasə** Bu, insanları əmək bazarındakı reallıqlarla üz-üzə qoyan məşğələdir. Bu məşğələ aşağıdakı məsələləri əhatə edir:
- Eyni işə görə verilən müxtəlif maaşlar
- İş yerində ayrı-seçkilik
- Gənc işçilər üçün az maaş siyasəti

**Əlaqədar hüquqlar**
- Arzuolunan iş və həmkarlar ittifaqına qoşulmaq hüququ
- Ədalətli maaş və eyni iş üçün cins/yaş fərqi olmadan eyni maaş hüququ
- Yaş və cinslə bağlı heç bir ayrı-seçkiliyə məruz qalmamaq hüququ

**Məqsədlər**
- İştirakçıları iş yerində ayrı-seçkilik reallığı ilə üzləşdirmək
- Ədalətsizliyə cavab vermək və hüquqlarını müdafiə etmək bacarıqlarını inkişaf etdirmək
- Həmrəylik, bərabərlik və ədaləti təşviq etmək

**Materiallar**
- “İşçilərin maaş cədvəlinin” bir nüsxəsi
- Hər iştirakçı/ işçi üçün bir ədəd olmaqla yapışqan kağızlar
- Pul vəsaitləri. Siz 354-cü səhifədəki Kompas pulundan istifadə edə bilərsiniz.

**Hazırlıq**
- Yapışqan kağızları hazırlayın. Bu, yalnız işçilərin yaşı və cinsi ilə bağlı məlumatı özündə əks etdirməlidir. İstinad olaraq, işçilərin siyahısı, maaş göstəricilərindən istifadə edin.
- İştirakçıların edə biləcəyi konkret bir tapşırıq üzərində düşünün. İşi yerinə yetirmək üçün tələb olunan cihaz və materialları bir yerə toplayın.

## Təlimatlar

1. İştirakçılara onların işçi olduqlarını və öz rəhbərləri üçün (sizin üçün) iş görməli olduqlarını izah edin! İştirakçılar narahat olmamalıdır; hər kəsə maaş veriləcək. Heç kəs köləliyə razı deyil!
2. Təsadüfi qaydada yapışqan kağızları paylaşdırın, hər iştirakçıya bir ədəd verilməlidir.
3. Tapşırığı izah edin və hər kəs nə etməli olduğunu başa düşdüyündən əmin olun.
4. İnsanlara işə başlamağa icazə verin!
5. Tapşırıqlar hamısı tamamlandıqdan sonra insanlardan maaş almaq üçün növbəyə durmağı xahiş edin. İşçilərin maaş cədvəlində göstərildiyi qaydada hər kəsə öz yaşı və cinsinə uyğun olaraq maaşını verin. Siz pulu səsli şəkildə hesablamalısınız ki, hər kəs digərlərinin nə qədər maaş aldığını eşidə bilsin.
6. İştirakçılar sual verməyə və ya şikayət etməyə başlayarsa, qısa şəkildə “izahlar” verin, lakin müzakirəyə keçməkdən qaçının.
7. Nə qədər irəliyə getməklə bağlı qərarı siz özünüz verirsiniz, lakin mübahisənin qızışdığını gördükdə dayanın! Hər kəsə sakitləşmək üçün vaxt verin və roldan çıxın, daha sonra, təhlil üçün dairəvi formada əyləşin.

Əmək

Gender

Ayrı-seçkilik və Dözümsüzlük

2-ci Səviyyə

6+

60 dəqiqə

## Təhlil və qiymətləndirmə

- Müzakirəni mərhələlərlə həyata keçirin. Simulyasiyanın özünü müzakirə etməklə başlayın:
- Hər kəsin eyni tapşırığı yerinə yetirməsinə baxmayaraq, digər işçilərdən daha çox (az) maaş almaq necə hissdir?
- Nəyə görə bəzi insanlar digərlərindən daha çox (az) maaş almışdır? Kriteriyalar nə idi?
- Digərlərindən daha çox maaş almaq necə hisdir? Digərlərindən daha az maaş almaq necə hisdir?
- Sizin ölkənizdə və ya cəmiyyətinizdə bu formada ayrı-seçkilik baş verir?

Daha sonra, insanların cinsinə əsasən maaş alması haqqında danışın:

- Eyni iş qadın və kişi tərəfindən görüldükdə, fərqli ödənişin edilməsi əsaslandırıla bilər? Niyə əsaslandırıla bilər? Niyə yox? Hansı halda?
- Bəs kişi işi qadından daha yaxşı gördükdə? Bu səbəb qadına daha az maaş vermək üçün kifayət edir?
- Əgər kişi qadından daha çox ixtisaslaşmışdırsa, bu, ona daha çox maaş verilməsini əsaslandırır?
- Sizin fikrinizcə, yalnız kişilər tərəfindən görülməli olan işlər var? Niyə var? Niyə yox? Əgər varsa, bu hansı işlərdir?
- Sizin fikrinizcə, yalnız qadınlar tərəfindən görülməli olan işlər var? Niyə var? Niyə yox? Əgər varsa, bu hansı işlərdir?
- Sizin fikrinizcə, sosial yanaşmaları dəyişmək üçün pozitiv ayrı-seçkilik təcrübəsini əsaslandırmaq olar?

Ən sonda, yaşa əsasən maaş almaq barədə danışmaqla davam edin:

- Sizin ölkənizdə yaşa əsaslanaraq müxtəlif maaş verilməsi siyasəti mövcuddur? Mövcud deyilsə, sizcə, olmalıdır?
- Bu siyasətin, xüsusilə gənclər üçün tətbiq olunmasının məntiqli izahı nədir?
- Bu siyasət barədə nə düşünürsünüz? Bu yaxşıdır? Pisdir? Lazımdır? Lazım deyil? Səbəbləri göstərin.
- Məşğələ zamanı hansı insan hüquqları pozulur və ya pozulma təhlükəsi altındadır?
- İnsanlar bu hüquqları necə tələb edə bilər?

## Fasilitator üçün məsləhətlər

Əgər siz siyahıya bəzi işçiləri əlavə etmək və ya siyahıdan çıxarmaq istəsəniz, hələ də cinslər və müxtəlif yaşda insanların balansını qoruduğunuzdan əmin olun. Əgər qrup böyükdürsə və ya siz ayrı-seçkiliyin iki müxtəlif forması barədə daha dərin müzakirə aparmaq istəyirsinizsə, qrupu iki yarım qrupa bölmək yaxşı fikirdir. O halda, bir qrup cins mənasında ayrı-seçkilik, digəri isə yaş mənasında ayrı-seçkilik üzrə müzakirə apara bilər.

Bu məşğələ üçün hansı növ tapşırıqlar uyğundur? Bu, hər bir işçi üçün tamamilə eyni tapşırıq olmalıdır. Həmçinin, insanlar üçün oturub digərlərini gözləmək yorucu olmasın deyə bir neçə insan tərəfindən eyni vaxtda görülə biləcək bir iş seçin. Aşağıdakılar haqqında düşünün:

- Əgər siz çölə çıxmaq istəyirsinizsə, ilin bu fəsilində bunu edə bilərsiniz?
- Yeriniz var?
- Bu, müxtəlif yaşdan olan və həm qadın, həm də kişi tərəfindən asanlıqla və yaxşı şəkildə həyata keçirilə biləcək?
- Bu, təhlükəsizdir?
- İnsanlar etik səbəblərdən utanacaq və ya imtina edəcəklər?
- Bu, nə qədər zaman alacaqdır?
- Bunun üçün çox bacarıq lazımdır?
- Bu, bir neçə dəfə necə təkrarlana bilər?

- Tapşırıqların nümunələri:
- Lövhəni təmizləyin və verilmiş ifadəni səliqəli şəkildə yazın.
- Kitabları rəfdən götürün və qutuya yerləşdirin. Qutunu otağın digər tərəfinə aparın və kitabları çıxararaq ikinci kitab rəfinə yerləşdirin.
- Oriqami düzəldin (təyyarə və ya sadə papaq).
- İş otağını və ya bağın müəyyən hissəsini təmizləyin.
- Qonşuluqda müəyyən hissədə zibilləri toplayın.
- Toplaşdığınız məktəb/binanın pəncərələrini yuyun və ya müəllim/fasilitatorların maşınlarını yuyun!
- Üç müxtəlif formada yarpaqları toplayın və bir vərəqə onları yapışdırın.
- Bir sözün izahına baxın və bir vərəqdə onu yazın (Əgər hər biri insan hüquqlarına aid olan müxtəlif sözlər seçirsinizsə, sonda kiçik terminlər lüğətiniz olacaqdır!)
- Maaşları paylaşdırdıqda və müxtəlif maaşlara görə izah verdikdə, “səbəblər” barədə düşünməlisiniz. Onlar, həqiqətən, nəyin baş verdiyi əsasında tərtib edilə və ya gülməli ola bilər.
- Məsələn:
- Kimsə çaşsa, o daha az maaş alacaq
- Gülümsəyən və xoşbəxt görünən şəxs daha çox maaş alacaq
- Cümə günüdür!

## Variantlar

Fasilitatorun pulu paylaması əvəzinə, iştirakçılardan ikisi kassir ola bilər. Seçdiyiniz tapşırıqdan asılı olaraq, siz zavoddakı kimi işin tamamlanması üçün vaxt limiti qoya bilərsiniz. Əgər tapşırıq çox asandırsa və ya sizin altı nəfərdən az iştirakçınız varsa, tapşırığı üç və ya dörd hissədən ibarət edə bilərsiniz və hər hissə də bir günün işini əhatə edəcəkdir. Hər bir hissədən sonra işçilər banka gedir, sənəd imzalayır və günlük maaşını alır. Bəzi iştirakçıların maaşın nə dərəcədə ədalətsiz olduğunun çox tez fərqinə varacağına və şikayət edəcəyinə hazır olun. Bu halda, siz onları işdən qova bilərsiniz və digər işçilərə daha da çox işləməli olacaqlarını deyə bilərsiniz. Bu halda, işçilərin tətil elan edə biləcəyinə hazır olun. İştirakçıların əsas məsələdən uzaqlaşmadığından əmin olun və onların diqqətini ilkin öyrənmə məqsədləri üzərində saxlayın.

Siz bu məşğələni simulyasiya kimi etməyi uyğun görmürsünüzsə, məlumatı müzakirədə əsas kimi istifadə etmək üçün uyğunlaşdıra bilərsiniz. Hər bir işçi üçün onların gördüyü iş, yaşı, cinsi və maaşı ilə bağlı məlumatlardan ibarət “fakt vərəqi” hazırlayın. Siz, həmçinin, təhsil haqqında məlumat və professional təcrübəni də buraya daxil edə bilərsiniz. Alternativ olaraq, müxtəlif işçilər üçün bir neçə daha təfərrüatlı tematik araşdırmalar da hazırlaya bilərsiniz. Lakin siz yalnızca müzakirə aparmağın simulyasiyanı təcrübədən keçirdiyiniz zaman əldə edəcəyiniz güclü emosional reaksiyanı oyatmayacağını bilməlisiniz.

## Sonrakı fəaliyyət üçün təkliflər

Əgər qrup rol oyununu oynamaqdan zövq alsa və ədalətli maaş və şərtlər üçün işçilərin hüquqlarını müdafiə etməkdə həmkarlar ittifaqının rolunun nədən ibarət olduğunu araşdırmaq istəsə, 312-ci səhifədəki “Həmkarlar ittifaqının görüşü” məşğələsini həyata keçirə bilərsiniz. 335-ci səhifədəki “İş və uşaqlar” rol oyunu məşğələsi iş yerində bərabərlik və qadın hüquqları məsələləri ilə əlaqəlidir.

## Fəaliyyət üçün fikirlər

Ölkənizdə işçilərin hüquqları və qanunla bağlı məlumat əldə edin. Əgər siz cib xərci üçün işləyirsinizsə (axşamlar, həftəsonları və ya tətillər vaxtı) işçi kimi öz hüquqlarınız barədə məlumatlı olduğunuzdan əmin olun; məsələn, axşamlar və həftəsonları daha çox maaş alırsınız? Sığortanız var? Sizin istifadə etdiyiniz avadanlıq yaxşı vəziyyətdədir və sağlamlıq və təhlükəsizlik qaydalarına əməl edilir? “Qara” işləməyin, yəni həm siz, həm də işçinizin vergi orqanlarına işinizi bildirməkdən yayınmağınızın nə ilə nəticələnəcəyi barədə məlumat əldə edin.

ƏSAS TARİX

**Aprelin ikinci Çərşənbə axşamı**
Avropa Bərabər Maaş Günü

## Əlavə məlumat

Qadınlar, orta hesabla, kişilərdən daha az qazandıqları üçün onlar eyni məbləğdə maaş üçün daha çox işləməlidir. Bunu göstərmək üçün, çərşənbə axşamı günləri Avropa Bərabər Maaş Günü keçirilir, çünki çərşənbə axşamı günü qadınların kişilərin ötən həftə qazandığı pulu qazanmaq üçün həftə ərzində nə qədər işləməli olduğunu göstərir.

İşçilərin maaşları ilə bağlı bərabərsizlik müxtəlif ölkələrdə müxtəlifdir və həmçinin, məsələnin yaş və ya cins ayrı-seçkiliyi olmasından asılıq olaraq da fərqlənə bilir. Gender əsaslı ayrı-seçkilik qadınlara qarşı ayrı-seçkiliyin sübutundan başqa bir şey deyil. Tarixən, qadınlar sosial, siyasi və iqtisadi sahələrdə əlverişsiz vəziyyətdə olublar. İş yerində qadınlara qarşı ayrı-seçkiliyə nümunə olaraq, iş üçün müraciət edənlərin seçimi və müsahibə mərhələsi zamanı üzləşdikləri ayrı-seçkilik, vəzifədə yüksəlmə ilə bağlı ayrı-seçkilik və orta hesabla, onların kişilərdən daha az maaş alması faktını göstərmək olar. Eyni iş üçün qadınların kişilərdən daha az maaş alması ədalətli maaş hüququnun pozulması halıdır.

Gənclər də işçi olaraq, ədalətli şəkildə maaş almalıdır. Lakin burada vəziyyət çətindir və ölkədən-ölkəyə fərqlənir. Ümumilikdə, gənclər üçün işsizlik səviyyəsi daha yaşlı insanların işsizlik səviyyəsindən daha yüksəkdir.

Eyni iş üçün eyni əmək haqqı prinsipinin adətən qüvvədə olmasına baxmayaraq, gənclərin maaşı xüsusi məsələ olaraq qalır və bir çox dövlətlər eyni iş üçün gənclərin daha yaşlı insanlardan daha az maaş almasına şərait yaradan siyasətə malikdir. Bu siyasətlər 2 səbəblə əsaslandırılır. Bir tərəfdən, gəncləri əmək bazarına daxil olmaqdan çəkindirmək və yaxşı təhsil əldə etmək üçün məktəbi davam etdirməyə həvəsləndirmək məqsədi daşıyır. Digər bir tərəfdən isə, işəgötürənlər üçün təcrübəsiz və az bacarıqlı işçiləri işə götürmək cəzbedici görünməlidir, bu xüsusilə məktəbdən qovulan tələbələrə daha çox aiddir, onlar bu işlərə cəlb olunmadıqları təqdirdə, “küçələrdə avaralanacaq”, narahatlığa səbəb olacaq və dövlət üçün maneə yaradacadır. Bu siyasətin tətbiq olunması və gənclərin işsizlik səviyyəsinin aşağı salınmasında qazanılan müvəffəqiyyət ölkədən ölkəyə fərqlənir.

Sosial Hüquqlar üzrə Avropa Komitəsi (Avropa Sosial Xartiyasının icra orqanı) gənclər üçün aşağı maaşı, bu fərq məntiqli dərəcədə olduqda və aradakı fərq tez qapandıqda, ədalətli əmək haqqının təmin edilməsi baxımından uyğunsuz görmür. Məsələn, 15-16 yaşlı insanlar üçün daha yaşlı insanın başlanğıc maaşından 30% daha aşağı əmək haqqı məqbul hesab olunur. Lakin 16-18 yaşlı insanlar üçün bu fərq 20%-dən çox olmamalıdır.

Gənclərin maaşları həmişə aşağı olmur. Əslində, yaxşı təhsilli və çox pul qazanan gənclərin sayı kifayət qədər çoxdur – bəzi insanların gözündə həddindən artıq çox pul! Məsələn, yeni texnologiyalarla bağlı sahələrdə gənclər uğur qazanır və təqaüd yaşına yaxınlaşan daha yaşlı işçilərdən daha çox maaş alır.

### Ədalətli əmək haqqı hüququ

**İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt, Maddə 7**

Bu Paktda iştirak edən dövlətlər hər bir şəxsin ədalətli və münasib iş şəraiti hüququnu tanıyır, o cümlədən:

(a) Bütün zəhmətkeşlər üçün ən azı:
(i) Ədalətli əmək haqqı və eyni dəyərli iş üçün heç bir fərq qoyulmadan hamının bərabər maaş alması; bu zaman qadınlara kişilər üçün olduğundan pis olmayan iş səraiti təmin edilməli və eyni əmək üçün bərabər haqq ödənilməlidir

**Avropa Sosial Xartiyası**
Maddə 7 (5) Gənc işçilərin və şagirdlərin ədalətli maaş və ya digər müvafiq müavinətlər almaq hüququnu tanımaq.
Maddə 8 (3) bərabər dəyərli əməyə görə əməkçi kişilərin və qadınların bərabər ödənilmə hüquqlarını tanımaq.

## Paylanmalı materiallar

**Cins və yaşa uyğun olaraq işçilərin əmək haqqı** normaları.

| | Cins | Yaş | Ems-lə ödəniş |
|---|---|---|---|
| 1. | Kişi | 35 yaş | 100 |
| 2. | Qadın | 16 yaş | 30 |
| 3. | Kişi | 22 yaş | 70 |
| 4. | Qadın | 32 yaş | 90 |
| 5. | Kişi | 16 yaş | 50 |
| 6. | Qadın | 19 yaş | 60 |
| 7. | Kişi | 26 yaş | 100 |
| 8. | Kişi | 20 yaş | 70 |
| 9. | Qadın | 24 yaş | 80 |
| 10. | Kişi | 37 yaş | 100 |
| 11. | Qadın | 17 yaş | 30 |
| 12. | Qadın | 23 yaş | 80 |

# Alternativlərimiz var?

*Mən, həqiqətən, çox istərdim ki, bunun barəsində kiminləsə danışa bilim.*

| | |
|---|---|
| **Mürəkkəblik** | 3-cü səviyyə |
| **Qrup ölçüsü** | 9 – 24 (3 alt qrup) |
| **Vaxt** | 90 dəqiqə |
| **Mövzular** | • Sülh və Zorakılıq<br>• Uşaqlar<br>• Sağlamlıq |
| **Xülasə** | Bu, aşağıdakı mövzuları əhatə edən məşğələdir:<br>• İnsanlar arasında zorakılıq<br>• Təhqiramiz davranış |
| **Əlaqədar hüquqlar** | • Alçaldıcı münasibətdən azad olmaq<br>• Ləyaqət hüququ<br>• Fiziki və ya əqli zorakılığın bütün formalarından azad olmaq |
| **Məqsədlər** | • Təhqiramiz davranışın səbəbləri və nəticələri haqqında biliyin və anlamanın inkişaf etdirilməsi<br>• Problemlərlə üzləşmək bacarıqlarının inkişaf etdirilməsi<br>• Təhqiramiz davranış qurbanları ilə empatiyanın qurulması |
| **Materiallar** | • Rol oyunu həyata keçiriləcək səhnələrin nüsxələri (hər bir qrup üçün bir səhnə)<br>• "Real hekayələr" vərəqinin bir nüsxəsi<br>• Rol oyunlarını göstərmək üçün yer |

## Təlimatlar

1. Məşğələni təqdim edin. İştirakçıların təhqiramiz davranış mövzusunda kiçik rol oyunları həyata keçirmək üçün kiçik qruplarda işləyəcəklərini izah edin.
2. Hər kəsin təhqiramiz davranışın nə olduğu barədə ümumi fikirdə olması, onun ala bildiyi müxtəlif formalar barədə xəbərdar olması və təhqiramiz davranışın məktəbdə, kollecdə, klubda, təşkilatda və ya iş yerində baş verə biləcəyi barədə məlumatlı olmasından əmin olmaq məqsədilə "Təhqiramiz davranış nədir?" mövzusunda qısa beyin fırtınası sessiyası həyata keçirin.
3. İştirakçıları üç alt qrupa ayırın və səhnələrdən hər birini bir qrupa tapşırın. Onlara öz rollarını məşq etmək və hazırlamaq üçün 15 dəqiqə vaxt verin.
4. Onlar hazır olduqda, hər bir qrupdan növbə ilə öz səhnəsini təqdim etməyi xahiş edin.
5. Bütün qruplar öz səhnələrini nümayiş etdirməyənə qədər heç bir şərh verməyin, daha sonra, müzakirə üçün plenar iclasda bir araya gəlin.

## Təhlil və qiymətləndirmə

Rol oyunlarını nəzərdən keçirməklə başlayın.

- Öz səhnələrini inkişaf etdirmək üçün qruplar materialları haradan əldə etdi? Bu, təhqiramiz davranışla bağlı hekayələr və ya filmlərdən idi yaxud öz təcrübələrinə əsaslanırdı?
- Səhnələr realistik idi?
- 1-cü səhnədə insanların vurğuladığı hansı məqamlar konstruktiv idi və vəziyyətin
- yaxşılaşdırılmasına kömək etdi, hansı məqamlar isə vəziyyəti daha da çətinləşdirdi?
- 2-ci səhnə ilə əlaqədar, təhqiramiz davranışa malik bir dostunuzla səmimi danışmaq nə dərəcədə asan idi? Ümumilikdə, hansı üsullar müsbət təsir, hansı taktikalar isə mənfi təsir göstərməyə meyillidir?

- 3-cü səhnə ilə əlaqədar, təhqiramiz davranışa məruz qalmış dostunuzla səmimi söhbət aparmaq nə dərəcədə asan idi? Buna məruz qalmış insanın qəbul edə biləcəyi həll yollarını tapmaq üçün ən yaxşı üsullar hansılardır?
- İndi isə “real hekayələri” könüllü şəkildə oxumaq üçün 3 iştirakçıya müraciət edin. Məsələlər barədə ümumi şərh vermələrini xahiş edin, daha sonra isə təhqiramiz davranışın səbəbləri, necə həll oluna biləcəyi və hansı hüquqların bununla əlaqəli olduğu barədə müzakirə edin.
- Təhqiramiz davranışa məruz qalmaq, sizcə, necə hisdir?
- Təhqiramiz davranışa məruz qalan insan buna görə məsuliyyət daşıyır?
- Təhqiramiz davranış göstərən insanlar bunu nəyə görə edir? Məsələn, onlar digər insanlarla pis davranmaqla nəyisə sübut etməyə çalışırlar?
- Təhqiramiz davranış da zorakılığın bir növüdür?
- Təhqiramiz davranış güclə bağlıdır?
- Təhqiramiz davranış qaçınılmazdır?
- Siz təhqiramiz davranışa məruz qalan insanla dost olduğunuz təqdirdə, dostunuz sizə etibar edərək bunun barəsində danışsa belə, səlahiyyətli orqanı yenə də, bununla bağlı, məlumatlandırarsınız?
- Təhqiramiz davranışa məruz qalmış insanlar haqqında ən çox yayılmış qərəzli fikirlər nədir?
- Təhqiramiz davranış probleminə nəzarət üçün kim məsuldur?
- Siz təhqiramiz davranışa məruz qalmış insan olsaydınız, nə edərdiniz?
- Təhqiramiz davranış göstərən insanla bağlı nə etmək olar? Onlar təhqiramiz davranışı dayandırmağı necə bacara bilər? Onlar cəzalandırılmalıdırlar?
- Müxtəlif tematik hekayələrdə hansı insan hüquqları təhlükə altına alınır?

## Fasilitator üçün məsləhətlər

Təhqiramiz davranış birbaşa və ya dolayı yolla ola bilər. Birbaşa təhqiramiz davranışa adla çağırmaq, sataşmaq, kimisə itələmək və ya özünə doğru çəkmək, vurmaq və ya hücum etmək, çanta və ya başqa əşyalarını götürmək və ətrafa tullamaq, kiminsə pullarını və ya digər sahib olduğu şeyləri əlindən almaq və ya dini, rəngi, fiziki qüsuru və ya hər hansı vərdişinə görə kimisə təhdid etmək və ya hücum etmək daxildir. Dolayı yolla göstərilən təhqiramiz davranış isə bir kəsi sosial cəhətdən təcrid etmək məqsədilə onun haqqında şayiə yaymaq davranışıdır. Bu cür davranış adətən xüsusi bir qurban və ya qurbanlara qarşı bir və ya bir neçə şəxs tərəfindən göstərilir. Həm birbaşa, həm də dolayı təhqiramiz davranış zamanı əsas komponent sistematik olaraq vaxtaşırı baş verən və davamlı olan təcavüz və sui-istifadə halı yaradan fiziki və ya psixoloji hədə-qorxudur.

Siz bir köməkçi qrupla və ya klubda, kollecdə və ya iş yerində çalışırsınızsa, sizin xüsusi vəziyyətinizə uyğun səhnələri seçmək istəyə bilərsiniz. Qrupunuzdakı gənclər və şəxsi təhqiramiz davranış təcrübələri barədə məlumatlı olun. Qrupları formalaşdırın və buna uyğun olaraq, səhnələri paylaşdırın.

## Variantlar

Rol oyununun əvəzinə, üç qrup hər bir səhnəni təhlil edə və problemi necə həll edəcəklərini izah edə bilər.

Siz bir səhnə üzərində fikirlərinizi cəmləməyi seçə və hər bir qrupa üzərində işləmək üçün eyni ssenari təqdim edə bilərsiniz. Belə ki, hər bir qrup hekayə ilə bağlı öz versiyalarını müxtəlif mümkün həll yolları və alternativlərlə birgə təqdim edəcəkdir. Bunun müsbət cəhəti ondan ibarətdir ki, siz məsələlərlə bağlı geniş anlayışa malik olacaq və problemlə bağlı daha çox həll yolları təqdim edə biləcəksiniz.

Əgər sizin vaxtınız azdırsa və ya rol oyunu üçün kifayət qədər yerə malik deyilsinizsə, kiçik qruplarda müzakirə üçün tapşırıq olaraq real hekayələrdən istifadə edə bilərsiniz. İnsanlardan vəziyyətlər ilə bağlı düşünməyi və mümkün konkret həll yolları və alternativləri təklif etməyi və təhqiramiz davranışa məruz qalan insan olduqları halda, nə edəcəkləri barədə düşünməyi xahiş edin.

ƏSAS TARİX

**4 İyun**
Aqressiyaya məruz qalmış Günahsız Uşaqların Günü

## Sonrakı fəaliyyət üçün təkliflər

Yerli səviyyədə münaqişəyə vasitəçilik üzrə tədrisçilər (gənc könüllülər) yetişdirən təlimlər keçirən hər hansı bir proqramın mövcudluğu barədə araşdırma aparın. Natiqdən gəlib qrup qarşısında çıxış etməyi xahiş edin və sizin məktəbinizdə, kollec və ya klubunuzda vasitəçilər sisteminin yaradılmasının mümkünlüyü barədə düşünün.

Əgər siz yaxşı qarşılıqlı təhsil təcrübəsi nümunələri ilə maraqlanırsınızsa, Dominonun 5.1 Bölməsində "Almaniyanın Offenbax şəhərində sülhməramlı layihə, məktəblərdə qarşılıqlı təhsil nümunəsi"nə nəzər salın.

Əgər siz internet üzərindən təhqiramiz davranışla bağlı məlumat əldə etmək istəyirsinizsə, 232-ci səhifədəki "Mənim həyatım tamaşa deyil" məşğələsinə nəzər salın. Alternativ olaraq, qrup öz məktəbi və ya təşkilatı üçün təhqiramiz davranışa qarşı bir siyasət formalaşdırmaq istəyə bilər. 254-cü səhifədəki "İrqçiliyə cavab vermək" məşğələsində irqçilik əleyhinə siyasətin necə hazırlanması barədə izah olunan metod, həmçinin, təhqiramiz davranışa qarşı siyasətin formalaşdırılması üçün də uyğundur.

Dominonun 4-cü bölməsindəki "Gənclər tərəfindən danışılan hekayələr"də siz Gaborun yəhudi olduğu üçün məktəbdə necə təhqiramiz davranışa məruz qalması barədə hekayəsini oxuya bilərsiniz. Siz bu hekayədən antisemitizm barədə müzakirə başlatmaq və ya "Siz bu vəziyyətdə nə edərdiniz?" sualını vermək üçün istifadə edə bilərsiniz.

## Fəaliyyət üçün fikirlər

Ölkənizdə təhqiramiz davranış məsələsi ilə məşğul olan qrup və ya assosiasiyanı tapın və özdəstəyinizi təklif edin.

Əgər sizin xüsusilə kreativ bir qrupunuz varsa, onların özlərinin öz səhnələrinin ssenarisini hazırlamasını və digərlərinə nümayiş etdirməsini təklif edin.

Qrupun üzvləri, həmçinin, öz məktəbləri və ya icmalarında təhqiramiz davranış mövzusu ilə bağlı debatlar təşkil edə və ya apara bilərlər.

Digər dostlarla birgə öz məktəb və ya icmanızda təhqiramiz davranışa məruz qalmış gənclərə kömək etmək üçün dəstək qrupu yaradın.

## Əlavə məlumat

Təhqiramiz davranan şəxslər bəzən digər insanın necə pis hiss etmələrinə səbəb olduqlarını anlamırlar. Bəlkə də, onlar sadəcə bir insana sataşdıqlarını və ya ağılsız zarafatlar etdiklərini və bunun sadəcə "yaxşı gülüş!" olduğunu düşünürlər. Bu, o formada başlaya bilər, lakin bir neçə gün və ya həftədən sonra onların zarafat etdikləri insanı məyus etməyə başlayır. Bəzən təhqiramiz davranış göstərən insanlar insanlara sataşmağın onların səviyyəli görünmələrinə səbəb olduğunu düşünürlər. Onlar kiməsə paxıllıq edə bilər. Bəlkə də, onlar həmişə diqqət cəlb etməyə öyrəşmişdir və kimsə onlardan daha çox diqqətə səbəb olduqda bu, onların xoşuna gəlmir və onlar bu insanı incitmək istəyirlər. Adətən təhqiramiz davranan insanların sosial bacarıqları olmur və yaxşı dost ola bilmir. Təhqiramiz davrananların ailələrində problemləri ola bilər; insanlar öz evlərində zorakılıq və ya insanların bir-birilərinə qarşı çox pis rəftar etdiklərini gördükdə, gördüklərini digərlərinə tətbiq etməyə başlayırlar. Fiziki cəza da təhqiramiz davranışa səbəb ola bilər, çünki bu, uşaqlara zorakılığın münaqişənin həll olunması üçün və ya insanlara istədikləri bir şeyi etdirmək üçün qəbul edilən və uyğun strategiya olduğunu öyrədir. Avropa Şurasının fiziki xəsər yetərmənin dayandırılması üçün kampaniyası barədə burada oxuya bilərsiniz: www.coe.int "Uşaqlara qarşı fiziki cəzanın aradan qaldırılması, suallar və cavablar".

Təhqiramiz davranan insanların köməyə ehtiyacı var; onlar nəyə görə təhqiramiz davrandıqlarının səbəbini anlamalı və öz davranışlarını necə dəyişdirməyi, xüsusilə öz hislərini digər insanları incitməyəcək şəkildə dəyişməyi və istədikləri şeyi əldə etmək üçün necə israrlı olmağı öyrənməlidirlər. Onları təhqiramiz davranışdan uzaq tutacaq yeni maraq

**Mənbələr**

www.bullying.co.uk
www.bullying.org
www.bullyonline.org
www.bullybusters.org.uk
www.kidshealth.org
www.teenhelp.org
www.breaktheabusecycle.com
www.bullying.com.

dairələri kəşf edəcəkləri və öz istedadlarını göstərə biləcəkləri praktiki fəaliyyətə cəlb olunmaq özlərinə güvən hissini inkişaf etdirmələri və özləri barəsində digərlərini incitməyən yaxşı insan kimi düşünə bilmələri üçün onlara kömək edəcəkdir.

Daha ətraflı məlumat əldə etmək üçün www.bullying.co.uk, www.bullying.org, www.bully-online.org ünvanlarına daxil olun və ya axtarış motorunuzda "təhqiramiz davranış" (bullying) axtarışa verin.

## Paylanmalı materiallar

### Rol oyunları üçün səhnələr

**Səhnə 1**
Tələbə səlahiyyətli orqanda işləyən şəxslərə müraciət edir və bir sinif yoldaşının təhqiramiz davranışa məruz qalmasını izah etməyə çalışır. Baş müəllim avtoritardır və ənənəvi düşüncəyə malikdir. O, standartların dəyişdiyini düşünür və bu günlərdə gənclərin standart davranışı barədə çox az məlumata sahibdir. Sinif müəllimi vəziyyətə görə məsuliyyəti öz üzərinə götürmək istəmir. Digər müəllimlər problemi lazımınca qiymətləndirmir və təhqiramiz davranan insanın davranışını olduğu kimi qiymətləndirmir. Yerli hakimiyyət orqanının dəstək xidmətinin nümayəndəsi məsələ ilə bağlı narahatdır, lakin hal-hazırda çox iş yükünə sahib olduğu üçün məsələyə qarışa bilmir.

**Səhnə 2**
Bir qrup tələbə gənc tələbəyə qarşı təhqiramiz davranan dostları ilə danışmağa çalışır.

**Səhnə 3**
Müxtəlif tələbələr yaşca daha böyük tələbə qrupu tərəfindən təhqiramiz davranışa məruz qalmış bir dostları barədə danışmaq üçün bir araya toplaşır. Onlar öz dostlarına yardım etmək və ona kömək etmək üçün bütün mümkün həll yollarını təhlil etmək istəyir.

### Real hekayələr

**Hekayə 1**

"Mənim 12 yaşım var və mən məktəbə getməyə nifrət edirəm, çünki heç kəs məni sevmir. Bir qrup uşaqlar imkan tapdıqca məni müxtəlif adlarla çağırır. Onlar mənim eybəcər və gombul olduğumu və valideynlərimin məndən utanmalı olduqlarını deyir. Ən yaxın dostum artıq mənimlə danışmır və o, indi hətta həmin qrupdakı uşaqların bəziləri ilə dostluq edir. Mən ona nifrət edirəm. Mən özümü çox yalnız hiss edirəm və onların mənim valideynlərim barədə dediklərinin doğru olduğundan qorxuram".

Rozanna

**Hekayə 2**

"Mən bu il yeni kollecdə dərslərə başladım və ilk gündən qızların bəzilərinin mənə gülərək baxdığını hiss etdim. Daha sonra, mən oğlanlar arasında məşhur olduğumdan onların mənə paxıllıq etdiyini anladım. İndi mən öz şkafımın qapısında məni təhdid edən yazılarla qarşılaşıram. Mən həmçinin evə təhqiredici zəngləri alıram. Onlar hətta bir neçə dəfə mənim kitablarımı oğurlayıblar. Ötən həftə mən ayaqyoluna getdikdə üç qız mənim arxamca gəldi, mənə qışqırdı və bıçaqla məni təhdid edərək, başqa bir məktəbə getməli olduğumu dedilər və məni fahişə adlandırdılar. Mən artıq buna dözə bilmirəm. Mən qorxuram və qəzəbliyəm. Mən məktəbin direktoru ilə danışmağa çalışdım, lakin o, mənim problemimə qulaq asmadı. Mən nə edəcəyimi bilmirəm".

Lizbet

**Hekayə 3**

"Mənim ən yaxın dostum digər şagirdlərin onu məktəbdə narahat etdiklərini dedi. Mən ona yardım etmək istədiyim üçün gedib onlarla danışmağa qərar verdim, lakin bundan sonra onlar eyni şeyi mənə də etməyə başladılar. İndi biz hər ikimiz təhqiramiz davranışa məruz qalırıq: onlar bizimlə əylənir, ədəbsiz zarafatlar edir və bizi döyməklə təhdid edirlər. Hər ikimiz susmağa qərar verdik, çünki kiməsə deyəcəyimiz halda, vəziyyətin daha da pisləşəcəyindən qorxuruq".

Andrey

Gender

Sülh və Zorakılıq

Sağlamlıq

3-cü Səviyyə

6 – 30 (2-6 nəfərlik kiçik qruplar)

120 dəqiqə

# Ailədaxili məsələlər

*Polis həmişə gec gəlir - əgər ümumiyyətlə gəlirsə.*

Treysi Çapman

**Mövzular**
- Gender
- Sülh və Zorakılıq
- Sağlamlıq

**Mürəkkəblik** 3-cü Səviyyə

**Qrup ölçüsü** 6 – 30 (2-6 nəfərlik kiçik qruplar)

**Vaxt** 120 dəqiqə

**Xülasə** İştirakçılar ailədaxili zorakılığın müxtəlif formalarının qarşısının alınması və səbəblərinin təhlil edilməsi üçün tematik araşdırmaları müzakirə edir.

**Əlaqədar hüquqlar**
- Yaşamaq, azadlıq və şəxsi təhlükəsizlik hüququ
- İşgəncə və alçaldıcı münasibətə məruz qalmamaq hüququ
- Qanun qarşısında bərabərlik hüququ

**Məqsədlər**
- Ailədaxili zorakılığın müxtəlif formaları barədə maarifləndirmənin genişləndirilməsi
- İnsan hüquqları pozuntularının müzakirə və təhlil edilməsi bacarıqlarının inkişafı
- Ailədaxili zorakılığa qarşı çıxa bilmək üçün şəfqət və özünə güvənin təşviqi

**Materiallar**
- Böyük kağız vərəqlər və ya lövhə və beyin fırtınası və qrup işi üçün qələmlər.
- Mövzu üzrə praktiki tapşırıqlardan bir və ya bir neçəsini seçin və ya özünüz tərtib edin. Hər bir iştirakçı üçün kifayət qədər nüsxələr hazırlayın.
- "Qrup müzakirələri üçün təlimatlar" kitabçasının nüsxələri (hər kiçik qrup üçün 1 ədəd)

**Hazırlıq**
- Ölkənizdə və ya icmanızda ailədaxili zorakılıq qurbanlarına dəstəkdə aktiv iştirak edən təşkilatlarla əlaqə saxlayın.
- Məşğələ zamanı ailədaxili zorakılıqla əlaqəli məşğul olmaq istədiyiniz məsələlər barədə düşünün və hər hansı bir məsələ çox şəxsi olduqda, iştirakçılara kömək etmək üçün hazır olun.

## Təlimatlar

1. "Qonşuluğumuzda ən geniş yayılmış zorakılıq növü" mövzusunda beyin fırtınası həyata keçirməklə mövzunu təqdim edin. İştirakçıların hər bir dediyini yazın, lakin bu mərhələdə heç bir şeyi müzakirə etməyin. Flipçart və ya lövhəni hər kəsin görə bildiyi bir yerə yerləşdirin.
2. İnsanlardan hər bir qrupda 2-6 nəfər olmaqla kiçik qruplara ayrılmağı xahiş edin. Ən az 3 qrup olmalıdır.
3. Mövzu üzrə praktiki tapşırıqların və "Qrup müzakirələri üçün təlimatlar" kitabçasının nüsxələrini paylayın.
4. İştirakçılara mövzu üzrə praktiki tapşırıqlarla tanış olmaq üçün 5 dəqiqə vaxt verin. İştirakçılar ailədaxili zorakılıqla bağlı məsələlərin çox şəxsi ola biləcəyindən məlumatlı olmalıdır və heç kəs özünü açıqlamaq istədiyi məsələlərdən daha artığını danışmaqla bağlı təzyiq altında hiss etməməlidir.
5. İştirakçılara qrup işlərini hazırlamaq üçün 1 saat vaxt verin.
6. Sonda, plenar iclasa gəlin və təhlil və qiymətləndirmə mərhələsinə keçid alın.

## Təhlil və qiymətləndirmə

Qrupun məşğələni necə həyata keçirdiyi barədə qısa müzakirə ilə başlayın. Praktiki tapşırıqlardakı məsələlər sizin yaşadığınız şəhərdə baş verə bilərdi? Suallar nə dərəcədə uyğun idi? Müxtəlif qruplar müxtəlif praktiki tapşırıqlarla işləmişdirsə, qruplara müxtəlif cinayətlərlə bağlı öz təhlillərini təqdim etməyə şərait yaradın. Daha sonra, bunun sizin həyatınıza uyğunluğu barədə danışın:

- Ailədaxili zorakılıq ümumilikdə sizin ölkəniz və icmanızda nə dərəcədə geniş yayılmışdır?
- Hansı insan hüquqları təhlükə altındadır?
- Ailədaxili zorakılığın səbəbləri nədir?
- Nəyə görə kişilərin qadınlara qarşı zorakılıq tətbiqetmə halları qadınların kişilərə qarşı zorakılıq tətbiq etmə hallarından daha çoxdur?
- Ailədaxili zorakılığa necə son qoyula bilər? Aşağıdakılar tərəfindən hansı tədbirlər görülməlidir:
  – hökumətin səlahiyyətli orqanları?
  – yerli cəmiyyət?
  – ailədaxili zorakılığa məruz qalmış insanlar?
  – dostlar və qonşular?
- Zorakılığın müzakirə olunmuş müxtəlif formaları barədə düşünün. İlkin beyin fırtınası siyahısına yenidən nəzər salın. Siyahıya əlavə etmək üçün daha çox məsələ var?

İştirakçılar arasında qaldırılmış məsələlər barədə daha ətraflı işləmək istəyən şəxslərin olması barədə soruşun və məsələ ilə əlaqəli daha sonrakı mərhələlərdə nə etmək istədikləri və ya hansı tədbirləri görəcəkləri barədə müzakirə aparın.

## Fasilitator üçün məsləhətlər

Ailədaxili zorakılıq və təhqir məsələsində ayrı-seçkilik baş vermir. Bu, bütün yaş qruplarında, etnik mənsubiyyətlərdə və iqtisadi vəziyyətlərdə baş verir. Baxmayaraq ki, qadınlar daha çox bunun qurbanı olur, kişilər də xüsusilə sözlə və emosional olaraq zorakılığa məruz qalır. Həmçinin, həyat yoldaşı tərəfindən təhqir kimi tanınan ailədaxili təhqir intim münasibətdə və ya nigah daxilində bir şəxs digəri üzərində dominantlıq etmək və nəzarət etməyə çalışdıqda baş verir. Fiziki zorakılığı özündə birləşdirən ailədaxili təhqirə ailədaxili zorakılıq deyilir.

Ailədaxili zorakılıq hallarının çoxu qadınlara qarşı törədilir və evdə baş verir, buna görə də, "Ailədaxili məsələlər" adlanır. Lakin, bəzən, çox nadir hallarda, zorakılıq qadın tərəfindən törədilir; buna görə də, biz bu kitaba Hansın hekayəsini əlavə etmişik.

Bu məşğələni həyata keçirdikdə həssaslıq və anonimliyə ehtiyac olub-olmadığı barədə düşünün (bəzi iştirakçılar evdə və ya ailələrində ailədaxili zorakılıqla bağlı şəxsi təcrübəyə malik ola bilər). Heç kəsin açıqlamaq istədiyindən daha artığı haqqında danışmaqla bağlı özünü təzyiq altında hiss etməməli olduğunu aydın şəkildə ifadə edin. Siz iştirakçıların ehtiyaclarını qarşılamaq məqsədilə bəzi təfərrüatları dəyişə və ya digər praktiki tapşırıqlarla əvəz edə bilərsiniz.

Kişi iştirakçılar məşğələyə və ya bəzi müzakirələrə sərt reaksiya verə bilər. Məqsədin kişiləri və ya oğlanları digər kişilərin etdiklərinə görə günahkar hiss etdirmək olmadığını yadda saxlamaq vacibdir. Buna baxmayaraq, bəzi insanlar kişilərin qəddar patriarxal sistemin bir hissəsi olduğunu və buna görə də, bu məsələdə iştirak etdiyini iddia edirlər, bu da müəyyən maraqlı müzakirələrə səbəb olacaq bir mühakimədir.

Sessiyanın sonunda ailədaxili zorakılığın qurbanlarını bir dəqiqəlik sükut ilə yad etmək məşğələni sonlandırmaq, şəfqət və həmrəylik hissini təşviq etmək üçün çox effektiv üsuldur.

## Variantlar

Qrupun bəziləri səhnələrdən birini göstərmək üçün seçə bilər; digərləri isə sadəcə tamaşaçılardır. Fasilitator səhnəni fasilələrlə dayandırır və tamaşaçıları vəziyyəti yaxşılaşdıracaq və müsbət nəticə yaradacaq alternativ davranış üsulu təklif etmək üçün dəvət edir.

**ƏSAS TARİX**

**25 Noyabr**
Qadınlara qarşı Zorakılığın Aradan qaldıırlması üzrə Beynəlxalq Gün

## Sonrakı fəaliyyət üçün təkliflər

Qrup yerli polislə əlaqə yarada və məişət zorakılığı məsələləri ilə bağlı telefon zəngləri aldıqda onların nə etdikləri barədə məlumat əldə edə bilər. Digər bir ehtimal isə ən yaxın qadınlara yardım təşkilatı ilə əlaqə yaratmaq və yerli cəmiyyətlərindəki vəziyyətlə bağlı faktlar və göstəricilər barədə danışmaq üçün bu təşkilatdan nümayəndə dəvət etməkdir.

Bir çox ölkələrdə digər qadağalı mövzu seksuallıqdır. Əgər qrup bu məsələləri araşdırmaq istəsə, onlar 211-ci səhifədəki “Gəlin cins barəsində danışaq” məşğələsinə nəzər sala bilərlər.

## Fəaliyyət üçün fikirlər

Yerli qaçqın qadınlar mərkəzi və ya qadınlarla bağlı məlumat mərkəzi və ya qadın hüquqları uğrunda çalışan təşkilatla əlaqə saxlayın və onların ehtiyaclarının nə olduğu və onlara necə yardım edə biləcəyiniz barədə məlumat alın.

## Əlavə məlumat

Baxmayaraq ki, qadınlar da zorakılıq törədən şəxslər ola bilir və eynicinsli münasibətlərdə də zorakılıq hallarının baş verdiyi getdikcə daha çox təsdiqlənir, fakt odur ki, zorakılıq hallarının böyük əksəriyyətində kişilərin törətdiyi zorakılığın qurbanı olanlar qadın və qızlardır. Bu səbəbdən, 1993-cü ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən Qadınlara qarşı Zorakılığın Qarşısının alınması üzrə Bəyannamə qəbul olunmuşdur. Bəyannamədə zorakılıq “qadınlara fiziki, cinsi və ya psixoloji zərər və ya əziyyət verməklə nəticələnən və ya nəticələnə biləcək gender əsaslı zorakılıq aktı, həmçinin, bu aktların baş vermə təhlükəsi, zor işlətmə və ya ictimai və ya şəxsi həyatda baş verən azadlıqdan məhrum edilmə” kimi izah olunur. Bu, “döymək, qız uşaqlarının evdə cinsi istismara məruz qalması, qabiliyyətsizliklə əlaqəli şiddət, nigahdaxili zorlama, qadın cinsiyyət orqanının şikəst edilməsi və qadına zərər verən digər təcrübələri; evli olmayan cütlüklər arasında zorakılıq və istismarla əlaqəli zorakılıq; zorlama, cinsi istismar, cinsi zorakılıq və iş yerində, təhsil müəssisəsində və başqa yerlərdə baş verən hədə-qorxu halları da daxil olmaqla, ümumi cəmiyyətdə baş verən cinsi və psixoloji zorakılıq; qadın alveri və məcburi fahişəlik; və dövlət tərəfindən törədilən və ya harada baş verməsindən asılı olmayaraq bağışlanılan cinsi və fiziki zorakılıq” hallarını əhatə edir.

Qadınlara qarşı Zorakılığın Qarşısının alınması üzrə Bəyannamə haqqında daha ətraflı məlumat əldə etmək üçün www.coe.int/compass ünvanında 5-ci Fəsilin Gender bölməsinə nəzər salın.

### Həyatları boyunca qadınlara qarşı törədilən zorakılıq

| Mərhələ | Zorakılığın növü |
|---|---|
| Doğuşdan öncə | Cinsə uyğun olaraq abort; hamiləlik zamanı döyülmə hallarının doğuşun nəticəsinə təsiri |
| Körpəlik | Qız uşaqlarının öldürülməsi; fiziki, cinsi və psixoloji zorakılıq |
| Uşaqlıq | Uşaq nigahı; qadın cinsiyyət orqanının şikəst edilməsi; fiziki, cinsi və psixoloji zorakılıq; yaxın qohumlar arasında cinsi əlaqə; uşaq fahişəliyi və pornoqrafiyası |
| Yeniyetməlik və gənclik | Görüş və pərəstişkarlıq dövründə zorakılıq (məsələn, kislota atılması və görüş vaxtı zorlama); iqtisadi cəhətdən zorla cinsi əlaqə (məsələn, məktəb şagirdi olan qızlar “pullu yaşlı kişilər” ilə məktəb xərclərinin qarşılanması qarşılığında cinsi əlaqəyə girir) ; yaxın qohumlarla cinsi əlaqə; iş yerində cinsi zorakılıq; cinsi zorakılıq; zorlama; məcburi fahişəlik və pornoqrafiya; qadın alveri; partnyor tərəfindən zorakılıq; nigahdaxili zorlama; cehizlə bağlı təhqir halı və qətllər; partnyorun öldürülməsi; psixoloji təhqir; fiziki qüsurlu qadınların təhqir olunması; məcburi hamiləlik |
| Yaşlılıq | İqtisadi səbəblərə görə dul qadınların “intihar”ı və ya öldürülməsi; cinsi, fiziki və psixoloji zorakılıq |

Mənbə: Qadınlara qarşı Zorakılıq Məlumat Paketi – Dünya Səhiyyə Təşkilatı, 1997

### Məişət zorakılığı

Qadın hüquqlarının pozulması yalnız müharibə dövründə baş verən bir hal deyil. Bu, hər şeydən əvvəl ilk öncə evdə baş verən bir haldır. Bu zorakılığın "şəxsi" xarakter daşıması məhz həmişə və indi də ona qarşı tədbir görməyi çətinləşdirən faktordur.

Araşdırmalar sübut edir ki, qadınlar digər kənar bir şəxsdən daha çox öz partnyorları tərəfindən zərər çəkir, zorlanır və ya öldürülür2. Məişət zorakılığı yalnız qadınlara deyil, həmçinin, uşaqlara da təsir edir və  bu hallar daha çox qızlar və gənc qadınlar arasında baş verir.

### Səssiz Şahidlərin sərgisi

Bu məşğələ Eszter və Kati haqqında hekayələr də daxil olmaqla, NANE Qadın Hüquqları Assosiasiyası (Budapeşt, Macarıstan) tərəfindən Budapeşt Avropa Gənclər Mərkəzinə çıxarılan məişət zorakılığı və qadın qatili ilə bağlı sərgidən ilhamlanaraq hazırlanmışdır. Bu sərginin məqsədi  öldürülmüş qadınların, "səssiz şahidlərin" hekayələrini danışmaqla məişət zorakılığı və qatilin törətdiklərinin nəticələri və qəddarlığı barədə maarifləndirmə həyata keçirmək idi.

Səssiz Şahidlər sərgisini təşkil etmək cəmiyyətinizdə, yaşadığınız şəhərdə və ya regionda məişət zorakılığı problemini həll etmək üçün çox praktiki və effektiv yol ola bilər. ABŞ-da həyata keçirilən kampaniyanın ilk illəri barədə məlumatı özündə əks etdirən və nümunə olaraq istifadə oluna biləcək çox sayda hekayəni özündə birləşdirən "Nəticələr" kitabı kimi şahidlərin necə yaradılması və sərginin necə təşkil olunması barədə kitablar mövcuddur. Vebsayt ünvanı: www.silentwitness.net. Burada həmçinin belə sərgiləri həyata keçirmiş bir çox beynəlxalq qurumların əlaqə vasitələri yer alır.

### Xüsusilə gender əsaslı zorakılıqla bağlı Avropanın ilk qanunu

Vahid qorunma ilə bağlı Orqanik Akt gender zorakılığına qarşı tətbiq olunur. 2004-cü il 22 dekabr tarixində İspaniyada xüsusi məhkəmələrin və ayrıca rehabilitasiya mərkəzlərinin yaradılmasını, zərər çəkmiş şəxslər üçün inkişaf etdirilmiş yardımın təmin olunmasını və təhlükə altında olan qadınların mühafizəsi məqsədilə bir çox proseduru nəzərdə tutan qanun qəbul olunmuşdur.

### BMT-nin Qadınlara qarşı Zorakılıqla bağlı Xüsusi Məruzəçisi

2009-cu ilin iyun ayında Birləşmiş Millətlər Təşkilatı BMT-nin Qadınlara qarşı Zorakılıqla bağlı Xüsusi Məruzəçisi ofisini təsis etmişdir. 2010-cu ildə bu vəzifəyə ilk təyin olunan Raşida Manco İnsan Hüquqları Şurasına qadınlara qarşı zorakılıq, onun səbəbləri və nəticələri barədə təqdim olunan ilk tematik hesabatı hazırlamışdır. www.ohchr.org. ünvanında hesabatla tanış ola bilərsiniz.

### İnternetdə əlavə resurslar

- www.wave-network.org Zorakılığa qarşı Avropa Məlumat Mərkəzi Avropada qadınlara yardım təşkilatları barədə verilənlər bazasını özündə birləşdirir.
- www.ewlcentreonviolence.org Qadınlara qarşı Zorakılıqla bağlı Avropada Qadınların Lobbiçilik Mərkəzinin vebsaytıdır. Burada qadınlara qarşı zorakılıqla bağlı, həmçinin, ölkələrin hesabatları mövcuddur.
- www.whiteribbon.ca Ağ Lent Kampaniyası "kişilərin qadınlara qarşı zorakılığına son qoymaq üçün kişilərin göstərdiyi ən böyük səy" dir.
- www.europrofem.org EuroPRO-Fem, Avropanın Feministyönümlü Kişilər Şəbəkəsi, kişilərin kişi dominantlığı, zorakılığı və qadınlara zülm verilməsi məsələləri ilə məşğul olan təşkilatları və layihələrindən ibarət şəbəkədir.
- www.hotpeachpages.net Məişət Zorakılığı üzrə Təşkilatların Beynəlxalq Direktorluğu dünyadakı hər bir ölkə üzrə məlumata sahibdir.
- www.unifem.org BMT-nin qadınlar üçün inkişaf fondunun vebsaytı gender məsələləri və qadınlara qarşı zorakılıq üzrə məlumat əldə etmək üçün yararlı vebsaytdır.

**Qeyd**:

Kati və Eszterin işləri barəsində Morvai Krisztina tərəfindən
Terror a családban – A feleségbántalmazás és a jog (Ailədə Terror – Döyülən qadın və Qanun)  – da məlumat verilmişdir.
Kossuth Kiadó, Budapeşt 1998.

## Paylanmalı materiallar

**Praktiki tapşırıq – Eszter**

O, həyat yoldaşını paltarları yumamaqda, yemək bişirməməkdə və digər ev işlərini görməməkdə günahlandıraraq onunla mübahisə etməyə başladı. Eyni zamanda, o, həyat yoldaşını döyməyə başladı; o, qadının başı və üzünə çılpaq əlləri ilə vururdu. O, qadının saçlarından bir ovuc qopardı və öz çəkmələri ilə onu vurdu. Daha sonra, o, həyat yoldaşının bədəninin yuxarı hissəsində olan paltarlarını çıxardı və onu döyməyi davam etdirmək üçün yatağa atdı.
Bütün bunlar atasına dayanması üçün yalvaran 8 yaşlı qızlarının gözü qarşısında baş verirdi. Daha sonra, o dayandı. O, Eszteri yataqdan çıxardı və yatdı. Eszter həmin gecə vəfat etdi.

**Praktiki tapşırıq 2 – Kati**

Kati çox alçaldıcı olmağa başlayan nişanlısından qaçmağa çalışırdı. Kati başqa bir şəhərdə kirayə ev tapdı, lakin nişanlısı hələdə zəng etməyə və onu narahat etməyə davam edirdi. Katinin əqli vəziyyəti pisləşirdi. Bir gün, nişanlısı onu evə geri qaytarmaq üçün işdən sonra onun arxasınca gəldi. O, Katini yaxınlıqdakı meşəyə apardı və öz puloveri ilə onu boğmağa çalşdı. Ondan sonrakı gün Kati öz kolleqalarına bir gün nişanlısının onu boğmağa çalışacağı və öldürəcəyindən qorxduğunu dedi.

4 gün sonra onun nişanlısı bir qədər spirtli içki qəbul etdi. Yenə də, o, Katinin işdən çıxmasını gözlədi və o, çölə çıxanda onu döyməyə başladı. Axşam nişanlısı qərara aldı ki, onlar qohumlarına baş çəkməlidirlər. Yolda onlar maşını bir neçə dəfə dayandırdılar. Kati onun nə vəziyyətdə olduğunu görərək, onunla cinsi əlaqəyə girməyə razı oldu, lakin o çox içkili idi. Kati öz nişanlısına daha onun Kati üçün maraqlı olmadığını dedi. Bu, onu çox qəzəbləndirdi. O, uzun dəri kəmərini çıxardı və onu boğmağa başladı. O, daha sonra, Katinin cansız bədənini xəndəyə atdı və ağacın budaqları ilə üstünü örtdü.

**Praktiki tapşırıq 3 – Mariya**

Mariyanın 70 yaşı var idi. Onun həyat yoldaşı 10 il əvvəl vəfat etmişdi və o, 40 yaşlı oğlu Filipp ilə kiçik evdə yaşayırdı. Onun oğlu işsiz idi və bəzən çox içirdi. Maria oğlunun onun pul qabısından pul oğurladığını bilirdi, lakin o, çox vaxt bununla bağlı heç bir şey demirdi, çünki daha çox problem yaratmaq istəmirdi. Filip içkili olduqda çox qəzəbli olurdu və bəzən Mariya ondan qaçmaq üçün öz otağına qapanmalı olurdu. Bir gün, Filip evə təmamilə sərxoş halda gəldi və yemək hələ də hazır olmadığı üçün çox qəzəbləndi. Mariya ona yorğun və xəstə olduğu üçün yemək hazırlaya bilmədiyini dedikdə, o, otaqdakı əşyaları ətrafa atmağa başladı. Mariyanın qaçmağa gücü və imkanı olmadı və oğlu onun üzərinə stul atdı. Mariya özünü qorumağa çalışdı, lakin yıxıldı və başına güclü zərbə aldı. Qonşu gəlib özünü yetirdi, lakin artıq çox gec idi. Mariya xəstəxanaya çatdırılarkən yolda koma vəziyyətində vəfat etdi.

**Praktiki tapşırıq 4 – Leandro**

Leandronun 8 yaşı var idi. O, 3 yaşlı kiçik bacısı, anası və onun sevgilisi Jan ilə birlikdə kiçik evdə yaşayırdı. Leandro heç vaxt atasını tanımamışdı. O, məktəbi sevirdi, lakin Jandan xoşu gəlmirdi. Əslində, Jan bəzən qəzəbli olur və Leandronu döyürdü. Leandro doğurdan da Jandan qorxurdu, yatmaqla bağlı əziyyət çəkirdi və iştahını itirmişdi. Leandronun məktəb müəllimi bu vəziyyətə diqqət yetirmişdi və Leandronun valideynləri ilə görüşmək istəyirdi, çünki o, Leandronun dərslərində yaxşı olmadığını, fikrini cəmləməkdə çətinlik çəkdiyini və bəzən öz dostlarına qarşı qəzəbli olduğunu başa düşürdü. Onun anası müəllimlə görüşdü, lakin evdəki vəziyyət barədə heç nə demədi. O, geri döndükdə Jana müəllimin dedikləri barədə danışdı. Jan buna çox qəzəbləndi və yenidən Leandronu döyərək bu dəfə onun qolunu qırdı. Xəstəxanada Leandronun anası yalan danışdı və onun yıxıldığını bildirdi.

**Praktiki tapşırıq 5 – Banaz**

Banaz həyatının təhlükə altında olduğunu bildirmək üçün bir neçə dəfə polisə müraciət etməyə cəhd etmişdir. 2005-ci ilin dekabrında onun atası ona hücum etmiş və öldürməyə cəhd etmişdir. O, doğrudan, qorxmuş və polisə müraciət etmişdir. Lakin onun müraciəti araşdırma aparan polislər tərəfindən ciddi qəbul olunmamışdır.

Banaz evdən qaçdı, lakin sonra yenidən geri qayıtdı və gizli-gizli öz sevgilisi ilə münasibətlərinə davam etməyə çalışdı, lakin onların hər ikisi bir-birilərini görməyə davam etdikləri təqdirdə, ölümlə təhdid olunurdu. Banaza daha təhlükəsiz bir yerdə yaşamaq təklif olunurdu, lakin o, anası da orada olduğu üçün öz evində yaşamağın daha təhlükəsiz olduğuna inanırdı.

Banaz 24 yanvar tarixində itdi və onun tərkib hissələrinə ayrılmış bədəni 3 ay sonra bağda yandırılmış çamadanda tapıldı. Məhkəmədə onun atası və dayısı Banazın onların evlənməsini istəmədiyi oğlanı sevməklə ailənin utancına səbəb olduğuna inandıqları üçün onu öldürmək məqsədilə qatil sifariş etdiklərini bildirdilər. Banazın 20 yaşı var idi.

http://news.bbc.co.uk/2/hi/6722699.stm; 11 İyun 2007

**Praktiki tapşırıq 6 – Amira**

Amiranın ailəsi müharibə ilə üzləşmiş Somalini tərk edib Avropada bir şəhərdə məskunlaşdıqda onun 4 yaşı var idi və burada onun uşaqlığının ilk illəri çox daha yaxşı keçmişdi.

Daha sonra bir səhər, onun 11 yaşı olanda, Amiranın anası xalasıgilə getməyi təklif etdi, beləliklə, Amira öz yaşıdı olan xalası qızı ilə oynaya biləcəkdi. Amiranın bilmədiyi isə o idi ki, onun anası və xalası öz qızlarını sünnət etmək üçün gizli şəkildə Moqadişudan “sünnət edən” ilə görüş təyin etmişdilər. Onlar bunun vacib olduğunu, əks halda, qızlarının heç vaxt ərə gedə bilməyəcəyini düşünürdülər.

Qəflətən anası və xalası Amiranı tutdu. “Onlar məni tutdu və daha sonra heç görmədiyim bir qadın kəsməyə başladı. Mən qışqırdım və xalam əlini mənim ağzım üzərinə basdı” o deyirdi. “Söz ver ki, heç kəs heç vaxt mənim səninlə bu barədə danışdığımı bilməyəcək”, Amira yalvarırdı, “əgər cəmiyyətimdəki insanlar bunu aşkar etsə, onlar məni xəyanətdə günahlandıracaq və mən qaçmağa məcbur olacağam. Və hər bir halda, mən valideynlərimin türməyə göndərilməsini istəmirəm”.

http://www.dailymail.co.uk/femail/article- dan götürülmüşdür.

**Praktiki tapşırıq 7 – Denise**

“Mən yaxın qohumlar arasında cinsi əlaqənin qurbanı olmuşam; mən 15 yaşında olarkən atam tərəfindən zorlanmışam. Bu, birinci dəfə deyildi, sonuncu dəfə də olmayacaq. Lakin, bu dəfə mən hamilə qaldım. Bir gecə, mən çox xəstələndim və valideynlərim məni xəstəxanaya apardı. Təcili yardım həkimi soyuqdəymənin pis vəziyyətindən əlavə mənim 19 həftəlik hamilə olduğumu aşkar etdi. Həkim məni hamilə olduğum barədə məlumatlandırdı və nə istədiyimi soruşdu. Çəkdiyim ağrı və günahkarlıq hissinə baxmayaraq, mən abort etdirməkdən imtina etdim. Atam nəzarət oluna bilməyəcək dərəcədə qəzəbləndi və mənim razılaşmağımı tələb etdi. Həkim mənim istəyimə görə bununla razılaşmadı.

Atam abort edən həkim tapılmasını tələb etdi və 1 saat ərzində bu həkim xəstəxanaya gəldi. Mən yoxlama stoluna qalxmaqdan imtina etdim, lakin o, 3 tibb bacısına özü məni yatağa bağlayarkən məni tutmağı tapşırdı və daha sonra, mənim mübarizə aparmağımın qarşısını almaq üçün əzələ sakitləşdirici iynə vurdu. Mən abort istəmədiyimi qışqırmağa başladım. O, mənə dedi, “Sus və yalvarmağı dayandır!” Nəticədə, mənə ümumi anasteziya etdilər.

www.humanlife.org-dan götürülmüşdür.

**Praktiki tapşırıq 8 – Hans**

Antoniya bir neçə il boyu həyat yoldaşı Hansı narahat edir və onu təhqir edirdi. Bir dəfə Antoniya maşınla onun üzərindən keçmək istədiyini dedi. Başqa bir vaxtda o, Hansı yalandan öz uşaqlarını cinsi istismar etməkdə günahlandırdı. Hansı pedofillikdə günahlandıran məktublar qonşuların poçt qutularına qoyulmuşdu. Polis ittihamlara inanmadı, lakin Antoniyanın məktublarla bir əlaqəsi olduğundan da şübhələnmədi.

Üç il sonra onlar ayrıldı və bir il sonra isə boşandı. Bir neçə ay sonra, Antoniya Hansı işdən evə qədər izlədi və kerosinlə doldurulmuş işıqlı bəzəyi onun üzərinə atdı. Bəzək alovlanmadı, lakin daha sonra detektivlər qapı və divarlarda kerosin tapdılar.

Bir gün Hans öz iti ilə gəzərkən bir qadın onun üzərinə qaçdı. Bir səs gəldi. O, qışqırdı və evinə doğru qaçmağa başladı və evə hücum çəkdi, qadın isə onu təqib etdi. Polis və həkimlər onu öz yemək otağında döşəmədə ölüm ayağında tapdı. Həkimlər onu xilas edə bilmədi; güllə onun sağ çiynindən daxil olaraq, ağciyərlərini dağıtmış və aortaya keçmişdi.

Adapted from: http://www.seattlepi.com

### Qrup müzakirələri üçün təlimatlar

I – Cinayətin təhlili (20 dəqiqə)

1. Məruzə olunan cinayətlə bağlı nə düşünürsünüz?
2. Bu cinayət harada baş verə bilərdi? Bu, sizin qonşuluğunuzda baş verə bilərdi?
3. Cinayət nəyə görə baş vermişdir?
4. Belə bir cinayət əsaslandırıla bilər?
5. Zərər çəkmiş şəxs özünü necə müdafiə edə bilərdi?

II – Sosial reallığa keçid (40 dəqiqə)

6. Bu yaxınlarda məişət zorakılığı barədə eşitmiş və ya məlumat əldə etmisiniz?
7. Sizin cəmiyyətinizdə məişət zorakılığının hansı formaları baş verir?
8. Zərər çəkmiş şəxslərin köməyə ehtiyacı olduqda onlar nə edə bilər?
9. Polis zorakılıq barədə məlumatlandırıldıqda müdaxilə edə bilər və ya bu müdaxilə insanların şəxsi məsələlərinə qarışmaq və onların insan hüquqlarının pozulması kimi qəbul oluna bilər?
10. Belə vəziyyətlərdə zərər çəkmiş şəxslər nə səlahiyyətə malikdir? Cinayətkarlar hansı səlahiyyətə malikdir?
11. Kişinin qurban olduğu məişət zorakılığı halları barədə eşitmisiniz?
12. Məişət zorakılığının səbəblərindən bir neçəsini qeyd edin.
13. Məişət zorakılığının qarşısı necə alına bilər və dayandırıla bilər?
14. Aşağıdakılar tərəfindən hansı tədbir görülə bilər/görülməlidir:
    a. dövlət orqanları?
    b. yerli cəmiyyət?
    c. cəlb olunmuş insanlar?
    d. dostlar və qonşular?

# Dosta!

*Tarixdən öyrəndiyimiz tək şey tarixdən heç nə öyrənmədiyimizdir.*
Heqel

| | |
|---|---|
| **Mövzular** | • Tarixi Yaddaş<br>• Müharibə və Terrorizm<br>• Ayrı-seçkilik və Dözümsüzlük |
| **Mürəkkəblik** | 4-cü səviyyə |
| **Qrup ölçüsü** | İstənilən (2-3 nəfərlik kiçik qruplar) |
| **Vaxt** | 1 gün |
| **Xülasə** | Bu məşğələdə iştirakçılar Holokostun roma qurbanları barəsində məlumatlılığı artırmaq üçün fəaliyyət layihəsini hazırlayıb həyata keçirirlər. |
| **Əlaqədar hüquqlar** | • Ayrı-seçkiliyə məruz qalmamaq hüququ<br>• Yaşamaq hüququ<br>• Mədəni hüquqlar |
| **Məqsədlər** | • Nazi holokostunun bütün qurbanları barəsində - xüsusilə roma əhalisi haqqında məlumatlı olmaq<br>• İctimai fəaliyyətin seçilməsi, hazırlanması və həyata keçirilməsi üçün lazımi bacarıqları məşq etdirmək<br>• İnsan ləyaqəti və ədalət hislərini inkişaf etdirmək |
| **Materiallar** | • Flipçart kağızı və markerlər<br>• "X-in təqibinin qısa tarixçəsi" materialının nüsxələri (istəyə görə)<br>• 2-ci hissə üçün: Fəaliyyətin seçilib hazırlanması zamanı İnternet və ya çap olunmuş istinad materiallarının təmin edilməsi faydalı ola bilər<br>• 3-cü fəsildə 374-cü səhifədə olan fəaliyyət layihəsi blok-sxeminin nüsxələri (istəyə görə) |
| **Hazırlıq** | • Sessiyadan əvvəl qrupa Holokostu müzakirə edəcəyinizi bildirin, çətinliklə üzləşən istənilən iştirakçı ilə ayrıca danışın<br>• Hər kiçik qrup üçün bir ədəd olmaqla materialın surətini çıxardın.<br>• Kompas-ın 3-cü fəsli olan "Hərəkətə Keçməyə" müraciət edin. |

## Təlimatlar

**1-ci hissə: Qrupu hazırlamaq** (90 dəqiqə )

1. İştirakçılardan kimlikləri barəsində bənzər fikirlərə malik olan 2 – 3 şəxsdən ibarət qru plara ayrılmağı xahiş edin. Bu, onların etnik və ya milli kimliyi, eyni zamanda, müxtəlif sosial və ya dini qruplaşmalarla bağlı ola bilər. Onlara kiçik qruplarda bu kimliklərlə bağlı hislərini bölüşmək üçün vaxt verin.
2. Ya "X-in təqibinin qısa tarixçəsi" materialını paylayın, ya da X əhalisinin məruz qaldığı ardıcıl qəddar rəftar barəsində iştirakçılarda fikir yaratmaq üçün müəyyən məlumatları seçin, lakin yenə də onlara müzakirə ediləcək qrupun adını deməyin (roma).
3. Qısa şəkildə onların reaksiyalarını müzakirə edin, daha sonra, yenə də kiçik qruplarda onlara aşağıdakı sualların müzakirəsi üçün 15 dəqiqə vaxt verin:
   - "Sizin" insanlarınız müasir tarixin müəyyən mərhələsində belə rəftara məruz qalar-sa, siz özünüzü necə hiss edərdiniz? (İştirakçılardan 1-ci bənddə seçdikləri qrupla çalışmağı xahiş edin)
   - Qeyd edilənləri yaşayan icma üçün ən çətin məqamlar hansılar ola bilər, yerli, milli və ya beynəlxalq səviyyədə hansı addımlar faydalı və ya vacib sayıla bilər – məsələn, digər icmaların üzvlərinin dəstək tədbirləri?

Tarixi Yaddaş

Müharibə və Terrorizm

Ayrı-seçkilik və Dözümsüzlük

4-cü səviyyə

İstənilən (2-3 nəfərlik kiçik qruplar)

60 dəqiqə

4. İndi isə balaca qruplardan cavablarını bölüşmək üçün cüt-cüt qruplaşmağı xahiş edin. Bu qruplara əlavə 15 dəqiqə verin və onları sözügedən rəftara məruz qalmış icmanın üzvləri üçün spesifik təkliflər siyahısı hazırlamağa çağırın.
5. Qrupu bir yerə toplayın və bütün təklifləri bir flipçartda qeyd edin. Məşğələnin 2-ci hissəsinin qrupun təkliflərdən birini seçib onun üzərində çalışması ilə bağlı olduğunu izah edin. Buna baxmayaraq, davam etməzdən əvvəl, soruşun:
   - Materialın kimlərlə bağlı olduğunu tapa bilərsiniz?
   - Başqa hansı qruplar Nazilərin zorakılığına məruz qalıblar?
   - İkinci Dünya Müharibəsi zamanı sizin ölkənizdə bu qrupların başına nə gəlib?
6. İştirakçılardan roma insanlarının hazırki vəziyyəti barəsində nə bildiklərini soruşun. Onların hansı insan hüquqları pozulur?
7. Qrupa Dosta! hərəkatı barəsində danışın və onların hərəkatı dəstəkləmək üçün fəaliyyət layihəsini həyata keçirməsini təklif edin.

**2-ci hissə: Fəaliyyət layihəsinin seçilməsi və hazırlanması**

Məşğələnin bu hissəsi Kompas-ın 3-cü fəsilinə – Hərəkətə Keçməyə – əsaslanır, daha çox fikir əldə etmək üçün həmin hissəyə baxa bilərsiniz.

8. Onların hazırlayacağı fəaliyyət layihəsinin əvvəlki sessiyada müəyyən edilmiş problemləri tam şəkildə həll edə bilməyəcəyini, lakin roma icmasına müəyyən fayda gətirəcək, dəqiq və ölçülə bilən nəticə əldə etməyə imkan verə biləcəyini izah edin.
9. İştirakçılardan flipçartdakı təkliflərdən qrupun həyata keçirə biləcəyi istənilən təklifi müəyyən etməyi xahiş edin. Onlar bəzi təklifləri hissələrə ayıra və ya digərlərini əlavə edə bilərlər.
10. Təklifləri müzakirə edin və qrupun bütövlükdə fəaliyyəti üçün ümumi qərara gəlin. 3-cü fəsildəki fəaliyyət layihəsi blok-sxemindən istifadə edin. Aşağıdakıları yoxlayın:
   - onların müəyyən etdiyi fəaliyyət problemin həllinə töhfə verəcəkdir
   - qrupun resursları və onların qarşılaşacağı maneələr nəzərə alınmaqla fəaliyyət realdır
   - “həll” ona nail olub – olmadıqlarını müəyyən edəcək qədər dəqiqdir
11. Qərar Vərəqini çəkin. Belə ki, hər kəs nə vaxt nə etməli olduğunu bilməlidir.
12. İşə başlayın!

**3-cü hissə: Fəaliyyət layihəsinin həyata keçirilməsi**

## Təhlil və qiymətləndirmə

- Fəaliyyətlə bağlı suallar:
- Ümumilikdə, siz fəaliyyətdən razısınız? Niyə? Niyə yox?
- Siz öz töhfəniz və qrupun işi barəsində nə düşünürsünüz?
- Siz fəaliyyətin əsas uğurları barəsində nə düşünürsünüz? Onlar sizin ilkin məqsədlərinizlə üst-üstə düşür?
- Fəaliyyətin daha səmərəli olması üçün nəyi daha fərqli şəkildə edərdiniz? Zəhmət olmasa, fikrinizi izah edin.
- Hansı səhvləri etmisiniz?
- Əgər başqa bir fəaliyyət təşkil etsəydiniz (istənilən mövzuda), əsas “öyrənmə bəndləri” kimi nələri sıralayardınız?

**Öyrənmə prosesi haqqında suallar:**

1. Şəxsən sizin üçün ən vacib nəticələr hansılar oldu? Sizin fikirləriniz və ya yanaşmalarınızda hər hansı dəyişikliyin olduğunu hiss edirsiniz? Zəhmət olmasa, fikrinizi izah edin.
2. Bütün məşğələ ərzində, ilk sessiyadan fəaliyyətə qədər, sizin üçün ən çətin məqam hansı oldu?

3. Ən çox razı qaldığınız nə oldu?
4. Sizin etdiyinizin davamı olaraq nə etmək olar? Bunu etmək niyyətindəsiniz?
5. Bu məşğələdən insan hüquqları barəsində nə öyrəndiniz?
6. İnsan hüquqları uğrunda hərəkat aparmaq çətindir? Bu məşğələdən sonra, siz insan hüquqları uğrunda hərəkata qoşulardınız?
7. Roma insanlarının tələb etdiyi hüquqlar “istisna” təşkil edir, yoxsa onlar təcrid olunmuş və təqibə məruz qalan digər qruplara da şamil oluna bilər? Fikrinizi izah edin.
8. İnsan hüquqları təhsili üçün yaddaşla iş niyə əhəmiyyətlidir?
9. Sizin ölkənizdə Holokost təhsilinə necə yanaşılır və ya təşkil olunur?

**ƏSAS TARİX**

**8 Aprel**
Dünya Roma Günü
**2 Avqust**
Roma və Sinti Soyqırımı Xatırlama Günü

## Fasilitator üçün məsləhətlər

Siz 1-ci hissə “qrupun hazırlanması” üçün 90 dəqiqə, 2-ci hissə “hərəkətə keçməyə hazırlıq” üçün 90 dəqiqə və 4-cü hissə təhlil və qiymətləndirmə üçün 60 dəqiqə ayırmalısınız. 3-cü hissənin, fəaliyyət layihəsinin uzunluğu aparılan fəaliyyətdən asılı olacaqdır! Müxtəlif hissələr ardıcıl şəkildə və ya başqa formada aparıla bilər.

Bu məşğələni həm təşkilati, həm də məzmun baxımdan mürəkkəbləşdirən bir sıra elementlər vardır.

Siz qrupun tərkibi və məşğələyə gözlənilən reaksiyaları barəsində əvvəldən məlumatlı olmalısınız.

Əgər qrup üzvlərindən birinin qohumları Holokost və ya bənzər hadisələrin qurbanı olubsa, siz onlarla əvvəlcədən məşğələ barəsində danışaraq onları hazırlamalı və ya özlərini hazır hiss etmədikləri halda iştirak etməmələrinə imkan verməlisiniz.

Eyni zamanda, siz məşğələnin hər bir mərhələsinə həssaslıq və çevikliklə yanaşmalı, insanların öz hislərini dilə gətirmək üçün vaxta ehtiyacı olduğunu hiss etdikdə istənilən müzakirəni tələsdirməməlisiniz. Əgər qrup ilk dəfə bu cür suallara cavab verirsə, 1-ci hissənin 90 – 120 dəqiqə ərzində tam sessiya kimi aparılması daha səmərəli olar və 2 – 4 hissələrdən əvvəl müəyyən vaxt saxlanıla bilər.

1.1-ci hissədə, siz əvvəlcədən müəyyən çətinliklərin ola biləcəyi barədə düşünməlisiniz. Bu hallarda, siz iştirakçılara kateqoriyalar siyahısı təqdim etməli və onlardan özlərini kateqoriyalardan birinə aid etməyi xahiş etməlisiniz, məsələn, hər hansı futbol komandasının azarkeşi, fransızca danışan, ispan dilini öyrənən və ya hip hopu sevən, tennis oynayan və ya üzgüçülüklə məşğul olan bir şəxs kimi.

Siz iştirakçılardan sadəcə “kişilər” və “qadınlar” olaraq ayrılmağı xahiş edə bilərsiniz.

Əgər mümkünsə, 1.2 – ci və 1.3 – cü hissələri X qrupunun kim olduğuna dair müzakirələr olmadan aparın. Burada məqsəd iştirakçıların mövcud ədalətsizliklərdən qəzəblənməsidir və X –in romalar olduğunu bilmək bu təsiri azalda bilər. Belə ki, romalara qarşı güclü mənfi rəy mövcuddur və bəzi iştirakçılar qeyri-şüuri (və ya şüurlu şəkildə) onlara qarşı edilən rəftara bəraət qazandırmağa çalışa bilərlər.

Roman Holokostunun Qısa Xronologiyasında (aşağıda) roma və ya “qaraçılar”a istənilən istinad hər yerdə X-lə əvəzlənmişdir. Siz bu məlumatdan istifadə etdikdə, “qrup”a istinad edə, hətta iştirakçılardan öz qrupları barəsində düşünməyi xahiş edə bilərsiniz.

İştirakçılardan onlar üçün vacib olan kimliklərini seçməyi istəməkdə məqsəd onlarda bu qrupa mənsub olduqlarına görə hədəf olmaq “hissini” oyatmaqdır. Yenə də, onlar romalar barəsində kəskin rəyə malik olduqlarından romaların problemlərini qəbul etməyi çətin hesab edə bilərlər. Siz bu hallara diqqət ayırmalı və belə hal baş verdikdə, 1.3-cü hissədə iştirakçıların öz problemlərini müzakirə etməsi üçün xeyli vaxt təmin etməlisiniz.

Onlara Holokost zamanı Avropadakı roma əhalisinin 75% - 80% arası hissəsinin öldürüldüyünü və bəzi ölkələrdə bu rəqəmin 90%-ə qədər çatdığını bildirin. Onlardan öz insanlarının 90%-ni itirməyin və ya bu qrupdakıların 90%-ni: 20 nəfərlik qrupdan yalnız 2 nəfər sağ qalmaqla, necə bir hiss ola biləcəyini təsəvvürə gətirməyi xahiş edin.

Əgər mümkünsə, hazırlıq mərhələsində və fəaliyyətə başlamazdan əvvəl, roma icmasının üzvlərini cəlb etməyiniz məsləhət görülür. Heç olmazsa, icma üzvləri ilə qrupunuz tərəfindən hazırlanacaq fəaliyyətin müsbət qarşılanacağını razılaşdıra bilərsiniz. Alternativ olaraq, romalarla çalışan və ya onları dəstəkləyən yerli qruplarla əlaqə saxlaya bilərsiniz.

Əgər vaxtınız azdırsa və ya iştirakçılar hazırlama prosesində çətinlik çəkirsə, 3-cü fəsildəki nümunə blok-sxemdən istifadə edə bilərsiniz.

## Variantlar

Aydın şəkildə görünən imkanlardan biri romaları Holokost qurbanı olan başqa qrupla əvəzləməkdir. Siz Holokost Xatırlama Günü Təşkilatının veb səhifəsindən www.hmd.org.uk əvəzsiz məlumatlar əldə edəcəksiniz. Burada məktəblər üçün materiallar, Nazilər tərəfindən təqib olunan qruplar, o cümlədən Yəhudilər, əlilliyi olan insanlar, Roma insanları və Sinti, Qaradərili və qarışıq irqə malik olan Avropalılar, Yehova Şahidləri, Yəhudi olmayan Polyaklar və digər Slavyan xalqları, kommunistlər, sosialistlər və Həmkarlar İttifaqı üzvləri barəsində məlumatlar əks olunmuşdur. Eyni zamanda, vebsaytda müasir dövrdə Kamboca, Bosniya və Hertseqovina, Ruanda və Darfur/Sudanda baş vermiş soyqırımlar barəsində məlumat vardır.

Digər seçiminiz sistemli şəkildə məruz qaldıqları zorakılıq diqqətdən kənarda qalan insanlar, qrup və ya icmadan danışmaqdır.

## Sonrakı fəaliyyət üçün təkliflər

Əgər iştirakçılar qonşuluqda baş verənləri çətin vəziyyətdə olan və ya cəmiyyətin hüdudlarında yaşayan şəxsin gözü ilə nəzərdən keçirmək istəsələr, 126-cı səhifədəki "Eynəyini dəyişdir" məşğələsini həyata keçirin.

Alternativ olaraq, əgər qrup rol oynamağı xoşlayırsa və insanların zorakı hərəkətlər etməsinin səbəblərini öyrənmək istəyirlərsə, onda 299-cu səhifədəki "Daş atmaq" məşğələsinə baxın.

## Əlavə məlumat

"Dosta", roma dilindən tərcümədə "kifayətdir" deməkdir, roma vətəndaşlarla digərlərini yaxınlaşdırmaq məqsədi daşıyan məlumatlandırma hərəkatının adıdır. Dosta! hərəkatı haqqında əlavə məlumat http://dosta.org saytından əldə edə bilərsiniz. İnternetə qoşula bilməyiniz faydalı ola bilər, belə ki, iştirakçılar sayta baxmağa müəyyən qədər vaxt ayıra bilərlər. Holokost barəsində məlumat olan və onların tədqiqat üçün istifadə edə biləcəyi bir sıra saytlar var: http://isurvived.org; http://www.preventgenocide.org.

Holokost təhsili ilə məşğul olan digər təşkilatlara Xatırlama Fondu, Məsuliyyət və Gələcək (alman dilində abbreviaturası EVZ), www.stiftung-evz.de daxildir. Bu təşkilatın fəaliyyət sahələri və məqsədlərinə tarixi tənqidi şəkildə nəzərdən keçirmək, insan hüquqları üçün çalışmaq və Milli Sosializmin qurbanlarına töhfə vermək daxildir. Onun vebsaytında İnsan hüquqları və tarix, təhsil üçün çağırış nəşrini oxuya bilərsiniz.

Holokost təhsili ilə məşğul olan digər təşkilat Anna Frank Fondudur (AFF) www.annefrank.ch. AFF-nin məqsədi xeyriyyə işini təşviq etmək, Anna Frank xatirəsinə sosial və mədəni rol oynamaq, müxtəlif dinlər arasında anlayışı yaxşılaşdırmaq, insanlar arasında sülhə təkan vermək və gənclər arasında beynəlxalq əlaqələri canlandırmaqdır. Onların dünyanın bir çox yerlərində layihələri vardır, məsələn, Hindistanda Dalitlər üçün, Peruda kənd icmaları və şəhər xarabalıqlarında təcrid olunmuş uşaqlar və ailələr üçün.

**Avropa Roma Məlumat Bürosu** Avropada romalara təsir edən məsələlər barəsində mütəmadi məlumat təmin edir. http://www.erionet.org

**Avropa Roma Hüquqları Mərkəzi** anti-roma irqçiliyi və romaların insan hüquqlarının pozulmasına qarşı mübarizə aparan ictimai hüquqi təşkilatdır. http://www.errc.org

## Paylanmalı materiallar

### X-in təqibinin qısa tarixçəsi

| | |
|---|---|
| 1890 | Almaniyada “X çirkabı” mövzusunda konfransın təşkili. Hərbçilərə X-in hərəkətlərinə nəzarət etmək səlahiyyətinin verilməsi. |
| 1909 | “X Məsələsi” mövzusunda siyasi konfrans keçirilir. Bütün X-lərin asanlıqla müəyyənləşdirməsinin təmin edilməsi məsləhət görülür. |
| 1920 | İki akademik “yaşamağa dəyərsiz həyatlar“ anlayışını təqdim edir və X-lərin sterilizasiya edilib insan kimi yoxa çıxarılmalı olduğu fikrini irəli sürür. |
| 1922 | (1920-ci illər ərzində): Alman ərazilərindəki bütün X-lərin şəkli çəkilir və barmaq izləri götürülür. |
| 1926 | “X virusu“na nəzarət edilməsi üçün Almaniyada qanun qəbul edilir. (Bu cür rəftar Almaniyanın Veymar Konstitusiyasının şərtlərinə birbaşa ziddir). |
| 1927 | Almaniya, Bavariyada X-lərin həbsi üçün xüsusi düşərgələr tikilir. Bu düşərgələrdə səkkiz min X saxlanılır. |
| 1928 | Bütün X-lər daim polis nəzarətində saxlanılır. X-lər üçün daha çox düşərgə tikilir. |
| 1934 | X-lər iynə və axtalama yolu ilə sterilizasiya olunur, Daçau, Dizelştras, Saşsenhausen və digər düşərgələrə göndərilir. Bu ildə verilmiş iki qanunla almanlara digər irqlərlə evlənmək qadağan olunur. |
| 1938 | 12 iyun və 18 iyun arasında Almaniya və Avstriyada yüzlərlə X saxlanılır, döyülür və həbs edilir. X-lər məktəbə getməsi qadağan edilən ilk qrup olur. |
| 1939 | İrqi Gigiyena İdarəsi bəyanat yayır ki, “Bütün X-lər irsi xəstədir; yeganə həll onların yox edilməsidir. (Buna görə də, məqsəd əhali arasındakı bu qüsurlu ünsürün qəti şəkildə məhv edilməsi olmalıdır). |
| 1940 | Holokostun ilk kütləvi soyqırım tədbiri: 250 X uşağı qvineya donuzu kimi Buşenvald toplama düşərgəsində sianid qaz kristalının sınaqdan keçirilməsi üçün istifadə edilir. Həmin ildə X-lər üçün hər növ iş qadağan edilir. |
| 1941 | İyulda Nazi Yekun Həlli “bütün Yəhudilər, X-lər və əqli qüsuru olan xəstələri öldürmək” planı həyata keçirilir. Holokost başlayır. 800 X 24 dekabr gecəsində Krımda qətlə yetirilir. |
| 1944 | Avqustda kütləvi qırğın zamanı Auşvitz-Birkenauda 14,000 X qazla yandırılır və külə döndərilir. |
| 1945 | Müharibənin sonuna doğru X əhalisinin 70-80%-i Nazilər tərəfindən qətlə yetirilmişdi. Nürnberq Tribunalında heç bir X şahid kimi çağrılmadı və heç kim onların adından şahidlik etmədi. X əhalisinə heç bir müharibə cinayəti təzminatı ödənmədi. |
| 1950 | Alman hökuməti tərəfindən onların X əhalisinə müharibə cinayəti təzminatı olaraq heç bir borcunun olmadığına dair ilk bəyanat səsləndirildi və sonrakı illərdə bənzər bəyanatlarla çıxış edildi. |
| 1992 | Almaniya 21 milyon ABŞ dollarına X qaçqınlarını Rumıniyaya “satır” və noyabrın 1-də onların qandallarla daşınmasına başlayır. X-lərdən bəziləri geriyə getməkdənsə intihar edir. Alman mətbuat agentliyi qərb jurnalistlərindən “deportasiya” ifadəsindən istifadə etməməyi xahiş edir, çünki bu söz “xoşagəlməz tarixi assosiasiyalar“ yaradır. |
| 2010 | Fransa prezidenti X-ləri cinayətlə əlaqələndirir və onların düşərgələrini fahişəlik və uşaqların istismarı mənbəyi adlandırır. Fransız qurumları 100-dən artıq düşərgəni dağıdır və 1,000-dən artıq X-i əsasən Rumıniyaya deportasiya edir. |

Roman Holokostunun Qısa Xronologiyasının Yan Hankok tərəfindən redaktə edilmiş versiyası
Tam mətni buradan əldə edə bilərsiniz http://www.osi.hu/rpp/holocaust.html

Ümumi İnsan Hüquqları

1-ci səviyyə

8+ (4-5 nəfərlik kiçik qruplar)

45 dəqiqə

# "Sözün şəklini çək" oyunu

**Mövzular** • Ümumi İnsan Hüquqları

**Mürəkkəblik** 1-ci səviyyə

**Qrup ölçüsü** 8+ (4-5 nəfərlik kiçik qruplar)

**Vaxt** 45 dəqiqə

**Xülasə** Bu komanda oyununda insanlar insan hüquqları ilə bağlı sözü təsvir etmək üçün onu kreativ şəkildə çəkməlidirlər.

**Əlaqədar hüquqlar**
- Fikir və ifadə azadlığı
- Düşüncə azadlığı
- Ləyaqət və hüquqların bərabərliyi

**Məqsədlər**
- Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (ÜİHB) barədə biliklərin inkişaf etdirilməsi
- Ünsiyyət və kreativ düşüncə bacarıqlarının inkişaf etdirilməsi
- Həmrəylik və fərqliliyə hörmətin təbliği

**Materiallar**
- ÜİHB maddələrini əks etdirən divar cədvəli
- Böyük bir vərəq və ya flipçart vərəqi və balları qeyd etmək üçün marker
- Vərəqlər (A4 ölçüdə) və qrup şəkilləri üçün qələmlər, oyunun hər hissəsi üçün hər komandaya bir vərəq
- Şəkilləri yapışdırıb nümayiş etdirmək üçün skoç və ya pinlər

**Hazırlıq**
- ÜİHB-in 600-cü səhifədəki qısaldılmış versiyasına istinad edin, onun böyük kağızda surətini çıxardın
- Özünüz üçün hüquqların siyahısını hazırlayın

## Təlimatlar

1. İştirakçılardan dörd – beş nəfərlik kiçik qruplara ayrılmağı və öz qrup/komandaları üçün ad seçməyi xahiş edin.
2. Onlara məşğələdə komandalarla yarışacaqlarını izah edin. Hər komandadan bir nəfərə şəklini çəkməsi üçün ÜİHB-dən bir maddə verəcəksiniz. Digər komanda üzvləri onun hansı hüquq olduğunu tapmalıdırlar. İlk tapan komandaya bal yazılır. Balları daha artıq olan komanda sonda qalib gəlir.
3. Komandalara bir neçə vərəq və qələm götürüb otağın hər hansı hissəsində oturmağı deyin. Komandaların bir-birini eşitməməsi üçün müxtəlif hissələrdə oturması vacibdir.
4. Hər komandadan bir üzvü çağırın. Onlara siyahınızdakı hüquqlardan birini deyin, məsələn, "işgəncəyə məruz qalmamaq hüququ".
5. Onlara qruplarına qayıdıb müvafiq hüququn şəklini çəkməyi deyin, onların komanda yoldaşları hüququn nə olduğunu tapmalıdırlar. Yalnız şəkillərdən istifadə olunmalıdır; heç bir rəqəm və ya sözdən istifadə oluna bilməz. Düzgün cavabı təsdiqləməkdən başqa heç bir danışığa yol verilmir.
6. Komandanın digər üzvləri yalnız cavabları səsləndirə bilərlər; sual verə bilməzlər.
7. Hər hissədən sonra, şəkli çəkənlərdən şəkli bitirib-bitirməmələrindən asılı olmayaraq vərəqdə hüququn hansı olduğunu yazmağı və vərəqi kənara qoymağı xahiş edin.
8. İkinci hissəyə başlayın; şəkil çəkmək üçün yeni şəxsləri çağırın və onlara fərqli hüququ deyin. Bu məşğələni 7 və ya 8 dəfə təkrarlayın. Hər hissədə şəkli fərqli şəxs çəkməlidir. Hər bir şəxsin heç olmasa bir dəfə şəkil çəkmək imkanının olmasını təmin edin.
9. Sonda, müxtəlif hüquqların şəkilləri və təfsirlərinin müqayisə edilib müzakirə olunması üçün qruplardan şəkilləri yapışdırmağı xahiş edin.

ƏSAS TARİX

**10 Dekabr**
İnsan Hüquqları Günü

## Təhlil və qiymətləndirmə

Məşğələni nəzərdən keçirməklə başlayın və insanların öz hüquqları barəsində nə bildikləri barəsində danışın.

- İnsan hüquqlarını təsvir etmək iştirakçıların gözlədiyindən asan yoxsa çətin idi?
- Hər hansı hüququn şəklini çəkməyi insanlar necə seçdilər? Bu təsvirləri onlar haradan götürdülər?
- Əgər hüququ təsvir etmək üçün pozuntu hallarını təsvir ediblərsə, belə halların onların
- ölkəsində baş vermək ehtimalı nə qədərdir?
- Eyni hüququn müxtəlif təsvirləri necə müqayisə edilə bilər? Eyni anlayışın şəklini çəkməyin və onu təfsir etməyin neçə fərqli yolu var?
- Bütün şəkillər nəzərdən keçirildikdən sonra, iştirakçılardan insan hüquqları barəsində nə qədər az və ya çox məlumatı əldə etdiklərini soruşun.
- Onlar insan hüquqlarının öz həyatları ilə bağlılığı barəsində nə düşünürlər? Hansı hüquqların?

## Fasilitator üçün məsləhətlər

Bu məşğələdən əvvəl siz (601-ci səhifəyə baxın) ÜİHB-i oxumalı və insan hüquqları barəsində məlumata malik olmalısınız; məsələn, onlara beynəlxalq səviyyədə zəmanət verilməsi, qanuni şəkildə qorunması, onların insan ləyaqətinə əsaslanması, həm fərdləri, həm də qrupları qoruması, alına bilməməsi, bərabər, qarşılıqlı asılı və universal olması.

Siz divar cədvəlindən necə istifadə etmək barəsində qərara gəlməlisiniz. Əgər iştirakçıların ÜİHB barəsində çox az məlumatı varsa, cədvəldən məşğələyə başlamazdan əvvəl istifadə etməklə iştirakçıların nəyi tapacaqları haqqında müəyyən fikirə malik olmasını təmin edə bilərsiniz!

Əgər iştirakçılar daha artıq biliyə malikdirlərsə, cədvəldən sonda şəkili çəkilməyən hüquqlar barəsində müzakirələrə təkan vermək üçün istifadə edin. Özlərində rəssamlıq qabiliyyətinin olmadığını düşünən insanların bu məşğələni çox çətin hesab edəcəklərini nəzərə alın. Onlardan incəsənət əsərləri çəkmələrini istəmədiyinizi bildirin və şəkil çəkməyi sınamağa sövq edin. Onlar müsbət mənada təəccüblənə bilərlər!

Şəkili çəkiləcək hüquqları müəyyən etmək üçün ÜİHB-in 600-cü səhifədəki qısaldılmış versiyasından istifadə edin. Bəzi təkliflər bunlardır: yaşamaq hüququ, işgəncəyə məruz qalmamaq hüququ, ədalətli mühakimə hüququ, ayrı-seçkiliyə məruz qalmamaq hüququ, şəxsi həyat hüququ, təhsil hüququ, köləliyə məruz qalmamaq hüququ, birləşmək azadlığı, ifadə azadlığı, milli mənsubiyyət hüququ, düşüncə və vicdan azadlığı, səs vermək hüququ, işləmək hüququ, sağlamlıq hüququ, şəxsi mülkiyyət hüququ, evlənmək və ailə qurmaq hüququ, kiminlə evlənəcəyini seçmək hüququ.

## Variantlar

Əgər qrupunuzun üzvləri 8 nəfərdən azdırsa, bir qrup şəklində oynaya bilərsiniz; bir şəxsdən ilk hissədə şəikli çəkməyi xahiş edin, düzgün tapan şəxs növbəti hissədə şəkili çəkir və oyun belə davam edir.

Şəkil çəkmək yerinə, iştirakçılardan seçilmiş hüquqları pantomima vasitəsilə göstərməyi xahiş edə bilərsiniz.

## Sonrakı fəaliyyət üçün təkliflər

177-ci səhifədəki "Gül gücü" məşğələsi də hüquqların mənşəyini müəyyən etmək üçün şəkil çəkməkdən istifadə edir.

Əgər qrup kreativ olmağı xoşlayırsa, onlar 94-cü səhifədəki "Bunu həyata keçirin" məşğələsini bəyənə bilərlər. Bu məşğələdə iştirakçılar insan hüquqlarının ümumi anlayışını çatdırmaq üçün pantomimadan istifadə etməlidirlər.

Qrup xüsusi qrupa məxsus olan bəzi hüquqları öyrənmək istəyə bilər, məsələn, əlilliyi olan insanların hüquqlarını öyrənmək üçün 267-ci səhifədəki "Bacarığı görün" məşğələsindən istifadə etmək olar.

# Hamı üçün Təhsil?

*Sizin yaxşı yaddaşınız var? Bunu sınamaq vaxtıdır!*

| | |
|---|---|
| **Mövzular** | • Təhsil<br>• Uşaqlar<br>• Vətəndaşlıq və İştirak |
| **Mürəkkəblik** | 2-ci səviyyə |
| **Qrup ölçüsü** | 6 – 30 (4-5 nəfərlik kiçik qruplar) |
| **Vaxt** | 90 dəqiqə |
| **Xülasə** | Bu məşğələdə iştirakçılar dünya üzrə təhsilin təmin olunmasındakı uyğunsuzluqlar və “Hamı üçün Təhsil”ə necə nail olmaq barədə düşünərək kartları yerləşdirməli və cütlər şəklində seçməlidirlər. |
| **Əlaqədar hüquqlar** | • Təhsil hüququ<br>• Fiziki, əqli, ruhi, mənəvi və sosial cəhətdən inkişaf etmək hüququ<br>• Bərabərlik hüququ |
| **Məqsədlər** | • Təhsil və onun həyatın bütün sahələrinə təsiri barəsində biliyi artırmaq<br>• Yaddaş və tənqidi təhlil bacarıqlarını inkişaf etdirmək<br>• Məsuliyyət, insan ləyaqəti və ədalət hislərini formalaşdırmaq |
| **Materiallar** | • hər üç və ya dörd iştirakçı üçün 1 oyun kartı dəsti<br>• 2-ci hissədəki qeydlər üçün kağız və qələmlər |
| **Hazırlıq** | • Bütün ifadə kartlarını oxuyun.<br>• Oyun kartlarının kağızda surətini çıxardın və dayanıqlı olması üçün sərt kağıza yapışdırın. 40 kart kəsin. |

## Təlimatlar

1. İştirakçılardan Dünya Təhsil Forumu (WEF) və “Hamı üçün Təhsil” (EFA) barəsində nə bildiklərini soruşun. Lazım gələrsə, qısa şəkildə EFA məqsədlərini və hər kəsin ibtidai təhsilinin olmasına nail olmağın Minilliyin İnkişaf Məqsədlərindən (MDG-lər) biri olduğunu izah edin.
2. Məşğələnin iki hissədən ibarət olduğunu izah edin: 1-ci hissə, yaddaş oyunu və 2-ci hissə, məsələlərlə bağlı hesabat vermə.

**1-ci hissə. Yaddaş oyunu** (10 dəqiqə)

1. İyirmi kart cütü olduğunu bildirin. Hər cütə bir ifadə kartı və bir şəkil kartı aiddir, bu iki kart cütləşdirilməlidir. Kartlardakı bütün ifadələr Hamı üçün Təhsil, insan hüquqları və təhsillə bağlı məsələlərə həsr olunmuşdur.
2. İştirakçılardan Fikrini cəmləmə, Yaddaş, Pelmanizm və ya Cütlər oyununu bilib-bilmədiklərini soruşun, çünki bu onların dörd nəfərlik kiçik qruplarla oynayacağı oyundur. Qaydaları nəzərdən keçirin: onlar kartları üzü aşağı olmaqla döşəmədə və ya stolun üstündə paylayırlar. Bir nəfər oyuna başlayır və iki kartı çevirir. Əgər kartlardan biri (və ya hər ikisi) ifadə kartıdırsa, oyunçu başlığı və ifadəni ucadan oxuyur (italiklərdə yazılmış sual ikinci hissə üçündür!). Kartlar cütdürsə, oyunçu onları saxlayır və oynamağa davam edir. Əgər kartlar cütləşmirsə, oyunçu onları yenidən arxası üstə çevirir və döşəmədə əvvəlki yerlərinə qoyur. Növbəti oyunçu öz növbəsində iki kart seçir. Bütün kartlar seçildikdən sonra oyun bitir. Ən çox cütlüyü tapa bilən oyunçu qalib gəlir.

ƏSAS TARİX

**8 Sentyabr**
Beynəlxalq Savad Günü

**2-ci hissə.** Məsələlərlə bağlı hesabat vermə (60 dəqiqə)

1. Məsələləri flipçartda qeyd edin. Könüllülərdən siz yazarkən kartlardakı başlıqları oxumağı xahiş edin.
2. Qrupdan onlar üçün daha maraqlı olan dörd – altı məsələni seçməyi xahiş edin.
3. Qrupu 4 və ya 5 nəfərdən ibarət daha kiçik qruplara ayırın. Hər kiçik qrupdan müzakirə etmək istədikləri iki məsələni seçməyi xahiş edin.
4. Məsələlər razılaşdırılıb bölüşdürüldükdən sonra, qruplara seçdikləri iki məsələnin müzakirəsi üçün 20 dəqiqə vaxt verin. Müzakirələr üçün başlanğıc nöqtə kartlarda italiklərlə yazılan sual olmalıdır.
5. 20 dəqiqədən sonra ümumi qrupa hesabat vermək üçün iştirakçıları çağırın. Hər bir məsələyə sırayla toxunun. Hər bir qrupa məlumat vermək üçün 5 dəqiqə vaxt verin və digər iştirakçıların onlara suallarına 5 dəqiqədən artıq vaxt ayırmayın.
6. Bütün qruplar bütün məsələlərlə bağlı hesabat verdikdən sonra təhlilə başlayın.

## Təhlil və qiymətləndirmə

Sizin artıq məsələlərin müzakirəsi üçün kifayət qədər vaxtınız olub, ona görə də indi oyunun və iştirakçıların öyrəndiklərinin qiymətləndirilməsinə başlayın:

- İştirakçılar yaddaş oyununu bəyəniblər?
- Bu, təhsillə bağlı məsələlərin müzakirəsinə başlamaq üçün yaxşı metoddur?
- Qruplarda müzakirələr necə gedib? Hər kəs müzakirələrdə iştirak edə bilib?
- Maneələr həddən artıq çoxdur? “Hamı üçün təhsil” mümkündür?
- Sizin fikrinizcə, nəyə görə təhsil Minilliyin İnkişaf Məqsədləri sırasındadır?
- Sizin ölkəniz, icmanız və ya məktəbinizdə təhsil hüququna əsas maneələr hansılardır?
- Siz, qrupunuz və icmanız ölkənizdə və/və ya inkişaf etməkdə olan ölkələrdə hamı üçün təhsilə nail olunması üçün nə edə bilər?
- Savad üçün təhsilə diqqət ayrılmasına bu qədər ehtiyacın olduğu bir vaxtda insan hüquqları təhsilinin “unudulması” təhlükəsi var? Əgər belədirsə, bununla bağlı nə edilə bilər?

## Fasilitator üçün məsləhətlər

Bu metoddan istifadə edilməsində məqsəd müzakirə üçün lazım olan məlumatın çatdırılması prosesinə əyləncə elementini gətirməkdir.

Bu məşğələnin aparılması olduqca asandır. Məşğələyə başlamazdan əvvəl, bütün kartları oxuyun. Hansı kartların cüt olduğunu öyrənin. Belə ki, siz oyuna nəzarət edə və cütlərin düzgünlüyünü təsdiqləyə bilərsiniz. Oyunun necə oynanmasını izah edərkən siz cütlərdən birini göstərərək təlimatları nümayiş etdirə bilərsiniz. İfadə və sual arasındakı fərqi izah edin.

Siz iştirakçılara oyunun “Yaddaş” adlandırılmasının səbəbini oyunçuların uyğun kart cütlərini seçmək üçün müxtəlif kartların olduqları yerləri yadda saxlamalı olmaları ilə izah edə bilərsiniz.

2-ci hissədə, siz eyni məsələni iki müxtəlif qrupun müzakirə etməsini təmin edə bilərsiniz. Bu yolla, daha çox fikir irəli sürüləcəkdir. Eyni zamanda, kiçik qruplar müzakirə edəcəkləri məsələlər barəsində müəyyən danışıqlar aparmalı olacaqlar.

Kartların surətini çıxırarkən ölçünü artırmaqla onların oxunmasını asanlaşdırmaq yaxşı fikirdir. Əgər siz daha sonra vərəqləri bərk kağıza yapışdırsanız, bu tamamlanmış kartları daha dayanıqlı və tutulması asan edəcəkdir.

Bəzi kartlarda abbreviaturalar, məsələn, WEF (Dünya Təhsil Forumu) göstərilmişdir. Oyunu təqdim edərkən bu hərflərin nə demək olduğunu izah etməyi unutmayın (aşağıdakı “Əlavə məlumat”-a baxın).

Kartların üçdə birindəki ifadələrin 2000-ci ilin aprelində Seneqalın Dakar şəhərində Dünya Təhsil Forumunda (WEF) bəyan edilmiş hamı üçün təhsil məqsədlərinə həsr olunduğunu nəzərə alın. Kartların qalan hissəsi insan hüquqları və təhsil məsələlərinə və ya hamı üçün yüksək keyfiyyətli təhsilə nail olunması üçün vacib olan məsələlərə həsr olunmuşdur.

## Variantlar

Əgər 2-ci hissə üçün kifayət qədər vaxtınız yoxdursa, siz 199-cu səhifədəki “Bircə dəqiqə” məşğələsindəki metoddan istifadə edə bilərsiniz. Hər bir iştirakçıdan seçdikləri kartlardakı məsələlərdən biri barəsində bir dəqiqə ərzində tərəddüd etmədən və ya təkrarlama olmadan danışmağı xahiş edin. Əgər iştirakçıların şifahi təqdimat bacarıqlarını inkişaf etdirməyə ehtiyac duyduqlarını hiss edirsinizsə, bu, yaxşı seçimdir.

2-ci hissədə, siz əvvəlcədən müvafiq başlıqları yazdığınız böyüdülmüş şəkil kartlarını hazırlamaqla vaxta qənaət edə bilərsiniz. Bundan əlavə, xülasələri yazmaq yerinə, bu kartları yapışdıra bilərsiniz. Bu, vaxta qənaət etməyə imkan verəcək və cəlbedici görünəcəkdir.

## Sonrakı fəaliyyət üçün təkliflər

Yaddaş oyununda qaldırılan bir sıra məsələlər sonrakı məşğələlərdə istifadə oluna bilər. Məsələn, əgər siz təhsil və digər sosial ehtiyaclar üçün ayrılan büdcəni hərbiyə istifadə edilən büdcə ilə müqayisə etmək istəsəniz, 189-cu səhifədəki “Bizim nə qədərə ehtiyacımız var” məşğələsini edə bilərsiniz. Uşaq əməyi və təhsilə çıxışın olmaması kimi məsələlər 100-cü səhifədəki “Aşığın hekayəsi” məşğələsi ilə araşdırıla bilər.

## Fəaliyyət üçün fikirlər

Yaddaş kartları “Hamı üçün Təhsil” layihəsinə əngəl törədən bir sıra problemləri əks etdirir. Qrup tədqiqat aparmaq, həll yolları tapmaq və nəhayət, hərəkətə keçmək üçün hər hansı problemi seçə bilər. Bununla bağlı məsləhət almaq üçün 3-cü fəsildəki Hərəkətə Keçmək hissəsinə istinad edin.

Nəyə görə Parlamentinizin deputatlarına məktub yazıb onlardan ölkənizin Dünya Təhsil Forumunda qəbul edilmiş məqsədlərə nail olmaq üçün hansı addımları atdığını soruşmayasınız?

## Əlavə məlumat

Təhsil hüququ ÜİHB-in 26-cı maddəsində əks olunmuşdur. Buna baxmayaraq, dövlətlər pulsuz əsas təhsili hamıya təmin etməyi ümumi şəkildə qəbul edib öhdəlik götürsələr də, real həyatda pulsuz təhsil hamı üçün deyil, yalnız azlıq üçündür.

Hamı üçün Təhsil məqsədi Tailandın Jomtien şəhərində 1990-cı ildə keçirilmiş Hamı üçün Təhsil üzrə Dünya Konfransında müəyyən edilmişdir. Daha sonra, 2000-ci ildə, beynəlxalq ictimaiyyət Seneqalın Dakar şəhərində Dünya Təhsil Forumunda (WEF) bir araya gələrək ibtidai təhsilin təmin olunmasında əldə edilmiş inkişafı nəzərdən keçirmiş və hamı üçün Təhsil öhdəliyinin əhəmiyyətini bir daha vurğulamışdır.

164 ölkədən 1100 iştirakçı Dakar Fəaliyyət Planını qəbul edərək 2015-ci ilə qədər hamı üçün keyfiyyətli ibtidai təhsilə nail olmaq öhdəliyi götürdülər. Bütün beynəlxalq aktorların fəaliyyətinin koordinasiya edilməsi və qlobal səviyyədə dəstəyin təmin edilməsi YUNESKO həvalə edildi.

Fərqli ölkələrin müxtəlif maneələrlə üzləşdiyi qəbul edildi. Məsələn, bəzi ölkələrdə resurslar kifayət etmədiyi halda, digərlərində siyasi iradə lazımi səviyyədə nümayiş etdirilmir. Görüşün nəticələrindən biri Hamı üçün Təhsilin məqsədləri və hədəflərinə nail olunması üçün ölkələr daxilində (regional və beynəlxalq agentlik və qurumlarla əməkdaşlıqla dəstəklənən) genişmiqyaslı tərəfdaşlıqların yaradılmasının əhəmiyyətinin vurğulanması oldu.

Görüş zamanı təhsilin iyirmi birinci əsrdə davamlı inkişaf, sülh, cəmiyyətin səmərəli iştirakı və dayanıqlı iqtisadiyyat üçün fundamental əhəmiyyəti qeyd olundu. WEF-in vacib nəticəsi spesifik məqsədlərin müəyyən edilməsi, həmin məqsədlərə nail olunması üçün vaxt məhdudiyyətlərinin qoyulması, eləcə də Hamı üçün Təhsilə nail olmaq üçün bütün səviyyələrdə görülməli olan işlərin təsvirinin verilməsi oldu. Bu məqsədlərə nail olunması və qeyd edilən işlərin görülməsi isə cəmiyyətin hər bir səviyyəsində hər kəsin Hamı üçün Təhsildən xəbərdar olması və onun uğrunda mübarizə aparması sayəsində mümkün ola bilər.

**Mənbə**

YUNESKO Hamı üçün Təhsil: Dünya Təhsil Forumu Yekun Hesabatı, 2000.

WEF təşəbbüsü Minilliyin İnkişaf Məqsədlərinin (MDG) qəbul edilməsi ilə üst-üstə düşdü. Dakar məqsədlərindən yalnız ikisi MDG-də öz əksini tapıb. Buraya 2015-ci ilə qədər bütün uşaqlar üçün ibtidai təhsilin təmin edilməsi və gender bərabərliyi daxildir. İki il sonra icra prosesini sürətləndirmək üçün Sürətləndirilmiş Hərəkət Təşəbbüsü (FTI) kimi tanınan maliyyələşdirmə mexanizmi yaradıldı; onun qurulmasında məqsəd iki MİM-i təbliğ etmək idi və burada ibtidai təhsilin “tamamlanmasına” ona “çıxışın təmin edilməsindən” daha çox diqqət ayrılır.

Beləliklə, EFA məqsədləri Minilliyin səkkiz İnkişaf Məqsədlərinə (MDG) qlobal səviyyədə nail olunmasına töhfə verir. Hamı üçün Təhsil və MİM-lər arasında əlaqə haqqında daha çox məlumat üçün baxın: www.norrag.org.

Siz aşağıdakı saytları oxuya bilərsiniz:

– Hamı üçün Təhsil üzrə Qlobal Nəzarət Hesabatı: www.unesco.org/en/efareport
– Təhsil üçün Qlobal Hərəkat: www.campaignforeducation.org
– Təhsil Hüququ Layihəsi: www.right-to-education.org



**Pul və Təhsil**

Pul olmadan hökumətlər öz öhdəliklərini həyata keçirə bilməzlər. Bu, həmçinin, standartlarla bağlı məsələdir; az maaş alan müəllimlər və materialların çatışmazlığı keyifiyyətli təhsili təhlükə altında qoyur.

Pul olmasa, təhsil də yoxdur!

Razısınız?



**Gender bərabərliyi və Təhsil**

2015-ci ilə qədər bir çox ölkələr təhsildə gender bərabərliyi istiqamətində mühüm addımlar atıblar. Buna baxmayaraq, bəzi ölkələrdə qızlar və qadınların məktəbə getməsi qadağan olunub.

Sizin fikrinizcə, bu hal Hamı üçün Təhsilə olan inama xələl gətirir?



**Ərzaq və Təhsil**

Təhsil üçün Ərzaq (FFE)

Proqramları məktəb yeməklərini və/və ya evə aparmaq üçün porsiyalar təmin etməklə kasıb uşaqların da sağlam olmasına və təhsil ala bilməsinə şərait yaradır.

FFE proqramları EfA məqsədlərinə nail olmaq üçün əsasdır?



**Hamı üçün Təhsil**

Hamı üçün qlobal Təhsil hərəkatı 2015-ci ilə qədər bütün uşaqlar, gənclər və böyüklərin öyrənmə ehtiyaclarını qarşılamağı hədəfləyir.

Aydın şəkildə əldə edilməsi mümkün olmayan məqsədləri qarşıya qoymağın mənası var?



**Narkotiklər və Təhsil**

Spirtli içki, siqaret və digər narkotik maddələrdən istifadə bir çox məktəblər/universitetlərdə problemdir. Bu hallar, şagirdləri təhsildən uzaqlaşdırır və zorakılıq hallarını artırır.

Məktəbin narkotiklərdən istifadəyə qarşı qatı siyasəti həll yoludur?



**Hərb və Təhsil**

Bir çox ölkələrdə büdcənin böyük hissəsi hərbi xərclərə ayrılır və sosial sektor, xüsusilə təhsil üçün kifayət qədər vəsait saxlanmır.

Təhlükəsizlik təhsildən daha əhəmiyyətlidir?



**Müəllimlər və Təhsil**

İxtisaslı müəllimlər olduqca vacibdir. Bununla belə, bir çox inkişaf etməkdə olan ölkələrdə treyninq minimal səviyyədədir. Bütün məktəb müəllimləri üçün minimum tələb olaraq müəllimlik diplomunun olması qoyulmalıdır?



**Miqrasiya və Təhsil**

Təhsil səviyyəsi nə qədər yüksəkdirsə, şəxsin miqrasiya etmək ehtimalı o qədər artır. İnkişaf etməkdə olan ölkələrdən olan bir çox həkimlər, müəllimlər, mühəndislər və İT mütəxəssisləri Avropada işləyirlər.

Bu insanlara öz ölkələrində ehtiyac olduğu halda, Avropanın beyin axınından faydalanmasına mənəvi cəhətdən haqq qazandırmaq olar?



**Pulsuz Təhsil**

Hökumətlərin hamıya ibtidai təhsili təmin etmək öhdəliyi vardır. Reallıqda isə bir çox ölkələrdə kasıb ailələr məktəb ödənişlərini edə bilmirlər.

Məktəbin hamı üçün tamamilə pulsuz olması real görünür?



**İnsan Hüquqları Təhsili (İHT)**

“Hər bir şəxs və cəmiyyətin hər bir qurumu, ÜİHB müddəalarını xatırlayaraq, insan hüquq və azadlıqlarına hörmətin təbliği üçün təhsilə və öyrətməyə töhfə verəcəkdir.“ BMT Baş Assambleyası.

Hansı “cəmiyyət qurumları” İHT sahəsində ən effektivdir?



**Qloballaşma və Təhsil**

Qlobal dəyər şəbəkələri inkişaf etməkdə olan ölkələrin firmalarını müəyyən funksiyalar üzrə ixtisaslaşmağa vadar edir, məsələn, işin görülməsi üçün az treyninq və təhsil tələb olunan fabriklərdə paltar istehsalı.

Qloballaşma təhsilin dəyərini aşağı salır?



**Sülh və Təhsil**

Sülh təhsili rəsmi təhsil kurrikulumunun bir hissəsi olmalıdır. Onun yalnız qeyri-rəsmi təhsil şəraitində öyrədilməsi kifayət deyil.

Sülh təhsilini rəsmi kurrikuluma necə daxil edərdiniz?



**İnternet və Təhsil**

Bir çox ölkələrdə, informasiya texnologiyası təhsil prosesinin əsas hissəsinə çevrilməklə tədqiqat və ev tapşırığı üçün vacib rol oynayır.

Əgər dünyada hər bir uşağın kompyuteri olsa idi, hansı potensial üzə çıxarılardı? Hansı problemlər həll edilərdi?



**İdman və Təhsil**

İdman həmişə məktəb kurrikulumunda olmalıdır. O, digər fənlərdə öyrədilməyən bir çox məsələləri öyrədir. İdman bədənin və ağlın tam inkişafı üçün əhəmiyyətlidir.

Yuxarıda qeyd edilənlə razısınız yoxsa digər fənlər prioritetləşdirilməlidir, məsələn, texnologiya və bacarıqların treyninqi?



**Universitet (ali və sonrakı)**

Təhsili ÜİHB-də "hər kəsin təhsil hüququnun olduğu" bəyan edilir.

Hamı üçün Təhsildə ibtidai təhsil, savadlılıq və riyazi biliklərə diqqət ayrılır.

Təhsil hüququ ali və sonrakı təhsili əhatə etməlidir?



**Sosial Təcrid və Təhsil**

Bəzi Avropa ölkələrində roma uşaqları roma olduqlarına görə mexaniki şəkildə əqli cəhətdən çatışmazlığı olan siniflərə salınırlar. Digərlərində onlar romalar üçün ayrılmış daha aşağı məktəblər və ya siniflərə yerləşdirilirlər.

Roma uşaqlarını təhsil sisteminə inteqrasiya etməyin ən yaxşı yolu hansıdır?



**Ətraf mühit və Təhsil**

Avropada əksər insanların həyat tərzi dayanıqlı deyil. İnsanların öz həyat tərzlərini dəyişərək daha məlumatlı seçimlər etməsi üçün onlar ekoloji əlaqələri, iqtisadiyyat & siyasəti başa düşməlidirlər.

Dayanıqlı inkişaf təhsilini kurrikuluma necə daxil edərdiniz?



**Ömürboyu Öyrənmək**

Bir çox ölkələrdə böyüklərin savadsız olması mühüm problemdir. EfA məqsədlərindən biri 2015-ci ilə qədər böyüklərin savadlılıq səviyyəsinin 50% inkişaf etdirilməsidir.

Pulu ibtidai təhsilə ayırmaqla gələcəyə investisiya qoymaq yerinə onu böyüklərin savadlanması proqramlarına xərcləmək düzgündür?



**Nizam-intizam və Təhsil**

Müxtəlif ölkələrdəki məktəblər nizam-intizamı təmin etmək üçün fərqli metodlardan istifadə edir. Buraya fiziki cəzalar, uzaqlaşdırma, əlavə iş, qovulma, məktəb və ya kollec şurasında iştirak daxildir.

Sizin fikrinizcə, nizam-intizamı təmin etmək üçün ən yaxşı yanaşma hansıdır?



**QİÇS və Təhsil**

"QİÇS-ə qarşı müharibədə qalib gəlinməli ilk döyüş onun ətrafında formalaşmış sükunət və utanma divarını yıxmaqdır" (Kofi Annan).

QİÇS-lə mübarizədə təhsil qurumlarının rolu nə olmalıdır?

# Seçkiqabağı kampaniya

*Siz nə qədər inandırıcısınız?*

| | |
|---|---|
| **Mövzular** | • Demokratiya<br>• Vətəndaşlıq və İştirak<br>• Ümumi İnsan Hüquqları |
| **Mürəkkəblik** | 2-ci səviyyə |
| **Qrup ölçüsü** | İstənilən |
| **Vaxt** | 60 dəqiqə |
| **Xülasə** | Müzakirəyə əsaslanan bu məşğələ aşağıdakıları əhatə edir:<br>• Demokratiya ilə bağlı hüquqlar və öhdəliklər<br>• Demokratik müzakirə |
| **Əlaqədar hüquqlar** | • İdarəçilikdə və azad seçkilərdə iştirak etmək hüququ<br>• Fikir və ifadə azadlığı<br>• Düşüncə azadlığı |
| **Məqsədlər** | • Demokratik cəmiyyətin bəzi mübahisəli aspektlərini nəzərdən keçirmək<br>• Dinləmə, müzakirə və inandırma bacarıqlarını məşq və inkişaf etdirmək<br>• Əməkdaşlıq və açıqfikirliliyi təbliğ etmək |
| **Materiallar** | • Açıq məkan, uzun divar və 2 stul<br>• Kart (A4) və işarələr qoymaq üçün rəngli qələmlər<br>• Skoç<br>• Qeydlər üçün kiçik kartlar və qələmlər (istəyə görə) |
| **Hazırlıq** | • “Razıyam” və “Razı deyiləm” işarələrini düzəldin və onları uzun divarın əks künclərində yapışdırın. İnsanların divar boyunca düzxətt şəklində düzülməsi üçün kifayət qədər yer olmasını təmin edin.<br>• İki stulu otağın mərkəzində bir-birindən 50sm aralı yerləşdirin və onlar arasında insanların hərəkət etməsi üçün yer saxlayın.<br>• Aşağıdakı təkliflərdən bir bəyanat seçin və ya öz bəyanatınızı tapın. |

## Təlimatlar

1. Divarın künclərindəki iki işarəni göstərin, bəyanat oxuyacağınızı və iştirakçıların həmin bəyanatla az və ya çox səviyyədə razılaşa biləcəyini izah edin.
2. Seçilmiş bəyanatı ucadan oxuyun.
3. İnsanlara bəyanatla “nə qədər” razılaşıb-razılaşmadıqlarından asılı olaraq divar boyunca iki işarənin arasında dayanmağı deyin: əgər onlar tamamilə razıdılarsa və ya razı deyillərsə divarın müvafiq küncündə dayanmalıdırlar; digər halda, onlar iki nöqtə arasında bir yerdə dayanmalıdırlar.
4. İnsanlar sıra ilə düzüldükdən sonra, əks künclərdə dayanan iştirakçıları otağın mərkəzindəki iki stulda oturmağa dəvət edin. Hər kəs stulların ətrafına toplanmalı və fikri ilə “ən çox” razılaşdıqları şəxsin arxasında dayanmalıdırlar; və ya qərarsız olduqda mərkəzdə dayanmalıdırlar.
5. Stullarda oturan şəxslərin hər birinə ilkin bəyanatla razılaşıb – razılaşmamalarının səbəblərini bəyan etmək üçün bir dəqiqə vaxt verin. Heç kim onlara müdaxilə etməməli və ya kömək göstərməməlidir. Hər kəs sakitcə dinləməlidir.
6. Dəqiqənin sonunda, qrupdakı digər şəxslərdən natiqlərdən birinin arxasına keçməyi xahiş edin (onlar qərarsız qala bilməzlər), belə ki, müzakirə edilən bəyanat “lehinə” bir qrup və onun “əleyhinə” digər qrup formalaşmalıdır.

7. Hər iki qrupa ayrılıqda öz mövqelərini dəstəkləyəcək arqumentlər hazırlamaq və arqumentlərini təqdim edəcək başqa natiq seçmək üçün on dəqiqə vaxt verin.
8. On dəqiqənin sonunda qrupları geri çağırın və iki natiqi "tərəfdarları" əhatəsində stullarda əyləşməyə dəvət edin. Bu natiqlərə arqumentlərini çatdırmaq üçün üç dəqiqə vaxt verin, hər vaxtın sonunda, bu və ya digər tərəfdən olan tərəfdarlar öz mövqelərini dəyişə və qarşı tərəfin arqumentləri inandırıcı olduğu halda digər tərəfə keçə bilərlər.
9. Qruplara ayrılıqda öz arqumentləri üzərində işləmək və üçüncü natiqi seçmək üçün beş dəqiqə vaxt verin. Yenə də, çıxışlardan sonra istəyən şəxslərə mövqeni dəyişməyə imkan verin.
10. Təhlil üçün hamını bir araya toplayın.

ƏSAS TARİX

**19 sentyabr**
Səs vermək hüququ günü

## Təhlil və qiymətləndirmə

- İndi, müzakirə prosesinə və məqsədlər, eləcə də plüralist cəmiyyətin dəyərləndirilməsinin səbəbləri ilə bağlı fikir mübadiləsinə başlayın. Məsələnin müzakirəsinə qayıtmamağa çalışın.
- Müzakirə zamanı kimsə fikrini dəyişib? Əgər dəyişibsə, onları inandıran arqumentlər hansılardır?
- İnsanlar səsləndirilən arqumentlərdən başqa ünsürlərin onlara təsir etdiyini düşünür, məsələn, digərlərinin təzyiqi, emosional dil və ya rəqabət hissi?
- Müzakirə zamanı fikrini dəyişməyənlər üçün bu məsələrin müzakirəsi hər hansı əhəmiyyət daşıyır? Onların fikrini dəyişdirə biləcək hər hansı sübut təsəvvür edə bilərlər?
- Niyə insanların fikirləri fərqlidir? Demokratik cəmiyyətdə, bununla bağlı, nə edilməlidir?
- Demokratiyada bütün fikirlərə dözülməlidir?
- Müzakirələrdə başqa biri tərəfindən təmsil olunmaq və əksinə, rəsmi nümayəndə olaraq tərəfdarların fikirlərini səsləndirmək necə bir hiss idi?
- Yerli və milli səviyyədə siyasi həyatda təmsil olunmaq necə bir hisdir?
- Və ya iştirakçıların təşkilatlarında yaxud assosiasiyalarında (yaxud məktəb sinfində)?
- Bu məşğələdə hansı insan hüquqlarına toxunuldu?

## Fasilitator üçün məsləhətlər

Bu məşğələnin ilk hissəsi, iştirakçıların divar boyu düzülməsi bir neçə dəqiqədən artıq vaxt almamalıdır. Burada məqsəd sadəcə insanların "başlanğıc mövqelər"ini nümayiş etdirmək və digərləri ilə müqayisədə harada dayandıqlarını göstərməkdir.

Məşğələnin məqsədi həm ünsiyyət və inandırma bacarıqlarını inkişaf etdirmək, həm də məsələlər barəsində düşünməkdir. Buna görə də, iştirakçılar təkcə fikirlərinin məzmunu və təqdimatı barəsində deyil, həmçinin, digər tərəfdəki insanlara ən inandırıcı görünəcək arqumentlərin tipi və ya forması barəsində düşünməyə vadar edilməlidir. Onlar mümkün qədər çox insanı öz "partiyaları"na çəkməyə çalışmalıdırlar. Onlar "çıxışlar" arasındakı fasilələrdə rəqibin mövqeyi barəsində düşünə və onu zəiflətmək üçün vasitələr tapa bilərlər.

Aşağıda təklif edilən mövzularla yanaşı müzakirə üçün əsas kimi digər mövzulardan istifadə edə bilərsiniz. Əsas məsələ qrup daxilində fikir ayrılığı yaradacaq bəyanatı seçməkdir.

Bir bəyanatın müzakirəsi üçün müxtəlif hissələri əhatə etməklə təxminən 30 dəqiqənin lazım olduğunu nəzərə alın. Daha artıq bəyanatı müzakirə etmək istəyirsinizsə, vaxtı uyğun şəkildə bölüşdürməlisiniz.

Hissələrin dəqiq ardıcıllığına, qrupun güclü və zəif tərəfləri, eləcə də müzakirənin canlılığından asılı olaraq, müəyyən dəyişikliklər etmək məsləhət görülür. Məsələn:

- Qruplara arqumentlərin hazırlanması üçün bir və ya iki interval əlavə verməklə, müxtəlif natiqlərin öz fikirlərini səsləndirməsinə şərait yarada bilərsiniz.
- Əgər bu məşğələni qrupla daha əvvəl etmisinizsə – və ya etməsəniz belə – ilk natiqlərin

seçilmə üsulunu dəyişməklə müəyyən təəccüb elementini saxlaya bilərsiniz – məsələn, hər küncdən üçüncü dayanan iki nəfəri seçə bilərsiniz.

- Arqumentləri hazırlamaq üçün intervalların birində bir natiqin "tərəfdarları"ndan digər natiqlə işləməyi– başqa sözlə öz tutduqları mövqenin əksinə arqumentlər hazırlamağı xahiş edə bilərsiniz. Bu, insanların digər yanaşma barəsində düşünməsi üçün yaxşı yoldur və insanlar öz mövqelərini müzakirə ərzində dəyişmirlərsə, maraqlı dəyişiklik ola bilər.

Natiqlərə müxtəlif arqumentləri xatırlamaları və danışarkən onlara istinad etmələri üçün qısa qeydlər yaza biləcəkləri açıqca ölçüsündə kağızlar götürməyə imkan verə bilərsiniz.

Tolerant cəmiyyətdə "plüralizm" və ya ifadə azadlığına hər hansı məhdudiyyətlərin olub – olmaması barəsində məsələni qaldıra bilərsiniz: məsələn, faşist və ya milliyyətçi nümayişlərə icazə verilməlidir?

## Sonrakı fəaliyyət üçün təkliflər

Əgər fikirlərin, xüsusilə mətbuatın təsiri ilə necə formalaşması və ya dəyişməsini izləmək istəyirsinizsə, 181-ci səhifədəki "Ön səhifə" məşğələsinə baxa bilərsiniz.

Əgər insanların fikirləri və onların dünya barəsindəki stereotipləri və təsəvvürləri arasındakı əlaqə haqqında düşünmək istəyirsinizsə, Hər kəs Fərqli - Hər kəs Bərabər Tədris Paketindəki "Mədəniyyət" məşğələsinə baxa bilərsiniz.

## Fəaliyyət üçün fikirlər

Əgər səs vermək barəsindəki bəyanatı seçirsinizsə, məşğələni yerli icmanızdakı səs vermək vərdişləri ilə bağlı sorğu ilə davam etdirə bilərsiniz; 306-cı səhifədəki, "Səs vermək yoxsa verməmək" məşğələsinə baxın.

## Əlavə məlumat

Səs vermək hüququ günü sentyabrın 19-da qeyd olunur. 1893-cü ildə həmin gündə Yeni Zelandiyada qadınlara səs vermək hüququ təqdim olunmuşdur, belə ki, dünyada ilk dəfə Yeni Zelandiyada universal şəkildə səs vermək hüququ təmin edilmişdir.

## Paylanmalı materiallar

**Müzakirə üçün bəyanatlar**

- Bizim seçkilərdə səs vermək kimi mənəvi öhdəliyimiz var.
- Biz bütün qanunlara, ədalətsiz olsalar belə, əməl etməliyik.
- Demokratiyada hər hansı gücə malik olan yeganə şəxslər siyasətçilərdir.
- "İnsanlar layiq olduqları rəhbərləri alırlar".
- Hökumətin gündəlik fəaliyyətinə nəzarət vətəndaşların məsuliyyətindədir.
- İfadə azadlığı istədiyini deyə bilməkdir.
- Neo-faşist partiyalar qadağan olunmalıdır.
- Ekstremistlərin ictimai yerlərdə danışması qadağan olunmalıdır.
- Səs vermək öhdəlik olmalıdır.
- Məktəb şurasındakı nümayəndələrə səs vermək mənasızdır, çünki onlar yalnız müzakirə aparıb məsləhət verirlər;
- icbari qərar qəbul edə bilmirlər.

# Hüquq mübarizləri

*Mən ideal uğrunda yaşamağı və ona nail olmağı arzu edirəm. Lakin lazım gələrsə, mən onun uğrunda ölməyə də hazıram.*

Nelson Mandela

**Mövzular**
- Ümumi İnsan Hüquqları
- KİV
- Vətəndaşlıq və İştirak

**Mürəkkəblik** 2-ci səviyyə

**Qrup ölçüsü** İstənilən (3-4 nəfərlik kiçik qruplar)

**Vaxt** 60 dəqiqə

**Xülasə** Bu məşğələdə insan hüquqları qəhrəmanlarına maraq oyatmaq üçün məlumat kartlarından istifadə olunur. Müzakirə olunacaq məsələlərə aiddir:
- Siyasi repressiya
- İyirminci əsrdə insan hüquqları fəalları
- Müxtəlif ölkələrdə hüquqlar uğrunda mübarizə

**Əlaqədar hüquqlar**
- Fikir və ifadə azadlığı
- Qanun qarşısında bərabərlik və ədalətli mühakimə hüququ
- İşgəncə və alçaldıcı rəftara məruz qalmamaq hüququ

**Məqsədlər**
- Müxtəlif ölkələrdə insan hüquqları uğrunda mübarizə aparan bəzi şəxsiyyətlər barəsində öyrənmək
- Məlumatla işləmək və sıralamaq, əməkdaşlıq və komanda işi bacarıqlarını inkişaf etdirmək
- İnsan hüquqları ilə bağlı hörmət, məsuliyyət və marağı təbliğ etmək

**Materiallar**
- Hər kiçik qrup üçün 30 kartdan ibarət dəst
- Qayçı
- Zərflər
- İstəyə görə: yapışqan və kartları yapışdırmaq üçün sərt kağız

**Hazırlıq**
- Otağı kiçik qrupların işləyə biləcəyi hala gətirin.
- Hər kiçik qrup üçün bir dəst olmaqla 170-ci səhifədəki kartların surətini çıxardın.
- Hər otuz kart dəstini kəsin, ardıcıllıqla olmaması üçün qarışdırın və zərflərə qoyun. Dəstləri bir-birindən ayrı saxlamaq vacibdir!

## Təlimatlar

1. İştirakçılardan 3 və ya 4 nəfərlik kiçik qruplara ayrılmağı xahiş edin. Hər qrupa bir kart dəstini ötürün.
2. Onlardan kartları döşəmədə üzü aşağı olmaqla paylamağı xahiş edin.
3. Kartların altı insan hüquqları mübarizinin həyatında baş verən hadisələri əks etdirdiyini izah edin. Hər qrupun məqsədi hadisələri düzgün şəxsə aid etmək və hər şəxsin mübarizəsinin qısa təsvirini qurmaqdır.
4. Hər bir mübariz üçün "beş kartlıq dəstin" olduğunu izah edin (başqa sözlə, bir "A", bir "B", bir "C", bir "D" və bir "E" kartı).

Ümumi İnsan Hüquqları

KİV

Vətəndaşlıq və İştirak

2-ci səviyyə

İstənilən (3-4 nəfərlik kiçik qruplar)

60 dəqiqə

5. Hər qrupa kartlar bitənə qədər hər hissədə bir nəfər bir kart götürməklə oynamağı deyin.
6. İştirakçılara öz kartlarını sakitcə oxumaq üçün bir neçə dəqiqə vaxt verin.
7. Daha sonra, onlara getməyə icazə verin… Hər qrupa şəxsiyyətin mübarizəsini qurmaq üçün strategiyalarını hazırlamağa icazə verin. Bu mərhələ üçün onlara təqribən 15 – 20 dəqiqə vaxt lazım olacaqdır.
8. Hamını bir araya toplayın və qrupların birinin nümayəndəsindən şəxsiyyətlərdən birinin mübarizəsini öz sözləri ilə təqdim etməyi xahiş edin. Bunu sıra ilə digər qruplarla təkrarlayın. Beləliklə, hər bir mübariz tam şəkildə təqdim olunacaqdır və hər qrup "hissələri" düzgün şəkildə yığdıqlarını yoxlaya biləcəkdir.

## Təhlil və qiymətləndirmə

1. Tapşırıq nə qədər asan idi və fərqli qruplar kart dəstlərini ayırmaq üçün hansı strategiyalardan istifadə ediblər?
2. Hansı şəxsiyyətlər barəsində iştirakçılar daha əvvəl eşitmişdilər və hansılar onlar üçün yeni idi? Onların fikrincə, nəyə görə bəzi şəxsiyyətlər barəsində məlumatları olmadığı halda, digərləri olduqca məhşurdur?
3. Məlumatlardan hər hansı biri iştirakçıları təəccübləndirib? Onlar hansı məlumatı ən təəccübləndirici və ya ən təsirli hesab ediblər?
4. İştirakçılardan özlərinə ən çox aid olduğunu düşündükləri aforizmi seçməyi xahiş edin: onların fikrincə, əgər müvafiq şəxsiyyətlə eyni vəziyyətə düşsə idilər, özlərini necə aparardılar?
5. Ayrı-ayrı "mübarizlər" məhz hansı hüquqları müdafiə edirdilər?
6. "Qəhrəmanlıq" insan hüquqlarını müdafiə etmək üçün uyğun olmayan fəaliyyətdir? İnsan hüquqları pozuntularının qurbanı olan şəxslər üçün hansı tədbirlər görülə bilər?

## Fasilitator üçün məsləhətlər

Qeyd edilən şəxsiyyətlər haqqında böyük həcmdə məlumat mövcuddur və təmin edilən qısa bioqrafiyalar məsələ ilə bağlı olduqca məhdud (və subyektiv) yanaşmanı əks etdirir. Eyni zamanda, bu siyahıya daxil edilə biləcək yüzlərlə digər insan hüquqları fəalları var. Onlar üçün baxın: http://www.universalrights.net/heroes/.

Əgər siz Kompas-dakı nümunələrdən istifadə etmək istəsəniz, lakin onların birlikdə çalışdığınız gənclər üçün yad şəxsiyyətlər ola biləcəyini düşünsəniz, məşğələyə qısa girişlə başlaya bilərsiniz. Ölkənizdə yaxşı tanınan dörd və ya beş məhşur BMT səfirinin şəkillərini tapın, onları böyük kağızlara yapışdırıb divara asın. Qrup üzvlərindən onların adını və BMT səfiri olaraq nə etdiyini soruşun.

Eyni zamanda, qeyd olunmalıdır ki, iştirakçılar bu fəalların tutduğu mövqeni təkrarlamaqla bağlı özlərini "təzyiq altında" hiss etməməlidirlər. İnsan hüquqları uğrunda mübarizənin müxtəlif formaları var və ayrı-ayrı fərdlər öz inamları və bacarıqlarına uyğun gələn yolu seçirlər, məsələn, mövcud QHT-lər vasitəsilə çalışmaq, ərizələr hazırlamaq və ya birbaşa lobbiçilik etmək.

## Variantlar

Hər kiçik qrupa boş kart verin və onlardan seçdikləri hüquq mübarizinin qısa bioqrafiyasını yazmağı xahiş edin. Daha sonra, qruplardan kartları dəyişməyi və bir-birinin "mübarizi"ni tapmağı xahiş edin. Bu dəyişikliyi edirsinizsə, mübarizlərin məhşurlar və müğənnilər olması sizi təəccübləndirməsin. Bütün təklifləri qəbul etməli və insanların nail olduğu və ya mübarizə apardığı məsələləri vurğulamalısınız. Əgər siz verilmiş şəxsiyyətin insan hüquqları ilə əlaqəsi olduğu ilə razı deyilsinizsə, digər iştirakçıları rəy bildirməyə dəvət etmək yaxşı yanaşma ola bilər.

ƏSAS TARİX

**10 dekabr**
İnsan Hüquqları Günü

## Sonrakı fəaliyyət üçün təkliflər

İştirakçılarda tarix boyu insan hüquqları uğrunda mübarizəyə töhfə vermiş şəxsiyyətlər haqqında anlayışı inkişaf etdirmək üçün onları bu məşğələdən sonra insan hüquqları fəalları barəsində məlumat toplamağa həvəsləndirməyiniz məsləhət görülür. Qrup özünün insan hüquqları fəalları “portret qalereyası”nı düzəltməyə başlaya bilər. Bu məşğələdə verilmiş altı şəxsiyyət başlanğıc kimi istifadə oluna bilər: şəkillər aforizmlər və qısa bioqrafiyalar-la birlikdə kart hissələrinə yapışdırılıb otaq boyunca nümayiş etdirilə bilər. Qrupun hər bir üzvündən digər şəxsiyyətlər barəsində məlumat toplamasını və onları portret qalereyasına əlavə etməsini xahiş etmək olar. Burada təqdim olunmuş altı mübarizin hər biri mülki və si-yasi hüquqlar uğrunda mübarizə aparmışdır, lakin hüquqların əhatə dairəsini genişləndirərək buraya sosial və iqtisadi hüquqları daxil etmək olar. Nümunə kimi Çiko Mendes göstərilə bilər.

Vətəndaş cəmiyyətində fikir bildirmək və hüquqlar uğrunda mübarizə aparmaq üçün müəyyən vasitələr vardır. Əgər onları daha ətraflı şəkildə nəzərdən keçirmək istəyirsinizsə, 223-cü səhifədəki “Əlaqələr qurmaq” məşğələsini edə bilərsiniz. İndi isə öz hüquqlarınızı müdafiə etməli olduğunuz vəziyyət barəsində düşünmək istəyə bilərsiniz.

Əgər belədirsə, Hər kəs Fərqli - Hər kəs Bərabər Təhsil Paketindəki “Nahara kimin gəldiyini tapın” oyununu oynamaqla evinizə valideynlərinizlə tanış olmaq üçün “uyğun gəlməyən” oğlan/qız gətirdikdə nəyin baş verəcəyini araşdıra bilərsiniz.

## Fəaliyyət üçün fikirlər

Müasir siyasi məhbuslar və ya fəallar barəsində məlumat toplayın – məsələn, Beynəlxalq Amnistiya Təşkilatının “Vicdan Məhbusu” hesab etdiyi şəxslər. İnsanları bu məhbus barəsində məlumatlandırmaq və onun azad edilməsi üçün müvafiq fərdlərə təzyiq etmək üçün məktub yazın və ya hərəkat hazırlayın.

## Əlavə məlumat

Beynəlxalq Amnistiya Təşkilatının Böyük Britaniya şöbəsi insan hüquqları müdafiəçilərinin tarixi divar cədvəlini hazırlamışdır, cədvəl onların vebsaytından sifariş edilə bilər: http://www.amnesty.org.uk

## Paylanmalı materiallar

### Müzakirə kartları

| A | A |
|---|---|
| ”Mən ağdərililərin hökmranlığına qarşı mübarizə aparmışam, mən, həmçinin, qaradərililərin hökmranlığına qarşı mübarizə aparmışam. Mən hamının əmin-amanlıqda yaşadığı və bərabər imkanlara malik olduğu demokratik və azad cəmiyyət idealına ümid bəsləyirəm. Bu, uğrunda yaşanmalı və nail olunmalı idealdır. Lakin lazım gələrsə, mən onun uğrunda ölməyə də hazıram.” Nelson Mandela | ”Bəzi ağrılı, eyni zamanda, rahatladan təsadüflər nəticəsində, mən özüm üçün mənəvi vəhşiliyin dərinliyindən “bu, mənim günahımdır” fəryadının qəfildən necə ucalmasını və bu fəryad ilə xəstənin özünü insan adlandırmaq hüququnun bərpa olunmasını görmüşəm.” Yevqeniya Qinzberq |
| **B** | **B** |
| Umtata yaxınlığında anadan olub və 76 yaşında ölkədə keçirilən ilk demokratik seçkilərdə Cənubi Afrika Respublikasının Prezidenti seçilib. Həmin vaxta qədər – və daha sonra – onun həyatı | 1906-cı ildə Rusiyada anadan olub və 1977-ci ildə Moskvada vəfat edib. Stalin rejiminin saxtalaşdırılmış məhkəməsində terrorist olaraq damğalanana qədər müəllim və jurnalist kimi çalışıb. Digərlərini etmədikləri cinayətlərə görə günahlandırmaqdan imtina etdiyindən 18 ilini |
| **C** | **C** |
| aparteidə qarşı mübarizəyə, əvvəlki ağdərili hökuməti tərəfindən əksəriyyət təşkil edən qaradərili əhalinin istismarı üçün istifadə olunan irqçi sistemə qarşı mübarizəyə həsr olunub. Repressiyanın müxtəlif formalarından əziyyət çəkib: görüşlərə gəlməsi qadağan olunub, gizlənməyə məcbur edilib və sonda, | Sibirin həbs düşərgələrində dəhşətli şəraitdə keçirib. İlk ilini təklikdə rütubətli hücrədə saxlanılıb, gün ərzində idman etməsi, danışması, oxuması və uzanması qadağan olunub. Daha sonra, o, |
| **D** | **D** |
| 44 yaşında həbs olunaraq ömürlük həbs cəzası alıb. Həyatının növbəti 28 ilini ailəsi və uşaqlarından uzaqda türmədə barmaqlıqlar arxasında keçirib. | Sibirin əmək düşərgələrinin birindən digərinə, o cümlədən, məhbuslardan birinə kömək etdiyinə görə, çox az insanın sağ qayıtdığı ən pis düşərgəyə göndərilib. |
|  |  |

| | |
|---|---|
| **A**<br>“Mənim bir xəyalım var, gün gələcək, bu xalq ayağa qalxacaq və öz inam dəyərlərini tam mənasıyla yaşayacaq: “Bu xüsus açıq-aşkar ortadadır ki, bütün insanlar bərabər yaradılmışdır.” Mənim bir xəyalım var, gün gələcək, mənim dörd uşağım dərilərinin rənginə görə deyil, öz xarakterlərinin xüsusiyyətlərinə görə qiymətləndirildikləri bir cəmiyyətdə yaşayacaqlar”<br>Martin Lüter Kinq | **A**<br>“Qeyri-zorakılıq bəşəriyyətin sahib olduğu ən böyük qüvvədir. İnsanın ustalığı ilə birləşdikdə o, ən güclü qırğın silahından daha qüvvətlidir“<br>Mahatma Qandi |
| **B**<br>1929-cu ildə Corciya, Atlantada anadan olub, həmin vaxtlarda qanun qaradərililərdən avtobuslar, teatr və kinoteatrlarda xüsusi oturacaqlarda oturmağı və ağdərililərlə ayrı fontanlardan su içməyi tələb edirdi. 28 yaşı olanda | **B**<br>1869-cu ildə, Qucaratda yaşayan Hindu ailəsində anadan olub, həmin vaxtda Hindistan hələ də zorla Britaniya İmperiyasının müstəmləkəsi olaraq saxlanılırdı. O, müstəqillik uğrunda mübarizəyə rəhbərlik edirdi, bir neçə dəfə həbs olunsa da, |
| **C**<br>irqi ayrı-seçkiliyə qarşı dinc yürüşlər, nümayişlər və etirazlar təşkil edən qaradərili kilsələri təşkilatının yaradıcılarından olub. Təşkilat Birminqham, Alabamada, yüzlərlə şagirdin küçələri doldurub mahnı oxuyaraq dəstək olduğu | **C**<br>dinc etiraz və dini tolerantlığın gücünə olan möhkəm inamını qoruyub saxlayırdı. Hindlilər bir – birinə və Britaniyalılara qarşı zorakılıqla davrandıqda Rac bu hal bitənə qədər aclıq aksiyası keçirirdi. O, Hindistan boyunca 241 mil yürüş edərək |
| **D**<br>etiraz aksiyasında iştirak edib. Polisə hücum itləri ilə, yanğın söndürənlərə isə yüksək təzyiqli su şlankları ilə həmin nümayişə müdaxilə etmək əmr edilmişdi. Həbs olunaraq türməyə salınıb. | **D**<br>tərəfdarlarını polis və əsgərlərin zorakılığını qarşılıq vermədən qəbul etməyə inandırdı. Yorulmadan sülhə həsr etdiyi ömrünün ümumilikdə 2338 gününü həbsdə keçirdi. |
|  |  |

**A**

"Biz hərbi rejimi məhv etməyə və ya yoxa çıxarmağa çalışmırıq; lakin onlar daim bizi bununla təhdid edirlər... bizim məqsədimiz hamıya, o cümlədən hərbçilərə təhlükəsizliyi təmin edən cəmiyyət qurmaqdır."

Dav Aunq San Su Kyi

**A**

"Alas, yaddaşımdakı bu kədərli mahnını məhbuslara kömək edənlərə göndərirəm. Qaranlıq mövsümdəki bu hislər – mən dəhşətli işgəncələri heç vaxt unutmayacağam. Qoy heç bir şüurlu varlıq hazırda həbsdə olan bu səfilliyə məruz qalmasın.

Nqavanq Sanqdrol

**B**

1945-ci ildə Birmada anadan olub, o, müstəmləkə hökmranlığından azad olmaq uğrunda mübarizənin qətlə yetirilmiş milli qəhrəmanının uşağı idi. Qəddar hərbi rejimə qarşı demokratiya uğrunda mübarizənin məhşur liderinə çevrilmişdi və

**B**

Tibetin Çindən ayrılıb müstəqilliyini elan etməsinə inanan buddist rahibədir, ilk dəfə 10 yaşında Çin orqanları tərəfindən həbs olunub. Onun törətdiyi yeganə cinayət

**C**

az qala tüfənglərini ona qarşı çevirmələri əmr olunmuş ordu hissəsi tərəfindən qətlə yetirilmişdi. Heç bir cinayətlə ittiham olunmadan 6 il ev həbsində saxlanılıb və xarici dünya ilə əlaqəsi tamamilə kəsilib. Azad olunduqdan sonra da, hökumət

**C**

Tibetin müstəqilliyi uğrunda dinc nümayişdə iştirak etmək idi. 15 yaşında yenidən həbs edilib və 3 il həbsə məhkum olunub. Cəzası, ilk öncə, türmədə azadlıq mahnısı oxuduğuna görə uzadılıb; daha sonra isə, türmənin həyətində yağışın altında "Azad Tibet" çığırdığına görə

**D**

ölməkdə olan həyat yoldaşını görməsinə imkan verməyib. 1991-ci ildə Nobel Sülh Mükafatına layiq görülüb. 2010-cu il noyabrın 13-də ev həbsindən azad edilib.

**D**

daha 8 il həbsdə saxlanılıb. Hazırda məruz qaldığı işgəncələr nəticəsində böyrəklərində problemləri var.





# Barmaqlar və baş barmaqlar

*Biz müxtəlif gəmilərdə gəlmiş ola bilərik, lakin indi hamımız eyni qayıqdayıq.*

Martin Lüter Kinq Jr.

**Mövzular**
- Ətraf mühit
- Sülh və zorakılıq
- Miqrasiya

**Mürəkkəblik** 4-cü səviyyə

**Qrup ölçüsü** İstənilən (5 nəfərlik kiçik qruplar)

**Vaxt** 60 dəqiqə

**Xülasə** Bu məşğələ ən yaşıl gənc qrupunu müəyyən etmək üçün yarışın simulyasiyasıdır. Onlar dürüst olacaqlar yoxsa aldadacaqlar?

**Əlaqədar hüquqlar**
- Qanun qarşısında bərabərlik hüququ
- Yaşamaq və sağ qalmaq hüququ
- Hüquq və azadlıqların tam şəkildə reallaşdırıla bildiyi beynəlxalq mühitdə yaşamaq hüququ

**Məqsədlər**
- Əməkdaşlığın dəyərinin və müqavilələrə nəzarət edilməsi və onların yoxlanmasına olan ehtiyacın anlaşılmasını inkişaf etdirmək
- Əməkdaşlıq bacarıqlarını formalaşdırmaq
- Ədalət və düzgünlük hissini təbliğ etmək

**Materiallar**
- Hər qrup üçün bir təlimat vərəqi nüsxəsi
- Hər qrup üçün bir xal vərəqi nüsxəsi
- Xalları yazan hər qrup üzvü üçün bir qələm
- Kiçik qrup işi üçün məkan

Ətraf mühit

Sülh və Təhlükəsizlik

Miqrasiya

4-cü səviyyə İstənilən (5 nəfərlik kiçik qruplar)

60 dəqiqə

## Təlimatlar

Səhnə qurun: Şəhərdəki (və ya məktəb yaxud sinifdəki) ən yaşıl gənclər klubunu tapmaq üçün yarış keçirilir. Hər iştirakçı fərqli gənclər qrupunu təmsil edir və hazırda növbəti mərhələyə kimin keçəcəyini müəyyən etmək üçün seçim aparılır. Məqsəd mümkün qədər çox xal toplamaqdır.

1. İştirakçılardan 5 nəfərlik qruplarda birləşib kiçik dövrələrdə oturmağı xahiş edin.
2. Dörd nəfər yarışçı dörd gənclər klubunun nümayəndələrini oynayacaq və bir nəfər xalları yazacaqdır. Xal yazanın, həmçinin, hakim olaraq oyunun hər hissəsinə başlamaq barədə siqnal vermək məsuliyyətin daşıdığını izah edin. O, xal vərəqini doldurmaq və hamının qaydalara əməl etməsini təmin etməyə görə də məsuliyyət daşıyır.
3. Hər qrupdan kimin xalları yazacağına qərar verməyi xahiş edin.
4. Hər qrupda xalları yazanlara təlimat vərəqinin nüsxəsini ötürün. Oyunçuların oyunun və xalların toplanmasının qaydalarını başa düşməsini təmin etmək üçün onlardan bu vərəqi qrupa ucadan oxumağı xahiş edin. Oyunçuların istədikləri vaxt qaydaları nəzərdən keçirə bilməsi üçün vərəqi hamının görə biləcəyi yerə yerləşdirin.
5. Bütün qruplar hazır olduqda onlar məşq üçün bir hissə oynamaqla başlaya bilərlər. Əgər hamı nə edəcəyini başa düşübsə, yarış başlaya bilər.
6. Qrupların hamısı 10 hissəni oynadıqdan sonra xalları yazan iştirakçılardan qrup üçün ümumi xalları hesablamağı və ən yüksək və ən aşağı fərdi xalları qeyd etməyi xahiş edin. Daha sonra, təhlillə davam edin və oyunun necə getdiyini, iştirakçıların nə öyrəndiyini əvvəl kiçik qruplarda, sonra ümumilikdə müzakirə edin.

## Təhlil və müzakirə

- İştirakçılardan kiçik qruplarda aşağıdakıları nəzərdən keçirməyi xahiş edin:
- Kim ən çox xal toplayıb? Qalib gəlmək üçün necə oynadınız?
- Ən aşağı xalı kim toplayıb? Özünüzü necə hiss edirsiniz?
- Kimsə aldadıldığını hiss edir? Niyə?
- 5, 8 və 10-cu hissələrdən əvvəl hər hansı razılığa gəlmisiniz? Nə baş verib?
- Kimsə razılığı pozub? Niyə?

Ümumi müzakirədə:

- Xalları yazan iştirakçılardan qruplarındakı ən yüksək və ən aşağı fərdi xalları və qrupun ümumi xalını bildirməyi xahiş edin. Bu rəqəmləri aydın şəkildə flipçarta yazın.
- Ən yüksək ümumi xal hansı qruplardadır? Həmin qruplarda oyunçular əməkdaşlıq edib yoxsa bir-birini aldadıb?
- Bu oyunun reallıqla əlaqəsi nədir? Dəqiq misallar gətirin.
- İnsanlar ətraf mühiti qorumaq üçün tədbir görmək barəsində razılığa gəldikdə, biz bütün iştirakçıların, həqiqətən də, dürüst şəkildə davranmasını necə təmin edə bilərik?
- Bir qrupun digərləri hesabına "ən yaşıl qrup" olmasının mənası var?
- 2009-cu ildə COP 15 İqlim Konfransında siyasətçilərin CO2 emissiyası üzrə gözlənilən razılığa gələ bilməməsinin səbəblərindən biri ölkələrin nəzarətlə bağlı razılığa gələ bilməməsi idi. Onların "bir addım geri atıb" praktiki detallara diqqət ayırması və hansı insan hüquqlarının pozulmasını müəyyən etməsi faydalı ola bilərdi? Niyə?
- İqlim dəyişikliyi ilə bağlı hansı hüquqlar ən çox təsirə məruz qalır? Hansı hüquqlar pozulur?
- İqlim dəyişikliyi ilə bağlı problemin zəngin ölkələr tərəfindən törədildiyini və kasıb ölkələrin ondan daha çox əziyyət çəkdiyini nəzərə alsaq, sizin fikrinizcə, bərabərlik məsələsini həll etmək üçün ən ədalətli yol hansıdır?
- İqlim dəyişikliyi modellərində proqnozlaşdırılan sərt hava şərtlərinin artması milyonlarla insanın evsiz qalacağı deməkdir. Ölkəniz bununla bağlı nə etməlidir?
- İqlim dəyişikliyi ilə mübarizədə insan hüquqları təhsili müəyyən rol oynaya bilər? Əgər belədirsə, necə?

COP 15 BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflərinin 15-ci Konfransının abbreviaturasıdır. O, həmçinin, BMT İqlim Dəyişikliyi Konfransı 2009 kimi tanınır.

## Fasilitator üçün məsləhətlər

Oyun nəticəsində oyunçuların əməkdaşlıq etdiyi qruplar ən yüksək qrup xalını toplayacaqlar. Oyunçuların digərlərini aldatdığı qruplar daha aşağı ümumi xal toplayacaqlar; başqa sözlə, fərd özü üçün yaxşı nəticə göstərə bilər, lakin bu digərlərinin uğursuzluğu hesabına başa gələcəkdir. Buradan gəlinən nəticə - insanlar əməkdaşlıq etdikdə hamının qalib gəlməsidir.

Könüllü razılaşmaların zəifliyini, hökumət direktivləri və qanunlarının mənfi və müsbət tərəflərini müzakirə edərkən iştirakçılardan populyar olmayan, lakin vacib olan tədbirlərlə bağlı səs verənlərin dəstəyini qazanmaq üçün aparılan məlumat kampanyaları barəsində nə düşündüklərini soruşa bilərsiniz. Bu nümunəni nəzərdən keçirin: bir neçə il əvvəl Səliqəli Britaniya qrupu Mənim Kiçik Banderolum Heç Bir Dəyişiklik Edə Bilməz başlıqlı kampaniya aparmışdı. Kampaniya çərçivəsində bir çoxunun üzərindəki nitq qabarcıqlarında "Mən heç bir dəyişiklik edə bilməyəcəyəm" şüarı yazılan kiçik banderolların olduğu küçə səhnəsi göstərilirdi. Siz bu posteri görsəydiniz, nə düşünərdiniz?

- Əgər mən öz tullantılarımı küçəyə atmasam, küçələr bir az daha təmiz olacaq və bu, digərləri üçün yaxşı nümunə sayılacaqdır. (Bu cavab 1 baş barmaq və 3 barmaq kimidir.)
- Bizdən yalnız bir neçəmiz bunu etsə, ümumilikdə böyük fərq olmayacaqdır və əgər digər insanlar atdıqları tullantıların miqdarını artırsalar, bizim fəaliyyətimiz heç bir fərq yaratmayacaqdır. (2 barmaq və 2 baş barmaq)
- Əgər biz əksər insanları qayğı göstərməyə inandıra bilsək, küçələr daha təmiz olacaqdır. Buna baxmayaraq, həmişə tullantılarını küçəyə atmağa davam edən və digərlərinin səylərindən faydalanan bir neçə şəxs olacaqdır. Niyə onlar heç nə etmədən başqalarının hesabına faydalanmalıdırlar? (3 baş barmaq və 1 barmaq)
- Əgər heç kim addım atmırsa, mən niyə atmalıyam? (4 barmaq)

Nümunə kimi, "mənim kiçik avtomobilim heç bir dəyişiklik edə bilməz" (CO2 emissiyalarının azaldılmasına) və ya "paltarlarımı qurutmaq üçün asmaq yerinə quruducu maşından istifadə

etməyim heç bir dəyişiklik edə bilməz" (enerjiyə qənaətə) şüarlarından istifadə oluna bilər. Qrupunuzdakı şəxslərin özlərinə asanlıqla şamil edə bildiyi nümunəni tapmalısınız.

Bir çox şəhərlərdə tullantını küçəyə atmaq və itinizin səkini zibilləməsinə görə cərimələr tətbiq olunur; könüllü fəaliyyət nəticə vermir. Müəyyən qaydalar hazırlanmalıdır. COP15 sammitinin sonunda qəbul edilən Kopenhagen Razılaşmasının əsas zəif cəhəti burada $CO_2$ emissiyasına nəzarət və yoxlama üçün dəqiq metodların göstərilməməsidir.

## Sonrakı fəaliyyət üçün təkliflər

Qrup evdə, gənclər qrupunda və ya yerli rayonda qaydaları pozan şəxslərə tətbiq olunan müxtəlif sanksiya və cəzaların effektivliyini nəzərdən keçirmək istəyə bilər. İnsanların qaydalara riayət etməsini təmin etməyin ən yaxşı yolu nədir?

İştirakçılara ən yüksək xalı toplamağın ən yaxşı yolunun hər kəsə baş barmaq oynamaq göstərişi vermək olduğunu təklif edin. Real həyatda, hökumət üçün paralel vəziyyət hər kəsin maşın sürməyi dayandırması ($CO_2$ emissiyasını azaltmaq üçün), gündə televizora maksimum bir saat baxmaq (elektrik enerjisinə qənaət etmək üçün), hər üç ildə maksimum bir texnoloji avadanlıq almaq, məsələn, mobil telefon, dijital musiqi pleyeri və ya video oyun konsolu (resurslara qənaət etmək üçün) və vegetarian olmaq (torpağın daha səmərəli istifadəsi və heyvan tullantılarından daha az $CO_2$ və $NO_x$ istehsalı üçün). Qrup hamıya "barmaq oynamaq" göstərişi verən qanunvericilik nümunələri tapa bilər? (Yol hərəkəti qaydaları nümunə ola bilər.) Qrupun fikrincə, qeyd edilənlər insan hüquqlarını pozur? Hansıları və necə?

263-cü səhifədəki "Var-dövlət və güc uğrunda mübarizə aparmaq" məşğələsi resursların qeyri-bərabər bölgüsü nəticəsində ortaya çıxan ədalətsizliyə həsr olunmuş simulyasiyadır. Əgər təbiətin balansını və bizim onu necə məhv etdiyimizi araşdırmaq istəyirsinizsə, 320-ci səhifədəki "Həyat şəbəkəsi" məşğələsini sınaqdan keçirin.

## Fəaliyyət üçün fikirlər

Qrup yerli ətraf mühit məsələsini seçib onunla bağlı yerli siyasətçiləri hərəkətə keçirmək üçün digərləri ilə birgə təzyiq göstərmək istəyə bilər.

Əgər qrup beynəlxalq siyasətlə maraqlanırsa, onlar COP15-də razılığa gəlinə bilməməsini və xalqlar arasında inam və anlayışı təbliğ etməyin yollarını nəzərdən keçirmək istəyə bilərlər.

İqlim dəyişikliyi ilə bağlı tədbir görmək hazırda bəşəriyyətin üzləşdiyi ən böyük çətinlikdir. Qrupu şəxsi, yerli, milli və beynəlxalq səviyyədə $CO_2$ emissiyasını azaltmağın yolları barəsində düşünməyə vadar edin. İqlim dəyişikliyinin nəticələri barədə məlumat verən və istifadəçilərin şəxsi istehlakları üzərində çalışmasına yardım edən www.footprintdiary.com mobil telefon və veb tətbiqetməsindən başlayın.

## Əlavə məlumat

Beynəlxalq liderlər konfransın uğursuzluğa düçar olduğu günlərdə bir araya gəlməmişdən əvvəl, şəffaflıq COP 15-in əsas mövzusu idi. Əvvəlki COP-lardə inkişaf etməkdə olan ölkələrdə emissiyanın azaldılmasına "nəzarət olunması, hesabat verilməsi və yoxlanması", qısaca, MRV prinsipi ilə bağlı razılığa gəlinmişdi. MRV anlayışı xüsusilə inkişaf etməkdə olan ölkələrin könüllü şəkildə apardığı "Milli səviyyədə Müvafiq Azaltma Fəaliyyətinə" tətbiq edilməli idi. Sürətlə sənayeləşən dünyanın ən böyük emitorları olan Çin və Hindistan nəzarət və yoxlama rejiminə razılıq verib müvafiq hədəfləri müəyyən etmişdilər.

Ədalətli nəzarət prosesi ilə bağlı razılığa gəlinə bilməməsi sözügedən məsələlərin, xüsusilə, ədalət və bərabərlik məsələlərinin mürəkkəbliyini nümayiş etdirir. İnkişaf etməkdə olan ölkələrin, xüsusən, Çinin müxalifliyinin səbəbi təklifin olduqca ədalətsiz olması, onların adambaşına emissiyalarının inkişaf etmiş ölkələrlə müqayisədə xeyli aşağı olması və inkişaf etmiş ölkələr bu problemə görə günahkar olduğundan daha çox məsuliyyət götürmələrinin tələb olunması idi.

Ətraf mühit üçün Ədalət Fondu ətraf mühitin təhlükəsizliyinə olan ehtiyac və insan hüquqlarının qorunması arasında birbaşa əlaqə qurur. http://www.ejfoundation.org

ƏSAS TARİX

**5 iyun**
Ətraf mühit günü

**Könüllü fəaliyyət faydasız deyil; heç nə etməməkdənsə, nəsə etmək daha yaxşıdır və siz digərləri üçün nümunə ola bilərsiniz.**
**Bu, WWF-nin İqlim Mühafizəçiləri Təşəbbüsünün əsas ideyasıdır. Məqsəd şirkətləri karbon emissiyasını azaltmağa təşviq etməkdir.**
http://www.worldwildlife.org/climate/business.html

Bu məşğələ "Gəlin dünyanı ələ alaq" nəşrindən götürülmüşdür, © Woodcraft Folk 1993

## Paylanmalı materiallar

**Təlimat vərəqi**
Oyunun məqsədi mümkün qədər çox xal toplamaqdır.

Oyunu necə oynamalı:
- Xalları yazan iştirakçı üçə qədər saydıqdan sonra, yumruğunuzu önə gətirin, ya barmağınızı göstərin, ya da baş barmağınızı yuxarı qaldırın. Hər hissədə “barmaq” və ya “baş barmaqla” oynamalısınız.
- Digər iştirakçılarla, 5, 8 və 10-cu hissələrdən əvvəl istisna olmaqla, qalan vaxtlarda ünsiyyətə girə bilməzsiniz.
- 10 hissənin hamısında oynamalısınız.

**Xalları necə toplamalı**
Bu, rəqiblərin “barmaqlar” (F) və “baş barmaqların” (T) hansı kombinasiyasını oynamasından asılıdır.
- 4 rəqibin hər biri “baş barmaq” oynasa, hər oyunçu +1 xal alır
- Əgər üç oyunçu “baş barmaq” və bir oyunçu “barmaq” oynasa, “baş barmaq” oynayanlara -1 xal və “barmaq” oynayana +3 xal yazılır
- Əgər iki oyunçu “barmaq” və ikisi “baş barmaq” oynayırsa, “baş barmaqlar” hər biri -2 və “barmaqlar” +2 xal alır.
- Əgər oyunçulardan biri “baş barmaq” və digər üç oyunçu “barmaq” oynayarsa, “baş barmaq” -3 və “barmaqlar” hər biri +1 xal götürür.
- Oyunçuların hamısı “barmaq” oynayarsa, hər birinə -1 xal yazılır.

Qaydalar aşağıdakı cədvəldə qısa şəkildə təqdim olunub (oynanılan kombinasiyalar və fərdi oyunçunun müvafiq xalı):

| TTTT | TTTF | TTFF | TFFF | FFFF |
|---|---|---|---|---|
| +1 +1 +1 +1 | -1 -1 -1 +3 | -2 -2 +2 +2 | -3 +1 +1 +1 | -1 -1 -1 -1 |

5, 8 və 10-cu hissələr bonusdur. Aşağıdakı qaydada əlavə xallar əldə edirsiniz:
5-ci hissə - bu mərhələdəki xalınız 3-ə vurulur
8-ci hissə - bu mərhələdəki xalınız 5-ə vurulur
10-cu hissə - bu mərhələdəki xalınız 10-a vurulur
Hər mərhələdən sonra xalları yazan oyunçu xal vərəqini doldurur.

| Xal vərəqi | | | | |
|---|---|---|---|---|
| Oyunçununun adı | | | | |
| Hissə | | | | |
| 0 (məşq hissəsi) | | | | |
| 1 | | | | |
| 2 | | | | |
| 3 | | | | |
| 4 | | | | |
| 5 (xal x 3) | | | | |
| 6 | | | | |
| 7 | | | | |
| 8 (xal x 5) | | | | |
| 9 | | | | |
| 10 (xal x 10) | | | | |
| Toplam xallar, 1-10-cu hissələr: | | | | |

Ümumi İnsan Hüquqları

Din və İnam

Uşaqlar

2-ci səviyyə

İstənilәm (3-4 nəfərlik kiçik qruplar)

80 dəqiqə

# Gül gücü

*Sabahın bütün gülləri bu günün toxumlarındadır.*

Hind atalar sözü

**Mövzular**
- Ümumi İnsan Hüquqları
- Din və İnam
- Uşaqlar

**Mürəkkəblik** 2-ci səviyyə

**Qrup ölçüsü** İstənilən (3-4 nəfərlik kiçik qruplar)

**Vaxt** 80 dəqiqə

**Xülasə** Bu məşğələnin sonunda qrupun fərqliliyini əks etdirən güllərdən ibarət divar görəcəksiniz. Bu kreativ məşğələ insan hüquqları haqqında ümumi müzakirəyə aparır: onlar hansılardır, niyə mövcuddurlar və onları necə qorumalıyıq.

**Əlaqədar hüquqlar** Hamısı

**Məqsədlər**
- İnsanların ehtiyacları, şəxsi xoşbəxtlik və insan hüquqları arasında əlaqənin başa düşülməsini inkişaf etdirmək
- Düşünmək və təhlil etmək bacarıqlarını inkişaf etdirmək
- Həmrəylik və fərqliliyə hörməti gücləndirmək

**Materiallar**
- Bütün şəkilləri asmaq üçün kifayət qədər yerə malik düz divar
- Hər şəxs üçün materialın nüsxəsi
- Hər iştirakçı üçün bir qələm; pozanlar; ortaq istifadə üçün rəngli markerlər
- Şəkilləri divara asmaq üçün skoç
- Flipçart və markerlər

**Hazırlıq** Hər şəxs üçün materialın surətini çıxardın.

## Təlimatlar

Bu məşğələnin insan hüquqları barəsində müzakirəyə aparacağını, lakin iştirakçıların ilk öncə insan olmağın mənası haqqında düşünməyə başlayacağını izah edin.

**1-ci hissə. Yetkin insan olmağın nə demək olduğunu müəyyən etmək**

1. Yetkin insan olmağı hiss etmək üçün ilk öncə müəyyən ehtiyacların ödənməli olduğunu izah edin. Məsələn, sağ qalmaq üçün bizim ərzaq, su, yuxu və nəfəs almağa ehtiyacımız. Biz, həmçinin, təhlükəsizliyə ehtiyac duyuruq: şəxsi və maliyyə təhlükəsizliyi və sağlamlığa. Bizim, həmçinin, sevgiyə və yaxınlarımıza ehtiyacımız var: dostluq, yaxınlıq və ailə. Hörmət də bizim ehiyaclarımız arasındadır: digərləri tərəfindən qəbul olunmaq və dəyərləndirilmək, həmçinin, potensialımızı tam şəkildə inkişaf etdirə və reallaşdıra biləcəyimizi hiss etmək.
2. İştirakçıların hər birindən insan olaraq ehtiyaclarını göstərən gül şəkli çəkməyi xahiş edin. Gülün səkkiz ləçəyi olmalıdır:
   - əsas ehtiyaclar
   - şəxsi təhlükəsizlik
   - maliyyə təhlükəsizliyi
   - sağlamlıq
   - dostluq
   - ailə
   - hörmət
   - özünü təsdiq etmək

Ləçəklərin ölçüləri səkkiz ehtiyacdan hər birinin onların hazırkı həyatları üçün əhəmiyyətinə uyğun gəlməlidir. İzah edərkən flipçartda nümunə kimi şəkil çəkin, lakin bu şəkilin yalnız bir nümunə olduğunu vurğulayın; hər şəxsin gülü fərqli olacaqdır.

3. Kağız, qələm və markerləri paylayın, hər iştirakçıdan kağızın kənarında yer buraxmaqla orta hissədə gül şəkli çəkməyi xahiş edin. Düzgün və ya yanlış, yaxşı və ya pis “cavab”ın olmadığını izah edin; hər kəsin gülü özünəməxsus olacaqdır. İnsanları motivasiya etmək üçün vərəqlərdə adlarını yazmamalarını bildirin. Bu mərhələ üçün onlara on dəqiqə vaxt verin.
4. İndi isə iştirakçılardan yetkin insan olmaq və özlərini təsdiqləmək üçün hansı şərtlərin vacib olduğu haqqında düşünməyi xahiş edin. İştirakçılardan gülün ətrafında şərtləri göstərən yarpaqları çəkməyi və əsas sözləri yarpaqlara yazmağı xahiş edin. Bu mərhələ üçün on dəqiqə vaxt verin.
5. Sonda, iştirakçılardan öz işlərini divara yapışdıraraq sərgiləməyi xahiş edin.

**2-ci hissə. İnsan hüquqlarını insanların ehtiyacları ilə əlaqələndirmək**

6. İştirakçılara çəkdikləri güllərə baxmaq üçün vaxt verin. Daha sonra, onlardan 3-4 nəfərlik kiçik qruplara ayrılaraq aşağıdakı sualları müzakirə etməyi xahiş edin:
   - İnsan hüquqları, güllər və yarpaqlar arasında hər hansı əlaqə var? Əgər belədirsə, bu əlaqələr hansılardır?
   - İnsan hüquqları vacibdir? Niyə?
   - “İnsan hüquqları” sözləri sizin üçün nə deməkdir?

İndi isə hər qrupdan öz fikirlərini bildirməyi xahiş edin və daha sonra, təhlil və qiymətləndirməyə keçin.

## Təhlil və qiymətləndirmə

Məşğələni qısa şəkildə nəzərdən keçirməklə başlayıb kiçik qrup müzakirələrinə baxılması ilə davam edin və iştirakçıların insan hüquqları barəsində nə öyrəndiyini aşkarlayın:

- Məşğələni bəyəndiniz? Niyə? Niyə yox?
- Ləçəklərin ölçüsünü müəyyən etmək çətin idi? Yetkin həyat üçün səkkiz ehtiyacın hamısı əhəmiyyətlidir?
- Ləçəklərdə əhatə olunmayan başqa ehtiyaclar var, başqa ləçəklər əlavə edilməlidir?
- Kimsə gülün mərkəzində nəsə yazıb?
- Müxtəlif iştirakçıların ləçəkləri arasındakı hər hansı bənzərlik və ya fərq sizi təəccübləndirib?
- Bu, insanlar barəsində nəyi göstərir?
- Ləçəklərin zədələnməsinin şəxs üçün nəticələri nələrdir?
- Müxtəlif ləçəkləri qorumaq üçün nə lazımdır? İştirakçılar yarpaqlarda nə yazıblar?
- Yarpaqlarda yazılanlar və insan hüquqları ideyası arasında əlaqə var?
- İnsan olaraq kimliyiniz barəsində nə öyrəndiniz? Bunun insan hüquqları ilə əlaqəsi nədir?
- Yetkin insana çevrilmək və özümüzü təsdiq etmək üçün bizim hansı insan hüquqlarına ehtiyacımız var (yaşadığımız yerdə)?
- Bəzi insan hüquqları digərlərindən daha əhəmiyyətlidir? Kim üçün? Nə vaxt? Harada?
- Niyə insan hüquqlarını qoruyub inkişaf etdirməyin keşiyində dayanmalıyıq?
- İnsan hüquqlarını ən yaxşı formada qorumaq üçün nə edə bilərik?
- Mövcud insan hüquqları konvensiyalarında əhatə olunmayan hər hansı ehtiyaclar var?

## Fasilitator üçün məsləhətlər

Aşağıda göstərilmiş gül yalnız nümunədir. İştirakçılara müxtəlif ləçəklərin ölçülərini özləri təyin etməli olduqlarını xatırlatmaq vacibdir. Müxtəlif hissələr üçün onların seçdiyi rənglər də şəxsi seçim olacaqdır.

ƏSAS TARİX

**28 May**
Avropa Qonşuları Günü

Diqqəti gülün mərkəzinə çəkməməlisiniz; məşğələ ərzində əsas əhəmiyyət daşıyan hər hansı fikir oyana bilər. Bənzər şəkildə, məşğələ prosesində daha çox ləçəklər üçün fikirlər formalaşa bilər, məsələn, mədəni təhlükəsizlik, həyatın bütün sahələrində seçim azadlığı, bölüşdürmədə ədalət, iştirak, kimlik, din və inam. İstənilən halda, ehtiyac, onun ödənməməsinin nəticəsi, onun ödənməsinin faydaları və onun insan hüquqları qanunvericiliyi və sənədlərində necə qorunması arasındakı əlaqəni qeyd edin.

4-cü addımda iştirakçılara bir neçə məsləhət verməyə ehtiyac duya bilərsiniz. Yarpaqların güllərin günəş işığından, su və karbon dioksiddən qidalanması üçün lazımi maddələri təmin etdiyini qeyd edə,məsələn, maliyyə təhlükəsizliyini təmin etmək üçün iş, bank sistemi və həmkarlar ittifaqlarına ehtiyac duyulduğunu izah edə bilərsiniz. Əlbəttə, ÜİHB-in 23-cü maddəsindəki işləmək hüququnu da əlavə edə bilərsiniz, lakin iştirakçıların insan hüquqları ilə əlaqəni özləri tapması daha üstün tutulur.

İnsan ehiyacları və insan hüquqları arasındakı əlaqəni qurmaq və insan hüquqlarının hamının ehtiyaclarının təmin edildiyi dünya üçün əsas olduğunu göstərmək vacibdir. Siz ÜİHB-in (601-ci səhifəyə baxın) preambulasını qrupla müzakirə edə bilərsiniz. Preambula dünyada azadlıq, ədalət və sülhün əsası kimi insan ailəsinin bütün üzvlərinin ləyaqəti, bərabərliyi və ayrılmaz hüquqları anlayışları ilə başlayır. Daha sonra, bütün insanların ən yüksək arzusu olan söz və vicdan azadlığı, eləcə də qorxudan azad olmağı təsvir edir.

## Variantlar

Bu məşğələni qısaltmaq üçün, 1 – 4 mərhələləri həyata keçirib bütün qrupla insan hüquqları haqqında ümumi müzakirəyə başlaya bilərsiniz. Bu, konseptual səviyyədə işləməyi çətin hesab edən gənc iştirakçılar üçün uyğun ola bilər. Bəzi iştirakçılar əhəmiyyətlilik dərəcəsindəki fərqləri göstərmək üçün müxtəlif ölçüdə ləçəklər çəkməyi başa düşməyə bilər. Həmçinin, onlar insan hüquqları ilə əlaqə qurmağı mücərrəd saya bilərlər.

Hansı insan hüquqlarının məşğələ ərzində müəyyən edilmiş insan ehtiyaclarını qoruduğunu tapmağı soruşmaqla məşğələni genişləndirə bilərsiniz. ÜİHB-in 600-cü səhifədəki xülasəsindən istifadə edin.

## Sonrakı fəaliyyət üçün təkliflər

İştirakçılara insan hüquqlarının tarixən necə inkişaf etdiyini araşdırmaqla bağlı layihə həyata keçirməyi və "inkişaf etməkdə olan hüquqlar" anlayışı haqqında məlumat toplamağı tapşıra bilərsiniz.

Əgər iştirakçılar həyatlarında nəyin vacib olduğu barəsində danışmağı xoşlayıbsa, 105 səhifədəki "İnananlar" məşğələsi ilə onların inamlarını araşdıra bilərsiniz. Alternativ kimi, iştirakçılar gündəlik həyat və insan hüquqları arasındakı əlaqəni öyrənməyin fəal yolu olan "Hüquqlar Binqosu" (260-cı səhifə) məşğələsini xoşlaya bilərlər. Əgər onlar inkişaf etməkdə olan hüquqlarla maraqlanırlarsa, 173-cü səhifədəki "Barmaqlar və baş barmaqlar" məşğələsi ətraf mühit hüququna həsr olunub.

## Fəaliyyət üçün fikirlər

İştirakçılara insan hüquqları haqqında müzakirəyə başlamaq üçün bu məşğələni ailələri, dostları və iş yoldaşları ilə etməyi təklif edin.

## Əlavə məlumat

Yetkin insan olmaq üçün ehtiyacların ödənməsi fikri Maslou, Qriffin və Tirrelin işlərindən götürülüb inkişaf etdirilmişdir. Əsas ehtiyaclar bədənimizi canlı tutmaq üçün olan ehtiyaclardır;

cinsi tələbat bu kateqoriyaya aiddir. Şəxsi təhlükəsizliyə sığınacağa – evə, "başımız üzərində dama" – malik olmaq və özümüzü oğrular və cinayətkarlardan, eləcə də müharibə və terror hücumlarından azad hiss etmək daxildir. Maliyyə təhlükəsizliyi dedikdə, layiqli həyat standartı üçün pula, həmçinin, işsiz qaldığımız halda təhlükəsizlik gəlirinə malik olmaq nəzərdə tutulur. Sağlamlıq dedikdə, sağlam olmaq, həmçinin, qəza baş verərsə və ya xəstələnəriksə, lazımi səhiyyə xidmətlərinin mövcudluğu nəzərdə tutulur. Dostluğa klublar və assosiasiyalara qoşulmaq imkanı, eləcə də dostları və intim münasibətlər üçün partnyoru azad şəkildə seçə bilmək daxildir. Ailə dedikdə, ailəmizdən zorla uzaqlaşdırılmamaq nəzərdə tutulur. Hörmət dedikdə, kim olduğunuza və etdiklərinizə görə digərlərindən hörmət və dəyər görmək nəzərdə tutulur. Potensialını reallaşdırmaq, həmçinin, "özünü reallaşdırma" adlandırılır: bu, sizin olmaq istədiyiniz şəxs olmaq imkanına malik olmağınız, bacarıqlarınızı tam şəkildə istifadə etməyiniz və özünüz və dünyadakı yeriniz haqqında özünüzü əmin hiss etməyiniz deməkdir.



# Ön səhifə

*Azadlığa ən böyük təhdid tənqidin olmamasıdır.*

Vol Soyinka

**Mövzular**
- KİV
- Qloballaşma
- Ətraf mühit

**Mürəkkəblik** 3-cü səviyyə

**Qrup ölçüsü** 10 - 24 (4-8 nəfərlik kiçik qruplar)

**Vaxt** 180 dəqiqə

**Xülasə** Bu məşğələ nəşr olunacaq qəzetlərinin ilk səhifəsini hazırlayan bir qrup jurnalistin simulyasiyasıdır. İştirakçılar kiçik qruplarda aşağıdakı məsələlər üzərində çalışacaqlar:
- KİV-də qərəz, stereotipləşdirmə və obyektivlik.
- İnsan hüquqları məsələlərinə münasibətdə KİV-in rolu və imici.

**Əlaqədar hüquqlar**
- Düşüncə, fikir və ifadə azadlığı
- Şəxsi, ailə həyatına, şəxsi mülk və yazışmalara müdaxilə edilməməsi hüququ
- Cəmiyyətin mədəni həyatında iştirak etmək hüququ

**Məqsədlər**
- KİV və onun insan hüquqlarına yanaşması barədə məlumatlılığı genişləndirmək
- Əməkdaşlıq şəraitində işləmək və ünsiyyət bacarıqlarını inkişaf etdirmək
- Məsuliyyət və sosial dəyişiklik öhdəliyi hislərini aşılamaq

**Materiallar**
- İki və ya üç kiçik qrupun işləməsi və ümumi iş üçün kifayət qədər yer olan böyük otaq
- Qəzetlər və ya jurnallardan 40-45 şəkil
- Qeydlər üçün kağız və qələmlər
- Böyük ölçüdə kağız vərəqi (A3 ölçüdə) və ya flipçart kağızı və markerlər
- Hər kiçik qrup üçün qayçı və yapışdırıcı
- İşləyən qrupların bütün kağızlarını qoya biləcəyi qədər böyük ölçüdə stollar

**Hazırlıq**
- Jurnallar və ya yerli qəzetlərdən 40-45 şəkil seçin.
  Qeyd: hər kiçik işçi qrup üçün 40 eyni şəkil dəsti (üç ədəd olmaqla) olmalıdır. Buna görə də, ya şəkilləri seçdiyiniz qəzetdən üç ədəd almalı, ya da şəkillərin surətlərini çıxarmalısınız.
- Şəkillərin bir dəstini stolun üstündə nümayiş etdirin.

KİV

Qloballaşma

Ətraf mühit

3-cü səviyyə

10 - 24 (4-8 nəfərlik kiçik qruplar)

180 dəqiqə

## Təlimatlar

1. Məşğələni təqdim edin. Onun axşam qəzet ofisində qəzetin növbəti buraxılışının ön səhifəsi üzərində çalışan bir qrup jurnalistin simulyasiyası olduğunu izah edin. Baxmayaraq ki, cəmiyyətə xidmət edən yerli qəzetdən söhbət gedir, həmin qəzet qlobal məsələlərə də, o cümlədən insan hüquqlarına toxunaraq oxucularını bu barədə məlumatlandırır.
2. Qəzetin ön səhifəsini nümunə olaraq göstərin və ənənəvi ön səhifənin quruluşunu və xüsusiyyətlərini izah edin.

3. İştirakçılara şəkillərin nümayiş etdirildiyi stolu göstərin. Onlardan stol ətrafında səssizcə hərəkət etməyi və heç bir fikir bildirməməyi xahiş edin. Onlara bu şəkillərdən istifadə edəcəklərini izah edin; şəkillərdən istədikləri kimi istifadə edə və şərh verə bilərlər.
4. İndi isə iştirakçıları altı – səkkiz nəfərlik üç kiçik qrupa ayırın. Hər qrup fərqli qəzet üzərində çalışan redaktə komandası olduğunu təsəvvürünə gətirməlidir. Onların tapşırığı sabah səhərki qəzetin ön səhifəsinin dizayn və sxemini hazırlamaqdır.
5. Hər qrupdan qəzet üçün ad seçməyi xahiş edin.
6. ndi isə redaktə komandaları işə başlasın. Onlara kağız, qələm, yapışdırıcı və qayçını ötürün – şəkilləri isə hələ verməyin.
7. Təlimatları sadalayın. Onlar qəzetin ön səhifəsinin dizayn və sxemini hazırlamalıdırlar.
8. İştirakçıların təqdim edəcəkləri dörd və ya beş xəbəri seçmək üçün bir saat vaxtı var. Onlar ön səhifənin təsirinə diqqət etməlidirlər. Tam xəbəri yazmaq əvəzinə, şəkli seçmək, başlıq, müəllifin adı və girişi yazmaq kifayətdir. Məqalənin əsas hissəsini yazmaq lazım deyil; sadəcə məqalənin səhifəsi kölgələnmiş qutuda göstərilə bilər.
9. İştirakçıların hesabatlarında əhatə edəcəkləri məsələləri və ya mövzuları müzakirə etməklə başlaya biləcəyini bildirin. Onlara on dəqiqə sonra "çap şöbəsi"ndən şəkilləri alacaqlarını deyin.
10. Qruplar on dəqiqə işlədikdən sonra, hər qrupa bir dəst olmaqla şəkilləri paylayın. İşlərini tamamlamaq üçün onlara 50 dəqiqə vaxt verin.
11. Komandalar işi bitirdikdən sonra, işlərini hər kəsin oxuması üçün nümayiş etdirməli olduqlarını deyin. Təhlil və qiymətləndirmə ilə davam edin.

## Təhlil və qiymətləndirmə

Məşğələnin özünü nəzərdən keçirməklə başlayın, daha sonra, KİV, insan hüquqları və öhdəlik məsələlərinin müzakirəsi ilə davam edin.

- Qruplar işi necə təşkil ediblər? Onlar bir yerdə işləyiblər yoxsa müxtəlif "hekayələri" hazırlamaq üçün bir, iki və ya üç nəfərlik qruplara ayrılıblar? Necə işləmək və hansı xəbərləri çatdırmaq barədə necə qərara gəliblər? Lider olub yoxsa qərarı ortaq şəkildə qəbul ediblər? Hər kəs iştirak edərək töhfə verə bildiyini hiss edib?
- İştirakçılar üzərində işləyəcəkləri mövzu və ya məsələləri necə seçiblər? Hansı əvvəl gəlib, şəkil yoxsa məsələ? Yəni onlar ilk əvvəl məsələni müəyyən edib sonra uyğun şəkil tapıblar yoxsa müəyyən şəkil onları xəbəri hazırlamağa vadar edib?
- Hansı mövzu və məsələlər təqdim olunub? Onların insan hüquqları ilə əlaqəsi nədir? Kiminsə istifadə etmək istədiyi, lakin etmədiyi məsələ olub? Niyə istifadə etməyiblər?
- Müxtəlif qəzetlərin ön səhifələri bir-birindən necə fərqlənir? Onlarda eyni mövzu və ya şəkillərdən istifadə olunub?
- Ayrı-ayrı qruplar eyni şəkli müxtəlif formalarda istifadə ediblər?
- İştirakçılar xəbərləri necə izləyirlər? Qəzetlərdə, televiziya, radio və ya İnternet vasitəsilə? Niyə xəbərləri izləyirlər (izləmirlər)?
- Bu simulyasiyada onlar ənənəvi ön səhifə hazırlamağa çalışıblar yoxsa fərqli görüntü seçiblər? Oxuyucuların diqqətini çəkməyin ən effektiv yolu hansıdır?
- Real həyatda KİV-də hansı xəbərlər əsas yer tutur?
- Ümumilikdə, insan hüquqları xəbərlərdə yaxşı əhatə olunur?
- İnsan hüquqları ilə bağlı xəbərlər hansı tezliklə təqdim olunur?
- KİV-lə bağlı müzakirənin əsas cəhətlərindən biri "obyektivlik"dir. İştirakçıların fikrincə, xəbərləri obyektiv şəkildə təqdim etmək mümkündür? Bu, mümkündür? Bu, arzu olunandır?
- Müxtəlif xəbərlərdə hansı insan hüquqları və ya hüquq pozuntuları əks olunub?
- İştirakçılar öz hesabatlarında səbəb və nəticə, Şimal və Cənub, inkişaf və ətraf mühit, zəngin və kasıb və ya digərlərini əlaqələndirməyə çalışıblar? Bu məsələlər real KİV-də necə təqdim olunur?
- İştirakçıların digər ölkələrdəki gənclərlə bağlı hansı təsəvvürləri var? "Kasıb" ölkələrdə?

ƏSAS TARİX

**3 may**
Dünya Mətbuat Azadlığı Günü

"Varlı" ölkələrdə?
- Şəkillər dəstində əhatə olunmayan vacib mövzu və ya məsələlər var?

## Fasilitator üçün məsləhətlər

Bu məşğələdə istifadə olunacaq şəkilləri seçərkən müxtəlif şəkilləri seçməyə və stereotiplərdən çəkinməyə çalışın. Real xəbərlər adətən cinayət, müharibə və digər fəlakətlərlə dolu olur və nadir hallarda müsbət mesajlar verir. (Afrikada müharibə və aclıqdan daha çox hadisə baş verir!) Seçdiyiniz şəkillərin iştirakçılara "yaxşı" və "pis" xəbərləri seçmək imkanı verməsinə çalışın. Yaş, cins, irq, mədəni qruplar, coğrafi yerləşmə və s. üzrə müxtəlifliyi əks etdirən şəkillər seçilməlidir. Həmçinin, gənclərin maraqlarını nəzərə alın və gündəmdə olan şəxslər və hadisələrin şəkillərini də seçin. Aşağıdakı siyahı sizdə müəyyən fikir oyandıracaqdır.

Televiziya xəbərlər aparıcısı - qadın
Qlobus
Üçüncü dünyada kamera komandası
Philips reklamında çəkməsilən oğlan
Daş atan uşaqlar
Bənd tikən qadınlar
İşsizliyin faydası
Afrikalı kömürçü
Batareya tavanları
Kifayət qədər ərzaq olduğu halda uşaqlar niyə acdır?
Pestisidlər
Hamburqer restoranının reklamı
Tropik meşədə düşən ağac
Quru torpaq
Suda oynayan uşaqlar
İrriqasiya
Maşın yumaq

Yanan neft
Qrinpis hərəkatı
Sənaye tüstüsünün tuğu
Reklam: Batida
Kofe ilə dolu vaqonlar
Reklam: Coca Cola
Çimərlikdə satıcı
Üçüncü dünyada bazar
Tənha qadın
Brüssel xarabalıqları
Üçüncü dünya xarabalıqları
Həddən artıq dolu zibil qabı
Tənəkələri ayırmaq
Dempinq yerində soyuducular
Qitaralı qara oğlan
Nintendo
Rok ulduz
Küçə uşaqları
Çoxmədəniyyətli şənlik

Mərakeşli qız
Dövlət polisi
Qrafiti
İrqçilik əleyhinə konsert
Parlament
Narkotiklər
Məhşur siyasətçi, məs., ABŞ Prezidenti
Mandela
Dünya liderləri COP15-də görüşür
Qaçqın düşərgəsi
Qaçqınlar səfirlikdə
Erik Kantona
Sığınacaq mərkəzində uşaqlar
Futbol oyunçusu
Beynəlxalq Amnistiya Hərəkatı
Filippində nümayiş
Əfqanıstanda ABŞ qoşunları
Somali piratları fəaliyyətdə

F16 bombalarla
Partizan
İki ölü əsgər
Silahlar yox fermalar
Qalaqlanmış taxıl kisələri
Üçüncü dünya məhsullarını satmaq
Qadınların görüşü
Ailə planlaşdırması
QİÇS-lə mübarizə
İnsan kütləsi
İctimai nəqliyyat
Müharibə cinayətləri tribunalı
Maşın sərgisi
Tıxac
Velosipedçilər hərəkatı
Mikrofonlu gənc kişi
Kosmos məkiyində partlayış
Sakit Okeanda daşqınvv

Məşğələni təqdim edərkən ənənəvi ön səhifənin xüsusiyyətlərini və sxemini təsvir edin: oxucunun diqqətini çəkmək üçün cəlbedici başlıq; müəllifin adı (məsələn, "ətraf mühit müxbirimiz Məhəmməd Şmidt tərəfindən"). Daha sonra, xəbərin mövzusunu əks etdirən kiçik giriş və əsas mətn verilir. Hekayəni dəstəkləmək və oxucunun diqqətini çəkmək üçün şəkillərdən necə istifadə olunduğunu müzakirə edin. Şəkillərin nəyi göstərmədiyini də qeyd edin! Şəkillərin fotoqraf – və ya şəkil redaktoru tərəfindən – baxanların diqqətini müəyyən məsələyə çəkmək üçün kəsildiyi barəsində danışın. Şəkil başlıqlarının necə yazıldığını qeyd edin. Bunu xarici dildə olan qəzetdən istifadə etməklə göstərmək öyrədici ola bilər; bu zaman məzmuna deyil, təsirə diqqət yönəldilir.

Qrupları fikirlərində və onların təqdimatında kreativ olmağa həvəsləndirin. Onlar yaza, şəkilləri kəsə və karikatura çəkə bilərlər. Onların qəzeti ciddi, gülməli və ya ironik ola bilər. Qrupdan asılı olaraq, bu haqda iştirakçılarla nə qədər danışmağa və ya onların işə başlamasına icazə verib nə edəcəklərini görməyə qərar verməli olacaqsınız.

## Variantlar

Bu məşğələni təqdim etməyin digər yolu radio və ya televiziya xəbərlər proqramını təqdim etməkdir. Əgər televiziya yayımı üzərində işləyirsinizsə, şəkilləri qaranlıq otaqda kompyuter və ya slayd proyektoru vasitəsilə ekranda göstərərək televizora baxmaq “hissi”ni yaratmağınız məsləhət görülür. Digər seçim veb səhifə və ya bloq hazırlamaqdır.

## Sonrakı fəaliyyət üçün təkliflər

Qruplar tərəfindən xəbərlər üçün seçilmiş hüquqların aspektlərini müzakirə edin. Məsələn, ölkənizdə onlara necə yanaşılır?

İştirakçılar yerli qəzet, radio və ya televiziya stansiyası ilə əlaqə saxlayıb jurnalistlərlə onların necə işlədiyi barəsində danışa, obyektivlik məsələsini, qlobal və insan hüquqları məsələlərinin KİV-də necə təqdim olunduğunu müzakirə edə bilərlər.

Əgər qrup şəkillərlə və onların KİV-də necə istifadə/sui-istifadə olunduğu ilə maraqlanırsa, bu halda, onlar 249-cu səhifədəki “Şəkillərlə oynamaq” məşğələsinin sonunda “Şəkillərlə oynamağın digər yolları” kimi təsvir olunan “Şəklin hissəsi” və “Başlıqlar” məşğələlərindən zövq ala bilərlər. Qrup cəld düşünməyi tələb edən məşğələləri xoşlayırsa, onlar 199-cu səhifədəki idman və insan hüquqları arasındakı əlaqəyə həsr olunmuş “Bircə dəqiqə” məşğələsini edə bilərlər.

Alternativ olaraq, əgər qrup dincəlib musiqiyə qulaq asmaq, eyni zamanda, digər insanlar, mədəniyyətlər, musiqi və dillər haqqında öyrənmək istəyirsə, Hər kəs Fərqli - Hər kəs Bərabər Təhsil Paketindəki “Knysna mavi” məşğələsinə baxın.

## Fəaliyyət üçün fikirlər

Bir çox yerli radio stansiyalarının icma qruplarının öz yayımını etməsini təmin etmək imkanı var. Qrup üçün maraqlı olan mövzuda, məsələn, “qlobal səviyyədə düşün, yerli səviyyədə hərəkət et” başlığı altında araşdırma aparmaq və radio yayımı hazırlamaq üzrə layihə üzərində çalışın.

Danimarkada sığınacaq axtaran şəxslərin mətbuatdan necə istifadə etdiyini görmək üçün www.newtimes.dk saytına baxın. Ölkənizdə sığınacaq axtaran şəxslərə (və ya digər azlıq təşkil edən qrupa) bənzər halla bağlı kömək edə bilərsiniz.

Mesajınızı ötürmək üçün yerli KİV (radiolar, qəzetlər) və qlobal KİV-dən, o cümlədən Hi5, facebook, twitter və bloqlar kimi sosial şəbəkələrdən istifadə edə bilərsiniz.

## Əlavə məlumat

Bu məşğələdə qaldırılan bəzi məsələlərə daxildir:

**a) KİV**

1. Gənclər, həmçinin yaşlı insanlar davamlı şəkildə bütün növ KİV vasitəsilə çoxlu məlumatla yüklənirlər. Bəzilərimiz bunu başa düşsə də, digərləri anlaya bilmirlər. Biz özümüzdən soruşa bilərik: bu məlumatla nə edirik? Bu, bizim yaxşı məlumatlandırılmağımız deməkdir yoxsa yox?
2. KİV get-gedə daha çox kommersiyalaşır və çatdırılan mesajlar sadələşir; stereotipləşdirmə və cəmiyyətin diqqətini çəkmək məqsədilə hər zaman dəqiq olmayan xəbərlərin verilməsi təhlükəli tendensiyalardır. Keyfiyyətli xəbər tapmaq get-gedə çətinləşir?
3. Bərabərsizliklə bağlı məsələlərdə, xüsusilə inkişaf etməkdə olan ölkələrlə bağlı, keyfiyyətli

xəbər tapmaq olduqca çətindir. Qərbə aid olmayan xəbərlərə əksər hallarda yalnız qərb perspektivindən baxılır. Bu isə mənfi və kədərli xəbərlərlə nəticələnir. Birtərəflilik və mənfilik normaya çevrilir. Razısınız? İnternetin istifadəsindəki artım jurnalistikanın geriləməsinə səbəb olub. Vaşinqton Postun keçmiş müxbiri, hazırda Berklidə Kaliforniya Universitetində jurnalistika üzrə professor Neyl Henri bildirir, "Mən hazırki texnoloji nizamsızlığın əhatəsində ictimai marağa xidmətdə həqiqət axtarışının mədəni dəyər olaraq gerilədiyini görürəm; bizim ən son "yeniliyi" təqdim edən veb təcrübəsinə keçərək xəbərlər və məlumat sistemlərimizi genişləndirdiyimiz bir vaxtda geniş miqyasda qəbul olunmuş etik dəyərlərə uyğun peşəkar jurnalistikanın mövcud olduğu dünya get-gedə yoxa çıxır. Eyni zamanda, gələcək məni qorxudur: bacarıqlı jurnalistlərin yoxa çıxması, "xəbərlər" axtararkən təməl bloqqerlərin ən son boş qəhrəmanlıq nitqlərinin, hökumət rəsmilərinin, reklamçılar tərəfindən jurnalistika adı altında peşəkar satıcı kimi öyrədilmiş, istəyi yalnız satmaq, satmaq, satmaq olan PR mütəxəssislərinin yalançı xəbərlərinin tapılması".

4. Bloqqerlər və sosial şəbəkələrdəki yazılar dünyada baş verənləri bizə daha da yaxınlaşdırır.
5. Xam material güclüdür; zəlzələlər, digər fəlakət və müharibə zonalarından göndərilən sosial şəbəkə postları, şəxsi videolar və bloqların sürətini və təsirini nəzərə alın.
6. İnternet dünya üzrə hər ölkədəki insanların müxtəlif mənbələrdən xəbərlər və məlumata çıxışının olması deməkdir. Bu, senzuranı çətinləşdirir.
7. Obyektivlik mümkün və arzu olunandır? Etnosentrizmdən azad olmağımız mümkündür?
8. Balanslaşdırmaq – hekayənin "hər iki" tərəfini demək – özlüyündə məlumat qərəzi ola bilər? Məsələn, İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panelin (IPCC) insan fəaliyyətinin iqlimə "gözəçarpan" təsirinin olması və qlobal istiləşmənin dərhal həll edilməli ciddi problem olması ilə bağlı davamlı təkidlərinə baxmayaraq, "o dedi" hesabat kampaniyası qlobal istiləşmə skeptiklərinin kiçik qrupunun öz fikirlərini geniş şəkildə qüvvətləndirməsinə imkan vermişdir.

**b) İnsan hüquqları məsələləri**

KİV insan hüquqları haqqında ictimai məlumatlılığın artırılmasında mühüm rol oynayır. Bununla belə, biz onların necə təqdim olunduğundan və motivlərdən xəbərdar olmalıyıq. Hər kəs bizə nəyin təqdim olunması – olunmaması, eləcə də məlumat və faktların necə verilməsinə tənqidi yanaşmalıdır. Məsələn, müharibədəki döyüşçülər müxtəlif siyasi görüşlərə malik qəzetlərdə azadlıq mübarizləri və ya terrorçu kimi təqdim oluna bilər. Digər mədəniyyətlərdən olan insanlar qeyri-obyektiv şəkildə təqdim oluna bilər. Məsələn, inuitlər ekzotik, iqlularında ənənəvi yaşayış tərzi uğrunda çətinliklərlə mübarizə aparan insanlar kimi təqdim oluna bilər, lakin balina ovu ilə bağlı müzakirələrə gəldikdə onlar "cinayətkar" kimi təsvir olunurlar.

**c) Öhdəlik**

Simulyasiyada istifadə olunan bəzi şəkillər insanlara, xüsusilə gənclərə praktiki şəkildə öhdəlik götürmək imkanlarını göstərməlidir. Müəllim, gənclərlə çalışan şəxslər və s. kimi biz gəncləri daha yaxşı dünya uğrunda çalışmağa motivasiya etməyi arzulayırıq. Özümüzdən gəncləri cəlb etmək üçün ən yaxşı yolun hansı olduğunu və mövcud imkanların gənclər üçün cəlbedici olub – olmadığını soruşa bilərik. Suallarımıza cavabları gənclərin seçdiyi slaydlardan ala bilərik.

**Qeyd**

Bu məşğələ Rob Adriansen və Qrinviç komandası tərəfindən NCOS, flaman inkişaf QHT-ləri platforması, üçün holland dilində hazırlanmış "Xəbərlər Fabriki" əsasında hazırlanmışdır. O, daha sonra, Nel Hiers tərəfindən EFİL, Avropa Mədəniyyətlərarası Öyrənmə Federasiyası, adından ingilis dilinə tərcümə olunmuş və uyğunlaşdırılmışdır.

Gender

Ayrı-seçklik və Dözümsüzlük

Vətəndaşlıq və İştirak

2-ci səviyyə

İstənilən (5-7 nəfərlik kiçik qruplar)

60 dəqiqə

# Qadın və kişi qəhrəmanları

*O, mənim qəhrəmanımdır! Sizinki kimdir?*

**Mövzular**
- Gender
- Ayrı-seçkilik və Dözümsüzlük
- Vətəndaşlıq və İştirak

**Mürəkkəblik** 2-ci səviyyə

**Qrup ölçüsü** İstənilən (5-7 nəfərlik kiçik qruplar)

**Vaxt** 60 dəqiqə

**Xülasə** Bu məşğələ aşağıdakılar üzrə fərdi, kiçik və ümumi qrup işi, beyin fırtınası və müzakirəni əhatə edir:
- Qadın və kişi qəhrəmanlar sosiallaşma və mədəniyyət rəmzi kimi
- Genderlə bağlı stereotiplərin tariximiz, mədəniyyətimiz və gündəlik həyatımızdakı kökləri

**Əlaqədar hüquqlar**
- Bərabərlik hüququ
- Ayrı-seçkiliyə məruz qalmamaq hüququ
- Fikir və ifadə azadlığı

**Məqsədlər**
- Tarixi hadisələrlə bağlı müxtəlif perspektivlərin olmasının səbəbini başa düşmək
- Tənqidi təhlil bacarıqlarını inkişaf etdirmək
- Maraq, açıqfikirlilik və ədalət hissini tərbiyə etmək

**Materiallar**
- Kağız və qələmlər (hər iştirakçıya bir göy və bir qırmızı qələm; istəyə görə, lakin məsləhət görülür)
- Flipçart kağızı və markerlər

## Təlimatlar

1. İştirakçılara hansı milli qadın və kişi qəhrəmanlarına (tarixi və ya yaşayan) heyran olduqları barəsində düşünmək üçün beş dəqiqə vaxt verin.
2. Kağız və qələmləri paylayın və hər iştirakçıdan iki sütun çəkməyi xahiş edin. İlk sütunda onlar (qırmızı qələmdən istifadə etməklə) üç və ya dörd qadın qəhrəmanın adını, eyni zamanda, onların kim olduğunun qısa təsvirini və ölkə üçün nə etdiklərini yazmalıdırlar. Aşağıda onlar ümumilikdə qadın qəhrəmanlarla əlaqələndirdikləri xarakteristikanı təsvir etmək üçün əsas sözləri yazmalıdırlar.
3. Eyni prosesi (göy qələmdən istifadə etməklə) üç və ya dörd kişi qəhrəman üçün təkrarlayın. Bu məlumatı ikinci sütunda yazmalıdırlar.
4. İndi isə iştirakçılardan beş – yeddi nəfərlik kiçik qruplara ayrılaraq qadın və kişi qəhrəmanlar üzrə seçimlərini paylaşmağı xahiş edin. Qrupları ən dəyərli dörd qadın və dörd kişi qəhrəman barəsində razılağa gəlməyə çağırın.
5. Daha sonra, ümumi şəkildə toplanın və hər qrupun qadın və kişi qəhrəmanlarının adlarını flipçartda iki sütunda yazın. Xarakteristikanı təsvir edən əsas sözləri əlavə edin.
6. Xarakteristika siyahısını, qadın və kişi qəhrəmanların rol modeli olaraq rolunu və onların gender stereotipi olmaq dərəcəsini müzakirə edin. Bundan sonra, təhlilə keçin.

## Təhlil və qiymətləndirmə

Məşğələni nəzərdən keçirməklə və insanların qadın və kişi qəhrəmanlar haqqında nə öyrəndiyini müzakirə etməklə başlayın, daha sonra, stereotiplər, onların bizim mühakimələrimiz və fəaliyyətimizə təsiri barəsində danışın.

- Qadın və kişi qəhrəmanlar necə insanlardır? (Sadə kişi və qadınlar? Krallar?)
- Onlar nə ediblər? (Savaşıblar? Şeir yazıblar?) İştirakçılar onlar haqqında nə öyrəniblər?
- İki siyahının xarakteristikası arasında bənzər və fərqli cəhətlər hansılar idi?
- Qadın və kişi qəhrəmanlar hansı dəyərlər uğrunda mübarizə aparıblar? Bu dəyərlər ikisi üçün eynidir yoxsa fərqlidir?
- İnsanlar "stereotip" sözündən nə başa düşürlər? Stereotiplər nə qədər həqiqəti əks etdirir?
- Stereotiplər həmişə mənfidir?
- Ümumilikdə, sizin cəmiyyətinizdəki insanların və şəxsən sizin qadın və kişi stereotipləri, eləcə də onlardan gözlənilənlər haqqında fərqli fikirləriniz var?
- Bu cür yanaşma iştirakçıları məhdudlaşdırır? Necə?
- Bu məşğələdəki xarakteristika siyahısı bəziləri tərəfindən milli xarakteristika kimi qəbul edilən xüsusiyyətləri əks etdirir?
- Sosial və mədəni maneələr hansı dərəcədə stereotipləşmiş düşüncənin nəticəsidir?
- Gender stereotipləşdirməsi insan hüquqlarını necə pozur?
- Hansı insan hüquqları sənədləri və maddələri insanları gender əsaslı ayrı-seçkilikdən qoruyur?
- Stereotipləşmiş yanaşmalar çox vaxt qadın və kişiləri məhdudlaşdıraraq onların həyatdakı seçimləri və imkanlarına maneə törədir. İştirakçılar hansı gender əsaslı maneələrdən əziyyət çəkiblər? Evdə, məktəbdə, klubda və ya iş yerində?
- İştirakçılar bu maneələrlə bağlı nə edə bilərlər? Onlar kişilik və qadınlıqla bağlı mədəni norma və dəyərlərdən uzaqlaşmaq üçün strategiyalar irəli sürə bilərlər?

**ƏSAS TARİX**

**18 iyul**
Beynəlxaq Nelson Mandela Günü

**Ukraynadakı qrupun 2-ci mərhələdəki işindən nümunə.**

| Qadın qəhrəmanlar | Kişi qəhrəmanlar |
|---|---|
| Şahzadə Olha, Kiyev Rusunda ilk xristian | Şahzadə Volodimir Kiyev Rusunda (Ukraynanın qədim adı) xaç suyuna salınıb. |
| Roksalana, türklər tərəfindən tutulmuş gənc qadın. Xanın hərəmxanasında yaşayıb. Mövqeyindən siyasətə təsir üçün istifadə edib. | Hetman Mazepa müstəqillik uğrunda savaşçı |
| Şairə Lesya Ukrainka ukraynalı kimliyi və qadın emansipasiyası haqqında yazıb | Şair Şevçenko azadlığı tərənnüm edib |
| • güclü, hiyləgər, yumşaq, qadınsayağı, qüdrətli, gözəl | • Güclü, qüdrətli, cəsur, cəsarətli, mətanətli, inadkar |

## Fasilitator üçün məsləhətlər

Müxtəlif cəmiyyətlərdə "qadın qəhrəman" və "kişi qəhrəman" sözləri fərqli qəbul olunur. Bundan xəbərdar olun və anlayışları diqqətlə təqdim edin; qadın və kişi qəhrəmanların rol modeli olduğunu qeyd etmək faydalı ola bilər.

Təlimatların 5-ci bəndində siz kiçik qrupların bütün dediklərini qəbul etməli və flipçartda yazmalısınız. Əgər kimsə "qadınsayağı" və ya "kişisayağı" ifadələrindən istifadə edirsə, siz bu mərhələdə onları qəbul etməli və təhlildə bu sözlərin mənalarını müzakirə edərkən onlara qayıtmalısınız.

Hədəf qrupu və kontekstdən asılı olaraq, iştirakçılardan insan hüquqlarının qadın və kişi qəhrəmanlarını (müdafiəçilər/fəallar/onların fikrincə, dünyada və ya ölkələrində dəyişiklik etmiş şəxslər) müəyyən etməyi xahiş etməniz onlar üçün insan hüquqları ilə əlaqəni qurmağı asanlaşdıra bilər. Bundan sonra, siz insan hüquqlarının tərəqqisini, onların yerli, regional və beynəlxalq hüquqa təsirini və dilemmaları müzakirə edə bilərsiniz.

Bu məşğələni fərqli mədəniyyətlərdən gələn iştirakçılarla etmək daha yaxşıdır, çünki bu halda mədəni element daha aydın görünür. Qrupları qarışdırın və iştirakçılara ya hazırda məskunlaşdıqları ölkədən, ya da anadan olduqları ölkədən olan qadın və kişi qəhrəmanları qeyd etməyi xahiş edin.

## Variantlar

Gənc qruplarla çalışarkən siz müxtəlif növ qadın və kişi qəhrəmanlarla, məsələn, karikatura kitabları və filmlərdəki qəhrəmanlar, pop, film və idman məhşurları ilə işləmək istəyə bilərsiniz. Siz sessiyaya kitabları oxumaqla başlayıb, daha sonra qəhrəmanların xarakteristikası ilə bağlı beyin fırtınası ilə davam edə bilərsiniz. Alternativ kimi, pop və ya idman ulduzlarının şəkillərini asa, iştirakçılardan nitq qabarcıqları və ya şəkillər əlavə etməyi xahiş edə bilərsiniz. Əgər siz, "sizin qadın və kişi qəhrəmanınız kimdir?" sualını tam şəkildə açıq qoysanız, məhsuldar müzakirəyə gətirib çıxaran maraqlı fikirlər eşidə bilərsiniz. Məsələn, iştirakçılar valideynlərinin adlarını, Yuri Qaqarin, Hello Kitty, Nelson Mandela və ya Bethovenin adını çəkə bilərlər!

İştirakçılara, bir qadın və bir kişi seçməli olduqlarını demədən, onların hər birindən heyran olduqları iki şəxsi seçməyi xahiş edin. Təhlildə siyahılarında kişi yoxsa qadınların çox olduğunu saymağı xahiş edin. İştirakçılardan bunun əhəmiyyətini soruşun.

## Sonrakı fəaliyyət üçün təkliflər

Əgər qrup insan hüquqlarının qadın və kişi qəhrəmanlarına baxmaq istəyirsə, 167-ci səhifədəki "Hüquq mübarizləri" məşğələsini edin.

## Fəaliyyət üçün fikirlər

Gündəlik həyatınızda stereotipləşdirmədən, xüsusilə həm digərlərinin, həm də (qeyri-şüuri!) sizin qərəzinizə gətirib çıxaran yanaşmalardan daha çox xəbərdar olmağa söz verin.

Ölkənizə (beynəlxalq kontekstdə dünyaya) töhfə vermiş, lakin elə də tanınmayan qadınları müəyyən edin. Məktəbiniz və ya gənclər klubunda sərgi təşkil edin. Həmçinin, bu qadınlar barəsində yerli qəzet üçün məqalə yaza və İnternetdə yayımlamaq üçün qısa video hazırlaya bilərsiniz. Beynəlxalq Qadınlar Gününü qeyd etmək üçün mərasim təşkil edin.

Qadın problemlərinə həsr olunmuş yerli, milli və ya beynəlxalq kampaniyalara, məsələn, eyni iş üçün bərabər maaş, qadın alveri, dünya üzrə uşaqlar üçün təhsilə bərabər çıxış kampaniyalarına qoşulun.

## Əlavə məlumat

"Stereotip" qərəz və ayrı-seçkiliyə aparıb çıxaran, insanlar və ya fikirlər barəsində həddən artıq sadələşdirilmiş, ümumiləşdirilmiş və əksər hallarda qeyri-şüuri qərəzli yanaşmadır. Bu ümumiləşdirmədə qrupun bir hissəsinin malik olduğu xüsusiyyət bütün qrupa şamil olunur. Məsələn, italyanlar operanı sevir, rusları baleti sevir, qaradərili insanlar Afrikadan gəlir. Qadınlar və ya kişilərə cinslərinə görə necə davranmalı olduqları barəsində rollar şamil edilirsə, bu "gender stereotipləşdirilməsi" adlandırılır.

Cins və gender sözləri qarışıqlıq yarada bilər. Cins anlayışı qadınlar və kişilər arasında universal və dəyişməz bioloji fərqlərə aid edilir. Gender dedikdə, cəmiyyətin üzvü kimi sosiallaşma prosesində əldə olunan və ya öyrənilən sosial xüsusiyyətlər nəzərdə tutulur.
Buna görə də, gender müəyyən cəmiyyətdə müəyyən vaxtda kişi (kişisayağı) və qadın (qadınsayağı) olmaqla, eləcə də həmin cəmiyyətin üzvü olmaqla əlaqədar olan sosial xüsusiyyətlər, rollar, fəaliyyət, məsuliyyət və ehtiyacları əhatə edir.

**Mənbə**

Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramı (UNDP), İnkişaf proqramında gender, məlumat və öyrənmə paketi, əsas gender proqramı və layihə giriş nöqtələri. Yanvar, 2001

# Bizim nə qədərə ehtiyacımız var?

*İnsanlar eyni yolla getmədən ümumi məqsədə çata bilərlər.*

Amadu Hampate Ba

**Mövzular**
- Müharibə və Terrorizm
- Sağlamlıq
- Təhsil

**Mürəkkəblik** 3-cü səviyyə

**Qrup ölçüsü** İstənilən (5-6 nəfərlik kiçik qruplar)

**Vaxt** 60 dəqiqə

**Xülasə** Bu məşğələ müzakirə və qərarverməni əhatə edir. Kiçik qruplarda çalışan iştirakçılar Minilliyin səkkiz İnkişaf Məqsədinin maliyyələşdirilməsi üçün qlobal hərbi büdcəni necə bölüşdürəcəkləri barəsində qərar verirlər.

**Əlaqədar hüquqlar**
- Yaşamaq, azadlıq və şəxsi təhlükəsizlik hüququ
- İnkişaf hüququ
- Uyğun yaşayış şəraiti hüququ
- Sağlamlıq və təhsil hüquqları

**Məqsədlər**
- Minilliyin İnkişaf Məqsədləri haqqında biliyi genişləndirmək
- Problem həll etmək və tənqidi düşünmək bacarıqlarını inkişaf etdirmək
- Qlobal problemləri həll etmək üçün həmrəylik və istəyi aşılamaq

**Materials**
- Kompas “pulu” (354-cü səhifə)
- Flipçart və 2 müxtəlif rəngli qələm
- Hər kiçik qrup üçün Minilliyin səkkiz İnkişaf Məqsədinin nüsxəsi

**Hazırlıq**
- Minilliyin İnkişaf Məqsədləri haqqında özünüzü məlumatlandırın: http://www.un.org/millenniumgoals
- Kompas “pulu”nun aşağıdakı dəyərlər üzrə əskinazlar olmaqla surətini çıxardın (hər kiçik qrup üçün bir dəst). Asanlıqla paylamaq üçün pul dəstlərini zərflərə qoyun.
  8 x 100 Ems
  10 x 50 Ems
  20 x 10 Ems
- Məqsəd vərəqlərinin surətini çıxardın və Minilliyin İnkişaf Məqsədlərinin şəkillərini kəsin. Kartları dəftərxana sancağı ilə dəstlərdə birləşdirin və ya asanlıqla paylamaq üçün zərflərə qoyun.

## Təlimatlar

1. Bu məşğələnin dünyanın hazırda üzləşdiyi ən ciddi sosial və iqtisadi problemlərin bəzilərini həll etmək üçün pulu haradan tapa biləcəyimiz haqqında olduğunu izah edin.
2. İştirakçılardan Minilliyin İnkişaf Məqsədləri (MDG-lər) haqqında nə bildiklərini soruşun. Onlar 8 məqsədi sadalaya bilərlər?
3. Materialın nüsxələrini paylayın və lazım gələrsə, hər məqsədə bir nümunə verməklə BMT-nin MİM öhdəlikləri barəsində qısa izahat verin.
4. İştirakçıları 5-6 nəfərlik qruplara ayırın və səhnə qurun: BMT-nin hər məqsədə nail olmaq üçün lazımi büdcəni nəzərdən keçirmək üçün mütəxəssisləri (“sizi!”) cəlb etmək qərarına gəldiyini izah edin. Uzun və yaddaqalan müzakirələrdən sonra, BMT-nin maliyyə komitəsi bu məqsədlərə nail olmaq üçün illik toplam 1,500 Ems ayırmaq qərarına gəlmişdir. Kompas bank əskinazlarını paylayın.

Müharibə və Terror

Sağlamlıq

Təhsil

3-cü səviyyə

İstənilən (5-6 nəfərlik kiçik qruplar)

60 dəqiqə

5. 1 Em-in 1 milyard ABŞ dollarına bərabər olduğunu deyin. Belə ki, onlar ehtiyac olduğunu düşünürlərsə, 1,500 milyard ABŞ dollarına qədər xərcləyə bilərlər. Onlar bütün pulu xərcləməli deyillər; hər şeydən əvvəl, onların pula ehtiyac duyduğu digər BMT layihələri də var!
6. Qruplardan MİM-ləri müzakirə etməyi və hər biri üçün dünyanın nə qədər xərcləməli olduğunu təxmin etməyi xahiş edin. İştirakçılardan pulu 8 yerə ayırmağı və hər MİM üçün xərclənəcək məbləği qeyd etməyi, eləcə də əllərində qalan məbləği göstərməyi xahiş edin.
7. İndi isə hər qrupdan hər MİM üçün ayırdıqları məbləği bildirməyi və müvafiq rəqəmləri flipçartda aydın şəkildə yazmağı xahiş edin. Bu mərhələdə heç bir müzakirə olmamalıdır; seçimlərin səbəbləri ümumi müzakirəyə saxlanmalıdır. Fasilitator üçün diqqəti fərqlərə və ayrılmış pulun məbləğinə çəkmək kifayət etməlidir.
8. Daha sonra, BMT tərəfindən hesablanmış həqiqi rəqəmləri təqdim edin. Onları flipçartda fərqli rəngdə qələmlə qeyd edin və qruplardan bank əskinazlarını uyğun şəkildə yenidən bölüşdürməyi, sonra isə hərbi büdcə üçün qalan məbləği hesablamağı xahiş edin.
    - Kasıblıq 60
    - Təhsil 30
    - Qadınlar 3
    - Uşaqlar 10
    - Sağlamlıq 6
    - QİÇS 18
    - Ətraf mühit 21
    - Qlobal tərəfdaşlıq 50
9. Bu mərhələdə hərbi büdcəni təqdim etməklə 8 MİM üçün nəzərdə tutulan xərclərlə onun müqayisəsini təmin edin. Oyunçulara, təsadüfən, 1,500 milyard ABŞ dollarının təqribən 2009-cu ildəki dünya hərbi büdcəsinə bərabər olduğunu bildirin.

## Təhlil və qiymətləndirmə

Məşğələnin necə keçdiyini müzakirə edin və iştirakçıların nə öyrəndiyi barəsində danışın.

- Qruplar necə işləyib? Prioritetlər və hesablamalar üzrə razılığa gəlmək asan idi? İstənilən fikir ayrılığının öhdəsindən necə gəliblər?
- Ən kiçik əskinazın dəyəri 10 Ems idi. Qruplar “qadınlara” 3 və “sağlamlığa” 6 ayırmaq probleminin öhdəsindən necə gəliblər?
- Əslində lazım olan məbləğ hesablamalardan çox yoxsa azdır? Bu, kimisə təəccübləndirib?
- Əgər MİM-lərə nail olmaq üçün lazım olan həqiqi məbləğ 200 milyard ABŞ dollarından aşağıdırsa, siz qalan 1,300 milyard ABŞ dollarını necə xərcləmək istəyərdiniz?
- İştirakçıların bu 8 məqsədə əlavə etmək istədiyi başqa məqsədlər var?
- Hər bir MİM-ə hansı ÜİHB maddəsi uyğun gəlir?
- Sizin fikrinizcə, MİM-lərdən hər hansı biri digərlərinə görə prioritetləşdirilməlidir? Əgər belədirsə, hansı? Prioritetlər barəsində necə qərara gəlirsiniz?

## Fasilitator üçün məsləhətlər

Məşğələdəki rəqəmlər praktiki səbəblərdən yuvarlaqlaşdırıblar, lakin yenə də onlar həqiqi məbləğlərə olduqca yaxındırlar. Məsələn, 2009-cu ildə toplam hərbi büdcə 1,531 milyard ABŞ dolları olub.

Lazımi səviyyədə əsas bilik olmadan MİM-ləri prioritetləşdirmək və ya hesablamalar aparmaq çətin olar. İştirakçılardan malik olduqları biliklərdən istifadə etməyi, prioritetləri öyrənməyi və mümkün olduğu qədər həqiqətə yaxın hesablamalar aparmağı xahiş edin.

7-ci addımda “qadın” və “sağlamlığa” müvafiq məbləğləri ayırmaq problemi iki yolla

həll oluna bilər. Qruplar 3 + 9 – un təqribən 10-a bərabər olduğunu deyə və "qadınlar" və "sağlamlığı" bir yerdə təqdim edə bilərlər. Və ya qruplar, "bizim kifayət qədər pulumuz var, əliaçıq olaq və hər iki sahəyə 10 Ems verək!" deyə bilərlər.

Təhlildə siz mənzərənin əslində daha da təəccübləndirici olduğunu qeyd edə bilərsiniz! 1,500 milyard ABŞ dolları təkcə 2009-cu ildə dünya üzrə hərbi büdcənin məbləğidir. 208 milyard ABŞ dolları isə növbəti dörd il ərzində MİM-lər üçün xərclənəcək məbləğdir. Belə ki, 2009-cu ildə realda xərclənən məbləğin "qalığı" 6,792 milyard ABŞ dollarıdır.

Bəzi iştirakçılar MİM-lərə tənqidi yanaşa və onların hökumətlər tərəfindən öz "vicdanlarını təmizləmək" üçün istifadə olunduğunu və kifayət etmədiyini deyə bilərlər. Siz bildirə bilərsiniz ki, bu məşğələnin məqsədi MİM-ləri təbliğ etmək deyil, iştirakçıları onların mövcudluğu barəsində məlumatlandırmaq və onların BMT tərəfindən qəbul edilmiş məqsədlər olduğunu qeyd etməkdir.

**ƏSAS TARİX**

**20 dekabr**
Beynəlxalq İnsanHəmrəyliyi Günü

## Variantlar

- Siz 4-cü addımda 1,500 ABŞ dollarının 2009-cu ildə dünya hərbi xərclərini təmsil etdiyini deyə bilərsiniz. Bu məlumat müzakirələrə yeni məsələni – hərbi xərclərin müsbət və mənfi cəhətlərini əlavə edir.
- Siz məşğələnin hərbi və MİM büdcələri ilə bağlı danışıqları əhatə edən rol oyununa çevirə bilərsiniz.
- Qruplara hökumət nümayəndələri, kasıblıq, QİÇS, təhsil və digər sahələr üzrə çalışan QHT-lər, hərbi sənayenin nümayəndəsi, silah fabrikində çalışan işçilər, əsgərlər və digər əlaqədar maraq qruplarının təmsilçiləri rollarını verin. Hər rol üçün siz bəzi təlimatlar verməlisiniz, məsələn:
- Hökumətlər: Sizin prioritetiniz vətəndaşlarınızın həyat şəraitini yaxşılaşdırmaq, eyni zamanda, ölkənizin təhlükəsizliyini təmin etməkdir.
- QHT-lər: Sizin prioritetiniz hərbi xərcləri əhəmiyyətli dərəcədə azaltmaq və kasıb ölkələrin borc problemini həll etməkdir.
- Hərbi sənaye nümayəndəsi: Sizin prioritetiniz bazarları və pulu itirməməkdir, lakin danışıqlara razısınız.
- Hərbi sənaye işçilərinin həmkarlar ittifaqının rəsmisi: Sizin prioritetiniz sülh və əmin amanlıqda yaşamaqdır, lakin işinizi itirməkdən qorxursunuz.

## Sonrakı fəaliyyət üçün təkliflər

87-ci səhifədəki "Dərmanlara çıxış", 115-ci səhifədəki miqrantlarla bağlı "Mən içəri girə bilərəm?" və ya 263-cü səhifədəki "Var-dövlət və güc uğrunda mübarizə aparmaq" məşğələləri iştirakçıların kasıblıq və inkişafın olmamasının səbəb və nəticələri haqqında anlayışlarını tamamlamaq və dərinləşdirmək üçün istifadə oluna bilər.

Siz iştirakçılardan MİM-ləri araşdırmağı və ölkələrinin bu məqsədlərə çatmaq üçün nə etdiyini tapmağı xahiş edə bilərsiniz.

İştirakçılardan öz ölkələrinin (və ya bütövlükdə Avropanın) ÜMM-sini (ümummilli məhsul) və İİİ-sini (insan inkişaf indeksi) inkişaf etməkdə olan ölkə (və ya bütövlükdə Afrika) ilə müqayisə etməyi və tarixi və hazırki bərabərsizliyin səbəblərini araşdırmağı xahiş edin. Zəngin ölkələr digər yrlərdə inkişafın olmamasına görə məsuliyyət daşımalıdırlar?

## Fəaliyyət üçün fikirlər

Ölkənizdə MİM-lər üzrə məsuliyyət daşıyan qurumlarla əlaqə saxlayın və aparılan kampaniyaya necə töhfə verə biləcəyinizi öyrənin.

Məktəb və ya digər fəaliyyətin hissəsi kimi, məşğələni sorğuya çevirin. 8 MİM-i sıralayın və düzgün cavabı tapmaq üçün üç variantdan birini seçməyi xahiş edin. Alternativ kimi, cədvəli həqiqi məlumatları daxil etməklə böyük poster şəklində hazırlayın və baş çəkənlərdən öz reaksiyaları ilə bağlı fikir bildirməyi xahiş edin.

## Əlavə məlumat

Minilliyin İnkişaf Məqsədləri (MİM-lər) 192 BMT üzv dövləti və ən azı 23 beynəlxalq təşkilat tərəfindən 2015-ci ilə qədər nail olunması razılaşdırılmış səkkiz beynəlxalq inkişaf məqsədidir.

Minilliyin İnkişaf Məqsədlərinin xülasəsi

**1-ci məqsəd**: İfrat kasıblığı və aclığı **aradan qaldırmaq**
- Günə 1 dollardan az məbləğə yaşayan insanların sayını yarıya endirmək
- Qadınlar, Kişilər və Gənclər arasında məşğulluğu artırmaq
- Aclıqdan əziyyət çəkən insanların sayını yarıya endirmək

**2-ci məqsəd**: Ümumi ibtidai təhsilə **nail olmaq**
- 2015-ci ilə qədər bütün uşaqlar, qızlar və oğlanlar ibtidai məktəbi tam şəkildə bitirə biləcəkdir

**3-cü məqsəd**: Qadınlara səlahiyyət vermək və gender bərabərliyini təmin etmək
- 2005-ci ilə qədər ibtidai və orta məktəb təhsilində, 2015-ci ilə qədər bütün səviyyələrdə **gender bərabərsizliyini aradan qaldırmaq**

**4-cü məqsəd: Uşaq ölümü hallarını azaltmaq**
- 1990 – 2015 – ci illər arasında beş yaşdan aşağı uşaqlar arasında ölüm sayını üçdə ikiyə qədər azaltmaq

**5-ci məqsəd: Ana sağlamlığını inkişaf etdirmək**
- Ana ölümü əmsalını 1990 – 2015 – ci illər arasında dörddə üçə qədər azaltmaq
- 2015-ci ilə qədər reproduktiv sağlamlığa universal çıxışa nail olmaq

**6-cı məqsəd: QİÇS, malyariya və digər xəstəliklərlə mübarizə aparmaq**
- 2015-ci ilə qədər QİÇS-in yayılmasını dayandırmaq və əks fəaliyyətə başlamaq
- 2010-cu ilə qədər ehtiyacı olan hər kəs üçün QİÇS müalicəsinə universal çıxışa nail olmaq
- 2015-ci ilə qədər malyariya və digər başlıca xəstəliklərin yayılmasını dayandırmaq və onlara qarşı fəaliyyətə başlamaq

**7-ci məqsəd: Ətraf mühitin davamlılığını təmin etmək**
- Davamlı inkişaf prinsiplərini ölkə siyasəti və proqramlarına inteqrasiya etmək; ətraf mühit resurslarının itkisinin qarşısını almaq
- İtki əmsalında 2010-cu ilə qədər əhəmiyyətli azalmaya nail olmaqla, biomüxtəliflik itkisini azaltmaq
- 2015-ci ilə qədər təmiz içməli su və əsas sanitariyaya davamlı çıxışı olmayan insanların sayını yarıya endirmək
- 2020-ci ilə qədər ən azı 100 milyon xarabalıq sakininin həyatında əhəmiyyətli inkişafa nail olmaq

**8-ci məqsəd: İnkişaf naminə qlobal tərəfdaşlığı inkişaf etdirmək**
- Açıq, qaydalara uyğun, proqnozlaşdırılan, ayrı-seçkiliyə yol verilməyən ticarət və maliyyə sistemini daha da inkişaf etdirmək
- Açıq, qaydalara uyğun, proqnozlaşdırılan, ayrı-seçkiliyə yol verilməyən ticarət və maliyyə sistemini daha da inkişaf etdirmək
- Ən az inkişaf etmiş ölkələrin xüsusi ehtiyaclarını qarşılamaq
- Dənizə çıxışı olmayan və kiçik adada yerləşən inkişaf etməkdə olan ölkələrin xüsusi ehtiyaclarını qarşılamaq
- Borcun uzaq perspektivdə davamlılığını təmin etmək üçün milli və beynəlxalq tədbirlər vasitəsilə inkişaf etməkdə olan ölkələrin borc problemini tam şəkildə həll etmək.

**Lazımlı məlumat**
İnsan İnkişafı Hesabatları: http://hdr.undp.org/en/

Stokholm Beynəlxalq Sülh Tədqiqatı İnstitutu – SIPRI: http://www.sipri.org/

Üçüncü Dünya İnsitutu: http://www.item.org.uy/eng/index.php

MİM-lər barəsində əlavə məlumat üçün http://www.un.org/millenniumgoals

Qeyd
MİM nişanları Braziliyadakı MİM Kampanyası zamanı hazırlanmışdır

## Paylanmalı materiallar

Qlobal Minillik Məqsədləri



İFRAT KASIBLIQ VƏ ACLIĞI ARADAN QALDIRMAQ



ÜMUMİ İBTİDAİ TƏHSİLƏ NAİL OLMAQ



GENDER BƏRABƏLİYİNİ TƏMİN ETMƏK VƏ QADINLARA SƏLAHİYYƏT VERMƏK



UŞAQ ÖLÜMÜ HALLARINI ARADAN QALDIRMAQ



ANA SAĞLAMLIĞINI İNKİŞAF ETDİRMƏK



QİÇS, MALYARİYA VƏ DİGƏR XƏSTƏLİKLƏRLƏ MÜBARİZƏ APARMAQ



ƏTRAF MÜHİT DAVAMLILIĞINI TƏMİN ETMƏK



İNKİŞAF NAMİNƏ QLOBAL TƏRƏFDAŞLIĞI İNKİŞAF ETDİRMƏK

# Mən işləmək istəyirəm!

*Mənim bacarıqlarım var!*

**Mövzular**
• Əlillik və onlara qarşı ayrı-seçklik
• Əmək
• Ayrı-seçklik və dözümsüzlük

**Mürəkkəblik** 3-cü səviyyə

**Qrup ölçüsü** 20

**Vaxt** 120 dəqiqə

**Xülasə** Bu məşğələ əlilliyi olan insanların əmək hüququnu araşdırmaq üçün rol oyunundan istifadə edir.

**Əlaqədar hüquqlar**
• Əmək hüququ
• Ayrı-seçkiliyə məruz qalmamaq hüququ
• Uyğun yaşayış şəraiti hüququ

**Məqsədlər**
• İş yeri və cəmiyyətdə əlilliklə bağlı ehtiyacları başa düşmək
• Öz hüquqlarını müdafiə bacarıqlarını məşq etdirmək
• Məsuliyyət və insan ləyaqətindən xəbərdarlıq hislərini inkişaf etdirmək

**Materiallar**
• Rol kartlarının nüsxələri
• Müşahidəçilər üçün qələmlər və kağız
• Rolları oynayanlar üçün kiçik stol və 2 stul; müşahidəçilər üçün stullar

**Hazırlıq**
• Rol kartlarının surətini çıxardın

## Təlimatlar

1. İştirakçıların "işləmək hüququ" dedikdə nə başa düşdüyünü öyrənin. Bu məşğələnin sonundakı məlumatdan istifadə edərək, əlillik aspektinə toxunmadan insan hüquqları hüququnda nəyin əhatə olunduğunu izah edin.
2. İndi iştirakçılardan əlil insanların işə müraciət zamanı üzləşdiyi maneələr barəsində düşünməyi xahiş edin. "Münasib şərait" anlayışını qısa şəkildə izah edin.
3. İştirakçılara kiçik şirkətin müştəri xidmətləri şöbəsində ofis köməkçisi işi üçün bir neçə müsahibəni əhatə edən rol oyunu oynayacaqlarını izah edin. Müraciət edənlərin hər birinin əlilliyi var. Beş könüllüdən işə götürən rolunu oynayıb müsahibə götürməyi, digər beş iştirakçıdan iş üçün müraciət edən rolunu canlandırmağı xahiş edin.
4. Rol kartlarını paylayın. Hər oyunçuya onlara hazırlaşmaq üçün kömək etməsi məqsədilə bir və ya iki nəfər dostunu seçməyə icazə verin. Hazırlaşmaq üçün onlara 10-15 dəqiqə vaxt verin.
5. Stol və 2 stulu otağın ortasına yerləşdirin və digər qrup üzvlərindən müşahidəçi kimi əyləşməyi xahiş edin. Müşahidəçilərdən birindən vaxtı ölçməyi xahiş edin.
6. Rol oyununa başlayın. İlk işə götürəndən ilk namizədi çağırmağı xahiş edin. Müsahibə qısa olmalı və 5 dəqiqəni keçməməlidir.
7. İkinci işə götürəni masa arxasında yerini tutmağa və ikinci namizədi müsahibə etməyə dəvət edin.
8. Müsahibələr bitdikdən sonra, iştirakçılardan roldan çıxmağı və təhlil və qiymətləndirmə üçün müşahidəçilərə qoşulmağı xahiş edin.

Əlillik və Ayrı-seçkilik

Əmək

Ayrı-seçkilik və Dözümsüzlük

3-cü səviyyə

20

120 dəqiqə

## Təhlil və qiymətləndirmə

- Müsahibə olunanlardan aşağıdakıları soruşmaqla başlayın:
- Simulyasiya zamanı özünüzü necə hiss etdiniz? Nəyi bəyəndiniz və ya bəyənmədiniz?
- Sizcə, rolun öhdəsindən gələ bildiniz? Ən çətin tərəfi hansı idi?
- Sonra, müsahibə götürənlərdən soruşun:
- Simulyasiya zamanı özünüzü necə hiss etdiniz? Nəyi bəyəndiniz və ya bəyənmədiniz?
- Sizcə, rolun öhdəsindən gələ bildiniz? Ən çətin tərəfi hansı idi?
- Sonda, müşahidəçilərin fikrini öyrənin:
- Real həyatda bu hallar baş verə bilər?
- Müsahibə götürənlər qarşılarındakı namizədlərə hörmət və diqqəti nümayiş etdirdilər?
- Bundan sonra, ümumi müzakirəyə başlayın:
- Əlil insanların işləmək hüququ barəsində nə deyə bilərsiniz? Sizin fikrinizcə, praktikada onların bu hüququ təmin olunur?
- Sizin fikrinizcə, əlil insanlar arasında yüksək səviyyədə işsizliyin əsas səbəbləri hansılardır? Bu, ədalətlidir?
- Sizin fikrinizcə, əlil insanların ədalətli rəftar almasını təmin etmək kimin məsuliyyətində olmalıdır? “Münasib şərait” fikri barəsində nə düşünürsünüz?
- İşə müraciət edərkən – istənilən formada – ayrı-seçkiliklə üzləşmiş birini tanıyırsınız? Özünüz belə halla üzləşmisiniz?
- Cəmiyyətdəki ayrı-seçkilik meyillərini dəyişmək üçün nə edə bilərsiniz?
- Əlil insanlar üçün iş imkanlarını nəzərdən keçirərkən hansı insan hüquqlarına müraciət edilməlidir?

## Fasilitator üçün məsləhətlər

İştirakçıların rollarını mübaliğə etməməsi və real həyatda verilmiş vəziyyətdə göstəriləcək rəftarı nümayiş etdirməsini təmin etməyə çalışın. Bu, “qəddar” işə götürən rolunu oynamağa çalışan iştirakçılar üçün xüsusilə vacibdir.

Müsahibələr zamanı, rol oynamayan iştirakçılar prosesi səssizcə izləməli, rolların təqdim olunması və işə götürən və ya namizədin oyununda müşahidə etdikləri çətinliklərlə bağlı qeydlər götürməlidirlər.

Müsahibə olunan rolunu oynayan iştirakçılara əlil insanların ədalətli rəftarla təmin olunması üçün işə götürənlərə verilmiş rol kartlarında “münasib uyğunlaşdırmalar”ın göstərilə biləcəyini bildirin.

Siz işə götürənlərin yanaşmasını dəyişmək üçün əlil insanlar və gənclərin istifadə edə biləcəyi mümkün davranış formalarını müzakirə edə bilərsiniz. Eyni zamanda, siz rol oyunundakı “işə götürənlər”in əlillik və ya əlil insanlara qarşı ənənəvi yanaşmanı nə qədər nümayiş etdirə bildiyini müzakirə edə bilərsiniz.

Əlil insanlar arasında işsizliyin yuxarı səviyyəsinin mümkün səbəblərini müzakirə edərkən, aşağıdakı nümunələrdən bəzilərini qeyd edə bilərsiniz:

- iş yerində əlillərin ehtiyacları ilə bağlı biliyin olmaması
- əlil insanların bacarıqları barəsində biliyin olmaması
- əksər əlil insanlar üçün aşağı keyfiyyətli işlər
- “yanlış” səbəblərdən işə götürmə (məs., qayda/kvotaya əməl etmək, lakin yer təmin edə bilməmək)
- yeni və adaptiv texnologiyalardan qorxu
- əksər əlil insanların bu faktı gizlətmək tendensiyası.

İşə götürənlərin məsuliyyətini və əlil insanların öz hüquqlarını müdafiə etməli olmasını

vurğulayın. Əlil insanların niyə əksər hallarda işə götürmə prosesində öz əlilliyini gizlətmək ehtiyacı duyduğunu müzakirə edə bilərsiniz. İştirakçılar belə nümunələr gətirə bilərlər? Bunun qarşısını necə almaq olar?

**ƏSAS TARİX**

**7 oktyabr**
Dünya Layiqli İş Günü

## Variantlar

İştirakçıların əvvəlcədən rol oyunu üçün iş təsviri və şəxsi profili göstərən iş elanını yazmasını təklif edə bilərsiniz.

## Sonrakı fəaliyyət üçün təkliflər

Vaxt məhdudiyyətini və qrup üzvlərinin əlillik və əlillərin iş məsələləri ilə bağlı məlumatlılığını nəzərə alaraq, qrupdan aşağıdakılarla bağlı məsləhətlər hazırlamağı xahiş edə bilərsiniz:

- İşə götürənlərin yanaşmasını necə dəyişməli
- İşləmək hüququ ilə bağlı kampaniya keçirmək və müvafiq məsələlər üzrə məlumatlılığı artırmaq.

Qruplara müzakirə və flipçart çəkmək üçün 30 dəqiqə vaxt verin və hər qrupun flipçartı təqdim etməsinə 5 dəqiqə vaxt ayırın. Əgər qrup rol oynamağı xoşlayırsa və işləyən analara qarşı ayrı-seçkilik məsələlərini araşdırmaq istəyirsə, 335-ci səhifədəki "İş və uşaqlar" məşğələsini edə bilərsiniz. Əmək mövzusunda digər məşğələ 321-ci səhifədəki "Həmkarlar İttifaqı görüşü" məşğələsidir. Bu, işə götürən və işçilər arasında həmkarlar ittifaqı nümayəndələrinin iştirakı ilə maaş və iş şərtləri haqqında danışıqlar üzrə görüşün simulyasiyasıdır.

Siyasətçilərin güclü lobbiçiliyindən sonra əlil insanların iş şəraiti yaxşılaşdırılmışdır. Hansı siyasətçilərə səs verdiyinizin əhəmiyyəti var! Əgər insanların seçkilərdə səs vermək və vətəndaş iştirakı barəsində yanaşmalarını öyrənmək üçün sorğu keçirmək istəyirsinizsə, "Səs vermək yoxsa verməmək" məşğələsindən istifadə edin.

## Fəaliyyət üçün fikirlər

Yerli təşkilatlar və ya şirkətlərin əlillərlə bağlı siyasətləri olub – olmadığını öyrənin. Qrup sorğu keçirdərək həmin təşkilatların BMT-nin Əlilliyi olan İnsanların Hüquqları üzrə Konvensiyasından xəbərdar olub-olmadıqlarını öyrənə və onların buna reaksiyasını müəyyən edə bilər.

## Əlavə məlumat

Avropa Şurası dövlətlərinin əhalisi təqribən 800 milyon nəfərdir və onun sərhədləri daxilində təxminən 80 milyon əlil insan yaşayır. ÜST hesablamalarına görə, hazırda dünya əhalisinin 15%-i, təqribən bir milyard insan əlilliyin müəyyən formasından əziyyət çəkir. Bu rəqəm müharibə və dağıntı, ziyanlı yaşayış şəraiti, əlillik, onun səbəbləri, qarşısının alınması və müalicəsi barəsində biliyin çatışmazlığı ucbatından daha da artmaqdadır. Əlil insanlar arasında qadınlar, uşaqlar, yaşlılar, işgəncə qurbanları, qaçqınlar və köçkünlər, miqrant işçilər xüsusilə həssasdırlar. Məsələn, əlil qadınlar həm gender əsaslı, həm də əlilliyə görə ayrı-seçkiliyə məruz qalırlar.

### Avropa Əlillik Forumundan əlilliklə bağlı faktlar və rəqəmlər

- Avropa İttifaqında 65 milyon insan əlildir.
- Əlil insanlar digərləri ilə müqayisədə iki – üç dəfə daha çox işsizlik riski ilə üz-üzədirlər.
- İş məhdudiyyətləri ilə üzləşənlərin yalnız 16 %-i işdə müəyyən köməklə təmin olunur.
- Əksər əlil insanlar "imtina edilmiş işçilər"dir və əmək bazarına daxil olmağa cəhd belə etmirlər. Buna görə də, passiv sayılırlar.
- Əlilliyin dərəcəsi nə qədər ağırdırsa, işçi qüvvəsində iştirak o qədər aşağıdır. Digər insanların 68%-i işlədiyi halda, kəskin əlilliyi olan insanların yalnız 20%-i işləyir.
- Avropa boyunca, 16-34 yaşlı əlil insanların cəmi 38%-i, digər insanların isə 64%-i gəlir qazanır. Əlil insanların gəliri digərləri ilə müqayisədə əhəmiyyətli dərəcədə aşağıdır.

**Mənbə: www.edf-feph.org**

**Əmək hüququ**

*İqtisadi, sosial və mədəni hüquqlara dair beynəlxalq pakt*

6-cı maddə:

Bu Paktda iştirak edən dövlətlər hər bir şəxsin azad seçdiyi və ya könüllü razılaşdığı işlə həyatını təmin etmək hüququnu əhatə edən əmək hüququnu tanıyırlar

(…)

7-ci maddə:

Bu Paktda iştirak edən dövlətlər hər bir şəxsin ədalətli və münasib iş şəraiti hüququnu tanıyır (…)

*Avropa Sosial Xartiyası (ESC)*

I hissə

Hər bir kəsin öz yaşayışı üçün sərbəst seçdiyi peşə üzrə əməklə qazanmaq imkanı olmalıdır... . Bütün əməkçilərin əməyin ədalətli şəraitinə hüquqları var.

*BMT-nin Əlil insanların hüquqları haqqında Konvensiyası.*

Bu konvensiya 2007-ci ilin martında imzaya açılmışdır

27-ci maddə:

1. Bu konvensiyada iştirak edən dövlətlər əlil insanların digərləri ilə bərabər əsasda əmək hüququnu tanıyırlar; buraya azad şəkildə seçilmiş və ya əmək bazarında qəbul edilmiş işlə qazanc əldə etmək imkanı və açıq, inkluziv və əlil insanlar üçün əlverişli iş şəraiti daxildir. Tərəf dövlətlər lazımi addımlar atmaqla, qanunvericilik daxil olmaqla, əmək hüququnun, o cümlədən iş prosesində əlil olmuş insanların müvafiq hüququnun təmin olunmasını təbliğ edəcək və ona zəmanət verəcəklər… .

**“Münasib şərait”**

Münasib şərait əlil insanların işə müraciət etməsi, iş funksiyalarını yerinə yetirməsi və iş yerindəki imkanlardan digər şəxslərlə bərabər səviyyədə faydalana bilməsi üçün işə, iş şəraitinə və ya işlərin aparılma  tərzinə edilən istənilən dəyişiklik və ya uyğunlaşdırmadır.

Məsələn, kor makinaçı standart kompyuter və klaviaturadan istifadə edə bilməz. Bu maneələrin öhdəsindən gəlmək üçün münasib şərait anlayışı gətirilmişdir. Əgər iş yerinin bəzi aspektləri əlil insanları digərləri ilə müqayisədə əhəmiyyətli dərəcədə əlverişsiz vəziyyətə salarsa, işə götürən iş şəraitini “bərabərləşdirmək” üçün lazımi addımları atacaqdır. Əlil insanların hüquqları üzrə yeni Konvensiyaya görə, işə götürənlər “münasib şərait”-i təmin etmək məcburiyyətindədirlər və buna riayət olunmaması ayrı-seçkilik sayılacaqdır.

Əlillik və insan hüquqları təhsili haqqında əlavə məlumat üçün, baxın www.hrea.org

## Paylanmalı materiallar

Rol kartları:

**1-ci namizəd:**

Siz çətinliklə eşidirsiniz. Yaxşı işıqlandırma olduqda dodaqları asanlıqla oxuyursunuz. Başa düşdüyünüzün düzgünlüyünü həmişə yoxlayırsınız, məsələn, "Mən düzgün başa düşmüşəm ki,…?" sualını verirsiniz. Təşkilatda effektiv şəkildə işləmək üçün, sizin görüş otağında induksiya telinə (səsləri birbaşa eşitmə cihazına ötürməyə kömək edən məftil), səsucaldıcısı olan telefona və işıq siqnalı və ya mətn telefonuna ehtiyacınız olacaq. Müsahibə üçün nəyə ehtiyacınız olacağını və bunu necə soruşacağınızı düşünün.

**2-ci insan :**

Siz kar insansınız və işarə dilindən istifadə edirsiniz. Müsahibə üçün sizin dilmanca ehtiyacınız olacaq və bu, əlavə vaxtın lazım olması deməkdir. İş yerində müştərilərlə ünsiyyət qurmaq üçün sizə mətn telefonu (Tele yazı maşını – telefon xətti vasitəsilə əlaqə qurmaq üçün səs yerinə mətndən istifadə olunan avadanlıq) və/və ya mətn ötürmə xidməti (kar, ağıreşidən, danışa bilməyən və ya kar-kor insanların standart telefon istifadəçilərinə klaviatura və ya köməkçi avadanlıqvasitəsilə zəng etməsini təmin edən operator xidməti) lazımdır. Müsahibə üçün nəyə ehtiyacınız olacağını və bunu necə soruşacağınızı düşünün. Qeyd: Digər iştirakçıların birindən sizin dilmancınız olmağı xahiş etməli olacaqsınız.

**3-cü namizəd:**

Siz kor insansınız və sizi (müsahibəyə) müşayiət etmək üçün lazım olan köməkçinin yol xərcləri işə götürən tərəfindənqarşılanmalıdır. İş yerində sizin xüsusi klaviaturalı kompyuterə və mətni ekrandan sizə "deyən" proqram təminatına ehtiyacınız olacaqdır. Yolunuzu tapa bilmək üçün, siz bələdçi itinizi gətirməli olacaqsınız. Bilirsiniz ki, işə götürənlər sizin üçün lazım olan texnoloji dəstəyin mövcudluğu və qiymətinə görə sizi işə götürməyə tərəddüd edirlər. Müsahibə üçün nəyə ehtiyacınız olacağını və bunu necə soruşacağınızı düşünün. Qeyd: Digər iştirakçıların birindən sizi müşayiət etməyi xahiş etməli olacaqsınız.

**4-cü namizəd:**

Siz əlil arabasından istifadə edirsiniz. Bina sizin üçün əlverişli olmalı, yaxınlıqda avtomobil dayanacağı olmalı və bütün keçidlər, liftlər, tualetlər, ofislər və ümumi məkanlar araba ilə keçmək üçün uyğun olmalıdır. Əgər bunların hər hansı birində pillələr varsa, sizin üçün rampa yerləşdirilməlidir. Həmçinin, arabanızın yerləşməsi üçün sizə xüsusi olaraq dəyişdirilmiş masa təmin edilməlidir. Müsahibə üçün nəyə ehtiyacınız olacağını və bunu necə soruşacağınızı düşünün.

**5-ci namizəd:**

Siz disleksiyadan əziyyət çəkirsiniz və müraciət etdiyiniz iş müəyyən oxu və məktub yazmaq işlərini əhatə edir. Siz iş üçün əla göstəricilərə maliksiniz, çox yaxşı oxuyub yaza bilirsiniz, lakin səs-küylü və stresli vəziyyətlərdə işləmək və qısa müddət ərzində işi təhvil verməkdə çətinlik çəkirsiniz. Müraciət prosesinin bir hissəsi olan məktub yazmaq testini bitirmək üçün əlavə vaxt istəyirsiniz. Müsahibə üçün nəyə ehtiyacınız olacağını və bunu necə soruşacağınızı düşünün.

Employers' role cards:

**1-ci işə götürən:**

Siz çətinliklə eşidən şəxsi müsahibə edəcəksiniz. Siz müsahibinizlə ağzınız yarı qapalı şəkildə danışır, tez-tez kənara baxır və pis işıqlandırılan yerdə əyləşməklə ağzınızı aydın şəkildə görməyi çətinləşdirirsiniz. Sürətlə danışın, namizədin aydınlaşdırma üçün verdiyi suallara cavab vermək istəməyin. Namizəd nəyi isə təkrarlamağınızı istədikdə, bunu könülsüz, şişirdilmiş şəkildə edin və namizədin sualı ilk dəfədən başa düşmədiyinə görə axmaq olduğu təəssüratını yaradın. Müsahibədə namizədə ünvanlaya biləcəyiniz suallar haqqında düşünün.

**2-ci işə götürən:**

Siz tamamilə kar olan insanı müsahibə edirsiniz və onunla dilmanc vasitəsilə ünsiyyət quracaqsınız. Müsahibə zamanı namizədə deyil, dilmanca müraciət edirsiniz. Tələsirsiniz və dediklərinizin dilmanc tərəfindən namizədə çatdırılması və namizədin dilmanca öz fikirlərini deməsinə çox vaxt sərf etmək istəmirsiniz. Bu hallarda, siz tez-tez namizədə mane olursunuz. Siz kar insanın müştərilərlə necə ünsiyyətdə olacağını başa düşmürsünüz və müsahibə zamanı işarə dilindən istifadəni vaxt itkisi hesab edirsiniz. Siz kar insanın iş yerində də dilmanca ehtiyac duyacağına inanırsınız - o, buna etiraz etsə də - və iş yerində əlavə şəxs istəmirsiniz. Müsahibədə namizədə ünvanlaya biləcəyiniz suallar haqqında düşünün.

**3-cü işə götürən**:

Siz kor şəxsi müsahibə edirsiniz və onun işə uyğun olmadığını hesab edirsiniz. Lazım olan texnologiyanın çox bahalı olacağından və kor olmağı kompensasiya edə bilməyəcəyindən əminsiniz. Eyni zamanda, digər işçilərin onunla ünsiyyət qura bilməyəcəyindən narahatsınız. Müsahibədə namizədə ünvanlaya biləcəyiniz suallar haqqında düşünün.

**4-cü işə götürən:**

Siz əlil arabasında olan şəxsi müsahibə edəcəksiniz. Namizəd araba üçün uyğun şərtlər barəsində suallar verəcək, sizin binanız isə əlil arabası üçün heç də uyğun deyil. Bilirsiniz ki, bütün lazımi dəyişiklikləri etmək çox baha olacaq, lakin əlilliyə görə namizədi rədd etməyin qeyri-qanuni olduğunu bildiyinizdən bundan səbəb kimi istifadə etməyəcəksiniz. Bu namizədin işə uyğun olduğunu düşünsəniz də, onu işə götürməmək üçün başqa səbəb və bəhanələr tapmağa çalışacaqsınız. Müsahibədə namizədə ünvanlaya biləcəyiniz suallar haqqında düşünün.

**5-ci işə götürən:**

Siz disleksiyası olan şəxsi müsahibə edirsiniz və onun əlavə ehtiyacları sizi özünüzdən çıxardır. Bütün namizədlərə məktub yazmaq bacarığını yoxlamaq üçün test verilib və siz bu namizədə tapşırığı tamamlamaq üçün əlavə vaxt verilməsini qəbul etmək istəmirsiniz. Sizin fikrinizcə, o, verilmiş vaxtda və digərləri ilə eyni şərtlər daxilində məktubu yaza bilmirsə, işə qəbul edilməməlidir. Müsahibədə namizədə ünvanlaya biləcəyiniz suallar haqqında düşünün.

# Bircə dəqiqə

*Yalnız bir dəqiqə danışa bilərsiniz - dayanmadan – təkrarsız?*

| | |
|---|---|
| **Mövzular** | • Mədəniyyət və idman<br>• Qloballaşma<br>• Ümumi İnsan Hüquqları |
| **Mürəkkəblik** | 2-ci səviyyə |
| **Qrup ölçüsü** | İstənilən |
| **Vaxt** | 40 dəqiqə |
| **Xülasə** | Bu məşğələdə iştirakçılar cəld olmalı və idman və insan hüquqları barəsində bir dəqiqə ərzində danışmağa cəhd etməlidirlər. |
| **Əlaqədar hüquqlar** | Hamısı |
| **Məqsədlər** | • İnsan hüquqlarının bölünməzliyini və qarşılıqlı əlaqəsini qiymətləndirmək<br>• Tənqidi düşüncəni inkişaf etdirmək<br>• Şəxsi fikirləri ifadə etmək üçün özünə inamı aşılamaq |
| **Materiallar** | • Hər iştirakçı üçün bəyanatlar<br>• Papaq<br>• İstifadə olunmuş saat və ya vaxt ölçən |
| **Hazırlıq** | • Aşağıdakı vərəqin surətini çıxardın və bəyanatları kəsin.<br>• Kağız zolaqlarını qatlayın və papağa atın. |

## Təlimatlar

1. İştirakçılardan dövrə qurub oturmağı xahiş edin.
2. Papağı sıra ilə ötürün. Hər nəfərdən, baxmadan, əlini papağa salıb bir kağız götürməyi xahiş edin.
3. İştirakçılar 5 dəqiqə ərzində kağızda yazılmış bəyanatla bağlı dayanmadan bir dəqiqə danışmaq üçün hazırlaşmalıdırlar. Qaydalara görə, heç bir fasilə və təkrar olmamalıdır.
4. Dövrə üzrə hər iştirakçıdan “çıxış”ını təqdim etməyi xahiş edin.
5. Hər “çıxış”dan sonra, rəy bildirilməsi üçün iki və ya üç dəqiqə vaxt verin. Əgər iştirakçılar daha çox müzakirə aparmaq istəyirlərsə, mövzunu qeyd edin və sonda ona qayıdacağınızı bildirin.
6. Hamı bitirdikdən sonra, geri qayıdın və qısa kəsilməli olmuş müzakirələri tamamlayın.
7. Daha sonra, təhlil və qiymətləndirməyə keçin.

## Təhlil və qiymətləndirmə

- Məşğələnin necə keçdiyinə baxmaqla başlayın, daha sonra, qaldırılan məsələləri müzakirə edin və sonda, insan hüquqları ilə əlaqəyə toxunun.
- Verilmiş mövzular barəsində bir dəqiqə dayanmadan danışmaq çətin idi?
- Ən çətin mövzular hansı idi və niyə?
- Hansı bəyanatlar ən mübahisəli idi və niyə?
- İştirakçıların eşitdiyi ən təəccübləndirici məlumat hansı oldu?
- Hər bəyanatda əhatə olunan insan hüququ hansı idi?
- İdman hüququ insan hüququdur? Əgər belədirsə, o, müxtəlif insan hüquqları sənədlərində necə işıqlandırılıb?
- Sizin cəmiyyətinizdə hamının seçdikləri idmanı etmək imkanı var? Yoxdursa, niyə? Bunu düzəltmək üçün nə etmək olar?

Mədəniyyət və idman

Qloballaşma

Ümumi İnsan Hüquqları

2-ci səviyyə

İstənilən

40 dəqiqə

KEY DATE

**7 aprel**
Dünya Sağlamlıq Günü (ÜST

## Fasilitator üçün məsləhətlər

Bu məşğələ bir çox səviyyələri əhatə edir və suallar fərqli şəkildə şərh oluna bilər. Məşğələnin gənclərə uyğun şəkildə aparılması vacibdir. Daha dərin düşüncəni oyatmaq üçün nəsə deyə bilərsiniz, lakin "müəyyən cavab"ı gözlədiyiniz təəssüratını yarada biləcəyinizdən xəbərdar olun.

Əgər aşağıdakı bəyanatların qrupunuz üçün maraqlı olmadığını düşünürsünüzsə, başqalarını hazırlayın. Qrupunuz çox böyükdürsə, məşğələni onları daha kiçik qruplara bölməklə aparın.

Tərəddüd edən iştirakçıları da danışmağa cəsarətləndirin. Yarım dəqiqə və ya yalnız iyirmi saniyə danışmağı yaxud ilk öncə dostları ilə məşq etməyi və ya daha sonra danışmağı təklif edin. Buna baxmayaraq, bəzi şəxsləri inandırmağın mümkün olmamasına hazır olun.

Davam etməyin yaxşı yolu 62-ci səhifədəki assosiasiya oyununu oynamaqdır. "İdman", "əlillik" və ya "Olimpiya oyunları" kimi sözlər yazılan söz kartları hazırlayın.

## Variantlar

Kiçik qrupda siz iki və ya daha artıq dövrə edə bilərsiniz. Hər dövrədə iştirakçılar bir kağız götürürlər.

Oynamağın digər yolu kartları təlimatlarda göstərildiyi kimi papağa qoymaqdır. Hər iştirakçıdan bir bəyanat seçib onu ucadan oxumağı xahiş edin. Onlar mövzu haqqında danışmağa başlayırlar və bir dəqiqə əvəzinə dayanmaq istədikləri vaxta qədər danışırlar, növbəti iştirakçı əvvəlki oyunçunun istifadə etdiyi sonuncu sözdən başlayaraq davam edir.

Bəyanatları papaqdan çıxarmaq metodu müzakirə etmək istədiyiniz istənilən mövzu və ya məsələyə tətbiq oluna bilər.

## Sonrakı fəaliyyət üçün təkliflər

Əgər iştirakçılar idman mövzusunda davam etmək istəyirlərsə və özlərini enerjili hiss edirlərsə, 276-cı səhifədəki "Hamı üçün idman" məşğələsini edin.

Əgər digər hər hansı mövzu xüsusi maraq oyadıbsa, təlimat vəsaitinin sonundakı indeksdən həmin mövzuya uyğun məşğələni tapın.

Əgər qrup insan hüquqlarına yumorlu yanaşmaq və Pançonun 5-ci fəsildəki karikaturaları ilə oynamaq istəyirsə: 76-cı səhifədəki "Şəkillərlə oynamaq" məşğələsinə baxın; və ya onlar gülməli əhvalatlar danışmağı xoşlayırlarsa: Hər kəs Fərqli - Hər kəs Bərabər paketindəki "Avrozarafat yarışına" baxın.

## Fəaliyyət üçün fikirlər

İzləmək üçün bir məsələ barəsində qərara gəlin və addım atmaq üçün növbəti mərhələ haqqında razılıq əldə edin. Seçilmiş mövzu üzrə işi davam etdirmək üçün layihə hazırlayın. Bu sahədə çalışan yerli təşkilatla əlaqə qurun. Layihədən öyrənmək imkanı kimi istifadə edin və iştirakçıların qrup işi bacarıqları və fəaliyyət qabiliyyəti üzrə əldə etdikləri barəsində düşünməsinə kömək edin.

## Əlavə məlumat

http://www.athletesunitedforpeace.org

**Qeyd**

Bəyanatlar idmanı 20 Kompas mövzusu ilə əlaqələndirir. Bu insan hüquqlarının bölünməzliyini və qarşılıqlı əlaqəsini göstərir

## Paylanmalı materiallar

### Bəyanatlar vərəqi

**İdman və ümumi insan hüquqları**
Sizin fikrinizcə, Emmanuel Adebayor UNAIDS Xoşməramlı Səfiri olmaq üçün uyğundur?

**İdman və ümumi insan hüquqları**
Atletlər beynəlxalq səviyyədə davranış qaydalarına əməl etməlidirlər. Bu qaydalara əməl etməyən, məsələn, idman yarışından siyasi bəyanat etmək üçün istifadə edən atletlər cəzalandırılır. Bu, şəxsin ifadə azadlığının pozulmasıdır?

**İdman və ümumi insan hüquqları**
Polis problem yaradacağından şübhələndiyi futbol tərəfdarlarının oyunlarda iştirak etmək üçün başqa ölkələrə getməsinə mane olmaq səlahiyyətinə malikdir. Bu, şəxsin hərəkət azadlığı və sərbəst şəkildə birləşmək hüququnun qanuni pozulmasıdır?

**İdman və ümumi insan hüquqları**
Sizin fikrinizcə, Olimpiya Oyunlarının keçiriləcəyi ölkələr insan hüquqlarının təmin edilməsi şəraitinə uyğun seçilməlidir?

**İdman və uşaqlar**
Uşaqlarını saatlarla məşq etməyə məcbur edən şöhrətpərəst valideynlər və məşqçilərə nə deyərdiniz? Gənclərin sağlamlığı və asudə vaxtlarını necə keçirəcəklərinə kim qərar verməlidir?

**İdman, vətəndaşlıq və iştirak**
Bir çox insanlar bir ölkədə anadan olur, amma ikinci ölkədə məskunlaşır və həmin ölkənin vətəndaşına çevrilirlər. Yenə də, onlar evlərinə çevrilmiş ikinci ölkənin milli komandasını deyil, anadan olduqları ölkənin milli komandasını dəstəkləyirlər. Yaxşı vətəndaş məskunlaşdığı ölkənin milli komandasını dəstəkləməlidir?

**İdman və mədəniyyət**
Mədəniyyət qurum, təşkilat və ya qrupu xarakterizə edən ortaq yanaşmalar, dəyərlər, məqsədlər və adətlər kimi təsvir oluna bilər. “Futbol mədəniyyəti” mədəniyyət sayıla bilər?

**İdman və demokratiya**
Sizin fikrinizcə, ölkənizdəki siyasətçilər insanların diqqətini siyasi və iqtisadi məsələlərdən yayındırmaq üçün idman və ya idman hadisələrindən istifadə edirlər?

**İdman və əlillik**
Paralimpiya oyunları əlil insanlara qarşı qərəzi nə dərəcədə yoxa çıxara bilir?

**İdman, ayrı-seçkilik və dözümsüzlük**
Atletlərin cinsi sınaqdan keçirilməsi ədalətli yarış üçün vacibdir yoxsa bu, insanların ləyaqətinə və şəxsi həyat hüququna ciddi müdaxilədir?

**İdman və ətraf mühit**
Qolf kursları tez-tez insanlar və ətraf mühit üçün zərərli olmaqla tənqid edilir, çünki insanların heyvandarlıq və əkinçilik üçün istifadə edə biləcəyi ərazilər qolf meydançası kimi istifadə olunur. Həmçinin, bu meydançaların saxlanması üçün çoxlu su, herbisid və pestisidlər tələb olunur. Bütün bunlar qolfu insan hüququ məsələsinə çevirir?

**İdman və gender**
Bəzilərinin fikrincə, aparıcı məşqçilər və idman administratorları arasında qadınların az olmasının səbəbi onlara qarşı ayrı-seçkilikdir. Razısınız? Əgər belədirsə, onu aradan qaldırmaq üçün nə etmək olar?

**İdman və qloballaşma**
İdman ayaqqabıları və digər bir çox idman avadanlıqları Şərqi Avropa və Uzaq Şərqdə istismar olunan əməklə ucuz dəyərə istehsal olunur. İşçilər işlərini itirmək istəmirlər və bu vəziyyətə qarşı etiraz etmirlər. Biz, müştərilər olaraq, onların istismarının qarşısını almaq üçün nə edə bilərik?

**İdman və sağlamlıq**
İdmanda narkotiklərdən istifadəyə qarşı yerli səviyyədə mübarizə üçün nə edilə bilər?

**İdman və KİV**
Sizin fikrinizcə, hər hansı xüsusi televiziya şirkəti istənilən idman yarışının istisna yayım hüququnu ala bilməlidir?

**İdman və miqrasiya**
Miqrantların inteqrasiyası üçün ən asan və əhəmiyyətli yol idman və idman məşğələləridir. Razısınız? Niyə? Niyə yox?

**İdman, sülh və zorakılıq**
Rəqabət əsaslı yarışlar hansı səviyyədə insanlar arasında əməkdaşlıq və anlayışı artırır və hansı səviyyədə millətçilik və ksenofobiyanı gücləndirir?

**İdman və kasıblıq**
Bir çox ölkələrdə idman, xüsusilə də futbol şəxslərə "kasıblıqdan çıxış vəsiqəsi" almaq imkanı təklif edir. Bu səbəbdən, kasıb ölkələr futbola daha çox diqqət ayırmalıdır?

**İdman və kasıblıq**
Avropada bir çox futbol oyunçuları işlərinə görə çox yuxarı maaş alır. Bu, əsaslandırıla bilər və ədalətlidir?

**İdman, din və inam**
Bir çox idman klubları həftəsonu oynayır. Bu, şənbə və ya bazar günü dini ibadətlərini həyata keçirmək istəyən şəxslərə qarşı ədalətsiz ayrı-seçkilikdir?

**İdman və əlillik**
Paralimpiya oyunları əlil insanlara qarşı qərəzi nə dərəcədə yoxa çıxara bilir?

**İdman və tarixi yaddaş**
Berlindəki Olimpiya stadionu 1936-cı il Olimpiya Oyunlarında Hitlerin nümayiş meydançası olmuş və Nazilər tərəfindən təbliğat məqsədilə istifadə olunmuşdur. Buna görə də, bir çoxları üçün bu tikili faşizmin simvoludur. Bu stadion, bəzilərinin onu tamamilə məhv etmək və digərlərinin onu "Romadakı Kolizey kimi" yavaş-yavaş yoxa çıxmağa tərk etmək təkliflərinə baxmayaraq, hazırda yenilənib. Sizin fikrinizcə, bu tikili ilə nə baş verməli idi?

**İdman, müharibə və terrorizm**
"Ciddi idmanın ədalətli oyunla heç bir əlaqəsi yoxdur. O, nifrət, paxıllıq, lovğalıq, bütün qaydaların pozulması və vəhşiliyi izləməkdən alınan sadist zövqlə əhatə olunub: başqa sözlə, bu atışma olmayan müharibədir.", 1945, Corc Oruel. Razısınız?

**İdman və əmək**
Professional atletlər digər işçilərlə eyni hüquq və öhdəliklərə (məsələn, iş saatları, vergiləri ödəmək və həmkarlar ittifaqlarında birləşmək) malik olmalıdır, fikir ilə razısınız?

# Dil baryeri

*Bu suallara cavab verə bilərsiniz? Sizin sığınacaq tələbiniz qəbul edilərdi?*

**Mürəkkəblik** 2-ci səviyyə
**Qrup ölçüsü** İstənilən
**Vaxt** 60 dəqiqə
**Mövzular**
• Miqrasiya
• Müharibə və Terrorizm
• Ayrı-seçkilik və dözümsüzlük

**Xülasə** Bu məşğələ sığınacaq üçün müraciət edən miqrantların üzləşdiyi çətinlikləri əks etdirən simulyasiyadır. Qaldırılan məsələlərə daxildir:
• Miqrantların üzləşməli olduğu emosional faktorlar və məyusluq
• Dil baryerini aşmaq
• Müraciət proseduru zamanı ayrı-seçkilik

**Əlaqədar hüquqlar**
• Sığınacaq axtarmaq və almaq hüququ
• Etnik mənsubiyyət və ya mənşə ölkə əsasında ayrı-seçkiliyə məruz qalmamaq hüququ
• Günahı təsdiqlənmədən günahsız sayılmaq hüququ

**Məqsədlər**
• Sərhəd polisi və miqrasiya qurumları tərəfindən törədilən ayrı-seçkilik barəsində məlumatlılığı artırmaq
• Mədəniyyətlərarası ünsiyyət bacarıqlarını inkişaf etdirmək
• Qaçqınlara və sığınacaq axtaranlara qarşı şəfqət hissini aşılamaq

**Materiallar**
• Hər iştirakçı üçün "Sığınacaq üçün Müraciət" materialının nüsxələri
• Hər iştirakçı üçün bir qələm

**Hazırlıq** Otağı elə düzəldin ki, siz masa arxasına keçib bürokratik məmur rolunu oynaya biləsiniz.

Miqrasiya

Müharibə və Terrorizm

Ayrı-seçkilik və Dözümsüzlük

2-ci səviyyə

İstənilən

60 dəqiqə

## Təlimatlar

1. İştirakçıların gəlməsinə icazə verin, lakin onları salamlamayın və ya otaqda olmalarına fikir verməyin. Nə baş verəcəyi haqqında heç nə deməyin.
2. Başlama vaxtından sonra bir neçə dəqiqə gözləyin, daha sonra, hər iştirakçıya "Sığınacaq üçün Müraciət" materialının nüsxələrini və bir qələm verin.
3. Formanı doldurmaq üçün beş dəqiqə vaxtları olduqlarını deyin, lakin başqa heç nə deməyin. Bütün suallar və etirazlara fikir verməyin. Danışmalı olsanız, başqa dildə (və ya uydurduğunuz dildə) danışın və jestlərdən istifadə edin. Bütün növ ünsiyyəti minimum səviyyədə saxlayın. Qaçqınların problemlərinin sizin işiniz olmadığını xatırlayın; sizin işiniz sadəcə formaları paylamaq və onları toplamaqdır!
4. Gec gələnləri kobudluqla qarşılayın (məsələn, "Gecikmisiniz. Formanı götürün və doldurun. Onu geri vermək üçün bir neçə dəqiqəniz var.")
5. Beş dəqiqə bitəndən sonra, formaları gülmədən və ya heç bir şəxsi ünsiyyətə girmədən toplayın.
6. Doldurulmuş formalardan birindən adı oxuyun və həmin şəxsi qabağa çıxmağa çağırın. Formaya baxın və doldurduqları formadan bir məsələ tapıb bildirin, məsələn, "Siz 8-ci suala cavab verməmisiniz" və ya "Görürəm siz 6-cı suala "yox" cavabı vermisiniz. Müraciət qəbul edilmir." Şəxsə getmək göstərişi verin. Heç bir müzakirəyə girməyin. Dərhal növbəti şəxsi qabağa çıxmağa çağırın.

7. Bu prosesi bir neçə dəfə təkrarlayın. Bütün müraciətləri nəzərdən keçirmək vacib deyil, iştirakçıların nə baş verdiyini anlaması üçün kifayət edəcək qədər davam edin.
8. Nəhayət, rolunuzdan çıxın və iştirakçıları nə baş verdiyini müzakirə etməyə dəvət edin.

## Təhlil və qiymətləndirmə

- İştirakçılardan məşğələ vaxtı nə hiss etdiklərini soruşmaqla başlayın, daha sonra, nə baş verdiyini, onların nə öyrəndiyini və insan hüquqları ilə əlaqəni müzakirə etməklə davam edin.
- İştirakçılar anlaşılmaz formanı doldurarkən özlərini necə hiss ediblər?
- Sığınacaq axtaranın təcrübəsinin simulyasiyası nə qədər real idi?
- Sizin fikrinizcə, ölkənizdə sığınacaq üçün müraciət edənlər sığınacaq üçün müraciət prosesində ədalətlə rəftar olunurlar? Niyə? Niyə yox?
- Sığınacaq üçün müraciəti rədd olunanlar üçün nəticələr nə olacaqdır?
- İştirakçılar dili danışa bilmədikləri və məmurla, məsələn, polis və ya biletçi ilə, qarşı – qarşıya qaldıqları vəziyyətə düşüblər? Özlərini necə hiss ediblər?
- Bu məşğələdə hansı insan hüquqlarına toxunulur?
- Sığınacaq üçün müraciət edənlər hüquqlarının pozulmasından müdafiə olunmaq üçün hansı iddiaları irəli sürmək imkanına malikdirlər?
- Sizin ölkənizdə neçə sığınacaq axtaran şəxs var? Sizin fikrinizcə, ölkəniz kifayət sayda qaçqın qəbul edir?
- Sizin ölkənizdə sığınacaq axtaranların hansı hüquqları pozulur?

## Fasilitator üçün məsləhətlər

Bu məşğələnin aparılması olduqca asandır: sizdən tələb olunan əsas cəhət rolunuzda “güclü” olmaq və ciddi, möhkəm və bürokratik olmaqdır. Sığınacaq axtaranların düşdüyü bədbəxt hal sizin işiniz deyil; siz sadəcə işinizi görmək üçün burdasınız! Bu məşğələnin əsas məqamı bir çox insanların qaçqınları öz ölkəsində istəməməsidir. Miqrasiya məmurlarına qaçqınları nəzərdən keçirmək və identifikasiya sənədləri olan və müraciət formasını düzgün şəkildə dolduran şəxslərin ölkəyə daxil olmasına imkan verməK əmr olunmuşdur. Qaçqınlar adətən digər ölkənin dilini yaxşı bilmirlər və formaları doldurmağı çətin hesab edirlər. Həmçinin, onlar qəmgin və emosional vəziyyətdə olurlar. Onlar nəyin baş verdiyini başa düşməkdə çətinlik çəkirlər, çünki onların müraciətləri tez-tez rədd olunur və onlar bu halın səbəblərini anlamırlar.

“Sığınacaq üçün Müraciət” kreol dilindədir. Kreol dilləri ortaq dil bilməyən və ünsiyyət qurmağa çalışan iki şəxs arasında yaranan dillərdir. Nəticə qarışıq bir dildir. Məsələn, Yamaykanın kreol dili əsasən Qərbi Afrika  qrammatikasına malikdir və dialektli tələffüzdə ingilis sözlərini əhatə edir. Bir neçə kreol dili var, məsələn, Haiti və Dominikan Respublikası, Papua Yeni Qvineya və Seyşel adaları kimi bəzi Sakit və Hind okeanı adalarında Bu məşğələdə kreol dilindən istifadə olunmasının səbəbi avropalıların əksəriyyətinin onu bilməməsidir. Əgər kreol dilini bilən iştirakçınız varsa, ondan sərhəd polisi və ya miqrasiya məmuru rolunu oynamağı xahiş edə bilərsiniz.

## Sonrakı fəaliyyət üçün təkliflər

Əgər qaçqınların ölkənizə daxil olmasını qəbul etmək və ya rədd etmək üçün arqumentlərə baxmaq istəyirsinizsə, 115-ci səhifədəki “İçəri girə bilərəm?” məşğələsinə baxın.

Bir çox sığınacaq axtaranlar Avropaya gələndə inteqrasiya olunmaqda çətinlik çəkirlər, çünki öz ölkələrində çox az təhsil alıblar. Əgər dünya üzrə təhsilin təmin olunmasındakı fərqlər barəsində öyrənmək istəyirsinizsə, 158-ci səhifədəki “Hamı üçün Təhsil” məşğələsini edin.

## Fəaliyyət üçün fikirlər

Prosedurlar və sığınacaq axtaran sərhədə gələrkən sizin ölkənizdə həqiqətdə nə baş verdiyi haqqında daha çox məlumat toplayın. Onlar harada və nə vaxt ilk formaları doldururlar? Onlara ilk mərhələdən tərcüməçi təmin olunur? İnternetdə hökumətin rəsmi məlumat vebsaytına baxın, miqrasiya məmurunu işin çətinlikləri barəsində danışmağa dəvət edin, sığınacaq axtaranları mövcud vəziyyət, sistemin nə qədər ədaləti olması və prosesdə, xüsusilə, ilkin formanı doldurmaq zamanı hansı çətinliklərlə üzləşdikləri barəsində fikirlərini öyrənmək üçün müsahibə edin. Əldə olunmuş məlumat qaçqınlar haqqında məlumatlılıq kampaniyalarında istifadə oluna və miqrasiya departamenti, BMT QAK və Beynəlxalq Amnistiya kimi təşkilatlara ötürülə bilər.

Uşaqlar, xüsusilə valideyni və ya yaxın qohumu olan böyük şəxs tərəfindən müşayiət olunmayan, sığınacaq axtaran uşaqlar xüsusi müdafiəyə ehtiyac duyurlar. Müşayiət olunmayan kiçiklər üçün hansı prosedurların olduğunu öyrənin və kömək edə biləcəyiniz praktiki yollar haqqında məlumat toplayın, məsələn, səlahiyyətli orqanlar tərəfindən göndərilmiş sənədləri tərcümə etmək və ya qəyyumluq etmək (aşağıda daha geniş məlumat verilmişdir).

**ƏSAS TARİX**

**21 fevral**
Beynəlxalq Ana dili günü

## Əlavə məlumat

### Qaçqınlar

"Qaçqın" sözü ümumilikdə öz ölkəsini tərk edib təhlükəsiz yer axtaran şəxslərə şamil olunur. Həmçinin, ona, 1951-ci ilin Cenevrə Konvensiyasına uyğun şəkildə, qorumaya ehtiyacı olduğu rəsmi şəkildə tanınan şəxs kimi dəqiq və hüquqi tərif verilir. "Sığınacaq axtaran" qanuni qaydada qaçqın statusunu almağa çalışan şəxsdir. Terminlərin rəsmi tərifləri izahlı lüğətdə göstərilmişdir, daha çox izah və məlumat 115-ci səhifədəki "İçəri girə bilərəm?" məşğələsindəki əlavə məlumat bölməsində tapıla bilər.

Aşağıdakı məlumat Qaçqınlar və Didərginlər üzrə Avropa Şurasındandır (ECRE), www.ecre.org.

Qaçqının mühafizə almaq şansı əsasən sığınacaq üçün müraciətləri nəzərdən keçirmək prosedurlarından asılıdır. Beynəlxalq mühafizə üçün dəfedilməz iddia belə tam və ədalətli qaydada baxılmadıqda rədd oluna bilər. Sərhəd və miqrasiya üzrə səlahiyyətli orqanlar sığınacaq axtaranları qəbul etmək öhdəliyini başa düşməli, hüquqi yardım və tərcümə xidmətləri sığınacaq axtaranlara təmin olunmalıdır.
2005-ci il dekabrın 1-də Aİ Sığınacaq Prosedurları Direktivi qüvvəyə mindi; bu sənəddə üzv ölkələrin qaçqın statusu verməsi və rədd etməsi üçün prosedurlar üzrə minimum standartlar əks olunub. Burada prosedurlara çıxışın olması (sərhəd prosedurları daxil olmaqla), saxlama, müraciətlərə baxılması, şəxsi müsahibələr və hüquqi yardımdan bəhs olunur. ECRE-nin fikrincə, Direktiv "sığınacaq iddiasına tam və ədalətli şəkildə baxılmasına imkan verən standartları əhatə etmir… narahatlıq doğuran məsələlərə daxildir… Direktivin prinsipləri və zəmanətlərinə əməl etməyən sərhəd prosedurlarına görə sanksiyaların tətbiq olunması." 2009-cu ildə Direktivə Avropada sığınacaq sisteminin daha yaxşı harmonizasiyasını təmin etmək məqsədilə düzəlişlər edilmişdir.

Britaniya Qırmızı Xaçının hazırladığı məlumat kitabçasında qaçqınlar haqqında məşğələlər üçün bir çox digər fikirləri tapa bilərsiniz. www.redcross.org.uk saytına girin və Müsbət Şəkilləri axtarın.

### Sığınacaq axtaran uşaqlar

Avropa Şurasının insan hüquqları üzrə müvəkkili 2010-cu il aprelin 20-də yazıb: "Bizim bu uşaqları (müşayiət olunmayan kiçiklər) qorumaq öhdəliyimiz var. Əsas məsələ odur ki, onların mühafizə hüququ var. Buna görə də, ilk addım onları mexaniki şəkildə geri qaytarmaq barəsində qərar qəbul etmək deyil, dərhal uşağın maraqlarını təmsil edəcək qəyyum təyin etməkdir. Bu, uşaq alverçilərinə qarşı, həmçinin, qəbul edən ölkənin səlahiyyətli orqanlarının mümkün səhlənkarlığına qarşı ən yaxşı mühafizədir". http://commissioner.cws.coe.int

Bu məşğələ Donahu, D., Flovers, N., Kökü kəsilmiş, Hunter House nəşriyyatı, 1995, mənbəsindən götürülmüşdür.

## Paylanmalı materiallar

### Sığınacaq üçün müraciət forması

| Sığınacaq üçün müraciət | |
|---|---|
| 1. Appellido | |
| 2. Primer nombre | |
| 3. Fecha de nacimiento | |
| 4. Pais, ciudad de residencia | |
| 5. Ou genyen fanmi ne etazini? | |
| 6. Kisa yo ye pou wou | |
| 7. Ki papye imagrasyon fanmi ou  yo genyen isit? | |
| 8. Eske ou ansent? | |
| 9. Eske ou gen avoka? | |
| 10. Ou jam al nahoken jyman | |

# Qoy, hər bir səs eşidilsin

*Təhsil vermək dəyişikliyə inanmaqdır .*

Paulo Freire

**Mövzular** • Təhsil
• Vətəndaşlıq və İştirak
• Uşaqlar

**Mürəkkəblik** 3-cü səviyyə

**Qrup ölçüsü** 8-50 (6-8 nəfərlik kiçik qruplar)

**Vaxt** 120 dəqiqə

**Xülasə** Bu, aşağıdakılar üzrə kiçik qruplarda və ümumi şəkildə müzakirə məşğələsidir:
• Təhsil nədir, insanların ehtiyaclarını necə qarşılayır və ya qarşılamır
• Qərar vermə proseslərində iştirak

**Əlaqədar hüquqlar** • Təhsil, o cümlədən insan hüquqları təhsili hüququ
• Fikir və ifadə azadlığı
• Ölkəsinin idarəçiliyində iştirak etmək hüququ

**Məqsədlər** • Təhsil sistemi və onun insanların ehtiyaclarını necə təmin etdiyini öyrənmək
• Məktəb və klub səviyyəsində əməkdaşlıq və demokratik qərar vermə prosesində iştirak bacarıqlarını inkişaf etdirmək
• Ədalət və daxil etməni təbliğ etmək

**Materiallar** • 4 nəfərlik kiçik qrupların hər biri üçün bir böyük kağız vərəqi və ya flipçart vərəqi və qələmlər
• İştirakçıların istədikləri halda qeydlər aparmaları üçün əlavə kağız

**Hazırlıq** • Hər kiçik qrup üçün materialın surətini çıxardın

Təhsil

Vətəndaşlıq və İştirak

Uşaqlar

3-cü səviyyə

8-50 (6-8 nəfərlik kiçik qruplar)

120 dəqiqə

## Təlimatlar

Bu məşğələ iki hissədən ibarətdir: 1-ci hissə (35 dəqiqə) insanların nə cür təhsil istədiyi haqqında müzakirədir və 2-ci hissə (60 dəqiqə) gənclərin aldıqları təhsil barəsində öz sözlərini deyə bilməsi üçün demokratik sistemlərin necə qurulması haqqında müzakirədir.

**1-ci hissə.** Bizim aldığımız təhsil necədir və onun necə olmasını istəyərdiniz? (35 dəqiqə)

1. İnsanların "təhsil" anlayışından nə başa düşdüyünün ümumi qısa müzakirəsi ilə başlayın Təhsilin məktəb və ya kollecdə baş verənlərdən daha artıq olduğunu qeyd edin. Rəsmi, qeyri-rəsmi və formal olmayan təhsilin fərqlərini sadalayın. İştirakçılar təhsil almağın insan hüququ olduğunu bilməlidirlər (ÜİHB 26-cı maddə).
2. Ölkənizdəki məktəb sisteminin müsbət və mənfi cəhətləri haqqında beyin fırtınası aparın və əsas sözləri flipçart kağızında qeyd edin.
3. 3. Qısaca əsas sözləri və təhsil sisteminin belə olmasının səbəblərini flipçartda qeyd olunmuş məsələlərin bəzilərinə, məsələn, kurrikulum, sinif ölçüsü, geyimlə bağlı məktəb qaydaları dərsdən kənar məşğələlərə istinad etməklə nəzərdən keçirin.
4. İştirakçılardan 4 – 5 nəfərlik kiçik qruplara ayrılmağı xahiş edin. Uşaq hüquqları Konvensiyasının (CRC) 28-ci maddəsinin mətnini paylayın. Qruplara təhsil hüququnun dəyərini müəyyən etmək üçün 15 dəqiqə vaxt verin. Məsələn, sizin cəmiyyətinizdə ibtidai təhsil hamı üçün əlverişli və pulsuzdur? Əgər belə deyilsə, kim təcrid olunur və

niyə? Hansı nizam-intizam qaydaları var və fərdin ləyaqətinə hörmətlə yanaşılır? Kurrikulum hər kəsin şəxsiyyəti, bacarıq və qabiliyyətini möhkəmləndirir? Məsələn, yaxşı vətəndaşlar və ya bacarıqlı işçi qüvvə hazırlayarkən əsas diqqət nəyə ayrılır? İnsan hüquqları təhsili əhatə olunub?

5. Ümumi şəkildə toplanın və iştirakçılardan fikirlərini bildirməsini xahiş edin.

**2-ci hissə.** İnsanların öz fikirlərini bildirməsi üçün demokratik sistemlərin inkişaf etdirilməsi. (60 dəqiqə)

1. Qrupdan onların aldıqları təhsilin növü haqqında kimin qərar verdiyini soruşun.
2. İştirakçılardan kiçik qruplara qayıdaraq məktəblərində qərarların necə qəbul edildiyini nəzərdən keçirməyi xahiş edin. Məsələn, nəyin tədris olunacağına və hansı əlavə məşğələlərin təşkil ediləcəyinə kim qərar verir?
   Məktəb və ya kollec necə idarə olunur? Büdcə və xərclərlə bağlı qərarlar necə qəbul olunur? Siyasətlər necə hazırlanır və razılaşdırılır? Gənclərin öz fikirlərini bildirmək hüququ nə qədərdir?
3. Onlara bildirin ki, təhsil hüququ ilə yanaşı, UHK-nın 12-ci maddəsinə görə, "uşağın ona təsir edən istənilən məsələ ilə bağlı fikir bildirmək hüququ var və onun fikirlərinə lazımi qiymət verilməlidir."
4. Hər kiçik qrupdan yerli səviyyədə onların təhsili ilə bağlı qərarların qəbul edilməsi üçün demokratik şəkildə seçilmiş qurumun, məsələn, tələbə şurasının olmasının müsbət və mənfi cəhətlərini nəzərdən keçirməyi xahiş edin.
5. Növbəti mərhələ qrupun xüsusiyyətlərindən asılıdır. Əgər məktəbinizdə şura yoxdursa, qruplar necə bir şura istədikləri, onun səlahiyyətləri və onu yaratmağın üsulları barəsində qərar qəbul etmək üçün çalışmalıdırlar. Əgər məktəb və ya kollecdə artıq şura varsa, iştirakçılar onun necə işlədiyini nəzərdən keçirməli və şuranın işini yaxşılaşdırmaq üçün planlar hazırlamalıdırlar. SWOT analizin necə aparıldığını izah edin və qruplara fəaliyyət planı hazırlayıb böyük flipçart vərəqində yazmaları üçün otuz dəqiqə vaxt verin.
6. Ümumi şəkildə toplanın və qruplardan nəticələri bildirməyi xahiş edin.

## Təhlil və qiymətləndirmə

Bir çox fikirlər əvvəlki müzakirələrin müxtəlif mərhələlərində artıq bildirilib. Buna baxmayaraq, məşğələni tam şəkildə nəzərdən keçirin, ümumi öyrənmə bəndlərini sadalayın və daha sonra nə ediləcəyini planlaşdırın.

- İştirakçılar məşğələni bəyəniblər? O, faydalı idi? Niyə? Niyə yox?
- Mövcud qərar vermə strukturları niyə belədir? Tarixi presedentlər hansılardır? Keçmişdə strukturlar öz funksiyalarını yerinə yetirirdi? Onlar indiyə uyğundur? Əgər uyğun deyilsə, niyə?
- Niyə qərar vermə strukturları və prosedurları müntəzəm olaraq nəzərdən keçirilməlidir?
- Müxtəlif qrupların fəaliyyət planları necə fərqlənir?
- Onlar vaxt, səylər və pul baxımdan nə qədərə başa gəlir?
- Onlar nə qədər realdır? (Qeyd: böyük planlar qurmaq yaxşıdır, lakin siz məqsədə doğru zamanla addımlar atmalısınız!)
- "Uşağın ona təsir edən istənilən məsələ ilə bağlı fikir bildirmək hüququ var və onun fikirlərinə lazımi qiymət verilməlidir". Bu, milli təhsil kurrikulumu ilə bağlı reallığı əks etdirən tələbdir? Gənclər necə töhfə verə bilər?
- Sinifdə 12-ci maddəyə nə dərəcədə hörmət olunur? "Fikrinizi bildirmənizə" nə qədər vaxt ayrılmalıdır?
- Bəzi qrupların, məsələn, romaların, təhsil hüquqları tez-tez pozulur. Bu, niyə belədir və onların təhsilə çıxışı necə asanlaşdırıla bilər?
- Məktəbinizdə insan hüquqları təhsili necə çatdırılır? İnsan hüquqları və müxtəlif konvensiyalar haqqında öyrənirsiniz? Məktəbiniz və cəmiyyətinizdə insan hüquqlarını təbliğ edən layihələrə cəlb olunmaq imkanınız var?

## Fasilitator üçün məsləhətlər

Bu məşğələ "məktəb və ya kollec şuraları" olan məktəb və kolleclər nəzərə alınmaqla hazırlanmışdır.

Bu, formal olmayan şəraitdə çalışan şəxsləri çəkindirməməlidir; məşğələ, həmçinin, idarəetmə orqanı kimi şura deyil, idarə heyəti olan gənclər klubları və assosiasiyalarındakı gənclər üçün istifadə oluna bilər.

Sadəcə istifadə etdiyiniz terminləri müvafiq qaydada uyğunlaşdırın. Uşaq hüquqları Konvensiyasının 12-ci və 28-ci maddələrinə baxın (605-ci səhifə). Əgər 18 yaşından yuxarı gənclərlə işləyirsinizsə, ÜİHB-dəki təhsil hüququna istinad edin (26-cı maddə).

www.coe.int/compass saytında Təhsil haqqında məlumat hissəsində təhsil və insan hüquqları haqqında ümumi məlumat verilib. Rəsmi, qeyri-rəsmi və formal olmayan təhsil haqqında məlumat 30-cu səhifədə göstərilmişdir. SWOT analizi 370-ci səhifədəki "Hərəkətə keçmək" bölməsində təsvir olunmuş və izah edilmişdir.

### Niyə məktəb şurasına malik olmalı?

Məktəb/tələbə şurası onlara birbaşa təsir edən məktəb məsələlərində tələbələrə öz fikirlərini bildirmək imkanı verir. Məktəb şuralarını yaratmaq və onların effektiv şəkildə işləməsini təmin etmək üçün çoxsaylı yaxşı səbəblər vardır. Eyni arqumentlər gənclər təşkilatlarının idarə heyəti və ya menecment komitələrinə şamil edilə bilər.

### Şagirdlər üçün faydalar

- Məktəb şurasında iştirak şagirdlərin təhsil və ya şəxsi inkişafını aşağıdakı səbəblərdən inkişaf etdirir:
- Şuralar vətəndaşlıq bilgisi, siyasi effektivlik və demokratik yanaşmaları inkişaf etdirir.
- Şuralar sosial inam və şəxsi dəyərləri inkişaf etdirir.
- Tələbələr səlahiyyətli şəxslər qarşısında məsələ qaldırmaq bacarığını əldə edir.
- Tələbələr ədalətli və cavabdeh şəkildə qərar qəbul etməyi öyrənir.
- Tələbələr həyatın reallıqlarını öyrənir, məsələn, məhdud büdcə daxilində və ya məsuliyyətsiz qurumlarla necə işləmək.

### Praqmatik faydalar

- Demokratik menecment üsulu diktator idarəçilik üsulundan daha effektivdir, çünki şagirdləri daha çox məsuliyyət götürməyə həvəsləndirir.
- Şuralar əməkdaşlığı inkişaf etdirir, enerjini faydalı istiqamətə yönəldir və yadlaşmanı azaldır.
- Şuralar məktəbdəki mühiti inkişaf etdirə bilər: müəllimlərə daha çox etibar olunur; qaydalar daha ədalətli əsasda qəbul edilmiş sayılır.
- Kənardakı sosial və siyasi təzyiqin dərəcəsindən asılı olmayaraq, tələbə şurası tələbələrə işçi heyətin xoş niyyətini və müəyyən dəyərlərə bağlılığını nümayiş etdirmək üçün praktiki vasitədir.

## Sonrakı fəaliyyət üçün təkliflər

Qrupu bu məşğələdə irəli sürülmüş fikirlər üzərində işləməyə və 358-ci səhifədəki 5-ci fəsildə Təhsil üzrə Hərəkətə keçmək bölməsindən məsləhətləri götürməklə məktəb, kollec və ya klublarında qərarların qəbul edilməsində daha çox iştirak etmək üçün çalışmağa çağırın.

Əgər qrup necə təhsil istədiyi barədə düşünmək istəyirsə, onlar 286-cı səhifədəki insanların yaşamaq istəyəcəyi şəhərin xüsusiyyətlərindən bəhs edən "İki şəhərin nağılı" masa oyununu bəyənə bilərlər. Əgər iştirakçılar səsvermə ilə bağlı ümumi yanaşmaları nəzərdən keçirmək istəyərsə, 306-cı səhifədəki "Səs vermək və ya verməmək" məşğələsini edin.

ƏSAS TARİX

**15 oktyabrın daxil olduğu həftə**
Avropa Yerli Demokratiya Həftəsi

## Fəaliyyət üçün fikirlər

İştirakçılar, milli və ya beynəlxalq səviyyədə, ərazilərindəki digər tələbə şuraları ilə əlaqə saxlayıb onlarla fikir mübadiləsi apara bilərlər.

## Əlavə məlumat

- Gənclərin qərar vermə proseslərində iştirak etmək dərəcəsi onların yaşları və qərar verilən məsələdən asılıdır. Faydalı model kimi, Roger Hartın gənclərin iştirakı nərdivanına baxın, www.freechild.org. İştirak
  nərdivanı haqqında daha çox məlumat 5-ci fəsildəki Vətəndaşlıq və İştirak bölməsində verilib www.coe.int/compass.
- Bir çox ölkələrdə qərar vermə proseslərində birbaşa iştirak imkanları genişlənir, məsələn, Müştərək Büdcə prosesində insanların cəlb olunmasının təsiri siyasi dəyişiklik və ya xərcləmə prioritetlərində birbaşa görünür. Bu, sadəcə məsləhətləşmə tapşırığı deyil, birbaşa və məşvərətçi demokratiyanın təcəssümüdür: http://www.participatorybudgeting.org.uk. Nümunələrdən biri Nyukaslın (Birləşmiş Krallıq) Udesid müştərək büdcə proqramıdır, bu proqram çərçivəsində 2008-ci ilin mayında gənclərin £2.25m Uşaqlar Fondu üçün xidmətlərin alınmasında 20% səsi olmuşdur. Uşaqlar və gənclərin mütəxəssis olduğunu qəbul edərək, layihə Fonddan faydalanacaq şəhər gənclərinə onun necə bölüşdürülməsində fikir bildirmək imkanını təmin etməyi qarşıya məqsəd qoymuşdur.
- Avropa Məktəb Tələbə Birliklərinin Təşkilat Bürosu (OBESSU) məktəb tələbə təşkilatlarının Avropadakı çərçivə təşkilatıdır. Bu təşkilatın əsas məqsədləri aşağıdakılardır:
- Avropadakı məktəb şagirdlərinin müxtəlif təhsil qurumları və platformaları haqqında fikirlərini nümayiş etdirmək
- Avropada təhsilin və təhsil demokratiyasının keyfiyyətini və əlverişliliyini dəstəkləmək və inkişaf etdirmək
- Məktəblilər arasında daha geniş səviyyədə həmrəylik, əməkdaşlıq və anlayışı təbliğ etmək üçün Avropada orta məktəblərində şəraiti inkişaf etdirmək
- Avropa ölkələrinin təhsil sistemlərində mövcud ayrı-seçkilik və ədalətsizliyə son qoymaq.

## Paylanmalı materiallar

**Uşaqların hüquqları Konvensiyası,** 28-ci maddə:
Uşaq təhsil hüququna malikdir. Dövlətin vəzifəsi pulsuz və icbari ibtidai təhsili təmin etməkdən, hər bir uşağın ala biləcəyi orta təhsil verilməsini həvəsləndirməkdən, bilik əsasında hamının ali təhsil almaq imkanını təmin etməkdən ibarətdir. Məktəb intizamı uşağın hüquqlarının nəzərə alınması və onun ləyaqətinə hörmət bəslənməsi şərti ilə təmin olunmalıdır. Təhsil şəxsiyyətin, əqli və fiziki qabiliyyətin maksimum inkişaf etdirilməsinə yönəldilməlidir. Təhsil uşağı azad cəmiyyətdə fəal yaşlı şəxs həyatına hazırlamalı, öz valideynlərinə, mədəni özgünlüyə, dilə və dəyərlərə, başqalarının mədəni ənənələrinə və dəyərlərinə hörmət tərbiyə etməlidir.

# Gəlin cins barəsində danışaq!

*Gəlin cins barəsində danışaq; sən və mən haqqında danışaq.*

**Mürəkkəblik** 4-cü səviyyə
**Qrup ölçüsü** 10-15
**Vaxt** 60 dəqiqə
**Mövzular**
• Gender
• Ayrı-seçkilik və Dözümsüzlük
• Sağlamlıq

**Xülasə** Bu məşğələ seksuallığa yanaşmaları araşdırmaq üçün "balıq qabı" metodundan istifadə edir.

**Əlaqədar hüquqlar**
• Bərabərlik hüququ
• Ayrı-seçkiliyə məruz qalmamaq hüququ
• İfadə və birləşmə azadlığı

**Məqsədlər**
• Seksuallıq və cinsi kimliklə bağlı məsələlər və hüquqların başa düşülməsini genişləndirmək
• Cinsi seçimlərdə fərqliliklə bağlı fikir bildirmək üçün özünə inamı inkişaf etdirmək
• Fərqli olanlara qarşı dözümlülük və şəfqəti təbliğ etmək

**Materiallar**
• 3 stul
• 2 fasilitator (məsləhət görülür)
• İştirakçıların hərəkət edə bilməsi üçün məkan
• Lövhə və ya flipçart, markerlər
• Kiçik kağız parçaları və qələmlər
• Papaq

**Hazırlıq**
• Bir çox insanlar – xüsusilə gənclər! – üçün seksuallığın çox şəxsi və həssas məsələ olduğundan xəbərdar olun. Metodologiya və ya mövzunu - ya da hər ikisini - şəraitə uyğunlaşdırmağa hazır olun!

Gender

Ayrı-seçkilik və Dözümsüzlük

Sağlamlıq

4-cü səviyyə

10-15

60 dəqiqə

## Təlimatlar

1. Səhnə qurun. İzah edin ki, bir çox insanlar seksuallığı şəxsi məsələ kimi nəzərdən keçirsələr də, cinsi oriyentasiyaya görə ayrı-seçkiliyə məruz qalmamaq hüququ əsas insan hüququ kimi tanınır və əksər Avropa ölkələrində qanunla qorunur. Bu məşğələ seksuallığa aid yanaşmaları araşdırmağa imkan verir. Daha sonra, seksuallıqları haqqında açıq şəkildə danışan məhşur şəxslər barəsində beyin fırtınası ilə davam edin.
2. Kağız parçalarını və qələmləri iştirakçılara ötürüb onlardan homoseksuallıq və ya ümumilikdə seksuallıq haqqında suallarını yazmağı və kağızları papağa atmağı xahiş edin. Suallar anonim olmalıdır.
3. Bu məşğələnin məqsədinin seksuallıqla bağlı yanaşmaları araşdırmaq olduğunu izah edin. Hər kəs ənənəvi və ya qeyri-ənənəvi, mübahisəli və ya cəmiyyətdəki normalara qarşı olan fikirlərini səsləndirməkdə sərbəstdir. İştirakçılar razılaşdıqları və ya razılaşmadıqları fikirləri ələ salınma və təhqir olunma qorxusu olmadan bildirə bilərlər.
4. Üç stulu qrupun qarşısında yarım-dövrə şəklində yerləşdirin. "Balıq qabı"ndakı üç nəfər spiker burada oturacaq. Qrupun qalanı müşahidəçilərdir.
5. "Balıq qabı"nda söhbət zamanı sizə qoşulacaq iki könüllünü dəvət etməklə başlayacağınızı izah edin. Digər iştirakçılardan kimsə daha sonra sizə qoşulmaq istəsə, bunu edə bilər,

Başlıq Amerikan hip-hop triosu Salt-n-Pepanın (1991) məhşur mahnısından götürülüb.

lakin qabda yalnız üç balıq üçün yer olduğundan spikerlərdən biri yerini ona verməli olacaq. Söhbətə qoşulmaq istəyən şəxs qabağa çıxıb nəzakətlə “spikerlər”dən birinin çiyninə vurmalıdır. İki iştirakçı yerini dəyişir və ilkin spiker müşahidəçiyə çevrilir.

6. Hər kəs qabağa çıxıb öz fikirlərini bildirməkdə sərbəstdir, lakin onlar özlərinə aid olmayan fikirləri də bildirə bilərlər. Bu yolla, mübahisəli, “siyasi cəhətdən düzgün olmayan” və ya ağlasığmaz fikirlər səsləndirilə və mövzu bir çox müxtəlif perspektivlərdən dərindən müzakirə oluna bilər. Qrupdakı şəxslərə qarşı təhqiramiz və incidici rəylərə icazə verilmədiyini vurğulayın.
7. Könüllüdən papaqdakı suallardan birini götürüb müzakirəyə başlamağı xahiş edin. İştirakçılar mövzunu qurtarana və fikirlər təkrarlanana qədər müzakirənin davam etməsinə imkan verin.
8. Daha sonra, digər üç könüllüdən eyni qaydalar əsasında digər sualla bağlı müzakirəyə başlamağı xahiş edin.
9. Vaxt imkan verdiyi qədər çox sualı müzakirə edin. Nəhayət, təhlil və qiymətləndirməyə keçməmişdən əvvəl, iştirakçıların “balıq qabı”ndan çıxması üçün qısa fasilə verin. Əgər müzakirə qızğın və mübahisəli keçibsə, bu, olduqca əhəmiyyətlidir.

## Təhlil və qiymətləndirmə

- İştirakçıların “balıq qabı”nın içində və ondan kənarda özlərini necə hiss etdiyini qısa şəkildə nəzərdən keçirməklə başlayın. Bundan sonra, səsləndirilmiş müxtəlif fikirlər haqqında danışın və sonda, iştirakçıların məşğələdən nə öyrəndiyini müzakirə edin:
- İştirakçılardan kimsə ifadə olunmuş fikirlər qarşısında təccübləndi və ya sarsıldı? Hansı fikirlər qarşısında? Niyə?
- Sizin cəmiyyətinizdə insanlar seksuallıq haqqında nə qədər açıq danışırlar?
- Gənc kişi və qadınların müəyyən spesifik cinsi oriyentasiyanı seçməsi və rolları yerinə yetirməsi gözlənilir? Bunlar hansılardır?
- Bu gözləntilərə uyğun gəlməyən insanlarla (gənclərlə) necə rəftar olunur və onlara necə yanaşılır?
- Bəzi qruplar digərlərindən daha açıqdır? Niyə?
- Seksuallığımızın inkişafına hansı faktorlar təsir edir?
- İnsanlar seksuallıqla bağlı dəyərləri haradan əldə edirlər?
- İştirakçıların seksuallıqla bağlı yanaşmaları valideynlərinin və onların valideynlərinin yanaşmalarından fərqlənir? Əgər belədirsə, hansı cəhətdən fərqlənir? Niyə?
- Ölkənizdə qarşılıqlı şəkildə razılıq olduğu halda şəxslər arasında cinsi əlaqəni qadağan edən qanunlar var? Əgər varsa, həmin qanunlar nəyi qadağan edir? Niyə belə qanunlar var? Sizin fikrinizcə, onların olması məntiqidir?
- ÜİHB-in 16-cı maddəsində qeyd olunur: “Yetkinlik yaşına çatmış kişilər və qadınlar, irqi, milli və ya dini əlamətlərinə görə heç bir məhdudiyyət qoyulmadan nikah bağlamaq və ailə qurmaq hüququna malikdirlər.” Niyə “cinsi oriyentasiya” bu siyahıda “irq, milliyyət və din” kateqoriyaları ilə birgə daxil edilməyib? Daxil edilməlidir?
- Bəzi ölkələrdə qanunlar və sosial təzyiq şəxsin hörmət və ləyaqət, seçdiyi insana aşiq olmaq və sərbəst şəkildə ailə qurmaq və s. hüquqlarına zidd olur. Bu ziddiyyətlər necə həll oluna bilər?

## Fasilitator üçün məsləhətlər

İşlədiyiniz sosial kontekstdən xəbərdar olun və məşğələni ona uyğun şəkildə aparın. Məşğələnin məqsədi iştirakçıları öz seksuallığı və cəmiyyətdə mövcud normalar haqqında öyrənməyə təşviq etmək və onları başqalarının fikirlərinə hörmətlə yanaşaraq bu mövzuda fikirlərini özünə inamlı şəkildə bildirməyə cəsarətləndirməkdir. Məqsəd insanları bu və ya digər fikrə inandırmaq yaxud ümumi qərar qəbul etmək deyil.

Məşğələni aparmamışdan əvvəl, www.coe.int/compass linkindən 5-ci fəsildəki Gender barəsində məlumatı oxumağınız məsləhət görülür. Hansı mövzuların ortaya çıxa biləcəyini düşünün.

Sizin fasilitator olaraq özünüz, ailəniz və digərləri üçün düzgün hesab etdiyiniz dəyərlərinizi və inamlarınızı əks etdirməyiniz vacibdir, çünki bu dəyərlər sizin etdiyiniz və ded-

iyiniz, həmçinin, etmədiyiniz və demədiyiniz hər şeydə özünü göstərəcək. Sizin dəyərləriniz və qərəzinizi, eləcə də bu dəyərlərin mənşəyini başa düşməyiniz önəmlidir. Belə olduqda, iştirakçılar da öz dəyərlərinin mənşəyi barəsində fikir əldə edə biləcəklər.

Seksuallıq haqqında açıq şəkildə danışan məhşur şəxslərlə bağlı beyin fırtınası aparmağın məqsədi iştirakçıları da bu məsələni müzakirə etməyə açıq olmağa cəsarətləndirməkdir. Bu, eyni zamanda müxtəlif anlayışları aydınlaşdırmaq üçün yaxşı imkandır (www.coe.int/compass linkindən 5-ci fəsildəki məlumata baxın).

Məşğələdə ümumi şəraitin qurulmasında sizin rolunuz vacibdir. Başlamağın bir yolu iki fasilitatordan spiker kimi istifadə etməkdir.

Bu yolla, siz söhbətin ortaq dost haqqında olduğunu, beləliklə, nəzəri debat deyil, “yerli” səviyyədə müzakirə olduğunu göstərəcəksiniz. Bu, həmçinin, insanların nə düşündüyü və yanaşmalarının necə olduğu barədə müzakirəni açmağa kömək edəcəkdir.

Ümidvar olaq ki, müşahidəçilərdən biri tezliklə sizi əvəzləyəcək və müzakirəni iştirakçılar aparacaq.

Buna baxmayaraq, siz müşahidəçi kimi iştiraka davam etməlisiniz ki, lazım gəldikdə yenidən spiker ola biləsiniz. Bu, sizə müzakirəni nəzarət altında saxlayıb debat üçün yeni məqamları açmağa və ya qaydaları pozan iştirakçını ehmallıca kənarlaşdırmağa imkan verəcək.

Əgər istəsəniz, bir yanaşmanın yalnız bir dəfə səsləndirilə biləcəyi qaydasını təqdim edə bilərsiniz.

Bu mövzunun yalnız bir neçə aspektinin müzakirə olunmasının və əksəriyyətdə olan qərəzli fikirlərin təkrarlanmasının qarşısını alacaq.

Əgər qrup böyükdürsə, bütün sualları müzakirə etmək üçün vaxt kifayət etməyə bilər. Bəzi iştirakçılar suallarını səsləndirə bilmədiklərinə görə məyus ola və ya inciyə bilər. Bunun qarşısını almaq üçün sessiyanın sonunda bütün sualları divara yapışdıra bilərsiniz. Bu, iştirakçıları müzakirəni öz aralarında davam etməyə həvəsləndirəcəkdir.

**ƏSAS TARİX**

**17 may**
Homofobiya və Transfobiyaya qarşı Beynəlxalq Gün

## Variantlar

Bu metod başqa mövzuya, məsələn, irqçilik, təhsil və ya iqlim dəyişikliyinə uyğunlaşdırıla bilər.

## Sonrakı fəaliyyət üçün təkliflər

Seksuallığın KİV-də necə təqdim olunduğuna baxa bilərsiniz. Qəzetlər, jurnallar və İnternetdən şəkillər toplayın, iştirakçılardan onlara başlıqlar və ya nitq qabarcıqları yazmağı xahiş edin; 249-cu səhifədə “Şəkillərlə oynamaq” məşğələsinin sonundakı “Şəkillərlə oynamağın başqa yolları” hissəsinə baxın.

272-ci səhifədəki “Tezliklə köhnələcək” məşğələsində yanaşmalar, o cümlədən cinsi əlaqə ilə bağlı yanaşmaların zamanla necə dəyişdiyinə baxılır.

## Hərəkətə keçmək

Ölkənizdə bu sahə üzrə fəaliyyət göstərən təşkilatla əlaqə saxlayın. Onların nümayəndələrindən bir nəfəri qrupla danışmaq üçün dəvət edin və ölkənizdə hansı bərabərlik və hüquq məsələlərinin ən vacib olduğunu müəyyən edin.

## Əlavə məlumat

İnsan seksuallığı həyatımızın ayrılmaz hissəsi və əsas ehtiyaclarımızdan biridir. Seksuallığımız bizim digərləri ilə münasibətlərimizdə aydın şəkildə görünən kimliyimizə və davranış xüsusiyyətlərimizə – sosial, şəxsi, emosional, psixoloji – təsir edir. Seksuallığımız bizim cins və gender xarakteristikamız, eləcə də digər mürəkkəb təsirlər altında formalaşır və həyat boyu davam edən dinamik dəyişikliyə məruz qalır.

### Cinsi fərqlilik və insan hüquqları

İlk baxışdan bu iki məsələ əlaqəsiz kimi görünə bilər. Onlardan birincisinin şəxsi və fərdi seçim olduğu, digərinin isə vətəndaşlıqla bağlı olan hüquqi və siyasi strukturların ictimai domeninə aid olduğu iddia edilə bilər. Yenə də, hazırki tarixi, antropoloji və sosioloji araşdırmalar cinsi kimliyin və cinsi istəyi ifadə etmək formalarının müxtəlif dövrlərdə və mədəniyyətlərdə sosial nizamın qorunub saxlanmasında potensial olaraq pozucu rol oynaya biləcəyini nümayiş etdirir. Bəzi kontekstlərdə, eyni və ya anlaşılmaz cinsi istəklər ənənəvi və ya dini inamlarla toqquşur yaxud ziddiyyətdə olur, digərlərində onlar psixoloji xəstəlik kimi qəbul edilir.

İnsan hüquqlarının bərabər əsasda təmin olunmasının qarşısını almağa çalışan sosial və dini hökmranlığın olduğu iddia edilə bilər. İnstitutlaşdırılmış yanaşmaya görə, heteroseksuallıq cinsi istəyin ifadə olunmasının “təbii” və “normal” formasıdır, eləcə də mənəvi cəhətdən qəbul olunur, cinsi istəyin digər ifadə formaları “təbii deyil” və mənəvi cəhətdən qəbul oluna bilməz.

# Makah balina ovu

*Necə istəyirsinizsə, təqdim edin – balina ovu cinayətdir və cinayət törətmək yanlışdır.*

Balina və Delfinlərin Qorunması Cəmiyyəti

| | |
|---|---|
| **Mürəkkəblik** | 4-cü səviyyə |
| **Qrup ölçüsü** | 14+ (5 nəfərlik kiçik qruplar) |
| **Vaxt** | 150 dəqiqə |
| **Mövzular** | • Mədəniyyət və İdman<br>• Ətraf mühit<br>• Qloballaşma |
| **Xülasə** | Bu məşğələ aşağıdakı məsələlər üzrə kiçik qrup işi, rol oyunu, müzakirə və razılıq əldə etməyi əhatə edir:<br>• Dəniz resurslarından davamlı istifadə<br>• Yerli əhalinin iqtisadi, sosial və mədəni inkişaf istiqamətlərini müstəqil şəkildə təyin etmək hüququ |
| **Əlaqədar hüquqlar** | • Cəmiyyətin mədəni həyatında iştirak etmək hüququ<br>• Ərzaq və təbii resurslara çıxış hüququ<br>• Yaşamaq, azadlıq və şəxsi təhlükəsizlik hüququ |
| **Məqsədlər** | • Mədəni həyatda iştirak etmək hüququ və ətraf mühitin qorunması ilə bağlı açıq şəkildə ziddiyyətli iddiaların başa düşülməsini təmin etmək<br>• Tənqidi düşünmək, arqumenti təqdim etmək və razılıq əldə etmək bacarıqlarını inkişaf etdirmək<br>• Mədəni fərqliliklərə açıqfikirli yanaşmaları inkişaf etdirmək. |
| **Materiallar** | • Paylanmalı materillar<br>• Qeydlər aparmaları məqsədilə qruplar üçün qələmlər və kağız |
| **Hazırlıq** | • Məsələlər barəsində məlumat əldə etmək üçün materialları diqqətlə oxuyun. Bundan sonra, lazım olduqda, suallarla sizə müraciət edilə bilər.<br>• Rol kartlarının surətini çıxardın. Hər iştirakçının istinad üçün öz rol kartı olmalıdır. |

Mədəniyyət və İdman

Ətraf mühit

Qloballaşma

4-cü səviyyə

14+ (5 nəfərlik kiçik qruplar)

150 dəqiqə

## Təlimatlar

Bu məşğələ iki hissədən ibarətdir: 1-ci hissə (30 dəqiqə) məşğələyə, müzakirə olunacaq ətrafmühit və mədəni məsələlərə girişdir, 2-ci hissə isə (90 dəqiqə) Makah qəbiləsi və balina ovuna qarşı lobbi arasında razılığa gəlinməsi üçün keçirilən görüşün simulyasiyasıdır.

**1-ci hissə.** Ətraf mühit və mədəni məsələlərə giriş (30 dəqiqə)

1. Bu məşğələnin ətraf mühit və mədəni məsələlər haqqında olduğunu izah edin. O, balina ovunu davam etdirmək istəyən Makah qəbiləsi və buna qarşı olan ətraf mühit mühafizəçiləri və digərlərinə həsr olunmuşdur.
2. Qrupa Makah qəbiləsi haqqında danışın və qarşıdurmanın illərlə davam etdiyini və hüquqi xərclərin uzunmüddətli nəticə əldə olunmadan artdığını izah edin. Ətraf mühit mühafizəçiləri qəddar metodlardan istifadə edərək özlərinin və digərlərinin həyatlarını təhlükə altında qoyublar, buna cavab olaraq, Makah qəbiləsi üzvləri qəzəblənərək qanunu pozub qeyri-qanuni şəkildə balina ovuna başlayıblar. Bu, hamı üçün arzuolunmaz vəziyyətdir və tərəflərin bir yerə gəlib hamının qəbul edəcəyi həll tapmasının vaxtı artıq çatmışdır.

3. Bir sıra məsələləri təqdim edin və iştirakçılardan müvafiq suallara cavablarını göstərmək üçün “tam və ya qismən” ayağa qalxmağı xahiş edin. (Bu metoddan necə istifadə etməyi öyrənmək üçün 351-ci səhifəyə baxın).

Aşağıdakı bəyanatları tək-tək oxuyun:

- İnsanların adət-ənənələrinə onlar insan hüquqlarına zidd olmadığı müddətcə hörmət olunmalıdır.
- Biz insanların nəyi yeyəcəklərini sərbəst şəkildə seçmək hüququna hörmətlə yanaşmalıyıq; veqan, vegetarian olmaq və ya ət yemək.
- Yediyimiz ərzaq ətraf mühitə zərər vurmayan metodlarla istehsal olunmalıdır.
- Heyvandarlıqda intensiv yetişdirmə və qəddar şəkildə qətlə yetirmə kimi metodlardan istifadə olunmamalıdır.
- Mədəni ənənələr insanlar üçün çox əhəmiyyətlidir və onlara hörmət olunmalıdır.
- Balinalar, hətta mədəni məqsədlər üçün olsa belə, ovlanmamalıdır.

**2-ci hissə.** Makah qəbiləsi və balina ovu əleyhdarları arasında çıxılmaz vəziyyəti aradan qaldırmağa çalışan görüşün simulyasiyası. (90 dəqiqə)

1. Qrupa həm həqiqi mənada, həm də hüquqi baxımdan illərdir dəhşətli döyüşlərin getdiyini və həll yolu tapmağın vaxtının gəldiyini xatırladın. Bu məşğələ xəyali təşkilat olan Crest-in (Mədəniyyət, Hüquqlar, Ətraf mühit, Davamlılıq və Danışıq) keçirdiyi görüşün simulyasiyasıdır. Crest ətraf mühit məsələlərinə insan hüquqları perspektivini gətirməyi hədəfləyən müstəqil təşkilatdır. Onlar dialoq vasitəsilə qarşılıqlı anlayışı təbliğ etmək üçün çalışırlar. Simulyasiya aşağıdakı dörd qrup arasında Crest tərəfindən sədrlik edilən görüşdür:

   **a.** Balina ovunu davam etmək istəyən Makah qəbiləsi

   **b.** Yuxarı Şimal Alyansı, sahil mədəniyyətlərinin gələcəyi və dəniz məməli heyvan resurslarının davamlı istifadəsi üçün çalışan balina ovçuları və ov gəmiçilərini təmsil edən çərçivə təşkilat. YŞA Makahı dəstəkləyir.

   **c.** Dəniz Çobanı, dəniz canlı təbiət növlərini qoruyan beynəlxalq qaydalar, nizamnamələr və müqavilələrin pozuntularını araşdıran və sənədləşdirən təşkilat. Onlar Makahların tələbinə qarşıdırlar.

   **d.** Qrinpis, balina ovuna qarşı olan ətraf mühit fəalları.

2. Crest-in rolu beş sual əsasında müzakirəni təşkil etməkdir:
   - Balinalar niyə əhəmiyyətlidir?
   - Boz balinalar nəsli kəsilmək təhlükəsi altında olan heyvan növüdür?
   - Niyə Makah qəbiləsi balina əti yeməkdən imtina etməlidir?
   - Makahların balina ovu ritualı dəyişdirilməlidir?
   - Əgər razılığa gəlinsə, balinaların qorunmasını təmin etmək üçün hansı növ nəzarətə ehtiyac olacaqdır?
3. Dörd könüllüdən Crest-i təmsil etməyi xahiş edin, yerdə qalan qrup üzvlərini isə bərabər şəkildə dörd kiçik qrupa ayırın. Rol kartlarını paylayın. Qrupların məlumatı müzakirə etmək və beş sual üzrə öz mövqelərini və dəstək arqumentlərini nəzərdən keçirmək üçün 30 dəqiqə vaxtları var.
4. Qruplar hazır olduqda hamını ümumi sessiyaya toplayın və Crest-i təmsil edən iştirakçıları stullarda əyləşməyə dəvət edin. Görüş 60 dəqiqə çəkməlidir.
5. Crest görüşü açaraq müzakirələrin insan hüquqları və ətraf mühit çərçivəsi haqqında qısa bəyanat verir və görüşün məqsədinin beş sualda müəyyən edilmiş məsələlərlə bağlı məlumat paylaşmaq və müzakirə aparmaq olduğunu yenidən vurğulayır. Makah qəbiləsi davam edərək mövqeyini bildirir. Bundan sonra,
   məsələlər müzakirə üçün açıqdır.
6. Müzakirənin sonunda Crest məsələni yekunlaşdırmalıdır. Qısa fasilə verin və təhlil və qiymətləndirməyə keçin.

## Təhlil və qiymətləndirmə

Qruplardan müzakirə və suallardan hər hansı biri üzrə razılığa gəlməyin mümkün olub-olmadığı barədə soruşmaqla başlayın; bundan sonra, ümumi məsələlərdən danışın.

- Müxtəlif rolları oynamaq çətin idi?
- İştirakçıların öyrəndiyi ən maraqlı məsələ nə oldu?
- Ən yaxşı arqumentlər hansılar oldu? Hislərə toxunan yoxsa rasional və məntiqi olanlar?
- Arqumentin digər tərəfini görmək nə qədər çətin idi? Onu qəbul etmək necə?
- Beş sualdan hər biri üzrə nə qədər ortaq mövqe var idi?
- Real həyatda, digər insanların iştirakçılar tərəfindən kobud, anlaşılmaz və ya etik olmayan hesab edilən mədəni təcrübələrini qəbul etmək nə qədər çətindir?
- Hansı səviyyədə mədəni toqquşma ayrı-seçkiliyə çevrilir?
- Mədəni fərqlilikləri qəbul etmək nə qədər çətindir?
- Qloballaşma mütləq şəkildə mədəniyyətin itirilməsinə aparır? Dəyişdirilmiş mədəniyyət itirilmiş mədəniyyətdir? Biz dəyişən dünyada mədəni dəyişikliyi müsbət proses kimi görməli deyilik?
- Bu məşğələdə hansı insan hüquqlarına toxunuldu?
- Hüquqlarla bağlı ziddiyyətli hüquqi iddialar adətən məhkəmələrdə həll olunur. Bu, insan hüquqları məsələlərini həll etmək üçün ədalətli üsuldur?
- Hansı prioritet olmalıdır, insanların ərzaq və yaşamaq tələbləri yoxsa ətraf mühitin qorunması və növlərin mühafizəsi?

Sessiyanı “tam və ya qismən” ayağa qalxmağın növbəti mərhələsi ilə yekunlaşdırıb iştirakçıların balina ovu ilə bağlı yanaşmalarında dəyişiklik olub – olmadığını müəyyən edin. 1-ci hissədə soruşduğunuz sualları təkrarlayın.

## Fasilitator üçün məsləhətlər

Bu məşğələdəki məsələlərin mürəkkəbliyi onun yaxşı müzakirə bacarıqları olan yetkin qrup üçün uyğun olduğunu göstərir. Çoxlu məlumat mənimsənilməlidir və rol kartlarındakı mətnlər insan hüquqları və ətraf mühit terminologiyası üzrə müəyyən biliyin olmasını nəzərdə tutur. Siz məşğələni iki sessiyada aparıb sessiyalar arasında qruplara rol kartlarını oxuyub məsələlər barəsində düşünmək üçün vaxt verə bilərsiniz.

- Bu məşğələnin əsas məqsədlərindən biri gəncləri onların mədəni perspektivlərinin məhdudluğu ilə üz-üzə qoymaq və canlı təbiətin davamlı istifadəsi üzrə yanaşmalarına yenidən baxmağa yönəltməkdir.
- Balina ovu bir çox insanlar üçün olduqca emosional məsələdir və onlar bu mövzu ilə bağlı yanaşmalarında çox qətidirlər. Bu, üzərində işlənilən məsələni qəlizləşdirir – həmçinin çətinləşdirir. Məsələn, siz iştirakçılardan onların mədəniyyəti, həyatı və adət-ənənələri üçün vacib olan müəyyən spesifik ərzağı yeməkləri qadağan olunarsa, reaksiyalarının necə olacağını soruşa bilərsiniz. İkinci məqsəd, razılığa gəlmək bacarıqlarını inkişaf etdirməkdir, buna görə də, məşğələ xəyali təşkilat Crest (mədəniyyət, hüquqlar, ətraf mühit, davamlılıq və danışıq) tərəfindən vasitəçilik edilən görüş kimi hazırlanmışdır. Məşğələni etməzdən əvvəl, 545-ci səhifədə razılığın əldə olunması üzrə məlumata istinad edə bilərsiniz.
- Təlimatların ikinci hissəsinin 1-ci addımında bəzi sualları aydınlaşdıra bilərsiniz.
- Balinalar niyə əhəmiyyətlidir? İqtisadi, tarixi, ətraf mühit və mənəvi məsələləri nəzərdən keçirin.
- Boz balinalar nəsli kəsilmək təhlükəsi altında olan heyvan növüdür? Hansı elmi sübutlar var?
- Niyə Makah qəbiləsi balina əti yeməkdən imtina etməlidir? Yəhudilər və müsəlmanların mədəni səbəblərdən donuz əti yemədiyini, lakin digərlərinin donuz əti yeməsinə müdaxilə etmədiyini nəzərə alın.
- Makahların balina ovu ritualı dəyişdirilməlidir? Nəzərə alın ki, mədəni təcrübələr dəyişə bilər və dəyişir: məsələn, QİÇS epidemiyasına cavab olaraq, dünya üzrə mədəniyyətlərdə cinsi əlaqə barəsində danışmaq qadağan deyil və onunla bağlı, dulun təmizlənməsi kimi rituallarla mübarizə aparılır və dəyişdirilir.
- Əgər razılığa gəlinsə, balinaların qorunmasını təmin etmək üçün hansı növ nəzarətə

**ƏSAS TARİX**

**9 avqust**
Yerli İnsanların Beynəlxalq Günü

ehtiyac olacaqdır? Məlumata açıq şəkildə çıxışın olmasını nəzərdən keçirin, hər hansı ildə balina ehtiyatının yaxşı səviyyədə olduğunu müəyyən etmək üçün kim arbitr ola bilər və aldatmanın qarşısını necə almaq olar.

- İştirakçıların rol kartlarında təqdim olunan bəzi termin və anlayışların mənasını tam şəkildə başa düşdüyünü yoxlayın. Məsələn:

### Yerli əhali

Yerli əhalini aydın şəkildə müəyyən etməyimizə imkan verən dəqiq fərqlər mövcud deyil. Ümumilikdə, onlar müstəmləkəçilər gəlməmişdən və dövlət sərhədləri çəkilməmişdən əvvəl, ilkin olaraq ərazidə məskunlaşmış insanların nəslindəndirlər. Onlar həmişə dövlətə qarşıdırlar və adətən qəbilə halında yaşayırlar.

2007-ci ildə qəbul olunmuş Yerli Xalqların Hüquqları üzrə Bəyannamə onların öz müqəddəratını təyin etmək, öz iqtisadi, sosial və mədəni inkişaf istiqamətini müstəqil şəkildə müəyyən etmək, ləyaqət və mədəni müxtəliflik hüquqlarını tanıyır.

### Ehtiyat prinsipi

Ehtiyat prinsipinə görə, "fəaliyyət insan sağlamlığı və ya ətraf mühitə təhdid törətdikdə, səbəb-nəticə əlaqələri elmi cəhətdən tam olaraq müəyyən edilməsə də, bəzi ehtiyat tədbirləri görülməlidir". Buraya qeyri- müəyyənlik qarşısında addım atmaq daxildir; risk yaradan şəxslərə qarşı sübut yükünü dəyişmək; potensial olaraq zərərli fəaliyyətlərə alternativlərin təhlili; müştərək qərar vermə metodları.

**Yuxarı Şimal Alyansı:**
www.highnorth.no

**Beynəlxalq Dəniz Çobanı:**
www.seashepherd.com

**Beynəlxalq Balina ovu Komissiyası:**
www.iwcoffice.org

**Makah Xalqı:**
www.makah.com

**Qrinpis:**
www.greenpeace.org

### Dayanıqlılıq

1989-cu ildə BMT-nin Ətraf Mühit və İnkişaf üzrə Ümumdünya Komissiyası (WCED), həmçinin Brundtland Hesabatı adlandırılır, dayanıqlı inkişafın tərifini belə verdi: "gələcək nəsillərin öz ehtiyaclarını ödəmək imkanlarına xələl gətirmədən hazırki nəslin ehtiyaclarını qarşılamaq əsasında inkişaf".

"Dayanıqlı istifadə" yalnız bərpa olunan resurslara aid edilən anlayışdır: bu, resurslardan onların bərpa olunmaq imkanlarına uyğun şəkildə istifadəni nəzərdə tutur. Elmi sübutlar və obyektiv məlumat əsasında dünyanın təbii resurslarının dayanıqlı şəkildə istifadəsi üzrə qlobal şəkildə razılaşdırılmış prinsip mövcuddur.

## Variantlar

Əgər qrup balacadırsa, iki qrupla işləyə bilərsiniz, Makahlar və Yuxarı Şimal Alyansı bir tərəfdə, Qrinpis və Dəniz Çobanı digər tərəfdə.

Siz iki ayrı sessiyanı müxtəlif vaxtlarda aparaataraq iştirakçılara faktlarla bağlı tədqiqat aparmaq və öz mövqelərini nəzərdən keçirmək üçün daha çox vaxt verə bilərsiniz.

Bu məşğələni təqdim etməyin başqa yolu panel debatdır. Dörd qrupun hər birini, Makah, Yuxarı Şimal Alyansı, Dəniz Çobanı və Qrinpis, təmsil etmək üçün bir nəfər nümayəndə seçin. Onlar məsələni təqdim etsinlər, daha sonra, iştirakçıların suallarına cavab versinlər. Sonda, beş sualın hər biri üzrə səsvermə olsun.

Bu yolla, siz iştirakçıları məsələnin insan hüquqları, mədəni və ətraf mühit aspektlərini nəzərdən keçirməyə sövq edəcəksiniz, lakin razılıq əldə etmək elementi əhatə olunmayacaq.

## Sonrakı fəaliyyət üçün təkliflər

Əgər qrup mədəni dəyişiklik fikrini araşdırmaq istəyərsə, 272-ci səhifədəki "Tezliklə köhnələcək" məşğələsini edin.

## Fəaliyyət üçün fikirlər

Yerli xalqları onların məhsullarını almaqla dəstəkləyin. "Ədalətli ticarət olunan" məhsulları satan mağazaların bir çoxunda satılan əldə hazırlanmış əşyalar yerli əhali tərəfindən istehsal olunmuşdur. Gələn dəfə kimsə üçün hədiyyə axtararkən belə mağazaya gedib bu məhsulları nəzərdən keçirin.

## Əlavə məlumat

Makah Balina Ovu və Leviafanın Ölümü: Modern Dövrdə Adət-ənənəni Yenidən kəşf etmək və Etibarlılığı Müzakirə etmək. Rob van Ginkel, Amsterdam Universiteti. İnternetdə tapıla bilər; başlığı axtarış motorunuza daxil edin.

Yerli xalqların hüquqları haqqında məlumat üçün Yerli İşlər üzrə Beynəlxalq İşçi Qrupun saytına baxın www.iwgia.org; 2007-ci il Yerli Xalqların Hüquqları üzrə Bəyannamənin tam mətni üçün www.un.org saytına baxın

Heyvan hüquqları və şüurlu hər bir canlıya qarşı qayğı və hörmət ideyası haqqında məlumat üçün www.uncaged.co.uk.

## Paylanmalı materiallar

### Fasilitator üçün ümumi məlumat

Makah xalqı (həmçinin Makah və ya Makah qəbiləsi adlandırılır) ABŞ-ın Vaşinqton ştatının Olimpik yarımadasının ən şimal-qərb nöqtəsindəki qoruqda yaşayır. Hazırda qoruq təqribən 27,000 hektar ərazi tutur. 1999-cu ilin iyulunda qəbilə üzrə məlumat Makahların 1214 qeydiyyata alınmış üzvünün olduğunu göstərirdi, lakin hazırda qoruqda 1079 nəfər yaşayır. Qoruqda orta işsizlik əmsalı təqribən 51%-dir. Qoruqdakı ailələrin 49%-nin gəliri federal kasıblıq səviyyəsindən aşağıdır və onların evlərinin 59%-i standartdan aşağı hesab edilir.

Bu qəmgin təsvirə baxmayaraq, onların adət-ənənələri çox möhkəmdir və əksər makahlar kolleci bitirdikdən sonra geri qayıdaraq Makah qəbiləsi üçün yerli klinika və ictimai məktəbdə çalışırlar. http://www.statemaster.com/encyclopedia/Makah

*Hazırki mübahisələrin qısa tarixi*

- Oktyabr, 1997: Beynəlxalq Balina ovu Komissiyası Makahların ildə dörd boz balinanını tutmasına razılıq verdi.
- 10 may, 1999: son 70 ildə makahların ilk balina ovu baş tutdu. Etirazçılar ova müdaxilə edir, özlərinin və digərlərinin həyatını təhdid altında qoydu.
- 17 may, 1999: bir balina tutuldu.
- 9 iyun, 2000: Appelyasiya məhkəməsinin 9-cu dövrəsi yeni ətraf mühit qiymətləndirməsi hazırlanana qədər ovların dayandırılması ilə bağlı hökm çıxardı.
- İyul, 2001: yeni qiymətləndirmə verildi. Ova yenidən icazə verildi.
- 2002: Beynəlxalq Balina ovu Komissiyası makahların balina kvotasını yeniləmək tələbi ilə razılaşaraq onu daha beş il üçün uzatdı.
- Dekabr, 2002: 9-cu Dövrənin üç hakimlik paneli tam ətraf mühit təsiri bəyanatı hazırlanana qədər ovun qeyri-müəyyən müddətə dayandırılması hökmünü verdi.
- Fevral, 2005: Makah qəbiləsi Milli Dəniz Balıqçılıq Xidmətinə rəsmi qaydada müraciət edərək onlara balina ovlamağa icazə verilməsi üçün Dəniz Məməlilərinin Mühafizəsi Aktını ləğv etməsini tələb etdi.
- Sentyabr, 2007: qəbilənin bəzi üzvləri, irəliləyişin olmamasından qəzəblənərək, balinanı qeyri-leqal yolla ovladı.
- May, 2008: Balıqçılıq Xidməti ətraf mühit təsiri bəyanatının layihəsini nəşr etdi.
- 2009-cu ilin ortası: ətraf mühit təsiri bəyanatı və ya ləğv tələbi ilə bağlı heç bir yekun qərar yox idi.

Mənbə: www.historylink.org

Balina ovu və Makah xalqı haqqında daha çox məlumat üçün: www.historylink.org (makah balina ovu axtarın)

## Rol kartları

**CREST rol kartı**

Sizin balina ovu ilə bağlı mövqeyiniz neytraldır. Rolunuz insan hüquqları və ətraf mühit qanunvericiliyi haqqında məlumatı təmin etmək, qruplar arasında vasitəçilik etmək və görüşü yekunlaşdırmaqdan ibarətdir. Sədr olaraq işiniz müzakirənin nəzərdə tutulan mövzu üzrə getməsini təmin etmək, yanlış fikirləri və anlaşmazlıqları aydınlaşdırmaqdır. Qruplara aşağıdakı suallar üzrə razılığa gəlmək üçün fərqlərdən uzaqlaşıb ortaq cəhətləri tapmağa kömək edin:

- Balinalar niyə əhəmiyyətlidir?
- Boz balinalar nəsli kəsilmək təhlükəsi altında olan heyvan növüdür?
- Niyə Makah qəbiləsi balina əti yeməkdən imtina etməlidir?
- Makahların balina ovu ritualı dəyişdirilməlidir?
- Əgər razılığa gəlinsə, balinaların qorunmasını təmin etmək üçün hansı növ nəzarətə ehtiyac olacaqdır?

Hamını salamlamaqla başlayın. Müzakirələrin çərçivəsini qurun. İki dəqiqə ərzində məsələnin əsas insan hüquqları və ətraf mühit aspektlərini ümumiləşdirməklə səhnəni qurun, istədiyiniz halda, aşağıdakı çıxarışlardan istifadə edin. Görüşün məqsədini bir daha bildirin: məsələləri müzakirə etmək və mövcud qarşıdurmaya uzunmüddətli həll tapmaq üçün qarşılıqlı anlaşmaya nail olmaq.

Ümumi müzakirəyə başlamamışdan Makah qəbiləsindən balina ovuna davam etmək istəklərinin səbəblərini izah etməyi xahiş edin. 50 dəqiqəlik müzakirədən sonra, siz görüşü yekunlaşdırmalı, görüşdə qaldırılan və növbəti mərhələdə aydınlaşdırılmalı məsələləri sıralamalısınız.

**İnsan hüquqları, mədəniyyət və ətraf mühit haqqında məlumat**

İqtisadi, Sosial və Mədəni hüquqlar haqqında Paktın 1-ci maddəsində qeyd olunur:

1. Bütün xalqlar öz müqəddəratını təyin etmək hüququna malikdirlər. Bu hüquq əsasında onlar azad şəkildə öz siyasi statuslarını müəyyənləşdirir və sosial-iqtisadi və mədəni inkişaflarını təmin edirlər.

2. Bütün xalqlar öz məqsədlərinə çatmaq üçün mənfəət prinsiplərinə əsaslanan beynəlxalq iqtisadi əməkdaşlıqdan və beynəlxalq hüquqdan irəli gələn hər hansı öhdəliklərə zərər vurmadan öz təbii sərvət və ehtiyatlarından azad şəkildə istifadə etmək hüququna malikdirlər. Heç bir xalq heç bir vəchlə ona məxsus olan yaşayış vasitələrindən məhrum edilə bilməz.

15-ci maddə:

1. Bu Paktda iştirak edən dövlətlər hər bir şəxsin:

(a) mədəni həyatda iştirak etmək;

(b) e!mi tərəqqinin nəticələrindən və onların praktiki tətbiqindən istifadə etmək;

Hüququnu tanıyırlar 1993-cü il Vyana bəyannaməsinin preambulasında qeyd olunur, “Bütün insan hüquqları universal, bölünməz və qarşılıqlı şəkildə əlaqəlidir. Beynəlxalq ictimaiyyət qlobal miqyasda insan hüquqlarına ədalətli və bərabər şəkildə, eyni səviyyədə və eyni vurğu ilə yanaşmalıdır… milli və regional xüsusiyyətlərin, müxtəlif tarixi, mədəni və dini köklərin önəmi nəzərə alınmalıdır.”

1981-ci ildə, Beynəlxalq Balina ovu Komissiyası Aborigenlərin Balina ovu Subsidiyasına (ASW) icazə vermək haqqında qərar qəbul etdi. Bu qərarda belə tərif verilir: “balina ovu və balinalardan istifadədən davamlı şəkildə ənənəvi asılılıq əsasında güclü ictimai, ailəvi, sosial və mədəni əlaqələri bölüşən aborigen, yerli və ya milli xalqlar tərəfindən və ya onların adından yerli aborigen istehlakı təmin etmək məqsədilə aparılan balina ovu”.

BMT-nin Dəniz hüququ Konvensiyasında qeyd olunur ki, “Ümumi prinsiplərdən biri bərpa olunan dəniz resurslarından davamlı istifadənin optimallaşdırılmasıdır.”

1982-ci ildə, IWC nəsli kəsilmək təhlükəsi altında olan boz balinanın ovlanmasına moratorium qoydu. 1994-cü ildə boz balinaların təqribi sayı 21000-ə çatdırıldı və onlar ABŞ-ın Nəsli kəsilmək təhlükəsi altında olan növlər siyahısından çıxarıldı.

**Makah qəbiləsinin rol kartı**

Sizin rolunuz Şimali Amerikanın şimal-qərbində yaşayan Makah Hindularını təmsil etməklə bağlıdır. Balina ovu sizin üçün vacib mədəni ənənədir və siz yalnız ildə beş boz balina öldürmək hüququ istəyirsiniz.

Siz insan hüquqları və ətraf mühit barəsində biliklərinizdən və aşağıdakı məlumatdan istifadə etməlisiniz:

- Son balina ovundan 70 il keçsə də, mərasimlər, rituallar, mahnılar və nağıllar vasitəsilə bu ənənə gənc nəsillərə ötürülmüş və canlı saxlanmışdır. Ovla bağlı bütöv sosial struktur qurulmuşdur.
- Hazırda bəzi Makah Hinduları qızıl balıq və pasifik samur balığı ovlayıb yerli balıq fabrikinə satmaqla yaşayışlarını təmin edirlər, lakin ailə və dostlarla bölüşməyə əsaslanan köhnə sistem hələ də qüvvədədir.
- Avropalılar və amerikanlar tərəfindən aparılan sənaye ovçuluğu fəaliyyəti nəticəsində balina ehtiyatı tükənmişdir. İndi isə ehtiyat yenidən tarixi yüksək səviyyəyə qalxmış və boz balina ABŞ-ın nəsli kəsilmək təhlükəsi altında olan növlər siyahısından çıxarılmışdır.
- Bizim gənclərimiz öz mədəniyyət və tarixlərinə əsaslanan kimliyə sahib olmağı dəyərləndirirlər. Tarixi köklərə malik mədəniyyətin hissəsi olmaq ABŞ-da yaşayan əksər gənclərin sahib ola bilmədiyi imtiyazdır.
- Biz boz balinanı kommersiya məqsədilə ovlamayacağıq. Bizim məqsədimiz öz mərasimimizi həyata keçirmək və ərzaq/ yaşayışımızı təmin etməkdir.
- Biz 5 boz balina ovlaya bilməyi tələb edirik, lakin biz hər il mütləq şəkildə 5 balina ovlamaq niyyətində deyilik.
- Bizi kiçik sahil gəmilərində ənənəvi əl qarpunundan istifadə etməklə balıq tuturuq. Biz Alyaskada balinaların ovlanması üçün istifadə olunan ucunda qumbara olan dəyişdirilmiş üsuldan istifadə etmək barəsində düşünürük.
- Biz fəal oyunçu olmaqla boz balinanın yenidən nəsli kəsilmək təhlükəsi altında olan növlər siyahısına düşməməsini təmin edəcəyik.

**Dəniz Çobanı və Balina və Delfinləri Mühafizə Cəmiyyətinin rol kartı**

Dəniz Çobanı dəniz canlı təbiət növlərinin qorunması üzrə qaydalar, nizamnamələr və müqavilələrin pozuntularının araşdırılması və sənədləşdirilməsi ilə məşğul olan qeyri-kommersiya, qeyri-hökumət təşkilatıdır (QHT). Balina və Delfinlərin Mühafizəsi Cəmiyyəti(WDCS) bütün balinalar, delfinlər və hind donuzlarının qorunması və mühafizəsi üzrə çalışan ən fəal xeyriyyə təşkilatıdır.

Siz insan hüquqları və ətraf mühit barəsində biliklərinizdən və aşağıdakı məlumatdan istifadə etməlisiniz:

- “Necə istəyirsinizsə, təqdim edin – balina ovlamaq cinayətdir və cinayət yanlışdır.”
  - Balinalar insan olmasa da, insandan aşağı deyil. Balinaları öldürməyi qəbul edən düşüncə tərzi “daha aşağı” sayılan insanlara qarşı soyqırım törətməyi qəbul edən düşüncə tərzi ilə eynidir.
  - Daha dərindən yanaşdıqda, balinalar və digər bəzi şüurlu məməlilər insan hüquqlarını olmasa da, heç olmasa “humanist hüquqları” tələb edə bilməlidirlər.
- Makahların bu təşəbbüsünün əsl səbəbi balina ətinin bir kilosunun Yaponiyada 80 ABŞ dollarına satıldığını bilmələridir. Bir balina, demək olar ki, bir milyon dollar dəyərindədir.
- Makahlara balina ovlamağa icazə verilməsi minlərlə balinanın taleyini həll edəcəkdir, çünki Norveç, Yaponiya, Rusiya və İslandiya bu hala presedent kimi baxırlar.
- Biz insanların uzun tarixə malik ənənələrini davam etdirməsi hüququna hörmətlə yanaşmaq və balinaları qorumaq üzrə maraqları balanslaşdırmaq üçün kəndir üzərində yeriyirik.
- 1995-ci ildə Rusiyada balina ovunun yerli əhalinin qidalanması üçün deyil, tülkü xəzi fermalarında tülküləri yemləmək üçün istifadə olunduğu iddia edildikdə bu halla bağlı tənqidi fikirlər səsləndirilmişdi.
- Mədəniyyətlər dəyişir. Alyaskanın Şimal Qütbü Eskimoları bir əsr əvvəl balinaları ovlayan insanlardan iqtisadi cəhətdən olduqca fərqlənirlər. Neft hasilatı yerli əhaliyə böyük məbləğdə pul gətirib. Həmçinin, müasir motorlu qayıqlar və helikopterlər vasitəsilə ovçuluq aborigenlərin ov tərifinə elə də uyğun gəlmir.
- Beynəlxalq Balina ovçuluğu Komissiyası (IWC) kommersiya məqsədilə balinaların ovlanmasının davam etməsinin emosional cəhətlərini müzakirə etməyə davam etdiyi vaxtda yüzlərlə balina, onların qohumları, daha kiçik delfinlər və hind donuzları hər il diqqətdən kənarda qalır və aborigen ovlarında qətlə yetirilir.
- Canlı təbiət kontekstində, ehtiyat prinsipinə əməl edilməlidir.

**Yuxarı Şimal Alyansının rol kartı**

Yuxarı Şimal Alyansı Kanada, Qrenlandiya, Faroe adaları, İslandiya və Norveç balina ovçuları və ov gəmiçilərini təmsil edən çərçivə təşkilatıdır. Təşkilat sahil mədəniyyətlərinin gələcəyi və dəniz məməli heyvan resurslarının davamlı istifadəsi üçün çalışır.

Siz insan hüquqları və ətraf mühit barəsində biliklərinizdən və aşağıdakı məlumatdan istifadə etməlisiniz:

- Makahlar ağdərili imperialistlər gəlib, balinaları onlardan alıb Makah ənənələrini və həyat tərzini məhv edənə qədər 2,000 il ərzində balina ovu ilə məşğul olublar.
- İndi balinaların sayı kifayət qədərdir, lakin ağdərili insanlar bu resursdan istifadəni qadağan etmək və bizim
- hüquqlarımızı pozmaq istəyirlər.
- Müxtəlif mədəni qruplar hansı heyvanların xüsusi olması və hansıların yemək üçün ən yaxşı olması ilə bağlı heç vaxt razılığa gələ bilməyəcəklər. Şimali Norveçdə eyder ördəyinə xüsusi münasibət olduğu halda, Danimarkada eyder ördəyinin sinəsi ləzzətli hesab olunur.
- Buna görə də, “balinalar fərqlidir” bəyanatı sual doğurur: kim üçün fərqlidir?
- Balina ovuna, həmçinin, ov gəmiçiliyinə yerli insanlar tərəfindən aparıldıqda, qeyri-kommersiya məqsədi daşıdıqda və yalnız “ənənəvi istifadə” üçün olduqda icazə verilir. Bu, aşağıdakı səbəblərdən ədalətsizdir:
  - Nəyin “ənənəvi” olduğunu müəyyən edən kənar adamlardır.
  - Balina ovçuluğu və ov gəmiçiliyini qeyri-kommersiya istehsal üsulu ilə əlaqələndirmək insanların öz gələcəyini müəyyən etmək hüququnu pozmaqdır.
  - Heç bir mədəniyyət dəyişməz deyil, lakin balina ovu əleyhdarlarının siyasəti de fakto vəziyyəti “dondurmaq”, inkişaf edən mədəniyyəti statik muzey obyektinə çevirmək cəhdidir.
  - Kommersiyalaşma Beynəlxalq Balina ovu Komissiyasındakı (balina ovçuluğuna nəzarət edən qurum) üzv dövlətlər tərəfindən mənfi hal hesab edilir. Azad ticarətin güclü vəkilləri olan hökumətlərin bu fikri ifadə etməsi ironikdir.
- Hazırki moratoriumu və ya “balinalardan əl çəkin” siyasətini məntiqi arqumentlərlə dəstəkləmək çətindir. Kənd təsərrüfatı, balıqçılıq və meşəçilikdə istifadə olunan üsullar əksər hallarda dayanıqlı deyil, lakin bu sənayelərlə bağlı heç bir qadağa tətbiq olunmur.
- “Dəniz məməliləri okean ekosistemlərinin canlı resurslarının bir hissəsidir. Onlar təhlükə altında olduqda mühafizə olunmalı və yalnız onların ehtiyatlarının həcmi qəti şəkildə imkan verdikdə ovlanmalıdır. Ovçuluq həmçinin dəniz ekosistemlərindəki uyğunsuzluq və əhali artıqlığının qarşısını almaq üçün vacibdir. (Dəniz Məməliləri Hesabatı,
- Avropa Şurası, 12 iyul, 1993)”
- Balina ovçuluğu beynəlxalq əməkdaşlığın həddən artıq istismarı dayanıqlı istifadəyə necə çevirə bildiyini nümayiş etdirən yaxşı nümunədir. Beynəlxalq əməkdaşlıq mükəmməl deyil, lakin ondan istifadə oluna bilər və istifadə olunur.

**Qrinpisin rol kartı**

Dünyadakı Qrinpis tərəfdarları daha dayanıqlı dünyaya necə nail olmaq üzrə öz fikirləri ilə bağlı hərəkat aparırlar.

Siz insan hüquqları və ətraf mühit barəsində biliklərinizdən və aşağıdakı məlumatdan istifadə etməlisiniz:

- Bir çox mədəniyyətlərdən olan insanlar balinaları müqəddəs sayır və onların hər növünü hörmət və mühafizə olunmalı suveren qrup hesab edirlər.
- Balinalar onları izləyən minlərlə insana sevinc gətirir.
- Qrinpis balina ovunun heç bir formasını dəstəkləmir, lakin kommesiya elementi olmayan və sırf yaşayışın təmin
- olunması üçün aparılan balina ovuna qarşı deyil.
- Boz balinalar hər il uzun məsafəyə köç edir və Makahların yaşadığı sulardan yalnız qısa vaxt ərzində keçirlər.
- Əgər bir qəbilənin 5 boz balinanın ovuna icazə verilməsi təşəbbüsü qəbul edilsə, Kanada və Alyaskadakı digər bəzi qəbilələr, “Yaxşı, əgər onlar balinaları ovlaya bilirsə, biz də ovlaya bilərik” deyəcəklər.
- Müxtəlif balina növləri üzrə dəqiq rəqəmləri müəyyən etmək olduqca çətindir. Əksər balina növlərinin sayı 50% az və ya çox dəqiqliklə bilinir. Dəyişikliklər çox yavaş baş verir; bir neçə illik tədqiqat əsasında balina növünün sayca artdığını və ya azaldığını demək mümkün deyil. Buna baxmayaraq, kommersiya ovçuluğu səbəbindən balinaların sayının azaldığına şübhə yoxdur.

# Əlaqələr qurmaq

*Demokratiya sizin inandığınız nə isə və ya papağınızı asa biləcəyiniz yer deyil, sizin nə etdiyinizdir. İştirak edin. Bunu etməsəniz, demokratiya məhv olacaqdır.*

Abbi Hofman

| | |
|---|---|
| **Mürəkkəblik** | 4-cü səviyyə |
| **Qrup ölçüsü** | 8 - 20 |
| **Vaxt** | 120 dəqiqə |
| **Mövzular** | • Vətəndaşlıq və İştirak<br>• Demokratiya<br>• Ümumi İnsan Hüquqları |
| **Xülasə** | Bu məşğələ demokratiyada vətəndaşların hüquq və öhdəlikləri, hökumət, QHT-lər və mətbuat haqqında danışıqları əhatə edir. |
| **Əlaqədar hüquqlar** | • İdarəçilikdə və azad seçkilərdə iştirak etmək hüququ<br>• Məlumat və ifadə azadlığı<br>• Hər kəsin cəmiyyət qarşısında öhdəliklərinin olması |
| **Məqsədlər** | • Hüquqlar və öhdəliklər arasında əlaqənin başa düşülməsini inkişaf etdirmək<br>• Müzakirə və əməkdaşlıq bacarıqlarını inkişaf etdirmək<br>• Vətəndaşlıq məsuliyyətini təbliğ etmək |
| **Materiallar** | • Qeydlər üçün hər qrupa A4 vərəqi və qələm<br>• 4 böyük vərəq (A3) və ya flipçart vərəqi (hər qrup üçün bir “qeyd vərəqi”)<br>• Hər qrup üçün 3 marker (biri qırmızı, biri yaşıl və biri göy)<br>• 4 sap və ya yun topu (hər qrup üçün fərqli rəngdə iplik)<br>• Hər qrup üçün bir skoç<br>• Qayçı<br>• Hər qrup üçün bir oyun qaydaları vərəqi |
| **Hazırlıq** | • Hər sap və ya yun topundan 6 ədəd hissə kəsin (1.5m uzunluğunda). (toplamda 24 sap alınacaq; hər rəngdən 6 ədəd, hər qrup üçün bir rəng). |

Vətəndaşlıq və İştirak

Demokraiya

Ümumi İnsan Hüquqları

4-cü səviyyə

8 - 20

120 dəqiqə

## Təlimatlar

1. Məşğələnin məqsədinin demokratik (ideal) cəmiyyətdə dörd “aktyor” arasında münasibətlərin “xəritəsi”ini çəkmək olduğunu izah edin.
2. İştirakçıları demokratiyadakı dörd “aktyor”u təmsil etmək üçün bərabər ölçüdə dörd qrupa ayırın: hökumət, QHT sektoru, KİV və vətəndaşlar.
3. Hər qrupa qeydlər üçün bir A4 vərəqi və qələm verin və onlara öz “aktyorları”nın demokratik cəmiyyətdə rolu, yəni icra etdiyi əsas funksiyalar barəsində beyin fırtınası aparmaq üçün on dəqiqə vaxt təmin edin. Vaxtın sonunda, onlar ən vacib beş funksiya üzrə razılığa gəlməlidirlər.
4. Növbəti mərhələdə onlar “qeyd vərəqləri”ni hazırlayacaqlar. Hər qrupa böyük ölçüdə kağız (A3 və ya flipçart vərəqi) və qırmızı marker verin və onlardan təmsil etdikləri “aktyor”u və aşağıda onun beş ən vacib funksiyasını yazmağı xahiş edin.
5. “Qeyd vərəqləri”nin təqdim olunması üçün qrupu bir yerə toplayın. Qrupların öz reaksiyalarını paylaşmasına icazə verin. Onlardan dörd “aktyor”un əsas funksiyaları ilə razılaşıb-razılaşmadıqlarını soruşun. Əgər istəsələr, qruplar səsləndirilən fikirlər əsasında siyahılarına dəyişiklik edə bilərlər.

6. İndi qrupları yenidən ayırın və onlara yaşıl qələm verin. Onlara funksiyalarını yerinə yetirmək üçün bir birindən nə tələb etdikləri barəsində beyin fırtınası aparmaq üçün on beş dəqiqə vaxt verin. Vaxtın bitməsinə yaxın qruplardan digər hər bir “aktyor”dan iki ən vacib tələblərini prioritetləşdirməyi və yaşıl markerlə ayrıca başlıqlar altında yazmağı xahiş edin.
7. ”Oyun qaydaları”nın nüsxələrini paylayın, onların üstündən keçin və hamının nə etməli olduğunu başa düşdüyündən əmin olun. Qruplardan “qeyd vərəqləri”ni otağın ortasına gətirməyi və 1 metr aralı olmaqla kvadrat şəkildə (diaqrama baxın) yerləşdirməyi xahiş edin. Hər qrupun üzvlərindən onlara yaxın olan ”künc”də dayanmağı xahiş edin.
8. Hər qrupa 6 sap, skoç və göy qələmi ötürün.
9. Danışıq turları indi başlayır. Hər tura 10 dəqiqə vaxt ayırın. İştirakçılara məqsədin müxtəlif “aktyorlar” arasında münasibətlərin xəritəsini çəkmək olduğunu xatırladın və tələb qəbul edildikdə məsuliyyətin götürüldüyünü vurğulamaq üçün sapın iki kağız arasına yapışdırılmalı olduğunu izah edin.
10. İştirakçılar xəritə ətrafında əyləşərkən təhlil və qiymətləndirməyə keçin.

## Təhlil və qiymətləndirmə

- İştirakçılardan düzəltdikləri xəritəyə baxıb məşğələdən nə öyrəndikləri barəsində düşünməyi xahiş edin:
- Demokratiyada hökumət, QHT-lər, KİV və vətəndaşların funksiyaları haqqında düşünmək çətin idi?
- Qruplar daxilində hansı iddiaların qəbul edilməsi və ya rədd olunması ilə bağlı narazılıqlar var idi?
- Qruplar onlara qarşı edilən iddiaların hansılarını öhdəlik kimi qəbul etməyiblər? Niyə belə oldu? Sizin fikrinizcə, reallıqda belə hallar problem doğura bilər?
- Hər qrupun qəbul etdiyi, lakin əvvəlcədən haqqında düşünmədiyi öhdəliklər olub? Bunuınla bağlı özlərini necə hiss edirlər?
- Məşğələ iştirakçılara demokratik cəmiyyət barəsində bilmədikləri hər hansı yeni məlumat verib? Təəccübləndirici nəsə olub?
- Bu məşğələdə hansı insan hüquqlarına toxunulub?
- ÜİHB-in 29-cu maddəsində qeyd olunur: “Hər bir insan elə bir cəmiyyət qarşısında məsuliyyət daşıyır ki, onun şəxsiyyətinin azad və tam inkişafı yalnız o cəmiyyətdə mümkündür.” Həyatınızda hazırdakı ən vacib öhdəliklər hansılardır?
- Heç kimin hüquqlarının tapdanmadığını təmin etməkdə müxtəlif aktorların rolları nədir?
- Hər kəsin insan hüquqları təhsilinə çıxışının təmin olunmasında müxtəlif aktorların rolları nələrdir?

## Fasilitator üçün məsləhətlər

Dörd müxtəlif rəngdə (hər rəng bir “aktyor”la bağlıdır) sapdan istifadə etmək xəritəni daha cəlbedici edir və əlaqələri izləmək, məsələn, vətəndaşların tələbləri sarı, KİV-in tələbləri qara olmaqla, daha asan olur.

Təlimatların 5-ci addımında, qruplar funksiyalar siyahısını çəkdikdən sonra məsələni ümumi qrupda müzakirə etmək üçün çox vaxt sərf etməyin. Siz bundan qrupları növbəti kiçik qrup işinə yönəltmək üçün istifadə etməlisiniz. Qruplar digər qrupların funksiyaları ilə bağlı qeydlər götürmək istəyə bilərlər.

Əgər qruplar funksiyaları müəyyən edə bilmirlərsə, onlardan öz “aktyorları”nın nə etdiyi və əgər həmin “aktyor” olmasa nəyin çatışmayacağı barəsində düşünməyi xahiş edin. Qrupların işə başlaması üçün bəzi nümunələr gətirə bilərsiniz:

- Hökumətlər qanunvericilik hazırlayır, ümumi siyasət üzrə qərar qəbul edir və ölkənin öz büdcəsini uyğun şəkildə xərclədiyini təmin edir.
- KİV hökumətin siyasəti üzrə məlumat verir, məsələləri araşdırır, rəy və təhlili təmin edir.
- Vətəndaşların “funksiyaları” demokratik cəmiyyət üçün vacib olan hər şeyi əhatə edir:

ƏSAS TARİX

**15 sentyabr**
Beynəlxalq Demokratiya Günü

buraya parlamenti dəstəkləmək, insan hüquqları uğrunda mübarizəyə qoşulmaq, ayrı-ayrı qrupları qorumaq üçün təşkilatlar qurmaq, siyasi həyatı sorğulamaq və ona cəlb olunmaq və digərləri daxildir.

Tələblər siyahısını hazırlayarkən (5-ci addım), onlara digər “aktyorlar”a yönəltdikləri tələblərdə reallığı nəzərə almağı bildirin! Öhdəliklər uyğun olmalı, ədalətsiz və məntiqsiz iddialardan ibarət olmamalıdır.

9-cu addımda, danışıqlar ”yarış” kimi təqdim olunmamalı, onlara çox vaxt ayrılmamalıdır. Qrupların bir-biri ilə əməkdaşlıq etməli olduqlarını vurğulayın: məqsəd bütün “aktyorların” ümumi rifah üçün birgə çalışdığı cəmiyyət qurmaqdır. Buna görə də, sövdələşmələr nisbətən cəld olmalıdır: qruplara iddialar məntiqi göründükdə onları qəbul etməyi, əks halda, rədd etməyi tapşırın. Mübahisəli məsələlər sonrakı mərhələdə müzakirə olunacaqdır.

Əgər qrupların tələblər və öhdəliklər haqqında düşünərkən köməyə ehtiyacı varsa, siz KİV və vətəndaşlar nümunəsindən istifadə edə bilərsiniz: jurnalistlərin baş verən hadisələr barədə məlumata ehtiyacı var və vətəndaşların öhdəliyi KİV-i xəbərdar etmək və şahidi olduqları hadisələrlə bağlı bəyanatlar verməkdir.

## Variantlar

Məşğələ cəmiyyətdəki “aktyorlar”ın müxtəlif sayından istifadə etməklə daha çox və ya az mürəkkəb edilə bilər: məsələn, ”bizneslər”, ”azlıqlar”, və ya ”çətin vəziyyətdə olan qruplar”ı əlavə edə bilərsiniz. Buna baxmayaraq, bu, danışıqlar prosesini qəlizləşdirəcəkdir və siz qrupların yalnız bəzilərindən öz tələblərini səsləndirməyi xahiş edə bilərsiniz. Eyni zamanda, siz gənclərin reallıqlarına birbaşa daha uyğun olan müxtəlif kateqoriyalardan istifadə edə bilərsiniz – məsələn, ”vətəndaşlar”ı ”gənclər”lə və ”hökumət”i ”məktəb”lə əvəzləyin.

Məşğələ bir və bir neçə qrupu çıxarmaqla sadələşdirilə bilər: məsələn, yalnız ”vətəndaşlar” və ”hökumət”lə işləməklə. Əgər kiçik qrupla işləyirsinizsə, bu metoddan istifadə edə bilərsiniz.

Siz məşğələni “qeyd vərəqləri” olmadan aparmağı sınaya bilərsiniz: danışıqlar zamanı, birinci qrupdan olan şəxs sapın bir ucundan tutur və digər ucu ikinci qrupdakı şəxsə təklif edir. Əgər bütün iştirakçılar ucları tutsalar, prosesin sonunda ”cəmiyyət” fiziki cəhətdən bütövlükdə əlaqələndirilmiş olacaqdır!

## Sonrakı fəaliyyət üçün təkliflər

Qrup cəmiyyətin başqa qruplarını daxil etməklə (“Variantlar” başlığına baxın), xəritəni düzəltməyə davam edə bilər. Daha aydın şəkildə göstərmək üçün xəritə başqa bir kağıza köçürülə bilər.

Cəmiyyətinizdəki hansı əlaqələrin yaxşı inkişaf etmədiyi və bunu dəf etmək üçün nəyin edilə biləcəyi haqqında düşünün.

Əgər qrup cəmiyyətin inkişaf istiqamətləri – daha spesifik olaraq onun necə inkişaf etməsini istədikləri barəsində düşünmək istəyərsə, 240-cı səhifədəki “Bizim gələcəyimiz” məşğələsini edə bilərsiniz.

## Fəaliyyət üçün fikirlər

Məşğələni yenidən edin, lakin bu dəfə ondan sizin yerli hökumət, yerli KİV, yerli QHT-lər və vətəndaşların bir-biri ilə əlaqələrini təhlil etmək üçün istifadə edin. Əlaqələrin daha yaxşı ola biləcəyi sahələri müəyyən edin və bunu məktublar, bloq və ya yerli KİV-də məqalə yazmaqla “aktyorlar”ın diqqətinə çatdırın. Təşkilatınız, məktəbiniz, kollec və ya klubunuzun digər “aktyorlar”la əlaqələrini inkişaf etdirməklə praktiki işə başlaya bilərsiniz.

## Paylanmalı materiallar

**Oyun qaydaları**

1. Hər bir ”aktyor” üçün məşğələnin məqsədi digər ”aktyorların” onların tələblərini qəbul etməsinə nail olmaqdır.
2. ”Aktyorlar” cütlükləri arasında danışıqlar aşağıdakı üç tur üzrə gedir:
   1-ci tur: vətəndaşlar və QHT-lər, KİV və hökumət danışıq aparır.
   2-ci tur: vətəndaşlar və KİV, QHT-lər və hökumət danışıq aparır.
   3-cü tur: vətəndaşlar və hökumət, KİV və QHT-lər danışıq aparır.
3. Hər turda cütlüklər kimin başlayacağına özləri qərar verirlər və növbə ilə bir-birlərinə tələblərini səsləndirirlər.
4. Tələbi səsləndirərkən iştirakçılar onu açıq və aydın şəkildə təqdim etməlidirlər. Onlar həmçinin tələbin nəyi əhatə etdiyini və niyə bu tələbi irəli sürdüklərini, eləcə də öz funksiyalarını icra edə bilmələri üçün bu tələbin nəyə görə vacib olduğunu izah etməlidirlər.
5. Tələbi qəbul edib-etməmək barəsində qərar verərkən iştirakçılar onun ədalətli olması və həmin tələbi həyata keçirmək imkanlarını nəzərə almalıdırlar.
6. Tələb qəbul olunarsa, cütlüklər “tələb edən”in saplarının birindən istifadə edərək razılığa gəlindiyini göstərmək üçün onu iki “qeyd vərəqi”nin arasına yapışdırmalıdırlar. Qəbul edən qrup öz “qeyd vərəqi”ndə göy qələmlə qısa qeyd aparmaqla öhdəliklərini və razılaşdıqları tələbləri yadda saxlamalıdırlar.
7. Əgər ikinci qrup tələbi rədd edərsə, sap kənara qoyulur.
8. Bütün tələblər müzakirə edilənə qədər danışıqlar təkrarlanmalıdır.
9. Hər dörd “aktyor” arasında əlaqə qurulana qədər hər turda proses davam etdirilir.
10. Prosesin sonunda demokratiyada müxtəlif aktyorlar arasında əlaqələri göstərən xəritə alınacaqdır. Aktyorların hər birində qırmızı qələmlə funksiyalar, yaşıl qələmlə digər “aktyorlar”a qarşı tələblər və göy qələmlə digər “aktyorlar”ın tələblərini yerinə yetirmək üçün razılaşdıqları addımların siyahısı olan “qeyd vərəqi” olacaqdır. Tələblər və görüləcək işlər rəngli saplarla təqdim olunur.



# Tarixi yaddaş etiketləri

*Aslanların öz tarixçiləri olana qədər ov hekayələri həmişə ovçuları tərənnüm edəcəkdir.*

Afrika atalar sözü

**Mövzular**
- Tarixi Yaddaş
- Müharibə və Terrorizm
- Mədəniyyət və İdman

**Mürəkkəblik** 2-ci səviyyə

**Qrup ölçüsü** 10-15

**Vaxt** 120 dəqiqə

**Xülasə** İştirakçılar kollektiv şəkildə ictimai müharibə abidələrinin doğurduğu fikir və hisləri təqdim etmək üçün “etiket buludu” düzəldirlər.

**Əlaqədar hüquqlar**
- Yaşamaq, azadlıq və şəxsi təhlükəsizlik hüququ
- Mədəni həyatda iştirak etmək hüququ
- Fikir və vicdan azadlığı

**Məqsədlər**
- Keçmiş müharibələr haqqında milli faktlar və miflər, eləcə də ictimai müharibə abidələrinin rolu barəsində öyrənmək
- Kreativlik və sərbəst düşünmək bacarıqlarını inkişaf etdirmək
- Təxəyyül və şəfqəti təşviq etmək

**Materiallar**
- Flipçart kağızının vərəqləri
- Skoç
- Çoxlu rəngli markerlər
- Müharibə xatirələrinin şəkilləri (istəyə görə)
- Etiket buludlarının nümunələri (istəyə görə)

**Hazırlıq** Flipçart kağızının bir neçə vərəqini yapışdırmaqla böyük kağız düzəldin (təqribən 1.5m x 1.5m ölçüdə). Bu vərəq bütün qrup üzvlərinin onun ətrafında dura biləcəyi böyüklükdə olmalıdır. Vərəqin ortasında solğun xətt çəkin.

## Təlimatlar

1. Hər kəsin “etiket buludu” haqqında məlumatlı olduğundan əmin olun və qrupun ictimai müharibə abidələrinin oyatdığı assosiasiyaları və xatirələri nümayiş etdirmək üçün elektron olmayan etiket buludu hazırlayacağını izah edin.
2. İştirakçılardan fərdi qaydada müharibə xatirəsinə, məsələn, İkinci Dünya Müharibəsi xatirəsinə, yaxınlıqda ucaldılmış milli abidə haqqında düşünməyi xahiş edin. Onlar bu abidənin görüntüsünü xatırlamalı və onun oyatdığı hislər, fikirlər və assosiasiyaları – həm müsbət, həm də mənfi – müəyyən etməlidirlər.
3. Hər kəsi rəngli marker götürüb kağız ətrafında yer tutmağa dəvət edin. İştirakçılar fərdi işə davam edərək aşağıdakı ümumi prinsiplər əsasında böyük kağıza fərdi “etiketləri”ni yazmalıdırlar:
   a. Etiketlər tamamilə fərdidir: onlar sadəcə sizin müəyyən obyekti necə qəbul etdiyinizi göstərir.
   b. Mənfi assosiasiyalar mərkəzi xəttin sol tərəfinə yazılmalıdır; daha mənfi olan assosiasiyalar kağızın sol küncünə daha yaxın yazılmalıdır.
   c. Müsbət hislər kağızın sağ tərəfində yazılmalıdır; daha müsbət hislər kağızın sağ küncünə daha yaxın yazılmalıdır.
   d. Abidənin oyatdığı hislər güclü olduqda, onlar zəif şəkildə özünü göstərən hislərlə müqayisədə daha böyük hərflərlə yazılmalıdır.

4. İştirakçılar etiketlərini qeyd etdikdən sonra, onlardan oturub kollektiv nəticələrə baxmağı xahiş edin. Soruşun:
   a. “Buludda” güclü mesajlar və ya nümunələr var?
   b. Etiketlərin hər hansı biri onları təəccübləndirib?
   c. Qeyd edilənlər arasında müsbət yoxsa mənfi hislər daha çoxdur?
   d. Qeyd edilənlər arasında ən güclü hislər hansılardır?
   e. Gələcək nəsillərin də müharibəni belə xatırlamalı olduğunu düşünürsünüz? Nə çatışmır – və ya balans harada bərpa olunmalıdır?
5. İndi isə iştirakçıları yenidən markerləri götürməyə dəvət edin. Bu dəfə onlar həqiqi, mövcud abidə haqqında deyil, özlərinin təsəvvür etdiyi – onların hər birinə görə - müharibə barəsində ən vacib mesajları verəcək abidə haqqında düşünməlidirlər. Onlar etiketləmək prosesini davam etdirməli, ilkin etiketləri yazdıqları ümumi vərəqə yeni etiketləri fərdi qaydada qeyd etməlidirlər. İlkin etiket buludunun artıq ictimai yer olduğunu və silinə bilməyəcəyini izah edin, buna görə də, yeni etiketlər əvvəlkilərdən yuxarıda yazılmalıdır.
6. “Bulud” tamamlandıqda, iştirakçıları tam mənzərəyə baxmağa dəvət edin, daha sonra təhlil və qiymətləndirməyə keçin.

## Təhlil və qiymətləndirmə

- Etiket buludu düzəltmək prosesini müzakirə etməklə başlayın, daha sonra, tarixi yaddaş və insan hüquqları məsələlərini nəzərdən keçirin:
- Yekun buludun şəklinə nə qədər təsir edə bildiniz? Təbliğ etməyi arzuladığınız fikirlərdən fərqli mesajların daha güclü səslənməsi sizi məyus etdi?
- İkinci buludla bağlı fərdi şəkildə çalışdınız yoxsa fikirlərinizi digərləri ilə müzakirə etdiniz və “etiketləmə” üçün güclərinizi birləşdirdiniz?
- Digər iştirakçıların etiketləri və ya artıq vərəqdə olan etiketlər sizə nə dərəcədə təsir etdi?
- Tamamlanmış bulud birincidən nə qədər fərqlənir və əsas mesajlar hansılardır?
- Yekun bulud birinci ilə müqayisədə gələcək nəsillərin İkinci Dünya Müharibəsi ilə bağlı bilməli olduğu fikirləri daha yaxşı əks etdirir? Niyə? Niyə yox?
- Niyə rəsmi abidələr müharibəni “tərənnüm edir”? Sizin fikrinizcə, müharibə tərənnüm olunmalıdır?
- Siz hətta müharibə zamanı döyüşən tərəflərin fəaliyyətini nizamlayan, Cenevrə konvensiyalarında əks olunan minimum standartların mövcudluğundan xəbərdarsınız? Onlardan hər hansı birini sadalaya bilərsiniz?
- Sizin fikrinizcə, əsgərlərin müharibədə yaşamaq hüququnu itirməsi düzgündür?
- Rəsmi abidələr qarşı tərəf, “düşmən” haqqında hansı mesajı verir? Hazırda onu necə başa düşməliyik?
- Müxtəlif növ abidələri təsəvvürünüzə gətirmək sizin üçün asan idi? Bu abidələr necə ola bilər? Sizin fikrinizcə, nə vacib idi və nəyi ən çətin hesab etdiniz?
- Abidə bizə, həqiqətən, müharibənin dəhşətlərini xatırlada bilər? Sizcə, buna çalışmalıyıq?
- Sizin fikrinizcə, müharibəni yaşayan və ya müharibədə həlak olan insanlar tarixin bu dövrünün xatırlanmasını istəyərdilər? Onların etiket buludu sizinkindən fərqlənərdi?
- Əgər yaxın adamınızı müharibədə itirmisinizsə, onun necə xatırlanmasını istəyərdiniz və gələcək nəsilə  müharibə haqqında nə deyərdiniz?
- Bu məşğələ sizin insan hüquqları üzrə anlayışınızı genişləndirdi? Necə?

## Fasilitator üçün məsləhətlər

Siz rənglərlə oynaya bilərsiniz. Məsələn, bütün mənfi assosiasiyaların qara rənglə, müsbət olanların isə başqa rənglə yazılmasını təklif edə bilərsiniz; və ya mərkəzi xətdən uzaqlaşdıqca daha tünd və açıq kölgələrdən istifadə edə bilərsiniz; ya da ikinci buludun birincidən fərqlənməsini istəyirsinizsə, birinci buluddakı bütün etiketlərin bir rəngdə, 5-ci addımda əlavə edilən etiketlərin isə başqa rəngdə yazılmasını tələb edə bilərsiniz.

Kömək edə biləcəyini düşünsəniz, abidələrin şəkillərindən istifadə edə bilərsiniz, lakin ilk etiketləmənin yaddaşdan tamamlanması daha effektiv olacaqdır; bu yolla, hansı mesajların daha davamlı olduğunu müəyyən edə bilərsiniz!

İlk təhlili (4-cü bənddə) qısa edin. Ondan keçmişin xatırlanması ilə bağlı müxtəlif üsulları müəyyən etmək və abidələrin alternativ formaları üzrə kreativ düşüncəni stimullaşdırmaq üçün istifadə edin. Əgər iştirakçıların fikrincə birinci buludun hadisələri lazımi şəkildə əks etdirirsə, www.coe.int/compass linkindən 5-ci fəsildə Tarixi Yaddaş mövzusu üzrə məlumatdakı bəzi fikirlərdən istifadə edin.

İkinci etiketləmə zamanı, iştirakçılara mövcud buludu istədikləri kimi uyğunlaşdırmaq və bir-biri ilə fikirlərini müzakirə etmək azadlığı verin – baxmayaraq ki, əslində onlar fərdi qaydada işləməlidirlər.

İkinci turda yeni sözlərin əlavə edilməsi üçün çoxlu yer olmalıdır. Buludun qarışıq olacağını hiss edə bilərsiniz, lakin real həyatda da etiketləmə zamanı eyni hadisə baş verir – insanların əvvəlki etiketləri ilə üz-üzə qalırsınız. Yeni sözləri əvvəlkilərin üzərinə yazmağın çətinliyi yanaşmaların mədəni əsasının fərqli olduğu və hər kəsin özünəməxsus düşüncə tərzi olduğundan səsimizi eşitdirməyin çətin olduğu mesajını verməyə kömək edir. Buna baxmayaraq, əgər qrupunuz üçün fikir və hislərini təhlil etməyi asanlaşdıracağını düşünürsünüzsə, iki fərqli etiket buludu düzəldə bilərsiniz.

## Variantlar

İştirakçılar etiketləri birbaşa kağızda yazmaq yerinə asanlıqla çıxarıla bilən birkalarda yaza bilərlər. Bu, ikinci etiketləmə mərhələsində dəyişikliklər etməyi asanlaşdıracaqdır, məsələn, daha çox diqqət çəkməsi üçün bənzər etiketləri bir-birinə yaxın yerləşdirə bilərsiniz.

Əgər daha uyğundursa, İkinci Dünya Müharibəsi yerinə tarixdəki başqa hadisələrdən istifadə edə bilərsiniz – məsələn, Holokost, Birinci Dünya Müharibəsi, vətəndaş müharibəsi və ya regional müharibə önəmli olan bu hadisələrin müəyyən ictimai yolla xatırlanmasıdır. Gənclərin müharibə ilə bağlı fikirlərini müharibəni yaşamış şəxslərin fikirləri ilə müqayisə etməsi maraqlı ola bilər. Siz ilk etiketləmə mərhələsindən sonra məşğələyə fasilə verə, iştirakçılara yaşlı nəslin nümayəndələrini müharibənin gələcək nəsillər tərəfindən necə xatırlanmasını istədikləri və onların fikrincə, mövcud müharibə abidələrinin bunun üçün yetərli olub-olmaması barəsində müsahibə etməyə imkan verə bilərsiniz.

Siz bir çox digər Kompas məşğələləri üçün, xüsusilə sərgi üçün vizual material hazırlamaq istədiyiniz halda, (əllə çəkilmiş və ya elektron) etiket buludundan istifadə edə bilərsiniz.

Alternativ əsas tarixlər, 27 yanvar – Holokostun Xatırlanması günü və ya 23 avqust – Kölə Ticarəti və Onun ləğvinin Xatırlanması üzrə Beynəlxalq gün ola bilər.

**ƏSAS TARİX**

**8-9 may**
İkinci Dünya Müharibəsində həyatını itirənlərin Xatırlanması və Barışma günü

## Sonrakı fəaliyyət üçün təkliflər

Yerli əhali arasında sorğu keçirməklə müharibə komandirləri və məhşur döyüşlərin şərəfinə adlandırılmış küçələrin və sülh uğrunda çalışmış məhşur şəxslərin xatirəsinə adlandırılmış küçələrin sayını müəyyən edin. Bələdiyyədən küçələrin adlarına kim tərəfindən qərar verildiyini öyrənin və xatırlanmalı olduğunu düşündüyünüz şəxslərin adlarını təklif edin.

Əgər gənclər etiket buludlarının əslində necə göründüyünü görmək istəyirlərsə, 2 könüllüdən etiketləri sənəddə çap etməyi və http://www.wordle.net/create linkindəki ekrana yerləşdirməyi xahiş edə bilərsiniz Bundan sonra, onlar həmin sənədi çap edə və abidələr barəsində fikirlərinin əksi kimi ictimai qalereyada saxlaya bilərlər.

Tarixi Yaddaş, Berlində Hitlerin Olimpiya stadionu və bu tikili ilə nə edilməli olduğu ilə bağlı məsələləri əhatə edən 199-cu səhifədəki “Bircə dəqiqə” məşğələsinə baxa bilərsiniz.

Əgər qrup qadın və kişi qəhrəmanlar, eləcə də onları xatırlayıb hörmət göstərməyimizin səbəbləri haqqında düşünmək istəyərsə, 186-cı səhifədəki “Qadın və kişi qəhrəmanlar” məşğələsini edə bilərsiniz.

## Fəaliyyət üçün fikirlər

Məşğələni bir sessiyada aparsanız belə, gəncləri yaşlı nəslin nümayəndələri ilə danışmağa və daha yaxşı məlumatlanmağa həvəsləndirə bilərsiniz.

Sülh üçün çalışmış qəhrəmanı xatırlamaq məqsədilə tədbir keçirin. Bu, musiqi və rəqsli festival, sərgi və ya xatırlamaq üçün kollektiv abidə tikdiyiniz “mərasim” ola bilər. Hadisəni elan edin və insanlardan onlar üçün xatırlamanı təcəssüm etdirən əşya ilə töhfə verməyi xahiş edin. Bu, istənilən əşya ola bilər, məsələn, ağ lalə, müharibədə itirdiyiniz qohumunuzun şəkli və ya ölkənizə gəlib sığınacaq istəmiş şəxsin geyindiyi ayaqqabılar.

## Əlavə məlumat

“Etiket buludu” və ya “söz buludu” (və ya vizual dizaynda “ölçülmüş siyahı”) “etiketlər” və ya açar sözlərin vizual təsviridir. Adətən, sözlər əlifba sırası ilə düzülür və etiketin əhəmiyyəti şriftin rəngi və ya ölçüsü ilə göstərilir; beləliklə, etiket buludu kreativ qrafik sayıla bilər. Bu fikirin yarandığı İnternetdə etiketlər adətən etiketlə bağlı məlumatlar toplusuna aparan hiperlinklər kimi verilir.

Növbəti səhifədə etiketlərin necə görünə biləcəyini göstərən nümunə verilmişdir.

## Paylanmalı materiallar

**Təlimatlar**

- Vərəqin ortasında solğun xətt çəkin.
- Mənfi assosiasiyalar mərkəzi xəttin sol tərəfinə yazılmalıdır; daha mənfi olan assosiasiyalar kağızın sol küncünə daha yaxın yazılmalıdır.
- Müsbət hislər kağızın sağ tərəfində yazılmalıdır; daha müsbət hislər kağızın sağ küncünə daha yaxın yazılmalıdır.
- Abidənin oyatdığı hislər güclü olduqda onlar zəif şəkildə özünü göstərən hislərlə müqayisədə daha böyük hərflərlə yazılmalıdır.

## Etiket vərəqinin nümunəsi



KİV

Sülh və Zorakılıq

Təhsil

3-cü səviyyə

4 - 30

90 dəqiqə

# Mənim həyatım tamaşa deyil!

*Çubuqlar və daşlar mənim sümüklərimi sındıra bilər – və sözlər də məni incidə bilər!1*

**Mövzular**
- KİV
- Sülh və Təhlükəsizlik
- Təhsil

**Mürəkkəblik** 3-cü səviyyə

**Qrup ölçüsü** 4 - 30

**Qrup ölçüsü** 90 dəqiqə

**Xülasə** Bu məşğələnin məqsədi iştiakçıların ümumilikdə informasiya kommuni kasiya texnologiyalarının (İKT) sui-istifadəsi, xüsusilə kiber xuliqanlıq üzrə məlumatlılığını inkişaf etdirməkdir.

**Əlaqədar hüquqlar**
- Fikir, düşüncə və ifadə azadlığı
- Şəxsi həyat, ailə həyatı, şəxsi mülk və yazışmalara müdaxilə olunmaması hüququ
- İnsani olmayan və alçaldıcı rəftara məruz qalmamaq hüququ

**Məqsədlər**
- Mobil telefonlar və İnternetin sui-istifadəsi ilə bağlı məlumatlılığı genişləndirmək
- Kreativ düşünmək və “kiber cinayətlər”ə qarşı mübarizə aparmaq yolları tapmaq bacarıqlarını inkişaf etdirmək
- Şəfqət və həmrəyliyi aşılamaq

**Materiallar**
- Flipçartlar və qələmlər
- Bəyanatlar siyahısı
- Döşəmə boyunca uzun xətt çəkmək üçün skoç və ya ip

**Hazırlıq** Fasilitator üçün məsləhətləri oxuyun, kiber-xuliqanlığın nə olduğu, necə aparıldığı və onunla mübarizə yolları haqqında geniş məlumata malik olun. Ölkənizdə kiber-xuliqanlıq haqqında qanunlar barəsində ümumi fikirə malik olmaq üçün tədqiqat aparın.

## Təlimatlar

1. Xuliqanlıq haqqında beyin fırtınası sessiyası ilə başlayın. İştirakçılara xuliqanlığın nə olduğu və özünü necə göstərdiyi haqqında düşünmələri üçün bir neçə dəqiqə verin. Daha sonra, cavabları toplayın və onları flipçartda yazın.
2. Eyni tapşırığı təmiz flipçart vərəqində bu dəfə kiber-xuliqanlığın nə olduğu və onun formaları barəsində düşünməklə edin.
3. Döşəmədə skoç və ya iplə “bəli xətti” adlandırdığınız xətt çəkin. İştirakçılardan “bəli xətti”nin hər iki tərəfində düz xətt şəklində düzülməyi xahiş edin.
4. Onlara kiber-xuliqanlıq barəsində bəyanatlar oxuyacağınızı və bu bəyanatlara sözlərdən istifadə etmədən cavab verməli olduqlarını izah edin. Əgər onlar bəyanata “bəli” cavabını verirlərsə, “bəli xətti” istiqamətində addım atmalıdırlar. Onlar dürüst şəkildə cavab verməlidirlər.
5. İlk bəyanatı oxuyun. İştirakçılara düşünmək və cavab vermək üçün vaxt verin. Bundan sonra, onlardan ətrafa baxıb “bəli xətti”ndə neçə nəfər olduğuna diqqət etməyi xahiş edin.
6. İştirakçılardan başlanğıc xətlərə qayıtmağı xahiş edin və növbəti bəyanatı oxuyun.
7. Sonda, hamını dövrəyə çağırın, təhlil və qiymətləndirməyə keçin.

**“Çubuqlar və daşlar mənim sümüklərimi sındıra bilər, sözlər isə məni heç vaxt incitməyəcək”** ABŞ-da köləlik zamanı kölələrə aid edilir. Əgər sahib köləni təhqir edib ona alçaldıcı adlar desəydi, bu, onun qamçısının qəddar zərbələrindən daha yaxşı hesab edilirdi.

ƏSAS TARİX

**8 fevral**
Daha təhlükəsiz İnternet Günü

## Təhlil və qiymətləndirmə

- Bəyanatlar və iştirakçıların təcrübəsi ilə bağlı rəylərlə başlayın, daha sonra, xuliqanlığın müxtəlif növlərinə nə qədər çox rast gəlindiyi və onları aradan qaldırmağın yolları barəsində danışın.
- Bu məşğələdən əvvəl kiber-xuliqanlıq haqqında nə bilirdiniz?
- Bütün bəyanatlar kiber-xuliqanlıq adlandırılmaq üçün kifayət qədər ciddidir? Niyə? Niyə yox?
- Kiber-xuliqanlığın qeyd edilməyən başqa növləri var?
- Kiber-xuliqanlığa sizin icmanızda və ölkənizdə nə qədər tez-tez rast gəlinir?
- Kiber-xuliqanlıq hansı insan hüquqlarını pozur?
- Niyə insanlar xuliqanlıq edirlər? Niyə insanlar qurbana çevrilirlər?
- Niyə qurbana çevrilmiş insanlar özləri digərlərinə qarşı xuliqanlıq edirlər?
- Kiber-xuliqanlığı dayandırmaq üçün nə edilə bilər? Qurban tərəfindən? Digərləri tərəfindən?
- Özünüzü kiber-xuliqanlıqdan qorumaq üçün nə edə bilərsiniz?
- İnsanlara qarşı xuliqanlıq olunduqda hansı insan hüquqları pozulur?
- ÜİHB-in 19-cu maddəsində qeyd olunur, "Hər bir insan əqidə azadlığı və onu sərbəst ifadə etmək azadlığı hüququna malikdir: bu hüquqa maneəsiz olaraq öz əqidəsində qalmaq azadlığı və istənilən vasitələrlə və dövlət sərhədlərindən asılı olmayaraq, informasiya və ideyalar axtarmaq, almaq və yaymaq azadlığı daxildir."
- Söz azadlığına məhdudiyyət qoyulmalıdır? Əgər belədirsə, nəticələr hansılardır və məhdudiyyətlər kim tərəfindən müəyyən edilməlidir? Əgər söz azadlığı məhdudlaşdırılmamalıdırsa, nəticələr hansılardır?

## Fasilitator üçün məsləhətlər

Xuliqanlıq və kiber-xuliqanlıq həssas məsələlərdir və bəzi iştirakçılar pis təcrübələrini xatırlayanda emosional ola bilərlər. Xuliqanlıq qurbanı olan insanlar özlərini günahkar hiss edir və utanırlar; onlar özlərini qurban kimi görmürlər və onlara qarşı xuliqanlıq edən şəxslər bunu niyə etdiklərini tam şəkildə başa düşmürlər. Beləliklə, kiber-xuliqanlıq mövzusunu müzakirə etməmişdən əvvəl özünüzü yaxşı hazırlayın və sizə kömək olmaq üçün bu sahədə təcrübəsi olan mütəxəssisi çağırmaq barədə düşünün.

Xuliqanlığa cavab verməyin nümunələrinə daxildir:

- Hədələyici və ya təhqiramiz mesajlara cavab verməyin
- Elektron məktub ünvanlarını qara siyahıya salın
- Elektron məktub ünvanınızı dəyişin
- İnternet xidmət təminatçınızı (ISP) dəyişin
- Mobil telefon hesabınızı dəyişin
- Təhqir mesajlarını sübut kimi saxlayın
- Problemi etibar etdiyiniz bir şəxslə bölüşün. Uşaqsınızsa, müəyyən mərhələdə böyüklərə müraciət etməli olacaqsınız.
- Bəzi şərtlər daxilində, siz xuliqan ilə üz-üzə gələ bilərsiniz. Vasitəçi ilə görüş təşkil edin və ona hərəkətinin nəticələrini başa düşməyə kömək edin.
- Bəzi hallarda, yerli polis departamentinə məlumat vermək və ya vəkillə məsləhətləşmək lazımdır.

Nəzərə alın ki, sizin qarşılıq verməyiniz, yəni xuliqanlıq edənə qarşı eynisini etməyiniz məsləhət görülmür, çünki bu sizə qarşı mülki və ya cinayət işi açılması ilə nəticələnə bilər.

İnsanların xuliqanlıqdan özlərini qorumaq üçün görə biləcəyi tədbirlərə daxildir:

- Kompyuterin qoşulma vaxtını məhdudlaşdırın – həmişə onlayn olmayın.
- Tanımadığınız mənbələrdən olan elektron məktubları heç vaxt açmayın.
- Müntəzəm olaraq parollarınızı dəyişin.
- Profilinizə çoxlu şəxsi məlumat qoymayın.

İştirakçıların məşğələdən öyrənəcəyi ən vacib məsələ problemlə üzləşdikdə və ya ona şahid olduqda bu barədə açıq şəkildə danışmaq və onu bölüşməkdir.

Təhsil ilk növbədə xuliqanlığın qarşısını almaq və baş verdikdə onu dayandırmaq üçün əsas vasitədir. Mexanizmlər mürəkkəbdir və hər məsələdə səbəblər fərqlənir, lakin həm qurban, həm də xuliqan həll tapmaq üçün müvafiq sosial və psixoloji aspektləri başa düşməlidirlər. Qurban olan insanlar utancaq, həssas, narahat və etibarsız olacaq, onların özünə hörməti aşağı və sosial bacarıqları zəif olacaq. Qurban kimi seçilmək üçün lazımi fiziki xüsusiyyətlərə artıq çəki, fiziki balaca olmaq, əlillik və ya başqa irqi, dini və sosial qrupa daxil olmaq aiddir. Xuliqanlıq edən insanlar özlərini daha yaxşı, daha önəmli hiss edir və başqalarını idarə edirlər. Başqaları bunu etdikdə onları populyar hesab edirlər. Xuliqanlıq həmçinin diqqət çəkmək, istədiklərini almaq və paxıllıq etdikləri şəxsləri cəzalandırmaq üçün vasitədir.

## Variantlar

Xuliqanlığın qurbanı olan insanların çoxu xuliqanlara çevrilir, buna görə də, insanları şəxsi məsuliyyət haqqında düşünməyə vadar etmək lazımdır. Bəyanatları oxuduqdan sonra, eyni bəyanatlar üzrə ikinci turu keçirdin, lakin bu dəfə məsələyə xuliqanlıq edən şəxsin perspektivindən baxın. İnsanlar "bəli xətti"nə keçmədən sırada dayanıb düşünməlidirlər. Məsələn, "Heç istifadəçinin razılığı olmadan kiminsə elektron məktub qutusunu açmısınız?" və "Heç razılıq olmadan kiminsə mobil telefonundan istifadə etmisiniz?"

Əgər xuliqanlıq artıq müəyyən edilmiş problemdirsə, onu daha dərindən araşdıra bilərsiniz. Forum teatrı xuliqanlığın səbəbləri və onu aşkarlamağın yolları haqqında anlayışı inkişaf etdirmək üçün yaxşı yoldur. İştirakçılardan kiçik qruplara ayrılıb xuliqanlıqla bağlı real həyat hadisələri haqqında danışmağı xahiş edin. Bu, onların başına gəlmiş hadisə və ya tanıdıqları kiminsə təcrübəsi ola bilər. Hər qrup üzərində işləmək istədiyi bir nümunəni seçməlidir. İştirakçılar xuliqanın davranışının səbəblərini, xuliqanlığın əslində necə baş verdiyini, daha sonra nə olduğunu və hansı nəticələrin ortaya çıxdığını təsəvvür etməyə çalışmalıdırlar. Bundan sonra, qruplar öz işlərini yerdə qalan iştirakçılara nümayiş etdirmək üçün qısa tamaşa kimi hazırlamalıdırlar. Tamaşadan sonra, "nəticədə nə baş verdi" sualına cavab verən son səhnəni yenidən oynadın və "tamaşaçılar"dan qurbanın ata biləcəyi alternativ addımlar barəsində təkliflər irəli sürməyi xahiş edin.

## Sonrakı fəaliyyət üçün təkliflər

Kiber-xuliqanlıq əleyhinə kampaniya üzrə şüar hazırlayın. Məktəbiniz və ya klubunuz üçün kiber-xuliqanlıq əleyhinə siyasət hazırlayın və ya belə siyasət varsa, onu nəzərdən keçirin.

317-ci səhifədəki "Mənim həyatımdakı zorakılıq" məşğələsi ilə zorakılığın digər aspektlərini araşdıra bilərsiniz.

## Fəaliyyət üçün fikirlər

Yuxarıda ikinci dəyişiklikdəki fikirlərdən istifadə edin, tamaşanı digər siniflərə, gənclər qrupları və valideynlərə göstərin.

Məktəbinizdə və ya klubunuzda mövzu üzrə ictimai debat təşkil edin, çünki əksər müəllimlər və valideynlər nə baş verdiyindən xəbərsizdir.

İKT-nin sui-istifadəsi və riskləri barəsində yerli məlumat kampaniyası tapın və ona necə töhfə verə biləcəyinizi öyrənin.

## Əlavə məlumat

Kiber-xuliqanlıq elektron məktub, tez-tez mesaj yazmaq, çat otaqları, xəbərlər, mobil telefonlar və ya digər texnoloji vasitələrdən məqsədli şəkildə kimisə qorxutmaq, hədələmək və ya narahat etmək üçün istifadədir. Buraya aşağıdakılar daxil ola bilər:

- Hədələmək
- Provokativ, irqi və etnik təhqirlər göndərmək
- Qeylərə qarşı hücumlar
- Qurbanın kompyuterini virusla yoluxdurmaq cəhdi
- Elektron məktub qutusunu mənasız mesajlarla doldurmaq
- Şəxsə və ya onun reputasiyasına xələl gətirmək məqsədilə onun barəsində yanlış məlumat yaymaq və paylaşmaq
- Kimisə təkləmək, digərlərini ona hücum etməyə və ələ salmağa dəvət etmək
- Özünü başqası kimi təqdim edərək onların adından özləri haqqında yanlış və ya inanmadıqları fikirlər səsləndirmək
- Şəxsin icazəsi olmadan, onun şəkillərini, xüsusilə utandırıcı şəkilləri paylaşmaq
- Yazanın icazəsi olmadan elektron məktubları paylaşmaq
- Kimisə cəmiyyətdən təcrid etmək üçün digərlərinə təzyiq etmək (onlayn və ya oflayn).
- Davamlı şəkildə kiməsə ədəbsiz, layiqsiz və təhqiramiz mesajlar göndərmək.

Kiber-xuliqanlıq tez-tez uşaqlar tərəfindən edilir, lakin heç bir halda uşaqlarla məhdudlaşmır.

Kiber-xuliqanlığa qarşı mübarizədə ən böyük problemlərdən biri xuliqanın anonim olması və onun izini tapmağın çətinliyidir.

İnternetdə kiber-xuliqanlığı aşkarlamaq üçün çoxlu saytlar var. Yerli təşəbbüsləri tapmaq üçün axtarış motorundan istifadə edin. Aşağıdakı vebsaytlarda ümumi məlumat tapıla bilər:

http://www.stopcyberbullying.org/
http://yp.direct.gov.uk/cyberbullying/
http://europa.eu/legislation_summaries

**Kiber cinayət üzrə Avropa Şurasının Konvensiyası**

1 iyul 2004-cü ildə qüvvəyə minmiş Konvensiya İnternet və digər kompyuter şəbəkələri vasitəsilə törədilən cinayətlər üzrə ilk beynəlxalq müqavilə olmaqla, xüsusilə, müəlliflik hüquqlarının pozulması, kompyuter əsaslı saxtakarlıq, uşaq pornoqrafiyası və şəbəkə təhlükəsizliyinin pozuntularına qarşı yönəlmişdir.

Burada, həmçinin, kompyuter şəbəkələrinin axtarışı və nəzarətə alınması kimi səlahiyyətlər və prosedurlar əks olunmuşdur. http://conventions.coe.int linkinə baxın və 185 nömrəli müqaviləni axtarın.

## Bəyanatlar

- Nə vaxtsa kimsə sizin razılığınız olmadan elektron məktub qutunuzu açıb?
- Nə vaxtsa kimsə sizin razılığınız olmadan mətn (SMS) mesajınızı oxuyub?
- Nə vaxtsa kimsə sizə mobil telefon və ya elektron məktub vasitəsilə təhqiramiz mesajlar, ədəbsiz şəkil və videolar göndərib?
- Nə vaxtsa kimsə sizin razılığınız olmadan məlumatınızı/ şəkillərinizi/ videolarınızı başqa kiməsə göndərib?
- Nə vaxtsa kimsə sizin razılığınız olmadan şəkillərinizi və ya məlumatınızı vebsaytda və ya sosial şəbəkədə paylaşıb?
- Nə vaxtsa kimsə sizin razılığınız olmadan şəkillərinizi və ya videolarınızı manipulyasiya edib/ dəyişdirib?
- Nə vaxtsa parollarınızı başqasına vermisiniz?
- Nə vaxtsa kimsə sizi interaktiv oyun və ya çat otağında təhqir edib?
- Nə vaxtsa sizə narahat edən/ ədəbsiz telefon zəngləri gəlib?
- Nə vaxtsa kimsə bloqunuzda/ sosial şəbəkələrdə uyğun olmayan rəylər yazıb?
- Nə vaxtsa kimsə sizin barənizdə elektron məktub və ya SMS vasitəsilə yanlış/ ədəbsiz məlumat/ şayiələr yayıb?
- Kiber-xuliqanlıq qurbanı olan tanışınız var?
- Bu zorakılıqla bağlı xüsusi qanunlar olduğundan xəbərdarsınız?
- Sizin fikrinizcə, insanların İnternetdə nəyi yerləşdirə bildiyinə məhdudiyyət qoyulmalıdır?
- Məktəblərdə mobil telefonların qadağan olunması düzgündür?

Vətəndaşlıq və İştirak

Demokratiya

Mədəniyyət və İdman

3-cü səviyyə

12 - 30

120 dəqiqə

# Nərdivanda

*Vətəndaşlar olaraq, bizim müdaxilə etmək və cəlb olunmaq öhdəliyimiz var – dəyişiklikləri həyata keçirən məhz vətəndaşlardır*

*Joze Saramaqo*

| | |
|---|---|
| Mövzular | • Vətəndaşlıq və İştirak<br>• Demokratiya<br>• Mədəniyyət və İdman |
| **Qrup ölçüsü** | 12 - 30 |
| **Mürəkkəblik** | 3-cü səviyyə |
| **Vaxt** | 120 dəqiqə |
| **Xülasə** | Bu məşğələ rol oyunu və müzakirəni əhatə edir. İştirakçılar gənclərin iştirakı barəsində öyrənib özlərinin yerli icmada iştirakını artırmağın yollarını müzakirə edəcəklər |
| **Əlaqədar hüquqlar** | • İdarəçilikdə və azad seçkilərdə iştirak etmək hüququ<br>• Mədəni həyatda iştirak etmək hüququ<br>• Fikir və məlumat azadlığı |
| **Məqsədlər** | • Gənclərin iştirak etmək vasitələrini və onun qarşısını alan və ya asanlaşdıran faktorlar barəsində öyrənmək<br>• Əməkdaşlıq, təşkilati və digərləri ilə birgə addım atmaq bacarıqlarını inkişaf etdirmək<br>• Öz fəaliyyətinə görə məsuliyyət hissini aşılamaq |
| **Materiallar** | • “İştirak Nərdivanı” materialı (həmçinin, www.coe.int/compass linkindən 5-ci fəsildəki Vətəndaşlıq və İştirak üzrə məlumata baxın)<br>• Böyük vərəq, marker, qələm və qayçı<br>• “Stikerlər” və ya divara yapışdırmaq üçün kiçik kağızlar<br>• Divar |
| **Hazırlıq** | • Hər kiçik qrup üçün materialın surətini çıxardın<br>• 6 işarə düzəldin: maneələr, nəzarətdədir, nəzarətdə deyil, imkan verən faktorlar, nəzarətdədir, nəzarətdə deyil |

## Təlimatlar

**1-ci hissə**. İştirak nərdivanı nədir? (45 dəqiqə)

1. İştirakçılardan “gənclərin iştirakı” dedikdə nə başa düşdüklərini soruşun.
2. İştirak nərdivanı diaqramını paylayın və iştirakçılara onun iştirak barədə düşünməyin müxtəlif yollarından birini göstərən model olduğunu izah edin. Müxtəlif səviyyələri qısaca müzakirə edin.
3. Qrupu 8 kiçik qrupa ayırın. Hər iştirak səviyyəsini bir qrupa tapşırın və onlardan müvafiq iştirak səviyyəsi barəsində 2-3 dəqiqəlik qısa rol oyunu hazırlayıb nümayiş etdirməyi xahiş edin.
4. Qruplar hazır olduqda onları sıra ilə rol oyunlarını nümayiş etdirməyə dəvət edin. İştirakçılar istəsələr, müxtəlif rol oyunları arasında suallar və rəylər üçün vaxt ayırın.

**2-ci hissə.** Necə iştirak etməli?

5. İştirakçılardan 5 dəqiqə ərzində fərdi şəkildə işləyib 8 səviyyə üzrə həyatlarında baş verən hadisələrə dair nümunələr tapmağı xahiş edin. Həyatlarının bütün aspektlərində nə baş verdiyi barədə düşünməyə dəvət edin: evdə, məktəbdə, klublarda, işdə, ailədə və dostlar arasında.
6. Daha sonra, iştirakçılardan 4-5 nəfərlik kiçik qruplarda nümunələrini bölüşməyi xahiş edin. Nümunələri müzakirə edərkən, iştirakçılar maneələr (onların nərdivanda

irəliləməsinə mane olan faktorlar) və imkan verən faktorlar (nərdivanda irəliləməyə təkan verən faktorlar) irəli sürməlidirlər. Onlar hər bir fikiri ayrıca "stikerdə" yazmalıdırlar.

7. Qruplar müzakirəni davam etdirərkən hazırlanmış "maneələr" və "imkan verən faktorlar" başlıqlarını divarda bir-birindən 2 metr aralıda yapışdırın. Bundan sonra, qrupları ümumi sessiyaya toplayın və kağızlarını başlıqların aşağısında yapışdırmağı xahiş edin.
8. İki siyahını iştirakçılarla nəzərdən keçirin. İstənilən anlaşılmaz bəyanatı aydınlaşdırın və iştirakçılar arasında bəyanatların yeri ilə bağlı istənilən narazılığı həll edin.
9. İndi isə "nəzarətdədir" və "nəzarətdə deyil" başlıqlarını divarda əvvəlki başlıqların aşağısına yapışdırın və iştirakçılardan hər iki siyahıdakı bəyanatları həmin başlıqlar üzrə alt siyahılara ayırmağı xahiş edin, belə ki, iştirakçıların nəzarəti altında olan (və ya ola biləcək) məsələlər bir siyahıda, xarici faktorlarla bağlı və iştirakçıların nəzarəti altında olmayan məsələlər digər siyahıda əks olunmalıdır.
10. Nəhayət, dörd siyahıdakı kağızları nəzərdən keçirin. Bundan sonra, təhlil və qiymətləndirməyə keçin.

## Təhlil və qiymətləndirmə

- Məşğələ sizə həyatınızın müxtəlif sahələrindəki iştirakınızla bağlı daha aydın düşünməyə kömək etdi? Sizi ən çox təəccübləndirən nə oldu?
- Sizin fikrinizcə, ümumilikdə iştirakınızın səviyyəsi yuxarı yoxsa aşağıdır – məktəbinizdə, klubunuzda, icmanızda? Bunun səbəbləri hansılardır?
- Gənclərin fəal iştirak etməsinin əhəmiyyəti var? Niyə?
- Onların fikrincə, aşağı səviyyədə iştirak daha çox daxili (psixoloji) faktorlarla yoxsa xarici faktorlarla bağlıdır?
- İnsanlar həqiqətən iştirak edə bildikdə özlərini necə hiss edirlər – başqa sözlə, onların iştirakı simvolik olmadıqda?
- İştirakçılar indikindən daha yuxarı "səviyyə"də iştirak etmək istəyərlər? Əgər belədirsə, hansı sahələrdə? Bunu etmək və etməmək üçün hansı səbəblər var?
- İştirakçılar indikindən daha aşağı "səviyyə"də iştirak etmək istəyərlər? Əgər belədirsə, hansı sahələrdə? Bunu etmək və etməmək üçün hansı səbəblər var?
- Neçə nəfər iştirakçı indikindən daha çox iştirak edə biləcəyini və neçə nəfər bunu edəcəyini düşünür? Əgər belədirsə, harada və necə?
- Qərar vermə prosesində iştirak etmək hüququ insan hüquqları sənədlərində necə təmin olunub?

## Fasilitator üçün məsləhətlər

2-ci hissədə iştirakçıları iştirak etməyin mümkün qədər çox yolunu irəli sürməyə həvəsləndirin. Fikir əldə etmək üçün www.coe.int/compass linkindən Vətəndaşlıq və İştirak bölməsinə baxın.

İştirak nərdivanını təqdim edərkən modelin "ən yüksək" səviyyədə olmağı ən yaxşı hal kimi nəzərdə tutmadığını qeyd edin. Müxtəlif hallarda və insanların təcrübəsi, vaxtın imkan verməsi və ya maraq səviyyəsindən asılı olaraq fərqli səviyyələrdə iştirak, məsələn, məsləhətçi və ya nümayəndə kimi iştirak daha uyğun ola bilər. Bəzi hallarda sadəcə məsləhət verməkdə (və ya sadəcə məlumatlı olmaqda) heç bir "mənfi" cəhət yoxdur. Buna baxmayaraq, ilk üç səviyyə - manipulyasiya, dekorasiya və simvoliklik qəbul olunmur və bu səviyyələrdə cəlb olunma minimal olduğundan və nəzərə çarpmadığından onlar "iştirak" sayıla bilməz. Siz məsələnin bu tərəfini vurğulamalı və heç kimin bu haqda şübhəli qalmadığına əmin olmalısınız.

ƏSAS TARİX

**28 sentyabr**
Bilmək hüququ Günü

Qrup imkan verən faktorlar və maneələr haqqında düşünərkən onlara mümkün qədər çox bəyanatı “nəzarətdədir” kateqoriyasına qoymağa kömək edin. Siz bir neçə nümunə verə və onlara “maneələr”in psixoloji, eləcə də fiziki və struktur ola biləcəyini xatırlada bilərsiniz. Müzakirələr zamanı, iştirakçıları maneələrlə bağlı həll yolları tapmağa həvəsləndirin, məsələn, əgər onlara “səlahiyyətli orqanın (klub və ya kollecdə müəllimlər və ya idarə heyətinin) icazə vermədiyini” iddia edirlərsə, bu barədə həmin orqana müraciət edib-etmədiklərini soruşun!

Əgər onlar, “Biz bunu edə biləcəyimizi düşünmürük” deyirlərsə, onlardan bunu edə biləcəklərini necə sübut edə biləcəklərini soruşun!

Əgər onlar, “Bu, yalnız mənim valideynlərimi/ müəllimlərimi/ yerli səlahiyyətli orqanı qəzəbləndirəcəkdir”, deyirlərsə, müraciət edilən şəxsin reaksiyasını dəyişmək üçün problemi daha fərqli şəkildə necə təqdim edə biləcəklərini soruşun.

Siz bu məşğələdən iştirakçıların ümumilikdə dərslərdə və klubun fəaliyyətində necə iştirak etdiyi barədə danışmaq üçün imkan kimi istifadə edə bilərsiniz. Tərəfinizdən və ya onlar tərəfindən daha geniş iştirakı təşviq etmək və təşəbbüslər göstərmək yollarını araşdıra bilərsiniz.

Qrupun bəzi üzvlərinin digərləri üçün maneələr yaratdığını və onların daha dərindən iştirakının qarşısını aldığını müzakirə etmək yaşıdların təzyiqi və xuliqanlıq mövzularını araşdırmaq üçün istifadə oluna bilər.

## Variantlar

Siz başlanğıcdakı rol oyunlarından gənclərin öz həyatlarında baş verən halları xatırlaması yerinə maneələr və imkan verən faktorları araşdırmaq üçün istifadə edə bilərsiniz. Hər nümayişdən sonra, Forum Teatrı metodundan (1-ci fəsil, 67-ci səhifəyə baxın) istifadə edin və iştirakçılardan fərqli şəkildə addım atmağı xahiş edin. Bu yolla, onlar öz həyatlarında bənzər hallar baş verdikdə onların fəal iştirakına maneə törədən faktorlarla üzləşməyin yollarını axtarıb tapa biləcəklər. .

## Sonrakı fəaliyyət üçün təkliflər

Qrupa məsuliyyət hissini aşılamaq, etdikləri və öyrəndikləri məsələlər üzərində nəzarət vermək istəyirsinizsə, onlarla birlikdə fəaliyyət planını hazırlayın.

110-cu səhifədəki “Diqqətli ol, biz baxırıq” məşğələsi şəxsi iştirak və məsuliyyəti təbliğ edir, eləcə də hərəkatda iştirak etməyin müxtəlif yollarını göstərir.

## Fəaliyyət üçün fikirlər

Qrupdan yerli icmalarında dəyişmək istədikləri məsələlərin siyahısını tərtib etməsini xahiş edin. Daha sonra, onları həmin siyahıdan dəyişməsinə təsir edə biləcəklərinə inandıqları bir və ya iki məsələni müəyyən etməyə və səslərini necə eşitdirə biləcəkləri və ya dəyişikliyə başqa hansı yolla töhfə verə biləcəkləri barədə düşünməyə dəvət edin. Bundan sonra, iştirakçıları həmin fikirləri həyata keçirməyə həvəsləndirin!

## Əlavə məlumat

Gənclərin iştirakı gənclərin öz icmalarında fəal iştirakını nəzərdə tutur və gənclərin tarixən cəlb olunmadığı istənilən sahədə planlaşdırma və qərar vermədə gənclərin yüksək səviyyədə iştirakına şamil edilir; məsələn, buraya idman, məktəb, klub, assosiasiya və yerli icma ilə bağlı tədbirlər daxil edilə bilər. Bu cür iştirak zamanı gənclər mövcud ehtiyacları ödəyən və təsiri yaxud nəticəsi gənclərdən başqa digərlərində də özünü göstərən bəzi tədbirlərin təşkilinə cəlb olunurlar.

www.coe.int/youth/haveyoursay

Avropa Şurasının Gənclərin Yerli və Regional Həyatda İştirakına dair yenilənmiş Avropa Xartiyası üzrə “Fikrini bildir” başlıqlı təlimat vəsaiti vardır. Bu vəsait gənclərin iştirakı üzrə mükəmməl resursdur və məşğələlər üzrə ayrıca bölməsi vardır.

Gənclər üzrə Məşvərətçi Şura

Avropa Gənclər Forumu: www.youthforum.org

Avropada gənclərin iştirakı və təmsil olunmanın birləşdirilmiş ənənəsi vardır. Məsələn, Avropa Şurasının gənclərin daha geniş səviyyədə iştirakını təşviq etmək öhdəliyi onun gənclər sektorunda birgə idarəçilik sistemi vasitəsilə həyata keçirilir. Gənclər üzrə Məşvərət Şurası gənclərin beynəlxalq qeyri-hökumət təşkilatları və milli gənclər şuralarından 30 nəfər nümayəndəni bir araya gətirir. Bu nümayəndələr Avropa Gənclərə Rəhbərlik Komitəsindəki hökumətin gənc məmurları ilə birlikdə prioritetlər və proqramlarla bağlı qərar verir, gələcək siyasət və proqramlar üzrə məsləhətlər təqdim edirlər. Məşvərət Şurası, eyni zamanda, Avropa Şurası daxilindəki gənclərlə bağlı istənilən məsələ üzrə fikir və təkliflər hazırlayır.

Avropa Gənclər Forumu müstəqil, demokratik, gənclər tərəfindən rəhbərlik edilən platforma olmaqla 100 Milli Gənclər Şurası və Beynəlxalq Gənclər Təşkilatlarını təmsil edir. Bu Forum gənclərin ehtiyacları və maraqlarını Avropa İnstitutları, Avropa Şurası və BMT qarşısında təmsil və müdafiə edərək gənclərin öz həyatlarını inkişaf etdirmək üçün cəmiyyətdə fəal iştirakını təmin etmək istiqamətində çalışır. Forum “iştirak mədəniyyəti”nin yaradıla biləcəyinə inanır. Bu, o deməkdir ki, gənclər siyasətinin gündəliyi gənclərin onlara təsir edən və onları narahat edən məsələlərlə bağlı qərar vermə proseslərində artan iştirakı ilə bir yerdə inkişaf etdirilməlidir.

1992-ci ildə Roger Hart “Uşaqların iştirakı simvoliklikdən vətəndaşlığa doğru” modelini hazırlamışdır (YUNISEF Innocenti Tədqiat Mərkəzi, Florensiya):

**İştirak:**

8-ci səviyyə: Birgə qərar vermə
7-ci səviyyə: Gənclər tərəfindən rəhbərlik və təşəbbüs
6-cı səviyyə: Böyüklərin təşəbbüsü, birgə qərar vermə
5-ci səviyyə: Gənclərlə məsləhətləşmə və məlumatlandırma
4-cü səviyyə: Gəncləri təyin etmə və məlumatlandırma

**İştirakın olmaması:**

3-cü səviyyə: Gənclər simvolikdir
2-ci səviyyə: Gənclər dekorasiya kimi
1-ci səviyyə: Gənclərin manipulyasiyası



Uşaqlar

Ətraf mühit

Sağlamlıq

2-ci səviyyə

6+ (3-4 nəfərlik kiçik qruplar)

60 dəqiqə

# Bizim gələcəyimiz

*İnkişafın göstəricisi çoxa malik olanlara nə qədər əlavə etməyimiz deyil, aza malik olanlara kifayət qədər təmin etməyimizdir.*

Franklin D. Ruzvelt

**Mövzular**
- Uşaqlar
- Ətraf mühit
- Sağlamlıq

**Mürəkkəblik** 2-ci səviyyə

**Qrup ölçüsü** 6+ (3-4 nəfərlik kiçik qruplar)

**Vaxt** 60 dəqiqə

**Xülasə** Bu məşğələdə iştirakçılar öz nəsillərinin gələcəyi ilə bağlı ümidlərinin və qayğılarının şəklini çəkir, inkişaf etdirir və müzakirə edirlər.
Əhatə olunan məsələlər arasında aşağıdakılar vardır:
- Gələcək nəsillərə təsir edən ətraf mühit məsələləri
- Yerli inkişafın əhalinin ehtiyaclarını qarşılıyıb-qarşılamaması
- İnkişafın aparıcı qüvvələri

**Əlaqədar hüquqlar**
- Fikir və məlumata çıxış hüququ
- Uşaqların maraqları ilə bağlı bütün məsələlərdə eşidilmək hüququ
- Layiqli həyat şəraiti hüququ

**Məqsədlər**
- Cəmiyyət həyatı, hüquq və öhdəliklərin başa düşülməsini inkişaf etdirmək
- Açıq şəkildə müzakirə, komanda işi və gələcəyə baxış bacarıqlarını məşq etdirmək
- Gələcəyin hər bir gəncin öz əlində olduğu və onların etdiklərinin əhəmiyyət daşıdığı ilə bağlı marağı və inamı təbliğ etmək.

**Materiallar**
- Layihələr üçün vərəq
- Yekun dizayn üçün böyük vərəqlər
- Boyalar, fırçalar, qələmlər, karandaşlar və markerlər
- Kollaj üçün materiallar, məsələn, rəngli kağız, jurnallar, çubuqlar, düyü, lobya, quru yarpaqlar, balıqqulağı və içmə çubuqları
- Qayçı
- Yapışqan və skoç
- Qonşuluq/şəhərin on və ya iyirmi il əvvəl necə göründüyünün rəsmləri və ya foto şəkilləri (istəyə görə)
- Yaşadığınız yerin xəritələri, həm köhnə, həm də yeni xəritələr (istəyə görə)

## Təlimatlar

1. Zamanla dəyişiklik anlayışını təqdim edin. İştirakçılardan daha gənc olduqları vaxt onların evləri və yerli küçələrin necə göründüyünü xatırlamağı və onların necə dəyişdiyi barəsində düşünməyi xahiş edin. Sizin görüşün keçirildiyi məktəbin və ya mərkəzin otaqlarından hər hansı biri yenidən dekorasiya olunub yaxud oraya yeni mebellər gətirilib? Qonşuluqda yeni tikililər var, məsələn, ticarət mərkəzləri, evlər, yollar, oyun parkları və ya velosiped yolları?
2. İştirakçılardan yuxarıda qeyd olunanların niyə dəyişdiyini, onların yenilənməsi ilə bağlı

qərarın kim tərəfindən verildiyini və əslində kim tərəfindən verilməli olduğunu soruşun. Məsələn, hər hansı ev sxemi yerli əhali üçün ehtiyac duyulan, aşağı qiymətə evləri təmin edib yoxsa maliyyə şirkəti tərəfindən investisiya kimi tikilən lüks mənzil və ya tətil evi olub?

3. Qısa şəkildə, bir və ya iki nümunəni müzakirə edin: inkişafdan kim faydalanıb və necə? Əgər nəzarət onların əlində olsa idi, nə edərdilər?
4. İndi isə digər insanlar və insan hüquqlarına təsir edən qərarların qəbul edilməsi arasında əlaqələri qurun. İnsanların fikrincə, insan hüquqları qərar vermə üçün faydalı çərçivə təşkil edir? Gələcəkdə qərar verənlər üçün insan hüquqları daha çox yoxsa daha az əhəmiyyət daşıyacaqdır? Niyə?
5. Qrupa onlara indi imkan verildiyini deyin! Hazırki anda onlar məskunlaşa biləcəkləri gələcək barəsində düşünmək – ona təsir etmək – şansına malikdirlər.
6. İştirakçılardan üç – dörd nəfərlik qruplara ayrılmağı xahiş edin.
7. Vərəq və qələmləri paylayın və onlardan gələcək üçün ideal qonşuluq/şəhərlə bağlı fikirlərini çertyoj və ya layihə şəklində çəkməyi xahiş edin. Onlar müstəqil şəkildə işləyirlər. Yeganə məhdudiyyət onların öz təxəyyülüdür.
8. Hər qrup layihə planını razılaşdırdıqdan sonra, onu böyük kağıza köçürməli, boya və kollaj materialları ilə tamamlamalıdırlar.
9. İş tamamlandıqdan sonra, hər qrupdan sıra ilə planlarını təqdim etməyi, müvafiq fikirləri haradan əldə etdiklərini və necə inkişaf etdirdiklərini deməyi xahiş edin. Hər təqdimatdan sonra, qısa suallar və cavablar üçün vaxt ayırın, lakin ümumi müzakirəni təhlilə saxlayın.

## Təhlil və qiymətləndirmə

İştirakçıların qrup işini nəzərdən keçirməklə başlayın. Daha sonra, planların insanların sağlam həyat mühiti ehtiyaclarını qarşılayıb – qarşılamadığı barəsində danışın.

- Hər kəs işdə iştirak edib töhfə verə bildiyini hiss etdi? Ayrı-ayrı kiçik qruplar üzvlərin fərdi bacarıqlarından tam şəkildə necə istifadə etdilər?
- Planları barəsində rəyləri eşitmək necə hiss idi?
- Planlarla bağlı rəy bildirmək necə hiss idi?
- Əgər onlar sinif və ya qrupdakı hamının ehtiyaclarını və arzularını əks etdirən vahid sinif və ya qrup planı hazırlamalı olsa idilər, ideallarının bəzilərindən imtina edərdilər?
- Planlarda ətraf mühitin qorunması nəzərə alınıb, məsələn, karbon dioksid emissiyasının azaldılması, bərpa olunan və dayanıqlı resurslardan istifadə, təkrar emal?
- İştirakçılar “gələcəyin memarları” olmaqdan həzz aldılar? Onlar bu idealların gerçəkləşəcəyinə inanırlar? Niyə? Niyə yox?
- Onlar böyüklərin bu planları müzakirə etməyə hazır olacağına inanırlar? Niyə? Niyə yox? Planlarda ən təəccübləndirici məqam nə oldu?
- Gələcəkdə vətəndaş kimi onların hüquqları hansılar olacaq?
- Gələcəkdə vətəndaş kimi onların öhdəlikləri nələr olacaq?
- Sizin məktəbinizdə (klubunuzda və ya icmanızda) birbaşa onlara təsir edən və ümumi məsələlərlə bağlı fikir bildirə bilirlər? Qərar vermə proseslərində iştirak etmək hüququ almaq üçün hansı hüquqlara iddia edə bilərlər?
- Gənclər onların həyatlarını və gələcəklərini formalaşdıran demokratik proseslərə təsir göstərmək üçün ümumilikdə hansı imkanlara malikdirlər?
- İnsanların sağlamlıq, istirahət və mədəni həyat hüquqlarını reallaşdırmaq üçün hansı yerli imkanlar təmin olunmalıdır?

## Fasilitator üçün məsləhətlər

Bu məşğələnin başlığı “Bizim gələcəyimizdir”. Bu başlıqdan istifadə olunmasında məqsəd gələcəyin əvvəldən müəyyən olunmadığını, əksinə bizim tərəfimizdən yaradıldığını göstərməkdir. Buna görə də, gələcəyin bir neçə mümkün şəkili vardır və gənclərin qarşısında duran məsələ onların idealları və arzularına uyğun gələcək qurmaqdır.

**ƏSAS TARİX**

**12 avqust**
Beynəlxalq
Gənclər Günü

Dəyişiklik anlayışını göstərmək üçün siz yerli ərazinin on və ya iyirmi il əvvəl necə göründüyünü əks etdirən foto şəkilləri nümayiş etdirə bilərsiniz. Həmçinin, onlardan qlobal dəyişikliklər barəsində düşünməyi xahiş edə bilərsiniz. Məsələn, onlar İnternetin otuz il əvvəl elmi fantastika məsələsi olduğu, lakin bir neçə il sonra dünyadakı hər məktəb və kitabxananın veblə əlaqəsinin olacağı barəsində düşünməlidirlər.

Əgər iştirakçılar gələcək şəhərin necə görünəcəyindən əmin deyillərsə, siz aşağıdakı sualları verməklə onları istiqamətləndirə bilərsiniz:

- Orada kim yaşayacaq? Orada doğulanlar yoxsa yeni gələnlər? Onlar neçə yaşında olacaqlar? Onlar ailələrdə yaşayacaqlar?
- Onların gündəlik həyatı necə olacaq? Ərzağı haradan alacaqlar? Necə səyahət edəcəklər?
- Onlar hansı rifah xidmətlərinə (xəstəxanalar, diş həkimləri və s.) ehtiyac duyacaqlar?
- Onların məktəbləri necə olacaq?
- Necə səyahət edəcəklər?
- Onların evləri necə olacaq?
- Onların sosial həyatı necə olacaq? Asudə vaxtlarında nə edəcəklər?
- Onların ev heyvanları olacaq?
- Onlar nə işlə məşğul olacaqlar?
- Hansı texnoloji yeniliklər olacaq?
- Ətraf mühit necə olacaq? Təbii şərait necə olacaq?

## Variantlar

Kollajdan istifadə etmək yerinə lazımsız materiallardan istifadə edə bilərsiniz, məsələn, karton qutular/ qablaşdırma, tualet boruları, qatlanmış kart, və ya kərpicləri qura bilərsiniz, məsələn, Leqo blokları.

Yerli ərazinin necə görünməsini istədiklərinə dair ümumi planlar qurmaq yerinə, iştirakçılar hazırda itifadə olunmayan və inkişaf etdirilməsi mümkün yerli məkanı seçə bilərlər. Qrup icmanın müxtəlif sahələrdəki ehtiyacları ilə bağlı tədqiqat aparıb yerli şuraya təqdim etmək üçün təklif hazırlaya bilər. Məkanda aparıla biləcək dəyişikliklərə aiddir: ticarət mərkəzi, asudə vaxt mərkəzi, məktəb, ev, dayanacaq, açıq yaşıl ərazi, oyun meydançası, idman meydançası, yaşlılar üçün oturacaq olan sakit qızılgül bağçası, şəhər ferması, canlı təbiət qoruğu, əyləncə parkı, səyahətçilər üçün yer və ya bovlinq meydanının qurulması. Əgər siz bunu fəaliyyət layihəsi şəklində etmək istəyirsinizsə, 3-cü fəsildən fəaliyyət layihələrinin planlaşdırılması və yerinə yetirilməsi üzrə məlumat əldə edə bilərsiniz.

## Sonrakı fəaliyyət üçün təkliflər

Siz icmanızın neft və iqlim dəyişikliyinin ən yüksək həddinə özünü necə uyğunlaşdıracağını araşdıra bilərsiniz. Keçid Şəhəri təşəbbüsü yerli insanların icmalarının bütün aspektlərini (ərzaq, enerji, nəqliyyat, sağlamlıq, ürək və ruh, iqtisadiyyat və canlılar və s.) nəzərdən keçirməsini və 15 – 20 il ərzində icma tərəfindən müəyyən olunan və yerinə yetirilən “Enerji Mənbəyi Fəaliyyət Planının” başladılması üçün kreativ vasitələr tapmasını əhatə edir. İndiyə qədər olan təşəbbüslərə aşağıdakılar daxildir: ərzaq yetişdirmək üçün ictimai bağçaların yaradılması; biznes tullantılarının mübadiləsi, bir sənayenin tullantıları ondan istifadə edən digər sənayeyə ötürülür; köhnə əşyaları atmaq yerinə onları təmir etmək, və yerli mübadilə ticarət sistemlərinin (LETS) inkişaf etdirilməsi. Dünya üzrə insanların bu anlayışı necə inkişaf etdirdikləri barəsində əlavə məlumat və nümunələr tapmaq istəyirsinizsə, www.transitiontowns.org linkinə baxın və ya axtarış motorunuza “Keçid Şəhərlər” daxil edin.

Sonrakı fəaliyyətlə bağlı digər fikir iştirakçılardan onlar üçün hansı faktorların əhəmiyyətli olduğunu göstərməkdən ötrü yaşadıqları yerin böyük ölçüdə şəxsiləşdirilmiş, fərqli, təsviri və əlavə xəritəsini çəkməyi xahiş etməkdir. Məsələn, divardakı qraffiti, yol boyunca hər hansı ağac və ya qısa yol kimi istifadə etdikləri ara küçə.

Hər hansı obyektin dəyərini göstərmək üçün ilkin addım onun mövcudluğunu qeyd etməkdir; bu yolla, onun hər hansı gələcək “inkişaf” zamanı ləğv edilməsinin qarşısını almaq olar. www.commonground.org.uk saytına və onların Administrativ Vahidlər Xəritələri layihəsinə baxın.

Resurslar və xüsusiyyətlərin yerləşməsi və bölgüsü, landşaft və əsas ərazinin istifadəsinin qeydə alınması və araşdırılması üçün digər yol Dünya Bankının kasıblıq və sosial təsir təhlillərində istifadə olunan “keçid yürüş” adlandırılan vasitədir. Bir günorta şəhər kənarına çıxıb onu sınaqdan keçirə bilərsiniz! http://web.worldbank.org saytında “keçid yürüş” haqqında məlumat əldə edə bilərsiniz.

Yerli inkişafın planlaşdırılması prosesləri və ona necə təsir etmək barədə əlavə məlumat toplayın. Şura görüşlərində iştirak etməklə və ya seçkilərdə namizədlik irəli sürməklə məktəb, klub və ya assosiasiyada qərar vermə proseslərinə cəlb olunun. Gələcək imkanları araşdırmaq üçün faydalı ola biləcək digər məşğələlər də var. Məsələn, “Bərabərlik Ölkəsinə yol” məşğələsi gender bərabərliyinə necə nail olunmasını araşdırır.

Əgər gənclərin demokratik qərar vermə proseslərinə cəlb olunması ilə bağlı başqa məşğələ etmək istəyirsinizsə - bu dəfə məktəb şuralarında iştirak etməklə necə təhsil formasına nail olmaq istədikləri barəsində - 207-ci səhifədəki “Qoy, hər bir səs eşidilsin” məşğələsinə baxın. Biz gələcəyimiz barəsində xəyallar qurarkən daha ədalətli cəmiyyət qurmaqla ilkin addım ata bilərik.

Əgər qrup xuliqanlıq məsələsini nəzərdən keçirib hamıya qarşı şəfqət və hörməti inkişaf etdirmək yollarını araşdırmaq istəyirsə, 140-cı səhifədəki “Bizim alternativlərimiz var?” məşğələsini edə bilərsiniz.

## Fəaliyyət üçün fikirlər

Kollajların sərgisini təşkil edin və yerli məclis üzvlərini baş çəkib gənclərin fikirlərini eşitməyə dəvət edin.

İcmanız üçün strategiya planlarının (illik və uzunmüddətli) nüsxələrini əldə edin. Onları qrupla təhlil edin, daha sonra, dostlarınız və ailənizlə məsləhətləşin. Bu məsələ ilə bağlı bloq yaratmaq, yerli qəzetə yazmaq, ictimai görüş təşkil etmək və ya səlahiyyətli orqanlar tərəfindən keçirilən ictimai assambleyada iştirak etməklə fikrinizi bildirin.

Yerli Gündəlik 21 və ya digər ətraf mühit qrupu ilə əlaqə qurun və dayanıqlı gələcək üçün aparılan işə cəlb olunun.

Gender

Ayrı-seçkilik və Dözümsüzlük

Təhsil

2-ci səviyyə

4+

120 dəqiqə

# Bərabərlik Ölkəsinə yol

*Maneə yoldur.*

*Zen atalar sözü*

**Mövzular**
- Gender
- Ayrı-seçklik və Dözümsüzlük
- Təhsil

**Mürəkkəblik** 2-ci səviyyə

**Qrup ölçüsü** 4+

**Vaxt** 120 dəqiqə

**Xülasə** Bu məşğələdə kiçik qrup işi, təxəyyül və rəsm çəkmək vasitəsilə gender bərabərliyi və qadınlara qarşı ayrı-seçkilik məsələləri araşdırılır.

**Əlaqədar hüquqlar**
- Cins və gender əsaslı ayrı-seçkiliyə məruz qalmamaq hüququ
- Evlənmək və ailə qurmaq hüququ
- Qanun qarşısında bərabərlik hüququ

**Məqsədlər**
- Bərabərliyin norma olduğu gələcək dünyanı təsəvvür etmək
- Ünsiyyət, təxəyyül, kreativlik və əməkdaşlıq bacarıqlarını inkişaf etdirmək
- Ədalət və hörməti təbliğ etmək

**Materiallar**
- Hər kiçik qrup üçün 2 böyük vərəq (A3 ölçüdə) və ya flipçart vərəqi
- Bütün kiçik qruplar üçün kifayət edəcək qədər müxtəlif rəngli markerlər
- Xəritə, yürüyüş xəritəsi və ya fiziki xüsusiyyətləri, məsələn, dağlar, dərələr, çaylar, meşələr, kəndlər, körpülər və digərlərini əks etdirən istənilən növ xəritə

**Hazırlıq**
- Xəritə və istifadə olunmuş simvollarla tanış olun.

## Təlimatlar

**1-ci hissə.** Problemləri müəyyən etmək və həll yolları üzrə beyin fırtınası aparmaq.

1. İştirakçılardan üç – beş nəfərlik kiçik qruplara ayrılmağı xahiş edin. Hər qrupa vərəq və qələmləri ötürün. Vərəqdə eyni enlilikdə üç şaquli sütun çəkməyi tapşırın.
2. İştirakçılara Bərabərlik Ölkəsində tam şəkildə gender bərabərliyi olduğunu xatırladın. İştirakçılardan bu ölkə ilə bağlı konkret nümunələr üzrə beyin fırtınası aparmağı xahiş edin. Qrupdan bir nəfər birinci sütunda siyahını qeyd etməlidir.
3. İndi isə iştirakçılardan hazırda həyatın necə olduğu barəsində düşünməyi, 1-ci sütunda qeyd olunmuşh ər bir sahəyə toxunmağı və gələcək Bərabərlik Ölkəsinə çatmaq üçün lazımi addımları müzakirə etməyi xahiş edin. İkinci sütunda hər sahənin qarşısında atılmalı addımlar yazılmalıdır.
4. Növbəti olaraq, iştirakçılardan Bərabərlik Ölkəsinə gedən yolda rastlaşacaqları maneələr və onların öhdəsindən necə gələcəkləri barəsində düşünməyi xahiş edin. Bunlar isə üçüncü sütunda qeyd olunmalıdır.

**2-ci hissə.** Xəritə çəkmək. 40 dəqiqə.

1. Qısa şəkildə, xəritəni nəzərdən keçirdin. Konturların necə çəkildiyini, dağlar və çayların kölgələrinin necə verildiyini, meşələr, quru torpaq, tikililər, elektrik naqilləri və digərləri üçün hansı simvollardan istifadə edildiyini göstərin.

2. İndi isə digər simvollar fikrini təqdim edin. İştirakçılardan mənəvi idealları təqdim etmək üçün səfərə çıxan şəxsin metaforasından istifadə edən xalq nağılı və ya digər hekayə bilib-bilmədiklərini soruşun. Qaranlıq meşənin şeytan metaforası kimi və ya qırmızı almanın tamahı göstərmək üçün istifadə oluna biləcəyi haqqında danışın. Səyyah sürətlə axan çay boyu üzərək mənəvi gücünü və ya çətinlikdə olan heyvana kömək etməklə təvazökarlığını nümayiş etdirə bilər.
3. Hər qrupa ikinci böyük kağızı ötürün. Hər qrupdan hazırki və gələcək landşaftları əks etdirən, aralarında yol və ya yollar olan xəritələr çəkməyi xahiş edin. Onlar səyyahın indidən Bərabərlik ölkəsinə səyahəti zamanı ona kömək edən və ya yolunu çətinləşdirən coğrafi vahidlər və maneələri göstərmək üçün öz simvollarını hazırlamalıdırlar.
4. Hamını ümumi sessiyaya toplayıb xəritələrini bölüşməyi xahiş edin

ƏSAS TARİX

**8 mart**
Beynəlxalq Qadınlar Günü
**3 noyabr**
Dünya Kişilər Günü

## Təhlil və qiymətləndirmə

Müxtəlif qrupların birgə necə işlədiyi, nəyi təqdim etmək barəsində necə qərar verdiyi və xəritəni necə çəkdiyi barəsində müzakirə ilə başlayın. Bundan sonra, Bərabərlik ölkəsinin əslində necə görünə biləcəyi və ona çatmaq üçün mövcud maneələr barəsində danışın.

- İştirakçılar məşğələdən həzz aldılar? Niyə?
- Doldurulması ən asan və ən çətin sütun hansı oldu? Niyə?
- Bərabərlik ölkəsinin əsas xüsusiyyətləri hansılar oldu?
- Gender bərabərliyi olan cəmiyyət qurmaq üçün nələr dəyişdirilməlidir?
- Ayrı-seçkiliyə məruz qalmamaq hüququ ilə əlaqədar müsbət ayrı-seçkilik siyasətləri gender bərabərliyini təbliğ etmək üçün qısamüddətli tədbirlər kimi əsaslandırıla bilər?
- Əgər öz ölkənizin kişi və qadınlara bərabər imkanların verilməsi üzrə dünya ölkələri arasında yerini müəyyən etsəydiniz, onu 1 – 10 şkalasında necə qiymətləndirərdiniz? 1 bərabərsizliyin ən yüksək həddini göstərir, 10 isə, demək olar ki, ideal bərabərliyi əks etdirir.
- Niyə qadın hüquqlarına diqqət ayırmaq vacibdir?
- Qadınlardan başqa, hansı digər qruplar sizin cəmiyyətinizdə ayrı-seçkiliyə məruz qalır? Bu, özünü necə göstərir? Hansı insan hüquqları pozulur?
- Çətin vəziyyətdə olan qruplara öz hüquqlarını tələb etmələri üçün necə səlahiyyət verilə bilər?
- Bu prosesdə təhsilin rolu nə olmalıdır?
- Bu prosesdə insan hüquqları təhsilinin rolu nə olmalıdır?

## Fasilitator üçün məsləhətlər

İştirakçıların Bərabərlik ölkəsində həyatın necə olacağı barəsində konkret nümunələr irəli sürməsini təmin edin. Qrupun öz nümunələrini təqdim etməsinə çalışın, lakin onlar çətinlik çəkərsə, siz göstərilən fikirləri təklif edə bilərsiniz: parlamentdə qadınların sayı, biznesə rəhbərlik edən qadınların sayı, gəlirdə fərqlər, kişi və qadınların gündəlik iş saatlarının miqdarı, onların asudə vaxtlarını necə keçirdiyi, ev işlərinin bölgüsü, yarım-ştat işçilərin sayı, məişət zorakılığı, məktəbdə və işdə incidilmə, kişi və qadınların KİV-dəki imici.

Simvollara olan ehtiyacı həddən artıq vurğulamayın, çünki bəzi insanlar üçün metaforalar irəli sürmək o qədər də asan deyil. Əgər iştirakçılar fikirlərini hansı çərçivədə təqdim etmək barəsində qərara gələ bilmirlərsə, siz onlara istiqamət vermək üçün təkliflər edə bilərsiniz: bir qadın hüquqşünas olmaq istəyən qadınlara qarşı qərəz çayı üzərindəki təhsil körpüsündən keçir və ya bir kişi körpələr evində işləyib balaca uşaqlara baxaraq məmnunluq mücəvhərini tapır. Əlbəttə, siz öz cəmiyyətinizdəki stereotipləşdirməni əks etdirən nümunələr barəsində düşünməli olacaqsınız.

## Variantlar

Qruplar “lazımsız” materiallardan istifadə edib landşaft modelləri qura bilərlər. Bu halda, sizin kiçik qutular, borular, çəlləklər, kağız, daşlar, qaykalar, ip və yun hissələri, kağız sancaqları və s., həmçinin, modelin bünövrəsini qurmaq üçün yapışqan və karta ehtiyacınız olacaqdır.

İndidən gələcəyə doğru xəritə çəkmək metodu iştirakçıların müstəqil surətdə düşünərək və təxəyyülərindən istifadə edərək problemlərə həll yolları tapmasını istədiyiniz əksər məsələlərə tətbiq oluna bilər.

## Sonrakı fəaliyyət üçün təkliflər

İndi və gələcəkdə gender bərabərliyi haqqında düşünən iştirakçılar məhşur qadınları “nəzərdən keçirmək” üçün “Vaxt şkalası” məşğələsindəki metoddan istifadə edə bilərlər; onları gender bərabərliyi anlayışı və təcrübəsinin tarix boyu necə dəyişdiyini araşdırmağa həvəsləndirin. İnternetdə “məhşur qadınların vaxt şkalasını” axtarın.

Alternativ kimi, davamlı inkişaf kontekstində ayrı-seçkilik və mədəni kimlik hüququ məsələlərini araşdırmaq üçün 215-ci səhifədəki “Makah balina ovu” məşğələsini edə bilərsiniz.

## Fəaliyyət üçün fikirlər

Məktəbiniz, klubunuz və ya iş yerinizdə gender əsaslı bərabər imkanlar üzrə siyasətləri nəzərdən keçirin, onların necə yerinə yetirildiyini müzakirə edin və qurumunuzu Bərabərlik ölkəsi statusuna çatdırmaq üçün hər hansı dəyişiklik və ya əlavə səylərə ehtiyac olub-olmadığını müəyyən edin.

Axtarış motoruna “Bərabərlik demokratiyası üçün arqumentlər” yazıb olduqca praktiki Avropa Qadınlar Lobbisi (EWL) və fəaliyyət təlimatları barədə məlumat tapın. Həmçinin, siyasətdə olan qadınlar barəsində daha çox məlumatı www.iknowpolitics.org saytında tapa bilərsiniz.

## Əlavə məlumat

Bu məşğələnin əsas anlayışı “Səlahiyyət vermədir”. Bu anlayışı tərcümə etmək, hətta ingilis dilində izah etmək çətindir! “Səlahiyyət vermə” bir çoxlarının “Azad” təhsil adlandırdığı pedaqogikanın həm nəticəsi, həm də vasitəsidir. Oxfam tərəfindən “səlahiyyət vermə” anlayışına belə tərif verilir: Səlahiyyət vermə anlayışı milyonlarla insanı öz cəmiyyətlərində bərabər olmayan əsasda iştirak etməyə məcbur edən və ya onların insan hüquqların pozulması ilə nəticələnən istismar formalarına qarşı görülən tədbirləri əhatə edir.

# Şəkillərlə oynamaq

*Şəkil minlərlə söz deyir və kamera yalan demir – yoxsa deyir?*



| | |
|---|---|
| **Mürəkkəblik** | 1-ci səviyyə |
| **Qrup ölçüsü** | İstənilən |
| **Vaxt** | 30 dəqiqə |
| **Mövzular** | • Ümumi İnsan Hüquqları |
| **Xülasə** | Bu məşğələdə iştirakçılar Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin (ÜİHB) maddələrini əks etdirən şəkilləri müəyyən edirlər. |
| **Əlaqədar hüquqlar** | • Hamısı |
| **Məqsədlər** | • İnsan hüquqlarının gündəlik həyatla əlaqəsi barədə məlumatlılığı artırmaq<br>• “Vizual savadlılıq”, dinləmə və ünsiyyət bacarıqlarını inkişaf etdirmək |
| **Materiallar** | • İnsan ləyaqətinə şəfqət və hörməti təbliğ etmək<br>• Nömrələnmiş 20 – 30 şəkildən ibarət kolleksiya<br>• Böyük stol<br>• ÜİHB maddələrini əks etdirən divar cədvəli (600-cü səhifədəki qısaldılmış versiyanın surəti çıxarılmaqla) |

## Təlimatlar

1. Şəkilləri böyük stola düzün.
2. İştirakçılara fərdi şəkildə işləməyi tapşırın.
3. ÜİHB maddələrindən birini oxuyun və onu lövhədə/ flipçartda yazın.
4. İştirakçılardan şəkillərə baxıb, onların fikrincə, müvafiq maddəni ən yaxşı təmsil edən şəikli seçməyi xahiş edin.
5. Bundan sonra, hər iştirakçının sıra ilə hansı şəkili və nəyə görə seçdiyini deməsinə imkan verin.
6. Hansı şəkillərin seçildiyini qeyd edin; nömrələrini lövhədə yazın.
7. ÜİHB-in müxtəlif maddələrini sadalamaqla dörd və ya beş tur keçirdin. (Mülki, sosial və iqtisadi hüquqları qarışıq şəkildə seçin.)

## Təhlil və qiymətləndirmə

- Məşğələnin özünü nəzərdən keçirməklə başlayın, daha sonra, iştirakçıların nə öyrəndiyi barəsində danışın.
- İştirakçılar müxtəlif turlarda fərqli şəkillər seçdilər yoxsa, onların fikrincə, bir və ya iki şəkil hər şeyi deməyə kifayətdir?
- Ayrı-ayrı iştirakçılar müxtəlif turlarda eyni şəkilləri seçdilər yoxsa onların müxtəlif hüquqları hansı şəkillərin təmsil etdiyi ilə bağlı fərqli yanaşmaları oldu? Bu, bizə hər birimizin dünyanı necə gördüyü barəsində nə deyir?
- Flipçartdakı siyahını nəzərdən keçirin. Hansı şəkillər daha çox seçildi? Bu şəkillərin əsas xüsusiyyəti nə idi? Niyə onlar daha çox seçildi? Şəkilin ölçüsü və ya rəngi diqqət çəkdi yoxsa orada təsvir olunanlar cəlbedici idi?
- Müxtəlif hüquqları təmsil etmək üçün hər hansı eyni şəkil seçildi?
- İştirakçılardan kiminsə hər hansı şəkilin digər iştirakçı tərəfindən şərhi ilə razılaşmadığı oldu?
- Heç seçilməyən şəkillər oldu? Bununla belə, həmin şəkillər başqa hüquqları təmsil etmək üçün seçilə bilər? Hansı hüquqlar üçün?

## Fasilitator üçün məsləhətlər

Hər hansı şəkilin seçilmə sayı üçün heç bir məhdudiyyət yoxdur. Müəyyən şəkil bir turda bir neçə iştirakçı tərəfindən və ya müxtəlif turlarda seçilə bilər. Başqa sözlə, həmin şəkil ayrı-ayrı iştirakçılar üçün eyni hüququ və ya müxtəlif iştirakçılara müxtəlif hüquqları təmsil edə bilər.

Öz şəkillər dəstinizi düzəltmək üçün daha çox məlumatı 61-ci səhifədəki "Əsas metodlar" başlıqlı 1-ci fəsildə tapa bilərsiniz. Bu məşğələdəki şəkillər "yer üzərindəki həyatın" müxtəlif aspektlərini əks etdirməlidir; onlar arasında müxtəlif şəxslər və qruplar, müxtəlif yaşlarda, fərqli mədəniyyətlərdən olan və bacarıqları fərqlənən şəxslərin şəkilləri olmalıdır. Bu şəkillərdə şəhər və kənd mühitləri, sənaye və kənd təsərrüfatı, müxtəlif işləri görən və asudə vaxtlarını fərqli şəkildə keçirdən insanlar göstərilməlidir. Şəkilləri nömrələyəndə onları məntiqi ardıcıllıqla düzməyin. Nömrələməkdə məqsəd şəkillərin asanlıqla müəyyən edilməsidir.

Həmişə istifadə etmək istədiyiniz şəkillərin üstündə müəllifə istinad olub-olmadığını yoxlayın.

Qrupun "vizual savadlılıq" bacarıqlarından asılı olaraq onları şəkilləri təhlil etməkdə istiqamətləndirməli olacaqsınız. Məşğələni bir və ya iki şəkilin birgə təhlili ilə başlaya bilərsiniz. Aşağıda "əlavə məlumat" bölməsindəki suallar istiqamət vermək üçün istifadə oluna bilər.

## Variantlar

Həmçinin, iştirakçılardan onlara ümumilikdə insan hüquqları anlayışını təmsil edən şəkili seçməyi xahiş edə bilərsiniz. Hər kəs seçdikdən sonra, onlardan səbəblərini deməyi xahiş edin.

5-ci fəsildəki Panço karikaturalarının surətini çıxardıb, iştirakçılardan onların hansı insan hüquqlarını təmsil etdiyini soruşa bilərsiniz.

Şəkillər əvəzinə videodan istifadə etmək istəyirsinizsə, insan hüquqları anlayışını araşdırmaq üçün teatrdan istifadə edən "Hərəkətə keç" məşğələsini edin və qupdan səhnəciklərinin videosunu çəkib youtube.com saytında yerləşdirməyi xahiş edin.

## Sonrakı fəaliyyət üçün təkliflər

Kameralar borc alın və ya endirimdə olan kameralar alın və öz icmanızda "İnsan hüquqları üzrə yanaşmalar" foto şəkil çəkmək layihəsini həyata keçirdin.

126-cı səhifədəki "Eynəyinizi dəyişdirin" məşğələsi insanların öz icmalarını insan hüquqları perspektivindən araşdırmasını və şəkilini çəkməsini əhatə edir.

Görüntülər yalnız şəkillərdən gəlmir; onlar vəziyyətləri və hadisələri əks etdirir. Qrupun 281-ci səhifədəki "Bir addım irəli atın" məşğələsi vasitəsilə ayrı-seçkiliyi "görməsini" təmin edin.

## Fəaliyyət üçün fikirlər

"İnsan hüquqları üzrə yanaşmalar" layihəsindəki fotoların sərgisini təşkil edin. Alternativ kimi, aşağıdakı digər təkliflər üzrə poster fikirlərini irəli sürün və onları sərgi üçün istifadə edin.

# Şəkillərlə oynamağın digər yolları

ƏSAS TARİX

**25 oktyabr**
Beynəlxalq
Rəssamlar Günü

## *Şəkilin hissəsi*

**Materiallar/hazırlıq**

- Sadə hekayəni danışmaq üçün şəkillər tapın. Onları iki hissəyə elə bölün ki, iki şəkil ayrılıqda onlarabbaxanı şəkillər birlikdə olduğu halda görəcəyi vəziyyətlə müqayisədə fərqli vəziyyət qarşısında qoysun.
- Şəkilin iki hissəsini zərfə qoyun. Hər iştirakçı üçün bir zərf lazımdır.

### Təlimatlar

1. İştirakçılardan cütlüklərə ayrılmağı xahiş edin.
2. Hər cütlüyə iki zərf verin.
3. İştirakçılar zərfi açıb öz partnyorlarına zərfin içindəki şəkillərdən birini verməlidirlər. Şəkili alan iştirakçı şəkildə nə baş verdiyini, subyektin kim olduğunu və nə etdiyini deməlidir.
4. Bundan sonra, birinci iştirakçı şəkilin ikinci hissəsini verməli və partnyorundan tam şəkili gördükdən sonra şəkildə nə baş verdiyini düşündüyünü soruşmalıdır.
5. Aşağıdakılar haqqında danışmaqla davam edin:
   - Təəccübləndirici məqamlar hansılar idi?
   - İnsanlar hansı tezlikdə gördüklərini qəbul edir və bunun “tam hekayə” olmaya biləcəyini unudurlar?

### Fasilitator üçün məsləhətlər

Bu məşğələdən ilkin ünsiyyəti başlatmaq üçün istifadə edə bilərsiniz.

## *Başlıqlar*

**Materiallar/hazırlıq**

- Nömrələnmiş 5 şəkillik kolleksiya
- Hər iştirakçı üçün 5 kağız zolağı və qələm
- Skoç və ya yapışdırıcı
- 5 böyük vərəq (A3) və ya flipçart kağızı.

### Təlimatlar

1. Şəkilləri stola düzün və iştirakçılardan, fərdi şəkildə və ya cütlükdə, şəkillərin hər birinə başlıq yazmağı (hər başlıq bir kağızda olmaqla) xahiş edin.
2. Hər kəs bitirdikdən sonra, şəkilləri tək-tək qaldırın və iştirakçılardan başlıqları oxumağı xahiş edin.
3. Şəkillərin hər birini böyük kağızın mərkəzinə yapışdırın, iştirakçılardan “poster” düzəltmək üçün başlıqları şəkilin ətrafına yapışdırmağı xahiş edin.
4. Posterləri divara yapışdırın.
5. Müxtəlif şəkillər və onların başlıqlarını qısa şəkildə nəzərdən keçirməklə başlayın.
   - Yaxşı başlığı necə hazırlamaq lazımdır?
   - Əgər şəkil minlərlə sözə bərabərdirsə, onların başlıqlara ehtiyacı var?

### Fasilitator üçün məsləhətlər

Diqqətdə saxlamaq istədiyiniz mövzunu əks etdirən şəkilləri seçin, eyni zamanda, onların əyləncəli və provokativ başlıqlara uyğunluğunu nəzərə alın.

5-ci fəsildəki Panço rəsmlərinin bəziləri bu məşğələ üçün yaxşı material sayıla bilər.

## *Nitq qabarcıqları*

### Materiallar/hazırlıq

- Hər cütlük üçün bir şəkil (İki və ya daha artıq cütlüyə eyni şəkil verilməlidir)
- Hər iki şəxs üçün bir kağız və qələm
- Yapışdırıcı

### Təlimatlar

1. İştirakçılardan cütlüklərə ayrılmağı xahiş edin. Onlara şəkillər, kağız və qələmləri paylayın.
2. Onları şəkillə bağlı Kim? Nə? Harada? Nə vaxt? və Necə? suallarını təhlil etməyə dəvət edin.
3. İştirakçılardan şəkili kağıza yapışdırıb şəkildəki obrazlar üçün nitq qabarcıqları yazmağı xahiş edin.
4. Cütlüklərdən işlərini paylaşmağı xahiş edin və qısa şəkildə təhlil edin:
   - Şəkilləri təhlil etmək və nitq qabarcıqları yazmaq nə qədər çətin idi?
   - Eyni şəkil üzərində işləyən cütlüklərin təhlilləri bir-birindən necə fərqlənir?
   - İştirakçılar şəkillər və nitq qabarcıqlarında hansı stereotipləri aşkarladılar?

### Fasilitator üçün məsləhətlər

Siz qrupu insan şəkilləri ilə məhdudlaşdırılmamalısınız. Heyvanların da şəkillərindən istifadə edə bilərsiniz. Əgər iştirakçıların stereotiplər barəsində düşünməsini istəyirsinizsə, bu cür yanaşma faydalı ola bilər. Siz heyvanların karikaturalarda stereotip kimi istifadəsindən danışa və qrupu öz şəkilləri və nitq qabarcıqlarında bənzər stereotipləri axtarmağa yönəldə bilərsiniz. 5-ci fəsildəki Panço rəsmlərinin bəziləri bu məşğələ üçün yaxşı material sayıla bilər.

## *Sadəcə çərçivə xaricində!*

**Materiallar/hazırlıq**

- Kağız, rəngli qələm və markerlər
- Hər cütlük üçün böyük kağız
- Kollaj üçün materiallar (istəyə görə)
- Şəkillər

### Təlimatlar

1. Şəkilləri hamının görə biləcəyi şəkildə düzün.
2. Fotoqraflar və şəkil redaktorlarının oxuyucuların diqqətini müəyyən məsələyə çəkmək üçün şəkilləri necə  kəsdiyini izah edin.
3. İştirakçılardan cütlüklərdə işləməyi və üzərində işləmək istədikləri şəkili seçməyi xahiş edin. Onlardan şəkili təhlil etməyi və onu böyük kağıza yapışdırmağı xahiş edin. Onlar şəkilin sərhədləri xaricində nə baş  verdiyinin şəkilini çəkməli; onu kəsilən hissə ilə yenidən birləşdirməlidirlər.
4. İştirakçılardan işlərini bölüşüb aşağıdakıları müzakirə etməyi xahiş edin:
   - Niyə fotoqraflar və şəkil redaktorları şəkilləri kəsirlər?
   - Şəkillərin kəsilməsi senzura sayıla bilər?

### Fasilitator üçün məsləhətlər

İştirakçılar öz geniş şəkillərini daha realistik və ya xəyali etməkdə sərbəst olmalıdırlar. Mümkünsə, bu məşğələni kompyuterdəki dijital şəkillər vasitəsilə edə bilərsiniz.

# Elektrik stansiyası

*Bu elektrik stansiyası kreativ insan enerjisi istehsal edir!*

**Mövzular**
- Sülh və Zorakılıq
- Vətəndaşlıq və İştirak
- Ümumi İnsan Hüquqları

**Mürəkkəblik** 3-cü səviyyə

**Qrup ölçüsü** 10+ (3-5 nəfərlik kiçik qruplar)

**Vaxt** 90 dəqiqə

**Xülasə** İştirakçılar gündəlik həyatlarında rast gəldikləri zorakılıq halları barəsində beyin fırtınası aparır, daha sonra, onların öhdəsindən gəlmək və problemlərə həll tapmaq üçün kreativ yollar axtarırlar.

**Əlaqədar hüquqlar**
- Yaşamaq, azadlıq və şəxsi təhlükəsizlik hüququ
- Ayrı-seçkiliyə məruz qalmamaq hüququ
- Şəxsi, ailə həyatı, şəxsi mülk və yazışmalara müdaxilə olunmaması hüququ

**Məqsədlər**
- Zorakılıq halları və onların səbəblərini müəyyən etmək, həlləri araşdırmaq
- Əməkdaşlıq və komanda işi bacarıqlarını inkişaf etdirmək
- Başqalarına qarşı ədalət və məsuliyyət hislərini aşılamaq
- Elektrik kabeli kimi istifadə olunmaq üçün otağın eninə bərabər uzunluqda möhkəm kəndir və ya ip

**Materiallar**
- 2 fərqli rəngdə, məsələn, qırmızı və yaşıl, A4 ölçüdə vərəqlər
- Hər kiçik qrup üçün bir marker
- Avadanlıqlar: yüksək səsli zəng və ya fit, kaskalar, ağ palto, kabel kəsici
(həqiqi və ya kartdan düzəldilmiş)
- 2 rulon skoç
- 2 otaq (istəyə görə, lakin məsləhət görülür)
- Zənglər, işıqlar və digər xüsusi effektləri idarə etmək üçün köməkçi

**Hazırlıq**
- Bir otağı "elektrik stansiyası" olmaq üçün hazırlayın. Ortada yer açın. İpi (elektik kabeli sayılan) otaq boyunca çiyin hündürlüyündə çəkin və uclarını yaxşıca bərkidin

Sülh və Zorakılıq

Vətəndaşlıq və İştirak

Ümumi İnsan Hüquqları

3-cü səviyyə
10+ (3-5 nəfərlik kiçik qruplar)

90 dəqiqə

## Təlimatlar

1. İştirakçılara elektrik stansiyasında işləyəcəklərini izah edin. Normal elektrik stansiyaları uran, kömür, qaz, tullantılar, bio-yanacaqlar, günəş, külək və ya dalğadan elektrik istehsal edir. Bu elektrik stansiyası isə zorakılıq aktlarından enerji istehsal edir, buna görə də, potensial olaraq təhlükəlidir, bağlanmalı və ya başqa yanacaqla işləməlidir. Siz (fasilitator) elektrik stansiyasının meneceri, iştirakçılar isə texniklərdir.

**1-ci hissə. Zorakılıq aktları barəsində beyin fırtınası**

2. İştirakçılardan fərdi qaydada cəld şəkildə "mənim ətrafımdakı zorakılıq" mövzusunda beyin fırtınası aparmağı xahiş edin. Onların terrorizm və ya soyqırım kimi "böyük məsələləri" deyil, gündəlik həyatda məktəbdə, gənclər klublarında, küçədə və ya evlərimizdə rastlaşdığımız zorakılıq aktlarını nəzərdən keçirəcəyini izah edin.

3. İştirakçıları 3 – 5 nəfərlik kiçik qruplara ayırın və hər qrupa üç vərəq (qırmızı) və marker verin. İştirakçılardan beyin fırtınası etdikləri mövzuları bölüşməyi xahiş edin və hansı zorakılıq formalarının baxılmaq üçün ən vacib olduğu ilə bağlı kollektiv şəkildə razılığa gəlin. Onlar hər vərəqə böyük hərflərlə müvafiq əsas sözlər və çox qısa ifadələri yazmalıdırlar.
4. Vərəqləri toplayın, cəld nəzərdən keçirib təkrarlamaları müəyyən edin. Təkrarları ləğv edin.
5. Növbəti hissəyə hazırlaşarkən iştirakçılara beş dəqiqəlik fasilə verin. Vərəqləri bir-birindən 0.5 m aralı olmaqla “elektrik kabelindən” asın. Onları ipə skoçlayın ki, yerlərində qalsınlar və sürüşməsinlər.

**2-ci hissə. Elektrik stansiyasında**

6. Hazır olduqda və bütün “zorakılıq formaları” üzrə kağızlar ipə yapışdırıldıqda, qrupa sizin indicə Sağlamlıq və Təhlükəsizlik Məmurundan - əgər “texniklər” başqa yanacaq tapmazsa - stansiyanın bağlanacağı ilə bağlı bildiriş aldığınızı deyin.
7. “Texnikləri” “elektrik stansiyası”na dəvət edin. Onları 2 komandaya ayırın və onlara çoxlu vərəq (yaşıl), marker və hər birinə bir rulon skoç verin.
8. Elektrik kabeli və zorakılıq aktlarını əks etdirən kağızları göstərin.
9. Elektrik stansiyasının təhlükəli olmasının səbəblərindən birinin zorakılığın verdiyi enerjinin qeyri-bərabər axınla gəlməsi olduğunu izah edin; tez-tez böyük həcmdə enerji gəlir. Bu hal baş verdikdə stansiyanın partlamasının qarşısını almaq üçün kabel kəsilməlidir; lakin kabeli kəsmək olduqca təhlükəli üsuldur və mümkün olduqca, istifadə olunmamalıdır. Böyük həcmdə enerji gəldikdə, həyəcan işıqları yanacaq və zəng səslənəcəkdir. Bu zaman, onlar artıq enerjini çevirmək üçün cəld hərəkət etməlidirlər. Bunu etmək üçün elektrik kabelindəki zorakılıq aktlarını müsbət işlərə çevirməyin yollarını tapmalıdırlar.
10. Bunun əslində necə işlədiyini izah edin: Onlar zəng səsi eşidəcək və həyəcan işıqlarının yandığını görəcəklər. Siz kabelin kəsilməsi mümkün olan hissəsini göstərəcək və oradan asılmış iki vərəqdəki sözləri oxuyacaqsınız. Bundan sonra, iki komandanın zorakılığın iki müxtəlif formasını aradan qaldırmağın yolunu tapmaq üçün maksimum 1 dəqiqə vaxtları olacaq. Onlar öz təkliflərinin hər birini (yaşıl) vərəqdə yazıb, onları ipin sizin kəsməyə hazırlaşdığınız hissəsinə mümkün qədər cəld şəkildə yapışdırmaq üçün yarışmalıdırlar.
11. İndi isə, elektrik stansiyasını yenidən işə salın və yalnız bir və ya iki dəqiqə işləməsinə icazə verin. Köməkçiyə zəngi çalması və işıqları işə salması üçün siqnal verin. Bolt kəsicisini götürün və kabeli müəyyən hissədən kəsməyə hazırlaşdığınızı nümayiş etdirin. Zorakılığın iki formasını oxuyun və komandaları xilas işinə başlamağa tələsdirin.
12. Bir dəqiqədən sonra, zəngi və işıqları dayandırın, kəsicini kənara qoyun və irəli gəlib “həll vərəqlərində” yazılanları oxuyun. Qısaca təklifləri bütün qrupla müzakirə edin. Reallığı əks etdirməyən təkliflərə komandalarla birgə dəyişiklik edin və ya onları ləğv edin. “Zorakılığın formaları” üzrə iki vərəqi çıxardın və rahatladığınızı göstərin.
13. Bütün “zorakılıq kağızları” çıxarılıb “həll vərəqləri” ilə əvəzlənənə qədər 11-ci və 12-ci addımları təkrarlayın.
14. Nəhayət, bütün “həll vərəqləri”ni kabeldən çıxarın və divarda zorakılığın müxtəlif ifadə formalarının yanına yapışdırın.

## Təhlil və qiymətləndirmə

Təhlili məşğələnin özünü nəzərdən keçirməklə başlayın, daha sonra, hər bir zorakılıq forması və təklif olunan həlləri müzakirə edin:

- İştirakçılar məşğələ vaxtı özlərini necə hiss etdilər? Məşğələni bəyəndilər? Niyə (yox)?
- Hər kəs zorakılığın müxtəlif formalarının vacibliyi ilə razılaşdı?
- Müəyyən olunmuş zorakılıq formalarının səbəbləri nələrdir?

- Təklif olunan həllər və tədbirlər reallığa uyğun idi? Yaxın perspektivdə? Uzaq perspektivdə?
- Bu həlləri icra edərkən insanlar hansı maneələr və ya qarşıdurma ilə üzləşə bilər?
- Gənclər zorakılığın qarşısını alıb sülh alternativlərini müdafiə etmək üçün nə edə bilərlər?
- Zorakılıq hansı insan hüquqlarını pozur?

## Fasilitator üçün məsləhətlər

Siz 1-ci hissə - beyin fırtınası üçün 10 dəqiqə, elektrik stansiyasında iş üçün 60 dəqiqə, təhlil və qiymətləndirmə üçün 20 dəqiqə ayırmalı olacaqsınız.

Əgər iştirakçılar ilkin beyin fırtınası zamanı köməyə ehtiyac duyarsa, onlara insanlara qarşı zorakılıq aktlarından nümunələr verə bilərsiniz, məsələn, xuliqanlıq, başqa adla çağırma, sarkazm, xoşagəlməz zarafatlar, təhqiramiz telefon zəngləri və mətn mesajları (SMS), şəxsi mülkiyyətə qarşı vandalizm. Eyni zamanda, hər hansı konkret şəxsə qarşı yönəlməmiş zorakılıq hallarından danışa bilərsiniz, məsələn, filmlərdə gördüyümüz və ya mahnılarda eşitdiyimiz zorakılıq.

11-ci addımda komandalar hər bir zorakılıq formasına qarşı iki və ya üç təklif irəli sürməlidirlər, lakin biri də kifayətdir. Həllər reallığa uyğun olmalıdır.

Uğurlu olmaq üçün əsas məsələlərdən biri sizin iş atmosferi yaratmağınız və kabelin kəsilməsinin qarşısını almaq üçün tələsmək hissini oyatmanızdır. İnternetdən işləyən maşınların və çalan zənglərin səsini yükləyə bilərsiniz. Menecer kimi siz ağ palto və kaska taxa bilərsiniz; əgər mümkünsə, texnikləri də eyni şəkildə geyindirin. Eyni zamanda, məşğələni zirzəmidə su borularının arasında apara bilərsiniz. Əlbəttə, sizdə müəyyən qədər aktyorluq qabiliyyətinin olması məşğələyə əyləncə qata bilər, lakin sizin xüsusi bacarığa ehtiyacınız yoxdur. Sadəcə, məşğələ ardıcıllıqla getməli və turlar arasında müzakirələr qısa çəkməlidir. Ətraflı debat təhlilə saxlanmalıdır.

Əgər iştirakçıların problemlərə həll tapmaq üçün əlavə izahata ehtiyacı varsa, aşağıdakı nümunələri verə bilərsiniz. “Xuliqanlıq” üçün həll məktəblərdə xuliqanlığın formaları barəsində seminarlar təşkil etmək və ya yaşıdlar arasında vasitəçilər hazırlamaq ola bilər. “Televiziyada zorakılıq” üçün həll zorakılıq olan filmlərin axşam 11-dən sonra yayımlanması və ya uşaqlar üçün televizora baxmağa alternativ kimi başqa məşğələlərin təşkili ola bilər.

Qrup balacadırsa, bir “texniki” komanda ilə işləyə bilərsiniz. İki komanda ilə işləməkdə məqsəd eyni problemə müxtəlif yanaşmaları müəyyən etməklə variantları genişləndirməkdir. Eyni zamanda, məşğələnin sürətini artırmaq üçün yarış elementini əlavə edə bilərsiniz. Bunun üçün hər komandaya fərqli rəngdə kağız verin və kimin daha çox həll tapacağını müəyyən edin.

## Sonrakı fəaliyyət üçün təkliflər

Ayrı-seçkilik və ya gender məsələləri “elektrik stansiyasında” özünü göstərə bilər. Bu məsələlərə toxunulmayıbsa belə, kimlik, ləyaqət və hörmətdə bərabərlik hüququna baxa bilərsiniz. Bunun üçün, 332-ci səhifədəki “Mən kiməm?” məşğələsinə baxın.

## Fəaliyyət üçün fikirlər

Bu məşğələdə müəyyən edilmiş problemlərdən birini nəzərdən keçirin. Məsələn, əgər seçilmiş məsələ xuliqanlıqdırsa, qrup öz məktəbində bu mövzuda seminar təşkil etməyi təklif edə bilər və ya həmin məsələni növbəti məktəb yaxud assosiasiya şurası görüşünün gündəliyinə sala bilər.

## Əlavə məlumat

“Elektrik stansiyası” Qloqov, Polşada, Uşaqlar və Gənclər üçün Assosiasiyadan (Chance) olan Darius Qrzemniy tərəfindən hazırlanmış məşğələdən götürülmüşdür.

**ƏSAS TARİX**

**4 noyabr**
Avropa İnsan Hüquqları Konvensiyası 1950-ci ilin bu günündə imzalanmışdır.

**Qeyd**

Bu üsul problemlərin müəyyən edilməsi və həllərin tapılması ilə bağlı istənilən məsələ üçün istifadə oluna bilər.

# İrqçiliyə cavab vermək

*Hər kəsin irqçi zülm və insidentlərə diqqət yetirmək və onların qarşısını almaq öhdəliyi vardır!*

**Mürəkkəblik** 3-cü səviyyə

**Qrup ölçüsü** 4-30 (4-5 nəfərlik kiçik qruplar)

**Vaxt** 120 dəqiqə

**Mövzular**

Ayrı-seçkilik və Dözümsüzlük
- Mədəniyyət və İdman
- Sülh və Zorakılıq

**Xülasə**

Bu məşğələdə iştirakçılar aşağıdakı önəmli məsələləri araşdırmaq üçün rol oynayacaqlar:
- İrqçilik, stereotiplər və mədəni fərqlər
- Bəzi irqçilik və qərəz formalarının, xüsusilə roma insanlarına qarşı, daha çox yayılması
- Məktəb və ya digər təhsil müəssisəsində irqçiliklə necə mübarizə aparılması

**Əlaqədar hüquqlar**

- Ləyaqət və hüquqlarda bərabərlik
- Ayrı-seçkiliyə məruz qalmamaq hüququ
- Düşüncə, vicdan və din azadlığı

**Məqsədlər**

- Mədəni fərqlər və institusional irqçilik barəsində anlayışı dərinləşdirmək
- Demokratik iştirak, ünsiyyət və əməkdaşlıq bacarıqlarını inkişaf etdirmək
- Məsuliyyət, ədalət və həmrəyliyi təbliğ etmək

**Materiallar**

- Böyük ölçüdə vərəqlər və ya flipçart vərəqi və markerlər
- Rol oyununu təqdim etmək üçün 4 könüllü
- Rol kartları
- Əsas insident kartı
- Fasilitator üçün təlimatlar
- İrqçi insidentlər üzrə məktəb siyasəti və təlimatlarının nüsxələri;iki iştirakçı üçün biri kifayətdir
- “Nəzərdən keçirilməli bəzi praktiki məqamlar” materialının nüsxələri, və ya əsas məsələləri böyük vərəqdə qeyd edin
- Kağız və qələmlər

**Hazırlıq**

- Əsas insidenti nəzərdən keçirin və lazım olarsa, onu öz şəraitinizə uyğunlaşdırın.
- Dörd nəfər könüllü seçin və onlardan qrupun qalanına nümayiş etdirmək üçün əsas insident ilə bağlı çox qısa səhnəcik qurmağı xahiş edin.
- Əsas insident səhnəsi kartının 5 ədəd surətini çıxardın (rolları ifa edənlərin hərəsi üçün bir ədəd və fasilitator üçün bir ədəd olmaqla).
- Fasilitator üçün təlimatların surətini çıxardın.

## Təlimatlar

Bu məşğələ iki hissədən ibarətdir: 1-ci hissədə bizim irqçilikdən nə başa düşdüyümüzə baxılır; 2-ci hissədə məktəbiniz, klubunuz və ya təşkilatınızda irqçi insidentlərlə mübarizə aparmaq üçün siyasət hazırlanır

**1-ci hissə. Baxış: irqçilik anlayışından nə başa düşürük?**

1. Məşğələyə "irqçilik"lə bağlı beyin fırtınası aparmaqla başlayın.
2. İrqçi insidentlər və mümkün mədəniyyətlərarası anlaşılmazlıqlar hər gün baş verir. İştirakçıların hansı gündəlik davranış və insidentləri irqçi hesab etdiyi ilə bağlı beyin fırtınası ilə davam edin.
3. Dörd könüllüdən rolları oynamağı xahiş edin. Onlara rol kartlarını və əsas insidentin nüsxəsini verin və hazırlaşmaları üçün 15 dəqiqə vaxt ayırın.
4. Digərlərinin müşahidəçi olduğunu izah edin. Kağız və qələmləri paylayıb üç kiçik səhnəciyə baxacaqlarını deyin. Səhnəciklər arasında müşahidəçilərin öz rəylərini əsas sözlərlə yaza bilməsi üçün qısa fasilələr olacaqdır.
5. Könüllülərdən rolları oynamağı xahiş edin.
6. Sonda, iştirakçıların rəylərinin qısa təhlilini keçirin:
   a. Birinci fasilədə müşahidəçilər nə yazıblar? Onların bu nəticələrə gəlməsinə nə səbəb olub?
   b. İkinci fasilədə müşahidəçilər nə yazıblar? Onların bu nəticələrə gəlməsinə nə səbəb olub?
   c. Sonda, iştirakçılar nəyi başa düşüblər? Onların mülahizələri nələr olub?
7. İştirakçıların fikrincə, müəllimlər, Gyulanın atası və direktorun ədalətli nəticə üçün nə etməli olduğunu müzakirə edin.

**2-ci hissə. İrqçi insidentlərin qarşısını almaq üçün siyasət hazırlamaq**

1. Məşğələnin bu hissəsində məqsədin irqçi insidentlərlə mübarizə aparmaq üçün təlimatlar hazırlamaq və məktəb üçün siyasət formalaşdırmaq olduğunu izah edin.
2. Məktəbdəki müxtəlif insan qruplarının, məsələn, şagirdlər/tələbələr, müəllimlər, direktor, xadimələr, kitabxanaçılar, məktəb avtobusu sürücüləri, nəzarət heyəti (oyun meydançası nəzarətçiləri) beyin fırtınası sessiyasını təşkil edin.
3. Bundan sonra, iştirakçılardan dörd – beş nəfərlik kiçik qruplara ayrılıb irqçi insidentlərin qarşısını almaq üçün məktəbin müxtəlif üzvlərinin öhdəlik və məsuliyyətlərini nəzərdən keçirməyi xahiş edin. Qruplara müzakirə üçün 30 dəqiqə vaxt verin və flipçartda əsas məqamlar üzrə hesabat hazırlayın.
4. İştirakçıları ümumi sessiyaya toplayıb işləri barəsində hesabat verməyi xahiş edin. Fasilitator flipçartda və ya lövhədə əsas məqamların xülasəsini hazırlamalıdır.
5. İştirakçılardan məktəblərində olan siyasət və ya təlimatları nəzərdən keçirməyi xahiş edin.
6. Nə yenilənməlidir?
7. İndi isə iştirakçıları siyasət üzərində işləməyə həvəsləndirin. Hər kiçik qrup bir aspekt (addım və ya meyar) üzrə işləməlidir. Məsələn: irqçilik və ayrı-seçkiliklə bağlı ümumi məktəb bəyanatı hazırlanmalıdırsa, bir qrup onu yazmalıdır. Qruplar həmçinin nəticələri necə təqdim etməyi müzakirə etməlidirlər, məsələn, hislərini qarşı tərəfə daha yaxşı çatdırmaq üçün yazılarla yanaşı şəkillər, kollajlar və bədən heykəllərindən istifadə etmək.Ümumi sessiyada, qruplardan nəticələrlə bağlı hesabat verməyi və fikirlərini necə həyata keçirmək barədə müzakirə aparmağı xahiş edin

## Təhlil və qiymətləndirmə

Məşğələnin özünü və hansı insan hüquqlarına toxunulduğunu nəzərdən keçirməklə başlayın, daha sonra, iştirakçıların nə öyrəndiyi və növbəti addımda nə etməli olduqları barəsində danışın.

- Ümumilikdə, sizin məktəbinizdə və cəmiyyətinizdə irqçilik nə qədər geniş yayılıb?
- Məktəbinizdə və ya icmanızda baş vermiş hər hansı irqçi insident bilirsiniz?
- Hər hansı qruplar digərlərindən daha çox hədəf seçilirlər? Hansı qruplar? Niyə? İyirmi və ya əlli il əvvəl hədəf alınan qruplar eyni idi?
- Sizin ölkənizdə və Avropanın digər ölkələrində roma insanlarına necə yanaşılır?
- Roma insanları ilə bağlı hansı stereotipləriniz var? Bu stereotiplər haradan gəlir? Onlara qarşı nə edilə bilər?

ƏSAS TARİX

**21 mart**
İrqi Ayrı-seçkiliyin Aradan Qaldırılması üçün Beynəlxalq Gün (İrqçilik əleyhinə Gün)

- Əsas insidentdə hansı insan hüquqları diqqət mərkəzindədir?
- İştirakçıların irqçi insidentlə bağlı fikirləri bu məşğələ nəticəsində dəyişib? Necə? Nümunələr gətirin.
- Məktəbiniz və ya təşkilatınızda irqçi insidentlərin baş verməməsini təmin etmək kimin məsuliyyətindədir?
- İrqçi insidentlərlə bağlı siyasətin olması vacibdir, lakin, ilk növbədə, ona ehtiyac duyulmaması daha yaxşı olmazdı? Həm məktəbdə, həm də ümumilikdə cəmiyyətdə irqçi davranışın səbəblərini aradan qaldırmaq üçün nə edilə bilər və nə edilməlidir?

## Fasilitator üçün məsləhətlər

Qrup üzvlərinin kimliklərindən xəbərdar olun və məşğələni müvafiq qaydada uyğunlaşdırın. Əgər qrupun rastlaşdığı halları müzakirə etsəniz, onlar iştirak etməyə daha həvəsli olacaqlar. Eyni zamanda, siz nəticədə ortaya çıxa biləcək hislərə hazır olmalısınız. Özlərinin məktəbdə ayrı-seçkiliyə məruz qaldığını hiss edən iştirakçıların emosiyalarına diqqətlə yanaşmağınız vacibdir.

Beyin fırtınası məşğələyə başlamaq üçün ənənəvi yoldur, lakin siz məşğələni daha canlı apara və irqçi zarafatı deməklə provokativ ola bilərsiniz. Sinfiniz və ya qrupunuzda olmayan hər hansı insan qrupunu ələ salan zarafatı səsləndirməyə çalışın. Hər bir ölkədə başqa xalqların nümayəndələri haqqında zarafatlar demək ənənəsi var. Qupunuzdan bir və ya iki zarafatı bölüşməyi xahiş etməklə müzakirəyə təkan verə bilərsiniz. Bundan sonra, irqçi və irqçi olmayan zarafatlar arasında ayırıcı xətt çəkmək barəsində danışa bilərsiniz. Məsələn, romalar və ya yəhudilər haqqında zarafatlar irqçi yoxsa milliyyətçidir? Bununla, siz irqçi zarafat və irqçi insidentin tərifini verməyə keçə bilərsiniz (aşağıdakı "əlavə məlumat"a baxın).

1-ci hissənin 5-ci bəndində Forum Teatrı və ya Şəkil Teatrı metodundan (67-ci səhifəyə baxın) istifadə edə bilərsiniz.

1-ci hissənin 6-cı bəndində iştirakçılar olduqca emosional davrana bilərlər. Bu, onların hər səhnəciyin sonunda yazdığı qeydlərdə əks oluna və prosesi izləməyi çətinləşdirə bilər. Siz məsələyə dəqiqliklə yanaşıb aktyorların nə etməli olduğuna diqqəti yönəltsəniz, daha yaxşı olar.

2-ci hissənin 4-cü bəndinin sonunda gəlinmiş nəticələr iştirakçıların növbəti addımda istifadə edə bilməsi üçün kifayət qədər dəqiq olmaya bilər. Bu halda, siz "Nəzərdən keçirilməli bəzi praktiki məqamlar" materialından istifadə edə və qrupları ilk dörd addımı tətbiq etməyə həvəsləndirə bilərsiniz.

## Variantlar

Bu məşğələ xuliqanlıq kimi məsələlərin qarşısını almağa uyğunlaşdırıla bilər. Bu halda, siz, ilk öncə, 140-cı səhifədəki "Bizim alternativlərimiz var?" məşğələsini etməklə məsələni öyrənə, daha sonra, xuliqanlıq əleyhinə siyasət hazırlaya bilərsiniz.

## Sonrakı fəaliyyət üçün təkliflər

Vəziyyəti və siyasəti müntəzəm şəkildə, məsələn, ildə bir və ya iki dəfə, nəzərdən keçirin. Siyasətləri nəzərdən keçirməklə onların, həqiqətən də, məqsədlərə uyğun gəldiyi təmin olunmalıdır. Cəmiyyət dəyişdikcə, siyasətlərin dəyişən şəraitdə üzə çıxan problemlərin öhdəsindən gələ bilməsini təmin etmək üçün onlar yenilənməlidir.

Əgər hərəkat aparmaq istəyirsinizsə, 151-ci səhifədəki "Dosta!" məşğələsi fəaliyyəti qurmaqda sizə kömək olacaqdır.

Qərəz və ayrı-seçkiliyə həsr olunmuş digər məşğələ 232-ci səhifədəki "Mənim həyatım tamaşa deyil" məşğələsidir. O, kiber-xuliqanlığa həsr olunmuşdur. Əgər qrup əlil insanlara qarşı ayrı-seçkiliyi nəzərdən keçirmək istəyirsə, 276-cı səhifədəki "Hamı üçün idman" məşğələsinə baxa bilərsiniz.

## Fəaliyyət üçün fikirlər

Öz məktəbiniz və ya təşkilatınızdakı siyasətlər üzərində işləməyə və onların icrasını təmin etməyə davam edin. Qrup, həmçinin, digər ölkələrdəki irqçilik əleyhinə layihələrə qoşula bilər. Məsələn, "İrqçilik olmayan Məktəblər" proqramı məktəb əhalisinin ən az 60%-nin ayrı-seçkilik əleyhinə ümumi bəyanatı imzalayıb yerinə yetirməsini tələb edir http://members.multimania.nl/astrada/szr/swr.html

## Əlavə məlumat

### İrqçiliyin tərifi

İrqçilik, ümumi anlayış kimi, insanlara qarşı dərisinin rənginə, mədəni mənsubiyyəti və ya etnik mənşəyinə görə müsbət və ya mənfi ayrı-seçkiliyi əks etdirən davranış, sözlər və hərəkətləri əhatə edir. Onun gözlə görünməyən formaları açıq şəkildə görünən formaları qədər zədələyicidir.

İnstitusionallaşmış irqçilik dedikdə, təşkilatın insanlara dərisinin rənginə, mədəni mənsubiyyəti və ya etnik mənşəyinə görə kollektiv şəkildə lazımi və peşəkar xidmətləri göstərə bilməməsi nəzərdə tutulur. Bu, etnik azlıqlardan olan insanlara qarşı səbəbsiz qərəz, təcrid etmə, diqqətsizlik və irqçi stereotipləşdirmə vasitəsilə ayrı-seçkiliyi nümayiş etdirən proseslər, yanaşmalar və davranışda görünə və ya müəyyən edilə bilər. İrqçi insidentlər və istismar müxtəlif etnik kimlikləri olan şagirdlərin sayından asılı olmayaraq istənilən müəssisədə baş verə bilər.

İrqçi insident qurban və ya digər şəxs tərəfindən irqçi kimi qəbul edilən istənilən insident-dir. Məsələn:

**Fiziki istismar:** azlıq təşkil edən qruplardan olan uşaqlar və böyüklərə qarşı fiziki təhdidlər və zorakı hücumların daha açıq şəkildə görünən nümunələrini, eyni zamanda, "kiçik" təhdid sayılsa da, ümumi təsiri ola biləcək insidentləri əhatə edir.

**Sözlə istismar:** azlıq təşkil edən qrupların üzvlərinə müxtəlif adlar qoyulması və şəxsin kimliyi və ya mədəniyyətinin (məs., musiqi, geyim və ya mətbəx) ələ salınması ən aşkar nümunələrdir. Sözlə istismarın müəllimlər, şagirdlər və digər böyüklərin cəlb olunduğu daha gizli başqa formaları da ola bilər, məsələn, təhqir sayılan, qəflətən deyilən irqçi təbiətli sözlər.

**Təcrid və hörmətsizlik:** rməktəb/təhsil müəssisəsində azlıq təşkil edən qrupdan olan şagirdlər, tələbələr, müəllimlər, fasilitatorlar, gənc liderlər və digərləri ilə əməkdaşlıq edilməməsinin və onlara qarşı hörmətsizliyin irqçi motivlərlə törədilməsi sübut olunubsa və ya "qurban" irqçiliyi əsas motiv kimi qəbul edibsə, bu hallar irqçi insident sayılacaqdır. Hörmətsizlik məqsədli şəkildə törədilməyə də bilər, məsələn, müəllim və ya fasilitatorun şagirdin mədəni ənənələrinə qarşı diqqətsizliyi qurbanı təhqir olunmuş və narahat hiss etdirə bilər.

**Digər insidentlər:** irqçi zarafatlar və irqçi ifadələrdən istifadə, irqçi işarələrin, yazıların olduğu köynəklərin və s. geyinilməsi, irqçi qraffiti, irqçi ədəbiyyat və ya posterlərin paylanması, məktəbdə və ya ətrafda irqçi və ya faşist təşkilatların mövcudluğu və ya böyüklər tərəfindən ayrı-seçkiliyə aparıb çıxara biləcək stereotipləşdirmə.

Bir çox irqçi insidentləri müəyyən etmək daha çətindir. Belə gizli hərəkətləri aşkar edib onların öhdəsindən gəlmək olduqca mürəkkəb məsələdir. Şagirdlər və ya tələbələrin cəlb olunduğu əksər irqçi insidentlər müəllimlər və ya valideynlərin iştirakında baş vermir. Buna görə də, məktəblər məktəb icmasının bütün üzvlərinin bu cür insidentlərə qarşı həssas olması, məsuliyyət götürməsi, onlar barəsində məlumat verməsi və onlarla mübarizə aparmasına nail olmaq üçün strategiyalar işləyib hazırlamalıdırlar.

İrqçilik, antisemitizm, antigipsizm və romafobiya haqqında əlavə məlumat www.coe.int/compass linkindən 5-ci fəsildəki Ayrı-seçkilik və Dözümsüzlük bölməsindən tapıla bilər.

## Paylanmalı materiallar

### Rol kartları

**Direktorun rol kartı**
Sizin ən böyük narahatlığınız məktəbinizin təhlükəsizlik və oğurluq baxımdan nüfuzudur.

**1-ci müəllimin rol kartı**
Siz, yalnız pul deyil, başqa əşyaların da məktəbdən yoxa çıxdığını müşahidə etmisiniz. Keçən həftə Gyulanın mobil telefonla məktəbə gəlməsi sizin diqqətinizi çəkib.

**2-ci müəllimin rol kartı**
Siz Gyulanın sinif rəhbərisiniz. Onu olduqca yaxşı tanıyır və xoşlayırsınız. O, mehriban, qayğıkeş oğlandır, amma sinifdə dostları yoxdur.

**Atanın rol kartı**
Gyula yaxşı oğlandır. Siz təhsilin əhəmiyyətini başa düşür və Gyulaya futbol oynamağa getməsinə icazə verməmişdən əvvəl ev tapşırıqlarını bitirməsinə həmişə diqqət edirsiniz. Keçən həftə onun ad günü idi.

**Əsas insident**
Bütün səhnələr direktorun ofisində baş tutur.

**1-ci səhnə: Direktor, 1-ci və 2-ci müəllimlər**

Direktor, 1-ci və 2-ci müəllim son vaxtlar məktəbdə cibəgirmə hallarının artması problemini və bu problemə öz reaksiyalarını müzakirə edirlər. Bir neçə insident baş vermişdir: məsələn, ilk öncə, bir qələm itmiş, daha sonra, bir çox əşyalar, əksər hallarda pul yoxa çıxmışdır.

Oğrunun kim ola biləcəyi barədə şayiələr gəzir və günahkarın roma oğlan Gyula olması ehtimalı böyükdür.

Vaxt: 3-5 dəqiqə

**2-ci səhnə: Direktor, Gyulanın atası və 1-cü müəllim**
Direktor Gyulanın atasına oğlunun oğurluq etdiyini qəbul etməsi üçün təzyiq göstərir. Gyulanın atası oğlunun belə şey etməyəcəyini bildirir. Buna baxmayaraq, o üzr istəyir və oğurlanmış pulu geri ödəməyi təklif edir. Müəllimlər vəziyyətlə bağlı özlərini qəribə hiss edirlər və onu sirr olaraq saxlamağa söz verirlər. Gyula məktəbdə qala bilər, lakin atası ona yaxından nəzarət etməlidir.
Vaxt: 3-5 dəqiqə

**3-cü səhnə: Direktor və 2-ci müəllim**

Direktor və 2-ci müəllim məktəbdə mühitin yaxşılaşdırıldığını müzakirə edirlər. Onlar problemin həll olunmasından razıdırlar. 1-ci müəllim daxil olur: O, polisin məktəb darvazasında oğurluq edən şagirdi (Gyula deyil) həbs etdiyi xəbərini çatdırır. Belə görünür ki, həmin şagird bütün pulu oğurladığını etiraf edib. Onlar bu xəbərlə bağlı reaksiyalarını müzakirə edirlər.

Vaxt: 3-5 dəqiqə

### Fasilitator üçün təlimatlar

Könüllülərin səhnəciyi göstərməsinə imkan verin. Səhnələr arası fasilələrdə siz suallar verməli və müşahidəçilərdən təqdimatın müvafiq mərhələsində fikirlərini əsas sözlərlə kağızda qeyd etməyi xahiş etməlisiniz.

**Birinci fasilə:** Müşahidəçilərə birinci sual: Əgər direktor siz olsaydınız, nə edərdiniz?
**İkinci fasilə:** Müşahidəçilərə ikinci sual: Sizcə, məsələ lazımi səviyyədə həll olunub?
**Üçüncü fasilə:** Müşahidəçilərə üçüncü sual: İndi nə düşünürsünüz?

**İrqçilik əleyhinə siyasəti hazırlayarkən nəzərə alınmalı bəzi praktiki məqamlar.**

İrqçi istismar və insidentlərə qarşı tədbirlər görərkən siyasətin hazırlanması və yerinə yetirilməsinə bütün məktəb (təşkilat) üzvlərinin cəlb olunması vacibdir. İrqçi insidentlərə yanaşma ümumi məktəb/təşkilat siyasəti və təcrübəsinə uyğun gəlməlidir.

Bu məsələlər “ayrı deyil xüsusi” hesab edilməlidir. Nəzərə alınmalı bəzi praktiki məqamlara aiddir:

- Heç bir irqçi insident və ya istismara dözülməyəcəyini əks etdirən siyasət açıq şəkildə bəyan olunmalıdır.
- Siyasətdə irqçi insidentlər baş verərsə, məktəbin tətbiq edəcəyi prosedurlar açıq şəkildə göstərilməlidir.
- Ümumi məktəb yanaşması, o cümlədən bu cür insidentlərlə bağlı razılaşdırılmış proseslər və tədbirlər məktəb icmasının bütün üzvlərinə şamil olunmalıdır: idarəçilər, heyət (pedaqoji və digər), valideynlər, şagirdlər, tələbələr və qonaqlar.
- Məktəb icmasındakı hər kəsin irqçi istismar və insidentlərə diqqət yetirmək və onlara qarşı addım atmaq məsuliyyətinin olduğu açıq şəkildə başa düşülməlidir.
- Davamlı yanaşma vasitəsilə hamının onlardan nə tələb olunduğunu başa düşməsi təmin edilməlidir.
- İnsident baş verdikdə və ya bildirildikdə ona qarşı ilkin cavab tədbiri görülməlidir.
- İnsidentlə bağlı istənilən sonrakı cavab tədbiri razılaşdırılmış vaxt müddətində görülməlidir.

Mənbə: http://www.northants-ecl.gov.uk/apps/IPS/msc/rig/hme.asp

# Hüquqlar Binqosu!

*İnsan hüquqları haqqında nə bilirsiniz?*

**Mövzular** • Ümumi İnsan Hüquqları

**Mürəkkəblik** 1-ci səviyyə

**Qrup ölçüsü** 8+

**Vaxt** 60 dəqiqə

**Xülasə** Bu məşğələ sadə sorğu və insanların insan hüquqları üzrə biliyini və təcrübəsini paylaşdığı Binqo! oyununun fərqli formasıdır.

**Əlaqədar hüquqlar** • Bütün insan hüquqları

**Məqsədlər**
- Ümumdünya insan hüquqları və onların dünyadakı bütün insanlarla əlaqəsini öyrənmək
- Dinləmək və tənqidi düşünmək bacarıqlarını inkişaf etdirmək
- Digər insanlara və onların fikirlərinə qarşı hörməti təbliğ etmək

**Materiallar**
- Hər iştirakçı üçün sorğunun bir nüsxəsi və qələm
- Flipçart kağızı və markerlər

**Hazırlıq**
- Böyük ölçüdəki kağızda və ya flipçart kağızında sorğunun surətini çıxardın.
- ÜİHB (600-cü səhifəyə baxın) və Uşaq Hüquqları Konvensiyasında (605-ci səhifəyə baxın) göstəilən əsas hüquqlarla tanış olun.

## Təlimatlar

1. Sorğu vərəqlərini və qələmləri paylayın.
2. İştirakçılara özlərinə partnyor tapmağı və ona vərəqdəki suallardan birini verməyi tapşırın. Cavabın əsas sözləri müvafiq qutuya qeyd olunmalıdır.
3. Bundan sonra, cütlüklər ayrılır və iştirakçılar yeni partnyor axtarırlar.
4. Oyunun məqsədi təkcə hər qutudakı suala cavab tapmaq deyil, həmçinin, hər suala fərqli şəxsdən cavab almaqdır.
5. Kim bütün qutulara cavabları hamıdan əvvəl yazarsa, “Binqo!” deyə çığırır. Həmin iştirakçılar qalib gəlir.
6. Müzakirə ilə davam edin. Birinci qutudakı sualı oxuyun və iştirakçılardan ona aldıqları cavabları bölüşməyi xahiş edin. Əsas sözləri flipçartda qeyd edin. Bu mərhələdə qısa rəylərin bildirilməsinə imkan verin.
7. Cədvəl tamamlandıqdan sonra, geriyə qayıdın və hər qutudakı cavabı tam şəkildə müzakirə edin

## Təhlil və qiymətləndirmə

- Bütün suallar insan hüquqları ilə bağlı idi? Hansı hüquqlarla?
- Hansı suallara cavab vermək ən çətin idi? Niyə?
- Hansı suallar ən mübahisəli idi? Niyə bu hüquqlar mübahisəli idi?
- İnsanlar insan hüquqları və onların pozuntuları ilə bağlı haradan məlumat alıblar? Onlar öz mənbələrinə etibar edirlər?

## Fasilitator üçün məsləhətlər

Məşğələni qrupun maraqları və səviyyəsinə uyğunlaşdırmaq üçün istənilən sualda dəyişiklik edə bilərsiniz.

İştirakçıların cavablarını qeyd edərkən yalnız əsas sözləri yazın. Bunları yazmaqda məqsəd sonrakı müzakirəyə kömək etməkdir. Hər turdan sonra istənilən sualın izahı və ya şərhindəki fərqli yanaşmalara qısaca toxunun. Dərindən müzakirəni tələb edən məqamları vurğulayın və onlara sonda qayıtmağı razılaşdırın.

İştirakçılar sizin də bilmədiyiniz şəxsi və ya anlaşılmaz nümunələr gətirə bilərlər. Buna görə narahat olmayın. Heç kim hər şeyi bilə bilməz! İştirakçılardan müəyyən məlumatı haradan aldıqlarını soruşa, onun doğruluğunu və etibarlılığını müzakirə edə bilərsiniz. Əslində, bu, iştirakçıları, prinsip məsələsi kimi, məlumat barəsində tənqidi düşünməyə istiqamətləndirmək üçün yaxşı fürsətdir.

Cavabların bəziləri mübahisəli ola bilər. Məsələn, bəziləri abortun yaşamaq hüququna zidd olduğunu deyə bilər. Qrupdakı bəzi şəxslər bu mövqeni ciddi şəkildə müdafiə edə; digərləri isə eyni səviyyədə ona qarşı çıxa bilərlər. Buradan çıxarılan ilkin nəticə bütün məsələlərə fərqli perspektivlərdən baxmağı bacarmaqdır: insanların niyə müəyyən mövqeni tutduğunu başa düşməyə çalışın. İnsanların fikirləri vəmüxtəlif hüquqlar üzrə şərhləri fərqlənsə də, bir-birlərinin mövqelərinə hörmətlə yanaşmalıdırlar. Onlar digərinin yanaşması ilə razılaşmaya bilərlər, lakin həmin şəxsə hörmət etməlidirlər.

İkinci nəticə, bizim insan hüquqları haqqında öyrənməyimizin səbəblərini bilməkdir: onlar bizim üçün vacibdir, onlar daim inkişaf edir və hüquqların əhəmiyyət kəsb etməsi üçün hamının fikri önəmlidir. İnsan hüquqları hamı tərəfindən necə şərh olunub tətbiq ediləcəyinə bir dəfəyə və dəqiq şəkildə qərar verilən anlayış deyildir; onlar mütəmadi olaraq nəzərdən keçirilməli və davamlı əsasda inkişaf etdirilməlidir. Buna görə də, hər bir kəsin insan hüquqlarının qorunması və təbliğ olunması prosesində iştirak etmək öhdəliyi vardır.

## Sonrakı fəaliyyət üçün təkliflər

Mübahisə yaratmış bir və ya iki cavabı nəzərdən keçirin və insan hüquqlarına hörməti inkişaf etdirərkən rast gəlinən real həyat dilemmalarını müzakirə edin.

İnsan hüquqlarını öyrənməyin digər yolu şəkillərdən istifadə etməkdir. 177-ci səhifədəki “Gül gücü” məşğələsi ilə insanların insan hüquqlarına necə yanaşdığını müəyyən edin. Bu məşğələ çoxsaylı müzakirələrə apara bilər, məsələn, stereotiplər, ayrı-seçkilik və dünya haqqında yanaşmalarımızın necə formalaşdığı barəsində.

Siz daha da irəli gedib hadisələrin KİV-də necə təqdim olunması formalarını və insan hüquqları aspektlərinə daha yüksək profil verilməsi yollarını nəzərdən keçirə bilərsiniz. Hər kəs Fərqli - Hər kəs Bərabər paketindəki “Xəbərlər hazırlamaq” məşğələsinə baxın.

ƏSAS TARİX

**8 may**
Dünya Qırmızı Xaç və Qızıl Aypara Günü

**Paylanmalı materiallar**

**Sorğu vərəqi**

| | | |
|---|---|---|
| İnsan hüquqlarını bəyan edən sənədin adı | Bütün uşaqların malik olmalı olduğu xüsusi hüquq | İnsan hüquqları haqqında mahnı/kino/kitab |
| Ölkənizdə bəzi insanlara təmin olunmayan hüquq | Şəxsən sizin təmin olunmayan insan hüququnuz | İnsan hüquqları uğrunda savaşan təşkilat |
| Hüquqlarımızla bağlı malik olduğumuz öhdəlik | Ayrı-seçkilik nümunəsi | Qadınların adətən təmin olunmayan hüququ |
| İnsan hüquqları uğrunda savaşan kimsə | Yaşamaq hüququnun pozulması | Şəxsi həyata müdaxilə hüququnun pozulması nümunəsi |
| Gənclərin adətən təmin olunmayan hüququ | Ölkənizdə ayrı-seçkiliyə məruz qalmamaq hüququ pozulan qrup və ya icma | Cəmiyyətinizdə sağlam ətraf mühit hüququnun pozulmasına nümunə |

# Var-dövlət və güc uğrunda mübarizə aparmaq

*Bəzi insanlar öz xəyalları uğrunda, digərləri isə var-dövlət və güc üçün mübarizə aparırlar!*

**Mövzular**
- Yoxsulluq
- Qloballaşma
- Sağlamlıq

**Mürəkkəblik** 3-cü səviyyə

**Qrup ölçüsü** 8 - 25

**Vaxt** 90 dəqiqə

**Xülasə** Bu məşğələdə var-dövlət və güc uğrunda mübarizə, bərabərsizlik və yoxsulluğun ədalətsizliyinə toxunulur

**Əlaqədar hüquqlar**
- Ləyaqət və hüquqlarda bərabərlik
- Uyğun yaşayış şəraiti hüququ
- Sağlamlıq, ərzaq və sığınacaq hüququ

**Məqsədlər**
- Var-dövlət və gücün qeyri-bərabər bölgüsü nəticəsində ortaya çıxan ədalətsizliyin başa düşülməsini inkişaf etdirmək
- Tənqidi düşünmək bacarıqlarını inkişaf etdirmək
- İnsan ləyaqətinə hörməti və ədalət hissini təbliğ etmək

**Materiallar**
- 120 qəpik
- 3 – 4 cüt corab
- 2 böyük vərəq və markerlər
- Kağız və qələmlər
- Açıq məkan

**Hazırlıq**
- Məşğələ haqqında tam təsəvvürünüzün olması üçün təlimatları diqqətlə oxuyun. Simulyasiyanın üç hissəyə ayrıldığını nəzərə alın: 1-ci hissə, Mübarizə (10 dəqiqə); 2-ci hissə, İanələr (10 dəqiqə); və 3-cü hissə, İqtisadi Ədaləti Yaratmaq (40 dəqiqə). Sonda, müzakirə aparılır.
- Qəpiklərdən 20 ədəd götürün və onları kənarda saxlayın,
- Üç nəfəri miqrant rolu oynaması üçün seçin,
- Oyunçuların var-dövlətini qeydə almaq üçün divar cədvəli hazırlayın (şəklə baxın),
- “Fəxri Donorlar” başlıqlı cədvəl hazırlayın.

## Təlimatlar

Bu məşğələnin simulyasiya oyunu olduğunu izah edin. İştirakçılar dünyanın var-dövləti və gücünü öz aralarında bölüşdürəcəklər.

1**-ci hissə: Mübarizə** (10 dəqiqə)

1. Oyunun məqsədinin mümkün qədər çox qəpik əldə etmək olduğunu izah edin. Sadəcə bir qayda var: heç bir iştirakçı qrupun digər üzvünə heç bir halda toxuna bilməz. (Siz bu hal üçün cəza tədbiri fikirləşə bilərsiniz, məsələn, 1 qəpik ödəmək).
2. Hamıdan, “miqrant” rolunu oynayanlar istisna olmaqla, döşəmədə böyük dövrə qurub oturmağı xahiş edin (belə ki, onların oynamaq üçün kifayət qədər yeri olmalıdır).

Yoxsulluq

Qloballaşma

Sağlamlıq

3-cü səviyyə

8 - 25

90 dəqiqə

3. Kənara qoyduğunuz iyirmi qəpiyi götürün və onları dörd və ya beş iştirakçı arasında bölüşdürün.
4. Digər dörd iştirakçının hərəsinə bir corab cütü verin. Onlara corabları əllərinə geyinməyi və bütün oyun boyu belə qalmağı tapşırın. Qəpiklər və corabların bölüşdürülməsinin səbəbləri ilə bağlı bütün müzakirələri təhlilə saxlayın.
5. 100 ədəd qəpiyi dövrənin ortasına səpələyin.
6. "Başla!" əmri verildikdə iştirakçılar mümkün qədər çox qəpik toplamalıdırlar. Bu mərhələ 2 dəqiqədən çox vaxt almamalıdır!
7. Bütün qəpiklər yığılandan sonra iştirakçılardan öz sərvətləri barəsində qrupun qalanına məlumat verməyi xahiş edin. Var-dövlət cədvəlində hər iştirakçının adını və onların malik olduğu qəpiklərin sayını yazın.
8. Qrupa bu qəpiklərin onların dünyada malik olduğu var-dövlət və gücü əks etdirdiyini xatırladın. Onların əlində olan məbləğ öz ehtiyaclarını ödəmək (məs., ərzaq, ev, paltarlar, sağlamlıq və ibtidai təhsil) və istəklərini təmin etmək (məs., ali təhsil, avtomobillər, kompyuterlər, oyuncaqlar, televizorlar, tətillər və digər lüks əşyalar) imkanlarına təsir edəcəkdir. Nəticələr aşağıdakı kimidir:
   - altı və ya daha artıq qəpik – insanlar öz əsas "ehtiyacları"nı və "istəkləri"nin əksəriyyətini ödəyə biləcəklər
   - üç – beş qəpik – insanlar əsas ehtiyaclarını ödəyə biləcəklər
   - iki və ya daha az qəpik – insanlar xəstəlik, aclıq, lazımi səviyyədə olmayan yaşayış şəraiti və iş tapmaq üçün yetərli təhsilləri olmadığından sağ qalmaqda çətinlik çəkəcəklər.

**2-ci hissə: İanələr** (10 dəqiqə)
1. İştirakçılara, əgər istəsələr, qəpikləri başqalarına verə biləcəklərini bildirin. Lakin bunu etmək məcburiyyətində deyillər. Qəpiklərini bölüşən şəxslər donorlar kimi təltif olunacaq və adları "Fəxri donorlar" siyahısına salınacaqdır.
2. Əgər istəsələr, qəpikləri yenidən bölüşmələri üçün iştirakçılara 3-4 dəqiqə vaxt verin.
3. Bundan sonra, qəpiklərini digərlərinə verən şəxslərin adlarını və onların verdiyi məbləği öyrənin. Onların adlarını "Fəxri donorlar" cədvəlinə yazın.
4. Qəpikləri vermək və ya almaq nəticəsində hər hansı iştirakçının kateqoriya dəyişdirib – dəyişmədiyini soruşun və bu dəyişiklikləri cədvəldə oxla qeyd edin.

**3-cü hissə: İqtisadi ədaləti yaratmaq** (40 dəqiqə)
1. Oyunçuları qəpiklərinin sayına görə üç qrupa ayırın (böyük var-dövlət, müəyyən var-dövlət və az var-dövlət)
2. Üç qrupun hər birinə bir "miqrant" yerləşdirin. Onların bu və ya digər qrupda olmağa reaksiyasını qısa şəkildə müəyyən edin, lakin bu barədə geniş müzakirəni təhlilə saxlayın.
3. Qələmlər və kağızı paylayın. Hər qrupa var-dövlət və gücün müxtəlif kateqoriyaları arasında fərqləri azaltmaq üçün qəpiklərin (dünyanın sərvəti) ədalətli bölgüsü ilə bağlı plan qurmağı tapşırın. Hər qrupun fəaliyyət planı:
   – Nəyin edilməli olduğunu izah etməli (əgər varsa)
   – Qrupun nəyi və niyə etməli olduğunu təsvir etməli və
   – planlarının niyə ədalətli olduğunu göstərməlidir.
4. Qruplara planları hazırlamaq üçün on dəqiqə vaxt verin. İştirakçılara planı qurmaqla bağlı dərindən iş aparmağın vacib olmadığını, yoxsulluq probleminin həlli üçün bir neçə mümkün addımın təsvirinin yetərli olduğunu izah edin.
5. Hər qrupdan planlarını digərlərinə izah etmək və suallara cavab vermək üçün təmsilçi təyin etməyi xahiş edin. Təklif olunan planları böyük kağızda sıralayın.
6. İndi isə, hansı planın qəbul edildiyinə qərar vermək üçün səs vermə keçiriləcəyini elan edin. Səslərin bölgüsü aşağıdakı kimi olacaqdır:
   – "Böyük var-dövlət və güc" qrupundan olan hər iştirakçı - beş səs
   – "Müəyyən var-dövlət və güc" qrupundan olan hər iştirakçı - iki səs
   – "Az var-dövlət və güc" qrupundan olan hər iştirakçı - yarım səs

7. İştirakçıları səs verməyə çağırın. Hər plan üzrə səsləri böyük vərəqdə qeyd edin. Hansı planın həyata keçiriləcəyini elan edin.
8. Müvafiq planı həyata keçirin, lazım gələrsə, var-dövləti yenidən bölüşdürün.

## Təhlil və qiymətləndirmə

Məşğələnin özü və iştirakçıların ondan necə həzz aldığı barəsində fikirləri öyrənməklə başlayın.

Sonra, nə baş verdiyini, iştirakçıların nə öyrəndiyini və məşğələnin insan hüquqları ilə əlaqəsini müzakirə edin. Müzakirəni canlandırmaq üçün aşağıdakı suallara əsaslanın.

- İştirakçılar qəpiklərin əldə edilməsi və bölüşdürülməsi üsulları barəsində nə düşünürlər? Onlara qarşı ədalətlə rəftar olunub?
- Qəpikləri digərlərinə verənlər niyə belə etdilər? Təltif olunmaq üçün? Özlərini günahkar hiss etdiklərinə görə? Başqa hər hansı səbəbdən?
- 2-ci hissədə qəpikləri alan iştirakçılar özlərini necə hiss etdilər? Minnətdar? Himayəyə alınmış?
- Bəs əllərində corab olan iştirakçılar? Onlar kimləri təmsil edirdilər? Sonda, hansı qrupda oldular?
- “Miqrant” olmaq tapşırılmış və qruplara salınmış üç iştirakçı necə? Onlarla ədalətlə rəftar olundu?
- Onların başına gələnlər dünyadakı insanların qarşılaşdığı rəftarla eynidir? Hansı insanlarla belə rəftar olunur? Bizim harada olacağımızı yalnız bəxt təyin edir?
- Ədalətli bölgü üçün məsləhət görülən planlarda hansı fərqlər var idi? Planlar onları hazırlayan qrupların var-dövlətini əks etdirirdi?
- Niyə bəzi şəxslərə digərlərindən daha çox səs verildi? Bu, dünyada çox və ya az gücə malik olanları dəqiq şəkildə nümayiş etdirməyə imkan verdi?
- Var-dövlət və gücdə belə fərqlərin olması insan hüquqlarının pozulmasıdır? Əgər belədirsə, hansıların?
- Dünyada, ölkənizdə və cəmiyyətinizdə “malik olanlar” və “malik olmayanlar” kimlərdir? Onların bu mövqedə olması nəyin nəticəsidir?

## Fasilitator üçün məsləhətlər

Məşğələnin məqsədi iştirakçıları dünyada var-dövlət və gücün qeyri-bərabər bölgüsü barəsində məlumatlandırmaqdır, lakin qrupun özündə mövcud bərabərsizliklər üzə çıxa bilər. Buna görə də, qrupun sosial və iqtisadi tərkibindən xəbərdar olmalı və müzakirəni uyğun şəkildə aparmalısınız.

Bunu vurğulayın ki, əgər onlar real həyatda öz qəpiklərini digərlərinə versələr, var-dövlətlərinin və onun gətirdiyi üstünlüklərin bəzilərini itirəcəklər.

İştirakçıların oyun ruhuna girməsinə çalışın ki, onlar tam şəkildə cəlb olunsunlar və qəpiklərlə, həqiqətən, onların var-dövləti kimi davransınlar. Onlara qəpikləri özlərində saxlayıb məşğələdən sonra və ya çay fasiləsində içkilər və/və ya şirniyyat “almaq” üçün onlardan istifadə edə biləcəklərini deyə bilərsiniz. Əgər corablardan istifadə etmək üçün çox istidirsə, bəzi iştirakçıların digərlərinə nisbətdə daha çox var-dövlət və gücü olduğunu göstərmək üçün başqa vasitələrdən istifadə edin. Məsələn, bəzi iştirakçılar geridə dayana və onların qoşulmasına 15 – 30 saniyə sonra icazə verilə bilər. 3-cü hissədə “iqtisadi ədaləti yaratmaq” üçün aşağıdakıları iştirakçılara təqdim etməklə üstünlükdə və əlverişsiz vəziyyətdə olmaq hislərini oyada bilərsiniz:

- böyük var-dövləti olanlara: stollar, stullar, su stəkanları, şirniyyat və s.
- müəyyən var-dövləti olanlara: bir neçə stul
- az var-dövləti olanlara: heç nə, yalnız döşəmədə iştirakçıların oturması üçün yer.

ƏSAS TARİX

**17 oktyabr**
Beynəlxalq Yoxsulluğun Aradan qaldırılması Günü

Var-dövlət cədvəli

| Böyük var-dövlət və güc (6 və ya daha artıq qəpik) | Müəyyən var-dövlət və güc (3 – 5 qəpik) | Az var-dövlət və güc (2 və ya daha az qəpik) |
|---|---|---|
| | | |

Təhlil və qiymətləndirmədəki suallar mürəkkəb olduğundan uzun və dərin müzakirələrə apara bilər. Əgər vaxt azdırsa və ya qrup böyükdürsə, sualları kiçik qruplar arasında bölə bilərsiniz. Bu kiçik qruplar "qarışıq" olmalı, yəni hər kateqoriyadan insan daxil olmalıdır. Müxtəlif qrupların ümumi sessiyada fikirlərini bölüşməsinə şərait yaratmaqla hamının bütün suallar üzrə qulaq asmaq və fikirlərini bildirmək imkanı olmasını təmin edin.

## Variantlar

Məşğələnin mübarizə hissəsi əlillik barədə məsələləri qaldırmaq üçün uyğunlaşdırıla bilər. Bəzi iştirakçıların bir əli arxalarına bağlana bilər: əgər adətən sağ əlləri ilə işləyirlərsə, sol əldən istifadə etməlidirlər və əksinə. Bəziləri gözlərini bağlaya, digərləri döşəmədə düz şəkildə uzana, başqaları isə stullarda oturub döşəməyə əyilə, bəziləri ayaqlarını çarpazlayaraq oturub hərəkət etməyə, digərləri isə hərəkət edə bilər və s.

## Sonrakı fəaliyyət üçün təkliflər

"Var-dövlət" anlayışını başa düşməyin müxtəlif yolları ola bilər, məsələn, cəmiyyətdə nə qədər insan kasıbdır, ölümlərin sayı və İnsan İnkişaf İndeksi. Qrup üzvlərinə "var-dövlət" anlayışının nə ifadə etdiyini öyrənmək üçün müzakirə təşkil edin. İnkişaf üzrə çalışan QHT-dən bir nəfəri töhfə vermək üçün dəvət edə bilərsiniz.

Siz bu mövzular üzrə debatı davam etdirə və ya iştirakçılardan hesabat yazmağı xahiş edə bilərsiniz. Təklif olunan mövzulara aiddir:

- Var-dövlət və güc insanların insan hüquqları və ləyaqətindən faydalanmaq imkanlarına necə təsir edir?
- Var-dövlət və gücə malik olmaqla bağlı məsuliyyətlər var?

Qrup var-dövlət və onun bölüşdürülməsi mövzusuna davam edib 189-cu səhifədəki "Bizim nə qədərə ehtiyacımız var?" məşğələsini etmək istəyə bilər.

## Fəaliyyət üçün fikirlər

Sizin cəmiyyətinizdə çətin vəziyyətdə olan şəxslərin yerli ehtiyaclarını ödəmək üçün çalışan təşkilatla əlaqə saxlayın. Bundan sonra, kömək etmək üçün layihə planlaşdırın.

Bəzən, sadəcə məsələ barəsində "söz yaymaq" dəyişiklik etmək üçün yaxşı addım ola bilər. Belə ki, iştirakçıların var-dövlətin bölgüsü məsələsini valideynləri və dostları ilə müzakirə etməsini təklif edə bilərsiniz.

## Əlavə məlumat

Yerli Mübadilə Ticarət Sistemləri (LETS) yerli, öz daxili valyutalarından istifadə edən ticarət şəbəkələridir. Onlar əməkdaşlıq əsasında qurulub və istifadəçilər tərəfindən idarə olunur, belə ki, digərlərindən daha çox LETS krediti olan şəxslər daha güclü deyillər və ya resursların onlara düşən hissəsindən artığını istehlak edə bilməzlər. Bu şəbəkələr yerli iqtisadiyyatı, xüsusilə böhranda olan şəhərlərdə, canlandırmaq üçün sübut olunmuş həll yollarıdır. Axtarış motorunuzda Yerli Mübadilə Ticarət Sistemləri (LETS) axtarın və ya http://www.gmlets.u-net.com/ saytına baxın.

Var-dövlət və gücü ölçməyin müxtəlif yolları üzrə statistika 5-ci fəsilin Yoxsulluq bölməsindən tapıla bilər.

**Ədalətli ticarət məhsullarını almaq inkişaf etməkdə olan ölkələrdəki istehsalçıları dəstəkləmək üçün güclü vasitədir. Ədalətli ticarət işçilər və fermerlərə yaşayışlarını təmin etmək və özləri üçün daha təhlükəsiz gələcək qurmaq imkanı verir.** http://www.fairtrade.net/ http://www.european-fair-trade-association.org/

# Bacarığı görün!

*Bacarığı görün – əlilliyi deyil!*

**Mövzular**
• Əlillik və əlillərə qarşı ayrı-seçkilik
• Ayrı-seçkilik və Dözümsüzlük
• Uşaqlar

**Mürəkkəblik** 2-ci səviyyə

**Qrup ölçüsü** 6 - 36

**Vaxt** 120 dəqiqə

**Xülasə** Əlil insanlara qarşı şəfqəti oyandırmaq üçün praktiki məşğələdir.
Toxunulan məsələlərə aiddir:
• Əlil insanların cəmiyyətə inteqrasiya olunmaqda üzləşdiyi maneələr
• Əlil insanların hüquqlarının əsas insan hüquqları kimi qəbul olunması

**Əlaqədar hüquqlar**
• Ayrı-seçkiliyə məruz qalmamaq hüququ
• Ləyaqət və hüquqlarda bərabərlik
• Sosial təhlükəsizlik hüququ

**Məqsədlər**
• Əlil insanların üzləşdiyi gündəlik problemlər barəsində məlumatlılığı artırmaq
• Əlil insanların ehtiyaclarının qarşılanması bacarıqlarını inkişaf etdirmək
• Şəfqət və həmrəyliyi təbliğ etmək

**Materiallar**
**Giriş üçün:**
• Hər iştirakçı üçün bir vərəq və qələm
**2-ci hissə** üçün, hər cütlüyə:
• İçərisində kələm və ya kahı yarpağı, karandaş, təbaşir parçası, yarpaq (istənilən ağacdan), rəngli kağız, istənilən spirtsiz içki butulkası və ya dəmir qutu olan plastik çanta
• Göz bağı
• Bir vərəq və qələm
**3-cü hissə** üçün, hər cütlüyə:
• 1 rol kartı
• Bir vərəq və qələm
**4-cü hissə** üçün:
• Hər səkkiz nəfərə bir əlil arabası
• Maneələr qurmaq üçün məkan (İkinci otaqdan istifadə oluna bilər, lakin mütləq deyil. Alternativ kimi, açıq havaya çıxışın olması istifadə oluna bilər)
• Maneələr, məsələn, stollar və stullar, taxta lövhələr, köhnə qəzet yığınları və s.
• Böyük ölçüdə bir kağız və ya lövhə, markerlər
• Saat və ya vaxtölçən

**Hazırlıq**
• Rol kartları hazırlayın. Bu məşğələ üçün təklif olunan vəziyyətlərdən birini seçin və ya özünüz fikir irəli sürün.
• Əgər mümkünsə, ikinci otağı maneəli yarış üçün əvvəlcədən hazırlayın və ya daha yaxşısı, açıq havaya çıxın və keçməsi daha çətin ərazidə maneələr düzəldin.
• Əgər içəridə maneələr qurursunuzsa, stol və stullardan dar keçidlər qurmaq üçün, döşəmədəki taxta lövhə və köhnə qəzet yığınlarından isə təbii şəkildə keçilməsi çətin ərazini əvəzləmək üçün istifadə edin.

Əlillik və əlillərə qarşı Ayrı-seçkilik

Ayrı-seçkilik və Dözümsüzlük

Uşaqlar

2-ci səviyyə

6 - 36

120 dəqiqə

## Təlimatlar

Bu məşğələ dörd hissədən ibarətdir: 1-ci hissə, giriş, 2-ci hissə, gözübağlı gəzinti, 3-cü hissə, işarə ilə göstərmə, 4-cü hissə, əlil arabası ilə maneəli yarış.

**1-ci hissə. Giriş (10 dəqiqə)**

1. Bu məşğələnin əlilliyin üç növünə həsr olunduğunu izah edin: korluq, karlıq, lallıq və iflic.
2. İştirakçıları bir neçə dəqiqə ərzində əgər əlil olsalar, onlarla necə rəftar olunmasını istədikləri – istəmədikləri – barəsində düşünməyə dəvət edin. Onlara bir neçə əsas sözü yazmağa imkan verin.
3. İndi isə, iştirakçılardan əgər əlil olsa idilər, ən çox nədən qorxacaqlarını yazmağı xahiş edin.
4. Bu mərhələ bitdikdən sonra iştirakçılardan vərəqlərini üzü aşağı qoymağı və "reallığa addım atmağa" hazırlaşmağı xahiş edin.

**2-ci hissə. Gözübağlı gəzinti**

1. İştirakçılardan cütlüklərdə birləşməyi xahiş edin. Göz bağlarını paylayın. Hər cütlükdə iştirakçılardan biri əlil insan, digəri isə onun bələdçisi olmalıdır. Partnyorunun təhlükəsizliyini təmin etmək həmişə bələdçinin məsuliyyətindədir. Onlar yalnız təhlükəsizliklə bağlı sadə suallara "bəli" və ya "xeyr" cavabını verə bilərlər.
2. Bələdçilərdən öz partnyorlarını 5 dəqiqəlik gəzintiyə (yuxarı və aşağı pilləkənlər olan, mümkünsə açıq havada) çıxarmağı xahiş edin.
3. Otağa qayıdarkən bələdçilər öz partnyorlarını stula qədər aparmalıdırlar. Lakin stulda onları sürpriz gözləyir! Çanta! Onun içərisində nə var?
4. Kor oyunçular içəridə olanları müəyyən etməlidirlər. Bələdçilər isə onların təxmin etdiklərini yazmalıdırlar.
5. Bundan sonra, "kor" insanların bağları çıxardıb əşyaları görməsinə icazə verin. Partnyorları qısaca öz təcrübələrini nəzərdən keçirib təəccübləndirici məqamları bir-biri ilə bölüşməyə dəvət edin.
6. İştirakçılara roldan çıxmaları üçün bir neçə dəqiqə verin və 3-cü hissəyə keçin.

**3-cü hissə. İşarə ilə göstərmə**

1. Cütlüklərdəki iştirakçılara yerlərini dəyişməyi tapşırın; bu dəfə bələdçilər əlil insan olub lal (danışa bilmirlər) kimi davranmalı, digərləri isə onların əlil olmayan köməkçiləri olmalıdır.
2. Hər əlil oyunçuya bir vəziyyət kartı verin. Onlar kartları öz partnyorlarına göstərməməlidirlər. Köməkçilərə vərəq və qələm verin.
3. Lal oyunçuların öz problemlərini köməkçilərinə çatdırmalı olduqlarını izah edin. Onlar danışa, yaza və ya şəkil çəkə bilməzlər. Köməkçilər məsələnin nə olduğunu necə başa düşürlərsə elə yazmalıdırlar.
4. "Lal" oyunçu bacardığı qədər ünsiyyət qurduqdan sonra, rol kartını köməkçisinə göstərməlidir. Cütlükləri öz niyyətləri, problemləri və məyusluqlarını qısaca nəzərdən keçirməyə dəvət edin.

**4-cü hissə. Əlil arabaları ilə maneəli yarış**

1. İştirakçılara maneəli yolu göstərin. Qalibin dövrəni ən qısa vaxtda tamamlayan şəxs olacağını izah edin. Yolboyu maneələrlə toqquşmağa görə cərimələr var.
2. Nəticələri böyük vərəqdə qeyd edin.
3. Arzulayan hər kəs yarışdıqdan sonra qısa fasilə verin və təhlil və qiymətləndirməyə keçin.

ƏSAS TARİX

**3 December**
International Day of Disabled Persons

## Təhlil və qiymətləndirmə

Ümumi sessiyada aparın. Məşğələnin 2, 3 və 4 saylı hissələrini nəzərdən keçirməklə başlayın, daha sonra, iştirakçıların başlanğıcda nə bildiyini və məşğələ nəticəsində nə öyrəndiyini müzakirə edin.

1. Gözübağlı gəzinti ilə başlayın: Gözübağlı olan və kömək edən iştirakçıları reaksiyalarını bölüşməyə çağırın:
   - Məşğələ ərzində özlərini necə hiss ediblər?
   - Ən çətin məqam hansı idi? Nə gülməli idi? Nə qorxuducu idi?
   - Etibar etmək və etibarlı olmaq nə qədər çətin idi?
2. Bundan sonra, 2-ci hissəni – işarə ilə göstərməni nəzərdən keçirin:
   - Tapşırıq zamanı onların hər biri özünü necə hiss edib?
   - Ən çətin məqam hansı idi? Nə gülməli idi? Nə qorxuducu idi?
   - İşarə ilə göstərmək və başa düşülməmək məyusedici idi?
   - Başa düşməmək məyusedici və ya utandırıcı idi?
3. Növbəti olaraq, əlil arabaları ilə maneəli yarışı nəzərdən keçirin:
   - Hərəkət edə bilməyən iştirakçılar özlərini necə hiss ediblər?
   - Ən çətin məqam hansı idi? Nə gülməli idi? Nə qorxuducu idi?
4. İndi isə iştirakçıların tapşırığın əvvəlində ifadə etdiyi qorxu və ümidləri nəzərdən keçirin. Onlardan yazdıqları sözlərə baxmağı xahiş edin.
   - Məşğələ zamanı təsdiqlənən qorxular oldu?
   - İştirakçılar öz partnyorlarına necə kömək ediblər?
   - Alınan kömək necə idi?
   - Nə qədər kömək etməyi müəyyən etmək asan idi?
5. İştirakçılar əlil olmaqla bağlı ən çox nədən qorxurlar? Onların qorxuları nəyə əsaslanır? İştirakçılar nə vaxtsa bədbəxt hadisə və ya xəstəlik nəticəsində əlil qalmaqdan qorxublar?
6. İştirakçıların məşğələdən öyrəndiyi ən təəccübləndirici məqam nə olub?
7. İştirakçıların kor, lal və ya əlil arabasında olan tanışı var? Onların sosial həyatı necədir? Digər insanlar onlara necə reaksiya verirlər?
8. Ətrafdakı binalarda və küçələrdəki mühitə baxın, onlar "əlil insanlara uyğun" sayıla bilər?
9. Əlil insanların bərabərliyini və ləyaqətini təmin etmək üçün nə edilə bilər və edilməlidir?
10. Əlillik hüquqları insan hüquqları məsələsidir? Ümumdünya İnsan Hüquqları Bəyannaməsindəki (ÜİHB) hansı hüquqlar xüsusilə vacibdir?
11. Əlil insanların bərabərliyi və ləyaqətini təbliğ etmək üçün məktəbiniz, assosiasiyanız və ya yerli gənclər qrupunuz nə edə bilər?

## Fasilitator üçün məsləhətlər

4-cü hissə üçün maneəli yolu çox uzun etməyin. 2-3 dəqiqə kifayətdir, xüsusilə, sizin iki və ya üç əlil arabanız olarsa, çünki iştirakçılar gözləməli olacaq və darıxacaqlar. Əlil arabalarını müvəqqəti ehtiyacı olan insanlara dəstək verən yerli xəstəxana və ya təşkilatdan borc götürə bilərsiniz. Alternativ kimi, iştirakçılarda fiziki qüsur hissini yaratmaq üçün başqa vasitələrdən istifadə edə bilərsiniz. Məsələn, onlar böyük ölçüdə rezin çəkmələri səhv ayaqlarına geyinməlidirlər!

Bu məşğələni necə aparmağınız daha çox qrupdan asılı olacaq. Hər kəsin əlil olmağın necə bir duyğu olduğunu öz reaksiyaları və hisləri vasitəsilə təcrübədən keçirəcəkləri ayrı-ayrı "reallıq simulyasiyalarında" iştirak edəcəklərini başa düşdüyünə əmin olun. Məqsədin kimisə ələ salmaq və ya hədsiz təzyiq və çətinlik altında qoymaq olmadığını izah edin. Onlar "təbii" davranmalı, həddi aşmamalıdırlar. İştirakçılara bəzi anlarda özlərini qəribə və təhlükədə hiss edəcəkləri, lakin onlarla heç bir zərərli və ya təhlükəli hadisənin baş verməyəcəyi barədə xəbərdarlıq edin.

Əgər sizin bütün "reallıq simulyasiyaları"nı etməyə vaxtınız yoxdursa, yalnız birini və ya

ikisini edin. Gözübağlı olmaq bu məşğələdəki təcrübələr arasında şəxsi cəhətdən ən çətin və həssas olanıdır. Buna görə də, əgər yalnız bir tapşırıq edə bilirsinizsə, onu seçin. İştirakçılar yerlərini dəyişib eyni tapşırığı etməklə əlillik təcrübəsini yaşaya bilərlər. Bu halda, müəyyən ediləcək əşyaların ikinci dəstini hazırlamağı unutmayın.

Bu məşğələ ciddi məsələlərə toxunur, lakin bir çox gülməli vəziyyətlərə hazır olmalısınız. Bunlara mane olmayın. Yalnız iştirakçılar təhlükəli nəsə edərsə və ya əlil insanları ələ salan rəylər bildirərsə, müdaxilə edin və fikir bildirin. Bu məsələlərə təhlil və qiymətləndirmə hissəsində göstərilən suallarla toxuna bilərsiniz: nə vaxt insanlar əlil insanları ələ salırlar? Bunu kim və niyə edir? İnsanların əlilliyi ilə bağlı zarafatlar etmək nə vaxt qəbul olunandır? Yaxşı yumor və təhqir arasında sərhədi necə müəyyən edə bilərik?

## Variantlar

Qrupunuzun reallıqlarına daha yaxın olan digər əlillik növlərini, daha görünməz olanlar daxil olmaqla, məsələn, öyrənmək və ya dildə çətinliklər, simulyasiya edə bilərsiniz. Yaşla bağlı əlilliyi də simulyasiya edə bilərsiniz; bu yolla qrupdakı gənclərin yaşlılar və onların layiqli həyat şərtləri (olmaması) ilə bağlı məlumatlılığını artıra bilərsiniz.

## Sonrakı fəaliyyət üçün təkliflər

Əgər uşaqlarla işləyirsinizsə, UHK-nın 23-cü maddəsinə baxa bilərsiniz. Həmin maddədə əlil uşaqların tam və layiqli həyat yaşamaq üçün xüsusi qayğı, təhsil və təlimlə təmin olunmaq hüququ qeyd olunur. İştirakçılardan öz sosial mühitlərində (ailə daxil olmaqla) əlilliyin müəyyən formasından əziyyət çəkən şəxslər barəsində məlumat tapmağı xahiş edə bilərsiniz. İştirakçılar bu şəxslərin hansı xidmətlər və imkanlarla təmin olunduğunu araşdıra bilər. Gənclər qrupu, assosiasiya və ya məktəbinizdə əlilliyi olan uşaqlar var? Onlar digərləri ilə eyni cür yaşaya bilirlər? Belə deyilsə, niyə?

Əgər qrup rol oynamağı xoşlayırsa, əlil insanların iş taparkən üzləşdikləri baryerləri araşdırmaq üçün "Mən işləmək istəyirəm" məşğələsini edə bilərsiniz.

Əgər qrup "gündəlik həyat"da ayrı-seçkiliyin digər formasının problemlərinə - irqi əsaslı ayrı-seçkilik – necə cavab verməyi araşdırmaq istəyirsə, 254-cü səhifədəki "İrqçiliiyə cavab vermək" məşğələsini edə bilərsiniz.

## Fəaliyyət üçün fikirlər

Qrup çətin vəziyyətdə olan hər hansı əhali qrupunu müəyyən edə və onları dəstəkləmək üçün nə edə biləcəklərinə/nə etməli olduqlarına qərar verə bilər. İstiqamət verməsi və fikirlər əldə etmək üçün təlimat vəsaitinin "Hərəkətə Keçmək" bölməsinə baxın. Əlil insanlarla işləyən təşkilatlarla birgə işləmək və əlil insanların özləri tərəfindən müəyyən olunmuş ehtiyaclarından başlamaq vacibdir.

## Əlavə məlumat

Müxtəlif ölkələrdə əlil insanların hüquqlarına qayğı göstərilməsi və onların qorunması səviyyəsi kəskin şəkildə fərqlənir. Bunun əsas səbəbi kimi iqtisadi vəziyyət göstərilir, lakin həqiqətdə bərabərlik və sosial həmrəyliyin digər hər şeydən daha vacib hesab olunması ilə bağlı səbəblər daha önəmlidir. Ölkədən ölkəyə vəziyyət dəyişir. Məsələn, karlar üçün eşitmə yardımları sosial təhlükəsizlik tərəfindən ödənə və ya ödənməyə bilər. Kar insanlar üçün əlavə telekommunikasiya avadanlığı xüsusi şəkildə təqdim oluna və ya olunmaya bilər, eyni zamanda, elektrikli əlil arabasına ehtiyac varsa, bəzən cəmiyyətdəki digər insanlar və ya dövlət onun xərclərini qarşılaya bilər.

Əlil insanlara qarşı ayrı-seçkiliklə bağlı məlumat Əlillik və Əlil insanlara qarşı ayrı-seçkilik hissəsindən tapıla bilər.

## Paylanmalı materiallar

### Rol kartları

**1-ci vəziyyət.**
Sözlərdən istifadə etmədən, dostunuza zorakılığın şahidi olduğunuzu izah edin. Bir qrup gənc xuliqan parkda sizə hücum edib, çantanızı oğurlayıb və sizi döyüb. Polis məntəqəsinin harada olduğunu soruşun.
Danışa, sözləri yaza və ya kağızda şəkil çəkə bilməzsiniz.

**2-ci vəziyyət.**
Yeməkxanadasınız; məktəbdə və ya Avropa Gənclər mərkəzlərinin birində. Aşpaza veqan olduğunuzdan Spaqetti Bolonez yeyə bilməyəcəyinizi izah edin: siz təkcə əti deyil, istənilən süd məhsulunu yemirsiniz (məs., süd, yumurta və ya pendir) Danışa, sözləri yaza və ya kağızda şəkil çəkə bilməzsiniz.

**Qeydlər**

Bu məşğələ Ortaq Tale Təşkilatının (Közös Sors, əlil və əlil olmayan insanların sosial inteqrasiyasını təbliğ edən macar QHT-si) Prezidenti, Dr. Monika Madai tərəfindən təklif olunmuşdur. O, beynəlxalq gənclər təlimçisi və anadan gəlmə əlil olan insandır.

Din və İnam

Qloballaşma

Təhsil

2-ci səviyyə

İstənilən (5-6 nəfərlik kiçik qruplar)

90 dəqiqə

# Tezliklə köhnələcək

*İndi mümkünsüz olduğunu düşündüyümüz bir şey başqa dövrdə mümkün olacaqdır*

Konstans Beyker Motley

**Mövzular** • Din və İnam
• Qloballaşma
• Təhsil

**Mürəkkəblik** 2-ci səviyyə

**Qrup ölçüsü** İstənilən (5-6 nəfərlik kiçik qruplar)

**Vaxt** 90 dəqiqə

**Xülasə** Bu məşğələdə iştirakçılar inamların necə formalaşdığını, tətbiq olunduğunu və zamanla dəyişdiyini müzakirə edirlər.

**Əlaqədar hüquqlar**
• Düşüncə, vicdan və din azadlığı
• Fikir və ifadə azadlığı
• Cəmiyyətin mədəni həyatında azad şəkildə iştirak etmək hüququ

**Məqsədlər**
• İnamların sosial quruluşunun başa düşülməsini inkişaf etdirmək
• Tənqidi düşünmək və müzakirə bacarıqlarını inkişaf etdirmək
• Açıqfikirlilik və öyrənməyə marağı təşviq etmək

**Materiallar**
• Hər kiçik qrup üçün bəyanat kartlarının bir dəsti
• Hər qrup üçün böyük vərəq və qələmlər

**Hazırlıq**
• Materialın surətini çıxardın, yeni bəyanatlar əlavə edin və ya lazım gələrsə ləğv edin və bəyanatları kəsin. Hər kiçik qrup üçün bir dəst kart düzəldin.

## Təlimatlar

1. Bu məşğələnin inamların zamanla necə dəyişdiyi barəsində olduğunu izah edin. İlk öncə, iştirakçılar keçmiş nəsillərin malik olduğu və indi onların köhnəlmiş hesab etdiyi inamları, daha sonra, özlərinin malik olduğu və onların uşaqları və nəvələrinin köhnəlmiş hesab edəcəyi inamları müzakirə edəcəklər.
2. İştirakçıların "inam" dedikdə nə başa düşdüyü ilə bağlı beyin fırtınası aparın.
3. İştirakçılardan 5 – 6 nəfərlik kiçik qruplara ayrılmağı xahiş edin.
4. Hər qrup böyük vərəqdə qısa qeydlər aparıb ümumi sessiyada məlumat verəcək nümayəndə seçməlidir.
5. Qruplardan bəyanatlara baxıb nənə-babalarının vaxtı ilə müqayisədə dəyişmiş 5 bəyanatı seçməyi və onların üzərində çalışmağı xahiş edin.
6. Seçilmiş kartları sıra ilə götürün və onların nənə-babalarının bəyanatla bağlı malik olduğu inamları müzakirə edin. Həmin inamlar haradan gəlirdi? Onlar özünü necə göstərirdi? Keçmişə nəzər salsaq, onlar müdrik inamlar idi? Niyə/ niyə yox?
7. Bundan sonra, sizin uşaqlarınız və ya nəvələrinizin vaxtında həyatın necə olacağını təsəvvürünüzə gətirin və onların nəyə inanacaqlarını müzakirə edin. Seçilmiş bəyanatlar üzrə onların inamları sizinkindən necə fərqlənəcək? Niyə fərqlənəcək?
8. Qrupları ümumi sessiyaya toplayıb hər qrupdan nəticələrini qısaca bölüşməyi xahiş edin.

1966-cı ildə ABŞ-da ilk qaradərili qadın Federal Hakim olan Konstans Beyker Motley demişdir, "İndi mümkünsüz olduğunu düşündüyümüz bir şey başqa dövrdə mümkün olacaqdır"

## Təhlil və qiymətləndirmə

İlk əvvəl, məşğələni qısa şəkildə nəzərdən keçirin, daha sonra, inamlar və dəyərlərin dəyişdiyi qloballaşmış dünyada yaşamağın çətinliklərini müzakirə edin.

- Qruplarda güclü narazılıqlar olub?
- Müxtəlif qrupların yanaşmaları necə fərqlənir?
- İnamlarımızı haradan əldə edirik? Keçmişdə olanları və gələcəkdə olacaqları təsvir etmək üçün ümumi məsələlər var?
- İnamlar niyə dəyişir?
- Dəyişməyən inamlar var? Əgər belədirsə, onlar hansılardır və niyə? Əgər belə deyilsə, niyə inamlar mütləq deyil?
- Ümumi inamlara malik olmağın üstünlükləri hansılardır?
- İnamlarımız bizi necə məhdudlaşdırır?
- Nə sizi inamlarınızı dəyişməyə vadar edə bilər?
- İnamları dəyişmək nə qədər asandır? Hansı inamları dəyişmək daha çətin və hansıları dəyişmək daha asandır? Niyə?
- İnsanlar özlərini propaqanda və yanlış iddialardan, məsələn, siyasətçilərin uydurmaları, iqlim skeptiklərinin şübhələri və ya qondarma təşkilatlar üçün pul yığmaq məqsədilə edilən hiylələrdən, necə qoruya bilərlər?
- Fikir və ifadə azadlığının məhdudlaşdırılmasına nümunələr gətirin. Bu məhdudiyyətlərə kim tərəfindən qərar verilməlidir?
- Cəmiyyətinizdə, ölkənizdə, Avropa və daha geniş dünyada düşüncə, vicdan və din azadlığının pozulması ilə bağlı nümunələr sadalaya bilərsiniz?

## Fasilitator üçün məsləhətlər

İştirakçılar kiçik qruplarda işləsələr də, bəzi şəxslər müəyyən məsələlərlə bağlı öz fikirlərini bildirməyə utana bilərlər. Bu problemin öhdəsindən gəlməyin bir yolu dostlar və bir-biri ilə özlərini rahat hiss edən şəxslərin birgə işləməsini təmin etmək üçün kiçik qrupların tərkibinə nəzarət etməkdir. Digər üsul, əvvəlcə iştirakçılara daha az "qorxuducu" olan mövzuları təqdim etmək, daha sonra, özünəinam artdıqca mübahisəli məsələləri qaldırmaqdır. İnsan hüquqlarına hörmət etməyin norma olduğu bir dünya qurmaq prosesində bir çox insanların inamları ilə bu və ya digər şəkildə ziddiyyətlər yaranacaqdır.

Belə ki, məşğələnin məqsədi iştirakçılara insanların inamlarının sosial şəkildə formalaşdığını və onların yaşadıqları cəmiyyət və dövrün məhsulları olduğunu izah etməkdir. Məşğələnin sonunda iştirakçıların inamların niyə dərin köklərə malik olduğunu və onlara obyektiv şəkildə yanaşmağın niyə çətin olduğunu başa düşməsi arzuolunandır. Eyni zamanda, iştirakçılar zərərli və ya sadəcə köhnəlmiş inamları dəyişmək üçün təhsilin, aydın və əsaslandırılmış sübutların və inkişaf etmiş tənqidi düşüncə bacarıqlarının əhəmiyyətini anlamalıdırlar.

"İnam" sözü əksər hallarda dinlə bağlı işlədilir, məsələn, insanlar özlərinin "Allaha inanmaqlarından" danışarkən. Buna baxmayaraq, bu, həmin sözün dar çərçivədə istifadəsidir və siz bütün iştirakçıların sözün mənasını tam şəkildə başa düşməsini təmin etməlisiniz. İnam doğru olduğu güman edilən fikirdir. Buna görə də, hər şey inamdır. Biz ətrafımızdakı dünyanı başa düşmək üçün inamlar yaradırıq və onları formalaşdırdıqdan sonra həmin inamlara bağlı qalırıq. http://changingminds.org saytında inamların nə olduğu, necə formalaşdığı və onların funksiyaları haqqında zəngin məlumat var.

## Variantlar

63-cü səhifədəki "Bəyanat tapşırığı" metodundan istifadə edərək bəzi fikirləri qrupa təqdim edin. Bu variantda iştirakçılar fikir bildirmək məcburiyyətində deyillər; onlar məsələləri daha yaxşı başa düşmək üçün digərlərinin fikirlərinə qulaq asa bilərlər.

**ƏSAS TARİX**

**5 oktyabr**
Dünya Müəllimlər Günü

"Uydurmaq" məlumatı və ya vəziyyəti xüsusi formada, öz fikirləriniz və özünüzü yaxşı göstərməklə təqdim etməkdir. (Oksford Lüğətindən)

## Sonrakı fəaliyyət üçün təkliflər

Müzakirələrin necə getdiyindən asılı olaraq, “Gəlin cins barəsində danışaq!” və ya “İnananlar” məşğələləri vasitəsilə şəxsi münasibətlər barəsində inamları araşdıra bilərsiniz. Əgər din və inam azadlığı məsələsinə toxunmaq istəyirsinizsə, “Slipivildə məscid” məşğələsi vasitəsilə ənənəvi xristian ərazisində yeni məscidin tikilməsi üzrə şəhər şurası iclasında aparılan müzakirənin simulyasiyasını edə bilərsiniz.

## Fəaliyyət üçün fikirlər

Dostlarınız və ya sinif yoldaşlarınız ilə birlikdə yerli icmanızdakı insanlara qarşı qərəz və ya ayrı-seçkiliyə gətirib çıxaran ümumi bir inamı seçin, məsələn kontraseptiv vasitələrdən istifadə, abort, ictimai münasibətlər və ya qız/oğlan rolları ilə bağlı inamları. Bu məsələləri daha yaxşı başa düşmək üçün QHT və ya digər təşkilatın nümayəndəsini məlumat verməyə dəvət edin. Daha sonra, nə etmək istədiyinizə qərar verin.

Eyni zamanda, yerli icmanıza göstərmək üçün seçilmiş mövzu üzrə tamaşa hazırlaya və təqdim edə bilərsiniz. Əgər tamaşanızı beynəlxalq və ya Avropa xatırlama günlərindən birinə salsanız, tamaşaçıları gəlib ona baxmağa toplamaq daha asan olacaqdır.

Əgər özünüzü rahat hiss edirsinizsə, bu məşğələni dostlarınız, ailəniz və iş yoldaşlarınızla qeyri-rəsmi mühitlərdə istifadə etməyə uyğunlaşdırın. Onların müəyyən məsələlərlə bağlı fikirlərini/ inamlarını öyrənin. Bununla belə, bəzi şəxslərin müəyyən məsələrlə bağlı həssas ola biləcəyini nəzərə alın.

## Əlavə məlumat

İnam təklif, bəyanat və ya fikrin doğruluğuna olan gümandır. İnsanlar nəyinsə doğruluğuna müxtəlif səbəblərdən inana bilərlər: onu gördüklərinə/şahidi olduqlarına görə və ya şəxsi təcrübələrinə əsasən, inanmaq üçün yaxşı sübutlar olduğuna görə və ya etibar etdiklərinə görə.

Etibar şəxsin, fikrin və ya məsələnin doğruluğuna və etibarlılığına əminliklə inanmaqdır. Səlahiyyətli şəxs belə dediyindən müəyyən inamın doğruluğu qəbul edilir. Bəzi dini kontekstlərdə xüsusi yanaşmalar özünü göstərə bilər.

İnsan hüquqları mədəniyyətini təbliğ etmək üçün inamların necə formalaşdığını başa düşmək vacib addımdır. İnamların formalaşması və onlarla hərəkətlər arasındakı əlaqələri öyrənən psixoloqlar inamların formalaşmasının müxtəlif yollarını aşkar ediblər.

- Uşaqlığımızda bizim ətrafımızdakı insanların inamlarını qəbul edirik. Albert Eynşteynin intuisiyanın on səkkiz yaşına qədər əldə etdiyimiz qərəzlərin yığını olduğunu dediyi iddia edilir. Siyasi inamlarımız əsasən yaşadığımız cəmiyyətdə geniş şəkildə qəbul olunan siyasi inamlardan asılıdır. Əksər insanlar uşaqlıqda onlara öyrədilən dinə inanırlar.
- İnsanlar xarizmatik liderin inamlarını, hətta onlar əvvəlki inamlara tam əks olsa və inanan şəxslərin maraqlarına uyğun gəlməyən nəticələrə aparsa belə, qəbul edə bilərlər. Bu hallarda, rasional insanlar özlərinin birbaşa reallıqlarını inam və ziddiyyətlərlə uyğunlaşdırmağa cəhd edirlər. Bu isə bilik dissonansı adlandırılır.
- Təkrarlanma və assosiasiyalar inamları formalaşdırır, məsələn, cinsi əlaqə, sevgi və ya digər güclü müsbət hislərin şəkilləri. Bu, reklam sənayesinin başlıca vasitəsidir.
- Fiziki travma, xüsusilə də başa zərbə, insanın inamlarını kəskin şəkildə dəyişə bilər.
- Buna baxmayaraq, hətta təhsilli insanlar belə, inamların formalaşması prosesindən xəbərdar olsalar da, öz inamlarına bağlı qalırlar və bəzən onların maraqlarına əks olan inamlar əsasında hərəkət edirlər.

2010-cu ildə Dünya Müəllimlər Günü ilə bağlı keçirilən tədbirlərdə Sulliya Nehru Xatirəsinə Kollecdən Prabakara Şişila demişdi, “müəllimlər tələbələrdə rasional düşüncənin keyfiyyətini artırmalıdırlar.” Razısınız?

## Paylanmalı materiallar

| | | | |
|---|---|---|---|
| Dünya müstəvi şəklindədir | Ölüm cəzası əsaslandırıla bilər | Evlilikdən əvvəl cinsi əlaqə günahdır | İnsanlar cinsi əlaqə ilə ötürülən xəstəlikdən bakirə ilə cinsi əlaqədə olub xəstəliyi ona ötürməklə qurtula bilərlər |
| Kral, ölkə və din uğrunda ölmək şərəfdir | Siqaret çəkmək sağlamlıq üçün o qədər də pis deyil | Narkotik və spirtli içkidən istifadə ilə bağlı inamlar | İrqlər dəri rəngi, üz forması, kəllənin şəkli, saçın forması, ölçüsü, materialı və rəngi ilə fərqləndirilə bilər |
| Uşaqların böyüdülməsi və nizam-intizamla bağlı inamlar | Müxtəlif irqlər mənəvi xarakter və ağılda fərqləri əks etdirir | Əqli xəstəlik utandırıcıdır | Ailədə qadın və kişilərin rolu ilə bağlı inamlar |
| Ət yeməklə bağlı inamlar | Polis və digər səlahiyyətli qurumlara hörmətlə bağlı inam | Sunami və tornadolar Allahın bəşəriyyətin günahlarına görə cəzalarıdır | Abort və surroqat valideynliklə bağlı inamlar |
| Kontrasepsiya və kontraseptiv vasitələrdən istifadə ilə bağlı inamlar | Cinayətkara qarşı rəftarla bağlı inamlar: həbs və reabilitasiya | Pornoqrafiya və fahişəlik barəsində inamlar | Eyni cinsdən olan insanların evlənməsi ilə bağlı inamlar |
| Müalicəsi olmayan xəstəliyə düçar olmuş xəstələrin sui-qəsdinə yardım etməklə bağlı inamlar | Çəhrayı rəng qız uşaqları, mavi rəng isə oğlan uşaqları üçündür | Kişi və qadınların eyni işləri edə bilməsi barəsində inamlar | Qızlar və oğlanlar fərqli oyunlar oynamalıdır |
| Evlilikdən kənar münasibətlər üzrə inamlar | Döymələr və pirsinq barəsində inamlar | Nigahdan kənar uşaq sahibi olmaqla bağlı inamlar | Küfrlə bağlı inamlar |
| Heç birə dinə inanmamaqla bağlı inamlar | Geyimsiz gəzmək/naturist olmaqla bağlı inamlar | Seksuallıqla bağlı inamlar | Boşanma və tək valideynlərlə bağlı inamlar |

Əlillik və onlara qarşı Ayrı-seçkilik

Mədəniyyət və İdman

Sağlamlıq

2-ci səviyyə

İstənilən (6-8 nəfərlik kiçik qruplar)

120 dəqiqə

# Hamı üçün idman

*Heç əlil arabasında basketbol oynamısınız?*

| | |
|---|---|
| **Mövzular** | • Əlillik və əlil insanlara qarşı ayrı-seçkilik<br>• Mədəniyyət və İdman<br>• Sağlamlıq |
| **Mürəkkəblik** | 2-ci səviyyə |
| **Qrup ölçüsü** | İstənilən (6-8 nəfərlik qruplar) |
| **Vaxt** | 120 dəqiqə |
| **Xülasə** | Bu məşğələ yüksək enerji tələb edir. İştirakçılar yeni oyunlar hazırlamaq üçün təxəyyül və kreativlikdən istifadə edirlər. |
| **Əlaqədar hüquqlar** | • Fiziki və mənəvi sağlamlığa malik olmaq hüququ<br>• Ləyaqət və hüquqlarda bərabərlik<br>• İstirahət hüququ |
| **Məqsədlər** | • İdman məşğələlərindən sosial və siyasi təcrid barəsində məlumatlılığı artırmaq<br>• Komanda işi, əməkdaşlıq bacarıqlarını və kreativliyi inkişaf etdirmək<br>• Hörmət və inteqrasiyanı, xüsusilə əlil insanlarla bağlı, təşviq etmək |
| **Materiallar** | • Açıq məkan<br>• Papaq<br>• Rol kartları<br>• Bintlər (elastik bintlər ən yaxşıdır)<br>• Taxta və ya oxşar material bloku (ayağın altına bağlamaq üçün, təqribən 30sm x 12sm x 10 sm hündürlükdə)<br>Hər kiçik qrup üçün bir alət dəstiniz olmalıdır.<br>Təkliflərə aiddir:<br>• böyük vedrələr və ya kağız üçün zibil qabları<br>• Qalın ip/ kəndir topu<br>• Toplar<br>• Qəzetlər<br>• Sərhədləri çəkmək üçün təbaşir hissələri<br>• Avadanlığı düzəltmək üçün qayçı və skoç |
| **Hazırlıq** | • Əlilliyin hansı növlərinin məşğələdə təmsil olunmasını istədiyinizə qərar verin və rol kartlarını seçin; göz bağı, qulaqcıqlar, bintlər və digərlərini uyğun şəkildə bir yerə yığın.<br>• Rol kartlarının dəstlərini hazırlayın və hər qrup üçün hazır qoyun.<br>• Hər kiçik qrup üçün qalan alətlərin bir dəstini hazırlayın. |

## Təlimatlar

1. İştirakçılara Dünya Çağırış Günü barəsində danışın və tapşırığın Hamı üçün İdman ruhunda yeni bir oyun hazırlamaq olduğunu izah edin. Yeganə şərt oyunda iştirakçıların ürək döyüntüsünü 15 dəqiqə ərzində davamlı artıran fiziki məşğələnin müəyyən formasının olmasıdır.
2. İştirakçılardan kiçik qruplara ayrılmağı xahiş edin.

3. Rol kartları içərisində olan papağı növbə ilə qruplara aparın və hər iştirakçıdan bir rol kartı götürməyi xahiş edin. Əlillik kartı olan iştirakçılara rola girmək üçün bir neçə dəqiqə vaxt verin, məsələn, göz bağı taxmaq və ya əlini arxada bağlamaq üçün.
4. Hər qrupun Hamı üçün İdman ruhunda hamının iştirak edə biləcəyi oyun hazırlamaq üçün otuz dəqiqə vaxtı olduğunu bildirin. Onlar təqdim olunmuş avadanlığın hamısından və ya bir neçəsindən istifadə edə bilərlər. Yeni oyunun məqsədlərini və qaydalarını müəyyən etmək hər qrupun öz qərarıdır. Qrupdakı hər kəs planlaşdırma və qərar vermədə iştirak etməlidir.
5. Qruplara bir-birlərinin oyunlarını oynamağa imkan verin.

## Təhlil və qiymətləndirmə

Müxtəlif qruplarda olan insanların bir-biri ilə necə qarşılıqlı əlaqədə olması və məşğələni bəyənib - bəyənməməsini nəzərdən keçirməklə başlayın. Daha sonra, oyunları, inteqrasiya və əlilliyi müzakirə edin.

- Oyunu necə dizayn etdiniz? Hansı faktorları nəzərə aldınız? Qrupda əlil insanın olması fərq yaratdı?
- Qruplar necə işlədi? Demokratik yolla yoxsa bir və ya bir neçə nəfər qərar verməklə?
- Əlil olan iştirakçılar: Rolu oynamaq çətin idi? Sizcə, rolu həqiqətə uyğun şəkildə oynaya bildiniz?
- Yekun nəticəyə verdiyiniz töhfədən razı qaldınız?
- Əlil olmayan iştirakçılar: Əlil insanların tam və səmərəli şəkildə iştirakına maneə törədə biləcək halların öhdəsindən gəlmək üçün hansı tədbirləri gördünüz?
- Oyunları hazırlayarkən onların, həqiqətən, Hamı üçün İdman ruhuna uyğun olduğunu deyə bilmək üçün hansı güzəştləri etməli oldunuz?
- Sizcə, ölkənizdə gənc və əlil olmaq necədir? Onların üzləşdiyi məxsusi çətinliklər hansılar ola bilər?
- Sizcə, əlil insanların hüquqlarına tam şəkildə hörmət olunur? Əgər belə deyilsə – ən az hörmət olunan hüquqlar hansılardır və bunun əsas səbəbləri nələrdir?
- Reallıqda müəyyən qruplar idmandan necə təcrid olunur? Təcrid olunma onların insan hüquqlarının pozulmasıdır?

## Fasilitator üçün məsləhətlər

Qrupların "qarışıq" olmasını təmin edin, məsələn, hündür və alçaq boylu insanlar, eynəkli və eynəksiz insanlar, müxtəlif gender, yaş, atletik bacarıqları olanlar və s.

Rollar bölüşdürülərkən hər qrupda ikidən artıq əlil insan olmamalıdır. Hər qrupda eyni və ya fərqli əlillik ola bilər. Əgər qruplarda eyni əlillik varsa, onlar sonradan bənzər çətinliklərin öhdəsindən necə gəldiklərini müqayisə edə bilərlər. Əgər qruplarda fərqli əlillik varsa, qrupların bütün əlillik formalarını nəzərə aldığını yoxsa məhz həmin qrupda təmsil olunan əlilliyə uyğun oyun dizayn etdiyini öyrənmək maraqlı olar.

Qrupdan asılı olaraq məşğələyə oyunların ümumi xüsusiyyətləri üzrə cəld beyin fırtınası sessiyası ilə başlaya bilərsiniz. Məsələn, oyunların aydın şəkildə müəyyən edilmiş məqsədləri, obyektivləri və qaydaları olmalıdır. Siz, həmçinin, bəzi məhdudiyyətlər gətirə bilərsiniz, məsələn, oyun müəyyən məkan çərçivəsində oynanmalıdır və ya ümumilikdə 20 dəqiqədən artıq çəkməməlidir.

Əgər qruplar tapşırığı tamamlaya bilməsə və ya nəticələrindən razı qalmasa, bunun reallığı əks etdirdiyini və məşğələnin (yaxud qrupun) uğursuzluğa düçar olması sayılmadığını qeyd edin. Təhlildə nəticəyə nail olunmamasına və ya bəzi iştirakçıların nəticədən narazı olmasına səbəb olan faktorları müzakirə etməlisiniz.

**ƏSAS TARİX**

**26 may**
Dünya Çağırış Günü

Təhlildə iştirakçılar təcrid olunma və ayrı-seçkiliyin böyük məsələlər olmadığını və insanların adətən bacarıqlı olduqları idman növünü seçdiyini deyə bilərlər. Məsələn, hündür insanlar basketbol oynayır və az enerjisi olanlar şahmat və ya bilyardla məşğul olur. Bununla belə, bütün diqqət və yarışlarda iştirak imkanları yalnız uğur əldə edəcək gənclərə yönəlir və əyləncə üçün idmanla məşğul olanlara az diqqət ayrılır. Bəzi idman növləri ilə yalnız zəngin insanlar məşğul ola bilir, məsələn, avadanlığı və ya məşqləri bahalı olan idman növləri.

## Variantlar

Əgər bu məşğələdən əsasən komanda işi bacarıqlarını inkişaf etdirmək üçün istifadə etmək istəyirsinizsə, bir qrupdan əməkdaşlığa əsaslanan, digərindən isə rəqabət əsaslı oyun qurmağı xahiş edin. Təhlildə, oyunların hər birinin nə qədər xoşagələn olduğunu müzakirə edə bilərsiniz.

Bu məşğələdən "oyunun qaydaları" kimi bərabərlik, ədalət və insan hüquqlarının roluna baxmaq üçün istifadə edə bilərsiniz. Bu halda, siz "əlillik" elementini kənara qoyub iştirakçıların oyunları qurmaq üçün necə bir yerdə işlədiklərinə baxa, hamının, eləcə də əlillər və ya digər qrupların iştirak edə bilməsi məsələsini müzakirəyə saxlaya bilərsiniz.

Yaxşı qaydalar, insan hüquqları kimi, bəzi oyunçuların digərlərinə qarşı gücdən istifadəsini məhdudlaşdıraraq oyunun ədalətliliyini təmin etmək üçün mövcuddur. İnsan hüquqları universal olduğu kimi qaydalar da bütün oyunçulara şamil olunmalıdır. Bir çox qaydalar hüquqla bərabər öhdəlik də gətirir. Məsələn, futbol oyunçusu topa təpiklə vura bilər, digər oyunçuya isə yox. Qaydalar pozulduqda cərimələr tətbiq olunur.

Qaydaları dəyişmək üzrə qərarların verilməsi prosesi "real həyatda" qanunların dəyişdirilməsi ilə müqayisə oluna bilər. Onlar sərəncam, qanunvericilik və ya insanların iştirak etdiyi referendum vasitəsilə yaxud QHT-lər və digərləri ilə məsləhətləşmələr aparmaqla dəyişdirilir?

Təhlildə müzakirə edə bilərsiniz:

- Oyunçular ən çox hansı oyunları bəyəniblər? Oyunu "yaxşı oyun" edən nədir?
- Hər kəsin iştirak edə bildiyini hiss etməsi üçün aydın şəkildə müəyyən edilmiş məqsəd və ədalətli qaydalar nə dərəcədə əhəmiyyətlidir?
- ÜİHB maddələri plüralist dünyada yaşamaq üçün qaydalar kimi görülə bilər. Lakin onlar yaxşı qaydalardır? Məsələn, onlar universal şəkildə bütün oyunçular tərəfindən qəbul olunur (dünyadakı hamı tərəfindən)? Kifayət qədər yoxsa həddən artıq çox qayda var? Qaydalar ədalətlidir? Bütün oyunçular (bütün ölkələr) qaydalara əməl edir?

## Sonrakı fəaliyyət üçün təkliflər

Əgər qrup bərabərliklə bağlı digər məsələləri nəzərdən keçirmək istəyirsə, 244-cü səhifədəki "Bərabərlik ölkəsinə yol" məşğələsi vasitəsilə gender bərabərliyi məsələlərini araşdıra bilərsiniz. 263-cü səhifədəki "Var-dövlət və güc uğrunda mübarizə aparmaq" simulyasiya məşğələsi isə var-dövlətdəki bərabərsizliyə toxunur. Məşğələ, həmçinin, əlil insanların üzləşdiyi şəraitdə də əks olunan bərabər imkanların təmin olunması məsələsini qaldırır.

## Fəaliyyət üçün fikirlər

Əməkdaşlığa əsaslanan "İdman günü" təşkil edin. Digər klublardan gəncləri yeni oyunlarınızı oynamaları üçün dəvət edin. Qrup oyunu mümkün qədər inklüziv etmək üçün qərar verməlidir.

TAFISA ilə əlaqəyə keçin və oyunlarınızı Dünya Çağırış Gününə töhfə kimi təqdim edin. Ərazinizdə əlil insanları dəstəkləyən yerli təşkilatlarla əlaqəyə keçin və necə töhfə verə biləcəyinizi öyrənin. Məktəb, klub və ya görüş yerinizlə bağlı sorğu keçirdin və onun əlil insanlara uyğun olması üçün edə biləcəyiniz sadə dəyişikliklərlə bağlı təkliflər hazırlayın.

## Əlavə məlumat

**TAFISA** bütün qitələrdə 130-dan artıq ölkədən 200-dən çox üzvü olan aparıcı beynəlxalq Hamı üçün İdman təşkilatıdır. O, BOK, ÜST, BİEFMŞ və YUNESKO ilə əməkdaşlıq edərək praktiki proqramlar və tədbirlər təşkil edir.

http://www.tafisa.net

Dünya Çağırış Günü (WCD) TAFISA tərəfindən təşkil olunur. Bu gün Hamı üçün İdmanda dostluğa əsaslanan beynəlxalq yarış və dünyanın müxtəlif yerlərindən olan icmaların bir-birinə qarşı rəqabət apardığı fiziki məşğələdir. İstənilən şəxs onda iştirak edə bilər. Dünya Çağırış Günü yalnız bir neçə min sakini olan icmalardan tutmuş dünyanın ən böyük şəhərlərinə qədər hamını əhatə edir. Məqsəd fiziki məşğələ və Hamı üçün İdmanı, yalnız rəqabətə əsaslanan idman növləri və idmanla məşğul ola bilən fəal insanlar baxımdan deyil, əksinə məşğələnin bütün növlərini istənilən yaş, gender və bacarıq səviyyəsindən olan insanlar arasında təbliğ etməkdir. Yeganə kriteriya oyunların iştirakçıların ürək döyüntüsünü 15 dəqiqə ərzində davamlı artırmasıdır. www.tafisa.net

**Gənclərin Olimpiya Oyunları:** Gənclərin Olimpiya Oyunlarının (YOG) keçirilməsində məqsəd dünya üzrə gəncləri idmanla məşğul olmağa, Olimpiya dəyərlərini qəbul edib onlarla yaşamağa ruhlandırmaqdır.

**Paralimpiya:** Beynəlxalq Paralimpiya Komitəsi (IPC) paralimpik atletlərin idmanda uğur qazanması və əlil insanlar üçün başlanğıc səviyyədən yüksək səviyyəyə qədər idmanla məşğul olmaq imkanlarının təmin edilməsi üçün çalışır. Bundan əlavə, IPC cəsarət, qətiyyət, həvəs və bərabərlik kimi Paralimpik dəyərləri təbliğ edir.

http://www.olympic.org

www.paralympic.org/IPC

Siz – özünüz və iştirakçılar üçün – Karlar, kar və çətin eşidən insanlar arasındakı aşağıdakı fərqləri nəzərə almağı uyğun hesab edə bilərsiniz:

**Karlar:** bir çox kar insanların əldə etdiyi mədəni, linqvistik və siyasi kimlikdir. Karlar cəmiyyətinə üzv olan şəxslər həmin qrupun məxsusi mədəni normalar, dəyərlər və ənənələrini qəbul edirlər. Onun üzvləri adətən əsas dil kimi işarə dilindən istifadə edirlər.

**Kar:** normal nitq və ümumi səsləri eşidə bilməməyi təsvir etmək üçün istifadə olunan anlayış; eşitmə qabiliyyətini itirməyin tibbi təsviri.

**Ağır eşitmə:** Eşitmə qabiliyyətini itirməyin müxtəlif səviyyələrində olan, danışıq dili və dodaqları oxumaqla ünsiyyət quran insanlara şamil edilir. Ağır eşidən şəxs eşitmə üçün yardımdan və/və ya koklear implantlardan istifadə edə və mövcud eşitmə qabiliyyətini yardımçı eşitmə cihazları ilə gücləndirə bilər. Şəxs tibbi cəhətdən kar sayılsa belə, texniki yardım, inteqrasiya olunmuş mühitdə böyümə və təhsil alma vasitəsilə ağır eşidən şəxs kimi yaşaya bilər.

Əlillik və insan hüquqlarının tərifləri və onlar barəsində məlumat www.coe.int/compass linkindən 5-ci bölmədəki Əlillik və əlil insanlara qarşı Ayrı-seçkilik bölməsindən tapıla bilər.

## Paylanmalı materiallar

### Rol kartları

**Siz kar insansınız.**
Bir neçə qulaqcıq götürün. Danışa bilərsiniz (lakin eşidə bilməzsiniz).
Rolunuzu həddi aşmadan və ya stereotiplərə əsaslanmadan real şəkildə təqdim etməyə çalışın.

**Siz ağır eşidən şəxssiniz.**
Qulaqlarınıza qoymaq üçün pambıq götürün. Rolunuzu həddi aşmadan və ya stereotiplərə əsaslanmadan real şəkildə təqdim etməyə çalışın.

**Siz əlil arabasından istifadə edirsiniz.**
Əlil arabasında oturun və ondan necə istifadə etməyi öyrənin. Rolunuzu həddi aşmadan və ya stereotiplərə əsaslanmadan real şəkildə təqdim etməyə çalışın.

**Siz bir qolu olan insansınız.**
Bintdən istifadə edib qolunuzun birini arxanıza bağlayın. Rolunuzu həddi aşmadan və ya stereotiplərə əsaslanmadan real şəkildə təqdim etməyə çalışın.

**Siz qolu olmayan insansınız.**
Bintdən istifadə edib hər iki qolunuzu arxanıza bağlayın. Rolunuzu həddi aşmadan və ya stereotiplərə əsaslanmadan real şəkildə təqdim etməyə çalışın.

**Siz axsayan insansınız.**
Bintdən istifadə edib taxta parçasını bir ayağınıza bağlayın, belə ki, bir ayağınızın digərindən uzun olduğunu hiss etməlisiniz. Rolunuzu həddi aşmadan və ya stereotiplərə əsaslanmadan real şəkildə təqdim etməyə çalışın.

**Siz bir ayağı olan insansınız.**
Bintdən istifadə edib bir ayağınızı ombanıza bağlayın, sanki ayağınızın dizdən aşağı hissəsini itirmisiniz. Dayaqları götürün. Rolunuzu həddi aşmadan və ya stereotiplərə əsaslanmadan real şəkildə təqdim etməyə çalışın.

**Siz öyrənməkdə çətinlik çəkən insansınız.**
Siz əsəbisiniz, özünəinamınız aşağıdır və hər bir şeyin sizə çox diqqətlə izah edilməsinə ehtiyac duyursunuz. Rolunuzu həddi aşmadan və ya stereotiplərə əsaslanmadan real şəkildə təqdim etməyə çalışın.

**Siz kor insansınız.**
Göz bağını taxın. Rolunuzu həddi aşmadan və ya stereotiplərə əsaslanmadan real şəkildə təqdim etməyə çalışın.

**Siz lal və kar insansınız.**
Bir neçə qulaqcıq götürün. Siz nə eşidə, nə də danışa bilərsiniz, yalnız işarə dilindən istifadə etməklə, yazmaq və şəkil çəkməklə ünsiyyətə girə bilərsiniz. Rolunuzu həddi aşmadan və ya stereotiplərə əsaslanmadan real şəkildə təqdim etməyə çalışın.

**Siz heç bir əlilliyi olmayan insansınız.**
Rolunuzu həddi aşmadan və ya stereotiplərə əsaslanmadan real şəkildə təqdim etməyə çalışın.

# Bir addım irəli atın

***Hər şey digərlərinin hüquqları və mənim onlara sonsuz hörmətimdən qaynaqlanır.***

Emmanuel Levinas

**Mövzular**
- Ayrı-seçkilik və Dözümsüzlük
- Yoxsulluq
- Ümumi İnsan Hüquqları

**Mürəkkəblik** 2-ci səviyyə

**Qrup ölçüsü** 10 - 30

**Vaxt** 60 dəqiqə

**Xülasə** Biz hamımız bərabərik, amma bəzilərimiz digərlərindən daha bərabərdir. Bu məşğələdə iştirakçılar rol oynayır və həyatdakı imkanları və bəxtlərindən asılı olaraq irəli gedirlər.

**Əlaqədar hüquqlar**
- Ləyaqət və hüquqlarda bərabərlik hüququ
- Təhsil hüququ
- Sağlamlıq və rifahın təmin olunduğu şəraitdə yaşamaq hüququ

**Məqsədlər**
- İmkanların bərabərsizliyi ilə bağlı məlumatlılığı artırmaq
- Təxəyyül və tənqidi düşüncəni inkişaf etdirmək
- Bəxti daha az gətirən insanlara qarşı şəfqəti aşılamaq

**Materiallar**
- Rol kartları
- Açıq məkan (koridor, böyük otaq və ya açıq hava)
- Maqnitofon və ya CD çalan və sakit/rahatladan musiqi
- Papaq

**Hazırlıq**
- Təlimatları diqqətlə oxuyun. “Vəziyyətlər və hadisələr” siyahısını nəzərdən keçirin və birgə işlədiyiniz qrupa uyğunlaşdırın.
- Hər iştirakçı üçün bir ədəd olmaqla rol kartları hazırlayın. Vərəqin (uyğunlaşdırılmış) əllə və ya kserokopiya maşını vasitəsilə surətini çıxardın; zolaqları kəsin, onları qatlayıb papağa qoyun.

## Təlimatlar

1. Sakit musiqi səsləndirməklə rahat atmosfer yaradın. Ya da sadəcə iştirakçılardan sakit olmağı xahiş edin.
2. İştirakçılardan papaqdan rol kartı götürməyi xahiş edin. Kartı özlərində saxlayıb heç kimə göstərməməyi tapşırın.
3. Onları oturmağa (döşəmədə olması üstün tutulur) və rol kartında yazılanı diqqətlə oxumağa dəvət edin.
4. İndi isə onları rola girməyə çağırın. Kömək etmək üçün aşağıdakı suallardan bəzilərini oxuyun, hər sualdan sonra fasilə verin və insanlara düşünmək, özlərini və öz həyatlarını təsəvvürlərinə gətirmək üçün vaxt verin:
   - Uşaqlığınız necə keçib? Necə bir evdə yaşamısınız? Hansı oyunları oynamısınız? Valideynləriniz hansı işlə məşğul olublar?
   - İndi gündəlik həyatınız necədir? Harada sosiallaşırsınız? Səhər, günorta, axşam nə edirsiniz?
   - Həyat tərziniz necədir? Harada yaşayırsınız? Hər ay nə qədər pul qazanırsınız? Boş vaxtınızda nə edirsiniz? Tətilinizdə nə edirsiniz?
   - Nə sizi həyəcanlandırır və nə qorxudur?

Ayrı-seçkilik və Dözümsüzlük
Yoxsulluq
Ümumi İnsan Hüquqları
2-ci səviyyə
10 - 30
60 dəqiqə

5. İndi isə iştirakçılar bir-birinin yanına düzülərkən (başlanğıc sıra) tam sakit olmağı xahiş edin.
6. İştirakçılara vəziyyətlər və ya hadisələrin siyahısını oxuyacağınızı deyin. Hər dəfə onlar bəyanata "bəli" cavabı verə bilərlərsə, bir addım irəli atmalıdırlar. Əks halda, yerlərində qalıb hərəkət etməməlidirlər.
7. Vəziyyətləri bir-bir oxuyun. Hər bəyanatdan sonra fasilə verərək iştirakçıların irəli çıxması və özlərinin digərləri ilə müqayisədə mövqelərini nəzərdən keçirməsi üçün vaxt ayırın.
8. Sonda, hamıdan yekun mövqelərini yadda saxlamağı xahiş edin. Ümumi sessiyada təhlilə keçməzdən əvvəl onlara roldan çıxmaq üçün bir neçə dəqiqə vaxt verin.

## Təhlil və qiymətləndirmə

İştirakçılardan nə baş verdiyini və məşğələ ilə bağlı özlərini necə hiss etdiklərini soruşmaqla başlayın, daha sonra, qaldırılan məsələlər və nə öyrəndikləri barəsində danışın.

- İştirakçılar irəli addımladıqda – addımlamadıqda – özlərini necə hiss ediblər?
- İrəliyə tez-tez addım atan şəxslər nə vaxt digərlərinin onlar qədər sürətlə getmədiyinə diqqət ediblər?
- Kimsə öz əsas insan hüquqlarının pozulduğu məqamlar olduğunu hiss edib?
- İştirakçılar bir-birinin rollarını tapa bilər? (Müzakirənin bu hissəsində iştirakçıların rollarını açıqlamasına icazə verin)
- Müxtəlif rolları oynamaq nə qədər asan və ya çətin idi? Rolunu oynadıqları şəxsin xüsusiyyətlərini təsəvvürlərinə necə gətirdilər?
- Bu məşğələ müəyyən dərəcədə cəmiyyəti əks etdirir? Necə?
- Hər rolda hansı insan hüququna toxunulurdu? Kimsə onun insan hüquqlarına hörmət olunmadığını və ya onlara çıxışının olmadığını deyə bilər?
- Cəmiyyətdəki bərabərsizliyi aradan qaldırmaq üçün, ilk olaraq, hansı addımlar atıla bilər?

## Fasilitator üçün məsləhətlər

Əgər məşğələni açıq havada, xüsusilə də böyük qrupla aparırsınızsa, bütün iştirakçıların sizi eşidə bildiyindən əmin olun! Bəyanatları ötürmək üçün digər fasilitatorları birgə çalışmağa cəlb edə bilərsiniz.

Başlanğıcdakı təsəvvürə gətirmə mərhələsində bəzi iştirakçılar rolunu oynayacaqları şəxsin həyatı barəsində az bildiklərini deyə bilərlər. Onlara bunun vacib olmadığını, təxəyyüllərindən istifadə edib əllərindən gələni etmələrini deyin.

Məşğələnin gücü iştirakçılar arasında məsafələrin artmasının yaratdığı təsirdir, xüsusən, sonda, irəli addım atan və atmayan şəxslər arasında böyük məsafə yaranmasının təsiri. Təsiri artırmaq üçün rolları iştirakçıların real həyatlarına uyğunlaşdırmalısınız. Bunu edərkən, rolları minimum sayda iştirakçının irəli addım ata bilməsinə (yəni "bəli" cavabı verə bilməsinə) uyğunlaşdırın. Həmçinin, böyük qrupla işləyirsinizsə və daha çox rol verməlisinizsə, bu üsulu tətbiq edin.

Təhlil və qiymətləndirmə zamanı iştirakçıların rolunu oynadıqları şəxsin xarakteri barəsində məlumatı haradan aldıqlarını öyrənmək vacibdir. Məlumat şəxsi təcrübə yoxsa digər məlumat mənbələri (xəbərlər, kitablar və zarafatlar) vasitəsilə əldə olunub? Onlar obrazlar barəsində məlumatlarının və təsəvvürlərinin etibarlılığından əmindirlər? Bu yolla siz stereotiplər və qərəzin necə formalaşdığını göstərə bilərsiniz.

Bu məşğələ xüsusilə insan hüquqlarının müxtəlif nəsilləri (mülki/siyasi və sosial/iqtisadi/mədəni hüquqlar) arasında əlaqələrin qurulması və onlara çıxışın təmin olunması ilə bağlıdır. Yoxsulluq və sosial təcrid yalnız rəsmi hüquqlarla bağlı problem deyil, baxmayaraq ki, məsələn, qaçqınlar və sığınacaq axtaranlar da ikinci ilə üzləşir. Əksər hallarda problem bu hüquqlara effektiv çıxışın təmin olunmamasıdır.

**Qeyd**

Bu məşğələ Els van Murik (Başqa Nəsə) və digərlərindən öyrənilmişdir.

ƏSAS TARİX

**15 iyun**
Dünya Ərzaq Günü

## Variantlar

İlk variant bərabərsizlik simvolizminə yeni səviyyəni əlavə edir. Sizin asanlıqla qırılan çox nazik uzun ipə və ya kağız lentə ehtiyacınız olacaq. İştirakçılar başlanğıc xətdə düzüldükdən sonra onların qarşısından yeriyib lenti açın. Siz keçdikcə hər kəs lentdən tutmalıdır, belə ki, sonda, hamı lent boyunca "birləşməlidir". İrəli addım atmaq vaxtı gəldikdə bəzi iştirakçılar hərəkət edib bağı qırmaq və ya yerlərində qalmaq arasında dilemma ilə üzləşəcəklər. Eyni zamanda, arxada qalanlar digərlərini lenti qırmaqda günahlandıra bilər. Buna görə də, iştirakçılara qaydanı xatırlatmaq lazımdır: "hər dəfə bəyanata "bəli" cavabı verdikdə iştirakçılar irəli addım atmalıdırlar. Əks halda, yerlərində qalıb hərəkət etməməlidirlər."

İkinci variant: İlk turu göstərildiyi kimi keçirdin, ikinci turda isə qiymətləndirilməyən bacarıqları üzə çıxarmağa çalışın. İştirakçıların rolları eyni qalır. İkinci turda əvvəlcədən hazırladığınız və vəziyyətləri ilə əlaqədar çətinlikdə olan insanların güclü tərəflərini göstərən bəyanatları ucadan oxuyun.

Məsələn:

- Siz ikidən artıq dil danışır və onları hər gün istifadə edirsiniz.
- Siz fiziki və ya mənəvi əlilliyin öhdəsindən gəlmisiniz və bu, sizə özünəinam və işsiz olmağa dözmək üçün daxili güc verib.
- Siz ölümcül xəstəsiniz və həyatın dəyərini digərlərindən yaxşı bilirsiniz.
- Siz uzaq kənddə böyümüsünüz və iqlim dəyişikliyi nəticəsində dünyanın üzləşdiyi ətraf mühit böhranını dərindən başa düşürsünüz.
- Siz az büdcəylə necə yaşamağı və harada ən sərfəli ticarətin olduğunu bilirsiniz.

Siz bu metoddan ən müxtəlif sahələrdə, məsələn, içməli suya çıxışın olması, siyasi və ya sosial həyatda iştirak, gender məsələlərində olan bərabərsizliyi vurğulamaq üçün istifadə edə bilərsiniz. Başqa məsələni nəzərdən keçirirsinizsə, fərqli rollar və bəyanatlar hazırlamalısınız. Bunu edərkən, potensial olaraq həssas rollar və bəyanatlara diqqət edin.

Daha çox fikir eşitmək və iştirakçıların dərindən başa düşməsini təmin etməyin bir yolu əvvəl kiçik qruplarda işləyib, sonra ümumi sessiyada fikirləri bölüşməkdir. Bu halda, sizinlə birgə işləyəcək fasilitatorların olması vacibdir. Təhlilin ikinci hissəsində - rollar açıqlandıqdan sonra – daha kiçik qruplarda bu metodu sınayın. İştirakçılardan cəmiyyətdə kimin daha az və kimin daha çox imkanlara malik olduğunu araşdırmağı və bərabərsizliyi aradan qaldırmaq üçün hansı ilkin addımların atılmalı olduğunu müəyyən etməyi xahiş edin. Alternativ kimi, iştirakçılardan obrazlardan birini seçib nəyin edilə biləcəyini müəyyən etməyi xahiş edin, yəni onların özlərinin, eləcə də cəmiyyət və hökumətin həmin şəxsə qarşı öhdəlik və məsuliyyətləri nələrdir.

## Sonrakı fəaliyyət üçün təkliflər

İşlədiyiniz sosial kontekstdən asılı olaraq müəyyən mədəni və ya sosial qrupların hüquqlarını müdafiə edən təşkilatlardan nümayəndələri qrupla danışmağa dəvət edə bilərsiniz. Onlardan hansı məsələlərlə bağlı çalışdıqlarını öyrənin və sizin və gənclərin necə kömək edə biləcəyini müəyyən edin. Belə üz-üzə görüş müzakirə zamanı ortaya çıxmış bəzi stereotiplər və qərəzin nəzərdən keçirilməsi və aradan qaldırılması üçün yaxşı imkan ola bilər.

Əgər qrup dünya üzrə təhsilin təmin olunmasındakı bərabərsizlik və bu problemləri aradan qaldırmaq üçün görülən işlər barəsində daha çox məlumat almaq istəyərsə, 158-ci səhifədəki "Hamı üçün təhsil" məşğələsinə baxa bilərsiniz.

Qrup "Bir addım irəli atın" məşğələsində təqdim olunan şəxslərin stereotipləşmiş obrazlarını nəzərdən keçirmək üçün daha çox vaxt ayırmaq istəyə bilər. Siz Hər kəs Fərqli - Hər kəs Bərabər Təhsil Paketindəki "Avro-dəmiryol menyusu" məşğələsini edərək iştirakçılardan qatar kupesini ən çox və ən az necə insanla bölüşmək istədiklərini soruşa bilərsiniz.

### Fəaliyyət üçün fikirlər

Sonrakı fəaliyyət hissəsindən fikirlər götürün. Gənclərin mədəni və ya sosial azlıqlarla işləyən qruplar və təşkilatlara necə kömək edə biləcəyini müəyyən edin və fikirləri həyata keçirin.

## Paylanmalı materiallar

### Rol kartları

| | |
|---|---|
| Siz işləməyən tənha anasınız. | Siz siyasi partiyanın gənclər təşkilatının prezidentisiniz. (hazırdan sizin "ana" partiyanız hakimiyyətdədir). |
| Siz yerli bank menecerinin qızısınız. Universitetdə iqtisadiyyat oxuyursunuz. | Siz uğurlu fast food biznesi olan Çinli miqrantın oğlusunuz. |
| Siz qatı şəkildə dindar olan valideynləri ilə yaşayan ərəb müsəlman qızsınız. | Siz yaşadığınız ölkəyə akkreditə olunmuş amerikan səfirin qızısınız. |
| Siz orduda icbari hərbi xidmət keçən əsgərsiniz. | Siz uğurlu idxal-ixrac şirkətinin sahibisiniz. |
| Siz yalnız əlil arabasında hərəkət edə bilən əlil gəncsiniz. | Siz ayaqqabı istehsal edən fabrikdən təqaüdə çıxmış işçisiniz. |
| Siz ibtidai məktəbi bitirməmiş 17 yaşında romalı (qaraçı) qızsınız. | Siz heroinə qurşanmış gənc rəssamın sevgilisisiniz. |
| Siz QİÇS xəstəliyi olan ortayaşlı fahişəsiniz. | Siz 22 yaşlı lezbiyansınız. |
| Siz işləməyən və işləmək üçün ilk fürsəti gözləyən universitet məzunusunuz. | Siz Afrika mənşəli moda modelisiniz. |
| Siz Əfqanıstandan olan 24 yaşlı qaçqın oğlansınız. | Siz 27 yaşlı evsiz kişisiniz. |
| Siz Malidən olan qeyri-leqal miqrantsınız. | Siz dağlardakı uzaq kənddə yaşayan fermerin 19 yaşlı oğlusunuz. |

**Vəziyyətlər və hadisələr**

Aşağıdakı vəziyyətləri ucadan oxuyun. Hər bəyanatdan sonra iştirakçılara irəli addım atmaq və özlərinin digərləri ilə müqayisədə nə qədər uzağa getdiyinə baxmaq üçün vaxt verin.

- Heç vaxt ciddi maliyyə çətinliyi ilə üzləşməməsiniz.
- Sizin telefon və televizoru olan şəraitli eviniz var.
- Yaşadığınız cəmiyyətdə diliniz, dininiz və mədəniyyətinizə hörmətlə yanaşıldığını hiss edirsiniz.
- Sosial və siyasi məsələlər barəsində fikirlərinizin əhəmiyyətli olduğunu və onlara qulaq asıldığını hiss edirsiniz.
- Digər insanlar müxtəlif məsələlərlə bağlı sizinlə məsləhətləşirlər.
- Polis tərəfindən dayandırılmaqdan qorxmursunuz.
- Ehtiyacınız olarsa, məsləhət və kömək üçün kimə müraciət edəcəyinizi bilirsiniz.
- Mənşəyinizə görə sizə qarşı heç vaxt ayrı-seçkilik olunmayıb.
- Ehtiyaclarınız üçün lazımi sosial və tibbi mühafizəniz var.
- İldə bir dəfə tətilə gedə bilirsiniz.
- Dostlarınızı evinizdə axşam yeməyinə dəvət edə bilirsiniz.
- Maraqlı həyatınız var və gələcəklə bağlı pozitivsiniz.
- Seçdiyiniz peşəni oxuyub işləyə biləcəyinizi hiss edirsiniz.
- Küçələrdə və ya KİV-də hücuma və təhqirə məruz qalmaqdan qorxmursunuz.
- Milli və yerli seçkilərdə səs verə bilirsiniz.
- Ən vacib dini bayramlarınızı yaxın dostlarınız və qohumlarınızla qeyd edə bilirsiniz.
- Xaricdə keçirilən beynəlxalq seminarda iştirak edə bilirsiniz.
- Həftədə bir dəfə kinoya və ya teatra gedə bilirsiniz.
- Uşaqlarınızın gələcəyi sizi qorxutmur.
- Ən azından hər üç aydan bir təzə paltar ala bilirsiniz.
- Seçdiyiniz şəxsə aşiq ola bilirsiniz.
- Yaşadığınız cəmiyyətdə bacarıqlarınızın qiymətləndirildiyini və onlara hörmət edildiyini hiss edirsiniz.
- İnternetdən istifadə edə və faydalana bilirsiniz.
- İqlim dəyişikliyinin nəticələrindən qorxmursunuz.
- Senzura qorxusu olmadan İnternetdəki bütün saytlardan azad şəkildə istifadə edirsiniz.

# İki şəhərin nağılı

*Sivilizasiya bütün insanlara bərabər hörmətə əsaslanan yaşamaq üsulu və yanaşmadır.*

Korazon Akino

**Mövzular**
- Vətəndaşlıq və İştirak
- Ətraf mühit
- Əmək

**Mürəkkəblik** 4-cü səviyyə

**Qrup ölçüsü** 4-10

**Vaxt** 90 dəqiqə

**Xülasə** Bu stolüstü oyunda iştirakçılar necə bir şəhərdə yaşamaq istədikləri və hansı imkanlardan faydalanmaq istədikləri ilə bağlı səs verirlər. Əhatə olunan məsələlərə daxildir:
- Sosial həmrəylik
- Vergiləri ödəməyin nəticələri
- Yerli demokratiyanın dəyəri

**Əlaqədar hüquqlar**
- Sosial təhlükəsizlik hüququ
- Şəxsi mülkiyyət hüququ
- Layiqli həyat şəraiti ilə təmin olunmaq hüququ

**Məqsədlər**
- İctimai həyat üçün sosial rifahın əhəmiyyətini başa düşmək
- Ünsiyyət və komanda işi bacarıqlarını inkişaf etdirmək
- Cəmiyyət üçün həmrəylik və məsuliyyətin dəyərini təbliğ etmək

**Materiallar**
- Stolüstü oyunun 1 nüsxəsi
- A3 ölçüdə kart və ya kağız (istəyə görə, lakin lazımlıdır)
- 1 zər
- İki rəngdə kağız sancaqları (məs., qırmızı və göy). Hər rəngdən bərabər sayda. Hər iştirakçı üçün kifayət qədər sayda.
- Qayçı
- Çıxarıla bilən yapışqanlı saqqız və ya "Blu-tack"
- 4 dəst dəyişiklik kartı
- 2 zərf
- Pul (Hər oyunçuya 6 000 Ems)
- Şəhər Bankirinin tapşırıq vərəqinin 2 nüsxəsi
- Oyun Bankirinin tapşırıq vərəqinin 1 nüsxəsi
- Kağız və qələmlər
- Vaxt ölçən
- Qaydaları nümayiş etdirmək üçün proyektor (istəyə görə)

**Hazırlıq**
- Stolüstü oyun, dəyişiklik kartları və qaydalarla tanış olmaq üçün təlimatları oxuyun.
- Dəyişiklik kartları vərəqindən iki ədəd götürün və onlardan kartları kəsin. Dəstlərin bir-birinə qarışmaması üçün hər dəsti A və ya B ilə işarələnmiş ayrıca zərfə qoyun. (Vərəqlərin digər 2 nüsxəsi şəhər şurası iclaslarında istinad üçün istifadə olunacaqdır)
- Stolüstü oyunun möhkəm və davamlı olması üçün onu karta və ya bərk kağız yapışdırın.
- Bankir rollarını oynamaq üçün üç nəfər seçin. Hər şəhərin bir bankiri və bir nəfər Oyun Bankiri olmalıdır. İki Şəhər Bankirinə onların tapşırıq vərəqini və Oyun Bankirinə onun tapşırıq vərəqini verin.

Bankirlərə oyun ərzində aydın şəkildə fərqləndirilmək üçün kartlar düzəltməyi tapşırın.

- Qrupun qalanını iki bərabər qrupa ayırın. Qruplardan birinə qırmızı, digərinə isə göy kağız sancaqlarını verin.
- Hər oyunçuya kiçik kağız parçasına adını yazıb özünə ad nişanı düzəltməyi və onlar üçün nəzərdə tutulmuş rəngdə kağız sancağı ilə taxmağı xahiş edin.
- Pulu çap edin! 354-cü səhifədəki pulun nüsxəsini çıxardın və əskinaz hazırlamaq üçün kəsin. Hər oyunçu/vətəndaş üçün sizə 6000 Ems lazımdır.

## Təlimatlar

1. Bu məşğələnin stolüstü oyun olduğunu izah edin və lövhəni göstərin. A və B şəhərlərini təmsil edən cığırları qeyd edin. Həmçinin, iki cığırın kəsişdiyi yeri və insanların maaş aldığı, vergilərini ödədiyi və “dəyişmək imkanı” əldə etdiyi, yəni digər şəhərə köçüb orada oynamaq imkanı əldə etdiyi xanaları qeyd edin. 2. Oyunun qaydalarını izah edin (aşağıdakı materiala baxın). Hamının qaydaları başa düşdüyündən əmin olun. Oyunun nə zaman bitəcəyinə qərar verin.
2. Bankirlərdən sadə identifikasiya kartları düzəltməyi xahiş edin ki, oyunçular vergiləri kimə
3. ödəyəcəklərini bilsinlər!
4. Oyuna başlayın! Bitdikdən sonra təhlil və qiymətləndirməyə keçin.

## Təhlil və qiymətləndirmə

Oyunun necə getdiyini nəzərdən keçirməklə başlayın, daha sonra, iştirakçıların nə öyrəndiyini müzakirə edin.

1. İştirakçılar oyunu bəyəniblər? Oyunla bağlı bəyəndikləri və bəyənmədikləri məqamlar hansı olub?
2. Başlanğıcda, iştirakçılar bəzi oyunçuların digərlərindən daha çox vergi ödəməsini ədalətsiz hesab ediblər? Müəyyən qədər oynadıqdan sonra onların fikirləri eyni qalıb?
3. Şəhər şurası iclasları necə gedib? Qərarlar necə qəbul olunub? Demokratik qaydada?
4. Şəhər şurasının qərarları ilə razılaşmayan insanlar özlərini necə hiss ediblər?
5. Kim bir şəhərdən digərinə köçüb? Bunu niyə ediblər?
6. Şəhər şurasının iclasında kimsə icmanın sosial rifahına töhfə vermək üçün öz cibindən pul verib?
7. Bunu niyə ediblər?
8. Oyunun başlanğıcında A və B şəhərlərində sosial şərtlər eyni idi. Sonda, vəziyyət necə idi? Hər hansı fərq var idi? Fərqlər nələr idi?
9. Hansı şəhərdə yaşamağı üstün tutardınız? Niyə? Hamı üçün daha yaxşı həyatı təmin etmək naminə daha yüksək vergiləri ödəməyə dəyər? Yoxsa maaşınızın hamısını özünüzə saxlayıb ehtiyac duyduğunuz və istədiklərinizi almağı üstün tutardınız?
10. Oyunun sonunda iki şəhərlə bağlı vəziyyət necə idi? Onlar ictimai ruhlu sakinlərin sosial rifah üçün vergi ödəməyə hazır olduğu “Bərabərlik şəhəri” yoxsa sakinlərin fərdiyyətçilik etikasına malik olduğu və sosial rifah üçün vergi ödəmək istəmədiyi “Eqo şəhəri” idilər?
11. 1 – 10 şkalasında (1 tam Eqo şəhəri və 10 tam Bərabərlik şəhəri olmaqla) öz cəmiyyətinizi necə qiymətləndirərdiniz?
12. Stoldakı hər xanaya ardıcıllıqla baxın. Hansı insan hüquqları pozulur?
13. Sizin ölkənizdə hər hansı icma və ya qrupun sağlamlıq və rifahın təmin olunduğu layiqli həyat şəraitinə malik olmaq hüququ (ÜİHB-in 25-ci maddəsi) pozulur? Kimlərin və niyə?

## Fasilitator üçün məsləhətlər

Bu məşğələ stolüstü oyunları bacaran şəxslər üçün olduqca asandır, bununla belə, oyunun qaydalarını diqqətlə izah edin. Qaydaları flipçart vərəqində yazmağınız, yuxarı səviyyədə şəffaflığı təmin etməyiniz və oyun qaydaları vərəqinin nüsxələrini paylamağınız oyunçulara kömək edə bilər.

**ƏSAS TARİX**

**1 oktyabr**
Dünya Vətən Günü

http://www.gmlets.u-net.com/

Oyunun uğurlu alınması üçün vətəndaşların sayı maksimum 10 nəfər olmalı və oyunun başlanğıcında hər şəhərdə bərabər sayda vətəndaş yaşamalıdır. Əgər sizdə 16 iştirakçı varsa, bankirlərdən cütlüklər şəklində oynamağı xahiş edə bilərsiniz. Daha böyük qrupla işləyirsinizsə, iki oyun aparın. Bu halda, bütün materialları ikiyə vurun və ikinci oyuna nəzarət etmək üçün başqa fasilitatoru cəlb edin!

Lazımlı məsləhət: oyunu qrupla sınaqdan keçirməmişdən əvvəl, dostlarınız və qonşularınızla oynayın! Beləliklə, siz təlimatları verərkən daha inamlı olacaq və oyunun qaydasında getməsini təmin edə biləcəksiniz.

## Sonrakı fəaliyyət üçün təkliflər

244-cü səhifədəki “Bərabərlik ölkəsinə yol” məşğələsi ilə siz daha bərabər cəmiyyətə nail olunmasına təkan verən və mane olan faktorları araşdıra bilərsiniz. 240-cı səhifədəki “Bizim gələcəyimiz” məşğələsi insanların dəyişikliyi mümkün edən qüvvələrlə bağlı məsələləri araşdırmasına kömək edir və gəncləri görmək istədikləri kimi bir gələcək qura biləcəklərinə inandırır.

## Fəaliyyət üçün fikirlər

Yaşadığınız yer üçün yerli inkişaf planının nüsxəsini əldə edin və onu qrupla müzakirə edin. Narahatlıq doğuran məsələləri araşdırın, məsələn, sizin ərazinizdəki gənclərin gələcək ehtiyacları nələr olacaq və onlar planda necə qarşılanır. Habelə, siz əlillər üçün şərait, küçələrdə təhlükəsizlik və təhlükəsiz velosiped sürməyi təşviq etmək planları ilə maraqlana bilərsiniz. İctimai görüşlərdə iştirak edib səlahiyyətli orqanlara öz fikirlərinizi bildirin və ya bloq yaratmaqla, qəzetə yazmaqla, ictimai görüş yaxud məlumatlılığı artırmaq üçün tədbir təşkil etməklə yerli qurumlardan digər şəxsləri cəlb edin.

Qrup “müştərək büdcə” haqqında daha çox öyrənib dünya üzrə icmaların göstərdiyi təşəbbüslərdən ruhlana bilər. Eyni zamanda, onlar Keçid Şəhərləri barədə araşdırma apara və digərləri ilə bir yerdə iqlim dəyişikliyinin qarşısını almaq və CO2 emissiyasını azaltmaq üçün dayanıqlı tədbirlər görmək məqsədilə yerli təşəbbüs başlada bilərlər.

## Əlavə məlumat

“Müştərək büdcə” ictimai büdcənin xərclənməsi prioritetləri ilə bağlı, məsələn, yerli ətraf mühit layihələri, ictimai şərait, yol təhlükəsizliyi tədbirləri və ya cinayətə qarşı yerli təşəbbüslərlə bağlı qərarlara yerli əhalinin birbaşa cəlb olunmasını nəzərdə tutan demokratik prosesdir. Faydalı linklər tapmaq üçün axtarış motorunuza “müştərək büdcə” daxil edin.

Keçid Şəhərləri, www.transitiontowns.org bütün dünyadan olan və göstərilən suallara cavab tapmağa çalışan insanların şəbəkəsidir: Sizin icmanız ən yüksək səviyyədə olan neft və iqlim dəyişikliyinin yaratdığı problemlərə və imkanlara necə cavab verə bilər? Onlar icma səviyyəsində enerjidən istifadəni azaltmaq və özünə inamı artırmaq üçün çalışırlar. İndiyə qədər olan təşəbbüslərə aşağıdakılar daxildir: ərzaq yetişdirmək üçün ictimai bağçaların yaradılması; biznes tullantılarının mübadiləsi, bir sənayenin tullantıları ondan istifadə edən digər sənayeyə ötürülür; köhnə əşyaları atmaq yerinə onları təmir etmək və yerli mübadilə ticarət sistemlərinin inkişaf etdirilməsi (LETS – www.gmlets.u-net.com).

**Qeyd**

Vergiləri toplamaq və şəhərlərin fondlarını idarə etməyə görə məsul olan şəxslər “bankirlər” adlandırılmışdır. Reallıqda bankirlər bu funksiyaları yerinə yetirmirlər. Bu sözdən istifadə olunmasının səbəbi onun bir çox məhşur stolüstü oyunlarda, məsələn, Monopoliyada istifadə olunmasıdır. Əgər siz “bankir” sözünün uyğun gəlmədiyini hiss edirsinizsə, başqa sözdən istifadə edin, məsələn, “maliyyə administratoru”.

**Avropa Sosial Təhlükəsizlik Kodeksi**

Avropa Şurasının Avropa Sosial Təhlükəsizlik Kodeksi 1968-ci ildə qüvvəyə minib. 2010-cu ilin martında 21 üzv dövlət tərəfindən ratifikasiya olunmuşdur. Bu sənəddə çoxsaylı sosial mühafizə zəmanətləri, o cümlədən:

- Ümumi praktikant və mütəxəssislər tərəfindən göstərilən, eləcə də təcili yardım üzrə tibbi xidmətlər
- İşləməməyə görə müavinət
- Yaşlılığa görə müavinət
- Əlilliyə görə müavinət öz əksini tapmışdır.

**Paylanmalı materiallar**

## Oyunçuların sayı

7 – 13 arası. Üç nəfər bankir rolunu oynayır. Oyunun əvvəlində hər şəhərdə bərabər sayda oyunçu olmalıdır.

## Oyunun məqsədi

Qalib oyunun sonunda ən çox pulu olan oyunçudur.

## Necə oynamalı

1. Üç nəfərdən bankir rolu oynamağı xahiş edin: bir bankir A şəhəri, digəri B şəhəri, üçüncüsü isə Oyun Bankiri olmaqla.
2. Oyunçuların yarısında qırmızı, digər yarısında isə göy ad nişanları olmalıdır.
3. Başlanğıcda, oyunçular iki bərabər qrupa ayrılır. Hər qrupda bərabər sayda “qırmızı” və “göy” oyunçular var. Bir qrup A şəhərindəki cığır boyu, digəri isə B şəhərindəki cığır boyu səyahət edəcəkdir.
4. Bütün oyunçular “başlanğıc və maaş” xanasından başlayır.
5. Oyun ərzində oyunçu yalnız “dəyişmək imkanı” xanasında olarsa, yaşadığı şəhəri dəyişə bilər.
6. Hər oyunçu rənginə uyğun maaşla başlayır:
   • Göy oyunçular: 500
   • Qırmızı oyunçular: 100
7. Kimin başlayacağına qərar vermək üçün zər atın. Ən yuxarı atan başlayır, daha sonra, dövrə boyunca saat istiqamətinin əksinə hər oyunçu növbə ilə oynayır.
8. Öz növbəsində hər oyunçu zəri atır və öz şəhərindəki yol boyunca atdığı rəqəmə uyğun xanalar qədər irəliləyir. Oyunçu müəyyən xanaya çatdıqda oradakı təlimatı ucadan oxuyur və ona əməl edir.
9. Qeyd: Oyunçu arxaya doğru getmək təlimatını yerinə yetirərsə, hədəf xanaya çatdıqda dayanır. O, həmin xanadakı təlimatı yerinə yetirmir.
10. Əgər ödənişin vaxtı çatıbsa və oyunçunun kifayət qədər pulu yoxdursa, oyunçu olduğu xanada qalır və dilənçiyə çevrilir.
11. İki və ya daha artıq oyunçu eyni vaxtda eyni xanada ola bilər.

## Xüsusi Xanalar

### Vergi Töhfəsi

Oyunçu hər dəfə “vergi ödənişi” xanasından keçdikdə vergi ödəməlidir. (Oyunçular xananın üzərindən keçdikdə və orada qalmadıqda belə vergi ödəyirlər). Verginin məbləği oyunçunun maaşı və şəhərdən asılıdır.

A şəhəri 40% əgər maaş 500 və ya daha çoxdursa
10% əgər maaş 100 və ya daha aşağıdırsa
B şəhəri 10% maaşdan asılı olmayaraq

Qeyd: İşləməyən və işləməməyə görə müavinət almayan şəxs heç bir vergi ödəmir. Şəhərdən asılı olmayaraq, işləməyən və müavinət alan şəxs işsizliyə görə müavinətin 10%-ni ödəyir. Vergi müvafiq şəhərin Bankirinə ödənir (A şəhərindəki oyunçular A şəhərinin bankirinə, B şəhərindəki oyunçular isə B şəhərinin bankirinə)

### Maaş

Hər dəfə oyunçu “başlanğıc və maaş” xanasından keçdikdə (xanada durmalı deyilsiniz, ondan sadəcə keçirsiniz) Oyun Bankiri oyunçuya müvafiq maaşı verir. Əgər oyunçu işsizdirsə və şəhərin sosial təhlükəsizlik sistemi varsa, Şəhər Bankiri ona işsizliyə görə müavinət ödəyir.

**Dəyişmək İmkanı**

“Dəyişiklik imkanı” xanasında duran istənilən oyunçu şəhəri dəyişib – dəyişməmək barəsində qərar qəbul edir (A şəhərindən B şəhərinə və ya əksinə). Dəyişmək üçün oyunçu yalnız öz qərarını qalan oyunçulara və bankirlərə elan etməlidir. Növbəti gedişdə onlar digər şəhərdəki cığırla hərəkət edirlər.
Oyunçu şəhəri dəyişirsə, eyni maaşı almağa davam edir, lakin vergini yeni şəhərin vergi sxeminə uyğun ödəyir.

## Şəhər Şurası İclasları

Şəhərdəki bütün oyunçular şəhər şurasının iclaslarında iştirak edirlər. İclas şəhər siyasətinə istənilən dəyişikliyi etmək üçün imkandır.
İclas vergilərin hər 5-ci ödənişində keçirilə bilər. Şəhər Bankirləri onların şəhərində neçə nəfər oyunçunun vergi ödənişi xanasından keçdiyinin qeydiyyatını aparırlar. Hər beşinci şəxs həmin xanadan keçdikdə, bankir iclas çağırır.
Şəhərdəki oyunçular iclası keçirib – keçirməmək barəsində qərar qəbul edirlər.
Şəhər şurasının iclası olduqda oyun dayanır və digər şəhərin oyunçuları da oyuna davam etmək üçün iclasın bitməsini gözləyirlər.
Oyunçuların şəhərin ehtiyacları və siyasətə dəyişikliklər barədə qərara gəlmək üçün 5 dəqiqə vaxtı var. Siyasət variantları dəyişiklik kartlarında göstərilib və vətəndaşlar hansı siyasətlərin “gündəlik”də olduğunu bilmək üçün dəyişiklik kartları vərəqinin nüsxəsinə istinad edə bilərlər (onların seçə biləcəyi variantlar buradadır).
Siyasəti dəyişmək üçün oyunçular şəhər vergilərindən xərcləyib dəyişiklik kartını almalıdırlar. Hər kartda qiymət göstərilib.
Şəhər Şurası yalnız büdcəsinə uyğun gələn dəyişiklikləri edə bilər. Şəhər Bankiri müvafiq məbləği Oyun Bankirinə ödəyir.
Vətəndaşlar istədikləri qədər siyasəti dəyişmək barədə qərar qəbul edə bilərlər, lakin onlar lazımi məbləği ödəyə bilməlidirlər.
Maliyyə çətinliyi çəkən şəhər şurası bir və ya daha artıq dəyişiklik kartını Oyun Bankirinə “geriyə satmaq” barədə qərar qəbul edə bilər. “Geriyə almaq” qiyməti ilkin qiymətin 50%-dir.
Zəngin fərdlər, istədikləri halda, dəyişiklik kartlarını almaq üçün şəhər fonduna töhfə verə bilərlər.
Bankir kiçik həcmdə yapışdırıcıdan istifadə edərək dəyişiklik kartını lövhədə razılaşdırılmış xanaya yapışdırır.

## Dəyişiklik Kartları

Şəhər şurasının öz iclaslarında qəbul edə biləcəyi siyasətləri əks etdirən 17 dəyişiklik kartı var. Dəyişiklik kartları Oyun Bankirindən kartın üzərində göstərilən qiymətə alınır. Kart alındıqda Şəhər Bankiri kartı lövhədə vətəndaşların razılığı ilə seçilmiş xanaya yapışdırır.
İstənilən xana “dəyişdirilə” bilər. Əgər dəyişdirmə vaxtı həmin xanada oyunçu varsa, ona yeni təlimatlar şamil olunmur. Yalnız növbəti oyunçu bu xanada durduqda yeni siyasət qüvvəyə minir.
Şəhər Şurasının iclasında vətəndaşlar/oyunçular şəhər siyasətinə qərar verir və bir və ya bir neçə dəyişiklik kartı alır. Bütün kartlar üçün müvafiq məbləğ ödənməlidir.

## Dilənçilər

Oyunçunun vergiləri və digər ödənişləri ödəmək üçün pulu yoxdursa, olduğu xanada qalır və “dilənçi”-yə çevrilir. Buna baxmayaraq, əgər şəhərdə evsizlər üçün ev varsa, dilənçi, istədiyi halda, olduğu xanada qalmaq yerinə orada yatmağı seçə bilər. Yerini dəyişmək dilənçini borclarından azad etmir.
Dilənçi onun olduğu xanada duran hər oyunçudan pul dilənə bilər. Dilənçiyə pul verib-verməmək hər oyunçunun öz qərarıdır. “Dilənçi” borclarını ödəmək üçün kifayət qədər pul yığdıqda növbəti gedişi gözləyir, borclarını ödəyir, zəri atır və oyuna davam edir.
Dilənçilərin oynamaq növbəsi gəldikdə onlar hər dəfə zəri atırlar. Bu, onlar üçün imkandır.

6 atmaq = Zibil qutusunda 50 Ems tapmaq.
5 atmaq = 20 boş pivə butulkası toplayıb, əgər şəhərin təkrar emal mərkəzi varsa, depozitlər üçün 50 Ems əldə etmək!
4 atmaq = Növbəti keçən şəxsdən 10 Ems almaq.
3 atmaq = Üşümək, enerjisiz olmaq və növbəti gedişdə yatmaq.
2 atmaq = Parkda yatmaq və oturacağın altında 10 Ems-lik əskinaz tapmaq. Əgər şəhər parkı yeniləyibsə, 20 Ems tapmaq.
1 atmaq = Oğurluğun qurbanı olmaq. Aldığınız növbəti ianəni Şəhər Bankirinə vermək.

Dilənçinin qazandıqları onun yaşadığı şəhərin Bankiri tərəfindən ödənir.

## Oyun nə vaxt bitir?

Oyun başlamamışdan oyunçular onu necə bitirəcəkləri barədə qərara gəlirlər. Onlar aşağıdakı variantlardan birini seçə bilərlər:

- ilk oyunçu 20 turu tamamladıqda
- razılaşdırılmış müddətdən sonra, məsələn, 45 dəqiqə.

Qeyd: əgər şəhərlərdən biri müflis olarsa, oyun avtomatik bitəcəkdir.

Qalib oyunun sonunda ən çox pulu olan şəxsdir.

**Dəyişiklik kartları**

| | | | | |
|---|---|---|---|---|
| Parkın üzgüçülük hovuzu və uşaqlar üçün oyun meydançası ilə yenilənməsi. Qiyməti: 200 Ems | Parkı təmizləmək Qiyməti: 100 Ems | Yollar qaydasındadır. Tamamilə yenilənmişdir. 3 xana irəli gedin. Qiyməti: 400 Ems | Yollar normal vəziyyətdədir, deşiklər bağlanıb. Yalnız növbəti Şəhər şurası iclasına qədər dözə bilər. Qiyməti: 200 Ems | İşinizi itirirsiniz! İşsizlik fondu sizə maaşınızın 30%-ni ödəyir. Şəhərin 1000 Ems ehtiyatı olmalıdır. |
| Xəstələnirsiniz. Dövlət xəstəxanası tamamilə subsidiyalaşdırılıb. Yalnız 10 Ems ödəyin. Qiyməti: 600 Ems | Xəstələnirsiniz. Dövlət xəstəxanası qismən subsidiyalaşdırılıb. Müalicə üçün 30 Ems ödəyin. Qiyməti: 400 Ems | Çimərliyə giriş pulsuzdur! Dadını çıxardın! Girişi pulsuz etmək üçün qiymət: 100 Ems | Nəqliyyat problemləri velosiped yolu ilə yüngülləşdirilib. Velosiped yolunun xərci : 150 Ems | Məktəbdə tətil bitib. Əlavə gedişiniz var! Maaşları qaldırmaq xərci: 400 Ems |
| Yeni teatr və kinoteatr açılıb. Qiyməti: 400 Ems. | Atanız təqaüdə çıxıb, lakin pensiya almır. Təqaüd sxemi hazırlayın. Qiyməti: 400 Ems | Oxumaq istəyirsiniz və indi kitabxana var. Əlavə gediş edin. Kitabxananın xərci: 400 Ems | Daha küçə uşağı olmayacaq. Yetimxana tikilib. Yetimxana xərci: 200 Ems | Təkrar emal sistemi zibili azaldır. 3 xana irəli gedin. Təkrar emal sisteminin xərci: 150 Ems |
| Hüquqi probleminiz var. İctimai maliyyələşdirilən vəkil tutun. 2 xana irəli gedin. Xərci: 200 Ems | Evsiz insanlar indi daha rahat yatacaqlar. Onlar üçün sığınacaq açılıb. Xərci: 200 Ems | | | |

Oyun üçün “pul” 354-cü səhifədə verilmişdir.

**Şəhər Bankirlərinin tapşırıq vərəqi**
Şəhərlərin hər ikisi oyuna pulsuz başlayır. Bütün gəlir vergi ödənişi xanasından keçən oyunçuların ödədiyi vergilərdən gələcəkdir.

1. Şəhər Bankirləri “vergi ödənişi” xanasından neçə oyunçunun keçdiyini qeydə almaq üçün hesab vərəqindən istifadə edirlər və hər 5-ci oyunçu bu xanadan keçdikdə şəhər şurasının iclasını çağırırlar.
2. Şəhər Bankirləri öz şəhərlərində vergi ödənişi xanasından keçən hər oyunçudan vergi alırlar.
   Qeyd: Şəhəri dəyişən oyunçular yeni vergiləri ödəyirlər.
   Vergi sxemi aşağıdakı kimidir:
   A şəhəri 40% əgər maaş 500 və ya daha çoxdursa
   10% əgər maaş 100 və ya daha aşağıdırsa
   B şəhəri 10% maaşdan asılı olmayaraq
   Müavinət almayan işsiz vətəndaşlar vergi ödəmir
   Müavinət alan işsiz vətəndaşlar müvainətin 10%-ni ödəyir.

3. Şəhər Bankirlərinin digər tapşırıqları:
   - şəhərin büdcəsinə nəzarət etmək
   - dəyişiklik kartlarını almaq üçün Oyun Bankirinə müvafiq məbləğləri ödəmək
   - dəyişiklik kartlarını şəhər şurası iclasında vətəndaşların razılaşdırdığı xanaya yapışdırmaq
   - şəhərin yaratmağa qərar verdiyi işsizlik fonduna rəhbərlik etmək
   - əgər şəhər sosial təhlükəsizlik sistemi yaratmağa razılaşıbsa, işsizlik müavinəti alan şəxslərə ödəniş etmək. Sistemi qurarkən bankda ən azı 1000 Ems olmalıdır.
   - Şəhərdəki dilənçilərə nəzarət etmək və onlar zər atarkən düzgün oynadıqlarını təmin etmək:
     6 atmaq = Zibil qutusunda 50 Ems tapmaq.
     5 atmaq = 20 boş pivə butulkası toplayıb, əgər şəhərin təkrar emal mərkəzi varsa, depozitlər üçün 50 Ems əldə etmək!
     4 atmaq = Növbəti keçən şəxsdən 10 Ems almaq.
     3 atmaq = Sərxoş olmaq və növbəti gedişdə yatmaq.
     2 atmaq = Parkda yatmaq və oturacağın altında 10 Ems-lik əskinaz tapmaq. Əgər şəhər parkı yeniləyibsə, 20 Ems tapmaq.
     1 atmaq = Oğurluğun qurbanı olmaq. Aldıqları növbəti ianəni və ya növbəti gedişdə qazandıqları pulu Şəhər Bankirinə vermək.

Qeyd: əgər onlar parkda və ya zibil qutusunda pul taparlarsa, pulu onlara siz verirsiniz, oğurluğun qurbanı olduqda isə pulu onlardan alırsınız.

**Vergi ödənişlərinin qeydiyyatı**
Hər dəfə oyunçu “vergi ödənişi” xanasından keçdikdə vergini alın və birinci çevrədə bir seqmentə işarə qoyun. 5 seqment işarələndikdən sonra ilk şəhər şurası iclasını çağırın. Oyun davam edərkən ikinci çevrədəki seqmentləri işarələyin və eyni qayda ilə davam edin.

**1-ci iclas** **2-ci iclas** **3-cü iclas** **4-cü iclas** **5-ci iclas** **6-cı iclas**



**Oyun Bankirinin tapşırıq vərəqi**

Oyunun başlanğıcında bütün pul Oyun Bankirindədir. O, aşağıdakıları təmin etməlidir:

1. Oyunun qaydasınca getməsini
   - oyunu başladın
   - qaydalara əməl olunmasını təmin edin
   - bütün şəhər şurası iclaslarında vaxta nəzarət edin. Onlar maksimum 5 dəqiqə davam etməlidir və
   - əvvəlcədən necə razılaşdırıldığından asılı olaraq, razılaşdırılmış vaxtda və ya oyunçu razılaşdırılmış sayda turu tamamladıqdan sonra oyunu yekunlaşdırın.

2. Qeydlərin aparılması
   - oyunun başlanğıcında hər oyunçunun adını, rəngini və şəhərini qeydə alın
   - hər oyunçunun neçə dəfə “başlanğıc və maaş” xanasından keçdiyini qeydə alın

3. Oyunun başlanğıcında və “başlanğıc və maaş” xanasından keçdikdə hər oyunçuya maaş ödəyin. Hansı şəhərdə olmalarından asılı olmayaraq maaş oyunçuların rənginə görə ödənir:
   - Göy oyunçular: 500 Ems
   - Qırmızı oyunçular: 100 Ems

4. Şəhər Bankirlərindən dəyişiklik kartlarına görə bütün ödənişləri toplayın.

*Hesab vərəqi*

Oyunçuların adlarını rənglərinə uyğun olaraq qırmızı və ya göy qələmlə yazın. Hesabı qeydə almaq üçün beş sütunlu qapı metodundan istifadə etməyiniz məsləhət görülür. İlk dörd tur bir xətlə qeydə alınır ||||, beşinci turda isə onların üstündən xətt çəkilir. Altıncı turda növbəti beş xətlik dəstə başlayırsınız. Bu üsulla turları asanlıqla hesablaya bilərsiniz. Beləliklə, on ikinci turda görüntü aşağıda göstərildiyi kimi olacaqdır: ~~||||~~ ~~||||~~ ||

| **A şəhərinin oyunçuları oyunun əvvəlində** | |
|---|---|
| Oyunçunun adı | “Başlanğıc” xanasından keçidlərin sayı (20-yə qədər) |
| | |
| | |
| | |
| | |
| | |
| | |

| **B şəhərinin oyunçuları oyunun əvvəlində** | |
|---|---|
| Oyunçunun adı | “Başlanğıc” xanasından keçidlərin sayı (20-yə qədər) |
| | |
| | |
| | |
| | |
| | |
| | |

# İki şəhərin nağılı

# Oyun lövhəsi

B ŞƏHƏRİ —>

Yollar dəliklərlə doludur. Səfərlər çox uzun çəkir. Bir gedişi buraxın.

Küçə uşaqları sizi qarət edirlər. 10 Ems verin.

Boş məkan.

Xəstələnirsiniz. Xəstəxana yoxdur. 3 xana geri qayıdın.

Lotereyada qalib gəlirsiniz. 50 Ems alın.

Park çirklidir və yenilənməyə ehtiyacı var. Təmizliyə kömək etmək üçün bir gedişi buraxın.

Axşam etməyə heç nə yoxdur. Darıxırsınız. 3 xana geri gedin.

Atanız pensiya almadan təqaüdə çıxır. Ona kömək etmək üçün 20 Ems ödəyin.

Axşam etməyə heç nə yoxdur. Darıxırsınız. 3 xana geri gedin.

Başlanğıc + Maaş

Küçə uşaqları sizi qarət edirlər. 10 Ems verin.

Boş məkan.

Yollar dəliklərlə doludur. Səfərlər çox uzun çəkir. Bir gedişi buraxın.

Dəyişmək İmkanı

Xəstələnirsiniz. Xəstəxana yoxdur. 3 xana geri qayıdın.

Boş məkan.

Boş məkan.

Boş məkan.

A ŞƏHƏRİ —>

Çimərliyə getmək üçün yaxşı gündür. Çimərliyə girmək üçün 10 Ems ödəyin.

İşinizi itirirsiniz. Təəssüflər!

Hüquqi probleminiz var. Şəxsi vəkil tutun. 50 Ems ödəyin.

Oxumağa heç nə yoxdur. Kitab üçün 10 Ems ödəyin.

COMPASS

**Gənclərlə insan hüquqları təhsili üzrə təlimat vəsaiti**

İşinizi itirirsiniz. Təəssüflər!

Çimərliyə getmək üçün yaxşı gündür. Çimərliyə girmək üçün 10 Ems ödəyin.

Oxumağa heç nə yoxdur. Kitab üçün 10 Ems ödəyin.

İşə geri götürülür. Eyni maaş.

Boş məkan.

Lotereyada qalib gəlirsiniz. 50 Ems alın.

İşə geri götürülür. Eyni maaş.

Zibil yığanlar tətil edir. Xanım İ sizin zibilinizi zibilxanaya aparır.

Evsiz sərxoş sizi narahat edir. Vəziyyəti aydınlaşdırmaq üçün bir gedişi buraxın.

Park çirklidir və yenilənməyə ehtiyacı var. Təmizliyə kömək etmək üçün bir gedişi buraxın.

Avtobus xidməti işləmir. Taksi tutun. 10 Ems ödəyin.

Boş məkan.

Müəllimlər daha çox maaş almaq üçün tətil edir. Uşaqlarınızın qayğısına qalmaq üçün bir gedişi buraxın.

Atanız pensiya almadan təqaüdə çıxır. Ona kömək etmək üçün 20 Ems ödəyin.

Avtobus xidməti işləmir. Taksi tutun. 10 Ems ödəyin.

Evsiz sərxoş sizi narahat edir. Vəziyyəti aydınlaşdırmaq üçün bir gedişi buraxın.

Boş məkan.

Zibil yığanlar tətil edir. Xanım İ sizin zibilinizi zibilxanaya aparır.

Hüquqi probleminiz var. Şəxsi vəkil tutun. 50 Ems ödəyin.

Müəllimlər daha çox maaş almaq üçün tətil edir. Uşaqlarınızın qayğısına qalmaq üçün bir gedişi buraxın.

**Şəhər Şurası İclası**
Hər 5-ci vergi ödənişi

# Terrorizm

*Terrorizm heç vaxt qəbul oluna bilməz.*
*Biz onunla birgə mübarizə aparmalı və bizim qanunun aliliyinə və insan hüquqlarına hörmətimizi tam şəkildə əks etdirən və ya digərləri tərəfindən bəhanə kimi istifadə olunmayan metodlardan istifadə etməliyik.*

Anna Lind

**Mövzular**
- Müharibə və Terrorizm
- Sülh və Zorakılıq
- Qloballaşma

**Mürəkkəblik** 2-ci səviyyə

**Qrup ölçüsü** İstənilən (4-5 nəfərlik kiçik qruplar)

**Vaxt** 90 dəqiqə

**Xülasə** İştirakçılar konkret nümunələr üzrə araşdırmalardan istifadə edərək hadisəni nəyin terror aktına çevirdiyini müzakirə edir və terrorizmin tərifini formalaşdırırlar.

**Əlaqədar hüquqlar**
- Yaşamaq, azadlıq və şəxsi təhlükəsizlik hüququ
- İşgəncə və alçaldıcı rəftara məruz qalmamaq hüququ
- Sülh şəraitində yaşamaq hüququ

**Məqsədlər**
- Terrorizmin səbəbləri və onlara qarşı mübarizə üsullarının başa düşülməsini dərinləşdirmək
- Məlumatı təhlil etmək və tənqidi düşünmək bacarıqlarını inkişaf etdirmək
- Öyrədici yanaşmanı və müstəqil düşüncəni təşviq etmək

**Materiallar**
- Nümunə kartları
- “Nəzərə alınmalı məqamlar” materialı
- Hər kiçik qrup üçün bir A4 vərəqi və qələm
- Flipçart və markerlər

**Hazırlıq**
- Nümunə kartlarının surətini çıxardın və kəsin. Hər qrup üçün bir dəst hazırlamalısınız.
- Hər qrup üçün “nəzərə alınmalı məqamlar” materialının surətini çıxardın.

Müharibə və Terrorizm

Sülh və Zorakılıq

Qloballaşma

2-ci səviyyə

İstənilən (4-5 nəfərlik kiçik qruplar)

90 dəqiqə

## Təlimatlar

1. Qrupdan “terrorizm” sözündən nə başa düşdüklərini soruşun. Bir neçə fikir ətrafında beyin fırtınası aparın və hər kəsin işçi tərif verə bildiyini yoxlayın. İstənilən təklifi flipçartda yazın.
2. İştirakçılara terrorizmə qarşı çoxsaylı beynəlxalq müqavilələr olsa da, onların heç birində “terrorizm” anlayışının tam tərifinin verilmədiyini bildirin! Bunun səbəblərindən biri adətən BMT üzvü olan dövlətlərin davam etməkdə olan münaqişələrlə bağlı fərqli yanaşmalar nümayiş etdirməsi və müəyyən aktları “terrorçu” adlandırıb-adlandırmamaqla bağlı müxtəlif maraqlarının olmasıdır.
3. Üzv olmayan dövlətlər, məsələn, sizin iştirakçılar qrupu tərəfindən tərif verilməsi üçün nələrə ehtiyac olduğunu müzakirə edin. İştirakçılara bu məşğələnin köməyi ilə sessiyanın sonunda terrorizmə öz təriflərini verəcəklərini izah edin.
4. İştirakçıları 4-5 nəfərlik qruplara ayırın və hər kiçik qrupa nümunə kartları dəstini və vərəq verin. Onlardan ardıcıllıqla hər bəyanatı müzakirə etməyi və səbəblərini göstərməklə nümunənin niyə terror aktı sayılıb-sayılmadığına qərar verməyi xahiş edin.
5. Təqribən 20 dəqiqə sonra qrupları yenidən bir araya toplayın və nəticələri dinləyin. Nümunələrdən bəzilərinin terror aktı sayılmamasının əsas səbəblərini qeyd etməyə çalışın.
6. Qruplar arasındakı istənilən fərqləri müzakirə edin və hər tərəfə öz qərarını izah etmək imkanı

verin. İştirakçılardan hansı nümunələrlə bağlı mühakimə yürütməyin ən çətin olduğunu soruşun.

7. İştirakçılardan yenidən kiçik qruplara ayrılıb əvvəlki qərarlarını və müzakirələr zamanı ortaya çıxan istənilən fikirləri nəzərə alaraq, terrorizmə öz təriflərini formalaşdırmağı xahiş edin.
8. 10–15 dəqiqə sonra qruplardan öz təkliflərini təqdim etməyi xahiş edin. Bundan sonra, təhlil və qiymətləndirməyə keçin.

## Təhlil və qiymətləndirmə

- "Terrorizm"-ə tərif vermək təsəvvür etdiyinizdən daha çətin yoxsa asan idi? Niyə?
- Göstərilən nümunələrin reallığı əks etdirdiyini hiss etdiniz: kimsə nümunələrdən istənilən birinin real hadisələrlə bağlı olduğunu "müəyyən etdi"? Hansı hadisələrdən söhbət gedir? Bu hal sizin mühakimənizə təsir etdi?
- Sizin fikrinizcə, BMT üzvü dövlətlərin təriflə bağlı razılığa gəlməsi niyə bu qədər çətindir?
- Terror aktları hansı xüsusiyyətlərinə görə müharibə aktlarından fərqlənirlər (əgər fərqlənirlərsə)? Sizin fikrinizcə, onlardan biri digəri ilə müqayisədə daha əsaslandırılmışdır?
- Sizin fikrinizcə, "terrorizmə qarşı müharibə"də bütün tərəflər üçün (dövlətlər daxil olmaqla) bəzi əsas qaydalar tətbiq olunmalıdır? Heç bir tərəfin etməsinə icazə verilməyən məsələlər olmalıdır? Hansılar?
- Sizin fikrinizcə, nümunələrdə göstərilmiş aktlar necəsə əsaslandırıla bilər? Niyə yaxud niyə yox?
- Müzakirə etdiyiniz nümunələrdə hansı insan hüquqları əhatə olunub?
- Nümunələrdən hər hansı biri "insan hüquqları nöqteyi-nəzəri"ndən əsaslandırıla bilər?
- Niyə insanlar terrorçuya çevrilirlər? Niyə onlar başqalarına ağrı və qorxu gətirən cinayətləri törədirlər?
- Hansı insanların terrorçuya çevrildiyini demək mümkündür? Nəsə barəsində başqasının həyatını alacaq qədər güclü hislərə malik olmağı təsəvvür edə bilirsiniz?
- Vətəndaşları qətlə yetirmək əsaslandırıla bilər? Terrorçunu? İstənilən digər şəxsi?

## Fasilitator üçün məsləhətlər

Bu mövzu olduqca həssas və mübahisəlidir, buna görə də, sizin ona necə yanaşmağınız əsasən regionunuz və ya qrupunuzun spesifik xüsusiyyətlərindən asılıdır. Siz kartlardakı nümunələrdən, eləcə də təhlildəki suallardan uyğun olmayanları istifadə etməyə bilərsiniz. Eyni zamanda, qrupunuzun gündəlik həyatı ilə bağlı nümunələri əlavə edə bilərsiniz.

Məşğələnin effektiv olması üçün iştirakçılar siz və ya digər qrup üzvləri tərəfindən qınağa məruz qalmadan öz fikirlərini ifadə edə biləcəklərini hiss etməlidirlər. Başlanğıcda bunu qeyd edib hamının məxfiliklə bağlı razılığını ala bilərsiniz. İştirakçılara bu məşğələnin məqsədinin çətin suallara insanların "düzgün" hesab etdiyi cavablarla hislərimizin toqquşduğu məqamlar üzərində çalışmaq olduğunu deyin.

Əgər məşğələnin başlanğıcında bir neçə fakt və rəqəmlərlə iştirakçıların marağını artırmaq istəyirsinizsə, terrorizmlə bağlı maraqlı statistikanı www.nationmaster.com saytında tapa bilərsiniz.

6-cı bənddə, qruplar terrorizmə öz təriflərini hazırlayarkən, ümumi nəticələri aydınlaşdırmaq üçün əvvəlki nümunələrdən qeydlər vermək faydalı ola bilər. Təriflər üzərində işləməzdən əvvəl, iştirakçılara "nəzərə alınmalı məqamlar" materialını verə bilərsiniz və ya sonda suallar verməklə müxtəlif tərifləri yoxlaya bilərsiniz.

Terrorizmin insan hüquqları aspektlərini müzakirə edərkən iştirakçıların aşağıdakı məsələlərdən xəbərdar olmasından əmin olun:

a) ÜİHB-in 3-cü maddəsi, Avropa İnsan Hüquqları Konvensiyasının 2-ci maddəsi və bir sıra digər beynəlxalq sənədlərə əsasən hamının yaşamaq hüququ var.

b) Hətta müharibə zamanı – davranış qaydaları beynəlxalq humanitar hüquqla (IHL) tənzimləndikdə – mülki hədəflərə məqsədli şəkildə hücum olunması qadağandır. IHL silahlı münaqişə zamanı bütün tərəflərin əməl etməli olduğu müəyyən əsas qaydaları irəli sürür. (Aşağıda Əlavə məlumat hissəsinə baxın)

## Sonrakı fəaliyyət üçün təkliflər

Qrupu nümunələrdəki hadisələr haqqında daha çox məlumat tapmağa və ya tarixdə baş vermiş digər terrorçu hərəkatlar və onların necə yekunlaşdığı barədə düşünməyə sövq edin.

Qrup insanların zorakılıq aktlarında iştirak etməsinin səbəblərini nəzərdən keçirmək istəyərsə, 299-cu səhifədəki "Daş Atmaq" məşğələsinə baxın. Əgər zorakılığın digər formalarını araşdırmaq istəyirsinizsə, 317-ci səhifədəki "Həyatımdakı zorakılıq" məşğələsindən istifadə edin.

## Əlavə məlumat

Beynəlxalq insan hüquqları və beynəlxalq humanitar hüquqda əlaqədar maddələr:

**İnsan Hüquqları Hüququ: Yaşamaq hüququ**

Ümumdünya İnsan Hüquqları Bəyannaməsi:

"Hər kəsin yaşamaq, azadlıq və şəxsi təhlükəsizlik hüququ var". (3-cü maddə)

Avropa İnsan Hüquqları Konvensiyası:

"Hər kəsin yaşamaq hüququ qanunla qorunacaqdır (...)" (2-ci maddə)

**Beynəlxalq Humanitar Hüquq: Fərqləndirmə Prinsipi**

Beynəlxalq Humanitar Hüquq (IHL) silahlı münaqişə zamanı tətbiq olunan beynəlxalq hüquq sahəsidir.

IHL, özünü müdafiə məqsədilə savaşmasından asılı olmayaraq, silahlı münaqişədəki bütün tərəflərə şamil olunur. O, həm beynəlxalq, həm də beynəlxalq olmayan münaqişələrə tətbiq olunur, eləcə də dövlətə qarşı savaşan silahlı qruplar və dövlətlər onun müddəalarına bərabər səviyyədə əməl etməlidirlər.

IHL-in ən vacib prinsiplərindən biri "Fərqləndirmə prinsipi"-dir. Həmin prinsipə görə, döyüşən tərəflər vətəndaşlar və döyüşçülər, eləcə də mülki və hərbi obyektlər arasında fərq qoymalıdırlar.

Cenevrə Konvensiyalarının I Protokolu:

"Mülki əhali, eləcə də ayrı-ayrı vətəndaşlar hücum obyekti olmayacaqdır. Başlıca məqsədi mülki əhali arasında qorxunu yaymaq olan zorakılıq aktları və təhdidlər qadağan olunur." (51.2-ci maddə)

**Beynəlxalq Humanitar Hüquq: Terrorizm aktlarının qadağan olunması**

Dördüncü Cenevrə Konvensiyası:

"Bütün təhdid və terrorizm aktları, eləcə də bənzər kollektiv tədbirlər qadağan olunur" (33-cü maddə)

Cenevrə Konvensiyalarının 1-ci və 2-ci Protokolları:

"Mülki əhali, eləcə də ayrı-ayrı vətəndaşlar hücum obyekti olmayacaqdır. Başlıca məqsədi mülki əhali arasında qorxunu yaymaq olan zorakılıq aktları və təhdidlər qadağan olunur." (51.2-ci maddə, 1-ci Protokol; və 13.2-ci maddə, 2-ci Protokol)

IHL-in digər maddələri girov götürməyi və dini məkanlara hücum etməyi qadağan edir.

Avropa Şurasının terrorizmlə mübarizə üzrə apardığı iş barəsində məlumat, eləcə də terrorizmlə mübarizə və insan hüquqlarına hörmətlə bağlı təlimatlar üçün www.coe.int/compass linkindən 5-ci fəsildəki Müharibə və Terrorizm bölməsindəki məlumata baxın.

**ƏSAS TARİX**

**21 may**
Dünya Anti-terrorizm Günü

## Paylanmalı materiallar

### Nümunə kartları

| | |
|---|---|
| **1-ci nümunə:** Qrup totalitar hökumətdən xilas olmaq üçün silahlı hərəkat aparır. Onların Müdafiə Nazirliyinə qoyduğu bombanın partlaması nəticəsində 12 nəfər qətlə yetirilir. | **2-ci nümunə:** Şəxs tənha analara təhdidedici məktublar ünvanlayaraq onları uşaqları ilə qorxudur. Heç bir zorakılıq halı qeydə alınmayıb, lakin analar uşaqlarını küçəyə çıxarmaqdan qorxurlar. |
| **3-cü nümunə:** İki ölkə arasında müharibə zamanı bir ölkə digərinə qarşı nüvə silahından istifadə edərək 100,000 vətəndaşı qətlə yetirir. | **4-cü nümunə:** Böyük kosmetika şirkətinin direktoruna göndərilmiş içərisində bomba olan məktub onu ağır şəkildə yaralayıb. Anonim bombaçı həmin şirkəti heyvanları istismar etməkdə günahlandırır. |
| **5-ci nümunə:** Qrup hərbi yerləşmələrə, eləcə də partlayıcıların müntəzəm istifadəsinə qarşı uzunmüddətli hərəkat aparır. Silahlı qüvvələrin üzvlərinin bir neçəsi qətlə yetirilib. | **6-cı nümunə:** Müstəqillik uğrunda hərəkat gedişində etnik azlığın nümayəndələri ictimai yerlərə müntəzəm olaraq bomba yerləşdirirlər. Onlar evakuasiyanın aparılması üçün əvvəlcədən xəbərdarlıq edirlər, lakin qurbanlar arasında vətəndaşlar da var. |
| **7-ci nümunə**: Ölkənin kimyəvi silahları var və istənilən digər ölkədən özünə qarşı təhdid hiss edərsə, onlardan istifadə etməyə hazır olduğunu bildirir. | **8-ci nümunə:** Cinayətkarlar qrupu bankı ələ keçirir, işçi heyətin üzvlərini girov götürür və daha sonra, izlərini itirmək üçün girovları güllələyir. |
| **9-cu nümunə:** Milliyyətçi qruplar əsas şəhərlərə idarəçilik və nəzarət edir, etnik azlıqların nümayəndələrini müntəzəm olaraq döyür və təhdid edirlər. | **10-cü nümunə:** Totalitar dövlət vətəndaşlarını qorxutmaqla nəzarətdə saxlayır: dövlətə qarşı çıxan istənilən şəxs həbs olunur; insanlar müntəzəm qaydada həbs olunur, işgəncəyə məruz qalır və edam olunur |
| **11-ci nümunə:** Mütəşəkkil cinayətkarlar qrupu yerli iş adamlarından pul tələb edir. Buna etiraz edənlərin əmlakları yandırılır, hətta, bəzən, özləri qətlə yetirilirlər. | **12-ci nümunə:** Üsyançılara qarşı müharibə gedişində işğalçı ordu kəndlərə dronlarla (pilotsuz təyyarələrlə) hücum edir. Bir neçə vətəndaşın həlak olduğu, bəzi hücumlar nəticəsində bütöv ailələrin qətlə yetirildiyi barədə məlumat verilib. |
| **13-cü nümunə:** A ölkəsindən olan işçilər hər gün B ölkəsinə keçməlidirlər. B-nin sərhəd bələdçiləri A-nın vətəndaşlarının şəxsiyyət vəsiqələrini yoxlayır, eləcə də tez-tez üstlərini axtararaq onları narahat edirlər. Sərhəd bələdçiləri A-dan olan şəxsləri tez-tez əsassız şəkildə saxlayırlar. | **14-cü nümunə:** On il davam edən vətəndaş müharibəsi zamanı 19 yaşlı qadın 10 nəfər üsyançı ilə qarşılaşıb. Əvvəl qrupun rəhbəri onu təcavüz edib, daha sonra öz adamlarına eynisini etməyi əmr edib. |
| **15-cü nümunə:** Şəhərdə Beynəlxalq Konfrans keçirilir. Polis istənilən şəxsi heç bir ittiham irəli sürmədən həbs edə və 12 saat nəzarət altında saxlaya bilər. Onlar insanlara nümayiş keçirməməklə bağlı xəbərdarlıq edirlər. | **16-cı nümunə:** "Siz daha çox işləməlisiniz, qəbirlər hələ dolu deyil", deyə Ruanda radiosundan səs xəbərdarlıq edirdi. |

### Nəzərə alınmalı məqamlar

Müzakirələr zamanı nəzərə alınmalı məqamlar:

- Terror aktı həmişə əhali arasında qorxu (dəhşət) oyandırmaq məqsədi daşıyır?
- İnsanları qorxuya salan istənilən akt terror aktı sayılmalıdır?
- Dövlət (hökumət) terrorizmlə məşğul ola bilər yoxsa terrorizm mütləq dövlətin rəsmi qurumlarına qarşı yönəlməlidir?
- Terrorizm həmişə mülki qurbanlara qarşı yönəlir yoxsa hərbi hədəflər və ya mülkiyyət də hədəf kimi seçilə bilər?
- Terror aktı necəsə əsaslandırıla bilər?

# Daş atmaq

*Daşla mübahisə etdikdə yumurta həmişə haqsızdır. (Afrika atalar sözü)*

**Mövzular**
- Müharibə və Terrorizm
- Sülh və Zorakılıq
- Uşaqlar

**Mürəkkəblik** 2-ci səviyyə
**Qrup ölçüsü** 12 – 20 (6-7 nəfərlik kiçik qruplar)
**Vaxt** 90 dəqiqə
**Xülasə** Bu məşğələ insanların zorakılıq aktlarına cəlb olunmasının səbəblərini müəyyən etmək üçün rol oyunundan istifadə edir.

**Əlaqədar hüquqlar**
- Yaşamaq, azadlıq və şəxsi təhlükəsizlik hüququ
- Qanun qarşısında şəxsiyyət kimi tanınmaq hüququ
- Qanunla bərabər səviyyədə qorunmaq hüququ

**Məqsədlər**
- İnsanların zorakı davranmasının səbəbləri və onların zorakılığının nəticələrinin başa düşülməsini inkişaf etdirmək
- Zorakılığa dinc şəkildə cavab vermək bacarıqlarını inkişaf etdirmək
- Şəfqət, ədalət və məsuliyyət hislərini təbliğ etmək

**Materiallar**
- Hər kiçik qrup üçün materialın nüsxələri
- Daşlar (istəyə görə)

**Hazırlıq**
- Hər kiçik qrup üçün bir ədəd olmaqla materialın surətini çıxardın. Hər qrupun məşq etməsi və kiçik səhnəciyi qrupun qalanına göstərə bilməsi üçün kifayət qədər yeri təmin edin.

## Təlimatlar

1. İştirakçılardan özlərini qəzəbli və ya məyus hiss etikləri və dağıdıcı davranmağı arzuladıqları halı xatırlamağı xahiş edin. İştirakçıların özlərini əqli olaraq həmin vəziyyətə qaytarması üçün bir neçə saniyə səssiz qalın.
2. Bir neçə könüllüdən öz vəziyyətlərini qrupun digər üzvləri ilə bölüşməyi xahiş edin, belə ki, onlar baş verənləri və həmin vaxtda keçirdikləri hisləri təsvir etməlidirlər.
3. Daş atmağa hazırlaşan şəxs kimi dayanaraq rol oyununu təqdim edin. Sizin duruşunuz qəzəbli və ya məyus, eləcə də məqsədli şəkildə daş atan şəxsi nümayiş etdirməlidir. Bir neçə saniyə bu vəziyyətdə qalın.
4. İştirakçıları 6-7 nəfərlik kiçik qruplara ayırın. Onlara zorakı hadisəni əks etdirən və sonda, daş atmağa hazırlaşmaq aktı ilə yekunlaşan kiçik səhnəcik qurmaq üçün 30 dəqiqə vaxtları olduğunu deyin.
5. Nəzərə alınmalı suallar materialının nüsxələrini paylayın və bunun qrupların səhnəcəyi planlamasına kömək məqsədi daşıdığını izah edin.
6. 30 dəqiqə sonra kiçik qrupları bir yerə toplayın və onları qrupun qalanına öz səhnəciklərini nümayiş etdirməyə dəvət edin. Hər nümayişdən sonra, tamaşaçıların gördüklərinə reaksiya verməsi və sualları cavablandırması üçün bir neçə dəqiqə vaxt ayırın.
7. Bundan sonra, təhlil və qiymətləndirməyə keçin.

Müharibə və Terrorizm

Sülh və Zorakılıq

Uşaqlar

2-ci səviyyə

12 – 20 (6-7 nəfərlik kiçik qruplar)

90 dəqiqə

## Təhlil və qiymətləndirmə

- Müxtəlif səhnəciklərin məna kəsb etdiyini hiss etdiniz? Onlar sizin kimisə daş atmağa nəyin vadar edə biləcəyini başa düşməyinizə kömək etdi?
- Müxtəlif rol oyunlarında özünü göstərən və zorakılıq etmək istəyini oyatmaqda mərkəzi yer tutan hislər və ya emosiyalar oldu?
- Sizin fikrinizcə, niyə insanlar kimisə incitmək və ya nəyisə zədələmək ehtiyacı hiss edirlər? Zərər vermək və ya incitmək aktı ona səbəb olan məsələni həll etməyə kömək edir? Niyə? Niyə yox?
- Bu məşğələ sizin və ya ətrafınızdakıların zorakılıq aktlarını başa düşməyinizə kömək etdi? Necə?
- Heç başa düşə bilmədiyiniz zorakılıq aktları var? İnsanları müharibələrdə savaşmağa, binaları və ya digər insanları partlatmağa nəyin vadar etdiyini başa düşə bilirsiniz?
- Bəzi ölkələrin üzləşdiyi terror təhdidlərini necə başa düşürsünüz?
- Zorakılıq aktına nəyin səbəb olduğunu başa düşmək və onu əsaslandırmaq arasında fərq var? Zorakı aktların arxasında nəyin olduğunu başa düşmək vacibdir? Niyə? Niyə yox?
- Zorakılıq aktlarına cavab verməyin ən yaxşı yolu nədir? Daha zorakı şəkildə və ya dinc yolla cavab verməyin üstünlükləri və çatışmazlıqları nələrdir?
- Hər rol oyununda toxunulan insan hüquqları hansılar idi?

## Fasilitator üçün məsləhətlər

Əgər qrup üzvləri bir-birini yaxşı tanımırlarsa, ilkin öz təcrübələrini bölüşmə tapşırığını etməyə bilərsiniz. Alternativ kimi, siz fərdi təcrübələri bölüşmə tapşırığının birinci hissəsini edə, lakin hisləri digərləri ilə bölüşmək hissəsini, istədikləri halda, kiçik qruplarda aparmağı iştirakçıların öz ixtiyarına buraxa bilərsiniz.

Rol oyunları iştirakçıların real qəzəblərini dilə gətirməsinə imkan verə bilər. Buna görə də, siz bu məşğələyə daha çox vaxt ayırmaqla iştirakçıların məsələləri tələsmədən nəzərdən keçirməsini təmin edə bilərsiniz.

Hər qrupun səhnəciyindən sonra onların qiymətləndirilməsi və təqdimatları ilə bağlı spesifik məsələlərə baxılması üçün bir neçə dəqiqə vaxt ayırın, lakin bu mərhələdə müzakirələrin həddən artıq uzanmasına imkan verməyin. İlk əvvəl, bütün səhnəciklərə baxmaq, daha sonra isə onlarda qaldırılan ümumi məsələlərin müzakirəsinə keçmək daha yaxşı olar.

Təhlildə, terrorçuların zorakılığı məsələsinə birbaşa toxunmağınız faydalı ola bilər və ya gənclər özləri onu qaldıra bilər. Terrorçu aktları açıq şəkildə qınamağa başlamaq yerinə mümkün motivlərin sərbəst müzakirəsinə şərait yaradın. Bu aktların mümkün psixoloji səbəblərini onların nəticələrindən ayırmaq faydalı ola bilər; bunu etmək üçün qrupla problem ağacı düzəltmək məşğələsini edə bilərsiniz (aşağıya baxın).

Bir tərəfdən zorakılıq aktlarını törədənlərin də fərdlər və insanlar olması, digər tərəfdən isə, zorakılıq aktlarının qəbuledilməzliyi, xüsusilə də, onların nəticələri digərlərinə əziyyət verdikdə, arasında balansı gözləmək olduqca vacibdir. Bu məsələlərin hər ikisi insan hüquqları fikrinə uyğundur və hər ikisi zorakılıq və qarşılıqlı etibarsızlıq dövründən çıxış yolu tapmaq üçün əhəmiyyətlidir.

## Variantlar

Daş atmaq duruşu bir çox insanların gözündə İşğal olunmuş Fələstin Ərazilərindən olan şəkilləri və İsrail əsgərlərinə daş atan Fələstin gəncləri, o cümlədən uşaqları ilə bağlı mətbuatda yayımlanan xəbərləri canlandırır. Siz müharibənin uşaqların insan hüquqlarını necə pozduğunu iştirakçıların diqqətinə çatdırmaq üçün qeyd olunanları məşğələ çərçivəsində və ya daha sonra ssenari şəklində səhnəcik kimi oynaya bilərsiniz.

## Sonrakı fəaliyyət üçün təkliflər

İcmanızda olan real zorakılıq nümunəsini götürün və ona aparıb çıxaran aktları nəql etməyə çalışın. Siz bunu bir hadisənin digərinə apardığı vaxt şkalası şəklində təqdim edə bilərsiniz. Qrupdan vaxt şkalasında zorakılığın qarşısının alına biləcəyi və ya münaqişənin yumşaldıla biləcəyi məqamları müəyyən etməyi xahiş edin.

Terrorizm mövzusunu 120-ci səhifədəki "Çahal Böyük Britaniyaya qarşı" məşğələsi ilə davam etdirə bilərsiniz.

Daş atmaq bəzən daşlamaqla edam etmək ənənəsi ilə əlaqələndirilir. Dini və mədəni ənənələr və insan hüquqları arasındakı əlaqə həmişə maraqlı və əksər hallarda mübahisəlidir. Qrup ənənələr və inamların zaman ərzində necə dəyişdiyini öyrənmək istəyərsə, 272-ci səhifədəki "Tezliklə köhnələcək" məşğələsinə baxın.

Alternativ kimi, kiber-xuliqanlar tərəfindən həyata keçirilən zorakılığı araşdırmaq üçün 232-ci səhifədəki "Mənim həyatım tamaşa deyil" məşğələsindən istifadə edə bilərsiniz.

**ƏSAS TARİX**

**12 fevral**
Qırmızı Əl Günü

## Fəaliyyət üçün fikirlər

Məşğələdə sizin icmanızdakı zorakılıq aktlarının müəyyən edilmiş nümunələrindən seçin, həmin problemlərlə məşğul olan, həm zorakılıq edənlərə, həm də qurbanlara yardım edən təşkilatları tapın. Qrupun müxtəlif zorakılıq aktlarını dayandırmaq üçün nə edə biləcəyini aşkar edin.

BMT 2008-ci ildə dünya üzrə 250,000-dən artıq uşaq əsgər olduğunu müəyyən etmişdi. Zorakılıq aktlarına məcbur edilən bu uşaqlar haqqında daha çox məlumat toplayın və kiçikyaşlıların əsgər kimi istifadə olunmasının qarşısını almaq üçün çoxsaylı hərəkatlardan birinə qoşulun. Eyni zamanda, siz keçmiş əsgər olan uşaqların islah edilməsi üzrə iş aparan təşkilatlar barəsində məlumat toplaya bilərsiniz. Axtarış motorunuza "uşaq əsgərlər" yazın və ya www.warchild.org, human rights watch, www.hrw.org, www.redhandday.org saytlarına baxın.

Qlobal Qırmızı Əl Hərəkatını dəstəkləyən təşkilatlara Human Rights Watch, Beynəlxalq Amnistiya Təşkilatı, Almaniya Gənclər Qırmızı Xaçı, Terre des Hommes və Plan İnternational daxildir.
www.redhandday.org

## Əlavə məlumat

Problem ağacı problemlərin təhlili üçün faydalı vizual üsuldur. Bu metod beyin fırtınası və beyin xəritəsinin kombinasiyasıdır. Ağacın gövdəsi problemi təmsil edir. İnsanlar problemin ağacın kökləri ilə təmsil olunmuş səbəblərini müəyyən etməklə başlayır, daha sonra, budaqlarla təmsil olunmuş nəticələri müəyyən edirlər. Problemlər və nəticələr sosial, iqtisadi və siyasi faktorlarla bağlı ola bilər. Onlar, həmçinin, insanların yanaşmaları və davranışından ortaya çıxa bilər. Daha ətraflı məlumat üçün www.thechangeagency.org saytına daxil olun və "problem ağacı təhlili" barəsində axtarış aparın.

**Qeyd**

Məşğələ Fiona Makbet və Nik Faynın Odla Oynamaq kitabındakı (New Society Publishers, 1995) fikirə əsaslanır.

## Paylanmalı materiallar

**Nəzərə alınmalı suallar**

Rol oyununu planlayarkən aşağıdakı suallar barəsində düşünməlisiniz:

- Bu şəxs kimdir və  onlar nəyə yaxud kimə daş atırlar?
- Daşı atan şəxs və daş atılan şəxs və ya obyekt arasında əlaqə nədir?
- Onların yanında kimsə var yoxsa təkdirlər?
- Əgər yanlarında başqaları varsa, onlar bu insidentə necə cəlb olunurlar (əgər olunublarsa)?
- Şəxs daş atmaqla nəyə nail olmaq istəyir?
- Daş atılmasına gətirib çıxaran hadisələr hansılar olub: bu qəflətən baş verən haldır yoxsa əvvəlcədən planlaşdırılıb?
- Daş atmaq qərarını oyadan konkret bir hadisə olub?
- Daş atmağa hazırlaşan şəxsin ağlından hansı fikirlər keçir?
- Bu akta gətirib çıxaran müddətdə şəxsin ağlından hansı fikirlər keçib?

# Vaxt şkalaları

*Tarix hər şeyi, o cümlədən gələcəyi öyrədir.*

Lamartin

**Mövzular**
- Ümumi İnsan Hüquqları
- Tarixi Yaddaş
- Din və İnam

**Mürəkkəblik** 3-cü səviyyə

**Qrup ölçüsü** İstənilən

**Vaxt** 60+ dəqiqə

**Xülasə** İştirakçılar hüquqlar anlayışının e.ə. 2000-ci ildən başlayaraq indiyə qədər keçdiyi inkişaf yolunda əsas rol oynamış və oynaması gözlənilən hadisələrin ümumi vaxt şkalasını hazırlayırlar. Bu metod istənilən insanlar qrupunun keçmişini araşdırmaq üçün istifadə oluna bilər.

**Əlaqədar hüquqlar**
- Təhsil, o cümlədən insan hüquqları təhsili hüququ
- Yaşamaq, azadlıq və şəxsi təhlükəsizlik hüququ
- Din və vicdan azadlığı

**Məqsədlər**
- Tarix boyu insan hüquqlarının inkişafı barəsində bilikləri artırmaq
- Ünsiyyət və tənqidi düşünmək bacarıqlarını inkişaf etdirmək
- İnsan hüquqlarına marağı və onları müdafiə etmək öhdəliyini təşviq etmək

**Materiallar**
- Enli izolyasiya skoçu rulonu
- 10-12 metr uzunluğunda divar
- 3 müxtəlif rəngdə stiker dəstləri
- Flipçart və müxtəlif rəngdə markerlər

**Hazırlıq**
- İnsan hüquqlarının inkişaf tarixi barədə məlumat əldə etmək üçün 4-cü fəsildən 395-400-cü səhifələri oxuyun.
- Divarda izolyasiya skoçu ilə uzun xətt çəkin. Bu xətt göz səviyyəsində olmalıdır. Xəttin sol ucundan təqribən 50 sm məsafədə “e.ə. 2000” və sağ ucundan 50 sm məsafədə “2010” (və ya cari il nədirsə) yazın. E.ə. 1000, 0 və eramızın 1000-ci illərini qeyd edin.
- Üzərində göstərilənlər qeyd olunmuş 4 stiker hazırlayın: “Misir və Çindəki sivilizasiyalar”, “Assuriya, Babil və Minan sivilizasiyalarının çiçəklənməsi”, “Romalılar əsas güc idi“ və Qərbi Avropadakı krallıqlar və şərqdə Bizans imperiyası.

## Təlimatlar

1. İştirakçıları vaxt şkalası ilə tanış edin. Onlara 4000 il əvvəl (e.ə. 2000) Misir və Çində ilk sivilizasiyaların çiçəkləndiyini izah edin. E.ə. 1000-ci ildə isə Assuriya, Babil və Minan sivilizasiyaları inkişafın yüksək mərhələsinə çatmışdı. 0-cı ildə Romalılar əsas qüvvə idi, eramızın 1000-ci ilində isə Qərbi Avropada çoxlu krallıqlar vardı və şərqin əksər hissəsində Bizans imperiyası hökmranlıq edirdi. Bugünkü tarixi qeyd edin.
2. Qrupa vaxt şkalasını insan hüquqları ilə bağlı hadisələrlə doldurmağı tapşırın. Məsələn, qanunlar hazırlamış, ədalətə səsləmiş və ya onun uğrunda mübarizə aparmış insanların anadan olma və ya ölüm tarixləri, insanların hüquqlar barəsində düşüncələrini dəyişmiş və onların cavab reaksiyalarına təkan vermiş hadisələrin tarixləri, insanların hüquqlarını qoruyan qanun və konvensiyaların qəbul olunma tarixləri.
3. Hər iştirakçıya müxtəlif rənglərdə stikerləri paylayın. Müxtəlif rənglərin müxtəlif kateqoriyaları təmsil etdiyini izah edin. Məsələn, insan hüquqları ilə bağlı önəmli hadisələr

üçün göy, vacib şəxslər və ya qurumlar üçün sarı, əhəmiyyətli sənədlər və qanunlar üçün yaşıl. Sonrakı istinadlar üçün flipçartda bu təlimatı qeyd edin.

4. Hadisələrin yerli, regional, milli və beynəlxalq ola biləcəyini izah edin. İştirakçılar fərdi işlə başlamalı, onların hər biri bir şəxs, bir hadisə və bir qanun və ya konvensiya haqqında düşünməlidir. Onlar hadisənin və ya şəxsin adını və tarixini müvafiq rəngdə olan stikerə yazmalı və onu vaxt şkalasında yerləşdirməlidirlər.
5. Məqsəd hər bir şəxsin 3 stiker yerləşdirməsi və qrupun mümkün qədər çox sayda müxtəlif hadisələri irəli sürməsidir. Beləliklə, əgər kimsə hər hansı hadisənin artıq yazıldığını görürsə, başqa hadisə barədə düşünməlidir. Əgər iştirakçılardan kiminsə ağlına heç bir hadisə gəlmirsə, dostları ilə məsləhətləşə və ya İnternetdə axtarış apara bilər.
6. İştirakçıları başqalarının təqdim etdiyi hadisələrdən ilhamlanmağa həvəsləndirin. Əgər kimsə üçdən artıq hadisəni şkalaya yerləşdirmək istəyirsə, bunu edə bilər.
7. İşin sürəti aşağı düşdükdə, iştirakçıları dövrə qurub yazılanlara baxmağa çağırın. Qrup üzvlərindən seçdikləri hadisələri izah etməyi və ya aydınlaşdırmağı xahiş edin.
8. Məşğələni bu günlük dayandırın və hamıdan növbəti sessiyaya yeni fikirlərlə gəlməyi xahiş edin. Növbəti sessiyadan sonra, məşğələni tam şəkildə nəzərdən keçirin və təhlil aparın.

## Təhlil və qiymətləndirmə

- Vaxt şkalası üçün məlumat tapmaq asan idi? Yaxşı resurslar hansılar idi?
- İştirakçılar hansı məlumatı ən maraqlı, təəccübləndirici və ya inanılmaz hesab ediblər? Niyə?
- İnsan hüquqlarının tarix boyu inkişafında əsas rol oynayan qüvvələr hansılar olub?
- İnsan hüquqlarının tarixini bilmək vacibdir? Niyə?
- Gələcəkdə hansı yeni hüquqlara ehtiyacımız olacaq?

## Fasilitator üçün məsləhətlər

Əgər qrupda tarix üzrə mütəxəssis varsa, ona təqvimi yoxlamağı tapşırın. Dünyada 40-dan artıq müxtəlif təqvimdən, o cümlədən Çin, İslam, Hindu, İbrani, Fars və Buddist təqvimlərindən istifadə olunduğunu nəzərə alın.

Buna görə də, tarixlər anlaşılmazlıq yarada bilər; məsələn, Xristian təqvimində 2010-cu il İslam təqvimində 1431-ci il sayılır. Beləliklə, tarixlərlə bağlı qarışıqlıqların olmasına hazır olun və bu haldan mədəniyyətlərarası fərqləri göstərmək üçün istifadə edin.

## Variantlar

Aşağıda verilmiş tarixlər və hadisələr üzrə etiketlər hazırlayın və sorğu keçirdin. Şəxsin, hadisənin və ya qanunun adını oxuyun və iştirakçılardan onun tarixini tapmağı xahiş edin. Bundan sonra, etiketləri vaxt şkalasına yerləşdirin. Bu nişanların qrupu həvəsləndirməsinə şərait yaradın.

İştirakçılardan insan hüquqlarını təbliğ edən aforizmlər, musiqi parçaları, incəsənət və ədəbiyyat nümunələri, idman hadisələri tapmağı xahiş edin; bunları da vaxt şkalasına əlavə edin.

Bu məşğələ açıq havada (seminar vaxtı, sinifdə….) aparıla və vaxt şkalası istənilən vaxt tamamlana bilər.

Bu metod insanların xatırlanması və tarix üzrə müzakirəyə başlamaq üçün olduqca yaxşı vasitədir. Ehtiyacınız olan məlumatı toplamaq üçün İnternetdə axtarış aparın. Məsələn, istənilən axtarış motorunda “Roma vaxt şkalası” və ya “Sami Laplandiyanın vaxt şkalası” daxil edin.

ƏSAS TARİX

**23 avqust**
Kölə Ticarəti və onun Ləğvinin Xatırlanması üzrə Beynəlxalq Gün

## Sonrakı fəaliyyət üçün təkliflər

Təqviminizdə olan tarixlərdən birini seçin və həmin gündə insan hüquqlarını təbliğ edən tədbir təşkil etmək üçün digər qruplarla toplanın.

Əgər qrup müasir insan hüquqları qəhrəmanları haqqında daha çox məlumat əldə etmək istəyərsə, 167-ci səhifədəki “Hüquq mübarizləri” məşğələsini edə bilərsiniz.

Əgər qrup fikirlərin vaxt ərzində necə dəyişdiyini və inkişaf etdiyini öyrənməkdə maraqlıdırsa, 272-ci səhifədəki “Tezliklə köhnələcək” məşğələsinə baxa bilərsiniz.

## Fəaliyyət üçün fikirlər

Vaxt şkalasını foto şəkillər və ya karikaturalarla bəzəyin və sərgi kimi təqdim edin; və ya vaxt şkalasını açıq havada düzəldin və ictimaiyyəti iştirak etməyə dəvət edin.

## Əlavə məlumat

Ümumilikdə insan hüquqları tarixi ilə bağlı bəzi hadisələrin bir neçəsinin qısa xülasəsi: **E.ə. 1760** Babil kralı Hammurapi “Hammurapi Qanunları”nı tərtib edir. (Böyük daşda yazılmış qanunlar “krallıqda ədalətin hökm sürməsini… və insanların rifahının təmin olunmasını” vəd edir.)

**E.ə. 1440** (təqribən) Musanın Tövratı İsrail qəbilələrinə on hökmü, o cümlədən onları pozmağa görə ətraflı cəzaları təqdim edir, “Öldürməyin”.

**E.ə 528 – E.ə. 486** Hindistanda Budda mənəviyyatı, həyata hörməti, qeyri-zorakılığı və düzgün davranışı təbliğ edir.

**B.e. 26 – 33** İsa Məsih insanları mənəviyyat, dözümlülük, ədalət, bağışlama və sevgiyə səsləyir.

**B.e. 613 – 632** Məhəmməd Peyğəmbər Quranda göstərilən bərabərlik, ədalət və şəfqət prinsiplərini öyrədir.

**930** İslandiyada dünyada ən qədim parlament institutu Altinqin əsası qoyulur.

**1215** İngiltərədə Maqna Karta imzalanır. (Bu sənəd Kralın səlahiyyətlərini məhdudlaşdırır və azad insanlara öz səviyyələrində olan şəxslər tərəfindən mühakimə olunmaq hüququnu verir.)

**1789** İnsan və Vətəndaş Hüquqları üzrə Fransız Bəyannaməsi. (Milli Assambleya azadlıq, bərabərlik, mülkiyyət, təhlükəsizlik və istismara qarşıdurma hüquqlarını təmin edən bəyannamə barəsində razılığa gəlir.)

**1791** Amerika Birləşmiş Ştatları: Hüquqlar haqqında Bill (ABŞ Konqresi Hüquqlar haqqında Billi qəbul edərək ABŞ Konstitusiyasına dəyişikliklər edir və oraya jüri tərəfindən mühakimə olunma, ifadə, nitq, vicdan və sərbəst toplaşmaq hüquq və azadlıqlarını daxil edir.)

**1807** Britaniya və Amerikada köləlik əleyhinə qanunlar qəbul olunur.

**1859** Anri Dünanı Beynəlxalq Qırmızı Xaç Komitəsini yaratmağa sövq edən və ilk Cenevrə Konvensiyalarına (Beynəlxalq Humanitar Hüquq üzrə) təkan verən Solferino döyüşü

**1863** Beynəlxalq Qırmızı Xaç Komitəsinin yaradılması

**1864** Cenevrə Konvensiyası qəbul olunur.

**1899** İlk Haaqa Konvensiyası imzalanır. O, Cenevrə Konvensiyaları ilə birlikdə Beynəlxalq Humanitar Hüququn əsasını təşkil edir.

**1893** Yeni Zelandiya qadınlara səs vermək hüququ verir. (Dünyada bunu ilk dəfə edən ölkədir)

**1945** II Dünya Müharibəsinin sonu

**1945** Birləşmiş Millətlər Təşkilatı (BMT) yaradılır. ("İnsan hüquqları, insanın ləyaqəti və dəyərinə inamı bir daha təsdiqləyərək…")

**1948** BMT tərəfindən Ümumdünya İnsan Hüquqları Bəyannaməsi qəbul olunur.

**1950** Avropa Şurası tərəfindən Avropa İnsan Hüquqları Konvensiyası qəbul olunur.

**1961** Azadlıq şərəfinə sağlıq dediklərinə görə yeddi il həbsə məhkum olunmuş iki portuqaliyalı tələbənin azad edilməsi uğrunda hərəkat nəticəsində Beynəlxalq Amnistiya Təşkilatı yaradılır.

**1965** İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğvi üzrə Beynəlxalq Konvensiya (1969-cu ildə qüvvəyə minib)

**1966** Mülki və siyasi hüquqlar haqqında beynəlxalq pakt və İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq pakt (1976-cı ildə qüvvəyə miniblər)

**1969** Amerika İnsan Hüquqları Konvensiyası, 1978-ci ildən bəri qüvvədədir.

**1976** Cənubi Afrikanın müstəqillik uğrunda mübarizəsində dönüş nöqtəsi olan Soveto üsyanı

**1979** Qadınlara qarşı Ayrı-seçkiliyin Aradan qaldırılması üzrə Konvensiya (CEDAW)

(1981-ci ildə qüvvəyə minib)

**1981** İnsan və Xalqların Hüquqları üzrə Afrika Nizamnaməsi (Afrika Birliyi Təşkilatı, hazırki Afrika İttifaqı tərəfindən qəbul olunub)

**1984** İşgəncə əleyhinə Konvensiya (1987-ci ildə qüvvəyə minib)

**1989** Uşaq Hüquqları Konvensiyası (1990-cı ildə qüvvəyə minib. Ən geniş şəkildə ratifikasiya olunmuş insan hüquqları müqaviləsidir; yalnız ABŞ və Somali onu ratifikasiya etməyiblər.)

**1990** İslamda İnsan Hüquqları üzrə Qahirə Bəyannaməsi (CDHRI)

**1992** Ətraf Mühit və İnkişaf üzrə BMT Konfransı; Rio Bəyannaməsi

**1990** Bütün Miqrant İşçilər və onların Ailə Üzvlərinin Hüquqlarının qorunması üzrə Beynəlxalq Konvensiya (ICRMW) (2003-cü ildə qüvvəyə minib)

**2007** Əlil İnsanların Hüquqları haqqında Konvensiya (Konvensiya imzaya açıldığı gündə BMT tarixindəki Konvensiyalar arasında ən yüksək sayda imza əldə etdi və 2008-ci ilin mayında qüvvəyə mindi.)

http://www.gwu.edu/~erpapers/humanrights/timeline/

http://www.hreoc.gov.au/info_for_students/essentials/timeline/index.html

Demokratiya
Vətəndaşlıq və İştirak
Ümumi İnsan Hüquqları
4-cü səviyyə
İstənilən
270 dəqiqə

# Səs vermək yoxsa verməmək?

*Səs vermək mülki ayindir.*

Teodor Hezburq

**Mövzular**
- Demokratiya
- Vətəndaşlıq və İştirak
- Ümumi İnsan Hüquqları

**Mürəkkəblik** 4-cü səviyyə

**Qrup ölçüsü** İstənilən

**Vaxt** 270 dəqiqə

**Xülasə** Bu məşğələdə seçkilərdə səs vermək və mülki iştirakla bağlı məsələləri araşdırmaq üçün icma üzvləri arasında sorğu həyata keçirilir.

**Əlaqədar hüquqlar**
- İdarəçilik və azad seçkilərdə iştirak etmək hüququ
- Fikir və ifadə azadlığı
- Dinc şəkildə toplaşmaq və birləşmək azadlığı

**Məqsədlər**
- Seçkilərdə səs verməyin səbəblərini diqqətə çatdırmaq
- Məlumat tapmaq və onu tənqidi şəkildə təhlil etmək bacarıqlarını inkişaf etdirmək
- Demokratiyada hər vətəndaşın fərdi töhfəsini tərənnüm etmək

**Materiallar**
- Hər cütlük üçün bir dəst olmaqla, 1 və 2 saylı sorğu vərəqləri
- Hər cütlük üçün bir ədəd olmaqla, sorğu keçirməyin qaydaları üzrə qeydləri əks etdirən 1 saylı qutunun nüsxələri
- Hər kəs üçün qələm və ya karandaşlar
- Böyük ölçüdə kağızlar (A3) və markerlər
- Skoç

**Hazırlıq**
- Təlimatları verərkən istifadə etməkdən ötrü sorğu nümunəsi vərəqini əks etdirən 2 saylı qutunun böyük kağızda surətini çıxardın.
- Nəticələri qeyd etmək üçün flipçart vərəqində 1 və 2 saylı sorğu vərəqlərinin surətini çıxardın.
- Məşğələnin vaxt qrafikini planlaşdırın. 1-ci hissə (sorğunu təqdim etmək) üçün 60 dəqiqə, 2-ci hissə (sorğu) üçün minimum 120 dəqiqə və 3-cü hissə (nəticələrin təhlili, təhlil və qiymətləndirmə) üçün 90 dəqiqə ayırmalısınız.

## Təlimatlar

**1-ci hissə: Sorğunu təqdim etmək**

1. Bu məşğələnin əsas məqsədinin iştirakçıları insanların səs verməsi yaxud verməməsinin səbəbləri ilə bağlı sorğu aparmağa hazırlamaq olduğunu izah edin.
2. İştirakçılardan növbəti (birinci?) dəfə imkan olduqda, milli və ya yerli seçkilərdə səs vermək niyyətində olub-olmadıqlarını soruşun. Səs vermək niyyətində olanlardan əllərini qaldırmağı xahiş edin, bundan sonra, qrupu səs vermək niyyətində olanlar (A) və olmayanlar (B) olmaqla iki yerə ayırın. “Qərarsız olanlar” təsadüfi şəkildə, sayı balanslaşdırmaq üçün, qruplardan hər hansı birinə salına bilər.
3. Hər qrupdan səs vermək və ya verməmək niyyətlərinin səbəblərini sıralamağı və onları böyük ölçüdə kağıza yazmağı xahiş edin. Siyahıları hazırlamaq üçün onlara 15 dəqiqə vaxt verin.
4. Qrupları yenidən bir araya gətirin, A və B qruplarının nümayəndələrindən siyahılarını oxumağı xahiş edin. Sonda, qısa müzakirə üçün vaxt ayırın və istənilən əlavə təklifləri siyahılara əlavə edin.

5. 1 və 2 saylı sorğu vərəqlərinin nüsxələrini paylayın. Hazırladığınız böyük ölçüdə nüsxəyə istinad edin. İştirakçıların 1-ci vərəqin səs verməyənlərin, 2-ci vərəqin isə səs verənlərin cavablarını qeyd etmək üçün olduğunu gördüyündən əmin olun. Vərəqlərin, 2-ci sual istisna olmaqla, bənzər olduğunu, yalnız həmin sualın iki vərəqdə fərqləndiyini qeyd edin. Sualları nəzərdən keçirin və hamının onları başa düşməsini təmin edin.
6. İndi isə, cavabları qeyd etmək metodunu izah edin. Qrupa nümunəni göstərin və hesabı tutmaq üçün "5 sütunlu qapı" metodundan necə istifadə etməyi izah edin.
7. Hər cütlüyə bir ədəd olmaqla, müsahibə aparmaq qaydaları üzrə qeydlər vərəqinin nüsxələrini paylayın. Onu nəzərdən keçirin və aşağıdakılar barəsində danışın:
   - Müsahibə olunanların təsadüfi qaydada seçilməsini necə təmin edə bilərlər?
   - Hər cütlük neçə nəfərdən müsahibə götürəcəkdir? (Nə qədər çox, o qədər yaxşı!)
   - Sorğu harada və nə vaxt keçiriləcək?
   - Sorğu nə vaxt tamamlanacaq?
   - Geri qayıtmaq və nəticələri müzakirə etmək vaxtı.

**2-ci hissə: Sorğu**
1. Hamının tapşırığı başa düşməsini təmin edin və sorğuya başlayın.
2. Geri qayıtmaq vaxtını razılaşdırın.

**3-cü hissə: Nəticələri təhlil etmək**

Qruplar nəticələri müqayisə, təhlil və müzakirə etmək üçün görüşürlər. Bu hissə üçün 60 dəqiqə ayırmalısınız.
1. Cütlüklərdən hər qutudakı toplamları cəmləməyi və bunları iki böyük cədvəldə yazmağı xahiş edin. Bu yolla, hər qrupun məlumatları müqayisə oluna bilər və bütün qrupun toplamları hesablana bilər. Onlar, həmçinin, müsahibə olunanların səsləndirdiyi "səbəbləri" qeyd etməlidirlər. Əgər eyni səbəb bir neçə dəfə səsləndirilibsə, cavabın verilmə sayını qeyd edin, "beş sütunlu qapı" metodundan istifadə edin.
2. Bütün məlumat toplandıqdan sonra, iştirakçılardan aşağıdakı statistikanı hesablamağı xahiş edin:
   - Sorğuda iştirak etmiş insanların ümumi sayı
   - Sorğuda iştirak edənlər arasında səs verənlərin və səs verməyənlərin sayı
   - Kişi və qadın respondentlərin sayı
   - Hər yaş qrupundan sorğuda iştirak edənlərin sayı
   - Ən az sayda səs verən olan yaş qrupu
   - Ən çox sayda səs verən olan yaş qrupu
   - Səs verməmək üçün ən çox irəli sürülən səbəblər
   - Səs vermək üçün ən çox irəli sürülən səbəblər
   - Daha çox insan şəxslərlə yoxsa partiyalarla bağlı səbəblər (istənilən formada) irəli sürüb.
3. İndi isə, iştirakçıların sorğunu nə qədər bəyəndiyini, təcrübələrini və nə öyrəndiklərini müzakirə etməklə davam edin.

## Təhlil və qiymətləndirmə

Nəticələrin ümumi müzakirəsi zamanı bir sıra müxtəlif məsələlərə toxuna bilərsiniz, məsələn:
- Sorğunu apararkən qruplar hansı hisləri keçirdiblər? İnsanlar, ümumilikdə, sorğunun suallarına cavab verməyə hazır idilər?
- Sorğunu aparmaq çətin idi? İştirakçılar sorğu aparmağı xoşlayıblar?
- Qrup ümumi əhalinin mövqeyini əks etdirən nümunəvi "təmsilçiləri" tapa bilib? Bunu edərkən onlar hansı çətinliklərlə üzləşiblər?
- Qrupların nəticələrindən yekun mülahizələri çıxararkən hansı problemlər özünü göstərir? Bu problemlərin qarşısını necə almaq olar?
- Qrupu xüsusilə təəccübləndirən statistik məlumatlar olub?
- Sorğunun nəticələri, hər hansı cəhətdən, gözlənilməz olub?

ƏSAS TARİX

**18 mart**
Avropada bütün vətəndaşları əhatə edən ilk parlament seçkisi – Finlandiya, 1917

- İnsanların cavabları sizin qrupunuzdakı üzvlərin fikirləri ilə uyğun gəlirdi? Sizin fikrinizcə, qrupunuz əhalinin ümumi mövqeyini əks etdirən “təmsilçi”dir?
- Sorğunu yenidən keçirsələr, nəyisə fərqli edərdilər? Hər hansı səhvləri olub?
- Nəticələr sizin icmanızdakı səs vermə meyilləri ilə bağlı real mənzərəni əks etdirir? Niyə? Niyə yox?
- Yekun mülahizələrə əsaslana bilərsiniz? Yoxsa nəticələr şərti qəbul olunmalıdır?
- Statistika adətən faktları dəstəkləmək üçün arqument kimi təqdim olunur. İnsanlar statistikaya nə qədər ehtiyatla yanaşmalıdırlar?
- Hazırda qrupda səs vermək və ya verməməyin əhəmiyyəti ilə bağlı yanaşma necədir? Kiminsə fikri dəyişib (bu və ya digər istiqamətdə!)? Əgər belədirsə, ən inandırıcı arqumentlər hansılar olub?
- Səs vermək bizim insan hüququmuzdur? Demokratiya insan hüquqları sənədlərində öz əksini necə tapıb?

## Fasilitator üçün məsləhətlər

1-ci hissədə, sorğunu planlaşdırmaqda, məqsəd 2-ci hissə, sorğunun aparılması, üçün əsas yaratmaqdır.

Başlanğıcda, siz açıq şəkildə məşğələnin məqsədinin gənclərə demokratik prosesə töhfə verməkdə öz dəyərlərini göstərmək olduğunu deyə bilərsiniz. Onları səs verməyə “inandırmaq” barədə danışmaq yerinə, bu aspekti vurğulamağınız məsləhət görülür. Qrupun hər bir üzvünün sessiyaların sonunda öz qərarını qəbul etməsini istədiyinizi, lakin buna nail olmaqdan ötrü, qrup üzvlərinin səs vermək üçün mövcud çoxsaylı səbəbləri dəyərləndirməsinin vacib olduğunu izah edin.

“Səs verənlər”in “səs verməyənlər”i öz təsiri altına almasına imkan vermədən, insanların “obyektiv” səs verib-verməməsi barəsində müzakirə (4-cü bənd) aparmağa çalışın. Müzakirəyə çox vaxt ayırmayın; məqsəd sorğu üçün səhnəni qurmaqdır.

Müsahibəni necə aparmağı müzakirə edərkən (7-ci bənd), qrupun belə sorğunu apararkən üzləşə biləcəyi çətinlikləri nəzərə almalısınız. Bəzi cəmiyyətlərdə insanlar küçədə tanımadıqları şəxslər tərəfindən onlara yönləndirilən suallara cavab vermək istəməyə bilərlər. Bu halda, qrup üzvlərinin öz dostlarını və tanışlarını sual-cavab etməsi daha yaxşı olar.

Qrupun hansı həcmdə məlumatı təhlil edə biləcəyini hesablamağınız olduqca əhəmiyyətlidir. İştirakçıları hesablamalarda çətinliklərlə üzləşməyə gətirib çıxaracaq qədər çox məlumat toplamayın. Əgər qrup böyükdürsə, kiçik qrupla müqayisədə cütlüklər daha az insanı müsahibə etməlidirlər.

**Vərəqi necə doldurmaq nümunəsi**

***1 saylı sorğu vərəqi: Səs verməyənlər***

1-ci sual. Hansı yaş qrupundansınız? (İstəyə görə)

| | 25-dən aşağı | 25 – 40 | 40 – 60 | 60-dan yuxarı | Demək istəmirəm |
|---|---|---|---|---|---|
| Kişi | 𝍸 𝍸 \|\| | 𝍸 𝍸 \|\| | 𝍸 𝍸 \|\| | 𝍸 \|\| | 𝍸 𝍸 \|\| |
| Qadın | 𝍸 \|\| | \|\| | 𝍸 \|\| | \|\| | \|\| |

2-ci sual. Sonuncu seçkilər zamanı səs verməməyinizin əsas səbəbi nə olub?

| Mənim fikrimcə, səsim nəticəyə heç bir təsir göstərməyəcəkdi | Səs vermək istədiyim heç bir namizəd yox idi | Təklif olunan siyasətlərin heç biri ilə razı deyildim | Nəticə mənim üçün maraqlı deyildi | Digər səbəb (daha ətraflı): |
|---|---|---|---|---|
| 𝍸 𝍸 \|\| | 𝍸 \|\| | 𝍸 𝍸<br>𝍸 𝍸 \|\| | 𝍸 | Həmin vaxt ölkədə deyildim<br>Siyasətçilərə etibar etmirəm<br>Kimsə məndən səs verməməyi xahiş etmişdi |

## Sonrakı fəaliyyət üçün təkliflər

www.coe.int/compass saytından 5-ci fəsildə Demokratiya haqqında ümumi materialdan məlumat toplayın, eyni zamanda, ölkənizdə qadınlara səs vermək hüququnun ilk dəfə hansı ildə verildiyini müəyyən edin. Həmçinin, ölkənizdə hansı qrupların səs vermək hüququnun olmadığını tapa bilərsiniz (məsələn, uşaqlar, miqrantlar və ya məhbusların). Bunun səbəblərini və ədalətli olub-olmadığını müzakirə edin.

Gənclərə səs vermək hüququnun verildiyi yaşın dəyişdirilməsinin vacibliyi barəsində digər qruplar və ya məktəblərlə debat təşkil edə bilərsiniz.

Demokratik cəmiyyətdə gənclərin onları narahat edən məsələlərlə bağlı addım atması üçün çoxlu imkanlar var. 251-ci səhifədəki “Elektrik Stansiyası” məşğələsi iştirakçılara sosial dəyişikliyi təbliğ etmək üsulları haqqında düşünmək imkanı yaradır.

## Fəaliyyət üçün fikirlər

Ölkənizdə qadınlara səs vermək hüququnun verildiyi günü qeyd etmək üçün tədbir təşkil edin. Əgər cəmiyyətinizdə səs vermək hüququ olmayan qrupları müəyyən etmisinizsə və bunun ədalətsiz olduğunu düşünürsünüzsə, Parlament Üzvlərinə bu məsələ ilə bağlı məktub yazın. Digərlərinin də imzalarını əldə etməyə çalışın.

## Əlavə məlumat

Siz Dotmokratiya barəsində, səs vermək yolu ilə iştirakı təbliğ etmək vasitəsi, öyrənmək istəyə bilərsiniz. Dotmokratiya, bərabər əsaslı və hamının iştirak etdiyi kollektiv qərar vermə prosesi, çoxsaylı insanlar qrupunda fikirlərin toplanması və prioritetləşdirməsinə imkan verən metoddur. İştirakçılar fikirləri yazmalı və seçdikləri hər bir fikirin aşağısında nöqtələr qoymalıdırlar. Son nəticə qrupun kollektiv seçimlərini əks etdirən qrafik şəklində vizual təmsildir. http://www.dotmocracy.org/

## Paylanmalı materiallar

**Sorğunu keçirmək qaydaları üzrə qeydlər**

***Müsahibə olunanları tapmaq***

Təsadüfi qaydada seçdiyiniz şəxslərə yaxınlaşın: başqa sözlə, siz insanları gənc, yaşlı, gözəl, qadın və s. xüsusiyyətlərinə görə sorğuya cəlb etməməli və ya əksinə sorğudan kənarda qoymamalısınız. Qərəzli yanaşmanın qarşısını almağa çalışın.

Müsahibə etmək istədiyiniz şəxslərdən sorğu üçün bir neçə suala cavab vermək istəyib-istəmədiklərini soruşun. Kim olduğunuzu izah edin, cavabların anonim olduğunu deyin və sorğunun nəticələrinin ictimaiyyətə açıqlanmayacağını bildirin; nəticələr yalnız sizin qrup tərəfindən istifadə olunacaqdır.

***Müsahibəni qeydə almaq***

Əgər yaxınlaşdığınız şəxs sorğuda iştirak etməyə razılıq verərsə, onlardan sonuncu seçkilər zamanı səsvermədə iştirak edib-etmədiklərini soruşun. Əgər cavab “xeyr”dirsə, 1 saylı vərəqi, “səs verməyən” vərəqini, doldurun. Əgər cavab “bəli”dirsə, 2 saylı vərəqi, “səs verən” vərəqini doldurun.

**1-ci sual**: İştirakçılar, istədikləri halda, yaşlarını söyləməlidirlər. Digər halda, sonuncu sütuna işarə qoyun.

**2-ci sual:** Müsahibə olunanlara variantları göstərin və birini seçməyi xahiş edin. Əgər onların başqa səbəbi varsa, E sütununda qeyd edin. Qeyd: B və C variantları arasındakı fərq B səbəbinin yalnız şəxslə, C səbəbinin isə partiya ilə bağlı olmasıdır.

Daha sonra sayıla bilməsi üçün işarələr aydın olmalıdır. Mümkün qədər çox insan eyni vərəqdə qeyd olunmalıdır. Hər şəxs üçün hər sual qarşısında yalnız bir işarə qoyulmalıdır.

## 1 saylı sorğu vərəqi: səs verməyənlər

**1-ci sual. Hansı yaş qrupundansınız? (İstəyə görə)**

| | 25-dən aşağı | 25 – 40 | 40 – 60 | 60-dan yuxarı | Demək istəmirəm |
|---|---|---|---|---|---|
| KİŞİ | | | | | |
| QADIN | | | | | |

**2-ci sual. Sonuncu seçkilər zamanı səs verməməyinizdə əsas səbəb nə olub?**

A. Mənim fikrimcə, səsim nəticəyə heç bir təsir göstərməyəcəkdi
B. Səs vermək istədiyim heç bir namizəd yox idi
C. Təklif olunan siyasətlərin heç biri ilə razı deyildim
D. Nəticə mənim üçün maraqlı deyildi
E. Digər səbəb (daha ətraflı):

| A | B | C | D | E |
|---|---|---|---|---|
| | | | | |

## 2 saylı sorğu vərəqi: səs verənlər

**1-ci sual. Hansı yaş qrupundansınız? (İstəyə görə)**

| | 25-dən aşağı | 25 – 40 | 40 – 60 | 60-dan yuxarı | Demək istəmirəm |
|---|---|---|---|---|---|
| KİŞİ | | | | | |
| QADIN | | | | | |

**2-ci sual. Sonuncu seçkilərdə səs vermək səbəbiniz nə olub?**

A. Bunun mənim demokratik öhdəliyim olduğunu hiss etmişəm.

B. [Şəxsin adı] üçün səs vermək istədim.

C. [Partiyanın adı] üçün səs vermək istədim

D. [Başqa şəxsin/partiyanın adı] qalib gəlməsini istəmədim

E. Digər səbəb (daha ətraflı):

| A | B | C | D | E |
|---|---|---|---|---|
| | | | | |

# Həmkarlar İttifaqı görüşü

*Ədalətli günün işi ədalətli əmək haqqına layiqdir!*

**Mövzular**
• Əmək
• Demokratiya
• Vətəndaşlıq və İştirak

**Mürəkkəblik** 3-cü səviyyə

**Qrup ölçüsü** 10 - 15

**Vaxt** 120 dəqiqə

**Xülasə** Bu məşğələ həmkarlar ittifaqı nümayəndələrinin iştirakı ilə işə götürən və işçilər arasında əmək haqqı və iş şəraiti üzrə danışıqların aparılması məqsədilə keçirilən görüşün simulyasiyasıdır. Əhatə olunan məsələlərə daxildir:
• Həmkarlar ittifaqlarının rolu
• İş yerində kollektiv sövdələşmə
• İşçilərin hüquqları

**Əlaqədar hüquqlar**
• Əmək hüququ
• Ədalətli iş şəraiti hüququ
• Həmkarlar ittifaqları qurmaq və onlarda birləşmək hüququ, tətil etmək hüququ

**Məqsədlər**
• Vətəndaş cəmiyyətində həmkarlar ittifaqlarının işi və rolu barəsində məlumatlılığı genişləndirmək
• Konsensusla qərar vermə bacarıqlarını inkişaf etdirmək
• İştirak, məsuliyyət və həmrəyliyi təbliğ etmək

**Materiallar**
• Hər iştirakçı üçün 1-ci materialın (“Vəziyyət”) bir nüsxəsi
• Hər iştirakçı üçün 2-ci materialın (“Bəzi əmək terminlərinin qısa izahlı lüğəti”) bir nüsxəsi
• Tanınma məqsədilə etiketlər (istəyə görə)
• Kağız, rəngli marker və qələmlər (istəyə görə)
• İki otaq (istəyə görə, lakin məsləhət görülür)

**Hazırlıq**
• Məşğələ zamanı oyunçuların istənilən suallarına cavab verə bilmək üçün məşğələ ilə bağlı məlumatı və materialları diqqətlə oxuyun.
• Otağı hazırlayın. Dörd stulu dövrə şəklində düzün. Bu stullar müxtəlif tərəflərin nümayəndələri və görüşə sədrlik edəcək şəxs üçündür. Həmin stulların arxasında qalan iştirakçılar üçün başqa stullar düzün.

## Təlimatlar

1. Məşğələni təqdim edin. Bu məşğələnin bir tərəfdən işə götürənlər, digər tərəfdən isə işçilər və həmkarlar ittifaqı nümayəndələri arasında görüşün simulyasiyası olduğunu izah edin. Məqsəd işçilərin əmək haqları və iş şəraiti ilə bağlı kollektiv razılığa gəlməkdir.
2. Başlamaq üçün qrupdan səhnənin keçəcəyi şirkətin adı və biznesi ilə bağlı qərar verməyi xahiş edin. Bu şirkət real və ya xəyali ola, real və ya xəyali məhsulları istehsal edə bilər. Həmçinin, onlardan həmkarlar ittifaqı üçün ad tapmağı xahiş edin.
3. İndi isə, iştirakçıları 2:1 nisbətində iki qrupa ayırın. Daha kiçik olan qrup işə götürənlər, daha böyük olan qrup isə işçilər və həmkarlar ittifaqı nümayəndələridir.

4. 1-ci materialın, “Vəziyyət”, və 2-ci materialın, “Bəzi əmək terminlərinin qısa izahlı lüğəti”, nüsxələrini paylayın. İştirakçılara kağızları oxumaq üçün on dəqiqə vaxt verin, bundan sonra, hamının məlumatı başa düşdüyündən əmin olun.
5. Qısaca simulyasiyanın necə gedəcəyini təsvir edin: Təşəbbüskar işə götürənlərdir və onlar görüşə sədrlik edirlər. İlk olaraq, onlar öz təkliflərini təqdim edirlər. Bundan sonra, Hİ və işçilərin nümayəndələri öz təkliflərini irəli sürürlər. Daha sonra, tərəflər ümumi razılığa gəlmək üçün danışıqlar aparırlar.
6. İştirakçılardan görüşün prosedurları ilə bağlı razılığa gəlməyi xahiş edin, məsələn, danışıqlar davam edərkən hər bir şəxsin danışığı üçün vaxt məhdudiyyəti qoyulmalıdır – çox güman ki, maksimum 2 dəqiqə? Görüşün ümumi vaxtı nə qədər olmalıdır? Nümayəndələrin öz seçiciləri ilə məsləhətləşməsi üçün qısa fasilələrin verilməsi prosedurları və s. Başqa kimsə danışa bilər yoxsa ancaq nümayəndələr?
7. İndi isə, iştirakçılardan hazırlaşmaq üçün iki qrupa ayrılmağı xahiş edin (30 dəqiqə). İşə götürənlər iki nümayəndəni və görüşə sədrlik edəcək şəxsi seçməlidirlər. İşçilər/Hİ iki nümayəndə seçməlidir. Bundan sonra, hər iki qrup:
   - Görüşdə təqdim olunacaq yeni təklifi işləyib hazırlamalıdır.
   - Nümayəndələrin danışıqlar apararkən hansı səlahiyyətlərə malik olacağı barəsində qərar verməlidir.
   - Onlar üçün dib xətt hansıdır, yəni ən pis halın ssenarisi və ya qəbul ediləcək ən aşağı razılıq nədir?
8. Qruplar hazır olduqda nümayəndələri dövrə şəklində qoyulmuş beş stulda, digərlərini isə onların arxasında əyləşməyə dəvət edin. Sədri görüşü açıq elan etməyə çağırın.
9. Görüş bitdikdən sonra, iştirakçıların roldan çıxması üçün qısa fasilə verin, daha sonra, təhlil və qiymətləndirməyə keçin.

ƏSAS TARİX

**1 may**
Beynəlxalq
İşçilər Günü

## Təhlil və qiymətləndirmə

İştirakçıların məşğələni nə dərəcədə bəyənməsini qısa şəkildə nəzərdən keçirməklə başlayın, daha sonra, nə baş verdiyini və onların nə öyrəndiyini müzakirə edin:

- Qruplar ilkin təkliflərini razılaşdırmaq üçün necə iş aparıblar? Bu mərhələ asan yoxsa çətin idi?
- Qruplar ilkin təklifləri hazırlayarkən öz maraqlarından yoxsa bütövlükdə şirkətin maraqlarından çıxış ediblər?
- Qruplar danışıqların aparılması üçün taktika müəyyən ediblər?
- Görüş necə keçib? Danışmaq istəyən hər kəsə bu imkan yaradılıb?
- Tərəflər qarşılıqlı şəkildə qəbul olunan razılığa gələ biliblər?
- Həmkarlar ittifaqına daxil olmaq insan hüququ kimi tanınır. Bu hüquq nə dərəcədə əhəmiyyətlidir? Bu hüququn təmin olunmamasının nəticələri hansılar ola bilər?
- İnsanlar həmkarlar ittifaqları, onların xüsusiyyətləri və işləri barəsində nə bilirlər?
- Sizin ölkənizdəki həmkarlar ittifaqlarının təsir göstərmək gücü nə qədərdir? İşə götürənlərlə bağlı vəziyyət necədir, onların hüquqlarını qoruyan təşkilatlar var?
- İştirakçılardan hər hansı biri həmkarlar ittifaqı üzvüdür? Niyə? Üzv olmağın müsbət və mənfi tərəfləri hansılardır?

## Fasilitator üçün məsləhətlər

Bu məşğələyə başlamazdan əvvəl, ölkənizdə həmkarlar ittifaqlarına münasibətdə ümumi yanaşmaları və mühiti nəzərə almalısınız. Məsələn, keçmiş kommunist cəmiyyətlərində bu məşğələyə qarşı müxalif mövqe nümayiş etdirilə bilər, belə ki, həmin ölkələrdə vaxtilə həmkarlar ittifaqlarına “Kommunizm Məktəbləri” kimi baxılıbdır. Bu halda, məşğələyə insanların həmkarlar ittifaqları haqqında təsəvvürlərini və stereotiplərini müəyyən etməklə başlaya bilərsiniz. İştirakçılardan yerli həmkarlar ittifaqlarından məlumat toplamağı və ölkələrindəki əmək məsələləri ilə bağlı tədqiqat aparmağı xahiş edə bilərsiniz. Eyni zamanda, əlaqədar olduqları siyasi sistemdən asılı olmayaraq, həmkarlar ittifaqlarının işçilərin hüquqlarının qorunmasındakı rolunu və əhəmiyyətini vurğulaya bilərsiniz.

Qrupdan asılı olaraq, sövdələşmə prosesi ilə bağlı daha çox istiqamət verməyinizə ehtiyac duyula bilər. İştirakçılara öz mövqelərini və təkliflərini hazırlayarkən nəzərə alınmalı bəzi məsləhətlər verə bilərsiniz, məsələn:

- İşçilər bütün işçiləri saxlamaq üçün əmək haqqı artımından imtina edərlər?
- İşdən çıxarma halları baş verərsə, onlar hansı kateqoriya işçilərə tətbiq olunmalıdır?
- Təklif reallığı əks etdirir? Şirkət iqtisadi cəhətdən buna tab gətirə bilər?

Görüş və danışıqların öz axarı ilə getməsinə şərait yaradın! Əgər müzakirələr zamanı işçilər və həmkarlar ittifaqı nümayəndələri öz təkliflərini tətillə dəstəkləmək istəyərlərsə, nümayiş posterləri hazırlamaları üçün onlara kağız və qələm verin. Əgər işə götürənlər işçiləri iş yerinə buraxmamaq, yəni lokaut təşkil etmək istəyərlərsə, işçilərin getməsi üçün ikinci otağı təmin edin.

Bir çox Avropa ölkələrində kollektiv sövdələşməni tənzimləyən qanunlar mövcuddur. Həmin qanunları müəyyən edə və iştirakçıların məşğələdən tam şəkildə faydalana bilməsi üçün bəzi əhəmiyyətli maddələrin nüsxələrini paylaya bilərsiniz.

## Variantlar

Hüquqlar barəsində danışıqları əhatə edən digər bir məşğələ məktəbdə "problemli" şagird ilə bağlı mübahisənin həll olunması üzrə görüşün simulyasiyası ola bilər. Görüş bir tərəfdən şagird və onun valideynləri, digər tərəfdən direktor və valideyn-müəllim təşkilatının nümayəndələri arasında keçirilə bilər.

## Sonrakı fəaliyyət üçün təkliflər

Həmkarlar ittifaqının nümayəndəsini çıxış etmək üçün dəvət edin. Həmkarlar ittifaqlarının telefon nömrələrini yerli telefon kitabçasından tapa bilərsiniz. Əksər hallarda, həmkarlar ittifaqları gənclərlə yaxınlaşmaqda maraqlı olurlar. Bu hal, sizin üçün yaxşı fürsət yarada bilər! Əgər qrup fikirləri müzakirə etməyi xoşlayırsa, onlar insanların çoxsaylı insan hüquqları məsələləri üzrə öz fikirlərini müdafiə etməli olduğu "Harada dayanırsınız?" məşğələsini bəyənə bilərlər.

## Fəaliyyət üçün fikirlər

Ölkənizdə işçilərin hüquqları ilə bağlı məlumat toplayın. Əgər siz tam-ştat işdə çalışırsınızsa, və ya cib xərcliyi üçün işləyirsinizsə, yarım-ştat, tələbə və ya yay işiniz varsa, öz hüquqlarınız haqqında öyrənin, məsələn, gecə və həftəsonu işləməyə görə əlavə əmək haqqı almaq, ödədəyiniz vergilər, sığorta, lazımi avadanlıqla təmin olunmaq və s.; həmçinin, sağlamlıq və təhlükəsizlik qaydaları ilə maraqlanın.
Gənclər arasında həmkarlar ittifaqlarını təbliğ etmək üçün yerli həmkarlar ittifaqı ilə birgə layihə hazırlayın.

## Əlavə məlumat

Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası (ITUC-CSI) 151 ölkə və ərazidən 176 milyon işçini təmsil edir və 301 milli şöbəyə malikdir. Bu təşkilat həmkarlar ittifaqı hüquqlarının pozuntuları ilə bağlı illik sorğu keçirir və mövcud məhdudiyyətləri (məsələn, həmkarlar ittifaqlarına qoşulmaq, tətil hüququ, dünyanın müxtəlif ölkələrində, o cümlədən bir çox Avropa ölkələrində kollektiv sövdələşmə və işçilərin qorunmasına olan məhdudiyyətlər) əhatə edən ətraflı vəziyyət hesabatları hazırlayır. Daha ətraflı məlumat üçün www.ituc-csi.org saytına baxın.

23 mart 2010-cu ildə ITUC gənclərin təşkilatlanması və işə götürülməsi məqsədilə çalışan həmkarlar ittifaqlarını qlobal səviyyədə əlaqələndirmək üçün hərəkat başlatdı. Yeni Gənclər Hərəkatında çoxsaylı müxtəlif vasitələrdən, o cümlədən, video, sosial şəbəkələr, posterlər və vebsaytlar, eləcə də xüsusi hərəkat bələdçisindən istifadə olunur.
www.coe.int/compass saytında 5-ci Fəsildə, Əmək bölməsindəki ümumi məlumat hissəsində gənclər və həmkarlar ittifaqı üzvlüyü barəsində daha geniş məlumat verilmişdir.

**Qeyd**

Bu məşğələ GMO Birləşmiş Krallıq Həmkarlar İttifaqı, Avropa Həmkarlar İttifaqı Kolleci (ETUCO) və İşçilərin Yeni Texnologiyaların təsiri barəsində Treyninqi üzrə Avropa Assosiasiyası (AFETT) ilə birgə hazırlanıb.

## Paylanmalı materiallar

### 1-ci vərəq. Vəziyyət

Səhnə işə götürənlər, işçilər və həmkarlar ittifaqı (Hİ) nümayəndələri arasındakı şirkət görüşündə keçir. Görüş iştirakçıları əmək haqqı iddiası ilə bağlı razılığa gəlməkdə çətinlik çəkirlər.

Zavod ilin 365 günü, günün 24 saatı fəaliyyət göstərir. İstehsaldan menecmentə qədər işçilərin ümumi sayı min nəfərdir. Bütün işçilər həmkarlar ittifaqının üzvüdür.

Şirkət hazırda maliyyə və iqtisadi çətinliklərlə üzləşir, lakin müflis olmaq təhlükəsi yoxdur. Gəlirlər yenə də yüksəkdir, lakin sektorda ümumi geriləmə olduğundan keçən il rəqəmlər daha aşağı olub. Son üç il ərzində əmək haqları real şərtlərlə 3% aşağı düşüb, işçi heyətin sayı isə 10% azalıb.

Sənayenin digər sektorlarında artım olduğundan, işçilər öz əmək haqlarında da artım tələb edirlər.

Menecment əmək haqqını artırmaq üçün işçilərin sayının azaldılmalı olduğunu bildirir. Onların təklifi aşağıdakı kimidir:

- Fərdlərin müqavilələri üzrə növbəti 12 ay ərzində sadə əmək haqqı əmsallarına 4% artım (hazırda illik inflyasiya 2%- dir).
- Günlük və ya aylıq iş saatları yerinə, illik iş saatlarına görə ödəniş və əlavə iş saatlarının ləğvi.
- İşdən çıxarmalar (işçi heyətin 10%-i – əsasən, yarım-ştat, müvəqqəti işçilər və təlim müddətində olanlar – "sonuncu gələnlər, ilk çıxarılır" qaydasına əməl etməklə) və könüllü artıqlıq.

Menecmentin təklifi işçilərin ümumi assambleyası tərəfindən rədd olunub. Onlar daha pis vəziyyətə düşməkdən ehtiyat edirlər (hazırda işçilərin 40%-i əmək haqqının əhəmiyyətli hissəsini əlavə iş saatlarına görə ödənişdən əldə edir). Hİ və işçilər menecmentə təqdim etmək üçün öz təkliflərini hazırlayıblar:

- Növbəti iki il ərzində 9% əmək haqqı artımı
- Əlavə iş saatlarına görə ödənişlər və bonuslar yerində qalır.
- Hazırki işçi sayı saxlanılır, artıqlıqda qalmağa məcbur olan istənilən işçiyə şirkət hesabına yenidən təlim keçirilir.
- Tələblər qəbul olunmazsa, tətilə başlanılacaq.

Menecment qarşı tərəfin təklifini qəbul etmir, Hİ və işçilərin təkliflərinin şirkətin üzləşdiyi problemləri həll edə bilməyəcəyini iddia edir.

Danışıqlar artıq iki aydır ki, davam edir.

Şirkətin siyasətinə görə, əgər iki ay müddətində razılıq əldə olunmursa, bütün əlaqədar tərəflərin iştirak etdiyi xüsusi görüş çağrılır. Simulyasiyada həmin görüş təqdim olunur. Hər iki tərəfdən qarşılıqlı şəkildə qəbul olunan razılığa gəlmək üçün reallığı əks etdirən yeni təklif irəli sürmək tələb olunur.

Danışıqlar masası ətrafında beş nəfər olmalıdır: iki menecment nümayəndəsi, bir görüş sədri (işə götürənlərin təyin etdiyi), iki Hİ nümayəndəsi. Bu görüş xüsusi xarakter daşıdığından, bütün işçilərin iştirakı arzuolunandır.

**2-ci vərəq. Bəzi əmək terminlərinin qısa izahlı lüğəti**

| | |
|---|---|
| **Kollektiv sövdələşmə:** | Bu prosesdə işə götürənlər və işçilərin nümayəndələri əmək haqqı və iş şəraiti kimi məsələləri həll etmək və razılığa gəlmək üçün kollektiv şəkildə çalışırlar. |
| **Lokaut:** | Lokaut işə götürənin öz gücünü nümayiş etdirməsinin ən kəskin yollarından biridir. İşə götürən işçiləri onların iş yerinə buraxmaqdan imtina edir, belə ki, menecmentin tələblərini qəbul etdirmək üçün işçiləri işdən uzaqlaşdırır. |
| **Artıqlıq:** | İşçilər işə götürənin biznesi dayandırmaq barədə qərarı nəticəsində işdən çıxarılarsa, onlar artıqlıqda olurlar. Təzminat kimi işçilərə artıqlıq ödənişi edilə bilər. |
| **Davamlılıq ödənişi:** | Daimi işçi ədalətsiz əsasda və ya şirkətin strukturunun yenidən qurulması ilə bağlı işdən çıxarılıbsa, ona davamlılıq ödənişi adlandırılan təzminat ödənməlidir. Bu ödənişin dəyəri adətən işçinin aldığı əmək haqqının məbləğinə uyğun şəkildə hesablanır, məsələn, hər iş ili üçün bir həftəlik əmək haqqı. |
| **Tətil:** | Həmkarlar ittifaqı işçilərin maraqlarını, o cümlədən əmək haqqı və iş şəraiti ilə bağlı tələblərini müdafiə etmək üçün mövcud olan assosiasiyadır. Həmkarları ittifaqları adətən işə götürənlə danışıqlar zamanı işçiləri təmsil edirlər. Bir çox ölkələrdə Hİ-lər konfederasiyalar şəklində təşkil olunur. |
| **Həmkarlar İttifaqı:** | Həmkarlar ittifaqı işçilərin maraqlarını, o cümlədən əmək haqqı və iş şəraiti ilə bağlı tələblərini müdafiə etmək üçün mövcud olan assosiasiyadır. Həmkarları ittifaqları adətən işə götürənlə danışıqlar zamanı işçiləri təmsil edirlər. Bir çox ölkələrdə Hİ-lər konfederasiyalar şəklində təşkil olunur. |

# Həyatımdakı zorakılıq

*Üç R-ə əməl edin: Özünüzə hörmət (Respect for self), Başqalarına hörmət (Respect for others) və bütün etdiklərinizə görə məsuliyyət (Responsibility for all your actions)*

Dalay Lama

**Mövzular**
- Sülh və Zorakılıq
- Müharibə və Terrorizm
- Sağlamlıq

**Mürəkkəblik** 3-cü səviyyə

**Qrup ölçüsü** İstənilən

**Vaxt** 90 dəqiqə

**Xülasə** Bu məşğələdə iştirakçılar şəxslərarası zorakılıqla bağlı təcrübələrini nəzərdən keçirirlər.

**Əlaqədar hüquqlar**
- Yaşamaq, azadlıq və şəxsi təhlükəsizlik hüququ
- Fikir, vicdan və din azadlığı
- İşgəncə və alçaldıcı rəftara məruz qalmamaq hüququ

**Məqsədlər**
- Zorakılıq obyekti olmaq və zorakılığın səbəbi ilə bağlı bilik və düşüncəni inkişaf etdirmək
- Zorakılıqla müsbət yolla mübarizə aparmaq bacarıqlarının inkişafına təkan vermək
- Dözümlülük və məsuliyyət dəyərlərini inkişaf etdirmək.

Sülh və Zorakılıq

Müharibə və Terrorizm

Sağlamlıq

3-cü səviyyə

İstənilən

90 dəqiqə

## Təlimatlar

1. Bu məşğələnin iştirakçıların zorakılığın qurbanı olduğu və digərlərinə zorakı davrandığı şəxslərarası zorakılıq halları ilə bağlı şəxsi təcrübələri üzrə fikir və hislərini paylaşmaları üçün imkan yaratdığını bildirin.
2. Hamının iştiraka əsaslanan qrup işi barəsində məlumatlı olduğundan və onu başa düşdüyündən əmin olun: hamıya hörmətlə yanaşılmalı, deyilənlər məxfi saxlanmalı və heç kim öz fikirlərini səsləndirərkən özünü təzyiq altında və narahat hiss etməməlidir.
3. “Zorakılıq” sözü ilə bağlı qısa beyin fırtınası sessiyası aparın, iştirakçılardan gündəlik zorakılıq nümunələri verməyi xahiş edin, məsələn, sözlə alçaltma, təhqir, sarkazm, növbəni pozmaq, zorla kiminsə qarşısına keçmək, uşağı şillələmək və ya vurmaq/vurulmaq, banda tərəfindən təhdid olunmaq, oğurluq, xırda pul oğurluğu və ya cibgirlik, vandalizm və digər hallar.
4. Hər kəsdən aşağıda göstərilən hallarla bağlı şəxsi insidentləri xatırlamaq üçün beş dəqiqə ərzində düşünməyi xahiş edin:
   a. kimsə onlara qarşı zorakı davranıb
   b. onlar kiməsə qarşı zorakı davranıblar
   c. onlar kiminsə zorakı davrandığını görüb müdaxilə etməyiblər.
5. Könüllü bir neçə iştirakçıdan qrupun birgə nəzərdən keçirməsi üçün öz təcrübələrini bölüşməyi xahiş edin. Nə baş verdiyini və özlərini necə hiss etdiklərini təsvir etmələrinə imkan yaradın. A, b və c kateqoriyalarının hər biri üzrə iki nümunəyə baxmağa çalışın.
6. Flipçartda baş vermiş insidentlərlə bağlı qısa qeydlər aparın.

## Təhlil və qiymətləndirmə

Ümumilikdə, məşğələnin qısa müzakirəsi və onun çətin olub-olmamasının səbəblərini nəzərdən keçirməklə başlayın. Bundan sonra, müxtəlif insidentlərin səbəblərini və nəticələrini təhlil edin.

- Zorakılıq halı niyə baş verib?
- Niyə zorakı davranmısınız?
- Qrupun digər üzvləri bənzər halda necə davranardılar?
- Necə daha fərqli şəkildə davrana bilərdiniz? Qrupun qalanının təklifləri var?
- İnsidentin baş verməsinin qarşısını almaq üçün nə etmək olardı?c variantında iştirakçılar niyə müdaxilə etməyiblər?
- İnsidentlərin ümumi səbəbləri vardı yoxsa onların hər biri məxsusi idi?
- İnsidentlərin neçəsi anlaşılmazlığın, neçəsi inciklik, qəzəb və paxıllığın, neçəsi mədəniyyət və ənənələr, fikir və inamlarda fərqlərin nəticəsi idi?
- İştirakçılar "dözümlülük" sözündən nə başa düşürlər? Ona necə tərif verərdilər?
- Biz başqalarının bütün hərəkətlərinə və sözlərinə qarşı dözümlü olmalıyıq?
- Niyə dözümlülük insan hüquqlarının təmin olunması üçün əsas dəyərdir?

## Fasilitator üçün məsləhətlər

Bu məşğələnin məqsədinin zorakılığın səbəblərini başa düşərək, eləcə də hisslər və emosiyaları müəyyən edərək zorakılıqla mübarizə aparmaq və vəziyyəti nəzarətdə saxlamaq üçün müsbət davranış bacarıqlarını inkişaf etdirmək olduğunu vurğulayın. Diqqət mərkəzində olan məsələ fərdlərin yaşadıqları travmanın öhdəsindən gəlməsinə kömək etmək deyil, zorakı hallara qarşı mübarizə üçün qeyri-zorakı vasitələr tapmaqdır. Əgər kimsə zorakılıq nəticəsində əziyyət çəkirsə, məşğələdən sonra onlarla təklikdə danışa biləcəyinizi bildirin və onlara peşəkar yardım almağa kömək edin.

Sürprizlərə hazır olun, bu məşğələni çətin və ya məyusedici hesab edən iştirakçılara dəstək göstərin. Siz hamının keçmişini, onların ailəsində baş verənləri yaxud baş vermiş hadisələri bilə bilməzsiniz. Ola bilər ki, iştirakçılardan bəzilərinin zorakılıqla bağlı pis təcrübələri olub, məsələn, uşaqların istismarı, məişət zorakılığı, psixoloji və ya emosional alçaltma, kiber-xuliqanlıq, cinsi istismar, irqçilik, məktəbdə və ya işdə xuliqanlıq, yolda qəzəblənmə, özünə ziyan vurma, intihar cəhdi, nifrət cinayətləri, terrorizm, soyqırım, müharibə, müharibə cinayətləri və zorakı cinayət.

İştirakçıları Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 1-ci maddəsini xatırlamağa çağırın: "Bütün insanlar öz ləyaqətləri və hüquqları etibarilə azad və bərabər doğulurlar. Onlara ağıl və vicdan bəxş edilib və onlar bir-birinə münasibətdə qardaşlıq ruhunda davranmalıdırlar". Əgər biz başqalarının bu maddəyə əməl etməsini gözləyiriksə, özümüz də ona riayət etməliyik.

Əgər qrupda ondan artıq adam varsa, hekayələrini bölüşmək üçün onları kiçik qruplara ayıra bilərsiniz.

## Variantlar

Bu məşğələ səhnəcik qurmaq üçün istifadə oluna bilər. İki, üç və ya dörd iştirakçıdan insidenti göstərən qısa rol oyunu hazırlamağı xahiş edin. Qrupun yerdə qalan üzvləri isə tamaşa edir. Rol oyunu təqdim olunarkən arada fasilələr verə və tamaşaçılardan rəy bildirməyi yaxud rol oyununun davamı barəsində təkliflər irəli sürməyi xahiş edə bilərsiniz. Alternativ olaraq, tamaşaçılar rolları aktyorlardan təhvil alıb səhnəciyi fərqli şəkildə yekunlaşdıra bilərlər.

Forum Teatrı əvəzinə "Şəkil Teatrı" (67-ci səhifəyə baxın) metodundan istifadə edə bilərsiniz. İştirakçıları zorakılıq barəsində düşünməyə sövq etmək üçün bu üsul olduqca effektivdir. Bir iştirakçıdan (heykəltəraş) digər iştirakçılardan istifadə edib kollektiv şəkil hazırlamağı və onların bədənlərindən istifadə etməklə zorakı vəziyyəti göstərən tablo və ya səhnə qurmağı xahiş edin. Əsər tamamlandıqdan sonra, qrupun qalanı rəy bildirə və suallar verə bilər. Növbəti addım təqdim olunan şəkili vəziyyətin müsbət, qeyri-zorakı halına çevirməkdir.

## Sonrakı fəaliyyət üçün təkliflər

Dözümlülük Prinsipləri üzrə BMT Bəyannaməsində dözümlülüyün hədləri ilə bağlı irəli sürülən ziddiyyətli məqamı müzakirə edə bilərsiniz. “Dözümlülük insan hüquqlarına hörmətlə bağlıdır; dözüm göstərmək sosial ədalətsizliyə dözmək və ya şəxsin əqidəsindən imtina etməsi yaxud əqidəsinin zəifləməsi demək deyil. Dözümlülük şəxsin sərbəst şəkildə öz əqidəsinə xidmət etməsi və digərlərinin də əqidəsini qəbul etməsi deməkdir.” Qrupdan qeyd olunan məsələni nəzərdən keçirməyi xahiş edin, “əgər dözümlülük sosial ədalətsizliyə dözülməsini əhatə etmirsə”, biz irqçi və ya fanatik baxışları olan şəxslərin “öz [əqidələrinə] xidmət etməsini qəbul etmək” məcburiyyətində deyilik?

Zorakılıq qurbanlarına dəstək verən təşkilatları araşdırın, məsələn, yardım xətlərinə və qurbanlara dəstək şəbəkələrinə zəng edin. İcmanızda anlayış və dözümlülüyü təbliğ edən təşkilatlar haqqında məlumat toplayın.

Əgər sülh və zorakılıq mövzusunda işi davam etdirmək istəyirsinizsə, 144-cü səhifədəki ailə daxili zorakılığa həsr olunmuş “Ailədaxili məsələlər”, 232-ci səhifədəki kiber-xuliqanlığa həsr olunmuş “Mənim həyatım tamaşa deyil” və 140-cı səhifədəki xuliqanlığa həsr olunmuş “Bizim alternativlərimiz var?” məşğələlərinə baxa bilərsiniz.

## Fəaliyyət üçün fikirlər

İcmanızda sülh və qeyri-zorakılığın təbliği üçün çalışan təşkilatla əlaqəyə keçin, könüllü kimi necə kömək edə biləcəyinizi müəyyənləşdirin.

## Əlavə məlumat

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Zorakılıq və Sağlamlıq üzrə ilk Ümumdünya Hesabatında (2002) zorakılığa belə tərif verir, “özünə, digər şəxsə, qrup və ya icmaya qarşı zədə, ölüm, psixoloji zərər, inkişafdan qalma və ya məhrumiyyətlə nəticələnən yaxud nəticələnməsi gözlənilən fiziki güc və ya qüvvənin məqsədli istifadəsi ilə təhdid və ya tətbiqi.”

**Prinsiplər üzrə BMT Bəyannaməsi**

1-ci maddə – Dözümlülüyün mənası

1.1 Dözümlülük dünyamızın mədəniyyətlərinin, ifadə tərzlərimizin və insan olmaq vasitələrimizin zəngin müxtəlifliyinə hörmət, onun qəbul edilməsi və dəyərləndirilməsidir. Dözümlülük bilik, açıqfikirlilik, ünsiyyət, düşüncə, vicdan və inam azadlığı ilə formalaşdırılır. Dözümlülük fərqlilikdə ahəngdir. Mənəvi öhdəlik deyil, lakin siyasi və hüquqi tələbdir. Dözümlülük sülhü mümkün edir, müharibə mədəniyyətini sülh mədəniyyəti ilə əvəzləməyə töhfə verir.

1.2 Dözümlülük imtiyaz, iltifat və ya mərhəmət deyil. Dözümlülük, hər şeydən əvvəl, digərlərinin ümumdünya insan hüquqları və əsas azadlıqlarının tanınması ilə ortaya çıxan fəal yanaşmadır. Heç bir halda, dözümlülük həmin əsas dəyərlərin pozulmasına haqq qazandırmaq üçün istifadə oluna bilməz. Dözümlülük fərdlər, qruplar və dövlətlər tərəfindən nümayiş etdirilə bilər.

1.3 Dözümlülük insan hüquqları, plüralizm (mədəni plüralizm daxil olmaqla), demokratiya və qanunun aliliyini dəstəkləyən məsuliyyətdir. Dözümlülük ehkamçılığı və mütləqiyyəti rədd edir və beynəlxalq insan hüquqları vasitələrində müəyyən olunmuş standartları təsdiqləyir.

1.4 Dözümlülük insan hüquqlarına hörmətlə bağlıdır; dözüm göstərmək sosial ədalətsizliyə dözmək və ya şəxsin əqidəsindən imtina etməsi yaxud əqidəsinin zəifləməsi demək deyil. Dözümlülük şəxsin sərbəst şəkildə öz əqidəsinə xidmət etməsi və digərlərinin də əqidəsini qəbul etməsi deməkdir. Dözümlülük insanların öz görünüşləri, vəziyyətləri, nitqləri, davranış və dəyərlərinə görə təbii şəkildə fərqlənməsi faktını, onların sülh şəraitində yaşamaq və olduqları kimi davranmaq hüquqlarını qəbul etmək deməkdir. Dözümlülük, həmçinin, şəxsin öz baxışlarını zorla digərlərinə qəbul etdirməməsi deməkdir.

BMT-nin Qeyri-zorakılıq üzrə Beynəlxalq Günü təhsil və ictimai məlumatlılıq vasitəsilə qeyri-zorakılığı təbliğ edən, qlobal səviyyədə qeyd olunan hadisədir. Bu gün məşhur Hind lideri Mahatma Qandinin ad günü ilə üst-üstə düşməsi üçün hər il oktyabrın 2-də qeyd olunur.

ƏSAS TARİX

**2 oktyabr**
Qeyri-zorakılıq üzrə Beynəlxalq Gün

Ətraf mühit

Qloballaşma

Sağlamlıq

2-ci səviyyə

10+

30 dəqiqə

# Həyat şəbəkəsi

*Təbiətdə nədənsə tutun və onun dünyanın qalanı ilə əlaqəli olduğunu görəcəksiniz!*

**Mövzular**
- Ətraf mühit
- Qloballaşma
- Sağlamlıq

**Mürəkkəblik** 2-ci səviyyə

**Qrup ölçüsü** 10+

**Vaxt** 30 dəqiqə

**Xülasə** Bu məşğələdə iştirakçılar qlobal ərzaq şəbəkəsindəki əlaqələr üzrə beyin fırtınası aparırlar. Onlar aşağıdakıları nəzərdən keçirirlər:
- Canlı və cansız təbiət arasındakı qarşılıqlı asılılıq
- Bütün növ insan fəaliyyətinin ətraf mühitə qaçılmaz təsiri və bunun nəticələri
- Yaşamaq, azadlıq və şəxsi təhlükəsizlik hüququ

**Əlaqədar hüquqlar**
- Öz (əhalinin) təbii sərvət və resursları ilə bağlı azad şəkildə sərəncam vermək hüququ
- Vicdan və din azadlığı
- Canlı və cansız təbiət arasındakı qarşılıqlı asılılıq barəsində öyrənmək

**Məqsədlər**
- Vicdan və din azadlığı
- Canlı və cansız təbiət arasındakı qarşılıqlı asılılıq barəsində öyrənmək

**Materiallar**
- Nazik ip və ya qalın yun yumağı

## Təlimatlar

Bu məşğələ 3 hissədən ibarətdir: 1-ci hissə - həyat şəbəkəsini qurmaq; 2-ci hissə - onu dağıtmaq; 3-cü hissə - ətraf mühiti qorumaq üzrə tədbirlərlə bağlı beyin fırtınası.

**1-ci hissə**
1. İştiakçılardan dövrədə dayanmağı xahiş edin.
2. İştirakçılara həyat şəbəkəsi modelini hazırlayacaqlarını izah edin.
3. Başlayın. İp yumağını əlinizdə saxlayın və yaşıl bitki adı deyin, məsələn, kələm.
4. İpin ucundan tutun və topu dövrədəki kiməsə atın. Onlar topu tutmalıdırlar! İndi, ikiniz arasında ipdən ibarət düzxətt var.
5. Həmin şəxs kələm yeyən bir heyvan adı deməlidir, məsələn, tırtıl. Bundan sonra, ipdən tutub topu dövrədəki üçüncü şəxsə atmalıdır.
6. Üçüncü şəxs tırtıllarla qidalanan heyvan adı deməlidir, məsələn, quş və ya bildikləri quş növünün adını, məsələn, qaratoyuq. Bundan sonra, yumağı dördüncü şəxsə atmalıdır.
7. Oyunu davam edin və dövrə üzrə topu bir-birinizə atmaqla "həyat şəbəkəsi"ni təmsil edən çarpaz tor yaradın.

**2-ci hissə**

8. İndi isə, hər iştirakçıdan sıra ilə həyat şəbəkəsini zədələyən spesifik nümunə verməyi xahiş edin (məsələn, təsərrüfat sahəsində maşın yollarının salınması, həddən artıq çox balıq ovlanması və ya fosil yanacaqların yandırılması). Onlar nümunəni səsləndirdikdən sonra, ipi buraxmalıdırlar.
9. Hər kəs danışdıqdan sonra, iştirakçılardan döşəmədə lazımsız şəkildə qalan dolaşıq iplər yığınına baxmağı xahiş edin. Heç bir addım atmasaq, dünyamızın bu yığına çevriləcəyini, lakin bunun qarşısını almağın mümkün olduğunu deyin; indiki vəziyyətdə nəyisə xilas etmək üçün hər birimiz müəyyən sadə addımlar ata bilərik.

**3-cü hissə**

10. İştirakçıları növbə ilə dünyanı xilas etmək üçün sadə və praktiki addımlar atacaqları barədə söz verməyə dəvət edin. Məsələn, elektrik enerjisinə qənaət etmək üçün kompyuteri gözləmə rejiminə qoymaq yerinə söndürmək, daha az ət yemək və ya daha az uçmaq.
11. Hər bir iştirakçı vəd verdikdən sonra, döşəmədəki ipliyin təsadüfi bir hissəsindən tutub qaldırır.
12. Sonda, bir dəqiqəlik yeni şəbəkəyə baxın və onun əvvəlki ilə eyni olmadığını qeyd edin; əvvəlki şəbəkəni bərpa etmək üçün çox gecdir; tam sağalmaq mümkün deyil, çünki nəsli kəsilmiş növlərini geri qaytarmaq mümkünsüzdür.

**ƏSAS TARİX**

**2 oktyabr**
Təbii Fəlakətin Azaldılması üzrə Beynəlxalq Gün

## Təhlil və qiymətləndirmə

Şəbəkənin dağıldığını və yenisinin yaradıldığını gördükdə iştirakçıların özlərini necə hiss etdiyini soruşmaqla başlayın. Daha sonra, əhatə olunmuş məsələlər və ətraf mühiti qorumaq üçün atılmalı addımlar barəsində danışın.

- Şəbəkənin tədricən dağıldığını gördükdə özünüzü necə hiss etdiniz?
- Müxtəlif qida şəbəkələrində heyvanlar və bitkilərin adlarını sadalamaq asan idi? İnsanların təbiət tarixi barədə bilikləri nə dərəcədə yaxşı idi?
- Məsələn, qütb ayıları növbəti 10 il ərzində yoxa çıxsa, bu sizi narahat edər?
- Yeni şəbəkənin qurulduğunu gördükdə özünüzü necə hiss etdiniz? Ətraf mühitə təsirimizi azaltmaq üçün fərdi şəkildə görüləcək işlər barədə düşünmək asan idi?
- Fərdi görülən işlər nə qədər effektivdir?
- Ətraf mühiti qorumaq kimin məsuliyyətidir? BMT, hökumətlər, QHT-lər yoxsa fərdlərin?
- Təbiətin balansı olduqca mürəkkəbdir və hər hansı fəaliyyətin qlobal səviyyədə nəticələrini proqnozlaşdırmaq asan deyil. Bu halda, dünyanın resurslarını necə istifadə etməklə bağlı qərarları hansı üsulla qəbul edə bilərik?
- Resursu necə istifadə etmək barədə qərar hansı üsulla qəbul olunmalıdır? Məsələn, ərazidə məhsul yetişdirmək üçün oradakı meşə kəsilməlidir? Meşədən yaşayışını təmin edən insanlar kənd təsərrüfatından gəlir götürən insanlara görə əziyyət çəkəcəklər. Bərabərlik prinsipi müzakirə mövzusudur.
- İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq paktın 1-ci maddəsində bildirilir ki, "bütün insanlar, öz məqsədləri üçün, azad şəkildə təbii sərvət və resurslar üzərində sərəncam verə bilərlər". Buna əsasən, insanlar ətraf mühitə zərər vurmaq hüququna malikdirlər?
- Biz ətraf mühitdən yemək üçün qida və nəfəs almaq üçün hava əldə edirik. Sağlam mühit olmadan biz yaşaya bilmərik. Bu, həyat üçün ilkin şərtdir. Buna görə də, bizim ətraf mühitdən istifadə hüquqlarımızı məhdudlaşdıran, ətraf mühitə hörmətə əsaslanan daha yüksək dərəcəli öhdəliyimiz var (bizim fərdlər olaraq hüquqlarımızı məhdudlaşdıran başqalarının hüquq və azadlıqlarına hörmət öhdəliyinə bənzər şəkildə)?
- Bizi iqlim dəyişikliyinin nəticələrindən qoruması üçün hər hansı insan hüququna ehtiyac var?

## Fasilitator üçün məsləhətlər

Bu məşğələ üçün ən yaxşı qrup ölçüsü 10-15 nəfərdir. Əgər iştirakçıların sayı çoxdursa, məşğələni müxtəlif qruplarda aparın.

Hər qida zənciri həqiqi və ya mümkün əlaqələri əks etdirməlidir: məsələn, ot – qoyun – insanlar; vəya plankton – balinalar; və ya plankton – siyənək balıqları – donuzlar (donuzlar adətən dəniz məhsulu ilə yemlənir) – insanlar – pələnglər! Yadda saxlayın ki, heyvan öldükdə, onun bədənindəki bakteriya parçalanır və buraxılan minerallar digər yaşıl bitkilər tərəfindən mənimsənilir. Beləliklə, həyat dövrü yenidən başlayır. Həyat şəbəkəsini formalaşdırmaq üçün milyardlarla və milyardlarla belə dövrlər bir-biri ilə əlaqələnir.

İştirakçıların mümkün qədər çox və fərqli qida zənciri barəsində düşünməsinə çalışın. Meşəlik ərazidə, meşədə, dağda, bataqlıq, gölməçə, çay və dənizdəki yaşayış məskənlərindən nümunələr gətirin. Siz, "indi isə, minerallar dənizə yuyulub aparılır və dəniz fitoplanktonu (bitki plankton) tərəfindən istifadə olunur" kimi nümunələr verməklə müdaxilə edə bilərsiniz. Yaxud, məsələn, dəniz ekosistemindən torpaqdakı ekosistemə keçmək üçün "indi isə, sahil krabını yemiş qağayı öldüyü ərazinin təmizlənməsi zamanı quruya daşındı". Əgər oyunçu növbəti əlaqəni düşünə bilmirsə, qrupdakı digər şəxslərdən təkliflər istəyə bilər.

2-ci hissədə ilk iştirakçıların ipi buraxması böyük fərq yaratmayacaq, çünki sapların bir-biri ilə çarpazlaşması şəbəkəni bu və ya digər şəkildə qoruyub saxlayacaq. Buna baxmayaraq, daha artıq iştirakçı ipi buraxdıqca, döşəmədə qalan lazımsız saplar yığını və onların ətrafında dayanan bir qrup çarəsiz insanla üz-üzə qalacaqsınız.

3-cü hissə təhlildə "şəbəkəni nə zədələyir?" sualına veriləcək mübahisəli cavablara hazır olun. Bəzi insanlar, məsələn, vegetariyanlar ət yeyən insanları günahlandıra bilər. Siz onların düşüncə tərzini nəzərə almalı və digər oyunçuların da fikrini soruşmalısınız. Bununla belə, bu mərhələdə böyük debata daxil olmayın; əvvəlcə, oyunu bitirin, daha sonra, təhlil və müzakirə mərhələsində bu məsələyə yenidən qayıdın.

Müzakirənin dərinliklərinə getməməyə və məşğələnin əsas məqsədi - ətraf mühit üzərində insan fəaliyyətinin təsiri mövzusunu diqqət mərkəzində saxlamağa çalışın.

Uğur hekayələrinin yaxşı nümunələrini göstərilən vebsaytdan tapa bilərsiniz - www.ecotippingpoints.org.

Həmçinin, yerli məlumat mənbələrinə müraciət edin. Məsələn, Portuqaliyada Quercus assosiasiyası (www.quercus.pt) müntəzəm olaraq ictimai televiziyadan istifadə etməklə əhalini ətraf mühit məsələləri və bizim ətraf mühitə mənfi təsirimizi azaltmaq üzrə məsləhətlərlə təmin edir – "ətraf mühitə dost" şəkildə necə yaşaya bilərik.

İnsan hüquqları və ətraf mühit arasındakı əlaqə barəsində suallar verməzdən əvvəl, www.coe.int/compass saytından 5-ci fəsildə Ətraf mühit üzrə verilmiş ümumi məlumatı oxuya bilərsiniz.

Bu məşğələni təbii elmlər təmayüllü siniflə etmək yaxşı olar.

## Variantlar

2-ci hissədə iştirakçılardan həyat şəbəkəsini zədələyən təsirlərlə bağlı spesifik nümunələr verməyi xahiş edin, qayçı götürün və verilən hər nümunəyə görə ipin bir hissəsini kəsin. Tədricən, şəbəkə dağılacaq və sonda, ayaqlarınız altında lazımsız iplər yığını olacaq. Dağılmış şəbəkə çox dəhşətli mənzərədir və qlobal vəziyyət öz-özlüyündə olduqca məyusedicidir, lakin iştirakçılar qarşıda duran tapşırıqla əlaqədar özlərini çarəsiz hiss etməməlidirlər. Buna görə də, ətraf mühitin qorunması ilə bağlı hazırda əldə olunan inkişafla əlaqədar müzakirə və ya qısa beyin fırtınası məşğələsinə vaxt ayırmağınız vacibdir.

## Sonrakı fəaliyyət üçün təkliflər

Yerli və qlobal səviyyədə uğur hekayələri ilə bağlı beyin fırtınası aparın. Vəziyyət çıxılmaz deyil! Dünya üzrə gələcək nəsillər üçün dayanıqlı inkişafı təmin etməyə çalışan çoxsaylı insanlar var. Act International Alliance tərəfindən istehsal olunan "İqlim dəyişikliyini izləmək, dəyişiklik yaradan icmalar" bunun üçün mükəmməl resursdur.

Bu məşğələ insan hüquqları və ətraf mühit barədə debata başlamaq üçün giriş kimi istifadə oluna bilər. Məsələn, digər insan hüquqları ilə yanaşı, ətraf mühit üzrə insan hüququnun olması yaxşı olar? Ətraf mühitin instrumental dəyərindən daha artıq dəyəri var? Heyvanların hüquqları olmalıdır? (Daha ətraflı məlumat üçün www.coe.int/compass)

act-intl.org/goodpractice/TCC.pdf

Resurslardan dayanıqlı istifadənin inkişaf etdirilməsi üçün siyasi iradə, vaxt, səy və pul vəsaiti tələb olunur. Əgər ölkələr silahlanma və hərbiyə çox pul xərcləməsələr, onların ətraf mühit təhsili, elmi tədqiqat və ətraf mühitin praktiki qorunması ilə bağlı nə qədər çox tədbir görə

biləcəyi barədə düşünün. Əgər qrup bu məsələləri araşdırmağa davam etmək istəyirsə, onlar 189-cu səhifədəki “Bizim nə qədərə ehtiyacımız var?” məşğələsini edə bilərlər.

İqlim dəyişikliyi dünyanın hər yerində canlılara təsir edir. Daşqın, səhralaşma və dəniz səviyyəsinin yüksəlməsi kimi proseslərin kəskin təsirləri bir çox insanları öz hazırki yaşayış məkanlarından uzaqlaşmağa vadar edir. İqlim dəyişikliyi nəticəsində qaçqına çevrilmiş insanlarla bağlı bəzi məsələləri araşdırmaq istəyirsinizsə, 78-ci səhifədəki “Üç əşya” məşğələsinə baxın.

## Fəaliyyət üçün fikirlər

Yerli ətraf mühit layihələrində iştirak edin. Əlaqə saxlaya biləcəyiniz çoxlu QHT-lər var:

- Avropada Gənclər və Ətraf mühit (YEE). YEE Avropa üzrə təbiət və ətraf mühitin qorunması və tədqiqi üçün çalışan gənclərin qırxdan artıq regional və mill özünü idarəetmə təşkilatlarını birləşdirən çərçivə təşkilatıdır. www.tigweb.org
- Avropada İqlim üzrə Fəaliyyət Şəbəkəsi (CAN-E). CAN-E Avropanın iqlim və enerji məsələləri üzrə çalışan aparıcı şəbəkəsi kimi tanınır. 25 Avropa ölkəsindən 127-dən artıq üzvü olan CAN-E Avropada təhlükəli iqlim dəyişikliyinin qarşısını almaq və dayanıqlı enerji və ətraf mühit siyasətini təbliğ etmək məqsədilə aparılan işi əhatə edir.
- Dünyanın Dostları www.foei.org
- WWF Şəbəkəsi insanlar və təbiətin, planetin onların payına düşən ədalətli hissəsi çərçivəsində, inkişafını təmin etmək məqsədilə dünyadakı hökumətlər, bizneslər və icmalarla işləyir www.wwf.org.

Karbon ayaq izinizi azaldın. www.cutco2.org saytında çoxlu praktiki məsləhətlər tapa bilərsiniz. Həmçinin, Facebook sosial şəbəkəsindəki Karbon Ayaq izini Azaltmaq üçün Həll Yolları Tapan Gənclər qrupu sizi həvəsləndirə bilər.

## Əlavə məlumat

Təbiətdə hər şey bir-biri ilə əlaqəlidir. Bütün canlı və cansızlar dövrlərlə bir-birinə bağlıdır, məsələn, karbon dövrü və ya su dövrü. Ərzaq zəncirləri bu dövrlərin bir hissəsidir. Ərzaq zənciri yaşıl bitki günəşdən gələn işıq enerjisini, torpaqdakı mineralları və suyu istifadə etməklə öz məhsulunu yetişdirdikdə və onun yaşaması və böyüməsi üçün enerjini təmin etdikdə başlayır. Yaşıl bitki, məsələn, kələm yeyildikdə onun yarpaqlarında saxlanmış minerallar və enerji tırtılın yaşaması və böyüməsi üçün ötürülür və istifadə olunur. Hər bir heyvan digəri tərəfindən yeyildikdə enerji və minerallar  qida zənciri vasitəsilə ötürülür. Qida zəncirinin başında duran heyvan öldükdə onun bədəni bakteriya tərəfindən yeyilir və parçalanır. Bədəndəki minerallar yaşıl bitkilər tərəfindən mənimsənilir və yeni qida zənciri başlayır.

Sülh və Zorakılıq

Qloballaşma

KİV

2-ci səviyyə

İstənilən

60 dəqiqə

# Sabah gələndə

*Sistem sizi mühakimə etdiyi kimi digərlərini mühakimə edərsinizsə, bu, sizi ölümə məhkum edənlərdən daha yaxşı insan etməyəcəkdir.*

Dvayt Adanandus

**Mövzular**
- Sülh və Zorakılıq
- Qloballaşma
- KİV

**Mürəkkəblik** 2-ci səviyyə

**Qrup ölçüsü** İstənilən

**Vaxt** 60 dəqiqə

**Xülasə** Bu məşğələ məlumat vərəqləri və müzakirədən istifadə etməklə aşağıdakı məsələləri araşdırır:
- Cəmiyyətin cinayətkarlardan qorunması
- Cinayətkarların insan hüquqları
- Ölüm cəzası

**Əlaqədar hüquqlar**
- Yaşamaq hüququ
- İşgəncə və alçaldıcı rəftara məruz qalmamaq hüququ
- Ləyaqətdə bərabərlik hüququ

**Məqsədlər**
- Cinayətkarlar barəsində qərəzli məqamları nəzərdən keçirmək və ölüm cəzasının müəyyən təsirlərini öyrənmək
- Məlumat barədə tənqidi düşünmək və dinləmək bacarıqlarını inkişaf etdirmək
- İnsan ləyaqəti və ədalət hislərini təşviq etmək.

**Materiallar**
- Hər iştirakçı üçün bir ədəd olmaqla, "Sabah gələndə" materialının nüsxələri.
- Qrupun hər üzvü üçün qələm və vərəq.
- Plenar sessiyada səsləndirilən fikirlərin xülasəsini qeyd etmək üçün flipçart və ya böyük kağızlar və qələmlər

## Təlimatlar

**1-ci hissə.**

1. "Sabah gələndə" materialının 1-ci hissəsini qrupa ucadan oxuyun. Bitirdikdən sonra, iştirakçıların əsas məqamları xatırlaması və onları öz sözləri ilə yazması üçün 5 dəqiqə vaxt verin. Bundan sonra, vərəqlərini qonşuları ilə dəyişməyi, bir-birlərinin yazdıqlarını oxumağı və qarşılıqlı olaraq rəy bildirməyi xahiş edin.
2. Bir neçə könüllüdən yazdıqlarını oxumağı xahiş edin. Bundan sonra, variantlardakı fərqləri müzakirə edin bəzi iştirakçılar digərlərindən daha çox detalı xatırlayırdılar? Bəzi iştirakçılar hekayədə əslində qeyd olunmayan detallar irəli sürüblər?
3. İştirakçılardan hekayəyə reaksiyalarını öyrənin: onların fikrincə, nəql edən kimdir? Nə baş verib?

**2-ci hissə.**

4. Qəzetdən kəsilmiş hissəni və Nanonun hekayəsinin 2-ci hissəsini oxuyun.
5. İndi isə, cütlüklərin yeni məlumatı partnyorları ilə müzakirə etməsi üçün 10-15 dəqiqə vaxt verin. Mətndəki məqamlara istinad edə bilmələri üçün "sabah gələndə" materialının nüsxələrini təmin edin.
6. Daha sonra, onları aşağıdakı iki məsələ barədə düşünməyə dəvət edin:

- Onların ölüm hökmünə məhkum olunduğunu eşitdikdə, Dvayt və ya Nanon barədə fikirləri dəyişdi? Necə? Niyə?
- Onların fikrincə, Dvayt, “Sistem sizi mühakimə etdiyi kimi digərlərini mühakimə edərsinizsə, bu, sizi ölümə məhkum edənlərdən daha yaxşı insan etməyəcəkdir!”, dedikdə nəyi nəzərdə tuturdu? Onunla razıdırlar?

7. Ümumi müzakirəyə başlayın, müxtəlif cütlüklərdən bu suallara cavablar alın.

## Təhlil və qiymətləndirmə

Bu məşğələ sonrakı məşğələlər və müzakirə üçün mövzu kimi istifadə oluna biləcək çoxsaylı əhəmiyyətli və maraqlı məqamları ortaya çıxarmaq məqsədilə istifadə oluna bilər. Buna baxmayaraq, təhlil mərhələsində tamamilə yeni mövzulara toxunmaq yerinə, qrupların artıq nəzərdən keçirdiyi məqamları diqqətdə saxlamağınız daha məsləhətlidir (aşağıdakı fasilitator üçün məsləhətlər hissəsinə baxın).

- Bu məşğələ sizə özünüz barədə nəsə öyrətdi? O, əvvəlki fikir və ya inamlarınızı yenidən nəzərdən keçirməyinizə təkan verdi?
- Sizin fikrinizcə, bu məşğələnin məqsədi nəyi nümayiş etdirmək idi? Qarşıya qoyulan məqsədə nail olundu, əgər nail olunmayıbsa, niyə?
- Məşğələ yaşamaq hüququ barədə nəyi, əgər əks etdirirdisə, əks etdirirdi? Müzakirədə qaldırılan başqa hüquq məsələləri oldu?

Sonrakı istifadə üçün bu məsələlərlə bağlı böyük kağız və ya flipçart üzərində qeydlər aparın.

## Fasilitator üçün məsləhətlər

Müzakirənin birinci hissəsində (1-ci hissəni oxuduqdan sonra) iştirakçılara iki personajın vəziyyəti ilə bağlı heç bir əlavə məlumat verməyin: səbəbini bildirmədən onların öz təəssüratlarını öyrənməyə çalışın. Məqsəd iştirakçıların personajların olduğu şərait və onların keçmişi barədə məlumatlı olmadan sadəcə insani tərəflərini nəzərdən keçirməsidir.

1-ci addımın sonunda iştirakçıların yazdıqlarını dəyişməsində məqsəd onlara müxtəlif insanların eyni məlumatı yadda saxlamasının və qavramasının fərqli yollarını göstərməkdir. Bu mərhələnin “test” olmadığı vurğulanmalıdır ki, iştirakçılar yazdıqlarına görə utanmasınlar; əksinə bu hissə müxtəlif baxışların nümayiş etdirilməsi vasitəsi sayılmalıdır. Qeydləri qonşularınınkından kəskin şəkildə fərqlənən iştirakçıların rəylərini soruşun. Bu halın səbəbini soruşun, məsələn, niyə bəzi iştirakçılar məlumatın müəyyən hissələrini xatırladığı halda digərləri onları unudublar.

Məşğələ zamanı bir sessiya üçün həddən artıq çox məsələ ortaya çıxacaqdır, buna görə də, siz müzakirəni nəzərdə tutulmuş çərçivədə saxlamalı və iştirakçıların debat apararaq mövzudan kənara çıxmasına imkan verməməlisiniz, məsələn, ölüm cəzası mövzusu. Müzakirənin aşağıdakı iki məsələ ilə bağlı aparılmasına çalışın:

1. Biz, Dövlət, hər kəs başqalarını etdiklərinə görə (bizim baxışımıza görə) “mühakimə etməyə” nə dərəcədə meyillidir. Dvayt başqalarını Dövlətin onu (və Nanonu) mühakimə etdiyi kimi “mühakimə etməmək” dedikdə, çox güman ki, bunu nəzərdə tuturdu. Dövlət onların keçmişdə etdiyi (etdiyinə inandığı) cinayətə əsasən bu iki şəxsi insan hüquqlarından məhrum etmişdir.
2. “Ağır cinayətlər” törətmiş cinayətkarlar belə anadangəlmə insani xüsusiyyətlərə malikdirlər və onları qoruyub saxlayırlar – yalnız Dvaytın haqqında danışdığı “qayğı və şəfqət” deyil, Nanonun həbsin nəticəsi kimi təsvir etdiyi “məyusluq və depressiya”.

“Yaşamaq hüququ” məsələsini müzakirə edərkən ölüm cəzası lehinə və əleyhinə praktiki arqumentləri təcrid etməyə çalışın. Müzakirəni bu iki şəxsin hələ də yaşamaq hüququna ***malik olub-olmaması*** ətrafında aparın. Əgər iştirakçıların fikrincə, onlar artıq bu hüquqa malik deyillərsə, kiminsə bu hüququ necə “itirə” biləcəyini soruşun. Əgər vətəndaşlar cinayət törədiblərsə, başqası onların bu hüququnu əllərindən almaq səlahiyyətinə malikdir?

ƏSAS TARİX

**10 oktyabr**
Ölüm Cəzası əleyhinə Ümumdünya Günü

“Dünyanı silkələyən 11 mahnı” Songlines Dünya Musiqi jurnalının 2009-cu il mart sayından götürülmüşdür.

**Azad Nelson Mandela (Free Nelson Mandela)** – Cerri Damers və The Special AKA
**Kiçik şeylərdən böyük şeylər ortaya çıxır (From Little Things Big Things Grow)** – Kev Karmodi və Pol Kelli
**Oyan, ayağa dur (Get up, Stand up)** – Bob Marley
Gracias a la Vida – Mersedes Sosa
**Al Atla**l – Oum Kaltoum
**Biko** – Peter Qabriel
**Didi** – Xaled
Təsəvvür et (Imagine) – Con Lennon
**Zombie** – Fela Kuti
**Nkosi Sikelel’ iAfrika** – Enok Sontonqa tərəfindən 1897-ci ildə bəstələnmiş metodist himni
**Djelem Djelem** – Carko Covanoviç tərəfindən ənənəvi roma musiqisi ilə bəstələnmiş roma himni.

## Sonrakı fəaliyyət üçün təkliflər

Mahnılar insanların hüquqlar uğrunda mübarizəsində həmişə güclü vasitə olub. Qrup azadlıq və ədalət barədə mahnılara qulaq asa və ya öz mahnılarını yaza bilər.

Bu mövzuda kino nümayiş etdirə bilərsiniz. Bizim təkliflərimiz aşağıdakılardır:

- Ölü Adamın Yerişi (Dead Man Walking) – rejissor Tim Robbins, 1995. Bu, ölüm cəzasına məhkum olunmuş məhbusla dostlaşan Rahibə Helendən bəhs edən amerikan filmidir.
- V Əmr: "Öldürməyin" – rejissor Kristof Kieslovski, 1988. Əsas personaj dəhşətli cinayət törətmiş və dövlət tərəfindən vəhşicəsinə edam olunan 20 yaşlı gənc oğlandır. Film bütün canlılara hörmət edilməsinin vacibliyini və heç kimin öldürülməyə layiq olmadığını nümayiş etdirir.

**Qeyd**:

Materialın tam mətni (Sabah gələndə) Ölüm Cəzasına qarşı Kanada Koalisiyasının (CCADP) vebsaytından tapıla bilər.

http://www.ccadp.org

Jessika Blank və Erik Jensenin Azadlığa buraxılmışlar (theexonerated.com) tamaşasını oxuya və ya oynaya bilərsiniz (tam və ya müəyyən hissələri). Tamaşa məhkəmə otaqları və həbsxanalarda birinci şəxsin monoloqları və səhnələrindən ibarətdir. Burada amerikan cinayət ədalət sisteminin qüsurları ilə üzləşmiş, lakin xilas olmağa nail olmuş altı cəsur insanın hekayəsi danışılır.

Məşğələnin sonunda qaldırılmış məsələlərə toxunun. Rəsmi debat təşkil edin və ya 164-cü səhifədəki "Seçkiqabağı kampaniya" metodundan istifadə edin. Mövzulara aşağıdakılar aid ola bilər:

- Cəzalandırma məsələləri: cinayətkarları həbsxanaya salmaq və/və ya edam etməkdə məqsəd nədir? Cəmiyyəti qorumaq, cinayətkarların davranışını dəyişmək yoxsa intiqam/tənbeh?
- Ölüm cəzası: ölüm cəzası lehinə və əleyhinə arqumentlər hansılardır?
- Xalqın təhlükəsizliyi fərdin təhlükəsizliyinə qarşı: hökumətin ən təhlükəli cinayətkarları və terroristləri cəzalandırması üçün hədlər hansılardır? Məsələn, əgər xalqın təhlükəsizliyinə qarşı təhdid törədirsə, şəxsə işgəncə olunması qəbul edilə bilər?

Uşaq hüquqları ilə bağlı ölüm cəzası barədə layihə hazırlaya bilərsiniz. Bəzi ölkələrdə uşaqlar ölümə məhkum olunur və edam edilir. Axtarış motorunuza "Ölüm cəzasına məhkum olunmuş uşaqlar" yazmaqla daha çox məlumat və youtube.com-dan videolar tapa bilərsiniz.

## Fəaliyyət üçün fikirlər

Ölüm Cəzasına qarşı Kanada Koalisiyasının vebsaytına daxil olun və məhbusların yazılarını oxuyun (www.ccadp.org). Bundan sonra, ölüm cəzasına məhkum olunmuş şəxsə məktub yazın (ccadp vebsaytı məktublaşmaq üçün lazımi məlumatı əks etdirir və ya Beynəlxalq Amnistiyanın yerli ofisi ilə əlaqə saxlaya bilərsiniz).

Nanon Villiams barədə son məlumatları www.nawisa.ch saytından tapın və onun məhkəmə işinə necə dəstək ola biləcəyinizə qərar verin.

## Əlavə məlumat

Avropa Şurası ölüm cəzasının ləğvini üzvlük üçün ilkin şərt kimi müəyyən edib. 1997-ci ildən bəri təşkilatın ərazisində heç bir edam halı baş verməyib.

Avropada heç kimin edam olunmadığı ilk tarix 2009-cu il olub; lakin 2010-cu ilin martında Belarusda iki nəfər edam olunub.

Hansı ölkələrin ölüm cəzasını ləğv edən beynəlxalq müqavilələri ratifikasiya etdiyini Beynəlxalq Amnistiyanın vebsaytından www.amnesty.org öyrənə bilərsiniz.

Amnistiyanın 2002-ci ildə nəşr olunmuş hesabatı "Uşaqlar və ölüm cəzası: 1990-ci ildən bəri dünya üzrə edamlar" ABŞ-ın cinayət törədən 18 yaşdan aşağı gənc oğlanların edam olunması üzrə siyahıda birinci olduğunu göstərir; ABŞ-da 18 nəfər edam olunub. Pakistan cinayət törədərkən 13 yaşında olan bir uşağı edam edib.

Human Rights Watch bildirir: Yalnız İran, Sudan, Çin və Pakistanın 2004-cü ildən bəri azyaşlı cinayətkarları edam etdiyi məlumdur. Sudanda 2005-ci ildə iki belə edam baş verib, Çin 2004-cü ildə və Pakistan 2006-cı ildə bir azyaşlı cinayətkarı edam ediblər. İranın isə 2004-cü ildə ən az üç, 2005-ci ildə səkkiz, 2006-cı ildə dörd azyaşlı cinayətkarı edam etdiyi məlumdur. Ümumi sayda, yalnız Çin İrandan daha artıq edam həyata keçirir. Adambaşı göstəriciyə görə, İran il ərzində digər hər hansı ölkədən daha artıq insanı edam edir (www.hrw.org, iyun, 2007).

Nanon Villiyams barədə daha ətraflı məlumat üçün http://www.ccadp.org/nanonwilliams.htm.

## Paylanmalı materiallar

### Sabah gələndə, Nanon Villiyams

**1-ci hissə**

Dvayt Adanandusun ölümündən bir gün sonra mən həyata əvvəlkindən və ya arzuladığımdan tam fərqli şəkildə baxdım. Qışın əvvəli idi, mən uzanıb günlər mənasız göründükdə belə həmişə təbəssüm bəxş edən dostum barədə düşünürdüm, əzab çəkirdim. Yavaşca hərəkət edib qapının altındakı qəzeti götürdüm, qəzet öz hekayəsini söylədi.

Bu barədə oxumaq və heç vaxt onu görə bilməyəcəyimi dərk etmək kiminsə ürəyimə təkrar-təkrar iynə batırmasına oxşayırdı. Bəzən, o, həyətə gəlir və məni səsləyirdi, “Necəsən, gənc?” Mən isə ətrafıma baxıb ona deyirdim “Dostum, sən kimə gənc deyirsən” və biz bir-birimizə baxıb gülürdük, çünki mən blokumuzda ən cavan şəxs idim. İndi, bu anlar haqqında düşünəndə mən dərindən kədərlənirəm, çünki mənim üzümdə qəzəbdən yaranan qırışları açan Dvayt olmadan həyətə çıxmağa can atmayacağam.

İllər keçdikcə, mənim vaxt keçirmək metodlarım dəyişib, lakin mən Dvayt qədər yaxşı insan olmağıma kömək edəcək yeni metodlar düşünmək istəyirəm. Zəiflik göstərdiyim vaxtlarda Dvaytın bu halda nə edəcəyini fikirləşirəm.

“Xatırla” o, mənə deyərdi, “Yalnız icazə verdiyin halda sistem səni ələ keçirə bilər. Allahın kimdirsə onunla sülh bağla, həyatı bacardıqca yaxşı yaşamağa və onu dəyərləndirməyə başla”, sonra davam edərdi, “Gənc, niyə burda olduğunu bilmirəm, lakin bilirəm ki, buraya aid deyilsən…”.

**2-ci hissə**

Əslində, heç kim buraya aid deyil, edamı gözləməyə. Burada təcavüzçülər, uşaq oğruları, oğrular, uşaq təcavüzçüləri və sadist insanlar var. Buna baxmayaraq, burada eyni cinayətləri törətmiş, lakin dəyişmək imkanı tapmış qayğıkeş və şəfqətli insanlar da var. Bunu həmişə xatırlamağını istəyirəm” edamdan iki həftə əvvəl mənə demişdi. “Heç nəyi olmasa da, bunu xatırla. Sistem səni mühakimə etdiyi kimi başqalarını mühakimə etməyin səni ölüm cəzasına məhkum edən insanlardan daha yaxşı etməyəcəkdir!” İndi, bu sözlər mənim qulağımdan asılarkən onun dediyini başa düşməyimin niyə bu qədər vaxt aldığını fikirləşirəm. Əlbəttə, nə dediyini eşitmişdim və mənə mənalı gəlmişdi, lakin mənanı anlamaq və bu sözləri tam şəkildə dərk etmək tamamilə fərqli idi. Yəqin ki, mən onun məni adlandırdığı kimi gənc idim, həqiqəti, nəhayət, görəndə o, səni incidir.

Bilirəm ki, həbsdə olmaq depressiya başlayana qədər məyusluğu yaradan psixoloji işgəncə silahıdır, lakin necəsə bəzilərində davam etmək arzusu və ruhu qalmaqda davam edir. Ölüm cəzasına məhkum edilmək üçün nə törətməsindən asılı olmayaraq Dvaytda həmin ruh vardı və bu ruh sayəsində o, sistemin məzarlığında yaşayan cəsədlər kimi korlanan insanların həyatlarını dəyişdirirdi. “Bilirəm ki, asan deyil, Gənc”, o deyərdi. “Lakin heç kim həyatın asan olduğunu deməyib. Hər günün dəyərini bil və yolun sonunda işığı görə bildiyin günə qədər, bunun sənə yol göstərən güc olmasına imkan ver”, bunlar onun son vidaları vaxtı mənə dediyi sözlər idi. Bu sözlərin mənim üçün nə demək olduğunu izah edə bilmirəm, lakin, fikrimcə, onun bunları mənə deməkdə məqsədi məni keçən və gələcək illər ərzində ayaqda saxlayan və saxlayacaq gücümü tapmağa sövq etmək idi. Həyatda ən çox dəyər verdiklərimi, ailəm kimi, və prinsiplərimi heç vaxt qurban verməmişəm, buna görə də, həmin sevgi və bir gün cənnətin darvazalarından daxil olmaq, əgər, həqiqətən də, gələcəksə, sabahın özüdür.

Nanon Villiyams 1992-ci ildə 17 yaşında Texas Ştatında ağır cinayətə görə ölüm cəzasına məhkum olunmuşdur. O, özünə qarşı irəli sürülən ittihamları rədd etmiş və 13 ilini ölüm cəzasını gözləyərək keçirmişdir. 2005-ci ildə cəzası ABŞ Ali Məhkəməsinin hakimi Roper V. Simmons tərəfindən, azyaşlıların edamının qarşısını alaraq, ömürlük həbsə dəyişdirilmişdir. 2010-cu ildə günahsızlığını sübuta yetirmək üçün Nanonun işi Federal Məhkəməyə çıxarılacaqdır.

Mənbə: http://www.ccadp.org and www.nawisa.ch

### Qəzetdən çıxarış

Huntsville – 2 oktyabr, 1997. Doqquz il əvvəl bank soyğunundan qaçarkən ona mane olmuş San Antonio biznesmenini güllələməyə görə mühakimə olunmuş oğru çərşənbə gecəsi edam olunub. 41 yaşlı Adanandus 28 yanvar 1988-ci ildə San Antonionun şimal hissəsində bankın foyesində onun qaçmasına əngəl törətmiş Vernon Hananı sinəsindən güllələdiyinə görə ölüm cəzasına məhkum olunmuşdu.

# Siz harada dayanırsınız?

*Ev, qida və əsas ehtiyacların ödənməsi istədiyinizi deyə bilməkdən daha əhəmiyyətlidir?*

**Mövzular** • Ümumi İnsan Hüquqları
• Vətəndaşlıq və İştirak
• Yoxsulluq

**Mürəkkəblik** 2-ci səviyyə

**Qrup ölçüsü** İstənilən

**Vaxt** 50 dəqiqə

**Xülasə** • Bu müzakirə məşğələsində iştirakçılar öz fikirlərini müdafiə edirlər.

**Əlaqədar hüquqlar** • Hamısı

**Məqsədlər** • Mülki və siyasi hüquqlar, sosial və iqtisadi hüquqlar arasında fərqləri başa düşmək
• Müzakirə və arqumentləşdirmə bacarıqlarını istifadə və inkişaf etdirmək
• Hörmət və açıqfikirliliyi təşviq etmək

**Materiallar** • Bəyanatlar vərəqinin bir nüsxəsi
• Böyük ölçüdə kağızlar və ya flipçart vərəqi, qələmlər
• İp və ya təbaşir (istəyə görə)
• 600-cü səhifədəki sadələşdirilmiş ÜİHB nüsxələri (istəyə görə)
• İnsanların rahat hərəkət edə bilməsi üçün məkan

**Hazırlıq** • 2 poster hazırlayın – birində, “Razıyam”, digərində isə “Razı deyiləm” yazılmaqla – onları otağın əks künclərinə yapışdırın və iştirakçılardan onların arasında düzxətt şəklində düzülməyi xahiş edin (Düzülməli olduqları xəttin yerini təbaşirlə çəkə və ya iplə göstərə bilərsiniz)
• İnsanların “hüquqların nəsilləri”, eləcə də iki kateqoriya mülki və siyasi, sosial və iqtisadi hüquqlar barədə danışmasının səbəblərini öyrənin (Fasilitator üçün məsləhətlər hissəsinə və 4-cü Fəsilə baxın).

Ümumi İnsan Hüquqları

Vətəndaşlıq və İştirak

Yoxsulluq

2-ci səviyyə

İstənilən

50 dəqiqə

## Təlimatlar

1. Mülki və siyasi, sosial və iqtisadi hüquqlar arasındakı fərqləri qısa şəkildə təqdim etməklə başlayın.
2. Hər kateqoriyaya daxil olan müxtəlif hüquqlar haqqında 5 dəqiqə beyin fırtınası aparın. Hüquqları flipçartda mülki və siyasi, sosial və iqtisadi hüquqlar başlıqları altında sıralayın.
3. Bir neçə bəyanat oxuyacağınızı və iştirakçıların onlarla bu və ya digər dərəcədə razılaşa biləcəklərini izah edin.
4. “Razıyam” və “Razı deyiləm” qeyd olunan posterlərə işarə etməklə iki əks mövqeni göstərin. İştirakçıların (xəyali) xətt boyu dayana biləcəklərini, lakin onların mümkün qədər fikirləri özlərininkinə daha yaxın olan iştirakçıların yanında dayanmalı olduqlarını izah edin.
5. İştirakçılar yerlərini taparkən qısa müzakirəyə icazə verilir!
6. Növbə ilə bəyanatları oxuyun. Öyrənmə və müzakirəni stimullaşdırın. Əks qütblərdə dayanan iştirakçılardan kəskin mövqelərini izah etməyi xahiş edin. Mərkəzə yaxın dayananlardan mövqelərinin güclü rəyin olmaması və ya biliyin çatışmamasından qaynaqlandığını öyrənin.

7. İştirakçılar bir-birinin rəylərinə qulaq asarkən mövqelərini dəyişmələrinə icazə verin.
8. Bəyanatların hamısını oxuduqdan sonra, qrupu təhlil üçün bir araya toplayın.

## Təhlil və qiymətləndirmə

Məşğələnin özünü nəzərdən keçirməklə başlayın, daha sonra, iştirakçıların nə öyrəndiyini müzakirə edin.

- İştirakçıların cavab verə bilmədiyi suallar olub – fikirlərini cəmləmək çətin olduğuna görə yoxsa sual düzgün təqdim olunmadığına görə?
- Niyə müzakirələr zamanı iştirakçılar mövqelərini dəyişiblər?
- Məsələlər üzrə fikir ayrılığının səviyyəsi iştirakçıları təəccübləndirib?
- İnsan hüquqları barəsində fikirlərimizin fərqli olmasının əhəmiyyəti var?
- Sizin fikrinizcə, müxtəlif bəyanatlara "düzgün" və "səhv" cavablar var yoxsa sadəcə şəxsi yanaşmalar bir-birindən fərqlənir?
- İnsan hüquqları barəsində hamının razılığa gəlməsi mümkündür?
- (İlk) iki insan hüquqları "nəsilləri" arasında mühüm fərqlər var: mülki və siyasi, sosial və iqtisadi hüquqlar arasında? Onlardan hansının daha vacib olduğunu demək mümkündür?
- Bizim əlavə hüquqlara da ehtiyacımız var? Hüquqların üçüncü nəsli olmalıdır?

## Fasilitator üçün məsləhətlər

Məşğələnin düzülmə hissəsini, müxtəlif məqamlarla bağlı müzakirələrə çox vaxt ayırmadan, nisbətən sürətli apara bilərsiniz. Bundan sonra, iki və ya üç bəyanat seçib onları bütün qrupla daha detallı müzakirə edə bilərsiniz. Lakin müəyyən məqamlarda məşğələni dayandırıb iştirakçılara həmin məsələləri və digərləri ilə müqayisədə özlərinin onlarla bağlı mövqelərini nəzərdən keçirməyə imkan verə bilərsiniz.

Bu məşğələ bütün insan hüquqlarını əhatə edir, xüsusilə də, sosial və iqtisadi hüquqları; məsələn, əmək və asudə vaxt hüquqları, sağlamlıq və başlıca yaşayış şəraitinə olan hüquqlar.

Aşağıda verilmiş bəyanatlar bir tərəfdən mülki və siyasi hüquqlar, digər tərəfdən sosial və iqtisadi hüquqlar arasında mövcud fərqlərlə bağlı bəzi debatlara toxunmaq üçün hazırlanmışdır. Məşğələnin başlanğıcında çox detala girməyə ehtiyac yoxdur, belə ki, bir çox məqamlar müzakirənin gedişində ortaya çıxır.

Buna baxmayaraq, iki məqamı əvvəldə aydınlaşdırmaq vacibdir. İlk növbədə, mülki və siyasi hüquqlar bizim hökumətə mülki və siyasi məsələlərlə bağlı irəli sürdüyümüz mənəvi tələblərdir, məsələn, ədalətli mühakimə, səs vermək hüququ, söz azadlığı və s.; sosial və iqtisadi hüquqlar isə sosial və iqtisadi məsələlərlə bağlıdır, məsələn, evsizlik, lazımi səviyyədə olmayan səhiyyə sistemi, yoxsulluq və s.

İkinci məqam isə bəzi insanların müxtəlif insan hüquqları növlərini bir-birindən fərqləndirməsidir. Sosial və iqtisadi hüquqlar çoxları tərəfindən mülki və siyasi hüquqlarla müqayisədə daha az əhəmiyyətli və/və ya təmin edilməsi daha çətin hesab olunur.

Beyin fırtınası zamanı, iştirakçıların yaddaşını təzələmək üçün onlara 600-cü səhifədəki sadələşdirilmiş ÜİHB-nin nüsxələrini verə; alternativ kimi, maddələrin bəzilərini ucadan oxuya və iştirakçılardan onları düzgün kateqoriyaya qoymağı xahiş edə bilərsiniz. 16-cı və 22-29-cu maddələr əsasən sosial-iqtisadi hüquqlar sayılır.

## Variantlar

Başqa bəyanatlar hazırlayın və ya qrup üzvlərindən öz variantlarını irəli sürməyi xahiş edin.

ƏSAS TARİX

**5 dekabr**
İqtisadi və Sosial İnkişaf üçün Beynəlxalq Könüllü Günü

## Sonrakı fəaliyyət üçün təkliflər

İştirakçılardan əvvəlcədən arqumentlərini hazırlamağı xahiş etməklə, müzakirə olunmuş məsələlərin biri üzrə formal debat təşkil edin, debatın sonunda isə, səsvermə keçirdin. Başqa gəncləri və ictimaiyyətin üzvlərini tamaşaçı qismində dəvət edə bilərsiniz.

İnsan hüquqları haqqında biliyə malik olmaq vacibdir, lakin onların qorunması üçün fəal vətəndaş olmaq da əhəmiyyətlidir. 164-cü səhifədəki “Seçkiqabağı kampaniya” məşğələsini edə bilərsiniz. Bu məşğələ başqalarını öz fikrinə inandırmaq məsələsinə həsr olunub.

İnsan hüquqları haqqında danışarkən istifadə etdiyiniz sözlər və onların təsirindən xəbərdar olmaq vacibdir. Məsələn “əlil insanlar”, “fiziki qüsurlu insanlar” yaxud “əlilliyi olan insanlar” ifadəsindən istifadə etməklə bağlı qərar verməlisiniz. Qrup Hər kəs Fərqli - Hər kəs Bərabər Təhsil Paketindəki “Ağ gələcək” məşğələsi vasitəsilə açıq danışmaq və siyasi düzgünlük məsələlərini müzakirə edə bilər.

## Fəaliyyət üçün fikirlər

İnsan hüquqları və ya sosial rifah uğrunda çalışan yerli təşkilatla əlaqəyə keçin və necə töhfə verə biləcəyinizi öyrənin.

## Əlavə məlumat

Bu kitabın 4-cü Fəsilində hüquqların müxtəlif nəsilləri, o cümlədən “üçüncü nəsil” hüquqlara girişlə bağlı ümumi məlumat əhatə olunmuşdur.

## Paylanmalı materiallar

### Bəyanatlar vərəqi

- Ev, qida və əsas ehtiyacların ödənməsi istədiyinizi deyə bilməkdən daha əhəmiyyətlidir.
- İşləmək insanların hüququ deyil, öhdəliyidir.
- İstənilən hökumətin ən əsas öhdəliyi bütün vətəndaşlar üçün kifayət qədər qidalanmanı təmin etməkdir.
- “İstirahət və asudə vaxt” hüququ yalnız varlıların faydalana biləcəyi bir təmtəraqdır.
- İnsanların acından ölməməsini təmin etmək hökumətin deyil, insanların özünün işidir!
- İşçilərimizlə necə rəftar etməyimizə beynəlxalq ictimaiyyət qarışa bilməz.
- Kasıb ölkələr vətəndaşlarının mülki və siyasi hüquqlarını təmin etməmişdən əvvəl onların başlıca yaşayış standartları ilə təmin olunmasına diqqət etməlidirlər.
- Kəskin iqtisadi bərabərsizlik əsas hüquqların pozulmasıdır.
- Sosial və iqtisadi hüquqlar gələcəkdə nail olunacaq idealdır, bu günkü dünya isə onları təmin etməyə hazır deyil.
- Əgər hüquqları təmin etmək mümkün deyilsə, onlara malik olmağın mənası yoxdur.
- Bəzi hüquqlar digərlərindən daha əhəmiyyətlidir.
- Təbii olaraq, bəzi insanların digərlərindən daha çox hüquqları var.
- Bəzi insanlar öz istəklərinə uyğun olaraq evsizdirlər.
- Varlı insanlar kasıblardan daha xoşbəxtdir.
- Yoxsulluğu tamamilə aradan qaldırmaq mümkün deyil.
- Biz hüquqlarla anadan olmuruq; onları sonradan əldə edirik.

Gender

Ayrı-seçkilik və Dözümsüzlük

Din və İnam

2-ci səviyyə

8+

25 dəqiqə

# Mən kiməm?

*Mən digərləri ilə qurduğum bütün əlaqələrəm.*

Albert Jakvard

| | |
|---|---|
| **Mövzular** | • Gender<br>• Ayrı-seçkilik və Dözümsüzlük<br>• Din və İnam |
| **Mürəkkəblik** | 2-ci səviyyə |
| **Qrup ölçüsü** | 8+ |
| **Vaxt** | 25 dəqiqə |
| **Xülasə** | • Bu məşğələdə müzakirə qrupları, beyin fırtınası, şəkil çəkmək və qrup müzakirəsindən istifadə olunaraq kimlik məsələləri araşdırılır. |
| **Əlaqədar hüquqlar** | • Ləyaqət və hüquqlarda bərabərlik<br>• Ayrı-seçkiliyə məruz qalmamaq hüququ<br>• Yaşamaq, azadlıq və şəxsi təhlükəsizlik hüququ |
| **Məqsədlər** | • Kimlik anlayışının dərk olunmasını artırmaq və özündən xəbərdarlığı genişləndirmək<br>• Ünsiyyət bacarıqlarını inkişaf etdirmək<br>• Həmrəylik və hörməti təbliğ etmək |
| **Materiallar** | • Rəngli qələmlər və markerlər, mümkündürsə, hər iştirakçı üçün fərqli rəngdə olmaqla<br>• Hər iştirakçı üçün bir ədəd vərəq<br>• Flipçart kağızı və markerlər |

## Təlimatlar

1. Başlamaq üçün iştirakçılardan müzakirə qrupları qurmaq üçün cütlüklərə ayrılmağı xahiş edin. Onlardan yad insanlar kimi davranıb bir-birlərinə özlərini təqdim etməyi xahiş edin.
2. İndi isə, iştirakçılardan insanı ilk dəfə gördükdə onun barəsində nəyi öyrənməyin maraqlı və ya vacib olduğu haqqında düşünməyi xahiş edin və ümumi məlumat kateqoriyaları ilə bağlı beyin fırtınası aparın. Məsələn, ad, yaş, cins, milliyyət, ailədəki rol, din, yaş, gender, etnik mənsubiyyət, iş/təhsil, musiqi zövqü, hobbilər, idman, ümumi olaraq bəyəndikləri və bəyənmədikləri, digərləri.
3. İndi isə, iştirakçılara qrupdakı digər şəxslərlə nə qədər ortaq xüsusiyyətləri olduğunu müəyyən edəcəklərini deyin. Vərəq və qələmləri paylayın və ilk şərtin hər bir iştirakçının kimliyini təmsil edən şəkili çəkməsi olduğunu izah edin. Onlar özlərini ulduz kimi düşünməlidirlər; onların kimliklərinin aspektləri cəmiyyətlərinə işıq saçır. İştirakçılardan kimliklərini əks etdirən ən vacib səkkiz – on aspekti nəzərdən keçirməyi və öz şəxsiyyət ulduzlarının şəklini çəkməyi xahiş edin.
4. İştirakçılardan bir-birinə yaxınlaşıb ulduzlarını müqayisə etməyi xahiş edin. Şüalarından hər hansı biri eyni olan iştirakçını tapdıqda həmin şəxsin adını şüanın yanında yazmalıdırlar. (Məsələn, əgər Jan və Parvez, hər ikisi, "reper" şüasını qeyd ediblərsə, bir-birlərinin adlarını həmin şüanın yanında yazmalıdırlar). Bu hissə üçün 15 dəqiqə ayırın.
5. İndi isə, ümumi sessiyaya qayıdın və iştirakçılardan hər birinin nə qədər fərdi olması barədə danışmağı xahiş edin. Soruşa bilərsiniz:
   - İştirakçıların kimliyinin hansı aspektləri ümumi, hansılar xüsusi idi?
   - Qrupdakı iştirakçılar nə qədər bənzər və fərqlidirlər? Onların ümumi cəhətləri fərqlərdən daha çoxdur?
6. Nəhayət, iştirakçıların seçdiyi və anadan olduqları kimliklərin aspektləri barədə beyin fırtınası aparın. Bunları flipçartda iki sütuna yazın.

## Təhlil və qiymətləndirmə

İndi isə, iştirakçıların özləri və digərləri haqqında nə öyrəndiyini və bunların insan hüquqları tərəflərini müzakirə edin.

- İştirakçılar özləri haqqında nə öyrəniblər? Kimliklərinin ən vacib on aspektini müəyyən etmək çətin idi?
- İştirakçılar ulduzları müqayisə edərkən ortaya çıxan nəticələr onları təəccübləndirdi? Gözlədiklərdindən daha az yoxsa daha çox ortaq cəhətləri var idi?
- İştirakçılar qrupdakı müxtəlifliklə bağlı özlərini necə hiss etdilər? Bu, qrupu daha maraqlı edirdi yoxsa bir yerdə işləməyi daha da çətinləşdirirdi?
- Digərlərinin kimliyində iştirakçıların kəskin reaksiya verdiyi və "Mən isə yox" deməyə meyilli olduğu hər hansı aspektlər olub? Məsələn, mən futbol fanatı deyiləm, texno musiqi fanatı deyiləm, itləri sevmirəm və ya xristian deyiləm.
- Şəxsiyyətimiz necə inkişaf edir? Hansı aspektlər sosial yanaşmalar və hansılar anadangəlmə və dəyişməzdir?
- Xüsusilə, gender məsələləri ilə bağlı hansı aspektlər sosial yanaşmaların nəticəsi və hansılar anadangəlmə və dəyişməzdir?
- İştirakçılar "qadın" və ya "kişi" yazıblar? Onlar "qadın" və ya "kişi" sözləri ilə nəyi assosiasiya edirlər? Bu assosiasiyalar hər iki cins, eləcə də bütün kişi və qadınlar üçün eynidir?
- İnsanlar öz fərdi kimlikləri və mənsub olduqları qrupa görə nə qədər mühakimə olunurlar?
- İnsanlar öz kimliklərini seçməkdə nə qədər sərbəstdirlər? Onların özləri və cəmiyyətləri, xüsusilə də bərabərlik və hörmətlə bağlı insan hüquqları üçün bunun nəticələri hansılardır?

## Fasilitator üçün məsləhətlər

Məşğələnin adı səhv deyil! Məqsəd iştirakçıları çətinliyə salmaq deyil. Əgər məşğələ vaxtı fonda musiqi qoymaq istəsəniz, Frank Zappanın "Sən olduğunsan, mən sən olduğunam (You are what you is, I is what you am...)" mahnısından istifadə edə bilərsiniz.

Girişdə iştirakçıların düzgün istiqamətdə fikir yürütməsini təmin etmək üçün onlara bəzi məsləhətlər verə bilərsiniz. Özünüzdən nümunə gətirə və ya nümunədəki kimi xəyali şəxsi təsvir edə bilərsiniz.

Hər iştirakçıya fərqli rəngdə qələm verməkdə məqsəd onların hər birinin xüsusi olduğu fikrini yaratmaq və qrupun göy qurşağı kimi rəngarəng şəxsiyyətlərdən ibarət olduğunu nümayiş etdirməkdir. Əgər böyük qrupla işləyirsinizsə və iki və ya daha çox iştirakçı eyni rəngdə qələmdən istifadə etməlidirsə, onlardan fərqli yazı stillərindən istifadə etməyi xahiş edin.

Əgər istəsəniz, məşğələni daha da inkişaf etdirmək üçün iştirakçılara kimliklərinin hər hansı aspektinin nə dərəcədə ictimai və ya şəxsi olduğunu göstərmək üçün ulduzlarının müvafiq şüalarını uzun və ya qısa çəkməyi təklif edə bilərsiniz. Daha uzun şüalar cəmiyyətə doğru uzanır, buna görə də, daha ictimaidir.

Yekun beyin fırtınasında aşağıdakı məqamlardan bəziləri ortaya çıxa bilər (6-cı addımda):
- Kimliyimin mənim seçə bildiyim aspektləri: ad, dost, iş, siyasi partiyanın üzvü, sevimli musiqi, geyim stili, dəstəklədiyim futbol komandası, yaşadığım yer,
- Kimliyimin anadangəlmə aspektləri: cins, yaş, boy, göz rəngi,
- Kimliyin mübahisə doğuran bəzi aspektləri olacaqdır, məsələn, milliyyət, gender və seksuallıq, din, azlığın nümayəndəsi olmaq.

Kimliyin necə inkişaf etdiyi, onun hansı aspektlərinin sosial yanaşmaların nəticəsi olduğu və hansıların anadangəlmə və dəyişməz olduğu, xüsusilə din və genderlə bağlı, mübahisə doğuracaqdır. İştirakçılardan özlərinin böyümə prosesini və illər ərzində kimliklərinin dəyişən müəyyən aspektlərini (hətta onların heç dəyişməyəcəyini düşündükləri aspektləri belə) nəzərdən keçirməyi xahiş edin.

**ƏSAS TARİX**

**10 oktyabr**
Dünya Əqli Sağlamlıq Günü

Müzakirələrdən bəzi yekun mülahizələr çıxara bilərsiniz, məsələn, bütün insanların hüquqlara malik olması və həmin hüquqların irq, dərinin rəngi, mülkiyyət, anadan olma və ya digər statusla bağlı alına və ya başqasına hədiyyə oluna bilməyəcəyi.

## Variantlar

Təlimatların 3-cü bəndində iştirakçılardan ulduzlarının mərkəzinə öz portretlərini çəkməyi və ya uşaqlıq şəkillərini yapışdırmağı xahiş edin.

Ulduzlarda adlar yazılmayıbsa, iştirakçılar hansı ulduzun kimə aid olduğunu tapmağa çalışa bilərlər.

## Əlavə məlumat

Avropa Şurasının Hər kəs Fərqli - Hər kəs Bərabər Təhsil Paketində kimlik məsələləri ilə bağlı zəngin məlumat və çoxlu məşğələlər var.

## Sonrakı fəaliyyət üçün təkliflər

Bu məşğələni dostlarınız, kolleqalarınız və ailənizlə edin.

Bu məşğələ bir çox başqa müzakirələrə apara bilər, məsələn, insan hüquqlarının universallığı ilə, ayrı-seçkilik və ksenofobiya, uşaq hüquqları və vətəndaşlıqla bağlı suallar üzrə.

Əgər qrup kimlik və gender məsələlərini nəzərdən keçirmək istəyirsə, 186-cı səhifədəki "Qadın və kişi qəhrəmanlar" məşğələsinə baxın.

Əgər kimliyin müzakirəsi mövzusundan fərdin ləyaqət və ümumilikdə insan hüquqlarında bərabərlik hüququna keçmək istəyirsinizsə, 156-cı səhifədəki "Sözün şəklini çəkin" oyununa baxa bilərsiniz.

Qrupdan müxtəlif mədəniyyətlərin nümayəndələri varsa və iştirakçıların öz fərqli mədəniyyətləri ilə bağlı marağını oyandırmaq istəyirsinizsə, onda növbəti məşğələ kimi Hər kəs Fərqli - Hər kəs Bərabər Təhsil Paketindəki "Mənim hekayəm" məşğələsinə baxın.



# İş və uşaqlar

*İş istəyirsiniz? Onda uşaq sahibi olmağı planlaşdırmıyın!*

**Mövzular**
- Əmək
- Gender
- Ayrı-seçkilik və Dözümsüzlük

**Mürəkkəblik** 2-ci səviyyə
**Qrup ölçüsü** 10 - 25 (5 nəfərlik kiçik qruplar)
**Vaxt** 90 dəqiqə
**Xülasə** Bu məşğələ, rol oyunu olmaqla, aşağıdakı məsələləri əhatə edir:
- İş yerində reproduktiv hüquqlar
- İş yerində qadınlara qarşı ayrı-seçkilik

**Əlaqədar hüquqlar**
- Əlverişli iş və həmkarlar ittifaqlarına qoşulmaq hüququ
- Evlənmək və ailə qurmaq hüququ
- Ayrı-seçkiliyə məruz qalmamaq hüququ

**Məqsədlər**
- Qadınların reproduktiv hüquqları ilə bağlı biliyi inkişaf etdirmək
- Tənqidi düşüncə və müzakirə bacarıqlarını inkişaf etdirmək
- Açıqfikirliliyi, ədalət və sosial məsuliyyət hislərini təşviq etmək

**Materiallar**
- Böyük ölçüdə kağız, flipçart kağızı və ya lövhə, marker
- Kiçik qrup işi və rol oyunu üçün məkan
- Rol oyunu üçün ləvazimatlar, stol, stullar, qələm və kağız

**Hazırlıq**
- Ssenarinin lövhədə, böyük ölçülü kağızda və ya flipçart kağızında surətini çıxardın.

Əmək

Gender

Ayrı-seçkilik və Dözümsüzlük

2-ci səviyyə

10 - 25 (5 nəfərlik kiçik qruplar)

90 dəqiqə

## Təlimatlar

1. Bu məşğələnin iş yerində qadınların reproduktiv hüquqları ilə bağlı məsələlər haqqındarol oyunu olduğunu izah edin. Bütün iştirakçıların anlayışı başa düşməsini təmin etmək üçün qadınların reproduktiv hüquqları barədə beyin fırtınası aparın.
2. İştirakçıları kiçik qruplara ayırın (hər qrupda maksimum beş nəfər olmaqla).
3. Vəziyyət kartını ucadan oxuyun.
4. İştirakçılara kiçik qruplarda hekayənin sonluğu barəsində qərar vermək və onu səhnəcik şəklində təqdim etmək üçün iyirmi dəqiqə vaxt verin. Rol oyunu Mariya ilə cənab Vladstok arasında görüşlə başlamalı və beş dəqiqədən artıq davam etməməlidir.
5. Hər kiçik qrupu səhnəciklərini təqdim etməyə dəvət edin. Rəyləri təhlilə saxlayın.

## Təhlil və qiymətləndirmə

Hər kiçik qrupdan rol oyununu necə hazırladıqlarını və digərlərinin rəylərini soruşun. Bundan sonra, nəticələri və ayrı-seçkiliyin bu növünün qarşısını almağın yollarını müzakirə edin.

- Vəziyyət kimisə təəccübləndirdi? Ölkənizdə belə hallar baş verir?
- Qruplar nəticənin nə olacağına necə qərar veriblər?
- Sonluqlar həqiqətə uyğun idi? Mariyanın vəziyyətin öhdəsindən gəlməsində güclü və zəif məqamlar hansılar idi? Belə vəziyyətlərdə aqressiv və ya itaətkar olmaq yerinə məsələyə müsbət yanaşmaq nə qədər çətindir?

- Ölkənizdə qadınlar hamilə qaldıqda iş yerində hansı hüquqlara malik olurlar?
- Nəyə görə şirkət Mariyaya belə bir şərt qoyur? Bu, ədalətlidir? Niyə yox?
- Hər hansı insan hüququ pozulub? Əgər pozulubsa, hansılar?
- Mariya kişi olsa idi, eyni hal baş verərdi? Niyə? Niyə yox?
- Məsələni dərk etmək baxımdan kişilər qadınlardan necə fərqlənir?
- Qadınların reproduktiv hüquqlarını təbliğ etmək və qorumaq üçün nə edilməlidir?

## Fasilitator üçün məsləhətlər

Kiçik qruplarda gender balansını gözləyib-gözləməməklə bağlı qərar verin. Təcrübə göstərir ki, eyni cinsdən olan şəxslərdən ibarət qruplar, adətən, daha provokativ sonluqlara və daha zəngin müzakirəyə aparıb çıxarır.

İştirakçılara "reproduktiv hüquqlar" termini tanış olmaya bilər və siz onlara kömək etmək üçün bəzi fikirlər irəli sürməli ola bilərsiniz.
Reproduktiv hüquqlara aşağıdakı hüquqlar aiddir:

- Yoluxma və xəstəlik qorxusu olmadan həzz alınan cinsi əlaqə
- Uşaq sahibi olub-olmamaq seçimi
- Qayğıkeş ailə planlaşdırma xidməti, o cümlədən qadınlarla layiqli və hörmətli rəftar edən, məxfiliyi təmin edən təhlükəsiz və empatetik abort xidməti
- Cinsi təhsil

Nəzərə alın ki, təhlildə Mariyanın insan hüquqlarının pozulması ilə bağlı sual abort, qadınların seçim etmək hüququ və dölün yaşamaq hüququ ilə əlaqədar mübahisəli məsələləri ortaya çıxara bilər. Bu, olduqca vacib məsələdir. Həmçinin, İnsan Hüquqları Təhsili (İHT) ilə yaxından əlaqəlidir, çünki iştirakçılardan açıqfikirli olmağı, stereotipləri və qərəzli fikirlərini kənara qoymağı və tənqidi düşüncə bacarıqlarından istifadə etməyi tələb edir. Bu məsələ insan hüquqlarının özünəməxsus mürəkkəbliyini çox yaxşı əks etdirir. Qeyd edilən məsələlər ortaya çıxarsa, onları başqa vaxt ayrıca müzakirə etmək üçün saxlaya bilərsiniz.

## Variantlar

Forum Teatrı metodundan istifadə edin (67-ci səhifəyə baxın). İştirakçıları kiçik qruplara ayırmaq yerinə, iki könüllünü Mariya və cənab Vladstoku oynamağa dəvət edə və digər iştirakçıları müşahidəçi qismində cəlb edə bilərsiniz. Təqdimatı fasilələrlə dayandıra və müşahidəçilərdən daha sonra nə baş verməli olduğunu soruşa bilərsiniz. Alternativ kimi, müşahidəçilər aktyorlarla yerlərini dəyişə, hadisələrə fərqli cəhətdən yanaşa və rol oyununun gedişini dəyişə bilərlər.

Səhnəciyə başqa obrazları da əlavə etmək olar. Mariyanın həmkarlar ittifaqının üzvü olan ərini daxil edə və rol oyununu insan resursları departamenti ilə görüşə çevirə bilərsiniz.

Adları ölkənizdə daha çox rast gəlinən adlarla əvəzləyə bilərsiniz.

Bəzi insanlara rol oyunu çətin gəlir, bu halda, hadisəni nəql etmək metodundan istifadə edə bilərsiniz. İştirakçıları kiçik qruplara ayırın, onlara hekayənin bir nüsxəsini verin və onu müzakirə edib öz sonluqlarını yazmağı xahiş edin. Bundan sonra, qrup ümumi sessiyada öz versiyalarını bildirir və müxtəlif sonluqlar müqayisə edilir.

## Sonrakı fəaliyyət üçün təkliflər

Cinsi təhsil məktəb kurrikulumuna daxildirsə, müəllimdən bu məşğələni dərsə daxil etməyin mümkün olub-olmadığını soruşun. Alternativ kimi, məşğələ sosial elmlər və ya tarix dərsində, eləcə də Qadınlar Günü (8 mart) və ya Beynəlxalq Ailələr Günü (15 may) ilə əlaqədar keçirilən tədbirdə istifadə oluna bilər.

Qrup ölkənizdə reproduktiv hüquqlarla bağlı vəziyyəti araşdıra bilər. Bununla bağlı, həm qadınlar, həm də işə götürənləri müsahibə edib qanunvericiliyin təcrübədə necə işlədiyini öyrənə bilər.

Qrup, həmçinin, ölkələrində tədris olunan cinsi təhsilin nəzərdən keçirə bilər. Burada reproduktiv hüquqların bütün aspektləri əhatə olunur?

İş yerində ayrı-seçkiliyin digər formalarını araşdırmaq istəyirsinizsə, 135-ci səhifədəki “Müxtəlif maaşlar” məşğələsini edə bilərsiniz.

**ƏSAS TARİX**

**15 may**
Beynəlxalq Ailələr Günü

## Fəaliyyət üçün fikirlər

Reproduktiv hüquqlarla bağlı məsələləri məktəbinizin və ya assosiasiyanızın şurasında qaldırın.

Hansı yerli QHT-lərin qadınların reproduktiv hüquqları ilə bağlı çalışdığını araşdırın və onların debatlarında, hərəkatlarında iştirak edin.

## Əlavə məlumat

**Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi üzrə Konvensiya**

Konvensiya mülki hüquq məsələləri ilə yanaşı qadınları narahat edən əsas məsələyə, daha dəqiq onların reproduktiv hüquqlarına mühüm diqqət ayırır. Preambulada bəyan olunur ki, “qadınların uşağın doğulmasında rolu onlara qarşı ayrı-seçkilik üçün əsas ola bilməz”.

Ayrı-seçkilik və qadınların reproduktiv rolu arasında əlaqə Konvensiyada təkrar-təkrar toxunulan məsələdir. Məsələn, 5-ci maddədə “analığın sosial funksiya kimi düzgün şəkildə başa düşülməsi” müdafiə olunur və uşağın böyüdülməsində məsuliyyətin tam şəkildə iki cins arasında bölüşdürülməsi tələb olunur. Bununla əlaqədar, analığa görə mühafizə və uşaqlara qayğı ilə bağlı müddəalar əsas hüquqlar kimi qeyd olunmuş və Konvensiyada əks olunan bütün sahələrə, o cümlədən əmək, ailə hüququ, sağlamlıq və ya təhsillə bağlı hissələrə daxil edilmişdir. Cəmiyyətin öhdəliklərinə sosial xidmətlərin, xüsusilə də, fərdlərə ailə məsuliyyətini işlə və ictimai həyatda iştirakla birləşdirməyə imkan verən uşağa qayğı vasitələrinin təklif olunması daxildir. Anaların mühafizəsi üzrə xüsusi mexanizmlərin təmin edilməsi məsləhət görülür və onların “ayrı-seçkiliyik sayılmayacağı” vurğulanır.

(4-cü maddə) Konvensiya qadınların reproduktiv seçim etmək hüququnu müəyyən edir. Qeyd edilməlidir ki, bu konvensiya ailə planlaşdırmasına toxunulan yeganə insan hüquqları müqaviləsidir. Burada müqavilə tərəflərinin ailə planlaşdırılması üzrə məsləhətləri təhsil prosesinə daxil etmək (10.h maddəsi) və qadınların “uşaqlarının sayı və məkanı ilə bağlı azad və məsuliyyətli şəkildə qərar vermək və bu hüquqları həyata keçirmək üçün lazımi məlumat, təhsil və vasitələrlə təmin olunmaq hüquqlarını” əhatə edən ailə məcəllələrini hazırlamaq (16.e maddəsi) öhdəliyi müəyyən edilir.

www.un.org/womenwatch

## Paylanmalı materiallar

**Ssenari**
Mariya təqribən bir ildir ki, işsizdir və iş axtarır. O, on gün əvvəl xəyalındakı iş üçün müsahibəyə gedib – bu iş tam onun axtardığı idi! Hər şey qaydasında gedib və o, işə qəbul olunub. Şirkət ondan insan resursları üzrə məsul əməkdaş cənab Vladstokla görüşüb əmək müqaviləsini imzalamağı xahiş edib. Müsahibədə onun öhdəlikləri və işlə bağlı məsələlər artıq müzakirə olunub. Mariya müqaviləni imzalamağa hazırlaşarkən cənab Vladstok iş üçün tələblərdən birinin onun növbəti iki il ərzində uşaq sahibi olmayacağına dair bəyannaməni imzalaması olduğunu bildirir.

# İnsan Hüquqları təqvimi

Aşağıdakı təqvim dünya üzrə insanların insan hüquqları ilə bağlı qeyd etdiyi günləri bir araya toplamaq üçün yenilənmiş cəhddir; hüquq mübarizləri təltif olunur, insan hüquqlarının pozuntuları xatırlanır və ümidlər və sevinc bayram edilir. Əsas tarixlər rəsmi BMT Beynəlxalq günləri, QHT-lər tərəfindən tanınan Dünya Günləri, tarixi hadisələrin ildönümləri və bəzi tanınmış insan hüquqları fəallarının ad günlərindən götürülmüşdür. Bu siyahı tamamlanmış və ya yekun siyahı deyil, başlanğıc nöqtə sayılmalı və buraya sizin xatırlanmalı olduğunu hesab etdiyiniz günlər əlavə edilməlidir.

Təqvimin surəti çıxarıla və insan hüquqları məsələlərinə ilkin marağı oyatmaq üçün poster kimi divara asıla bilər. Belə ki, bu təqvim insan hüquqlarının əhatə dairəsini və müxtəlifliyini olduqca yaxşı əks etdirir. İnsanları rəy bildirməyə dəvət edin: Qeyd olunan günlərin hamısı onlar üçün məna daşıyır? Hansı yerli və milli günləri buraya daxil etmək istəyərdilər?

2-ci fəsildəki hər məşğələ üçün bir əsas tarix müəyyən olunub. Təqvimin hazırlanmasında məqsəd onun illik insan hüquqları təhsili proqramının qurulması üçün vasitə kimi istifadə olunmasıdır. Hər həftə və ya ay üçün başlanğıc nöqtə “həmin mövzu üzrə” məşğələ ola bilər. Məsələn, 3 may, Dünya Mətbuat Azadlığı Günündə “Ön səhifə” məşğələsini və ya 25 noyabr, Qadınlara qarşı Zorakılığın Aradan qaldırılması üzrə Beynəlxalq Gündə “Ailədaxili işlər” məşğələsini edə bilərsiniz. Alternativ kimi, qrup həmin günlərdə başqa təşkilatlar tərəfindən təşkil olunan tədbirlərdə və ya fəaliyyətlərdə iştirak edərək “hərəkətə keçə” bilər, məsələn, 22 aprel Ətraf mühit Gününü ətraf mühit qrupu ilə qeyd etmək.

Hərəkətə keçmək üçün bəzi ilkin fikirlərlə tanış olmaq istəyirsinizsə, Hər kəs Fərqli - Hər kəs Bərabər Təhsil Paketindəki “Fəaliyyətlərin A-Z-si” hissəsinə baxın. Effektiv iş aparmaq üçün məsləhətlər və göstərişləri bu kitabın 3-cü fəslindəki “Hərəkətə keçmək” hissəsindən oxuya bilərsiniz.

İnsan hüquqları anlayışı hər il inkişaf etdiyi kimi, bu təqvim də inkişaf etməlidir. Siz – bu kitabın istifadəçiləri üçün çağırış ilin hər günündə insan hüquqlarını qeyd etmək üçün yeni yollar tapmaqdır.

| Tarix | Təsviri | Təsviri Gün haqqında məlumat | Fəaliyyət |
|---|---|---|---|
| 27 yanvar | Holokostun Xatırlanması Günü | 27 yanvar ən böyük Nazi ölüm düşərgəsi Ausşvitz-Birkenaunun azad olunmasının ildönümüdür. 2005-ci ildə BMT Baş Assambleyası Nazi dövrünün qurbanlarının yad olunması üçün bu günü Holokostun Xatırlanması üzrə Beynəlxalq Gün kimi müəyyən etdi. | Tarixi Yaddaş Etiketləri |
| 8 fevral | Daha Təhükəsiz İnternet Günü | Daha Təhlükəsiz İnternet Günü Insafe tərəfindən onlayn texnologiya və mobil telefonlardan daha təhlükəsiz və məsuliyyətli istifadənin, xüsusilə gənclər və uşaqlar arasında təbliği üçün təşkil olunmuşdur. | Mənim həyatım tamaşa deyil |
| 12 fevral | Qırmızı Əl Günü | Uşaq əsgərlərdən istifadə olunmasını dayandırmaq uğrunda Qlobal Qırmızı Əl Hərəkatını dəstəkləyən təşkilatlara aiddir: Human Rights Watch, Beynəlxalq Amnistiya, Almaniya Gənclər Qırmızı Xaçı, Terre des Hommes və Plan International. | Daş atmaq |
| 21 fevral | Beynəlxalq Ana dili Günü | 1999-cu ildən bəri YUNESKO çoxdillilik və linqvistik müxtəlifliyin təbliği, o cümlədən təhlükə altında olan dillərin qorunması üzrə daha geniş və beynəlxalq öhdəliyə təkan vermək üçün bu günü təbliğ edir. | Dil baryeri |
| 8 mart | Beynəlxalq Qadınlar Günü | Beynəlxalq Qadınlar Günü (8 mart) keçmiş, indi və gələcək qadınların iqtisadi, siyasi və sosial nailiyyətlərini qeyd etmək üçün qlobal gündür. İlk dəfə bu gün 1911-ci ildə qeyd olunub. BMT səviyyəsində 1975-ci ildən bəri qeyd olunur. | Bərabərlik ölkəsinə yol |

| | | | |
|---|---|---|---|
| 12 mart | Kiber senzuraya qarşı Dünya Günü | Kiber senzuraya qarşı Dünya Günü 12 mart 2009-cu ildə Sərhədsiz Müxbirlər və Beynəlxalq Amnistiyanın tələbi ilə keçirilmişdir. | |
| 18 mart | Avropada ilk universal əsaslı parlament seçkiləri | 1917-ci ildə Finlandiyada keçirilmişdir. | Səs vermək yoxsa verməmək |
| 21 mart | Dünya Poeziya Günü | 1999-cu ildə YUNESKO tərəfindən bəyan olunub. Günün məqsədi poeziyanı oxumaq, yazmaq, nəşr və tədris etməyi təbliğ etməkdir. | |
| 21 mart | İrqi Ayrı-seçkiliyin Aradan qaldırılması üzrə Beynəlxalq Gün | 1960-cı ilin bu günündə Cənubi Afrikada, Şarpvildə polis aparteid rejimi tərəfindən "qəbul olunmuş qanunlara" qarşı dinc nümayiş keçirən insanlara atəş açmış və 69 nəfəri qətlə yetirmişdir. 1966-cı ildə Günü bəyan edən Baş Assambleya beynəlxalq ictimaiyyəti irqi ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üçün səylərini ikiyə qatlamağa çağırdı. | İrqçiliyə cavab vermək |
| 22 mart | Dünya Su Günü | Formal şəkildə ilk dəfə BMT-nin 1992-ci ildə Braziliyanın Rio de Janeyro şəhərində keçirilmiş Ətraf mühit və İnkişaf konfransının (UNCED) Gündəlik 21-də təklif olunmuşdur. Keçirilməsinə 1993-cü ildə başlanmışdır, məqsəd su resurslarının inkişafının iqtisadi məhsuldarlıq və sosial rifah üçün əhəmiyyəti ilə bağlı məlumatlılığı artırmaqdır. | |
| 23 mart | Dünya Meteorologiya Günü | Ümumdünya Meteorologiya Təşkilatı (WMO). Bu təşkilatın hava proqnozu ilə bağlı apardığı iş ərzaq təhlükəsizliyi, su resursları və nəqliyyatın təmin olunması üçün vacibdir. | |
| 24 mart | Dünya Vərəm Günü | 1882-ci ilin bu günündə Dr. Robert Koks Berlində bir qrup həkimə özünün vərəm çöpləri ilə bağlı ixtirasını təqdim etmişdir. ÜST tərəfindən 1992-ci ildə rəsmi gün elan edilmişdir. | |
| Aprelin 2-ci Çərşənbə axşamı | Avropa Bərabər Maaş Günü | BPW Avropa (Biznes və Peşəkar Qadınlar) tərəfindən elan edilmişdir. | Müxtəlif maaşlar |
| 7 aprel | Dünya Sağlamlıq Günü | İlk dəfə 1950-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı (WHO) tərəfindən gərəksiz əzab, eləcə də həyat və sağlamlığı təmin etmək üçün hamıdan tələb olunanlarla bağlı məlumatlılığı artırmaq üçün təsis olunmuşdur. | Bircə dəqiqə |
| 8 aprel | Dünya Roma İnsanları Günü | Gün 1990-cı ildə roma mədəniyyətini qeyd etmək və roma insanlarının problemləri üzrə məlumatlılığı artırmaq üçün rəsmi təsis olunmuşdur. | Dosta! |
| 23 aprel | Dünya Kitab və Müəlliflik Hüququ Günü | Günü qeyd etməklə YUNESKO müəlliflik hüquqları vasitəsilə əqli mülkiyyətin oxunması, nəşri və qorunmasını təmin etməyə çalışır. İlk dəfə 1995-ci ildə qeyd olunub. Dünya Kitab Günü kimi də tanınır. | |
| 28 aprel | Dünya İşdə Sağlamlıq və Təhlükəsizlik Günü | Beynəlxalq Əmək Təşkilatı (ILO) tərəfindən bəyan olunub. | |
| 1 may | Beynəlxalq İşçilər Günü | Həmçinin, "May Günü" kimi tanınır. Beynəlxalq Əmək Hərəkatı ilə bağlı keçirilir. | Həmkarlar İttifaqı görüşü |
| Mayın 2-ci Şənbəsi | Dünya Ədalətli Ticarət Günü | Dünya Ədalətli Ticarət Təşkilatı tərəfindən bəyan olunub. | Ehtiyatlı ol, biz baxırıq |
| 3 May | Dünya Mətbuat Azadlığı Günü | 1993-cü ildə YUNESKO tərəfindən dünyada mətbuat azadlığını və azad, plüralist və müstəqil KİV-in istənilən demokratik cəmiyyətin vacib elementi olduğu ideyasını təbliğ etmək üçün bəyan olunub. | Ön səhifə |
| 5 May | Avropa Günü (Avropa Şurası) | Avropada sülh və birliyin hər il qeyd olunması. Avropa Gününün iki fərqli tarixi var: 5 may Avropa Şurası üçün və 9 may Avropa İttifaqı üçün. | Hər kəs Fərqli - Hər kəs Bərabər |

| | | | |
|---|---|---|---|
| 8 may | Dünya Qırmızı Xaç və Qızıl Aypara Günü | Dünya Qırmızı Xaç Günü dünya üzrə Milli Qırmızı Xaç və Qızıl Aypara Cəmiyyətlərinin apardığı işi tərənnüm edir və xatırladır. | Hüquqlar Bin-qosu |
| 8-9 May | İkinci Dünya Müharibəsində Həyatını İtirənlərin Xatırlanması və Barışıq Günü | 2004-cü ildə BMT Baş Assambleyası tərəfindən İkinci Dünya Müharibəsində həyatını itirənləri xatırlamaq üçün bəyan olunub. | Tarixi yaddaş etiketləri |
| 15 May | Beynəlxalq Ailələr Günü | 1993-cü ildə BMT Baş Assambleyası tərəfindən ailə məsələləri ilə bağlı məlumatlılığı artırmaq üçün bəyan edilib. | İş və uşaqlar |
| 15 May | Beynəlxalq Vicdanlı Etiraz Günü | Beynəlxalq Müharibə Əleyhdarları tərəfindən müharibənin səbəblərinə qarşı dinc fəaliyyəti təbliğ etmək, dünya üzrə müharibədə və ya ona hazırlıq prosesində iştiraka etiraz edən insanları birləşdirmək və dəstəkləmək üçün bəyan olunub. | |
| 17 May | Homofo-biya və Trans-fobiya əleyhinə Beynəlxalq Gün | UNAID – QİÇS üzrə Birgə BMT Proqramı. Parisdə yerləşən “IDAHO Komitəsi” tərəfindən koordinasiya olunur. | Gəlin cinsi əlaqədən danışaq! |
| 17 May | Dünya İnformasiya Cəmiyyəti Günü | BMT tərəfindən 2005-ci ildə İnternet və yeni texnologiyalar vasitəsilə cəmiyyətə gətirilən dəyişikliklərlə bağlı qlobal məlumatlılığı artırmaq üçün elan olunub. Həmçinin, rəqəmsal bölgünü azaltmağa kömək edir. | İnternetin təsiri |
| 21 May | Dünya Anti-Ter-rorizm Günü | Dünya Anti-Terrorizm Günü terrorizm və zorakılığın bütün formalarına qarşıdır. Hindistanda təsis olunmuşdur, çünki “burada hər il minlərlə gənc terrorist düşərgələr və təşkilatların sıralarına cəlb olunur.” | Terrorizm |
| 21 May | Dünya Mədəni Müxtəliflik, Dialoq və İnkişaf Günü | BMT tərəfindən tərəqqi, dayanıqlı inkişaf və qlobal səviyyədə dinc birgə yaşayışa nail olmaq üçün bir vasitə kimi mədəni müxtəlifliyin qorunması məqsədilə 2002-ci ildə elan olunub. | Bizim Gələcəyimiz |
| 22 May | Bioloji Müxtəliflik üzrə Beynəlxalq Gün | BMT Baş Assambleyası tərəfindən 2000-ci ildə biomüxtəliflik məsələlərinin təbliği ilə bağlı elan olunub. Daha öncə, 29 dekabrda qeyd olunurdu. | |
| 26 May | Dünya Çağırış Günü | Hər il TAFISA (Hamı üçün İdman üzrə Beynəlxalq Assosiasiya) tərəfindənn təşkil olunur. Dünyanın müxtəlif hissələrindən olan icmalar mümkün qədər çox insanı fiziki fəallığa həvəsləndirmək üçün yarışır. | Hamı üçün İdman |
| 28 May | Avropa Qonşular Günü | Avropa Şurası tərəfindən sponsorluq edilir. Məqsəd şəhərlərin və sosial yaşayış təşkilatlarının qonşuluq şənlikləri və bənzər tədbirlərə təkan verməklə yerli icmaları gücləndirməsidir. | Güllər və hüquqlar |
| 29 May | Beynəlxalq BMT Sülhməramlıları Günü | BMT tərəfindən 2002-ci ildə BMT-nin sülhməramlı əməliyyatlarında iştirak etmiş bütün kişi və qadınları yüksək peşəkarlıq səviyyələrinə, fədakarlıq və cəsarətlərinə görə tərənnüm etmək, eləcə də sülh uğrunda həyatını itirənlərin xatirəsini anmaq üçün təsis edilmişdir. | |
| 31 May | Tütün əleyhinə Dünya Günü | 1987-ci ildə ÜST tərəfindən qlobal diqqəti tütünün dünyada geniş yayılmış istifadəsi və sağlamlıq risklərinə yönəltmək üçün 24 saat tütünün bütün növlərindən imtinanı təşviq etməklə başladılmışdır. | |
| 4 iyun | Aqressiyanın Günahsız Uşaq Qurbanlarının Beynəlxalq Günü | Bir çox uşaqların fiziki, mənəvi və emosional istismarın qurbanı olaraq çəkdiyi əzabları və uşaq hüquqlarının qorunmasının əhəmiyyətini in-sanlara xatırlatmaq üçün 1982-ci ildən bəri qeyd olunur. | Bizim alternativlərimiz var? |

| | | | |
|---|---|---|---|
| 5 iyun | Dünya Ətraf Mühit Günü | BMT Baş Assambleyası 1972-ci ildə ətraf mühitin qorunması və inkişafına olan ehtiyac üzrə ictimai məlumatlılığı dərinləşdirmək üçün təsis edib. | Barmaqlar və baş barmaqlar |
| 12 iyun | Uşaq Əməyinə qarşı Dünya Günü | Beynəlxalq Əmək Təşkilatı Uşaq Əməyinə qarşı ilk Dünya Gününü 2002-ci ildə təşkil edib. | Aşığın hekayəsi |
| 17 iyun | Səhralaşma və Quraqlıqla Mübarizə üzrə Dünya Günü | BMT tərəfindən 1995-ci ildə səhralaşma və quraqlığın təsiri ilə mübarizədə beynəlxalq əməkdaşlığa, o cümlədən Səhralaşmaya qarşı Mübarizə üzrə Konvensiyanın yerinə yetirilməsinə duyulan ehtiyacla bağlı məlumatlılığı artırmaq üçün elan olunub. | |
| 20 iyun | Dünya Qaçqınlar Günü | Baş Assambleya tərəfindən 2000-ci ildə Qaçqınların Statusu üzrə 1951-ci il Konvensiyasının 50-ci ildönümünü qeyd etmək üçün elan olunub. | İçəri girə bilərəm? |
| 23 iyun | BMT Dövlət Qulluğu Günü | BMT tərəfindən dövlət qulluğunun inkişaf prosesində töhfəsini vurğulamaq üçün elan olunub. | |
| 26 iyun | Narkotiklərdən İstifadə və Qanunsuz Ticarətinə qarşı Beynəlxalq Gün | Baş Assambleya 1987-ci ildə narkotiklərdən istifadə olunmayan beynəlxalq cəmiyyət qurmaq üçün əməkdaşlıq və fəaliyyəti gücləndirmək məqsədilə bu günü keçirməyə qərar verdi. | |
| 26 iyun | İşgəncə Qurbanlarına Dəstək üzrə BMT Beynəlxalq Günü | BMT tərəfindən 1997-ci ildə elan olunmuş bu günün məqsədi işgəncənin aradan qaldırılması və İşgəncə və Digər Qəddar, Qeyri-insani və Alçaldıcı Rəftar və ya Cəza əleyhinə 1984-cü il Konvensiyasının effektiv şəkildə yerinə yetirilməsidir. İlk dəfə 1987-ci il 26 iyunda qeyd olunub. | Çahal Böyük Britaniyaya qarşı |
| İyulun ilk Şənbəsi | Beynəlxalq Kooperativlər Günü | BMT Baş Assambleyası tərəfindən 1992-ci ildə elan olunub. Tarix Beynəlxalq Kooperativ Alyansının yüzilliyini təcəssüm etdirir və kooperativlərin inkişafın ayrılmaz faktoru olmasını müəyyən edir. | |
| 11 iyul | Dünya Əhali Günü | BMT-nin İnkişaf Proqramı (UNDP) tərəfindən 1989-cu ildə əhali məsələlərinin təciliyi və əhəmiyyətinə diqqət çəkmək üçün elan olunub. | |
| 18 iyul | Beynəlxalq Nelson Mandela Günü | 2009-cu ildə BMT keçmiş Cənubi Afrika Prezidentinin sülh və azadlıq mədəniyyətinə verdiyi töhfələrə görə 18 iyulu “Beynəlxalq Nelson Mandela Günü” elan edib. | Qadın və kişi qəhrəmanlar |
| 2 avqust | Roma insanlarının və Sinti Soyqırımının Xatırlanması Günü | Bu tarix 1944-cü il avqustun 2-dən 3-ə keçən gecə nasistlər tərəfindən Birkenau qaz kameralarında üç min kişi, qadın və uşaq qətlə yetirilməklə “Qaraçı Ailə Düşərgəsi”nin likvidasiyasını təmsil edir. | |
| 6 avqust | Hiroşima Günü | 1945-ci ildə Yaponiyada, Hiroşimada ilk atom bombasının qurbanları yad olunur. | |
| 9 avqust | Beynəlxalq Yerli Xalqlar Günü | Baş Assambleya tərəfindən 1994-cü ildə dünyadakı yerli xalqların hüquqlarının tanınması və qorunması məqsədilə elan olunub. | Makah balina ovu |
| 12 avqust | Beynəlxalq Gənclər Günü | BMT tərəfindən 1999-cu ildə dünya üzrə gənclərin məsələlərinə diqqət çəkmək üçün elan olunub. | Bizim gələcəyimiz |
| 23 avqust | Kölə Ticarəti və onun Ləğvinin Xatırlanması üzrə Beynəlxalq Gün | Bu gün YUNESKO tərəfindən transatlantik kölə ticarətininin yad olunması üçün təsis olunub. 23 avqust 1791-ci ildə Kariblərdə Santo Dominqoda kölələrin başlatdığı üsyan Haitiyə də yayılmış və insan hüquqları uğrunda mübarizəyə təkan vermişdir. | Vaxt şkalaları |
| | Stalinizm və Nasizm Qurbanlarının Xatırlanması üzrə Avropa Günü | Avropa Parlamenti tərəfindən 2008-ci ildə bəyan olunub. | |

| | | | |
|---|---|---|---|
| 8 sentyabr | Beynəlxalq Savadlılıq Günü | YUNESKO tərəfindən elan olunmuş, ilk dəfə 1966-cı ildə qeyd olunmuşdur. Məqsəd fərd, icma və cəmiyyətlərə savadın əhəmiyyətini vurğulamaqdır. | Hamı üçün Təhsil? |
| 15 sentyabr | Beynəlxalq Demokratiya Günü | 2007-ci ildə BMT tərəfindən elan olunub. | Əlaqələr qurmaq |
| 19 sentyabr | Səs vermək hüququ Günü | 1893-cü ilin bu günü Yeni Zelandiyada qadınlara səs vermək hüququ verildi, dünyada bunu edən ilk ölkə oldu. | Seçkiqabağı kampaniya |
| 21 sentyabr | Beynəlxalq Sülh Günü | BMT Baş Assambleyası tərəfindən 1981-ci ildə elan olunub, qlobal atəşkəs və qeyri-zorakılıq günü, bütün xalqları və insanları Gün ərzində düşmənliyin dayandırılmasına dəvət kimi keçirilməlidir. | Slipivildə məscid |
| 28 sentyabr | Bilmək hüququ Günü | Dünya üzrə məlumata çıxışı müdafiə edən şəxslər tərəfindən təsis olunub. İlk dəfə 2003-cü ildə hər bir fərdin hökumətin saxladığı məlumata çıxış hüququ ilə bağlı məlumatlılığı artırmaq üçün keçirilmişdir. | Nərdivanda |
| Oktyabrın ilk Bazarertəsi | Dünya Yaşayış Məkanı Günü (Xarabalıqlar olmayan şəhərlər) | BMT tərəfindən təsis olunmuş gün. İlk dəfə 1986-cı ildə qeyd olunub. Məqsəd şəhərlərimizin vəziyyətini və layiqli yaşayış məkanına əsas insan hüququnu əks etdirməkdir. | İki şəhərin nağılı |
| Oktyabrın ikinci Çərşənbəsi | Beynəlxalq Təbii Fəlakətlərin Azaldılması Günü | BMT tərəfindən 2002-ci ildə təbii fəlakətlərin azaldılması üzrə qlobal mədəniyyəti, o cümlədən fəlakətlərin qarşısının alınması, yumşaldılması və hazırlıq görülməsini təbliğ etmək üçün təsis olunub. | Həyat şəbəkəsi |
| 1 oktyabr | Beynəlxalq Yaşlılar Günü | BMT Baş Assambleyası 1990-cı ildə bu günü yaşlıların təsirinə məruz qaldığı məsələlərlə bağlı məlumatlılığın artırılması və onların cəmiyyətə verdiyi töhfələrin qiymətləndirilməsi məqsədilə təsis olunub. | |
| 1 oktyabr | Beynəlxalq Musiqi Günü | Beynəlxalq Musiqi Şurası tərəfindən 1975-ci ildə musiqini cəmiyyətin bütün üzvləri arasında təbliğ etmək məqsədilə təsis edilib. | |
| 2 oktyabr | Beynəlxalq Qeyri-zorakılıq Günü | BMT Beynəlxalq Qeyri-zorakılıq Günü təhsil və ictimai məlumatlılıq vasitəsilə qeyri-zorakılığı təbliğ edir. Hind lider Mahatma Qandinin doğum gününə təsadüf edir. | Həyatımdakı zorakılıq |
| 5 oktyabr | Dünya Müəllimlər Günü | YUNESKO tərəfindən 1994-cü ildə gələcək nəsillərin ehtiyaclarının müəllimlər tərəfindən qarşılanmasını və müəllimlərə dəstəyi təmin etmək üçün təsis olunub. | Tezliklə köhnələcək |
| 7 oktyabr | Dünya Layiqli İş Günü | Beynəlxalq Həmkarlar İttifaqı Konfederasiyası tərəfindən 2008-ci ildə təsis olunub, bu gün dünyadakı həmkarlar ittifaqları layiqli iş üçün ayağa qalxır. | İşləmək istəyirəm |
| Oktyabrın ikinci Cümə axşamı | Dünya Görmə Günü | Ümumdünya Səhiyyə Təşkilatı: qlobal diqqəti korluğa, görmə qüsuruna və görmə qüsurluların sağaldılmasına yönəltmək üçün məlumatlılıq günü. | Eynəyinizi dəyişin |
| 10 oktyabr | Ölüm Cəzası əleyhinə Dünya Günü | Ölüm Cəzası Əleyhinə Dünya Koalisiyası tərəfindən 2002-ci ildə təsis olunub. | Sabah gələndə |
| 10 oktyabr | Dünya Əqli Sağlamlıq Günü | Dünya Əqli Sağlamlıq Günü Federasiyasının təşəbbüsü ilə 1992-ci ildə qeyd olunub. | Mən kiməm? |
| 15 oktyabrın daxil olduğu həftə | Avropa Yerli Demokratiya Həftəsi | Avropa Şurası tərəfindən təşkil olunub. Məqsəd yerli demokratiya üzrə biliyi təşviq etmək və yerli səviyyədə demokratik iştirak fikrini təbliğ etməkdir. | Qoy, hər bir səs eşidilsin |
| 16 oktyabr | Dünya Ərzaq Günü | BMT tərəfindən 1979-cu ildə dünya ərzaq problem ilə bağlı ictimai məlumatlılığı artırmaq və aclıq, qida çatışmazlığı və yoxsulluqla mübarizədə həmrəyliyi gücləndirmək məqsədilə elan olunub. | Bir addım irəli atın |

| | | | |
|---|---|---|---|
| 17 oktyabr | Beynəlxalq Yoxsulluğun Aradan Qaldırılması Günü | Baş Assambleya tərəfindən 1992-ci ildə bütün ölkələrdə, xüsusilə inkişaf etməkdə olan ölkələrdə yoxsulluğun azaldılmasına olan ehtiyac üzrə məlumatlılığı artırmaq üçün təsis olunub. | Güc və var-dövlət uğrunda mübarizə |
| 24 oktyabr | BMT Günü | 1947-ci ildə BMT Nizamnaməsinin ildönümü kimi bəyan olunub. Bu gün “dünya xalqlarına BMT-nin məqsədləri və uğurları barədə məlumat verilir və onların aparılan işə dəstəyi əldə olunur.” | |
| 24-30 oktyabr | Silahsızlanma Həftəsi | BMT bu həftəni 1978-ci ildə silahlanma yarışı təhlükəsini vurğulamaq, onun dayandırılmasına olan ehtiyacı göstərmək və silahsızlanmanın təcili məsələləri ilə bağlı məlumatlılığı artırmaq üçün bəyan edib. | |
| 25 oktyabr | Beynəlxalq Rəssamlar Günü | Beynəlxalq Rəssamlar Günü kütləvi hərəkatdır. Oktyabrın 25-i Pikassonun doğum günüdür. | Şəkillərlə oynamaq |
| 3 noyabr | Dünya Kişilər Günü | Beynəlxalq Kişilər Günü 1999-cu ildə Trinidad və Tobaqoda başladılmışdır. BMT tərəfindən dəstəklənir. Məqsədi diqqəti kişi və oğlanların sağlamlığına, gender münasibətlərinin inkişafına, gender bərabərliyinin təbliğinə və müsbət kişi rol modellərinin vurğulanmasına yönəltməkdir. | Bərabərlik ölkəsinə Yol |
| 4 noyabr | Avropa İnsan Hüquqları Konvensiyası | 1950-ci ilin bu günündə Avropa İnsan Hüquqları Konvensiyası imzalanıb. | Elektrik Stansiyası |
| 6 noyabr | Müharibə və Silahlı Münaqişə zamanı Ətraf Mühitin İstismarının Qarşısının Alınması üzrə Beynəlxalq Gün | Bu gün BMT tərəfindən 2001-ci ildə silahlı münaqişə zamanı ümumi ətraf mühitimizin qorunmasını təşviq etmək məqsədilə elan olunub. Belə ki, münaqişə zamanı ekosistemlər və təbii resurslar uzunmüddətli dağıdıcı təsirə məruz qalır və bu mənfi təsir milli sərhədləri və indiki nəsili aşır. | |
| 9 noyabr | Faşizm və Antisemitizm əleyhinə Beynəlxalq Gün (Kristalnaxt) | 1938-ci ilin bu günündə nasistlər yəhudilərin kütləvi qırğınına başladılar. Yəhudi dükanları (Qırılmış Şüşə Gecəsi). Avropa Şurası tərəfindən tanınır. | |
| 9 noyabr | 1989, Berlin Divarı dağıdılıb | Qərbi və Şərqi Avropa arasında sərhədlərin dağıdılmasının başlanğıcını təmsil edir. | |
| 11 noyabr | Beynəlxalq Elm və Sülh Günü | YUNESKO tərəfindən 2001-ci ildə elmin dinc və davamlı cəmiyyətlər üçün rolu ilə bağlı ictimai məlumatlılığı gücləndirmək üçün təsis edilib; ölkələr arasında ortaq elm üçün milli və beynəlxalq həmrəyliyi təbliğ edir. | |
| 16 noyabr | Beynəlxalq Dözümlülük Günü | YUNESKO tərəfindən 1995-ci ildə dözümsüzlük təhlükələri ilə bağlı ictimai məlumatlılığı yaymaq üçün bəyan olunub. | İnananlar |
| 18 noyabr | İnsan alverinə qarşı Gün | Avropa Parlamentinin tövsiyəsi əsasında 2007-ci ildə təsis olunub; insan alverinə qarşı mübarizə və onun qarşısının alınması üçün daha yaxşı siyasətlərə olan ehtiyacla bağlı məlumatlılığı artırmağa imkan verir. | |
| 20 noyabr | Ümumdünya Uşaqlar Günü | BMT tərəfindən 1954-cü ildə dünya uşaqları arasında qardaşlıq və qarşılıqlı anlayış günü və dünya uşaqlarının rifahının yüksəldilməsi üzrə fəaliyyət günü kimi bəyan olunub | Uşaqların hüquqları |
| 21 noyabr | Dünya Televiziya Günü | BMT tərəfindən 1996-cı ildə sülh, təhlükəsizlik, iqtisadi və sosial inkişaf məsələlərinə həsr olunmuş televiziya proqramlarının qlobal mübadiləsinə təkan vermək və mədəni əlaqələri inkişaf etdirmək üçün bəyan olunub. | Şəkil oyunları |
| 25 noyabr | Qadınlara qarşı Zorakılığın Aradan qaldırılması üzrə Beynəlxalq Gün | Qadın hüquqları fəalları 1981-ci ildən bəri noyabrın 25-ni zorakılığa qarşı gün kimi qeyd edir. 1999-cu ildə ictimai məlumatlılığı artırmaq və “qadınlara qarşı zorakılığa ‘Yox’ demək” üçün BMT Günü bəyan edilib. | |

| | | | |
|---|---|---|---|
| 29 noyabr` | Fələstin Xalqı ilə Beynəlxalq Həmrəylik Günü | BMT tərəfindən 1977-ci ildə Fələstinlilərin hüquqları ilə bağlı sərgilər təşkil etmək və digər mədəni tədbirlərlə onlarla həmrəyliyi nümayiş etdirmək üçün elan edilib. | |
| 1 dekabr | Dünya QİÇS Günü | BMT (ÜST) tərəfindən 1988-ci ildə qazanılmış immun çatışmazlığı sindromunun (QİÇS) geniş yayılması ilə bağlı bəyan edilib. | Dərmanlara çıxış |
| 2 dekabr | Köləliyin Ləğvi üzrə Beynəlxalq Gün | 1949-cu ildə İnsan Alverinin və Başqalarının İstismar olunmasının Qarşısının alınması üzrə BMT Konvensiyasının qəbul olunduğu tarixi təmsil edir. | |
| 3 dekabr | Beynəlxalq Əlil İnsanlar Günü | BMT tərəfindən 1992-ci ildə əlilliyi olan insanların vəziyyətini yaxşılaşdırmaq üçün tədbirlər görmək, onlarla bağlı məlumatlılığı artırmaq və onları bərabər imkanlarla təmin etmək üçün bəyan edilib. | Bacarığı görün |
| 5 dekabr | İqtisadi və Sosial İnkişaf üçün Beynəlxalq Könüllü Günü | BMT tərəfindən 1985-ci ildə könüllü xidmətlərin verdiyi töhfələr barədə məlumatlılığı artırmaq, bu yolla, həyatın bütün sahələrində çalışan insanları öz ölkələrində və xaricdə könüllü kimi xidmət göstərməyə həvəsləndirmək üçün bəyan edilib. | Siz harada dayanırsınız? |
| 9 dekabr | İqtisadi və Sosial İnkişaf üçün Beynəlxalq Könüllü Günü | BMT tərəfindən 2003-cü ildə korrupsiya ilə bağlı məlumatlılığı artırmaq, korrupsiyanın həyatın danılmaz faktı kimi qəbul edilməsinə son qoymaq və onu inkişaf üçün əsas maneələrdən biri kimi qeyd etmək məqsədilə bəyan edilib. | |
| 10 dekabr | İnsan Hüquqları Günü | BMT Baş Assambleyası 1950-ci ildə bütün Dövlətləri və maraqlı təşkilatları bu günü 1948-ci ildə Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul olunmasının ildönümü kimi qeyd etməyə dəvət edib. | Sözün şəklini çəkin oyunu, Hərəkətə keçin, Hüquq Mübarizləri |
| 18 dekabr | Beynəlxalq Miqrantlar Günü | BMT tərəfindən 2002-ci ildə bütün miqrantların insan hüquqları və əsas azadlıqlarına hörməti təmin etmək üçün bəyan edilib. | 3 əşya |
| 20 dekabr | Beynəlxalq İnsan Həmrəyliyi Günü | BMT tərəfindən 2005-ci ildə yoxsulluğa qarşı mübarizədə təşəbbüs kimi irəli sürülmüşdür. Məqsəd bizim müxtəlifliyimizdə əks olunan birliyimizi və Minilliyin İnkişaf Məqsədlərinə nail olmaq üçün həmrəyliyi qeyd etməkdir. | Bizim nə qədərə ehtiyacımız var? |

# Başlanğıclar

*Başlamaq hər bir işin yarısıdır.*

Yunan atalar sözü

Ümumi İnsan Hüquqları

2-ci səviyyə

15 dəqiqə

| | |
|---|---|
| **Mövzular** | • Ümumi İnsan Hüquqları |
| **Mürəkkəblik** | 2-ci səviyyə |
| **Vaxt** | 15 dəqiqə |
| **Xülasə** | Aşağıda təqdim olunmuş başlanğıclar həm qrupda müsbət atmosfer yaratmağa, həm də insan hüquqları ideyalarını əyləncəli şəkildə təqdim etməyə kömək edir. |
| **Əlaqədar hüquqlar** | • Hamısı |
| **Məqsədlər** | • İnsan hüquqları ideyaları ilə bağlı maraq oyatmaq<br>• Əməkdaşlığı inkişaf etdirmək<br>• Kreativliyi təşviq etmək, enerjini qaldırmaq və motivasiya etmək |

## *Kompas kitabdan daha artıqdır.*

Bu məşğələ sözsüz tapşırıqdır və Kompas-ı yeni auditoriyaya təqdim etməyin əyləncəli yoludur.

### Təlimatlar

1. Kompas-ın nüsxəsini döşəməyə qoyun və iştirakçılardan onun ətrafında dövrə qurmağı xahiş edin.
2. Bu məşğələnin pantomima olduğunu izah edin və iştirakçılardan Kompası istədikləri şəkildə istifadə edərək – kitab oxumaqdan başqa – bir hərəkəti göstərməyi xahiş edin. Qrupun qalanı kitabın nəyi təmsil etdiyini tapmalıdır.
3. Kitabı əlinizə alıb “Bu, kitab deyil… bəs nədir?” deməklə başlayın. Daha sonra kitabdan istifadə etməklə özünüzü sendviç yeyən şəxs kimi göstərin. İştirakçılardan biri “sendviç” tapdıqdan sonra, kitabı yenidən döşəməyə qoyun və dövrədəki yerinizə qayıdın.
4. İştirakçıları növbə ilə nəyisə pantomimadan istifadə edərək göstərməyə dəvət edin. Onların bir-birləri ilə yeni fikirləri bölüşməsinə və hazır olduqda irəli çıxmasına şərait yaradın.

### Fasilitator üçün məsləhətlər

Bu metod təlim kursu zamanı məşğələlərin və metodların qiymətləndirilməsinə başlayarkən istifadə oluna bilər.

## *Əyləşin!*

Bu məşğələ müxtəlif insan hüquqları məsələlərini təqdim edərkən öz fikrini bildirməklə bağlı özünəinamı təbliğ edir.

| | |
|---|---|
| **Materiallar** | • Məkan<br>• Hər iştirakçı üçün bir ədəd stul və bir ədəd əlavə stul<br>• Əvvəlcədən hazırlanmış bəyanatlar |

## Təlimatlar

1. Hamıdan dövrə qurub stullarda oturmağı xahiş edin. Bir ədəd əlavə, heç kimin oturmadığı stul olmalıdır.
2. İlk bəyanatı ucadan oxuyun və onunla razılaşanlardan cəld yerlərini dəyişib başqa stulda oturmağı xahiş edin. Bəyanatla razılaşmayan iştirakçılar oturduqları yerdə qalmalıdırlar. Qərar verə bilməyənlər ayağa qalxmalı, bir dəfə yerlərində fırlanıb yenidən oturmalıdırlar.

## Fasilitator üçün məsləhətlər

Bu məşğələ əyləncəli və maraqlıdır. Məşğələni oxunmuş bəyanatların insan hüquqları ilə əlaqəsini soruşmaqla bitirə bilərsiniz; lakin bu məşğələnin başlanğıc olduğunu yadda saxlayın və onunla bağlı müzakirələr aparmayın.

Bununla belə, alternativ olaraq, bu metod dərin müzakirəyə başlamaq üçün istifadə oluna bilər. Bu halda, diqqəti məqsədlərinizə yönəltməli və seçdiyiniz bəyanatların onlara uyğun olmasını təmin etməlisiniz. İştirakçıların bəyanatlara fərqli reaksiyaları barədə soruşa və onların müxtəlif inamlarının kökləri ilə maraqlana bilərsiniz.

Əgər hər hansı bir mövzu üzrə işləyirsinizsə, digər bir seçim kimi iştirakçılardan kağız parçalarında öz bəyanatlarını yazmağı xahiş edə bilərsiniz; onları papağa və ya qutuya qoyub sonradan ucadan oxuya bilərsiniz.

Bəyanatları aşağıdakı siyahıdan seçə və ya bu siyahının sizi öz bəyanatlarınızı hazırlamağa vadar etməsinə icazə verə bilərsiniz:

- Pis reputasiya oğlanlardan çox qızlara mənfi təsir edir.
- Gənc qadınların bədənlərindəki tükləri təmizləməməsi qəbul olunandır.
- Mağazalarda uşaqlar üçün ipli alt paltarlanın satılması yanlışdır.
- Gənc qadın və kişilərin yaxşı dost olması qəbul oluna bilər.
- Qadınlar kişilərdən daha yaxşı yemək bişirir.
- Yalnız qızlar gözəl ola bilər.
- Gözəllik daxildən gəlir.
- Hələ uşaqlıqdan, qızlar tikişdə, oğlanlar isə mexanikada bacarıqlı olurlar.
- Bəzən təcavüz qızın/qadının günahıdır.
- Güclü əzələlərə malik olmaq kişilərə xasdır.
- Kişilər hislərini göstərməkdə daha yaxşıdırlar.
- İmmiqrantlar həmişə çalışqan olurlar, çünki buna məcburdurlar.
- Balet kişilər üçün uyğun peşə deyil.
- Kişilərin nəzarəti ələ alması və aparıcı rol oynaması təbiidir.
- Kişi prezident/baş nazir qadın prezident/baş nazirdən daha yaxşıdır.
- Kişi həyat yoldaşından daha az maaş almamalıdır.
- Dostlarınıza nədənsə qorxduğunuzu demək zəiflik əlamətidir.
- Hislər barəsində danışmaq kişisayağı deyil.
- Sevgi zamanla yoxa çıxır.
- Cinsi əlaqədə olmaq üçün arada sevgi olmalıdır.
- Böyüklərin sekslə bağlı fikirləri köhnəlib.
- Yeniyetmə jurnallarında sekslə bağlı yaxşı məsləhətlər var.
- Bütün insanların dəyəri eynidir.

## *“Mən..yaxşıyam”*

Bu məşğələnin məqsədi qrup daxilindəki fərqliliyi və həmrəyliyi nümayiş etdirərək özünəinamı təbliğ etməkdir..

### Təlimatlar

1. Hər kəsdən geniş dövrədə dayanmağı xahiş edin.
2. İstənilən iştirakçını dövrənin içərisinə doğru bir addım atıb yaxşı bacardığı nəyisə deməyə dəvət edin.
3. Qrupdakı digər şəxslərdən irəli bir addım atıb əvvəlki iştirakçının adını və onun nəyi yaxşı bacardığını təkrarlamağı xahiş edin.
4. İndi isə, başqa iştirakçını eynisini etməyə dəvət edin və daha bir addım irəli atın.

### Fasilitator üçün məsləhətlər

İlkin dövrəni kifayət qədər böyük edin ki, dövrə tədricən kiçilsə də, hər tur üçün kifayət qədər yer olsun. Sonda, iştirakçılar bir-birinə çox yaxın dayanacaqlar.

## *Gözəl (Beautiful) Benjamin və Sevimli (Lovely) Leyla*

Bu məşğələni ilk dəfə görüşən şəxslər üçün istifadə edin, çünki o, adları təqdim etməklə yanaşı həmrəylik və hörməti təbliğ edir.

### Təlimatlar

1. Hamıdan dövrədə dayanmağı xahiş edin.
2. İstənilən bir iştirakçını adını deməyə dəvət edin (məs. Benjamin).
3. Qrupdakı digər şəxslərdən səsləndirilmiş adın baş hərfi ilə başlayan müsbət sifətləri düşünməyi xahiş edin, məs., B ilə.
4. Benjamindən təkliflərdən birini seçməyi xahiş edin.
5. İndi isə, Benjaminin sağında dayanan iştirakçını “Salam, gözəl Benjamin. Mənim adım … (məs. Leyladır)” deməyə dəvət edin.
6. Qrupdan Leyla adına uyğun sifət tapmağı xahiş edin.
7. İndi isə, sıradakı şəxsdən, “Salam, gözəl Benjamin və sevimli Leyla, mənim adım…”
8. Hər kəs təqdim olunana qədər dövrə boyunca davam edin.

### Fasilitator üçün məsləhətlər

Şəxsi təsvir edən sifətlərin deyil, baş hərfi şəxsin adının baş hərfi ilə eyni olan müsbət sifətlərin tapılmasının vacib olduğunu xatırlamaq lazımdır.

Digər iştirakçıların təklif etdikləri sifətlərin arasında özləri üçün birini seçmək hər şəxsin öz seçimidir.

Fasilitator kimi siz, başqa heç kim fikir irəli sürə bilmədikdə, istənilən ad üçün müsbət sifətlər təklif etməyə hazır olmalısınız.

Daha əyləncəli versiya hər kəsin öz adını deyərkən seçdiyi müəyyən hərəkəti etməsidir. Məsələn, Benjamin öz təpəsini sığallaya bilər. Bu halda, qrup adı, hərəkəti və sifəti yadda saxlamalıdır.

# Düyünlər

Bu məşğələ əməkdaşlıq yolu ilə problemlərə birgə həll yollarının tapılmasını təmsil edir.

## Təlimatlar

1. İştirakçılardan 6-8 nəfərlik kiçik qruplara ayrılmağı xahiş edin.
2. Hər kəsdən dövrədə çiyin-çiyinə dayanıb qollarını qabağa doğru uzatmağı xahiş edin.
3. İndi onlar irəliyə doğru uzanıb bir-birlərinin əllərini tuta bilməlidirlər. Şərtlər bunlardır: a) heç bir iki şəxs bir-birlərinin hər iki əlini tuta bilməzlər və b) heç kim birbaşa öz yanındakı şəxsin əlini tutmamalıdır. (Nəticə əllərdən ibarət böyük düyün kimi görünməlidir!)
4. İndi isə, iştirakçılardan bir-birlərinin əllərini buraxmadan düyünü açmağı xahiş edin.

## Fasilitator üçün məsləhətlər

İştirakçılar bir-birlərinin qollarının üstündən və altından keçməli olacaqlar. Bunun üçün bir az səbr lazımdır, lakin təəccübləndirici nəticə bir və ya iki böyük dövrə olacaqdır.

Bu məşğələ enerjini qaldırmaq üçün əyləncəli oyun kimi də istifadə oluna bilər. Əgər istəyirsinizsə, iştirakçılardan ilk dəfə düyünü düzəldərkən özlərini necə hiss etdiklərini soruşa bilərsiniz: Düyünü açmaq ağılsız və ya ümidsiz tapşırıq kimi görünürdü? Tapşırığı tamamladıqdan sonra nəticə onları təəccübləndirdi? Mahatma Qandinin sözlərini iştirakçılara xatırladaraq davam edə bilərsiniz, “etdiklərimiz və etmək iqtidarında olduqlarımız arasındakı fərq dünyanın əksər problemlərini həll etməyə kifayət edər“.

# *Xallar döşəmədədir*

Bu məşğələ əməkdaşlığı və qrupla qərar qəbul etmək bacarıqlarını təbliğ edir. Burada yaxın fiziki təmasdan istifadə olunur.

## Təlimatlar

1. Qrupa bu oyunda bədənin doqquz “hissə”-sinin müvafiq xalları göstərməklə döşəməyə toxuna biləcəyini izah edin: 2 - ayaq, 2 - əl, 2 - dirsək, 2 - diz və 1 - alın.
2. İştirakçılardan otağın ortasında dayanmağı xahiş edin. 1 və 9 arasında bir rəqəm deyin və hər iştirakçıya döşəməyə bədənin qeyd olunan hissələri ilə toxunaraq lazımi xalı toplamalı olduqlarını izah edin. Bunu daha iki dəfə təkrarlayın.
3. İştirakçılara partnyor tapmağı tapşırın. 2 və 18 arasında bir rəqəm deyin. Cütlüklər bir yerdə işləyərək döşəməyə toxunmaqla müvafiq xalı toplamalıdırlar. Bunu daha iki dəfə təkrarlayın.
4. Turları 4 nəfərlik qruplarda, daha sonra 8, hətta 16 və ya hamı bir yerdə işləyənə qədər təkrarlayın.

## Fasilitator üçün məsləhətlər

İstəyinizə uyğun olaraq, iştirakçıların danışmasına icazə verə yaxud yalnız işarə dili ilə ünsiyyətə icazə verə bilərsiniz.

Dörd nəfərlik qruplar birgə oynadıqda ən aşağı rəqəm iki ola bilər, belə ki, iki iştirakçı bir ayaq üstdə dayanıb digər ikisini qucaqlarına ala bilərlər! Dörd nəfər oynadıqda, mümkün ən aşağı rəqəm dörd ola bilər (Ən yuxarı rəqəm isə 4 x 9 = 36-dır). Hər turda səsləndirilən ən yuxarı rəqəm hər qrupdakı şəxslərin sayının 9 dəfəsindən artıq ola bilməz!

İştirakçıların cəld işləməsini təmin edin. Böyük qruplarda iştirakçıların kimin hansı xalı

# Döşəmədə əlifba

Bu məşğələ iştirakçıları "salamlamaq" üçün yaxşı başlanğıcdır. İştirakçılar çox danışmadan bir-birlərinin adlarını və haradan gəldiklərini öyrənirlər. Bu, həmçinin, müxtəliflik və müxtəlifliyə hörmətlə bağlı müzakirəyə başlamaq üçün yaxşı başlanğıcdır.

**Hazırlıq**

- Hər hərfi ayrıca A4 vərəqində yazın.

## Təlimatlar

1. Hərfləri döşəməyə nizamsız şəkildə yerləşdirin və iştirakçılardan onların ətrafında dövrə qurmağı xahiş edin.
2. Bəzi suallar verəcəyinizi izah edin, məsələn: Adınız nədir? İştirakçılar isə mümkün qədər cəld şəkildə adlarının ilk hərfini tapmalı və ayaq barmaqları ilə həmin kağız parçasına toxunaraq dayanmalıdırlar. Məsələn, Laura L hərfində dayanır, Rui R hərfində və s.
3. Hər kəs hərfini tapdıqdan sonra növbə ilə hər iştirakçıdan cəld şəkildə adını deməyi xahiş edin.
4. Eynisini başqa suallarla təkrarlayın.

## Fasilitator üçün məsləhətlər

Hərfləri elə yerləşdirin ki, hər hərfin ətrafında çoxlu yer olsun, çünki birdən artıq nəfərin hər hansı hərfin üzərində dayanmaq ehtimalı böyükdür. Əslində, 3-dən artıq iştirakçı eyni hərfin üzərində dayanmağa çalışdıqda əyləncəli hissə başlayır, çünki onlar bir-birlərinə söykənməli olacaqlar.

Hərfləri dağınıq qoyduqda iştirakçılar onları tapmaq üçün bir-birlərinə kömək edirlər.

Qrup beynəlxalqdırsa, hərfləri seçərkən diqqətli olun və bütün hərflərin başa düşülməsi və oxunmasının asan olmasını təmin edin. Əslində, müxtəlif əlifbalarda bərabər sayılan hərflərin eyni kağızın üzərində yazılması maraq oyadacaqdır.

Qrupun ölçüsündən asılı olaraq az və ya çox tur oynaya bilərsiniz. Məşğələnin darıxdırıcı olmasına imkan verməyin. Suallar üçün bəzi təkliflər aşağıdakılardır:

- Adınız nədir?
- Hansı ölkədə yaşayırsınız?
- Hansı ölkədə anadan olmusunuz?
- Sevimli yeməyiniz/içkiniz hansıdır?
- Sevimli rənginiz hansıdır?
- Sevimli kitabınız/musiqi janrınız hansıdır?
- Həyatda şüarınız nədir?

## Əlavə məlumat

Aşağıda göstərilən vebsaytlardan daha çox başlanğıc məşğələ tapa bilərsiniz:

- http://wilderdom.com/games/Icebreakers.html
- http://www1.umn.edu/humanrts/edumat/hreduseries/hrhandbook/activities/11.htm
- http://www.amnesty.ca/youth/youth_action_toolkit/icebreakers.php
- http://www.corrymeela.org/sitepage/icebreakers.aspx
- http://www.nationalserviceresources.org/taxonomy/term/183

COMPASS

Ümumi
İnsan Hüquqları

1-ci səviyyə

İstənilən

10 dəqiqə

# Nəzərdən keçirmə məşğələləri

*Təcrübəni müdrik şəkildə istifadə etsəniz, heç nə vaxt itkisi deyil*

Ogüst Roden

**Mürəkkəblik** 1-ci səviyyə

**Qrup ölçüsü** İstənilən

**Xülasə** İnsan hüquqları təhsili üzrə bu təlimat vəsaitində istifadə olunan yanaşmanın əsasını təşkil edən nəzərdən keçirmək təcrübi öyrənmə metodunun vacib hissəsidir. Aşağıdakı məşğələlər insanların öz təcrübələrindən öyrənməsinə kömək etmək üçün asan və əyləncəli üsullardır. Onlar bir Kompas məşğələsini etdikdən sonra istifadə oluna bilərlər, lakin ətraflı təhlil və qiymətləndirməni əvəzləməməlidirlər. Onlar təlim gününün və ya daha uzun təlim müddətinin sonunda olduqca faydalıdırlar, belə ki, bu yolla, iştirakçıların, ümumilikdə, nəyi və necə öyrəndiklərini aşkara çıxara, eləcə də fasilitator kimi iştriakçıların reaksiyasını cəld şəkildə yoxlaya bilərsiniz.

**Əlaqədar**

**hüquqla**r
- İnsan hüquqları təhsili hüququ
- Təhsil hüququ
- İştirak hüququ

**Məqsədlər**
- Təcrübə vasitəsilə insan hüquqları haqqında bilik və anlayışı inkişaf etdirmək
- Tənqidi düşüncəni inkişaf etdirmək
- Təcrübəni öyrənmə mənbəyi kimi qəbul etmək vərdişini aşılamaq
- Öyrənmə proseslərinin qiymətləndirilməsini dəstəkləmək

## *Yekun oyun*

**Vaxt**: 10 dəqiqə

### Təlimatlar

1. Qısaca sessiyada nə baş verdiyinin üzərindən keçin.
2. İştirakçılardan dövrədə oturmağı xahiş edin.
3. Bəyanatlardan birini seçin və növbə ilə hər iştirakçıdan onu tamamlamağı xahiş edin. Heç bir şərh və ya müzakirəyə yol verilmir.
4. Vaxtınız varsa və ya daha çox məlumat əldə etmək istəyirsinzisə, bir neçə tur aparın.

### Fasilitator üçün məsləhətlər

Bəyanat nümunələri:
- Məşğələ ilə bağlı ən yaxşı cəhət ... , və ən pis cəhət ... .
- Ən maraqlı cəhət ... , və ən darıxdırıcı cəhət ... .
- Məni ən çox narahat edən cəhət ... , və mənim ən çox dəyərləndirdiyim ... .
- Ən gülməli cəhət ... , və ən ciddi cəhət … .
- Mən daha çox ..., və daha az ... istəyərdim.
- Mən ... öyrəndim , və ... barədə daha çox öyrənmək istəyərdim.
- İndi, istəyirəm ki, ... və ümid edirəm ki, ... .
- Mən ... başa düşdüm , və mənim ... ehtiyacım var.
- Məni ən çox təəccübləndirən ... .
- Etməkdən ən çox həzz aldığım ... , və etməyi ən az xoşladığım… .
- Edərkən özümü ən çox inamlı hiss etdiyim ... , və edərkən özümü ən az inamlı hiss etdiyim ... .

Əgər vaxtınız varsa, iştirakçılardan səbəblərini izah etməyi xahiş etməklə daha dərin məlumat əldə edə bilərsiniz. Məsələn, “Ən yaxşı cəhət ... idi, çünki ... . Ən pis cəhət ... idi, çünki ... .

# *Yuxarı və Aşağı*

Vaxtınız azdırsa, bu məşğələ olduqca sürətli və faydalıdır!
Vaxt: 2 dəqiqə

## Hazırlıq

- 3 və ya 4 sual hazırlayın. Məsələn, Məşğələni bəyəndiniz? Yeni nəsə öyrəndiniz? Öyrəndiklərinizi gündəlik həyatınızda tətbiq edə biləcəksiniz?

## Təlimatlar

1. İştirakçılara məşğələni bəyənmələri və öyrəndikləri ilə bağlı suallar verəcəyinizi izah edin. Onlar sözlərdən istifadə etmədən öz hərəkətləri ilə cavab verəcəklər. Əgər “bəli” cavabını vermək istəyirlərsə, qollarını başlarından yuxarı qaldırmalı yaxud cavabları çox müsbətdirsə, barmaqlarının ucunda dayanmalıdırlar. Tam şəkildə narazı olan şəxslər aşağı əyilməli, hətta döşəmədə uzanmalıdırlar. İştirakçılar cavablarının səviyyəsini göstərmək üçün qeyd olunan iki vəziyyət arasında özlərinə uyğun mövqeni müəyyən etməlidirlər.
2. İlk sualı oxuyun və iştirakçılara vəziyyəti almaları üçün bir dəqiqə verin.
3. Ətrafa baxın və iştirakçıların cavablarının mənəvi tərəflərini qeydə alın, lakin şərhləri soruşmayın və ya şərh verilməsinə icazə verməyin.
4. Daha sonra, iştirakçılardan rahatlamağı xahiş edin və növbəti sualı oxuyun.

# *Nəzər nöqtələri*

Bu metod sürətlidir və iştirakçılar, istədiyi halda, onlara şərh bildirmək imkanı yaradır.

**Vaxt:** 20 dəqiqə

## Hazırlıq

- 3 və ya 4 sual hazırlayın. Məsələn, Məşğələni bəyəndiniz? Yeni nəsə öyrəndiniz? Öyrəndiklərinizi gündəlik həyatınızda tətbiq edə biləcəksiniz?
- A4 vərəqində 4 işarə hazırlayın: “bəli”, “xeyr”, “Bilmirəm” və “Fikir bildirmək istəyirəm”. Bu dörd işarəni otağın dörd divarına yapışdırın.

## Təlimatlar

1. Dörd divardakı işarələri göstərin və onların dörd müxtəlif nəzər nöqtəsini təmsil etdiyini izah edin. Yalnız “Fikir bildirmək istəyirəm” divarında dayanan şəxslərin danışa biləcəyini izah edin.
2. Sual oxuyacağınızı və iştirakçıların onların cavablarını təmsil edən divarda dayanmalı olduqlarını izah edin. İştirakçılar məşğələ ərzində mövqelərini dəyişə bilərlər.
3. Məşğələ ilə bağlı ilk sualı soruşun.
4. İştirakçılara yerlərini seçmək üçün vaxt verin; bundan sonra, fikir bildirmək istəyənləri şərh verməyə dəvət edin.

# *Hava proqnozu*

Hisslər üçün hava metaforasından istifadə olunur.
**Vaxt**: 30 dəqiqə

## Material

• Kağız və qələmlər (istəyə görə)

## Təlimatlar

1. İştirakçıların öz hisslərini ifadə etmək üçün hava metaforasından istifadə edəcəklərini qısaca izah edin.
2. İştirakçılara cəlb olunduqları gün/təlim/layihə/iş barəsində düşünmələri və özlərinə qeyd olunan sualları vermələri üçün 5-10 dəqiqə vaxt verin: Məşğələdən hələ ki həzz alıram? Ondan nə əldə edirəm? O, faydalı olacaq?
3. Daha sonra, onların hər birindən hava proqnozu terminlərindən istifadə edərək hislərini təsvir etməyi xahiş edin.

## Fasilitator üçün məsləhətlər

Metafora ideyasını izah edərkən bir neçə nümunə verin. Məsələn, "Günüm bir az dumanlı başladı. Daha sonra, güclü yağış yağdı. Nahardan sonra yüngül yağış oldu, lakin günortanın sonuna doğru günəş çıxdı." Bu, günə bir az qərarsız başladığınızı, daha sonra, işlərin daha da mürəkkəbləşdiyini göstərir. Nahardan sonra vəziyyət yaxşılaşdı, indi isə, günün sonunda çox şey öyrəndiyinizi hiss edirsiniz.

## Variantlar

İştirakçılar hava proqnozu barəsində danışmaq yerinə onun şəklini çəkə bilərlər.

Bu sadə fikirdən istifadə edərək layihənizi futbol və ya xokkey oyunu barəsində şərh verilməsi yaxud iştirakçılara maraqlı olacaq digər bir hadisə kimi nəzərdən keçirə bilərsiniz.

# *Xəbərlərə çıxın*

İştirakçılar bulvar qəzetinin ön səhifəsinin nümunəsini hazırlamaq üçün kiçik qruplarda işləyirlər.

**Vaxt**: 60 dəqiqə

## Hazırlıq

• Sizin hər kiçik qrup üçün A3 ölçüdə bir kağıza və bir neçə flomaster qələmə ehtiyacınız olacaq.

## Təlimatlar

1. İştirakçılardan üç və ya dörd nəfərlik kiçik qruplara ayrılmağı xahiş edin. Onlar bulvar qəzetinin ön səhifəsini hazırlayacaqlar: burada uzun məqalələr deyil, böyük başlıqlar olmalıdır!
2. Onlardan etdiklərini və layihədən yaxud məşğələdən nə öyrəndiklərini müzakirə etməyi, güclü və zəif tərəflər barəsində beyin fırtınası aparmağı xahiş edin.
3. Hər kiçik qrup birgə 5 və ya 6 "hekayə" barəsində razılığa gəlməlidir. Onlar hər hekayə üçün başlıq və hekayənin qısa xülasəsini vermək üçün bir neçə cümlə yazmalıdırlar. Bütün hekayəni yazmaq gərəkli deyil. "Foto şəkil" istəyə görədir, lakin yaxşı fikirdir.
4. Ön səhifələri nümayiş etdirin.
5. Təqdimat və müzakirə istəyə görədir.

# *Bel çantası*

Bu məşğələ təlim görüşünün sonunda istifadə etmək üçün uyğundur. Şəkillər həmişə sözlərdən daha çoxunu deyir.

**Vaxt**: 40 dəqiqə

## Materiallar

• Kağız və rəngli qələmlər

## Təlimatlar

1. İştirakçılardan sessiya/görüş vaxtı nə öyrəndiklərini soruşun və onlardan özlərinin sağollaşan və çiyinlərində içərisində, məsələn, özləri ilə apardıqları əşyalar, fikirlər və ümidlər olan böyük bel çantası daşıyan şəkillərini çəkməyi xahiş edin.
2. Onlar öyrəndikləri və saxlamaq istədikləri hər şeyi nəzərə almalıdırlar. Buraya kitablar, şəkillər, hislər, insanlar, fikirlər, dünyaya yeni baxışlar, çətinliyin öhdəsindən gəlməyin onlara qazandırdığı güc və dəyərlər daxil ola bilər.
3. Həmçinin, onlar zibil qutusuna atmaq istədiklərini göstərə bilərlər. Buraya pis vərdişlər, köhnə fikirlər, çətin anlar və sağlıqsız qida – istədikləri hər şey daxil ola bilər!
4. İştirakçılara mükəmməl rəssam olmalarının əhəmiyyət daşımadığını bildirin. Xətlərlə çəkilmiş adamlar, sözlər və simvollar tamamilə qəbul olunandır.

| | | |
|---|---|---|
| 500 500 COMPASS Manual for human rights education Council of Europe 500Ems | 500 500 COMPASS Manual for human rights education Council of Europe 500Ems | 500 500 COMPASS Manual for human rights education Council of Europe 500Ems |
| 100 100 COMPASS Manual for human rights education Council of Europe 100Ems | 100 100 COMPASS Manual for human rights education Council of Europe 100Ems | 100 100 COMPASS Manual for human rights education Council of Europe 100Ems |
| 100 100 COMPASS Manual for human rights education Council of Europe 100Ems | 100 100 COMPASS Manual for human rights education Council of Europe 100Ems | 100 100 COMPASS Manual for human rights education Council of Europe 100Ems |
| 50 50 COMPASS Manual for human rights education Council of Europe 50Ems | 50 50 COMPASS Manual for human rights education Council of Europe 50Ems | 50 50 COMPASS Manual for human rights education Council of Europe 50Ems |
| 50 50 COMPASS Manual for human rights education Council of Europe 50Ems | 50 50 COMPASS Manual for human rights education Council of Europe 50Ems | 50 50 COMPASS Manual for human rights education Council of Europe 50Ems |
| 50 50 COMPASS Manual for human rights education Council of Europe 50Ems | 10 10 COMPASS Manual for human rights education Council of Europe 10Ems | 10 10 COMPASS Manual for human rights education Council of Europe 10Ems |
| 10 10 COMPASS Manual for human rights education Council of Europe 10Ems | 10 10 COMPASS Manual for human rights education Council of Europe 10Ems | 10 10 COMPASS Manual for human rights education Council of Europe 10Ems |
| 10 10 COMPASS Manual for human rights education Council of Europe 10Ems | 10 10 COMPASS Manual for human rights education Council of Europe 10Ems | 10 10 COMPASS Manual for human rights education Council of Europe 10Ems |
| 10 10 COMPASS Manual for human rights education Council of Europe 10Ems | 10 10 COMPASS Manual for human rights education Council of Europe 10Ems | 10 10 COMPASS Manual for human rights education Council of Europe 10Ems |

# 3-cü fəsil
# İnsan Hüquqları üçün Hərəkətə Keçmək

# Bu Fəsilin Mündəricatı


**BU FƏSİL BARƏSİNDƏ.....357**
**3.1. İHT VƏ AKTİVİZM.....358**
Aktivizm nədir?.....358
"Hərəkətə keçmək" nədir?.....359
Qrup nə vaxt hərəkətə keçə bilər? .....361
**3.2. İNSAN HÜQUQLARI ÜÇÜN SADƏ FƏALİYYƏTLƏR.....362**
İctimai fəaliyyət.....362
Gənclərin tədrisi.....363
Özün hərəkətə keçmək.....364
Dövlət nümayəndələrinin siyasətini və ya davranışını dəyişmək.....365
Digər qruplar və ya hərəkatlarla əlaqə yaratmaq.....367
Sübut toplamaq.....368
**3.3. HƏRƏKƏT PLANI HAZIRLAMAQ.....370**
Başlamazdan əvvəl.....370
Özünü tanımaq – SWOT təhlili .....370
Seçimlər etmək.....371
Problemi bilmək.....372
Problem ağacı.....372
Problem ağacı nümunəsi.....373
Həlli bilmək.....373
Fəaliyyəti planlaşdırmaq.....374
Hansı problemi həll etmək istəyirsiniz?.....375
Hədəf kütləniz kimlərdir?.....375
Hansı dəyişiklikləri görməyə ümid edirsiniz?.....375
Dəyişikliyin necə baş verməsi gözlənilir?.....375
İnsanlara təsir etmək üçün hansı vasitələrdən istifadə edəcəksiniz?.....376
Təşkilatlanmaq.....376
Tapşırıqlar cədvəli hazırlamaq.....377
Təhlil və qiymətləndirmə.....378

# Bu fəsil barəsində

2-ci fəsildəki hər bir məşğələdə "Fəaliyyət üçün fikirlər" bölməsinin olması diqqətinizi çəkmişdir. Niyə? Çünki, bizim fikrimizcə, sinif otağında və ya gənclər mərkəzində qalan İHT (İnsan hüquqları təhsili, HRE) natamamdır. Hərəkətə keçmək İHT-nin ayrılmaz hissəsidir – qismən ona görə ki, məhz onun sayəsində insan hüquqları mövzusu gənclər üçün "real" məna kəsb edir, həmçinin, ona görə ki, insan hüquqları təhsili dəyişiklik təhsili olmalıdır. İHT hərəkətə keçməyə təkan verməlidir.

1-ci fəsildən İHT-nin insan hüquqları haqqında, insan hüquqları vasitəsilə və insan hüquqları uğrunda təhsil olduğunu xatırlayın. Buna görə də, insan hüquqları üçün hərəkətə keçmək əlavə deyil, təhsil prosesinin önəmli bir hissəsidir: hərəkətə keçmək dedikdə ənənəvi təhsil arenasından kənarda fəaliyyət nəzərdə tutulur, daha yaxşı insan hüquqları dünyası üçün, insan hüquqlarını reallığa çevirmək üçün nəsə etmək.

Bu fəsil İHT-nin praktiki tərəfini təqdim edir. Bu hissə 2-ci fəsilin klub və sinif otağı məşğələləri ilə 4-cü fəsildəki daha "profesional" aktivizm arasında keçid nöqtəsi kimi görülə bilər. Burada əsas diqqət tədris məsələlərinə yönəldilsə də, eyni zamanda, gənclər insan hüquqlarının qorunması və təbliğində daha fəal rol oynamağa çağrılır.

- 1-ci bölmədə, biz aktivizimin nə demək olduğu, hərəkətə keçməyin nə demək olduğu və onların İHT ilə əlaqəsini nəzərdən keçiririk.
- 2-ci bölmədə, gənclərdən ibarət qrupla apara biləcəyiniz fəaliyyət üzrə bir neçə sadə metod və fikirləri təklif edirik. 2-ci fəsildəki sonrakı fəaliyyət üçün təkliflərin çoxunda bu metodlardan istifadə olunur.
- 3-cü fəsildə, qrupun uzunmüddətli strategiya hazırlamaqla, eləcə də öz maraq və bacarıqlarına əsaslanmaqla bu məsələ ilə daha dərindən məşğul olması üçün müəyyən planlaşdırma metodlarını təmin edirik.

Bölmələrin hər birinə ayrıca baxıla bilər, bununla belə, 1-ci və 2-ci fəsillərə baxılması 3-cü fəsilin başa düşülməsinə kömək edə bilər.

**Şəfqətli fəaliyyət ilə bağlı təcrübəyə qoyulmayan sözlər və fikirlər rəngli, lakin qoxusu olmayan gözəl çiçəklər kimidir.**

*Tik Nhat Han*

# 3.1 İHT və aktivizm

## Aktivizm nədir?

"Aktivizm" sözünün, ən azından hazırda istifadə olunan mənasında, təqribən cəmi 100 yaşı var və aktiv olmaq felindən gəlir. Aktivist dəyişiklik üçün hərəkatda, əsasən siyasi və ya sosial məsələlərlə bağlı, aktiv olan şəxsdir. Aktivizm aktivistlərin etdikləridir, yəni onların dəyişikliyi gətirmək üçün istifadə etdikləri metodlardır.

**Sülh aksiyaçıları və etiraz etmək hüququ**

İki sülh aktivisti Britaniya Baş Nazirinin yaşadığı Dauninq küçəsinin qapıları qarşısında adların ictimai şəkildə uca səslə oxunmasını təşkil etdilər. Onlardan biri, Maya Evans (23), İraq müharibəsində öldürülmüş hər bir Britaniyalı əsgərin adını oxuyurdu, onun dostu isə həmin müharibədə həyatını itirmiş İraqlıların adlarının uzun siyahısı ilə davam edirdi. Maya aksiya ilə bağlı əvvəlcədən polisə xəbər vermədiyindən həbs olundu. Aksiya milli mətbuatda işıqlandırıldı və söz azadlığı və etiraz etmək hüququ ilə bağlı müzakirələrə təkan verdi. Bu hadisə və bir çox digər bənzər hadisələr nəticəsində, hökumət Londonun mərkəzində polisin əvvəlcədən alınmış razılığı olmadan aksiya keçirməyi qadağan edən qanuna yenidən baxmağa razılıq verdi.

"Mən həbs olunmaq istəmirdim, lakin, mənim fikrimcə, həmin çiskinli çərşənbə axşamı səhərində orada dayanıb həmkarımla birgə müharibədə həlak olmuş şəxslərin adlarını oxuyarkən heç bir pis iş görmürdüm. Fikrimcə, bu, cinayət deyildi və mən buna görə həbs olunmamalıydım".

***Maya Evans***

Aktivizm, insan hüquqlarına tətbiq olunduqda, insan hüquqlarının hədə altında olduğu və ya pozulduğu istənilən yerdə və istənilən səviyyədə onları müdafiə etməkdir. Buna görə də, insan hüquqları aktivizmi ədalətsizliyə, alçaldıcı rəftara, zorakılığa və ya ayrı-seçkiliyə reaksiya verməklə və onları aradan qaldırmağa çalışmaqla bağlıdır. Bu, digər insanların əzabları ilə həmrəylik göstərmək və onlara kömək etməyə hazır olmaq, onlarla hörmət və ləyaqətlə rəftar olunmasını təmin etmək uğrunda mübarizə aparmaq, daha insanpərvər, bərabərhüquqlu və hüquqlara hörmət bəslənən cəmiyyətə doğru addım atılmasına kömək etməklə bağlıdır. Effektiv aktivistlər dözümlülük, kreativlik, məsuliyyət və əksər hallarda cəsarət kimi keyfiyyətlərə malikdirlər, lakin hər şeydən əvvəl, onlar insanlara və insan hüquqlarına inanırlar. Onlar inanırlar ki, insanların hüquqlarına hörmətlə yanaşıldığı bir dünya qurmaq mümkündür və onlar bu dünyanı qurmaq istəyirlər.

? *Aktivistlər "normal" insanlardan çox fərqlənirlər? Aktivistlərin hansı xüsusiyyətlərini özünüzdə görürsünüz?*

Aktivizm, şübhəsiz, müəyyən məqsəd və ya ideal uğrunda öhdəlik, əsasən, sabit və uzunmüddətli öhdəlik götürməkdən asılıdır. Məsələn:

- Ətraf mühit aktivistləri kömürlə işləyən elektrik stansiyasının tikilməsinin qarşısını almaq uğrunda bir döyüşdə qalib gəldikdən sonra dərhal aeroport zolağının genişləndirilməsini dayandırmaq uğrunda başqa bir hərəkata başlayırlar.
- Sülh aktivistləri ərazi minalarının qadağan olunmasını nəzərdə tutan beynəlxalq konvensiyanın hazırlanması üçün 30 illik mübarizəyə qoşulmuşlar.
- Yerli aktivistlər xəstəxananın və ya idman zalının bağlanmasına qarşı mübarizəyə bütün aspektlərdən yanaşırlar, bir cəhd uğursuz olduqda digərinə başlayırlar.

**Nəyin düzgün olduğunu görmək və bunu etməmək cəsarət məsələsidir.**

*Konfutsi*

Biz hər bir insanın öz həyatı boyunca müxtəlif məsələlər uğrunda mübarizə aparan "mini-aktivist" olduğuna inansaq da, bu təlimat vəsaitində aktivizmə deyil, "hərəkətə keçməyə" istinad edirik. Aktivistlər – sözün daha ənənəvi mənasında – həmçinin "hərəkətə keçirlər", lakin onlar bunu davamlı şəkildə, müxtəlif metodlardan istifadə etməklə edirlər və, böyük ehtimalla, həll etməyə çalışdıqları məsələyə müəyyən təsir göstərmədən fəaliyyətlərini dayandırmırlar. Sizin birlikdə işlədiyiniz gənclər, əsasən, hərəkata qoşulur və ondan uzaqlaşır, bəzən digər aktivistlərlə birləşir, bəzən isə vacib hesab etdikləri məsələ ilə bağlı təkbaşına mübarizə aparırlar.

**?** *Uğrunda ayağa qalxdığınız və müdafiə etmək üçün mübarizə apardığınız "məsələlər"-dən nümunə gətirə bilərsiniz? Sizin fikrinizcə, təhsil belə bir "məsələ" sayıla bilər?*

**Dünyada görmək istədiyiniz dəyişiklik olun.**

*Qandi*

# "Hərəkətə keçmək" nədir?

Biz hərəkətə keçən qrupa istinad etdikdə, "formal" fəaliyyətdən daha artığını – 2-ci Fəsildə göstərilənlər kimi – eyni zamanda, qrupun özündən daha geniş icmanı əhatə edən fəaliyyəti nəzərdə tuturuq. İHT-nin bir hissəsi kimi hərəkətə keçmək həm təhsil nöqteyi-nəzərindən, həm də digər cəhətlərdən dəyərli olan nəticəni əldə etmək üçün hazırlanır. Məsələn:

- Yerli evsizlər sığınacağına və ya sığınacaq mərkəzinə baş çəkmək mövcud baryerləri və ya qərəzli fikirləri aradan qaldırmağa kömək edə bilər, həmçinin, baş çəkilənlər üçün rahatlıq mənbəyi ola bilər.
- Gənclərin irqçi və ya dözümsüz yanaşmalarla bağlı KİV-ə məktubu KİV-i gənclərin baxışları ilə tanış edə və jurnalistlərin öz qərəzli mövqeləri ilə üzləşməsinə səbəb ola bilər.
- Yerli icmada çirklənmənin qonşu ərazilərə təsirini göstərən foto sərginin təşkili digərlərinin gözlərini aça və müvafiq məsələ ilə bağlı hərəkatın başlamasına təkan verə bilər.

Bu fəaliyyətlərin hər birinin öz məqsədi var və qrup xaricində də təsir göstərir, lakin onların hər biri gənclərin özlərini də hərəkətə keçməyə həvəsləndirir və təşviq edir. Praktiki fəaliyyət həyat dərsi ola bilər: bu, insan hüquqlarına məna verə və onları müsbət anlayışa çevirə bilər. Fəaliyyətinizdən başqalarının – və özünüzün - faydalandığını görmək önəmli dərsdir, motivasiyaedici qüvvədir, əgər dəyişiklik etməyə çalışsaq, ətrafımızdakı məsələləri dəyişə biləcəyimizə inamdır.

**Teatr bilik formasıdır; o, həmçinin, cəmiyyəti dəyişmək üçün vasitə ola bilər və olmalıdır. Teatr gələcəyimizi gözləmək yerinə onu qurmağımıza kömək edə bilər.**

*Avqusto Boal*

**?** *Əgər müəyyən fəaliyyət həyata keçirmiş qrupla işləmisinizsə, təsir və öyrənmə baxımdan əsas nəticələr hansılar idi?*

**İHT, hərəkətə keçmək və aktivizm: fərq nədədir?**

- 2-ci Fəsildəki öyrədici məşğələlər əsasən daxilə, qrupa yönəlmişdir: hədəf fərdi iştirakçıların təhsilidir.
- Xarici dünyada hərəkətə keçmək qrupun təhsili üçün dəyərlidir, həmçinin, xaricə, real dünyadakı məsələlərə yönəlmişdir.
- Aktivistlər üçün – həm peşəkar, həm də "yarım-ştat"- yeganə real hədəf müvafiq məsələ və xarici dünyadır. Aktivistlər öz məqsədlərinə nail olana qədər işləməyə və kampaniya aparmağa davam edəcəklər.

## “Böyüyən uşaqlar” (Putos que a ta cria)

Lissabonun şəhər kənarında yaşayan Afrika əsilli bir qrup gənc cəmiyyətdən təcrid olunmaq hissinin öhdəsindən gəlmək və digərlərini mədəni müxtəlifliyə hörmətlə bağlı maarifləndirmək üçün musiqidən istifadə ediblər. Qrup öz vebsaytında bunu belə izah edir - miqrantların ikinci nəsli adətən “anadan olduqları və yaşadıqları, eləcə də valideynlərinin anadan olduğu və yaşadığı ölkələrin cəmiyyətlərində özlərini təcrid olunmuş hiss edirlər. Bu dilemmanı və onun gətirdiyi məyusluğu ifadə etməyin bir yolu həmişə musiqi olubdur”.

Beləliklə, gənc artistlər rep və digər musiqidən gəncləri motivasiya etmək və sosial birliyi təmin etmək üçün bir vasitə kimi istifadə etmək qərarına gəldilər. Onlar öz mesajlarını çatdırmaq üçün ritm və poeziyadan istifadə etdilər, eləcə də digər reperləri sosial dəyişiklik etmək üçün musiqidən istifadə etməyə həvəsləndirmək məqsədilə onlara dəstək verdilər. Çoxsaylı təlim kurslarından sonra, Avropa İttifaqının Gənclər Proqramının dəstəyi ilə Putos que a ta cria qrupu iki CD və bir DVD qeydə aldı, müxtəlif ictimai tədbirlərdə iştirak etdi, İH (insan hüquqları) ilə bağlı gənclər festivalı təşkil etdi və digər reperləri motivasiya etdi. “Hip hop əyləncəlidir, lakin o, həmçinin, müdaxilədir.” http://www.myspace.com/putosquiatacria

## İHT və aktivizmdə “hədəf”



# Qrup nə vaxt hərəkətə keçə bilər?

Bu sualın qısa cavabı “istənilən vaxt”-dır. Bu fəsilin 2-ci bölməsində təsvir olunmuş icma fəaliyyətləri, əsasən, klubda və ya sinif otağında öyrənmə məşğələsindən əvvəl və ya sonra istifadə oluna bilər. Məşğələdən sonra fəaliyyəti aparmağın üstün cəhəti qrupun məsələlər barəsində daha dərin biliyə malik olması və fəaliyyətin hansı formasının ən effektiv olması barəsində daha kreativ ola bilməsidir. Fəaliyyəti daha əvvəl həyata keçirməyin üstün cəhəti qrup sual olunan məsələnin onların özləri üçün əhəmiyyətini gördüyündən fəaliyyətə daha çox diqqət göstərməsidir.

İHT üzrə müntəzəm şəkildə işləyən təhsil işçiləri mövzunun xüsusiyyətlərindən, qrupun maraq və ya məlumatlılıq səviyyəsindən, eləcə də, çox güman ki, qrupla öz aralarındakı əlaqədən asılı olaraq tez-tez bir modeldən digərinə keçəcəklər. Biz bu fəsildə təklif olunmuş fəaliyyətlərin bir çoxunu 2-ci Fəsildəki ayrı-ayrı məşğələlərlə əlaqələndirməyə çalışmışıq. Bu fəaliyyətlər müvafiq çərçivədə müəyyən olunmuşdur və onların bir çoxu məşğələlərin sonundakı “Fəaliyyət üçün fikirlər” bölməsi ilə üst-üstə düşür. Demək olar ki, onların hamısı artıq nəzərdən keçirilmiş məsələlərə praktiki baxış gətirmək üçün giriş kimi, məşğələdən əvvəl və ya sonra istifadə oluna bilər.

**Vətəndaş aktivizmi sizi hər gün kiçik addımlar atmağa həvəsləndirir. Bəzən, bu dünyanı dəyişməyin sizin həyat amalınıza çevrildiyini hiss edirsiniz. Bəzən, ehtiyacı olan insanlara yardım etmək üçün çox şey edə biləcəyinizi düşünürsünüz. Siz azad olursunuz və dünyanı yeni gözlərlə görürsünüz.**

*İvan Kondratenko, Perexod rus tələbə qəzetinin redaktoru.*

# 3.2 İnsan hüquqları üçün sadə fəaliyyətlər

**?** *Əgər ədalətsizlik görürsünüzsə və ya aparılan siyasətin ədalətli olduğuna inanmırsınızsa, bununla bağlı nə edirsiniz? Nə hiss et diyinizi başqalarına necə göstərirsiniz?*

**Güclü və gücsüz arasındakı münaqişədə tərəfsiz qalmaq güclünün tərəfində durmaq, neytral olmamaq deməkdir.**

*Paulo Frayre*

Bu bölmə İHT-ni icma səviyyəsinə qaldırmaq üçün istifadə edə biləcəyiniz müəyyən yanaşmaları nəzərdən keçirir. Təkliflər radikal deyil və siz öz hazırki işinizdə onların bir çoxundan istifadə edirsiniz: bannerlər hazırlamaq, məsələlər barəsində debatlar aparmaq, mədəni tədbirlər təşkil etmək, müxtəlif təşkilatlarla görüşmək, məktublar yazmaq və s. Bu cür sadə metodlar əslində peşəkar aktivistlər tərəfindən istifadə olunanlarla eynidir və onlar effektivdir!

Aşağıdakı siyahı qrupla edə biləcəklərinizin yalnız bir hissəsini əhatə edir. Burada niyyət fəaliyyət üçün resept təklif etmək deyil, fikirləri canlandırmaqdır. Yaradıcı olun, iştirakçılardan nəyin ən səmərəli və ya ən maraqlı ola biləcəyi, nəyin fəaliyyəti həyata keçirənlərin bacarıqlarına uyğun gələ biləcəyi barəsində fikirlərini soruşun.

## İctimai fəaliyyət

İctimai fəaliyyət, məsələn, küçə teatrı, etiraz yürüşü, petisiyalar və ya oturaq aksiyaların müxtəlif məqsədləri var, lakin aşağıdakılar onlar arasında ən vacibləridir:

- Məsələ ilə bağlı maarifləndirmə
- Digərlərini fəaliyyətə cəlb etmək
- KİV-in işıqlandırmasına nail olmaq
- Siyasətçilərə və ya güc sahibi olanlara insanların xəbərdar olduğunu göstərmək.

Əgər siz ictimai fəaliyyət barəsində düşünürsünüzsə, diqqəti cəlb edəcək nəsə etməyin əhəmiyyətini yadda saxlayın: insanları gülməyə vadar edin və ya onların dayanıb nəzər yetirməsinə nail olun; siz, həmçinin, onları təəccübləndirməyə çalışa bilərsiniz. İnsanların bu barədə danışmasına nail olmalısınız!

### Əhəmiyyətli kütlə

Bir çox Avropa şəhərlərində, adətən hər ayın sonuncu cümə günündə, onlarla, hətta yüzlərlə velosipedçi küçələri maşınlardan almaq üçün bir araya toplanırlar. Bu akt spontan şəkildə baş verir: tədbirin təşkilatçıları və əvvəlcədən planlaşdırılmış marşrut yoxdur. Velosipedçilər kütləsi küçələrdə toplu şəkildə nəqliyyatın sürətini aşağı salmaq, diqqəti çirklənməyə və ya maşınla dolu yollarda velosiped sürməyin təhlükələrinə yönəltmək yaxud sadəcə insanların normal şəhər həyatının sürətini aşağı salmaq qüvvəsini göstərmək və ümumi məqsəd və ortaq idealların sevincini qeyd etmək üçün velosiped sürürlər. İnsanları motivasiya edən faktorlar fərqlənir, eləcə də, velosipedçilərin bir çoxunun öz bannerləri və ya ictimaiyyətin diqqətinə çatdırmaq istədikləri kampaniyaları olur.
Bir neçə velosipedçinin birgə velosiped sürməsi ilə başlayan fəaliyyət artıq kütləvi tədbirə və bir çox şəhərlərdə aylıq ənənəyə çevrilib.

Daha ətraflı məlumat üçün baxın - www.critical-mass.info.

## *Qrup üçün* təkliflər:

- Mahnı, musiqili tamaşa və ya öz tamaşanızı yazın və onu küçədə təqdim edin.
- Banner hazırlayın, yerli şirkətin qarşısında çirklənmə, subpodratçılıq, əmək hüquqları və ya digər əlaqədar məsələ ilə bağlı etiraz aksiyası keçirin.
- Məsələ ilə bağlı posterlər və ya broşurlar hazırlayın və onları paylayın yaxud ictimai yerlərdə yerləşdirin.
- Məsələnizlə bağlı danışmaq üçün Facebook səhifəsi hazırlayın; daha sonra, izləyiciləri cəlb etmək üçün sosial şəbəkələrin digər formalarından istifadə edin.

**?** *İnsanlar adətən nümayişlərin boş yerə vaxt sərfi olduğunu düşünürlər, lakin heç kimin nümayiş keçirməməsi hansı mesajı verir?*

**Məşğələlərlə əlaqələr:**
Məşğələlərin bir çoxunda maarifləndirmə kampaniyasının mövzusu ola biləcək qlobal məsələlər qaldırılır, məs., **Aşığın hekayəsi** (uşaq əməyi), **Gəlin cinsi əlaqədən danışaq** (gender/homofobiya), **İrqçiliyə cavab vermək** (irq, ayrıseçkilik).

**“99%”-in səsi**

“İşğal et” Hərəkatı 2011-ci ildə 80-dən artıq ölkədə 1,000-ə yaxın şəhərdə vüsət almışdı. Nümayişçilər qismən “Ərəb Baharı”ndan ilhamlanaraq tələbləri qəbul olunana qədər yerlərini tərk etməyəcəklərini bildirirdilər, aktivistlər, gənclər və bir çox digərləri dünyanın müxtəlif yerlərində şəhər mərkəzlərindəki açıq məkanları “işğal edərək” çadırlar və özünü təmin edən icmalar qururdular. Onlar kiçik azlıq tərəfindən vardövlətin böyük hissəsinə sahib olunmasını, və, bunun nəticəsində, demokratiyanın pozulmasını, eləcə də əksəriyyətə təsir edən xidmətlərin ciddi şəkildə ixtisara salınmasındakı ədalətsizliyi vurğulamaq məqsədilə “Biz 99%-ik” şüarını istifadə edirdilər.

# Gənclərin tədrisi

Əvvəlki bölmədə göstərilən kimi ictimai fəaliyyətlər əslində tədrislə bağlı deyillər; onlar daha çox dərhal və sadə mesajın çatdırılması, maarifləndirmə və toxumların atılması ilə bağlıdır. Gənclər mükəmməl tədrisçilər ola bilərlər və onlar adətən, xüsusilə iştirakçılar öz yaşıdları olduqda, məsələ və ya dəyişən yanaşmalarla bağlı digərlərinin hazırlanmasında daha effektiv olurlar. Həmçinin, məsələni digərlərinə izah etmək gənclərin öz mövqelərini aydınlaşdırmasına və özlərinə daha böyük inam əldə etməsinə kömək edəcəkdir.

**Powerpod Layihəsi - http://www.edinburgh-powerpod.org**

Edinburq Woodcraft Folk Şotlandiyanın Lotians şəhərindəki gənclərə dayanıqlı enerjinin tədrisində istifadə olunması üçün praktiki vasitə kimi günəş panelləri və külək turbinlərindən bəhs edən treyler hazırlanması üçün qrant udmuşdu. Powerpod kimi tanınan treyler yerli universitetdəki tələbələr tərəfindən külək enerjisinə alternativ kimi günəş enerjisi və günəş termal gücünü nümayiş etdirmək məqsədilə hazırlanmışdı. Woodcraft Folk-un gənc tədrisçilərinin ilk qrupu Alternativ Texnologiya Mərkəzinə səfər etmiş və Powerpod-un elmi əsası və texniki aspektləri barəsində öyrənmişdilər. Qayıtdıqdan sonra onlar yaşıdları olan uşaqlar və gənclər üçün seminarlar keçirmişdilər. Bu, ərazidəki digər Woodcraft qruplarına sistemli şəkildə seminarların təqdim olunmasına gətirib çıxardı. Seminarlar həm formal, həm də informal təhsil sektorlarında böyük marağa səbəb oldu.

Mənbə http://www.scotland.gov.uk/Topics/SustainableDevelopment/EWFenergytrailer

**Tədris edənlərin səlahiyyətləri çox vaxt öyrənmək istəyənlər üçün maneə törədir.**

*Siseron*

**Məşğələlərlə əlaqələr:** Gənclərə maraqlı mövzuları tapmaq və onların arqumentlərini və debat bacarıqlarını məşq etməsinə kömək göstərmək üçün **Harada dayanırsınız?** və ya **Seçkiqabağı kampaniya** məşğələlərindən istifadə edin. İnsan hüquqları barəsində kreativ düşüncəni təşviq etmək və pantomima və ya teatr məşğələsi üçün əsas kimi ***Bunu həyata keçirin*** məşğələsindən istifadə edin. Təhsil barəsində düşünməyə başlamaq üçün – onun nə demək olduğu, nəyə görə əhəmiyyət daşıdığı və həyatın müxtəlif aspektlərinə necə toxunduğu - **Hamı üçün təhsil** məşğələsindən istifadə edin

## *Qrup üçün* təkliflər:

- Maraq doğuran məsələ ilə bağlı ictimai debat təşkil edin, məsələn, təhsil xərclərində azalmalar, cinayətkarların insan hüquqlarına malik olmağa layiq olub-olmaması və ya yoxsulluğu azaltmaq üçün hərbi proqramların büdcəsinin kəsilməsi. Dövlət rəsmiləri və dostlarınızı iştirak etməyə dəvət edin.
- İnsan hüquqları mövzusunda öz videonuzu hazırlayın və ya teatr tamaşası təşkil edin.
- Yerli (milli) qəzet üçün məqalə yazın və ya yerli radio/televiziya kanalından müsahibə götürməyi xahiş edin. Bunu daha nəzərəçarpan etmək üçün şəkil təmin edə bilərsiniz?
- Qrupun yaxşı başa düşdüyü bir mövzunu seçin və digər qruplarla və ya yerli məktəbdəki şagirdlərlə birlikdə yaşıdlar arasında təhsil proqramı təşkil edin. Gənclər qrupuna insan hüquqları barədə danışa və ya 2-ci Fəsildəki məşğələlərdən birini apara bilərsiniz?

**Canlı Kitabxana layihəsi**

Polşanın Vrotslav şəhərindəki qrup kitabların müxtəlif mədəni, sosial və digər qruplarından olan insanlarla əvəz olunduğu və 30 dəqiqəlik söhbət üçün "borc alına bildiyi" Canlı Kitabxana təşkil etmişdi. Burada cəmiyyətdən təcrid olunan və mütəmadi şəkildə insan hüquqları pozulan qruplar, məsələn, roma insanlar, əlillər, dini azlıqlar və digərləri təmsil olunmuşdu. Kitabxanaya 2 gün ərzində 600 nəfər baş çəkmiş və onlardan 100-dən artıq şəxs "kitab" götürmüşdü. Tədbirə böyük diqqət göstərilmiş, dövlət və özəl televiziya və radio şəbəkələrində, çap mətbuatda işıqlandırılmışdı

Canlı Kitabxananın məqsədi müəyyən icmalardan olan şəxslər haqqında qərəzli fikirlərə malik şəxsləri onlarla görüşməyə, danışıb qulaq asmağa sövq etməklə əvvəlki yanaşmalarını aradan qaldırmaq idi. "Kitablarla" söhbətdən sonra "oxucular" aşağıdakı rəyləri bildirdilər:
"Bu, öz həyatımla bağlı qərar verməyimə yardım etdi."
"Mən bir çox yeni məlumatlar əldə etdim; bəzi şəxslərlə söhbətlər, həqiqətən də, mənim stereotiplərimi dəyişdi."

Canlı Kitabxana metodologiyası ilə bağlı daha ətraflı məlumat üçün baxın - www.coe.int/compass.

# Özün hərəkətə keçmək

**Partizan teatr gözlənilməz ictimai məkanlarda xəbərdar olmayan tamaşaçılara təqdim olunan spontan, təəccüb doğuran tamaşalar üçün istifadə olunur. Adətən, bu tamaşalarda məqsəd satirik, etiraz ifadə edən və karnavalsayağı metodlarla tamaşaçıların diqqətini siyasi/sosial məsələlərə çəkməkdir.**

*Wikipedia*

Qrupunuz bir sıra yollarla siyasətçilər, ictimaiyyət və ya digər vasitəçilərə müraciət etmədən birbaşa dəyişikliyi gətirə bilər. Bu, bütün fəaliyyətlərin ən diqqətəlayiqidir, çünki onun nəticəsi dərhal görünür və qrup dəyişikliyin səbəbinin öz fəaliyyətləri olduğunu anlayır.

Bir çox gənclər qrupları, məsələn, hüquqlarına hörmət olunmayan həssas şəxslərə birbaşa yardım göstərilməsində fəaldırlar. Belə insanlara əslində dövlət tərəfindən yardım göstərilməlidir, çünki insanların hüquqlarının pozulmamasını təmin etmək dövlətin məsuliyyətindədir. Buna baxmayaraq, dövlət öz öhdəliklərini yerinə yetirə bilmədikdə cəmiyyət dərhal kömək göstərmək üçün müdaxilə etməli olur.

Gənclər bu boşluğu doldurmağa yardım edə bilərlər – adətən, sadəcə ətrafda olmaqla, çətinliklərlə üzləşən şəxslərlə görüşməklə, onların problemlərinə qulaq asmaqla və ya onlarla söhbət etməklə. Bu, həmişə hər iki tərəfin zəngin təcrübə əldə etməsinə imkan yaradır.

Təcrid olunmuş şəxslərə baş çəkmək və dövlətin uğursuz olduğu məsələlərə diqqət çəkmək onları məsul şəxslərə qarşı lobbiçilik etmək və ya KİV-lə əlaqələndirməklə mövcud uğursuzluqları ictimai şəkildə işıqlandırmaqda güclü mövqeyə gətirəcəkdir.

? *Müəyyən bir qrup barəsində düşünün: gənclərin onlara baş çəkməsi hansı insan hüquqları məsələlərinin qaldırılmasına kömək edə bilər?*

## *Qrup üçün* digər təkliflər:

- Yerli icmanın tərk edilmiş ərazisini nəzarətə götürün: güllər və ya tərəvəzlər əkin və həmin məkanı insanların olmaq istəyəcəyi yerə çevirin.
- İcmadakı insanlara bağçılıq və ya digər bacarıqlarınızla xidmət göstərməyi təklif edin. Sizin qrupunuz öyrənmə mərkəzinə çevrilə bilər?
- Köhnə rəngləmə və dekorasiya ləvazimatları axtarıb tapın: gənclər mərkəzini, yerli icma mərkəzini və ya kiminsə evini qaydaya salın!
- Nəsə bişirin və evsizlər sığınacağına və ya tənha yaşayan qonşunuza aparın.
- Və ya bişirdiklərinizi vərəqlərlə birlikdə paylamaqla müəyyən məsələyə diqqət çəkin.

**Məşğələlərlə əlaqələr:**
İştirakçıları yerli məkan və onun necə istifadə olunduğu barədə düşünməyə sövq etmək üçün ***Bizim Gələcəyimiz*** məşğələsindən istifadə edin.
Gənclərin yerli icmanın həyatında daha çox birbaşa iştirak edə bilməsinin yollarını araşdırmq üçün ***Nərdivanda*** məşğələsindən istifadə edin.
Cəmiyyətdən təcrid olunmuş insanların hisləri və bu cür münasibətin ədalətliliyi məsələsini araşdırmaq üçün ***Güc və var-dövlət uğrunda mübarizə aparmaq*** məşğələsindən istifadə edin.

**Toxumları əkmək**

Dünyanın bir çox ölkələrində istifadə olunmayan ictimai məkanların istifadəyə yararlı hala gətirilməsi və bağçalar salınması üzrə təşəbbüslər göstərilir. Bu fəaliyyət bəzən “partizan bağçılıq” adlandırılır. Brüssel fermerləri adlandırılan qrup tərəfindən mayın 1-i Beynəlxalq Partizan Günəbaxan Bağçılığı Günü elan edilib. 2010-cu ildə  bu tədbirdə iştirak edən təqribən 5,000 şəxs yerli ərazilərdə günəbaxan toxumları əkiblər.

# Dövlət nümayəndələrinin siyasətini və ya davranışını dəyişmək

Dövlətin və ya onun nümayəndələrinin insan hüquqlarına hörmətin təmin olunmasına görə məsuliyyət daşıdığını nəzərə alaraq, adətən insan hüquqları uğrunda hərəkatda yekun hədəf siyasət, qanun və ya qaydada dəyişiklik etmək olur.

Bu, gənclər üçün həddən artıq “ciddi” və ya dəyişiklik edə bilməyəcəkləri sahə kimi görünə bilər. Buna baxmayaraq, siyasətdə - milli, beynəlxalq və ya yerli səviyyədə - dəyişikliklər bir-birinin ardınca müxtəlif mənbələrdən göstərilən çoxsaylı təzyiqlər nəticəsində baş verir. İnsan hüquqları uğrunda mübarizə aparan gənclər bu prosesdən nəticə əldə etməkdə təcrübəli aktivistlər qədər bacarıqlı ola bilərlər. Onların yerli və ya qurumlar səviyyəsində uğur əldə etmək ehtimalları daha çoxdur, çünki onların şəbəkələri daha kiçikdir və hakimiyyətdə olanlara çıxış əldə etmələri daha realdır. Buna baxmayaraq, qrup istədiyi halda milli və ya beynəlxalq səviyyədə iş aparmaqdan imtina etməyin.

**Dünya, pislik edənlərə görə yox, bunu görüb heç nə etməyən insanlara görə təhlükəli yerdir.**

*Albert Eynşteyn*

Bəzən, dövlət nümayəndələrinə təzyiq göstərməyin ən yaxşı yolu onlarla

əməkdaşlıq etmək, onlara öz arqumentlərinizi başa salmaqdır. Bəzən isə, seçilməli yol etiraz aksiyası ilə təzyiq göstərməkdir. Ümumiyyətlə, siyasətlər müxtəlif istiqamətlərdən, həm əməkdaşlıq, həm də rəqabət əsaslı təsirlər nəticəsində dəyişdirilirlər.

? *Birlikdə işlədiyiniz gənclər siyasi nümayəndələrinin – yerli, milli və Avropa səviyyəsində - kimlər olduğunu bilirlər?*

**Tələbə aksiyası nəticəsində təxirə salınmış təhsil islahatları**

Bir çox ölkələrdə tələbə aksiyalarının güclü tarixi var və əksər hallarda, tələbələrin fəaliyyətinə siyasətə birbaşa təsir edən və ya siyasi qərarlardan narazı qalan digər qrupların öz narazılığını ifadə etməsinə təkan verən faktor kimi baxılıb. 2008-ci ildə Fransa hökuməti təhsil kurrikulumunda bir sıra dəyişikliklər, o cümlədən müəllimlik peşəsində olan şəxslərin nəzərəçarpan hissəsinin işdən çıxarılması və tədris saatlarında azalma təklif etdi. Tələbələr ölkə boyunca bir çox şəhərlərdə küçələrə çıxdılar və hökumət islahatları təxirə salmalı oldu.

**Məşğələlərlə əlaqələr:** Minilliyin inkişaf məqsədləri və hökumətin onları yerinə yetirmə öhdəlikləri ilə bağlı ***Bizim nə qədərə ehtiyacımız var?*** məşğələsinə baxın. Avropa Məhkəməsində məhkəmə işi üzrə rol oyunu təşkil etmək üçün ***Çahal Birləşmiş Krallığa qarşı*** məşğələsindən istifadə edin. İştirakçılar öz ölkələri əleyhinə qəbul edilmiş qərarlara baxa və milli siyasətə təsirin nə olduğunu görə bilərlər. Danışıqlar aparmaq bacarıqlarını məşq etdirmək və işə götürən – işçi münasibətlərini nəzərdən keçirmək üçün **Həmkarlar İttifaqı Görüşü** məşğələsindən istifadə edin.

## *Qrup üçün* təkliflər:

- Müəyyən qərara görə məsuliyyət daşıyan yerli xadimlərlə əlaqəyə keçin; siyasətçilər və ya siyasət üzərində təsirə malik digər şəxslərlə əlaqəyə keçin. Görüş xahiş edin və ya ictimai dinləmə təşkil edin və onların hamısını iştiraka dəvət edin.
- Petisiya hazırlayın və mümkün qədər çox imza toplayın. Təsir göstərməyə ümid etdiyiniz şəxsə onu təqdim edərkən KİV-i də iştirak etməyə dəvət edin.
- Hökumətin insan hüquqlarına hörmətlə bağlı öhdəlikləri və imzaladığı müqavilələrlə bağlı məlumat toplayın. Siz hüquqşünas və ya bu sahədə fəal olan QHT ilə əlaqə saxlaya və onlardan məsləhət ala bilərsiniz. Bundan sonra, parlament üzvünə və ya müvafiq yerli siyasətçiyə məktub yazıb onlardan bu öhdəliklərin yerinə yetirilməsi üçün nə etdiklərini soruşun. Mətbuata xəbər verin!
- Məsələ ilə bağlı şikayət etmək və ya rəsmi orqan tərəfindən baxılmasını tələb etmək üçün istifadə edə biləcəyiniz digər mexanizmləri – istər milli, istərsə də beynəlxalq səviyyədə – nəzərdən keçirin.

**Polisə nəzarət etmək**

“LegalTeam” Rusiyada çalışan hüquq məsləhətçiləri, aktivistləri və mütəxəssislərinin qrupudur. Onlar ictimai toplantılarda və ya nümayişlərdə iştirak etdiyinə görə polisin təzyiqinə məruz qalan insanlara hüquqi yardım göstərilməsi və onların hüquqlarının müdafiəsi üzrə ixtisaslaşıblar. Bənzər təşəbbüslər bir çox ölkələrdə mövcuddur.

Rusiyadakı qrup ilkin olaraq 2006-cı ildə Sankt Peterburqdakı Böyük 8-lik sammiti zamanı insan hüquqları pozuntularının aşkarlanması və qarşısının alınması məqsədilə yaradılmışdı. Daha sonra, bu qrup aktivistləri etirazla bağlı qanunlar və öz səlahiyyətlərindən sui-istifadə edən qurumlara qarşı işin necə qaldırılması barəsində maarifləndirən bir kollektivə çevrildi. Qrup seminarlar keçirir və bir sıra məlumat xarakterli materiallar istehsal edir. Onların LiveJournal səhifəsi müzakirə və konsultasiya üçün virtual görüş nöqtəsinə çevrilib və fəaliyyətlər üçün koordinasiya aləti kimi istifadə olunur. (http://community.livejournal.com/legal_team)

# Digər qruplar və ya hərəkatlarla əlaqə yaratmaq

Gənclərin fəaliyyət göstərməyə təşəbbüs irəli sürməsi faydalı olsa belə, daha böyük hərəkatın bir hissəsi olmaq və ya digər təşkilatlarla birgə çalışmaqla təcrübə əldə etmək də fayda gətirə bilər. İnsan hüquqları üzrə çalışan bir çox təşkilatlar, o cümlədən "peşəkar" QHT-lər və spontan şəkildə baş qaldıran hərəkatlar var və onların bir çoxu gəncləri öz sıralarına qatmaq və onların dəstəyini əldə etməyə şad olarlar. Təşkilatın öz işini heç də hər zaman "insan hüquqları" üzrə iş kimi təqdim etməyəcəyini nəzərə alın; buna baxmayaraq, evsizlər, uşaqlar arasında yoxsulluq, məişət zorakılığı, irqçilik və ayrı-seçkilik və ya digər bənzər məsələlərlə məşğul olan bir çox təşkilatlar bunu açıq şəkildə bəyan etməsələr də, əlbəttə ki, insan hüquqları üzrə çalışırlar.

Gənclər belə təşkilatların təşkil etdiyi hərəkatlarda iştirak edə və ya daha substantiv iştirak üçün tədbirin planlaşdırılması və təşklinə yardım etməyi təklif edə bilərlər. Sadə insanlar tərəfindən yaradılmış müvafiq maliyyələşməsi olmayan təşkilatlar arzulayan könüllülərin uzatdığı yardım əlini qəbul etməyə şad olacaqlar, ümumulikdə, onlar könüllülərin təşəbbüsdə iştirakı üçün daha böyük imkan təmin edəcəklər. Daha böyük QHT-lər müəyyən yarım-ştat könüllü yardımı müqabilində yerində təcrübə keçmək imkanı təklif edə bilərlər. Bu yolla, gənclərə müvafiq sahədəki peşəkar aktivistlərlə birgə işləmək, lazımi iş təcrübəsi əldə etmək, eləcə də üçüncü sektorun işi ilə bağlı məlumat almaq imkanı təmin edilə bilər.

**Əgər bəxtiniz gətirərsə, yeganə bir fantaziya bir milyon reallığa çevrilə bilər.**

*Maya Anjelou*

? *İnsan hüquqları sahəsində çalışan yerli təşkilatları tanıyırsınız? Effektiv şəkildə əhatə olunmayan müəyyən məsələlər var?*

**Bombalar deyil, Ərzaq**

Bombalar deyil, Ərzaq ABŞ-da yerli səviyyədə başladılmış sülh hərəkatıdır və hazırda dünya üzrə bir çox ölkələrdə mövcuddur. Ərzaq və bombalar haqqında məlumatlarla silahlanmış kiçik könüllü qrupları təkcə evsizlərə deyil, məhdudiyyət qoyulmadan hamıya pulsuz vegetarian yeməkləri təklif edirlər. Bununla, onlar qida tapa bilməyən şəxslərə kömək etməklə yanaşı hərbi büdcənin fərqli şəkildə istifadəsi və ərzaq israfına son qoymaqla dünyada aclığı aradan qaldırmağın mümkün olması faktına diqqəti çəkirlər. Hərəkatın rəsmi təşkilatı yoxdur, lakin insanlar öz şəhərlərində "yerli şöbələr" qurmağa və siyasi jest kimi başqalarını qida ilə təmin etməyə həvəsləndirilirlər. Bombalar deyil, Ərzaq şöbələri bütün ABŞ ərazisində, həmçinin, Avropanın bir çox şəhərlərində fəaliyyət göstərir. Daha ətraflı məlumat üçün baxın - http://www.foodnotbombs.net/.

"Mənim fikrimcə, Bombalar deyil, Ərzaq hərəkatı davam edir, çünki burada nəticələri görə bilmək komponenti var, eləcə də insanlar ərzaq toplayıb, yeməkləri və məhsulları bölüşməklə digərlərinin həyatlarına birbaşa təsir edə biləcəklərini hiss etdikdə özləri də dəyişilirlər. Onun davamlılığını təmin edən digər bir aspekt bizim heç kimin lider olmaması və hər qrupu konsensusla qərar verməyə istiqamətləndirmək prinsipinə əsaslanır. Könüllülər heç kimin göstərişlərini icra etmir və ya onlar işləsələr də, ofisdəki digər şəxslərə ödəniş edildiyi hissini keçirmirlər. Onlar Bombalar deyil, Ərzaq kampaniyasının reallaşması üçün fərdi məsuliyyət daşıyırlar." Keith Makhenri, Bombalar deyil, Ərzaq hərəkatının banisi.

## Təkliflər:

- Hansı yerli təşkilatların qrupu maraqlandıran məsələlər üzrə çalışdığını müəyyən edin: bu təşkilatların nümayəndələri ilə görüş keçirin və qrupu bu fəaliyyətə necə cəlb oluna biləcəkləri barədə düşünməyə vadar edin.
- Daha böyük və tanınmış insan hüquqları təşkilatları tərəfindən təşkil olunan kampaniyaları nəzərdən keçirin, məsələn, Sərhədsiz Həkimlər, Beynəlxalq Amnistiya Təşkilatı, Uşaqları Qoruyaq, Beynəlxalq İnsan Hüquqları Liqası

Federasiyası (FIDH) və ya Qrinpis, və qrupla hansı məsələlər və ya kampaniyalar üzrə işləmək istədiklərini müzakirə edin.

- Bu fəsilin Planlaşdırma və Hərəkət bölməsinə baxın və qrupun müəyyən məsələ üzrə çalışmaq üçün öz təşkilatını yaratmaq istəyib-istəmədiyini aşkar edin. Onlar yeni bacarıqlar və fikirləri cəlb etmək və sayı artırmaq üçün digər gənclər qrupları ilə əlaqə saxlamaq və ya dostlarını dəvət etmək istəyə bilərlər. Bu isə, öz növbəsində insan hüquqları təşkilatlarının öz fəaliyyətinə necə başladığını əks etdirir!

**Gənclərin Beynəlxalq İnsan Hüquqları Hərəkatı**

Gənclərin Beynəlxalq İnsan Hüquqları Hərəkatı (YHRM) əsasən Mərkəzi və Şərqi Avropadan olan gənclər və gənclər təşkilatlarının beynəlxalq şəbəkəsidir. Gənclər insan hüquqları fikirləri və prinsiplərini qorumaq və təbliğ etmək üçün birgə çalışır, bir-birlərinin hərəkatlarını dəstəkləyir əinsan hüquqları müdafiəçilərinin yeni nəslini formalaşdırırlar. YHRM 1998-ci ildə gənclərin kiçik qrupunun təşəbbüsü ilə başladılmışdır. Bu gün isə, 37 ölkədən 1000-dən artıq insanı birləşdirir. Daha ətraflı məlumat üçün baxın - www.yhrm.org.

# Sübut toplamaq

**Gənclər və iştirak - “Sizin nəyə ehtiyacınız var?”**

Polşanın kiçik bir şəhərində yerli gənclər assosiasiyası gənclər arasında iştirak səviyyəsinin aşağı olmasından narahat idi. Onlar yerli dövlət qurumlarının gənclərin ehtiyacları və profili barəsində kifayət qədər məlumata malik olmadığını bildiklərindən tam mənzərəni nümayiş etdirmək üçün daha çox məlumat toplamağa qərar verdilər. Onlar müxtəlif üsul və metodlardan istifadə etdilər, məsələn, sosial şəbəkələr, mətn mesajları, küçələrdə müsahibələr, dostları, iş yoldaşları və ailələri ilə danışmaq. Bundan sonra, qrup sorğuların nəticələri üzrə ictimai sərgi təşkil etdi. Mütəxəssisin köməyi ilə nəticələri əks etdirən rəsmi sənəd hazırlayıb yerli merə göndərdilər. Beləcə, ilk dəfə şəhərdə gənclərin səsi eşidildi.

Tədqiqat və nəzarət istənilən aktivist üçün, həm hərəkətə keçməli qrupun ehtiyacları və problemləri üzrə mənzərəni təqdim etmək, həm də lobbiçilik metodu və ya ictimaiyyəti məlumatlandırma yolu kimi, vacib vasitələrdir. Məsələnin müxtəlif aspektlərini başa düşmək addımları effektiv şəkildə planlaşdırmaq üçün olduqca əhəmiyyətlidir. Yaxud yuxarıda göstərilmiş nümunədəki kimi, məlumat hakimiyyətdə olanlara təsir göstərmək üçün effektiv vasitə ola bilər.

Qruplar yuxarıda verilmiş nümunədəki kimi məlumat toplanmasında necə iştirak edə bilər və məlumatın yalnız özləri üçün deyil, müəyyən məsələnin həlli üçün faydalı olmasını necə təmin edə bilər? Başqa sözlə, məlumat toplanması necə bir hərəkatın, eləcə də tədris fəaliyyətinin başlanğıcı ola bilər?

- Məlumatın yeni, təəccübləndirici və ya çox bilinməyən olması təmin edilməlidir – məsələn, şəhərinizdə küçələrdə yatan gənclərin sayı, onların yaşları, niyə bu vəziyyətə düşdükləri və ehtiyacları barəsində nə deyə biləcəkləri.
- Kimin məlumatı bilməli olduğunu və onların bu məlumatla nə etməsini istədiyinizi düşünməklə. Bundan yerli siyasətçini öz mövqeyinizə inandırmaq üçün istifadə edəcəksiniz yoxsa ictimai fikir yaxud beynəlxalq təşkilatlardan istifadə edərək təsir göstərməyə çalışacaqsınız?

**Məşğələlərlə əlaqələr:** Gənclərin sorğu keçirmək təcrübəsi qazanması üçün ***Səs vermək yoxsa verməmək*** məşğələsindən istifadə edin. Ətraf mühit və çirklənmə ilə bağlı məsələləri araşdırmaq üçün ***Həyat şəbəkəsi*** məşğələsindən istifadə edin; daha sonra, onlayn “karbon hesablayıcı” tapın və iştirakçılara öz karbon ayaq izini hesablamağa kömək edin.

- Məlumatın necə təqdim olunduğu barədə düşünməklə: polyak qrup tərəfindən təşkil olunmuş sərgi kimi təqdimat geniş ictimaiyyət üçün statistik sıralamadan daha cəlbedici ola bilər!
- KİV-i də tədqiqatın nəticələri barədə məlumatlandırmaqla, hətta onlar birbaşa hədəf olmasalar da. Onlar məsələnin sadəcə "yoxa çıxmamasını" təmin edəcəklər.

# 3.3 Hərəkət planı hazırlamaq

**Tarix boyunca insan hüquqları**

Rusiya, Plyussadan bir qrup məktəbli Stalin dövrü və bu rejimdə yaşamağın necə olduğu haqqında daha çox bilmək istəyirdi. Onlar həmin illəri yaşamış insanlardan soruşmaq qərarına gəldilər, beləliklə, bu insanlara necə yanaşmaq, müsahibələr aparmaq, məlumatı toplamaq, tutuşdurmaq və ictimaiyyətə təqdim etmək formaları barədə razılığa gəlmək üçün bir neçə dəfə görüşdülər.

Onlar qohumları, qonşuları, məktəbdən müəllimləri və ümumi tarix barədə xatirələrini bölüşmək istəyən digər insanlarla 70-dən artıq müsahibə apardılar. Bundan sonra, uşaqlar Pskov regionunun ayrı-ayrı kəndlərində müxtəlif müsahibələrdən toplanmış fotolar və fraqmentlərdən ibarət sərgi təşkil etdilər. Müsahibə olunanlar maraq obyekti olmaqlarına və onlar üçün çətin, lakin formalaşmaları üçün vacib olan illər barəsində danışmaq imkanına malik olduqlarına görə şad oldular. Bəzən, danışılanlar həm yaşlı nəsil, həm də gənclər üçün ağrılı və məyusedici olurdu. Buna baxmayaraq, bütün tərəflər bir-birinə qarşı daha dərin anlayış və empatiya əldə etdilər, eləcə də həmin çətin vaxtların hadisələri, motivasiyaları, şəxsi həyatlara təsiri və insanların təcrübələrində əksini tapmasını daha dərindən başa düşdülər.
Müsahibələr üçün baxın - http://wiki.antarchia.org/tiki-index.php.

Əgər "İrəli" deyə səsləyirsinizsə, hansı istiqamətə gedəcəyinizlə bağlı səhvsiz plan qurmalısınız. Görmürsünüz ki, bunu etməsəniz, həmin sözü həm rahibə, həm də inqilabçıya dedikdə onlar tamam fərqli istiqamətlərdə gedəcəklər?

*Anton Çexov*

Bacardığını düşünən insan bacarır. *Budda*

Ümumiyyətlə, istənilən fəaliyyət, o cümlədən uğurlu aktivizm planlaşdırmanı tələb edir. Qrupda planlaşdırma sessiyası nəyə diqqət yetirmək istədiyinizi müəyyən etməyə və bunu həyata keçirməyə yardım edəcəkdir və məqsədlərinizə nail olmağın ən yaxşı yoludur. Bu, daha ambisiyalı məqsədlər üçün məsləhət görülən ilk addımdır, çünki arzuolunan məqsədlərə çatmayan və ya gözlənilməz problemlər yaradan fəaliyyət ruhdan sala bilər. Atdığınız ilk addım effektiv olmalıdır.

Bu bölmə plan üçün struktur hazırlamağın bir yolunu əks etdirir, eyni zamanda, qrupun diqqətini qarşıya qoyduqları məqsədə çatmaq üçün ən effektiv yolun hansı olduğuna yönəltməyə kömək edir. Bu metodlar əvvəlki bölmədə müzakirə olunmuş birdəfəlik fəaliyyətlər üçün faydalı olsa da, həmçinin, vahid məqsədə yönəlmiş çoxsaylı müxtəlif fəaliyyətləri əhatə edən uzunmüddətli kampaniya barədə düşünmək üçün istifadə oluna bilər.

## Başlamazdan əvvəl…

### *Özünüzü tanıyın – SWOT təhlil*

**?** *Qrupdakı iştirakçıların hansı bacarıqlara malik olduğunu bilirsiniz? Onların məxsusi maraqlarını bilirsiniz?*

Hər qrupun gizli qabiliyyətləri var və qrupdakı hər bir şəxsin öz fərdi zövqləri, müəyyən bacarıqları və böyük çətinliklə yerinə yetirə bildiyi digər məsələlər mövcuddur. Qrupun özünün ayrı-ayrı üzvlərinin bilik və bacarıqlarından tam şəkildə faydalandığından əmin olmaq üçün bunların nəzərdən keçirildiyi bir sessiya təşkil etmək faydalı olar. SWOT təhlil bunun üçün effektiv metoddur. Belə təhlil qrup xaricində sizin edə bidiklərinizə təsir göstərə biləcək digər şərtləri də əhatə edir.

SWOT akronimi aşağıdakıları təmsil edir:

- Güclü cəhətlər (strengths): qrupun yaxşı edə bildikləri
- Zəif cəhətlər (weaknesses): qrupun yaxşı edə bilmədikləri
- İmkanlar (opportunities): fəaliyyətə fayda verə biləcək qrupun nəzarəti xaricində olan faktorlar
- Təhdidlər (threats): fəaliyyətin məqsədinə çatmasına maneə törədə biləcək qrupun nəzarəti xaricində olan faktorlar.

Təhlili aparmaq üçün çox vaxt ayırın; heç olmasa, bir saat ayrılması məsləhət görülür. Qrupu dörd kiçik işçi qrupa ayırın və Güclü, Zəif cəhətlər, İmkanlar və Təhdidləri müəyyən etmək tapşırıqlarını onların arasında bölüşdürün. Daha sonra, qrupu yenidən bir araya toplayın və insanların öz kolleqalarının təhlilləri ilə razılaşıb-razılaşmadıqlarını müəyyən edin. Müvafiq bölmələrə uyğun şəkildə dəyişikliklər və əlavələr edin.

Aşağıdakı diaqram tamamlanmış təhlilin bir nümunəsi olmaqla qrupa nə edəcəkləri barədə fikir vermək üçün faydalı ola bilər. Buna baxmayaraq, onların bu diaqrama həddən artıq bağlı qalmasına imkan verməyin! Hər qrupun özünəməxsus olduğunu və onların öz güclü və zəif cəhətlərini müəyyən etməli olduqlarını nəzərə alın.

**Tamamlanmış SWOT təhlili nümunəsi**

| **Bizim qrupun güclü cəhətləri hansılardır?** | **Bizim qrupun zəif cəhətləri hansılardır?** |
|---|---|
| • Böyükdür!<br>• Vaxtımız var və nəsə etməyə həvəsliyik<br>• Mişanın atası siyasətçidir<br>• Şəhərin mərkəzində görüş yerimiz var<br>• Qabriela yaxşı natiqdir<br>• Bojkanın kompyuteri var | • Liderlərin sayı həddən artıq çoxdur!<br>• Pulumuz yoxdur<br>• Oğlanların sayı olduqca azdır<br>• Əvvəl belə iş görməmişik və həyəcanlıyıq<br>• Bəzilərimiz şəhər mərkəzindən uzaqda yaşayır<br>• Həmişə qrup kimi yaxşı işləmirik |
| **Qrup xaricində hansı imkanlar var?** | **Fəaliyyətimiz üçün hansı xarici təhdidlər mövcuddur?** |
| • Seçkilər yaxınlaşır<br>• Qaçqınlarla layihələr üçün müəyyən qrantlar verilir<br>• Avropa Məhkəməsi yaxınlarda bu ölkəyə qarşı məhkumlarla rəftarına görə hökm çıxarıb<br>• Bizim teatr kimi istifadə edə biləcəyimiz yeni şəhər zalımız var | • İqtisadi vəziyyət risklidir<br>• Bəzilərimizin imtahanları yaxınlaşır<br>• Şura ictimai görüşləri qadağan etməklə təhdid edir<br>• Qaçqınların yerli işləri alması narahatlıq doğurur<br>• Çöldə nəsə etmək üçün çox soyuqdur<br>• Valideynlərimiz risk almağımızı istəmir |

## *Seçim etmək*

Qrup hansı məsələ üzrə işləməyi necə seçir? Bir çox hallarda qrupdakı insanlar əhəmiyyətli olduğunu düşündükləri məsələlər üzrə işləmək istəyəcəklər. Bunlar real hadisələrlə bağlı ola bilər, məsələn, Haitidəki zəlzələ, Sudandakı aclıq və ya yerli ailənin evindən çıxarılması faktı. Hansı məsələni seçmək və ona necə yanaşmaqla bağlı ümumi razılığa gəlmək əsas çətinlik ola bilər.

**Qəbul olunanla deyil, düzgün olanla başlayın.**

*Franz Kafka*

Siz qəbul edilən istənilən qərarda qrupun bütün üzvlərinin dəstəyini almalısınız, buna görə də, məsələlər üzrə müzakirələri tələsdirməyin: onlara öz seçimlərini səsləndirmək və bu və ya digər mövzunu seçməyin faydaları barədə danışmaq üçün çox vaxt verin. Onlara müəyyən məsələləri başqa vaxt nəzərdən keçirməyin daha faydalı ola biləcəyini xatırladın. Həmçinin qrupun müəyyən fəaliyyətlə bağlı birgə işləməsinin əhəmiyyətini vurğulayın. Əgər qrupda kimsə müəyyən seçimə qarşı kəskin mövqedə dayanırsa, həmin mövzunu seçməyə dəyməz. Qrupda əksəriyyətin qərarını qəbul etmək yerinə, konsensusa gəlməyə çalışın.

? *Qrupdakı narazılıqların dağıdıcı deyil, faydalı olmasını necə təmin edə bilərsiniz?*

## *Problemi bilmək*

Ağaclar və daşlar sizə ustalardan heç vaxt öyrənə bilməyəcəklərinizi öyrədəcək.

*Clairvaux-dan Müqəddəs Bernard (e.1100*

### Problem ağacı

Üzərində işlədiyiniz mövzunu başa düşmək üçün faydalı vasitələrdən biri problem ağacı çəkməkdir. Bu üsulla məsələni hissələrinə ayıracaq, onun səbəbləri və nəticələrini nəzərdən keçirəcək, onu cəmiyyətdəki digər problemlərin kontekstinə uyğunlaşdıracaqsınız. Bu metod həm qrupun məsələni daha yaxşı başa düşməsi, həm də həll yoluna daha strateji yanaşmanı təmin etmək üçün faydalı ola bilər.

Növbəti səhifədə küçə uşaqlarının problemlərini başlanğıc nöqtə kimi müəyyən etmiş problem ağacı nümunəsini görə bilərsiniz. Aşağıdakı proseduru izləməklə qrup öz məsələsi üçün problem ağacı çəkə bilər:

- Böyük vərəqin ortasında üzərində işləmək istədiyiniz problemi yazmaqla başlayın.
- Onun altında problemə səbəb olan bütün faktorları yazın və onları birləşdirməklə ilkin probleminizin kökləri kimi göstərin.
- Problemə səbəb olan faktorları çəkərkən hər bir kökü ayrıca nəzərdən keçirin və onun səbəbləri barədə düşünün.
- Hər kökü tapşırığı daha irəli apara bilmədiyiniz son mərhələyə qədər araşdırın: sizin fikrinizcə, ağacın daha dərin kökləri ola bilməz.
- Ağacın "budaqları"nı eyni şəkildə uzada bilərsiniz: bunlar ilkin problemin nəticələri olacaqdır. Sizin ilkin olaraq üzərində işləməyə başladığınız əsas problemin başqa bir ağacın kökü və ya budağı olduğunu aşkara çıxara bilərsiniz.
- Bitirdikdən sonra, ağacınıza baxın. Siz, ilk öncə, ilkin olaraq müəyyən etdiyiniz məsələni yoxsa ona səbəb olan faktorlardan birini araşdırmalısınız? Ağac problemi araşdırmaq üçün yolları müəyyən etməkdə sizə kömək olub?




## Həlli bilmək

Fəaliyyətinizin nəticəsinin nə olmasını istədiyinizə qərar verməlisiniz! Nə uğur sayıla bilər? Qrupu nəyə nail olmaq istədikləri, müvəfəqiyyət qazanıb-qazanmadıqlarını necə müəyyən edəcəkləri barədə düşünməyə vadar edin. Onlar problem ağacına qayıdıb onu dəqiq həlləri müəyyən etmək üçün vasitə kimi istifadə etməyi faydalı hesab edə bilərlər. Ümumilikdə, köklərə hücum etmək ağacdan daha yuxarıda həlləri tapmağa imkan verəcək, məsələn, daha çox sosial ev olsa və ya kirayə haqları daha aşağı olsa, bir çox gənclər başları üzərində dam əldə edə bilərlər.

Mürəkkəb məsələlərdə siyasəti dəyişməyin çətin olduğunu və çox nadir hallarda, yalnız bir fəaliyyət nəticəsində buna nail olunduğunu yadda saxlayın. Qrup nəyə ümid edə biləcəyi barəsində realistik olmalıdır: onlara hətta “kiçik” nəticənin belə daha böyük problemi həll etmək üçün önəmli töhfə ola biləcəyini xatırladın. Effektiv kampaniyalar, demək olar ki, həmişə belə “kiçik” addımlar üzərində qurulur və qrupunuz tərəfindən nail olunmuş hər hansı uğurlu fəaliyyət daha sonradan davam etdirilə və ya müvafiq problemlə məşğul olan digər aktivistlər tərəfindən götürülə bilər.

Hərəkətə keçmək üçün müəyyən ümumi səbəblər üzrə beyin fırtınası aparmaq qrupa kömək edə bilər. Bununla, onlar məsələləri ilə ən çox bağlı olan səbəbləri seçə və nail olmağın real olduğunu düşündükləri bir neçə spesifik məqsədi müəyyən edə bilərlər.

Məni narahat edən yeganə məsələ bu etiraz aksiyasını keçirmək üçün bu qədər gözləməyimiz idi.

*Roza Parks*

? *Yaxınlarda şahidi olduğunuz və ya haqqında eşitdiyiniz etiraz aksiyası barədə düşünün: sizin fikrinizcə, təşkilatçılar nəyə nail olmaq istəyirdilər? Onlar uğur qazandılar? Niyə və ya niyə yox?*

# Fəaliyyəti planlaşdırmaq

Qrupunuz artıq mövzu üzrə razılığa gəlib və nə etməyə çalışacaqları barədə müəyyən fikirə malikdir. İndi isə, məqsədlərinə nail olmaq üçün hansı mexanizmdən istifadə etmək barədə qərara gəlməlidirlər.

Növbəti səhifədəki blok-sxem qərara gəlmək istiqamətində addım-addım aparılan yanaşma kimi seçdikləri metodun qarşıya qoyduqları məqsədə nail olmağa uyğunluğunu təmin etmək üçün istifadə oluna bilər. Blok-sxem sizi fəaliyyətin ən uyğun formasına qərar vermək üçün 5 addımdan keçirir və 5 təxmini nümunə üzrə prosesin necə gedə biləcəyini nümayiş etdirir.

Növbəti bölmədə hər addım daha geniş izah olunub.

**Fəaliyyətinizi planlaşdırmaq – diaqram**

**A. Hansı problemə baxmaq istəyirsiniz?**

1. Kimyəvi şirkət yerli çayı çirkləndirib
2. Polisin nəzarətə aldığı sığınacaq axtaranın ölümü
3. Yerli icmamızda miqrantlara qarşı irqçilik
4. Transmilli şirkətlər tərəfindən uşaq işçilərin istismarı
5. Gənclər arasında narkotik maddələrdən istifadə səviyyəsi

**B. Sizin hədəf kütləniz kimlərdir?**

1. Şəhərdəki insanlar və şirkətin direktorları
2. İnsan hüquqları təşkilatları
3. İcmamızın sakinləri
4. İctimai fikir
5. Yerli məktəb administrasiyası

**C. Hansı dəyişiklikləri görməyə ümid edirsiniz?**

1. Şirkətin onu təmizləməsi
2. Onlar məhkəmə işi qaldırıb rəsmi istintaq üçün çalışacaqlar
3. Bəziləri fikirlərini dəyişsin
4. Məsələ barəsində daha geniş xəbərdarlıq
5. Narkotik maddələr əleyhinə təhsilin məktəb cədvəlinə daxil edilməsi

**D. Dəyişiklik necə gələcək?**

1. İctimai fikirdən utanacaqlar
2. Onlar sübutun güclü olduğunu və heç nəyin edilmədiyini görəcəklər
3. Onlar icmaların üzvləri ilə görüşüb onların insanlığını görəcəklər
4. Biz onlara məlumat verəcəyik
5. Direktor bunun aktual problem olduğunu və bizim kömək edə biləcəyimizi görəcək

**E. Kütləyə təsir etmək üçün hansı vasitələrdən istifadə edəcəksiniz?**

1. Əsas küçədə nümayiş keçirərək imza toplayıb şirkətin direktorlarına təqdim etmək
2. Biz milli və yerli İH təşkilatları ilə əlaqə saxlayıb məsələ barəsində məlumat verəcəyik
3. Bu icmaların nümayəndələri ilə birgə Canlı Kitabxana təşkil edəcəyik
4. Gənclər mərkəzində sərgi təşkil edib şəhərdə reklam edəcəyik
5. Məktəbdə və gənclər mərkəzində narkotiklər maddələrdən istifadə ilə bağlı sessiyalar keçirəcəyik

## Hansı problemə baxmaq istəyirsiniz?

Bu addım sadədir: bu, qrupun hazırladığı problem ağacı tapşırığının nəticəsi olacaq. Əgər ağac tapşırığını etməmisinizsə, qrupun baxmaq istədiyi problemi mümkün qədər dəqiq şəkildə müəyyən etməsinə nail olmağa çalışın.

## Hədəf kütləniz kimlərdir?

Əgər problemi dərhal etməyə ümid etmirsinizsə, sizin fəaliyyətinizdə hədəf kütləniz gözlədiyiniz yekun dəyişikliyi edəcək insan və ya insanlar olmayacaqdır. Sizin fəaliyyətiniz dəyişikliyi etmək üçün atılmış bir addımdan artığı olmayacaqdır; məsələn, siz ictimaiyyəti məlumatlandırmaqla dövlətə təzyiq göstərməyə çalışa bilərsiniz. Yaxud narahatlıq doğuran məsələ ilə bağlı çalışması üçün yerli qrup yaratmağa çalışa bilərsiniz.

B qutusunda sizin hədəf kütləniz fəaliyyətinizi istiqamətləndirdiyiniz insanlar olacaqdır. Bu kütlə bir insan qrupundan daha artıq ola bilər; məsələn, blok-sxemdəki birinci halda həm şəhərdəki insanlar, həm də şirkət direktorları fəaliyyətin hədəf kütləsidir. Fəaliyyət şirkətin direktorlarına təqdim ediləcək petisiyanı imzalayan şəhər sakinlərindən asılıdır. Bu petisiya direktorlara təsir göstərmək və onları çayı təmizləməyə məcbur etmək məqsədilə təqdim olunacaqdır.

## Hansı dəyişiklikləri görməyə ümid edirsiniz?

Bu sual yenə sizin fəaliyyətinizlə bağlı olsa da, qarşıya qoyduğunuz yekun dəyişikliklə bağlı olmaya bilər. Məsələn, sizin qrupun fəaliyyətinin uşaq işçilərin transmilli şirkətlər tərəfindən istismarına tamamilə son qoyması real görünmür! Buna baxmayaraq, siz problemə marağı artıra və digərlərini fərqli yollarla addım atmağa həvəsləndirə bilərsiniz. Bu isə, öz növbəsində, şirkətin siyasəti və ya həmin şirkətlərə tətbiq olunan dövlət qaydalarında dəyişikliyə aparıb çıxara bilər.

Bu qutuda siz fəaliyyətin nəyə nail olmaq üçün aparıldığı və nəyin əsasında uğur qazanıb-qazanmadığınızı müəyyən edəcəyiniz barədə düşünməlisiniz. Qrupu mümkün qədər spesifik olmağa təşviq edin, onlar fəaliyyətin yaxşı və ya pis getməsinin nə demək olduğu barədə düşünməlidirlər. Yuxarıda verilmiş “Həlli bilmək” başlıqlı 3.4.1.4-cü bölmədəki nümunələrdən istifadə edin.

## Dəyişiklik necə gələcəkdir?

Bu sual hələ də qrupun istifadə etməyə qərar verdiyi mexanizm barədə deyil, fəaliyyətin necə aparılmalı olduğu ilə bağlıdır. Əksər hallarda insanların fikirlərini dəyişmək və ya onları nəyisə fərqli etməyə ehtiyac olduğuna inandırmaq psixologiyası ilə əlaqədardır. Bu əhəmiyyətli sual adətən unudulur və onun təcrid olunması fəaliyyətin təsirini aşağı salır.

Məsələn, qrupun milliyyətçi və ya proto-faşist təşkilatların populyarlığının artması ilə bağlı narahat olduğunu və bu məsələyə baxmaq istədiyini fərz edin. Onlar bu təşkilatlara dəstəyin yuxarı olduğu ərazilərdə yaşayan insanların qapılarının arasına məlumat vərəqləri qoymaq barədə düşünə bilərlər. Buna baxmayaraq, əgər onlar insanların nəyə görə milliyyətçi təşkilatlara üz tutduğunu başa düşməsələr, vərəqlər nəzərdə tutulduğunun əksi təsir doğura bilər. Qrup vərəqin insanların fikrini necə dəyişə biləcəyi və nəzərdə tutulan hədəf qrup üçün hansı mesajların təsirli ola biləcəyi barədə düşünməlidir.

**Etiraz forması kimi simvolik ictimai aktlar**

- Bayraqlar və simvolik rənglərin nümayişi
- Simvolları geyinmək
- Dua və ibadət
- Simvolik əşyaları çatdırmaq
- Etiraz əlaməti kimi soyunmaq
- Öz mülkünü dağıtmaq
- Simvolik işıqlar
- Portretlərin nümayişi
- Etiraz əlaməti kimi rəngləmək
- Yeni işarələr və adlar
- Simvolik səslər
- Simvolik düzəlişlər
- Kobud jestlər

Qeyri-zorakı fəaliyyət üzrə 198 Metoddan götürülüb: http://www.peacemagazine.org/198.htm

Onlar milliyyətçi təşkilatlara artan dəstəyin arxasında dayanan bəzi səbəblər və qayğılardan xəbərdar olmalıdırlar.

Bu qutu, həqiqətən də, "yoxlama" qutusudur, indiki vəziyyətdən mütləq şəkildə "nəticə"nin əldə olunması üçün nə etmək barədə düşünməklə bağlıdır.

**Şagirdlər irqçiliyə qarşı: məktəb administrasiyasına yardım etmək**

Portuqaliyadakı kənd məktəbində Rumıniya və Ukraynadan olan yeni şagirdlər məktəbdəki digər şagirdlərin iqrçi rəyləri və hərəkətlərinə məruz qalırdılar. Bu, region üçün tamamilə yeni problem olduğundan müəllimlər və məktəb şurası nə etməli olduqlarını bilmirdilər.

Baş verənlərdən narahat olan bir neçə şagird kömək və məsləhət üçün yerli istirahət mərkəzində gənclərlə çalışan işçiyə müraciət etdilər. Onlar birlikdə məktəbdə bir həftə davam edən Xarici görünüşə görə fərqli, daxildən eyni (Diferente por fora, Igual por dentro) başlıqlı kampaniya təşkil etdilər. Uşaqların günündəki hər andan istifadə olundu – yemək vaxtları, dərslər, asudə vaxt – və problemlə bağlı müxtəlif məşğələlər təşkil edildi. Teatr klubunda forum teatrından istifadə olundu, əllə hazırlanmış posterlər və emblemlər paylandı, istirahət mərkəzində bədii məşğələlər təşkil olundu, filmlər nümayiş etdirildi, bufetdə müxtəlif ölkələrdən olan keklər təqdim edildi. Həftə uğurlu alındı və məktəb hər il bənzər tədbir keçirməyə qərar verdi.

## *İnsanlara təsir göstərmək üçün hansı vasitələrdən istifadə edəcəksiniz?*

Blok-sxemin apardığı istiqamət buradır! Bu mərhələdə qrupun dəqiqliklə nə etməli olduğu barədə seçimlərin sayı əvvəlki mərhələlərdən keçməklə azaldılmışdır. İndi isə qrup əvvəlki qutuda müəyyən olunmuş dəyişikliyin baş verməsi üçün gərəkli olan mümkün addımların siyahısını hazırlaya bilməlidir. Onları kreativ şəkildə düşünməyə sövq edin, bu fəsilin 2-ci bölməsindəki təkliflərdən bəzilərinə - eləcə də tematik araşdırmalara baxın və onlara qruplarındakı müəyyən xarakteristika barədə düşünməyi xatırladın. Yenidən yekun seçimlə bağlı konsensusa gəlməyə çalışın.

**İnsan Hüquqlarında Yeni Taktikalar**

Yeni Taktikalar beynəlxalq insan hüquqları icması daxilində taktiki innovasiya və strateji düşüncəni təbliğ etmək üçün çalışan beynəlxalq təşkilatlar, məsləhətçilər və təcrübəçilərin ayrıca qrupudur. 1999-cu ildən bəri İnsan Hüquqlarında Yeni Taktikalar layihəsi nadir resurslar yaradıb və spesifik məsələlər, coğrafi regionlar və ya hədəf qruplar ətrafında deyil, mümkün həllər üzrə təşkilati iş aparıb. Resurslar aktivistlərin öz vəziyyətlərinin məxsusi elementlərini müəyyən etməsinə, eləcə də başqa hallarda faydalı olmuş uyğun yanaşmaları axtarıb tapmasına imkan verir. Resurs aktivistlərin müxtəlif taktikaları mürəkkəb strategiyalar ilə birləşdirməsinə yardım edir.

Resursların bir çoxu onların vebsaytında müxtəlif dillərdə tapıla bilər - www.newtactics.org.

# Təşkilatlanmaq

Qrupun fikirlərini küçəyə çıxarmamışdan əvvəl son bir mərhələ var. Praktiki məsələlər ortaya çıxmamışdan əvvəl, qrupun təşkilati məsələlər üzrə fəaliyyət planı hazırlaması məsləhət görülür. Bu, sadə fəaliyyət üçün vacib olmasa da, planın hazırlanması qrup üçün faydalı vərdişdir və tapşırıqların bacarıqlar və seçimlər üzrə bərabər bölgüsünü təmin edəcəkdir. Həmçinin, bu, heç nəyin unudulmamasını təmin etməlidir!

Onlar aşağıdakılarla bağlı qərar verməlidirlər:

• Hansı tapşırıqlar yerinə yetirilməlidir?

• Müxtəlif tapşırıqları kimlər yerinə yetirəcək?
• Tapşırıqlar nə vaxt yerinə yetiriləcək?

## Tapşırıqlar cədvəlinin qurulması

Aşağıdakı cədvəl üç sual üzrə ayrılmış tapşırıqları əhatə edən xəyali fəaliyyəti nümayiş etdirir. Göstərilən addımlardan istifadə etməklə qrupla belə cədvəl qurun:

1. Planların necə getdiyinə nəzarət etmək üçün hər şeyin yazıldığından əmin olun. Sizin iki böyük vərəq və flomastra ehtiyacınız olacaq.
2. Hər kəsin müzakirə edilən məsələni aydın şəkildə başa düşdüyündən əmin olun. Bir nəfəri köməkçi olub kağızın yuxarısında başlığı yazması üçün seçin. Ehtiyac duyulan bütün işlərin siyahısı üzrə beyin fırtınası aparın və onları hamının görə biləcəyi şəkildə böyük vərəqlərin birinə yazın.
3. Gün ərzində qrupla düşünün, nəyin baş verəcəyini təsəvvürünüzə gətirin və düşündüyünüz işləri bir daha nəzərdən keçirin.
4. İndi isə, siyahıya yenidən baxıb işlərin İndi, Tezliklə və ya Daha Gec yerinə yetirilməli olduğuna qərar verin: hər iş üçün İ, T və ya D qeyd edin.
5. İkinci kağızı "qərar vərəqi" kimi istifadə edin. Kağızın sol tərəfində tapşırıqları sıralayın; daha sonra, növbəti sütunda kimin hansı tapşırığı yerinə yetirəcəyini yazın. Nəhayət, üçüncü sütunda işlərin görülməsi üçün son tarixləri qeyd edin.
6. Tapşırıqları aranızda bölüşün: onların hamısını bir və ya iki şəxsə tapşırmayın. Əgər onlar xəstə və ya başqa işlərlə məşğul olmalı olsalar, nəyin baş verəcəyi barəsində düşünün!

**Qərar vərəqi nümunəsi**

| **Tədbir: Azlıqların hüquqları üzrə küçə aksiyası** | | |
|---|---|---|
| **Tapşırıq** | **Kim edir** | **Nə vaxt** |
| Paylanılacaq vərəqlərin hazırlanması | Sally, John, | 10, 17 sentyabrda görüşlər |
| Nəşrin təşkili | Rumen, Ben | 20 sentyabrdan sonra |
| Bannerlər/plakartlar hazırlamaq | Hamı | 24 sentyabrda başlayan həftə |
| Bannerlər üçün materiallar və s. almaq | Shila, Karen, Ivan | 17 sentyabrda başlayan həftə |
| Başqalarını cəlb etmək | Shila, Moca, Tania | 17 sentyabrda başlayan həftə |
| Yerli şura ilə əlaqə saxlamaq | Damien, Sue | Tarix təsdiqləndikdən sonra |
| Polislə danışmaq | Damien, Sue | |
| Önəmli yerli xadimin iştirakını təmin etmək | Tim, Hannah | |
| Azlıqların qruplarını məlumatlandırmaq | Lucy, Sanchita | |
| Nitqləri hazırlamaq | Natalie, Ben, Sally | |
| Qəlyanaltıları təşkil etmək | Petra, Paul | |
| Sonrakı təmizlik işləri | Natalie, Ben, Rumen, Sanchita | |

# Təhlil və qiymətləndirmə

İstənilən İHT fəaliyyətində olduğu kimi – əslində, istənilən fəaliyyətdə – fəaliyyət bitdikdən sonra qrupla təhlil aparmaq, nəyin yaxşı getdiyini və nəyin daha yaxşı ola biləcəyini müəyyən etmək vacibdir. Çox güman ki, qrup fəaliyyəti yüksək səviyyədə hisslərlə, ya müsbət, ya da mənfi bitirəcəkdir. Onlara bu barədə danışmaq və hisslərini qrupla bölüşmək imkanı vermək əhəmiyyətlidir. Bu, həmçinin, sonrakı fəaliyyətlərin planlanmasına yardım edəcəkdir.

Aşağıdakı suallar təhlil aparmaq üçün çərçivə kimi faydalı ola bilər.

- Fəaliyyət gününün ardından hissləriniz nələrdir? (Bu hissə qrupda qısa dövrə vurmaqla aparıla bilər.)
- Nəyin yaxşı getdiyini hiss etdiniz?
- Nəsə gözlədiyinizdən daha çətin oldu?
- Gözlənilməz nəsə oldu?
- Sizin fikrinizcə, növbəti dəfə üçün nəzərə almalı olduğumuz dərslər var?
- Qarşıya qoyduğumuz məqsədə nail olduq?
- Gözləmədiyimiz nəyəsə nail olduq?
- Özünüzdən razı qaldınız və gələcəkdə bənzər nəsə etmək istəyərsiniz?
- Bəs biz indi nə edəcəyik?!

### Afrikaya futbol butsiləri

Emil Danimarka, Soro Frederiksberq məktəbində 7-ci sinif şagirdi, Anaklayto isə Cənubi Afrikadan olan qonaq müəllim idi. Sinifdə ev və məktəb həyatı haqqında müzakirə zamanı Anaklayto Danimarkada uşaqlar və gənclərin çoxsaylı imkanlara və əlverişli şəraitə malik olması ilə bağlı fikirlərini bölüşdü. O, evi olan Cənubi Afrikada şagirdlərin nə uyğun futbol meydançası, nə də butsiləri olmadığını bildirdi. Bundan ilhamlanan şagirdlər Anaklaytonun məktəbinə göndərmək üçün ikinci əl futbol ayaqqabılarını toplamaq qərarına gəldilər. Şagirdlər ondan bu təşəbbüs barədə nə düşündüyünü soruşdular; cavab müsbət oldu, beləliklə, şagirdlər öz məktəblərində və qonşu məktəblərdə posterlər asaraq yardım üçün çağırış etdilər. Yerli futbol klubu bu layihə barəsində eşitdi və özlərinin itmiş əşyalar şkafından bir neçə cütü təqdim etdilər.

Birdən-birə Emil və onun dostlarının 100 butsi cütündən ibarət böyük ayaqqabı yığını ortaya çıxdı. Bununla belə, onlar bu ayaqqabıları Yohannesburqa göndərməyin DKK 500 (67 avro) məbləğinə başa gələcəyini öyrəndikdə məyus oldular. Buna görə də, növbəti addımın nə olacağı barədə düşünməyə başladılar. İlk öncə, ayaqqabıları ayırıb onlardan hansıları göndərə biləcəklərini müəyyən etdilər. Əllərində 75 cüt qaldı. Daha sonra, onlar ayaqqabıları poçtla göndərmək üçün pul tapmalı idilər. Bunun üçün, sinif müxtəlif yardım agentlikləri və yerli şuraya məktub yazdı, yerli qəzetdə çap olundular və radioda sponsor axtardıqlarını bildirdilər. Bir neçə uğursuzluqdan sonra, Cənubi Afrikaya turlar təşkil edən yerli səyahət assosiasiyasının rəhbəri qəzetlə əlaqə saxladı və yardım etməyi təklif etdi. Nəhayət, altı aydan sonra Emil bağlamaları poçt ofisinə gətirdi və onları Yohannesburqa, Anaklaytonun şagirdlərinə göndərdi.

Mənbə: Qlobal Qonaq Müəllim, AFS Interkultur, Danimarka

# 4-cü Fəsil

# İnsan Hüquqlarını Başa düşmək

# Bu Fəsilin Mündəricatı


**GİRİŞ....... 381**

**4.1. İNSAN HÜQUQLARI NƏLƏRDİR?....... 382**

Əsas dəyərlər....... 383
İnsan hüquqlarının xarakteristikası....... 383
Tarixi çərçivə....... 384
Dünya üzrə insan hüquqları....... 388
Hüquqlarımızdan necə istifadə edə bilərik? ....... 390
İnsan Hüquqları Dilemmaları....... 391

**4.2.İNSAN HÜQUQLARININ TƏKAMÜLÜ....... 395**

Vədlər, vədlər....... 395
Bizim hüquqlarımız nələrdir? ....... 395
Elmin irəliləməsi....... 399

**4.3. İNSAN HÜQUQLARININ HÜQUQİ MÜDAFİƏSİ....... 401**

Ölkədaxili İnsan Hüquqları....... 401
Müqavilələrdə tanınmış insan hüquqları....... 402
Əsas beynəlxalq sənədlər....... 403
İnsan hüquqlarını tətbiq etmək....... 411
Bu, kifayətdir? ....... 417

**4.4.İNSAN HÜQUQLARI AKTİVİZMİ VƏ QHT-LƏRİN ROLU....... 418**

QHT-lər nələrdir? ....... 418
İnsan hüquqları QHT-lərinin növləri....... 419
Onlar prosesə necə təsir edirlər? ....... 419
Uğurlu aktivizm nümunələri....... 421

**4.5. İNSAN HÜQUQLARI BARƏDƏ SUALLAR VƏ CAVABLAR....... 424**
**4.6.ÇƏTİN TAPŞIRIQLAR....... 427**

# Giriş

İnsan hüquqları olmadan insan hüquqları təhsili də ola bilməz. İstənilən insan hüquqları tədrisçisi üçün insan hüquqlarının nə olduğunu başa düşmək ən vacib bacarıqdır. İnsan hüquqları həm çox sadə, həm də mürəkkəb şəkildə başa düşülə və izah oluna bilər; onlar abstrakt və konseptual formada və ya praktiki nümunələr vasitəsilə olduqca real şəkildə təqdim edilə bilər; onlara qlobal perspektivdən yaxud olduqca yerli səviyyədə baxıla bilər. Buna baxmayaraq, insan hüquqları təhsilinə daxil olan istənilən şəxsin özünü insan hüquqlarını təqdim etməyə və onlarla bağlı suallara cavab verməyə hazır hiss etməsi vacibdir. Fasilitatorların əsas işi gəncləri insan hüquqları barəsində öyrənməyə cəlb etmək olsa da, onlar, həmçinin, dəqiq məlumat verməli, insan hüquqlarının mürəkkəbliyi ilə bağlı mifi aradan qaldırmalı və bir çox əlaqədar dilemmalara toxunmalıdırlar. Lakin bunları edərkən insan hüquqlarının əsasında dayanan başlıca anlayış və dəyərlər diqqətdən kənarda qalmamalıdır: universallıq, bölünməzlik və ayrılmazlıq. İnsan hüquqları təhsili üzrə fasilitator həm də insan hüquqları vəkili və “səfiri”dir. İnsan hüquqları ilə bağlı əsas sualların nəzərə alınmaması və ya onlara cavab verilməməsi insan hüquqları təhsilinin uğursuzluğu ilə nəticələnəcək. İnsan hüquqları ilə bağlı bir çox digər məsələlərdə olduğu kimi heç kim fasilitatorların bütün sualların cavabını bilməsini gözləmir. Bununla belə, təbii ki, fasilitatorların cavabları harada tapmağın mümkün olduğunu bilməsi və iştirakçıları öz cavablarını tapmağa istiqamətləndirməsi gözləniləndir.

**İnsan hüquqları heç kəsin sizin əlinizdən ala bilməyəcəkləridir.**

*Rene Kassin*

İnsan hüquqlarının mənşəyi ilə bağlı, xüsusilə onların “Qərbsayağı” təbiəti ilə bağlı, eləcə də onların universallığı, tətbiqi və həyata keçirilməsi ilə bağlı yanlış fikirlər xoşniyyətli insan hüquqları təhsilini mövcud şübhə və fikirləri aydınlaşdırmaq yerinə onları təsdiqləyən bir təcrübəyə çevirə bilər. İnsan hüquqları təhsilində insan hüquqları barəsində öyrənmək əhəmiyyətli və müzakirəyə qoyulmayan məsələdir; bu hissə olmadan qalan məsələlərin heç bir mənası qalmır.

İnsan hüquqları təkcə ekspertlər tərəfindən deyil, hamı tərəfindən başa düşülməlidi

Bu fəsildə biz Kompas istifadəçilərinə insan hüquqları, onların nə olduğu, onların necə təkamül etdiyi, onların necə qoruna və təmin oluna biləcəyi haqqında əlavə məlumat veririk. Əlbəttə, biz insan hüquqları anlayışları və sistemləri ilə bağlı bütün məlumatı burada təqdim edə bilmərik. Bununla belə, Kompas-ın digər bölmələrində olduğu kimi istifadəçilər mühüm başlanğıc nöqtələri və əsas məlumat əldə edirlər. Fasilitatorlar öz proqramlarının təbiəti və öyrənənlərin ehtiyaclarına uyğun olaraq əlavə məlumat toplamalıdırlar. Həmçinin, bu fəsil “hər kəsin insan hüquqları barəsində bilməli olduqları” kimi başa düşülməməlidir. Bunun əvəzində, hazırki fəsildə insan hüquqlarının bir çox mühüm aspektlərinə toxunulur. Ayrı-ayrı fasilitator və iştirakçılar insan hüquqlarının necə inkişaf etdiyi və öz ölkələrində necə qorunduğu barəsində daha çox (və ya az) bilməlidir.

Bu fəsilin sonunda insan hüquqları haqqında suallar, cavablar və çətin tapşırıqlar hissəsində insan hüquqları ilə bağlı ən geniş yayılmış şübhələr və sualların bəziləri nəzərdən keçirilir.

İnsan hüquqları daima çağırışlarla üzləşir, inkişaf edir və yaxşılaşdırılır.

(Mükəmməl olmayan) insanların (mükəmməl olmayan) yaradıcılığının nəticəsi olan insan hüquqları daim çağırışlarla üzləşir, inkişaf edir və yaxşılaşdırılır. Biz Kompas istifadəçilərinin yeniliklərlə bağlı, xüsusilə Kompas nəş olunduqdan sonra baş vermiş inkişafla əlaqədar məlumat toplayacağına ümid edirik.

# 4.1 İnsan hüquqları nələrdir?

İnsan hüquqları qoruyucu təbəqə kimidir: onlar sizi mühafizə edir; onlar qaydalar kimidir, çünki sizə necə davranmalı olduğunuzu deyirlər; və onlar hakimlər kimidir, çünki onlara müraciət edə bilərsiniz. Onlar mücərrəddir – hislər kimi; həmçinin, hislər kimi onlar hamıya məxsusdur və nəyin baş verməsindən asılı olmayaraq mövcuddur.

Onlar təbiət kimidir, çünki onlar pozula bilər; həmçinin, ruh kimidir, çünki onlar məhv edilə bilməz. Zaman kimi onlar hamımızla eyni cür rəftar edirlər – varlı və kasıb, qoca və cavan, ağ və qara, hündür və alçaqboylu olmağımızdan asılı olmayaraq. Onlar bizə hörməti təklif edir və bizdən başqalarına hörmətlə yanaşmağı tələb edir. Yaxşılıq, həqiqət və ədalət kimi biz bəzən onların tərifi ilə razılaşmaya bilərik, lakin onlar pozulduqda biz bunu başa düşürük.

? *İnsan hüquqlarına necə tərif verərdiniz? Onların nə olduğunu necə izah edərdiniz?*

**Biz nəyəsə insan hüququ dedikdə, cəmiyyətdən bu hüququ hüquqi vasitələr, eləcə də təhsil və ictimai fikir vasitəsilə qorumağı tələb edə bilməyimiz nəzərdə tutulur.**

*Con Stüart Mil*

Hüquq bizim haqlı olaraq irəli sürdüyümüz tələbdir. Əgər bazarlıq səbətimdəki məhsullar üçün ödəniş etmişəmsə, onlara hüququm çatır. Əgər ölkənin konstitusiyasında nəzərdə tutulubsa, vətəndaşların prezidenti seçmək hüququ var və əgər uşağın valideynləri ona söz veriblərsə, onun zooparka aparılmaq hüququ var. Bütün bunlar qarşı tərəf vəd etdikdə və ya zəmanət verdikdə insanların gözləyə biləcəyi təminatlardır.

İnsan hüquqları isə daha fərqli və üstün tələblərdir. Onlar qarşı tərəfin vədləri və ya zəmanətlərindən asılı deyillər. Şəxsin yaşamaq hüququ başqasının onu öldürməmək vədindən asılı deyil: onların həyatı ola bilər, yaşamaq hüquqları deyil. Onların yaşamaq hüququ yalnız bir məsələdən asılıdır: onların insan olmasından.

İnsan hüquqlarını qəbul etmək hər kəsin bu iddiaları irəli sürə bilməsini qəbul etmək deməkdir: Sizin nə deməyinizdən və ya nə etməyinizdən asılı olmayaraq mənim hüquqlarım var, çünki mən də sizin kimi insanam. İnsan hüquqları bütün insanların doğuşdan malik olduğu hüquqlardır. Nəyə görə bu tələbin hər hansı xüsusi davranışla dəstəklənməsinə ehtiyac yoxdur? Nəyə görə insanlardan öz hüquqlarına layiq olmasını tələb etməməliyik?

İnsan hüquqları iddiası özlüyündə mənəvi bir tələbdir və mənəvi dəyərlərə əsaslanır. Mənim yaşamaq hüququm heç kəsin mənim həyatımı mənim əlimdən almamalı olduğu deməkdir; bunu etmək yanlışdır. Belə ifadə edildikdə tələbin dəstəyə ehtiyacı qalmır. Çox güman ki, hər bir oxucu bununla razılaşar, çünki bizim hamımız həyatımızın və mövcudluğumuzun özümüzlə bağlı müəyyən aspektlərinin bizim kimliyimiz və şəxsiyyətimiz üçün mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq onların toxunulmaz olmalı olduğunu və başqaları tərəfindən pozulmamalı olduğunu başa düşürük; onlar bizim insanlığımız və ləyaqətimiz üçün önəmlidir. İnsan hüquqları olmadan biz öz potensialımızı tam reallaşdıra bilmərik. İnsan hüquqları sadəcə bu anlayışı fərdi səviyyədə planetdəki hər bir insana şamil edir. Əgər mən bu tələbləri irəli sürə bilirəmsə, ondan hər kəs bunu edə bilər.

**Hər dəfə ədalət öldükdə, sanki o, heç vaxt mövcud olmayıb.**

*Joze Saramaqo*

? *Başqasının yaşamaq hüququnu pozmaq niyə yanlışdır? Onların həyatını almaq niyə yanlışdır? Bunlar eyni suallardır?*

# Əsas dəyərlər

İnsan hüquqları ideyasının əsasında dayanan iki başlıca dəyər **insan ləyaqəti və bərabərlikdir**. İnsan hüquqları layiqli həyat üçün vacib olan əsas standartlar kimi başa düşülə bilər; onların universallığı isə, ən azından bu sahədə, bütün insanların bərabər olması ilə bağlıdır. Biz onlar arasında ayrı-seçkilik etməməliyik və edə bilmərik.

Bu iki inam və ya dəyər, həqiqətən də, özünü insan hüquqları ideyasına həsr etmək üçün tələb olunan hər şeyi əhatə edir və onlar mübahisəli deyil. Buna görə də, insan hüquqları dünyadakı hər mədəniyyət, hər sivil hökumət və hər əsas dindən dəstək alır. Demək olar ki, universal olaraq dövlət gücünü məhdudiyyət qoyulmadan və ya birtərəfli qaydada tətbiq edilə bilməz; dövlətin yurisdikasiyası altında olan bütün insanların müəyyən minimum insan ləyaqəti tələblərinə uyğun şəkildə yaşaya bilməsi üçün dövlətin gücünə müvafiq səviyyədə məhdudiyyət qoyulmalıdır.

**Mən ölüm hökmünü cəmiyyətin mənəvi və hüquqi əsaslarını təhlükə altında qoyan qəddar və mənəviyyatsız bir addım hesab edirəm. Mən inanıram ki, ... qəddarlıq yalnız qəddarlığa təkan verir.**

*Andrey Saxarov*

Bu iki fundamental dəyərdən bir çox digər dəyərlər çıxarıla və onlar insanlar və cəmiyyətlərin praktikada necə birgə mövcud olmasını daha dəqiq şəkildə müəyyən etməyə kömək ola bilər. Məsələn:

**Azadlıq:** çünki insan iradəsi insan ləyaqətinin mühüm hissəsidir. İradəmizin əksinə nəyisə etməyə məcbur olunmaq bizi ruhdan salır.

Digərlərinə hörmət: çünki istənilən şəxsə qarşı hörmətin çatışmazlığı onun fərdiliyi və ləyaqətinin dəyərləndirilməməsinə səbəb olur.

**Ayrı-seçkiliyə yol verilməməsi:** çünki insan ləyaqəti ilə bağlı bərabərlik o deməkdir ki, biz digər insanların hüquq və imkanlarını onların xüsusiyyətləri əsasında mühakimə etməməliyik.

**Dözümlülük:** çünki dözümsüzlük fərqliliyə hörmətin çatışmaması deməkdir; bərabərlik eynilik demək deyil.

Ədalət: çünki bərabər insanlar ədalətli rəftara layiqdir.

**Məsuliyyət:** çünki digərlərinin hüquqlarına hörmət şəxsin hərəkətlərində bütün hüquqların təmin edilməsinə səy göstərilməsi ilə bağlı məsuliyyət doğurur.

# İnsan hüquqlarının xüsusiyyətləri

Filosoflar insan hüquqlarının təbiəti barəsində müzakirələrinə davam edə bilərlər, lakin beynəlxalq ictimaiyyət 1948-ci ildə Ümumdünya İnsan Hüquqları Bəyannaməsini qəbul etməklə insan hüquqlarının təmin olunması üzrə diqqətəlayiq öhdəlik götürməyə başlamışdır. Həmin vaxtdan bəri beynəlxalq ictimaiyyət bir çox beynəlxalq, regional və ölkədaxili hüquqi vasitələrə ÜİHB-in güclü anlayışlarının daxil edilməsinə nail olmuşdur. ÜİHB-in hüquqi cəhətdən öhdəlik yaratması nəzərdə tutulmamışdı, lakin sonradan bir çox hüquqi öhdəlik yaradan müqavilələrdə (digər adı ilə “konvensiyalar” və ya “paktlar”) ÜİHB normalarının əks olunması hazırda onun malik olduğu hüquqi qüvvəni danılmaz edir. Aşağıdakı prinsiplər əsas götürülür:

**Ağrı sizin üçün olduğu kimi başqaları üçün də xoşagəlməz haldır. Bu bərabərlik prinsipindən xəbərdar olaraq başqalarına hörmət və şəfqətlə yanaşın.**

*Suman Suttam*

**İnsan hüquqları alına bilməz.**

Bu, o deməkdir ki, siz onları itirə bilməzsiniz, çünki onlar sizin insan olmağınız faktı ilə yaxından bağlıdır və anadangəlmə bütün insanlara xasdır. Fövqəladə hallarda onlardan bəziləri – hamısı deyil – dayandırıla və ya məhdudlaşdırıla bilər. Məsələn, bir şəxs cinayət törətməkdə təqsirli bilinərsə, onun azadlıq hüququ əlindən alına bilər; yaxud milli fövqəladə halla bağlı hökumət ictimai şəkildə bəyan etməklə müəyyən hüquqların təmin olunmasını dayandıra bilər, məsələn, komendant saatı tətbiq etməklə hərəkət azadlığını məhdudlaşdırmaq.

**İnsan hüquqları bölünməz, qarşılıqlı asılı və əlaqəlidir.**

Bu, o deməkdir ki, müxtəlif insan hüquqları daxilən bir-biri ilə əlaqəlidir və bir-birindən ayrı nəzərdən keçirilə bilməz. Bir hüququn təmin olunması bir çox digər hüquqlardan asılıdır və heç bir insan hüququ digərlərindən daha əhəmiyyətli deyil.

**İnsan hüquqları universaldır**.

O deməkdir ki, onlar dünyadakı bütün insanlara vaxt məhdudiyyəti qoyulmadan bərabər şəkildə şamil olunur. Hər bir insanın "irqi" və ya etnik mənşəyi, dərisinin rəngi, cinsi, əlilliyi, dili, dini, siyasi və ya digər baxışları, milli və ya sosial mənşəyi, anadanolma və ya digər statusuna görə fərq qoyulmadan öz hüquqlarından istifadə etmək haqqı vardır.

Qeyd etməliyik ki, insan hüquqlarının universallığı heç bir halda fərdlərin zəngin fərqliliyini və ya müxtəlif mədəniyyətləri təhlükə altına almır. Universallıq eynilik demək deyil. Fərqlilik hamının bərabər olduğu və hörmət olunduğu dünyada mümkündür. İnsan hüquqları bütün insanlara tətbiq olunan minimum standartlar kimi xidmət edir; hər bir dövlət və cəmiyyət daha yüksək və daha spesifik standartları müəyyən etməkdə və tətbiq etməkdə azaddır. Məsələn, iqtisadi, sosial və mədəni hüquqlar sahəsində bizim bu hüquqların tam reallaşmasını tədricən təmin etmək üçün addımlar atmaq öhdəliyimiz var, lakin buna nail olmaq üçün vergiləri qaldırmaqla bağlı qəti mövqe mövcud deyil. Hər bir dövlət və cəmiyyət öz şərtlərinə uyğun olaraq belə siyasətləri qəbul etməlidir.

**Dövlət suverenliyi məsuliyyət yaradır və vətəndaşlarının qorunması üzrə ilkin məsuliyyət dövlətin üzərinə düşür.**

*Müdaxilə və Dövlət Suverenliyi üzrə Beynəlxalq Komissiyanın Hesabatı, 2001*

# Tarixi çərçivə

İnsanların anadangəlmə müəyyən hüquqlara malik olması fikri bir çox mədəniyyətlər və ənənələrdə kök salmışdır. Biz bir çox möhtərəm liderlərin və mühüm təsirə malik davranış kodekslərinin nümunəsində insan hüquqları dəyərlərinin nə "Qərb tərəfindən yaradılmadığını", nə də 20-ci əsrin ixtirası olmadığını görürük. Onlar universal insan ehtiyaclarına və ədalət axtarışlarına cavabdır. Bütün insan cəmiyyətlərinin öz şifahi və ya yazılı ənənələrində əks olunan idealları və ədaləti təmin etmək üçün sistemləri olub, lakin heç də onların hamısı günümüzə qədər gəlib çatmayıb.

## *Qədim Tarix*

- Babildə Hammurapi Qanunları (İraq, e.ə. 2000) Babil kralı tərəfindən hazırlanmış ilk yazılı hüquqi qanun idi. Burada "krallıqda ədalətin hökm sürməsini təmin etmək, pislik və zorakılığı aradan qaldırmaq, güclünün zəifi istismar etməsinin qarşısını almaq, ... ölkəni maarifləndirmək və insan rifahını yaxşılaşdırmaq" vəd olunurdu.
- Qədim Misir Fironu (e.ə. 2000), deyilənə görə, onun əmri altında olanlara göstəriş vermişdir ki, "Yuxarı və ya Aşağı Misirdən şikayətçi gəldikdə ... hər şeyin qanuna uyğun olaraq edilməsi təmin olunsun, qaydalara əməl edilsin və hər kəsin hüququna hörmət edilsin."
- Kirin Qanunları (İran, e.ə. 539) İran kralı tərəfindən öz krallığındakı insanlar üçün hazırlanmışdı və azadlıq, təhlükəsizlik, dini dözümlülük hüquqlarını, hərəkət azadlığını, köləliyə məruz qalmamaq hüququnu və bəzi sosial və iqtisadi hüquqları əhatə edirdi.Konfutsinin nəzəriyyəsində (e.ə. 500) şəfqət anlayışı və digərlərini sevmək mərkəzi yer tutur. Konfutsi demişdir ki, "Özün üçün arzulamadığını başqalarına da arzulama". ÜİHB-nin hazırlanmasında fəal rol oynamış,
- Konfutsianizm üzrə çinli mütəxəssis Dr. Penq-çun Çanq Konfutsianizmin insan

hüquqları ideyalarının əsasında dayandığına inanırdı. İmam Əli İbn Əl Hüseyn eramızın 8-ci əsrində Hüquqlar üzrə Məktub yazmışdı.

- Malik olduğumuz məlumatlara əsasən, bu məktub həmin dövrdə qəbul edilən əsas hüquqları əks etdirən ilk sənəd və hüquqlar anlayışına mənfi tərəfdən yanaşmayan ilk cəhd idi. Məktub metodoloji olaraq 50 hüququ sıralayırdı. Həmin hüquqlar İslamın ilk öyüdlərinin ruhunda özünü göstərir.
- Charte du Mande (b.e. 1222) və Charte de Kurukan Fuga (b.e. 1236), Qərbi Afrikanın şifahi ənənələrinin kodifikasiyasına əsaslanaraq desentralizasiya, ətraf mühitin qorunması, insan hüquqları və mədəni müxtəliflik prinsiplərini rəhbər tutur.
- Afrika yanaşması olan "ubuntu" insan olmağın əsasında nəyin dayandığını əhatə edir. Ubuntu icmanın bütün üzvlərinə münasibətdə hörməti, qonaqpərvərlik və əliaçıqlığı vurğulayır. Ubuntu anlayışı qısa şəkildə belə ifadə oluna bilər: "İnsan digər insanlar vasitəsilə insandır". Bu anlayışın insan hüquqları üçün dərin nəticələri var. Əgər biz digərləri vasitəsilə insanıqsa, onda digər bir şəxsi insanlıqdan çıxardıqda biz də insanlıqdan çıxırıq – digərlərinin hüquqlarını təmin etmək ehtiyacı, bağışlamaq və bağışlanmaq, digərlərinin insan hüquqlarına hörmətlə yanaşmaq məsələləri də burada əhatə olunur.

İnsan digərləri vasitəsilə insan olur.

? *Sizin ölkənizin tarixində hansı məhşur şəxslər (siyasi, ədəbi və dini) insan hüquqları dəyərləri uğrunda mübarizə aparıb və ya bu mübarizəyə öndərlik edib?*

## *13-cü əsrdən 18-ci əsrə qədər*

Universal insan hüquqları ideyası əsrlər boyu dünyadakı sivilizasiyaların malik olduğu ləyaqət və hörmət anlayışları əsasında formalaşmışdır. Buna baxmayaraq, bu hörmətin qanunda əks olunması fikrinin ortaya çıxması bir çox nəsillərin keçdiyi inkişaf prosesi nəticəsində mümkün olmuşdur. Biz hüquqlar anlayışını leqallaşdırmaqla bağlı qətiyyəti müəyyən tarixi təcrübələrdən aldıq. Bildiklərimiz, əlbəttə ki, tam siyahı deyil. Digər mədəniyyətlərin tarixi üzrə biliklərimiz artdıqca, şübhəsiz, digər mədəniyyətlərdə də hüquqları qanuniləşdirmək üzrə tarixi stimulu aşkarlayacağıq.

**Tarixin hər bir mərhələsində istismara qarşı etiraz səsləri eşidilib; həmçinin, hər dövrdə insanların azad olunması ilə bağlı baxışlar qarşıdurmaya məruz qalıb. Müasir dövrə gəldikdə bu səslər və baxışlar sosial fəaliyyət proqramlarına çevrilib, bəzi hallarda isə dövlətlərin konstitusiyalarına daxil edilib.**

*Mişelin R. İshay*

- 1215-ci ildə İngiltərə zadəganları və ruhani təbəqənin üzvləri Azadlıqların Böyük Xartiyasını (Maqna Karta) hazırlamaqla İngiltərə Kralını qanuna əməl etməyə məcbur etdilər. Maqna Karta yalnız imtiyazlı təbəqənin (zadəganlar) hüquqlarını qoruyurdu, buna görə də, özlüyündə insan hüquqları barəsində deyildi. Bu sənəd kralın gücünə məhdudiyyət qoyduğundan və digər insanların hüquq və azadlıqlarını tanıdığından azadlıqların müdafiəsi zamanı geniş şəkildə istinad edilən mənbəyə çevrildi.
- 1689-cu ildə İngiltərə parlamenti daha kralın onun işlərinə müdaxiləsinə dözməyəcəyinə dair bill qəbul etdi. Hüquqlar Billi kimi tanınan bu sənəd monarxın Parlamentin razılığı olmadan qanunu ləğv etməsini qadağan etdi, Parlament üzvlərinin azad seçkilərlə seçiləcəyini müəyyən etdi, eləcə də Parlamentdə, məhkəmələrdə və ya digər yerlərdə söz azadlığının sual altına alına bilməyəcəyini bəyan etdi.

**Azadlıq özümüz üzərində olan gücümüzdür.**

*Hüqo Qrotsi*

- Hüqo Qrotsi (1583–1645) beynəlxalq hüququ ixtira edən şəxs kimi tanınır. Onun Müharibə və sülh qanunları kitabında yerli qanun və ya ənənələrindən asılı olmayaraq bütün xalqların əməl etməli olduğuna inandığı, "təbii qanun"a əsaslanan ümumi prinsiplər sistemi təqdim edilir. 17-ci və 18-ci əsrlərdə Avropada bir çox

**Hüquqlar billi insanların dünyadakı hər bir hökumətə qarşı malik olduğu ümumi və ya xüsusi hüquqları əhatə edir. Hər bir ədalətli hökumət onları təmin etməlidir. Tomas**

*Cefferson, 1787*

**İstənilən assosiasiyanın məqsədi insanların təbii və ayrılmaz hüquqlarını qorumaqdır. Buraya azadlıq, mülkiyyət, təhlükəsizlik hüquqları və istismara qarşı müqavimət daxildir.**

*İnsan və vətəndaş hüquqları Bəyannaməsi, 1789. Fransa*

**İnsan olmaq...təbiətən tam azad, bərabər və müstəqil olmaqdır, heç kim razılığı olmadan digərinin siyasi gücünə tabe olmağa məcbur edilə bilməz.**

*Con Lok*

filosoflar "təbii hüquqlar" anlayışını daha da inkişaf etdirdilər.

- Con Lok (1689) hər bir insanın, hökumət və ya qanunlardan deyil, öz təbiətindən irəli gələn müəyyən hüquqları olduğu barədə nəzəriyyəni inkişaf etdirdi. Əslində, hökumətin legitimliyi onun bu təbii hüquqlara qoyduğu hörmətdən asılı idi. Bu təbii hüquqların insanların müəyyən hüquqi təminatlara malik olmasına təkan verməsi fikri daha geniş şəkildə qəbul olunmağa başladı və bəzi ölkələrin konstitusiyalarına daxil edildi. İnsan hüquqları bu fikiri yenidən formalaşdırdı və hökumətlərlə vətəndaşlar arasındakı əlaqəyə tətbiq etdi.
- 1776-cı ildə Şimali Amerikadakı əksər Britaniya müstəmləkələri Birləşmiş Ştatlar Azadlıq Bəyannaməsində Britaniya İmperiyasından öz müstəqilliklərini elan etdilər. Bu, əsasən, Lok və Monteskyönün "təbii hüquq" nəzəriyyələrinə əsaslanırdı. Bəyannamədə hökumət gücünün saxlanması və azadlığın qorunmasının vacibliyi inamına əsaslanmaqla müvafiq anlayışların inkişaf etdirilməsi təmin olundu: ayrılmaz hüquqlar; fərdi hüquqların qorunması; söz, mətbuat, petisiya və toplaşmaq azadlığı; şəxsilik; lazımi qanuni proses; qanun qarşısında bərabərlik və din azadlığı.
- 1789-cu ildə fransız xalqı monarxiyanı devirdi və birinci Fransa Respublikasını yaratdılar. İnsan və Vətəndaş Hüquqları üzrə Fransa Bəyannaməsi inqilabın nəticəsi idi və ruhanilər, zadəganlar və sadə xalqın nümayəndələri tərəfindən yazılmışdı. Burada Maarifçilik hərəkatı xadimlərindən Volter, Monteskyö, Ensiklopediyaçılar və Russonun fikirləri əks olunmuşdu. Bəyannamə monarxiyanın siyasi və hüquqi sistemini hədəf alırdı və insanın təbii hüquqları kimi "azadlıq, mülkiyyət, təhlükəsizlik və istismara qarşı müqavimət hüquqları"nı müəyyən edirdi. Bu bəyannamə monarxiya dövründə mövcud olmuş aristokratik imtiyazlar sistemini qanun qarşısında bərabərlik prinsipi ilə əvəz etdi. Buradakı eqalitar anlayışların və bərabər hüquqlar nəzəri fikrinin reallığa tətbiqi isə müəyyən qədər vaxt aldı. Cəmiyyətdəki bərabərsizlik dərin köklərə malik idi və onun aradan qaldırılması nəsillərin fəaliyyəti nəticəsində mümkün oldu.

## *Erkən beynəlxalq razılaşmalar: köləlik və əmək*

19-cu və 20-ci əsrlərdə bir sıra insan hüquqları məsələləri önə çıxdı və onların beynəlxalq səviyyədə baxılmasına başlandı, buraya köləlik, təhkimçilik, zalım iş şəraiti və uşaq əməyi daxil idi. Bu dövrlərdə insan hüquqları üzrə ilk beynəlxalq müqavilələr qəbul olundu. Bu müqavilələr faydalı mühafizələr təmin etsələr də, onların əsasında dövlətlər arasındakı qarşılıqlı öhdəliklər dururdu. Bu isə müasir insan hüquqları müqavilələrinə tam ziddir, çünki onlarda öhdəliklər birbaşa fərdi hüquq sahibləri qarşısındadır.

- 19-cu əsrə keçildiyi bir vaxtda köləlik İngiltərə və Fransada qeyri-leqal elan edildi və 1814-cü ildə Britaniya və Fransa hökumətləri Paris Müqaviləsini imzalayaraq kölə ticarətinə qarşı mübarizədə əməkdaşlıq etməyə başladılar. 1890-cı il Brüssel Konfransında köləlik əleyhinə Akt imzalandı və sonradan on səkkiz dövlət tərəfindən ratifikasiya olundu. Burada Afrikada kölə ticarətinə son qoyulması niyyəti bəyan olunmuşdu.
- Lakin burada məcburi əmək və davam etməkdə olan qəddar iş şərtləri əhatə olunmamışdı. Hətta 1926-cı il Beynəlxalq Köləlik Konvensiyası köləliyin bütün formalarının ləğvini nəzərdə tutsa da, 1940-cı illərə qədər məcburi əmək üzrə ümumi praktikaya təsir göstərməmişdi.

- 1919-cu ildə Beynəlxalq Əmək Təşkilatının (ILO) yaradılması universal və davamlı sülhə yalnız sosial ədalət əsasında nail oluna biləcəyi inamını əks etdirdi. ILO layiqli və məhsuldar iş, azadlıq, bərabərlik, təhlükəsizlik və ləyaqəti əhatə edən beynəlxalq əmək standartları sistemini inkişaf etdirdi.
- ILO-nun fəaliyyət sahələrindən biri uşaq əməyi ilə, xüsusilə onun ən pis formaları ilə mübarizə üzrə görülən işlərdir. Hazırda bu sahədə bir çox addımlar atılır, o cümlədən uşaq əməyi məsələri beynəlxalq müqavilələrdə öz əksini tapır, məsələn, Uşaq Əməyinin Ən pis Formaları üzrə 182 saylı ILO Konvensiyası və Minimum İşəgötürmə Yaşı üzrə 138 saylı ILO Konvensiyası.
- 1899-1977-ci illər arasında beynəlxalq humanitar hüquq sahəsində bir sıra əsas müqavilələr qəbul olundu. Beləliklə, xalqlar arasında erkən əməkdaşlığın başqa bir sahəsi ortaya çıxdı. Beynəlxalq humanitar hüquq silahlı münaqişə zamanı davranışı tənzimləyir. Beynəlxalq humanitar hüququn müxtəlif sahələrində insan hüquqları tətbiq oluna bilər, məsələn, məhbuslarla rəftarla bağlı. Buna baxmayaraq, beynəlxalq humanitar hüquq münaqişə zamanı bir çox digər məsələlərlə bağlı daha çox ixtisaslaşmışdır və detalları əhatə edir, məsələn, istifadəsinə icazə verilən silahlar və hərbi taktikalarla əlaqədar.

**Azad olub ac qalmaq kök bir kölə olmaqdan daha yaxşıdır.**

*Ezop*

? *Sizin fikrinizcə, nəyə görə ayrı-ayrı ölkələrin öz standartlarını müəyyən etməsi yerinə beynəlxalq müqavilələrin imzalanmasına ehtiyac yarandı?*

## *20-ci əsr*

Hökumətin səlahiyyətli qurumlarının istismarına qarşı insanların hüquqlarının qanunla qorunması fikri 20-ci əsrdə daha geniş şəkildə qəbul olunmağa başlandı, xüsusilə Millətlər Liqası və Beynəlxalq Əmək Təşkilatının yaradılması, eləcə də onların azlıqların hüquqları, əmək və digər məsələlər üzrə fəaliyyəti buna təkan verdi. Bu hüquqların yazılı formada kodifikasiyasının əhəmiyyəti artıq dövlətlər tərəfindən tanınmışdı. Belə ki, yuxarıda qeyd olunmuş sənədlər günümüzün bir çox insan hüquqları müqavilələri üçün öncül mənbələrə çevrildilər. Buna baxmayaraq, məhz II Dünya Müharibəsi nəticəsində insan hüquqları beynəlxalq səhnəyə çıxarıldı. Bu müharibədə törədilmiş dəhşətli cinayətlər – o cümlədən holokost və kütləvi müharibə cinayətləri – beynəlxalq hüquq orqanının yaradılmasının və insan hüquqlarının hazırda bildiyimiz səviyyədə tanıdılmasının əhəmiyyətini anlamağımıza səbəb oldu.

**İnsanlar dünyanın harasında olmağımızdan asılı olmayaraq insan təbiətinin bənzər olduğunu başa düşə bilmədiyi müddətcə müharibələrə pul xərclənəcək.**

*Pyer Dako*

1945-ci il iyunun 26-da imzalanmış BMT Nizamnaməsi bu inamı əks etdirdi. Nizamnamə BMT-nin bu fundamental məqsədinin "gələcək nəsilləri müharibə bəlasından qorumaq" və "fundamental insan hüquqları, insan ləyaqəti və dəyəri, kişi və qadınların bərabər hüquqlarına olan inamı yenidən təsdiqləmək" olduğunu bəyan edir.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (ÜİHB) BMT qurumlarından biri olan İnsan Hüquqları Komissiyası tərəfindən hazırlanmış və 1948-ci il dekabrın 10-da Baş Assambleya tərəfindən qəbul olunmuşdur. ÜİHB şübhəsiz inqilabi bir sənəddir və ən vacib insan hüquqları vasitəsi olmağa davm edir. Hüquqi cəhətdən öhdəlik yaratmasa da, ÜİHB milli, regional və ya beynəlxalq səviyyədə insan hüquqları üzrə çoxsaylı öhdəliklər üçün ilham qaynağı olmuşdur.

O vaxtdan bəri onun prinsiplərini qorumaq üçün bir sıra əsas vasitələr hazırlanmış və beynəlxalq ictimaiyyət tərəfindən razılaşdırılmışdır. Həmin beynəlxalq müqavilələrin bəziləri haqqında daha geniş məlumat bu fəsilin sonrakı hissələrində verilmişdir.

# Dünya üzrə insan hüquqları

Ümumdünya İnsan Hüquqları Bəyannaməsi qəbul edildikdən sonra dünyanın bəzi regionları insan hüquqlarının qorunması üçün BMT ilə yanaşı mövcud olan sistemlər yaratmışlar. Hazırda Avropa, Amerika və Afrikada regional insan hüquqları institutları vardır. Eyni zamanda, Ərəb dünyası və ASEAN regionunda (Cənub-şərqi Asiya Xalqları Assosiasiyası) regional insan hüquqları standartlarının instutisionallaşdırılması üzrə müəyyən addımlar atılmaqdadır. Buna baxmayaraq, dünyanın bu hissəsindən olan ölkələrin əksəriyyəti əsas BMT müqavilələri və konvensiyalarını ratifikasiya etmişdir – bununla da, ümumi prinsiplərə razılıqlarını bildirmiş və könüllü şəkildə beynəlxalq insan hüquqları hüququ üzrə öhdəlik götürmüşlər.

Avropada müxtəlif insan hüquqları standartları və mexanizmləri qitənin insan hüquqları üzrə nəzarətçisi olan Avropa Şurası tərəfindən təmin edilir. Onun Avropa Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsi üzrə rolu aşağıda daha geniş şəkildə izah olunacaqdır.

Avropa Şurası ilə yanaşı Avropa İttifaqı və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) da mühüm rol oynayır.

Avropa İttifaqı

Avropa İttifaqının insan hüquqlarının qorunması üzrə öhdəliyi 2009-cu il dekabrın 1-də qüvvəyə minmiş və Avropa İttifaqı Fundamental Hüquqlar Xartiyasına tam hüquqi qüvvə vermiş Lissabon Müqaviləsi ilə geniş vüsət aldı. Mülki, siyasi, sosial və iqtisadi hüquqları əhatə edən Xartiya həm üzv dövlətlərin, həm də Avropa İttifaqının bu hüquqlara əməl etməsini tələb edir. Avropa İttifaqının Ədalət Məhkəməsi Xartiyaya zidd olan Aİ qanunvericiliyini ləğv edəcək və üzv dövlətlərin Aİ hüququna əməl etməsinə nəzarət edəcəkdir. Lakin gündəlik icra ilə bağlı məsələlərə dövlətlərin daxili məhkəmələrində baxılacaqdır. Xartiya hüquqları altı "sərlövhə" və ya başlıq altında təqdim edir: ləyaqət, azadlıq, bərabərlik, həmrəylik, vətəndaşların hüquqları və ədalət. "Ləyaqət" başlığı yaşamaq hüququnu təmin edir və işgəncə, köləlik və ölüm hökmünü qadağan edir; "azadlıq" başlığı altında şəxsilik, evlilik, düşüncə, ifadə, toplaşmaq, təhsil, əmək, mülkiyyət və sığınacaq hüquqları verilir; "bərabərlik" başlığı uşaqların və yaşlıların hüquqlarını əhatə edir; "həmrəylik" sosial və işçi hüquqlarını, ədalətli iş şəraiti, əsaslandırılmamış işdən çıxarılmaya qarşı qorunma və səhiyyə xidmətlərinə çıxışı müdafiə edir; "vətəndaşların hüquqları" başlığı səs vermək hüququnu və hərəkət azadlığını əhatə edir və "ədalət" başlığında təsirli vasitə, ədalətli mühakimə hüququ və təqsirsizlik prezumpsiyası əks olunur.

Fundamental Hüquqlar Agentliyi (FRA) Avropa İttifaqı ərazisində fundamental hüquqlar üzrə vəziyyətlə bağlı dəlilləri toplayan ixtisaslaşmış orqandır və mövcud vəziyyəti yaxşılaşdırmaq üçün məlumat və məsləhəti təmin edir. Bu Agentlik nəzarətçi rolu oynamır, əksinə fundamental hüquqlarla bağlı vəziyyətin yaxşılaşdırılması üçün lazımi məsləhətləri verərək müvafiq institutlarla əməkdaşlıq edir.

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) Avropa, Mərkəzi Asiya və Şimali Amerikadan 56 dövləti bir araya gətirir. Bu təşkilat məhz insan hüquqlarının qorunması ilə məşğul olmasa da, onun təhlükəsizliyə dolğun yanaşması geniş həcmdə məsələləri, o cümlədən insan hüquqları, milli azlıqlar, demokratikləşmə,

asayiş strategiyaları, terrorizm əleyhinə mübarizə, iqtisadi və ətraf mühit məsələlərini nəzərdən keçirməyə imkan verir. ATƏT-in insan hüquqları sahəsində fəaliyyəti Demokratik Təsisatlar və İnsan Hüquqları üzrə Büro vasitəsilə həyata keçirilir. Varşavada yerləşən Büro (ODIHR) ATƏT çərçivəsində seçkilərə nəzarət, demokratik inkişaf, insan hüquqları, dözümlülük, ayrı-seçkiliyin qarşısının alınması və qanunun aliliyi sahələrində fəaldır. Onun gənclərlə bağlı fəaliyyətinə insan hüquqları təhsili, antisemitizmə və İslamafobiyaya qarşı mübarizə daxildir.

ATƏT

http://www.osce.org/odihr

Amerika regionunda insan hüquqları standartları və mexanizmləri 1948-ci il İnsan Hüquqları və Öhdəlikləri üzrə Amerika Bəyannaməsində və 1969-cu il İnsan Hüquqları üzrə Amerika Konvensiyasında öz əksini tapmışdır. Eyni zamanda, qaçqınlar, işgəncənin qarşısının alınması və cəzalandırılması, ölüm hökmünün ləğvi, itkin düşmələr, qadınlara qarşı zorakılıq, ətraf mühit və digər məsələlərlə bağlı spesifik vasitələr qəbul olunmuşdur.

Amerika Dövlətləri Təşkilatı

İnsan və Xalqların Hüquqları üzrə Afrika Xartiyası 1986-cı ilin oktyabrında qüvvəyə minmiş və 2007-ci ilədək 53 dövlət tərəfindən ratifikasiya olunmuşdur. Xartiya dünyanın digər hissələrində qəbul olunmuş müqavilələrdən bir sıra xüsusiyyətlərinə görə fərqlənir:

- Avropa və ya Amerika Konvensiyalarından fərqli olaraq Afrika Xartiyası sosial, iqtisadi və mədəni, eləcə də mülki və siyasi hüquqları eyni müqavilədə əhatə edir.
- Afrika Xartiyası fərdi hüquqlardan daha irəli gedir və xalqların kollektiv hüquqlarını da təmin edir.
- Xartiya fərdlərin hüquqlarla yanaşı öhdəlikləri olduğunu tanıyır və fərdin öz ailəsinə, cəmiyyətinə, Dövlətə və beynəlxalq ictimaiyyətə münasibətdə daşıdığı spesifik öhdəlikləri sadalayır.

Afrika İttifaqı

**Hər kəsin onun şəxsiyyətinin azad və tam şəkildə reallaşmasının mümkün olduğu icmaya münasibətdə öhdəlikləri var.**

*Ümumdünya İnsan Hüquqları Bəyannaməsi*

? *Sizin fikrinizcə, nəyə görə insan hüquqları xartiyasında öhdəliklərə də istinad olunmuşdur? Fikrinizcə, onlar bütün insan hüquqları sənədlərində sadalanmalıdır?*

İnsan Hüquqları üzrə regional Ərəb Komissiyası 1968-ci ildən bəri fəaliyyət göstərir, lakin onun insan hüquqlarının təmin olunması ilə əlaqədar səlahiyyətləri olduqca məhdud və seçmədir. İnsan Hüquqları üzrə Ərəb Xartiyasının yenilənmiş forması Ərəb Dövlətləri Liqası tərəfindən 2004-cü ildə qəbul olunuş və 2008-ci ildə qüvvəyə minmişdir.

Bu sənəddə həm sosial-iqtisadi, həm də mülki-siyasi hüquqlar əks olunur, eləcə də Ərəb Dövlətlərinin bölüşdüyü "ümumi sivilizasiya"ya istinad edilir. Xartiyanın qüvvəyə minməsi və onun nəzarət mexanizmləri – Ərəb İnsan Hüquqları Komitəsi və İnsan Hüquqları üzrə Ərəb Sub-Komissiyası - regionda insan hüquqlarının inkişafı üçün ümidverici addımlar kimi qarşılanmışdır. Buna baxmayaraq, Xartiya ciddi tənqidə məruz qalmışdır, məsələn, qəddar rəftarın qadağan olunmaması, yalnız vətəndaşlar üçün iqtisadi və sosial hüquqlara zəmanət verilməsi, bəzi hüquqların İslam Şəriəti ilə şərtləndirilməsi, milli qanun icazə verdiyi halda uşaqlara ölüm cəzasının tətbiq olunmasına icazə verməsi, qanun icazə verdikdə düşüncə, vicdan və din azadlığına məhdudiyyət gətirilməsinə icazə verməsi ilə əlaqədar.

İnsan Hüquqları üzrə Ərəb Xartiyası

ASEAN

ASEAN regionunda bu regional təşkilatın 2009-cu ildə götürdüyü İnsan Hüquqları üzrə Hökumətlərarası Komissiyanın yaradılması ilə bağlı öhdəliyini yerinə yetirməsi üçün cəhdlər edilmişdir. 2009-cu ilin İstinad Şərtləri bu Komissiya üçün müəyyən etmişdir ki, Komissiya "Beynəlxalq insan hüquqları prinsiplərinə, o cümlədən bütün insan hüquqları və fundamental azadlıqlarının universallığı, bölünməzliyi, qarşılıqlı asılılığı və əlaqəsi, eləcə də ayrılmazlığı və obyektivliyinə, qeyri-seçicilik, ayrı seçkiliyin olmaması, ikili standartlar və siyasiləşdirmənin qarşısının alınmasına hörməti" təmin edəcəkdir.

# Hüquqlarımızdan necə istifadə edə bilərik?

İnsan hüquqları hamımız üçün mövcuddur. Bu halda, biz onlardan necə istifadə edə bilərik? Aydındır ki, onların sadəcə mövcudluğu insan hüquqları pozuntularına son qoymaq üçün kifayət deyil, çünki biz hamımız bu halların dünyanın hər yerində, hər gün baş verdiyini bilirik. Beləliklə, onlar, həqiqətən, fərq yarada bilir? Biz onlardan necə istifadə edə bilərik?

? *İnsan hüquqlarınız pozulduğu halda, nə etməli olduğunuzu bilirsiniz?*

**Dəyərlər külək kimi görünməzdir. Yarpaqların dalğalanmasından küləyin əsdiyini müəyyən edirsiniz. Dəyərləri isə insanların hərəkətlərindən anlayırsınız.**

*Eva Anksel*

## *Hüquqlarınızı tanımaq*

Növbəti bölmədə biz beynəlxalq hüquqla qorunan müxtəlif hüquq növlərini nəzərdən keçirəcəyik. Əgər biz insanların mövcudluğunun hansı sahələrinin insan hüquqları hüququ ilə bağlı olduğunu bilsək və hökumətlərin bu hüquq qurumu altında hansı öhdəlikləri daşıdığından xəbərdar olsaq, onda başqa yollarla təzyiq göstərməyə başlaya bilərik. Həmin bölmə ədalətsizliyin, demək olar ki, bütün sahələrinin insan hüquqları ilə bağlı olduğunu nümayiş etdirir: kiçik miqyasda yoxsulluqdan tutmuş ətraf mühitə vurulan ziyan, sağlamlıq, iş şəraiti, siyasi repressiya, səs vermək hüquqları, gen mühəndisliyi, azlıqların hüquqları, münaqişə, soyqırım və …. digərlərinə qədər. Hazırda belə məsələlərin sayı daha da artmaqdadır.

İnsan hüquqları üzrə qanunvericiliyin tətbiqi ilə bağlı bəzi məsələlərə birbaşa "Suallar və Cavablar" bölməsində toxunulmuşdur. Burada insan hüquqları ilə bağlı tez-tez soruşulan bəzi ümumi suallara qısa cavablar verilmişdir. Əgər siz hər hansı xüsusi məsələnin – məsələn, sağlamlıq, təhsil və ya ədalətli iş şəraiti hüququ - necə daha yaxşı qoruna biləcəyi ilə bağlı məlumat almaq istəsəniz, www.coe.int/compass saytında həmin məsələ üzrə ümumi məlumat hissəsinə baxa bilərsiniz.

## *Hüquqi mexanizmlərdən istifadə*

Biz insan maraqlarının müxtəlif sahələrinin qorunması üzrə mövcud olan hüquqi mexanizmləri nəzərdən keçirəcəyik. Avropada – lakin eləcə də Afrika və Amerikada – hüquq pozuntuları ilə bağlı şikayətlərə baxan məhkəmə var – Avropa İnsan Hüquqları Məhkəməsi. Hətta şikayətlər Avropa Məhkəməsinin yurisdiksiyası altına düşməsə də, biz dövlətləri öz fəaliyyətlərinə görə hesabat verməyə vadar etmək və onların insan hüquqları hüququna əməl etməsini təmin etmək üçün başqa mexanizmlərin olduğunu görəcəyik. Bu, qanunun hər zaman – hətta dövlətlərin ona əməl etməsini təmin etmək üçün hüquqi vasitələr olmasa belə - yerində olmasına imkan verir.

## *Lobbiçilik, kampaniya aparmaq və aktivizm*

Dövlətlərə təzyiq göstərməkdə assosiasiyalar, qeyri-hökumət təşkilatları, xeyriyyə və digər vətəndaş təşəbbüsü qrupları mühüm rol oynayır. Bu, aktivizm və QHT-lərin rolu üzrə bölmədə əhatə olunan məsələdir. Belə assosiasiyaların rolu xüsusən küçədəki sadə kişi və qadın üçün önəmlidir, çünki sözügedən assosiasiyalar adətən fərdi məsələlər uğrunda mübarizə aparmaqla yanaşı sadə insanların başqalarının insan hüquqlarının qorunmasına cəlb edilməsi üçün vasitələri təmin edirlər. Belə assosiasiyalar özləri də sadə insanlar tərəfindən yaradılmışdır! Biz onların insan hüquqları ilə bağlı vəziyyəti yaxşılaşdırmaq üçün necə çalışdığını və bir neçə uğurlu fəaliyyət nümunəsini nəzərdən keçirəcəyik.

**?** *Siz nə vaxtsa hər hansı kampaniyaya və ya insan hüquqları aktivizminə cəlb olunmusunuz?*

## *Cəlb olunmaq*

3-cü fəsil, Hərəkətə keçmək, belə fəaliyyət növlərini gündəlik həyat səviyyəsinə gətirir və sizin cəlb oluna biləcəyiniz bir sıra fəaliyyət növlərini təklif edir. Gənclər qrupları dövlətlər və ya beynəlxalq qurumlara təzyiq göstərmək və insan hüquqları pozuntularının qarşısının alınmasını və ya ictimaiyyətin diqqətinə çatdırılmasını təmin etmək üçün böyük potensiala malikdirlər. Bu bölmədəki nümunələr sizin qrupun və ya digər qrupların görə biləcəyi konkret tədbirləri təqdim edir və qeyri-hökumət təşkilatlarının gündəlik həyatda rolu ilə bağlı daha dərin məlumat verir.

**Hər bir insan öz hüquq və azadlıqlarını həyata keçirərkən, müstəsna olaraq, başqalarının hüquq və azadlıqlarının lazımi qaydada tanınması və onlara hörmət edilməsinin təmin edilməsi və demokratik cəmiyyətdə əxlaq qaydalarının, ictimai asayişin və ümumi rifahın ədalətli tələblərinin ödənilməsi naminə qanunla müəyyən edilmiş məhdudiyyətlərə məruz qala bilər. ÜİHB,**

*Maddə 29 (2)*

# İnsan Hüquqları Dilemmaları

Hüquqları reallaşdırmaq çoxsaylı maneələrlə üzləşmək deməkdir. İlk növbədə, bəzi hökumətlər, siyasi partiyalar və namizədlər, sosial və iqtisadi oyunçular və vətəndaş cəmiyyəti aktyorları insan hüquqları məqsədləri üzrə öhdəlik götürmədən insan hüquqları dilindən istifadə edirlər. Bəzi hallarda, bu insan hüquqları standartları üzrə çağırışın məhdud şəkildə başa düşülməsi ilə bağlı olur. Digər hallarda isə, bu, məqsədli şəkildə edilən sui-istifadənin, özlərini insan hüquqlarına hörmət edən şəxslər kimi göstərərək ictimaiyyətin gözündə yaxşı görünmək arzusunun nəticəsi olur. İkinci cəhət bundan ibarətdir ki, siyasi partiyalar, namizədlər və ya vətəndaş cəmiyyəti digərləri tərəfindən insan hüquqlarının pozulmasını tənqid edə, lakin özləri həmin standartlara əməl etməyə bilərlər. Bu, çox vaxt ikili standartlar kimi tənqid olunur. Üçüncü məsələ, insan hüquqlarının digərlərinin hüquqlarını qorumaq adı altında məhdudlaşdırılması hallarıdır. Bu hallar, əlbəttə, legitim ola bilər. İnsan hüquqları sərhədsiz deyil və öz hüquqlarınızı reallaşdırarkən digərlərinin hüquqları ilə toqquşmamalısınız. Bununla belə, biz "digərlərinin insan hüquqlarının qorunması"nın məhdudiyyətlər gətirmək üçün boş bəhanə kimi istifadə olunmasına qarşı diqqətli olmalıyıq. Belə hallara nəzarət etmək üçün fəal vətəndaş cəmiyyəti və müstəqil məhkəmə sisteminin olması vacibdir. Dördüncü olaraq, bəzi hallarda bir qrup insanın hüquqlarının qorunması üçün digərlərinin hüquqlarının məhdudlaşdırılması labüddür. Bu hal hüquqların məhdudlaşdırılması üzrə yuxarıda qeyd olunan haldan fərqləndirilməlidir. Belə hallarla bağlı mühakimə yürütmək heç də həmişə asan olmur.

## Hüquqlar toqquşması

Hüquqlar özləri də ziddiyyətdə ola bilərlər. “Hüquqların toqquşması” dedikdə müxtəlif insan hüquqları və ya ayrı-ayrı insanların eyni insan hüququ arasında ortaya çıxan toqquşmalar nəzərdə tutulur. Bir nümunə kimi sağ qalmaq üçün yeni ürəyə ehtiyacı olan iki xəstəni göstərmək olar; lakin transplantasiya üçün yalnız bir ürək var. Bu halda, bir şəxsin yaşamaq hüququ digərinin eyni insan hüququ ilə ziddiyyətdədir. Digər nümunə isə eftanaziyadır, bir şəxsin yaşamaq hüququ onun ölmək hüququ ilə və ya alçaldıcı rəftara məruz qalmamaq hüququ ilə toqquşa bilər. Bu şəkildə bir şəxsin müxtəlif insan hüquqları toqquşa bilər. Üçüncü halda isə müxtəlif insanların fərqli insan hüquqları toqquşur. Belə halın bir nümunəsi İrqi Ayrı-seçkiliyin Ləğvi üzrə BMT Komitəsinə çıxarılmış məhkəmə işi – Oslonun Yəhudi icması və digərləri Norveçə qarşı işində əks olunmuşdur. 2000-ci ildə “Bootboys” adlanan qrup nasist lider Rudolf Hess xatirəsinə yürüş keçirmişdir. İştirakçılar “yarım-hərbi” formalar geyinmişdilər və yürüşün lideri cənab Terje Sjoli antisemitik nitq söyləmiş, bundan sonra, kütlə bir neçə dəfə nasist salamı vermiş və “Sieg Heil” çığırmışdı. Burada toqquşma cənab Sjolinin söz azadlığı və Yəhudi icmasının ayrı-seçkiliyə məruz qalmamaq hüququ arasında idi. BMT Komitəsi qərara aldı ki, cənab Sjoli tərəfindən edilmiş bəyanatlarda irqi hökmranlıq və nifrət ideyaları əks olunmuşdur, buna görə də, istisna şəkildə belə təhqiredici nitq söz azadlığı hüququ ilə qorunmur.

## Mədəni ənənələr

**Getdikcə daha çox aydın olur ki, qadınların sünnəti, namus cinayətləri, məcburi evliliklər və digər bənzər halların qarşısının alınması üçün qadınların öz cəmiyyətlərinin sosial, iqtisadi, mədəni və siyasi həyatında tam-hüquqlu və bərabər üzvlər hesab olunması labüddür.**

*Halima Embarek Varzazi1*

Zərərli Ənənənəvi Təcrübələr

Ənənəvi mədəni praktikalar adətən icmanın üzvləri tərəfindən nəsillərlə əməl olunan dəyərləri və inamları əks etdirir. Dünyadakı hər bir sosial qrupun spesifik mədəni inamları və ənənələri vardır, onların bəziləri bütün üzvlər üçün faydalı olsa da, digərləri spesifik qrup, məsələn, qadınlar üçün zərərlidir. Belə zərərli ənənəvi təcrübələrə göstərilənlər aiddir: qadınların sünnəti (FGM); qadınların qidalamdırmağa məcbur edilməsi; erkən evlilik; qadınların nəsil verməklə bağlı öz qərarlarını qəbul etməsinə mane olan müxtəlif tabular və ya təcrübələr; qidalanma ilə bağlı tabular və ənənəvi doğum təcrübələri; oğlan uşaqlarının üstün tutulması və onun qız uşağının vəziyyətinə təsirləri; qız uşaqlarının qətlə yetirilməsi; erkən hamiləlik; və başlıq pulu. Qeyd olunanların zərərli xarakterinə və onların beynəlxalq insan hüquqları sənədlərinə zidd olmasına baxmayaraq, belə təcrübələr davam edir, çünki heç kim onları sual altında qoymur və onlar tətbiq olunduqları cəmiyyətlərdə şəxslər tərəfindən mentalitetin bir hissəsi kimi qəbul olunurlar.
*BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının Ofisi*

Qadınların və uşaqların sağlamlığına mənfi təsir edən və beynəlxalq insan hüquqları standartlarını pozan bir çox təcrübələr adətən “zərərli ənənəvi təcrübələr” adlandırılır. Bu, o demək deyil ki, bütün ənənəvi təcrübələr zərərlidir və insan hüquqlarını pozur, lakin onlar belə nəticələr törətdikdə biz onları sual altında qoymalı və müzakirə obyektinə çevirməliyik.

Ailələr tərəfindən razılaşdırılmış evliliklər bir çox mədəniyyətlərdə geniş yayılmış təcrübədir, bu halda, gənc qadınlar, eləcə də kişilər, adətən çox gənc yaşda, ailələri tərəfindən seçilmiş şəxslə evlənmək məcburiyyətində qalırlar (nəzərə alın ki, məcburi evliliklə planlaşdırılmış evlilik eyni anlayışlar deyil). Uşaqlar və gənclərin hüquqlarını müdafiə etmək üçün bu təcrübə qadağan olunmalıdır? Yoxsa bu, mədəni ənənəyə qarşı hörmətsizlik olar?

Digər nümunə kimi bir çox ölkələrdə hələ də tətbiq olunan qadınların sünnətini

göstərmək olar. Minlərlə insan bu təcrübələrin nəticələrindən əziyyət çəkir və əksər insanlar onları insan hüquqlarının ciddi pozuntusu hesab edirlər.

Qadınların sünnəti mədəni xüsusiyyət saylıb ona "dözülməlidir" yoxsa bədənin bütövlüyü və sağlamlıqla bağlı insan hüququnun pozuntusu hesab olunmalıdır?

Hamının bütün insan hüquqlarının qorunması zərərli ənənəvi təcrübələrdən imtina olunmasını nəzərdə tutur. Heç kimin hüquqları və ləyaqəti ənənələr və mədəniyyətin xüsusiyyətləri əsasında inkar oluna bilməz, çünki ənənələr və mədəniyyətlər də daşların üzərində yazılmamışdır: onlar dəyişir və inkişaf edir; iyirmi il əvvəl həqiqət kimi qəbul edilən bir yanaşma bugünkü nəsil üçün məna kəsb etmir. Zərərli ənənəvi təcrübələr insan hüquqlarının təmin olunmasının təhsil proqramları və səylərinə əsaslandığını xatırladır. Bir çox zərərli ənənəvi təcrübələrin qarşısı yalnız repressiya və töhmətlə alına bilməz: bu mübarizənin effektiv olması üçün təhsil və bütün maraqlı tərəflərin iştirakı vacibdir. Dövlətlərin beynəlxalq insan hüquqları müqavilələrinə imza atan tərəflər kimi əsas öhdəlikləri olsa da, bu təcrübələrin qorunub saxlanmasında ailələri və icmaları tərəfindən dəstəklənən fərdlərin fəaliyyətləri mühüm rol oynayır. Onları "yuxarıdan" təsir göstərməklə dəyişmək mümkün deyil, bunun üçün həmin ailələr və icmalarla müntəzəm tədris işi aparılmalıdır, yalnız bu üsulla insan hüquqlarının təbliği spesifik mədəni hüquqlar və təcrübələr sayılan xüsusiyyətlərlə uyğunlaşdırıla bilər.

**Milli və regional xüsusiyyətlərin və fərqli tarixi, mədəni və dini köklərin əhəmiyyətini nəzərə almaq vacib olsa da, Dövlətlərin öhdəliyi, siyasi, iqtisadi və mədəni sistemlərindən asılı olmayaraq, bütün insanların hüquqlarını və fundamental azadlıqlarını təmin etmək və qorumaqdır.**

*Vyana Bəyannaməsi*

*(1993)*

? *Mədəni təcrübələr insan hüquqları universallığından üstün olmalıdır?*

## Yaxşı bir səbəb uğrunda

Beynəlxalq ictimaiyyət bəzən insan hüquqlarını sistematik şəkildə pozan rejimləri cəzalandırmaq üçün sanksiyalardan istifadə edir. Sanksiyalar hökumətin hərəkətlərini dəyişməsi üçün təzyiq göstərmək məqsədilə hüquqları pozan ölkə ilə ticarəti qadağan edə bilər. Belə addımlar bəzən birtərəfli qaydada bir dövlət tərəfindən atılır, bəzi hallarda isə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul olunur. Bəzi ölkələr beynəlxalq ictimaiyyətdən tamamilə təcrid olunmuşdurlar: Cənubi Afrika özünün mənfur aparteid sisteminə görə illərlə təcrid olunmuşdur, eləcə də onillərlə İraq, Şimali Koreya, İran və başqalarına qarşı sanksiyalar tətbiq olunmuşdur. Şübhəsiz, bu sanksiyaların təsiri normal insanlar tərəfindən də hiss olunur, lakin onlar xüsusilə cəmiyyətin ən həssas sektorlarına təsir göstərir. Müəyyən ölkələrin insan hüquqları pozuntularına son qoymaq üçün beynəlxalq ictimaiyyət tərəfindən bu vasitədən istifadə olunması qəbul olunandır?

Müdaxilə və Dövlət Suverenliyi üzrə Beynəlxalq Komissiya özünün "Müdafiə etmək Məsuliyyəti" hesabatında reaksiya göstərilməsi əvəzinə müdaxilə olunmasının əhəmiyyətini vurğuladı və xəbərdarlıq etdi. Buna baxmayaraq, beynəlxalq ictimaiyyət "müstəsna və fövqəladə üsul" kimi "insanların qorunması məqsədilə hərbi müdaxilə"ni tətbiq etməli olduqda böyük miqyasda həyat itkisi və ya etnik təmizləmənin olması hədd kimi müəyyən edilir. Hətta, bu halda belə, aşağıdakı "Ehtiyat Prinsipləri"ni bəyan edirlər:

- Düzgün niyyət: Müdaxilənin əsas məqsədi, müdaxilə edən dövlətlərin digər motivlərindən asılı olmayaraq, insanların əzab çəkməsini dayandırmaq və ya önləmək olmalıdır. Düzgün niyyət regional rəy və pozuntuların qurbanları tərəfindən aydın şəkildə dəstəklənən çoxtərəfli əməliyyatlarla daha yaxşı təmin olunur.

**Ədalət daha zəif olanın hüququdur.**

*Jozef Jubert*

- Son çarə: Hərbi müdaxilə yalnız böhranın sülh yolu ilə həlli və ya qarşısının alınması üçün bütün qeyri-hərbi yolların tükənməsi, daha aşağı tədbirlərin təsir göstərə bilməyəcəyinə inama söykənən məntiqi əsaslarla sübuta yetirildikdən sonra əsaslandırıla bilər.
- Məntiqi hədəflər: Müdaxiləni əsaslandırmaq üçün istifadə olunmuş əziyyətin qarşısının alınması və ya dayandırılması üçün məntiqi imkan mövcud olmalı, aparılan fəaliyyətin nəticələri hərəkətsizliyin nəticələrindən daha betər olmamalıdır.

Keçmişə nəzər salmaqla, sizin fikrinizcə, bu ehtiyat prinsipləri, məsələn, beynəlxalq ictimaiyyətin 1995-ci ildə Srebrenika qırğınına verdiyi cavab, 1999-cu ildə NATO tərəfindən Kosovanın bombalanması və ya 2001-ci ildə Əfqanıstana müdaxilə ilə nə qədər əlaqəlidir? Bu əməliyyatlar böyük sayda qurbanlar verilməsi ilə nəticələnsə də, onlara son nəticələri ilə bəraət qazandırıla bilər?

? *İnsan hüquqlarının müdafiəsi hərbi əməliyyatlara bəraət qazandırmaq üçün istifadə oluna bilər?*

**Əhali daxili müharibə, qiyam, repressiya və ya dövlətin uğursuzluğu nəticəsində ciddi zərərdən əziyyət çəkirsə və müvafiq dövlət bunun qarşısını almağa və ya dayandırmağa qadir deyilsə, daxili işlərə müdaxilə etməmək prinsipi müdafiə etmək üzrə beynəlxalq məsuliyyət qarşısında geri çəkilir.**

*Müdaxilə və Dövlət Suverenliyi üzrə Beynəlxalq Komissiyanın Hesabatı, 2001*

2001-ci ilin aprelində BMT-nin İnsan Hüquqları üzrə Komissiyasının qətnaməsi terrorizmlə mübarizə üçün insan hüquqlarının qorunmasının qurban verilməsi yanaşmasını rədd etdi. 2001/24 saylı qətnamədə Rusiya Federasiyasının Çeçenistan Respublikasındakı münaqişə ilə bağlı silahlı hücumlar və Çeçen döyüşçülər tərəfindən humanitar hüququn pozulması halları, eləcə də Rusiya federal qüvvələrinin Çeçenistanda istifadə etdiyi müəyyən metodlar pisləndi. Bu qətnamədə Rusiya Federasiyası pozuntu hallarının araşdırılması üçün beynəlxalq səviyyədə qəbul olunmuş standartlara uyğun şəkildə müstəqil milli təhqiqat komissiyasının yaradılmasına çağrıldı.

## *İnsan Hüquqları: Həmişə dəyişir, həmişə inkişaf edir*

Əvvəlki bölmədə qeyd edilmiş sualların hamısının dəqiq cavabları yoxdur: onlar bu gün də kəskin debat mövzusu olaraq qalırlar. Belə debatlar, müəyyən dərəcədə əhəmiyyətlidir. Onlar həm insan hüquqları anlayışı üçün fundamental olan plüralist yanaşmanın, həm də insan hüquqlarının elm sahəsi, dəyişməz “ideologiya” deyil, mənəvi və hüquqi düşüncənin inkişaf etməkdə olan sahəsi olduğunun göstəricisidirlər. Biz heç də həmişə ağ və qara cavablar gözləməməliyik. Bu məsələlər mürəkkəbdir və onlar yalnız ayrı-ayrı hallar əsasında balanslaşdırıla bilərlər.

Buna baxmayaraq, müəyyən cavablar və razılığın olduğu müəyyən sahələr mövcuddur. Onların sayı çoxdur və onlar, demək olar ki, hər gün artırlar. Köləlik məsələsi bir vaxtlar müzakirə olunurdu, lakin artıq belə halların olmasına dözülmür: köləliyə məruz qalmamaq hüququ hazırda universal şəkildə fundamental insan hüququ kimi qəbul olunur. Qadınların sünnəti, bəziləri tərəfindən mədəniyyət adı altında müdafiə olunsa da, geniş şəkildə insan hüquqları pozuntusu kimi ittiham olunur. Ölüm hökmü də bənzər məsələdir - ən azından Avropa Şurası üzvlərinin ölüm cəzasını ləğv etdiyi və ya edamlarla bağlı moratorium elan etdiyi Avropada. Əslində, ölüm hökmünün ləğvi hazırda Avropa Şurasına üzv olmaq üçün qoyulmuş şərtdir. Beynəlxalq Amnistiya Təşkilatına görə, dünyadakı ölkələrin üçdə ikisindən çoxu ölüm cəzasını qanunla və ya təcrübədə ləğv etmişdir. 2009-cu ildə 58 ölkə ölüm cəzasını saxlasa da, əksəriyyəti onu istifadə etmirdi.

Beləliklə, biz inanmalıyıq ki, hazırda müzakirə obyekti olan məsələlərin bir çoxu öz həllini tapacaq. Bununla yanaşı, biz debata kömək edə və iki fundamental dəyərə istinad edərək daha mübahisəli məsələlərlə bağlı öz fikirlərimizi irəli sürə bilərik: bərabərlik və insan ləyaqəti. Əgər hər hansı bir fəaliyyət fərdlə rəftarda onun insan ləyaqətini nəzərə almırsa, bu halda, insan hüquqları pozulur.

# 4.2 İnsan hüquqlarının inkişafı

"Bütün hüquqlar universal, bölünməz, qarşılıqlı asılı və əlaqəlidir."
*Vyana Bəyannaməsi, 1993*

## Vədlər, vədlər…

Rəhbərlərimiz bizim adımızdan insan hüquqları ilə bağlı çoxsaylı öhdəliklər götürmüşlər. Onların imzaladığı hər bir zəmanət həyata keçirilsə idi, həyatımız sülh dolu, təhlükəsiz, sağlam və rahat olardı; hüquqi sistemlərimiz ədalətli olar və hər kəsə eyni müdafiə təmin edilərdi; siyasi sistemlərimiz şəffaf, demokratik olar və insanların maraqlarına xidmət edərdi.

Bəs problem nədədir? Kiçik səbəblərdən biri siyasətçilərin də bizim kimi insanlar olması və mümkün olduqda məsələnin həlli üçün ən qısa yolu seçməsidir. Bununla belə, biz adımızdan hansı vədlərin verildiyini bilməli və onların həyata keçirilməsini tələb etməliyik.

? *Heç kim sənə xatırlatmasa belə, həmişə verdiyin sözlərə əməl edirsən?*

## Bizim hansı hüquqlarımız var?

Bildiyimiz kimi, biz bütün insan hüquqlarına hörmətlə yanaşılmasını tələb edə bilərik. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Avropa İnsan Hüquqları Konvensiyası və digər müqavilələrdə müxtəlif insan hüquqları öz əksini tapmışdır. Biz həmin hüquqları regional və beynəlxalq səviyyədə tanınma və qəbul edilmə ardıcıllığına görə nəzərdən keçirəcəyik. İnsan hüquqlarının bölgüsündə ən çox istifadə edilən yanaşma "birinci, ikinci və üçüncü" nəsil hüquqların ayrılmasıdır. Biz də bu bölgüyə əsaslanacağıq, lakin qeyd edilən bölgü məhdud şəkildə istifadə edilir və bəzi hallarda yanıldıcı ola bilir. Bu kateqoriyalar dəqiq şəkildə müəyyən edilməmişdir. Onlar müxtəlif insan hüquqlarının bölgüsü üzrə mövcud yanaşmaların yalnız birini əks etdirir. Belə ki, əksər hüquqlar birdən artıq kateqoriyaya şamil edilə bilər. Məsələn, fikiri ifadə etmə azadlığı həm mülki, həm də siyasi hüquqdur. Bu hüquq siyasi həyatda iştirak üçün vacibdir, həmçinin, şəxsi azadlığımız üçün əsas rol oynayır.

**Həbs olunmaq problem deyil. Problem təslim olmamaqdır.**

*Nazim Hikmət*

### *Mülki və siyasi hüquqlar (birinci nəsil hüquqlar)*

Bu hüquqlar nəzəri olaraq XVII – XVIII əsrlərdə meydana gəlmiş və əsasən, siyasi məsələləri əhatə etmişdir. Həmin dövrdən başlayaraq, hər şeyə qadir hökmdarların həyata keçirə bilmədiyi bəzi məsələlərin olması və insanların onlarla əlaqədar siyasətlərə təsir göstərməsi qəbul edilməyə başlandı. Bu dövrdə iki mərkəzi fikir - şəxsi azadlığın və dövlət tərəfindən törədilən qanun pozuntularına qarşı fərdin müdafiəsi idi.

Mülki və siyasi hüquqlar Mülki və siyasi hüquqlar haqqında beynəlxalq pakt və İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasında detallı şəkildə öz əksini tapmışdır.

Buraya dövlətin idarə olunmasında iştirak və işgəncənin qadağan olunması daxildir. Ənənəvi olaraq, bu hüquqlar əksəriyyət tərəfindən – ən azından “Qərbdə” - ən vacib insan hüquqları sayılır. Növbəti bölmədə biz bu yanaşmanın yanlış olduğunu görəcəyik.

İnsan hüquqları siyasi sui-istifadəyə meyillidir

Soyuq müharibə dövründə Sovet blokuna üzv olan ölkələr mülki və siyasi hüquqları təmin etmədiklərinə görə kəskin şəkildə tənqid olunurdular. Bu ölkələr isə öz növbəsində qərb demokraktiyalarını əsas sosial və iqtisadi hüquqlara (növbəti hissədə nəzərdən keçirəcəyimiz) kifayət qədər diqqət ayrılmamasına görə ittiham edirdilər. Hər iki yanaşmada müəyyən həqiqət var. Bu isə insan hüquqlarının siyasi cəhətdən sui-istifadə edilməsinin nə qədər asan olduğunu nümayiş etdirir.

Təəcübləndirən gerçəklik… Dövlətlər və bütövlükdə beynəlxalq ictimaiyyət bir çox hallarda iqtisadi, sosial və mədəni hüquqların pozuntularına göz yummağa davam edirlər. Əgər mülki və siyasi hüquqların bu cür pozuntusu baş versə idi, dəhşət və qəzəb dolu ifadələr, eləcə də dərhal lazımi əks tədbirlərin görülməsi üçün birgə çağırışlar səsləndirilərdi.

*BMT-nin İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitəsi tərəfindən Vyana konfransına bəyanat, 1993*

## Sosial, iqtisadi və mədəni hüquqlar (ikinci nəsil hüquqlar)

Əvvəl yemək, sonra mənəviyyat gəlir.

Bertold Brext

Bu hüquqlar insanların həyat və iş şərtlərini, eləcə də əsas yaşayış ehtiyaclarını əhatə edir. Onlar bərabərlik və zəruri sosial-iqtisadi məhsullar, xidmətlər və imkanların təmin edilməsi ideyasına əsaslanır. Bu hüquqlar erkən sənayeləşmə və işçi sinifin meydana çıxması nəticəsində beynəlxalq səviyyədə tanınma əldə etmişdir. Tarixdə gedən həmin proseslər yeni tələblərin irəli sürülməsinə və layiqli həyat anlayışı ilə bağlı yeni fikirlərin formalaşmasına gətirib çıxarmışdı. İnsanlar onların ləyaqətlərinin qorunması üçün dövlətin müdaxiləsinin minimal səviyyədə olmasının yetərli olduğunu bildirən mülki və siyasi hüquqlardan daha artığına ehtiyac olduğunu dərk edirdilər. Sosial, iqtisadi və mədəni hüquqlar İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq paktda və Avropa Şurasının Avropa Sosial Xartiyasında öz əksini tapmışdır.

Sosial, iqtisadi və mədəni hüquqlar bərabərlik və başlıca sosial və iqtisadi mallar, xidmətlər və imkanlara çıxışa zəmanət verilməsi ideyalarına əsaslanır.

- Sosial hüquqlar cəmiyyətin həyatında tam şəkildə iştirakla bağlı hüquqlardır. Buraya təhsil hüququ, evlənmək və ailə qurmaq hüququ, o cümlədən “mülki” hüquqlar sayılan bir sıra hüquqlar daxildir: məsələn, istirahət hüququ, sağlamlıq, şəxsi həyatın toxunulmazlığı və ayrı- seçkiliyə məruz qalmamaq hüququ.
- İqtisadi hüquqlara əmək hüququ, layiqli həyat səviyyəsi hüququ, evlə təmin olunma, eləcə də yaşlılar və əlillərin təqaüd hüququ daxildir. İqtisadi hüquqlar layiqli həyat üçün minimal maddi təhlükəsizliyin önəmini və lazımi iş və yaşayış şəraitinin çatışmazlığının psixoloji cəhətdən alçaldıcı ola biləcəyini əks etdirir.
- Mədəni hüquqlar dedikdə cəmiyyətin mədəni “həyat tərzi” nəzərdə tutulur. Bu hüquqlara digərləri ilə müqayisədə daha az diqqət ayrılır. Buraya cəmiyyətin mədəni həyatında sərbəst şəkildə iştirak etmək və təhsil hüququ daxildir. Buna baxmayaraq, burada “mədəni” hüquqlar olaraq qeyd edilməyən bir sıra hüquqlar cəmiyyətdə azlıq təşkil edən qrupların öz fərqli mədəniyyətlərini qoruyub saxlaya bilməsi üçün mühüm əhəmiyyət kəsb edir: məsələn, ayrı-seçkiliyə məruz qalmama və qanunla bərabər şəkildə qorunma hüququ.

## *Həmrəylik hüquqları (üçüncü nəsil hüquqlar)*

Beynəlxalq səviyyədə tanınan insan hüquqlarının siyahısı mütəmadi olaraq dəyişir. Son 60 il ərzində Ümumdünya İnsan Hüquqları Bəyannaməsində göstərilən hüquqlar ilə bağlı ciddi şəkildə məsələ qaldırılmasa da, yeni müqavilələr və sənədlərdə əsas sənəddə müəyyən edilmiş başlıca anlayışlar daha geniş şəkildə izah olunmuş və inkişaf etdirilmişdir.

Bu əlavələr bir sıra faktorlar nəticəsində ortaya çıxmışdır: onlar bir tərəfdən insan ləyaqəti barədə dəyişən fikirlərə, digər tərəfdən isə meydana gələn yeni təhdid və imkanlara cavab olaraq irəli sürülmüşdür. Üçüncü nəsil hüquqlar kimi qəbul edilən yeni insan hüquqları kateqoriyası, birinci və ikinci nəsil hüquqların təmin edilməsi zamanı qarşıya çıxan müxtəlif maneələrin daha dərindən başa düşülməsi ilə əlaqədar daxil edilmişdir.

inkişaf, sülh, sağlam ətraf mühit və humanitar yardım hüququ

Üçüncü nəsil insan hüquqlarının əsasında həmrəylik fikri dayanır: buraya cəmiyyətin və insanların kollektiv hüquqları daxildir, məsələn, dayanıqlı inkişaf, sülh və sağlam ətraf mühitdə yaşamaq hüququ. Dünyanın əksər yerlərində səfalət, müharibə, ekoloji və təbii fəlakətlər nəticəsində insan hüquqlarının təmin olunması sahəsində çox məhdud səviyyədə inkişafa nail olunmuşdur. Bu səbəbdən, əksər insanlar insan hüquqlarının yeni kateqoriyasının əlavə edilməsinin əhəmiyyətini qəbul ediblər: bu hüquqlar cəmiyyətlərdə, xüsusilə inkişaf etməkdə olan ölkələrdə mövcud birinci və ikinci nəsil hüquqların təmin edilməsi üçün lazımi şəraitin yaradılmasına imkan verir.

Üçüncü nəsil hüquqlar kateqoriyasında əks olunan xüsusi hüquqlara inkişaf, sülh, sağlam ətraf mühit, bəşəriyyətin ümumi irsindən istifadə, ünsiyyət və humanitar yardım hüquqları daxildir.

Bununla belə, bu hüquqlarla bağlı müəyyən müzakirələr olmuşdur. Bəzi mütəxəssislər iddia edir ki, bu hüquqlar “kollektiv hüquqlar” olduğundan, onlar bütöv cəmiyyətə, hətta dövlətlərə şamil olunur. Onların fikrincə, insan hüquqları yalnız fərdi xaraker daşıya bilər. Bu yanaşma sadəcə sözdə qalmır, bəzi insanlar terminologiyadakı bu dəyişikliyin bir sıra repressiv rejimlərin kollektiv hüquqları qorumaq bəhanəsi ilə (fərdi) insan hüquqlarını pozması üçün “əsaslandırma” rolunu oynaya biləcəyindən ehtiyat edirlər: məsələn, “iqtisadi inkişafa” nail olmaq üçün mülki hüquqların kəskin şəkildə məhdudlaşdırılması.

Bundan başqa, tez-tez qeyd edilən digər bir məqamı göstərmək olar: üçüncü nəsil hüquqlar dövlət deyil, beynəlxalq ictimaiyyət tərəfindən qorunmalı olduğundan məsuliyyətin yerinə yetirilməsinə zəmanət vermək qeyri-mümkündür. Qafqazda və ya Yaxın Şərqdə sülhün təmin edilməsi, Amazon meşələrinin qırılmaması yaxud iqlim dəyişikliyinə qarşı lazımi tədbirlərin görülməsinə görə kim və ya nə məsuliyyət daşımalıdır?

Bununla belə, onları necə adlandırdığımızdan asılı olmayaraq, bu sahələrin beynəlxalq ictimaiyyət tərəfindən daha çox araşdırılması və onlara daha çox diqqət göstərilməsinə ehtiyac olduğuna dair ümumi razılıq mövcuddur. Bəzi kollektiv hüquqlar artıq tanınmışdır, onlar xüsusilə İnsan və Xalqların Hüquqları üzrə Afrika Xartiyası və Yerli Xalqların Hüquqları üzrə Bəyannamədə öz əksini tapmışdır. ÜİHB-in özündə öz müqəddəratını təyin etmək hüququ əhatə olunmuş, inkişafa olan insan hüququ isə BMT Baş Assambleyasının 1986-cı ildəki Bəyannaməsində kodifikasiya olunmuşdur.

İnkişaf hüququ ayrılmaz insan hüququdur, buna əsasən, hər bir insan və bütün insanlar iqtisadi, sosial, mədəni və siyasi inkişafda iştirak etmək, ona töhfə vermək və ondan faydalanmaq hüququna malikdirlər. Bu zaman, bütün insan hüquqları və azadlıqlarının tam şəkildə reallaşdırılmasına şərait yaradılmalıdır. BMT-nin İnkişaf Hüququ üzrə Bəyannaməsinin 1-ci maddəsi.

## *Bəzi hüquqlar digərlərindən daha əhəmiyyətlidir?*

Hüquqların müxtəlif növləri bir-biri ilə onların başlıqlarında göründüyündən daha yaxından əlaqəlidirlər.

İdeoloji və siyasi səbəblərdən sosial və iqtisadi hüquqların mülki və siyasi hüquqlarla bərabər səviyyədə qəbul olunması çətinliklə mümkün olmuşdur. Sadə vətəndaşa minimal yaşayış standartı, ev və uyğun iş şəraitinin insan ləyaqəti üçün vacib olması aydın bir məsələ kimi görünə bilər, lakin siyasətçilər bunu həmişə qəbul etmirlər. Şübhəsiz, bunun səbəblərindən biri dünyada hər kəsin əsas sosial və iqtisadi hüquqlarının təmin olunması üçün resursların kütləvi şəkildə yenidən bölüşdürməli olmasıdır. Siyasətçilər belə fəaliyyətlə səs toplaya bilməyəcəklərindən xəbərdardırlar.

Bu siyasətçilər ikinci nəsil hüquqların birinci nəsil mülki və siyasi hüquqlardan fərqli olduğunu iddia edirlər. İlkin iddia ondan ibarətdir ki, sosial və iqtisadi hüquqlar, ən azından qısa müddətdə, nə həqiqi, nə də reallaşdırılması mümkün deyillər və biz onlara yalnız tədricən nail olmağa çalışmalıyıq. Bu, ICESCR-də istifadə olunmuş yanaşmadır: hökumətlər bu məqsədlərə gələcəkdə nə vaxtsa nail olmaq istiqamətində iş gördüklərini nümayiş etdirməlidirlər. Bu yanaşma, əlbəttə ki, müzakirəyə açıqdır və daha çox siyasi düşüncələrə əsaslanır. Bir çox müstəqil araşdırmalar göstərir ki, birgə səy göstərildiyi halda hər kəsin əsas ehtiyaclarının təmin olunması üçün dünyada kifayət qədər resurs və təcrübə mövcuddur.

Digər iddiaya görə birinci və ikinci nəsil hüquqlar arasında fundamental nəzəri fərq var: birinci nəsil hüquqlar hökumətlərin yalnız müəyyən fəaliyyətlərdən çəkinməsini tələb edir (bunlar həmçinin "neqativ" hüquqlar adlandırılır); ikinci nəsil hüquqlar isə hökumətlərdən müəyyən müdaxiləni tələb edir (bunlar "pozitiv" hüquqlardır). Arqumentə görə, hökumətlərin pozitiv addımlar atmasını, məsələn, hamıya ərzaq təmin etməsini gözləmək real deyil, buna görə də, onlar bunu etməyə məcbur deyillər. Heç kimin öhdəliyi olmadan heç bir hüquq məna kəsb edə bilməz. Buna baxmayaraq, bu cür yanaşmada iki əsas anlaşmazlıq var.

İlk növbədə, mülki və siyasi hüquqlar da tam şəkildə neqativ hüquqlar deyildir.

Məsələn, dövlətin işgəncəyə məruz qalmamaq hüququnu təmin etməsi üçün təkcə dövlət rəsmilərinin insanlara işgəncə verməməsi kifayət deyil! Bu hüququn tam təmin edilməsi üçün qarşılıqlı nəzarət sistemi mövcud olmalıdır: polis sistemləri, hüquqi mexanizmlər, məlumat azadlığı və saxlama yerlərinə çıxış və digərləri. Eynisi səs vermək hüququnun və bütün digər mülki və siyasi hüquqların təmin olunmasına aiddir. Başqa sözlə, bu hüquqlar hökumət tərəfindən neqativ fəaliyyətdən çəkinməklə yanaşı pozitiv addımların atılmasını tələb edir.

Bununla yanaşı, sosial və iqtisadi hüquqlar, mülki və siyasi hüquqlar kimi, hökumətin müəyyən fəaliyyətlərdən çəkinməsini tələb edir: məsələn, şirkətlərə böyük həcmdə vergi güzəştlərinin edilməməsi və ya nisbi üstünlüyə malik regionlarda inkişafın təşviq edilməsi yaxud inkişaf etməkdə olan ölkələri cəzalandıran ölkələrə qarşı ticarət tariflərinin tətbiq olunması və s.

? *Tam azad və ədalətli seçkiləri təmin etmək üçün hökumət hansı pozitiv fəaliyyəti həyata keçirməlidir?*

Əslində, müxtəlif hüquq növləri onların başlıqlarında göründüyündən daha yaxından əlaqəlidirlər. İqtisadi hüquqlar siyasi hüquqlarla birləşir; mülki hüquqlar isə adətən sosial hüquqlardan fərqlənmir. Başlıqlar ümumi mənzərəni göstərmək üçün faydalı, lakin həm də çox aldadıcı ola bilər. Bir çox hüquqlar hər iki kateqoriyaya aid ola bilər, həmçinin, bir kateqoriyadan olan hüquqların təmin olunması digər kateqoriyadakı hüquqların təmin olunmasından asılı ola bilər.

Bununla əlaqədar, 1993-cü il Vyana Bəyannaməsi və Fəaliyyət Proqramında əhatə olunmuş yanaşmanı xatırlamaq yerinə düşərdi. Burada 5-ci paraqrafda qeyd olunur ki:

Bütün insan hüquqları universal, bölünməz, qarşılıqlı asılı və əlaqəlidir. Beynəlxalq ictimaiyyət insan hüquqlarına qlobal miqyasda ədalətli və bərabər şəkildə yanaşmalı, eyni cür əsaslandırmalı və eyni əhəmiyyəti verməlidir.

**Həm öz müqəddəratını təyin etmək, həm də inkişaf hüququ … eyni vaxtda fərdi və kollektiv hüquqlardır.**

*Çidi Anselm Odinkal*

## *“Əsas” və “digər” hüquqlar üzrə başqa yanaşmalar*

Hüquqların geniş şəkildə müzakirə olunduğu bir vaxtda “nəsillər yanaşması” hüquqların bölgüsünü aparmaq üçün yeganə cəhd deyil. Bəzi hüquqların təmin olunması fövqəladə hallar zamanı dayandırıla bilər; bəzilərininki isə yox. Bəzi hüquqlar “jus cogens” və ya dövlətlərin beynəlxalq icması tərəfindən qəbul olunmuş, pozulmasına heç bir halda icazə verilməyən normalar sayılır: nümunələrə soyqırım, köləlik və sistematik irqi ayrı-seçkiliyin qadağan olunması daxildir. Bəzi hüquqlar “mütləq”dir, belə ki, onların təmin olunmasında geri çəkilməyə və ya məhdudiyyət qoyulmasına yol verilmir, məsələn, işgəncənin qadağan olunması. “Minimum əsas” öhdəliklər bəzi iqtisadi və sosial hüquqlarla bağlı müəyyən edilmişdir, məsələn, əsas tibbi yardımın, sığınacaq və təhsilin təmin olunması. Digərlərinə görə, kollektiv hüquqlar əsasdır, çünki onlar müdafiə olunduqda, bu çərçivədə, fərdlərin hüquqları da reallaşdırıla bilər. Bununla bağlı, aydın konsensus və ya tək nəzəriyyə mövcud deyil və əksər müşahidəçilər universallıq, bölünməzlik və hüquqların qarşılıqlı asılılığını vurğulamağın əhəmiyyətini irəli sürürlər.

Hüquqlarla bağlı bu müzakirələrə baxmayaraq, elm bəzən yeni problemlərlə bağlı insan hüquqları normalarının tətbiqinə təkan verir. Bu, aşağıda müzakirə olunacaqdır.

# Elmin tərəqqisi

Yeni hüquqların nəzərə alındığı digər bir sahə sağlamlıq və tibb elmidir. Yeni elmi ixtiralar etika və insan hüquqları ilə bağlı, xüsusilə gen mühəndisliyi, eləcə də orqan və toxumaların transplantasiyası sahələrində bir sıra məsələləri ortaya çıxarmışdır. Bu sahələrdəki texniki tərəqqi nəticəsində həyatın təbiəti məsələsi də müzakirə obyektinə çevrilmişdir.

**Hər kəsin elmi inkişaf və onun faydalarından bəhrələnmək hüququ var.**

*Maddə 27, ÜİHB*

Avropa Şurası belə məsələlərin bəzilərinə yeni beynəlxalq müqavilədə cavab vermişdir: Biologiya və Dərmanların Tətbiqi ilə əlaqədar İnsan Hüquqları və İnsan Ləyaqətinin Qorunması üzrə 1999-cu il Konvensiyası (bundan sonra Oviedo Konvensiyası). Bu konvensiya Avropa Şurasının üzvü olan 30 dövlət tərəfindən imzalanmış və on dövlət tərəfindən ratifikasiya olunmuşdur. Burada əvvəlki bölmədə qaldırılmış bəzi problemli məsələlər üzrə ümumi istiqamətlər göstərilmişdir.

Avropa Şurası Oviedo Konvensiyası

Ən uyğun maddələrin xülasəsi:

- Şəxsə qarşı onun genetik irsinə əsaslanmaqla edilən ayrı-seçkiliyin istənilən forması qadağan olunur.
- Öncədən aparılan genetik sınaqlar yalnız sağlamlıq məqsədilə həyata keçirilə bilər. Məsələn, uşağın gələcəkdə malik olacağı fiziki xüsusiyyətləri müəyyən etmək üçün deyil.
- İnsan genini dəyişdirməklə bağlı müdaxilə yalnız preventiv, dianostik və ya terapevtik məqsədlərlə aparıla bilər.
- Gələcək uşağın cinsini müəyyən etmək üçün hazırlanmış tibbi yardımla artıma icazə verilmir.
- Yaşayan şəxsdən tranplantasiya məqsədilə orqanlar və ya toxumanın çıxarılması yalnız alıcının terapevtik faydası üçün aparıla bilər. (21-ci maddə - Maddi qazancın qadağan olunması)

**Yaşayan və ya ölü insana genetik cəhətdən bənzər insanın yaradılması məqsədilə edilən istənilən müdaxilə qadağan olunur**.

*İnsan Hüquqları və İnsan Ləyaqətinin Qorunması üzrə Konvensiyanın Əlavə Protokolu*

*Paris 1998*

Gen mühəndisliyi genetik materialı dəyişməklə orqanizmin miras aldığı xüsusiyyətləri əvvəlcədən müəyyən edilmiş yolla dəyişmək metodudur. Bu sahədə inkişaf bir sıra etik və insan hüquqları məsələləri üzrə kəskin debata səbəb olmuşdur; məsələn, bütün orqanizm və gələcək nəsillər üçün qalıcı genetik dəyişikliklə nəticələndiyi halda bakterioloji hüceyrələrin dəyişməsinə icazə verilməlidir; və ya siçanlar və qoyunlarda icazə verildiyi halda, insanlar üçün də fərdi gendən klon orqanizmin yaradılmasına icazə verilməlidir.

? *Elm adamlarının tədqiqatlarına məhdudiyyət qoyulmalıdır?*

Bio-tibbi texnologiyanın inkişafı sayəsində böyüklərdə və döldə olan orqanları və ya toxumaları bir bədəndən digərinə tranplantasiya etmək mümkündür. Gen mühəndisliyi kimi, bu sahə də bəzi insanların həyatlarının keyfiyyətini artırmaq, hətta onların həyatlarını xilas etmək üçün böyük potensiala malikdir, lakin tərəqqinin doğurduğu bəzi problemli məsələləri də nəzərdən keçirin:

- Əgər ölü bədəndəki orqandan istifadə etməklə həyat xilas oluna və ya yaxşılaşdırıla bilərsə, buna hər zaman cəhd edilməlidir? Yoxsa ölü bədənlərə də hörmət edilməlidir?
- Təchiz olunan orqanların sayı məhduddursa, biz transplant alan hər kəsə bərabər imkanları necə təmin edə bilərik?
- Orqanlar və toxumaların saxlanması ilə bağlı qanunlar olmalıdır?
- Geni dəyişdirilmiş ərzaqlar və qidalarla (GMO-lar) bağlı hüquqlar yanaşması mövcuddur? Əgər mövcuddursa, nədir?

# 4.3 İnsan hüquqlarının Hüquqi Müdafiəsi

Biz artıq bilirik ki, insan hüquqları hər bir insanın malik olduğu ayrılmaz hüquqlardır, bəs biz onlardan necə faydalana bilərik? Bu hüquqların dövlətlər tərəfindən rəsmi şəkildə tanındığına dair sübutları harada tapa bilərik? Həmçinin, bu hüquqlar necə tətbiq edilir?

## Dövlətdaxili İnsan Hüquqları

Aydındır ki, insan hüquqlarının qorunması və başa düşülməsi əsasən milli səviyyədəki inkişaf və mexanizmlərdən asılıdır. Milli səviyyədə mövcud olan qanunlar, siyasətlər, prosedur və mexanizmlər hər bir ölkədə insan hüquqlarının təmin olunması üçün əsasdır. Buna görə də, insan hüquqlarının milli konstitusional və hüquq sistemlərinin tərkib hissəsi olması, ədalət mütəxəssislərinə insan hüquqları standartlarının tətbiqi ilə bağlı təlim keçilməsi, insan hüquqlarının pozuntularının pislənməsi və onlara qarşı sanksiyaların qəbul edilməsi vacibdir. Regional və beynəlxalq səviyyələrlə müqayisədə milli standartlar daha çox birbaşa təsirə malikdir və milli prosedurlar daha əlçatandır. Eleanor Ruzvelt öz müşahidələri əsasında bildirirdi:

Insan hüquqlarının qorunması əsasən milli səviyyədəki mexanizmlərə əsaslanır

Heç nəyə baxmayaraq, universal insan hüquqları haradan başlayır? Evə yaxın olan kiçik yerlərdən – onlar o dərəcədə evə yaxın və balacadırlar ki, dünya xəritəsində onları görmək mümkün deyil. Bununla belə, onlar fərdin dünyasıdır: onun yaşadığı qonşuluq; onun oxuduğu məktəb və ya kollec; onun işlədiyi zavod, fabrik və ya ofis. Belə yerlər hər bir kişi, qadın və uşağın bərabər ədalət, bərabər imkan, ayrı-seçkiliyə məruz qalmadan bərabər ləyaqət axtardığı yerlərdir. Əgər bu hüquqlar həmin yerlərdə məna kəsb etməsə, başqa yerlərdə də çox az əhəmiyyət daşıyacaqdır.

Buna görə də, hüquqlara hörmət etmək, onları təmin etmək və həyata keçirməklə bağlı dövlətin öhdəliyi əsasdır, dövlət məqsədli və ya davamlı şəkildə insan hüquqlarını pozduğu halda təşkil edilən regional və ya beynəlxalq tribunallar isə köməkçidir. Biz hamımız milli səviyyədə baş verən hüquq pozuntuları ilə bağlı regional və beynəlxalq mexanizmlərə müraciət etməyin əhəmiyyətinin artdığından xəbərdarıq. Regional və beynəlxalq məsələlər və ya yardım dövlət daxilində hüquqların təmin olunmasına təkan verə bilər, lakin bu, yalnız daxili vasitələr istifadə edildikdən və tükəndikdən sonra baş verir. Bu səbəbdən, biz bölmənin qalan hissəsini sözügedən məsələyə həsr edirik. Dövlətdaxili sistemlər insan hüquqlarının müdafiəsini adekvat şəkildə təmin edə bilmədikdə hansı çarələr mövcuddur?

**?** *Sizin fikrinizcə, nəyə görə insan hüquqları ilə bağlı vəziyyətin çox pis olduğu dövlətlər belə beynəlxalq insan hüquqları müqavilələrini imzalamağa hazırdırlar?*

# İnsan hüquqları müqavilələr vasitəsilə tanınır

**Hər bir ruh öz hərəkətlərinin əsiridir.**

*Quran*

Dövlətlər insan hüquqları mövzusunda müəyyən müqavilələrin hazırlanması üçün beynəlxalq səviyyədə bir araya gəlmişlər. Bu müqavilələr fərdlərlə bağlı dövlətlər üzərinə müəyyən öhdəliklər qoymaqla onların davranışı üçün obyektiv standartlar yaradırlar. Onların iki növü var: hüquqi cəhətdən öhdəlik yaradan və yaratmayan.

Hüquqi öhdəlik yaradan sənəd, Müqavilə, Konvensiya və ya Pakt adlandırılır, dövlətlərin insan hüquqlarını milli səviyyədə tətbiq etmək üzrə könüllü öhdəlik götürməsini təmsil edir. Dövlətlər fərdi şəkildə ratifikasiya və ya qoşulma yolu ilə (sadəcə sənədi imzalamaq onu həyata keçirmək arzusunu əks etdirsə də, hüquqi öhdəlik yaratmır) bu standartlara əməl etmək öhdəliyi götürürlər. Dövlətlər mümkün qədər çox müqaviləni imzalaya bilmək üçün 1979-cu il Müqavilələr Hüququ üzrə Vyana Konvensiyasına uyğun olaraq şərtlər irəli sürməklə və ya bəyanatlar verməklə sənədin müəyyən müddəalarına əməl etməkdən azad oluna bilərlər. Hər şeyə baxmayaraq, heç bir insan hüququna əməl etməyən dövlətlə müqayisədə bəzi insan hüquqları müddəalarına əməl etməyi vəd edən dövlət daha yaxşıdır! Bununla belə, bu mexanizmdən əsas insan hüquqlarını pozan dövlət tərəfindən müəyyən sahələrdə beynəlxalq nəzarətdən “xilas olmaq” üçün bəhanə kimi sui-istifadə oluna bilər. İnsan hüquqları milli səviyyədə hüquqi öhdəlik yaradan qanunların qəbuluna təkan vermişdir.

Beynəlxalq insan hüququ normaları dövlətləri bu standartları milli konstitusiyalar və digər qanunvericilikdə işıqlandırmağa ruhlandırmışdır. Onlar, həmçinin, insan hüquqları pozuntuları ilə bağlı milli səviyyədə təzminatların təmin edilməsinə şərait yarada bilərlər.

Əksinə, hüquqi öhdəlik yaratmayan vasitə, əsasən, sadəcə dövlətlər tərəfindən heç bir öhdəlik olmadan, müəyyən hüquqların təmin olunması məqsədilə bütün cəhdlərin ediləcəyinə dair verilən bəyannamə və ya siyasi müqavilədir. Bu, təcrübədə, adətən, güclü siyasi öhdəliklər olsa da, onların yerinə yetirilməsi üçün heç bir rəsmi (və ya hüquqi) mexanizmlərin mövcud olmadığı deməkdir.

**?** *Hüquqi mexanizmlə dəstəklənmədikdə insan hüquqları standartlarına əməl etməklə bağlı sözdə “vəd” verməyin dəyəri nədir? Bu, heç nə edilməməsindən daha yaxşıdır?*

**Qanun ürəyi dəyişmir, lakin qəlbsizliyi məhdudlaşdırır.**

*Martin Lüter Kinq*

BMT Baş Assambleyasının görüşləri və ya spesifik mövzu üzrə keçirilmiş BMT konfransları əsasən BMT bəyannaməsi və ya hüquqi öhdəlik yaratmayan sənədin (həmçinin “yumşaq qanun” adlandırılır) qəbul edilməsi ilə yekunlaşır. BMT üzvü olan və ya konfransda iştirak edən bütün dövlətlər verilmiş bəyannamə ilə razılaşmış hesab olunurlar. İnsan hüquqlarının milli səviyyədə tanınması da dövlət və insanlar arasında razılaşmanın nəticəsi olmalıdır. İnsan hüquqları milli səviyyədə tanındıqda onlar dövlətin öz əhalisinə münasibətdə siyasi öhdəliyinə çevrilirlər.

# Əsas beynəlxalq sənədlər

İnsan hüquqlarının əhəmiyyəti onların qorunmasını təmin edən vasitələrdə daha geniş şəkildə əks olunur. Bu, yalnız insan hüquqları aktivistlərinin deyil, həmçinin, ümumilikdə bütün insanların qələbəsi hesab olunmalıdır. Bu uğur nəticəsində çoxsaylı və hərtərəfli insan hüquqları mətnləri (vasitələr) və icra prosedurları inkişaf etdirilmişdir.

İnsan hüquqları vasitələri adətən əsas üç kateqoriya üzrə ayrılır: coğrafi bölgü (regional və ya universal), hüquqların təmin olunduğu kateqoriya və, uyğun gəldikdə, qorunmanın verildiyi şəxslər və ya qrupların spesifik kateqoriyası.

Təkcə BMT səviyyəsində yüzdən artıq insan hüquqları sənədləri vardır, onlara müxtəlif regional səviyyədə qəbul olunmuş sənədləri də əlavə etsək, bu say daha da artır. Biz bu vasitələrin hamısını burada nəzərdən keçirə bilmərik, buna görə də, hazırki bölmədə Kompas-dakı insan hüquqları təhsili üçün ən uyğun olan sənədlərə baxılacaqdır:

- geniş şəkildə qəbul olunmuş və digər insan hüquqları vasitələrinin inkişaf etdirilməsi üçün əsas yaratmış sənədlər, xüsusən Beynəlxalq Hüquqlar Billi. (Daha spesifik vasitələr, məsələn, Qaçqınlar Konvensiyası, Soyqırım Konvensiyası və Beynəlxalq Humanitar Hüquqla bağlı vasitələr üçün www.coe.int/compass linkindən 5-ci Fəsildəki tematik bölmələrə baxın.)
- bu təlimat vəsaitində araşdırılmış spesifik məsələlər və ya tərəflərlə bağlı sənədlər
- əsas Avropa sənədləri.

## *BMT Vasitələri*

Ümumdünya İnsan Hüquqları Bəyannaməsi bütün insan hüquqları vasitələri arasında ən vacibidir.

Ən əhəmiyyətli qlobal insan hüquqları vasitəsi 1948-ci ildə BMT Baş Assambleyası tərəfindən qəbul olunmuş Ümumdünya İnsan Hüquqları Bəyannaməsidir. Bu sənəd olduqca geniş şəkildə qəbul olunduğundan onun ilkin qeyri-məcburi xarakteri dəyişmişdir və hazırda onun əksər müddəalarına beynəlxalq adət hüququ əsasında hüquqi cəhətdən məcburi öhdəliklər kimi istinad edilir. Bu sənəd onlarla digər beynəlxalq və regional vasitə, yüzlərlə konstitusiya və digər qanunvericilik aktlarının ilham aldığı təməl insan hüquqları vasitəsidir.

ÜİHB fərq qoyulmadan dünyanın hər yerindəki bütün kişi və qadınların malik olduğu insan hüquqları və fundamental azadlıqlarını irəli sürən preambula və 30 maddədən ibarətdir. Burada həm mülki və siyasi, həm də sosial, iqtisadi və mədəni hüquqlar əhatə olunmuşdur:

- Bərabərlik hüququ
- Ayrı-seçkiliyə məruz qalmamaq hüququ
- Yaşamaq, azadlıq və şəxsi təhlükəsizlik hüququ
- Köləliyə məruz qalmamaq hüququ
- İşgəncə və alçaldıcı rəftara məruz qalmamaq hüququ
- Qanun qarşısında şəxsiyyət kimi tanınmaq hüququ
- Qanun qarşısında bərabərlik hüququ
- Səlahiyyətli məhkəmə tərəfindən mühakimə olunmaq hüququ
- Əsassız həbs və sürgünə məruz qalmamaq hüququ
- Ədalətli ictimai dinləmə hüququ

- Təqsiri sübut olunana qədər günahsız sayılmaq hüququ
- Ölkə daxilində və xaricində sərbəst hərəkət hüququ
- Təqibdən başqa ölkələrə sığınmaq hüququ
- Milliyyətə malik olmaq və onu dəyişmək hüququ
- Evlənmək və ailə qurmaq hüququ
- Şəxsi mülkiyyətə sahib olmaq hüququ
- İnam və din azadlığı
- Fikir və məlumat azadlığı
- Dinc toplaşmaq və birləşmək azadlığı
- Dövlət idarəçiliyi və azad seçkilərdə iştirak etmək hüququ
- Sosial təhlükəsizlik hüququ
- Arzuolunan iş və həmkarlar ittifaqlarına qoşulmaq hüququ
- İstirahət və asudə vaxt hüququ
- Adekvat yaşayış standartı hüququ
- Təhsil hüququ
- İcmanın mədəni həyatında iştirak etmək hüququ
- ÜİHB-in tətbiq olunduğu sosial nizam hüququ

Bəyannamə, həmçinin, azad və tam inkişaf, eləcə də digələrinin hüquqları və azadlıqlarına hörmət üçün vacib olan icma və vətəndaşlıq öhdəliklərini vurğulayır. Eyni zamanda, bəyannamədəki hüquqlar insanlar və ya dövlətlər tərəfindən insan hüquqlarını pozmaq üçün istifadə oluna bilməz.

Beynəlxalq Hüquqlar Billi

**Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt (ICCPR) və İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt** (ICESCR) 1976-cı ildə qəbul olunmuşdurlar və onlar bütün dünyada tətbiq olunan və hüquqi öhdəlik yaradan başlıca vasitələrdir. Hər iki Pakt ÜİHB-də qeyd olunmuş hüquqları genişləndirmək və onlara hüquqi qüvvə vermək (müqavilə çərçivəsində) məqsədilə hazırlanmışdır. ÜİHB və onun müvafiq Əlavə Protokolları ilə yanaşı onlar Beynəlxalq Hüquqlar Billini formalaşdırırlar. Onların hər biri, adlarından göründüyü kimi, hüquqların fərqli kateqoriyası üzrə təminatlar verir, lakin onların hər ikisində əhatə olunan ümumi məsələlər də var, məsələn, ayrı-seçkiliyə yol verilməməsi. Hər iki sənəd geniş şəkildə ratifikasiya olunmuşdur, belə ki, 2010-cu ilin noyabrına olan məlumata görə, ICCPR 166, ICESCR isə 160 dövlət tərəfindən ratifikasiya olunmuşdur.

Beynəlxalq Hüquqlar Billindən başqa, BMT tərəfindən ayrı-ayrı hüquqlar və ya qruplarla əlaqədar yeddi müqavilə qəbul olunmuşdur. Müxtəlif hüquqlar və ya qruplarla bağlı fikirlər irəli sürülmüşdür – məsələn, uşaqlar üçün uşaq hüquqları – bütün insan hüquqları uşaqlar və gənclərə tətbiq olunsa da, uşaqlar həmin ümumi hüquqlardan bərabər əsasda faydalana bilmirlər və onların spesifik əlavə müdafiəyə ehtiyacları var.

**Uşaq Hüquqları Konvensiyası** (1989) uşaqların da insan hüquqlarına malik olduğunu və 18 yaşdan aşağı insanların tam inkişaf etməsi, həyatda qalması və onların maraqlarına hörmətlə yanaşılması üçün xüsusi müdafiənin təmin olunmasına ehtiyac olduğunu müəyyən edir.

**İrqi Ayrı-seçkiliyin Ləğvi üzrə Beynəlxalq Konvensiya** (1965) irqi ayrı-seçkiliyi qadağan edir və qınayır, eləcə də tərəf dövlətlərdən ona son qoyulması üçün, dövlət qurumları və ya digərləri tərəfindən həyata keçirilməsindən asılı olmayaraq, bütün uyğun vasitələrdən istifadə etməyi tələb edir.

**Qadınlara Qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Ləğvi üzrə Konvensiya** (CEDAW, 1979) qadınların “siyasi, iqtisadi, sosial, mədəni, mülki və hər hansı digər sahələrdəki hüquqları […] zəiflətməyə yaxud tanımamağa, qadınların onlardan istifadə etməsini yaxud onları həyata keçirməsini heçə endirməyə yönəldilmiş cinsi əlamətə görə hər hansı fərqləndirmə, istisna yaxud məhdudiyyət” (Maddə 1) vasitəsilə sistemli və müntəzəm şəkildə məruz qaldığı ayrı-seçkiliyə həsr olunmuşdur. Dövlətlər belə ayrı-seçkiliyi qınamaq və bərabərliyin təmin edilməsi üçün dərhal addım atmaq öhdəliyi götürürlər.

**İşgəncə, Qəddar, Qeyri-insani və ya Alçaldıcı Rəftarın Digər Formalarına qarşı Konvensiya** (1984) işgəncəyə məlumat əldə etmək məqsədilə tətbiq edilmiş cəza və ya güc tətbiqi yaxud ayrı-seçkilik nəticəsində meydana gəlmiş “qəsdən güclü, fiziki yaxud mənəvi ağrı və əzab yetirən hərəkətlər” (Maddə 1.1) kimi tərif verir. Bu müqavilə tərəf dövlətlərdən öz yurisdiksiyaları daxilində işgəncənin qarşısını almaq üçün effektiv addımlar atmağı tələb edir və əsaslandırılmış işgəncə təhlükəsi olduqda insanları vətənlərinə qaytarmağı qadağan edir.

**Miqrant İşçilər və onların Ailə üzvlərinin Hüquqlarının Qorunması üzrə Konvensiyada** (1990) “vətəndaşı olmadığı ölkədə ödənişli fəaliyyətə cəlb olunan, olunacaq və ya olunmuş” (Maddə 2.1) şəxsə və onun ailə üzvlərinə istinad edilir. Müqavilə bu insanların faydalanmalı olduğu ümumi insan hüquqlarını təsvir etməklə yanaşı, sənədləşdirilmiş yaxud müntəzəm və hüquqi vəziyyətlə bağlı olduqda belə, azadlıq, təhlükəsizlik, zorakılığa məruz qalmamaq hüququ və ya azadlıqdan məhrum olunma ilə bağlı ayrı-seçkiliyin yolverilməzliyini müəyyən edir.

**Əlilliyi olan İnsanların Hüquqları üzrə Konvensiya** (2006) təkcə əlilliyi olan insanlara verdiyi tərifə görə yox, həm də onların tam və bərabər əsasda insan hüquqları və fundamental azadlıqlarının subyektləri kimi tanınmasına görə inqilabi dəyişiklikdir. Müqavilə belə insanların hüquqlarının tətbiqini aydınlaşdırır və tərəf dövlətlərin əlil insanların hüquqlarının effektiv şəkildə təmin edilməsi üçün, məsələn, onların xidmətlər və mədəni həyata çıxışını təmin etmək üçün lazımi tədbirləri görməklə bağlı öhdəliyini müəyyən edir.

**Məcburi İtkin düşmələr üzrə Konvensiya** (2006) qlobal problem olan bir məsələyə həsr olunmuşdur. Müqavilə istər dövlət nümayəndələri, istərsə də dövlətin xəbərdar olduğu digər fəaliyyətlər çərçivəsində “həbs, saxlanma, oğurlama və ya azadlıqdan məhrum etmənin istənilən digər formalarını” (Maddə 2) qadağan edir və heç bir halda azadlıqdan məhrum edilmə və qurbanların taleyi və onların harada olduğuna dair məlumatların gizlədilməsini qəbul etmir. Bu sənədin məqsədi bu cür şübhəli halların aradan qaldırılması və insan hüquqlarını ciddi şəkildə pozan şəxslərin mühakimədən xilas olmasının qarşısını almaqdır.

### Müqavilələr

| Müqavilə | Nəzarət edir | Əlavə Protokollar |
|---|---|---|
| İrqi Ayrı-seçkiliyin Aradan qaldırılması üzrə Beynəlxalq Konvensiya (1965) | İrqi Ayrı-seçkiliyin Aradan qaldırılması üzrə Komitə | |
| Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt (1966) | İnsan Hüquqları Komitəsi | Birinci Əlavə Protokol fərdi şikayət mexanizmi yaradır, İkinci Əlavə Protokol isə ölüm hökmünün ləğvinə çalışır |
| İqtisadi, sosial və mədəni hüquqlar (1966) haqqında Beynəlxalq Pakt | İqtisadi, sosial və mədəni hüquqlar Komitəsi | Komitənin fərdlər və ya qruplar tərəfindən müraciətlər ala bilmə səlahiyyəti üzrə Əlavə Protokol (2008) |
| Uşaq Hüquqları Konvensiyası (1989) | Uşaq Hüquqları Komitəsi | Uşaqların Silahlı Münaqişəyə cəlb olunması üzrə Əlavə Protokol (2000) Uşaqların satışı, uşaq fahişəliyi və uşaq pornoqrafiyası üzrə Əlavə Protokol (2000) |
| Qadınlara qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Ləği üzrə Konvensiya (1979) | Qadınlara qarşı Ayrı-seçkiliyin Aradan qaldırılması üzrə Komitə | Fərdi şikayət hüququ üzrə Əlavə Protokol |
| İşgəncə və Qəddar, Qeyri-İnsani və ya Alçaldıcı Rəftarın Digər Formaların qarşı Konvensiya (1984) | İşgəncə və Qəddar, Qeyri-İnsani və ya Alçaldıcı Rəftarın Digər Formalarına qarşı Komitə | İşgəncənin Qarşısının Alınması üzrə Alt komitənin nəzarəti altında müstəqil beynəlxalq və milli ekspertlərin mütəmadi səfərləri sistemini nəzərdə tutan Əlavə Protokol (2002) |
| Miqrant İşçilər və onların Ailə üzvlərinin Hüquqlarının Qorunması üzrə Konvensiya (1990) | Miqrant İşçilər və onların Ailə üzvlərinin Hüquqlarının Qorunması üzrə Komitə | |
| Əlilliyi olan İnsanların Hüquqları üzrə Konvensiya (2006) | Əlilliyi olan İnsanların Hüquqları üzrə Komitə | Kommunikasiya üzrə Əlavə Protokol fərdlər və qrupların Komitəyə petisiya təqdim etməsinə imkan verir. |
| Məcburi İtkin düşmələr üzrə Konvensiya (2006) | Məcburi İtkin düşmələr üzrə Komitə | |

## *BMT və Avropa səviyyəsində xüsusi qrupların müdafiəsi*

Fərdlərin fundamental hüquqlarını tanımaqla yanaşı, bəzi insan hüquqları vasitələri xüsusi qrupların hüquqlarını əhatə edir. Belə qruplar ayrı-seçkiliyə məruz qaldığından və cəmiyyətdə təcrid olunmuş və həssas mövqedə olduğundan onlar üçün xüsusi müdafiə nəzərdə tutulur. Xüsusi müdafiə yeni insan hüquqlarının təqdim olunması deyil, ÜİHB-də qeyd olunmuş insan hüquqlarının hamıya effektiv şəkildə təmin edilməsi ilə bağlıdır. Buna görə də, azlıqlardan olan insanların əksəriyyətlə müqayisədə daha çox hüquqlara malik olduğunu demək düzgün deyil; əgər azlıqlar üçün xüsusi hüquqlar varsa, məqsəd sadəcə onların mülki, siyasi, sosial, iqtisadi və ya mədəni hüquqlara bərabər əsaslarla malik olmasını təmin etməkdir. Xüsusi müdafiə alan qrupların nümunələri:

Dövlətlər onların müvafiq ərazilərindəki azlıqların milli və ya etnik, dini və linqvistik kimliyini və mövcudluğunu müdafiə edəcək və bu kimliyin təbliği üçün lazımi şərtləri təmin edəcəkdir.

*Azlıqların Hüquqları haqqında BMT Bəyannaməsi*

### Azlıqlar

Azlıqlara beynəlxalq insan hüquqları vasitələrində dəqiq tərif verilməmişdir, lakin həmin sənədlərdə onlar əhalinin əksəriyyətindən öz milli və ya etnik, dini və ya linqvistik xüsusiyyətlərinə görə fərqlənən və öz xüsusiyyətlərini qoruyub saxlamaq arzusunda olan şəxslər kimi təsvir olunurlar. Onların müdafiəsi təmin olunur:

- BMT səviyyəsində Mülki və siyasi hüquqları haqqında Beynəlxalq Paktın 27-ci maddəsi, eləcə də 1992-ci ildə qəbul olunmuş Milli və ya Etnik, Dini və Linqvistik

- Azlıqlardan olan Şəxslərin Hüquqları haqqında Bəyannamə vasitəsilə Avropa səviyyəsində hüquqi qüvvəyə malik sənədlər – Müstəqil ekspertlərdən ibarət nəzarət orqanının yaradılmasını təmin etmiş Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiya (FCNM): FCNM-nin Məşvərət Komitəsi. Avropa Şurasının digər bölmələri də azlıqların müdafiəsi ilə bağlı müvafiq fəaliyyəti həyata keçirirlər: Regional və ya Azlıqların Dilləri haqqında Avropa Xartiyası, İrqçilik və Dözümsüzlük Əleyhinə Avropa Kommissiyası (ECRI) və İnsan Hüquqları Komissarı və digərləri.
- Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında Milli Azlıqlar üzrə Ali Komis sar xüsusi mövqeyə malikdir, həmçinin, müvafiq ATƏT sənədlərində bu məsələyə toxunulur.

## Uşaqlar

Onların əsas müdafiəsi BMT səviyyəsində 1989-cu ildə qəbul olunmuş, ən geniş şəkildə ratifikasiya olunmuş (yalnız ABŞ və Somali tərəfindən ratifikasiya olunmamışdır) konvensiya olan Uşaq Hüquqları Konvensiyası (ÜHK) ilə təmin olunur. Konvensiyanın dörd əsas prinsipi bunlardır: ayrı-seçkiliyə yol verilməməsi; uşaqların maraqlarını ən yaxşı səviyyədə təmin etmək öhdəliyi; yaşamaq, sağ qalmaq və inkişaf hüququ; və uşağın baxışlarına hörmət.

**Hər bir insan 18 yaşına çatanadək uşaq sayılır, bir şərtlə ki, həmin uşaq barəsində tətbiq edilən qanuna görə o, yetkinlik yaşına daha əvvəl çatmış olmasın.**

*BMT Uşaq Hüquqları Konvensiyası*

Afrika səviyyəsində Uşaq Hüquqları və Rifahı haqqında Afrika Xartiyası qitənin özünəməxsus faktorlarını nəzərə alaraq əsas uşaq hüquqlarını əhatə edir. 1999-cu ildə qüvvəyə minmişdir. İslam Uşaq Hüquqları Paktı 2004-cü ildə İslam Əməkdaşlıq Təşkilatı tərəfindən qəbul olunmuşdur. Qadın və Uşaq Hüquqlarının Müdafiə və Təbliği üzrə ASEAN Komissiyası 2010-cu ilin aprelində inaqurasiya olunmuşdur.

Uşaqların Cinsi İstismar və Seksual Xarakterli Hərəkətlərdən Müdafiəsinə dair Avropa Şurası Konvensiyası 2010-cu ilin 1 iyulunda qüvvəyə minmişdir. Bu Konvensiya ilk dəfə uşaqların cinsi istismarının müxtəlif formalarını, o cümlədən evdə və ya ailədə törədilmiş istismar hallarını cinayət əməli kimi müəyyən etdi.

## Qaçqınlar

Qaçqınların hüquqları 1951-ci ilin Qaçqınların Statusu haqqında Konvensiya, eləcə də BMT-nin Qaçqınlar üzrə Ali Komissarı (UNHCR) tərəfindən xüsusi olaraq təmin edilir. Yeganə regional sistem Afrikada qaçqınların müdafiəsi üçün xüsusi vasitə kimi 1969-cu ildə qəbul olunmuş Qaçqınların Xüsusi Aspektlərini Tənzimləyən Konvensiyadır, lakin Avropada da Avropa İnsan Hüquqları Konvensiyası müəyyən müdafiəni təmin edir.

## Qadınlar

Cinslər arasında dünya üzrə bərabərliyi təmin etmək məqsədilə BMT-nin Qadınlara qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Ləğvi üzrə Konvensiyasında (CEDAW, 1979) qadınların hüquqları xüsusi şəkildə müdafiə olunur.

Avropa Şurasında 2009-cu ildə Bəyannamə qəbul olunmuşdur: Gender Bərabərliyini Reallığa Çevirmək. Bu Bəyannamənin qəbulu ilə 20 il əvvəl Qadın və Kişilərin bərabərliyi haqqında qəbul olunmuş digər Bəyannamə qeyd edildi. 2009-cu il Bəyannaməsinin məqsədi genderlərin bərabərliyi arasındakı boşluğu həm qanunda, həm də təcrübədə aradan qaldırmaqdır. Burada üzv dövlətlər qadın və kişilər arasında güc bərabərsizliyinin struktur səbəblərini aradan qaldırmağa, qadınların iqtisadi müstəqilliyini və onlara səlahiyyət verilməsini təmin etməyə, mövcud stereotipləri ləğv etməyə, gender əsaslı zorakılığın qarşısını almaqla və onunla effektiv şəkildə mübarizə aparmaqla qadınların insan hüquqları və ləyaqətinə qarşı hörmətsizliyi aradan qaldırmağa, idarəçiliyə gender bərabərliyi prinsipini daxil etməyə çağrılırlar.

## Digərləri

Əlilliyi olan insanlar kimi qruplar da onları istismara daha meyilli edən həssas vəziyyətlərinə görə xüsusi müdafiə ilə təmin olunurlar. Bu, www.coe.int/compass saytındakı 5-ci fəsildə daha ətraflı müzakirə olunacaq Əlilliyi olan Şəxslərin Hüquqları üzrə BMT Konvensiyasında əhatə olunmuşdur.

Digər qruplar da, məsələn, yerli xalqlar 2007-ci il Yerli Xalqların Hüquqları haqqında BMT Bəyannaməsi vasitəsilə (hələ hüquqi öhdəlik yaratmasa da) beynəlxalq səviyyədə xüsusi müdafiə əldə etmişdirlər.

? *Sizin cəmiyyətinizdə xüsusi müdafiəyə ehtiyac duyan başqa qruplar var?*

## Regional vasitələr

Yuxarıda gördüyümüz kimi beynəlxalq və regional vasitələr ümumilikdə eyni minimum standartları müəyyən edirlər, lakin onlar həsr olunduqları məsələlərə və ya regional səviyyədə mövcud problemlərə görə fərqlənə bilərlər. Məsələn, məcburi köçkünlər problemi BMT səviyyəsində baxılan bir məsələyə çevrilməzdən əvvəl Afrika regionunda geniş yayılmışdı; bənzər şəkildə, işgəncənin qarşısını almaq məqsədilə saxlanma yerlərinə baş çəkmək, BMT-nin İşgəncə Əleyhinə Konvensiyasının Əlavə Protokolunda müəyyən edilməmişdən əvvəl, ilkin olaraq Avropa səviyyəsində tətbiq olunmuş bir mexanizm idi. Bu nümunələr regional və beynəlxalq normalar və mexanizmlərin insan hüquqlarının təbliği və müdafiəsini necə genişləndirə biləcəyini göstərirlər.

İnsan hüquqlarının müdafiəsi üçün mövcud olan regional insan hüquqları normaları və sistemlərinin praktiki üstünlüyü onların daha yaxın coğrafi, tarixi, siyasi, mədəni və sosial bənzərliklər əsasında hazırlanmasıdır. Onlar "evə" daha yaxındır və daha çox dəstək alırlar. Həmçinin, onlar siyasətləri hazırlayanlar, siyasətçilər və qurbanlar üçün daha əlçatandırlar. Buna görə də, biz onları insan hüquqlarının təmin olunması üçün ikinci "cəbhə" kimi görə bilərik, birinci daxili, ikinci regional və üçüncü beynəlxalq olmaqla.

Dünyanın beş regionundan dördü insan hüquqlarının müdafiəsi üçün insan hüquqları sistemləri təsis etmişlər. Regional vasitələrin məqsədi insan hüquqlarının universallığını azaltmadan insan hüquqları standart və mexanizmlərini aydın şəkildə ifadə etməkdir. Regional sistemlər iqtisadi təzyiq və ya daha çox tarixi və ya siyasi səbəblərdən inkişaf etdiyi üçün onlar, əsasən, BMT sisteminin mexanizmləri və təminatlarının möhkəmləndirilməsi ilə regional insan hüquqları öhdəliyinin əsaslandırılması ehtiyacını hiss etmişlər. Əslində, regional standartların beynəlxalq razılaşdırılmış standartlardan daha üstün olduğu bir çox nümunə mövcuddur, məsələn, yalnız qaçqınlar deyil, həmçinin, beynəlxalq məcburi köçkünlərin mühafizəsi üçün ehtiyacın tanınması ilə bağlı Afrika sisteminin təşəbbüs irəli sürməsi. Amerikada Amerika Dövlətləri Təşkilatı mövcuddur və əsas qanuni sənəd 1969-cu ilin İnsan Hüquqları üzrə Amerika Konvensiyasıdır.

Regional insan hüquqları standartları adətən BMT standartlarını üstələyir və onları gücləndirir.

Afrikada isə Afrika Birliyi (əvvəllər Afrika Birliyi Təşkilatı olaraq tanınırdı) çərçivəsində 1986-cı ildə qəbul edilmiş İnsan və Xalqların Hüquqları üzrə Afrika Xartiyasına rast gəlirik.

Asiya qitəsində bu günə qədər heç bir real sistem yaradılmamışdır və yeganə

regional insan hüquqları aləti 1998-ci ildə vətəndaş cəmiyyəti tərəfindən irəli sürülən xalqların xartiyası – İnsan Hüquqları üzrə Asiya Bəyannaməsidir.

## *Avropa alətləri*

Avropada Avropa Şurası çərçivəsində təməli Strazburqda yerləşən Avropa İnsan Hüquqları Məhkəməsi və Avropa İnsan Hüquqları Konvensiyası olan insan hüquqlarının müdafiəsi üzrə yaxşı qurulmuş sistem mövcuddur.

**?** *Sizin fikrinizcə, nəyə görə müxtəlif regionlar özlərinin insan hüquqları sistemini yaratmağı vacib hesab etmişlər?*

Avropa Şurası 47 üzv dövləti ilə birlikdə Avropada insan hüquqlarının təşviqi ilə bağlı əsas rol oynamışdır. Avropa Şurasının insan hüquqları üzrə əsas aləti İnsan Hüquqlarının və Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyasıdır (həmçinin İnsan Hüquqları üzrə Avropa Konvensiyası kimi də tanınır). Bu, Avropa Şurasına üzv bütün dövlətlər tərəfindən qəbul edilmişdir, çünki bu Konvensiya üzvlük üçün tələbdir. Konvensiya 1950-ci ildə qəbul olunmuş və 3 il sonra qüvvəyə minmişdir. Bu konvensiya vətəndaş və siyasi hüquqları təmin edir və onun əsas gücü, yəni tətbiq mexanizmi Avropa İnsan Hüquqları Məhkəməsidir. Bu məhkəmə və onun qanunşünaslığı bütün dünyada bəyənilir və adətən BMT və bir çox ölkə və regional sistemlərin konstitusional məhkəmələri tərəfindən ona istinad edilir.

BMT səviyyəsində də olduğu kimi, Avropada sosial və iqtisadi hüquqlar ayrıca sənəddə qeyd olunmuşdur. Yenilənmiş Avropa Sosial Xartiyası Avropada insanların həyat standartlarını müdafiə edən hüquqları özündə birləşdirən məcburi sənəddir. Xartiya 45 üzv dövlət tərəfindən imzalanmışdır və 2010-cu ilə qədər onların 30-u tərəfindən təsdiqlənmişdir.

Bu iki əsas alətlə yanaşı, Avropa Şurasının insan hüquqları sahəsində fəaliyyətinə Avropa İnsan Hüquqları Konvensiyasının xüsusi vəziyyətlərə və ya zərər çəkmiş qruplara yönəlmiş zəmanət və müddəalarını tamamlayan xüsusi alətlər və konvensiyalar daxildir. Ənənəvi monitorinq sistemləri İrqi ayrıseçkilik və Qeyri-tolerantlığa qarşı Avropa Komissiyası və İnsan Hüquqları üzrə Müvəkkil kimi digər müstəqil qurumlar tərəfindən aparılır. Ümumən, Avropa Şurasının insan hüquqları üzrə fəaliyyəti sosial, elmi və texnoloji inkişafları və onların insan hüquqları üçün daşıdığı mümkün yeni problemləri nəzərə almalıdır.

### İnsan Hüquqlarının İnkişafı

İnsan hüquqları üzrə alətlər insan ləyaqətinin nəyi tələb etdiyi ilə bağlı bizim son anlayışımızı əks etdirən sənədlərdir. Belə alətlər adətən bir addım öndə olur, belə ki, onlar institusionallaşmış və bizim cəmiyyətlərimizdə hüquqlar və hüquq pozuntuları olaraq hələ də tanınmayacaq qədər kök salmış problemlərin əvəzinə, artıq öncədən təsdiq olunmuş problemləri hədəf seçir.

Avropa Şurasının standartların müəyyənləşdirilməsi fəaliyyəti Nazirlər Komitəsinə aid olan səlahiyyətlər daxilində üzv dövlətlərdə yaranan problemlərlə məşğul olmaq üçün sosial tədbirlər həyata keçirmək məqsədilə yeni hüquqi standartlar təklif etməyə yönəlmişdir. Bu tədbirlərə yeni hüquqi standartların təklif olunması və ya mövcud standartların qəbul olunması da daxildir. Bu yolla, Avropa İnsan Hüquqları Məhkəməsinin prosedurları effektiv olaraq qalmaqdadır, ölüm hök-

münü qadağan edən qərarlar qəbul edilmişdir və 2005-ci ildə qəbul olunmuş İnsan Alverinə qarşı Mübarizə Haqqında Konvensiya kimi yeni konvensiya əsaslı alətlər işıq üzü görmüşdür. Bu mənada, insan hüquqları üzrə alətlərin çox uzaq bir dövr üçün yenilənməsinə və təkmilləşdirilməsinə davam etdiriləcəkdir. Bizim anlayışımız, presedent hüququ və ən önəmlisi – bizim təbliğatımız davamlı olaraq insan hüquqlarını irəli çəkməyə, təzyiq göstərməyə və genişləndirməyə davam edəcəkdir. İnsan hüquqları konvensiyaları və sazişlərinin maddələrinin bəzən bizim gözlədiyimizdən aşağı olması faktı insan hüquqlarının bəşəriyyət üçün ümid kimi nəyi təmsil etdiyini sual altına qoymaq üçün səbəb olmamalıdır. İnsan hüquqları üzrə qanun insan hüquqlarının müdafiə edən şəxslərin gözlədiyindən daha aşağı olacaq, lakin onların ən etibarlı dəstəyi olaraq qalacaqdır.

**Avropa Şurasının başlıca insan hüquqları alətləri və tətbiq mexanizmləri**




## İrqi ayrı-seçkilik və dözümsüzlüyə qarşı mübarizə

Bütün insan hüquqları alətləri BMT, Avropa Şurası, Avropa İttifaqı və ya ATƏT standartları olmasından asılı olmayaraq, ayrı-seçkiliyin olmamasına və bərabərliyə zəmanət verir. BMT səviyyəsində İrqi Ayrı-seçkiliyin bütün Formalarının Ləğv edilməsi üzrə Beynəlxalq Konvensiya 1969-cu ildə qüvvəyə minmişdir və ona ekspert qurum – İrqi Ayrı-seçkiliyin Ləğv Edilməsi üzrə Komitə tərəfindən nəzarət edilir. Komitə sazişin yerinə yetirilməsi ilə bağlı ölkənin hesabatlarını qəbul edir və nəzərdən keçirir, dözümsüzlükdən irəli gələrək münaqişəyə və Konvensiyanın ciddi şəkildə pozulmasına

gətirib çıxara biləcək vəziyyətlərin qarşısının alınmasına yönəlmiş erkən xəbərdarlıq proseduru və müvafiq dövlətin icazəsi olduğu halda fərdi şikayətlərin alınması ilə bağlı prosedura malikdir. Avropa İttifaqının İrq Direktivi öz növbəsində ölkə və özəl qurumlar tərəfindən məhsul və xidmətlərin təminatı və məşğulluq məsələlərinə aiddir.

İrqi Ayrı-seçkilik və Dözümsüzlüyə qarşı Avropa Komissiyası Avropa Şurasının mexanizmidir. 1993-cü ildə təsis olunmuş İrqi Ayrı-seçkilik və Dözümsüzlüyə qarşı Avropa Komissiyasının vəzifəsi irqi ayrı-seçkilik, ksenofobiya, antisemitizm və dözümsüzlüklə bütün Avropa səviyyəsində və insan hüquqlarının müdafiəsi perspektivindən mübarizə aparmaqdır. Komissiyanın fəaliyyəti insanlar və ya bir qrup insanların irq, rəng, dil, din, milliyyət və milli və ya etnik mənsubiyyət əsasında üzləşdiyi zorakılıq, ayrı-seçkilik və qərəzli fikirlər ilə mübarizə aparmaq üçün bütün lazımi tədbirləri əhatə edir.

İrqi Ayrı-seçkilik və Dözümsüzlüyə qarşı Avropa Komissiyasının üzvləri dözümsüzlüklə mübarizə sahəsində malik olduqları dərin biliklərə əsasən öz hökumətləri tərəfindən müəyyənləşdirilmişdir. Onlar öz şəxsi bacarıqlarına əsasən namizəd göstərilmişdir və müstəqil üzv kimi fəaliyyət göstərirlər. Komissiyanın əsas fəaliyyət planına aşağıdakılar daxildir:

- spesifik, konkret təkliflər irəli sürmək və ardınca onları izləmək məqsədilə hər bir üzv ölkədəki vəziyyətin dərin təhlilinin aparılmasından ibarət ölkə üzrə yanaşma
- Ümumi mövzular üzərində iş (Komissiyanın təkliflərini təsvir etmək məqsədilə spesifik mövzularla bağlı yaxşı təcrübə nümunələrinin toplanması və yayılması və ümumi siyasət tövsiyələrinin qəbul edilməsi)
- üzv ölkələrdə maariflərdirilmənin artırılması və informasiya sessiyaları, milli və yerli QHT-lərlə əlaqələndirmə, irqi ayrı-seçkiliyə qarşı mesajın ötürülməsi və tədris materialının hazırlanması da daxil olmaqla, ictimaiyyətlə əlaqəli fəaliyyət.

**Avropa İnsan Hüquqları Konvensiyasının 12-ci Protokolu**

Avropa İnsan Hüquqları Konvensiyasına əlavə protokol 2000-ci ildə qəbul olunmuş və 2005-ci ildə qüvvəyə minmişdir; Bu, 12-ci Protokoldur. 2011-ci ilin əvvəllərində o, 19 ölkə tərəfindən imzalanmış və 18 ölkə tərəfindən təsdiqlənmişdir. Bu protokol əsas diqqəti ayrı-seçkiliyin qarşısının alınmasına cəmləyir. Avropa İnsan Hüquqları Konvensiyasl öz növbəsində, ayrı-seçkiliyə məruz qalmamaq hüququnu təmin edir (Maddə 14), lakin o, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt kimi digər beynəlxalq alətlərin maddələri ilə müqayisədə uyğun sayılmır. Əsas səbəb odur ki, 14-cü Maddə digərlərindən fərqli olaraq, ayrı-seçkiliyə qarşı ayrıca qadağanı özündə əks etdirmir; yəni, o yalnız Konvensiyada təsbit olunmuş "hüquq və azadlıqlardan istifadə" ilə bağlı ayrı-seçkiliyi qadağan edir. Bu protokol qüvvəyə mindikdə ayrı-seçkiliyin qadağan olunması Avropa İnsan Hüquqları Konvensiyasının digər maddələrindən daha "azad həyata" malik oldu. Məhkəmə ilk dəfə 2009-cu ildə bu maddənin pozulması halına Sejdič və Finci Bosniya və Hersoqovinaya qarşı məhkəmə işi (GC, nos. 27996/06 və 34836/06, 22 dekabr 2009) zamanı rast gəldi.

# İnsan hüquqlarının yerinə yetirilməsi

Biz bu müdafiə mexanizmlərinin işlədiyini necə təmin edə bilərik? Kim və ya nə ölkələri öz öhdəliklərini yerinə yetirməyə vadar edir?

Dövlət səviyyəsində bu iş məhkəmələr tərəfindən – insan hüquqları alətləri dövlət qanunu tərəfindən təsdiqləndikdə və qanuna daxil olduqda – həmçinin, ölkədən asılı olaraq, ombudsman qurumu, insan hüquqları komitələri, insan hüquqları şuraları, parlament komitələri və digərləri tərəfindən həyata keçirilir.

Əsas beynəlxalq nəzarət qurumları komissiyalar və ya komitələr və məhkəmələrdir, onların hamısında müstəqil üzvlər – ekspertlər və ya hakimlər – heç bir ölkəni təmsil etmir. Bu qurumlar tərəfindən tətbiq edilən əsas mexanizmlər

aşağıdaklardır:

- Şikayətlər (fərdlər, qruplar və ya dövlətlər tərəfindən irəli sürülür)
- Məhkəmə işləri
- Hesabat prosedurları.

Bütün insan hüquqları alətləri və ya regional sistemləri insan hüquqlarını həyata keçirmək üçün eyni prosedurlardan istifadə etmədiyi üçün çox az nümunə bunu aydınlaşdırmağa kömək edə bilər.

## *Şikayətlər*

Dövlətlərə qarşı şikayətlər komissiya və ya komitə qarşısında adətən yarım məhkəmə proseduru adlanan bir prosedur formasında qaldırılır. Nəzarət qurumu daha sonra qərar qəbul edir və dövlətlərin bu qərarla razılaşması gözlənilir, lakin bunun üçün heç bir hüquqi mühafizə proseduru mövcud deyil. Adətən dövlətlər şikayətlər sistemini qəbul etməsi ilə bağlı təsdiqlə əlaqədar könüllü protokol üçün əlavə bəyanat və ya ratifikasiya təqdim etməli olur. İnsan Hüquqları Komitəsi (və ya Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt Komitəsi) və İrqi Ayrı-seçkiliyin Qarşısının Alınması üzrə Komitə (BMT daxilində) və İnsan Hüquqları üzrə Amerikaarası Komissiya (Amerika Dövlətləri Təşkilatı daxilində) bu cür şikayətlərlə məşğul olan belə qurumlara nümunədir.

**?** *Biz Beynəlxalq İnsan Hüquqları Məhkəməsi təsis etdiyimiz təqdirdə hansı sanksiyalar mövcud ola bilər?*

## *Məhkəmə işləri*

Avropa İnsan Hüquqları Məhkəməsi

İnsan Hüquqları üzrə Amerikaarası Məhkəmə

Xalqların və İnsanların Hüquqları üzrə Afrika Məhkəməsi

Xüsusi olaraq insan hüquqlarının təmin olunması üçün nəzarət qurumları olan 3 daimi regional məhkəmə mövcuddur: Avropa İnsan Hüquqları Məhkəməsi, İnsan Hüquqları üzrə Amerikaarası Məhkəmə və Xalqların və İnsanların Hüquqları üzrə Afrika Məhkəməsi. İnsan Hüquqları üzrə Amerikaarası Məhkəmə Amerika Dövlətləri Təşkilatı tərəfindən 1979-cu ildə İnsan Hüquqları üzrə Amerika Konvensiyasının şərh və tətbiq edilməsi məqsədilə təsis olunmuşdur. Afrika Məhkəməsi 2004-cü ilin yanvar ayında təsis olunmuşdur və regional məhkəmələr içərisində ən son yaradılandır. Bu məhkəmə Afrika Birliyinə üzv dövlətlərin Xalqların və İnsanların Hüquqlarına dair Afrika Xartiyası ilə əlaqəli işlərinə cavabdehdir. Tanzaniyanın Aruşa şəhərində yerləşən Məhkəmənin hakimləri 2006-cı ildə seçilmiş və 2009-cu ilin dekabr ayında ilk hökmünü irəli sürərək Yogogombaye Seneqala qarşı işini dinləmək üzrə heç bir məhkəmə hüququ olmadığını elan etmişdir.

Beynəlxalq Cinayət Məhkəməsi

60 dövlət tərəfindən Roma Statutu imzalandıqdan sonra beynəlxalq cinayət məhkəməsi müharibə cinayətləri, bəşəriyyətə qarşı cinayət və soyqrımla əlaqəli işlərə baxmaq üçün 2002-ci ildə qüvvəyə minmişdir. Beynəlxalq Cinayət Məhkəməsi bəşəriyyətə qarşı cinayət, soyqırım və müharibə cinayətlərində günahlandırılan şəxsləri mühakimə edir, lakin yalnız o halda ki, milli məhkəmələr bu cinayətləri araşdırmaq və məhkəməyə cəlb etmək istəməsin və ya bunu bacarmasın. Bu günə qədər Beynəlxalq Cinayət Məhkəməsi Şimali Uqanda, Konqo Demokratik Respublikası, Mərkəzi Afrika Respublikası, Sudan (Darfur) və Keniyada 5 işi araşdırmağa müvəffəq olmuşdur. Onun soyqırımın təhrik edilməsi və azad və ədalətli seçki hüququ ilə əlaqəli təməl qanunu insan hüquqları anlayışını inkişaf etdirməyə kömək etmişdir.

Beynəlxalq Ədalət Məhkəməsi

Beynəlxalq Ədalət Məhkəməsi Birləşmiş Millətlər Təşkilatının əsas məhkəmə orqanıdır. Onun iki rolu vardır: dövlətlər tərəfindən məhkəmə qarşısına təqdim edilən hüquqi mübahisələrin beynəlxalq hüquq çərçivəsində həll edilməsi və hüquqi suallar üzrə məsləhət xarakterli fikirlərin irəli sürülməsi. Yalnız dövlətlər digər dövlətlərə qarşı məhkəmə işi qaldıra bilər və adətən, bu məhkəmə işləri dövlətlər arasındakı müqavilələr ilə əlaqəli olur. Bu müqavilələr dövlətlər arasındakı adi münasibətlərə (məsələn, kommersiya və ya ərazi məsələləri) aid ola və ya insan hüquqları məsələləri ilə əlaqəli ola bilər. Beynəlxalq Ədalət Məhkəməsinə şəxslər tərəfindən insan hüquqları və ya digər məsələlər ilə əlaqəli iddiaların təqdim olunmasına icazə verilmir. Lakin dövlətlər və ya beynəlxalq təşkilatlar tərəfindən məhkəmə qarşısında təqdim olunan iddialar ilə Beynəlxalq Ədalət Məhkəməsi insan hüquqları qaydalarının və prinsiplərinin şərh olunması və inkişaf etdirilməsi ilə insan hüquqlarının təkmilləşdirilməsinə töhfə vermişdir. Məhkəmə öz müqəddəratını təyin etmək, ayrı-seçkiliyə məruz qalmamaq, hərəkət azadlığı, işgəncənin qadağan olunması və s. kimi hüquqlarla məşğul olmuşdur.

Avropa İnsan Hüquqları Məhkəməsi, Avropa Ədalət Məhkəməsi və Beynəlxalq Ədalət Məhkəməsinin rolları ilə bağlı çaşqınlıq mövcuddur. Əslində, bu 3 qurum öz coğrafi məhkəmə hüququ və məşğul olduqları məhkəmə işləri cəhətdən çox fərqlidir.

Avropa Ədalət Məhkəməsi Avropa İttifaqının qurumudur. Bu, əsas vəzifəsi ictimai hüququn hər üzv dövlətdə müxtəlif formada şərh olunmadığı və tətbiq olunmadığını təmin etmək olan məhkəmədir. Bu məhkəmə insan hüquqları qanunu deyil, ictimai hüquqa əsaslanır; lakin ictimai hüquq bəzən insan hüquqları məsələlərini də özündə cəmləşdirə bilər.

Beynəlxalq Ədalət Məhkəməsi Birləşmiş Millətlər Təşkilatının əsas məhkəmə orqanıdır və onun rolu yuxarıda izah olunmuşdur.

## *Avropa İnsan Hüquqları Məhkəməsi*

Strazburqda yerləşən Avropa İnsan Hüquqları Məhkəməsi bir çox səbəbdən məhşurdur, lakin, yəqin ki, ən önəmlisi bu məhkəmənin İnsan Hüquqları üzrə Avropa Konvensiyasının mətninə məna və həyat verməsidir. Onun ən önəmli müsbət cəhətlərindən biri məcburi yurisdiksiya sisteminin olmasıdır, bu deməkdir ki, dövlət İnsan Hüquqları üzrə Avropa Konvensiyasını imzaladıqda və ya onunla razılaşdıqda, avtomatik olaraq, özünü Avropa Məhkəməsi yurisdiksiyasına tabe edir. Ratifikasiya anından etibarən dövlət tərəfinə insan hüquqları məsələsi qarşı qaldırıla bilər.

Onun uğurunun başqa bir səbəbi Məhkəmənin hökmünün gücüdür. Dövlətlər yekun hökm ilə uzlaşmalıdır. Onların hökmə tabe olmasına Avropa Şurasının Nazirlər Komitəsi tərəfindən nəzarət olunur.

Avropa Məhkəməsi qarşısında qaldırılan hər bir işdə prosedur tərəflər arasında vasitəçilik yolu ilə dost razılaşmasının əldə olunması ehtimalını da ehtiva edir. Məhkəmə zamanla inkişaf etməyə müvəffəq olmuşdur. O, 1959-cu ildə ilk dəfə təsis edildikdə İnsan Hüquqları üzrə Avropa Komissiyası ilə birlikdə yarım-ştat işləyən məhkəmə idi. Məhkəmə işlərinin sayının artması ilə tam-ştat işləyən məhkəməyə ehtiyac yarandı və 1988-ci ildə o yaradıldı. İşlərin sayındakı artım Məhkəmənin uğurunun bariz sübutudur, lakin bu iş yükü, həmçinin, sistemin keyfiyyəti və effektivliyini də təhlükə altına alır. İnsan Məhkəmənin olduğunu bilir və öz əsas hüquqlarının pozulduğunu hiss etdikdə oraya müraciət edə bilir; lakin İnsan Hüquqları üzrə Avropa Konvensiyasının dövlət səviyyəsində nüfuzu və effektivliyi dövlətlərin insan

2009-cu ildə Məhkəmə tərəfindən 1625 hökm irəli sürülmüşdür, bu da gün ərzində 4 hökm deməkdir (həftəsonları və tətillər də daxil olmaqla!).

**Avropa İnsan Hüquqları Məhkəməsi qarşısındakı məhkəmə araşdırmaları**




**Mənbə:**
www.echr.coe.int

hüquqları pozuntusu hallarının qarşısının alınması və onlar baş verdikdə aradan qaldırılması ilə bağlı başlıca məsuliyyətini rəhbər tutan "subsidiya prinsipi" ilə təmin olunmalıdır.

## Avropa İnsan Hüquqları Məhkəməsinin simvolik məhkəmə işləri

- ***Soering Birləşmiş Krallığa qarşı*** (iyun 1989-cu il): Bu, hökm oxunması üçün qətl üzrə ölüm hökmünün tətbiq olunduğu Birləşmiş Ştatlara ekstradisiyası nəzərdə tutulan bir kişinin məhkəmə işidir. Məhkəmə cinayətkarın Birləşmiş Ştatlara göndərilməsinin işgəncələr, qeyri insani və ya alçaldıcı rəftar və cəzaların qadağan olunmasına (Avropa İnsan Hüquqları Konvensiyası, Maddə 3) zidd olduğunu bildirdi. Bu qərarın bir nəticəsi ondan ibarət oldu ki, Avropa Şurasına üzv ölkə çərçivəsində fərdlərin müdafiəsi Avropa sərhədlərindən kənara çıxdı. Bu prinsip artıq Jabari Türkiyəyə qarşı (iyul 2000-ci il) kimi digər məhkəmə işlərində də tətbiq olunmuş və sığınacaq axtaran insanların həyatlarının təhlükə altında olduğu ölkəyə geri qaytarılmasının qarşısını almışdır.
- ***Tyrer Birləşmiş Krallığa qarşı*** (mart 1978-ci il): Bu məhkəmə işində Məhkəmə azyaşlı cinayətkarlar üçün fiziki cəzanın Avropa İnsan Hüquqları Konvensiyasına zidd olduğunu hesab etdi, çünki bu 3-cü Maddə altında təmin olunan işgəncələr, qeyri-insani və ya alçaldıcı rəftar və cəzaların qadağan olunması hüququnu pozur. Məhkəmədə deyildiyi kimi: "ona səlahiyyətli şəxslərin gücü altında olan obyekt kimi münasibət bəslənilməsini nəzərdə tutan cəza Maddə 3-ün əsas məqsədlərinə – insanın ləyaqəti və fiziki toxunulmazlığının qorunması – açıq-aşkar hücum xarakteri daşıyırdı". Bu məhkəmə işi Məhkəmənin cəmiyyətimizin dəyişən dəyərləri ilə ayaqlaşdığını göstərən Avropa İnsan Hüquqları Konvensiyasının canlı təbiətinin gözəl bir nümunəsidir.

- ***Kokkinakis Yunanıstana qarşı*** (aprel 1993-cü il): Bu, müxtəlif insanların hüquqları arasındakı ziddiyyətlərlə əlaqəli olan çox maraqlı məhkəmə işi idi. Bu iş prozelitizm məsələsi və dinin tədris olunmasının digər şəxsin dini azadlığını (Avropa İnsan Hüquqları Konvensiyasının 9-cu Maddəsi ilə təmin olunur) pozub-pozmadığı üzərində qurulmuşdu. Məhkəmə insanı öz dinini dəyişməyə inandırmaq üçün tədris, vaizlik və ya ədəbsiz və yalançı vasitələrlə (zorakılıq və ya beyin yuyulması vasitəsilə material və ya sosial üstünlüklərin təklif olunması kimi) müzakirə arasında aydın fərqi müəyyənləşdirməyi vacib bildi.
- ***DH Çexiya Respublikasına qarşı*** (noyabr 2007): Bu, roma şagirdlərinin bacarıqlarından asılı olmayaraq, öyrənmə ilə bağlı qüsurları olan uşaqlar üçün xüsusi məktəblərə göndərilərək təcrid olunması faktı ilə bağlı 18 roma uşağı tərəfindən məhkəməyə çıxarılmış məsələdir. Bu, həmçinin, onların ali təhsil almaq və işlə təmin olunmaqla bağlı çox az imkanlara sahib olacaqları demək idi. Məhkəmə hökmü zamanı, ilk dəfə olaraq, ictimai həyatın xüsusi sahəsində (bu halda dövlət məktəblərində) irqi ayrı-seçkiliyin "nümunəsi" ilə əlaqədar 14-cü maddənin (ayrı-seçkiliyin qadağan olunması) pozulması halını aşkar etdi. Məhkəmə belə nəticəyə gəldi ki, məktəblərdə irqi təcridin bu sistemik nümunəsi Avropa İnsan Hüquqları Konvensiyasında (maddə 14) yer alan ayrı-seçkiliyə qarşı müdafiəni pozmuşdur. Məhkəmə, həmçinin, bildirmişdir ki, neytral şərtlərlə irəli sürülmüş ümumi siyasət və ya həyata keçirilən tədbir yenə də xüsusi bir qrupa qarşı ayrı-seçkilik yarada və ya onlara qarşı dolayı yolla ayrı-seçkiliklə nəticələnə bilər. Bu, təhsildə sistematik irqi təcrid məsələsi ilə məşğul olan ilk məhkəmə işi idi.

? *Avropa İnsan Hüquqları Məhkəməsi qarşısında ölkənizə qarşı qaldırılan hər hansı önəmli məhkəmə işi haqqında bilirsiniz?*

## *Hesabatlar və icmallar*

İnsan hüquqları alətlərinin əksəriyyəti ölkələrdən mütəmadi hesabat təqdim edilməsini tələb edir. Bu hesabatların və müvafiq monitorinq orqanları ilə sonrakı baxışın məqsədi müvafiq hüquqların reallaşdırılması yolunda qarşıya çıxan problemlərin səmimi şəkildə bölüşülməsidir. Hesabatlar "dövlət dialoqu" adlandırılan çərçivədə açıq şəkildə araşdırılır. Dövlət hesabatları QHT-lərin digər "kölgə hesabatları" ilə yanaşı, öz mənbələri və təhlilə əsaslanaraq, həmin ölkənin qeydini nəzərə alaraq araşdırılır. Ölkə rəsmiləri və müvafiq monitorinq orqanının müstəqil ekspert üzvləri arasında dialoqdan sonra həmin qurum bu ölkənin icmalı hazırlanan məcburi insan hüquqları alətində göstərilən standartlar ilə uyğunluğu üzrə müşahidələrini qeyd edir. Bu müşahidələr ölkənin qeydi ilə əlaqəli həm müsbət, həm də tənqidi aspektləri əks etdirir. İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt və Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya bu kimi mütəmadi hesabatlar tələb edən alətlərə nümunə göstərilə bilər.

Qeyd olunan ölkə dialoqu proseduru ilə yanaşı, monitorinq qurumları insan hüquqları ilə bağlı vəziyyəti bilavasitə müşahidə etmək üçün sahə ziyarəti təşkil etmək səlahiyyətinə malik ola bilər. Bu səfərlərin bir çoxu əksər hallarda dövlətin hər məhkəmə işi üzrə açıq icazəsini tələb edir. Lakin açıq dəvətlərin tətbiqinə icazə verilməsi üçün (məsələn, hər hansı BMT xüsusi mandatına sahib şəxslərin səfərləri üçün dəvətnamələrin açıq şəkildə verilməsini tətbiq edən ölkələr) cəhdlər göstərilir.

Yalnız insan hüquqları pozuntularına cavab vermək üçün deyil, həmçinin, onların qarşısının alınması məqsədilə bir çox alətlər çərçivəsində müdaxilə yönümlü səfərlərə icazə verən daha ağır prosedurlar yaradılmışdır.

Komitə (CPT) Avropada azadlıqdan məhrum edilmiş şəxslərə qarşı pis münasibətin qarşısını alır.

İşgəncə, Qeyri-insani və ya Alçaldıcı Rəftar və Cəzaların Qadağan olunması haqqında Avropa Konvensiyasını (1987) bunlara nümunə göstərmək olar. Bu, İşgəncə, Qeyri-insani və ya Alçaldcı Rəftar və Cəzaların Qadağan olunması üzrə Avropa Komitəsinin (CPT) üzvlərinin həbsxanalar və gənclərin həbs olunduğu yerlərə, polis məntəqələrinə, ordu kazarmaları və psixiatrik hospitallar kimi yerlərə səfərləri sisteminə əsaslanır. Komitə üzvləri həbsdə olan şəxslərlə necə rəftar olunduğunu müşahidə edir və ehtiyac olduğu təqdirdə, işgəncəyə və ya qeyri-insani rəftara məruz qalmamaq hüququnun qorunması üçün hər hansı dəyişiklikləri məsləhət görür. Bu mexanizm eyni BMT mexanizminin yaranmasına təkan vermişdir. Komitənin nümayəndələri Konvensiyaya tərəf çıxmış ölkələrə mütəmadi səfər edir, lakin ehtiyac olduğu təqdirdə, əlavə və ya xüsusi səfərlər təşkil edilə bilər.

Komitənin (CPT) hesabatları adətən ictimaiyyətə açıq olur:

http://www.cpt.coe.int

Komitənin işinin vacib funksiyası 2000-2001-ci illərdə Türkiyə həbsxanalarında aclıq aksiyaları zamanı görüldü. Türkiyə hökuməti həbsxana sisteminə dəyişikliklər tətbiq etdikdə bir sıra məhbus islahatların bəzilərinə etiraz etmək məqsədilə aclıq aksiyalarına başladı. Onların nümayişləri kəskin xarakter almağa başladı. Komitə hökumət və aclıq aksiyası keçirənlər arasında danışıqlarda iştirak edir, aclıq aksiyalarına səbəb olan hadisələri araşdırır və qanun layihələrinin türk həbsxana sistemini necə yaxşılaşdıracağı barədə araşdırma aparırdı. Komitə 1999-cu ildən bəri, 2008-ci il istisna olmaqla, hər il Türkiyəyə səfər edir. Ən son zamanlarda Komitə Serbiya, Albaniya və Yunanıstana səfərlər təşkil etmişdir.

## *Avropa Şurasının İnsan Hüquqları üzrə Müvəkkili*

Avropa Şurasının İnsan Hüquqları üzrə Müvəkkilinin ofisi 1997-ci ildə yaradılmışdır. Bu müstəqil qurumun məqsədi həm insan hüquqları anlayışını təşviq etmək, həm də Avropa Şurasına üzv ölkələrdə bu hüquqlardan effektiv şəkildə yararlanmağı və bu hüquqların qorunmasını təmin etməkdən ibarətdir. Müvəkkil Parlament Assambleyası tərəfindən 6 illik müddətə seçilir.

Müvəkkil Avropa Şurasının insan hüquqlarının təşviqi ilə məşğul olan digər qurumlarının fəaliyyətinə əlavə dəstək hesab olunan qeyri-məhkəmə strukturudur. Müvəkkil Avropa İnsan Hüquqları Konvensiyası və ya Avropa Şurasının digər insan hüquqları alətlərinə əsasən yaradılan müxtəlif nəzarət orqanlarının səlahiyyətlərinə hörmət edir və öz məsuliyyətlərini tam müstəqil və qərəzsiz yerinə yetirir.

İnsan Hüquqları üzrə Müvəkkil aşağıdakılar üzrə mandata sahibdir:

www.coe.int/commissioner

- İnsan hüquqlarının effektiv şəkildə qorunmasının təşviq edilməsi və üzv dövlətlərə Avropa Şurasının insan hüquqları standartlarının tətbiqində yardım göstərilməsi
- Avropa Şurasına üzv dövlətlərdə insan hüquqları üzrə təhsilin və maarifləndirilmənin təşviq edilməsi
- insan hüquqları ilə bağlı qanun və praktikada mövcud olan çatışmazlıqların müəyyənləşdirilməsi
- milli ombudsman institutlarının və digər insan hüquqları strukturlarının fəaliyyətinin asanlaşdırılması
- regionda insan hüquqlarının qorunması ilə bağlı məsləhət və məlumatların təqdim edilməsi

Müvəkkil öz vəzifə səlahiyyətləri çərçivəsində istənilən məsələ ilə məşğul ola

bilər. Fərdi şikayətlərlə məşğul ola bilməməsinə baxmayaraq, Müvəkkil Avropa Şurası alətlərində qeyd olunduğu formada insan hüquqlarının qorunmasının ümumi aspektləri ilə bağlı müvafiq məlumata əsasən hərəkət edə bilər.

Bu kimi məlumat və sorğularla məşğul olmaq üçün onlar hökumətlər, parlamentlər, milli ombudsmanlar və ya oxşar qurumlar, həmçinin, fərdi şəxslər və təşkilatlar tərəfindən daxil olmalıdır. Müvəkkilin tematik işinə sığınacaq axtaranlar, immiqrantlar və Roma insanları haqqında hesabatların, tövsiyələrin, fikirlərin və nəzər nöqtələrinin hazırlanması daxildir.

Avropa Şurasının İnsan Hüquqları üzrə Müvəkkili Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarı ilə qarışdırılmamalıdır.

Bir çox QHT-lər Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarı vəzifəsinin yaradılması üçün lobbiçilik etmiş və bu vəzifənin yaradılması ilə bağlı qərar 1993-cü ildə Vyanada keçirilən BMT-nin İnsan Hüquqları üzrə Dünya Konfransı zamanı razılaşdırılmışdır və bu konfransda insan hüquqlarının təşviqi və qorunmasının prioritet məsələ kimi qaldırılması məqsədilə Ali Komissar vəzifəsinin yaradılması məsələsi Baş Assambleyaya təklif edilmişdir. Bu da eyni ildə baş vermişdir.

Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komisarı

Birləşmiş Millətlər Təşkilatının Ali Komissarı BMT Baş Katibi tərəfindən təyin olunur və Baş Assambleya tərəfindən BMT-nin insan hüquqları fəaliyyəti üzrə başlıca məsuliyyətə malik BMT rəsmisi, insan hüquqları ilə bağlı ekspert, “yüksək mənəvi statusa malik şəxs” kimi təsdiq olunur: onun roluna bütün hüquqların təşviqi, qorunması və effektiv şəkildə istifadə edilməsi, insan hüquqlarının qorunması ilə bağlı hökumətlərlə təmasda olmaq və dialoq qurmaq və bütün insan hüquqlarının təşviqi və qorunması üçün beynəlxalq əməkdaşlıq və BMT koordinasiyasının genişləndirilməsi daxildir. BMT-nin insan hüquqları üzrə əsas rəsmisi olaraq, Ali Komissarın fəaliyyətinə İnsan Hüquqları üzrə Ali Komissarlığın (OHCHR) və onun regional və ölkə ofislərinin idarə edilməsi aiddir. OHCHR BMT-nin insan hüquqları üzrə fəaliyyətinin müxtəlif sahələrinə dəstək verir və insan hüquqlarının təşviqi və qorunması, İnsan Hüquqları Təhsili üzrə Dünya Proqramı da daxil olmaqla, ümumdünya insan hüquqları normalarının həyata keçirilməsi üçün fəaliyyət göstərir.

# Bu kifayətdir?

Bir çox insan insan hüquqlarının qorunmasının bu qədər aşağı göstəricisinin səbəbi olaraq, düzgün həyata keçirmə mexanizmlərinin olmamasını görür. Adətən dövlətlər tövsiyələrə əməl edib-etməməyə özləri qərar verirlər. Bir çox məhkəmə işində fərdi və ya qrup hüququnun təmin olunması beynəlxalq ictimaiyyət tərəfindən, xüsusilə QHT-lərin fəaliyyəti nəticəsində göstərilən təzyiqdən asılıdı. Bu, xoşagələn vəziyyət deyil, çünki insan hüquqları pozuntusu BMT və ya Avropa Şurası tərəfindən həllini tapanadək uzun vaxt keçə bilər.

Bunu dəyişmək üçün nə isə etmək mümkündür? İlk növbədə, dövlətlərin milli səviyyədə insan hüquqlarını təmin etməsi və hər hansı hüquq pozuntusunun aradan qaldırılması üçün çıxış yoluna malik olduqlarından əmin olmaq vacibdir. Eyni zamanda, icra prosedurlarına malik mexanizmlərin tətbiq edilməsi ilə bağlı dövlətlərə təzyiq göstərilməlidir.

# 4.4 İnsan Hüquqları üzrə Aktivizm və QHT-lərin rolu

"Hər kəs, fərdi şəkildə və ya digərləri ilə birlikdə yerli və beynəlxalq səviyyədə insan hüquqları və fundamental azadlıqlarının qorunması və həyata keçirilməsi hüququna malikdir."

*Maddə 1, BMT-nin İnsan Hüquqları Müdafiəçiləri üzrə Bəyannaməsi*

## QHT-lər nədir?

**Oyan, qalx, öz hüquqların uğrunda ayağa qalx!**

*Bob Marley*

Qeyri-hökumət və ya qeyri-kommersiya terminləri adətən vətəndaş cəmiyyətini quran bir sıra təşkilatları əhatə etmək üçün istifadə edilir. Ümumilikdə, belə təşkilatlar maliyyə mənfəətindən başqa bir məqsədlə mövcud olması ilə xarakterizə olunur. Lakin bu, mövcud olmaq üçün kifayət qədər səbəbləri olan müxtəlif növ qurumları və fəaliyyət növlərini özündə birləşdirir. QHT-lər, məsələn, ətraf mühitlə bağlı spesifik narahatlıqlar və ya insan hüquqları pozuntuları ilə bağlı fəaliyyət göstərən kiçik təzyiq qruplarından başlayaraq, təhsil xeyriyyəçiliyi, qadın qaçqınlar ilə məşğul olan təşkilatlar, mədəni assosiasiyalar, dini təşkilatlar, hüquqi fondlar, humanitar yardım proqramlarına qədər müxtəlif formalarda olur və bu siyahı dünyanın müxtəlif yerlərində yüzlərlə, hətta minlərlə bölmələri və ya üzvləri olan nəhəng beynəlxalq təşkilatlara qədər uzadıla bilər.

Bu bölmədə biz belə təşkilatların insan hüquqlarının bütün dünyada qorunmasında göstərdiyi və göstərməyə davam etdiyi önəmli rol barədə danışacağıq. Dövlətin güc tətbiqi nəticəsində təhlükə altında olan fərdi vətəndaşların ləyaqətinin qorunması ilə bağlı müxtəlif addımların hər bir səviyyəsində QHT-lər aşağıdakılar üzrə önəmli rola malikdir:

- müvafiq məhkəmələrin xüsusi "test məhkəmə işləri"nin dəstəklənməsi və ya birbaşa yolla fərdi insan hüquqları pozuntuları ilə mübarizə aparılması
- hüquqları pozulan şəxslərə birbaşa yardım təklif edilməsi
- dövlət, regional və ya beynəlxalq hüquqa dəyişikliklərin təbliğ edilməsi
- belə qanunların mahiyyətini inkişaf etdirməyə yardım göstərmək
- əhali arasında insan hüquqları üzrə biliyin artırılması və insan hüquqlarına hörmətin aşılanması.

QHT-lərin töhfəsi yalnız nəticələrin əldə edilməsi və bu səbəbdən, insanların dünyada insan hüquqlarının müdafiəsi ilə bağlı optimizm hiss etməsində deyil, həmçinin, QHT-lərin, birbaşa mənada, bütün dünyada fərdlər və ya qruplar tərəfindən istifadə edilən alətlər olmasındadır. Onlar bir çox təşkilatlar kimi özəl fərdlər tərəfindən idarə və koordinasiya olunur, lakin onlar, həmçinin, güclərinin böyük hissəsini cəmiyyətin könüllü dəstək təklif edən digər üzvlərindən əldə edirlər. Bu fakt dünyada insan hüquqlarının inkişafına töhfə vermək istəyən fərdlər üçün onların önəmini artırır.

# İnsan hüquqları üzrə QHT-lərin növləri

Vyana Konfransı kimi tanınan 1993-cü il BMT-nin İnsan Hüquqları üzrə Dünya Konfransında dünyanın fərqli ölkələrindən olan və hər biri özlərini insan hüquqları missiyası uğrunda çalışan təşkilatlar olaraq xarakterizə edən 841 QHT iştirak etmişdir. Bu, özlüyündə dərin təsir bağışlayan rəqəm olsa da, əslində, bu rəqəm dünyada insan hüquqları QHT-ləri kimi fəaliyyət göstərən təşkilatların yalnız çox kiçik hissəsini təmsil edir.

Özünəməxsus "insan hüquqları təşkilatları"nın əksəriyyəti vətəndaş və siyasi hüquqların qorunması ilə məşğul olurlar. Bu cür təşkilatların ən azından beynəlxalq səviyyədə ən tanınmışlarına Beynəlxalq Amnistiya Təşkilatı, "Human Rights Watch" təşkilatı, İnsan Hüquqları üzrə Beynəlxalq Federasiya, "Human Rights First" və "Interights" təşkilatları daxildir. Lakin, gördüyümüz kimi, mülki və siyasi hüquqlar beynəlxalq ictimaiyyət tərəfindən tanınan bir çox insan hüquqlarının yalnız bir kateqoriyasıdır və bu gün də yeni hüquqlar ortaya çıxmağa davam edir. Biz bunu nəzərə aldıqda və yoxsulluq, zorakılıq, irqçilik, sağlamlıq problemləri, evsizlik və ekoloji problemlərə qarşı mübarizədə fəaliyyət göstərən QHT-ləri nəzərdən keçirdikdə, bu və ya digər formada insan hüquqlarının qorunması ilə məşğul olan QHT-lərin həqiqi sayı bütün dünyada yüz minlərə çatır.

? *Sizin ölkənizdə insan hüquqları uğrunda mübarizə aparan hər hansı bir QHT tanıyırsınız?*

# Onlar prosesə necə təsir edir?

**Allah bizə əllərimizi verir, lakin körpüləri O tikmir.**

*Ərəb atalar sözü*

QHT-lər insan hüquqlarının müxtəlif mərhələlər və ya səviyyələrdə müdafiəsində iştirak etməyə cəhd edə bilər və onların istifadə etdikləri strategiyalar məqsədlərinə uyğun olaraq dəyişir: onların spesifikliyi və ya ümumiliyi; onların uzunmüddətli və ya qısamüddətli xarakter daşıması; yerli, dövlət və ya beynəlxalq miqyası və s.

### a. Birbaşa yardım

İnsan hüquqları pozuntularına məruz qalmış şəxslərə birbaşa xidmətin bəzi formalarını təqdim etmək xüsusilə sosial və iqtisadi hüquqlar üzərində işləyən QHT-lərə xasdır. Bu cür xidmətlər humanitar yardımın, qorunmanın müxtəlif formalarını və ya yeni bacarıqların inkişaf etdirilməsi üçün təlimləri əhatə edə bilər. Alternativ olaraq, hüququn qanunla qorunduğu yerlərdə onlar hüquqi iddia qaldırmaq üçün qanuni vəkillik və ya məsləhəti özündə birləşdirə bilər.

Bir çox hallarda, pozuntu qurbanına və ya hüquq müdafiəçisinə ya birbaşa kömək etmək mümkün deyil və ya təşkilatın resurslarından ən yaxşı şəkildə istifadəni təmin etmir. Bu hallarda, onlar, güman ki, çoxluq təşkil edir, QHT-lər daha uzun müddətli strategiya seçməli və pozuntunu aradan qaldırmaq və ya gələcəkdə baş verəcək oxşar hadisələrin qarşısının alınması üçün digər yollar barədə düşünməlidirlər.

### b. Dəqiq məlumatın toplanması

QHT fəaliyyətinin müxtəlif formalarına əsaslanan əsaslı bir strategiya varsa, bu, yəqin ki, ədalətsizlik törədən cinayətkarları "üzə çıxarmaq" fikridir. Hökumətlər çox vaxt öz öhdəliklərindən, onların siyasətlərinin təsiri ümumi ictimaiyyətə məlum olmadığından, imzaladıqları beynəlxalq müqavilələr və ya digər hüquq standartları vasitəsilə boyun qaçıra bilir.

Belə məlumatların toplanması və onlardan hökumətlərin insan hüquqları üzrə qeydlərində şəffaflığın artırılması üçün istifadə edilməsi hökumətləri məsuliyyətə cəlb etmək üçün çox vacibdir və çox vaxt QHT-lər tərəfindən bundan istifadə olunur. Onlar insanlarda ədalətsizlik duyğusunu oyandıracaq məsələnin aydınlaşdırılması ilə insanlara və ya hökumətlərə təzyiq göstərməyə çalışırlar və sonra bunu ictimaiyyətə açırlar. Dəqiq monitorinq və hesabat təqdim etmək üzrə reputasiya qazanmış təşkilatların ən tanınmış nümunələrinə Beynəlxalq Amnistiya Təşkilatı və Beynəlxalq Qızıl Xaç Komitəsini misal göstərmək olar. Bu təşkilatların hər ikisi yalnız ümumi ictimaiyyət arasında deyil, həmçinin BMT səviyyəsində nüfuza malikdir və BMT səviyyəsində onların hesabatları beynəlxalq müqavilələrin şərtlərinə əməl etmək üçün məsuliyyət daşıyan hökumətlərin rəsmi monitorinq prosesinin bir hissəsi hesab olunur.

**Avtoritar və ya repressiv rejim həyata keçirən insanlara yazmaq, diktator olan insanla yazışmaq və bu məktubları göndərməklə bu insana əməlli başlı narahatlıq yaratmaq əyləncəli ola bilər.**

*Sting*

## c. Kampaniyalar keçirmək və lobbiçilik

Beynəlxalq aktyorlar hər hansısa bir siyasət dəyişikliyini həyata keçirmək üçün tez-tez təşviqat və təbliğat ilə məşğul olurlar. Yenə də qeyd etmək lazımdır ki, bunun çoxsaylı formaları var və bir QHT öz məqsədlərini, "hədəf"inin xarakterini və əlbəttə ki, mövcud olan resurslarını nəzərə alaraq, ən uyğun formanı tətbiq etməyə çalışacaqdır. Bəzi ümumi təcrübələr aşağıda göstərilmişdir.

- Məktub yazma kampaniyaları Beynəlxalq Amnistiya Təşkilatı və digər QHT-lər tərəfindən istifadə olunan və böyük təsir gücünə malik bir üsuldur. İnsanlar və təşkilatlar dünyanın müxtəlif ölkələrindəki minlərlə üzvlərinin məktubları ilə hökumət rəsmilərini "atəşə tutur".
- Küçə mitinqləri və nümayişlər, adətən, cəlb etdikləri kütləvi informasiya vasitələrində işıqlandırılma göstəricisi ilə təşkilatlar tərəfindən ictimaiyyətin dəstəyini almaq və ya hökuməti "adlandırmaq və utandırmaq" üçün ictimaiyyətin diqqətinə bir şeyi çatdırmaq istədikdə istifadə edilə bilər.
- Kütləvi informasiya vasitələri lobbiçilik təcrübəsində çox önəmli rol oynayacaqdır və sosial mətbuat və internet də hal-hazırda get-gedə artan önəmli rola malikdir.
- Kölgə hesabatları müəyyən bir ölkədə insan hüquqlarının təmin edilməsi ilə bağlı real üzrə monitorinq orqanlarına təqdim olunur.

Dəstək və ya ictimai qəzəb nümayişlərinə əlavə olaraq, qeyri-hökumət təşkilatları rəsmi şəxslərlə görüşlər və brifinqlər də keçirə bilər. Bəzi hallarda ictimaiyyət qarşısına nəyisə çıxarmaq qorxusu, aşağıda göstərilən hekayədə olduğu kimi, bir siyasət və ya praktikanı dəyişdirmək üçün kifayətdir. Bir zamanlar insanlar lentlər, afişalar və fakslar vasitəsilə səfərbər edilsə də, hazırda onlar e-poçt kampaniyaları və ərizələr, internet saytları, bloqlar və elektron sosial şəbəkələr vasitəsilə səfərbər olunurlar.

Ümumilikdə, ictimaiyyət və ya digər təsiredici aktyorlar (məsələn, digər hökumətlər) tərəfindən dəstək nə qədər böyük olarsa, kampaniyanın məqsədlərinə çatması ehtimalı daha çox olur. Hətta onlar bu dəstəkdən hərmişə birbaşa istifadə etməsələr də, QHT-lər hökumət və ya bir çox hökumətlərə qarşı böyük və populyar hərəkatların səfərbər oluna biləcəyini göstərməklə öz mesajlarının eşidilməsini təmin edə bilərlər.

**?** *Sizin ölkənizdə genişmiqyaslı kampaniyalar həyata keçirilmişdir? Nəticə nə olmuşdur?*

### d. İnsan hüquqları təhsili və maarifləndirmə

Bir çox insan hüquqları QHT-ləri, ən azından onların fəaliyyətinin bir hissəsi kimi, ictimai məlumatlandırma və ya təhsil ilə də məşğul olurlar. Göstərdikləri dəstəyin mahiyyətinin ümumi ictimaiyyətlə bağlı olduğunu nəzərə alaraq, QHT-lər adətən ictimaiyyətin üzvlərini insan hüquqları ilə bağlı məsələlər ilə əlaqədar daha çox məlumatlandırmağa çalışırlar. Bu məsələlər və onları müdafiə etmək metodları ilə bağlı daha dərin biliyə sahib olmaq bu sahəyə daha böyük bir hörmətin yaranmasına səbəb ola bilər və bu da, öz növbəsində, insan hüquqlarının pozulması hallarının müəyyən mərhələlərində dəstəyin səfərbər edilə bilməsi ehtimalını artırar. Bu, insan hüquqları mühitinin yaxşılaşdırılmasında QHT icmasının uğurunun əsasını təşkil edən dəstək və ya potensial dəstəkdir.

**İnsan hüquqları təhsili ilə bağlı çağırış iştirak, əlçatanlıq və inklüzivlik məsələlərinə diqqət yetirməkdir.**

*İnsan Hüquqları uğrunda Öyrənmək, Yaşamaq və Fəaliyyət Göstərmək Forumu, 2009*

# Uğurlu aktivizmin nümunələri

### Mənzil Hüquqları və Əmlakdan Məhrum Etmə Mərkəzi (COHRE)

Bu insan hüquqları təşkilatı 1994-cü ildə dünyada mənzil hüquqlarının qorunması və əmlakdan məcburi məhrum etmə hallarının qarşısının alınması məqsədilə yaradılmışdır.

COHRE təşkilatı "mənzil"in beynəlxalq insan hüquqları cəhətdən izahını bir kəsin başının üstündə dam olmasından daha artığı olaraq verir. COHRE vurğulayır ki, "dünya əhalisinin təqribən yarısı hal-hazırda beynəlxalq insan hüquqlarının onlara təmin etdiyi mənzilə sahib deyil". Müvafiq mənzil hüquqlarının qorunmasını təmin etmək üçün COHRE və onun dünya üzrə tərəfdaşları aşağıdakılar üzrə təhlil, müdafiə, ictimai təhsil, təlim və məhkəmə işlərini təmin edirlər:

- əmlakdan məcburi məhrum etmə
- əmlak təhlükəsizliyi
- torpaq sahəsinə giriş
- su və kanalizasiya
- qadınlar və mənzil hüquqları
- məhkəmə və hüquqi müdafiə
- bərpa və qaytarma
- fövqəladəs hadisələrin mənzil hüquqlarına təsiri.

2010-cu ilin noyabr ayında, COHRE İtaliyaya qarşı məhkəmə işi bağlı verilən qərarda Avropa Şurasının Sosial Hüquqlar Komitəsi (Yenilənmiş Avropa Sosial Xartiyasına əsaslanaraq) roma düşərgələrinin məhv edilməsi və roma insanlarının İtaliyadan çıxarılmasına görə roma əhalisinin hüquqlarını pozduğunu göstərdi. İtalyan olmayan, lakin Avropa İttifaqı ölkələrinin vətəndaşı olan roma insanlarının kütləvi köçürülməsi 2008-ci ildən sonra əhəmiyyətli dərəcədə artmışdır. Hüquq pozuntuları aşağıdakılar üzrə aşkar olunmuşdur:

- roma əhalisinin yaşayış məntəqələrinə sahib olma hüququna qarşı ayrı-seçkilik və hüquqlarının pozulması;
- sosial, hüquqi və iqtisadi müdafiə;
- yoxsulluq və sosial sürgündən qorunma; və
- immiqrant roma ailələrinin qorunması və yardım hüququ.
- roma sakinlərin müvafiq olmayan şəraitdə yaşamasına səbəb olan İtaliyanın yürütdüyü siyasət və təcrübə də, həmçinin, tənqid olunmuşdur.

COHRE vebsaytına baş çəkin:

http://www.cohre.org

**Maddə 31 – Mənzil hüququ**

Tərəflər mənzil hüququnun səmərəli həyata keçirilməsini təmin etmək məqsədi ilə aşağıdakı məqsədlər üçün nəzərdə tutulmuş tədbirləri həyata keçirirlər:
1. müvafiq standarta cavab verən mənzilə çıxışın təmin edilməsi
2. evsizliyin tədricən aradan qaldırılması üçün onun qarşısını almaq və azaltmaq
3. kifayət qədər resursları olmayanlar üçün də mənzilin qiymətini əlçatan etmək.
Avropa Sosial Xartiyası (yenidən baxılmışdır), 1996-cı il

## İsveçrədə ətraf mühitlə bağlı narahatlıqlar

**Kimyəvi sənayenin zəhərləndirmə siyasəti gələcək nəsillər üçün maneə olmamalıdır.**

*Stefan Weber, Qrinpis kampaniyaçısı*

1961-1976 illər arasında bir neçə kimyəvi nəhəng şirkət İsveçrədəki Bonfol köhnə kil çuxuruna 114,000 tondan artıq zəhərli sənaye kimyəvi tullantıları atdı. Bu gün kimyəvi tullantıların atılması qeyri-qanuni olsa da, 1961-ci ildə belə tullantı əraziləri qanunla qadağan olunmurdu. Zəhərli tullantılar yerində qaldı və ətrafdakı icmaları və ətraf mühiti üzvi və qeyri-üzvi çirkləndiricilərin qarışığı ilə çirkləndirməyə davam etdi.

2000-ci il mayın 14-də, Qrinpis təşkilatının təxminən 100 aktivisti, İsveçrənin Bazel şəhəri yaxınlığında, Bonfol kimyəvi zibilxanasını işğal etdi və zəhərli tullantıları atan kimyəvi şirkətlərin ərazinin təmizlənməsi üçün tam məsuliyyət daşımasını tələb etdi. Aktivistlər kimyəvi şirkətlər ərazini insan sağlamlığına və ya ətraf mühitə bundan daha artıq təhlükə yaratmayacaq bir şəkildə təmizləməyənə qədər ərazini zəbt edəcəklərini bəyan etdilər.

Qrinpis təşkilatının vebsaytına baş çəkin:

www.greenpeace.org

Tullantı ərazisinin zəbt edilməsi kimyəvi şirkətləri icma üzvləri və Qrinpis təşkilatı ilə görüşməyə vadar etdi və nəticədə, kimyəvi sənaye ən sonunda 2001-ci ilin fevral ayına qədər təmizlik ilə bağlı araşdırmalar aparmaq və 2001-ci ildə təmizlik prosesini başlamaq ilə bağlı razılaşma imzaladı. Sənaye, həmçinin, yerli icmaları və ətraf mühit təşkilatlarını təmizləmə prosesinə cəlb etmək və yerli icmaları tullantı nəticəsində yaranan yeraltı və içməli su çirklənməsi barədə məlumatlandırmaq barədə razılaşdı. 2001-ci ilin iyul ayının 7-də Qrinpis təşkilatı kimyəvi tullantı ərazisinin işğalını sonlandırdı.

## Ayrı-seçkiliyə Qarşı Mübarizə - Avropa Roma Hüquqları Mərkəzi (ERRC)

Avropa Roma Hüquqları Mərkəzi (ERRC) Roma icmalarının üzləşdiyi insan hüquqları məsələlərinin Avropa və onun hüdudlarından kənarda siyasi gündəmdə olmasını təmin etmək üçün çalışır. ERRC-nin ətraflı tədqiqatları Romaların insan hüquqları ilə bağlı vəziyyətinə, xüsusilə qarşılaşdıqları zorakılıq, onlara qarşı ayrı-seçkiliyin struktur formaları və Romaların iqtisadi və sosial hüquqlardan istifadəsinə imkan verilməməsi barədə ətraflı məlumat toplamağa imkan verdi. ERRC məlumatlılığın artırılması, siyasətin inkişafı və strateji məhkəmə prosesləri vasitəsilə Roma icmalarının insan hüquqları ilə bağlı vəziyyətinə kömək etməyə çalışır. Kampaniyalar Romalara qarşı zorakılıq və nifrət nitqlərini, məktəbdən təcrid etməni, əmlakdan məcburi məhrum etməni və onlara qarşı məcburi sterilizasiyanı ifşa etmişdir.

ERRC-nin vebsaytına daxil olun:

http://www.errc.org

ERRC-nin məqsədi öz insan hüquqları təhsili üzrə fəaliyyəti sayəsində roma aktivistlərini bərabərlik uğrunda mübarizə aparmağa cəlb etməkdir. Bu, təcrübə proqramları, tədqiqatyönümlü proqramlar, təlimlər və “Öz Hüquqlarını Bilmək və Onlar Uğrunda Mübarizə Aparmaq: Roma aktivistləri üçün bələdçi” təlimat vəsaiti kimi nəşrlər vasitəsilə həyata keçirilir.

“ERRC-nin 2010-cu ilin əvvəlində Bolqarıstan, Macarıstan, Çexiya, Slovakiya və Rumıniyada polis, QHT-lər və insan alverinə qarşı mübarizə sahəsində ekspertlər ilə apardığı tədqiqat nəticəsində [insan alveri] qurbanlarının Bolqarıstanda 50-80%-ni, Macarıstanda 40-80%-ni, Slovakiyada 70%-ni və Çexiya Respublikasının bəzi hissələrində 70%-ə qədərini Romaların təşkil etdiyi aşkar olunmuşdur”.
Roma Hüquqları ilə bağlı Faktlar, EHRR

## Brilliant müharibələri

Global Witness - təbii qaynaqlı münaqişə və korrupsiyaya və bu səbəbdən ortaya çıxan ətraf mühit və insan hüquqları pozuntularına qarşı kampaniya həyata keçirən QHT-dir. Bu təşkilat qeyd olunanların səbəb olduğu qəddarlığı ifşa etmək və günahkarları ədalət qarşısına çıxarmaq üçün fəaliyyət göstərir.

Onun kampaniyalarından biri qan brilyantları və ya münaqişə brilyantları adlanan, qanuni və beynəlxalq səviyyədə tanınmış hökumətlərə qarşı çıxan və bu hökumətlərə və ya BMT Təhlükəsizlik Şurasının qərarlarına qarşı hərbi aksiyaların maliyyələşdirilməsi ilə məşğul olan qüvvələr və ya qruplar tərəfindən nəzarət edilən ərazilərdən çıxarılan daşlarla bağlı olmuşdur. Global Witness tərəfindən gətirilən sübutlar belə ehtiyatların Afrikadakı milyonlarla insanın ölümünə və köçünə səbəb olan münaqişələri maliyyələşdirmək üçün istifadə olunduğunu təsdiqləyir. Sözügedən almazlardan, həmçinin, Əl-Qaidə kimi terror qrupları tərəfindən öz fəaliyyətlərini maliyyələşdirmək və pul yuyulması məqsədilə istifadə olunur. Onlar digər QHT-lərlə əməkdaşlıq etmiş və qlobal bir sənayedən üstün qlobal bir kampaniya ortaya çıxana qədər davamlı şəkildə lobbiçilik etmişlər.

2000-ci ilin may ayında almaz ticarəti və istehsalı ilə məşğul olan əsas ölkələr, almaz sənayesinin nümayəndələri və Global Witness də daxil olmaqla bir sıra QHT-lər Kimberleydə (Cənubi Afrika) bir araya gəlib 2003-cü ildə Kimberley prosesi kimi tanınan beynəlxalq almaz sertifikatlaşdırma sxemi qurdular. Sxem çərçivəsində üzv ölkələr tərəfindən satılan bütün almazlar sertifikatlaşdırılmışdır, belə ki, alıcılar onların münaqişədən kənar olduğundan əmin ola bilərlər. Global Witness bu sxemin rəsmi müşahidəçisidir və brilyantların bir daha heç bir zaman münaqişəni alovlandırmayacağını və bunun əvəzinə, inkişaf üçün müsbət qüvvə olacağını təmin etmək məqsədilə sxemin qaydalarının gücləndirilməsi və effektiv həyata keçirilməsi üçün kampaniyaya davam edir.

Global Witness münaqişə brilyantları ilə mübarizə fəaliyyətinə görə 2003-cü ildə Nobel Sülh Mükafatına layiq görüldü.

Onların vebsaytına nəzər yetirin:

http://www.globalwitness.org

### Tuzladakı təkərli rampalar

1996-cı ildə Tuzlada (Bosniya və Herseqovina) fiziki qüsur məsələləri ilə məşğul olan bir QHT yol hərəkəti ilə bağlı maarifləndirmə aparmaq qərarına gəlmişdir. Lotos təşkilatı fiziki qüsurlu insanlar və yol hərəkəti mövzularında maarifləndirmə aparmağı qarşısına məqsəd qoymuş və fiziki qüsurlu insanlar üçün xüsusi parkinq yerlərinin yaradılması, bu insanların ictimai nəqliyyatdan istifadəsinin asanlaşdırılması və uyğun səki və yolların yaradılması kimi konkret məqsədlər müəyyənləşdirməyə nail olmuşdur. Onlar seçki kampaniyası başlamazdan əvvəl bir həftə ərzində tədbirlər keçiriblər. Həmin vaxtın sonunda ictimaiyyətin məlumatlandırılması artırılmış və Tuzladakı bütün səkilərin rampaları yenidən qurulmuşdur!

**Mən tamamilə əminliklə deyə bilərəm ki, Tuzla bütün Bosniya və Herseqovina ərazisində təkərli oturacaq istifadəçiləri üçün ən rahat şəhərdir.**

*Kampaniya iştirakçısı, Tuzla*

# 4.5 İnsan Hüquqları ilə bağlı sual və cavablar

**?** *İnsan hüquqları nədir?*

İnsan hüquqları dünyadakı hər bir fərdin sadəcə insan olması faktına görə malik olduğu mənəvi hüquqlardır. Öz insan hüquqlarımızı biz, adətən, öz hökumətimizə mənəvi tələb irəli sürməklə bildiririk: siz bunu edə bilməzsiniz, çünki bu, mənim mənəvi sahəm və şəxsi ləyaqətimin pozulmasıdır. Heç bir kəs – heç bir şəxs, heç bir hökumət – bizim insan hüquqlarımızı əlimizdən ala bilməz.

**?** *Onlar haradan gəlir?*

İnsan hüquqları bizim sadəcə fiziki varlıqlar deyil, həmçinin, mənəviyyata və hislərə malik insan olmağımız faktına əsasən bizə verilmişdir. İnsan hüquqları hər bir fərdin insanlığını qorumaq və müdafiə etmək, hər bir şəxsin ləyaqətlə dolu və insan olmağa dəyəcək həyat yaşadığını təmin etmək üçün lazımdır.

**?** *Nəyə görə hər kəs onlara hörmət "etməlidir"?*

Başlıca olaraq ona görə ki, hər kəs insandır və buna görə də mənəvi varlıqdır. Fərdlərin əksəriyyəti başqa bir şəxsin şəxsi ləyaqətinə toxunduqlarını onlara göstərdikdə bundan çəkinməyə çalışacaqdır. Ümumilikdə, insanlar digər insanları incitmək istəmir. Lakin insanların vicdanına mənəvi qadağalardan əlavə, dünyanın bir çox ölkələrində hökumətləri, bunu etmək istəmədikdə belə, öz vətəndaşlarının insan hüquqlarına hörmət etməyə vadar edən yeni qanunvericilik mövcuddur.

**?** *İnsan hüquqlarına kim sahibdir?*

Tamamilə hər kəs. Cinayətkarlar, ölkə başçıları, uşaqlar, kişilər, qadınlar, Afrikalılar, Amerikalılar, Avropalılar, qaçqınlar, ölkəsiz insanlar, işsizlər, məşğullar, bank sahibləri, terrorizm aktı törətməkdə ittiham olunmuş şəxslər, xeyriyyə işçiləri, müəllimlər, rəqqaslar, kosmonavtlar …

**?** *Cinayətkarlar və dövlət başçıları belə?*

Tamamilə hər kəs. Cinayətkarlar və dövlət başçıları da insandır. İnsan hüquqlarının gücü hər kəsin insan ləyaqətinə sahib olduğundan onlara bərabər münasibət göstərilməsi faktına söykənir. Bəzi insanlar digərlərinin hüquqlarını poza və ya cəmiyyətə təhlükə yarada bilərlər, buna görə də, digərlərini qorumaq məqsədilə, bəzi yollarla, lakin xüsusi hədlər çərçivəsində onların hüquqlarına məhdudiyyət qoyula bilər. Bu məhdudiyyətlər insan ləyaqətinin təmin olunması üçün vacib olan minimum səviyyə olaraq müəyyənləşdirilə bilər.

**?** *Nə üçün bəzi qrupların xüsusi insan hüquqlarına ehtiyacı var? Bu, onların digərləri ilə müqayisədə daha çox hüquqa sahib olması deməkdir?*

Xeyr, Avropada Roma insanları və ya Dalitlər və Hindistanda qeydə alınmış kastalar kimi bəzi qruplar bizim cəmiyyətlərdə uzun müddət elə bir ayrı-seçkiliyə məruz

qalmışlar ki, onların insan hüquqları standartlarına digərləri ilə eyni səviyyədə çıxış əldə etməsi üçün xüsusi tədbirlərə ehtiyac duyulur.
İllərlə davam edən ayrı-seçkilik və stereotiplər, açıq nifrət və maneələrlə üzləşmələri nəticəsində onlara ümumi qaydada qəbul olunmuş hüquqları elan etmək və bunun bərabərliyin təmin olunması üçün kifayət olmasını gözləmək gülməli olacaqdır.

### ? *Nə üçün biz insan hüquqları haqqında danışırıq, lakin insan öhdəlikləri barədə danışmırıq?*

Bəzi mütəfəkkirlər və QHT-lərin insan öhdəliklərinə ehtiyacla bağlı qüvvətli arqumentlər, hətta onları aydın ifadə etmək üçün kodlar və ya bəyanatlar ortaya qoysalar da, insan hüquqları cəmiyyəti ümumiyyətlə bu müzakirə mövzusuna təmkinlə yanaşır. Bunun səbəbi bir çox hökumətlərin insan hüquqlarını dövlət və ya idarəçi tərəfindən irəli sürülən "vəzifələr"in yerinə yetirilməsindən asılı olaraq təmin etməsi və bununla da, anadangəlmə insan hüquqları ideyasını bütünlüklə hüquq olaraq mənasızlaşdırmasıdır. Buna baxmayaraq, fərdlərin və qruplar olaraq bizim başqalarının hüquqlarına hörmət etmək, insan hüquqlarını pozmamaq və başqalarının hüquqları ilə yanaşı öz hüquqlarımızı da inkişaf etdirməyimizlə bağlı heç nə deyilmir. Əslində, ÜİHB-in 29-cu maddəsində "1. Hər kəsin özünün azad və tam inkişafının mümkün olduğu cəmiyyət qarşısında vəzifəsi var. 2. Hər kəs öz hüquq və azadlıqlarının həyata keçirilməsi zamanı yalnız lazımi tanınmanın təmin edilməsi, başqalarının hüquq və azadlıqlarına hörmət edilməsi və mənəviyyatın, demokratik cəmiyyətdə ümumi rifah və ictimai qaydanın əsas tələblərinə cavab vermək məqsədilə qanunla müəyyən edilmiş məhdudiyyətlərə tabedir".

### ? *İnsan hüquqlarının qeydinə kim qalır?*

Biz hamımız bunu etməliyik. Həm dövlət, həm də beynəlxalq səviyyədə hökumətlərin öz vətəndaşlarına nəyi edə biləcəyi ilə bağlı məhdudiyyət qoyan qanunvericilik mövcuddur, lakin əgər heç kəs onların hərəkətlərinin beynəlxalq normalara zidd olduğunu bildirməsə, hökumətlər cəzasız qalaraq onları pozmağa davam edəcəkdir. Fərdlər olaraq, biz yalnız öz gündəlik həyatımızda digərlərinin hüquqlarına hörmət etməyə çalışmamalı, həmçinin, öz hökumətlərimiz və digərlərinə nəzarət etməliyik. Buna görə də, onlardan istifadə etməyimiz üçün qoruyucu sistemlər mövcuddur.

### ? *Mən öz hüquqlarımı necə müdafiə edə bilərəm?*

Onların pozulduğunu vurğulamağa çalışın; hüquqlarınızı tələb edin. Digər insana bildirin ki, onların sizə bu üsulla münasibət göstərməyə haqqı olmadığını bilirsiniz. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və Avropa İnsan Hüquqları Konvensiyası və ya digər beynəlxalq sənədlərin müvafiq maddələrinə istinad edin. Sizin ölkənizdə bununla əlaqədar qanunvericilik varsa, ona da istinad edin. Digərlərinə də bunun barəsində danışın: kütləvi informasiya vasitələrinə bildirin, parlament nümayəndənizə və ölkə başçısına yazın, insan hüquqları aktivizmi ilə məşğul olan hər hansı QHT-ni məlumatlandırın. Onların məsləhətini alın. Əgər imkanınız varsa, hüquqşünasla danışın. Əmin olun ki, hökumətiniz hansı addımı atmağınızdan xəbərdardır. Onlara göstərin ki, siz təslim olmağı düşünmürsünüz. Onlara arxalandığınız dəstəyi göstərin. Son təhlildə və əgər hər şey uğursuzluğa düçar olsa, siz məhkəmələrə müraciət edə bilərsiniz.

### ? *Avropa İnsan Hüquqları Məhkəməsinə necə gedə bilərəm?*

Avropa İnsan Hüquqları və Fundamental Azadlıqları Konvensiyası fərdi şikayətlər üçün proseduru özündə birləşdirir. Lakin məhkəmə işinin başladılması üçün çox ciddi qəbuledilmə tələbləri mövcuddur. Məsələn, siz əmin olmalısınız ki, sizin şikayətiniz

ölkənizin dövlət məhkəmələrində (ən yüksək məhkəməyə qədər!) artıq qaldırılmışdır. Əgər cəhd etmək istəsəniz və qəbuledilmə tələblərini qarşıladığınızı düşünsəniz, o halda siz şikayət qaldıra bilərsiniz.

Lakin iddianızın uğur qazanacağından əmin olmaq məqsədilə hüquqi məsləhət və ya bu sahə üzrə məşğul olan hər hansı bir QHT-nin məsləhətini almağınız qəti şəkildə məsləhət görülür. Məlumatınız olsun ki, yekun qərar verilənə qədər bu çox uzun və çətin poses ola bilər!

### ? *Kimlərdən öz hüquqlarımı tələb edə bilərəm?*

Bütün beynəlxalq sənədlərdə öz əksini tapan adi insan hüquqlarının, demək olar ki, hamısı sizin hökumətiniz və ya dövlət rəsmilərinə qarşı olan iddialardır. İnsan hüquqları dövlətə qarşı sizin maraqlarınızı müdafiə edir və beləliklə, siz insan hüquqlarınızı dövlət və ya onun nümayəndəsindən tələb etməlisiniz. Əgər siz hüquqlarınızın, məsələn, sizi işəgötürən şəxs və ya qonşunuz tərəfindən pozulduğunu görürsünüzsə, ölkənin hökumətinin sizi işəgötürən şəxslər və ya qonşularınıza qarşı görməli olduğu hər hansı bir tədbir olduğu təqdirdə, siz birbaşa beynəlxalq insan hüquqları qanunvericiliyinə müraciət edə bilməzsiniz.

### ? *Hər hansı bir şəxs hüquqlarımı müdafiə etməklə bağlı məsuliyyət daşıyır?*

Bəli. Hər hansı digər bir şəxsin müvafiq məsuliyyəti və ya öhdəliyi olmadan hüququn heç bir mənası yoxdur. Hər bir şəxsin sizin şəxsi ləyaqətinizi pozmamaqla bağlı mənəvi öhdəliyi var, hökumətinizin isə beynəlxalq müqavilələrə imza atmaqla, bununla bağlı yalnız mənəvi deyil, həmçinin, hüquqi öhdəliyi var.

### ? *İnsan hüquqları yalnız qeyri-demokratik ölkələrdə problemdir?*

Hətta bu gün belə dünyada heç bir ölkədə insan hüquqlarına tam şəkildə riayət edilmir. Bəzi ölkələrdə digər ölkələrə nisbətən daha tez-tez baş verən hüquq pozuntusu halları ola bilər, lakin hər bir hüquq pozuntusu baş verməməli olan bir problemdir və onunla mütləq məşğul olmaq lazımdır. Demokratiyanın ən çox bərqərar olduğu ölkələrdə hüquqları pozulmuş bir fərd yalnız bir faktla rahatlıq tapa bilər ki, onun ölkəsi dünyadakı digər ölkələrlə müqayisədə insan hüquqları ilə bağlı daha “yaxşı” göstəriciyə malikdir!

### ? *İnsan hüquqları pozuntusu hallarının azaldılması ilə bağlı hər hansı irəliləyiş əldə etmişik?*

Bəzən okeandakı kiçik bir damcı kimi görünsə belə - böyük irəliləyiş əldə etmişik. Quldarlığın ləğv olunması, qadınların səsvermə hüququ, ölüm hökmünü ləğv edən ölkələr, beynəlxalq təzyiq nəticəsində vicdan məhbuslarının azad olunması, Cənubi Afrikada aparteid rejiminin dağılması, Avropa Məhkəməsi qarşısında qaldırılan işlər və bunun nəticəsində dəyişdirilməli olan qanunları nəzərə alın. Nəzərə alın ki, beynəlxalq mədəniyyətdə tədricən baş verən dəyişiklik o deməkdir ki, hətta ən avtoritar rejimlər belə beynəlxalq səviyyədə qəbul olunmaq məqsədilə insan hüquqları məsələsini nəzərə almalıdır. Xüsusilə son 50 il ərzində bir çox müsbət nəticələr əldə olunmuşdur, lakin hələ bundan daha çox iş görülməlidir.

# 4.6 Çətin suallar

**?** *Bütün dünyada hüquqlarının pozulmasından əziyyət çəkən insanlar varkən insan hüquqlarının universal olduğunu necə deyə bilərik?*

Bu insanların yenə də hüquqları var. Onlara belə bir münasibətin göstərilməsi yalnız mənəvi normalara deyil, həmçinin, beynəlxalq səviyyədə qəbul olunmuş normalara ziddir. Onların dövlət rəsmiləri beynəlxalq hüquq altında günahkardırlar və bəzi ölkələr əslində sanksiyalar və ya hətta hərbi qüvvələr vasitəsilə beynəlxalq cəmiyyət tərəfindən "cəzalandırılır". Lakin belə proseslər adətən hüquq pozuntusunun dərəcəsindən daha çox digər dövlətin maraqlarına əsasən ixtiyaridir. Beynəlxalq Cinayət Məhkəməsinin yaradılması müəyyən formada bu boşluğun aradan qaldırılması yolunda müəyyən irəliləyiş oldu. Roma Statutu ilə yaradılmaqla ilk daimi, müqaviləyə əsaslanan cinayət məhkəməsi olan Beynəlxalq Cinayət Məhkəməsi beynəlxalq ictimaiyyət üçün ən ciddi cinayətlər sayılan soyqırım, bəşəriyyətə qarşı cinayətlər və müharibə cinayətləri törədənlərin cəzasız qalmasına son qoymağa yardım etməklə bağlı səlahiyyətlidir.

**?** *Əgər Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin hüquqi qüvvəsi yoxdursa, onun mənası nədir?*

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin maddələri altında hökumətlərin sorğulana biləcəyi beynəlxalq məhkəmənin (hələ də) mövcud olmamasına baxmayaraq, bu sənədin çox böyük tarixi əhəmiyyəti var və bu gün belə o, hökumətlərin ona əsasən beynəlxalq səviyyədə mühakimə olunduğu meyar olaraq fəaliyyət göstərir. Hökumətlər bu gün iradi olaraq sənəddə əks olunan hüquqları pozduqları təqdirdə, digər hökumətlərin qınağı və bəzi sanksiya formalarının tətbiq olunması ehtimalı ilə qarşılaşacaqlarından xəbərdardırlar. Proses həmişə tam olaraq obyektiv olmur (!), lakin bu başlanğıcdır. Bəyannamə, həmçinin, demək olar ki, tərtib edilmiş (böyük və ya kiçik səviyyədə hüquqi qüvvə daşıyan) bütün beynəlxalq müqavilələr üçün əsas yaratmışdır.

**?** *Mənim hökumətim gündəlik həyatda adi insanların hüquqlarını pozur və beynəlxalq ictimaiyyətin etirazı ilə bağlı heç bir narahatlıq keçirmirsə, "insan hüquqları"nın mənim üçün mənası nədir?*

Yenə də – onlar başlanğıcdır; onlar heç nə olmamağından daha yaxşıdır və doğru şərait altında və düzgün yanaşma ilə onlar hökumətə bütün təcrübələrini olmasa da, ən azından bəzilərini dəyişdirməyə təsir edə biləcəkdir. Hökumətlərin törətdiyi hüquq pozuntuları halları çox kəskin olduqda və ya tez-tez baş verdikdə bu çox uzaq bir ümid kimi görünə bilər, lakin tarix sübut etmişdir ki, bu mümkündür. Həmçinin, biz hal-hazırda bugünə qədər olduğundan daha yaxşı imkanlara sahibik. Dəyişikliyi təşviq etmək yavaş proses ola bilər, lakin fərdlərin bu hüquqlara sahib olması və gündən-günə bütün dünyada bu hüquqların daha da çox tanınması və buna görə də, hökumətlər üçün ən azından müəyyən narahatlıq yaratması faktı bizi güclü silah və dəyərli bir başlanğıcla təmin edir.

**?** *Mən digərlərinin insan hüquqlarına hörmətlə yanaşdığım təqdirdə, bu, onlara istədiklərini etməyə icazə verir?*

Əgər onların istəkləri sizin və ya digər insanın hüquqlarını pozmağı özündə ehtiva edirsə, xeyr, icazə vermir. Lakin siz öz hüquqlarınızın dərəcəsinə görə çox tələbkar

olmamaq üçün ehtiyatlı olmalısınız: siz digər bir şəxsin davranışının qıcıqlandırıcı və ya səhv olduğunu düşünə bilərsiniz, lakin bu, mütləq şəkildə sizin hüquqlarınızın pozulması demək deyil.
Buna görə də, əgər siz digər insanların sizin istədiyiniz kimi davranmağınıza icazə verməsini istəyirsinizsə, siz özünüz də digərlərinin davranışı ilə bağlı daha tolerant yanaşma inkişaf etdirməlisiniz!

**?** *Mən öz hüquqlarımı qorumaq məqsədilə, digər bir şəxsə qarşı zorakılıq tətbiq etmək də daxil olmaqla, hər şey edə bilərəm?*

Ümumilikdə, yox. Lakin bu, həqiqətən, özünümüdafiə hadisəsi olduğu təqdirdə, sizə qarşı törədilən təhlükəyə uyğun olaraq hüquqi güc tətbiqi qəbul edilə bilər. Bu, sizə qarşı edilən səhvə görə "cəza" olaraq deyil, yalnız sizi daha sonrakı zərərdən qorumaq üçün tətbiq edilə bilər. İşgəncə hər bir halda qəbuledilməzdir.

**?** *Digərləri mənim hüquqlarıma hörmət etmirsə, mən nə üçün onların hüquqlarına hörmət etməliyəm?*

Qismən ona görə ki, əgər siz digərlərinin hüquqlarına hörmət etməsəniz, siz özünüzə narahatlıq yarada bilərsiniz; qismən ona görə ki, sadəcə insan olduqları səbəbindən digərləri sizin hörmətinizə layiqdir; və qismən ona görə ki, siz digərlərinə nümunə ola bilərsiniz və bu da onların sizə hörmət etmək ehtimalını artırır. Sonda onu qeyd etmək olar ki, bu sadəcə sizdən və sizin necə insan olmaq və ya necə bir dünyada yaşamaq istəməyinizdən asılıdır. Beləliklə, siz digərlərində bəyənmədiyiniz formada davranış nümayiş etdirdiyiniz halda, bunun sizin haqqınızda nə fikir formalaşdırdığı barədə düşünə bilərsiniz. Və ya hər kəs digərinin hüquqlarını əvəz-əvəz formasında pozduğu bir dünyanın necə bir yer olacağı barədə düşünün.

**?** *Nəyə görə digərlərinin hüquqlarını ən qeyri-insani formada pozan şəxslər "insan" hüquqlarının subyekti olaraq görülməlidir?*

Bu, yəqin ki, insan hüquqları nəzəriyyəsinin qəbul edilməli olan ən çətin, lakin, eyni zamanda, ən önəmli hissəsidir. Bəzən elə görünür ki, bəzi fərdlər insan xüsusiyyətlərindən o dərəcədə məhrumdur ki, yalnız kor-koranə inam bizə onları insan kimi görməyə imkan verə bilər. Önəmli məqamlar aşağıdakılardır:

- İlk növbədə, bəzi insanların açıq-aşkar qeyri-insanlığına baxmayaraq, hər bir fərd müəyyən dərəcədə insanlığa sahibdir. Cinayətkarlar öz analarını, övladlarını, həyat yoldaşlarını – və ya kimisə sevir. Cinayətkarlar da ağrı, rədd, ümidsizlik və qısqanclıq hiss edir; onlar dəyər verilməyi, qiymətləndirilməyi, dəstəklənməyi və başa düşülməyi arzu edir. Onlar hamısı, onların hər biri insan emosiyalarının hamısına olmasa da, müəyyən hissəsinə sahibdir. Bu, onları insan edir və bizim hörmətimizə layiq edir.
- İkinci növbədə, biz cinayətkarları onların digərlərini incitdiyi dərəcədə incitmək istəməklə özümüz də yaxşı bir şey etmirik: bu cür hislər yalnız bizi daha az hörmətəlayiq edir.
- Üçüncü növbədə, əgər təsadüfən hər hansı bir cinayətkar bizim qarşımızda heç bir insani xüsusiyyətləri olmadan (və heç vaxt da olmayıb) "insan" formasında peyda olsa, bizim aramızdan kim tam əminliklə onun insan olmadığını deyə bilər? Hansı kriteriyaya əsasən? Onların sevmək və ya sevilməyə qadir olmamalarına əsaslanaraq? Bəs əgər bizim inamımız yalnışdırsa?

Üçüncü bənd bizə mühakimənin nəticələri dəhşətli və bərpa olunmaz olduğu halda, bəzi insanlara digərlərini mühakimə etmək səlahiyyəti verməklə bütün bəşəriyyətin üzləşə biləcəyi riskləri nəzərə almağı xatırladır. Biz, həqiqətən, belə mühakimələrin irəli sürüldüyü və bəzi insanların insan hüquqlarına sahib olmamalarına görə qeyri-insan olaraq müəyyənləşdirildiyi bir dünyaya sahib olmaq istəyirik? Bütün insan hüquqlarının tam universallığı olmadan biz elə bir dünyaya sahib olacağıq.

# İstinadlar

"Avropa, Gənclər, İnsan Hüquqları, İnsan Hüquqları Həftəsinin Hesabatı", Yael Ohana, Avropa Gənclər Mərkəzi, Budapeşt, 2000.

Garzón Valdés, E., "Confusiones acerca de la relevancia moral de la diversidad cultural", CLAVES de Razón Práctica, No.74, Madrid, Julio/Agosto, 1997.

İnsan Hüquqları, BMT işçiləri üçün təlimat vəsaiti, İnsan Hüquqları üzrə Ali Komissarın ofisi, Birləşmiş Millətlər Təşkilatı, Cenevrə. 2001

http://www.ohchr.org/Documents/Publications/HRhandbooken.pdf ünvanında əldə edə bilərsiniz Levin, L., İnsan Hüquqları, Suallar və Cavablar, YUNESKO, Paris, 1996

Donnelly, Jack, Universal İnsan Hüquqları nəzəriyyədə və praktikada, Cornell Universiteti Nəşriyyatı, 1989.

Freeman, Michael, İnsan Hüquqları: Əsas Nəzəriyyələr, Polity Nəşriyyatı, London, 2002.

Ishay, Micheline R. red., İnsan Hüquqları Oxuyucusu, Routledge, London, 1997.

Rishmawi, M., İnsan Hüquqları və Ərəb Ölkələri Liqası üzrə Ərəb Xartiyası: Yenilənmə, İnsan Hüquqları Qanununun nəzərdən keçirilməsi, 10.1, pp. 169-178

Symonides, Janusz red., İnsan Hüquqları: Yeni Ölçülər və Çağırışlar, İnsan Hüquqları üzrə Təlimat vəsaiti, YUNESKO/Dartmouth Nəşri, Paris, 1998.

Robertson A. və Merrills J, Dünyada insan hüquqları, Mançester Universiteti Nəşriyyatı, 1996.

Bioetika ilə bağlı Avropa Şurası vebsaytı: www.legal.coe.int/bioethics

http://www.udhr.org/history/biographies/bioer.htm, Eleanor Rooseveltin sitatı.

Hanski, R., Suksi, M. (eds.), İnsan hüquqlarının beynəlxalq müdafiəsinə giriş: dərslik, Åbo Akademi

İnsan hüquqları üzrə Universitet İnstitutu, 1999.

Faktlar vərəqi No. 2 (Rev. 1), Beynəlxalq İnsan Hüquqları Billi, İnsan Hüquqları üzrə Ali Komissarın Ofisi, www.unhchr.ch/html/menu6/2/fs2.htm.

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı, www.unhchr.ch.

Avropa İnsan Hüquqları Konvensiyası üzrə bələdçi, Avropa Şurası Nəşriyyatı.

Avropa İnsan Hüquqları Məhkəməsi, www.echr.coe.int.

İşgəncə və Qeyri-insani və ya Alçaldıcı rəftar və ya Cəzanın Qarşısının Alınması üzrə Komitə, www.cpt.coe.int.

Avropa Şurasının Gender Bərabərliyi üzrə Vebsaytı, www.coe.int/t/dghl/standardsetting/equality/default_en.asp

Avropa Sosial Xartiyası, www. coe.int/T/DGHL/Monitoring/SocialCharter.

Milli Azlıqların Qorunması üzrə Çərçivə Konvensiyası, www. coe.int/t/dghl/monitoring/minorities.

İrqçilik vəə Qeyri-tolerantlığa qarşı Avropa Komissiyasının Vebsaytı, www. coe.int/t/dghl/monitoring/ecri.

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı, www.ohchr.org.

Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı, www. coe.int/t/commissioner

Risse T., Ropp S., Sikkink K., İnsan hüquqlarının Gücü, Cambridge Universiteti Nəşriyyatı, 1999.

Forsythe, D., Beynəlxalq Münasibətlərdə İnsan hüquqları, Cambridge Universiteti Nəşriyyatı, 2000. www.speaktruth.org

Qadınların və qız uşaqlarının sağlamlığına təsir edən ənənəvi təcrübələr üzrə BMT-nin xüsusi məruzəçisi
http://www.udhr.org/history/biographies/bioer.htm

# Fəsil 5

# Qlobal İnsan Hüquqları Mövzuları üzrə Ümumi Məlumat

# Bu fəsilin mündəricatı

Redaktə olunmuş 5-ci fəsilə giriş.................. 433
Uşaqlar.................. 435
Vətəndaşlıq və İştirak.................. 436
Mədəniyyət və İdman.................. 437
Demokratiya .................. 438
Əlillik və Əlillərə qarşı Ayrı-seçkilik.................. 439
Ayrı-seçkilik və Dözümsüzlük.................. 440
Təhsil.................. 441
Ətraf mühit.................. 442
Gender .................. 443
Qloballaşma.................. 444
Sağlamlıq .................. 445
KİV.................. 446
Miqrasiya.................. 447
Sülh və Zorakılıq.................. 448
Yoxsulluq.................. 449
Din və İnam.................. 450
Tarixi Yaddaş.................. 451
Müharibə və Terrorizm .................. 452
Əmək.................. 453

# Redaktə olunmuş 5-ci Fəsilə Giriş

Kompasın 2012-ci il buraxılışının 5-ci fəslində gənclərlə xüsusilə əlaqəli olduğu təsbit edilmiş on doqquz qlobal insan hüquqları mövzusuna aid 150 səhifədən çox əlavə məlumat var. Bu məlumatlar siyasi, iqtisadi, sosial və insan hüquqları kontekstində fəaliyyət göstərmək üçün kifayət qədər əsas məlumatlar olmaqla hər bir mövzunun ümumi xülasəsini təqdim etmək məqsədi daşıyır. İdeya ondan ibarət idi ki, məlumat maneə yaradacaq dərəcədə çox təfərrüatlı olmamaqla, fasilitatoru fəaliyyətə başlamağa özünü əmin hiss etdirməyə kafi olsun.

Kompasın bu 2015-ci il nəşri orijinal 5-ci Fəsil olmadan çap olunmuşdur. Bu, ona görə deyil ki, fasilitatorlar əlavə məlumata çox ehtiyac duymurlar (bu, yəqin ki, ən uyğun olan və ən mühüm olandır), əsas səbəb ondan ibarətdir ki, məlumat mövcud hadisələr, siyasi dəyişikliklər və insan hüquqları ilə bağlı düşüncələrə uyğun olmalıdır. Məsələn, Suriya, Norveç və Parisdəki son hadisələr Müharibə və Terrorla əlaqədar yeni suallar yaradır. Aralıq dənizindən keçən miqrantların sayındakı nəhəng artım və Avropadakı immiqrantlara qarşı ən azı siyasətçilər tərəfindən münasibətdəki ümumi dəyişikliklər Miqrasiya və Ayrı-seçkilik və Dözümsüzlük mövzularında əlavə məlumatın olmasını vacib edir.

Hadisələr baş verdikcə, insan hüquqları ilə bağlı narahatlıqlar zamanla dəyişir. Keçmişdə köləliyə qarşı dözülürdü və ölüm cəzası müdafiə edilirdi, ancaq indi onların fərdlərin insan hüquqlarını pozduğu düşünülür. Mövcud insan hüquqları dilemmalarına, məsələn, qadınların və uşaqların sağlamlığına mənfi təsir göstərən bəzi mədəni praktikalar və ifadə azadlığı ilə bağlı hüquqlar üzrə mübahisələr daxildir. Biz insan hüquqlarının universal mədəniyyətinə doğru irəlilədikcə insan hüquqları ilə bağlı anlayışımızı dərinləşdirmək məqsədilə bütün məsələlər daim müzakirə olunmalı və nəzərdən keçirilməlidir.

İstinad məlumatının müvafiq edilməsinin ən yaxşı yolu onun daima yenilənə biləcəyi İnternetə qoyulmasıdır. Əvvəllər İnternetə hər kəs çıxış əldə edə bilmirdi və Kompas istifadəçiləri bəzi məlumatları itirə bilərdi. Lakin, hal-hazırda, 2015-ci ildə hər kəsin internetə çıxışı var və məntiqli olan istinad məlumatının www.coe.int/compass ünvanında internetdə yerləşdirilməsidir.

İnsan hüquqlarının müdafiə edilməsi hər kəsin məsuliyyətidir və Kompasın istifadəçiləri ümumilikdə Kompasın, xüsusilə də 5-ci Fəsilin nə dərəcədə dəyərli vasitə olması ilə bağlı şərh verməyə dəvət olunur – inandırılır. www.coe.int/compass ünvanında şərh formasını tapa bilərsiniz.

## *Mövzular və istinad məlumatı*

Kompasın 2012-ci il nəşri gənclərin xüsusi maraq göstərdiyi müəyyən edilmiş 19 qlobal insan hüquqları mövzusu ətrafında təşkil edilmişdir. Mövzuların son siyahısı Avropa Şurası, Kompasın rəhbər komitəsi, kitabın müəllifləri və insan hüquqları müdafiəçiləri şəbəkəsi arasında müzakirə və şərh prosesi ilə tərtib edilmişdir. Kompası yazmağın məqsədi hər kəsin əvvəlki biliklərindən asılı olmayaraq, istifadə edə biləcəyi insan hüquqları təhsili haqqında təlimat vəsaiti hazırlamaqdır. Bu, müvafiq mövzular və insan hüquqları ilə yeni tanış olan insanların ehtiyaclarını qarşılayacaq istinad məlumatlarının yazılmasına səbəb oldu; məlumat sadələşdirilmiş deyil, sadə olmalı, cəmlənmiş və kifayət edəcək şəkildə olmalıdır. Beləliklə, məlumatların düzgün, müvafiq və balanslaşdırılmış olmasını təmin etmək üçün müxtəlif məqalələr yazılmış, nəzərdən keçirilmiş və uzun prosesdən keçərək yekunlaşdırılmışdır. Nəticə 19 qlobal insan hüquqları mövzusunun hər birinin təqdim olunduğu və onları özündə birləşdirən 5-ci Fəsilin ortaya çıxması oldu:

- İzahlar və əsas anlayışlar
- İnsan hüquqları məsələləri, alətləri və institutları
- Xüsusilə gənclərə aid məsələlər
- Dilemmalar və suallarla bağlı düşünmək üçün oxucuya yardım edəcək suallar
- Avropa Şurasının rolu və fəaliyyəti
- İstinadlar, yararlı təşkilatlar, QHT-lər, linklər və əlavə oxu

Orijinal 5-ci Fəsili tam şəkildə www.coe.int/compass ünvanında onlayn əldə edə bilərsiniz. Aşağıdakı onlayn əldə edə biləcəyiniz bəzi məlumatın qısa nümunəsidir. Ümid edirik ki, bu nümunələr oxucuları fəaliyyətə başlamazdan əvvəl öz hazırlıqlarının bir hissəsi olaraq www.coe.int/compass ünvanını ziyarət etməyə həvəsləndirəcəkdir. İstifadəçilərin 5-ci Fəsilin onlayn məzmununu izahedici mətnlər olaraq qəbul etməməsi vacibdir. Onlar yazı zamanı məsələlərin anlaşılmasını təmin etmək cəhdləridir.

## *İstinad məlumatını daim yeniləmək*

Biz inanırıq ki, istifadəçilərimiz istinad məlumatını daim yeniləmək və uyğun etmək üçün bizə yardım edəcəkdir və sizin şərhləriniz və töhfələrinizi gözləyirik. Bizimlə şərh formasını əldə edə biləcəyiniz www.coe.int/compass ünvanı ilə əlaqə yarada bilərsiniz. Çox sağ olun!

# Uşaqlar






**Əlaqədar məşğələlər**
Bunu həyata keçirin
Aşığın hekayəsi
Uşaqların hüquqları
Bizim alternativimiz var?
Hamı üçün təhsil
Gül gücü
Qoy, hər bir səs eşidilsin
Bizim gələcəyimiz
Bacarığı görün
Daş atmaq

İnsan hüquqları qanunu 18 yaşdan aşağı olan hər bir insanı uşaq kimi müəyyən edir. 2005-ci ildə YUNISEF dünyadakı uşaqların ümumi sayının 2,2 milyard olduğunu hesablamışdır. Onların təqribən 200 milyonu Avropadadır.

Uşaqlar qayğı və yardıma xüsusi ehtiyacı olan insanlar olaraq müəyyən olunmuşdur və bu səbəbdən, “öz” insan hüquqları müqaviləsinə sahibdirlər. Uşaq Hüquqları Konvensiyası 1989-cu ildə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul olunmuşdur. Bütün Konvensiyanın əsasını təşkil edən dörd əsas prinsip vardır: ayrı-seçkilik edilməməsi, uşağın ən yaxşı maraqları, yaşamaq hüququ, uşağın fikirlərinin yaşaması, inkişafı və onlara hörmət.

Onlayn 5-ci fəsildə küçə uşaqları, insan alveri, fiziki cəza, kiber zorakılıq və cinsi istismar, cinsi zorakılıq və uşaqlar üçün ombudsmanlar kimi mövzular haqqında məlumatlar yer alır.

# Vətəndaşlıq və İştirak

**Əlaqədar məşğələlər:**
Slipivildə məscid
Bunu həyata keçirin
Ehtiyatlı olun, biz baxırıq
Hamı üçün təhsil?
Seçkiqabağı kampaniya
Hüquq mübarizləri
Qadın və kişi qəhrəmanlar
Qoy, hər bir səs eşidilsin
Əlaqələrin qurulması
Nərdivanda
Elektrik stansiyası
İki şəhərin nağılı
Səs verməк və ya verməmək
Həmkarla ittifaqı görüşü
Harada dayanırsınız?




## Vətəndaşlıq nədir?

Vətəndaşlıqla bağlı ənənələr və yanaşmalar müxtəlif ölkələrə, tarixlərə, cəmiyyətlərə, mədəniyyətlərə və ideologiyalara görə tarix boyunca və bütün dünyada müxtəlifdir və bu da vətəndaşlıq konsepti ilə bağlı bir çox fərqli anlayışı ortaya çıxarır. Bu gün anlayış ən çox fərdi və dövlət arasındakı hüquqi əlaqələrdə əks olunur; milliyyətlə əlaqəli. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 15-ci maddəsi vətəndaşlıq hüququ, vətəndaşlığını dəyişdirmək hüququ və milliyyətindən məhrum edilməmə hüququnu tanıyır.

Mədəni və siyasi həyatda iştirak bir çox beynəlxalq insan hüquqları sənədlərində tanınır. Zəif sağlamlıq, təhsilin aşağı səviyyədə olması, ifadə azadlığına məhdudiyyətlər, yoxsulluq və s.– bütün bunlar bizə və hüquqlarımıza təsir edən proseslərdə və strukturlarda iştirak etmək bacarığımıza təsir edir. Eyni şəkildə, iştirak etmədən biz insan hüquqlarına əsaslanan bir cəmiyyət qura bilmərik.

5-ci fəsildə onlayn olaraq gənclər üçün hüquqlar və həqiqət haqqında məlumat tapa bilərsiniz; gənclərin müxtəlif qruplarının vətəndaşlıq imkanlarından istifadəsi və manipulyasiyadan birgə qərar qəbuletməyə qədər “iştirak” başlığı altında gedə biləcək spektr barədə məlumat verilmişdir.

Avropa Şurasının çox güclü gənclər siyasəti mövcuddur və gəncləri öz fəaliyyətinə çox aktiv şəkildə cəlb edir.

# Mədəniyyət və İdman




**Əlaqədar məşğələlər:**
İnananlar
Bircə dəqiqə
Makah balina ovu
Tarixi yaddaş etiketləri
Nərdivanda
İrqçiliklə mübarizə
Hamı üçün idman

Mədəniyyət hüququ ilk dəfə Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 27-ci Maddəsində təsbit olunmuşdur: Hər kəs cəmiyyətin mədəni həyatında sərbəst iştirak etmək, incəsənətdən istifadə etmək, elmi irəliləyiş və onun faydalarını bölüşmək hüququna malikdir. Digər tərəfdən, heç bir insan hüquqları bəyannaməsi və ya müqaviləsində idmanla bağlı xüsusi qeyd mövcud deyil. Amma idman bütün mədəniyyətlərdə universal bir ünsür hesab olunur, bir çox insan hüquqları ilə bağlı dır və gənclər arasında məhşur olan idman növləri mövcuddur, buna görə də, biz onu Kompasa qlobal insan hüquqları mövzusu olaraq daxil etdik. Məsələn, idman sağlamlıq hüququnun önəmli aspektidir və idmanla əlaqəli ləyaqət və hörməti sarsıdan bir çox insan hüquqları pozuntusu halları mövcuddur, buna nümunə olaraq, 5-ci Fəsildə onlayn təsvir olunan bir neçə pozuntu hallarına gücü artıran dərmanların qəbulu, “sənətdə qaydaların pozulması”, irqi ayrı-seçkilik və futbolu göstərmək olar.

Siz, həmçinin, rol modeli olaraq idmançılar, Paralimpiya Oyunları haqqında məlumat və “bütün mədəni təcrübələrə hörmət edilməlidir?” sualı ətrafında müzakirələrə rast gələcəksiniz.

# Demokratiya

**Əlaqədar məşğələlər:**
Seçkiqabağı kampaniya
Əlaqələrin qurulması
Səs vermək və ya verməmək
Həmkarlar ittifaqı görüşü




Demokratiya termininin mənasını izah etmək çətindir, ən sadə dillə desək, bu “insanların gücü” kimi düşünülə bilər. İnsan hüquqları və demokratiya arasındakı əlaqə çox dərindir və hər ikisinə aiddir: biri digərindən müəyyən bir formada asılıdır və bir-biri olmadan natamamdır. Düşüncə, vicdan və din azadlığı (Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, 18-ci Maddə), ifadə azadlığı (Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, 19-cu Maddə) və sərbəst toplaşma və birləşmə azadlığı hüquqları demokratiya ideyası ilə ayrılmaz şəkildə bağlıdır. Lakin digər hüquqların pozulması da hökumətdə yer ala biləcək insanlara müəyyən dərəcədə təsir edəcəkdir. Yoxsulluq, zəif sağlamlıq və ya evə sahib olmama bir kəsin iştirakını daha da çətinləşdirə bilər. Demokratiyada iştirak gənclər üçün çox vacib məsələdir, sitat: “16 yaşlı gənc evlənmək və işə sahib olmaq üçün kifayət qədər böyümüş hesab olunursa, o, səs də verə bilər?”

Siz 5-ci Fəsildə onlayn olaraq bütün bu məsələlər ilə əlaqədar məlumat, həmçinin, demokratiyanın inkişafı, dünyada mövcud müxtəlif modellər və demokratiya ilə bağlı fərqli problemlər barədə məlumat əldə edə bilərsiniz.

# Əlillik və Əlillərə qarşı Ayrı-seçkilik

**Əlaqədar məşğələlər:**
Eynəklərinizi dəyişin
Müxtəlif maaşlar
Mən işləmək istəyirəm
Bacarığı görün
Hamı üçün idman




Əlilliyin dünya səviyyəsində qəbul olunmuş tərifi yoxdur. Əlilliyi olan şəxslərin hüquqları haqqında BMT Konvensiyasında (2006) "əlilliyin inkişaf etməkdə olan bir konsepsiya" olduğu və "əlilliyin zədəsi olan insanlar ilə onların cəmiyyətdə digərləri ilə eyni səviyyədə tam və effektiv iştirakına mane olan münasibət və ətraf mühitlə bağlı maneələr arasındakı qarşılıqlı təsirlərin nəticəsi" olduğu qeyd edilir.

Əlillərə qarşı ayrı-seçkilik fiziki qüsurlu insanların digərlərindən daha aşağı səviyyəli insanlar olduğu inamından irəli gələn ayrı-seçkilik, təzyiqli, təhqiramiz davranışlar olaraq izah olunur.

Əlillik, məsələn, işə, mədəniyyətə və ya ailə həyatına bərabərlik verilmədiyi və ya məhdudlaşdırıldığı zaman bir insan hüquqları problemi olaraq təzahür edir. 200 min əlil insanı qətlə yetirən nasistlər tərəfindən həyata keçirilən təcrübələr kimi Evgenika proqramları insanların yaşamaq hüququnu pozur. Bəs doğuş öncəsi görüntülü müayinə prosedurları və qadınlara abort vermək hüququ necə? Bunlar 5-ci fəsildə onlayn şəkildə təqdim olunan mübahisəli məsələlərdir.

5-ci Fəsildə biz sual qoyuruq: Fiziki qüsurlular kimdir? Və əlilliyin tibbi və sosial modelləri barədə məlumat veririk. Siz, həmçinin, əlillik hüquqları hərəkatı və xüsusilə gənclərin və yeniyetmələrin, məsələn, təhsil, imkanlardan istifadə (gənclik təşkilatları da daxildir) və iş baxımından çox ciddi nəticələrə səbəb olan əlilliyin aktuallaşdırılması barədə məlumat əldə edəcəksiniz..

# Ayrı-seçkilik və Dözümsüzlük

**Əlaqədar məşğələlər:**
Slipivildə məscid
Dərmanların əldə olunması
Hər kəs Fərqli - Hər kəs
Bərabər İnananlar
İçəri girə bilərəm?
Müxtəlif maaşlar
Dosta!
Qadın və kişi qəhrəmanlar
İşləmək istəyirəm
Dil baryeri
Gəlin cins barəsində danışaq
Bərabərlik ölkəsinə yol
İrqçiliklə mübarizə
Bacarığı görün
Bir addım irəli atın
Mən kiməm?
İş və uşaqlar




Ayrı-seçkilik və dözümsüzlük insan hüquqları pozuntularına gətirib çıxaran iki ən geniş yayılmış davranış formasıdır. Ayrı-seçkilik insanlar yalnız müəyyən qrup və ya kateqoriyaya daxil olduqlarından və ya daxil olduqları düşünüldüyündən müqayisəli vəziyyətdə digərlərinə nisbətən daha pis münasibətə məruz qaldıqda baş verir. Dözümsüzlük öz praktikası və ya inamlarından fərqli olanlara hörmət olunmamasıdır.

Bərabərlik və ayrı-seçkiliyin olmaması prinsipləri Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 1 və 2-ci Maddələrində və Avropa İnsan Hüquqları Konvensiyasının 14-cü Maddəsində öz əksini tapmışdır. Ayrı-seçkilik öz yaşı, əlilliyi, etnik mənsubiyyəti, mənşəyi, siyasi inamları, irqi, dini, cinsi və ya genderi, dili, mədəniyyəti və s. görə ayrı-seçkiliyə məruz qalmış insanlar və ya qruplar üzərində birbaşa nəticələrə malikdir. Bəzən biz bərabərsizliyi düzəltmək məqsədilə müsbət mənada ayrı-seçkilik edirik (müsbət hərəkət adlanır). Buna misal olaraq, məşğulluq imkanlarının genişləndirilməsi və təhsilin təmin edilməsi vasitəsilə gənclərə yardım etmək məqsədilə kənd ərazilərinə daha çox pul yatırmağımızı göstərmək olar. Ayrı-seçkiliyə bərət qazandırmaq mümkündür?

5-ci Fəsildə bu sual və "çoxluq tərəfindən zülm" vasitəsilə demokratiyalarda struktur bərabərsizliyə səbəb olan mexanizmlər də daxil olmaqla, digər məsələlər haqqında onlayn müzakirələr mövcuddur. Siz, həmçinin, stereotiplər və qərəz və ayrı-seçkiliyin yuxarıda göstərilən müxtəlif formaları və buna əlavə olaraq, antisemitizm, roma insanlarına qarşı fobiya və anti-qaraçılıqla bağlı əlavə məlumat əldə edəcəksiniz.

# Təhsil




Təhsil cəmiyyətin toplanmış biliklərini, bacarıqlarını və dəyərlərini bir nəsildən digərinə ötürdüyü prosesdir. Bu, həm öz-özlüyündə hüquqdur, həm də digər insan hüquqlarını həyata keçirmək üçün zəruri bir vasitədir. Onun vacibliyi səbəbindən BMT-nin Minilliyin İnkişaf Məqsədlərinin ikisi təhsilə aiddir. Məqsəd 2: 2015-ci ilə qədər hər yerdəki uşaqların, oğlanlar və qızların ibtidai təhsilin tam kursunu bitirməsini təmin etmək və Məqsəd 3: gender bərabərliyini təbliğ etmək və təhsil sahəsində gender bərabərliyinə nail olunması ilə qadınların gücləndirilməsini təmin etmək. Niyyətlərə baxmayaraq, 2011-ci ildə dünyada təxminən 57 milyon uşaq hələ də məktəbə getmir, 69 milyon yeniyetmə orta təhsildə qazanılan əsas bacarıqlara malik deyil və bir çox ölkələrdə gender bərabərsizliyi qalmaqdadır.

Təhsil imkanı bütün gənclərə təsir edən və onların güclü hesab etdiyi bir imkandır. Onlar hərəkətə keçmək üçün bənzərsiz bir mövqedədirlər və buna görə də, onlar öz hüquqları barədə yaxşı məlumatlandırılmalı və öz təhsil sistemlərinin siyasi və sosial kontekstini başa düşməlidirlər. 5-ci fəsildə onlayn məlumatlardan başlamaq yaxşıdır. Biz təhsil üçün 4 A konsepsiyasını: mövcudluq, əlçatanlıq, qəbuledilənlik və uyğunluq (availability, accessibility, acceptability and adaptability) və YUNESKO-nun dörd əsasını: birlikdə yaşamağı öyrənmək, bilməyi öyrənmək, etməyi öyrənmək və olmağı öyrənməyi tətbiq etməkdə qarşıya çıxan çətinlikləri təsvir edirik.



**Əlaqədar məşğələlər:**
Uşaqların hüquqları
Hər kəs üçün təhsil?
Bizə nə qədər lazımdır?
Qoy hər bir səs eşidilsin
Mənim həyatım tamaşa deyil
Bərabərlik ölkəsinə yol
Tezliklə köhnələcək

# Ətraf mühit

**Əlaqədar məşğələlər:**
3 əşya
Ehtiyatlı olun, biz baxırıq
Barmaqlar və baş barmaqlar
Ön səhifə
Makah balina ovu
Bizim gələcəyimiz
İki şəhərin nağılı
Həyat şəbəkəsi




"İnsanın ləyaqətli və rifahlı həyata imkan verən bir keyfiyyət şəraitində azadlıq, bərabərlik və həyat üçün uyğun şərtlərə fundamental hüququ olmalıdır." Bu sitat 1972-ci il BMT İnsan Mühiti Konfransının Stokholm Bəyannaməsindən götürülmüşdür və ətraf mühitin mühafizəsi üçün hüquq əsaslı yanaşmanın başlanğıc nöqtəsi kimi qəbul edilə bilər.

İnsan başa düşür ki, biz hansı işlə məşğul olsaq da – mədənçilik etsək da, ağac kəssək də, tikinti ilə məşğul olsaq da, əkinçiliklə məşğul olsaq da, ətraf mühiti çirkləndirsək də bizim hərəkətlərimizin həm yerli, həm də qlobal səviyyədə, hal-hazırda və gələcəkdə də, nəticələri olur. Buna görə də, bizim ətraf mühitlə bağlı narahatlıqlarımız bəşəriyyətlə bağlı narahatlıqlarımızdan ayrılmamalı və bərabərlik, hüquqlar və öhdəçilik prinsipləri ilə bağlı olmalıdır.

Gənclər, ümumiyyətlə, ətraf mühitin vəziyyəti ilə bağlı çox narahatdırlar; hər şeydən əvvəl, bu, onların gələcəyidir. Adətən onların bilavasitə narahatlıqları yerli məsələ ilə bağlıdır, lakin iqlim dəyişikliyi bütün dünyada hər kəs tərəfindən (lakin digərlərinə nisbətən bəziləri tərəfindən daha çox) hiss edilən əsas problemdir; bu, insan artımı kimi bərabərlik məsələsidir.

5-ci Fəsildə onlayn olaraq, siz gənclər üçün bu narahatlıqlar barədə və məsələn, hava çirklənməsinin müxtəlif formalarının və təhlükəsiz və qaneedici su təchizatının olmamasının səbəb olduğu ölüm halları nəticəsində yaşamaq hüququnun pozulması kimi hüquq pozuntuları barədə oxuya bilərsiniz. İşlə təmin olunmaq hüququ, ərzaq hüququ və mədəni həyatda iştirak hüququnun pozulması bizim torpaqdan kənd təsərrüfatı, mədənçilik, digər sənayelər, nəqliyyat sistemləri və şəhərlər üçün necə istifadə etməyimizdən irəli gələ bilər.

Siz, həmçinin, Soyqırım, Bəşəriyyətə qarşı Cinayətlə yanaşı Beynəlxalq Cinayət Məhkəməsi qarşısına çıxarılmaq üçün Sülhə qarşı Beynəlxalq Cinayət hesab oluna biləcək, təbii ətraf mühitə qarşı hər hansı genişmiqyaslı məhvi nəzərdə tutan ekosid cinayəti barədə də oxuya bilərsiniz.

# Gender



**Əlaqədar məşğələlər:**
Müxtəlif maaşlar
Ailədaxili işlər
Qadın və kişi qəhrəmanlar
Gəlin cins barəsində danışaq
Bərabərlik ölkəsinə yol
Mən kiməm?
İş və uşaqlar




Gender hər kəsə kompleks, kəskin və açıq şəkildə təsir edir. Bizim cinsi və gender şəxsiyyətimiz insan təbiətinin ayrılmaz tərkib hissəsidir. Cinsiyyət, gender, gender mənsubiyyəti və cinsəllik terminləri fərqli mənalara sahibdir, ancaq tez-tez səhv salınır. 5-ci fəsildə onlayn olaraq bu və digər terminlərin izahını tapa bilərsiniz.

Gender bərabərliyi fundamental insan hüququdur və bütün beynəlxalq insan hüquqları müqavilələri qadın və kişilərə bərabər şəkildə tətbiq olunur. İnsanlar öz gender mənsubiyyətinə görə insan hüquqları pozuntularına məruz qala bilər, lakin qadınlar bu barədə daha çox zərər çəkir. Əsas məsələlərin bəziləri iştirak (təhsildə, məşğulluqda və siyasi və ictimai qərar qəbulunda), gender əsaslı zorakılıq (məsələn, ailədaxili zorakılıq, qadın cinsiyyət orqanının təhrif edilməsi, insan alveri, cinsə yönəlmiş abort), hərbi münaqişələr (qurbanların 90%-i əsasən qadın və uşaqlar olmaqla mülki şəxslərdir) və yoxsulluq (dünyada yoxsul əhalinin 70%-indən çoxu qadınlardır), həmçinin, seksual və reproduktiv hüquqlar (məcburi evliliklər və doğum nəzarəti ilə bağlı seçim) ilə əlaqəlidir. Qadınların xüsusi həssaslığını nəzərə alaraq, 1979-cu ildə Qadınlara Qarşı Ayrı-seçkiliyin Ləğv Edilməsi haqqında Konvensiya (CEDAW) qəbul edildi.

# Qloballaşma

**Əlaqədar məşğələlər:**
Dərmanların əldə olunması
Hər kəs Fərqli - Hər kəs Bərabər Aşığın hekayəsi
Ehtiyatlı olun, biz baxırıq
Barmaqlar və baş barmaqlar
Ön səhifə
Bizim nə qədərinə ehtiyacımız var ?
Makah balina ovu
Güc və var-dövlət uğrunda mübarizə aparmaq
Tezliklə köhnələcək
Terrorizm
Həyat şəbəkəsi
Sabah gələndə




Bir çoxumuzun qloballaşmanın nə demək olduğunu anlamağımıza baxmayaraq, bu çox mürəkkəb anlayışdır və insan hüquqları ilə müxtəlif əlaqələri var. Bir tərəfdən qloballaşma insan hüquqları pozuntularına görə məsuldur, digər tərəfdən isə, insan hüquqları hərəkatlarına qloballaşmış KİV şəbəkəsi vasitəsi ilə onun hədsizliyinə və mənfi təsirlərinə qarşı çıxmağa imkan verir. Fəsil 5-də onlayn olaraq siz qloballaşmanın iqtisadi təsirləri və beynəlxalq iqtisadi və ticarət qurumları, eyni zamanda, mədəni və sosial təsirlər və "qloballaşmanı insan üzü" ilə təşviq etmək barədə oxuya bilərsiniz.

Qloballaşmanın mənfi təsirlərinə cavab olaraq insan hüquqlarının bəzi sahələri inkişaf etdirilmişdir. İnkişaf hüququnun aydınlaşdırılması və bizneslər üçün strateji siyasət təşəbbüsü olan BMT-nin Qlobal Sazişinin On Prinsipinin hazırlanmasını buna misal göstərmək olar.

Qloballaşma və siyasi, sosial, mədəni və siyasi nizamda qeyri-sabitlik yetkinliyə doğru gedən gənclərə qeyri-mütənasib şəkildə təsir edir. Digər tərəfdən, bir çox gənc üçün qloballaşma səyahət, müxtəlif həyat tərzləri və mədəniyyətləri təcrübədən keçirmək, işləmək və təhsil almaq imkanları deməkdir. Avropa Şurası çox müxtəlif gənc təşkilatlarında gənclərin bir araya gətirilməsinə imkan verən tədbirlərin təşkilində mühüm rol oynayır.

# Sağlamlıq




**Əlaqədar məşğələlər:**
Dərmanların əldə olunması
Bizim alternativlərimiz var?
Ailədaxili işlər
Bizim gələcəyimiz
Bircə dəqiqə!
Gəlin cins barəsində danışaq
Güc və var-dövlət uğrunda mübarizə aparmaq
Hamı üçün idman
Həyatımdakı zorakılıq
Həyat şəbəkəsi

Sağlamlıq hüququ Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (25-ci Maddə) və Avropa Sosial Xartiyası da daxil olmaqla, bir çox beynəlxalq və regional insan hüquqları alətlərində tanınır. Sağlamlıq hüququ sağlam olmaq hüququ kimi başa düşülməməlidir: insanın xəstəliyinin hər bir mümkün səbəbinə qarşı mühafizə təmin etmək mümkün deyil. Mümkün, əlçatan, qəbuledilən və yaxşı keyfiyyətli səhiyyə xidmətləri, eyni zamanda, sağlam qalmaq üçün lazım olan yaşayış şəraitinə sahib olmaq hər kəsin, heç bir ayrı-seçkilik olmadan, hüququdur.

Yaxşı niyyətlərə baxmayaraq, həm yerli, həm də qlobal səviyyədə çox böyük bərabərsizliklər mövcuddur və bunun nümunələri 5-ci Fəsildə onlayn göstərilmişdir. Bu Fəsildə, həmçinin, gənclər və sağlamlıq və sağlam həyat tərzi ilə bağlı məlumat yer almaqdadır. Yoxsulluq, pis qidalanma, fiziki aktivliyin olmaması və/və ya asılılıqlar şəraitində yaşamaq sağlamlıq üçün həyat boyu nəticələrə malik ola bilər. Çox erkən işləməyə başlayan gənclər sağlamlıq riskləri ilə üzləşir və yaşlı insanlardan 50% daha çox işdə zədə alma ehtimalına sahibdir.

5-ci Fəsildəki digər mövzulara dərmanlar, cinsi və reproduktiv sağlamlıq, əqli sağlamlıq və yoxsulluq və dərmanlardan istifadə imkanları daxildir.

Əlaqədar məşğələlər:
Ehtiyatlı olun, biz baxırıq
Ön səhifə
Qoy, hər bir səs eşidilsin
Tezliklə köhnələcək
Sabah gələndə
Harada dayanırsınız?

# KİV




KİV, çap, televiziya, radio, kino, CD, DVD və İnternet bizi məlumatlılığı artırmağa, iştirak və qlobal insan hüquqları fəallığını inkişaf etdirməyə xidmət edən müasir informasiya yolları ilə təmin edir, lakin onlar, eyni zamanda, nifrət, stereotip və yanlış informasiyalara yol aça bilərlər.

KİV-ə ən sıx bağlı olan insan hüququ fikir və ifadə azadlığı hüququdur. 5-ci fəsildə onlayn olaraq, siz ifadə azadlığı və ona qarşı, məsələn, hökumət mexanizmləri tərəfindən KİV-ə nəzarət etmək, jurnalistlərə qarşı zorakılıq, ticarət təzyiqləri və informasiya və kommunikasiya texnologiyalarına çıxış imkanlarının məhdudlaşdırılması kimi təhdidlər haqqında oxuya bilərsiniz. Avropa İnsan Hüquqları Məhkəməsi Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 10 (2) – ci maddəsinə uyğun olaraq, ifadə azadlığının məhdudlaşdırıla biləcəyi bir çərçivə təmin etmək üçün çox uzun bir yol qət etmişdir.

5-ci Fəsildə onlayn şəkildə ifadə azadlığının, məsələn, şəxsi həyat, ailə həyatı və ayrı-seçkiliyin qadağan olunması kimi digər insan hüquqları ilə necə ziddiyyət təşkil edə biləcəyi barədə oxuya bilərsiniz. Burada, həmçinin, xüsusi olaraq, gündəlik olaraq KİV saatlarla istifadə edən bir qrup olan gənclərə dair istehlakçılıq, zorakılıq, dəyərlər, stereotiplər və özünə inamla əlaqəli məlumatlar da var.

# Miqrasiya




Əlaqədar məşğələlər:
3 əşya
İçəri girə bilərəm?
Dil baryeri
Çahal Birləşmiş Krallığa qarşı

İnsanlar bugünkü qloballaşan dünyada, bəziləri istirahət, iş və ya təhsil imkanlarını axtarmaq üçün, digərləri isə müharibədən və ayrı-seçkilikdən qaçmaq üçün daim hərəkət edirlər. Ancaq "könüllü" və məcburi miqrantlar arasındakı fərq praktikada aydın deyil. Miqrasiya formaları aydın deyil: bilirdiniz ki, 12 milyondan çox rus vətəni xaricində yaşayır və 12 milyon xaricdə doğulan şəxs Rusiya Federasiyasına köçüb?

Onlayn 5-ci fəsildə siz müvəqqəti əmək miqrantları (qonaq işçilər), yüksək ixtisaslı işçi miqrantlar, qeyri-qanuni miqrantlar (sənədsiz və ya icazəsiz), məcburi köçkünlər, ailə üzvləri və geri qayıdan miqrantlar, həmçinin, məcburi köçkünlər, qaçqınlar və sığınacaq axtaranlar kimi miqrantların fərqli növlərinin izahı haqqında oxuya bilərsiniz.

Burada, həmçinin Beynəlxalq Miqrasiya Təşkilatı və Avropa İttifaqının miqrasiya siyasəti və gənclik siyasəti üzrə çərçivə sənədi olan – Gündəlik 2020 də daxil olmaqla, Avropa Şurasının fəaliyyəti barədə məlumat mövcuddur.

Erasmus Mundi kimi proqramlarda iştirak edən gənclərin mədəni müxtəlifliyə töhfə verdiyi hesab olunur. Digər tərəfdən isə, hesablamalara görə, Avropada özləri bu cəmiyyətlərdə doğulub böyüməsinə baxmayaraq, sırf valideynləri immiqrant olduğuna görə immiqrant hesab olunan 12 milyon gənc var. Nəticədə, bu "ikinci nəsil" immiqrantlar ayrı-seçkilik və irqçilik və öz insan hüquqlarının pozulması hallarından əziyyət çəkir. Gənc qaçqınlar, sığınacaq axtaranlar və məcburi köçkünlər də xüsusi olaraq, əlverişsiz vəziyyətdədirlər.

**Əlaqədar məşğələlər:**
İçəri girə bilərəm?
Çahal Birləşmiş Krallığa qarşı
Ailədaxili işlər
Bizim alternativlərimiz var?
Barmaqlar və baş barmaqlar
Tarixi yaddaş etiketləri
Mənim həyatım tamaşa deyil
Elektrik stansiyası
İrqçiliklə mübarizə
Terrorim
Daş atmaq
Həyatımdakı zorakılıq
Sabah gələndə

# Sülh və Zorakılıq




5-ci fəsildə onlayn şəkildə biz yalnız birbaşa “davranış” zorakılığını deyil, həmçinin, struktur zorakılıq və mədəni zorakılığı da əhatə edən zorakılıq anlayışını geniş şəkildə təqdim edirik. Eynilə, biz yalnız münaqişələrin olmaması deyil, eyni zamanda, ədalətin və bərabərliyin, hüquqlara və Yer kürəsinə hörmətin mövcudluğunu da nəzərdə tutan daha geniş bir sülh anlayışını təqdim edirik. Sülh bütün insan hüquqlarının həyata keçirilməsi üçün vacib elementdir. Bu da insan hüquqlarının bir məhsuludur və getdikcə ortaya çıxan yeni bir hüquq və ya həmrəylik hüquqlarının bir hissəsi kimi bir insan hüququ olaraq tanınır.

İnsan təhlükəsizliyi sülh və zorakılıqla yaxından əlaqəli bir anlayışdır. O, fərdlərin birbaşa fiziki zorakılıq təhdidi, həmçinin, yoxsulluqdan və digər sosial, iqtisadi və siyasi bərabərsizliklərdən, eləcə də təbii fəlakətlərdən və xəstəliklərdən irəli gələn dolayı təhlükələrdən qorunması ilə əlaqəlidir.

5-ci fəsildə onlayn şəkildə digər insanların hüquqlarının qorunması üçün zorakı hərəkətlərin bəzən zəruri olduğuna dair arqument təqdim edir və effektiv və ədalətli cinayət mühakiməsi sistemi üçün lazım təhlükəsizlik tədbirlərini müzakirə edirik.

Avropa Şurasının gənclər sektorunun mədəniyyətlərarası təhsil, münaqişə transformasiyası və insan hüquqları üzrə təhsil sahəsində fəaliyyət üzrə 40 illik təcrübəsi var. Məsələn, illik əsasda keçirilən Gənclər Sülh Kampı gənclərə, bəzən ilk dəfə olaraq, “digər tərəfdən” olanlarla üz-üzə danışmağa imkan yaradır.



COMPASS

# Yoxsulluq




**Əlaqədar məşğələlər:**
Eynəklərinizi dəyişin
Güc və var-dövlət uğrunda mübarizə aparmaq
Bir addım irəli atın
Harada dayanırsınız?

Biz bir milyarderin bir il ərzində bütün ölkələrin illik istehsalı qədər qazanc əldə etdiyi bir dünyada yaşayırıq. 5-ci fəsildə onlayn şəkildə yoxsulluğu müəyyənləşdirmək və ölçmək üçün müxtəlif yollar haqqında oxuya bilərsiniz. Mütləq yoxsulluq təhlükəsiz içməli su, ərzaq və sanitariya kimi əsas həyat ehtiyaclarının təmin edilməsi üçün kifayət qədər resursların olmamasıdır. Avropada yoxsulluq ümumiyyətlə nisbi yoxsulluq kimi başa düşülür, bu da bir şəxs və ya ailənin yaşadıqları cəmiyyətdə kifayət qədər və ya sosial cəhətdən məqbul sayılan gəlirdən daha az gəlirləri olduqda yoxsul sayılmasıdır.

İnsan hüquqları yoxsulluğun azaldılmasında xüsusi əhəmiyyət kəsb edir. Məsələn, sağlamlıq, təhsil, layiqli iş, kifayət qədər qida, kifayət qədər mənzil, şəxsi təhlükəsizlik və ədalət bərabərliyi hüquqlarının pozulması bir çox insanların yoxsulluq şəraitində yaşamasına məhkum olunması deməkdir. Xüsusilə yoxsulluq şəraitində yetişən gənclərin pis sağlamlığa malik olma, öyrənmə və davranış çətinlikləri, erkən yaşda hamilə olmaq, bacarıqların aşağı olması və s. (siyahı uzana bilər) hallara daha çox məruz qalma ehtimalları var. Avrostata görə, 24 yaşından aşağı gənclərin 20% -dən çoxu 2010-cu ildə Avropa İttifaqında yoxsulluq şəraitində yaşayırdı.

BMT Baş Assambleyasının 1986-cı ildə qəbul olunmuş İnkişaf Hüququna dair Bəyannaməsi əhəmiyyətli bir sənəddir, çünki inkişafa və yoxsulluğun aradan qaldırılmasına hüquqlara əsaslanan yanaşma təklif edir. Bunun ardınca, 2000-ci ildə birinci məqsəd olaraq ifrat yoxsulluğun və aclığın aradan qaldırılması qeyd edilməklə Birləşmiş Millətlər Təşkilatının Minilliyin İnkişaf Məqsədləri (MİM) irəli sürülmüşdür. Təəssüf ki, hələ də görülməli olan çox iş var.

# Din və İnam

**Əlaqədar məşğələlər:**
Sliivildə məscid
İnananlar
Gül gücü
Tezlikdə köhnələcək
Vaxt şkalaları
Mən kiməm?




Din, ən sadə mənada desək, “insanların müqəddəs, mənəvi və ya ilahi hesab etdiyi məfhumla olan əlaqələridir”. İnam daha geniş bir termindir: 100% əmin olmasaq və ya sübut edə bilməsək belə, beynimizin bir şeyi həqiqət hesab etməsidir. İnamlar dini, fəlsəfi və ya ideoloji ola bilər. Ətrafımızda olan dinlər və digər inam sistemləri, özümüzü dini və ya mənəvi hesab edib-etməməyimizdən asılı olmayaraq, şəxsiyyətimizə təsir göstərir.

Düşüncə, vicdan və din azadlığı hüququ Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və digər bir çox insan hüquqları alətində qorunur. Bütün digər insan hüquqlarından fərqli olaraq, bu azadlıq digər azadlıqları “zəbt etmir” və bəzən fikir və ifadə azadlığı və cinsi və ya seksual yönümlü ayrı-seçkilikdən azad olmaq kimi digər insan hüquqları ilə ziddiyyət içindədir.

Tarix boyunca bir çox dini xüsusiyyətlər yerli mədəniyyətdə dərin iz buraxmış və ədəbiyyat, sənət, musiqi və s.-də əks etdirilmişdir. Millətlər dövlət dini qəbul etdiyi zaman dinlərin təsiri daha da güclənə bilər. Tez-tez din və dini arqumentlər siyasi, iqtisadi və sosial düşüncələrlə qarışdırılır.

5-ci fəsildə onlayn şəkildə insan hüquqları cəmiyyətində müzakirə olunan bir çox məsələlərin nümunələri verilib, məsələn, uşaqların cəlb olunduğu ənənəvi mərasimlər, nigah və boşanma ətrafında qanunlar, qadın cinsiyyət orqanının təhrif edilməsi, qeyri-tərəfdarların bəzi güclü dini qruplardan təcrid olunması. Bu praktikaların mədəniyyətdə və ənənələrdə əks olunması faktı onları asanlaşdıra bilməz.

Müsəlmanlara, xristianlara və yəhudilərə qarşı dözümsüzlük və ayrı-seçkilik Avropa Şurasının fəaliyyətində, xüsusilə də gənclər ilə bağlı fəaliyyətində dərin yer alır. Avropa İnsan Hüquqları Məhkəməsində din və inam, təhsil və gənclərin hərbi xidmətlərinə dair qərarlarla bağlı iddia nümunələri var.

# Tarixi Yaddaş






**Əlaqədar məşğələlər:**
Dosta!
Tarixi yaddaş etiketləri
Vaxt şkalaları

Holokost, qul ticarəti, soyqırımlar və etnik təmizləmə kimi insan hüquqları pozuntuları bunlara məruz qalmış insanlar tərəfindən asanlıqla unudulmur və ya bağışlanmır. Xatırlanma düzgün bir şəkildə həyata keçirildikdə, həmin insanlar üçün nisbətən yaxınlıq hissi yarada bilər və özləri birbaşa olaraq bunları yaşamayan gənclər insanların hərəkətləri və ya heç nə etməməsi, dözümsüzlük, irqçilik və dini məzhəblərin nələrə gətirib çıxara biləcəklərini öyrənə bilər. Xatırlama cəmiyyət üçün xəbərdarlıq siqnalı olmalı, gələcəkdə bu səhvləri təkrarlamamaq üçün keçmişdən öyrənməyimizə kömək etməlidir.

Xatırlama hərəkatı üçün heç bir insan hüququ mövcud deyil, ancaq xatırlanan hadisələr həmişə fərdlərin və ya qrupların insan hüquqlarının hərtərəfli pozulduğu hadisələrdir. 5-ci fəsildə onlayn olaraq, biz həmişə xatırlanmayan, lakin xatırlanmağa layiq olan bəzi hadisələri təsvir edirik və zərər çəkmiş şəxslər üçün ədalətin bərpa edilməsi məqsədilə atılacaq addımlar barədə danışırıq. Eyni zamanda, gənclərə nifrətdən azad olmaq və beynəlxalq həmrəyliyi təşviq etmək üçün bir sıra tədris işlərini təsvir edirik.

Avropa Şurası İkinci Dünya müharibəsi dağıntılarından ortaya çıxıb və demokratiyanın, insan hüquqlarının və qanunun aliliyinin təşviq edilməsi üçün gördüyü işlərlə 20-ci əsrin ilk yarısında hakim olan totalitar ideologiyanın nəticələrini bizə xatırladır. 1954-cü ildə Avropa Mədəniyyət Konvensiyası bütün üzv dövlətlərin tarixini Avropa ölçüsündə tədris etməyin vacibliyini vurğuladı. 2001-ci ildə Avropa Şurası Holokostun və insanlığa qarşı cinayətlərin qarşısının alınması ilə bağlı anım gününü təqdim etdi.

# Müharibə və Terrorizm

**Əlaqədar məşğələlər:**
3 əşya
Çahal Birləşmiş Krallığa qarşı
Dosta
Bizim nə qədərə ehtiyacımız var?
Dil baryeri
Tarixi yaddaş etiketləri
Terrorizm
Daş atmaq
Həyatımdakı zorakılıq




Müharibə və ya terror aktları insan hüquqları çərçivəsini hətta dağılma nöqtəsinə qədər gətirib çıxarır. Lakin bəşəriyyətin parçalanmasının ortasında olsa belə, insan hüquqları fəaliyyətini davam etdirir və bəzi minimal qorunma və ədalətə az da olsa ümid yaradır.

5-ci fəsildə onlayn olaraq çətinliklərə baxmayaraq müharibəni və terrorizmi izah etmək cəhdi yer alır. Burada, həmçinin, beynəlxalq hüquqda gücdən istifadə və qorunma məsuliyyətinə dair (R2P) mübahisəli fikir haqqında müzakirələr aparılır. Məsələn, biz: “Bir ölkənin bombalanması bütün nəticələri ilə birlikdə sülhü təşviq etmək və daha çox dərinləşən bir münaqişəni həll etmək üçün ən yaxşı yol hesab oluna bilər?”- sualını veririk. Burada, eyni zamanda, müharibə qanunları, Cenevrə Konvensiyaları, müharibə cinayətləri və Beynəlxalq Cinayət Məhkəməsi barədə məlumatlar yerləşdirilmişdir.

İnsan hüquqları və terrorizmlə əlaqədar olaraq, insan hüquqları və terrorizm anlayışlarının münaqişəyə səbəb ola biləcəyi iki əsas sahə var. Birincisi, terrorun özü və ikincisi isə terrorizmlə mübarizə aparmaq üçün rəsmi orqanlar tərəfindən görülə biləcək tədbirlər. Qeyd etmək lazımdır ki, insan hüquqları haqqında qanun fərdləri hökumətlər tərəfindən hüquq və azadlıqlarının pozulmasından qorumaq üçün hazırlanmışdır və hər hansı terrorçu qrupun İnsan Hüquqları Məhkəməsinə çıxarılması mümkün deyil.

Müharibə və terrorizm xüsusilə gənclərlə əlaqəli mövzudur. Müharibə dövründə vətəndaşlar, xüsusilə də qadınlar və uşaqlar xüsusi həssasdırlar, uşaqlar uşaq əsgərlər olmağa məcbur edilə bilər və öz şəxsiyyətlərini axtaran gənclər isə tez-tez terrorçu qruplar tərəfindən hədəf seçilə bilər.

# Əmək




**Əlaqədar məşğələlər:**
Aşığın hekayəsi
Ehtiyatlı olun, biz baxırıq
Müxtəlif maaşlar
İşləmək istəyirəm
İki şəhərin nağılı
Həmkarlar ittifaqı görüşü
İş və uşaqlar

Əmək hüququ tez-tez sosial və iqtisadi hüquq kimi istinad edilən bir insan hüququdur. Ləyaqətli iş ləyaqətlə bir həyat sürmək üçün vacibdir, bizi həyatımızla təmin edir və fərdi inkişafa yardım edir, ümumiyyətlə cəmiyyəti möhkəmləndirir.

5-ci fəsil onlayn şəkildə əmək hüququnun işləmək qabiliyyətindən daha çoxunu nəzərdə tutduğu izah edilir. Hər kəs ədalətli və əlverişli iş şəraiti, iş yerindəki təhlükəsizlik, ədalətli əmək haqqı, bərabər dəyərli iş üçün bərabər maaş, bərabər iş imkanları, uyğun iş və istirahət saatları, eləcə də kollektiv olaraq təşkilatlanma və sövdələşmə hüququna malikdir. Burada həmkarlar ittifaqları, Beynəlxalq Əmək Təşkilatı (BƏT) və Avropa Sosial Xartiyası haqqında məlumatlar mövcuddur.

2011-ci ildə Avropa İttifaqında NEET (məşğulluq, təhsil və ya təlimdə iştirak etməyən) olan təxminən 7,5 milyon gənc var idi. İşsiz olan bir çox gənclər zorakılıq, cinayət, intihar, narkotik və spirtli istismarı kimi sosial və sağlamlıq problemləri ilə üzləşirlər. Hər hansı bir işlə məşğul olmaq gənclər üçün özünü maddi olaraq dəstəkləmək vasitəsi olmaqdan daha çox məna kəsb edir, bu, həyat təcrübəsi qazanmaqdan ötrü bir vasitədir. Təcrübə keçmək bu boşluğu doldurmaq üçün bir yol ola bilər, lakin bir çox gənclər bununla tez-tez sistem tərəfindən istismar olunduğunu hiss edir.

# Əlavələr

# Bu fəsilin mündəricatı


**SEÇİLMİŞ BEYNƏLXALQ İNSAN HÜQUQLARI VASİTƏLƏRİ**

**Əsas İnsan Hüquqları Vasitələrinin ratifikasiya vəziyyəti……………..…....... 457**

**Birləşmiş Millətlər Təşkilatı........................................................................…....... 458**

Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (xülasə və tam versiya)……...................................... 459

Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt (xülasə) ……….......................................... 461

İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt (xülasə) ....................................... 461

İrqçilik və Ayrı-seçkiliyin Aradan qaldırılması üzrə Konvensiya …................................................ 462

Uşaq Hüquqları Konvensiyası (xülasə) ……………....................................................................... 463

Qadınlara qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Aradan qaldırılması üzrə Konvensiya (xülasə) ……........................................................................................ 464

Bütün Şəxslərin Məcburi İtkin düşmədən Qorunması üzrə Konvensiya (xülasə) ………...…......... 465

Əlillərin Hüquqları üzrə Konvensiya (xülasə) ..............................................................................465

**Avropa Şurası………............................................................................................................. 467**

Avropa İnsan Hüquqları Konvensiyası (xülasə və tam versiya)………….................................... 468

Avropa Sosial Xartiyası (qısa təqdimat)………............................................................................ 473

Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyası (xülasə)…………………………............474

Regional və ya Azlıqların Dilləri üzrə Avropa Xartiyası (xülasə....................................................... 474

İnsan alverinə qarşı mübarizə haqqında Konvensiya………………............................................475

Avropa Şurası Demokratik Vətəndaşlıq və İnsan Hüquqları Təhsili Xartiyası……………...……...... 476

**LÜĞƏT...........................................................................................................................478**

## Əsas insan hüquqların vasitələrinin ratifikasiya vəziyyəti

Avropa Mədəni Konvensiyasına tərəf dövlətlər tərəfindən
(2012-ci il 25 may tarixinə olan vəziyyət)

| | BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI | | | | | | | AVROPA ŞURASI | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| ÖLKƏLƏR | İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt | Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt | Uşaq Hüquqları Konvensiyası | İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğvi üzrə Beynəlxalq Konvensiya | Qadınlara qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Ləğvi üzrə Beynəlxalq Konvensiya | Əlillərin hüquqları haqqında Beynəlxalq Konvensiya | Bütün Şəxslərin Məcburi İtkin düşmədən Qorunması üzrə Beynəlxalq Konvensiya | Avropa İnsan Hüquqları Konvensiyası | Avropa Sosial Xartiyası | Avropa Sosial Xartiyası - Yenilənmiş | Milli Azlıqların Qorunması üzrə Çərçivə Konvensiya | İşgəncə, qeyri-insani və alçaldıcı Rəftarın Qarşısının və cəzalandırılması üzrə Avropa Konvensiyası | Regional və ya Azlıqların Dilləri üzrə Avropa Konvensiyası | İnsan alverinə qarşı Mübarizə üzrə Konvensiya |
| Qüvvəyə minmə | 3.01.1976 | 23.03.1976 | 2.09.1990 | 4.01.1969 | 3.09.1981 | 3.05.2008 | 23.12.2010 | 3.09.1953 | 26.02.65 | 01.07.99 | 1.02.1998 | 1.02.1989 | 1.03.1998 | 1.02.2008 |
| Albaniya | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | ✓ | ✓ | | ✓ |
| Andorra | | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | | ✓ | | ✓ | | ✓ |
| Ermənistan | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| Avstriya | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| Azərbaycan | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | | ✓ | ✓ | ✓ | | ✓ |
| Belarusiya | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | | | | | | | | ✓ |
| Belçika | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | | ✓ |
| Bosniya və Herse-qovina | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| Bolqarıstan | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | | ✓ | ✓ | ✓ | | ✓ |
| Xorvatiya | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | ✓ | | ✓ | ✓ | ✓ | ✓ |
| Kipr | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| Çex Respublikası | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | ✓ | ✓ | ✓ |
| Danimarka | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | ✓ | | ✓ | ✓ | ✓ | ✓ |
| Estoniya | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | | ✓ | ✓ | ✓ | | ✓ |
| Finlandiya | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| Fransa | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | | ✓ |
| Gürcüstan | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ |
| Almaniya | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | ✓ | ✓ | ✓ |
| Yunanıstan | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | | ✓ |
| Vatikan | | | ✓ | ✓ | | | | | | | | | | |
| Macarıstan | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| Islandiya | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | | ✓ | ✓ | | | ✓ | | ✓ |
| İrlandiya | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ |
| Italiya | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ |
| Qazaxıstan | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | | | | | | | ✓ |
| Latviya | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ |
| Lixtenşteyn | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | | ✓ | | | ✓ | ✓ | ✓ | ✓ |
| Litva | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | ✓ | ✓ | | ✓ |
| Lüksemburq | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | ✓ | | | ✓ | ✓ | ✓ |
| Malta | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ |
| Moldova | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | | ✓ | ✓ | ✓ | | ✓ |
| Monako | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | | ✓ | | | | ✓ | | ✓ |
| Monteneqro | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| Niderland | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| Norveç | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| Polşa | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | ✓ | | ✓ | ✓ | ✓ | ✓ |
| Portuqaliya | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ |
| Rumıniya | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| Rusiya Federasiyası | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | | ✓ | ✓ | ✓ | | ✓ |
| San Marino | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | | | ✓ | ✓ | | ✓ |
| Serbiya | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| Slovakiya | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| Sloveniya | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| İspaniya | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | ✓ | ✓ | ✓ |
| İsveç | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| İsveçrə | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | | ✓ | ✓ | ✓ | |
| “Keçmiş Yuqoslav Respublikası Make-doniya” | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ |
| Türkiyə | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | | ✓ | | ✓ | | |
| Ukrayna | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| Birləşmiş Krallıq | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | | ✓ | ✓ | | ✓ | ✓ | ✓ | ✓ |
| | | | | | | | | | | | | | | |

# Ümumdünya İnsan Hüquqları Bəyannaməsi

*(Xülasə)*

**Maddə 1**
Bərabərlik hüququ

**Maddə 2**
Ayrı-seçkiliyə məruz qalmamaq hüququ

**Maddə 3**
Yaşamaq, azadlıq, şəxsi təhlükəsizlik hüququ

**Maddə 4**
Köləliyə məruz qalmamaq hüququ

**Maddə 5**
İşgəncə və alçaldıcı rəftara məruz qalmamaq hüququ

**Maddə 6**
Qanun qarşısında şəxsiyyət kimi tanınmaq hüququ

**Maddə 7**
Qanun qarşısında bərabərlik hüququ

**Maddə 8**
Səlahiyyətli məhkəmə tərəfindən mühakimə olunmaq hüququ

**Maddə 9**
Özbaşına həbs və sürgünə məruz qalmamaq hüququ

**Maddə 10**
Ədalətli ictimai dinləmə hüququ

**Maddə 11**
Təqsiri sübut olunana qədər günahsız hesab olunmaq hüququ

**Maddə 12**
Şəxsi, ailə həyatı, ev və yazışmalara müdaxilədən azad olmaq hüququ

**Maddə 13**
Ölkə daxilində və xaricində azad hərəkət etmək hüququ

**Maddə 14**
Təqibdən başqa ölkələrə sığınmaq hüququ

**Maddə 15**
Milliyyət və onu dəyişmək hüququ

**Maddə 16**
Evlənmək və ailə qurmaq hüququ

**Maddə 17**
Mülkiyyətə sahib olmaq hüququ

**Maddə 18**
İnam və din azadlığı

**Maddə 19**
Fikir və məlumat azadlığı

**Maddə 20**
Dinc toplaşmaq və birləşmək azadlığı

**Maddə 21**
İdarəçilikdə və azad seçkilərdə iştirak etmək hüququ

**Maddə 22**
Sosial təhlükəsizlik hüququ

**Maddə 23**
Arzuolunan iş və həmkarlar ittifaqlarına qoşulmaq hüququ

**Maddə 24**
İstirahət və asudə vaxt hüququ

**Maddə 25**
Zəruri həyat səviyyəsi hüququ

**Maddə 26**
Təhsil hüququ

**Maddə 27**
Cəmiyyətin mədəni həyatında iştirak etmək hüququ

**Maddə 28**
Hazırki Bəyannamədə ifadə edilən sosial sistemə malik olmaq hüququ

**Maddə 29**
Azad və tam inkişaf üçün zəruri cəmiyyət öhdəlikləri

**Maddə 30**
Yuxarıdakı hüquqlarda dövlət və ya şəxsi müdaxiləyə məruz qalmamaq hüququ

Müəllif hüquqları © 1999 Minnesotadakı İnsan Hüquqları Resurs Mərkəzi Universiteti. İcazə almaqla yenidən istehsal oluna bilər.

# Ümumdünya İnsan Hüquqları Bəyannaməsi

***Preambula***

Bəşər ailəsinin bütün üzvlərinə xas olan ləyaqətləri və onların bərabər və alınmaz hüquqlarını qəbul etməyin azadlığın, ədalətin və ümumi sülhün təməli olduğunu nəzərə alaraq;

və insan hüquqlarına laqeydliyin və həqarətin bəşəriyyətin vicdanını hiddətləndirən vəhşi əməllərə gətirib çıxardığını və insanların söz və əqidə azadlığına mane olacağı, qorxu və ehtiyaclardan azad olacağı bir dünyanın yaradılmasının insanların ən ali arzusu kimi bəyan edildiyini nəzərə alaraq;

və insanın müstəbidliyə və zülmkarlığa qarsı sonuncu vasitə kimi qiyama əl atmağa məcbur qalmamasını təmin etmək məqsədilə insan hüquqlarının qanun hökmü ilə qorunmasının zəruri olduğunu nəzərə alaraq; və xalqlar arasında dostluq münasibətlərinin inkisafına yardım etməyin zəruri olduğunu nəzərə alaraq;

və Birləşmiş Millətlər Təşkilatına daxil olan xalqların Nizamnamədə insanın əsas hüquqlarına, insan səxsiyyətinin ləyaqətinə və dəyərliliyinə, kişi və qadınların hüquq bərabərliyinə olan inamlarını təsdiq etdikləri və daha çox azadlıq şəraitində sosial tərəqqiyə və həyat şəraitinin yaxşılaşdırılmasına yardım göstərmək qərarına gəldiklərini nəzərə alaraq;

və üzv ölkələrin, Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlıq əsasında insan hüquqlarına və əsas azadlıqlara hamılıqlı hörmət və riayət edilməsinə yardım göstərməyi öz öhdələrinə götürdüklərini nəzərə alaraq; və bu hüquq və azadlıqların xarakterinin hamılıqla dərk edilməsinin bu öhdəliklərin tam şəkildə yerinə yetirilməsi üçün böyük əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, **BAŞ ASSAMBLEYA** bütün xalqların və bütün dövlətlərin yerinə yetirməyə can atmalı olduqları vəzifələr kimi hazırkı Ümumdünya **insan Hüquqları Bəyannaməsini** bəyan edir;

bu məqsədlə ki, hər bir insan və cəmiyyətin hər bir qurumu hazırkı Bəyannaməni daim nəzərdə tutaraq, bu hüquqlara və azadlıqlara maarifçilik və təhsil yolu ilə, mütərəqqi milli və beynəlxalq tədbirlər yolu ilə, onların həm Təşkilata üzv olan dövlətlərin xalqları, həm də bu dövlətlərin yurisdiksiyası altında olan ərazilərin xalqları arasında hamılıqla və səmərəli şəkildə qəbul edilməsi və həyata keçirilməsi yolu ilə hörmət edilməsinə və onların təmin edilməsinə köməklik göstərməyə can atırlar.

**Maddə 1.**
Bütün insanlar öz ləyaqətləri və hüquqları etibarilə azad və bərabər doğulurlar. Onlara ağıl və vicdan bəxş edilib və onlar bir-birinə münasibətdə qardaşlıq ruhunda davranmalıdırlar.

**Maddə 2.**
Hər bir insan, irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, anadangəlmə mənsubiyyəti və digər vəziyyətlərinə görə heç bir fərq qoyulmadan hazırkı Bəyannamədə bəyan edilən bütün hüquqlara və bütün azadlıqlara malik olmalıdır. Bundan əlavə, insanın mənsub olduğu ölkənin və ya ərazinin siyasi, hüquqi və beynəlxalq statusuna, bu ərazinin müstəqil, asılı, özünü idarə etməyən və ya suverenliyi hər hansı digər şəkildə məhdudlaşdıran ərazi olub-olmamasından asılı olmayaraq, heç bir fərq qoyulmamalıdır.

**Maddə 3.**
Hər bir insan yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir.

**Maddə 4.**
Heç kim kölə vəziyyətində və ya asılı vəziyyətdə saxlanılmamalıdır: köləliyin və kölə ticarətinin bütün formaları qadağan edilir.

**Maddə 5.**
Heç kim işgəncələrə və yaxud ağır, qeyri-insani və ya onun ləyaqətini alçaldan rəftara və cəzaya məruz qalmamalıdır.

**Maddə 6.**
Hər bir insan, harada olmasından asılı olmayaraq, özünün hüquq subyekti kimi qəbul edilməsi hüququna malikdir.

**Maddə 7.**
Bütün insanlar qanun qarşısında bərabərdirlər və heç bir fərq qoyulmadan qanun tərəfindən bərabər müdafiə olunmaq hüququna malikdirlər.Bütün insanlar, hazırkı Bəyannaməni pozan istənilən ayrı-seçkilik aktından və belə bir ayrı-seçkiliyə hər cür təhrikdən müdafiə olunmaqda bərabər hüquqlara malikdirlər.

**Maddə 8.**
Hər bir insan, Konstitusiya və ya qanunla ona verilən əsas hüquqlarının pozulması hallarında səlahiyyətli məhkəmələr tərəfindən bu hüquqlarının səmərəli şəkildə bərpa edilməsi hüququna malikdir.

**Maddə 9.**
Heç kəs özbaşınalıqla həbsə, tutulub saxlanılmaya və ya sürgün edilməyə məruz qala bilməz.

**Maddə 10.**
Hər bir insan öz hüquq və vəzifələrini müəyyənləşdirmək üçün və ona qarşı qaldırılan cinayət ittihamının əsaslandırılmış olub-olmamasını aydınlaşdırmaq üçün ona qarşı qaldırılan işə müstəqil və qərəzsiz məhkəmə tərəfindən tam bərabərlik əsasında, açıq və ədalətin bütün tələblərinə riayət olunmaqla baxılmasını tələb etmək hüququna malikdir.

**Maddə 11.**
(1) Cinayət törətməkdə ittiham edilən hər bir insan, ona bütün müdafiə imkanları təmin edilməklə, açıq məhkəmə araşdırması yolu ilə onun günahkar olduğu qanuni qaydada müəyyən edilməyənə qədər günahsız hesab edilmək hüququna malikdir.
(2) Heç kim, törədildiyi zaman milli qanunlara və ya beynəlxalq hüquqa görə cinayət tərkibi daşımayan hər hansı bir əməl və ya fəaliyyətsizlik əsasında cinayət törətməkdə ittiham oluna bilməz. Habelə, cinayətin törədildiyi zaman tətbiq edilə bilən cəzadan ağır cəza verilə bilməz.

**Maddə 12.**
Heç kimin şəxsi və ailə həyatına özbaşınalıqla müdaxilə, evinin toxunulmazlığına, gizli məktublaşmalarına, şərəf və nüfuzuna özbaşınalıqla qəsd edilə bilməz. Hər bir insan bu cür müdaxilələrdən və ya belə qəsdlərdən qanunla müdafiə olunmaq hüququna malikdir.

**Maddə 13.**
(1) Hər bir insan, hər bir dövlətin hüdudları daxilində sərbəst hərəkət etmək və özünə yaşayış yeri seçmək hüququna malikdir.
(2) Hər bir insan, öz ölkəsi də daxil olmaqla istənilən ölkəni tərk etmək və öz ölkəsinə qayıtmaq hüququna malikdir.

**Maddə 14.**
(1) Hər bir insan təqiblərdən qurtulmaq üçün digər ölkələrdə sığınacaq axtarmaq və bu sığınacaqdan istifadə etmək hüququna malikdir.
(2) Bu hüquqdan, əslində Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə zidd olan qeyri-siyasi xarakterli cinayətlər və ya əməllər törətməyə görə təqiblərdən qurtulmağa çalışılması hallarında istifadə edilə bilməz.

**Maddə 15.**
(1) Hər bir insan vətəndaşlıq hüququna malikdir.
(2) Heç kim öz vətəndaşlığından və öz vətəndaşlığını dəyişmək hüququndan məhrum edilə bilməz.

**Maddə 16.**
(1) Yetkinlik yaşına çatmış kişilər və qadınlar, irqi, milli və ya dini əlamətlərinə görə heç bir məhdudiyyət qoyulmadan nikah bağlamaq və ailə qurmaq hüququna malikdirlər. Onlar nikah bağlayarkən, nikah vəziyyətində olarkən və onun pozulması zamanı eyni hüquqlardan istifadə edirlər.
(2) Nikah yalnız hər iki tərəfin sərbəst və tam razılığı ilə bağlana bilər.
(3) Ailə cəmiyyətin təbii və əsas özəyidir və o, cəmiyyət və dövlət tərəfindən müdafiə olunmaq hüququna malikdir.

**Maddə 17.**

(1) Hər bir insan təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq hüququna malikdir.
(2) Heç kim öz əmlakından özbaşınalıqla məhrum edilməməlidir.

**Maddə 18.**
Hər bir insan düşüncə, vicdan və din azadlığı hüququna malikdir:bu hüquqa öz dinini və ya əqidəsini dəyişmək azadlığı, öz dininə və ya əqidəsinə həm təkbaşına, həm də başqaları ilə birlikdə, dini təlimdə, ibadətdə və dini mərasim qaydalarının yerinə yetirilməsində açıq və özəl qaydada etiqad etmək azadlığı daxildir.

**Maddə 19.**
Hər bir insan əqidə azadlığı və onu sərbəst ifadə etmək azadlığı hüququna malikdir: bu hüquqa maneəsiz olaraq öz əqidəsində qalmaq azadlığı və istənilən vasitələrlə və dövlət sərhədlərindən asılı olmayaraq, informasiya və ideyalar axtarmaq, almaq və yaymaq azadlığı daxildir.

**Maddə 20.**
(1) Hər bir insan dinc yığıncaqlar keçirmək və assosiasiyalar qurmaq hüququna malikdir.
(2) Heç kim hər hansı bir assosiasiyaya daxil olmağa məcbur edilə bilməz.
Maddə 21.
(1) Hər bir insan öz ölkəsinin idarə edilməsində bilavasitə və yaxud azad seçilən nümayəndələr vasitəsilə iştirak etmək hüququna malikdir.
(2) Hər bir insan öz ölkəsində dövlət qulluğuna hamıyla bərabər yol tapmaq hüququna malikdir.
(3) Xalqın iradəsi hökumətin hakimiyyətinin əsası olmalıdır; bu iradə, vaxtaşırı və saxtalaşdırılmadan, ümumi və bərabər seçki hüququ əsasında, gizli səsvermə yolu ilə və yaxud səsvermə azadlığını təmin edən digər eynimənalı formalar vasitəsilə keçirilən seçkilərdə öz əksini tapmalıdır.

**Maddə 22.**
Cəmiyyətin bir üzvü kimi, hər bir insan sosial təminat hüququna və öz ləyaqətini qoruyub saxlaya bilmək və öz şəxsiyyətini azad inkişaf etdirmək üçün iqtisadi, sosial və mədəni sahələrdə zəruri olan hüquqlarını milli səylər və beynəlxalq əməkdaşlıq vasitəsilə, hər bir dövlətin strukturu və resurslarına müvafiq olaraq həyata keçirmək hüququna malikdir.

**Maddə 23.**
(1) Hər bir insan işləmək, istədiyi işi sərbəst seçmək, ədalətli və əlverişli iş şəraitinə malik olmaq və işsizlikdən müdafiə olunmaq hüququna malikdir.
(2) Hər bir insan, heç bir ayrı-seçkiliyə məruz qalmadan, bərabər əməyə görə bərabər haqq almaq hüququna malikdir.
(3) İşləyən hər bir insan, onun özünün və ailəsinin layiqli dolanışığını təmin edən, ədalətli və qənaətbəxş həcmdə zəruri hallarda isə digər sosial təminat vəsaitləri ona əlavə edilməklə haqq almaq hüququna malikdir.
(4) Hər bir insan, öz mənafelərini müdafiə etmək üçün həmkarlar ittifaqları yaratmaq və həmkarlar ittifaqlarına daxil olmaq hüququna malikdir.

**Maddə 24.**
Hər bir insan, iş gününün səmərəli məhdudlaşdırılması və ödənilən vaxtaşırı məzuniyyət hüququ da daxil edilməklə istirahət və asudə vaxt hüququna malikdir.

**Maddə 25.**
(1) Hər bir insan, qida, geyim, mənzil, tibbi qulluq və zəruri sosial xidmətlər də daxil olmaqla, onun özünün və ailəsinin sağlamlığının və rifahının qorunub saxlanılması üçün zəruri olan həyat səviyyəsinə malik olmaq hüququna və işsizlik, xəstəlik, əlillik, dulluq, qocalıq halında və ondan asılı olmayan digər səbəblərə görə dolanışıq vəsaitlərini itirdiyi halda təminat hüququna malikdir.
(2) Analıq və körpəlik xüsusi himayə və yardım hüququ verir. Nikahlı və yaxud nikahsız doğulmuş bütün uşaqlar eyni sosial müdafiədən istifadə etməlidirlər.

**Maddə 26.**
(1) Hər bir insan təhsil almaq hüququna malikdir. Təhsil ən azı ibtidai və ümumi səviyyələrdə pulsuz olmalıdır. İbtidai təhsil icbari olmalıdır. Hamının texniki və peşə təhsili almaq imkanı olmalıdır və hər bir insanın qabiliyyəti əsasında hamının eyni dərəcədə ali təhsil almaq imkanı olmalıdır.
(2)Təhsil insan şəxsiyyətinin tam inkişafına və insan hüquqlarına və əsas azadlıqlara hörmətin artırılmasına yönəldilməlidir. Təhsil bütün xalqlar, irqi və dini qruplar arasında qarşılıqlı anlaşmaya, dözümlülüyə və dostluğa yardımçı olmalı və Birləşmiş Millətlər Təşkilatının sülhün qorunub saxlanması ilə bağlı fəaliyyətinə kömək göstərməlidir.
(3) Valideynlər öz kiçik yaşlı uşaqları üçün təhsil növlərini seçməkdə prioritet hüquqa malikdirlər.

**Maddə 27.**
(1) Hər bir insan, cəmiyyətin mədəni həyatında iştirak etmək, incəsənətdən həzz almaq, elmi tərəqqidə iştirak etmək və onun nemətlərindən istifadə etmək hüququna malikdir.
(2) Hər bir insan, müəllifi olduğu elmi, ədəbi və bədii əsərlərin nəticəsi olan mənəvi və maddi mənafelərinin müdafiə olunması hüququna malikdir.

**Maddə 28.**
Hər bir insan, hazırkı Bəyannamədə ifadə edilən hüquq və azadlıqların tam şəkildə həyata keçirilməsinə şərait yaradan sosial və beynəlxalq idarə üsulu hüququna malikdir.

**Maddə 29**.
(1)Hər bir insan elə bir cəmiyyət qarşısında məsuliyyət daşıyır ki, onun şəxsiyyətinin azad və tam inkişafı yalnız o cəmiyyətdə mümkündür.
(2) Hər bir insan öz hüquq və azadlıqlarını həyata keçirərkən yalnız o məhdudiyyətlərə məruz qala bilər ki, onlar müstəsna olaraq, başqalarının hüquq və azadlıqlarının lazımı qaydada tanınması və onlara hörmət edilməsinin təmin edilməsi və demokratik cəmiyyətdə əxlaq qaydalarının, ictimai asayişin və ümumi rifahın ədalətli tələblərinin ödənilməsi naminə qanunla müəyyən edilmişdir.
(3) Bu hüquq və azadlıqların həyata keçirilməsi heç bir halda Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə zidd olmamalıdır.

**Maddə 30**.
Hazırkı Bəyannamənin heç bir müddəası hansısa dövlətə, insan qrupuna və ya ayrı-ayrı şəxslərə, hazırkı Bəyannamədə ifadə olunan hüquq və azadlıqların ləğv edilməsinə yönəldilən hər hansı bir fəaliyyətlə məşğul olmaq və ya hər hansı bir əməl törətmək hüququnun verilməsi kimi şərh edilə bilməz.

## Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt

*(Qeyri-rəsmi xülasə)*

- *Hazırki Pakt Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 16 dekabr, 1966-cı ildə qəbul edilmiş və 23 mart, 1976-cı ildə qüvvəyə minmişdir. 2012-ci ilin may ayına qədər Pakt 167 ölkə tərəfindən təsdiqlənmişdir.*
- *Pakt Ümumdünya İnsan Hüquqları Bəyannaməsində sadalanan mülki və siyasi hüquq və azadlıqları daha da genişləndirir.*
- *Paktın 1-ci Maddəsi altında dövlətlər öz müqəddəratını təyinetmə hüququnun həyata keçirilməsini təşviq etməli və bu hüquqa hörmət etməlidirlər. Pakt, həmçinin, insanların öz təbii sərvətləri və ehtiyatlarına sərbəst şəkildə malik olma, ticarət etmə və sərf etmə hüquqlarını tanıyır.*

**Paktla fərdlərin aşağıdakı hüquqları təmin olunur:**

**Maddə 2**.
İstənilən şəxsin hüquqları pozulduğu təqdirdə, hətta əgər bu pozuntu rəsmi fəaliyyət göstərən şəxslər tərəfindən törədilmiş olsa belə, onun səmərəli müdafiə vasitələrilə təmin edilmə hüququ.

**Maddə 3**
Bütün mülki və siyasi hüquqlardan kişilərin və qadınların bərabər əsasda istifadə et-mək hüququ.

**Maddə 6**
Yaşamaq və sağ qalmaq hüququ.

**Maddı 7**
İşgəncələrə və ya qeyri-insani və alçaldıcı rəftara və ya cəzaya məruz qalmamaq hüququ.

**Maddə 8**
Köləlik və katorqadan azad olmaq hüququ.

**Maddə 9**
Azadlıq və şəxsi toxunulmaz-lıq və özbaşınalıqla həbs edilmə və ya dustaqda sax-lanılmadan azad olmaq hü-ququ.

**Maddə 11**
Müqavilə öhdəliyini yerinə yetirmək iqtidarında olmama-sı əsasında azadlıqdan məhrum edilməmək hüququ.

**Maddə 12**
Azadlıq və sərbəst hərəkət etmək hüququ.

**Article 14**
Qanun qaşısında bərabərlik hüququ; günahı qanuna uyğun olaraq sübut edilmə-yənə qədər günahsız hesab edilmək və qərəzsiz məhkə-mə tərəfindən ədalətli və açıq araşdırma hüququ.

**Maddə 16**
Hüquq subyekti kimi qəbul edilmək hüququ.

**Maddə 17**
Şəxsi həyat və onun qanunla qorunması hüququ.

**Maddə 18**
Düşüncə, vicdan və din azadlığı hüququ.

**Maddə 19**
Sərbəst fikir və ifadə azadlığı.

**Maddə 20**
Müharibə təbliğatının və ya milli, irqi və ya dini nifrətin qadağan olunması.

**Maddə 21**
Dinc yığıncaqlar keçirmək hüququ.

**Maddə 22**
Başqaları ilə birlikdə assosiasiyalar qurmaq azadlığı hüququ.

**Maddə 23**
Nikah bağlamaq və ailə qurmaq hüququ.

**Maddə 24**
Uşaqların hüquqları (kiçik yaşlı statusunda olma, vətən-daşlıq, qeydə alınma və ada malik olma).

**Maddə 25**
Dövlət işlərinin aparılması, səs vermək və seçilmək və dövlət qulluğuna buraxılmaq hüququ.

**Maddə 26**
Qanun qarşısında bərabərlik və qanunla bərabər müdafiə olunmaq hüququ.

**Maddə 27**
Etnik, dini və dil azlıqlarının nümayəndələrinin öz mədəniyyətindən istifadə etmək, öz dininə etiqad etmək və doğma dilindən istifadə etmək hüququ.

Pakt hüquqi cəhətdən məcburidir; 28-ci maddəyə əsasən yaradılmış İnsan Hüquqları Komitəsi onun icrasına nəzarət edir. İlk Fakultativ Protokol, Pakt üçün fərdi şikayət mexanizmlərini təyin etdi/ 2012-ci ilin mayına qədər, protokol 114 dövlət tərəfindən təsdiqləndi.
Ikinci Fakultativ Protokol 1991-ci ildə qüvvəyə mindi və ölüm hökmünün ləğv olunması məqsədi daşıyırdı. 2012-ci ilin may ayına qədər protokol 74 dövlət tərəfindən təsdiqləndi.

## İqtisadi, Sosial və Mədəni Hüquqlar Haqqında Beynəlxalq Pakt

*(Qeyri-rəsmi xülasə)*

*İqtisadi, Sosial və Mədəni Hüquqlar Haqqında Beynəlxalq Pakt (1966) Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (1948) və Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktla (1966) birlikdə İnsan Hüquqları üzrə Beynəlxalq Billi təşkil edir. Pakt Ümumdünya Bəyannaməsinə əsasən, "... qorxu və ehtiyacdan azad insan şəxsiyyəti idealının yalnız hər kəsin öz iqtisadi, sosial və mədəni, həmçinin, mülki və siyasi hüquqlarından istifadə edə bilməsi üçün şərait yaradıldığı təqdirdə həyata keçirilə biləcəyini" etiraf edir. Pakt 1976-cı ildə qüvvəyə minmiş və 2012-ci ilin may ayına qədər 160 dövlət tərəfindən təsdiqlənmişdir.*

**Maddə 1**
Bütün xalqlar öz müqəddəratını təyin etmək hüququ, həmçi-nin, öz siyasi statuslarını müəyyənləşdirmək və azad şəkildə sosial-iqtisadi və mədəni inki-şaflarını təmin etmək hüququna malikdir.

**Maddə 2**
Bu Paktda iştirak edən hər bir dövlət bu Paktda nəzərdə tutulan hüquqların tam şəkildə həyata keçirilməsini mümkün ehtiyatların maksimum səviyyəsində təmin etmək üçün addımlar atmalıdır. Hər kəs heç bir ayrı-seçkiliyə yol verilmədən eyni hüquqlara malikdir.

**Maddə 3**
Bu Paktda iştirak edən dövlətlər kişi və qadınların Paktda nəzərdə tutulmuş hüquqlardan bərabər istifadə etmələrini təmin etməyi öhdələrinə götürürlər.

**Maddə 4**
Hüquqlardan istifadə yalnız bu hüquqların təbiətinə uyğun olduğu qədər və yalnız demokratik cəmiyyətin ümumi rifahının yaxşılaşdırılması məqsədilə, qanunla müəyyənləşdirilən dərə-cədə məhdudlaşdıra bilər.

**Maddə 5**
Heç bir şəxs, qrup və ya hökumət bu hüquqları məhv etmək hü-ququna malik deyil.
Maddə 6
Hər bir şəxs azad seçdiyi və ya könüllü razılaşdığı işlə həyatını təmin etmək hüququ da daxil olmaqla, əmək hüququna malikdir.

**Maddə 7**
Hər bir şəxsin ədalətli və münasib iş şəraiti hüququ; özlərinin qənaətbəxş yaşayışını təmin edən ədalətli əmək haqqı; eyni dəyərli iş üçün hamının bərabər əmək haqqı alması;təhlükəsiz və sağlam iş şəraiti; hər kəs üçün daha yüksək vəzifələrə irəli çəkilmək üçün eyni şərait imkanı;istirahət və asudə vaxt.

**Maddə 8**
Hər bir şəxsin həmklarlar ittifaqı yaratmaq və qoşulmaq hüququ, tətil keçirmək hüququ var.

**Maddə 9**
Sosial sığorta da daxil olmaqla, hər bir şəxsin sosial təminat hüququ var.

**Maddə 10**
Ailəyə hərtərəfli mühafizə və kömək təmin olunmalıdır. Nikah ona daxil olanların azad razılığı ilə bağlanmalıdır.
Analar xüsusi himayə ilə təmin olunmalıdır. Uşaqlara heç bir ayrı-seçkilik omadan xüsusi himayə və kömək tədbirləri görülməlidir.
Uşaq-lar və yeniyetmələr iqtisadi istismardan müdafiə olunmalıdırlar. Onların əməyinin zərərli və həyatları üçün təhlükəli olan sahə-lərdə istifadəsi qadağan olunmalıdır. Muzdlu uşaq əməyindən istifadə üçün yaş hədləri müəyyənləşdirilməlidir.

**Maddə 11**
Hər bir şəxs özünün və ailəsinin kifayət qədər qidalanmasını, geyimini, yaşayış yerini və həyat şəraitinin daimi yaxşılaşmasını əha-tə edən münasib həyat səviyyəsi hüququna malikdir. Hər bir şəxsin aclıqdan azad olmaq hüququ var.

**Maddə 12**
Hər bir şəxsin fiziki və psixi sağlamlığının ən yüksək səviyyəsinə çatmaq hüququna malikdir.

**Maddə 13**
Hər bir şəxs təhsil hüququna malikdir. İbtidai təhsil ha-mı üçün icbari və pulsuz olmalıdır.

**Maddə 14**
Hər kəs üçün ibtidai təhsilin icbari və pulsuz olmadığı dövlətlər belə təhsili təmin etmək üçün fəaliyyət planı hazırlamağı öhdəsinə götü-rür.

**Maddə 15**
Hər bir şəxs mədəni həyatda iştirak etmək; elmi tərəqqinin nəticələrindən istifadə etmək hüququna malikdir.

Pakta Birləşmiş Millətlər Təşkilatının İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsi nəzarət edir.

Mənbə: Minnesota İnsan Hüquqları Resurs Mərkəzi, BMT İnsan Hüquqları Mərkəzi altında fəaliyyət göstərir, Beynəlxalq Hüquqlar Billi, Fakt Vərəqi #2.

.

# İrqi Ayrı-seçkiliyin Bütün formalarının Ləğv Edilməsi Haqqında Konvensiya

*(Qeyri-rəsmi xülasə)*

BMT-nin İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi Haqqında Konvensiyası 1963-cü il tarixli BMT-nin İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi Haqqında Bəyannaməsinin əsasında hazırlanmışdır. Bəyannamədə 4 əsas məsələ qeyd olunur:

- *İrqi fərqlərə əsaslanan hər hansı üstünlük fəlsəfəsi elmi cəhətdən saxta, əxlaqi cəhətdən çirkin, sosial cəhətdən ədalətsiz və təhlükəlidir və irqi ayrı-seçkiliyə nə nəzəri, nə də praktik baxımdan bəraət qazandırılmır;*
- *İrqi ayrı-seçkilik – və daha da çoxu, irqi üstünlük və ya nifrətə əsaslanan hökumət siyasətləri - əsas insan hüquqlarını pozur, millətlər arasında dostluq və sülh münasibətlərinə və xalqlar arasında əməkdaşlıq, habelə beynəlxalq sülh və təhlükəsizliyə mane olur;*
- *İrqi ayrı-seçkilik yalnız onun obyektləri olan şəxslərə deyil, həmçinin, onu təcrübədən keçirən şəxslərə də zərər verir;*
- *Nifrət və bölünmə yaradan faktorlar olan irqi ayrı-seçkilik və seqreqasiyadan azad bir dünyanın qurulması BMT-nin əsas məqsədidir*

**Maddə 1**
İrqi ayrı-seçkiliyin tərifi: məqsədi yaxud nəticəsi insanın hüquq və azadlıqlarının bərabər əsasda tanınmasını, istifadə olunmasını yaxud həyata keçirilməsini ləğv etmək və ya pisləşdirmək olan, irq, dərinin rəngi, nəsil, milli yaxud etnik mənşə əlamətlərinə əsaslanan hər hansı fərqləndirmə, istisna, məhdudiyyət yaxud üstün tutulma. Müsbət fəaliyyət və ya siyasət irqi ayrı-seçkilik hesab olunmur.

**Maddə 2**
İştirakçı dövlətlər irqi ayrı-seçkiliyi pisləyir və təxirə salınmadan bütün mümkün vasitələrlə irqi ayrı-seçkiliyin bütün formalarını ləğv etmək siyasəti yürütməyi öhdələrinə götürürlər. Hər bir iştirakçı dövlət irqi ayrı-seçkiliyə yönəlmiş heç bir hərəkət etməməyi və ya fəaliyyət göstərməməyi öhdəsinə götürür və bütün milli, eləcə də yerli dövlət orqanlarının və idarələrinin bu öhdəliyə müvafiq hərəkət edəcəklərinə təminat verir. Hər bir iştirakçı dövlət hər hansı şəxsin yaxud təşkilatın həyata keçirdiyi irqi ayrı-seçkiliyi təşviq və müdafiə etməməyi yaxud ona dəstək verməməyi öhdəsinə götürür. Hər bir iştirakçı dövlət hökumətin milli və yerli miqyasda siyasətinə yenidən baxılması, habelə irqi ayrı-seçkiliyin meydana gəlməsinə yaxud hər hansı şəkildə möhkəmlənməsinə aparan hər hansı qanun və qərarların dəyişdirilməsi yaxud ləğv edilməsi üçün tədbirlər görməlidir. Hər bir iştirakçı dövlət hər hansı şəxsin, qrupun, yaxud təşkilatın yeritdiyi irqi ayrı-seçkiliyi qadağan etməli və ona son qoymalıdır. İştirakçı dövlətlər, şərait tələb etdikdə, müəyyən irqi qruplara mənsub şəxslərin inkişafını və müdafiəsini təmin etmək məqsədilə onların insan hüquqlarından tam və bərabər istifadə etməsinə zəmanət verən xüsusi və konkret tədbirlər görməlidirlər.

**Maddə 3**
İştirakçı dövlətlər aparteidi xüsusilə pisləyir və öz yurisdiksiyalarında olan ərazilərdə bu xarakterli hər cür praktikanın qarşısını almağı, qadağan etməyi və kökünü kəsməyi öhdələrinə götürürlər.

**Maddə 4**
İştirakçı dövlətlər irqi üstünlüyə əsaslanan hər cür təbliğatı və təşkilatı pisləyir. İştirakçı dövlətlər irqi ayrı-seçkiliyə hər cür təhrikçiliyin aradan qaldırılması üçün fəaliyyət göstərməli və irqi üstünlüyə əsaslanan ideyaların yayılması və hər hansı irq əleyhinə yönəldilmiş bütün zorakılıq hərəkətlərini qadağan etməlidir.

**Maddə 5**
İştirakçı dövlətlər irqi ayrı-seçkiliyin qadağan olunması və aradan qaldırılmasını və qanun qarşısında heç bir fərq qoyulmadan hər bir insanın bərabərliyini təmin etməyi öhdəsinə götürür, xüsusilə ədalət hüququndan istifadə; şəxsi təhlükəsizlik; siyasi hüquqlar, o cümlədən səs vermək və öz namizədliyini irəli sürmək hüququ, dövlət işlərində bərabər iştirak etmək hüququ; öz ölkəsi də daxil olmaqla, hər hansı ölkəni tərk etmək və öz ölkəsinə qayıtmaq hüququ; nikah və ər-arvad seçmək; əmlak sahibliyi hüququ; vərəsəlik hüququ; fikir, vicdan və din azadlığı hüququ; sərbəst toplaşmaq və birləşmək hüququ; iqtisadi, sosial və mədəni sahələrdə hüquqlar, o cümlədən: əmək hüququ, sərbəst iş seçmək, eyni əmək üçün bərabər ödəniş, ədalətli və qənaətbəxş haqq hüququ; həmkarlar ittifaqları yaratmaq və onlara daxil olmaq hüququ; mənzil hüququ; sağlamlıq, tibbi yardım, sosial təminat və sosial xidmət huququ; təhsil və peşə hazırlığı hüququ; mədəni həyatda bərabər iştirak etmək hüququ; ictimai istifadə üçün nəzərdə tutulan istənilən yerə və xidmət növü yerlərinə daxil olmaq hüququ ilə bağlı.

**Maddə 6**
İştirakçı dövlətlər onların yurisdiksiyasında olan hər bir insanın irqi ayrı-seçkilik aktlarından qorunmasını və hüquqi müdafiə vasitələri ilə təmin edilməsini öhdəliyinə götürür.

**Maddə 7**
İştirakçı dövlətlər irqi ayrı-seçkiliyə gətirib çıxaran xurafatla mübarizə aparmaq üçün tədris, tərbiyə və s. sahələrdə tədbirlər görməyi öhdəsinə götürür.

Mənbə: BMT-nin İnsan Hüquqları Mərkəzi və İnsan Hüquqları Təhsili uğrunda Xalqların Hərəkatı www.pdhre.org

# Uşaq Hüquqları Konvensiyası

*(Qeyri-rəsmi xülasə)*

- Uşaq Hüquqları Konvensiyası dünyada 2 dövlət istisna olmaqla, bütün dövlətlər tərəfindən təsdiq olunmuş, dünya səviyyəsində ən geniş qəbul olunmuş insan hüquqları alətidir. Konvensiya uşaqların insan hüquqlarının bütün növlərini – mülki, siyasi, iqtisadi, sosal və mədəni – bir sənəddə birləşdirir. Konvensiya BMT Baş Assambleyası tərəfindən 20 noyabr, 1989-cu il tarixində qəbul olunmuş və 1990-cı ilin sentyabrında qüvvəyə minmişdir.
- Konvensiyanın 41 maddəsində 18 yaşdan aşağı hər bir uşağın insan hüquqlarına hörmət olunması və müdafiə edilməsi təsvir edilir.

**Maddə 1**
18 yaşına çatmamış olan şəxs uşaq sayılır. O hallar istisna təşkil edir ki, milli qanunlara uyğun olaraq yetkinlik yaşı daha erkən yaş çağında nəzərdə tutulur.

**Maddə 2**
Bu Konvensiyada nəzərdə tutulan bütün hüquqlar heç bir ayrı-seçkiliyə yol verilmədən təmin edilir.

**Maddə 3**
Uşaq barəsində bütün tədbirlərdə onun mənafeləri tam həcmdə nəzərə alınmalıdır.

**Maddə 5**
Dövlət valideynlər və ya genişləndirilmiş ailənin hüquqlarına, məsuliyyətinə və vəzifələrinə hörmət bəsləməlidir.

**Maddə 6**
Hər bir uşaq yaşamaq üçün ayrılmaz hüquqa malikdir.

**Maddə 7**
Uşaq ona ad verilməsi, kim olduğunu bilməsi üçün vətəndaşlıq almaq və valideynləri tərəfindən qayğı görmək hüququna malikdir.

**Maddə 8**
Uşaq ad və vətəndaşlıq hüququna malikdir.

**Maddə 9**
Uşaq valideynlərindən ayrılmamaq hüququna malikdir, bunun uşağın ən yaxşı mənafeləri naminə labüd olması və məhkəmə prosesi ilə baş verməsi istisna təşkil edir.

**Maddə 12**
Uşaq özünə təsir edəcək məsələlərlə bağlı öz baxışlarını azad ifadə etmək hüququna malikdir və bu baxışlar nəzərə alınmalıdır.

**Maddə 13**
Uşaq öz rəylərini ifadə etmək və hər cür informasiya almaq, informasiya və ideyalar vermək hüququna malikdir.

**Maddə 14**
Uşağın fikir, vicdan və din azadlığına hörmət edilməlidir.

**Maddə 15**
Uşaq assosiasiyalara daxil olmaq və ya onları yaratmaq hüququna malikdir.

**Maddə 16**
Heç bir uşaq onun şəxsi həyat, ailə həyatı, mənzilinin toxunulmazlığı və ya yazışma sirri hüququnun həyata keçirilməsinə özbaşınalıqla və ya qanunsuz sürətdə müdaxilə obyekti yaxud onun şərəf və nüfuzuna qanunsuz qəsd edilmək obyekti ola bilməz.

**Maddə 17**
Dövlət uşaqlar üçün yerli və beynəlxalq mənbələrdən informasiya və materiallar almaq imkanı təmin etməlidir.

**Maddə 18**
Valideynlər uşağın tərbiyəsi və inkişafı üçün əsas məsuliyyəti birlikdə daşıyırlar.

**Maddə 19**
Dövlət uşağı fiziki, yaxud psixoloji zorakılığın, təhqirin və ya sui-istifadənin, qayğısızlığın və ya etinasız münasibətin, kobud rəftarın və ya istismarın hər cür formasından qorumaq məqsədilə bütün lazımi qanunvericilik, inzibati, sosial və maarifçilik tədbirlərini görməlidir.

**Maddə 24**
Uşaq ən yüksək standartlara müvafiq olan tibbi yardım hüququna malikdir, xüsusi diqqət ilkin sağlamlıq, profilaktik səhiyyənin inkişafına verilməlidir.

**Maddə 26**
Uşaq sosial sığortadan istifadə etmək hüququna malikdir.

**Maddə 27**
Hər bir uşaq özünün fiziki, əqli, mənəvi, əxlaqi və sosial inkişafı üçün lazımi həyat səviyyəsi hüququna malikdir.

**Maddə 28**
Uşaq təhsil hüququna malikdir, buna görə də dövlətin vəzifəsi pulsuz və icbari ibtidai təhsili təmin etməkdən, hər bir uşağın ala biləcəyi orta təhsil verilməsini həvəsləndirməkdən, bilik əsasında hamının ali təhsil almaq imkanını təmin etməkdən ibarətdir. Məktəb intizamına uşağın hüquqlarının nəzərə alınması və onun ləyaqətinə hörmət bəslənməsi şərti ilə təmin olunmalıdır. Təhsil uşağın şəxsiyyətinin, istedadının, əqli və fiziki bacarığının inkişaf etdirilməsi, insan hüquqlarına və əsas azadlıqlara, azad cəmiyyətdə sülh, dostluq, anlaşma, tolerantlıq və bərabərlik içində həyata, ətraf mühitə hörmət tərbiyə edilməsinə yönəldilməlidir.

**Maddə 30**
Hər bir uşağın öz mədəniyyətindən bəhrələnmək hüququ var.

**Maddə 31**
Hər bir uşağın istirahət etmək və asudə vaxta malik olmaq, oyunlarda iştirak etmək, mədəni həyatda iştirak etmək və incəsənətlə məşğul olmaq hüququ var.

**Maddə 32**
Hər bir uşağın iqtisadi istismardan və onun sağlamlığı və inkişafı üçün təhlükə törədən hər hansı işin yerinə yetirilməsindən müdafiə edilmək hüququ var.

**Maddə 33**
Hər bir uşaq narkotik vasitələrdən qanunsuz istifadə etməkdən qorunmalıdır.

**Maddə 34**
Uşaq cinsi istismarın və cinsi yola çəkmənin bütün formaları, uşaqlardan fahişəlikdə və ya digər qanunsuz cinsi praktikada, pornoqrafiyada və pornoqrafik materiallarda istifadə edilməsindən müdafiə olunmalıdır.

**Maddə 38**
İştirakçı dövlətlər silahlı münaqişənin toxunduğu uşaqların müdafiəsini və onlara baxılmasını təmin etmək üçün bütün mümkün tədbirləri görməlidir.

**Maddə 40**
Cinayət qanunvericiliyini pozmuş hesab edilən və ya onu pozmaqda təqsirləndirilən hər bir uşaq onun təqsiri qanuna əsasən sübuta yetirilməyincə təqsirsizlik prezumpsiyasına, müdafiəsini həyata keçirərkən hüquqi yardım göstərilməsi, şahid ifadələri verməyə və ya təqsiri boynuna almağa məcbur edilməkdən azad olmaq, uşağın şəxsi həyatına tam hörmət edilməsi, onların yaşı, vəziyyəti və rifahına uyğun olaraq rəftar edilməsi hüququna malikdir. 18 yaşından aşağı uşaqlar tərəfindən törədilən cinayətlərə görə heç bir ölüm cəzası və ya azadlıq imkanları olmadan ömürlük həbs cəzası tətbiq edilmir.

Konvensiyanın və Fakultativ Protokolların tam mətnini YUNİSEF-in vebsaytı (www.unicef.org/crc) kimi internet saytlarından tapa və yükləyə bilərsiniz.

Mənbə: BMT İnsan Hüquqları Mərkəzi və Xalqların İnsan Hüquqları Təhsili Hərəkatı www.pdhre.org

## Qadınlara qarşı Ayrıseçkiliyin Bütün Formalarının Ləğv Edilməsi Haqqında Konvensiya (CEDAW)

*BMT Baş Assambleyası tərəfindən 1979-cu ildə qəbul olunmuş, 3 sentyabr 1981-ci ildə qüvvəyə minmişdir*

**Maddə 1**
Qadınlar barəsində ayrı-seçkilik anlayışı qadınların ailə vəziyyətlərindən asılı olmayaraq, kişi və qadınların hüquq bərabərliyi əsasında insan hüquqlarının və siyasi, iqtisadi, sosial, mədəni, mülki və hər hansı digər sahələrdə əsas azadlıqların zəiflədilməsini yaxud tanınmamasını, qadınların onlardan istifadə etməsini yaxud onları həyata keçirməsini heçə endirməyə yönəlmiş cinsi əlamətə görə hər hansı fərqləndirmə, istisna yaxud məhdudiyyət deməkdir.

**Maddə 2**
İştirakçı-dövlətlər qadınlar barəsində ayrı-seçkiliyin bütün formalarını pisləyir; ayrı-seçkiliyə qarşı müdafiənin təmin olunması və bərabərlik prinsipinin bərqərar olunması məqsədilə hüquqi çərçivə yaradılmasını təmin edir.

**Maddə 3**
İştirakçı dövlətlər bütün sahələrdə, o cümlədən, siyasi, sosial, iqtisadi və mədəni sahələrdə qadınların insan hüquqlarını və əsas azadlıqları kişilərlə bərabər əsasda həyata keçirmələrinə və onlardan istifadə etmələrinə təminat vermək üçün müvafiq tədbirləri həyata keçirməyə razıdır.

**Maddə 4**
İştirakçı-dövlətlərin bərabərliyin bərqərar olmasının sürətləndirilməsinə yönəldilmiş müvəqqəti tədbirləri görməsinə icazə verilir.

**Maddə 5**
Kişi və qadınların sosial və mədəni davranış modelini dəyişdirmək,, həmçinin, ailə tərbiyəsində analığın sosial funksiyasının düzgün dərk edilməsinə, kişi və qadınların öz övladlarının tərbiyəsinə birgə məsuliyyət daşımaları üçün lazımi tədbirlərin görülməsinə ehtiyac.

**Maddə 6**
İştirakçı-dövlətlər qadın alverinin bütün növlərinin və qadınların fahişəliyindən istifadənin kökünü kəsmək üçün bütün müvafiq tədbirləri görür.

**Maddə 7**
Qadınların bərabər səs vermək, dövlət vəzifələri tutmaq və vətəndaş cəmiyyətində iştirak etmək hüququ var.

**Maddə 8**
Qadınların kişilərlə bərabər şəraitdə öz hökumətlərini beynəlxalq səviyyədə təmsil etmək hüququ var.

**Maddə 9**
Qadınlar özləri və uşaqları üçün vətəndaşlıq almaq, onu dəyişdirmək yaxud saxlamaq barəsində kişilərlə bərabər əsasda hüquqlara malikdir.

**Maddə 10**
İştirakçı-dövlətlər təhsil sahəsində, ali texniki təhsildə, eləcə bütün peşə hazırlığı formalarında ayrı-seçkiliyi ləğv etmək, kişi və qadınların rolu barədə hər cür stereotip konsepsiyaları bütün səviyyələrdə aradan qaldırmağı öhdəliyinə götürür.

**Maddə 11**
İştirakçı-dövlətlər məşğulluq sahəsində qadınlar barəsində ayrı-seçkiliyin ləğv edilməsi və əmək hüququ, işə götürülərkən eyni imkanlara malik olmaq, işin keyfiyyətinin qiymətləndirilməsinə bərabər yanaşma hüququ, sərbəst sənət və iş seçimi, sosial müdafiə və təminat hüququ da daxil olmaqla, bu sahədə bütün hüquqların təmin olunmasına çağırılır.

**Maddə 12**
İştirakçı-dövlətlərdən ailənin həcmi məsələsini planlaşdırılması da daxil olmaqla, sağlamlıq sahəsində ayrı-seçkiliyin ləğv edilməsi üçün bütün müvafiq tədbirləri görməsi tələb edilir.

**Maddə 13**
Qadınlar kişilərlə bərabər səviyyədə sosial və iqtisadi həyatla bağlı ailə üçün müavinət hüququ, daşınmaz əmlak üçün istiqraz, bank krediti almaq və idmanla məşğul olmaq və mədəni həyatın bütün sahələri ilə bağlı olan tədbirlərdə iştirak etmək hüququna malikdir.

**Maddə 14**
Kənd yerlərində yaşayan qadınların qarşılaşdıqları inkişaf planlarının işlənib hazırlanmasında iştirak etmək, müvafiq tibbi xidmətə, kredit, təhsil və müvafiq həyat standartlarına yol tapmaq kimi xüsusi problemləri əhatə edir.

**Maddə 15**
Qadın və kişilər qanun qarşısında bərabərdir. Qadınların müqavilə bağlamaq, əmlakı idarə etmək və yaşayış yerini seçmək hüququ var.

**Maddə 16**
Nikah və ailə münasibətlərinə dair bütün məsələlərdə - nikaha daxil olmaqda eyni hüquqlar, valideyn kimi övladları ilə əlaqədar məsələlərlə eyni hüquq və vəzifələr (uşaqların sayı və onların doğum illəri arasında fasilə məsələsini azad həll etməkdə eyni hüquqa, həmçinin, bu hüququ həyata keçirməyə imkan verən vasitələrə malik olmaq da daxildir) və mülkiyyət üzrə eyni hüquqlar - qadınlar barəsində bərabərliyin təmin olunmasını əhatə edir.

**Maddələr 17-30**
Hesabat prosedurları və Konvensiyanın həyata keçirilməsinin gedişinin yoxlanılması.

## Bütün İnsanların Məcburi İtkin Düşmədən Qorunması Haqqında konvensiya

*(Qeyri-rəsmi xülasə)*

1-ci Maddə məcburi itkin düşməni qadağan edir; müharibə vəziyyəti və ya müharibə təhlükəsi, daxili siyasi qeyri-sabitlik və ya digər ictimai fövqəladə hallar kimi heç bir istina xarakteri daşıyan vəziyyət məcburi itkin düşməyə bəraət kimi qəbul edilə bilməz.

Konvensiyanın 2-ci maddəsində "məcburi itkin düşmə" dövlətin agentləri və ya insanlar və ya insanlar qrupu tərəfindən dövlətin icazəsi, dəstəyi və ya razılığı ilə azadlıqdan məhrumetmə, həbs, oğurluq və ya məhrumetmənin digər hər hansı bir forması, bunun ardınca isə itkin düşmüş şəxsin azadlıqdan məhrum edilməsinin danılması və ya onun taleyinin və ya yerinin gizli saxlanılması və bununla da, həmin insanın qanunla müdafiəsinin qarşısının alınması kimi izah olunur.

Məcburi itkin düşmənin geniş yayılmış və ya sistemli şəkildə tətbiq olunması 6-cı maddədə insanlığa qarşı cinayət kimi müəyyən edilir.

Konvensiyanın tərəfləri, həmçinin, aşağıdakılar üzrə öhdəlik götürür:
- məcburi itkin düşmə aktlarını araşdırmaq və cavabdehləri ədalət qarşısına çıxarmaq;
- məcburi itkin düşmənin cinayət qanunu altında cinayət kimi qəbul olunduğunu təmin etmək;
- cinayətkar olduğu iddia edilən şəxs öz ərazisində olduqda, hətta bir vətəndaş və ya rezident olmadıqda belə, məcburi itkin düşmə ilə əlaqədar yurisdiksiya təsis etmək;
- cinayətkarların cinayət məsuliyyətinə cəlb edilməsi və ya təhvil verilməsini təmin etmək və məcburi itkin düşmə qurbanlarına yardım etmək və ya  qalıqlarını tapmaq və geri qaytarmaq məqsədilə başqa dövlətlərlə əməkdaşlıq etmək;
- azadlıqdan məhrumetmə məsələsinə məhkəmədə baxılması hüququ da daxil olmaqla, azadlıqdan məhrum etmə ilə bağlı minimum hüquqi normalara hörmət etmək;
- həbsdə olanların siyahısını hazırlamaq və onun həmin şəxslərin qohumları və vəkilləri tərəfindən yoxlanılmasına icazə vermək;
- məcburi itkin düşmə qurbanlarının və ya bundan birbaşa təsirlənmiş şəxslərin təzminat və kompensasiya almaq hüququna malik olmasını təmin etmək. (Maddə 24. 4)
- təzminat almaq hüququ maddi məsələləri və təhlükələri və lazım olduğu yerlərdə, məsələn, a) Restitusiya b) Reabilitasiya c) məmnunluq, eləcə də ləyaqətin bərpası və təzminat d) Eyni halın təkrar edilməyəcəyinin təmin edilməsi - kimi təzminat formalarını əhatə edir. (Maddə 24. 5)

Konvensiya onun tərəfləri tərəfindən seçilmiş Məcburi İtkin Düşmə üzrə Komitə tərəfindən idarə olunacaqdır. Tərəflər, Konvensiya üzrə öhdəlik götürdükləri gündən iki il ərzində Komitəyə onun icra edilməsi üzrə hansı addımları atdıqları barədə hesabat təqdim etmək öhdəliyi daşıyır. Konvensiya tərəflərin itkin düşmüş şəxsin yerinin müəyyən edilməsində yardım göstərilməsi üçün Komitəyə müraciət edə biləcəyi qeyri-məcburi şikayət sistemini əhatə edir. Tərəflər istənilən vaxt bu sistemə qoşula bilərlər, lakin ancaq imza əsasında imtina edə bilərlər.

Mənbə: Wikipedia, 25 May 2012-ci il.

## BMT-nin Əlillərin Hüquqları Haqqında Konvensiyası

*(Qeyri-rəsmi xülasə)*

**Maddə 1: Məqsəd**
Konvensiyanın məqsədi bütün əlil insanların bütün insan hüquqları və əsas azadlıqlarının təşviq olunması, qorunması və istifadə olunmasını təmin etməkdir. Əlil insanlara  müxtəlif maneələrlə yanaşı cəmiyyətdə digər insanlarla eyni əsasda tam və effektiv iştiraka mane ola biləcək uzunmüddətli fiziki, əqli, intellektual və ya toxunma qüsurlarına malik insanlar daxildir.

**Maddə 2: Anlayışlar**
Bu maddədə "ünsiyyət", "dil", "əlilliyə əsasən ayrı-seçkilik", "məqbul yaşayış" və "universal dizayn" da daxil olmaqla, Konvensiyada istifadə olunan bəzi əsas terminlər izah edilir.

**Maddə 3: Ümumi prinsiplər**
Konvensiya ləyaqətə hörmət; ayrı-seçkilik edilməməsi; iştirak və daxil olmaq; fərqə hörmət; imkanların bərabərliyi; əlçatanlıq; kişilər və qadınlar arasında bərabərlik; və uşaqlara hörmət prinsiplərinə əsaslanır.

**Maddə 4: Ümumi öhdəliklər**
Dövlətlər heç bir ayrı-seçkilik olmadan əlilliyi olan bütün insanlar üçün bütün insan hüquqları və əsas azadlıqlarının tam şəkildə həyata keçirilməsini təmin etmək və təbliğ etməklə bağlı əlilliyi olan insanların aktiv iştirakı ilə bir sıra tədbirlər görməlidir.

**Maddə 5: Bərabərlik və ayrı-seçkilik**
Hər kəs qanun qarşısında və qanun çərçivəsində bərabərdir. Hər kəs heç bir ayrı-seçkilik olmadan bütün qanunlardan  bərabər şəkildə faydalanma və  qorunma hüququna malikdir.
Maddə 6: Əlil qadınlar
Əlil qadınlar və qızlar çoxsaylı ayrı-seçkiliklə üzləşir. Dövlətlər əlilliyi olan qadınların Konvensiyada göstərilən hüquq və azadlıqlardan tam istifadə edə bilməsi üçün bütün müvafiq tədbirləri görməlidirlər.

**Maddə 7: Əlil uşaqlar**
Əlil uşaqlar bütün digər uşaqlarla eyni insan hüquqlarına malikdir. Əlilliyi olan uşaqlara dair görülən bütün tədbirlərdə əsas diqqət uşağın ən yaxşı maraqlarına yönəldilməlidir. Əlilliyi olan uşaqlar, onlara təsir edən bütün məsələlər barədə fikirlərini ifadə etmək hüququna malikdirlər.

**Maddə 8: Maarifləndirmə**
Dövlətlər əlilliyi olan insanların hüquqları, imkanları və fəaliyyətləri barədə maarifləndirmə aparmalıdır. Dövlətlər kampaniyalar, təhsil, mətbuat və maarifləndirmə proqramları vasitəsilə əlilliyi olan insanlar ilə bağlı stereotiplər və xurafatlarla mübarizə aparmalıdır.

**Maddə 9: Əlçatanlıq**
Əlil insanlar fiziki mühit, nəqliyyat, informasiya və kommunikasiya və ictimaiyyətə təqdim edilən digər imkanlar və xidmətlər də daxil olmaqla, cəmiyyətin bütün sahələrinə başqaları ilə bərabər şəkildə cəlb olunmaq hüququna malikdir.

**Maddə 10: Yaşamaq hüququ**
Əlilliyi olan insanlar yaşamaq hüququna malikdirlər. Əlilliyi olan insanların başqaları ilə bərabər şəkildə bu hüquqdan səmərəli istifadə edə bilməsi üçün dövlətlər bütün lazımi tədbirləri görməlidir.

**Maddə 11: Risklər və humanitar fövqəladə hallar vəziyyəti**
Dövlətlər silahlı münaqişələr, humanitar fövqəladə hallar və təbii fəlakətlər də daxil olmaqla, risk vəziyyətlərində əlilliyi olan bütün şəxslərin qorunması və təhlükəsizliyinin təmin edilməsi üçün bütün lazımi tədbirləri görməlidir.

**Maddə 12: Qanun qarşısında bərabər tanınma Əlil insanlar qanun qarşısında şəxsiyyət kimi tanınma**
hüququna malikdirlər. Əlil insanlar həyatın bütün sahələrində başqaları ilə bərabər hüquqi qabiliyyətə malikdirlər. Dövlətlər əlilliyi olan şəxslərə hüquq qabiliyyətlərini effektiv şəkildə həyata keçirmək üçün müvafiq tədbirlər görməlidir.

**Maddə 13: Məhkəmə sisteminə çıxış**
Əlil insanlar digər şəxslər ilə bərabər səviyyədə məhkəmə sisteminə çıxış imkanı hüququna sahibdir.

**Maddə 14: Azadlıq və şəxsi toxunulmazlıq**
Əlil insanlar digər insanlar ilə bərabər səviyyədə azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir. Yalnız fiziki qüsurun mövcudluğu azadlıq hüququndan məhrum olmağa bəraət qazandıra bilməz.

**Maddə 15: İşgəncə və ya qəddar, qeyri-insani və ya alçaldıcı rəftar və ya cəzadan azad olmaq**
Əlil insanlar işgəncə və ya qəddar, qeyri-insani və ya alçaldıcı rəftar və cəzadan azad olmaq hüququna malikdir. Heç kim öz azad icazəsi olmadan tibbi və ya elmi təcrübəyə məruz qala bilməz.

**Maddə 16: İstismar, zorakılıq və təhqirdən azad olmaq**
Əlil insanlar öz ölkələri daxili və xaricində gender əsaslı aspektlər də daxil olmaqla, istismarın bütün növləri, zorakılıq və təhqirdən azad olmaq hüququna malikdir.

**Maddə 17: Şəxsi bütövlüyün qorunması**
Əlil olan hər bir şəxs digərləri ilə bərabər səviyyədə fiziki və əqli bütövlük hüququna malikdir.

**Maddə 18: Yerdəyişmə və vətəndaşlıq hüququ**
Əlilliyi olan şəxslər vətəndaşlıq hüququna malikdir. Əlilliyi olan uşaqlar valideynləri tərəfindən ad qoyulması, onları tanımaq və qayğı görmək hüququna malikdir.

**Maddə 19: Müstəqil həyat tərzi və yerli icmaya cəlb olunma**
Əlilliyi olan insanlar cəmiyyətdə müstəqil yaşamaq hüququna malikdirlər. Dövlətlər əlilliyi olan insanların kiminlə və harada yaşadıqlarını seçmək imkanına malik olmağından və bunun üçün lazım olan dəstəklə təmin olunduqlarından əmin olmalıdırlar.

**Maddə 20: Fərdi hərəkət etmək**
Dövlətlər əlilliyi olan insanların özlərinin seçdikləri qaydada və vaxtda və münasib qiymətə fərdi şəkildə hərəkətinin asanlaşdırılması istiqamətində səmərəli və müvafiq tədbirlər görməlidir. Əlilliyi olan insanlar, həmçinin, keyfiyyətli mobilizasiya yardımları, köməkçi texnologiyalar və canlı yardım vasitələri və vasitəçilərə malik olma hüququna sahibdirlər.

**Maddə 21: Fikir və etiqadların sərbəst ifadə olunması və məlumatdan istifadə imkanları**
Əlil insanlar rəsmi ünsiyyət və məlumatlara çıxış zamanı özləri üçün müvafiq olan kommunikasiya vasitələrindən, əl işarələri, Breyl, yüksəldici və alternativ kommunikasiya, kütləvi informasiya vasitələri və digər bütün mümkün vasitələr də daxil olmaqla, ünsiyyətin bütün formaları vasitəsilə məlumat almaq və verməklə özlərini ifadə etmək hüququna malikdir.

**Maddə 22: Şəxsi həyatın toxunulmazlığı**
Əlilliyi olan insanlar şəxsi həyatın toxunulmazlığı hüququna malikdir. Əlil insanlar haqqında olan məlumat, o cümlədən şəxsi məlumat və onların sağlamlığı haqqında məlumatlar qorunmalıdır.

**Maddə 23: Evə və ailəyə hörmət**
Əlilliyi olan insanlar evlənmək və ailə qurmaq hüququna malikdirlər. Ölkələr əlilliyi olan insanlar üçün uşaqlarını böyütməkdə səmərəli və lazımı dəstəyi təmin etməlidirlər və yaxın ailə onlara qayğı göstərə bilmədiyi təqdirdə, əlil uşaqlara alternativ qayğı göstərməlidirlər.

**Maddə 24: Təhsil**
Əlilliyi olan insanlar heç bir ayrı-seçkilik olmadan təhsil almaq hüququna malikdirlər. Ölkələr əlilliyi olan insanların öz cəmiyyətlərində inklüziv, keyfiyyətli və pulsuz ibtidai və orta təhsil imkanlarını təmin etməlidirlər. Ölkələr akademik və sosial inkişafı maksimum dərəcədə təmin etmək üçün onlara məqbul yaşayış və fərdi dəstək təmin etməlidirlər.

**Maddə 25: Sağlamlıq**
Əlilliyi olan insanlar ayrı-seçkilik olmadan ən yüksək səviyyədə əldə olunan sağlamlıq standartlarından istifadə etmək hüququna malikdirlər. Ölkələr, gender cəhətdən həssas olan tədbirlər də daxil olmaqla, əlil insanların digər insanlarla eyni səviyyədə, keyfiyyət və standartda olan və insanların öz cəmiyyətlərinə yaxın səhiyyə sistemini təmin etmək üçün bütün lazımi tədbirləri görməlidirlər.

**Maddə 26: Abilitasiya və reabilitasiya**
Ölkələr abilitasiya və reabilitasiya xidmətləri və proqramlarının təmin edilməsi yolu ilə əlilliyi olan insanlara öz maksimum qabiliyyət, müstəqillik və iştirakını inkişaf etdirməsi, əldə etməsi və saxlaması üçün effektiv və müvafiq tədbirlər görməlidirlər.

**Maddə 27: Əmək və məşğulluq**
Əlilliyi olan insanlar açıq, əhatəli və əlçatan bir mühitdə işləmək hüququ da daxil olmaqla, əmək hüququna malikdirlər. Əlilliyi olan insanlar üçün ölkələr məşğulluq imkanları və karyera inkişafı üçün müvafiq addımlar atmalıdır.

**Maddə 28: Kafi həyat səviyyəsi və sosial müdafiə**
Əlil insanlar, qidalanma, su, geyim və mənzil də daxil olmaqla, kafi həyat səviyyəsi və yoxsulluğun azaldılması və ictimai mənzil ilə təmin olunma proqramları daxil olmaqla səmərəli sosial müdafiə hüququna malikdir.

**Maddə 29: Siyasi və ictimai həyatda iştirak**
Əlilliyi olan insanlar siyasi və ictimai məsələlərdə iştirak etmək, həmçinin, səs vermək və seçkilərdə seçilmək hüququna malikdir.

**Maddə 30: Mədəni həyatda iştirak, asudə vaxtın və istirahətin təşkili və idmanla məşğul olma**
Əlil insanlar mədəni həyatda başqaları ilə bərabər şəkildə iştirak etmək, mədəni materiallar, çıxışlar və xidmətlərdən yararlanmaq və asudə vaxtın və istirahətin təşkili və idmanla məşğul olmaq hüququna malikdir.

**Maddə 31: Statistika və məlumatların toplanması**
Ölkələr əlilliyi olan insanların fəal iştirakı ilə onların özləri haqqında məlumat toplamalıdır ki, onların yaşadıqları maneələri daha yaxşı başa düşsünlər və Konvensiya hüquqlarınıhəyata keçirsinlər.

**Maddələr 32-50**
32-50-ci Maddələr Konvensiya ilə bağlı olan ölkələrin necə tam şəkildə təsir göstərməli olduğunu izah edir. Onlar, həmçinin, Birləşmiş Millətlər Təşkilatının Əlillərin Hüquqları üzrə Komitəsinə Konvensiyanı necə həyata keçirdikləri barədə hesabat vermələri ilə bağlı ölkələrin məsuliyyətini izah edir.

Mənbə: Əlil İnsanların İnsan Hüquqları www.disabilityhumanrights.org

## Avropa İnsan Hüquqları Konvensiyası və onun protokolları

*Seçilmiş maddələrin sadələşdirilmiş versiyası1*

**Preambulanın xülasəsi**
Avropa Şurasına üzv hökumətlər insan hüquqları və əsas azadlıqlarına əsaslanan sülh və böyük birlik üçün çalışır. Bu Konvensiya ilə onlar Ümumdünya İnsan Hüquqları Bəyannaməsində qeyd olunan hüquqların bir çoxunu həyata keçirmək üçün ilkin addımlar atmağı qərara alır.

**Maddə 1 - İnsan hüquqlarına hörmət olunması öhdəliyi**
Dövlətlər hər kəsin bu Konvensiyada müəyyən olunmuş hüquq və azadlıqlara malik olmasını təmin edirlər.

**Maddə 2 - Yaşamaq hüququ**
Siz yaşamaq hüququna maliksiniz.

**Maddə 3 - İşgəncələrin qadağan olunması**
Heç kəs sizi incitmək və ya işgəncəyə məruz qoymaq hüququna sahib deyil. Hətta həbsdə olduqda belə sizin insan ləyaqətinizə hörmət edilməlidir.

**Maddə 4 - Köləliyin və məcburi əməyin qadağan olunması**
Sizə kölə münasibəti göstərmək və ya məcburi əməyə cəlb etmək qadağandır.

**Maddə 5 - Azadlıq və toxunulmazlıq hüququ**
Sizin azadlıq hüququnuz var. Sizi həbs etdiklərdi təqdirdə, bunu nə üçün etdiklərini bilməyə haqqınız var. Həbs olunduqda sizin tezliklə məhkəməyə çıxarılmaq və ya məhkəmə baş tutana qədər sərbəst buraxılmaq hüququnuz var.

**Maddə 6 - Ədalətli məhkəmə hüququ**
Sizin qərəzsiz və müstəqil hakim qarşısında ədalətli məhkəmə hüququnuz var. Əgər siz cinayət törətməkdə təqsirləndirilirsinizsə, təqsiriniz sübut olunana qədər təqsirsiz hesab edilirsiniz. Kasıbsınızsa, haqqı dövlət tərəfindən ödənilən hüquqşünas tərəfindən yardım almaq hüququnuz var.

**Maddə 7 - Qanunsuz cəzalandırılmamaq**
Siz cinayəti törətdiyiniz zaman buna qarşı bir qanun olmadığı təqdirdə, siz bu cinayət üzrə təqsirli hesab oluna bilməzsiniz.

**Maddə 8 - Şəxsi və ailə həyatına hörmət hüququ**
Siz şəxsi və ailə həyatı, eviniz və yazışmalarınıza hörmət hüququna maliksiniz.

**Maddə 9 - Düşüncə, vicdan və din azadlığı**
Siz düşüncə, vicdan və din azadlığına maliksiniz. Siz evdə və ictimaiyyət içində etiqad etmək və dininizi dəyişmək hüququna maliksiniz.

**Maddə 10 - İfadə etmək azadlığı**
Düşündüyünüzü məsuliyyətlə demək və yazmaq və digər şəxslərə məlumat ötürmək və qəbul etmək hüququnuz var. Buraya mətbuat azadlığı da daxildir.

**Maddə 11 - Yığıncaqlar və birləşmək azadlığı**
Sizin dinc mitinqlərdə iştirak etmək və həmkarlar ittifaqları da daxil olmaqla, birləşmələr yaratmaq və ya qoşulmaz hüququnuz var.

**Maddə 12 - Nikah hüququ**
Sizin nikaha daxil olmaq və ailə qurmaq hüququnuz var.

**Maddə 13 - Səmərəli hüquqi müdafiə vasitələri hüququ**
Hüquqlarınız pozulduğu təqdirdə, siz bununla bağlı məhkəmələrə və ya dövlət orqanlarına rəsmi şikayət edə bilərsiniz.

**Maddə 14 - Ayrı-seçkiliyin qadağan olunması**
Siz dəri rənginiz, cinsiniz, diliniz, siyasi və ya dini inamlarınız və ya mənşəyinizdən asılı olmayaraq, bu hüquqlara sahibsiniz.

**Maddə 15 -Fövqəladə hallar zamanı məhdudlaşdırma**
Müharibə və ya millətin həyatını təhdid edən digər fövqəladə hallar zamanı hökumət yalnız ciddi ehtiyac olduğu təqdirdə, sizing hüquqlarınıza zidd tədbirlər görə bilər. Hətta o halda belə, hökumətlərə məsələn, sizə işgəncə etmək və ya sizi öldürməyə icazə verilmir.

**Maddə 16 - Əcnəbilərin siyasi fəaliyyətinin məhdudlaşdırılması**
10, 11 və 14-cü Maddələrdə heç nə hökumətlər üçün əcnəbilərin siyasi fəaliyyətinə məhdudiyyətlər qoymasına maneə kimi nəzərdən keçirilə bilməz.

**Maddə 17 -Hüquqlardan sui-istifadənin qadağan olunması**
Bu Konvensiyada heç nə burada təsbit olunmuş hüquq və azadlıqların ləğvi üçün istifadə oluna bilməz.

**Maddə 18** - Hüquqlarla bağlı məhdudlaşdırmalardan istifadənin hədləri. Bu Konvensiyanın hüquqlarının əksəriyyəti hər kəsə tətbiq olunan ümumi qanunla məhdudlaşdırıla bilər. Belə məhdudiyyətlərə yalnız ciddi zərurət yarandıqda icazə verilir.

**Maddə 19 - 51**
Bu maddələr Avropa İnsan Hüquqları Məhkəməsinin necə işlədiyini izah edir.

**Maddə 34 - Fərdi şikayətlər**
Konvensiyada olan hüquqlarınız üzv dövlətlərdən birində pozulduğu təqdirdə, əvvəlcə bütün səlahiyyətli yerli orqanlara müraciət etməlisiniz. Əgər bu sizin üçün işləməsə, birbaşa olaraq, Strazburqda Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət edə bilərsiniz.

**Maddə 52 -lBaş Katibin sorğuları**
Avropa Şurası Baş Katibinin müraciəti əsasında hökumət öz daxili hüququnun bu Konvensiyanın hüquqlarının səmərəli tətbiqini necə təmin edəcəyi ilə bağlı izahat təqdim edir.

**KONVENSİYANIN PROTOKOLLARI**

**1 Saylı Prokolun 1-ci Maddəsi - Mülkiyyətin müdafiəsi**
Sizin mülkiyyət və ondan istifadə hüququnuz var.

**1 Saylı Prokolun 2-ci Maddəsi -Təhsil hüququ**
Sizin məktəbə getmək hüququnuz var.

**1 Saylı Prokolun 3-cü Maddəsi -Azad seçkilər hüququ**
Sizin öz ölkənizin hökumətini öz gizli səsinizlə seçmək hüququnuz var.

**4 Saylı Protokolun 2-ci Maddəsi - Hərəkət etmək azadlığı**
Qanuni əsaslarla hər hansı dövlətin ərazisində olduğunuz təqdirdə, sizin həmin ərazidə sərbəst hərəkət etmək və özünə yaşayış yeri seçmək hüququnuz var.

**6 Saylı Protokoun 6-cı Maddəsi -Ölüm cəzasının ləğvi**
Siz dövlət tərəfindən ölüm cəzasına məhkum edilə və ya edam oluna bilməzsiniz.

**7 Saylı Protokolun 2-ci Maddəsi -Cinayət işlərinə dair hökmlərdən apelyasiyaya vermək hüququ**
Siz cinayət törətməyə görə məhkəmə tərəfindən məhkum edildiyiniz təqdirdə, yuxarı məhkəmə instansiyasına müraciət etmək hüququnuz var.

**7 Saylı Protokolun 3-cü Maddəsi Məhkəmə səhvinə görə kompensasiya**
Cinayət törətməyə görə haqqınızda hökm çıxarıldıqda və günahsız olduğunuz ortaya çıxdıqda sizin kompensasiya almaq hüququnuz var.

**12 Saylı Protokolun 1-ci Maddəsi - Ayrı-seçkiliyə ümumi qadağa**
Siz heç bir dövlət hakimiyyəti orqanı tərəfindən, məsələn, öz dəri rənginiz, cinsiniz, diliniz, siyasi və ya dini inamınız və ya mənşəyinizə görə ayrı-seçkiliyə məruz qala bilməzsiniz.

Bu sadələşdirilmiş versiya Avropa Şurasının Əlaqələndirmə Direktorluğu tərəfindən yalnız təhsil məqsədləri üçün hazırlanmışdır. Hüquqi əsasları olan mətnlər yalnız İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi Konvensiyasının və onun protokollarının rəsmi nəşr olunmuş versiyalarındadır.

# Avropa İnsan Hüquqları Konvensiyası

*1 iyun, 2010-cu ildə qüvvəyə minən 11 və 14 saylı Protokollara müvafiq olaraq dəyişdirilmişdir.*

## İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya

Roma, 4.XI.1950

Avropa Şurasının üzvü olub BU KONVENSİYANI İMZALAYAN HÖKUMƏTLƏR
10 dekabr 1948-ci ildə BMT Baş Məclisi tərəfindən bəyan edilmiş İnsan hüquqları haqqında Ümumi Bəyannaməni nəzərə alaraq; bu Bəyannamənin məqsədinin, bəyan etdiyi hüquqların hamılıqla və səmərəli tanınmasının və həyata keçirilməsinin təmin edilməli olduğunu nəzərə alaraq; Avropa Şurasının məqsədinin onun üzvləri arasında böyük birliyə nail olmaqdan ibarət olduğunu və bu məqsədlərə nail olmanın əsas vasitələrindən birinin insan hüquqları və əsas azadlıqlarının dəstəklənməsi və gələcək reallaşdırılması olduğunu hesab edərək; Dünyada ədalətin və sülhün əsası olan və riayət olunması daha yaxşı qaydada, bir tərəfdən həqiqi demokratik siyasi rejim, digər tərəfdən ümumi anlaşma və onların sadiq qaldığı insan hüquqlarına riayət etməklə təmin olunan əsas azadlıqlara öz dərin sadiqliklərini təsdiq edərək; Vahid səylərlə hərəkət edən və siyasi ənənələrin, idealların, azadlığın və hüququn aliliyinin ümumi irsinə malik olan Avropa ölkələrinin hökumətləri kimi Ümumi Bəyannamədə təsbit olunmuş bəzi hüquqların kollektiv həyata keçirilməsinin təmin edilməsi yolunda ilk addımlar atmaq üçün qətiyyət göstərərək aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1 -- İnsan hüquqlarına hörmət olunması öhdəliyi**
Razılığa gələn Yüksək Tərəflər onların yurisdiksiyası altında olan hər kəs üçün bu Konvensiyanın 2 bölməsində müəyyən olunmuş hüquq və azadlıqları təmin edirlər.

**BÖLMƏ I – HÜQUQLAR VƏ AZADLIQLAR**

**Maddə 2 – Yaşamaq hüququ**
Hər kəsin yaşamaq hüququ qanunla qorunur. Heç kəs qanunla ölüm cəzası nəzərdə tutulmuş cinayət törətməyə görə, məhkəmə tərəfindən çıxarılmış belə hökmün icrasından başqa halda həyatından məhrum edilə bilməz.
Həyatdan məhrum etmə, güc tətbiqində mütləq zərurətin nəticəsi olduqda bu maddənin pozulması kimi nəzərdən keçirilmir:
(a) istənilən şəxsin hüquqa zidd zorakılıqdan qorunması üçün;
(b)qanuni həbsi həyata keçirmək və ya qanuni əsaslarla həbsdə olan şəxsin qaçmasının qarşısını almaq üçün;
(c) qanuna müvafiq olaraq çevriliş və ya qiyamın yatırılması üçün.

**Maddə 3 – İşgəncələrin qadağan olunması**
Heç kəs işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır.

**Maddə 4** – Köləliyin və məcburi əməyin qadağan olunması
1. Heç kəs köləlikdə və ya asılılıqda saxlanmamalıdır.
2. Heç kəs məcburi və ya icbari əməyə cəlb olunmamalıdır.
3. Bu maddənin məqsədləri üçün «məcburi və ya icbari əmək» termini aşağıdakıları özünə daxil etmir:

(a) bu Konvensiyanın 5-ci maddəsinin müddəalarına müvafiq olaraq həbsdə olan və ya belə həbsdən şərti azad edilmiş şəxsin adətən yerinə yetirməli olduğu hər hansı iş;
(b) hərbi xarakterli hər hansı xidmət və ya hərbi xidmətdən əqidəyə görə imtina etmənin qanuni hesab edildiyi ölkələrdə məcburi hərbi xidmətin əvəzinə müəyyən edilmiş xidmət;
(c) fövqəladə vəziyyət və ya əhalinin həyatı və rifahı üçün təhlükə yaradan fəlakət hallarında hər hansı məcburi xidmət;
d) adi vətəndaşlıq vəzifələrinin bir hissəsi olan iş və ya xidmət.

**Maddə 5 – Azadlıq və toxunulmazlıq hüququ**
1. Hər kəsin azadlıq və şəxsi toxunulmazlıq hüququ var.
Heç kəs qanunla müəyyən olunmuş aşağıdakı hallardan və qaydadan başqa azadlığından məhrum edilə bilməz:
(a) səlahiyyətli məhkəmə tərəfindən məhkum olun duqdan sonra, şəxsi qanuni həbsə almaq;
(b)məhkəmənin qanuni çıxardığı qərarı icra etməməyə görə və ya qanunla nəzərdə tutulmuş hər hansı öhdəliyin icra olunmasını təmin etmək məqsədilə şəxsin qanuni tutulması və ya həbsə alınması;
(c) hüquq pozuntusunun törədilməsində əsaslı şübhə ilə bağlı şəxsin səlahiyyətli məhkəmə orqanı qarşısında durmasından irəli gələn və ya onun tərəfindən törədilən hüquq pozuntusunun yaxud törətdikdən sonra onun gizlənməsinin qarşısını almaq üçün kifayət qədər zəruri əsasların olduğunun hesab edildiyi hallarda şəxsin qanuni tutulması və ya həbsə alınması;
(d) yetkinlik yaşına çatmamış şəxsin tərbiyə nəzarəti üçün qanuni qərar əsasında həbsə alınması və ya onun səlahiyyətli məhkəmə orqanı qarşısında durmasından irəli gələn qanuni həbsə alınması;
(e) yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaq üçün şəxslərin, ruhi xəstələrin, alkoqolizmə və narkomaniyaya mübtəla olanların, səfillərin qanuni həbsə alınması;
(f) şəxsin ölkəyə qanunsuz gəlməsinin qarşısını almaq məqsədilə və ya barəsində deportasiya yaxud ekstradisiya tədbirləri tətbiq olunan şəxsin qanuni tutulması və ya həbsə alınması.

2. Tutulmuş hər bir kəsə ona aydın olan dildə onun tutulmasının səbəbləri və ona qarşı irəli sürülən istənilən ittiham barədə dərhal məlumat verilir.
3. Bu maddənin I bəndinin «c» alt bəndinə müvafiq olaraq tutulmuş və ya həbsə alınmış hər kəs, dərhal hakimin və ya qanunla məhkəmə hakimiyyətini həyata keçirmək səlahiyyəti verilmiş vəzifəli şəxsin yanına gətirilir və ağlabatan müddət ərzində məhkəmə araşdırması və ya məhkəməyə qədər azad edilmək hüququna malikdir. Azad edilmək məhkəmədə iştirak etmə təminatlarının təqdim edilməsilə şərtləndirilə bilər.
4. Tutulma və ya həbsə alma nəticəsində azadlıqdan məhrum edilmiş hər kəs onun həbsə alınmasının qanuniliyinə məhkəmə tərəfindən təxirə salınmadan baxılmaq hüququna və əgər onun həbsi məhkəmə tərəfindən qanunsuz hesab edilibsə, azad edilmək hüququna malikdir.
5. Bu maddənin müddəalarının pozulması ilə tutulmadan və ya həbsə almadan zərər çəkmiş hər kəsin iddia ilə təmin olunan kompensasiya hüququ var.

**Maddə 6 – Ədalətli məhkəmə hüququ**
1. Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış qərəzsiz məhkəmə vasitəsilə, ağlabatan müddətdə işinin ədalətli araşdırılması hüququna malikdir. Məhkəmə qərarı açıq elan edilir, lakin demokratik cəmiyyətdə əxlaq, ictimai qayda və ya milli təhlükəsizlik maraqları naminə, həmçinin, yetkinlik yaşına çatmayanların maraqları və ya tərəflərin şəxsi həyatının müdafiəsi bunu tələb etdikdə, yaxud məhkəmənin fikrincə, aşkarlığın ədalət mühakiməsinin maraqlarını poza biləcəyi xüsusi hallar zamanı ciddi zərurət olduqda mətbuat və ictimaiyyət bütün proses boyu və ya onun bir hissəsində məhkəmə iclasına buraxılmaya bilər.

2. Cinayət törətməkdə ittiham olunan hər kəs onun təqsiri qanun əsasında sübut edilənədək təqsirsiz hesab edilir.

3. Cinayət törətməkdə ittiham olunan hər kəs, ən azı aşağıdakı hüquqlara malikdir:
(a) ona qarşı irəli sürülmüş ittihamın xarakteri və əsasları haqqında onun başa düşdüyü dildə məlumatlandırılmaq;
(b) öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq;

(c) şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman, ədalət mühakiməsinin maraqları tələb etdikdə belə müdafiədən pulsuz istifadə etmək;
(d) onun əleyhinə ifadə vermiş şahidləri dindirmək və ya bu şahidlərin dindirilməsinə nail olmaq və onun əleyhinə ifadə vermiş şahidlər üçün eyni olan şərtlərlə onun lehinə olan şahidlər çağırmaq və dindirməyə nail olmaq;
(e) məhkəmədə istifadə olunan dili başa düşmürsə və ya bu dildə danışa bilmirsə tərcüməçinin pulsuz köməyindən istifadə etmək.

**Maddə 7 - Qanunsuz cəzalandırılmamaq**

1. Heç kəs törədildiyi zaman milli və ya beynəlxalq hüquqa görə cinayət sayılmayan hər hansı hərəkət və ya hərəkətsizliyə görə cinayət törətməkdə təqsirli hesab edilə bilməz. Habelə, cinayət əməlinin törədildiyi zaman tətbiq olunandan daha ağır cəza verilə bilməz.
2. Bu maddə törədildiyi zaman sivil ölkələrin tanıdığı əsas hüquq prinsiplərinə müvafiq olaraq cinayət hesab edilən hər hansı hərəkət və ya hərəkətsizlik törətməyə görə istənilən şəxsin mühakimə edilməsinə və ya cəzalandırılmasına mane olmur.

**Maddə 8 – Şəxsi və ailə həyatına hörmət hüququ**

1. Hər kəs öz şəxsi və ailə həyatına, mənzilinə və yazışma sirrinə hörmət hüququna malikdir.
2. Milli təhlükəsizlik və ictimai asayiş, ölkənin iqtisadi rifah maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısını almaq üçün sağlamlığı yaxud mənəviyyatı mühafizə etmək üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan hallar istisna olmaqla, dövlət hakimiyyəti orqanları tərəfindən bu hüququn həyata keçirilməsinə mane olmağa yol verilmir.

**Maddə 9 – Fikir, vicdan və din azadlığı**

1. Hər kəsin fikir, vicdan və din azadlığı hüququ var; bu hüquqa öz dinini və ya əqidəsini dəyişmək azadlığı, öz dininə və ya əqidəsinə həm təkbaşına, həm də başqaları ilə birlikdə etiqad etmək və açıq yaxud şəxsi qaydada ibadəti, təlimləri, dini və mərasim ayinlərini yerinə yetirmək azadlığı daxildir.
2. Öz dininə və baxışlarına etiqad etmək azadlığı yalnız ictimai asayiş maraqları naminə, ictimai qaydanı, sağlamlığı yaxud mənəviyyatı qorumaq üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan məhdudiyyətlərə məruz qala bilər.

**Maddə 10 – İfadə azadlığı**

1. Hər kəs öz fikrini ifadə etmək azadlığı hüququna malikdir. Bu hüquqa öz rəyində qalmaq azadlığı, dövlət hakimiyyəti orqanları tərəfindən hər hansı maneçilik olmadan və dövlət sərhədlərindən asılı olmayaraq, məlumat və ideyaları almaq və yaymaq azadlığı daxildir. Bu maddə dövlətlərin radioyayım, televiziya və kinematoqrafiya müəssisələrinə lisenziya tələbi qoymasına mane olmur.
2. Bu azadlıqların həyata keçirilməsi milli təhlükəsizlik, ərazi bütövlüyü və ya ictimai asayiş maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısını almaq üçün, sağlamlığın yaxud mənəviyyatın mühafizəsi üçün, digər şəxslərin nüfuzu və hüquqlarının müdafiəsi üçün gizli əldə edilmiş məlumatların açıqlanmasının qarşısını almaq üçün və ya ədalət mühakiməsinin nüfuz və qərəzsizliyini təmin etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan müəyyən formallıqlara, şərtlərə, məhdudiyyətlərə və ya sanksiyalara məruz qala bilər.

**Maddə 11 – Yığıncaqlar və birləşmək azadlığı**

1. Hər kəsin dinc toplaşmaq azadlığı və öz maraqlarını müdafiə etmək üçün həmkarlar ittifaqları yaratmaq və onlara qoşulmaq hüququ da daxil olmaqla başqaları ilə birləşmək azadlığı hüququ var.
2. Bu hüquqların həyata keçirilməsinə milli təhlükəsizlik və ictimai asayiş maraqları naminə, iğtişaşın və cinayətin qarşısını almaq üçün, sağlamlığın və mənəviyyatın mühafizəsi üçün və ya digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olanlardan başqa heç bir məhdudiyyətlər qoyula bilməz. Bu maddə silahlı qüvvələr, polis və ya inzibati dövlət orqanları üzvlərinin belə hüquqlarının həyata keçirilməsinə qanuni məhdudiyyətlər qoyulmasına mane olmur.

**Maddə 12 – Nikah hüququ**

Nikah yaşına çatmış kişilər və qadınlar bu hüququn həyata keçirilməsini tənzimləyən milli qanunvericiliyə müvafiq olaraq, nikaha daxil olmaq və ailə qurmaq hüququna malikdirlər.

**Maddə 13 – Səmərəli hüquqi müdafiə vasitələri hüququ**

Bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqları pozulan hər kəs, hətta bu pozulma rəsmi fəaliyyət göstərən şəxslər tərəfindən törədildikdə belə, dövlət orqanları qarşısında səmərəli hüquqi müdafiə vasitələrinə malikdir.

**Maddə 14 – Ayrı-seçkiliyin qadağan olunması**

Bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlardan istifadə cins, irq, rəng, dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya digər status kimi hər hansı əlamətlərinə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır.

**Maddə 15 – Fövqəladə hallar zamanı məhdudlaşdırma**

1. Müharibə və ya millətin həyatını təhdid edən digər fövqəladə hallar zamanı Razılığa gələn Yüksək Tərəflərdən hər hansı biri onun beynəlxalq hüquqa müvafiq digər öhdəliklərinə zidd olmamaq şərtilə, yalnız vəziyyətin fövqəladəliliyinin şərtləndirə biləcəyi səviyyədə bu Konvensiya üzrə öhdəliklərindən geri çəkilən tədbirlər görə bilər.
2. Bu müddəaya əsasən, qanuni müharibə aktları nəticəsində ölüm halları istisna olmaqla, 2-ci maddədən və ya 3-cü maddədən, 4-cü maddənin I bəndindən və 7-ci maddədən geri çəkilməyə yol verilmir.
3. Bu geri çəkilmə hüququndan istifadə edən hər hansı Razılığa gələn Yüksək Tərəf gördüyü tədbirlər və onların səbəbləri haqqında Avropa Şurasının Baş Katibini tam məlumatlandırır. O, həmçinin, belə tədbirlərin dayandırılması və Konvensiyanın müddəalarının yenidən tam həyata keçirilməyə başlanması haqqında Avropa Şurasının Baş Katibinə məlumat verir.

**Maddə 16 – Əcnəbilərin siyasi fəaliyyətinin məhdudlaşdırılması**

10, 11 və 14-cü Maddələrdə heç nə Razılığa gələn Yüksək Tərəf üçün əcnəbilərin siyasi fəaliyyətinə məhdudiyyətlər qoyulmasına maneə kimi nəzərdən keçirilə bilməz.

**Maddə 17 – Hüquqlardan sui-istifadənin qadağan olunması**

Bu Konvensiyada heç nə hər hansı dövlətin, qrupun və ya şəxsin burada təsbit olunmuş hüquq və azadlıqlarının ləğvinə yönəlmiş hər hansı fəaliyyətlə məşğul olmaq və ya hər hansı əməl törətmək və ya onları Konvensiyada nəzərdə tutulandan daha artıq məhdudlaşdırmaq hüququna malik olması kimi şərh oluna bilməz.

**Maddə 18 – Hüquqlarla bağlı məhdudlaşdırmalardan istifadənin hədləri**

Qeyd olunan hüquq və azadlıqlarla bağlı bu Konvensiyada yol verilən məhdudiyyətlər, nəzərdə tutulduğundan başqa hər hansı məqsəd üçün tətbiq olunmamalıdır.

II bölmə. Avropa İnsan Hüquqları Məhkəməsi

**Maddə 19 – Məhkəmənin təsis olunması**

Razılığa gələn Yüksək Tərəflər bu Konvensiya və onun Protokolları ilə öz üzərlərinə götürdükləri öhdəliklərə riayəti təmin etmək məqsədi ilə Avropa İnsan hüquqları Məhkəməsini, sonradan «Məhkəmə» adlanacaq, təsis edirlər. O, daimi əsaslarla fəaliyyət göstərir.

**Maddə 20 – Hakimlərin sayı**
Məhkəmə Razılığa gələn Yüksək Tərəflərə bərabər sayda hakimlərdən ibarətdir.

**Maddə 21 - Hakimliyə dair tələblər**
1. Hakimlər yüksək mənəvi keyfiyyətlərə malik olmalı və yüksək məhkəmə vəzifələrinə təyin olunarkən qoyulan tələblərə cavab verməli və ya tanınmış nüfuzlu hüquqşünaslar olmalıdırlar.
2. Hakimlər Məhkəmənin işində şəxsi simada iştirak edirlər.
3. Vəzifədə olduqları bütün müddət ərzində hakimlər onların müstəqilliyi, qərəzsizliyi və ya tam iş gününün xarakterindən irəli gələn tələblərlə bir araya sığmayan heç bir fəaliyyətlə məşğul olmamalıdırlar; bu bəndin müddəalarının tətbiqi ilə bağlı yaranan bütün məsələləri Məhkəmə həll edir.

**Maddə 22 – Hakimlərin seçilməsi**
Hər bir Razılığa gələn Yüksək Tərəf üzrə hakimlər, Razılığa gələn Yüksək Tərəfin təqdim etdiyi üç namizəd siyahısından, Parlament Assambleyasının səs çoxluğu ilə seçilir.

**Maddə 23 – Səlahiyyət müddəti və vəzifədən azad edilmə**
1. Hakimlər 6 il müddətinə seçilirlər. Onlar yenidən seçilə bilərlər. Lakin birinci seçkidə seçilmiş hakimlərin yarısının səlahiyyət müddəti üç il sonra bitir.
2. Üç il sonra səlahiyyət müddəti bitən hakimlər seçkilərdən dərhal sonra Avropa Şurası Baş Katibi tərəfindən püşkatma yolu ilə müəyyənləşdirilir.
3. Hakimlər öz vəzifələrini dəyişiklik həyata keçirilənə qədər tuturlar. Bununla yanaşı, onlar artıq icraatlarında olan işlərə baxmaqda davam edirlər.
4. Digər hakimlərin üçdə iki səs çoxluğu ilə hər hansı hakimin qoyulan tələblərə cavab vermədiyi haqqında qərarı olmadan hakim öz vəzifəsindən azad edilə bilməz.

**Maddə 24 – Dəftərxana və məhkəmə katibləri**
1. Məhkəmənin fəaliyyəti və təşkili Məhkəmə Reqlamentinə əsasən müəyyənləşdirilən Katibliyi vardır.
2. İclas tək hakimdən ibarət tərkibdə olduqda Məhkəmə sədrinin sərəncamında fəaliyyət göstərən məruzəçilər Məhkəməyə kömək edirlər. Onlar Məhkəmə Katibliyinin tərkib hissəsini təşkil edirlər.

**Maddə 25 – Məhkəmənin Plenumu Məhkəmənin Plenumu**
a) öz Sədrini və Sədrin bir yaxud iki müavinini üç il müddətinə seçir; onlar yenidən seçilə bilər;
b) müəyyən müddət üçün nəzərdə tutulan Palatalar təsis edir;
c) Məhkəmə Palatasının Sədrlərini seçir; onlar yenidən seçilə bilərlər;
d) Məhkəmə Qaydalarını təsdiq edir;
e) Qeydiyyatçını və Qeydiyyatçının bir yaxud bir neçə müavinini seçir.
(f) Maddə 26-nın, 2-ci paraqrafı altında hər hansı tələb irəli sürür.

**Maddə 26 – Tək hakimli tərkib, komitələr, Palatalar və Böyük Palata**
1. Məhkəmə ona təqdim edilmiş işlərə tək hakimli tərkibdə, üç hakimdən ibarət komitələrdə, yeddi hakimdən ibarət Palatalarda və on yeddi hakimdən ibarət Böyük Palatada baxır. Məhkəmənin Palataları müəyyən edilmiş müddət üçün nəzərdə tutulan komitələr yaradır.
2. Məhkəmənin Plenumunun sorğusu ilə Nazirlər Komitəsi yekdil qərarla və müəyyən edilmiş müddət üçün Palatalardakı hakimlərin sayını beş nəfərə endirə bilər.
3. Tək hakimli tərkibdə işlərə baxan hakim özünün seçildiyi Razılığa gələn Yüksək Tərəfə qarşı olan heç bir ərizəyə baxmamalıdır.
4. İşdə tərəf olan Razılığa gələn Yüksək Tərəfdən seçilmiş hakim Palatanın və Böyük Palatanın ex officio üzvü olur. Əgər belə bir hakim yoxdursa və ya həmin hakim iştirak edə bilmirsə, onda həmin Tərəfin əvvəlcədən təqdim etdiyi siyahıdan Məhkəmə Sədri tərəfindən seçilmiş şəxs hakim rolunda çıxış edir.
5. Böyük Palatanın tərkibinə, həmçinin, Məhkəmə Sədri, Sədrin Müavinləri, Palata Sədrləri və Məhkəmənin Reqlamentinə əsasən təyin olunmuş digər hakimlər də daxildir. 43-cü maddənin müddəalarına müvafiq olaraq işin Böyük Palataya verildiyi hallarda onun iclaslarında həmin Palatanın Sədri və işdə tərəf olan müvafiq Razılığa gələn Yüksək Tərəf üzrə hakim istisna olmaqla, qərar çıxaran Palatanın hakimlərindən heç biri iştirak etməməlidir.

**Maddə 27 – Tək hakimlərin səlahiyyəti**
1. Tək hakim, bu cür qərarın ərizəyə əlavə baxış olmadan qəbul edilə biləcəyi halda, 34-cü maddəyə əsasən verilmiş fərdi şikayət ərizəsinin qəbuledilməz elan edilməsi və ya icraatda olan işlərin siyahısından çıxarılması barədə qərar qəbul edə bilər.
2. Bu qərar qətidir.
3. Əgər tək hakim ərizəni qəbuledilməz elan etmirsə və ya siyahıdan çıxarmırsa, o zaman həmin hakim onu əlavə məhkəmə baxışı üçün komitəyə və ya Palataya göndərir.

**Maddə 28 – Komitələrin səlahiyyəti**
1. 34-cü maddəyə müvafiq olaraq təqdim olunan ərizəyə münasibətdə, komitə yekdil səslə, (a) bu cür qərarın ərizəyə əlavə baxış olmadan qəbul edilə biləcəyi halda, onu qəbuledilməz elan edə və ya məhkəmə işlərinin siyahısından çıxara bilər; və ya (b) işin Konvensiyanın və ya ona dair Protokolların təfsiri və ya tətbiqi ilə bağlı olan əsas məsələsi artıq Məhkəmənin qəti müəyyən edilmiş presedent hüququnun predmeti olduğu halda, onu qəbul edilən elan edə bilər və eyni zamanda, işin mahiyyəti üzrə qərar çıxara bilər.
2. 1-ci bənddə qeyd olunan qərarlar və hökmlər qətidir.
3. Əgər işə tərəf olan Razılığa gələn Yüksək Tərəf üzrə seçilmiş hakim komitənin üzvü deyilsə, o zaman komitə bütün müvafiq amilləri, o cümlədən həmin Tərəfin 1-ci bəndin "b" yarımbəndində nəzərdə tutulmuş prosedurun tətbiq olunmasına etiraz edib-etməməsini nəzərə alaraq, iş üzrə məhkəmə icraatının istənilən mərhələsində həmin hakimi komitə üzvlərinin hər hansı birini əvəz etməyə dəvət edə bilər.

**Maddə 29 – Şikayətin qəbul edilənliyi və mahiyyəti üzrə Palataların qərarları**
1. Əgər 27-ci və 28-ci maddəyə əsasən hər hansı bir qərar qəbul olunmayıbsa və ya 28-ci maddəyə əsasən heç bir qərar çıxarılmayıbsa, o zaman Palata 34-cü maddəyə uyğun olaraq təqdim edilmiş fərdi şikayətlərin qəbul edilənliyi və mahiyyəti üzrə qərar çıxarır. Qəbul edilənlik üzrə qərar ayrıca çıxarıla bilər.
2. 33-cü maddənin müddəalarına müvafiq olaraq dövlətlərarası işlərin qəbuledilənliyi və mahiyyəti üzrə baxışı Palata keçirir. Qəbul edilənliyə dair qərar, əgər müstəsna hallarda Məhkəmə başqa cür qərar verməyibsə, ayrıca çıxarılır.

**Maddə 30 Böyük Palatanın xeyrinə yurisdiksiyadan imtina**
Əgər Palatanın icraatında olan iş Konvensiyanın və ya ona dair Protokolların şərhi barədə ciddi məsələyə toxunursa yaxud məsələnin həlli Məhkəmənin əvvəllər çıxardığı qərara zidd ola bilərsə, tərəflərdən heç biri buna etiraz etmədikdə Palata öz qərarını çıxarana qədər istənilən vaxt Böyük Palatanın xeyrinə yurisdiksiyasından imtina edə bilər.

**Maddə 31 – Böyük Palatanın səlahiyyətləri Böyük Palata:**
(a) Palata 30-cu maddənin müddəalarına əsasən yurisdiksiyasından imtina etdikdə və ya 43-cü maddənin müddəalarına müvafiq olaraq iş ona göndərildikdə 33-cü və ya 34-cü maddələrin müddəalarına müvafiq olaraq verilmiş şikayətlər üzrə qərar çıxarır;
(b) Nazirlər Komitəsi tərəfindən 46-cı maddənin 4-cü bəndinə əsasən Məhkəməyə göndərilmiş məsələləri həll edir; və
(c) 47-ci maddənin müddəalarına müvafiq olaraq təqdim edilmiş məsləhət xarakterli rəyləri çıxarmaq üçün verilmiş xahişlərə baxır.

**Maddə 32 – Məhkəmənin səlahiyyəti**

1. 33, 34, 46 və 47-ci maddələrə əsasən təqdim olunmuş Konvensiyanın və ona dair Protokolların müddəalarının şərhi və tətbiqinə dair bütün məsələlər Məhkəmənin səlahiyyətindədir.
2. Konkret iş üzrə Məhkəmənin səlahiyyəti ilə bağlı mübahisəni Məhkəmənin özü həll edir.

**Maddə 33 – Dövlətlərarası işlər**

Razılığa gələn hər hansı Yüksək Tərəf Razılığa gələn digər Yüksək Tərəfin Konvensiyanın və ona dair Protokolların müddəalarını hər hansı şəkildə pozması iddiası ilə Məhkəməyə müraciət edə bilər.

**Maddə 34 – Fərdi şikayətlər**

Məhkəmə istənilən fiziki şəxsdən, qeyri-hökumət təşkilatından və ya ayrı-ayrı şəxslər qrupundan, Razılığa gələn Yüksək Tərəflərdən birinin onun bu Konvensiyanın və ya ona dair Protokolların müddəaları ilə nəzərdə tutulmuş hüquqlarını pozmasının qurbanı olduğunu iddia edən şikayətlər qəbul edə bilər. Razılığa gələn Yüksək Tərəflər bu hüququn səmərəli həyata keçirilməsinə heç bir yolla mane olmamağı öhdələrinə götürürlər.

**Maddə 35 - Qəbul edilənlik şərtləri**

1. Məhkəmə yalnız beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarına müvafiq olaraq bütün daxili hüquq müdafiə vasitələri tükəndikdən sonra işi baxılmağa qəbul edə bilər və iş üzrə son qərarın çıxarıldığı tarixdən sonrakı altı ay ərzində işi baxılmağa qəbul edə bilər .
2. Məhkəmə 34-cü maddənin müddəalarına müvafiq olaraq verilmiş aşağıdakı fərdi şikayətlərə baxmır:
   (a) anonim olan; və ya
   (b) mahiyyətcə Məhkəmənin artıq baxdığı məsələ ilə eyni olan yaxud digər beynəlxalq araşdırma və ya nizamlama prosedurunun predmeti olan və işə aid yeni faktları əks etdirməyən.
3. Məhkəmə 34-cü maddəyə əsasən təqdim edilmiş istənilən fərdi şikayəti qəbuledilməz elan edir, əgər o hesab edirsə ki:
   (a) şikayət Konvensiyanın və ya ona dair Protokolların müddəalarına uyğun deyil, açıq-aşkar əsassızdır və ya fərdi müraciət hüququndan sui-istifadədir; və ya
   (b) Konvensiya və ona dair Protokollarda göstərilmiş insan hüquqlarına hörmətin şikayətə mahiyyəti üzrə baxılmasını tələb etdiyi hallar istisna olmaqla və yerli məhkəmə tərəfindən lazımınca araşdırılmayan heç bir işi bu əsasla rədd etməmək şərti ilə, ərizəçi böyük zərərə məruz qalmayıbsa.
4. Məhkəmə bu maddəyə müvafiq olaraq qəbuledilməz hesab etdiyi istənilən şikayəti rədd edir. O, bunu icraatın istənilən mərhələsində edə bilər.

**Maddə 36 – Üçüncü tərəfin iştirakı**

1. Palata və ya Böyük Palatada olan bütün işlərdə vətəndaşı şikayətçi olan Razılığa gələn hər bir Yüksək Tərəfin yazılı qeydlər təqdim etmək və dinləmələrdə iştirak etmək hüququ var.
2. Ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsi naminə Məhkəmənin Sədri işdə tərəf olmayan istənilən Razılığa gələn Yüksək Tərəfi və ya şikayətçi olmayan istənilən maraqlı şəxsi yazılı qeydlər təqdim etmək və dinləmələrdə iştirak etmək üçün dəvət edə bilər.
3. Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı Palata və Böyük Palatada olan bütün məhkəmə işlərinə dair yazılı şəkildə şərhlər verə və dinləmələrdə iştirak edə bilər.

**Maddə 37 – Şikayətlərin siyahıdan çıxarılması**

1. Əgər vəziyyət aşağıdakı nəticələrə gəlməyə əsas verirsə, icraatın istənilən mərhələsində Məhkəmə şikayəti işlərin siyahısından çıxarmaq barədə qərar qəbul edə bilər:
   (a) şikayətçi öz ərizəsinə baxışı davam etdirmək niyyətində deyilsə; və ya
   (b) məsələ öz həllini tapıbsa; və ya
   (c) Məhkəmənin müəyyənləşdirdiyi istənilən digər səbəbə görə, şikayətə baxışı davam etdirməyə lüzum yoxdursa.
   Bununla belə, əgər bu Konvensiyanın və ona dair Protokolların müddəalarında müəyyən edilən insan hüquqlarına riayət olunması bunu tələb edirsə, Məhkəmə şikayətə baxmaqda davam edir.
2. Əgər Məhkəmə işin gedişinin buna bəraət qazandırdığını hesab edirsə, şikayətin baxılmalı işlər siyahısına bərpa edilməsi haqqında qərar qəbul edilə bilər.

**Maddə 38 – Məhkəmə işinin araşdırılması**

Məhkəmə tərəflərin nümayəndələrinin iştirakı ilə məhkəmə işini araşdırır və ehtiyac olarsa, təhqiqat aparır; bu halda, müvafiq Razılığa gələn Yüksək Tərəflər həmin təhqiqatın səmərəli olması üçün bütün zəruri imkanları yaratmalıdırlar.

**Maddə 39 – Dostcasına həlletmə**

1. Məhkəmə prosesinin istənilən mərhələsində Məhkəmə Konvensiya və ona dair Protokollarda müəyyən edilən insan hüquqlarına hörmət əsasında məsələnin dostcasına həllini təmin etmək məqsədilə maraqlı tərəflərə öz xidmətlərini təqdim edə bilər.
2. 1-ci bənddə nəzərdə tutulan prosedur məxfi olmalıdır.
3. Əgər məsələ dostcasına həll edilibsə, Məhkəmə faktların və əldə olunmuş razılığın qısaca əks olunduğu qərarla işi öz siyahısından çıxarır.
4. Bu qərar dostcasına həlletmənin qərarda müəyyən edilmiş şərtlərinin yerinə yetirilməsinə nəzarəti həyata keçirən Nazirlər Komitəsinə göndərilir.

**Maddə 40 - Açıq məhkəmə iclasları və sənədlərdən istifadə**

1. Məhkəmə istisna hal kimi digər qərar qəbul etməzsə, onun iclasları açıq keçirilir.
2. Məhkəmə Sədri digər qərar qəbul etməzsə, saxlanılmaq üçün dəftərxanaya verilmiş sənədlər ictimaiyyət üçün açıqdır.

**Maddə 41 – Əvəzin ədalətli ödənilməsi**

Əgər Məhkəmə Konvensiyanın və ona dair Protokolların müddəalarının pozulduğunu, lakin Razılığa gələn Yüksək Tərəfin daxili hüququnun yalnız bu pozuntunun nəticələrinin qismən aradan qaldırılmasına imkan verdiyini müəyyən edirsə, Məhkəmə zəruri halda, zərərçəkən tərəfə əvəzin ədalətli ödənilməsini təyin edir.

**Maddə 42 – Palataların qərarları**

Palataların qərarları 44-cü maddənin 2-ci bəndinin müddəalarına uyğun olaraq qüvvəyə minir.

**Maddə 43 – İşin Böyük Palataya verilməsi**

1. Palatanın qərar çıxarmasından sonrakı üç ay ərzində, iş üzrə istənilən tərəf, müstəsna hallarda, işin baxılmaq üçün Böyük Palataya verilməsi barədə ərizə verə bilər.
2. Əgər iş Konvensiyanın və ona dair Protokolların müddəalarının şərhi və ya tətbiqinə dair ciddi məsələ və ya ümumi xarakterli digər ciddi məsələ qaldırsa, Böyük Palatanın beş hakimdən ibarət kollegiyası ərizəni qəbul edir.
3. Kollegiya ərizəni qəbul edirsə, onda Böyük Palata öz qərarını çıxarmaqla işi həll edir.

**Maddə 44 – Qəti qərarlar**

1. Böyük Palatanın qərarı qətidir.
2. Palatanın qərarı aşağıdakı hallarda qəti olur:
   (a) tərəflər işin Böyük Palataya verilməsi barədə müraciət etməyəcəklərini bəyan etdikdə; və ya
   (b) əgər işin Böyük Palataya verilməsi barədə müraciət edilməyibsə, qərar çıxarılan tarixdən üç ay sonra; və ya
   (c) Böyük Palatanın kollegiyası 43-cü maddənin müddəalarına müvafiq olaraq işin verilməsi haqqında müraciəti rədd etdikdə.
3. Qəti qərar dərc olunmalıdır.

**Maddə 45 - Qərar və hökmlərin əsaslandırılması**

1. Hökmlər, həmçinin, şikayət ərizələrini qəbul edilən və ya qəbuledilməz elan edən qərarlar əsaslandırılmalıdır.
2. Əgər qərar bütövlükdə və ya qismən hakimlərin yekdil rəyini ifadə etmirsə, onda hər hansı hakim özünün xüsusi rəyini vermək hüququna malikdir.

**Maddə 46 – Qərarların məcburi qüvvəsi və icrası**

1. Razılığa gələn Yüksək Tərəflər Məhkəmənin onların tərəf olduqları hər hansı iş üzrə qəti qərarını icra etməyi öhdələrinə götürürlər.
2. Məhkəmənin qəti qərarı onun icrasına nəzarəti həyata keçirən Nazirlər Komitəsinə göndərilir.
3. Əgər Nazirlər Komitəsi qərarın şərhi ilə bağlı ortaya çıxan problemlərin qəti qərarın icra edilməsinə maneə yaratdığı qənaətinə gələrsə, o zaman o, şərhlə bağlı ortaya çıxan məsələni həll etmək üçün Məhkəməyə müraciət edə bilər. Bu cür müraciət barədə qərarın verilməsi üçün Komitədə iştirak etmək hüququ olan nümayəndələrin üçdə iki səs çoxluğu tələb olunur.
4. Əgər Nazirlər Komitəsi hesab edərsə ki, Razılığa gələn Yüksək Tərəf özünün tərəf olduğu iş üzrə qəti qərarını yerinə yetirməkdən boyun qaçırır, o zaman o, həmin Tərəfə rəsmi xəbərdarlıq göndərdikdən sonra və Komitədə iştirak etmək hüququ olan nümayəndələrin üçdə iki səs çoxluğu ilə qəbul edilmiş qərarla, 1-ci bəndə əsasən həmin Tərəfin üzərinə götürdüyü öhdəliyi yerinə yetirib-yetirməməsi barədə Məhkəməyə sorğu göndərə bilər.
5. Əgər Məhkəmə 1-ci bəndin pozulduğunu aşkar edərsə, onda müəyyən ölçülərin götürülməsi üçün işi Nazirlər Komitəsinə göndərir. Əgər Məhkəmə 1-ci bəndin pozulmadığını aşkar edərsə, onda o, işə baxılmasının başa çatdırılması üçün onu Nazirlər Komitəsinə göndərir.

**Maddə 47 – Məsləhət xarakterli rəylər**

1. Məhkəmə Nazirlər Komitəsinin müraciəti ilə Konvensiyanın və ona dair Protokolların müddəalarının şərhinə dair hüquqi məsələlər üzrə məsləhət xarakterli rəylər verə bilər.
2. Belə rəylər nə Konvensiyanın I Bölməsi və ona dair Protokollarda müəyyən edilən hüquq və azadlıqların məzmun və həcminə dair hər hansı məsələyə, nə də Məhkəmənin və ya Nazirlər Komitəsinin Konvensiyada nəzərdə tutulan hər hansı müraciətə baxarkən toxunmalı olduğu digər məsələlərə aid olmamalıdır.
3. Nazirlər Komitəsinin Məhkəmənin məsləhət xarakterli rəy verməsi üçün müraciəti barədə qərarı Komitənin iştirak etmək hüququ olan nümayəndələrinin səs çoxluğu ilə qəbul edilir.

**Maddə 48 Məhkəmənin məsləhət rəyləri vermək səlahiyyəti**

Məsləhət xarakterli rəy vermək haqqında Nazirlər Komitəsi tərəfindən edilən müraciətin Məhkəmənin 47-ci maddədə müəyyən edilən səlahiyyətinə aid olub-olmamağını Məhkəmə özü həll edir.

**Maddə 49 – Məsləhət xarakterli rəylərin əsaslandırılması**

1. Məhkəmənin məsləhət xarakterli rəyləri əsaslandırılmalıdır.
2. Əgər məsləhət xarakterli rəy bütövlükdə və ya qismən hakimlərin yekdil rəyini əks etdirmirsə, onda hər hansı hakim özünün xüsusi rəyini vermək hüququna malikdir.
3. Məhkəmənin məsləhət xarakterli rəyləri Nazirlər Komitəsinə göndərilir.

**Maddə 50 – Məhkəmənin saxlanılması xərcləri**

Məhkəmənin saxlanılması xərclərini Avropa Şurası ödəyir.

**Maddə 51 – Hakimlərin imtiyaz və immunitetləri**

Hakimlər öz vəzifələrini yerinə yetirərkən Avropa Şurası Nizamnaməsinin 40-cı maddəsində və onun əsasında bağlanmış sazişlərdə nəzərdə tutulan imtiyaz və immunitetlərə malikdirlər.

**BÖLMƏ III SAİR MÜDDƏALAR**

**Maddə 52 – Baş Katibin sorğuları**

Avropa Şurası Baş katibinin sorğusu əsasında Razılığa gələn hər bir Yüksək Tərəf öz daxili hüququnun bu Konvensiyanın hər hansı müddəasının səmərəli tətbiqini necə təmin edəcəyi ilə bağlı izahat təqdim edir.

**Maddə 53 Təsbit olunmuş insan hüquqları təminatları**

Bu Konvensiyada heç nə Razılığa gələn hər hansı Yüksək Tərəfin qanunvericiliyi və ya onun iştirak etdiyi hər hansı digər sazişlə təmin edilə bilən insan hüquqlarından və əsas azadlıqlardan hər hansını məhdudlaşdırmaq və ya ondan kənara çıxmaq kimi şərh oluna bilməz.

**Maddə 54 – Nazirlər Komitəsinin səlahiyyətləri**

Bu Konvensiyada heç nə Avropa Şurası Nizamnaməsinin Nazirlər Komitəsinə verdiyi səlahiyyətlərə xələl gətirmir.

**Maddə 55 – Mübahisələrin digər vasitələrlə tənzimlənməsindən imtina**

Razılığa gələn Yüksək Tərəflər, bu barədə xüsusi razılaşmanın olması halı istisna olmaqla, bu Konvensiyanın şərhi və tətbiqi ilə bağlı hər hansı mübahisəni petisiya yolu ilə bu Konvensiyada nəzərdə tutulan vasitələrdən başqa hər hansı digər tənzimləmə vasitəsinə təqdim etmək məqsədi ilə öz aralarında qüvvədə olan müqavilələrdən, konvensiyalardan və ya bəyannamələrdən istifadə etməyəcəklərinə razılıq verirlər.

**Maddə 56 – Ərazilərdə tətbiq**

1. Hər hansı dövlət Konvensiyanı ratifikasiya edərkən və ya daha sonra hər hansı bir vaxtda Avropa Şurası Baş katibinə ünvanlanmış bildiriş vasitəsi ilə bu Konvensiyanın, beynəlxalq əlaqələrinə görə həmin dövlətin məsuliyyət daşıdığı bütün ərazilərə yaxud onlardan hər hansı birinə, bu maddənin 4-cü bəndi nəzərə alınmaqla, şamil ediləcəyini bəyan edə bilər.
2. Konvensiya bildirişdə adı çəkilən əraziyə və ya ərazilərə Avropa Şurası Baş katibi tərəfindən bildirişi almasından sonra otuzuncu gündən şamil edilir.
3. Bu Konvensiyanın müddəaları belə ərazilərdə yerli şəraitin lazımi qaydada nəzərə alınması ilə tətbiq edilir.
4. Bu maddənin 1-ci bəndinə müvafiq olaraq bəyanat vermiş hər hansı dövlət sonradan istənilən vaxt həmin bəyanatda göstərilmiş bir və ya bir neçə ərazinin adından Konvensiyanın 34-cü maddəsinə müvafiq olaraq, Məhkəmənin fiziki şəxs-lərdən, qeyri-hökumət təşkilatlarından və ya fərdlər qrupundan şikayətlər qəbul etmək səlahiyyətini tanıdığını bəyan edə bilər.

**Maddə 57 –Qeyd-şərtlər**

1. İstənilən dövlət bu Konvensiyanı imzalayarkən və ya təsdiqnaməni saxlanmağa verərkən Konvensiyanın hər hansı konkret müddəası ilə bağlı, o dövrdə, onun ərazisində qüvvədə olan bu və ya digər qanunun həmin müddəaya uyğun olmaması ilə əlaqədar qeyd-şərt verə bilər. Bu maddəyə müvafiq olaraq, ümumi xarakterli qeyd-şərtlərə yol verilmir.
2. Bu maddəyə uyğun olaraq edilmiş istənilən qeyd-şərtdə müvafiq qanunun qısa şərhi verilməlidir.

**Maddə 58 - Denonsasiya**

1. Razılığa gələn Yüksək Tərəf, yalnız bu Konvensiyanın tərəfi olduğu tarixdən beş il keçdikdən sonra və bu barədə Avropa Şurasının Baş katibinə bildiriş göndərdikdən altı ay sonra bu Konvensiyanı denonsasiya edə bilər; Baş katib Razılığa gələn digər Yüksək Tərəfləri bu barədə məlumatlandırır.
2. Denonsasiya Razılığa gələn müvafiq Yüksək Tərəfi denonsasiyanın qüvvəyə minəcəyi tarixədək törədə biləcəyi və bu Konvensiya üzrə öhdəliklərini poza biləcək hər hansı əməlinə münasibətdə belə öhdəliklərindən azad etmir.
3. Avropa Şurasının üzvlüyündən çıxan Razılığa gələn hər hansı Yüksək Tərəfin bu Konvensiyaya tərəf olmasına da eyni şərtlərlə son qoyulur.
4. Konvensiya, 56-cı maddənin müddəalarına əsasən onun şamil olunmasının bəyan edildiyi istənilən əraziyə münasibətdə əvvəlki bəndlərin müddəalarına müvafiq olaraq denonsasiya edilə bilər.

**Maddə 59 – İmzalanma və ratifikasiya**

1. Bu Konvensiya Avropa Şurasının üzvü olan dövlətlər tərəfindən imzalanmaq üçün açıqdır. O, ratifikasiya olunmalıdır.
2. Təsdiqnamələr saxlanılmaq üçün Avropa Şurasının Baş katibinə verilir.
3. Avropa İttifaqı bu Konvensiyaya qoşula bilər. Bu Konvensiya on təsdiqnamə saxlanmağa verildikdən sonra qüvvəyə minir.
4. Konvensiya onu sonradan ratifikasiya edən dövlətlər üçün onların öz təsdiqnamələrini saxlanmağa verdikləri tarixdən qüvvəyə minir.
5. Avropa Şurasının Baş katibi Konvensiyanın qüvvəyə minməsi, onun ratifikasiya etmiş Razılığa gələn Yüksək Tərəflərin adları və sonralar alına biləcək təsdiqnamələrin saxlanılmağa verilməsi haqqında Avropa Şurasının üzvü olan bütün dövlətləri xəbərdar edir.

1950-CI IL NOYABRIN 4-DƏ ROMADA hər iki mətni eyni qüvvəyə malik olmaqla, ingilis və fransız dillərində, bir nüsxədə imzalanmışdır və Avropa Şurasının arxivində saxlanılır. Avropa Şurasının Baş katibi təsdiq olunmuş surətləri Konvensiyanı imzalamış bütün dövlətlərə göndərəcəkdir.

## Avropa Sosial Xartiyası (yenilənmiş)

*(Xülasə)*

1996-cı il tarixli Avropa Sosial Xartiyası (yenilənmiş) 1999-cu ilin 1 iyul tarixində qüvvəyə minmişdir və 1961-ci il tarixli Avropa sosial Xartiyası, onun 1988-ci il tarixli əlavə Protokolunda təmin olunan bütün hüquqları bir alətdə birləşdirir və İştirakçılar tərəfindən qəbul olunmuş yeni hüquqlar və dəyişiklikləri əlavə edir. Tədricən o, 1961-ci il müqaviləsini əvəz edir. Xartiya bütün şəxslərin gündəlik həyatında üzləşdiyi hüquq və azadlıqları təmin edir. Xartiyada yer alan əsas hüquqlar aşağıdakılardır:

**Mənzil:**
- münasib və əlverişli mənzil əldə etmək;
- evsizliyin azaldılması; bütün əlverişsiz kateqoriyalara hədəf olan mənzil siyasəti;
- məcburi köçürülmənin məhdudlaşdırılması prosedurları;
- qeyri-vətəndaşlar üçün sosial yaşayış və mənzil müavinətləri üzrə bərabər imkan;
- mənzil tikintisi və ailə ehtiyacları ilə bağlı mənzil üstünlükləri.

**Sağlamlıq**
- bütün əhali üçün əlçatan, səmərəli səhiyyə müəssisələri;
- sağlam ətraf mühitin qorunması da daxil olmaqla, xəstəliklərin qarşısının alınması siyasəti;
- işdə sağlamlıq və təhlükəsizliyin qanunla təmin edilməsi və praktikada təmin edilməsi üçün peşə təhlükələrinin aradan qaldırılması;
- analığın qorunması.

**Təhsil**
- pulsuz ibtidai və orta təhsil;
- sərbəst və effektiv peşə təlimatı xidmətləri;
- başlanğıc təlim (ümumi və peşə orta təhsili), universitet və universitetdən kənar ali təhsil, peşə hazırlığı, o cümlədən davamlı təlimin əlçatanlığı;
- xarici sakinlər üçün xüsusi tədbirlər;
- əlil uşaqların məktəbə inteqrasiyası;
- əlilliyi olan şəxslər üçün təhsil və peşə hazırlığı imkanı.

**İşə götürülmə**
Işləmək azadlığı
- məcburi əməyin qadağan edilməsi;
- 15 yaşadək uşaqların məşğulluğunun qadağan edilməsi;
- 15 ilə 18 yaş arasındakı uşaqlar üçün xüsusi iş şəraiti;
- Sərbəst daxil olunmuş iş yerində yaşayış üçün gəlir əldə etmə hüququ.

**Ədalətli iş şəraiti**
- tam məşğulluğu təmin etmək üçün nəzərdə tutulmuş iqtisadi və sosial siyasət;
- əlilliyi olan şəxslər üçün iş imkanı;
- ödəniş və iş saatları baxımından ədalətli iş şəraiti;
- vəzifədən azad edilmə halında müdafiə;
- cinsi və psixoloji təhqirdən qorunma.

**Kollektiv hüquqlar**
- iqtisadi və sosial maraqları müdafiə etmək üçün həmkarlar ittifaqları və işəgötürən təşkilatlarının yaradılması; onlara qoşulmaq və ya qoşulmamaqla bağlı qərar vermək üzrə fərdi azadlıq;
- birgə məsləhətləşmələrin, kollektiv danışıqların, razılaşmaların və könüllü arbitrajın təşviqi;
- tətil etmək hüququ.

**Hüquqi və sosial müdafiə**
- uşağın hüquqi vəziyyəti;
- gənc cinayətkarlarla rəftar;
- pis rəftar və istismardan qorunma;
- sui-istifadənin hər hansı formasının (cinsi və ya digər) qadağan olunması;
- ailənin hüquqi müdafiəsi (həyat yoldaşlarının cütlük daxilində və uşaqlarla əlaqədar bərabərliyi, ailənin dağılması halında uşaqların müdafiəsi);
- sosial təminat, sosial rifah və sosial xidmətlər hüququ;
- yoxsulluqdan və sosial təcriddən qorunmaq hüququ;
- uşaq baxımı;
- yaşlılar üçün xüsusi tədbirlər.

**İnsanların hərəkəti**
- ailənin toplaşması hüququ;
- vətəndaşların ölkədən çıxma hüququ;
- ölkədən çıxarılma halında prosessual təminatlar;
- immiqrasiya üzrə formallığın sadələşdirilməsi.

**Ayrı-seçkiliyin olmaması**
- qadınlar və kişilərə qarşı bərabər rəftar və məşğulluq üçün bərabər imkanlar;
- Nizamnamədə nəzərdə tutulmuş bütün hüquqların irqi, cinsi, yaşı, rəngi, dili, dini, düşüncəsi, milli mənşəyi, sosial kökləri, sağlamlıq vəziyyəti və ya hər hansı azlıqla əlaqələrindən asılı olmayaraq, bütün vətəndaş və qanuni olaraq məskunlaşmış və/və ya işləyən əcnəbilərə tətbiq olunması;
- ailə məsuliyyətlərinə əsaslanan ayrı-seçkiliyin qadağan edilməsi;
- əlilliyi olan şəxslərin sosial inteqrasiya və cəmiyyətin həyatında iştirak hüququ.

Nizamnamə iştirakçı dövlətlər tərəfindən dövlət hesabatlarının təqdim edilməsinə (1991-ci il Protokolu) və kollektiv şikayət sisteminə (1995-ci il Protokolu) əsaslanan nəzarət mexanizminə malikdir, bu da, həmkarlar ittifaqları və qeyri-hökumət təşkilatlarına xüsusi olaraq kollektiv iddialar təqdim etməyə icazə verir. Avropa Sosial Hüquqlar Komitəsi (ECSR) iştirakçı dövlətlərin Xartiya ilə uyğunluğunun monitorinqinə cavabdeh olan orqandır. Komitə, Avropa Şurasının Nazirlər Komitəsi tərəfindən altı il müddətinə seçilən, bir dəfə yenilənə bilən 15 müstəqil, qərəzsiz üzvdən ibarətdir.

## Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyası

*(Xülasə)*

Bu Konvensiya ümumilikdə mill azlıqların müdafiəsi üzrə ilk hüquqi öhdəlik doğuran çoxtərəfli vasitədir. Onun məqsədi Tərəflərin müvafiq əraziləri daxilində milli azlıqların mövcudluğunu qoruyub saxlamaqdır. Konvensiya milli azlıqların öz mədəniyyətlərini qoruyub saxlamasına və inkişaf etdirməsinə, eləcə də öz milli kimliklərini saxlamasına lazımi şəraiti yaratmaqla onların tam və effektiv bərabərliyini təmin etməyə çalışır. Konvensiya milli azlıqların nümayəndələri üçün ictimai həyat sahəsində aşağıdakı prinsipləri müəyyən edir:

- Ayrı-seçkiliyə məruz qalmamaq
- Effektiv bərabərliyin təmin olunması
- Mədəniyyət, din, dil və ənənələrin qorunub saxlanmasının təmin olunması
- Sərbəst toplaşmaq azadlığı
- Birləşmək azadlığı
- İfadə azadlığı
- Düşüncə, vicdan və din azadlığı
- KİV-ə çıxış və KİV-dən istifadə hüququ
- Dil və təhsillə bağlı azadlıqlar
- Transsərhəd əlaqələr və əməkdaşlıq
- İqtisadi, mədəni və sosial həyatda iştirak
- Zorla assimilyasiyanın qadağan olunması.

Konvensiyanın nəzarət mexanizmi tərəf dövlətlərin təqdim etmək məcburiyyətində olduğu hesabatlara əsaslanır. Hesabatları nəzərdən keçirmək üzrə məsul olan əsas orqan Avropa Şurasının Nazirlər Komitəsidir, lakin Məşvərət Komitəsinin mütəxəssisləri Nazirlər Komitəsinə yardım edir.

Məşvərət Komitəsi Tərəf Dövlətlərin namizədliklərini irəli sürdüyü şəxslər arasından Nazirlər Komitəsinin seçdiyi 18 üzvdən ibarətdir. Bəzi ölkələrin heç bir namizədləri Komitəyə seçilə bilmir, buna görə də, seçilməmiş namizədlər əlavə üzvləri əhatə edən ehtiyat siyahısına salınır. Məşvərət Komitəsi Dövlət hesabatlarından başqa digər mənbələrdən məlumat almaq səlahiyyətinə malikdir, məsələn, hökumət nümayəndələri və müstəqil mənbələrlə görüş təşkil edə bilər. Məşvərət Komitəsi Dövlətlərin hesabatlarını nəzərdən keçirərkən onlara səfərlər təşkil edə, hökumət, QHT-lər, azlıqların icmaları, akademiklər və digər maraqlı tərəflərlə görüşə bilər.

## Regional və ya Azlıqların Dilləri haqqında Avropa Xartiyası

*(Xülasə)*

Xartiya bir tərəfdən Avropa mədəni irsinin təhlükə altında olan aspekti sayılan regional və azlıq dillərinin qorunması və təbliğinə, digər tərəfdən isə regional və azlıqların dillərinin daşıyıcılarının bu dildən şəxsi və ictimai həyatda istifadə etməsinin təmin olunmasına həsr olunmuşdur. Bu Xartiya regional, azlıqların dilləri, qeyri-ərazi dilləri və məhdud şəkildə rəsmi dil kimi istifadə olunan dilləri əhatə edir. Xartiya Dövlətlərin siyasətləri, qanunvericilik və təcrübələri üçün əsas təşkil edən, eləcə də təhlükə altında olan dillərin qorunması üçün lazımi çərçivəni təmin edən başlıca prinsip və məqsədləri irəli sürür.

Əsas səkkiz prinsip və məqsəd aşağıdakılardır:

- Regional və azlıqların dillərinin mədəni sərvətin ifadə forması kimi qəbul olunması
- Regional və azlıqların dilinin istifadə olunduğu hər bir coğrafi əraziyə hörmət
- Bu dillərin təbliği üçün qəti addımlara olan ehtiyac
- Bu dillərin şifahi və yazılı, ictimai və şəxsi həyatda istifadəsinin asanlaşdırılması və/və ya təşviq olunması
- Bütün uyğun mərhələlərdə bu dillərin öyrədilməsinin və tədrisinin müvafiq forma və vasitələrinin təmin olunması
- Müvafiq transmilli mübadilələrin təmin olunması
- Regional və ya azlıqların dilinin istifadəsi ilə əlaqədar ortaya çıxan və bu dillərin qorunub saxlanması və ya inkişafına qarşı yönələn
- istənilən əsaslandırılmamış fərqləndirmə, təcrid, məhdudlaşdırma və ya üstünlük verilməsinin bütün formalarının qadağan olunması
- Ölkənin bütün linqvistik qrupları arasında qarşılıqlı anlaşmanın dövlətlər tərəfindən təmin olunması

Bundan əlavə, Xartiya regional və ya azlıqların dillərinin ictimai həyatda istifadəsinin təmin olunması üçün bir sıra spesifik tədbirlər müəyyən edir. Bu tədbirlər göstərilən sahələri əhatə edir: təhsil, ədalət, administrativ orqanlar və ictimai xidmətlər, KİV, mədəni tədbirlər və qurumlar, iqtisadi və sosial tədbirlər, transsərhəd mübadilələr.

Xartiyada onun Tərəf Dövlətdə tətbiqini qiymətləndirmək üçün nəzarət mexanizmi müəyyən olunur. Bu mexanizm, lazım gəldikdə, dövlətin qanunvericiliyi, siyasət və təcrübəsinin inkişaf etdirilməsi üçün məsləhətlər təqdim edir. Nəzarət mexanizminin mərkəzi elementi müstəqil ekspertlər Komitəsidir. Bu komitə:

- dövlətin mütəmadi təqdim etdiyi hesabatları nəzərdən keçirir;
- lazım gəldikdə, hesabatda aydın olmayan məsələlərlə bağlı Tərəfə suallar ünvanlayır;
- dövlətə “yerində” səfər təşkil edir, Xartiyanın tətbiqini qiyməldirmək üçün səlahiyyətli orqanlar, qeyri-hökumət təşkilatları və ya digər məsul qurumla görüşür;
- dillər məsələsində maraqlı olan və müvafiq dövlətdə yaradılmış assosiasiyalar və digər hüquqi qurumlardan daxil olan əlavə məlumatları nəzərdən keçirir;
- əldə olunmuş məlumat əsasında öz qiymətləndirmə hesabatını hazırlayır, onu dövlətlərə verilməli tövsiyələrlə bağlı təkliflərlə birlikdə Nazirlər Komitəsinə təqdim edir.

İki ildə bir dəfə, Avropa Şurasının Baş Katibi Parlament Assambleyasına Xartiyanın tətbiqi ilə bağlı ətraflı hesabat təqdim etməlidir. Bu yolla, Avropa parlamentlərinin Xartiyanın tətbiqi ilə bağlı məlumatlı olması, beləliklə, milli hökumətlərin lazımi tədbirləri görməsi üçün tələb olunan siyasi təzyiqin göstərilməsi təmin olunur.

# İnsan alverinə qarşı mübarizə haqqında Konvensiya

*(Qeyri-rəsmi xülasə)*

Avropa Şurasının İnsan alverinə qarşı mübarizə haqqında Konvensiyası Avropa Şurasının Dövlət və Hökumət Başçılarının 3-cü Sammiti ilə əlaqədar 16 may 2005-ci ildə Varşavada imzaya açılmışdır. 24 oktyabr 2007-ci ildə Konvensiya onuncu dövlət tərəfindən ratifikasiya olunmuş, nəticədə, 1 fevral 2008-ci ildə qüvvəyə minmişdir. Konvensiya, əsasən, insan alveri qurbanlarının qorunması və onların hüquqlarının təmin edilməsini əhatə edən hərtərəfli müqavilədir. Onun məqsədi alverin qarşısını almaq və günahkarları cəzalandırmaqdır. Bundan əlavə, Konvensiya burada əks olunan öhdəliklərin yerinə yetirilməsinə nəzarət üçün effektiv və müstəqil mexanizmin yaradılmasını nəzərdə tutur. Konvensiyanın əhatə dairəsi Avropa Şurasına üzv dövlətlərlə məhdudlaşmır; üzv olmayan dövlətlər və Avropa İttifaqının da Konvensiyaya tərəf olmaq imkanı var.

***Konvensiyanın məqsədləri və əhatə dairəsi***

Bu Konvensiya insan alverinin insan hüquqları pozuntusu və insan ləyaqəti və birliyinə qarşı təhdid olması prinsipinə əsaslanır. Avropa  Şurası Konvensiyası aşağıdakı məqsədləri daşıyan hərtərəfli müqavilədir:

- İnsan alverinin qarşısını almaq
- İnsan alveri qurbanlarının insan hüquqlarını qorumaq
- İnsan alverçilərinin mühakimə olunması.

***Konvensiya tətbiq olunur:***

- milli və ya transmilli səviyyədə olmasından, eləcə də mütəşəkkil cinayətkarlıqla əlaqəli olub-olmamasından asılı olmayaraq, insan alverinin bütün formalarına
- qadın, kişi və ya uşaq olmasından asılı olmayaraq bütün qurbanlara
- cinsi istismar, məcburi əmək və ya xidmətlərin göstərilməsi və s. olmasından asılı olmayaraq istismarın bütün formalarına.

***Konvensiyanın təmin etdiyi tədbirlər***

- İnsan alverinin qarşısını almaq üçün əsas tədbirlər arasında alverə məruz qalmaq təhlükəsi altında olan insanlar arasında məlumatlılığın artırılması və insan alveri “müştərilərinin” bu fikirdən daşındırılması məqsədilə görülən tədbirlər qeyd oluna bilər.
- Dövlət orqanları və polisin onlarla qeyri-qanuni miqrantlar yaxud cinayətkarlar kimi rəftar etməsinin qarşısını almaq üçün insan alveri  qurbanları müəyyən olunmalıdır.
- Alver qurbanları fiziki və psixoloji dəstək almalı, onların cəmiyyətə yenidən inteqrasiyası təmin olunmalıdır. Tibbi müayinə, məsləhət və məlumat vermə, eləcə də münasib yaşayış şəraitinin təmin olunması nəzərdə tutulan tədbirlər arasındadır. Qurbanların, həmçinin, təzminat almaq hüququ var.
- Qurbanların sağalması və alverçilərin təsirindən azad olması, eləcə də onların səlahiyyətli orqanlarla mümkün əməkdaşlığı üçün minimum 30 gün vaxt verilir. Onların şəxsi vəziyyəti ilə əlaqədar və ya cinayət istintaqında əməkdaşlıq etmələri məqsədilə yaşayış icazəsi yenilənə bilər.
- İnsan alveri cinayət məsuliyyəti doğurur: alverçilər və onların şərikləri mühakimə olunacaqdır.
- Məhkəmə prosesi ərzində insan alveri qurbanların şəxsi həyatı və təhlükəsizliyi mühafizə olunacaqdır.
- İnsan alveri qurbanının xidmətlərindən bilərəkdən istifadə edən şəxslərin cinayət məsuliyyətinə cəlb olunması imkanı.
- Konvensiya qurbanların öz vəziyyətləri ilə əlaqədar məcburi şəkildə qeyri-qanuni fəaliyyətdə iştirakı ilə bağlı onlara qarşı cəzaların tətbiq olunmaması imkanını təmin edir.
- İnsan alverinin qarşısının alınması və qurbanların müdafiəsi ilə bağlı vətəndaş cəmiyyəti mühüm rol oynaya bilər. Nəhayət, Kon vensiya səlahiyyətli dövlət qurumları, qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyəti nümayəndələri arasında əməkdaşlığı təşviq edir.

***Nəzarət***

Nəzarət mexanizmi iki hissədən ibarətdir: İnsan alverinə qarşı fəaliyyət üzrə ekspertlər qrupu – GRETA və Avropa Şurasının üzvü olan Konvensiya Tərəflərinin Nazirlər Komitəsindəki nümayəndələri və Avropa Şurasının üzvü olmayan Konvensiya Tərəflərinin nümayəndələrindən ibarət Tərəflər Komitəsi. GRETA Konvensiyanın yerinə yetirilməsinə nəzarət edir; Tərəflərin həyata keçirdiyi tədbirləri qiymətləndirən hesabatlar hazırlayır. Konvensiyada göstərilən tədbirləri tam şəkildə yerinə yetirməyən tərəflərdən fəaliyyətlərini gücləndirmək tələb olunacaqdır. Bundan əlavə, Tərəflər Komitəsi GRETA-nın hesabatı əsasında Tərəfə tövsiyələr verə bilər.

## Avropa Şurası Demokratik Vətəndaşlıq və İnsan Hüquqları Təhsili Xartiyası

Avropa Şurası Nazirlər Komitəsinin 2010-cu il tarixli 7 nömrəli tövsiyəsi çərçivəsində qəbul olunmuşdur

### I BÖLMƏ – ÜMUMİ MÜDDƏALAR

**Məqsəd (Fəaliyyət dairəsi)**
Hazırki Xartiya paraqraf 2-də müəyyən edildiyi kimi Demokratik Vətəndaşlıq və İnsan Hüquqları təhsili ilə bağlıdır. O, (Xartiya) mədəniyyətlərarası təhsillə, bərabər təhsil, dövləti dəstəkləyən, sülh təhsili və bu kimi bir-birinə yaxın olan sahələrlə məşğul olmur, istisnalıq təşkil edən isə onların demokratik vətəndaşlıq və insan hüquqların təhsili ilə üst-üstə düşməsi və qarşılıqlı əlaqədə olmasıdır.

**Təyinatlar**
Hazırki Xartiyanın məqsədləri üçün:
a) "Demokratik Vətəndaşlıq Təhsili"- öyrənənlərin bilik, bacarıq, dərk etmə, münasibət, davranışlarının təhsil, təlim, məlumat vasitəsilə artırılması, məlumatı, təcrübə və fəaliyyətlərlə təmin edilərək əldə etdiklərini tətbiq etmək, özlərinin cəmiyyətdə demokratik hüquqlarını, vəzifələrini tətbiq etmək, müxtəlifliyə dəyər vermək, demokratik həyatda fəal iştirak etmək, demokratiya və hüquqi qaydaların müdafiəsinin təşviqi üçün səlahiyyət verilməsidir.
b) "İnsan Hüquqları Təhsili" – öyrənənlərin bilik, bacarıq, dərk etmək, münasibət və davranışlarının təhsil, təlim, məlumat vasitəsilə artırılması, məlumat, təcrübə və fəaliyyətlərlə təmin edilərək öyrənənlərə cəmiyyətdə insan hüquqlarının hərtərəfli (universal) mədəniyyətinin qurulması və möhkəmlənməsi üçün əməkdaşlıq etmək, insan hüquqlarının, fundamental azadlıqların müdafiəsinin təşviqi üçün səlahiyyət verilməsidir.
c) "Formal təhsil"- məktəbəqədər, ibtidai, orta məktəbdən universitetə qədər davam edən təhsil və təlim sistemidir. Bir qayda olaraq bu ümumi və ya peşəkar təhsil müəssisələrində həyata keçirilir və sertifikatla başa çatan təhsildir.
d) "Qeyri-formal təhsil"- formal təhsil xaricində vərdiş və kompetensiyalar səviyyəsinin inkişafı üçün nəzərdə tutulan hər hansı planlaşdırılmış proqram deməkdir.
e) "İnformal təhsil" ömürlük proses olub hər bir şəxsin gündəlik təcrübələrindən (ailə, yaşıdlar, qonşular, təsadüfi görüşlər, kitabxana, kütləvi informasiya vasitələri, iş, oyun və s. ) və mövcud olduğu mühitdə olan vasitələr və maarifləndirici təsirlərdən əldə etdiyi münasibətlər, dəyərlər, bacarıqlar və biliklərdir.

**Demokratik vətəndaşlıq və insan hüquqları təhsili arasında əlaqə**
Demokratik vətəndaşlıq və insan hüquqları təhsili bir-biri ilə sıx əlaqəli və qarşılıqlı dəstəkvericidir. Məqsəd və təcrübələrdən daha çox onlar fəaliyyət dairəsi və istiqamətdə fərqlənir.
Demokratik vətəndaşlıq üzrə təhsil ilkin növbədə cəmiyyətin mülki, siyasi, sosial, iqtisadi, hüquqi və mədəni sahələrində demokratik hüquqlar və vəzifələrə və fəal iştiraka diqqət yetirir, insan hüquqları təhsili isə insanların həyatlarının hər bir istiqamətində olan insan hüquqları və əsas azadlıqların daha geniş sahəsinə aiddir.

**Konstitusiya quruluşu və üzv dövlətin üstünlükləri**
Aşağıda göstərilən məqsəd, prinsip və strategiyalar tətbiq edilməlidir:
a) hər bir üzv dövlətin konstitusiya quruluşuna lazımi hörmət edərək, həmin quruluşa uyğun vasitələrdən istifadə edilməsi; b) hər bir üzv dövlətin üstünlük və tələbatlarının nəzərə alınması.

### II BÖLMƏ – MƏQSƏDLƏR VƏ PRİNSİPLƏR

**Məqsədlər və prinsiplər**
Bu məqsəd və prinsiplər üzv dövlətlərin öz siyasət, qanunvericilik və təcrübələrini formalaşdırmaqda onlara yol göstərməlidir.
a) Hər bir şəxsi öz ərazisi daxilində demokratik vətəndaşlıq və insan hüquqları üzrə təhsil almaq imkanı ilə təmin etmək məqsədi
b) Demokratik vətəndaşlıq və insan hüquqları üzrə təhsildə öyrənmə ömrüboyu prosesdir. Bu sahədə səmərəli öyrənməyə siyasətçilər, təhsil işçiləri, öyrənənlər, valideynlər, təhsil müəssisələri, təhsil orqanları, dövlət qulluqçuları, qeyri-hökumət təşkilatları, gənclər təşkilatları, kütləvi informasiya vasitələri və ümumi ictimaiyyət olmaqla geniş əhatəli maraqlı tərəflər daxildir.
c) Təhsil və təlimin bütün vasitələri, formal, qeyri-formal və ya informal olmasından asılı olmayaraq öyrənmə prosesində rol oynayır, prinsipləri təşviq etmək və məqsədlərə çatmaqda əhəmiyyətlidir.
d) Qeyri-hökumət və gənclər təşkilatlarının demokratik vətəndaşlıq və insan hüquqları təhsilinə, xüsusilə qeyri-formal və informal təhsil vasitəsilə dəyərli töhfələri var və bunları etmək üçün onların dəstəyə və maliyyə vəsaitinə ehtiyacı var.
e) Öyrətmə və öyrənmə təcrübələri və fəaliyyətləri demokratik və insan haqlarının dəyər və prinsiplərinə riayət etməli və irəli çəkməlidir; xüsusilə məktəblər daxil olmaqla, təhsil müəssisələrinin idarəçiliyi insan haqları dəyərlərini özündə əks etdirməli və irəli çəkməlidir və öyrənənlərin, təhsil işçilərinin, həmçinin, valideynlər daxil olmaqla, maraqlı tərəflərin fəal iştirak və səlahiyyətlərinə imkan yaratmalıdır.
f) Bütün demokratik vətəndaşlıq və insan hüquqları üzrə təhsilin vacib elementi sosial birlik, mədəniyyətlərarası dialoq, irqi bərabərlik daxil olmaqla müxtəliflik və bərabərliyin qiymətləndirilməsini təbliğ etməkdir; bu münaqişəni azaltmaq və qarşılıqlı anlaşmanı inkişaf etdirmək, etiqad və etnik qruplar arasında fərqlilikləri anlamaq və qiymətləndirməni artırmaq, insan ləyaqətinə və ümumi dəyərlərə qarşılıqlı hörmət yaratmaq, dialoq qurmağa həvəsləndirmək, problemlərin və mübahisələrin həllində qeyri-zorakılığı təbliğ etmək məqsədilə bilik, şəxsi və sosial bacarıqları və qavramanı inkişaf etdirmək vacibdir.
g) Bütün demokratik vətəndaşlıq və insan hüquqları üzrə təhsilin əsas məqsədlərindən biri öyrənənləri yalnız bilik, qavrama və bacarıqlarla təmin etmək deyil, eyni zamanda cəmiyyətdə insan hüquqları, demokratiya və hüquqi qaydaların irəli çəkilməsi və müdafiəsində hərəkətə keçmək üçün hazırlığını gücləndirməkdir.
h) Demokratik vətəndaşlıq və insan hüquqları üzrə təhsilin prinsip və təcrübələrinə əsasən təhsil mütəxəssisləri, gənc liderlər, eləcə də təlimçilər üçün təşkil olunmuş davamlı inkişaf təlimləri bu sahədə effektiv təhsilin davamlılığı və təqdim edilməsində vacib rol oynayır və müvafiq olaraq uyğun şəkildə planlaşdırılmalı və istifadə olunmalıdır.
i) Siyasətçilər, təhsil mütəxəssisləri, şagirdlər, valideynlər təhsil müəssisələri, qeyri-hökumət təşkilatları, gənc təşkilatlar, KİV və ümumi ictimaiyyət daxil olmaqla, demokratik vətəndaşlıq və insan hüquqları üzrə təhsilə cəlb olunmuş geniş spektrli maraqlı tərəflər arasındakı ölkə, regional və yerli səviyyədə olan tərəfdaşlıq və əməkdaşlıqlar onların edə biləcəkləri töhfələrdən tam istifadə etmək üçün müdafiə edilməlidir.
j) Demokratiya və hüquq qaydalarını dəstəkləyən İnsan hüquqlarının dəyərləri, öhdəlikləri və prinsiplərinin beynəlxalq keyfiyyətini nəzərə alaraq, üzv ölkələr Xartiyanın əhatə etdiyi fəaliyyətlər, təcrübələr mübadiləsi və tanınma çərçivəsində beynəlxalq və regional əməkdaşlığı izləməli və müdafiə etməlidir.

**III Bölmə – SİYASƏTLƏR**

**Ümumi və peşə təhsili**
Üzv ölkələr demokratik vətəndaşlıq və insan hüquqları üzrə təhsili məktəbəqədər, ibtidai və orta məktəbdə, eləcə də peşə təhsili və təlimində formal təhsil üçün tədris planlarına daxil etməlidirlər. Üzv ölkələr eyni zamanda, demokratik vətəndaşlıq və insan hüquqları üzrə təhsili bu sahənin davamlılıq və uyğunluğunu təmin etmək məqsədi ilə tədris planında nəzərdən keçiməyə, yeniləməyə və dəstəkləməyə davam etməlidirlər.

**Ali təhsil**
Üzv ölkələr akademik azadlıq prinsiplərini nəzərə alaraq, xüsusilə gələcək təhsil mütəxəssisləri üçün demokratik vətəndaşlıq və insan hüquqları üzrə təhsilin ali təhsil müəssisələrinə daxil olunmasına yardım etməlidirlər.

**Demokratik idarəçilik**
Üzv ölkələr idarəçiliyin həm arzu olunan və faydalı üsulu kimi, həm də insan hüquqlarına hörmət və demokratiya ilə tanış olmaq və öyrənmənin praktiki vasitəsi kimi bütün təhsil müəssisələrində demokratik idarəçiliyi təşviq və müdafiə etməlidir. Onlar müvafiq vasitələrlə təhsil alanları, təhsil işçilərini və digər maraqlı tərəfləri, o cümlədən valideynləri təhsil müəssisələrinin idarə olunmasında fəal iştirakına kömək etməli və həvəsləndirməlidirlər.

**Təlim**
Üzv ölkələr demokratik vətəndaşlıq və insan hüquqları üzrə təhsildə müəllimləri və digər təhsil işçilərini, gənc liderləri və təlimçiləri lazımi ilkin və davamlı təlimlərlə və inkişafla təmin etməlidirlər. Bu, onlarda nizam-intizamın məqsəd və prinsipləri, müvafiq tədris və öyrənmə metodları, eləcə də təhsil sahələrinə uyğun digər vacib bacarıqlar haqqında tam bilik və qavramanın olmasını təmin etməlidir.

**Qeyri-hökumət təşkilatları, gənclər təşkilatları və digər maraqlı tərəflər**
Üzv ölkələr qeyri-hökumət və gənclər təşkilatlarının rolunu xüsusilə qeyri-formal təhsildə olmaqla, demokratik vətəndaşlıq üçün təhsil və insan hüquqları üzrə təhsildə böyütməlidir. Bu təşkilatlar və onların fəaliyyətləri təhsil sisteminin əhəmiyyətli hissəsi kimi tanınmalı, mümkün olduqda lazımi dəstəklə təmin olunmalı və təhsilin bütün formalarında təklif etdikləri təcrübədən tam istifadə edilməlidir. Üzv ölkələr eyni zamanda demokratik vətəndaşlıq və insan hüquqları üzrə təhsili digər maraqlı tərəflər, xüsusən KİV və ümumi ictimaiyyətdə onların bu sferaya edə biləcəkləri yardımı artırmaq üçün təşviq etməli və ictimailəşdirməlidir.

**Qiymətləndirmə üçün meyar**
Üzv dövlətlər demokratik vətəndaşlıq və insan hüquqları təhsili proqramlarının effektivliyini qiymətləndirmə meyarını inkişaf etdirməlidir.

**Tədqiqat**
Üzv dövlətlər ölkədəki demokratik vətəndaşlıq və insan hüquqları təhsilinin cari vəziyyətini dəyərləndirməyə təşəbbüs və təşviq etməli, siyasətçilər də daxil olmaqla maraqlı tərəfləri, təhsil institutları, məktəb rəhbərləri, şagirdləri, qeyri-hökumət təşkilatları və gənclər təşkilatlarını onların təcrübələrini qiymətləndirməyə, onların effektivliyini, səmərəliliyini artırmağa kömək edən müqayisəli informasiya ilə təmin etməlidir. Bu tədqiqatda digər məsələlərlə yanaşı, kurikulum üzrə tədqiqat, yenilikçi təcrübələr, tədris metodları, qiymətləndirmə sistemlərinin təkmilləşdirilməsi, habelə qiymətləndirmə meyarı və göstəriciləri ehtiva edilməlidir. Üzv dövlətlər öz tədqiqatlarının nəticələrini üzv dövlətlər və müvafiq maraqlı tərəflərlə paylaşmalıdırlar.

**Sosial birliyin inkişafı üçün bacarıqlar, qiymətləndirmə müxtəlifliyi, yanaşma fərqliliyi və ziddiyyətlər**
Üzv dövlətlər təhsilin bütün sahələrində məqsədi demokratik və çoxmədəniyyətli mühitdə birgə yaşamağı aşılayan, şagirdlərə ictimai birlik, dəyərlər müxtəlifliyi və bərabərliyi, xüsusilə müxtəlif məhzəblər və etnik qruplar arasında mövcud olan fərqliliklərə hörməti, ixtilaf və münaqişələri qeyri-zorakı, hər kəsin haqlarına hörmət etməklə həll etməyi və eyni zamanda bütün növ ayrı-seçkiliyə və zorakılığa, əsasən də sataşma və təcavüzə qarşı mübarizə aparmağı tərənnüm edən bilik və bacarıqları öyrədən təhsil yanaşması və tədris metodlarını təbliğ etməlidir.

**IV Bölmə - QİYMƏTLƏNDİRMƏ VƏ ƏMƏKDAŞLIQ**
**Qiymətləndirmə və baxış**
Üzv dövlətlər müntəzəm olaraq qarşıya məqsəd olaraq qoyulmuş strategiyaları və siyasətləri cari Xartiyaya hörmətlə qiymətləndirməli, bu strategiya və siyasətlər müvafiq olaraq uyğunlaşdırılmalıdır. Onlar bunu misal olaraq regional baza əsasında, digər üzv dövlətlərlə əməkdaşlıq çərçivəsində edə bilərlər. Həmçinin, hər hansı üzv dövlət Avropa Şurasından kömək xahiş edə bilər.

**Növbəti fəaliyyətlərdə əməkdaşlıq**
Avropa Şurası vasitəsilə bir-biri ilə müvafiq məqsədlər və prinsiplər yürüdən üzv dövlətlər cari Xartiyaya əsasən aşağıdakıları etməlidirlər:
a) ümummənafə mövzuları və eyniləşdirilmiş prioritetlər yürüdülməsi;
b) çoxşaxəli və sərhədlərarası fəaliyyətlər demokratik vətəndaşlıq cəmiyyəti və insan hüquqları təhsilinin mövcud olan şəbəkə koordinatorları daxil edilməklə dəstəklənməsi;
c) müsbət təcrübələrin mübadiləsinin, inkişafının, sistemləşdirilməsinin və yayılmasının təmin edilməsi;
d) Xartiyanın məqsədləri və həyata keçirilməsi haqqında ictimaiyyət də daxil olmaqla bütün maraqlı tərəflərin məlumatlandırılması;
e) Avropa qeyri-hökumət təşkilatları şəbəkəsi, gənclər təşkilatları, təhsil mütəxəssisləri və onlar arasındakı əməkdaşlığın dəstəklənməsi.

**Beynəlxalq əməkdaşlıq**
Üzv dövlətlər demokratik vətəndaşlıq cəmiyyəti və insan hüquqları təhsilinə dair tədqiqat işlərinin nəticələrini Avropa Şurasının digər beynəlxalq təşkilatları çərçivəsində paylaşmalıdırlar.

# İzahlı lüğət

Bu izahlı lüğətin təqdim olunmasında məqsəd Kompas istifadəçilərinə təlimat vəsaitində istifadə olunmuş əsas anlayışlar, konvensiyalar və terminlərin qısa tərifini və ya izahını təmin etməkdir. Daha ətraflı məlumat üçün oxucu 5-ci fəsildəki mövzular üzrə ümumi məlumatın bölmələrinə baxmalı və İnternetdən istifadə etməlidir.

**Qoşulma**: Müqavilələrin imzalanması və ratifikasiya olunması üzrə hazırda qüvvədə olan ənənəvi iki mərhələli prosesi əvəzləyir. Dövlət müqaviləyə qoşulmaqla dərhal öhdəliklər götürür. Qoşulmanın müzakirə mövzusu olduğu məsələlərdən biri Avropa İttifaqının ECHR-a qoşulmasıdır.

**Hesabatlılıq**: hökumətin əhali qarşısında öhdəliklərini necə yerinə yetirdiyini göstərməsi, izah etməsi və əsaslandırmasını tələb edən proses.

**Vəkillik**: fikri, inkişafı və ya nəyinsə edilmə tərzini ictimai şəkildə dəstəkləmək və ya irəli sürmək.

**Müsbət fəaliyyət**: hökumət və ya özəl biznes nümayəndələri tərəfindən keçmişdə edilmiş ayrı-seçkiliyin (məsələn, qadınlar, müəyyən irqlər, etnik qruplar, dinlər və əlillik qruplarından olan şəxslərə qarşı təhsil və işlə bağlı) aradan qaldırılması üçün atılan addımlardır. Bu fəaliyyət çətin vəziyyətdə olan qruplara substantiv bərabərliyi təmin etməyin bir yoludur. Müsbət fəaliyyət bərabərliyə nail olunana qədər müvəqqəti addım sayılmalıdır.

**İnsan və Xalqların Hüquqları üzrə Afrika Xartiyası:** (Afrika Xartiyası, bəzən Banjul Xartiyası adlandırılır); 1981-ci ildə Afrika Birliyi Təşkilatı (OAU) tərəfindən qəbul olunmuş Afrika qitəsi üçün regional insan hüquqları müqaviləsi.

**Amerika İnsan Hüquqları Konvensiyası:** (Amerika Konvensiyası); 1969-cu ildə Amerika Dövlətləri Təşkilatı (OAS) tərəfindən qəbul olunmuş insan hüquqları müqaviləsi. Bu müqavilə Şimali, Mərkəzi və Cənubi Amerikanı əhatə edir.

**Antisemitizm**: Yəhudi əsilli və ya İudaizmə sitayiş edən şəxslərə qarşı qorxu, nifrət, kin, şübhə, qərəz, ayrı-seçkilik və ya ədalətsiz rəftar. Antisemitizmin müasir forması Holokostun inkar olunmasıdır.

**Aparteid:** institutlaşmış sistematik istismar rejimi və bir irqi qrupun digər irqi qrup üzərində hökmranlığı şəraitində, rejimi saxlamaq məqsədilə törədilmiş qətl, təcavüz, işgəncə, köləlik və ya digər insanlıq əleyhinə cinayətlər.

**Ərəb İnsan Hüquqları Xartiyası:** 22 may 2004-cü ildə Ərəb Ölkələri Liqasının Şurası tərəfindən qəbul olunmuş bu sənəd ÜİHB, İnsan Hüquqları üzrə Beynəlxalq Paktlar və İslamda İnsan Hüquqları üzrə Qahirə Bəyannaməsində əks olunmuş prinsipləri təsdiqləyir.

**Arbitraj:** mübahisə edən tərəflərin məhkəməyə getmək yerinə, öz arqumentlərini üçüncü şəxsə səsləndirmə və onun qəbul etdiyi qərara əməl etmə prosesi.

**Assosiasiya:** müəyyən olunmuş məqsədə nail olmaq üçün bir qrup şəxs tərəfindən yaradılmış təşkilat. Belə təşkilatlar, həmçinin, könüllü təşkilatlar, könüllü assosiasiyalar və səhmdar cəmiyyəti olmayan assosiasiyalar adlandırıla bilər. Qeyri-hökumət təşkilatları (QHT-lər) də assosiasiyalardır. Assosiasiyalar "vətəndaş cəmiyyəti" üçün əsası formalaşdırır.

Sığınacaq axtaran: beynəlxalq mühafizə axtaran və rəsmi qaçqın statusu üzrə iddiaları təsdiqlənməli olan şəxs.

**Mütləqiyyət**: sərhədsiz güc və ya səlahiyyətə malik olan bir nəfər və ya kiçik qrupun idarəçiliyi yaxud həmin şəxs və ya qrupun gücü və ya səlahiyyəti.

**Hüquqlar billi:** insan və ya mülki hüquqlar konstitusiyasında hökumətin müdaxiləsi əleyhinə qoruyucu vasitələri sadalayan bəyanat. Həmçinin, Beynəlxalq İnsan Hüquqları Billinə baxın.

**Nizamnamə**: hüquq və üstünlüklərin verilməsini nəzərdə tutan sənəd.

**BMT Nizamnaməsi:** BMT-nin əsasını qoyan müqavilə. 25 iyun 1945-ci ildə yekdilliklə qəbul olunmuşdur, üzv dövlətlərin hüquq və öhdəliklərini müəyyən etməklə yanaşı, BMT-nin orqan və prosedurlarını əks etdirir.

**Vətəndaşlıq:** a) şəxs və dövlət arasında qarşılıqlı hüquq və öhdəlikləri yaradan hüquqi əlaqə və ya b) şəxslər və dövlətin "bağlı olduğu" ümumi əlaqəni, o cümlədən onlardan gözlənilən davranış formaları və yanaşmaları təsvir etmək üçün istifadə olunur,

Kodifikasiya, Kodifikasiya etmək: Qanun və ya hüquqları yazılı vasitələrlə rəsmiləşdirmək prosesi.

**Əsas Hüquqlar Xartiyası:** Avropa İttifaqı vətəndaşları üçün siyasi, iqtisadi və sosial hüquqları əhatə edən müqavilə. Aİ üzvü dövlətlər Aİ hüququnu tətbiq edərkən bu müqaviləyə əməl etməlidirlər.

**Mülki hüquqlar:** (bəzən mülki azadlıqlar kimi tanınır); şəxsləri gözlənilməyən hökumət tədbirlərindən qoruyan və onların ayrı-seçkilik və repressiyaya məruz qalmadan dövlətin həyatında iştirakını təmin edən hüquqlar və azadlıqlar kateqoriyası.

**Vətəndaş cəmiyyəti:** fəaliyyətdə olan demokratik cəmiyyətin əsasını təşkil edən, kollektiv şəkildə yaradılmış könüllü mülki və sosial təşkilatlar, assosiasiyalar və institutları, məsələn, qeydə alınmış xeyriyyə cəmiyyətləri, qeyri-hökumət təşkilatları, icma qrupları, qadın təşkilatları, etibara əsaslanan təşkilatlar, peşəkar assosiasiyalar, həmkarlar ittifaqları, özünəyardım qrupları və vəkillik qruplarını əhatə edir. Vətəndaş cəmiyyəti dövlət və bazarın kommersiya institutlarından fərqlənir.

**Kollektiv hüquqlar:** qrupların öz maraqlarını və kimliklərini qorumaq hüquqları; bəzən, 'üçüncü nəsil hüquqlar' adlandırılır. Bu hüquqlar fərdi hüquqlara əlavə olaraq mövcuddur.

**İnsan Hüquqları Komissiyası:** İndi, İnsan Hüquqları Şurası adlandırılan BMT qurumu.

İnsan Hüquqları Komissarı: Avropa Şurası üzvü olan dövlətlərdə insan hüquqları barəsində məlumatlılığı və onlara hörməti təbliğ etmək üçün yaradılmış AŞ daxilində müstəqil qurum. Həmçinin, İnsan Hüquqları üzrə Ali Komissara baxın.

Bacarıq: işi və ya tapşırığı yerinə yetirmək bacarığı. İnsan hüquqlarının müdafiəsi kontekstində, insan hüquqları məsələlərini daha dərindən başa düşməkdən ötrü gənclər üçün vacib olan bilik və anlayış, eləcə də insan hüquqlarının qorunması üçün tələb olunan bacarıq, yanaşma və dəyərlər.

**Münaqişənin transformasiyası:** müharibə, millətlər və dinlər arasında zorakılıqla müşayiət olunan münaqişələrin dinc nəticələrlə yekunlaşması və ya tranformasiya olunması prosesi. Uzun müddət davam edən bu proses münaqişənin əsas səbəblərini, eləcə də münaqişə tərəflərinin davranış və yanaşmalarını əhatə edir.

**Konstitusiya:** ölkə və ya təşkilatın idarə olunduğu qanunlar toplusu. Əksər ölkələrdə konstitusiya yazılı şəkildə hazırlanır və ölkənin ali qanunu sayılır; konstitusiya dövlətin və onun siyasi sisteminin əsasını təşkil edir. Təqribən dörd dövlətin yazılı konstitusiyası yoxdur; həmin ölkələrdə qanun hüquqi hökmlər və presedentlər əsasında formalaşır.

Münaqişənin qarşısının alınması: gərginliyin açıq şəkildə göstərilməsinin və/və ya zorakı münaqişənin baş verməsi yaxud yenidən canlanmasının qarşısını almaq üçün qısa müddətdə atılan addımlar.

**Münaqişələrin idarə olunması:** əsasən mövcud zorakı münaqişələrin şaquli (zorakılığın güclənməsi) və ya üfüqi (daha geniş əraziyə yayılması) eskalasiyasının qarşısını almaq məqsədilə atılan addımlar.

**Münaqişələrin həlli:** zorakı münaqişənin sonlandırılması üçün qısa müddətdə atılan addımlar.

**Pakt:** dövlətlər arasında məcburi razılaşma; müqavilə və konvensiya terminləri ilə sinonim kimi işlədilir. Başlıca insan hüquqları paktları 1966-cı ildə qəbul olunmuşdur, Mülki və siyasi hüquqlar haqqında beynəlxalq pakt (ICCPR) və İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq pakt (ICESCR).

**Konvensiya:** dövlətlər arasında icbari razılaşma; müqavilə və pakt terminləri ilə sinonim kimi işlədilir. Konvensiya bəyannamədən daha güclüdür, çünki onu ratifikasiya edən tərəflər konvensiyanın müddəalarına əməl etmək üzrə hüquqi öhdəlik daşıyırlar.

**Avropa Şurası:** insan hüquqları, demokratiya və qanunun aliliyini qorumaq və təşviq etmək məqsədilə 1949-cu ildə yaradılıb. Hazırda, təşkilatın 47 üzv dövləti faktiki olaraq bütün Avropa qitəsini əhatə edir. Baş qərargahı Strazburqda yerləşir.

**İnsanlığa qarşı cinayətlər**: istənilən mülki əhaliyə qarşı yönəlmiş genişmiqyaslı və ya sistematik zorakılıq aktları. Məsələn, qətl; kütləvi qırğın; kölələlik, işgəncə; təcavüz; cinsi köləlik; zorla hamiləlik; qrupun irqi, etnik, gender və ya digər əsasda təqibi; şəxslərin itkin düşməyə məcbur edilməsi; aparteid cinayəti, bədən, mənəvi və ya fiziki sağlamlığa ciddi zədə və ya böyük əzab doğuran bənzər məqsədli qeyri-insani digər aktlar.

**Sülh əleyhinə cinayətlər:** beynəlxalq hüquqda (i) aqressiv müharibə və ya beynəlxalq müqavilələr, razılaşmalar və zəmanətləri pozan müharibənin planlaşdırılması, hazırlanması, başlanması və ya aparılması; (ii) əvvəlki bənddə qeyd olunmuş istənilən aktla bağlı ümumi plan və ya məxfi tədbirlərdə iştirak nəzərdə tutulur. Nürmberq prinsipləri kimi tanınır.

**Mədəniyyət:** adətən qurum, təşkilat və ya qrupun tarixi ənənələrinə əsaslanan ortaq yanaşma, dəyər, məqsəd və təcrübə toplusu.

Mədəni hüquqlar: şəxsin mədəni kimliyi və inkişafını qoruyub saxlamaq hüququ.

**Beynəlxalq adət hüququ:** hüquqda adət və ənənə kimi qəbul edilən təcrübə. Beynəlxalq adət hüququnun tərkib hissəsinə çevrilmək üçün

təcrübə iki elementi ehtiva etməlidir: zaman ərzində vahid və davamlı dövlət təcrübəsi və bu təcrübənin məcburi xarakter daşıdığına inam (opinio juris). Bu hüquq beynəlxalq hüququn mühüm və faydalı tərkib hissəsidir, çünki müqavilələrə razılıq vermələrindən asılı olmayaraq bütün xalqlar adət hüququna əməl etmək öhdəliyi daşıyırlar.

**Ölüm cəzası:** cinayət törətdiyinə görə dövlət tərəfindən şəxsin həyatına son verilməsi sanksiyası. Əvvəllər, Avropa İnsan Hüquqları Konvensiyası ölüm cəzasına icazə verirdi, indi isə, Konvensiyanın tətbiq olunduğu ərazi daxilində (6-cı protokol), hətta müharibə vaxtı (13-cü protokol), bu cəza qadağan olunub. Dünyadakı bir çox ölkələr ölüm cəzasını ləğv edib.

**Təhlil:** fasilitatorlar və iştirakçılar arasında təcrübə keçirilməsi və iştirakı nəzərdə tutan məşğələni müzakirə etmək məqsədilə aparılan strukturlaşdırılmış söhbət; nə baş verdiyi və insanların özlərini necə hiss etdiyi barəsində danışmaq. Məqsəd iştirakçılara təhlükəsiz mühitdə öz fikir və hislərini aydınlaşdırmağa kömək etməkdir.

**Bəyannamə:** razılaşdırılmış prinsip və standartları göstərən, lakin hüquqi cəhətdən öhdəlik yaratmayan sənəd. BMT konfranslarında, məsələn, Vyanada 1993-cü ildə keçirilmiş İnsan Hüquqları Konfransı və Pekində 1995-ci ildə keçirilmiş Qadınlar üçün Dünya Konfransında olduğu kimi, adətən iki bəyannamə qəbul olunur: hökumət nümayəndələri tərəfindən və qeyri-hökumət təşkilatları (QHT-lər) tərəfindən hazırlanan bəyannamələr. BMT Baş Assambleyası adətən təsirli, lakin hüquqi qüvvəyə malik olmayan bəyannamələr qəbul edir.

**Uşaq Hüquqları Bəyannaməsi:** 1959-cu ildə BMT Baş Assambleyası tərəfindən qəbul olunmuş bu sənəd on ümumi prinsipi irəli sürən, hüquqi qüvvəyə malik olmayan vasitə idi. Onun əsasında 1989-cu ildə Uşaq Hüquqları Konvensiyası qəbul olunub.

**Demokratiya:** idarəçilik səlahiyyətinin insanlardan birbaşa referendum və ya səs vermə hüququ olan insanların seçdiyi nümayəndələr vasitəsilə alındığı idarəçilik forması.

**İstisna**: müqavilə tərəfi olan dövlətin müəyyən hüquqları dayandırmasına və ya məhdudlaşdırmasına imkan verən bəyanat, məsələn, müharibə vaxtı. Bəzi hüquqlar həmişə təmin olunmalıdır, məsələn, işgəncəyə məruz qalmamaq hüququ.

**İnkişaf:** bütün əhalinin və fərdlərin inkişafda və onun yaratdığı faydaların ədalətli bölgüsündə fəal, azad və anlamlı şəkildə iştirakına əsaslanmaqla, onların rifah halının davamlı yaxşılaşdırılması məqsədi daşıyan hərtərəfli iqtisadi, sosial, mədəni və siyasi proses. Həmçinin, inkişaf hüququna baxın.

**Əlillərə qarşı ayrı-seçkilik:** əlilliyi olan insanların digərlərindən daha aşağı olduğu inamına əsaslanan ayrı-seçkilik, istismar və ya alçaldıcı davranış.

İtkin düşmə: şəxslərin hökumət və ya digər təşkilatlar tərəfindən öldürülməsi və ya gizli şəkildə həbs olunması nəticəsində itkin düşməsini təsvir edən ifadə. Onlar ədalətsiz rejimə və ya təşkilatların doktrinalarına qarşı apardıqları fəaliyyətə və ya öz siyasi fikirlərinə görə yoxa çıxırlar.

**Ayrı-seçkilik:** irqi, mədəni, etnik mənsubiyyət, milliyyət, din, fiziki çatışmazlıq və ya sözügedən məsələ ilə bağlı olmayan istənilən digər əsasda törədilən fərqləndirmə, təcrid və ya məhdudlaşdırma.

**İqtisadi:** Maddi sərvətin istehsalı, inkişaf etdirilməsi və ya menecmenti ilə əlaqədar faktorlarla bağlı.

**İqtisadi hüquqlar**: həyati ehtiyaclar üçün materialların istehsalı, inkişaf etdirilməsi və menecmenti ilə bağlı hüquqlar. Bu hüquqlar ÜİHB-də bəyan olunub, ICESCR və Avropa Sosial Xartiyası ilə qorunur.

**Səlahiyyət vermə**: fərdlər və icmaların mənəvi, siyasi, sosial və iqtisadi gücünü artırmaq. Burada təcrid olunmuş fərdlər və qruplara cəmiyyətin həyatında tam şəkildə iştirak etmək hüquqlarını qanunvericilik, müsbət fəaliyyət və təlim vasitəsilə həyata keçirmək bacarığını aşılamaq nəzərdə tutulur.

**Qüvvəyə minmə:** müqavilənin onu ratifikasiya edən dövlətlər üçün tam şəkildə hüquqi qüvvə alması prosesi. Müqavilənin qüvvəyə minməsi üçün minimum sayda ratifikasiya əldə olunduqda baş verir.

**Ətraf mühit hüquqları:** adətən fərdlərin təhlükəsiz, sağlam və ekoloji cəhətdən təmiz ətraf mühitdə yaşamaq hüququnu təsvir etmək üçün istifadə olunur. Bəzən, ətraf mühitin özünün malik olduğu "hüquqlara", o cümlədən heyvanlar, bitkilər və ekosistemlərin insan fəaliyyətinin təsirindən xilas olmaq hüquqlarına şamil oluna bilər.

**Avropa Sosial Hüquqlar Komitəsi:** Dövlətlərin Avropa Sosial Xartiyası-na riayət etməsinə nəzarət edən məsul qurum. 15 müstəqil və qərəzsiz mütəxəssisdən ibarət olan bu komitə Sosial Xartiyaya tərəf olan dövlətlərin təqdim etdiyi hesabatları nəzərdən keçirmək üçün müntəzəm olaraq görüşür.

**İşgəncə, Alçaldıcı Rəftar və Cəzaların Qarşısının alınması üzrə Avropa Konvensiyası**: dövlət orqanı tərəfindən həbs, azyaşlıların islah mərkəzləri, polis məntəqələri, qaçqın düşərgələri və ya psixi xəstəxanalarda saxlanılan şəxslərə qarşı müxtəlif hüquq pozuntularının qarşısını almaq məqsədilə 1987-ci ildə Avropa Şurası tərəfindən qəbul olunmuş regional insan hüquqları müqaviləsi.

**İnsan Hüquqları və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyası (ECHR):** (Avropa Konvensiyası, Avropa İnsan Hüquqları Konvensiyası), Avropa Şurası tərəfindən 1950-ci ildə qəbul olunmuş regional insan hüquqları müqaviləsi. Bütün Avropa Şurası üzvləri Konvensiyaya tərəfdir, yeni üzvlərin də ən tez vatxda konvensiyanı ratifikasiya etməsi gözlənilir.

Avropa İnsan Hüquqları Məhkəməsi: Strazburqda yerləşən bu fövqəlmilli məhkəmə Avropa İnsan Hüquqları Konvensiyası ilə yaradılmışdır. Fərdlər Konvensiyaya qoşulmuş tərəfin onların insan hüquqlarını pozduğunu hiss edərlərsə, hüquqi prosesdə son çarə kimi bu məhkəməyə müraciət edə bilərlər.

Avropa İcmalarının Ədalət Məhkəməsi: (adətən sadəcə "Məhkəmə" adlandırılır); 1952-ci ildə yaradılıb. Lüksemburqda yerləşən bu məhkəmə hüququn hamı üçün bərabərliyini təmin etmək məqsədilə bütün Aİ ölkələrində Aİ qanunvericiliyinin eyni şəkildə şərhini və tətbiqini təmin edir. Məsələn, Məhkəmə milli məhkəmələrin eyni məsələ ilə bağlı fərqli hökmlər verməsinin qarşısını alır.

**Avropa Mədəni Konvensiyası:** (Avropa Şurası tərəfindən 1954-cü ildə qəbul olunub; 1955-ci ildə qüvvəyə minib); Avropa Şurasının təhsil, mədəniyyət, mədəni irs, gənclər və idman sahələrindəki fəaliyyəti üçün rəsmi çərçivəni təmin edən regional müqavilə. Avropa Konvensiyasına əlavə olaraq, Konvensiya Avropa mədəniyyətini qorumaq, müxtəlif xalqlar arasında mədəni fərqlərin qarşılıqlı şəkildə başa düşülməsi və dəyərləndirilməsini inkişaf etdirməyə çalışır.

**Avropa Parlamenti:** Avropa İttifaqının birbaşa seçkilərlə seçilən parlament qurumudur. Parlamentin Strazburq və Brüsseldə olmaqla iki görüş yeri var. AP-nin 736 parlament üzvü (MEP-lər) var.

**Avropa Sosial Xartiyası:** (Avropa Şurası tərəfindən 1962-ci ildə qəbul olunub; 1996-cı ildə yenidən baxılıb); sosial və iqtisadi hüquqlara zəmanət verən regional müqavilə; mülki və siyasi hüquqları əhatə edən Avropa Konvensiyasını tamamlayır.

**Avropa İttifaqı (Aİ):** Avropada yerləşən dövlətlərin iqtisadi və siyasi birliyi olmaqla regional inteqrasiya və sosial əməkdaşlığa töhfə verir. Aİ 1993-cü ildə Maastrixt Müqaviləsi ilə yaradılıb.

**Qiymətləndirmə:** fasilitatorlar və iştirakçılar arasında iştirakçıların təcrübə və iştiraka əsaslanan məşğələdən öyrəndiklərini təhlil etməsi və dəyərləndirməsinə imkan vermək məqsədilə aparılan strukturlaşdırılmış söhbət. Proses gedişində, iştirakçılar öyrəndiklərinin onların öncədən bildikləri ilə əlaqəsini və gələcəkdə onlardan necə istifadə edə biləcəklərini müəyyən edirlər.

**İnkişaf edən bacarıq:** Uşaq Hüquqları Konvensiyasında (ÜHK) uşağın artan əqli və emosional yetkinliyi ilə bağlı onun hüquqlarının daha geniş şəkildə təmin olunmasını nəzərdə tutuan prinsip.

**Fasilitator:** Kompas məşğələlərini təqdim edən və koordinasiya edən şəxs. Fasilitator "nəyinsə baş verməsini təmin edir", "kömək edir", digərlərini öyrənməyə və öz potensiallarını inkişaf etdirməyə həvəsləndirir. Fasilitatorun rolu iştirakçıların təcrübə, araşdırma, vermə və alma ilə öyrəndiyi təhlükəsiz mühit yaratmaqdır. Fasilitator lider, "mütəxəssis", kimi digərlərinə bilik ötürməli və monoloq aparmalı deyil. Həm fasilitator, həm də iştirakçılar öz təcrübələrini bölüşməklə inkişaf etməlidirlər.

**Faşizm:** Milli və ya iqri üstünlük, eləcə də siyasi, iqtisadi və mədəni həyatın bütün aspektlərinə nəzarətin vacibliyi ideologiyasına əsaslanan idarəçilik sistemi. Buraya müxalifət və tənqidçilərə güc yolu ilə təzyiq göstərilməsi, kütləvi informasiya vasitələrinə nəzarət, sənaye, kommersiyaya dövlət nəzarəti və s., eləcə də aqressiv milliyyətçilik və əksər hallarda, irqçilik aid edilə bilər.

**Birinci nəsil hüquqlar:** 17-18-ci əsrdən insan hüququ kimi qəbul olunan hüquqlar. Buraya bütün mülki və siyasi hüquqlar daxildir, məsələn, səs vermək hüququ, yaşamaq və azadlıq hüququ, ifadə, vicdan və toplaşmaq azadlığı. Mülki və siyasi hüquqlar üzrə beynəlxalq pakt (ICCPR) məhz bu hüquqları kodifikasiya edir. Bu termin mülki və siyasi hüquqların ikinci nəsil hüquqlar, iqtisadi və sosial hüquqlara münasibətdə iyerarxiyasını göstərdiyindən artıq sürətlə istifadədən çıxır.

**Formal təhsil:** məktəbəqədər və ibtidai məktəbdən orta məktəb və universitetə qədər davam edən strukturlaşdırılmış təhsil və təlim sistemi. Bir qayda olaraq, ümumi və ya peşə təhsili müəssisələrində həyata keçirilir və sonda, diplomla təltiflə bitir.

**Çərçivə konvensiya:** Beynəlxalq fəaliyyəti tənzimləyəcək prinsip və normaları göstərən və məsələnin həlli üçün daha ətraflı danışıqlar prosedurasını müəyyən edən konvensiya.

İfadə azadlığı: görüşlərini çap və digər mətbuatda ifadə etmək, fikirlərini irəli sürmək və başqalarının fikirlərini almaq azadlığı. “İfadə azadlığı” dedikdə, adətən, ÜİHB-in 18 və 19-cu maddələri və ya onların hər ikisi nəzərdə tutulur.

**Gender:** qadınlar və kişilər arasında rolları, yanaşmaları, dəyərləri və əlaqələri müəyyən edən sosial anlayış. Əgər cins bioloji xarakteristikadırsa – kişi və qadınlar arasında bioloji fərqlər – gender cəmiyyət tərəfindən müəyyən olunur; demək olar ki, həmişə qadınların kişilərə itaət etməsini təmin edir.

**Gender yanaşması:** gender bərabərliyini təbliğ etmək üçün qəbul olunmuş qlobal strategiya. Bu, özlüyündə nəticə deyil, gender perspektivləri və gender bərabərliyi məqsədinə ayrılan diqqətin, siyasi inkişaf, resursların bölgüsü və planlaşdırılması, proqram və layihələrin həyata keçirilməsi daxil olmaqla, bütün növ fəaliyyətlərdə mərkəzi rol oynamasını təmin edərək gender bərabərliyi məqsədinə nail olmaq üçün vasitədir.

**Cenevrə Konvensiyaları:** 1949-cu ildə İsveçrənin Cenevrə şəhərində Beynəlxalq Qırmızı Xaç Komitəsi (ICRC) tərəfindən qəbul olunmuş dörd müqavilə. Konvensiyalarda silahlı münaqişə zamanı tətbiq olunan qaydalar, xüsusilə xəstə və yaralı əsgərlər, dənizçi və təyyarəçilər, müharibə məhkumları və düşmən nəzarətində olan mülki əhaliylə rəftarla bağlı məsələlər əks olunub.

**Soyqırım:** insanlar qrupunu onların milli, irqi, etnik və ya dini mənsubiyyətinə görə tam və ya qismən məhv etmək niyyəti ilə törədilən sistematik qətl. Həmçinin, bədən və ya əqlə ciddi zərər vurmaq, qrupun uşaqlarını zorla başqa qrupa verməyi əhatə edir.

**Qloballaşma**: ümumilikdə, xalqlar arasında artan qarşılıqlı asılılıq və mübadilə prosesini təsvir edir – xüsusilə, iqtisadi, sosial və mədəni sahələrdə. Termin, həmçinin, güclü dövlətlərlə bağlı olan özəl güc, istehsal korporasiyaları və maliyyə institutlarının maraqlarına cavab verən xüsusi beynəlxalq inteqrasiya formasını təsvir etmək üçün istifadə olunur.

**İşə baxılma:** maraqlı tərəflərin, eləcə də nəticələrin təsir göstərəcəyi istənilən digər şəxslərin fikirlərini irəli sürmək, suallar vermək və ya məsələ ilə bağlı etirazlarını qeydə almaq imkanının olduğu proses. Məsələn, işə baxılma yerli və ya milli hökumət departamenti, beynəlxalq qurum yaxud xüsusi yaradılmış kommissiya tərəfindən aparıla bilər.

**İnsan Hüquqları üzrə Ali Komissar:** BMT-nin insan hüquqları üzrə əsas rəsmisi. Ali Komissar BMT-nin insan hüquqları mexanizmlərinə dəstək məqsədilə yaradılmış İnsan Hüquqları üzrə Ali Komissarın ofisinə rəhbərlik edir. (Avropa Şurasının qurumu olan İnsan Hüquqları Komissarı ilə qarışdırılmamalıdır).

**İnsan hüquqları:** bütün insanlara aid olan universal hüquqlar. İnsan hüquqları ayrılmaz, bölünməz və universaldır, hər bir fərdin bərabərliyi və ləyaqətinə hörmətə əsaslanır.

**İnsan Hüquqları Komitəsi:** 18 mütəxəssisdən ibarət BMT orqanıdır, ildə üç dəfə toplanır, Mülki və siyasi hüquqlar üzrə beynəlxalq pakta (ICCPR) tərəf olan 162 BMT üzvü dövlətin təqdim etdiyi beş illik hesabatları nəzərdən keçirir.

**İnsan Hüquqları Şurası:** Dünya üzrə insan hüquqlarının təbliği və qorunmasının gücləndirilməsinə görə məsuliyyət daşıyan, 47 dövlətdən ibarət, BMT sistemi daxilində hökumətlərarası qurum. Şura BMT Baş Assambleyası tərəfindən 2006-cı ilin martında İnsan Hüquqları Kommissiyasını əvəzləmək üçün yaradılıb, onun əsas məqsədi insan hüquqları pozuntularını müəyyən etmək və müvafiq tövsiyyələri irəli sürməkdir.

**İnsan hüquqları çərçivəsi:** insan hüquqlarını müəyyən edən, onların təbliği və qorunması üçün mexanizmlər yaradan milli və regional vasitələrin inkişaf edən və qarşılıqlı əlaqəli sistemi.

**Humanitar hüquq:** əsasən, Cenevrə Konvensiyalarına əsaslanan, silahlı münaqişə zamanı müəyyən şəxsləri qoruyan, qurbanlara kömək edən, dağıntını, həyat itkisini və gərəksiz insan əzabını minimuma endirmək üçün hücum metodlarını və üsullarını məhdudlaşdıran hüquq sahəsidir.

**Yerli xalqlar:** ərazi ilə əlaqələri, eləcə də malik olduqları daxili xüsusiyyətlərə görə müəyyən olunurlar. Onlar müstəmləkəçilikdən əziyyət çəkiblər, dövlətlərinə qarşı müxalifdirlər, əsasən, qəbilə şəklində yaşayırlar. Əksər yerli xalqlar azlıq kimi öz hüquqlarının, o cümlədən öz müqəddəratını təyin etmə və cəmiyyətlərinin inkişafına nəzarət etmə hüquqlarının tanınmasına çalışırlar. BMT-nin Yerli Xalqların Hüquqları üzrə Bəyannaməsi, 2007.

**Ayrılmaz:** hüquqların hər kəsə aid olduğunu və heç bir halda onlardan alına bilməyəcəyini ifadə edir.

**Bölünməz:** bütün insan hüquqlarını bölünməz vahidin hissəsi kimi görməyin əhəmiyyətini əks etdirir. Şəxsin müəyyən insan hüququ digərindən “daha az əhəmiyyətli” olduğuna görə və ya “önəmli olmadığına” görə pozula bilməz.

**Qeyri-formal təhsil:** hər bir şəxsin gündəlik təcrübəsi və öz mühitindəki (ailə, yaşıdları, qonşular, bazar yeri, kitabxana, kütləvi mətbuat, iş, oyun və s.) öyrədici təsirlərdən və resurslardan yanaşmalar, dəyərlər, bacarıq və biliklər əldə etməsini əhatə edən ömürboyu gedən proses.

**Vasitələr:** dövlət və ya dövlətlərin hüquqları qeyri-məcburi prinsiplər kimi irəli sürdüyü (bəyannamə) və ya ratifikasiya edən dövlətlər üçün hüquqi qüvvəyə malik öhdəliklər kimi kodifikasiya etdiyi (pakt, müqavilə, konvensiya) istənilən rəsmi, yazılı sənəddir. Bunlar, milli və ya beynəlxalq ola bilər.

**Mədəniyyətlərarası:** müxtəlif linqvistik və etnik icmalar arasında qarşılıqlı asılılıq və əlaqəni əks etdirir. Mədəniyyətlərarası yanaşma reallığın plüralistliyini, mürəkkəbliyini və dinamikliyini, eləcə də digər mədəniyyətlərin təmsilçiləri ilə ünsiyyətin bütün həyatımızın və mədəniyyətimizin ayrılmaz hissəsi olduğunu anlamağımızı tələb edir. Qarşılıqlı asılı: müəyyən insan hüququnun təmin olunmasının digər hüquqların təmin olunmasından asılılığı fikrini əks etdirir. Məsələn, idarəçilikdə iştirak etmək hüququnuz birbaşa sizin ifadə azadlığınız, sağlamlıq, hərəkət azadlığı və ayrıseçkiliyə məruz qalmamaq hüququnuzdan asılıdır.

**Hökumətlərarası təşkilatlar (HT-lər):** səylərini koordinasiya etməyə çalışan bir neçə hökumətin sponsorluq etdiyi təşkilatlar. BMT beynəlxalq hökumətlərarası təşkilatdır. Bəzi HT-lər regionaldır, məsələn, Avropa Şurası, Afrika Birliyi Təşkilatı; bəziləri alyansdır, məsələn, Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO), digərləri isə müəyyən məqsəd üçün çalışır, məsələn, Beynəlxalq Miqrasiya Təşkilatı (IOM).

**Məcburi köçkünlər (IDP-lər):** xüsusilə, silahlı münaqişənin, ümumi zorakılıq hallarının, insan hüquqları pozuntularının, təbii və ya insan tərəfindən törədilən fəlakətlərin təsirləri nəticəsində və ya onların nəticələrini aradan qaldırmaq məqsədilə evlərini yaxud daimi yaşayış yerlərini tərk etmək məcburiyyətində qalmış, lakin dövlət sərhədini keçməmiş insanlar və ya fərdlər qrupları.

**Beynəlxalq İnsan Hüquqları Billi:** Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (UDHR), Mülki və siyasi hüquqlar haqqında beynəlxalq pakt (ICCPR) və İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq pakt (ICESCR) və onların Fakultativ Protokollarına birlikdə verilən qeyri-rəsmi ad.

**Beynəlxalq Cinayət Məhkəməsi (ICC):** 2002-ci ildə yaradılmış, Niderlandın Haaqa şəhərində yerləşən daimi tribunal. İCC fərdləri soyqırım, insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və aqressiya cinayətinə görə mühakimə edir. (ICC Beynəlxalq Ədalət Məhkəməsi ilə qarışdırılmamalıdır)

**Beynəlxalq Ədalət Məhkəməsi (IJC):** (Dünya Məhkəməsi); BMT-nin əsas məhkəmə orqanıdır. Niderlandın Haaqa şəhərində yerləşən məhkəmənin əsas funksiyaları dövlətlər tərəfindən qaldırılan hüquqi mübahisələri həll etmək, səlahiyyətli beynəlxalq orqanlar, agentliklər və BMT Baş Assambleyası tərəfindən təqdim olunan hüquqi məsələlərlə bağlı məşvərətçi rəy verməkdir. (ICJ Beynəlxalq Cinayət Məhkəməsi ilə qarışdırılmamalıdır)

**Mülki və siyasi hüquqlar haqqında beynəlxalq pakt (ICCPR):** (1966-cı ildə qəbul olunmuş, 1976-cı ildə qüvvəyə minmişdir); əsas insan hüquqları müqavilələrindən biri olan ICCPR bütün insanların çoxsaylı mülki və siyasi hüquqlara malik olduğunu bəyan edir və dövlət tərəfindən bu hüquqlara hörmətlə yanaşılmasına nəzarət etmək yollarını müəyyən edir.

**İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq pakt (ICESCR):** (1966-cı ildə qəbul olunmuş, 1976-cı ildə qüvvəyə minmişdir); əsas insan hüquqları müqavilələrindən biri olan ICESCR bütün insanların iqtisadi, sosial və mədəni hüquqlara malik olduğunu bəyan edir. Beynəlxalq Əmək Təşkilatı (ILO): 1919-cu ildə yaradılmışdır, üçtərəfli BMT agentliyidir, dünya üzrə insan ləyaqətinə hörmətə əsaslanan layiqli iş şəraitini

təmin etmək məqsədilə üzv dövlətlərdən olan hökumətlər, işə götürənlər və işçiləri bir yerə toplayır.

Qeyri-müntəzəm miqrasiya: miqrasiya tədqiqatçıları tərəfindən heç bir şəxsin qeyri-qanuni olmadığını göstərmək üçün “qeyri-qanuni”, “sənədsiz” və ya “icazəsiz” miqrasiya yerinə istifadə olunan ifadə.

Qanunşünaslıq: müəyyən məhkəmədə baxılmış məhkəmə işləri toplusu və onlardan ortaya çıxan prinsipləri əhatə edən hüquqi termin, məsələn, Avropa İnsan Hüquqları Məhkəməsinin qanunşünaslığı.

**Qanuni hüquqlar:** (həmçinin, qanunla müəyyən edilmiş hüquqlar adlandırılır); qanunla müəyyən edilmiş, müdafiə oluna və məhkəmə qarşısında qaldırıla bilən hüquqlar. Eyni zamanda, hüquqi prosesə bağlı hüquqları təsvir etmək üçün istifadə olunur, məsələn, ədalətli mühakimə olunmaq hüququ.

**Həyat mövqeyi:** dünyanı anlamağımıza, həyatın mənasını və dəyərini tapmağımıza kömək edən fikirlər çərçivəsi; həm dinləri, həm də dinə alternativləri (heç birinin lehinə ayrı-seçkilik etmədən) əhatə edən ortaq etiket.

**Vasitəçilik:** üçüncü tərəfin mübahisə edən tərəflərə hər ikisinin razılaşacağı ümumi həll yolu tapmağa və aralarındakı narazılığı müzakirələr vasitəsilə sonlandırmağa kömək etməsi prosesi.

**Üzv dövlətlər:** hökumətlərarası təşkilatın üzvü olan dövlətlər (məs., BMT-nin, Avropa Şurasının).

**Miqrant**: Avropa Miqrasiya Komitəsinin işində geniş şəkildə istifadə olunan termin. Kontekstdən asılı olaraq, emiqrantlara, qayıdan miqrantlara, immiqrantlara, qaçqınlara, məcburi köçkünlərə, immiqrant keçmişi olan şəxslərə və/və ya immiqrasiya nəticəsində yaradılmış etnik azlıq təşkil edən əhalinin nümayəndələrinə şamil olunur.

**Azlıq**: dövlət daxilində dominant mövqedə olmayan, müvafiq qrupa mənsubluq hislərinə malik və öz kimliklərini qoruyub saxlamağa qətiyyətli fərdlərdən ibarət istənilən etnik, linqvistik və ya dini qrup.

Mənəvi hüquqlar: ümumi etik prinsiplərdən ortaya çıxan hüquqlar, məsələn, ədalət və düzgünlük.

**Çoxmədəniyyətli**: eyni cəmiyyətdə yan-yana yaşayan, müxtəlif səviyyələrdə ünsiyyətdə olan, lakin öz fərqli xüsusiyyətlərini qoruyub saxlayan fərqli mədəniyyətlərdən olan insanlar.

**Təbii hüquqlar:** yalnız insan olduqlarına görə şəxslərin malik olduğu hüquqlar. Həmçinin, ayrılmaz hüquqlar adlandırılır, onlar mübahisəsiz və ümumbəşəri sayılır, qanunlar, adətlər və ya hər hansı mədəniyyət yaxud hökumətin inamları ilə şərtlənmir.

**Danışıq**: mübahisə edən insanların problemin həllinə nail olmaq üçün bir-biri ilə danışmaq prosesi.

**Neo-Nazilik:** II Dünya Müharibəsindən sonra Naziliyi və ya irqi və etnik milliyyətçiliyin digər formasını bərpa etməyə çalışan kəskin sağçı siyasi və ya sosial hərəkatlar və ideologiyalar.

**Formal olmayan təhsil:** müxtəlif bilik və bacarıqları, məsələn, gənclərin işini, inkişaf etdirmək üçün hazırlanmış, formal təhsildən kənar istənilən tədris proqramı. Ona, həmçinin, formal olmayan öyrənmə deyilir.

**Qeyri hökumət təşkilatları (QHT-lər):** Lobbiçilik, xeyriyyə yaxud fəallıq məqsədi ilə hökumətdən asılı olmadan yaradılmış təşkilatlar. Onlardan bəziləri böyük və beynəlxalqdır, məs., Qırmızı Xaç, Beynəlxalq Amnistiya, Skaut hərəkatı, Human Rights Watch, Avropa Gənclər Forumu. Digərləri isə kiçik və yerlidir, məs., müəyyən şəhərdə əlil insanların hüquqlarını müdafiə edən təşkilat; qaçqın düşərgələrindən birində qadınların hüquqlarını təşviq edən koalisiya. Avropa Şurasının məlumat bazasından öz ölkənizdəki QHT-lər haqqında məlumat tapa bilərsiniz, http://ngo-coe.org

**Oliqarxiya:** güclü şəxslərin kiçik qrupu tərəfindən idarəçilik.

Ombudsman: adətən, hökumət və ya parlament tərəfindən təyin olunan, ayrı-ayrı vətəndaşların şikayətlərini araşdıran müstəqil məmur. Sözün kökü “nümayəndə” mənası daşıyan qədim Norse sözüdür.

**Fakultativ Protokol**: əvvəlki müqaviləni dəyişən müqavilə, məs., əlavə prosedurlar və ya müddəalar əlavə etməklə. “Fakultativ” adlandırılmasının səbəbi ilkin müqaviləni ratifikasiya etmiş hökumətlərin fakultativ protokoldakı dəyişiklikləri ratifikasiya edib-etməmək üzrə seçimə malik olmasıdır.

**Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT):** faktiki olaraq bütün Avropa və Mərkəzi Asiya dövlətlərini, ABŞ və Kanadanı bir araya gətirən, təhlükəsizlik istiqamətində çalışan hökumətlərarası təşkilat. Onun mandatında olan məsələlərə silahlara nəzarət, insan hüquqları, mətbuat azadlığı və ədalətli seçkilər daxildir.

**Avropa Şurası Parlament Assambleyası (AŞPA):** Strazburqda yerləşən AŞPA ildə dörd dəfə toplanaraq aktual məsələləri müzakirə edir və Avropa hökumətlərini təşəbbüslər göstərməyə və hesabat verməyə səsləyir. Avropa Şurasının 47 üzv dövlətinin milli parlamentlərindən AŞPA-ya 318 nümayəndə təyin olunur.

**İştirak**: icma və ya cəmiyyətin ictimai həyatında iştirak etmək. Yenilənmiş Gənclərin Yerli və Regional Həyatda İştirakı üzrə Avropa Xartiyası yerli səviyyədə gənclərin iştirakını təşviq etmək üzrə beynəlxalq siyasət sənədidir; 2003-cü ildə Avropa Şurası Konqresi tərəfindən qəbul olunub.

**Sülh quruculuğu:** (münaqişə sonrası sülh quruculuğu daxil olmaqla); zorakı münaqişələrin kökündə dayanan səbəblərlə bağlı orta və uzun müddətdə atılan addımlar.

**Siyasi hüquqlar:** insanların icma və cəmiyyətin siyasi həyatında iştirak etmək hüququ, məsələn, hökumətləri üçün səs vermək hüququ.

**Müsbət ayrı-seçkilik:** müsbət fəaliyyətlə eyni mənanı daşıyır.

Plütokratiya: ən zəngin insanların ölkəni idarə etdiyi və ya gücə sahib olduğu idarəçilik sistemi.

**İrqçilik**: insanların şəxsi keyfiyyətlərinin onların mənsub olduğu etnik qrupdan və ya qəbilədən asılılığına, digər qruplar və qəbilələrin (“irqlər”) üzvlərinin öz qrupunun üzvləri qədər yaxşı olmadığına inam və ya bu inam nəticəsində, digər “irqlər”in üzvlərinə qarşı ədalətsiz rəftar.

Ratifikasiya, ratifikasiya etmək: dövlətin qanunverici orqanının hökumətin müqaviləni imzalamasını təsdiqləməsi; dövlət müqaviləni qəbul etdikdən sonra, həmin müqavilə üzrə hüquqi öhdəlik daşımasını təmin edən rəsmi prosedur. Ratifikasiyadan sonra dövlət müqavilənin tərəfinə çevrilir.

**Qaçqın**: irqi, dini, milli, müəyyən sosial qrupa mənsubluğuna və ya siyasi görüşünə görə təqibə məruz qalması ilə əlaqədar əsaslandırılmış qorxu səbəbindən milliyyətini daşıdığı ölkədən uzaqda olan, müvafiq qorxuya görə həmin ölkənin qorumasını əldə edə bilməyən və ya əldə etmək istəməyən şəxs. Bu termin, həmçinin, ümumi mənada, qaçqına bənzər vəziyyətdə olan, məsələn, sığınacaq axtaran şəxslərin təsviri üçün istifadə olunur.

**Qeyd-şərt:** dövlətlərin müqaviləyə etdiyi istisnalar, məs., onların riayət etməyə razılaşmadığı müddəalar. Buna baxmayaraq, qeyd-şərtlər müqavilənin əsas mənasına xələl gətirə bilməz.

**İnkişaf hüququ:** qrupların insan hüquqları və fundamental azadlıqlarının tam və proqressiv şəkildə həyata keçirilməsi üçün onların mədəni, siyasi və iqtisadi cəhətdən inkişaf hüququ. İnkişaf Hüququ üzrə BMT Bəyannaməsi, 1986.

**Rol oyunu:** iştirakçılar tərəfindən oynanılan qısa səhnəcik. İştirakçılar vəziyyətlə bağlı rol oynamaq üçün öz şəxsi həyatlarındakı təcrübələrinə əsaslanırlar; rol oyunları, əksər hallarda, improvizasiyadır. Rol oyununun məqsədi iştirakçıların vəziyyətləri təcrübədən keçirməsini və onların təhlükəsiz mühitdə problemlərə həll tapmasını təmin etməkdir.

**Hüququn aliliyi:** heç bir şəxs, hökumət rəsmisi, kral və ya prezident olsa belə, qanundan yuxarı deyil. Həm idarə edən, həm də idarə olunan eyni qanuna tabedir.

**İkinci nəsil hüquqlar:** 20-ci əsrin əvvəlində populyar nitqə daxil olmuş, iqtisadi, sosial və mədəni hüquqları əhatə edən hüquqlar, məsələn, layiqli həyat şəraiti hüququ, sağlamlıq, mənzil və təhsil hüquqları. İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq pakt məhz bu hüquqları kodifikasiya edir. Bu termin mülki və siyasi hüquqların ikinci nəsil hüquqlar, iqtisadi və sosial hüquqlara münasibətdə iyerarxiyasını göstərdiyindən artıq sürətlə istifadədən çıxır.

**Səlahiyyətlərin ayrılması:** İdarəçilik səlahiyyətlərinin müxtəlif qurumlar arasında bölünməsi yolu ilə heç kimin mütləq gücə malik olmadığını təmin etmək. Normal bölgü qanunvericilik (qanunları hazırlayır), icra (qanunları həyata keçirir) və müstəqil məhkəmə (qanunlara riayət olunmasına nəzarət edir) hakimiyyətləri arasında aparılır.

**Cins:** kişi və qadınlar arasında universal və dəyişməz bioloji fərqlər. Bu anlayış gender anlayışına əksdir, belə ki, gender müəyyən cəmiyyətin üzvü kimi sosiallaşma zamanı öyrənilən və ya əldə olunan sosial xüsusiyyətləri əhatə edir.

**Kölgə hesabatı:** vətəndaş cəmiyyəti institutları və ya fərdləri tərəfindən hazırlanmış, insan hüquqları müqavilələrinə nəzarət edən komitəyə təqdim olunmuş qeyri-rəsmi hesabat. Belə hesabatlar, adətən, hökumətin müqavilə üzrə öhdəliklərinin bir hissəsi kimi təqdim etdiyi yerinə yetirmə

və müqaviləyə əməl etmə üzrə rəsmi hesabatlara zidd olur və ya onlarda qeyd edilməyən məlumatları əlavə edir.

**İmza**: müqavilədə imza müqaviləyə tərəf olmaq üçün ilkin addım, eyni zamanda, ratifikasiya üçün mütləq mərhələdir. Müqaviləni imzalamaqla, dövlət gələcəkdə həmin müqavilədən irəli gələn öhdəlikləri daşımaq, həmçinin, bu öhdəliklərə zidd olan istənilən addımdan çəkinmək niyyətini ifadə edir.

**Simulyasiya**: iştirakçıları tanış olmayan vəziyyətlərə və rollara salan genişləndirilmiş, strukturlaşdırılmış rol oyunu.

**Qabiliyyət**: məşğələni və işi yaxşı görmək bacarığı, xüsusilə əvvəldə təcrübəyə malik olduğunuza görə. İnsan hüquqlarını müdafiə etmək qabiliyyətinə aiddir - ünsiyyət, problemləri həll etmək, kreativ düşünmək, danışıq aparmaq və komanda işi bacarıqları.

**Köləlik**: bir şəxsin digərinə sahib olduğu və onun əməyini, eləcə də digər xidmətlərini istismar etdiyi güc və tabeçilik əlaqəsinə əsaslanan təcrübə. Köləliyin müasir formalarına aiddir: uşaq alveri, uşaq fahişəliyi, uşaq əməyinin istismarı, uşaqların silahlı münaqişələrdə istifadə olunması, borca görə asılılıq, insan ticarəti, fahişələrin istismarı və məcburi əmək.

**Sosial hüquqlar:** cəmiyyətin həyatında tam iştirak üçün lazımi hüquqlar,

ÜİHB, İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq pakt (ICESCR) və Avropa Sosial Xartiyası sosial hüquqlara zəmanət verir.

**Həmrəylik hüquqları**: kollektiv hüquqlara baxın.

**Xüsusi Məruzəçi:** insan hüquqları orqanı tərəfindən müəyyən məsələ üzrə hesabat hazırlamaq üçün seçilmiş şəxs, məsələn, BMT-nin İnsan Hüquqları Şurası tərəfindən layiqli yaşayış şəraiti, uşaq fahişəliyi və uşaq pornoqrafiyası, qadınlar əleyhinə zorakılıq və ya müəyyən ölkədə insan hüquqlarının vəziyyəti mövzuları üzrə.

**Dövlətin suverenliyi:** dövlətin öz yurisdiksiyası daxilində nə baş verdiyini müəyyən etmək üzrə əsas hüquqa malik olduğu fikri. Buna baxmayaraq, beynəlxalq insan hüquqları sənədləri, eləcə də Aİ kimi beynəlxalq qurumlara üzvlük suverenliyə müəyyən məhdudiyyətlər gətirir.

**Stereotip:** insanlar və ya fikirlər barəsində qərəz və ayrı-seçkiliyə aparıb çıxaran, həddən artıq sadələşdirilmiş, ümumiləşdirilmiş və əksər hallarda, qeyri-şüuri ilkin yanaşma. Ümumiləşdirmədə qrupun müəyyən hissəsinin malik olduğu xüsusiyyətlər hamıya aid edilir.

**Dayanıqlı inkişaf:** gələcək nəsillərin öz ehtiyaclarını ödəmək şəraitinə xələl gətirmədən, indiki insanların ehtiyaclarını qarşılayan inkişaf. Bu termin ilk dəfə 1983-cü ildə BMT tərəfindən çağrılmış Ətraf mühit və İnkişaf üzrə Dünya Komissiyası tərəfindən istifadə olunmuşdur.

**Üçüncü nəsil hüquqlar:** asanlıqla mülki-siyasi və ya sosial-iqtisadi kimi klassifikasiya oluna bilməyən, iyirminci əsrin ikinci yarısında ortaya çıxmış hüquqlar. Buraya sağlam ətraf mühit, sülh, inkişaf, təbii resurslara olan hüquqlar daxildir. Həmçinin, kollektiv hüquqlara baxın.

**Dözümlülük:** razılaşmadığınız və ya bəyənmədiyiniz halda belə, sizin davranış və inamlarınızdan fərqli olanları qəbul etmək istəyi. Dözümlülük Prinsipləri üzrə Bəyannamə (YUNESKO 1995).

**Həmkarlar İttifaqı**: işçilərin ümumi maraqlarını, məsələn, daha yaxşı iş şəraiti, müdafiə edən, müəyyən peşə və ya ixtisasda olan işçilərin assosiasiyası. Həmkarları ittifaqı yaratmaq və ona qoşulmaq, eləcə də əmək haqqı ilə bağlı kollektiv sövdələşmə hüquqları geniş şəkildə insan hüquqları kimi tanınır.

**Təlimçi**: öyrədici məşğələlərin proqramlarını hazırlayan şəxs, məsələn, debatlar, təhsil səyahətləri, kinolara baxmaq və iştirakçılar qrupu üçün Kompas məşğələləri aparmaq. Kompas məşğələlərini edərkən, təlimçi və ya müəllim gənclər qrupu ilə demokratik qaydada işləyir və fasilitator rolunu oynayır.

**Təlim**: müəyyən iş və ya məşğələni edə bilməniz üçün, məsələn, insan hüquqlarını müdaifə etmək, lazım olan bilik, bacarıq və yanaşmaları öyrənmə prosesi.

**Müqavilə**: (konvensiya və paktla sinonim kimi işlədilir); milli dövlətlər arasında onların qarşılıqlı öhdəlik və vəzifələrini müəyyən edən və dəyişdirən rəsmi razılaşma. Dövlət qəbul etdiyi müqaviləni ratifikasiya etdikdən sonra, həmin müqavilənin Maddələri dövlətin daxili hüquqi öhdəliklərinin tərkib hissəsinə çevrilir.

**BMT**: 1945-ci ildə İkinci Dünya Müharibəsindən sonra yaradılmış, beynəlxalq sülh və təhlükəsizliyi qoruyub saxlamaq, xalqlar arasında dostluq münasibətlərini inkişaf etdirmək, sosial inkişaf, daha yaxşı yaşayış şəraiti və insan hüquqlarını təmin etmək məqsədi daşıyan beynəlxalq hökumətlərarası təşkilat (BHT).

**YUNISEF**: (BMT-nin Uşaq Fondu); uşaqların əsas ehtiyaclarını təmin etmək və onların öz potensiallarını tam şəkildə həyata keçirmək imkanlarını genişləndirmək üçün uşaq hüquqlarını qorunması uğrunda çalışır. YUNISEF Uşaq Hüquqları Konvensiyasını əsas tutur və uşaqlarla bağlı bütün növ fəaliyyət üçün həmin konvensiyanı beynəlxalq vasitə kimi qəbul etdirməyə can atır.

**BMT Təhlükəsizlik Şurası (BMT TŞ):** BMT-nin əsas orqanlarından biri olmaqla, beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanması uğrunda çalışır. Onun 5 daimi üzvü (daimi üzvlərin hər biri Təhlükəsizlik Şurasının qərarına veto qoya bilər) və 10 qeyri-daimi üzvü var.

**Universallıq**: bütün insan hüquqlarının dünyanın bütün dövlətləri və cəmiyyətlərindəki insanlara mənsub olması prinsipi.

**Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (UDHR):** (Ümumdünya Bəyannaməsi); 10 dekabr, 1948-ci ildə baş assambleya tərəfindən qəbul olunub. İnsan hüquqları standartları və normalarını yaradan əsas BMT sənədidir. Bütün üzv dövlətlər ona əməl etməyə razılıq verib. Baxmayaraq ki, ilkin olaraq, bəyannamənin hüquqi qüvvəsi yox idi, zamanla, onun bəzi müddəaları geniş şəkildə qəbul olunub və demək olar ki, beynəlxalq adət hüququnun tərkib hissəsinə çevrilib.

**Gənclərin iştirakı:** iştiraka baxın.

**Müharibə cinayətləri:** daxili və beynəlxalq münaqişə zamanı törədilmiş, humanitar hüquq və ya silahlı münaqişə ilə əlaqədar digər hüququn ağır pozuntusunu ehtiva edən cinayətlər. 1899 və 1907-ci il Haaqa Konvensiyaları 1949-cu il Cenevrə Konvensiyaları ilə birgə müharibə, müharibə cinayətləri və müharibə qurbanları ilə humanitar rəftarı əhatə edən ilkin rəsmi beynəlxalq qanunlar arasında idi.

**Ümumdünya Səhiyyə Təşkilatı (WHO):** BMT himayəsi altında, dünya üzrə sağlamlığın təmin olunması üzrə çalışan hökumətlərarası təşkilatdır.

**Ksenofobiya**: xaricilərdən, digər ölkələrdən olan şəxslərdən, ümumilikdə, ölkəyə yad olan hər şeydən (rasional olmayan) qorxu. Ksenofobiya ayrı-seçkilik, irqçilik, zorakılıq, hətta xaricilərə qarşı silahlı münaqişəyə aparıb çıxara bilər.